Azərbaycan xalqı İkinci dünya müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir.

Tarix tarixdir və 1941-1945-ci illər müharibəsi Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir. Tarixdən heç bir şeyi silmək olmaz, onun hər bir mərhələsi xalqın salnaməsi, həyat yoludur.

HEYDƏR ƏLİYEV
ÜMUMMİLLİ LİDER

Ən dağıdıcı və qanlı müharibənin cəbhələrində, habelə arxa cəbhədə bizim xalqlarımız qəhrəmanlıq və mərdlik göstəriblər, bu da sonrakı nəsillər üçün nümunədir. Azərbaycan faşizm üzərində qələbəyə layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğul və qızı Böyük Vətən müharibəsinin cəbhələrində döyüşüblər. Onların yarısı öz canlarını bizim ümumi qələbəmiz naminə qurban verib.

İLHAM ƏLİYEV
AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

MAİS ƏMRAHOV

AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ
(1939-1945-ci illər)

BAKI – 2021

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

Elmi redaktor: **C.Bəhramov**
tarix üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **N.Məmmədov**
tarix elmlər doktoru, dosent
A.Piriyeva
tarix üzrə fəlsəfə doktoru, dosent

Mais Əmrahov. Azərbaycan SSR İkinci dünya müharibəsində (1939-1945-ci illər). "İdeal-Print" MMC, Bakı: 2021. – 970 s.

Monoqrafiya məzmun və strukturu baxımından müharibə tarixinə dair nəşr olunmuş əsərlərdən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Kitabda II Dünya müharibəsi ərəfəsində dünyanın siyasi mənzərəsinə nəzər salınır, 1939-1945-ci illər müharibəsində dünya xalqlarının faşizm əsarətindən azad edilməsində Azərbaycan SSR-nin rolu işıqlandırılır, Sovet İttifaqı Qəhrəmanları və "Şöhrət" ordeninin tam üç dərəcəsi ilə təltif olunan azərbaycanlılar haqqında biobiblioqrafik məlumatlar verilir. Monoqrafiyada müharibə dövründə yaranmış çətinliklərdən istifadə edən düşmən elementlərin Azərbaycanda antisovet əhval-ruhiyyəsi yayması arxiv sənədləri əsasında təhlil olunur.

Monoqrafiyadan orta ixtisas və ali məktəblərin müəllim və tələbələri, magistrlər, həmçinin II Dünya müharibəsi tarixinin tədqiqatçıları və elmi yaradıcılıqla məşğul olanlar faydalana bilərlər.

ISBN- 978-9952-8440-2-3

© AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, 2021

İXTİSARLAR

Azərbaycan dilində

Azərbaycan K(b)P MK	–	Azərbaycan Kommunist (bolşevik) Partiyasının Mərkəzi Komitəsi
Azərbaycan LKGİ	–	Azərbaycan Lenin Kommunist Gənclər İttifaqı
Azərbaycan SSR XKS	–	Azərbaycan SSR Xalq Komissarları Soveti
Azərbaycan SSR AİŞ	–	Azərbaycan SSR Ali İqtisad Şurası
ARPİİİSSA	–	Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi
ARDA	–	Azərbaycan Respublikası Dövlət Arxivi
AMEA TİEA	–	Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi
AKP	–	Almaniya Kommunist Partiyası
DMK	–	Dövlət Müdafiə Komitəsi
FKQO HHQ	–	Fəhlə Kəndli Qızıl Ordu Hərbi Hava Qüvvələri
SSRİ XKS	–	SSRİ Xalq Komissarları Soveti
SSRİ XXİK	–	SSRİ Xalq Xarici İşlər Komissarlığı
SSRİ MİK ASRH	–	SSRİ Mərkəzi İcraiyyə Komitəsi Ali Sovet Rəyasət Heyəti
SMR	–	Sevastopol Müdafiə Rayonu
QİYŞ	–	Qarşılıqlı İqtisadi Yardım Şurası
O**ADKYC**	–	Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti
ÜİK(b)P	–	Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası
ÜİLKGİ	–	Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqı

Rus dilində

ЭВАКОГОСПИТАЛЬ	–	Эвакуационный Госпиталь (Təxliyə hospitalı)
РГАЭ:	–	Российский Государственный Архив Экономики (Rusiya Dövlət İqtisadiyyat Arxivi)
ЦА ФСБ России	–	Центральный Архив Федеральной Служба Безопасности Российской Федерации (Rusiya Federasiyası Təhlükəsizlik Xidmətinin Mərkəzi Arxivi)
ЦГАРД	–	Центральный Государственный Архив Республики Дагестан (Dağıstan Respublikası Mərkəzi Dövlət Arxivi)
ЦАМО РФ	–	Центральный архив Министерства обороны Российской Федерации (Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi)

REDAKTORDAN

XX əsr bəşər tarixində ən dəhşətli qırğınlara səbəb olan II Dünya müharibəsində 61 dövlət və 1.700 milyon insan iştirak etmişdir. Müharibə 40 ölkənin ərazisində getmiş və 110 milyondan çox insan səfərbər olmuşdur. Bu müharibə 50 milyon insanın həyatına son qoymuş, 100 milyondan çox insan yaralanmış və ya şikəst qalmışdır. Sovetlər Birliyi bu müharibədə 29 milyon nəfər itki vermişdir.

İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Hitler Almaniyasının Polşaya hücumu ilə başladı, 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı. Avropada öz işğallarını həyata keçirən Hitler Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ üzərinə hücuma keçməsi ilə başlanan sovet-alman müharibəsi 1945-ci il mayın 9-da Hitler Almaniyasının məğlubiyyəti ilə nəticələndi. Sovet tarixşünaslığına bu müharibə Böyük Vətən müharibəsi, 9 may isə Faşizm üzərində Qələbə günü kimi düşmüşdür.

1941-1945-ci illər müharibəsində faşizm üzərində qazanılmış qələbədə nə Ali Baş Komandanın, nə sıravi döyüşçünün, nə də arxa cəbhədə çalışan hər bir kəsin rolunu azaltmadan qətiyyətlə deyə bilərik ki, qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqlardır. Bu xalqların içərisində Azərbaycan xalqı şərəfli yerlərdən birini tutur.

1941-1945-ci illər müharibəsi dövründə Azərbaycandan **698.237 nəfər kişi, 11 min 266 nəfər qadın** ordu sıralarına səfərbər olundu, 350 mindən artıq döyüşçüdən "**qara kağız**" alındı. Cəbhədə göstərdikləri cəsurluğa görə 200 mindən çox Azərbaycan döyüşçüsü orden və medallarla təltif olundu, 121 nəfər SSRİ dövlətinin ən ali hərbi mükafatına – Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 əsgər "Şöhrət" ordeninin üç dərəcəsinin tam kavaleri oldu, yüzlərlə Azərbaycan döyüşçüsü Fransa, İtaliya və digər dövlətlərin orden və medallarını aldılar. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "1941-1945-ci illər Azərbaycan xalqının tarixində görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələrindəndir. İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyə gedən yol olmuşdur. Azərbaycan yüksək inkişaf yolu ilə getdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu".

Bu gün Azərbaycan Respublikasında elə bir ailə tapılmaz ki, oradan ən azı bir nəfər İkinci dünya müharibəsində, onun ayrılmaz mərhələsi olan 1941-1945-ci illərin sovet-alman müharibəsində iştirak etməsin. Baba və nənələrimizin müharibə illərindəki vəziyyətə dair xatirələri hamımızın qəlbini kövrəltmiş, cəbhədən qayıtmış ata və babalarımızın döyüş hünərini dinlədikcə qürur hissi keçirmişik. 1941-1945-ci illərin sovet-alman müharibəsinin

sonu olan 1945-ci ilin qələbə yaylım atəşindən 75 ildən artıq zaman keçsə də, sayları yamanca azalmış veteranlarımızın şəxsində biz o çətin günləri daim xatırlayırıq.

Qələbədən uzun müddət keçməsinə baxmayaraq Azərbaycan SSR-in 1941-1945-ci illərdə müharibədə iştirakına dair yeni sənədlər işıq üzü görməkdədir. Sovetlər birliyi zamanında müharibə tarixinin araşdırılması sahəsində geniş tədqiqatlar aparılmasına baxmayaraq müttəfiq respublikaların, xüsusilə Azərbaycan SSR-in müharibədə iştirakına sovet ideologiyası konsepsiyasından yanaşılmış, azərbaycanlıların döyüş cəbhələrində fəaliyyəti, arxa cəbhədəki fədakar əməyi SSRİ-nin milli siyasəti çərçivəsi daxilində izah olunmuş, faşizm üzərində qələbədə Azərbaycan xalqının roluna qısqanclıqla yanaşılmışdır.

Danılmaz faktdır ki, müharibə illərində cəbhənin ərzaq məhsulları və silah-sursatla təminatı partiya, sovet və təsərrüfat orqanlarının, idarə və müəssisələrin gündəlik işinə çevrilmişdi, cəbhə ilə arxanın birliyinin təmin edilməsi, kütlələrin faşist işğalçıları ilə mübarizəyə səfərbər olunması diqqət mərkəzində saxlanılmışdı. Həyata keçirilmiş tədbirlər müsbət nəticəsini versə də, yaranmış müvəqqəti çətinliklər, müharibənin ilk iki ilində cəbhənin müxtəlif sahələrində sovet ordusunun uğursuzluqları antisovet təzahürlərin formalaşmasına zəmin yaratmış, mövcud durumdan yararlanmaq istəyən düşmən elementlər insanlar arasında antisovet əhval-ruhiyyəsi yaymağa cəhd etmişdilər. Antisovet əhval-ruhiyyəsini yayanların siyahısına vaxtilə düşmən zümrə elan edilən keçmiş qolçomaq övladları və onların yaxınları, repressiyaya məruz qalmış müxtəlif təbəqələrdən olanların ailə üzvləri və qohumları, yaranmış şəraitdən sui-istifadə edənlər, ayrı-ayrı müəssisə, təşkilat və təsərrüfat rəhbərləri, həmçinin partiya, sovet və təsərrüfat orqanlarının səriştəsiz işi nəticəsində narazı olan əhalinin kasıb təbəqəsi, əsgər ailələri və b. daxildir.

Arxiv sənədlərinin təhlili göstərir ki, əhalinin əsas hissəsi yüksək vətənpərvərlik nümunələri göstərir, qələbə naminə fədakarlıqla çalışırdılar. Bununla yanaşı, ÜİK(b)P və ÜİLKGİ üzvlüyündən azad olunanlar, neft sənayesi mühəndis-texniki işçiləri və fəhlələri, ali məktəblərin professor-müəllim heyəti və tələbələr arasında antisovet əhval-ruhiyyəsi yaranır, bəzi müəssisələrdə antisovet qruplar və dərnəklər formalaşırdı. Təbii ki, Azərbaycan SSR XDİK-nın müvafiq orqanları kolxoz, sovxoz, idarə, müəssisə və təşkilatlarda, ümumtəhsil, texniki peşə və orta ixtisas təhsili müəssisələrində baş verən hadisələri diqqətlə izləyir, antisovet fikirləri qeydə alaraq ümumiləşdirir, antisovet qrupların və təşkilatların fəaliyyəti haqqında Azərbaycan K(b)P MK-ya müntəzəm olaraq məlumatlar verirdilər.

Araşdırmalar göstərir ki, sənaye və kənd təsərrüfatı müəssisələrinə, təhsil ocaqlarına soxulmuş düşmən elementlər, xüsusilə ermənilər müharibənin ilk illərində (əsasən Stalinqrad altında sovet qoşunlarının qələbəsinədək olan dövrdə) cəbhədə yaranmış vəziyyətdən istifadə edərək antisovet fikir-

lərin yayılmasında fəallıq göstərirdilər. Sovet hakimiyyəti illərində hərbçi kadrların hazırlanmasında, orduya səfərbərlikdə, xüsusilə milli diviziyaların təşkili və şəxsi heyətinin tamamlanması üçün Mərkəzdən verilmiş tapşırıqların kor-koranə yerinə yetirilməsində buraxılmış nöqsanlar, düşmən elementlərin hərbi hissələrdə apardığı antisovet təşviqat ordu hissələrində fərariliyin artmasına zəmin yaratdı, döyüşçü əsgərlər antisovet təxribatlara uyaraq əsaslı səbəb olmadan ordu hissələrindən qaçıb quldur qruplarla birləşərək dinc əhalinin mal-qarasının oğurlanması ilə məşğul oldular. Sənayedə və kənd təsərrüfatında məsuliyyətsizlik, sosialist əmlakının oğurlanması da antisovet fikirlərin formalaşmasına zəmin yaratdı. Əhalinin müdafiə sənayesinə səfərbərliyi sahəsində yerli partiya və sovet təşkilatlarının, hərbi komissarlıqların yol verdiyi nöqsanlar ərizə və şikayətlərin artmasına səbəb oldu. Antisovet mülahizələrin güclənməsi, düşmən casuslarının təxribat törətmək cəhdləri müəssisələrdə və təhsil ocaqlarında antisovet təşkilatların və qrupların yaranması ilə nəticələndi.

Son 75 ildə Azərbaycanın 1941-1945-ci illər müharibəsində iştirakına həsr edilmiş kitablarda antisovet əhval-ruhiyyə, sovet hökumətinin daxili və xarici siyasətini tənqid edən və sovetlər birliyinin faşist Almaniyası ilə müharibədə məğlubiyyətinin qaçılmazlığını təbliğ edən təşkilatlar və qrupları haqqında kiçik istisnalar olmaqla demək olar ki, heç nə yazılmamışdır. Bunun səbəblərindən əsaslısı isə həmin materialların XDİK-da və Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsində saxlanılması və "tam məxfi" qrif altında arxivlərdə qorunması olmuşdur. Rusiya Federasiyası Müdafiə Nazirliyinin 8 may 2007-ci il tarixli, 181 №-li əmrinə müvafiq olaraq "1941-1945-ci illər Böyük Vətən müharibəsi dövründə Qırmızı Ordu və Hərbi Hava Donanmasının arxiv sənədlərinin açılması haqqında" qəbul edilmiş qanuna əsasən sənədlər üzərindən məxfilik qrifi götürülmüşdür.

Müharibə tarixşünaslığı ilə tanışlıq göstərir ki, istər müharibə dövründə, istərsə də müharibədən sonra azərbaycanlıların bu müharibədə iştirakı tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Xalqımızın sovet dövrü tarixinin ayrılmaz hissəsini təşkil edən II Dünya müharibəsi postsovet xalqları kimi, Azərbaycan xalqının da yaddaşında silinməz izlər buraxmışdır. Müharibədə Azərbaycan xalqı çox böyük itki vermiş, minlərlə Azərbaycan gənci yaralanmış və şikəst qalmışdır. Bu baxımdan istər ön cəbhədə vuruşmuş, istərsə də arxa cəbhədə çalışmış bütün insanlar böyük hörmətə layiqdirlər və onların döyüş yolunun və arxa cəbhədəki fədakar əməyinin araşdırılması yetişməkdə olan gənc nəslin vətənpərvərlik tərbiyəsində mühüm rol oynaya bilər.

II Dünya müharibəsində Azərbaycan SSR-in iştirakının və faşist Almaniyası üzərində qələbədə rolunun araşdırılması Azərbaycan Respublikasının tarixi üçün də əhəmiyyətlidir. SSRİ-nin süqutu ərəfəsində Ermənistanın Azərbaycana qarşı torpaq iddiaları ilə çıxış etməsi, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yenidən alovlanması, 30 ilə yaxın Azər-

baycanın tarixi torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalı altında qalması və 44 günlük müharibə nəticəsində işğaldan azad edilməsi keçmişə nəzər salınmasını bir daha aktuallaşdırır. Bu tarixin faktlar və sənədlər əsasında kompleks tədqiqi, insanların qəhrəmanlıq tarixinin gənc nəslə çatdırılması təcavüzkarlara və zorakılığa qarşı nifrəti artırar, Azərbaycan xalqının müstəqilliyinin möhkəmləndirilməsi yolunda ərazi bütövlüyünün bərpasına inamı qüvvətləndirər. Digər tərəfdən Azərbaycan SSR-in II Dünya müharibəsində faşizm üzərində qələbədə rolunun son dövrün arxiv sənədləri əsasında tədqiqi sovet dövrü tarixinin hakim kommunist partiyasının mərkəzdən göstərişlərinə, sovet ideoloji konsepsiyasına uyğun olaraq birtərəfli tədqiqatlarına tutarlı cavab olar. Bu baxımdan M.Əmrahovun "Azərbaycan SSR İkinci dünya müharibəsində (1939-1945-ci illər)" adlı monoqrafiyası Azərbaycan SSR-in müharibədə iştirakı tarixşünaslığındakı boşluğun doldurulmasına xidmət edir. Monoqrafiya müharibə illərində SSRİ-nin milli siyasətində anti-Azərbaycan mövqeyinin təsdiqinə tutarlı cavabdır.

Monoqrafiyanın hazırlanması prosesində arxiv materiallarından, sənədlər toplusundan, dövrü mətbuat materiallarından istifadə edilmiş, tədqiqat dövründə problemə aid yazılmış fundamental elmi-tədqiqat əsərləri, statistik külliyyatlar araşdırılaraq faktlar toplanmış, ümumiləşdirilmiş və müharibə illərində ön və arxa cəbhədəki işlərin mənzərəsi canlandırılmışdır.

Monoqrafiyada müharibə tarixşünaslığına, müharibə ərəfəsindəki vəziyyətə, ayrı-ayrı döyüşlərin gedişinə, Bakı nefti uğrunda Qərb dövlətlərinin strateji planlarına, sovet-alman cəbhəsində Bakı nefti uğrunda gedən mübarizəyə, Azərbaycan milli atıcı diviziyalarının döyüş yoluna, Azərbaycan ziyalılarının qələbədəki payına dair materiallar oxucular tərəfindən maraqla qarşılanacaqdır.

Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları və "Şöhrət" ordeninin tam üç dərəcəsini alanlar haqqında biobiblioqrafik məlumatlar oxucuların biliyinin zənginləşdirilməsinə yönəlmişdir. Monoqrafiyaya əlavə edilən sənədlər, cədvəllər, xəritələr və şəkillər tədqiqatın elmi sanbalına müsbət təsir göstərməklə yanaşı, problemin mənimsənilməsinə və hadisələrin gedişini izləməyə imkan verir.

Monoqrafiya geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Ondan ali məktəblərin müəllim və tələbələri, magistrlər, Əlavə təhsil fakültəsinin dinləyiciləri, orta ixtisas və tam orta ümumtəhsil məktəblərinin müəllim və tələbələri, həmçinin İkinci dünya müharibəsi tarixinin tədqiqatçıları və elmi yaradıcılıqla məşğul olanlar faydalana bilərlər.

C.Ə.Bəhramov
tarix üzrə fəlsəfə doktoru, dosent

I FƏSİL

II DÜNYA MÜHARİBƏSİ VƏ AZƏRBAYCAN SSR-in MÜHARİBƏDƏ İŞTİRAKI MÖVZUSU TARİXİ, HƏRBİ VƏ SİYASİ ARAŞDIRMALARDA

"Müharibə acı tər və qan… yolunu gözləyən və gəlib çıxmasından "hə" və "yox" xəbərini gətirən məktublar, sağ qalmaq üçün öldürmək, məhv olmuş dinc həyat, yaralanmış bioqrafiyalar, həyata keçirilməyən ümidlər, həyat yoldaşı olmayan gəlinlər deməkdir".[1] Müharibənin tarixi yurdundan-yuvasından didərgin salınmış millətlərin faciəli həyat tarixidir. Soykökünə "vətən xaini" damğası vurulmuş, Vətən həsrəti ilə qəriblikdə yaşayan və dünyasını dəyişən, nəşinin vətənində dəfninə icazə verilməyən minlərlə insanın nisgilli tarixidir. Bu müharibədə hamını vətənə məhəbbət, öz xalqına sadiqlik və düşmənə nifrət birləşdirirdi.[2]

Bəzən belə fikirlər səslənir ki, "İkinci dünya müharibəsi Azərbaycana nə verdi? Nə üçün vuruşurduq?". Müharibə veteranlarına ünvanlanan "Siz ruslar üçün vuruşmusunuz, sizin xalq qarşısında heç bir xidmətiniz olmamışdır" – kimi cəfəng fikirlərə münasibət bildirərək deməliyik ki, toplanan milyonlarla fakt göstərir ki, döyüşə girən hər bir azərbaycanlı gəncin bir amalı olmuş, bir fikir onu heç vaxt tərk etməmişdir: "Döyüşdə qorxaqlıq göstərsəm ailəm, kəndim, rayonumun əhalisi mənim haqqımda nə fikirləşər, içdiyim suyu, udduğum havanı mənə halal edərlərmi?". Ona görə də, hər bir döyüş əslində Azərbaycan xalqının şərəfi, ləyaqəti hesab olunmalı, Vətən təəssübkeşliyi, vətənə sədaqət deyəndə ilk növbədə Azərbaycan torpağına, doğma el-obaya olan məhəbbət düşünülməlidir. Ona görə də, bu tarix "Vətən uğrunda", "Stalin uğrunda" deyərək ölümə gedən, əslində faşizmə qarşı döyüşən Azərbaycan igidlərinin həyat salnaməsidir. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarına tabe olaraq gecə-gündüz işləyən, malını, pulunu, yorğanındakı yununu, hətta nişan üzüyünü cəbhəyə verən Azərbaycan qadınının tarixidir.

Tarixin siyasi səhnəsindən silinmiş Sovetlər İttifaqının rəhbərlərindən biri olmuş L.İ.Brejnev "Kiçik torpaq" kitabında yazırdı: "Müharibə qəhrəmanları haqqında daha çox yazın. Onların adlarını yad edin. Çünki qadınlar, uşaqlar, analar, bacılar öz ərlərinin, oğullarının, qardaşlarının, atalarının igidliyi haqqında heç olmazsa bir neçə söz oxumaq istəyir".[3] Bu mənada

---

[1] M.Abasov. Bütün müharibə boyu döyüş / M.Abasov. – Bakı, 1983. – s.77.

[2] Тюленов И. Битва за Кавказ // Военный вестник, 1974, №7, s. 19.

[3] Kərimov, S. Kiçik torpaq uğrunda döyüşlərdə / Sərraf Kərimov; on sözün müəl. və red S.Səlimov. – Bakı, 1982. – s.7.

İkinci dünya müharibəsində alman faşizmi üzərində qazanılmış qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqdır. Bu xalqların içərisində Azərbaycan xalqı şərəfli yerlərdən birini tutur.

Müharibə tarixinə dair Qərbi Avropa ölkələrində yeni nəşrlər işıq üzü görmüşdür. Bu nəşrlərin təhlili göstərir ki, müttəfiqlər SSRİ-nin tezliklə çökəcəyini güman edirdilər. ABŞ-ın Hərbi naziri Henri Stimson 1941-ci ilin iyul ayında F.Ruzveltə göndərdiyi məktubda yazırdı ki, ...Almaniya Rusiyanın darmadağın edilməsi məsələsi ilə minimum bir ay, yaxud maksimum üç ay müddətində əsaslı şəkildə məşğul olacaqdır. Corc Marşall da SSRİ-nin üç ay ərzində çökəcəyinə əmin idi.

Amerika tarixçiləri ABŞ-ın II Dünya müharibəsində iştirakını üç mərhələyə ayırırlar: bitərəflik (1939-1941-ci illər); qüvvələrin səfərbər edilməsi və müdafiənin təşkili (1941-1942-ci illər), nəhayət, hücum əməliyyatları (1942-ci ilin sonundan 1945-ci ilin avqust ayınadək). Amerikalıların Normandiyaya desant çıxarması sonuncu mərhələnin ən yüksək zirvəsini təşkil edir. Harrison Normandiyada həyata keçirilən əməliyyatı Almaniyanın darmadağın edilməsində həlledici məqam kimi təsvir edir: "Bu, sadəcə olaraq hücum deyildi. Bu, Qərb müttəfiqlərinin Avropada ən yüksək nailiyyəti, Almaniyanın mühasirəyə alınması üzrə nəhəng planın başa çatdırılması – Hitler Reyxinin düz ürəyinə vurulan zərbə idi".[1]

İkinci dünya müharibəsi tarixinə ABŞ tarixçiləri, sosioloq və filosofları, həmçinin hərb xadimləri toxunmuşlar. H.Xoll, H.Uinston, U.Patrison, U.Foster və başqalarının əsərlərində müharibə tarixinin müxtəlif problemləri işıqlandırılıb. Amerika xalqının tarixinə dair H.Antekerin 12 cildlik araşdırmaları da xüsusi maraq doğurur.

İkinci dünya müharibəsi tarixinin tədqiqatçılarından ABŞ müdafiə nazirliyində müxtəlif vəzifələrdə çalışmış U.Qreyven, C.Keyt, S.Morrison, K.Qrinfild, S.Qlison, H.Feys, V.Makneyl, G.Zimke və başqaları arxiv materialları əsasında hadisələrə açıq mühafizəkar mövqedən yanaşmışlar. Müharibə başa çatdıqdan sonra bir qrup tarixçilər – Ç.Bird, U.Çemberlen, A.Baris, Ç.Tenzil, F.Vittmor, D.Kroker, D.Qreyberq və başqaları "mühafizəkarları tənqid etməklə" məşğul olsalar da, onlar rəsmi konsepsiyadan uzaqlaşa bilməmişlər.[2] ABŞ alimləri içərisində Entoni Sattrun əsərləri isə öz orijinallığı ilə diqqəti cəlb edir. Müharibədən xeyli sonra – XX əsrin 60-cı illərində ABŞ-ın yeni tarixçilər nəslindən olan T.Xiqqins və R.Lekinin kitabları keçmiş hərb tarixçilərinin əsərlərindən fərqlənsə də, bu kitablarda hadisələrə liberal münasibət, problemlərin meydana gəlməsi və həllinə mülayim yanaşma üstünlük təşkil edir.

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016 . – s.31.

[2] Большая ложь о войне. Москва, 1971. – с.10.

ABŞ tarixçilərinin əsərləri və onlara dair rəylərlə tanışlıq deməyə əsas verir ki, bu əsərlərin əksəriyyətində müharibənin səbəblərinin və xarakterinin gizlədilməsinə cəhd edilir, faşizm üzərində SSRİ-nin xidmətləri heçə endirilir, qələbənin "arsenalı" ABŞ hesab olunur və müharibə haqqında xalq kütlələrinin fikrinin əsas məsələlərdən yayındırılmasına cəhd göstərilir. Diqqəti çəkən məsələlərdən biri də, müharibə başlayandan Hitlerin SSRİ-yə hücumundan az keçmiş Moskva yaxınlığında döyüşlərin qızğın vaxtında jurnal naşirlərinin toplaşaraq Sovetlər birliyinə münasibətin kursunun müəyyənləşdirilməsidir. Jurnal rəhbərləri yekdil fikrə gəlirlər ki, anti-Hitler məsələlərinə həsr edilmiş məqalələr "çoxluq təşkil edir". Qərara alınır ki, Sovet İttifaqı haqqında materiallara və mətbuatda nasizm haqqında gedən məqalələrə üstünlük verilməlidir. Bundan sonra baş redaktorun göstərişi ilə jurnallarda Rusiyaya yalnız tibbi ləvazimatlarla kömək haqqında məqalələr verilir. Heç bir hərbi, siyasi, iqtisadi və mənəvi kömək barədə materiallara rast gəlmirik.

1941-ci ilin dekabrından sonra ABŞ-ın Sakit Okeanda müharibəyə qoşulması ilə vəziyyət kəskin surətdə dəyişir, ABŞ hərbi qüvvələrinin Sovet İttifaqına köməyinə ölkənin anti-Hitler koalisiyası tərəfindən döyüşməsinə sovet ordusuna dair məqalələrə rast gəlinmir. ABŞ hökuməti tarixçiləri səfərbər edərək ayrı-ayrı aparıcı təşkilat və müəssisələrdə xüsusi şöbələr yaradılır və müharibə tarixinin işlənilməsinə başlanılır. 1941-ci ildə tarixçi A.Şlazinqer dövlət agentliklərində arxiv materiallarının toplanması üçün qruplar yaradılmasını irəli sürür. 1942-ci ildə mövcud olan qrupların genişləndirilməsinə, hərbi nazirlikdə və hərbi-dəniz donanması departamentində yeni tarix orqanlarının yaradılmasına başlanılır. S.Morison Franklin Ruzveltdən hərbi-dəniz əməliyyatlarının yazılması barədə şəxsi tapşırıq alır. Hərbi tədris müəssisələrində hərb tarixinə dair proqram genişləndirilir. 1941-ci ilin sonunda ABŞ Prezidentinin göstərişi ilə böyük tarixçilər qrupu materialların toplanması və ümumiləşdirilməsi ilə məşğul olmağa başlayırlar. 1943-cü ildə ABŞ-ın Sosial Tədqiqatlar Tarixçiləri Assosiasiyasının təşəbbüsü ilə müharibənin öyrənilməsi üçün xüsusi komitə yaradılır və komitə hərb tarixi üzrə materialları toplayır.

Müharibə başa çatdıqdan sonra müharibə tarixinə yanaşma dəyişir, yeni istiqamətlər və tendensiyalar yaranır. "Soyuq müharibə"nin başlanması ilə yeni ideoloji təşəbbüslər üstünlük təşkil edir. Sovet İttifaqı Amerika Birləşmiş Ştatlarının 1№-li düşməni kimi qələmə verilir. Bu xətt H.Trümenin, general H.Arnoldun və rəsmi dövlət nümayəndələrinin əsərlərində üstünlük təşkil edir.[1]

---

[1] H.Truman. The Memoris. Vol.1. New York, 1955, p.87; H.Arnold. Global Mission. New York, 1949, p.586.

ABŞ hərb tarixşünaslığında antikommunizm problemi mühüm yerlərdən birini tutur. Bu baxımdan 1948-ci ildə «Советско-германские отношения 1939-1945 годах» toplusu sovet tarixçilərini qane etməsə də, SSRİnin xarici siyasətinin parametrlərini müəyyənləşdirməkdə əhəmiyyətli rola malikdir.[1] 1950-ci ilin dekabrında ABŞ Prezidentinin "…Amerika tarixçilərinin əsərləri kommunizmlə mübarizədə böyük əhəmiyyətə malik…"[2] olması haqqında Sosial Tədqiqatlar Tarixçiləri Assosiasiyasına göndərdiyi məktubdan sonra ABŞ-ın məşhur diplomatları və generalları – A.Banberq, D.Forrestol, D.Biris, K.Hell, G.Stettinius, H.Stimson, H.İkes, D.Eyzenhauer, O.Bredli, H.Arnold, M.Klark, D.Din, D.Patton və digərləri öz xatirələrini və hərbi gündəliklərini hazırladılar. ABŞ-ın Harvard, Kolumbiya, Kaliforniya, Çikaqo və digər universitetlərində Rusiya tədqiqatları mərkəzi, rus institutu kimi tədqiqat mərkəzləri fəaliyyətə başladı. «Американское историческое обозрение», «Журнал американской истории», «Журнал новой истории», «Современная история» jurnalları hərbi-tarixi mövzuda materiallar dərc etməyə başladı.

İkinci dünya müharibəsi tarixinə dair nəşrlər içərisində ABŞ Müdafiə Nazirliyi xətti ilə işıq üzü görmüş kitablar material zənginliyi, problemə hərtərəfli münasibət baxımından fərqlənir. 7 cildlik «Армейская авиация во второй мировой войны» (Под. редакцией У.Грейвена и Дж. Кейта)[3] və 13 cildlik «История морских операциях США во второй мировой войне» (Под. редакцией С.Моринсона)[4] kitabları nəşr olunduqdan sonra «Армия США во второй войне» (Под. редакцией К.Гринфильда)[5] seriyasından çoxcildlik nəşrlər başa çatır. Bu seriyanın 80 cildi açıq məqalədən, 28 cildi "Xidməti istifadə" seriyasından və 5 cild yazılma və hərb tarixini öyrənilməsi təlimatından ibarətdir.

General C.Makarturun iki cilddə sistemləşdirilmiş məruzələri də maraq doğurur.[6]

ABŞ-ın İkinci dünya müharibəsi tarixşünaslığında amerikan qoşunlarının Avropada ayrı-ayrı döyüşlərdə iştirakı tarixi diqqəti cəlb edir. Bunlara rus dilinə tərcümə olunmuş M.Byülmensonun («Борьба за Францию в 1944 году»), Ç.Minottanın («Крепность, которой никогда не было»), Ç.Makdonaldın («Кампания на линии Зигфрида»), Q.Koulun («Арденны»), S.Rayanın («Последняя битва») əsərlərini göstərmək olar.

---

[1] Nazi-Soviet Relation 1939-1945. Washington, 1948.

[2] American Historical Review. April, 1951. – pp.711-712.

[3] W.Graven and J. Cate. The Army Air Force in the World War II.Vol.1-7. Chicogo, 1948-1958.

[4] S.Morinson. History of the United States Naval Operation in World War II.

[5] United States Army in World War II. Edöby R. Gireenfield. Vol.1-80. Washington, 1947-1970.

[6] D.MacArthur. Reports f General MasArtur. Vol.1-2. Washington, 1966-1967.

Bioqrafik xarakterli materiallar müharibə tarixində önəmli yerlərdən birini tutur. Keçən əsrin 60-70-ci illərində ABŞ-da U.Nyumenin («После победы. Черчилль, Рузвельт, Сталин и борьба за мир»), R.Riderin («Дуайт Эйзенхауэр»), R.Ferrelin («Джордж Маршалл») və başqalarının işıq üzü görən nəşrlərində müharibənin ayrı-ayrı əməliyyatlarının gedişi haqqında məlumatlar toplanmışdır. Beləliklə, nəticə kimi deyə bilərik ki, ABŞ-ın İkinci dünya müharibəsi tarixşünaslığı bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Birincisi, bu əsərlərdə istər əvvəllər, istərsə də sonralar üzə çıxarılan arxiv materiallarına geniş tarixi aspektdən yanaşılır; ikincisi, ayrı-ayrı əməliyyatların işıqlandırılmasında ən xırda detallara diqqət yetirilir; nəhayət, əvvəlki nəşrlərdə saxtalaşdırılmış məsələlər yeni formatda təqdim olunur.

Böyük Britaniyanın Baş Qərargahı SSRİ-nin bir dövlət kimi mövcudluğunun 6 ay sürəcəyinə ümid bəsləyirdi.

Böyük Britaniya tarixşünaslığında üç axının şahidi oluruq. Birinci qrup tarixçilərin sırasında L.Brod, A.Klark, C.Fuller, R.Tompson, L.Kuper, T.Pritti və başqaları dayanır. Onların əsərlərində açıq antisovet və antixalq istiqaməti əsas yer tutur.

İkinci qrup tarixçilərə C.Battler, C.Quayer, C.Erman, L.Gllis, B. Liddel Qart, D.Vudvard, D.Skott-Daniel, D.Laffin, M.Fut və başqalarını göstərmək olar. Qeyd olunan tarixçilər qrupu hadisələri, Vermaxt üzərində qələbəni obyektiv əsaslandırmağa səy göstərsələr də, müharibənin səbəbləri, xarakteri, mühüm hərbi əməliyyatlar, anti-Hitler koalisiyası və s. məsələlərdə Böyük Britaniyanın sağ dairələrinin siyasətinə haqq qazandırmağa cəhd edirlər.

Üçüncü qrup tarixçilərdən A.Teylor, F.Kuk, P.Yanq, Ya.Qrey, Y.Kimçe və başqaları öz işlərində qazanılmış qələbənin mahiyyətini açıqlamağı qarşılarına məqsəd qoymadığından daha çox sənədli materialları verməklə kifayətlənmişlər.

Böyük Britaniya tarixşünaslığı ilə tanışlıq göstərir ki, tarixçilər ümumilikdə Çemberlen hökumətinin siyasətini bəyənir, ancaq ayrı-ayrı sahələrdə onu tənqid edir, günahı ayrı-ayrı dövlət xadimlərinin və ya SSRİ-nin üzərinə yıxmağa cəhd edirlər. C.Selbi "İkinci dünya müharibəsi" kitabında bütün günahları Hitlerin üzərinə atır. U.Leki C.Selbidən irəli gedərək iddia edir ki, müharibəni Almaniya və SSRİ hazırlamışdır.[1] C.Vulf yazır ki, "əgər Hitler müharibəni udsa, o xalqları özünün quluna və əlaltısına çevirəcəkdir".[2]

İkinci dünya müharibəsinin Fransa tarixşünaslığı da maraqlıdır. Ölkədə aparıcı yeri M.Bomon, A.Mişel, Ş.de Kosse Brissak və başqalarının təmsil etdiyi mötədil istiqamət təşkil edir. Bu tarixçilər rəsmi vəzifələr tutduqlarından rəsmi tarixşünaslığı təmsil edirlər. Fransanın açıq reaksioner tarixçilə-

---

[1] J.M.Selby. The Secod World War. Lndon, 1967. – pp.8-10.
[2] S.Woolf. Europan Fascism. London, 1968. – p.87.

rindən olan R.Aron, J.Mordal və başqaları açıq antisovet və antikommunist çıxışlar edərək faşist Almaniyasının darmadağın edilməsində SSRİ-nin rolunun azaldılmasına səy göstərirlər.

Fransa tarixşünaslığının özünəməxsus xüsusiyyətləri, ABŞ və Böyük Britaniya tarixşünaslığından fərqli cəhətləri vardır. Birincisi, Fransa tarixşünaslığında araşdırma obyekti tam müəyyənləşdirilməmişdir. İkincisi, Fransa müəyyən dövrdə müharibədə iştirak etmədiyindən tədqiqatçılar üçün lazım olan mənbələr azlıq təşkil edir. Üçüncüsü, fransız tarixçiləri dil problemi ilə əlaqədar uzun müddət sovet tarixçilərinin əsərləri ilə tanış olmadıqlarından ideoloji kursu tam müəyyənləşməmişlər.

Fransa tarixşünaslığında müharibə dövrünün tədqiqində dövlət və hərb xadimlərinin memuarları xüsusi yer tutur. Doğrudur, onların böyük əksəriyyəti subyektiv xarakter daşıyır, lakin onların bəzilərində qiymətli məlumatlar vardır və bu hadisələrə qiymət verməkdə əhəmiyyətli rola malikdir.

Fransa tarixşünaslığında hadisələr totalitar rejimlə əlaqələndirilir, siyasətçilərin uzağı görməməsi, diktatorların böyük səlahiyyət sahibi olması qabardılır. Fransa tarixçiləri müharibənin günahkarları kimi SSRİ və Almaniyanı hədəf seçməklə F.Ruzveltin İ.Stalini dəstəkləməsini səhv hesab edirlər. Adre Morya yazır ki, 1939-cu ildə Almaniya ilə SSRİ arasında hücum etməmək haqqında müqavilə müharibəyə diplomatik hazırlıq idi.[1]

Fransız tarixşünaslığında Fransanın məğlubiyyəti, qüvvələrin düzgün yerləşdirilməməsi, məğlubiyyətdə günahkarlar, müqavimət hərəkatı və s. məsələlər yer almışdır.

Ümumilikdə Qərb nəşrlərində müharibənin baş vermə səbəbləri sovet tarixşünaslığından fərqli təqdim olunur. Amerika tarixçiləri V.Rut, C.Tolend, F.Şabu, L.Fişer və E.Faldell, Almaniya tarixçiləri M.Froynd, Fest, D.İrvinq bütün günahları A.Hitlerin, B.Mussolinin və başqa dövlət xadimlərinin üzərinə yıxmağa cəhd göstərirlər.

Qərb ölkələrinin elmi nəşrlərində müharibənin başlanmasına münasibət birmənalı deyildir. Məğlublar arasında bu mövzuya əl atanlardan biri Hitler Almaniyasının keçmiş baş qərargah rəisi F.Qalderdir. Onun "Hitlerin sərkərdəliyi" adlı kitabında keçmişdə baş vermiş hadisələrə "məhz Almaniyanın Şərqdən təhlükəyə məruz qalması" barəsində uydurmalara haqq qazandırmağa cəhd göstərilir. Qərbi Almaniya tarixçisi Q.Serafimin iddiasına görə, Almaniya üçün "Sovet İttifaqı tərəfindən təhlükə var imiş". AFR, ABŞ, Böyük Britaniyanın və 1949-cu ildə NATO-ya daxil olmuş digər ölkələrin tarixçiləri sonralar bu uydurmalardan istifadə etməyə cəhd edirlər. "Şərqdən təhlükə" tezisi sonralar Qərb dövlətlərinin siyasətində yenidən önəmli yer almağa başlayır. Amerika tarixçisi D.Hokkenin, Qərbi Almaniya tarixçisi A.Hillerbuerin, A.Rossi, Q.Dams, Q.Xoldak və başqalarının əsərlərində bu

[1] Marois A. Historire de Lllemagne. Paris, Hashette, 1965. – p. 276.

təbliğat açıq şəkildə əks olunur. Müasir Almaniya müəlliflərindən Q.Brenneke, Q.Xartle, N.Şal-Rikur, E.Xeldmax, U.Valendi və başqaları da "qabaqlama müharibəsi" haqqında tezisə əsaslanırlar.

Alman-faşist ordularının keçmiş kəşfiyyat rəisi Xelmdax "Hücum. 1941-ci ildə sovet alman qoşunlarının sərhəddə cəmləşməsi" və "İllüziyalar və nöqsan. 1939-1941-ci illər müharibəsinin baş verməsi" adlı kitablarında faşist Almaniyasına haqq qazandırmağa cəhd göstərir. Xilqruber "İkinci dünya müharibəsi. Böyük dövlətlərin hərbi məqsəd və strategiyaları" kitabında göstərir ki, Almaniyanın Sovet dövlətinə hücumu sovetlərin təcavüzünün aradan qaldırılmasına xidmət edirdi.

Amerikalı Yakobsen, D.Xoqqanın AFR-də nəşr edilmiş "Məcbur olunmuş müharibə. İkinci dünya müharibəsinin səbəbləri və günahkarları" və onun ardınca V.Qlazebok, Q.Müller, Y.Valendi və başqalarının əsərlərində "İkinci dünya müharibəsinin başlanmasında yalnız Almaniya günahkar idimi?", "Həqiqət Almaniyanın tərəfindədir. İkinci dünya müharibəsinin günahkarları haqqında məsələ" və s. kimi məsələlərin üzərinə işıq salmağa səy göstərirlər.

60-cı illərin sonuna yaxın ABŞ-da SSRİ əleyhinə alman təcavüzünün "qabaqlama xarakteri" haqqında nasist təbliğatı geniş yayılmağa başlayır. Təbliğatın baş ideoloqları Amerika tarixçiləri Q.Rait, L.Fişer, S.Possoni, M.Dyupi, M.Makkoloski və başqaları idi.

Xaricdə nəşr edilmiş əsərlərdə faşizmin darmadağın edilməsində SSRİ-nin rolunun azaldılması, bəzi hallarda isə tamamilə inkar edilməsi ilə qarşılaşırıq. Bu planda ABŞ-da buraxılmış "Amerika Ensiklopediyası", İngiltərədə C.Oster, AFR-da F. Fabri, Q. Lorberin əsərləri xarakterikdir.

İfrat sağ mühafizəkar tarixçilər olan İ.Fest, P.Kryuqer, İ.Bruqqell, F.Fabri, K.Frans-Billinq, L.Lefor, N.Riç, R.Kartye, M.Qarde və başqaları Rusiyanın Şərqdə təhlükə mənbəyi olduğunu təsdiq edirlər.

İkinci dünya müharibəsinin 1939-1941-ci illəri əhatə edən birinci mərhələsi Avropa üçün məhəlli xarakter daşıyır, hərbi əməliyyatlar Almaniya ilə ingilis-fransız müttəfiqləri arasında gedirdi. Həmin mərhələdə Sovet İttifaqının Qərb sərhədləri boyunca genişlənmə siyasəti Fin körfəzindən tutmuş Qara dənizə qədər geniş bir coğrafiyanı əhatə edirdi. Sovet planlarına görə faşizmlə əməkdaşlıq şəraitində Moskvanın genişlənmə siyasəti Türkiyəni də əhatə etməli idi, lakin 1939-cu ilin oktyabrında Ankaranın ingilis-fransızlarla imzaladığı qarşılıqlı yardım müqaviləsi Stalinin "**türkləri Avropadan qovmaq**" niyyətlərini puça çıxardı.

Qərb müəllifləri fikirlərini əsaslandırmağa cəhd edirlər. İngilis tarixçiləri B.Liddel, Qart və C.Brikson əsərlərində "qabaqlama müharibəsi" haqqında tezisi rədd edirlər. Amerika tarixçisi Q.Şyons "Yeni dövr alman ruhani tarixi" kitabında göstərir ki, Rusiya hücuma hazırlaşmırdı, 1941-ci ilin ya-

zında rus qoşunlarının yerinin dəyişməsi alman-Şərq sərhədlərində ciddi təhlükə törətmirdi.

Qeyd edilən fikirləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, qərb ideoloqları sürətlə silahlanmaya bəraət qazandırmağa cəhd göstərirlər.

Qərb tarixçilərinin sovet-alman müharibəsi dövründə baş vermiş həlledici döyüşlərə, Almaniya üzərində qələbəyə münasibəti birmənalı deyildir. ABŞ-ın hərb tarixçisi Dyupui, ABŞ ordusunun keçmiş xidmət rəisi, general X.Pattison müharibədəki qələbədə ABŞ və İngiltərənin əsas və başlıca rol oynadığını qeyd edirlər. Bu sahədə, xüsusilə 70-80-ci illərdə amerikalı jurnalistlər tərəfindən hazırlanmış "Rus cəbhəsi, Almaniyanın Şərqdə müharibəsi. 1941-1945", Q.Solsberin "Naməlum müharibə", ingilis tarixçisi J.Lukasın "Şərq cəbhəsində müharibə. 1941-1945-ci illər. Alman əsgəri Rusiyada", amerikalı N.Betellanın "Rusiya mühasirədə", keçmiş AFR-də 1981-ci ildə eyni vaxtda M.Berç, X.B.Şebet və R.Şenpelmanın "Şərqdə müharibə. 1941-1945. Tarixə giriş, şərhlər və sənədlər" və M.Ayk Xoff, V.Paqels, B.Reşikin "Unudulmayan müharibə. Hitler Almaniyası Sovet İttifaqı əleyhinə 1941-1945" kitablarını və başqa əsərləri göstərmək olar.

1982-ci ildə ABŞ-da T.Dyupui və P.Martellanın "Şərq cəbhəsində böyük döyüşlər. Sovet-alman müharibəsi (1941-1945)" adlı kitabı nəşr olunmuşdur. Müəlliflərin fikrincə Sovet ordusu 16 böyük döyüş keçirmişdir: 1. 1941-ci ilin yay kampaniyası; 2. Moskvanın müdafiəsi; 3. Moskva altında əks-hücum; 4. Stalinqrad altında əks-hücum; 5. Kursk döyüşü; 6. Kursk altında əks-hücum; 7. Dnepr uğrunda vuruşma; 8. Melitopol əməliyyatı; 9. Korsun-Şevçenko əməliyyatı; 10. Krım əməliyyatı; 11. Belarusiyada hücum; 12. Yassı-Kişinyov əməliyyatı; 13. Şərqi Prussiyada döyüş; 14. Visla-Oder hücumu; 15. Berlin uğrunda döyüş; 16. Mancuriyada döyüş.

Moskva döyüşləri ayrı-ayrı tədqiqatçıların araşdırma mövzusu olmuşdur. Amerika tarixçisi X.Bolduin, Qərbi Almaniya tarixçisi K.Reynqart Moskva döyüşlərindən bəhs edərkən sovet qoşunlarının sayının çox olduğunu göstərir, alman-faşist qoşunlarının Moskva altında məğlubiyyət səbəblərini 1) **Hitlerin siyasi və hərbi səhvlərində, 2) əlverişli olmayan iqlim və SSRİ ərazisinin genişliyində, 3) müttəfiqlərin Sovet İttifaqına yardımında** axtarırlar. Sovet ordusunun hərbi ustalığı, qəhrəmanlığı, sovet xalqlarının fədakarlığı Amerika tarixçilərin diqqətindən "kənarda qalmışdır".

ABŞ tarixçisi S.Xiqqins məğlubiyyətin xarici səbəblərindən bəhs edərək İngiltərə və ABŞ-ın Hitleri Qərbi və Cənubi Avropada 60 diviziya saxlamağa məcbur etməsindən, Sovet İttifaqına maddi yardımından, Hitlerin generalların sözünü dinləmədiyindən yazır. Daxili səbəblərdən bəhs edən müəllif Xiqqins 500 min gənc oğlan və qızın Moskva hüdudlarında müdafiə mövqelərinin yaradılmasında iştirakını vətənpərvərlik kimi önə çəkir və bu

səbəblərdən də nasistlərə Moskva meydanlarında addımlamağa imkan verilmədiyini qeyd edirdi.[1]

Moskva döyüşlərindən bəhs edən G.Zimke "Stalinqraddan Berlinədək" kitabında Moskva altındakı məğlubiyyətin alman ordusunu kökündən sarsıtdığını[2] yazır.

Moskva döyüşləri haqqında Qərb tarixşünaslığında geniş yayılmış tezislərdə **məğlubiyyətdə şəxsən Hitlerin günahkar olması göstərilmişdir**. Əslində bu tezisi özlərinə bəraət qazandırmaq üçün bir vaxtlar Hitlerlə bir yerdə olan, döyüş əməliyyatlarının hazırlanmasında şəxsən iştirak edən generallar irəli sürmüşlər. Sonralar bu tezisdən qərb tarixçiləri istifadə etdilər. A.Merni bu barədə belə yazır: "Sovet İttifaqına hücum və onu məhv etmək planını qəbul edən Hitler bu planın həyata keçirilməsində bir-birinin ardınca ciddi səhvlər buraxırdı". A.Merni Hitlerin əsas səhvini Moskvaya hücumu dayandıraraq alman ordularını Ukraynaya yönəltməkdə, T.Dyupui də onu təkrar edərək "1941-ci ilin yayında bütün qüvvələri Moskvaya hücum üçün cəmləşdirməkdən imtina etməkdə görürdü".

Bir qrup tarixçilər Moskva altında məğlubiyyəti Hitlerin siyasi və hərbi səhvlərində görsələr də, Vermaxtda məğlubiyyəti "**rus iqliminin kəskin təsiri**" ilə əlaqələndirirlər. A.Merni bildirir ki, "**alman qoşunları təbiətin fəlakətlərinin öhdəsindən gələ bilmədilər**". L.Kuper "**yollardakı keçilməz palçığın alman-faşist qoşunlarının irəliləməsinə mane olduğunu**" iddia edir. Alman generalı Butlar iddia edir ki, "**Alman tank qüvvələrinin hədəfi lap yaxında ikən onların sürətli hücumunu rus ordusu dayandırmadı, hava allahının özü dayandırdı**".[3] Bir sözlə, məğlubiyyət qərb məddahlarını yeni-yeni yalanlar uydurmağa yol açmışdı.

Stalinqrad döyüşü haqqında Qərb tarixşünaslığında çox sayda kitab və məqalə yazılmış və indi də yazılmaqda davam edir. Maraq kəsb edən nəşrlərdən biri, ABŞ tarixçisi E.Bivorun əsəridir.[4] Rusiya Federasiyası və ABŞ arxivlərinin materiallarından, müharibə dövrü cəbhəçilərinin məktublarından, sovet və alman əsgər və zabitlərinin dindirilmə protokollarından, veteranlarla söhbətdən istifadə edən müəllif nəinki döyüş əməliyyatlarını, həmçinin cəbhə məiş ətini göstərə bilmişdir.

Keçmiş sosialist ölkələri bu problemin işlənməsində fəal iştirak etmişlər. Antifaşist yazıçı G.Baynert, VI Ordunun qərargah komandiri O.Kopfes, 24-cü tank diviziyasının keçmiş komandanı A.fon Lenski, 6-cı ordunun 376-cı piyada diviziyasının alay komandiri L.Şteyl və başqaları hitlerçi orduların Stalinqrad döyüşlərindəki şərəfsiz sonluqlarından bəhs edirlər.

---

[1] Trumbull Higgins: Hitler and Russia, The Third Reich in a two Front War 1937-1943. New York, MacMillan, London, Collier-Mac Millan, 1966, p.177.

[2] Ziemke, Earl F. Stalingrad to Berlin. 1968, p.13.

[3] Мировая война 1939-1945 гг. Москва, 1957. – s.179.

[4] Бивор Э. Сталинград (пер. с анг.). Смоленск, 1999.

Volqa döyüşlərinin iştirakçısı olan Q.Derr, Qalder, Qeplian, Şeyberx, Şpreter, Prams, Tonke, Vaazen, Vider, Qeyma və Filippin keçmiş Qərbi Almaniyada nəşr olunan kitablarında, Yakobson və Qotanın məqalələrində Stalinqrad döyüşlərinə geniş yer verilir.[1]

Bütün bunlarla yanaşı, keçmiş ADR, Polşa, Macarıstan və digər ölkələrdə dərc olunan əsərlərdə tarixi döyüşün əhəmiyyətinə dair əsaslandırılmış fikirlərə rast gəlinir. Məsələn, alman İoaxim Viderin "Stalinqrad", ingilis jurnalisti Aleksandr Vertin «Россия в войне 1941-1945» ("Rusiya 1941-1945-ci illər müharibəsində") kitablarında, fransız polkovniki Ernest Lederin «Сталинград – не комедия» ("Stalinqrad komediya deyil") məqaləsində hadisələrə tənqidi yanaşılır, sovet qoşunlarının qələbəsi faktlarla təsdiq edilir.[2]

İkinci dünya müharibəsinə dair son 20 ildə çap olunan ədəbiyyatda **ikinci cəbhənin** açılmasına münasibət birmənalı deyildir. Sovet İttifaqının Almaniya üzərindəki qələbəsini ikinci cəbhənin açılması ilə bağlayan Amerika alimləri və ideoloqları hesab edirlər ki, ikinci cəbhənin açılması müharibənin taleyini həll etmişdir. Ancaq məlumdur ki, müttəfiqlər ikinci cəbhənin açılmasına müqavimət göstərirdilər. Sovetlərin qələbəsinin reallaşdığını görən müttəfiqlər 1944-cü ilin iyununda ikinci cəbhəni açmağa məcbur oldular. Müttəfiqlər, o cümlədən Ruzvelt başa düşürdü ki, onlar ingilis-amerikan qoşunlarını Fransaya çıxarmasalar, Qərbi Avropa sovet ordusu tərəfindən azad olunacaqdır.[3]

Müttəfiqlərin müharibə tarixinə dair sənədləri, xüsusilə dövlət başçıları arasında aparılan yazışmalar göstərir ki, II cəbhənin açılmasının ləngiməsində başlıca məqsəd müttəfiqlərin bir-birinə etibar etməməsi olmuşdur. Böyük Britaniya və ABŞ rusların daha çox itki verməsini gözləyir, ruslar isə qələbəyə olan ortaqları neytrallaşdırmaq istəyirdilər. Bu səbəbdən də, əməliyyatların gedişində rusların düşmənin 185 diviziyasını təqib etməsinə

---

[1] Halder F. Hitler als Feldher Münshen, 1949; Gorlits W. Derzweite Weltkreieg. 1939–1945. Shtuttqart, 1952. Bd.1; İdeen, Die Schtacht um Stalinqrad, 1942-1943 – Entscheidungsschlachten des zwefen Weltkseiges. Frankurt am Main, 1960; Sehibert! Der Entsazvorstoss der 6. Panzer Division Dezember 1942. Heidelberg, 1956; Vaazen H. Was geschah in Stalinqrad. Wo sind die Schuldiegen. Salzburq, 1950; Wieder İ. Stalinqrad und die Veran Twortung des Soldaten. München, 1962; Jakobsen N. – A.Zur Schbacht von Stalinqrad – 20 Share danach-Allagemeine Schweizerische Militarzeit schrift, 1963, №2, s.65-70; Hoth H. W.ar die Katastrop he von Stalinqrad zu Vermeiden. – panzer, Kampfruppe, İnfanteire, 1963, №1.

[2] Lederrej E. Stalinqrad…ine plasanterie! Revue militarire Suisse, 1962, №11.

[3] Русский архив. Великая Отечественная. Ставка ВГК. Документы и материалы 1941. Москва, 1996. – с. 161.

görə Çörçill Ruzveltdən "...bu müdhiş ləngimədən əl çəkməyi" məsləhət görürdü.[1]

İkinci cəbhənin açılması Stalinin Çörçillə yazışmalarında əsas yerlərdən birini tuturdu. Stalinin 1941-ci il 18 iyun tarixli məktubunda bildirilirdi ki, faşist Almaniyasına qarşı Qərbdən (Şimali Fransadan) və Şimaldan (Arktika) ikinci cəbhənin açılması SSRİ-nin, o cümlədən Böyük Britaniyanın hərbi vəziyyətini yaxşılaşdırar. Ancaq bu təklif ingilis hökuməti tərəfindən qəbul olunmadı. Sovet-alman cəbhəsində vəziyyətin getdikcə kəskinləşməsini nəzərə alan Stalin 1941-ci il sentyabrın 3-də yenidən ikinci cəbhənin açılması məsələsini irəli sürdü. Lakin yenə də sovet dövlətinin təklifi qəbul edilmədi.[2]

İkinci cəbhənin açılmasına münasibətdə ingilis və amerikan tarixçilərinin özünəməxsus iddiaları vardır. "Corc Marşall" kitabında belə bir versiya irəli sürülür ki, əgər ABŞ və Böyük Britaniya 1942-ci ildə, yaxud 1943-cü ildə Fransadan müdaxiləyə başlasaydı dənizdə ciddi itkilərlə üzləşər və ordunu tezliklə bərpa edə bilməz, katastrofla qarşılaşardı.[3]

X.Bolduin Normandiyaya desant çıxarılmasını Üçüncü Reyxin sonunun başlanğıcı hesab edir. T.Xiqqinsin fikrinə görə müttəfiqlərin Qərbdə fəaliyyəti sovet qoşunlarının bütün Polşanı və Balkan ölkələrini tezliklə tutmasına şərait yaratdı. Əslində fikirləri təhlil etsək, onların əsasında ABŞ və Böyük Britaniyanın dəyişməz məqsədlərində **"Almaniya və SSRİ birbirini mümkün qədər çox zəiflətsinlər**" fikrinin dayandığını başa düşərik. Fikirlərimizi 1944-cü ilin yanvarında cəbhədə olan vəziyyət də təsdiq edir. 1944-cü ilin yanvarında sovet-alman cəbhəsində 221 diviziya vardı, yaxud hər 100 alman əsgərinə sovetlərin 63 nəfər əsgəri dayanırdı. İtaliyada sovetlərin 20 diviziyası fəaliyyət göstərirdi, yaxud hər 100 əsgərə 6 sovet əsgəri dayanmışdı. 1944-cü ilin iyununda sovet-alman cəbhəsində 181 diviziya cəmləşmişdi. Ekvivalent hesabı ilə 100 alman əsgərinə 56 sovet əsgəri düşürdü. Qərb cəbhəsində A.Hitler 81 diviziyaya malik idi. A.Hitlerin özünün etiraf etdiyinə görə qərbdəki qoşunlar az qabiliyyətli idi və ümumiyyətlə diviziyaların sayı ilə müvəffəqiyyəti təyin etmək olmazdı.[4]

İkinci cəbhənin açılmaması səbəbləri sırasında hava döyüşlərinin nəticələri ön plana çəkilir. Tarixçi R.Leki faktlara istinadən göstərir ki, iyulun son həftəsində Hamburq yandırıldı. Ölü sayı 60 mindən 100 min arasında idi. Müttəfiqlər 1943-cü ildə Almaniyaya 426.500 ton, 1944-cü ildə

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016 . – s.30.

[2] Переписка Председателя Совета Министров СССР с президентами США и Великобритании во время Великой Отечественной войны. 2-ое изд. Москва, 1976, т.1, с. 19-20.

[3] Ferrell, Robert H. George C. Marshall. New York: Cooper Square, 1966, p.16.

[4] Проэктор, Д.М. Агрессия и катастрофа / Д.М.Проэктор. – Москва, 1968. – с. 587.

1.188.580 ton bomba atmışlar.[1] Mübahisəsiz demək olar ki, söylənənlər ikinci cəbhənin açılmasının ləngidilməsi səbəbləri ola bilməzdi.

Ümumilikdə "Overlord" müttəfiqlərdən ötrü sovet ordusuna kömək etmək istəyindən daha çox sovet ordusunu mümkün qədər Avropanın şərqində qarşılamaq arzusu demək idi. "Overlord" əməliyyatının yekun nəticələri müttəfiqlərin ümumi qələbədəki roluna tam aydınlıq gətirir. Hitler qoşunları sovet-alman cəbhəsində özünün hər 100 əsgər və zabitindən 73-nü, 100 tankından 76-nı itirmişdi. Sovet təyyarəçiləri düşmənin vurulub salınmış hər 100 təyyarəsindən 57-ni məhv etmişdi (zenit artilleriyası ilə vurulmuş təyyarələr nəzərə alınmadan). Qeyd olunan hər bir yüz rəqəmi üzrə yerdə qalan hissə isə antihitler koalisiyasının digər iştirakçılarının, o cümlədən ABŞ Silahlı Qüvvələrinin payına düşür. Bununla belə demək lazımdır ki, "Lüffvaffe"yə həlledici zərbə İngiltərə səmasında endirildi. Bu quru rəqəmlər hər bir savadlı, hətta o qədər də savadlı olmayan adam üçün kimin ümumi qələbədə əsas rol oynadığını başa düşməyə kifayət edər.[2]

İkinci dünya müharibəsinin son dövrünə dair əsərlərin müəllifləri **Uzaq Şərq əməliyyatlarına** az yer vermişlər. Yaponiya üzərində qələbədə SSRİ-nin xidmətləri heçə endirilmişdir. Bu kitablarda sovet döyüşçülərinin qəhrəmanlığı, cəsurluğu, yenilməzliyi və nə üçün döyüşdüyünə aydınlıq gətirilmir, sovet döyüşçülərinin "məcburən" vuruşduğu qabardılır.

U.T.Dyupui "İkinci dünya müharibəsinin hərb tarixi" kitabında bildirir ki, Uşaq Şərqdə müharibə SSRİ-nin iştirakı olmadan da tezliklə başa çatdırıla bilərdi. Eyni fikirlərlə X.Bolduin, S.Sulsberqer, G.Zimke, R.Leki və başqalarının kitablarında rastlaşırıq. Ancaq ABŞ-nın atom bombasını Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atması qeyd edilən kitablarda qırmızı xətlə keçir.

II Dünya müharibəsi tarixinə dair keçmiş Sovet İttifaqında geniş ədəbiyyat nəşr olunmuşdur.[3] Bu nəşrlərdə sovet adamlarının ön və arxa cəbhədə kütləvi qəhrəmanlığı, faşist işğalçılarına qarşı xalqın mübarizəsinə partiyanın rəhbərliyi, müxtəlif dövlət və ictimai təşkilatların çoxsahəli işi, partizan hərəkatı və s. faktlar və sənədlər əsasında işıqlandırılmışdır.

Sovet alimlərinin yazdığı «История второй мировой войны. 1939-1945» adlı çoxcildlik əsərdə, «Вторая мировая война 1939-1945»,

---

[1] Проэктор, Д.М. Агрессия и катастрофа / Д.М.Проэктор. – Москва, 1968. – с. 558.

[2] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016. – s.36.

[3] История Великой Отечественной войны Советского Союза 1941-1945. В 6-ти томах. Москва, 1960-1965; КПСС о Вооруженных Силах Советского Союза. Документы 1917-1968 гг. Москва, 1969; История второй мировой войны. 1939-1945.В 12-ти томах. Москва, 1970-1980; История Коммунистической партии Советского Союза. В 6-ти томах. Москва, 1971, т. 5, кн.1; Великая Отечественная война. Изд. 2-е. Москва, 1973; Советский тыл в Великой Отечественной войне. Кн.1-2. Москва, 1874, и др.

«История СССР», 6 cildlik «История Великая Отечественная война» əsərlərində faşist Almaniyasının hərbi cəhətdən darmadağın edilməsi məsələsi sovet tarixşünaslığı prinsipləri tələblərinə uyğun şərh olunur. 6 cildlik «История КП Советского Союза» cildlərindən biri müharibə ərəfəsində və müharibə illərində partiyanın fəaliyyətinə həsr edilmişdir.

Araşdırılan problemin öyrənilməsində N.K.Baybakov, A.İ.Balaşov, Q.P.Rudakov, İ.Q.Bolşakov, N.A.Voznesenski, A.A.Qreçko, S.İ.Drobyazko, K.A.Zalesski, Q.D.Komkov, Q.D.Komkov və V.A.Kumanev, L.A.Korolyova və A.A.Korolyov, Q.S.Kravçenko, S.Y.Lavrenov və İ.M.Popov, A.B.Orişev, V.Suvorov, İ.Tyulenov, A.Toptıqin və başqalarının əsər və məqalələrində müharibənin bu və ya digər məsələlərinə aydınlıq gətirilmişdir.[1]

2004-cü ildə Rusiya Elmlər Akademiyasının Rusiya Tarixi İnstitutunun əməkdaşları tərəfindən nəşr edilmiş iki kitabdan ibarət "Müharibə və cəmiyyət" toplusunda[2] müharibə tarixşünaslığının ayrı-ayrı problemlərinə dair tarixçi alimlərin məqalələri toplanmışdır. Toplunun üstün cəhəti ondadır ki, müəlliflər xarici ölkələrin arxiv materiallarından və Qərb ölkələri alimlərinin əsərlərindən istifadə edərək fərqli mülahizələr irəli sürmüşlər.

---

[1] Bax: Балашов, А.И., Рудаков, Г.П. История Великой Отечественной войны / А.И Балашов, Г.П. Рудаков. – СПб., 2005; Гречко, А.А. Битва за Кавказ / А.А.Гречко. – Москва, 1967; Гречко, А.А. Годы войны. 1941-1943 гг. / А.А.Гречко. – Москва, 1976; Дробязко, С.И. Вторая Мировая война 1939-1945. Русская освободительная армия / С.И.Дробязко. – Москва, 1998; Дробязко, С.И. Вторая Мировая война 1939-1945. Восточные легионы и казачьи части в Вермахте / С.И.Дробязко. – Москва, 1999; Залесский, К.А. Кто есть кто во Второй мировой войне. Германия и союзники / К.А.Залесский. – Москва, 2010; Комков, Г.Д., Куманев В.А.Советская культура в годы Великой Отечественной войны / Г.Д. Комков, В.А. Куманев. – Москва, 1965; Комков, Г.Д. Идейно-политическая работа КПСС в 1941-1945 гг. / Г.Д.Комков. – Москва, 1966; Королева, Л.А., Королев, А.А. Власть и мусульмане в СССР в Великой Отечественной войне (по материалам Пензенской области) // – Пермь: Вестник Пермского университета. Серия История, – 2010. вып.1 (13), – с.30; Кравченко, Г.С. Военная экономика СССР в 1941-1945 гг. / Г.С. Кравченко. – Москва, 1963; Лавренов, С.Я., Попов, И.М. Советский Союз в локальных войнах и конфликтах / С.Я.Лавренов, И.М.Попов. – Москва, 2003; Оришев, А.Б. Иранский узел. Схватка разведок. 1936–1945 гг. / А.Б.Оришев. – Москва, – 2009; Солонин, М.С. Запретная правда о Великой Отечественной. Нет блага на войне! ("Грязное белье" в Кремле) // М.С. Солонин. – Москва, 2014; Суворов, В. Ледокол /В. Суворов. – Москва, 2000; Суворов, В. День / В. Суворов. – Москва, 2000; Тюленов, И. Битва за Кавказ (В кн.: В боях за Кавказ) /И.Тюленов. – Баку, 1968. – с.9-23; Топтыгин, А. Неизвестный Берия /А. Топтыгин. – М., 2002.

[2] Война и общество 1941-1945: [в 2-х книгах] / Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва: Наука, – кн.1. – 2004. – 480 с.; Война и общество 1941-1945: [в 2-х книгах] / Отв. ред. Г. Н.Севостьянов. Институт Российской истории. Москва, – кн.2. – 2004.

Müharibə illəri həqiqətlərinin öyrənilməsində Mark Soloninin kitabı diqqəti cəlb edir[1]. Müharibə haqqında yeni tədqiqatlardan, arxiv materiallarından, "tamamilə məxfi" qrifi altında saxlanılan sənədlərdən istifadə edən M.Solonin SSRİ-nin İkinci dünya müharibəsi ərəfəsi və müharibə illərində apardığı xarici siyasətin ayrı-ayrı məsələlərinə aydınlıq gətirmişdir. M.Solonin Kremlin siyasətinin iç üzünü açmağa cəhd etmiş, müharibənin gedişində milyonlarla insanın ölümündə Stalinin və onun ətrafının günahkar olduğunu faktlarla sübuta yetirmişdir.

V.R.Medinskinin kitabında[2] irəli sürülən fərziyyələr və onların faktlarla izahı maraq doğurur. V.Medinskinin hadisələrə geosiyasi cəhətdən yanaşması İkinci dünya müharibəsinin həm SSRİ, həm də dünya tarixi üçün yerini müəyyənləşdirməyə imkan verir. Müəllif "Xalq hakimiyyəti deyil, Vətəni müdafiə edir. Qarşıda döyüşən xalq dayanırdı" yazır.[3]

Keçmiş sovet tarixşünaslığında **Stalinqrad döyüşünün** öyrənilməsi 4 dövrə bölünür.[4]

Birinci dövr (fevral 1943 – may 1945) döyüşün başa çatmasından sonra başlanır və müharibənin qurtarmasınadək olan dövrü əhatə edir. Birinci dövrdə nəşr olunan N.A.Talenski, N.M.Zamyatin, E.B.Qenkina, V.İ.Sidorova və İ.A.Frokinanın kitabçalarında Volqa sahillərində baş verən hadisələrin qısa xarakteristikası və təhlili verilir. Döyüşün tarixinə dair nəşr olunan N.M.Zamyatin, İ.V.Savin, F.D.Vorobyov və İ.V.Parotkinlə birlikdə hazırladığı əsərdə[5] döyüşün əməliyyat tərəfini işıqlandırmağa cəhd göstərilmişdir. Birinci dövrdəki nəşrlər ümumi xarakter daşıyır, hadisələrin xarakteri Qırmızı Ordunun xeyrinə təhlil olunur.

İkinci dövr (1945-1956-cı illər) müharibənin başa çatmasından Sov. İKP XX qurultayına qədər olan illəri əhatə edir. Bu dövrdə işıq üzü görən əsərlər daha çox tarixşünaslıq xarakteri daşıyır və İ.Stalinin şəxsiyyətə pərəstişi ilə əlaqədar diskussiyaların hadisələrə təsiri hiss olunur.

Volqadakı döyüşə dair işıq üzü görən əsərlər,[6] müdafiə olunan dissertasiyalar maraq doğurur.[1] A.D.Stupov və V.A.Kokunovun birgə əsəri Stalinqrad müdafiəçilərinin hərbi qəhrəmanlığından bəhs edir.[2]

---

[1] Солонин, М.С. Запретная правда о Великой Отечественной. Нет блага на войне! («Грязное белье» в Кремле) // М.С. Солонин. – Москва, 2014.

[2] Мединский, В.Р. Война. Мифы СССР. 1939-1945. Второе издание / В.Р.Мединский. – Москва, 2014.

[3] Yenə orada, s.664.

[4] Самсонов, А.М. История Сталинградской битвы (изучаемые проблемы) / А.М. Самсонов. – Москва, 1961.

[5] Замятин, Н., Савин, И., Воробьев, Ф, Паротькин, И. Битьва под Сталинградом / Н.Замятин, И.Савин, Ф.Воробьев. – Москва, 1944.

[6] Военные сообщения в Сталинградская операция (1942-1943 гг.). Москва, 1948; Всемирно-историческая победа над Сталинградом. Сб. статей. Москва, 1953.

B.C.Telpuxovskinin[3] kitabında hərbi əməliyyatların təsviri ilə bərabər partizan hərəkatı, arxa cəbhənin fəaliyyəti, sovet qoşunlarının Volqada qələbəsinin hərbi-siyasi əhəmiyyəti açıqlanmışdır. Müəllifin kitabının müsbət tərəfləri ilə yanaşı çatışmayan cəhətləri də vardır.

Sovet və alman komandanlıqlarının, Stalinqrad şəhər müdafiə komitəsinin sənədləri, DMK-nin 1942-1943-cü illərdəki direktivləri və əmrləri döyüş əməliyyatlarının gedişini açmaqda xüsusi əhəmiyyət kəsb edir.[4] Mətbuatda dərc olunan materiallarda isə dəqiqləşdirilməmiş faktlara, hadisələrin təhlilində subyektiv fikirlərə rast gəlinir. Bir sözlə, ikinci dövrdə Volqada baş verən hadisələrin hərbi və tarixi məzmunu kifayət qədər açılmamışdır.

Üçüncü dövr 1956-cı ildən XX əsrin sonlarınadək olan dövrü (1956-1991) əhatə edir. Bu dövr daha çox Stalinqrad döyüşünün dərindən və hərtərəfli öyrənilməsi, fakt və hadisələrin obyektiv təhlili ilə xarakterizə olunur və Sov. İKP XX qurultayından sonra daha geniş vüsət aldı. Qurultayın qərarları ictimai elmlərin inkişafına təsir göstərdi. Fundamental əsərlər, qiymətli sənədlər nəşr olundu, müharibə dövründə SSRİ-nin xarici siyasəti və beynəlxalq münasibətlərinə dair əsərlər, SSRİ, ABŞ və Böyük Britaniya rəhbərlərinin yazışmaları işıq üzü gördü.

Stalinqrad döyüşünün tarixinin sistemləşdirilməsi və ümumiləşdirilməsinə dair monoqrafik tədqiqatlar da çap olunmuşdur. «Великой Отечественной войны Советского Союза. 1941-1945». çoxcildliyinin II və III cildlərində cəbhə döyüşləri, arxa cəbhədəki vəziyyət kompleks işıqlandırılmışdı.[5]

Marşal K.K.Rokossovskinin redaktorluğu ilə hərb tarixçilərinin hazırladığı «Великая победа на Волге» kollektiv əsəri sovet qoşunlarının Stalinqrad istiqamətində döyüş hərəkətləri, əməliyyatların dinamikası, Baş Qərargah və cəbhə komandanlarının roluna dair faktlarla zəngindir.

Dördüncü dövr SSRİ-nin süqutundan sonrakı illəri əhatə edir. Keçmiş müttəfiq respublikaların müstəqillik əldə etməsi dövrün tarixi hadisələrinə, o cümlədən SSRİ xalqlarının 1941-1945-ci illər müharibəsində, o cümlədən

---

[1] Водолагин, М.А. Сталинград 1941-1943 гг. Великой Отечественной войны Советского Союза. Дисс…канд. ист. наук. Москва, 1947.

[2] Ступов, А.Д., Кокунов В.А. 62-ая армия в боях за Сталинград / А.Д.Ступов, В.А.Кокунов. – Москва, 1949.

[3] Телпуховский, Б.С. Великая победа Советской Армии под Сталинградом / Б.С.Телпуховский. – Москва, 1953.

[4] Великая Отечественная война, 1941-1945. Воен. – ист. Очерки. В 4 кн. Кн.1. Суровые испытания. Москва, 1998; Сталинградская битва: материалы научных конференций, прошедших в Москве и Волгограде к 50-летию битвы. Волгоград, 1994; Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.). Сборник документов и материалов в 2-х томах. Баку, т.1. 1976, т.2. 1977; Сталинградская битва: Хроника. Факты. Люди. Кн.2. Москва, 2002.

[5] История Великой Отечественной войны Советского Союза. 1941-1945. т. 2-3. Москва, 1961.

Stalinqrad döyüşlərində iştirakına dair yeni tədqiqatlar işıq üzü gördü, fakt və hadisələr yeni prizmadan təhlil olunmağa başlandı.

Sovet tarixçiləri, o cümlədən keçmiş SSRİ-nin müttəfiq respublikalarının tarixçiləri problemin ayrı-ayrı məsələlərinin öyrənilməsi sahəsində uğurlar əldə etmişlər. Araşdırmalarda alman-faşist işğalçılarına qarşı mübarizə, arxa cəbhədə işlərin təşkili, partizan hərəkatı və digər məsələlər əksini tapmışdır.

Müharibə tarixşünaslığında Ali Baş Komandan İ.V.Stalinin, partiya və dövlət xadimlərinin – M.İ.Kalinin, A.A.Jdanov, E.M.Yaroslavski, A.S.Şerbakov, N.M.Şvernik və b. nitq və çıxışları, məqalələri mühüm əhəmiyyət kəsb edir.[1]

Sovet tarixşünaslığında «История второй мировой войны 1939-1945 гг.» adlı 12 cildliyin, «СССР в борьбе против фашистской агрессии 1933-1945» məqalələr məcmuəsinin, monoqrafiyaların, kitabların və bröşürlərin işıq üzü görməsi, faşist Almaniyası üzərində Qələbənin 20, 30, 40, 50, 60, 65 və 70 illiyi münasibətilə dərc olunan yeni materiallar müharibə ərəfəsi və müharibə illərinin tarixinin düzgün izlənilməsində böyük əhəmiyyət kəsb edir.

Keçmiş Sovet İttifaqı tarixinə Böyük Vətən müharibəsi kimi düşmüş 1941-1945-ci illər müharibəsi tarixşünaslıqda mühüm yer tutur. Tarixçilərin əksəriyyəti müharibə tarixşünaslığını 4 əsas mərhələyə ayırırlar: 1-ci mərhələ müharibə illərini (1941-1945), 2-ci mərhələ müharibənin sona çatmasından Sov.İKP XX qurultayınadək (1946-1955), 3-cü mərhələ – XX qurultaydan (1956) 1991-ci ilə kimi, 4-cü mərhələ müstəqil respublikaların yaranmasından sonrakı dövrü (1991-ci ildən günümüzədək) əhatə edir.

Konstantin Skvortsovun 2019-cu ildə nəşr olunan iki kitabında müharibə ərəfəsinə və 1939-cu il 23 avqust Molotov-Ribbentrop müqaviləsinin ayrı-ayrı nüanslarına aydınlıq gətirilmişdir.[2]

İndi isə qəhrəmanlar haqqında materiallara qısa nəzər salaq. Sovet İttifaqı Qəhrəmanları haqqında materiallara «История СССР» də, həmçinin müttəfiq respublikaların partiya tarixi oçerklərində rast gəlinir.

---

[1] Сталин, И.В. Великая Отечественная война Советского Союза / И.В.Сталин. – Москва, 1944; Калинин, М.И. Все для фронта! Все для победы! Статьи и речи / М.И.Калинин. – Москва, 1942; Калинин, М.И. Война Отечественная и война тотальная. Фрунзе, 1943; М.И.Калинин. О моральном облике нашего народа / М.И.Калинин. – Ленинград, 1945; Ярославски, Е.М. Великая Отечественная война Советского народа против гитлеровской Германии / Е.М.Ярославски. – Москва, 1942; Щербаков, А.С. Под знаменом Ленина / А.С. Щербаков. – Москва, 1942; Шверник, Н.М. Год Всесоюзного социалистического соревнования / Шверник Н.М. – Москва, 1943.

[2] Скворцов, К.В. Красная Армия и подготовка к немецкому вторжению (факты, О которых вы не знали) / К.В. Скворцов. – Москва, 2019; Скворцов, К.В. Рождение пакта Молотова-Риббентропа (Эпоха. События. Люди) / К.В. Скворцов. – Москва, 2019.

«История второй мировой войны 1939-1945 гг.» kitabında müharibə qəhrəmanları haqqında materiallar yer almışdır.

«Красная звезда» qəzeti jurnalistlərinin və oxucularının birgə əməyi olan «Герои и подвиги» adı altında buraxılan seriya kitablarda Sovet İttifaqı Qəhrəmanlarının şücaətinə dair hadisələr əksini tapıb. Həmin kitablara sovet döyüşçüləri, o cümlədən 160 Sovet İttifaqı Qəhrəmanı haqqında xatirələr, oçerklər və hekayələr daxil edilmişdir.

8 cildlik Sovet Hərbi Ensiklopediyasında 2, 3 və 4 dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış döyüşçülər, "Şöhrət" ordeninin tam üç dərəcəsinin sahibləri haqqında materiallar vardır. Sovet İttifaqı Qəhrəmanları barəsində materiallar Böyük Sovet Ensiklopediyasında da yer almışdır.

İlk Sovet İttifaqı Qəhrəmanı haqqında M.V.Vodopyanovun kitabında və digər xatirələrdə maraqlı faktlar vardır. Q.F.Baydukovun kitabında Moskvadan Vankuver şəhərinə uçuşdan maraqla bəhs olunur.[1]

Sovet qadınlarının uzaq məsafələrə uçuşu M.M.Paskovanın kitabında işıqlandırılmışdır. Şimal dənizinin mənimsənilməsi, göstərilən qəhrəmanlıq, dəyanət və dözümlülük «Северный полюс» stansiyasının rəisi olmuş Sovet İttifaqı Qəhrəmanı İ.D.Papaninin və «Георгий Седов» buzqıran gəmisinin kapitanı, Sovet İttifaqı Qəhrəmanı K.S.Badiqinin kitabında faktlarla təsvir edilir.

1936-1939-cu illərdə İspaniyada faşizmə qarşı sovet könüllülərinin qəhrəmanlığından döyüşlərin iştirakçılarının xatirələrində və sənədli "No passaran" povestində bəhs olunur.[2] «История СССР» jurnalının 1970-ci il 4-cü nömrəsində İspaniya torpağında vuruşan və yüksək hərbi mükafata layiq görülən 59 Sovet İttifaqı Qəhrəmanının döyüş yoluna aid materiallar vardır.

Xasan gölü və Xalxin-Qol çayı rayonunda döyüşlərdə fərqlənən və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən döyüşçülər haqqında çoxlu kitablar yazılmışdır.

«Бои Финландии: Воспоминания участника» kitabında[3] sovet-fin müharibəsi iştirakçılarının xatirələri toplanmışdır. İki hissədən ibarət kitabın müəllifləri Sovet İttifaqı Qəhrəmanlarıdır.

Müharibədən sonra çox sayda kitab işıq üzü görmüşdür. Bu kitablar içərisində «История Великой Отечественной войны Советского Союза 1941-1945» (Москва, 1960-1965, т.1-6), «Великая Отечественная война Советского Союза 1941-1945: Краткая история» (Москва, 1970) kimi nəşrlər özünün sanbalı, faktların çoxluğu və dürüstlüyü ilə seçilir. Adları qeyd olunan kitablarda əsas döyüş əməliyyatlarının gedişi ilə yanaşı, həm də

---

[1] Байдуков Г.Ф. Первый в мире беспосадочный перелет из Москвы в Америку/ Г.Ф.Байдуков. – Москва, 1952.

[2] Гельфанд, С. Но пассаран! Они не пройдут/ С. Гельфанд. – Алма-Ата, 1962.

[3] Бои в Финландии: Воспоминания участников. Ч.1 и 2. Москва, 1941.

qəhrəmanlar haqqında materiallar toplanmışdır. Sovet döyüşçülərinin Leninqrad, Volxov və Şimali-Qərb cəbhələrində, Leninqradın mühasirəsindəki döyüşlərdə iştirakı faktlarla işıqlandırılır. Müəlliflər kollektivi tərəfindən tərtib olunmuş «Битва за Ленинград», A.V.Burovun «Твои герои Ленинград» kitabında 400 Sovet İttifaqı Qəhrəmanı – Leninqrad uğrunda döyüşlərin qəhrəmanları haqqında material vardır.[1]

L.N.Vnotçenkonun "Победа на Дальнем Востоке" kitabında yüksək hərbi ada layiq görülmüş sovet döyüşçülərinin 1945-ci ildə militarist Yaponiyası qoşunlarının darmadağın edilməsindəki qəhrəmanlığından söhbət açılır.

1977-ci ildə Minskdə nəşr olunmuş «Навечно в сердце народном» kitabında 2.000 nəfərədək Sovet İttifaqı Qəhrəmanı haqqında məqalə vardır.

«Штурм Кенигсберга» toplusunda 230 (onlardan 18 nəfəri ikinci dəfə) Sovet İttifaqı Qəhrəmanından bəhs olunur. Kalininqradda nəşr olunmuş «Слава бессмертно» toplusunda Şərqi Prussiya əməliyyatında qəhrəmanlıq göstərmiş döyüşçülərin həyatı işıqlandırılır.

Sovet İttifaqı Qəhrəmanları haqqında materiallara cəbhə, donanma və ordunun, həmçinin birləşmə və hissələrin döyüş yoluna həsr edilmiş tarixi və hərbi-tarixi əsərlərdə də rast gəlinir. Bu mövzu «Героическое прошлое нашей Родины» və «Рассказывают фронтовики» seriyasından buraxılan kitabçaların əsas mövzusunu təşkil edir.

Qəhrəmanların döyüş yolunun öyrənilməsi və araşdırılmasında müharibə iştirakçılarının, cəbhə komandanlarının memuarları xüsusi əhəmiyyət kəsb edir. Bunlar vasitəsilə müharibənin gedişini, xarakterini, döyüşçülərin psixologiyasını və qələbənin əldə olunmasının səbəblərini müəyyənləşdirmək olur.

1958-ci ildə işıq üzü görən «Книга о героях» kitabının 1-ci buraxılışında Sovet İttifaqı Qəhrəmanları haqqında 50 oçerk vardır. Sonralar işıq üzü görmüş 2-ci və 3-cü buraxılışlarda müharibə dövründə və müharibədən sonra Sovet İttifaqı Qəhrəmanı adı alanlar haqqında oçerklər və hekayələr toplanmışdır.

1975-ci ildə Moskvada nəşr olunan 2 kitabdan ibarət "Люди бессмертного подвига" oçerklər toplusunda məşhur yazıçı və jurnalistlərin yüksək hərbi rütbəyə layiq görülmüş döyüşçülərin həyatından bəhs edən hekayələri maraqla oxunur.

---

[1] Ленинград в Великой Отечественной войне Советского Союза. Т.1, 23 июнь 1943 – 24 марта 1944. Сб. док. и материалов. Ленинград, 1947; Дзенискевич, А.Р., Ковальчук, В. М., Соболев, Г.Л., Цамутали, А.Н., Шишкин, В.А. Непокоренный Ленинград. Краткий очерк истории города в период Великой Отечественной войны /А.Р.Дзенискевич. – Ленинград, 1970.

«Навечно в строю»[1] adlı 7 kitabda qəhrəmancasına həlak olan döyüşçülər haqqında 120 oçerk çap olunmuşdur.

1977-ci ildə Moskvada Sovet İttifaqı Qəhrəmanı olan hərbi dənizçilər haqqında biblioqrafik məlumat kitabı nəşr edilir. Kitabda müharibə ərəfəsində və müharibə dövründə yüksək hərbi mükafat alanlar haqqında məlumatlar yer almışdır.

Sərhədçilərin qəhrəmanlığından və yenilməzliyindən bəhs edən «Пограничные войска в Великой Отечественной войне 1941-1945 гг.» (Москва, 1970) kitabındakı materiallar çətin peşə sahiblərinin həyatının maraqlı səhifəsini oxucunun gözü önündə canlandırır.

Qələbədə həkimlərin, tibb bacılarının, sanitarların xüsusi payı vardır. M.K.Kuzminanın[2] kitabında onlardan bəhs olunur. 28 panfilovçunun qəhrəmanlığı haqqında A.Krivitskinin sənədli povest və hekayələri maraqla oxunur.

Sovet İttifaqı Qəhrəmanları olan hərbi qulluqçuların döyüş fəaliyyəti və qəhrəmanlığına dair məlumatlar «Герои Советской Родины», «Богатырь», «Герои и подвиги» seriya kitablarında və digər nəşrlərdə toplanmışdır.

Partizan hərəkatı, düşmən arxasında fəaliyyət göstərmiş dəstə və briqada komandirləri haqqında da xeyli nəşrlər vardır. Sovet İttifaqı Qəhrəmanları-partizanlar və gizli təşkilatın üzvləri haqqında oçerklər buraxılmışdır.

Döyüşçü-beynəlmiləlçilər – bolqarlar, polyaklar, çexlər, slovaklar, almanlar və fransızlar, İspaniyada və 1941-1945-ci illərdə müharibə cəbhələrində faşizmə qarşı vuruşmuş və Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş döyüşçülər haqqında sənədli oçerklər kitabından[3] bəhrələnmək olar.

«Ленинский комсомол в Великой Отечественной войне» (Москва, 1975), «Юность мужала в боях» (Москва, 1966) kitablarında gənclərin alman-faşist işğalçılarına qarşı qəhrəman mübarizəsindən bəhs olunur. Onlardan bir çoxu Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Yazıçı və jurnalistlərin «Героини» (Москва, 1969, вып.1-2) toplusu sənədlər əsasında yazılmışdır. Topluda kəşfiyyatçı qız Zoya Kosmedemyanskaya, sanitar təlimatçısı Mariyi Baydı, gizli qrupun rəhbəri Anastasiya Biseniyek, batalyon sanitarkası Lyudmila Kraets, təyyarəçi qız Yevdokiy Nikulina, snayper Lyudmila Pavliçenko və digər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən qadınlardan bəhs olunur. V.S.Murmantsevanın «Советской женщины в Великой Отечественной войне» (Москва, 1971) kitabı sovet qadınlarının qəhrəmanlığına dair faktlarla zəngindir.

---

[1] Навечно в строю. – Москва, 1957–1958.

[2] Кузмина, М.К. Медики – Герои Советского Союза / М.К. Кузмина. – Москва, 1970.

[3] Они сражались вместе с нами. – Москва, 1976.

Araşdırılan mövzuya dair **türk tarixçiləri** də əsərlər həsr etmişlər. Ahat Andican,[1] Kamuran Gürünün,[2] Selim Deringilin[3] kitablarından, həmçinin Türkiye Böyük Millet Meclisi Tutanak Dergisindən[4] və Yakıncağ Türkiye tarihinin I cildindən[5] istifadə olunmuşdur.

Ayrı-ayrı respublikalarda da Sovet İttifaqı Qəhrəmanları haqqında kitablar, bröşürlər, oçerklər və hekayələr toplusu buraxılmış, sənədli və bədii kinofilmlər çəkilmişdir.

1975-ci ildə Bakıda M.M.Provalinskinin «Кавалеры солдатского ордена» kitabı çapdan çıxmışdır. Kitabda "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görülmüş 19 Azərbaycan SSR vətəndaşının-əsgərinin (onlardan milliyyətcə 9 nəfəri azərbaycanlı, 3 nəfəri rusdur) döyüş yolundan bəhs edən oçerklər toplanmışdır.

II Dünya və 1941-1945-ci illər müharibəsinin başlanması səbəbləri Azərbaycan tarixçilərinin tədqiqatlarından kənarda qalmamışdır.

Azərbaycan sovet tarixşünaslığında həm İkinci dünya müharibəsinə, həm də 1941-1945-ci il müharibəsinin başlanma səbəblərinə müəlliflər dövrün ideoloji tələbindən asılı olaraq vahid mövqedən qiymət vermiş, müharibənin başlanma səbəbləri Sovet tarixşünaslığından fərqlənməmiş, bəzilərində isə ötəri toxunulmuşdur.

Azərbaycan SSR-in 1941-1945-ci illər müharibəsi dövrü tarixşünaslığını xronoloji cəhətdən bir neçə dövrə ayırmaq olar. **Birinci dövr** müharibə illərini əhatə edir. Dövrün tarixi müharibənin gedişində yazılmağa başlanmış, xalqın tarixi keçmişi nümunələrində ön və arxa cəbhə adamlarının döyüş ruhunun yüksəldilməsinə həsr edilmiş kitablar və məqalələr "**Hər şey cəbhə üçün, hər şey qələbə üçün**!" şüarına tabe edilmişdir.[6]

---

[1]Ahat Andican. Cedidizm'den Bağımsızlığa Hariçte Türkistan Mücadelesi. İstanbul, 2003.

[2] Kamuran Gürün. Türkiye-Sovyet İlişkileri (1920-1953). Ankara, 1991.

[3] Selim Deringil. Denge Oyunu: İkinci dünya Savaşında Türkiyenin Dış Politikası. İstanbul, 1994;

[4] Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi, Cilt 9, Birleşim 101, 18.07.1951, s.204-205;

[5] Yakıncağ Türkiye tarihi I. 1908-1980. Hazırlayan: Sina Akşin, Gemil Koçak, Hikmet Özdemir, Korkut Boratay, Selahettin Hilav, Murat Katoğlu, Ayüla Ödekan. İstanbul. Kulebek Matbaaçılık, 2004; 633 s.

[6]Azərbaycanın şanlı oğulları / Buraxılışa məsul: S.Rəhimov, S.Məmmədov. Redaktorlar S.Rəhimov, İ.Hüseynov. Bakı, 1942–1945: I kitab, 1942; II kitab, 1944; III kitab,1945; Heydərov, S. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə / S.Heydərov. – Bakı, 1957; Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-945 / Q.Ə.Mədətov. – Bakı, 1965; Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985; Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2-х томах]. – Баку, – т.1. –1976; Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2-х томах]. – Баку, –т.2. –1977; Axundov, Ə. Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruşmalarda / Ə.Axundov. – Bakı, 1943; Heydərov, S. Sovet İttifaqı Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə qələbəmizin ilhamçısı və təşkilatçısı olmuşdur // Azərbaycan məktəbi, 1957,

İkinci dövr keçən əsrin 50-ci illərindən sonrakı dövrə aiddir. Bu illərdə işıq üzü görən əsərlərdə ayrı-ayrı qəhrəmanların həyatı, döyüş səhnələri üstünlük təşkil edir.[1]

Üçüncü dövr XX əsrin 70-80-ci illərini əhatə edir və bu dövrdə F.Bokov,[2] Q.Mədətov,[3] M.Abasov,[4] T.Novruzov,[5] Ə.Bağırzadə,[6] R.Zeynalov

---

№7, s.62-72; Yenə onun, Sovet İttifaqı Kommunist Partiyası sovet xalqının Böyük Vətən müharibəsindəki tarixi qələbəsinin ilhamçısı və təşkilatçısıdır // Təşviqatçı, №5, s.23-29; Yenə onun, Xalqlar birliyinin qələbəsi. Bakı, 1966; Yenə onun, Sovet İttifaqı xalqlarının partizan hərəkatı tarixindən // Propaqandist, 1942, №5, s.58-66; İbrahimov, Z. Azərbaycan xalqının ərəb işğalçılarına qarşı mübarizəsi / Z.İbrahimov. – Bakı, 1942; Yenə onun, Azərbaycan xalqı döyüşkən xalqdır. Bakı, 1942; Yenə onun, Böyük dostluq. Bakı, 1944; Yenə onun, Babək. Bakı, 1944; Qazıyev, M. Azərbaycan oğulları Vətən müharibəsi cəbhələrində // Propaqandist, 1943, №3, s. 46-54; Yenə onun, Böyük Vətən müharibəsi və Azərbaycan xalqı. Bakı, 1943; Yenə onun, Sovet İttifaqı Qəhrəmanı, kiçik leytenant İdris Süleymanov /Azərbaycanın şanlı oğulları, II kitab. Bakı: Azərnəşr, 1944, s.10-16; Yenə onun, Hərbi həkim İbrahim Sultanov / Azərbaycanın şanlı oğulları. II kitab. Bakı, 1944, s.89-100; Şərifli M.Azərbaycan xalqının monqol işğalçılarına qarşı mübarizəsi tarixindən / M.Şərifli. – Bakı, 1944; Tokarjevski, Y. Azərbaycanlı partizanlar vətən uğrunda döyüşlərdə / Y.Tokarjevski. – Bakı, 1942; Казиев, М. Из истории борьбы азербайджанского народа против иноземных захватчиков / М. Казиев. – Баку, 1942; Казиев, М. Сыны Азербайджана в боях за родину / М. Казиев. – Баку, – 1943; Токаржевский, Е. Крылатый богатырь. Летчик Гусейн Алиев: (Очерк) / Е.Токаржевский. – Баку, 1942; Tokarjevski, Y. Snayper Baloğlan Abbasov / Azərbaycanın şanlı oğulları, II kitab, Bakı, 1944, s.13-16; Vəkilov, M. Cavanşir / C.Vəkilov. – Bakı, 1945; Yampolski, Z. Kapitan Rizvan Zeynalov / Azərbaycanın şanlı oğulları. II kitab. Bakı, 1944. – s.20-22;

[1] Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı, 1963; Azərbaycanın mərd oğulları: Məqalələr məcmuəsi (Tərt.edən Ə.Fətəliyev. Red. Y.Ağayev. Bakı, 1959; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Məqalələr məcmuəsi (Tərt.edəni və redaktoru Q.Ə.Mədətov). Bakı, 1963; Багирзаде А. Патриотизм молодежи / А.Багирзаде. – Баку, – 1962; Великая Отечественная война Советского Союза (1941-1945 гг.): (о подвигах азербайджанцев). Москва, –1965, с.215, 351-353, 568-569; Гречко, А.А. Битва за Кавказ / А.А.Гречко. – Москва, – 1967; Гречко, А.А. Годы войны. 1941–1943 гг. / А.А.Гречко. – Москва, – 1976; Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, – 1975.

[2] Bokov, F.E. Azərbaycan övladlarının ölməz igidliyi / F.F.Bokov. – Bakı, 1971.

[3] Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945 / Q.Ə.Mədətov. – Bakı, 1965; Yenə onun, Азербайджан в Великой Отечественной войне. Баку, 1975;

[4] Abasov, M.H. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə / M.H.Abasov. – Bakı, 1960; Yenə onun, Sovet İttifaqı Qəhrəmanı Əmi Məmmədov. Bakı, 1975; Yenə onun. Баку в годы Великой Отечественной войны / М.Абасов. – Баку, –1967; Yenə onun, Бакинская партийная организация в годы Великой Отечественной войны / М.Абасов. – Баку, –1990.

[5] Новрузов, Т.А.Трудовые подвиги колхозного крестьянства Азербайджана в годы Великой Отечественной войны (1941–1945 гг.) // Т.А.Новрузов. – Баку, – 1963.

[6] Bağırzadə, Ə. Azərbaycan ziyalıları müharibə illərində / Ə.Bağırzadə. – Bakı, 1970; Yenə onun, Qəhrəman gənclik. Bakı, 12 s. şək.;

və L.Borodetski,[1] Z.Bünyadov,[2] F.Paşayev,[3] Q.Orucov[4] və b. tədqiqatları çap olunmuşdur. 1941-1945-ci il müharibəsinə aid tədqiqatlardan olan "Azərbaycan SSR-in xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində" əsərində[5] müəlliflər iddia edirlər ki, Almaniyanın əlaltısı olan Rumıniya, Finlandiya və İtaliyanın SSRİ-yə müharibə elan etməsi, Fransadakı faşistpərəst Vişi hökumətinin SSRİ ilə diplomatik münasibətləri kəsməsi, İspaniyanın sovet-alman cəbhəsinə "mavi diviziya" göndərməsi SSRİ-nin müharibəyə cəlb edilməsinə və 1941-1945-ci illər müharibəsinin başlanmasına səbəb olmuşdur.[6]

1959-cu ildə nəşr edilmiş Calal Hüseynovun "Böyük Vətən müharibəsi illərində sovet xalqının mənəvi-siyasi birliyi" adlı kitabında da İkinci dünya müharibəsinin başlanmasının səbəblərindən bəhs edilərkən müharibənin sovet xalqı üçün əlverişli olmayan bir şəraitdə baş verməsi, Avropadakı işğallarda döyüş təcrübəsi əldə etmiş və Avropa sənayesinin hitlerçilərin əlində olması almanların üstünlüyü kimi verilmişdir.[7]

Məzahir Abasovun 1960-cı ildə nəşr olunmuş "Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə" adlı əsərində də İkinci dünya müharibəsinin başlanması səbəblərinə, demək olar ki, toxunulmayıb.[8]

1941-1945-ci illər müharibəsi və Azərbaycan SSR-in bu müharibədə iştirakı məsələləri AMEA-nın müxbir üzvü Qaraş Mədətovun əsərlərində daha çox əks olunmuşdur. Müəllifin 1965-ci ildə nəşr olunmuş on iki fəsildən ibarət "Azərbaycan Böyük Vətən müharibəsində (1941-1945)" adlı əsəri müharibənin başlanmasından Hitler Almaniyası üzərində qələbəyədək olan bütün mərhələni əhatə edir. Arxiv sənədləri əsasında yazılmış bu əsərdə müəllif İkinci dünya müharibəsinin başlanması və Avropada müharibə ocağının yaranması səbəblərinə aydınlıq gətirərək göstərir ki, A.Hitlerin "Barbarossa" planına əsasən 1941-ci ilin qışınadək Sovet ordusu darmadağın edilməli idi. 1940-1941-ci illərdə işlənib hazırlanan bu məxfi plan "ildırımsürətli müharibə" taktikasına əsaslanırdı. Müəllif qeyd edir ki, almanların SSRİ-yə hücumundan əvvəl sovet xalqının ağır vəziyyəti o vaxtkı

---

[1]Zeynalov, R.Ə., Borodetski L.S. Qafqaz dağlarının ətəklərindən Berlinədək: hərbi-tarixi oçerk / R.Ə.Zeynalov, L.S.Borodetski. – Bakı, 1965.

[2] Bünyadov, Ziya. Qırmızı terror / Z.Bünyadov. – Bakı, 1993; Nəzirli, Ş.Ə. Azərbaycan generalları / Ş.Ə.Nəzirli. – Bakı, 1991.

[3] Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində / F.Paşayev. – Bakı, 1975.

[4] Orucov, Q. Azərbaycan Qafqaz döyüşlərində / Q.Orucov. – Bakı,1980.

[5] Mahmudov, Ə., Əbdülsəlimzadə, Q. Azərbaycan SSR xalq təsərrüfatın Böyük Vətən müharibəsi illərində / Ə.Mahmudov, Q.Əbdülsəlimzadə. – Bakı, 1985. – s.175.

[6] Yenə orada – s.4.

[7] Hüseynov, C. Böyük Vətən müharibəsi illərində sovet xalqının mənəvi-siyasi birliyi / C.Hüseynov. – Bakı, 1959. – s.7.

[8] Abasov, M.H. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə / M.H.Abasov. – Bakı, 1960.

rəhbər İ.V.Stalinin üzərinə düşür. Sovet ordusunun istedadlı sərkərdələri, V.K.Blyuxov, A.İ.Yeqorov, M.N.Tuxaçevski və digərlərinin günahsız olaraq məhv edilməsi, bir qrup hərbçinin ordudan uzaqlaşdırılması, qoşun hissələrinin lazımınca silahlandırılmaması, SSRİ-nin sərhədlərinin tam möhkəmləndirilməməsi və ordunun müasir döyüş təcrübəsinə malik olmaması A.Hitleri SSRİ-yə hücuma sövq etmişdir.[1] Müəllif müharibənin başlanmasında SSRİ rəhbəri İ.Stalinin qətiyyətsizliyini partiya və dövlət idarə sistemində Lenin "prinsiplərinin" kobudcasına pozulması kimi izah edir.

Azərbaycan sovet tarixşünaslığında 1941-1945-ci illərin hadisələrini və tarixi məsələlərini rəsmi sənədlər, əmr və sərəncamlar, eləcə də, çoxsaylı qəzet materialları əsasında öyrənmək baxımından 1976-cı ildə rus dilində çap olunmuş "Azərbaycan SSR Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər). Sənədlər və materiallar məcmuəsi" əsəri çox dəyərlidir. Giriş, 3 fəsil və əlavələrdən ibarət olan əsərdə dövrün araşdırılması baxımından xeyli faktlar vardır.[2]

1968-ci ildə müəlliflər heyəti tərəfindən hazırlanaraq nəşr olunmuş 7 fəsildən ibarət "Azərbaycan komsomolu" əsərində də müharibənin başlanma səbəbi kimi alman faşistlərinin SSRİ-ni işğal etmək, Sovet İttifaqı torpaqlarını ələ keçirmək və ölkə əhalisinin sosialist nailiyyətlərini mənimsəmək istəməsi göstərilmişdir.[3] SSRİ-yə edilmiş hücumun sovet xalqına edilən hücum kimi qiymətləndirildiyi əsərin ana xəttini faşistlərə qarşı mübarizə, sosializm və Lenin "prinsiplərinə" sadiq qalan Kommunist partiyasının bütün sovet xalqını səfərbər etməsi təşkil edir.

Əhəd Bağırzadənin 1970-ci ildə nəşr olunmuş "Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində" adlı monoqrafiyası giriş, altı fəsil və nəticədən ibarətdir. Əsərdə İkinci dünya müharibəsinin başlanması səbəblərinə toxunan müəllif bu müharibənin təsadüfən meydana gəlmədiyini və Birinci Dünya müharibəsinin davamı olduğunu bildirərək qeyd edir ki, İkinci dünya müharibəsinin başlanma səbəbləri inhisarçı kapitalizmin yüksək mənfəət götürməsi, başqa xalqları əsarət altına alması və imperialist siyasət yeritməsinin nəticəsi olub dünyanın yenidən bölüşdürülməsi, yeni xammal mənbələrini ələ keçirmək və "dünya ağalığına can atmaq" İkinci dünya müharibəsinə gətirib çıxarmışdı.[4] Müəllif ABŞ, İngiltərə, Yaponiya və digər kapitalist ölkələrini bu müharibənin əsas səbəbkarları kimi göstərərək, Avropa ölkələri ümumi böhrandan çıxmaq üçün Sovet İttifaqı əleyhinə vahid

---

[1] Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində.1941-1945 / Q.Ə.Mədətov. – Bakı, 1965. – s.13.

[2] Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2-х томах]. – Баку: Азернешр, – т.1. – 1976. – 628 с., с.5.

[3] Azərbaycan komsomolu. Bakı, 1968. – s.194.

[4] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı: Azərnəşr, 1970. – s.21.

cəbhə yaradan ABŞ, İngiltərə və Fransanın 30-cu illərdən başlayaraq Almaniya, İtaliya və Yaponiyanın SSRİ-yə hücum edəcəyini düşünərək bu ölkələrə kömək etdikləri bildirilir.[1] Müəllif hesab edir ki, Almaniyaya hərbi sənayesinin genişləndirilməsi – ordu, dəniz və hava donanması yaratmaq üçün borc verilməsi alman militarizmini Sovet İttifaqına hücuma yönəldirdi.[2] Əhəd Bağırzadə də digər müəlliflər kimi SSRİ-ni dünyada ardıcıl sülh siyasəti yeridən, kommunizm və demokratiya uğrunda öz xalqının müdafiəsinə qalxan dövlət kimi təqdim etmişdir.

Valentina Belyayevanın rus dilində 1957-ci ildə nəşr olunan "Azərbaycan fəhlələrinin əmək qəhrəmanlığı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər)" adlanan əsərinin birinci fəslində müharibənin başlanma səbəblərinə toxunulmuşdur. Digər müəlliflər kimi V.Belyayeva da müharibənin meydana gəlməsini Avropada kapitalizm böhranının yaratdığı tarixi şəraitdən asılı olaraq baş verdiyini iddia edir, faşistlərin SSRİ-yə hücumunda əsas məqsəd dünyada yeganə olan sosialist ölkəsini aradan götürmək üçün anqlo-amerikan və fransız imperialistlərinin birgə qəsbkarlıq siyasəti[3] kimi qiymətləndirir, dünyanın iqtisadi və siyasi inkişafının dəyişməsi nəticəsində, bir tərəfdən Almaniya, Yaponiya, İtaliya, digər tərəfdən ABŞ, İngiltərə və Fransanın qarşı tərəfi məğlub etməklə dünyaya hökmran olmaq və bununla da, iqtisadi böhrandan çıxmağa çalışdıqlarını bildirir.[4]

Göründüyü kimi, müəlliflər müharibənin başlanma səbəbləri kimi Avropada müharibə ocağının yaranmasında A.Hitler və onun əlaltılarının təsirini qabartmış, böyük insan itkisinə səbəb olan müharibənin qarşısının alınmamasında Avropanın qabaqcıl kapitalist ölkələri olan Fransa, İngiltərə, İtaliya və başqalarının laqeydliyini əsaslandırmağa cəhd göstərmişlər.

SSRİ-nin tərkibində olan digər respublikalar kimi, Azərbaycan da bu dəhşətli müharibədə iştirak etməli oldu. Alman faşistlərinin SSRİ-yə basqını Azərbaycan xalqının hiddətinə səbəb oldu. Müharibə başlayanda orduya səfərbərlik respublikada ümumxalq hərəkatına çevrildi. 1941-ci il iyun ayının 22-də Bakının Şəhər rayonunda keçirilən mitinqdə 6.500 nəfər, "Lenin" adına tikiş fabrikindəki toplantıda 2.500 nəfər, "Zaqfederasiya" adına zavoddakı mitinqdə 600 nəfər, "Volodarski" adına zavodda keçirilən mitinqdə 2.000 nəfərədək adam iştirak etmişdi.[5]

1941-ci ilin 22 iyunundan sonrakı ilk həftə ərzində Azərbaycan SSR Hərbi Komissarlığına könüllü olaraq cəbhəyə göndərilmək barədə 40 min

---

[1] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı: Azərnəşr, 1970. – s.22.

[2] Yenə orada, s.23.

[3] Беляева, В.А. Трудовой героизм рабочих Азербайджана в годы Великой Отечественной войны (1941–1945 гг.) / В.А.Беляева. – Баку,– 1957. – с.8.

[4] Yenə orada, s.9.

[5] Mehdiyev, B.M. 223-cü Qırmızı bayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı: 2000. – s.22 .

ərizə verildi,[1] ərizə verənlər içərisində qızlar da vardı. 22 iyundan 2 iyula qədər yalnız Bakının Dzerjinski rayonundan sanitar drujinaları tərkibində cəbhəyə göndərilmək üçün 1.200 qadın ərizə vermişdi. 1941-ci il iyulun 4-dək xalq qoşunu sıralarına Bakıda 75 min, Kirovabadda (Gəncədə) 10 min, Naxçıvan MSSR-də 7 min nəfər yazılmışdı. Bütünlükdə 1941-ci ildə Azərbaycanda xalq qoşunu sıralarına 186,7 min könüllü daxil olmuşdur.[2]

Ümumiyyətlə, müharibə illərində Azərbaycandan ordu sıralarına **698.937 nəfər kişi, 11 min 237 nəfər qadın** səfərbərliyə alındı, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə istehsalata gəldi. Hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlandı. **Azərbaycan SSR ərazisində 87 batalyon, 1.123 özünümüdafiə dəstəsi, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırıldı** və onlar müxtəlif orduların tərkibində döyüş əməliyyatlarında iştirak etdi.[3]

Müharibə ərəfəsində Azərbaycan SSR-də 50 yaşına qədər olan hərbi vəzifəlilərin sayı 335.378 nəfər olmuşdur. Onlardan 1942-ci ilin mart ayının 1-dək 247.043 nəfər cəbhəyə yeni təşkil olunan hərbi birləşmələrə çağırılmışdır. Səfərbər olunmayanların və hərbi hissələrdə xidmətə yararlıların sayı 58.829 nəfər idi. Səfərbərliklə əlaqədar Azərbaycan K(b)P MK bütün idarə və təşkilatlara məxfi məktub göndərmişdi. Həmin məktubda səfərbərliyə alınmışların ailələrinə köməklik göstərmək, arxa olmaq tapşırılırdı.[4] Bütün bunlar sovet tarixşünaslığında qələbənin əldə olunmasında vahid Sovet İttifaqının tarixi nailiyyəti kimi vurğulanmış, Azərbaycan xalqının müharibədə əldə edilən qələbəyə verdiyi töhfə faktlarla əsaslandırılmamışdır. Azərbaycan SSR Sovet İttifaqının tərkibində olduğuna görə bu dövrün tədqiqatçıları xalqımızın müharibədə iştirakını tədqiq edərkən sovet ideologiyasının sərt tələblərindən kənara çıxa bilməmiş, dövrün hadisəsinə vahid "sovet xalqı"nın həmrəyliyi və qardaşlığı baxımından qiymət verməyə məcbur olmuşlar.

"Motorlar müharibəsi" adlanan bu müharibədə Bakı neftinin əvəzsiz əhəmiyyəti olsa da, Azərbaycan sovet tarixşünaslığında bu problemə demək olar ki, toxunulmamışdır. SSRİ-də hasil edilən neftin 70-75 faizini, aviasiya benzininin 85 faizini verən Bakı şəhərinə "Qəhrəman şəhər" adının verilməsinə SSRİ dövlətinin biganə yanaşması və arxa cəbhənin qəhrəmanlığı tədqiqatçıların əsərlərində tam əks olunmamışdır.

Azərbaycan SSR-in 1941-1945-ci illər müharibəsində iştirakı müharibənin başlanması ilə Azərbaycan əhalisinin və qəhrəman oğullarının cəbhəyə

---

[1] Azərbaycan tarixi: [7 cilddə]. – Bakı, – c 7: (iyun 1941–2002–ci il). – 2003. – s.13.

[2] Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2–х томах]. – Баку, – т.1. – 1976. – с.8.

[3] Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945 / Q.Ə.Mədətov. – Bakı, 1965. – s.22.

[4] Yenə orada.

yardımlar etməsi, xalqımızın müharibədə iştirakı vahid sovet torpaqlarının müdafiəsi, "sosializmin qorunması", "marksizm-leninizm prinsipləri"nə sadiq qalmaq və dünyada sülhün qorunmasına mühüm bəşəri töhfə kimi qələmə verilmiş, Azərbaycan SSR-in iqtisadiyyatının, mədəniyyətinin və digər sahələrinin hərbi rels üzərində qurulması müharibənin ilk günündən xalqımızın "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarına sadiq qalaraq bu müharibəyə qoşulması göstərilmişdir.

M.Qazıyev 1943-cü ildə nəşr etdirdiyi "Böyük Vətən müharibəsi və Azərbaycan xalqı" adlı əsərində azərbaycanlıların müharibədə iştirakını, İ.Stalinin Vətənin müdafiəsi üçün çağırışına qoşulmasını xüsusi qeyd edir, zavod və mədənlərdə vətənpərvərlərin qəhrəmanlığını kommunist partiyasına sadiqlik nöqteyi-nəzərindən qiymətləndirir və qeyd edir ki, "müharibə respublikamızın sənayesini hərbi qaydada yenidən qurmaq kimi ciddi və mürəkkəb bir vəzifəni qarşımıza qoydu və müharibənin törətdiyi bir çox çətinliklərə baxmayaraq bu vəzifə yerinə yetirildi".[1]

1941-1945-ci illər müharibəsinin iştirakçısı İsrafil İsmayılov 2000-ci ildə nəşr etdirdiyi kitabında yazır ki, 18-47 yaşlarında olanların hərbi xidmətə çağırılmasına başlandı. 15-50 yaşlarında olan vətəndaşlar isə arxada cəbhədə hərbçi peşəsinə yiyələnmək üçün müxtəlif formada hazırlıq təlimlərinə cəlb edildi.[2]

Məzahir Abasov 1967-ci ildə rus dilində çap edilmiş "Bakı Böyük Vətən müharibəsi illərində" əsərində müharibədə Azərbaycan xalqının iştirakını Bakı şəhərinin timsalında vermiş, Bakı əhalisinin, xüsusilə, neftçilərin ağır iş rejimində müharibəyə necə kömək etməsini, Bakı iqtisadi rayonunun müharibənin ilk günlərindən cəbhənin tələbatı üzərində qurulmasını göstərmişdir. Əsərdə Bakı neftçilərinin cəbhənin tələbatı üçün qəhrəmancasına fədakarlığı, müharibənin ilk aylarında Bakının sənaye, dəmiryol və dəniz nəqliyyatının fəaliyyəti dövrün arxiv materialları əsasında araşdırılmış,[3] qısa vaxt ərzində təsərrüfat rəhbərlərinin, həmkarlar və komsomol təşkilatlarının ehtiyat kadrların hazırlanması, qadınların sənaye işlərinə cəlb olunması,[4] cəbhənin neft və neft məhsulları ilə təmin olunmasında Bakı əməkçilərinin rolu faktlarla göstərilib.[5] Müəllif göstərir ki, müharibənin ilk həftələrində Bakıda müdafiə fonduna əhalidən 2.326.987 rubl nağd pul, toplanmışdı.

---

[1] Qazıyev, M. Böyük Vətən müharibəsi və Azərbaycan xalqı. M.Qazıyev. – Bakı, 1943. – s.15; Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945 / Q.Ə.Mədətov. – Bakı, 1965. – s.22.

[2] İsmayılov, İ. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.İsmayılov. – Bakı, 2000. – s. 41.

[3] Абасов, М. Баку в годы Великой Отечественной войны / М.Абасов. – Баку, –1967. – 264 с.

[4] Yenə orada, –s.21.

[5] Yenə orada, s.34.

1941-ci il sentyabr 1-də bakılılar müdafiə fonduna 4 mln. rubldan çox pul köçürmüşdülər.[1]

Məzahir Abasovun 1990-cı ildə rus dilində işıq üzü görmüş "Bakı partiya təşkilatı Böyük Vətən müharibəsi illərində (1941-1945)" adlı kitabı Kommunist Partiyasının Bakı təşkilatının müharibədə fəaliyyətinə həsr edilmişdir. Əsər kommunist partiyasının ideoloji-siyasi təbliğatı baxımından yazılmasına baxmayaraq Azərbaycan xalqının müharibədə iştirakına aid çoxsaylı faktlara da malikdir.[2]

Qəzənfər Mehdiyevin 1967-ci ildə rus dilində nəşr etdirdiyi "Azərbaycan Kommunist Partiyasının Böyük Vətən müharibəsi dövründəki fəaliyyəti (1941-1945-ci illər)" adlı əsərində Azərbaycan Kommunist Partiyasının ön və arxada cəbhədə fəaliyyətinə toxunulur.[3] Q.Mehdiyev yazır ki, 22 iyun 1941-ci ildə Bakı şəhərinin partiya təşkilatında 6500, toxuculuq fabrikində 2500, Zaqfederasiya adına zavodda 600 və tikiş fabrikində 2000-ə yaxın insan iştirak etdi.[4] Müharibənin ilk günlərində partiya təşkilatlarının kütləvi hərbi vətənpərvərlik mitinqləri düşmən üzərinə qüvvələrin səfərbər olunmasında mühüm mərhələ oldu.

1941-ci ilin oktyabrında respublikada 15-50 yaş arası kişilərdən 249.466 nəfəri hərbi biliyə, Azərbaycan SSR-in komsomol gənclər təşkilatlarında isə 10 minə yaxın gənc hərbi ixtisasa yiyələndi. Müharibə vaxtı Bakıda "Qızıl Aypara Cəmiyyəti" 6 min şəfqət bacısı və 13 min sanitar xidmətçisi hazırladı. Müharibə ərzində rayon hərbi komissarlıqlarında 51.254 atıcı, pulemyotçu, minaatan, snayper və paraşütçülər hazırlandı.[5]

1941-ci ilin sentyabrında Azərbaycan əhalisi müdafiə fonduna 3 kq 742 qram qızıl, 137 kq gümüş və 8 mln 947 min rubl pul toplamışlar.[6] Azərbaycan əhalisi müharibənin ilk birinci ilində ümumxalq müdafiə fonduna 88 milyon 213 min rubl, 15.5 kq qızıl və bir tona yaxın gümüş vermişlər.

Müharibə veteranı Alışan Qasımovun 1984-cü ildə nəşr etdirdiyi "Unudulmaz illərin salnaməsi" adlı əsərində Krım yarımadasında yerləşən Sevastopol şəhərinin birinci (1853-1855-ci illər Krım müharibəsi dövrü) və ikinci (1941-1945-ci illər) müdafiəsindən bəhs edir. Müəllif 250 gün düşmənə sinə gərən Sevastopolun müdafiəsində qəhrəmanlıq göstərən azərbaycanlı pulemyotçu Fərhad Dadaşov, Sona Rüstəmova, Qafur Məmmədov və

---

[1] Абасов, М. Баку в годы Великой Отечественной войны / М.Абасов. – Баку, –1967. – 264 с., s.232.

[2] Абасов, М. Бакинская партийная организация в годы Великой Отечественной войны / М.Абасов. – Баку, –1990. – 356 с.

[3] Мехтиев, Г.Г. Деятельность Коммунистическая Партии Азербайджана в период Великой Отечественной войны (1941–1945гг.) / Г.Г.Мехтиев. –Баку, 1967.

[4] Yenə orada, s.22.

[5] Yenə orada, s.38.

[6] Yenə orada, s.60.

digərlərinin qəhrəmanlıqlarından bəhs edir,[1] Krım yarımadasının azad edilməsində 77, 271 və 416-cı Azərbaycan milli atıcı diviziyaların adlarını çəkir, bildirir ki, 1944-cü il mayın 7-də Sevastopolun qapısı sayılan Sapundağ uğrunda döyüşlərdə Məmməd Dadaşov, Əhməd Ağamirov, Mustafa Məmmədov xüsusilə fərqləndilər, **Əbdüləziz Qurbanov al bayrağı Sapundağ üzərinə sancdı** və bu igidliyinə görə o "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.[2]

Dərgah Qüdrətovun "Dostluq, əməkdaşlıq və birgə nailiyyət" adlı əsərində 1942-ci ilin iyununda Sevastopolun müdafiəsində azərbaycanlı Həsən Hacıyev, Abbasov Abbas, Mirzəcəlal Yusifov, Sarıbala Bayramov və b. hərbi əməliyyatlarda şücaət göstərdilər.[3] Faşistlərə qarşı hərbi əməliyyatlarda fərqlənən azərbaycanlı döyüşçülərdən Əlif Piriyev, Mehdi Quliyev, Bəkir Mustafayev və Şəmsulla Əliyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.[4]

Sevastopolun müdafiəsi dövründə şair və yazıçılarımızdan C.Cəfərov, R.Rza, Ə.Vəliyev, Ə.Cəmil və O.Sarıvəlli döyüşçülərlə birlikdə oldular, onları qəhrəmanlıq göstərməyə ruhlandırdılar.

Qüdrət Əbdülsəlimzadənin 1985-ci ildə nəşr olunan "Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində" adlı əsərində müəllif arxiv materiallarına və qəzetlərə istinad edərək Azərbaycan iqtisadiyyatının müharibədə oynadığı rolu faktlar və statistik rəqəmlərlə göstərməyə cəhd etmişdir. Müəllif göstərir ki, cəbhənin mühüm sifarişlərini yerinə yetirmək üçün qısa bir müddətdə Bakı rayonunda yeni, ikinci dəfə neftayıran qurğular işə salındı, təyyarə yağının alınmasının yeni prosesi tətbiq olundu, xüsusi təyinatlı sürtgü yağları istehsalı xeyli genişləndirildi. Cəbhənin tapşırıqlarını dəqiq və yüksək keyfiyyətdə yerinə yetirən Bakı neftçiləri müharibə illərində yüksək keyfiyyətli benzin və sürtgü yağları istehsalını bir neçə dəfə, o cümlədən təyyarə üçün benzin istehsalını 3 dəfə, sürtgü yağları istehsalını 3,8 dəfə, ümumilikdə, benzin istehsalını 4 dəfəyə yaxın artırmağa nail oldular.[5]

Müharibə illərində "Vətən uğurunda" ədəbi-siyasi jurnalında, "Ədəbiyyat qəzeti"ndə, "Kommunist" qəzetində, həmçinin müharibənin başlanmasından az sonra meydana gələn "Təbliğat vərəqəsi"ndə, "FKQO döyüşçüsü" (1942-1945), "Qələbəyə doğru irəli" (1942), "İrəli" (1942-1945), "Qızıl əsgər" (1944), "Sovet döyüşçüsü" (1945) və s. cəbhə qəzetlərində Azərbaycan yazıçılarının çap etdirdikləri materiallar ön və arxa cəbhədə böyük həvəslə

---

[1] Qasımov, A. Unudulmaz illərin salnaməsi /A.Qasımov. – Bakı, 1984. – s.24.
[2] Yenə orada, s.32.
[3] Qüdrətov, D. Dostluq, əməkdaşlıq və birgə nailiyyət / D.Qüdrətov. – Bakı, 1968. – s.97.
[4] Qasımov A. Unudulmaz illərin salnaməsi /A. Qasımov. – Bakı, 1984. – s.33.
[5] Əbdülsəlimzadə, Q. Azərbaycan iqtisadiyyatı Böyük Vətən Müharibəsi illərində / Q.Əbdülsəlimzadə. – Bakı, 1985. – s.20.

oxunurdu.[1] 1941-1945-ci illər müharibəsi dövründə milyon yarım tirajla 50 adda plakat və 70 min tirajla 400 adda "Təbliğat pəncərəsi" buraxılmışdır.

Azərbaycan yazıçılarının, müəllimlərinin, alimlərinin və ziyalılarının müxtəlif qruplarının ön cəbhə üçün etdikləri yardımları göstərən müəllif qeyd edir ki, ayrı-ayrı vaxtlarda bu müəlliflər ön cəbhəyə də yollanır, xalqımızın qəhrəman oğullarının cəbhədəki mərdliyini tərənnüm edirdi.

"Akitpəncərə" və "Döyüşən karandaş" antifaşist vərəqələrinin hazırlanmasında rəssamlardan Ə.Əzimzadə, Q.Xalıqov, Ə.Hacıyev, M.Abdullayev, M.Rəhmanzadə, K.Kazımzadə fəallıq göstərirdilər. Müharibə illərində Bakı, Tbilisi və Moskva şəhərlərində Azərbaycan rəssamlarının əsərlərindən ibarət 17 sərgi təşkil olunmuşdur. Müharibə dövründə Azərbaycan SSR-də 141 qəzet və 16 jurnal nəşr edilirdi.[2]

Azərbaycanlılardan təşkil edilmiş 223-cü diviziyanın orqanı olan "Vətən yolunda" və 416-cı diviziyanın "Qızıl əsgər" qəzetində S.Vurğun, S.Rüstəm, M.Rahim, H.Mehdi, Mir Cəlal, M.Arif, O.Sarıvəlli, Ə.Əbülhəsən, S.Rəhimov, Ə.Cəmil, Ə.Ağayev, Ə.Məmmədxanlı, M.Cəfər, H.Orucəli, M.S.Ordubadi, C.Xəndan, R.Rza, Ə.Vəliyev və başqaları müntəzəm olaraq çıxış edirdilər.[3]

Dərgah Qüdrətovun 1968-ci ildə çapdan çıxmış "Dostluq, əməkdaşlıq və birgə nailiyyət" adlı əsərində Leninqrad ətrafındakı vuruşmalarda H.Əliyev, M.Abasov, İ.İsmayılov, N.Mustafayev və başqalarının adları çəkilir, serjant İdris Vəliyevin 50-dən çox alman faşistini məhv etməsi, İsrafil Məmmədovun Novqorod yaxınlığında əfsanəvi qəhrəmanlığı nəticəsində Sovet İttifaqı Qəhrəmanı adı alması göstərilir.[4]

Tədqiqatçı Adıgözəl Məmmədovun 2013-cü ildə nəşr etdirdiyi "M.C.Bağırov – Tam məxfi sənədlər" əsərində azərbaycanlı əsgərlərin çətin şəraitdə hərbi xidmətə yollanması, rus dilini bilmədiklərinə görə üzləşdikləri problemlərdən bəhs olunur. Əsərdə azərbaycanlı əsgərlərə qarşı rus və erməni komandirlərinin kobud münasibətinə dair məxfi sənədlər, məktublar və döyüşçülərin xatirələri, əsgərlərə göstərilən tibbi xidmətin zəif təşkili, xəstəliklərin yayılmasını və onların qidalanmasının aşağı səviyyədə olması[5], 1920-1925-ci ildə doğulanların səfərbərliyə alınması və bu diviziyalarda xidmətə uğurla başlamaları faktlarla göstərilmişdir.[6]

Azərbaycanın 20-50-ci illər tarixinin araşdırıcılarından biri tarix üzrə elmlər doktoru, professor İbrahim Zeynalovdur. Müəllifin 2018-ci ildə nəşr olunmuş "Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan

---

[1] Babayev, B. Ağır illərin unudulmaz salnaməsi / B.Babayev . – Bakı, 1973. – s.5.
[2] Yenə orada, s.10.
[3] Yenə orada, s.22.
[4] Qüdrətov, D. Dostluq, əməkdaşlıq və birgə nailiyyət / D. Qüdrətov. – Bakı, 1968. – s.93.
[5] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.M.Məmmədov. – Bakı, 2013. – s. 94.
[6] Yenə orada – s. 95.

SSR XX əsrin 20-50-ci illərində" monoqrafiyasında[1] Azərbaycan SSR-in İkinci dünya müharibəsində iştirakına dair xeyli sənəd tədqiqata cəlb edilmişdir. Monoqrafiyada XX əsrin 20-50-ci illərində Stalin və stalinizm məsələlərinə,[2] L.P.Beriya və M.C.Bağırov cütlüyünün həyat və fəaliyyətinə, İkinci dünya müharibəsi illərində M.C.Bağırovun Cənubi Azərbaycan məsələsində[3] və Dağlıq Qarabağ probleminin həllində qətiyyətli mövqeyinə,[4] Stalin-Bağırov dövrünün repressiya məsələlərinə[5] aydınlıq gətirilmişdir.

Azərbaycan yazıçı və jurnalistlərinin müharibədə iştirakından bəhs edən "Cəbhə yolları" adlı əsərində isə yazıçılardan İsmayıl Şıxlı, Salam Qədirzadə, Hüseyn Abbaszadə və digərlərinin cəbhə və döyüş xatirələri, müharibədə azərbaycanlı qəhrəmanların iştirakı bədii ifadəsini tapmışdır.[6]

Azərbaycan SSR EA-nın müxbir üzvü, prof. Q.Ə.Mədətovun, tarix elmləri doktoru M.Abasovun bu sahədə apardığı tədqiqatlar, Azərbaycan və rus dillərində çap olunan əsərləri müharibə tarixşünaslığında xüsusi əhəmiyyət kəsb edir.

Q.Mədətovun "Azərbaycan Böyük Vətən müharibəsində" adlı monoqrafiyasında faşist Almaniyasına qarşı mübarizədə Azərbaycan zəhmətkeşlərinin oynadığı misilsiz rol hərtərəfli şərh olunur. M.Abasovun "Bakı Böyük Vətən müharibəsində" (rus dilində) adlı əsəri Bakı əməkçilərinin fədakar əməyinə dair arxiv materialları ilə zəngindir. Beş hissədən ibarət əsərdə müəllif Bakının qəhrəmanlıq tarixini faktlarla əks etdirmiş, neftçilərin cəbhəyə səfərbər edilməsinə, neft sənayesinin maddi-texniki bazasının zəifləməsinə, neftçıxarma işçilərinin çətinliyini aradan qaldırmaq uğrunda Bakı fəhlələrinin fədakarlığına xüsusi diqqət yetirmişdir. Ə.Bağırzadə, T.Qaffarov, M.Əmrahov, Ə.Zeynalov, Q.Mehdiyev, T.Novruzov, V.Belyayeva və digərlərinin əsərləri müharibə tarixinin müxtəlif problemlərinə həsr edilmişdir.[7]

M.İ.Əmrahovun "İkinci dünya müharibəsi. 1939-1945" monoqrafiyasında Hitler Almaniyası tərəfindən Qərbi Avropanın işğal edilməsi, mühari-

---

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018.

[2] Yenə orada, s.303-312.

[3] Yenə orada, s.204-217.

[4] Yenə orada, s.218-231.

[5] Yenə orada, s.170-180.

[6] Cəbhə yolları. Bakı, 1975. – s.10-42.

[7] Мадатов, Г.А. Азербайджан в Великой Отечественной войне / Мадатов Г.А. – Баку, 1975; Багирзаде, А. Патриотизм молодежи / А.Багирзаде. – Баку, 1962; Yenə onun, Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində. Bakı, 1970; Абасов, М. Баку в годы Великой Отечественной войны / М.Абасов. – Баку, 1967; Новрузов, Т.А.Трудовые подвиги колхозного крестьянства Азербайджана в годы Великой Отечественной войны (1941-1945 гг.) // Т.А. Новрузов. – Баку, 1963; Əmrahov, M.İ. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində / M.Əmrahov. – Bakı, 2004; Yenə onun, İkinci dünya müharibəsi.1939–1945. Bakı, 2010;

bə ərəfəsində və müharibə illərində yol verilmiş səhvlər və hesablamalar nəticəsində baş verən insan itkisi, əsirlərin taleyi və xalqların deportasiyası məsələləri çoxsaylı ədəbiyyat əsasında təhlil olunmuşdur. Monoqrafiyada Azərbaycan SSR-in müharibədə iştirakı, qələbədəki payı arxiv materialları, dövri mətbuat, statistik külliyyatlar və ədəbiyyat əsasında işıqlandırılmışdır.

Keçən əsrin 90-cı illərindən başlayaraq işıq üzü görən tədqiqatların təhlili göstərir ki, 1941-1945-ci illər müharibəsinə dair konsepsiya dəyişmişdir. Cəmil Həsənlinin İkinci dünya müharibəsi illərində Türkiyə-İran və Rusiya münasibətlərinə həsr etdiyi monoqrafiyalarında məsələnin siyasi tərəfinə toxunulmuşdur. Müəllifin 2015-ci ildə nəşr olunmuş "İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə" monoqrafiyası bir sıra mühüm məqamların üzərinə işıq salmağa kömək edir. Oxucuların ciddi marağına səbəb olan kitabda İkinci dünya müharibəsi illərində Azərbaycan SSR-in beynəlxalq siyasətdə yeri və rolu, 1939-1945-ci illərdə Azərbaycanın Cənubi və Şimalı ətrafında cərəyan edən diplomatik mübarizə, Bakı neftinin dünya siyasətində rolu, SSRİ-nin İran siyasətində Sovet Azərbaycanının iştirakı, respublikanın regional siyasətdə yeri, Cənubi Azərbaycan məsələsinin dövlətlərarası münasibətlərə gəlməsi, Azərbaycan mühacirətinin siyasi, hərbi və diplomatik addımları geniş şəkildə araşdırılmışdır. Müəllif tədqiqat prosesində müxtəlif dövrlərdə nəşr edilmiş sənəd və material toplularına da müraciət etmiş, XX əsrin 30-40-cı illərinə aid müqayisəli təhlil aparılmışdır. Nəşr olunmuş sənəd toplularının müəyyən bir hissəsi II Dünya müharibəsi dövrünü əhatə edir və həmin toplularda SSRİ-nin Şərq siyasəti, hər iki Azərbaycanın bu siyasətdə yeri, neft uğrunda mübarizə və s. məsələlər əhatə olunur. Bu nəşrlərin böyük əksəriyyəti SSRİ dağıldıqdan sonra işıq üzü görən nadir sənədləri özündə əks etdirir.[1]

C.Həsənli tədqiqatın hazırlanması zamanı Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Azərbaycan Respublikası Dövlət Arxivi, Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin Arxivi, Rusiya Federasiyası Xarici Siyasət Arxivi, Rusiya Dövlət

---

[1] Документы внешней политики СССР. Т. XXII. В двух книгах. Москва, 1992; Документы внешней политики. Т.XXШ, кн.1. Москва, 1995; Документы внешней политики. Т.XXIII, кн.2. Москва, 1998; Документы внешней политика. Т.XXIV. Москва, 2000; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т.II. 1930-1939. Москва, 2001; Политбюро ЦК РКП(б) – ВКП(б) повестки дня заседаний. Т.III. 1940-1952. Москва, 2001; Берлинская (Потсдамская) конференция руководителей трех союзных держав – СССР, США и Великобритании (17 июля – 2 августа 1945 г.) Сборник документов. Москва,1984; Московская конференция министров иностранных дел СССР, США и Великобритании (19–30 октября 1943 г.), Москва, 1978; Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том 1. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). Москва, 1995; Сталинские депортации. 1928–1953. Под общ.ред.акад. А.Н.Яковлева. Москва, 2005;

Sosial-Siyasi Tarix Arxivi, Rusiya Federasiyası Dövlət Arxivi, Rusiya Dövlət Ən Yeni Tarix Arxivi, Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivi, Fransa Xarici İşlər Nazirliyinin Diplomatik Arxivi, ABŞ Milli Arxivi və Sənədlər İdarəsi, Corc Vaşinqton Universiteti yanında Milli Təhlükəsizlik Arxivi, Birləşmiş Krallığın Milli Arxivi, Gürcüstan Prezidentinin Arxivi, Ermənistan Respublikası Mərkəzi Dövlət İctimai Siyasi Təşkilatların Sənədləri Arxivi və digər arxivlərin zəngin fondlarından geniş istifadə etmişdir.[1]

Azərbaycan SSR-in müharibədə iştirakı tarixşünaslığını araşdıraraq belə ümumiləşdirmə aparmaq olar ki, müharibənin ən ağır illərində xalq təsərrüfatının müharibənin tələblərinə uyğun qurmaq, ön cəbhəni silah-sursat, ərzaq, texnika və s. ilə müntəzəm təmin etmək üçün arxa cəbhədə adamlar yüksək fədakarlıqlar göstərmiş, ziyalılar öz əmək̇ləri ilə faşizm üzərində qələbəni təmin etmək üçün məqsədyönlü fəaliyyət göstərmişlər.

Müharibə illərində H.Aslanov, M.Əbilov, H.Hüseynov, A.Vəzirov, Y.Abdullayev, A.Abbasov, T.Əliyarbəyov, M.Mahmudov, Y.Quliyev kimi sərkərdələr yetişdi və öz qəhrəmanlıqları ilə Azərbaycan xalqına şöhrət gətirdilər.

Məlumdur ki, Hitler Almaniyasının 1941-ci il iyunun 22-də SSRİ ərazisinə basqını çıxılmaz vəziyyət yaratsa da, sovet rəhbərliyi müəyyən tədbirlər görməyə başladı. 1941-ci il iyunun sonlarında SSRİ Xalq Komissarları Soveti və Ümumittifaq Kommunist Partiyası Mərkəzi Komitəsi cəbhəyanı vilayətlərdə partiya və sovet təşkilatlarına "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" çağırışını etdi. İyunun 30-da SSRİ Ali Soveti Rəyasət Heyəti, ÜİK(b)P MK və SSRİ Xalq Komissarları Soveti İ.V.Stalinin rəhbərliyi altında Dövlət Müdafiə Komitəsi yaratdı və o, ÜİK (b)P MK-nin tapşırığı ilə 1941-ci il iyul 3-də radio ilə SSRİ-dəki xalqlara müraciət etdi.[2]

Ölkədə hərbi səfərbərliyin elan edilməsi, milli diviziyaların yaradılması və onların müharibədə iştirakı məsələləri Azərbaycan milli tarixşünaslığında ətraflı araşdırılmışdır. Müəlliflər Azərbaycanın oğul və qızlarının: "vahid sovet xalqı"nın bir hissəsi kimi cəbhəyə getməsini "kommunizm və sosializm ideyalarına sədaqət" kimi qələmə verir, hərbi səfərbərliyin elan edilməsini digər respublikalarda olduğu kimi Azərbaycan SSR-də də "partiyanın qarşıya qoyduğu ümdə vəzifə" kimi göstərirlər.

Almaniyanın SSRİ-yə hücumu və hərbi səfərbərliyin elan olunmasına İsrafil İsmayılovun 1991-ci ildə nəşr etdirdiyi "Azərbaycan Moskva uğrunda döyüşlərdə" (rus dilində) əsərində ətraflı yer verilmişdir. Moskva uğrunda döyüşlərdə azərbaycanlıların qəhrəmanlığından bəhs edən bu əsərdə göstərilir ki, müharibənin başlanması ilə azərbaycanlı oğlanlar və qızlar vətənin

---

[1]Həsənli, Cəmil. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939–1945) / C.Həsənli. – Bakı, 2015.

[2] İsmayılov, İ. Azərbaycan Moskva uğrunda döyüşlərdə / İ.İsmayılov. – Bakı, 1991. – s.13.

müdafiəsinə qalxdılar və könüllü olaraq ordu sıralarına yazıldılar. Bakı Zenit Artilleriya Alayı Moskvanın müdafiəsində düşmənin 40 təyyarəsini məhv etdi və 104 təyyarəsini zədələdi.[1]

Moskva yaxınlığında vuruşmalarda xüsusi şücaət göstərən Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədovun cəsur qəhrəmanlığına toxunan müəllif on saatlıq döyüş ərzində düşmənin 300 zabit və əsgərini məhv etdiyini, ona Sovet İttifaqı Qəhrəmanı adının verilməsini və şair Q.Stroqanovun "Qəhrəmana nəğmə" şeiri yazıldığını, 127 azərbaycanlının orden və medallarla ilə təltif olunduğunu bildirir.[2]

Qurban Orucovun "Azərbaycan Qafqaz döyüşlərində" əsərində Qafqazın müdafiəsində milli diviziyaların yaranmasının böyük siyasi və hərbi əhəmiyyəti olduğu,[3] faşistlərə qarşı səfərbərliyin elan edilməsi və düşmən üzərində mübarizədə əsas ağırlığın rus xalqının üzərinə düşdüyü vurğulanır. Qafqaz cəbhəsində 66 min 161 nəfər azərbaycanlı döyüşçünün iştirak etdiyini vurğulayan Q.Orucov 223, 402 və 416-cı atıcı diviziyaların döyüş yolundan bəhs edərkən göstərir ki, 18 oktyabr 1941-ci ildə Bakıda yaradılmış 223-cü atıcı diviziya Samur, Sulak, Terek çayı boyunca və Gizilyar, Azamat-Yurt, Xasav-Yurt, Biryuçek və Buynaksda müdafiə qurğuları tikmiş, 416-cı Azərbaycan milli atıcı diviziyası Yuxarı-Çırt Yurt, Akay-Tala, Yekə-Tala, Yekə Bulaq sahələrində müdafiə mövqeyi tutmuşdur.[4]

Qurban Orucovun əsərində 77-ci atıcı diviziyanın Krım və Kerçin müdafiəsində iştirakı, Novorossiysk uğrunda diviziyanın azərbaycanlı döyüşçülərin və komandirlərin şəxsi şücaəti haqqındakı faktlar, diviziyanın cəsur döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov haqqında məlumatları maraqla oxunur. Əsərdə Qafqaz döyüşlərində fərqlənən 402-ci Azərbaycan milli atıcı diviziyasının azərbaycanlı komandirləri A.Abasov, Ə.Abdullayev, M.Məmmədovun döyüş əməliyyatlarına bacarıqla rəhbərlik etdiyi, Mozdok uğrunda döyüşən mayor Akim Abbasovun 833-cü alayının 72 döyüşçüsünün SSRİ orden və medalları ilə təltif olunması barədə də ətraflı məlumatlar vardır.

Azərbaycanda təşkil olunmuş diviziyalardan biri də 416-cı atıcı diviziya idi. Bu diviziyanın döyüş yolu haqqında məlumat verən Qurban Orucov 1373, 1368 və 1374-cü alaylarında olan əsgər və zabitlərin fədakarlığını, Qafqaz uğrunda döyüşlərdə fərqlənən diviziyanın 43-cü atıcı briqadasının taqım komandiri İdris Süleymanovun 1942-ci il dekabrın 13-də Sovet İttifaqı Qəhrəmanı adını layiq görüldüyü, diviziyanın qəhrəman döyüşçüləri Kamil Zülfüqarov, Ziya Bünyadov, Hüseyn İbişov, rabitəçi Rüfət Quliyev, Əşrəf Abdullayev və başqalarının Qafqaz uğurundakı hərbi əməliyyatlarda şəxsi

---

[1] İsmayılov, İ. Azərbaycan Moskva uğrunda döyüşlərdə / İ.İsmayılov. – Bakı, 1991. – s.24.
[2] Yenə orada, s.2.
[3] Orucov, Q. Azərbaycan Qafqaz döyüşlərində / Q.Orucov. – Bakı, 1984. – s.32.
[4] Yenə orada, s.33.

rəşadət göstərdiyi, 5 ay davam edən Qafqaz uğrunda döyüşlərdə Azərbaycan milli diviziyaları Sovet Ordusu ilə birlikdə 100 mindən çox faşist əsgər və zabiti məhv etməsi bildirilir.[1]

R.Zeynalov və L.Borodetskinin 1969-cu ildə rus dilində nəşr etdirdikləri "416-cı Taqanroq" adlı hərbi tarixi oçerkində 416-cı diviziyanın yaranması və onun alman-faşist işğalçılarına qarşı Ukrayna, Belarusiya, Baltikyanı, Moldaviya, Rusiyanın şimal-qərb rayonları və Xəzər ətrafındakı əməliyyatlarda iştirakı, Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərovun, kiçik leytenant Kərim Hacıyevin qəhrəmanlığı,[2] İşer stansiyasındakı igidliyinə görə 144 əsgər və zabitin orden və medallarla təltif olunduğu bildirilir.[3] Oçerkin "Taqanroq – 416-nın şöhrəti" adlı hissəsində göstərilir ki, 1943-cü ilin avqustunda bu diviziya 15 km irəliləyərək Taqanroq körfəzinə çıxmış, 4 ay mübarizədən sonra Sambekdə diviziyanın 56 snayperi 1017 faşist, Taqanroqun azad edilməsi zamanı Baloğlan Məmmədov 57, Calal Məmmədov 48, Mirzə Abdulayev və İsmayıl Abdulayev hər biri 43 hitlerçini məhv etmişlər.[4] Ümumiyyətlə, 416-cı Taqanroq diviziyasının 8 döyüşçüsü Sovet İttifaqı Qəhrəmanı, 358 nəfər "Qırmızı Bayraq" ordeni, 3 nəfər II dərəcəli Kutuzov, 47 nəfər Aleksandr Nevski, 540 nəfər – "Vətən müharibəsi"nin I dərəcəsi, 1756 nəfər II dərəcəsi, 5205 nəfər "Qızıl Ulduz", 34 əsgər və çavuş "Şöhrət" ordeninin tam üç dərəcəsi, 5666 nəfər isə döyüş igidliyinə görə orden və medalları ilə təltif edilmişdi.[5]

416-cı Taqanroq diviziyasının döyüş yoluna həsr olunmuş Sovet İttifaqı Qəhrəmanı, akademik Ziya Bünyadov və Rizvan Zeynalov tərəfindən yazılmış və 1990-cı Bakıda rus dilində nəşr edilən "Qafqazdan Berlinədək" adlı kitabda müharibənin başlanmasından, Azərbaycan milli diviziyalarının yaradılmasından, qəhrəmanların ölməzliyindən və hərbi ənənələrdən bəhs olunur, diviziyanın döyüş yolu "vahid sovet xalqının qələbəsi" kimi göstərilir. Diviziyanın milli tərkibindən bəhs edən müəlliflər bildirirlər ki, diviziyada 11050 azərbaycanlı, 291 rus, 225 erməni, 110 gürcü, Dağıstan xalqlarının 103 nümayəndəsi, 99 ukraynalı, 72 tatar, 28 yəhudi, 23 Belarus olmuşdur.[6] Kitab, həmçinin Qafqazdan Berlinədək döyüş yolu keçmiş azərbaycanlılardan ibarət 77, 416, 223, 402, 396, 227, 271 və 151-ci milli atıcı diviziyaların Avropa xalqlarının faşist işğalçılardan təmizlənməsindəki hərbi əməliyyatlarına dair faktlarla zəngindir.

---

[1] Orucov, Q. Azərbaycan Qafqaz döyüşlərində / Q.Orucov. – Bakı, 1984. – s.70.

[2] Zeynalov, R.Ə., Borodetski, L.S. Qafqaz dağlarının ətəklərindən Berlinədək: hərbi–tarixi oçerk / R.Ə, Zeynalov, L.S.Borodetski. – Bakı, 1965. – s.15.

[3] Yenə orada, s.35.

[4] Yenə orada, s.71.

[5] Yenə orada, s.232.

[6] Буниятов, З.М., Зейналов, Р.Э. От Кавказа до Берлина / З.М.Буниятов, Р.Э.Зейналов. – Баку, 1990. – s.26.

Müseyib Qurbanovun 1954-cü ildə nəşr etdirdiyi "Qələbə yolu" adlı kiçik həcmli kitabında[1] Ukraynanın azadlığı uğrunda xüsusi qəhrəmanlıq göstərmiş Xəlil Fazilov, Xosrov Vahabzadə, Məmmədhüseyn Aşurov və Nəcəf Əminbəyli, Boqdanovka və Elizavetovka şəhərlərinin azad olunmasında fərqlənən azərbaycanlı komandirlərdən H.Hacıyev, M.Məmmədov, S.Əsgərov, C.Haşımov və başqaları,[2] həmçinin Polşa, Çexiya, Slovakiya, Macarıstan, Bolqarıstan, Rumıniya, Albaniya, keçmiş Yuqoslaviya və Balkanlarda azərbaycanlıların hitlerçilərə qarşı amansız mübarizədə fərqlənən azərbaycanlı zabitlərin adları çəkilmişdir. Kitabın "Macar torpağında" hissəsində müəllif Budapeşt və digər şəhərlərin almanlardan təmizlənməsində fədakarlıq göstərmiş igid topçu Ə.Süleymanov, Camal Babayev, Ə.Rüstəmov, Kişinyov-Yassı əməliyyatında batareya komandiri Qoşqar Əliyevin, "Unudulmaz anlar" hissəsində Sovet İttifaqı Qəhrəmanı adını almış Müseyib Allahverdiyev, Çərkəz Qurbanov, rabitəçi Firuz Əliyev, istehkamçı Rais Məmmədov, topçu Həsrət Əliyev, atıcılar Həbibulla Paşayev və Kamal İsgəndərov kimi igidlərin keçdiyi döyüş yolu, təltif olunduqları orden və medallar barədə ümumi məlumatlar vermişdir.

223-cü atıcı diviziyanın siyasi şöbəsinin rəis müavini mayor Ələsgər Qasımovun "Bir diviziyanın mübariz işi və adamları" adlı kitabçasında Ukraynanın Baqdanovka, Kulişey və digər ərazilərdə hitlerçilərin yerli əhaliyə qarşı törətdikləri vəhşiliklər faktlarla göstərilmişdir.[3]

Bununla belə sadalananlara əsasən deyə bilərik ki, Azərbaycan milli ata diviziyalarının yaranması, onların keçdiyi qəhrəmanlıq yoluna dair tutarlı faktlar kifayət qədər deyildir və milli diviziyalarımızın döyüş yolunun öyrənməsinə tam imkan vermir. Bu baxımdan respublikamız müstəqillik əldə etdikdən sonra həm 1941-1945-ci illər müharibəsinin araşdırılması, həm də milli diviziyaların, o cümlədən 223-cü diviziyanın döyüş yoluna dair dəyərli tədqiqatlar aparıldı. Belə tədqiqatlardan biri B.M.Mehdiyev 2000-ci ildə çapdan çıxmış, "223-cü qırmızı bayraqlı Belqrad atıcı diviziyası" kitabı oldu. Müəllif qeyd edir ki, Ali Baş Komandanlığın 18 oktyabr 1941-ci il tarixli əmri ilə 46-cı ordunun Gürcüstandan gəlmiş 168-ci ehtiyat alayı əsasında yaradılan 223-cü ata diviziyanın qərargahı Bakı şəhərində yerləşirdi.[4] 223-cü diviziya Bakıdan Vyanayadək 30 aylıq döyüşdə 10 min kv.km ərazini hitlerçilərdən təmizləmiş, 400 yaşayış məntəqəsini azad etmiş, 50-dən artıq çay keçmiş, 45 min hitlerçini məhv etmiş, 43.500 nəfəri əsir almış, xeyli hərbi texnika ələ keçirmiş, Ali Baş Komandanlıq tərəfindən 11 dara təşəkkür

---

[1] Qurbanov, M. Bir atıcı hissənin qələbə yolu / M.Qurbanov. – Bakı, 1954.
[2] Yenə orada, c.41.
[3] Qasımov, Ə. Bir diviziyanın mübariz işi və adamları / Ə.Qasımov. – Bakı, 1944. – s.9.
[4] Mehdiyev, B. 223–cü Qırmızı Bayraqlı Belqrad atıcı diviziyası / B.Mehdiyev. – Bakı, 2000. – s.11.

almış, Yuqoslaviyanın paytaxtı Belqradın azad edilməsində göstərdiyi qəhrəmanlıqlara görə "Belqrad" fəxri adına layiq görülmüşdür.

Rizvan Zeynalovun "Azərbaycan oğulları Leninqrad uğrunda döyüşlərdə" adlı rus dilində çap olmuş əsərində[1] qırıcı təyyarəçi Hüseyn Əliyevin Leninqrad (Sankt-Peterburq) səmasında iki düşmən təyyarəsini məhv etməsi, 30-a yaxın qəlpə yarası almasına baxmayaraq döyüş təyyarəsini salamat yerə endirməsi, 1941-ci il sentyabrın 27-də onun ölümündən sonra "Lenin" ordeni ilə təltif olunması, 49 döyüş uçuşu keçirən cəsur şahinin Leninqraddan (Sankt-Peterburqdan) 30 km kənarda – Nizina yaxınlığında dəfn edilməsi bildirilir.[2] Kitabda Leninqradın (Sankt-Peterburq) müdafiəsi zamanı 11 düşmən əsgərini məhv etmiş gənc snayperçi İlyas İsmayılov, kəşfiyyatçı N.Mustafayev, Baltik cəbhəsində Hərbi Hava Qüvvələrinin aviasiya alayında bombardmançı kimi xidmət edən həmyerlimiz Ağasəf Səmədov, blokadada olan şəhərdə qəhrəmanlıq göstərmiş baş leytenant Müzəffər Tağıyev və Məhəmməd Muradov haqqında maraqlı məlumatlar verilmişdir.[3]

Əhəd Bağırzadənin 1983-cü ildə nəşr olunmuş "Qəhrəman gənclik" kitabında[4] hər gün yüzlərlə gəncin rayonlarda hərbi komissarlıqlara gələrək, orduya könüllü səfərbər edilmələri, almanların Qafqazı işğal etmək və Bakı neftini ələ keçirmək planları, Azərbaycan gənclərinin 1941-1945-ci illər müharibəsində hərbi əməliyyatlarda iştirakı, Smolensk ətrafında döyüşlərdə fərqlənən azərbaycanlı gənclərdən sərrast atıcı İlyas İsmayılov, pulemyotçu M.İbrahimov, D.Abdullayevin, Smolensk şəhəri ətrafında gənc siyasi rəhbər Nüsrət Bağırovun, Prut çayı sahilində Kamal Qasımovun, igid təyyarəçi M.Ələkbərov, B.Kərimov və başqalarının, Brest qalasının müdafiəsində iştirak edən 40 azərbaycanlı gəncin[5] qəhrəmanlığı faktlarla göstərilmişdir.

1941-1945-ci illər müharibəsində Azərbaycan milli diviziyalarının fəaliyyətindən bəhs edən əsərlərdən biri də Faiq Paşayevin 1975-ci ildə nəşr etdirdiyi "Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində" adlı kiçik kitabıdır.[6]

Alman faşizminə qarşı mübarizədə Azərbaycan milli diviziyalarının yarandığını qeyd edən müəllif 416-cı, 223-cü və 77-ci diviziyaların 44-cü və 58-ci ordunun tərkibində olduğunu, 223-cü diviziyanın Qafqazda Mozdok, Minvod və 50 yaşayış məntəqəsini faşistlərdən azad etməsini, 416-cı diviziyanın Rostov, Azov, Taqanroq və b. cəbhələrdə uğurlu əməliyyatlarından danışır. Taqanroqda düşmənin 10 minədək əsgər və zabitinin, Meliotopol cəb-

---

[1] Зейналов, Р. Сыны Азербайджана в боях за Ленинград / Р.Зейналов. – Баку, 1987.
[2] Yenə orada, s.16.
[3] Зейналов, Р. Сыны Азербайджана в боях за Ленинград / Р.Зейналов. – Баку, 1987. – s.23.
[4] Bağırzadə, Ə.Z. Qəhrəman gənclik / Ə.Z.Bağırzadə. – Bakı, 1957. – s.11.
[5] Yenə orada, s.106.
[6] Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində / F.Paşayev. – Bakı, 1975. – s.4.

həsində diviziyanın 4 min düşmən qüvvəsini məhv edildiyini yazan müəllif 1054-cü və 1374-cü atıcı alayların xüsusi fərqləndiyini qeyd edir, diviziya əsgərlərindən 500 nəfərin müxtəlif orden və medalla təltif olunduğunu göstərir.[1]

Azərbaycan milli atıcı diviziyalarının fəaliyyətindən bəhs edilən əsərlərdən biri Nüsrət Bağırov, Hüseyn Cavadov, Rizvan Zeynalov, Feyvel Feldman və Mixail Xarçenkonun faşizm üzərində qələbənin 30 illiyinə həsr olunmuş "77-ci Simferepol" adlı əsəridir.[2]

1977-ci ildə Fyodor Bokovun rus dilində nəşr etdirdiyi "Azərbaycan oğullarının ölməz igidliyi" əsəri 416-cı milli diviziyasının döyüş yoluna həsr olunmuşdur. Tarixi-hərbi oçerk kimi yazılan bu əsərdə diviziyanın Qafqazdan Berlinədək keçdiyi döyüş yoluna ümumi nəzər salınaraq müharibənin başlanması, Qafqazdakı əməliyyatlar, Ukrayna, Moldaviya, Polşa və Almaniya ərazilərində aparılan əməliyyatlardan söhbət açılır.

"Berlin uğrunda mübarizə" adlanan hissə Berlində 416-cı diviziyanın apardığı hərbi əməliyyatlar və döyüş yollarından, Reyxstaq üzərinə qələbə bayrağını 416-cı diviziyanın azərbaycanlı leytenant Rəşid Məcidovun əsgərlərinin asmasına baxmayaraq, digər müəlliflər kimi F.Bokov da 756-cı atıcı alayın 1-ci batalyonunun döyüşçüləri İ.Eqorov və M.Kantariya olduğunu yazır, "Kayzer Vilhelm sarayına hücum" adlı hissədə 416-cı diviziyanın 1373 və 1374-cü alaylarının mayın 1-də sarayın hücumla almasından, baş leytenant Vahab Osmanovun və başqalarının qəhrəmanlıqlarından, diviziyanın Berlin şəhərindəki döyüşləri haqqında məlumatlar verilir.

Sovet İttifaqı Qəhrəmanı Müseyib Bağırovun 1974-cü ildə rus dilində çapdan çıxmış "Volqadan Dunayadək" kitabında da milli diviziyalarımızın döyüşçülərinin müharibədə iştirakı haqqında ümumi məlumat vardır.[3]

Azərbaycanlıların müharibədə iştirakından bəhs edən tarixi – oçerklərdən biri də Məzahir Abasovun Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovdan bəhs edən əsəridir.[4] M.Abasov oçerkin yazılmasında dövrün arxiv və mətbuat materiallarından istifadə edərək A.Vəzirovun həyat yoluna nəzər salmış, onun Qraundents, Dantsiq, Qdınya kimi şəhərlərə hücumda fəal iştirakı, Oder çayının Ferdinandştayn-Qrayfanxagen hissəsindəki döyüş cəbhəsinə rəhbərliyi,[5] 1941-ci ilin noyabrında onun "Qırmızı Bayraq" ordeninə layiq görülməsi, Cənub Cəbhəsində Orexov altında mühəndis hərbi qüvvələrinə rəhbərlik etməsi, Ukrayna Cəbhəsindəki qəhrəmanlığı, 1943-cü ilin iyunun 18-də polkovnik rütbəsinə layiq görülməsi, onun rəhbərlik etdiyi mühəndis-

---

[1] Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində / F.Paşayev. – Bakı, 1975, s.11.

[2] Багиров, Н.Т., Джавадов, Й.А., Зейналов, Р.Е., Фелдман, Ф.Г., Харченко, М.О. 77-я Симферопольская / Н.Т. Багиров, Й.А.Джавадов, Р.Е.Зейналов. – Баку, 1981.

[3] Багиров, М. От Волги до Дуная / М.Багиров, и.д. – Баку, 1974.

[4] Абасов, М. Через всю войну (А.Везиров) / М.Абасов. – Баку, 1983.

[5] Yenə orada, s.9.

istehkam alayının fəaliyyəti və mühəndis – istehkamçıların gördüyü işlər geniş əks olunmuşdur. Müəllif yazır ki, 1944-cü il iyunun 28-də Dnepr ətrafına uğurlu istehkam qurularaq düşmənin 3400 nəfər əsgər və zabiti əsir götürülmüş, 70 tank və 200-dən çox minomyot, 840 maşın, 30 min mərmi məhv edilmişdir.[1]

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun 1987-ci ildə rus dilində nəşr etdirdiyi "Şöhrət və ölməzlik məktubları"nda da müharibənin başlanma səbəbləri, səfərbərliyin elan edilməsi və Azərbaycan SSR-in müharibədə iştirakı sənədlərlə təsvir olunmuşdur.[2] Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanova aid biblioqrafik göstəricidə olan məlumatlar tarixşünaslığımız üçün əhəmiyyətlidir.[3]

Ə.Fətəliyev tərəfindən tərtib edilən "Azərbaycanın mərd oğulları" kitabında Sovet İttifaqı Qəhrəmanları İsrafil Məmmədov, Mehdi Hüseynzadə, Gəray Əsədov, Qafur Məmmədov, Ziya Bünyadov və onlarla azərbaycanlı qəhrəmanların döyüş yolu haqqında ümumi məlumatlar verilmiş, ən mühüm hadisələr göstərilmişdir.[4]

X.Aslanovun 1943-cü ildə nəşr etdirdiyi "Azərbaycan oğulları Stalinqrad uğrunda vuruşmalarda" kitabçasında Baloğlan Abbasov, H.Aslanov, Davud Səfərov və digər azərbaycanlı döyüşçülərin əməliyyatlarda iştirakı, orden və medallarla təltif olunması göstərilmişdir.[5]

Azərbaycanlıların milli diviziyalarda döyüş yolundan bəhs edən əsərlərdən biri də keçmiş 416-cı atıcı diviziyanın zabitləri Rizvan Zeynalov, Lev Borodetski və Həsən Qasımovun yazdıqları "Mübariz gəncliklə görüş" əsəridir. Əsərdə Brandenburq ətrafında igidlik göstərən Mehdi Mahmudov, Ağaşirin Cəfərov, Bəhyəddin Mirzəyev, Həsən Qasımov, Sabit Manafov, Akif Əliyev, Abdulla Şıxkərimov və digərlərinin 416-cı atıcı diviziyanın tərkibində keçdikləri döyüş yoluna nəzər salınmışdır.[6]

Azad Hüseynov və Heydər Mirzəyev tərəfindən yazılmış və 2015-ci ildə nəşr edilmiş "Azərbaycan 1941-1945. Aleksandr Nevski ordenli cəngavərlərimiz" adlı kitabda **A.Nevski ordeninə layiq görülmüş 82 azərbaycanlı əsgər və zabit**,[7] 2015-ci ildə qələbənin 70 illiyi münasibəti ilə Milli Aviasiya Akademiyasının nəşr etdirdiyi "Azərbaycan təyyarəçiləri Böyük

---

[1] Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində / F.Paşayev. – Bakı, 1975, – s.41.

[2] Абасов, М., Мусаева Т. Письма славы и бессмертия (1941-1945) / М.Абасов, Т.Мусаева. – Баку, 1987.

[3] Sovet İttifaqı Qəhrəmanı H.Aslanov. Biblioqrafik göstərici. Bakı, 1985, s.27.

[4] Fətəliyev, Ə. Azərbaycanın mərd oğulları / Ə. Fətəliyev. – Bakı, 1959.

[5] Aslanova, X. Azərbaycan oğulları Stalinqrad uğrunda vuruşmalarda / X.Aslanova. – Bakı, 1943. – s.17.

[6] Зейналов, Р., Бородетски, Л., Касымов, Г. Встреча с боевой молодостью / Р.Зейналов, Л.Бородетски, Г.Касымов. – Баку,1968. – с.22.

[7] Hüseynov, A., Mirzəyev H. Azərbaycan 1941-1945. "Aleksandr Nevski" ordenli cəngavərlərimiz / A.Hüseynov, H. Mirzəyev. – Bakı, 2015.

Vətən müharibəsində (1941-1945)" adlı kataloqda **152 nəfər təyyarəçinin orden və medallarla, 210 nəfərin isə "Qafqazın müdafiəsinə görə"** medalı ilə təltif olunduğu bildirilir. Azərbaycan tarixşünaslığında Bakının hava hücumundan müdafiə-sinə dair tədqiqatlar azlıq təşkil etsə də, kataloqdan müharibə dövründə Bakını 27-ci və 71-ci qırıcı aviasiya diviziyalarının qoruduğu, düşmənin 74 kəşfiyyat hücumu həyata keçirdiyi, 1942-ci il avqustun 14-də qırıcı təyyarəçilər V.Borisov və A.Şerbinokun Bakı səmasında 8 kəşfiyyat uçuşu edən düşmən təyyarəsini vurduğu, Ziba Dadaşova və Zərifə Qasımova kimi qadın təyyarəçilərimizin Bakının səmasının təhlükəsizliyində və müdafiəsində yaxından iştirak etdikləri qeyd olunmuşdur.[1]

Musa Bağırovun müəllifi olduğu "Sərkərdənin taleyi"[2] kitabında iki dəfə Sovet ittifaqı Qəhrəmanı, tank qoşunları qvardiya generalı Həzi Aslanovun 1941-1945-ci illərdə keçdiyi döyüş yolu və Azərbaycan sovet tarixşünaslığında "unudulmuş" müəmmalı ölümünün səbəbləri, 1944-cü ildə 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına təqdim olması ilə bağlı faktlar burada öz əksini tapmışdır. Kitabın "Generalın müəmmalı ölümü" bölməsində M.Bağırov yazır ki, H.Aslanovun rəhbərlik etdiyi 35-ci tank briqadası 3-cü Belarusiya Cəbhəsindən 1-ci Pribaltika Cəbhəsinin komandanlığına verilir. Bu cəbhənin komandanı İ.X.Baqramyan idi. O, Həzi Aslanovu qətlə yetirmək üçün plan qurur və buna nail olur. Ağır yaralanan H.Aslanov 22 saat sağ qalır və onu müalicəyə aparmaq üçün Moskvadan gələn təyyarə o yatan evin arxasında dayanır.[3] Əsərdə həmin hadisənin şahidləri olan polkovnik Klimenko və mayor Beqiaşvilinin bu qətl barədə xatirələri və generalın müxtəlif döyüş səhnələrinə aid fotoşəkilləri verilmişdir.

Azərbaycan milli tarixşünaslığında azərbaycanlıların **ön cəbhədə və Avropada antifaşist, müqavimət, eləcə də, partizan hərəkatına** dair tədqiqatlar aparılıb. Təbii ki, müəlliflər bu problemə dair nəşr etdikləri əsərlərində azərbaycanlıların ön cəbhədəki əməliyyatlarda qəhrəmanlığını, Avropada müqavimət, antifaşist və partizan hərəkatında iştirakını sovet ideoloji konsepsiyası çərçivəsində izah etmişlər.

1941-1945-ci illər müharibəsində Azərbaycanın iştirakına aid çoxlu yeni əsərlər yazılmışdır. Bu əsərlərin içərisində azərbaycanlıların ön cəbhədə, Avropada antifaşist, müqavimət və partizan hərəkatında iştirakı tarixşünaslığın müasir tələbləri baxımından araşdırılmış, Sovet dövründə obyektiv səbəblərdən nəşrə getməyən arxiv materialları dövriyyəyə gətirilmişdir. Belə əsərlər sırasına Vəli Həbiboğlu və Tələt Əliyev tərəfindən 2006-cı rus dilində nəşr olmuş "Böyük Vətən müharibəsi illərində Krımın azadlığı uğrunda

---

[1] Hüseynova, F., Muradova Y. Azərbaycanın təyyarəçiləri Böyük Vətən müharibəsində (1941-1945) / F.Hüseynova,Y.Muradova. – Bakı, 2015. – s.76.

[2] Bağırov, Musa. Sərkərdənin taleyi / M.Bağırov; Red.: T.Aydınoğlu. – Bakı, 1999. – s.142.

[3] Yenə orada, s.192.

həlak olmuş azərbaycanlılar" adlı əsəri daxil etmək olar. Çoxsaylı arxiv materiallarına əsaslanan müəlliflər Krımın alman faşistlərinin maraq dairəsində olmasını əsaslandırmış, Sevastopol, Yalta və Sapun dağı uğrunda gedən döyüşlərdə 17-ci alman ordusunun 100 mindən çox itki verdiyini, 61.587 nəfərin əsir götürüldüyünü qeyd etmişlər.[1]

2014-cü ildə Azad Hüseynov tərəfindən rus dilində hazırlanmış "Azərbaycan 1941-1945. "Şöhrət" ordeninin kavalerləri" əsərində "Şöhrət ordeni"nin tam üç dərəcəsini almış 15 azərbaycanlı, həmin ordenin 2-ci dərəcəsini almış 180 nəfər azərbaycanlı haqqında geniş məlumat verilmişdir.[2] Kitabdan məlum olur ki, "Şöhrət" ordeninin kavalerləri arasında 135 atıcı hissə və birləşmə, 16 dağatıcı, 15 tankəleyhinə, 9 kavaler, 5 havadesant, 8 artilleriya, 4 mühəndis-istehkamçı, 2 dəniz və 1 atıcı bölmə olmuşdur.[3] Bunların arasında hərbi mütəxəssis kimi 60 atıcı döyüşçü, 26 pulemyotçu, 26 artilleriyaçı, 25 kəşfiyyatçı, 19 minaatan, 18 minaaxtaran, 6 zirehdağıdıcı, 4 tankçı, 3 rabitəçi, 3 sanitar, 2 snayperçi, 1 kavaler, 1 silah ustası və 1 atıcı vardır.

Qriqori Jilyayevin "Partizan qeydləri" əsərində Ukraynada azərbaycanlı partizanlardan Qədir İskəndərov, Cabbar Əliyev, Qulamhüseyn Əliyev, Novruz Novruzov, Mirzəcan Mirzəcanov, Bayram Əzizov, Məmməd Saddilayevin döyüş yolu haqqında qısa məlumatlar verilmiş, onların İtaliyada antifaşist fəaliyyəti faktlar və sənədlərlə göstərilmişdir.[4]

Mayıl Alıcanovun "Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər)" adlı əsəri azərbaycanlıların partizan və Avropada müqavimət hərəkatında fəaliyyətindən bəhs edən fundamental əsərlərdən biridir.[5] Əsərdə Ukrayna ərazisində Xarkov vilayətində partizan hərəkatının təşkilatçılarından biri sonralar ictimai-siyasi fəaliyyətlə məşğul olan Vəli Axundov və onun döyüş yolu, S.Kovpakın rəhbərlik etdiyi Sumsk partizan birləşməsində 20-dən çox azərbaycanlının olduğu göstərilmişdir.[6] Kitabdakı "Gənc qvardiya" gizli təşkilatının üzvü Əli Dadaşov, Xanlar Babanlı, Nadir Teymurzadə, İsmayıl Nəbiyev, Məmməd Əliyev, Aslan İbadov, Mirzəli Hacıyev, partizan qızlar Alfa Şirazi, Sara İbrahimova, azərbaycanlılardan ibarət Şors adına partizan dəstəsinin 18 ay ərzində Ukraynanın Slavuta meşələrindən keçmiş Çexoslovakiyanın Tatra dağlarınadək döyüş yolları

---

[1] Гебибоглу, В., Алиев Т. Азербайджанцы, повщие в боях за освобождение Крыма в годы Великой Отечественной Войны / В.Гебибоглу, Т.Алиев. – Баку, 2006. – с.12.

[2] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена славы / А.А.Гусейнов.– Баку, 2014.

[3] Yenə orada, s.476.

[4] Жиляев, Г. Записки партизана / Г. Жиляев. – Баку, 1957. – с.90.

[5] Alıcanov, M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər) / M.Alıcanov. – Bakı,1975. – c.42.

[6] Yenə orada, s.55.

keçməsi,[1] Belorusdakı "Dyadya Kolya" partizan birləşməsində "Suvorov" adına partizan dəstəsinin komandiri Ələkbər Əliyev, "İskra" partizan dəstəsində taqım komandiri Məmməd Məmmədov, "Kommunist" partizan dəstəsinin taqım komandiri İsa Hüseynov, Minsk vilayətində Zəfər Qədimov, "Qroznı" partizan dəstəsində Qara Qurbanovun, Krım vilayətində Hacı Hüseynov, Həsən Əliyev, Qara İsmayılov, Kamil Səfərov, Əhməd Nağıyev, Vəli Xəlilov, Ələkbər Cabbarovun, Krımda 33 böyük partizan dəstəsindən birinin 90% azərbaycanlılardan ibarət olan 8-ci Azərbaycan partizan dəstəsinin döyüş əməliyyatlarında iştirakı haqqında məlumatlar maraqla oxunur və qürur hissi doğurur.[2]

Mayıl Alıcanovun əsərində Litva uğrunda gedən döyüşlərdə azərbaycanlı partizanların qəhrəmanlığına toxunulmuş, "Azad Litva" partizan dəstəsinin döyüşçüsü İsgəndər Alxasov və onun döyüş yolu haqqında ətraflı məlumat verilmişdir.[3]

Sabir Məmmədovun "Azərbaycanın qəhrəman qızları" əsərində isə Leyla Məmmədbəyova, Sona Nuriyeva və Züleyxa Seyidməmmədova haqqında, Sevastopolun müdafiəsində igidlik göstərən Əsmər Həsənova, Kübra Məmmədova, Lətafət Məmmədova və Pakizə Vahabovanın 44-cü diviziya tərkibində qəhrəmanlığı, 416-cı diviziyanın 152 döyüşçü qadınından 45 nəfəri "Qızıl Ulduz" ordeni, 42 nəfəri isə "İgidliyə görə" və "Döyüş xidmətlərinə görə" medalları ilə təltif edildiyini[4] haqqında yazılar maraqla oxunur.[5] Əsərdə ilk "Qırmızı ulduz" ordeni ilə təltif edilmiş şəfqət bacısı Böyükxanım Mircavadova, tibb bacısı Zəhra Səlimova, snayperçi Ziba Qəniyeva, Aliyə Azərli, 56-cı ordunun 17-ci atıcı diviziyasının həkimləri Qumru və Qönçə Qaragözova bacıları, partizan hərəkatında iştirak edən Aliyə Rüstəmbəyova, Krımda Fatma Səlimova və Gülsüm Əliyeva, İtaliyada Mədinə Əhmədova, Sovet qoşunlarının tərkibində Yaponiyaya qarşı döyüşən Təzəxanım Əzimzadə, Cəvahir Abbasova, Mülayim Cəfərova və Fəridə Vəzirovanın igidliyi haqqında məlumatlar[6] gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsində istifadə oluna bilər.

Avropada partizan hərəkatının aparıcı liderlərindən biri, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə haqqında müxtəlif məzmunlu əsərlər yazılmışdır. Belələrinə Qaraş Mədətovun,[7] Şəmistan Nəzirlinin,[8] Yuqosla-

---

[1] Alıcanov, M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı (1941-1944-cü illər) / M.Alıcanov. – Bakı,1975, s.121.
[2] Yenə orada, s.201.
[3] Yenə orada, c.241.
[4] Məmmədov, S. Azərbaycanın qəhrəman qızları / S.Məmmədov. – Bakı, 1988. – s.61.
[5] Yenə orada, s.27–29.
[6] Məmmədov, S. Azərbaycanın qəhrəman qızları / S.Məmmədov. – Bakı, 1988. – s.111.
[7] Mədətov, Q. Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə / Q.Mədətov. – Bakı, 1975. – s.570.
[8] Nəzirli, Ş. Əfsanəvi Mixaylo / Ş.Nəzirli. – Bakı, 1988.

viyada antifaşist və partizan hərəkatında M.Hüseynzadə ilə birlikdə hitlerçilərə qarşı mübarizə aparmış Mirdaməd Seyidovun "Partizanın qeydləri"[1] kitablarını göstərmək olar.

Avropada antifaşist, müqavimət və partizan hərəkatında iştirak edən azərbaycanlılar haqqında dəyərli tədqiqatlardan biri Ruqiyyə Əliyevanın "Avropada müqavimət hərəkatında azərbaycanlılar" adlı əsəridir. Xarici ölkələrin arxivlərindən və dövri mətbuatdan istifadə olunaraq hazırlanan və rus dilində nəşr olunmuş bu kitabda Avropadakı partizan hərəkatının fəalları olan həmyerlilərimiz barədə ümumi məlumat, o cümlədən İtaliyada və Sloveniyada şücaət göstərmiş Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə, Cavad Həkimli, Qədir İsgəndərov, Əli Quliyev və Hüseyn Bayramovun döyüş yolu, hitlerçilərə vurduğu zərbələr, aldıqları orden, medal və fəxri fərmanların surətləri verilmiş,[2] Fransada yerli müqavimət hərəkatının və partizan dəstələrinin fəalları olan Əhmədiyyə Cəbrayılov, Nuri Abdullayev, Hüseyn Məmmədov,[3] İtaliyada qəhrəmanlıq göstərən Məmməd Bağırov, Əli Babayev, Mirzə Şahverdiyev, Fazil Sadıxov, Xançoban Cəfərov və başqalarının həyat və döyüş yolları barədə məlumat verilmiş, onların iştirak etdikləri hərbi əməliyyatlar, aldıqları hökumət və dövlət təltifləri göstərilmişdir.

Emin Əliyevin 2008-ci ildə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün müdafiə etdiyi dissertasiyada SSRİ-nin Kalinin vilayətində İsmayıl Əliyevin, Rumıniyada Vəli Axundovun, Ukraynada Babaş Dadaşovun və Məmməd Əliyevin, Belorusiyada Ziyəddin Mirzəyevin, Litvada İsgəndər Alxasovun və Latviyada Qəzənfər Şabanovun,[4] "Müqavimət hərəkatında azərbaycanlıların iştirakı" adlanan sonuncu fəsildə Fransadakı azərbaycanlı partizanlardan Zabit Mirzəxan Məmmədovun rəhbərliyi altında azərbaycanlıların hitlerçilərə qarşı əməliyyatından bəhs edilir.[5]

İtaliyada müqavimət hərəkatının iştirakçısı olan həmyerlilərimizdən Məmməd Bağırov, Həmzə Əsgərov, Mikayıl Abdulayev, Şərif Şərifov, Xançoban Cəfərov, Hilal Cavadov və Vilayət Hüseynov, İsmayıl İbrahimov, Yuqoslaviya ərazisində partizan hərəkatında iştirak edin. M.Hüseynzadə, Cavad Həkimli, Ağazadə, Mirdamət Seyidov, Əli Əliyev, Heydər Məmmədov və başqalarının döyüş yolu barədə məlumatlar vardır.[6]

---

[1] Seyidov, M. Partizanın qeydləri / M.Seyidov. – Bakı, 1960.

[2] Алиева, Р. Азербайджанцы в европейском движении сопротивления / Р.Алиева. – Баку, 2005. – с.25.

[3] Yenə orada, s.71–159.

[4] Yenə orada, c.76.

[5] Алиева, Р. Азербайджанцы в европейском движении сопротивления / Р.Алиева. – Баку, 2005. – s.94.

[6] Yenə orada, s.124.

Ə.Əlişanbəyli Fransada müqavimət hərəkatının fəallarından olan Əhmədiyyə Cəbrayılovdan bəhs edən "Döyüş yollarında" kitabında onun həyat və döyüş yoluna nəzər salmışdır.[1]

1941-1945-ci illər müharibəsi zamanı Berlində təsis edilən və fəaliyyət göstərən Mühacir Azərbaycan Komitəsi və azərbaycanlı legionların müharibədə iştirakı Azərbaycan sovet tarixşünaslığında tədqiq edilməyən mövzulardandır. Doğrudur, Sovet dövrünün sərt inzibati amirlik sistemi və Kommunist Partiyasının siyasi ideoloji konsepsiyasından kənara çıxa bilməyən tədqiqatçılar bu mövzunu ətraflı araşdırmamış, A.Hitler ordusu tərəfində SSRİ-yə qarşı vuruşan azərbaycanlılardan təşkil olunmuş legionerlərin döyüş yolu və hərbi fəaliyyəti araşdırmadan kənarda qalmış, yalnız müstəqillik illərində yenidən geniş araşdırılmağa başlanılmışdır. Təəssüf hissi ilə bildirməliyik ki, son tədqiqatlarda da problemə münasibətdə ikili standartlar hiss olunmaqdadır. Belə ki, İkinci dünya müharibəsi illərində Azərbaycanın azadlığı uğrunda mübarizə aparan Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri M.Ə.Rəsulzadənin siyasi fəaliyyəti birtərəfli araşdırıldığından bəzi müəlliflər onu hitlerçilərlə əməkdaşlıqda ittiham edir, "sosializmin düşməni" kimi göstərirlər.

M.Ə.Rəsulzadənin müharibə zamanı A.Hitler ilə görüşərək azərbaycanlı hərbi əsirlərin həyatı ilə maraqlanması, onların yəhudilərlə birlikdə soyqırıma məruz qalmasından xilas edilməsi, müharibədən sonra azərbaycanlı legion üzvlərinin taleyinə biganə qalmayaraq onlara dəstək olması və Azərbaycan həqiqətlərini dünyaya çatdırması kimi faktlara müasir tarixşünaslığımızda daha çox rast gəlinir.

Faşist Almaniyasının bu planına Azərbaycan mühacirətinin, xüsusilə M.Ə.Rəsulzadənin baxışı tamamilə fərqli idi. Mühacirətin əsas məqsədi Sovet işğalının aradan qaldırılması, müharibə nəticəsində əsir düşmüş həmvətənlərin xilas olunması idi. Oktay Rəfili (ədəbi təxəllüsü Eldəgiz) "Reyxstaqda düşbərə" adlı məqaləsində yazır ki, Türkiyə ilə SSRİ arasında olan dostluq və əməkdaşlıq İ.Stalinə imkan verirdi ki, Atatürkdən bolşeviklərə qarşı fəal təbliğat aparan "Müsavat" partiyasının liderlərinin ölkədən çıxarılmasını tələb etsin. ...Atatürk ürək ağrısı ilə "Müsavat" funksionerlərinin ölkədən çıxarılmasına məcbur olmuşdu. M.Ə.Rəsulzadə və onun sadiq silahdaşları ölkədəki vəziyyəti bildiklərindən bunu sakit qarşılamış, "Müsavat" fəalları Almaniyaya gəlmişdilər.

M.Ə.Rəsulzadə Avropaya getməzdən əvvəl M.K.Atatürkün iqamətgahında onunla görüşür. Görüşdə Atatürk Məmməd Əmin Rəsulzadəyə müraciət edərək deyir: "Əmin bəy, mən səndən bir neçə yaş böyük olsam da, ancaq bayrağı, türk xalqının azadlıq bayrağını sən qaldırdın. Və dedin, "**Bir dəfə qalxan bayraq, bir daha enməz**"! Ancaq mən bu bayrağı tutdum və öz türk xalqımın üzərində dalğalandırdım! Sən dedin: Bu bayraq enməyəcək!!!

[1] Əlişanbəyli, Ə. Döyüş yollarında / Ə.Əlişanbəyli. – Bakı, 1965. – c.64.

Belə də olacaq!”. Əziz qardaşım, deyir Rəsulzadə – türk dünyasının azadlıq bayrağı ikidir, biri sənin əlində, digərinə isə mən söykənmişəm. Allaha yalvarıram, Avropadan qayıdana kimi Azərbaycanda xalq hakimiyyəti qalib gəlsin və biz bu bayraqla Azərbaycana daxil olaq.[1]

Mustafa Kamal dedi: “... Bu günlərdə mən Rusiyanın səfiri ilə mübahisə etdim. Səfir, “sənin dostun” Stalinə istinad edərək, dedi, nə üçün Azərbaycana azad türk dövləti lazımdır. Onlara bu lazım deyil. Artıq dünyada Türk dövləti vardır. Mən ona etiraz etdim. Əmin bəy, dedim, Azərbaycan türklərinin öz suverenlik hüququ vardır və onların tarixdə öz yeri, dövləti vardır, əgər onlara lazımdırsa, xalq özü yaradacaq. Bu gün biz Sizi əsir düşən, yəhudilər kimi güllələnən milyonlarla öz soydaşlarınızı xilas etmək üçün bizə dost olan Almaniyaya yola salırıq.

Bu gün bolşeviklər 27 apreli bayram edirlər, biz isə həlak olanlara qüssələnirik və onlar istəyirlər tarixdən 28 mayı – ADR-in yarandığı günü silsinlər. Yaddan çıxarmaq lazım deyildir ki, Türkiyənin böyük düşməni kommunist, bolşevik diktaturasıdır”.[2]

M.Ə.Rəsulzadə Almaniyada 116 min müsəlmanı ölümün pəncəsindən xilas etdi.[3] Hitlerlə sonuncu görüşündə M.Ə.Rəsulzadə böyük seçim qarşısında qaldı. Reyxstaqda fürerin şəxsi yeməkxanasında M.Ə.Rəsulzadənin nümayəndə heyətinə verilən günorta yeməyində Adolf Hitlerdən başqa 2-ci ordunun komandanı Keytel, Bormanın 2-ci adamı Mendel də iştirak edirdilər. Fürerin şəxsi aşpazı süfrəyə xüsusi kasada bakılıların milli yeməyi olan sirkə və sarımsaqla yeyilən düşbərə verir. Bu Azərbaycandan olan qonaqları çox təəccübləndirir. Hamı düşbərə yeyir. Sonralar aydınlaşır ki, aşpazın atası sovet illərində Azərbaycan torpağında – Gədəbəydə yaşamış, Azərbaycan mətbəxini sevmişdir.[4]

Oktay Rəfilinin “Reyxstaqda düşbərə” adlı məqaləsində M.Ə.Rəsulzadənin A.Hitlerlə görüşünə də toxunulur. Oktay Rəfili yazır ki, “Şərq Nazirliyinin başqanı **Rozenberq**, onun köməkçisi Mayor və şöbə müdiri fon Mende o vaxtkı taleyimiz üçün önəmli daha bir addım atdılar. Müsavat rəhbərimizin fürerlə üz-üzə diplomatik görüşünü həyata keçirdilər. 8 dekabr 1943-cü ildə Reyxstaqın zirzəmisindəki fürerin şəxsi aşxanasında süfrə başında Hitler, qərargah rəisi Keytel, 2-ci ordu komandanı Mendel, imperiyanın 2-ci şəxsi Borman və yuxarıda sözü gedən üç nəfər, bir də fürerlə qarşı-qarşıya əyləşmiş **Məmməd Əmin Rəsulzadə** saat düz 13.00-da mərhamanə bir söhbətə başladılar. Sükutu fürer pozdu:

---

[1] Джаханнури (Гашимова), Фарида. Жертвы сталинских репрессий в Азербайджане / Ф.Джаханнури. – Баку, 2010. – с.25.

[2] Yenə orada, s.26.

[3] Yenə orada, s.61.

[4] “Bəhdəd” qəzeti, 2002, 26 dekabr.

Fürer: – Cənab Rəsulzadə, inişil Azərbaycan legionerləri önündəki çıxışınızda onların, guya öz azadlıqları uğrunda mübarizəyə qalxan xalqlara qarşı vuruşlarını istisna etmişsiniz. Bu doğrudurmu?

Son on sənədə alman, polyak və rumın dillərini kamil mənimsəmiş öndərimiz məclisdə mütərcimsiz ilk sözünü gizlətmədən söylədi:

M.Ə.Rəsulzadə: – Bəli, cənab fürer. Biz yalnız rus bolşevizminə zərbə vurmaq üçün alman ordularına dəstək vermək istərdik.

Bu zaman süfrəyə 7 yaşıl dərin çini kasa gətirildi. Sirkə fincanlarına və buğlanan nanəli isti düşbərə kasalarına heyrətlə göz qoyan öndər, sağ tərəfində oturmuş **Rozenberq**in boğuq səsini eşitdi:

Rozenberq: – Cənab Rəis. Bizim əzəmətli fürerimizin baş aşpazı sizin Gədəbəyin mis mədənlərinin hörmətli aparıcı mühəndisinin yeganə oğludur. Görünür, sizin diyarın ləziz xörəklərindən birini bugünkü varlığa (menyu) salarkən, o günlərinə qayıtmaq istəyib.[1]

Fürer ağ çörək tikəsini barmaqları ucunda sıxaraq "Müzəffər alman orduları bolşeviklərlə tarixi işini bitirən kimi mən Sizi güneyli-quzeyli Bütöv Azərbaycanın və tamam Qafqazın baş canişini təyin edəcəyəm. Razısanmı? – deyə müsahibinin düz gözlərinin içinə baxdı.

M.Ə.Rəsulzadə: – Razıyam, cənab kansler. Bir şərtim var, gərək qalib Almaniya mənim Bütöv Azərbaycanımın dövlət müstəqilliyini tanısın, suverenliyimizə hörmətlə yanaşsın.

Hitler əsəbi görkəm aldı, lakin birdən sakitcə bunları dedi: – "Bakı ayrıca coğrafi-siyasi vahid, siz isə bu böyük bölgənin canişin hakimi olursunuz, cənab Rəsulzadə".

Müsavat başqanı yenə cəsarətlə etirazını bildirdikdə, artıq boş kasaların diblərinə son qaşıqlar enirdi.

Fürer daha kəskin səslə ucadan qışqırdı: – "Mən sizə geniş fəaliyyət dairəsi bağışlayıram. Bir də düşünün".

Öndərimiz qətiyyətlə bildirdi: – "Cənab fürer, mən də sizin kimi, vətənimin azadlığı və istiqlal arzularını əziz tuturam. Müsavat, Bütöv Azərbaycan sizin Almaniyanın etibarlı müttəfiqi olacaq".[2]

Fürer masadan qalxır, başını yelləyir. Görünür hələ heç bir qonaq, ona tabe olan heç bir kəs fürerlə belə açıq danışmamışdı, bunu Azərbaycan lideri etdi. Fərq aydındır. Erməni liderləri torpaq iddia edir, Azərbaycan lideri isə xalqına azadlıq, suverenlik.

Sovet Ordusunun zabiti olmuş Əbdürrəhman bəy Fətəlibəylinin (Düdənginski) hitlerçilərlə əməkdaşlıq etməsi və Mühacir Azərbaycan Komitəsi yaradaraq Azərbaycanın istiqlaliyyəti üçün mübarizəsi də müasir tarixşünaslığımızda birmənalı deyildir.

---

[1] "Bəhdəd" qəzeti, 2002, 26 dekabr.
[2] "Bəhdəd" qəzeti, 2002, 26 dekabr.

Azərbaycan legionlarının fəaliyyəti haqqında kitablar nəşr olunmuşdur. Belə nəşrlərdən biri 2009-cu ildə işıq üzü görmüş görkəmli Avstriya tarixçisi, yazıçı Erix Fayqlın alman dilindən tərcümə edilmiş "İpək yolu üzərində Odlar yurdu – Azərbaycan tarixi" kitabıdır.[1] Kitabın "Aslan", "Dönməz" və "İgid" bölmələri araşdırdığımız mövzu baxımından maraq kəsb edir. Kitabın müsbət cəhətləri ilə yanaşı çatışmazlıqları da vardı. Milliyyətcə alman olan Erix Fayqlın kitabında bəhs olunan məsələdə alman komandanlığına, dolayısı ilə Hitlerə haqq qazandırmağa cəhd olunur, sovetlər birliyi işğalçı, milli-azadlıq hərəkatını boğan, müstəqilliyin düşməni kimi göstərilir. Müəllif fəslin əvvəlində[2] qeyd etsə də, araşdırmadan məlum olur ki, batalyonların rəhbəri alman idi. Tarixşünaslığın təhlilinə istinadən deyə bilərik ki, İkinci dünya müharibəsi "...bir-birinə əks olan iki düşüncənin, iki ideologiyanın, iki hərbi qüvvənin qarşılaşması, dünyanı yenidən nüfuz dairələrinə bölmək uğrunda aparılan mübarizə idi. Bu müharibədə hansı tərəfin haqlı və haqsız olduğunu söyləmək və qiymətləndirmək, birini düşmən, digərini mələk kimi qələmə vermək ...ədalətsizlik olardı. Yalnız bir həqiqəti etiraf etmək lazımdır ki, mənəvi-mədəni amil bu müharibədə həlledici şərtlərdən biri olmuş", adamların yüksək vətənpərvərliyi, vətəndaşlıq şüuru, əzmkarlıq və mərdlik kimi mənəvi keyfiyyətlər qələbədə mühüm rol oynamışdır.

Mühacir Azərbaycan hökuməti və milli legionlarımızın fəaliyyətinə tarix elmləri doktoru Tahir Qafarovun 1993-cü ildə çap olunmuş məqaləsində daha geniş toxunulub. Müəllif yuxarıdakı əsərdən fərqli olaraq göstərir ki, hərbi əsirlərin içərisində yəhudilər kimi azərbaycanlılar da öldürülürdü. Müsəlman əsirlərlə işi səmərəli qurmaq üçün Qüds müftisi Hacı Əmin Əl-Hüseyni Almaniyaya dəvət olmuş, hətta I tank ordusunun komandanı general fon Makizen məsciddə namaz da qılmışdı. Sonra məqalədə göstərilir ki, Geniqsberqin "Telzit" hərbi düşərgəsindən Azərbaycan türklərini və müsəlman azərbaycanlıları seçib "Şelzi" hərbi düşərgəsinə apardılar. Onları Bavariyadakı "Berqman" ("Dağlı") hərbi hissəsinə göndərdilər. Yararsız azərbaycanlı əsirlər mülki işlərə cəlb olunurdular. Sovet Ordusunun arxasında təxribat aparmaq üçün 7 türk, 1 Azərbaycan hərbi hissəsi yaradılmışdı.[3]

Mühacir Azərbaycan Komitəsinin və legionunun uğursuz taleyindən yazan müəllif M.Ə.Rəsulzadənin 1944-cü ilin avqustunda Rumıniyadan Almaniyanın Frankfurt şəhərinə gəlməsini, 1945-ci ilin aprelində ABŞ-ın işğal zonasına keçdiyini və 1947-ci ildə Türkiyəyə qayıdaraq Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəsini davam etdirməsinə toxunur. 2014-cü ildə

---

[1] Fayql, Erix. İpək yolu üzərində Odlar Yurdu – Azərbaycan tarixi / E.Fayql; layihənin rəh.: E. Mahmudov, Y.M.Mahmudov; alman dilindən tərc.: E.Niftəliyev, N.Xıdırov, C.Səfərov; elmi red.: F.Vahabov, K.K.Şükürov; red.: D.İsmayılov, T.Nuriyeva. – Bakı, 2009.

[2] Yenə orada, s.135 –152.

[3]" Azərbaycan müəlimi" qəzeti, 1993, 20 iyul, s.3.

"Şərq" qəzetində isə Mühacir Azərbaycan Komitəsinin fəaliyyəti və Ə.Fətəlibəyli-Düdənginskinin sovet casusu tərəfindən qətli barədə son araşdırmalara toxunulub.[1]

Cəmil Həsənlinin 2015-ci ildə işıq üzü görmüş "II Dünya müharibəsi illərində Azərbaycanın hərbi, siyasi və diplomatik münasibətlərdə (1939 - 1945)" adlı əsərinin VI fəslində müharibə illərində Azərbaycan mühacirətinin Almaniya ilə əlaqələrindən bəhs olunur. Kitabın "Üçüncü Reyxin Qafqaz mühacirlərini təşkilatlandırmaq cəhdləri" adlanan bölməsində Almaniya hökumətinin Qafqaz və Azərbaycanla bağlı planlarına, M.Ə.Rəsulzadənin Türkiyə vasitəsilə Alman hakim dairələri ilə əlaqələrinə, 1941-ci ilin payızında Türkiyədə yaşayan Azərbaycan mühacirlərinin fəaliyyətinə aydınlıq gətirilir.[2] Milli legionların yaranması və Azərbaycan mühacirətindən bəhs edən müəllif 1942-ci ilin martında ilk Azərbaycan legionunun yaradılması zamanı əsir düşərgələrində 50 min azərbaycanlının saxlandığını və ölümlə üz-üzə qaldığını,[3] döyüşdə fərqləndiklərinə görə Azərbaycan legionlarına "Aslan", "İgid", "Cavad xan", "Dönməz" və "Qorxmaz" adlandırıldığını yazan C.Həsənli legionun 162-ci piyada diviziyasının tərkibində 6 Azərbaycan batalyonunun, sonralar 314-cü Azərbaycan alayının yaradılması və onların acınacaqlı sonluğa düçar olduğunu bildirir. Müəllif bildirir ki, II Dünya müharibəsində Almaniya tərəfindən vuruşan azərbaycanlı legionerlərin sayı 37913 nəfər olmuşdur. Onların 169 nəfəri polkovnik, 3721 nəfəri kiçik rütbəli zabitlər idi. Bundan başqa alman ordusunda xidmət edən 25, SS, SD və Lyuftvaffe hərbi hissələrində xidmət edən 7 min qafqazlı əsgər və zabitin də bir hissəsi azərbaycanlı idi. Ümumilikdə mayor Ə.Fətəlibəylinin məlumatına görə Almaniya tərəfindən sovetlərə qarşı vuruşan azərbaycanlıların sayı 150 min nəfərə yaxın olmuşdur.[4] 1945-ci il aprelin 1-nə olan məlumata görə müxtəlif döyüşlərdə iştirak edən azərbaycanlı legionların sayı 13.100 nəfər olmuş, onlardan 7350 nəfəri yaralanmış, 2940 nəfər itkin düşmüşdür.[5]

Azərbaycan legionlarının və mühacir Azərbaycan hökumətinin fəaliyyətinə Xaləddin İbrahimlinin 1996 və 2012-ci ildə təkrar çap etdirdiyi "Azərbaycan mühacirəti tarixi" əsərinin sonuncu – 3-cü bölməsində rast gəlinir. Müxtəlif taborlarda Azərbaycan legionçularının 70 mindən çox olduğunu deyən müəllif əlavə edir ki, Azərbaycan legionçuları Məcid Musazadənin redaktorluq etdirdiyi "Azərbaycan", "Hücum" və Cəlil İsgən-

---

[1] "Şərq" qəzeti, 2014, 11 aprel, s.11

[2] Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939–1945) / C.Həsənli. – Bakı, 2015. – s.273.

[3] Yenə orada, s.292.

[4] Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939–1945) / C.Həsənli. – Bakı, 2015. – s.297.

[5] Yenə orada, s.317.

dərin "Milli Birlik" dərgisini yayımlayırdı. 1944-1945-ci illərə qədər dərc olunan bu mətbuat orqanlarında əsasən legionçuları "bolşeviklərə qarşı mübarizəyə" səsləndirən məqalələr və şerlər nəşr edilirdi.[1]

Müasir tarixşünaslığımızda Azərbaycan Milli Komitəsinin və mühacir legionlarımıza aid fundamental araşdırmalar aparan tarixçi Nəsiman Yaqublu digər müəlliflərdən fərqli olaraq daha geniş faktlar üzə çıxarmışdır. Onun 2005 və 2009-cu ildə nəşr etdirdiyi əsərlərində Azərbaycan tarixşünaslığında tədqiq edilməyən bir çox məlumatlar yer almışdır.[2]

1941-1945-ci illər müharibəsi tarixini araşdıran müəlliflər öz əsərlərində **arxa cəbhənin** fəaliyyətini bu və ya digər şəkildə tədqiq etmişlər. Müstəqillik əldə etdikdən sonra ayrı-ayrı istehsal sahələri üzrə tədqiqatlar aparılmış, onların müharibə dövründə arxa cəbhədə fəaliyyəti yenidən işlənmişdir. SSRİ EA Azərbaycan Filialının əməkdaşı, geologiya-mineralogiya elmləri doktoru Ə.Ə.Yaqubov 1942-ci ildə nəşr etdirdiyi "Azərbaycan alimləri Böyük Vətən müharibəsi günlərində" kiçik kitabçasında arxa cəbhədə Azərbaycan alimlərinin fəaliyyətini ümumiləşdirərək qeyd edir ki, Azərbaycan ziyalılarının elmi və texniki düşüncəsi müharibə dövründə gərgin işləmiş və cəbhənin ən vacib ehtiyaclarına xidmət etmiş, Azərbaycan ziyalılarının ən yaxşı nümayəndələri Stalin mükafatlarına layiq görülmüşlər. Onlar arasında şair Səməd Vurğun, arxitektorlar M.Hüseynov və S.Dadaşov, bəstəkar, professor Ü.Hacıbəyov, heykəltəraş P.Sabsay, "Azərneftkombinat"ın texnoloq mühəndislərindən V.Qutırya, A.Markin və digərlərinin adları vardır.[3] Müharibə illərində hərbi hospital və xəstəxanada gərgin işləyən və hərbi tibb sahəsində yeni dərman və cihazlar tətbiq edən prof. M.Topçubaşov, prof.M.Mirqasımov, prof.İ.Şirokoqorov, Hüseyn Əliyev və başqaları müharibə illərində gecə-gündüz yaralılara yardım etmişlər.

C.Hüseynovun 1958-ci ildə nəşr etdirdiyi "Böyük Vətən müharibəsi illərində sovet xalqının əmək qəhrəmanlığı" əsərində neft sənayesində çalışan azərbaycanlı fəhlələrin yeni neft yataqlarının istismarı sahəsində fəaliyyəti, neftçilərdən Sona Quliyeva, Baba Qafar Muradov, eləcə də Qaradağ neft trestinin fəhlələrinin xüsusi qəhrəmanlıq göstərdiyi, Bakı neftçiləri və neft mütəxəssislərinin neft çıxarılmasını artıraraq, müdafiə ehtiyacları üçün neft məhsulları və döyüş sursatı istehsal etmək haqqında hökumət tapşırıqlarını nümunəvi surətlə yerinə yetirdikləri, orden və medallarla təltif olunduğu,[4] Azərbaycan kəndlilərinin Muğan düzündə pam-

---

[1] İbrahimli, X. Azərbaycan siyasi mühacirəti / X.İbrahimli Bakı, 2012. – s.157.

[2] Yaqublu, N. Azərbaycan legionerləri / Yaqublu N. – Bakı, 2005; Yaqublu, Nəsiman. Əbdürrəhman Fətəlibəyli–Düdənginski / N.Yaqublu. – Bakı, 2009.

[3] Yaqubov, Ə. Azərbaycan alimləri Böyük Vətən müharibəsi günlərində / Ə.Yaqubov. – Bakı, 1942. – s.9.

[4] Hüseynov, C. Böyük Vətən müharibəsi Böyük Vətən müharibəsi illərində sovet xalqının əmək qəhrəmanlığı / C.Hüseynov. – Bakı, 1958. – s.13.

bıq, Lənkəranda limon, portağal və çay, Gəncədə üzüm, Tovuzda buğda, digər rayonlarda müxtəlif məhsullar yetişdirdiyi, 485 nəfərin SSRİ-nin orden və medalları ilə təltif edildiyi bildirilir.[1]

Müharibə illərində arxa cəbhənin fəaliyyətinə dair Nəsir İmanquliyevin 1967-ci ildə nəşr etdirdiyi "Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda" adlı əsərində Azərbaycanda 141 qəzet və 16 jurnalın nəşr edildiyi, mətbuatın arxa cəbhədə Azərbaycan xalqını fədakar əməyə ruhlandırdığı, hitlerçilərin məğlubiyyəti üçün bütün qüvvələrin səfərbərliyə alınmasında mətbuatın rolu faktlarla göstərilmişdir.

Ə.Mahmudov və Q.Əbdülsəlimzadənin 1985-ci ildə nəşr olunan "Azərbaycan SSR xalq təsərrüfatının Böyük Vətən müharibəsi illərində" kitabı arxa cəbhədə Azərbaycan xalqının əmək qəhrəmanlığını əks etdirən fundamental tədqiqatlardan biridir. 9 fəsildən ibarət əsərdə müharibə dövründə Azərbaycan iqtisadiyyatının vəziyyəti, sənaye, kənd təsərrüfatı, nəqliyyat, maliyyə, ticarət və elmi müəssisələrin fəaliyyətini, onlarda çalışanların hərbi şəraitə uyğun tələbləri yerinə yetirməsi, müharibə tələblərinə uyğun olaraq mühüm əhəmiyyət kəsb edən nəqliyyat və rabitənin sahələrinin səfərbərliyi, kənd təsərrüfatının cəbhənin ərzaq məhsulları ilə arxa cəbhənin oynadığı rol, ön və arxa cəbhənin istehlak malları ilə təchizi sahəsində həyata keçirilən tədbirlər və əldə olunan nəticələr araşdırılmışdır.[2]

Arxa cəbhədə azərbaycanlıların fəaliyyəti barədə Məzahir Abasovun 2000-ci ildə rus dilində işıq üzü görmüş "Hitler Almaniyası üzərində qələbədə Bakı zəhmətkeşlərinin iştirakı" adlı əsərində də tədqiq olunmuşdur.[3]

Qələbənin 60 illiyi münasibəti ilə "Azneft" İstehsalat Birliyi tərəfindən 2005-ci ildə nəşr olunmuş "Böyük Vətən Müharibəsinin neftçi veteranları" kitabında arxa cəbhədə neft sənayesində çalışan 11 mindən çox qadın əmək fədakarlığına, keçmiş neftçilərdən 11 nəfərin Sovet İttifaqı Qəhrəmanı adını almasına, neftçilərin müxtəlif orden və medallara layiq görüldüyünə dair zəngin məlumatlar verilmişdir.[4]

1941-1945-ci illər müharibəsində arxa cəbhədə böyük fədakarlıq göstərərək yüksək elmi nailiyyətlər əldə edən azərbaycanlı alimlər haqqında son dövrlərdə araşdırmalar aparılmışdır. Belə araşdırmalardan biri tarix elmləri doktoru Zemfira Hacıyevanın 2010-cu ildə nəşr etdirdiyi "Azərbaycan alimləri İkinci dünya müharibəsi illərində" adlı əsəridir. Çoxsaylı arxiv

---

[1] Hüseynov, C. Böyük Vətən müharibəsi Böyük Vətən müharibəsi illərində sovet xalqının əmək qəhrəmanlığı / C.Hüseynov. – Bakı, 1958, – s.20.

[2] Mahmudov, Ə., Əbdülsəlimzadə, Q. Azərbaycan SSR xalq təsərrüfatının Böyük Vətən Müharibəsi illərində / Ə.Mahmudov, Q.Əbdülsəlimzadə. – Bakı,1985.

[3] Абасов, М. Вклад тружеников Баку в достижение победы над гитлеровской Германией / М.Абасов. – Баку, 2000.

[4] Böyük Vətən Müharibəsinin neftçi veteranları. Bakı, 2005.

materialları əsasında yazılmış bu əsərdəki faktların əksəriyyəti Azərbaycan sovet tarixşünaslığında ilk dəfə dövriyyəyə daxil edilmişdir.[1]

Arxa cəbhədə yaralılara və hospitallarda müalicə alanlara tibbi xidmət göstərən azərbaycanlı alim cərrahlarının fədakar əməyinə toxunan müəllif Mirəsədulla Mirqasımov, Mustafa Topçubaşov, Cəlil Hüseynov və başqaları haqqında ətraflı məlumat vermişdir. Qeyd olunur ki, müharibə illərində 441 mindən çox yaralı və xəstə müalicə olunmuş, onlardan 70 faizi sağalıb yenidən ön cəbhəyə qayıtmışdır.[2] Əsərdə Naftalan neftindən uğurla istifadəyə və Bakıdakı Qanköçürmə İnstitutunun işçilərinin fəaliyyətinə toxunulmuşdur. Müəllif yazır ki, müharibənin əvvəllərində bu müəssisələr 30-a yaxın hərbi məhsullar: şinel, yay geyimi, qulaqlı papaq, alt paltarı, əsgər ayaqqabısı, kürk, jilet, əlcək, qoşqu ləvazimatı, texniki parça, böyük ölçülü iplik, ayaqqabı, sap, hiqroskopik pambıq, cərrahiyyədə tətbiq edilən ipək və digər mallar istehsal edirdi.[3]

Z.Hacıyeva digər əsərində Azərbaycan sovet tarixşünaslığında kifayət qədər araşdırılmayan "Molotov kokteyli" adlanan partlayıcı maddədən bəhs etmişdir. Müəllif yazır ki, "Molotov kokteyli" qarışığı akademik Y.Məmmədəliyevin rəhbərliyi altında yaradılmış və alman ordusu üzərində Sovet İttifaqının qələbəsində çox böyük əhəmiyyəti oldu. Y.Məmmədəliyev tərəfindən toluolun – partlayıcı maddə üçün xammalın – əldə edilməsi ilə işlənib hazırlanmışdı.[4] "Molotov kokteyli" nə toxunan müəllif bu kəşf barədə SSRİ Xarici İşlər Naziri V.Molotovun Britaniyanın Baş naziri U.Çörçillə məlumat verdikdən sonra U.Çörçillin onu "Molotov kokteyli" adlandırdığını bildirir.[5]

Georgi Zapletinin 2012-ci ildə nəşr etdirdiyi "Vətənə və elmə xidmət etdilər..." adlı əsərində də Azərbaycan alimlərinin müharibə dövründə arxa cəbhədə elmi fəaliyyəti araşdırılmışdır.[6] Kitabda 1941-1945-ci illər Böyük Vətən müharibəsində mərdliklə vuruşmuş SSRİ EA Azərbaycan Filialının gələcək akademik və müxbir üzvlərinin döyüş yolundan bəhs olunur. Kitabın birinci hissəsi institutlarda və elmi laboratoriyalarda çalışmış və düşmən üzərində qələbə çalınmasında böyük xidmətlər göstərmiş alimlərə həsr edilmişdir. Qeyd olunur ki, 1940-cı ildə respublikada 60 elmi müəssisə, o cümlədən 23 elmi-tədqiqat institutu, onların filialları və şöbələri fəaliyyət göstərirdi. 1940-cı ildə elmi işçilərin sayı 2 min nəfərə yaxınlaşırdı. Müharibə başlayanda SSRİ EA Azərbaycan Filialının nəzdində 22 institut, 4 müstəqil sektor, 4 muzey, botanika bağı və onlarda 496 nəfər əməkdaş

---

[1] Hacıyeva, Z. Azərbaycan alimləri İkinci dünya müharibəsi illərində / Z.Hacıyeva. – Bakı, 2010.
[2] Yenə orada, s.28.
[3] Yenə orada, s.45.
[4] Yenə orada, s.33.
[5] Yenə orada, s.34.
[6] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA–nın vitse prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012. – 331 s.

çalışırdı, onların 174 nəfəri elmi işçi idi.[1] Müharibənin elmi-tədqiqatların istiqamətlərində etdiyi dəyişikliklərə toxunan müəllif qeyd edir ki, hərbi sənayeni zəruri xammalla, avadanlıqlarla, istehsalı təkmilləşdirilmiş metodlarla təmin etmək üçün ölkənin xammal ehtiyatlarını səfərbərliyə almaq, çətin tapılan materialları yerli xammallarla əvəz etmək qarşıda duran mühüm vəzifələrdən idi.[2] Bu səbəbdən də, elmi müəssisələrə "təxirə salmadan tematikanı yenidən nəzərdən keçirib işin tədqiqat metodunu yenidən təşkil etmək, elmi işçilərin bütün yaradıcı təşəbbüs və güclərinin ilk növbədə Vətənin hərbi qüdrətinin möhkəmləndirilməsi vəzifəsinə yönəltmək tapşırığı verilmişdi.[3] Qarşıda duran vəzifələri müəyyənləşdirən SSRİ EA Azərbaycan Filialının bir qrup alimi 1941-ci il iyulun 2-də "Bakinski raboçi" qəzetinə göndərdikləri məktubda bildirilirdi: "Sovet İttifaqının əldə olunmuş azadlıq və mədəniyyətin böyük nailiyyətlərini müdafiə etdiyi bu həlledici zamanda sovet elminin bütün gücü və qüdrəti düşmənə qarşı yönəldilməlidir. Ali məktəblərin, ali texniki məktəb və elmi-tədqiqat institutlarının əməkdaşları gecikmədən zavodlarda, mədən və laboratoriyalarda cəbhəyə getmiş mütəxəssisləri əvəz etməli, elmi-tədqiqat institutları və laboratoriyalar müdafiə işinin yeni güclü vasitə və alət mənbələrinə çevrilməlidir. Bizim fəaliyyətimiz bütünlüklə bir iradə, bir fikir ətrafında qərarlaşaraq, azğınlaşmış düşmənin məğlub edilməsinə yönəlməlidir...".[4]

Kitabda cəbhədə döyüş əməliyyatlarında iştirak edən Azərbaycan elminin nümayəndələrindən də söhbət açılır. Göstərilir ki, cəbhəyə ilk gedənlər arasında Azərbaycan Dövlət Universitetinin rektoru D.A.Ələskərov da vardı. Ümumilikdə Azərbaycan Dövlət Universitetindən 1386 nəfər səfərbər olunmuşdu. Səfərbər olunanlardan 159 nəfəri elmi işçi, 29 nəfəri aspirant, 1141 nəfəri tələbə, 200 nəfəri qadın idi.

1941-1945-ci illər müharibəsinin tarixini araşdıran müəlliflər öz əsərlərində **orduya ümumxalq köməyinin** bütün detallarını da unutmamışlar. Orduya ümumxalq köməyinə həsr olunmuş əsərlərdə arxa cəbhədə min bir əziyyətə qatlaşaraq çalışan insanların cəbhəyə etdikləri maddi yardımlar, göndərdikləri ərzaq, paltar və s. barədə məlumatlar öz əksini tapmışdır. H.Araslının 1943-cü ildə nəşr olunmuş "Vətənpərvər qadınlar" kitabçasında müəllif qeyd edir ki, oğlunu cəbhəyə göndərən azərbaycanlı qadınlar ordudakı doğmalarına yazdıqları məktubda onları ruhlandırır, pambıq tarlasında normanı 300-400 faiz yerinə yetirən, zavodda mühəndis, buruq-

---

[1] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012, s.13.

[2] Yenə orada, s.14-15.

[3] Yenə orada, s.15.

[4] Газ. "Бакинский рабочий", 1941, 2 июля; Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012. – s.18.

larda fəhlə işləyən azərbaycanlı qadınlar orduya öz köməklərini verməklə fədakarlıq göstərirdilər.[1]

Orduya ümumxalq köməyinin və cəbhəyə yardımların təşkilindən bəhs edən dəyərli əsərlərdən biri də Əhəd Bağırzadənin 1970-ci ildə nəşr etdirdiyi "Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində" kitabıdır. Ön cəbhədə döyüşən ordu hissəsinə arxa cəbhənin yardımları barədə məlumat verən müəllif arxa cəbhədəki ideya-siyasi işin təşkilində ziyalıların əməyini yüksək qiymətləndirir, qeyd olunur ki, müharibənin ilk illərində ordu hissələrinə Azərbaycan dilində 172 adda 247 min nüsxə kitabça, 106 adda 736 min plakat, 66 adda 813 min vərəqə və 213 adda 1.189 min şüar göndərilmişdi. Azərbaycanlılardan ibarət 402, 223 və 416-cı diviziyalara 22 səyyar kinoqurğusu və vətənpərvərlik mövzusunda kinofilmlər yollanmışdı.[2]

Tahir Qaffarov 2001-ci ildə Londonda ingilis dilində nəşr olmuş "II Dünya müharibəsi və Azərbaycan" adlı əsərində yazır ki, cəbhə texnikasını fasiləsiz yanacaqla təmin etmək üçün Azərbaycandan 200 adda məhsul, dizel və təyyarə benzini, 1260 maşın şirniyyat, 1100 maşın makaron məhsulları, 1300 maşın tütün və siqaret, 1800 maşın konservləşdirilmiş qida, 350 maşın bitki yağı və xeyli tibbi ləvazimat göndərilmiş,[3] 1941-1943-cü illər ərzində Müdafiə Fonduna 15 kq qızıl, 952.5 kq gümüş, 311 milyon rubl köçürülmüşdür.[4]

Tədqiqatçılardan Vaqif Ağayev, Fuad Axundov, Fikrət Əliyev və Mixail Aqarunovun 1995-ci ildə Londonda ingilis dilində çap olunan "II Dünya müharibəsi və Azərbaycan" adlı məqaləsində də Azərbaycan neftçilərinin qəhrəmanlığı, xalqımızın cəbhəyə yardımları, Bakı nefti uğrunda Almaniyanın işğalçılıq planları, eləcə də, arxa cəbhənin orduya böyük köməyi əks olunmuşdur.

Müstəqillik illərində respublikamızda araşdırdığımız problemlə əlaqəsi olan dissertasiyalar müdafiə olunmuşdur. Bəyimxanım Mirzəyeva,[5] Nizami Əlizadə,[6] Seyfəddin Abdullayev,[7] V.C.İsmayılov,[8] A.Piriyeva,[1] K.Ş.Əmiras-

---

[1] Araslı, H. Vətənpərvər qadınlar / H.Araslı. – Bakı, 1942. – s.16.

[2] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən Müharibəsi illərində, Bakı, 1970 – Ə.Bağırzadə – s.379.

[3] T.Qaffarov. Azerbaijan in the Second World War. London, 2001. – p.17.

[4] T.Qaffarov. Azerbaijan in the Second World War. London, 2001. – p.19.

[5] Mirzəyeva, B.M. Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı tarixinin tarixşünaslığı: / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 1995. – 148 s.

[6] Əlizadə, N.Ə. Azərbaycan dəmiryol nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941–1945–ci illər): / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı: 1997. – 134 s.

[7] Abdullayev, S.Q. 1941–1945–ci illər müharibəsində Azərbaycanda hərbi–müdafiə və hərbi təşkilatı iş: / tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı: – 2000. –181 s.

[8] İsmayılov, V.C. Cənubi Azərbaycanda milli–demokratik hərəkatların məğlubiyyətində böyük dövlətlərin rolu (XX əsrin I yarısı): / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası) /. – Bakı, 2006. – 156 s.

lanov,[2] G.Hüseyn[3] və b. dissertasiyalarında problemin ayrı-ayrı məsələlərinə toxunulsa da, SSRİ-nin milli siyasətində Azərbaycana qarşı yeridilən ikili münasibətə demək olar ki, toxunulmamışdır.

Müharibə ərəfəsində Azərbaycan SSR-in nəqliyyat sistemində əsaslı dəyişikliklər baş verirdi. 1939-cu ildə Maştağa-Buzovna (9,4 km.) elektrik dəmiryolu çəkilmişdi. 1941-ci ildə istismara verilən Salyan-Astara dəmiryol xətti zonanın şəhərləri ilə Bakının əlaqələrini asanlaşdırırdı. 1941-ci ildə respublika dəmiryol xəttinin uzunluğu 1.210 km., yük dövriyyəsi 13,2 milyon tona çatdı. Dəmiryol nəqliyyatı ilə sərnişin daşınması artdı.

Xəzər dəniz nəqliyyatında yük dövriyyəsi yüksəlirdi. 1940-cı ildə SSRİ dəniz nəqliyyatı yük dövriyyəsinin 46 faizi Xəzər dənizinin payına düşürdü. Xəzər dəniz nəqliyyatı ilə daşınan 14,8 milyon ton yükün 13,4 milyon tonunu neft məhsulları təşkil edirdi. Ancaq Mərkəzin Azərbaycana qısqanclıqla yanaşması nəticəsində respublikanın cənub-qərbindəki 170 km. şose yollarının heç bir əsas olmadan Ermənistan SSR şose yolları idarəsinə verilməsi avtomobillə yük daşınmasına mənfi təsir göstərdi.

1940-cı ildə Azərbaycan SSR Xalq Avtomobil Nəqliyyatı Komissarlığı yaradıldıqdan sonra respublika avtomobil təsərrüfatında işlərin həcmi, yük və sərnişin daşınmasında irəliləyişlər yaranmağa başladı. Ümumilikdə, üçüncü beşillikdə Azərbaycanda sənayenin ümumi həcmi artdı.

Azərbaycan xalqının müharibə illərində orduya etdiyi yardımlarda dəmiryolu nəqliyyatının böyük əhəmiyyəti olmuşdur. 1997-ci ildə AMEA Tarix İnstitutunda Nizami Əlizadənin müdafiə etdiyi "Azərbaycan dəmiryol nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər)" adlı dissertasiyasında cəbhəyə canlı qüvvə və hərbi texnikanın daşınması, köçürülən əhali və zavodların təyinat yerinə çatdırılmasında Azərbaycan dəmiryolunun fəaliyyəti, cəbhəni təmin etməkdə dəmiryolçuların işindən bəhs olunur. Müəllif yazır ki, Sovet İttifaqına 400 min avtomobil, 2.6 milyon ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə məhz dəmir yolçularımız tərəfindən daşınmışdır.[4] Azərbaycan dəmiryol-

---

[1] Piriyeva, A. Böyük Vətən müharibəsi dövründə Azərbaycan xalqının cəbhə ilə arxanın birliyi uğrunda mübarizəsi: tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya: 07.02.00 /Afaq Piriyeva; N.Tusi adına Azərb. Dövlət Pedaqoji İns–tu. – Bakı, 1991. – 151 s.

[2] Амирасланов, К.Ш. Современная миграция населения в Азербайджанской ССР и ее влияние на формирование трудовых ресурсов:/Автореф. диссертации доктора философии по истории /– Баку, 1975. – 21 с.

[3] Hüseyn, G. Bakı dəniz limanı 1941–1945–ci illər müharibəsi dövründə: tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya: 5503.02 / Günay Hüseyn; AMEA, A.A.Bakıxanov adına Tarix İn–tu. – Bakı, 2017. –165 s.

[4] Əlizadə, N. Azərbaycan dəmiryolu nəqliyyatı Böyük Vətən Müharibəsi illərində (1941–1945–ci illər), tarix üzrə fəlsəfə doktorluğu üçün dissertasiyası. Bakı, 1997. – s.45 .

çuları 1 milyon 300 min vaqon, o cümlədən, 500 min sistern neft məhsulları yola salmışdır.[1]

M.Abasovun 1960-cı ildə nəşr etdirdiyi "Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə" adlı əsərində qeyd olunur ki, 1941-ci ilin oktyabrında orduya 3167 ədəd yarımkürk, 1922 ədəd dəri jilet, 5413 cüt uzunboğaz keçə çəkmə, 4454 cüt dəri əlcək, 18198 cüt yun əlcək, 58777 cüt yun corab toplanmışdı.[2] 1943-cü ildə Yeni il bayramında cəbhəyə 242 min hədiyyə, əhalinin topladığı vəsaitə 116 vaqon ərzaq, o cümlədən, 12117 kq düyü, 112.5 ton qovurma ət konservi, 602 kq kolbasa alınıb cəbhəyə göndərilmişdi.[3]

"Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi" adlı əsərin müəllifi Əziz Kərimov göstərir ki, Azərbaycanda Aviasiya və Kimya Tikintisinin Müdafiəsinə Dəstək Cəmiyyətinin üzvləri müharibənin 4 ili ərzində müdafiə fonduna 4.222.429 manat pul, 23.669 ədəd isti paltar, 1.642.602 kq ərzaq vermiş və cəbhəyə 2.592 ədəd sovqat göndərmişdilər.[4] Respublikamızın müxtəlif rayonlarının cəbhəyə etdiyi yardımları göstərən müəllif müdafiə fonduna 30 milyon 930 min manat nağd pul, 32 milyon manat istiqraz, 1.5 kq qızıl, 980 kq gümüş köçürülməsi barədə məlumat vermişdir.[5]

İ.Şükürzadənin "Böyük Vətən müharibəsi illərində Naxçıvan MSSR-nin kənd təsərrüfatının vəziyyəti, kolxozlar və kolxozçuların cəbhəyə köməyi" adlı məqaləsində kənd təsərrüfatında dövlət planının illər və məhsullar üzrə yerinə yetirməsi göstərilərək bildirilir ki, 1941-ci ilin 6 ayı ərzində Naxçıvan sakinləri ölkənin müdafiə fonduna 1.357.000 rubl, 1.748.000 rubl dövlət səhmlərinin istiqraz vərəqəsi, 1 kq 222 qram qızıl, 11 kq gümüş, 66 ton 432 kq buğda, 908 kq yağ, 796 kq pendir, 43 kq bal, 11 ton 612 kq üzüm, müxtəlif meyvələr və isti paltarlar, həmçinin Sovet Ordusuna çoxlu bağlamalar yollamışlar.[6]

Tədqiqatçı Teyyub Qurbanovun "Dostluğun gücü" adlı əsərində Azərbaycan xalqının müharibənin 18 ayı ərzində Dövlət Müdafiə Fonduna

---

[1] Əlizadə, N. Azərbaycan dəmiryolu nəqliyyatı Böyük Vətən Müharibəsi illərində (1941–1945-ci illər), tarix üzrə fəlsəfə doktorluğu üçün dissertasiyası. Bakı, 1997, s.77.

[2] Abasov, M. Azərbaycan Kommunist Partiyası Böyük Vətən Müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə / M.Abasov. – Bakı, 1960. – s.38.

[3] Yenə orada, s.50.

[4] Kərimov, Ə. Böyük Vətən Müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.18.

[5] Yenə orada, s.65.

[7] Шукюрзаде, И. Положение сельского хозяйство Нахичеванской АССР и помощь, фронту колхозов и колхозникам в годы Великой Отечественной Войны Советского Союза// APİ–nin Elmi Əsərləri. VI cild. Bakı, 1958. – c.95.

23606 sentner ət, 109508 sentner taxıl, 18.015 kq yun, 11.107 ədəd dəri verdiyi göstərilmişdir.[1]

Məlumdur ki, 1941-1945-ci illər müharibəsində döyüşən hərbi texnikanı, arxa cəbhədə nəqliyyat və iqtisadiyyatı hərəkətə gətirən neft və neft məhsulları xüsusi əhəmiyyətə malik idi. 1941-1945-ci illər müharibəsində Bakı neftinin hasilatı, emalı və onun daşınması Sovet Ordusunun Hitler Almaniyası üzərində qələbəsini təmin etmişdi.

Müharibə illərində Azərbaycan neft sənayesində çalışan fəhlələrin qəhrəmanlığından bəhs edilən əsərlərdən biri Yakob Aqarunovun 1982-ci ildə rus dilində nəşr edilmiş "Böyük Vətən müharibəsi illərində Azərbaycan neftçilərinin qəhrəmanlığı" adlı əsəri neft sənayesində çalışanların qəhrəmanlığını, neft hasilatında əldə edilmiş uğurlar və rekord sayda neft istehsal edilməsindən bəhs edir və qeyd edilir ki, 1941-ci ilin sonunda Bakı şəhəri artıq dünya neft sənayesi tarixində rekord həcmdə – 23 milyon 541 min ton![2] neft istehsal etmişdir. Yakov Aqarunov 1991-ci ildə yazdığı "Neft və qələbə" kitabı 1941-1945-ci illər müharibəsində azərbaycanlı neftçilərin Bakıda və SSRİ-nin müxtəlif rayonlarında neft sənayesinin inkişafına həsr olunmuşdur. 1941-1945-ci illərdə Bakıda neft sənayesinin inkişafı barədə müəlliflər heyəti tərəfindən 1960-cı ildə rus dilində nəşr olunmuş "Azərbaycan sənayesi 40 il ərzində (1920-1960)" adlı əsərdə Azərbaycan neft sənayesinin müharibə illərindəki vəziyyətinə toxunmuş, 1941-1945-ci illərdə Bakı neftinin cəbhə üçün əhəmiyyəti, neftçilərin fədakarlığı, Bakı neftçilərinin 99 dəfə "Ümumittifaq sosializm yarışı"nda qalib gəlməsi, 26 dəfə Keçici Qırmızı Bayraq alması və 29 dəfə birincilik mükafatına layiq görülməsi qeyd edilmişdir[3]. Müəllifin "Bakı nefti-diqqət mərkəzində. Qafqaz uğrunda, Bakı nefti uğrunda", "Faşist ordusunun Qafqaza yaxınlaşması. Neft Bakısı təhlükədə", "Neft emalı zavodları" başlıqları altındakı yazılarda müharibə illərində Bakıda Sovet ordusu üçün aviasiya benzininin 80 faizi, liqroin və kerosinin 90 faizi, traktor yanacağının 96 faizi, sənaye yağlarının, eləcə də, bütün mazut növləri istehsal olunduğu bildirilir.[4] Cəbhənin tələbatını ödəyən Bakı neftinin əhəmiyyətini göstərən müəllif qeyd edir ki, 1943-cü ildə neft zavodları 5 milyon ton müxtəlif neft məhsulları, 795 min ton müxtəlif növ benzin, 640 min ton gəmi üçün mazut və solyar, 420 min ton aviayağ istehsal olunmuşdu.[5] "İkinci Bakı" adlanan fəsildə isə müəllif Bakı neftçilərinin SSRİ-nin digər vilayətlərində yeni neft yataqlarının tapılıb istismara verilməsindən, bu sahədə kadrların hazırlanmasından, "Volqada

---

[1] Qurbanov, T. Dostluğun gücü / T.Qurbanov. – Bakı, 1966. – c.38.

[2] Агарунов, Я.М. Героические свершения Азербайджанских нефтяников в годы Великой Отечественной Войны / Я.М.Агарунов. – Баку, 1982. – с.16.

[3] Промышленность Азербайджана за 40 лет (1920 –1960 г.г.). Баку, 1960. – с.32.

[4] Агарунов, Я.М. Нефть и Победа / Я.М.Агарюнов. – Баку, 1991. – с.61.

[5] Yenə orada, s.66.

neftin mənimsənilməsi" fəslində Bakı neftçilərinin "hakim partiyanın rəhbərliyi ilə" Stavropol, Kuybışev və Volqa ətrafındakı neft sənayesinin inkişafına müharibə illərində etdiyi yardımlardan bəhs edilmişdir.

Professor Çapay Sultanovun 2005-ci ildə rus dilində nəşr olunmuş kitabında[1] faktlarla sübut edilir ki, A.Hitlerin SSRİ-yə hücum etməkdə əsas məqsədlərindən biri Bakı neftini ələ keçirmək idi. Bununla bağlı A.Hitlerin ad günü üçün hazırlanmış böyük tortun üzərində Bakının nefti əks olan hissəsinin Adolf Hitlerin kəsməsini göstərən müəllif faşistlərin işğalçılıq mahiyyətini, A.Hitler və onun əlaltılarının Bakı neftini ələ keçirmək üçün hazırladıqları gizli planlardan bəhs edərək xəritə və planları vermiş, bununla bağlı keçirilən görüşlərə aid fotoşəkilləri göstərmişdir. "Bakı diversiyaların hücumundan müdafiə olmağa hazır idimi" başlığında müəllif Azərbaycan sovet tarixşünaslığında rast gəlinməyən məlumatları üzə çıxarmışdır. Berlin hökumətinin bununla əlaqədar məxfi danışıq və yazışmalarını əks etdirən arxiv materiallarını tədqiqata daxil edən müəllif, əsərin 8-ci fəslində II Dünya müharibəsi illərində Bakıda diversiya törədilməsi üçün ermənilərin hazırlığına dair faktlar, mənfur erməni liderlərinin Gestapo rəisi Henrix Müller ilə görüşməsi və aparılan danışıqlar yer almışdır.[2] Əsərdə Bakının neft idarələrinin cəbhə illərində gərgin işləyərək tələb olunan planı artıqlaması ilə yerinə yetirməsi qeyd olunaraq göstərilir ki, 1943-cü il Bakı neftçiləri cəbhəyə 5 milyon tondan çox müxtəlif neft məhsulları, o cümlədən, 795 min ton müxtəlif növ benzin, 3.332 min ton liqroin, kerosin, dizel yanacağı, 640 min ton solyar və gəmi mazutu, 420 min ton aviayanacaq yollamışdılar.[3]

1941-1945-ci illər müharibəsi zamanı Bakı neftinin ələ keçirilməsi uğrunda, qələbənin əldə olunmasında Bakı neftinin böyük əhəmiyyəti barədə 2005-ci ildə nəşr olunmuş "Neft və cahan savaşı" adlı əsərdə çox dəyərli məlumatlar vardır. Müəllif Nazim İsrafiloğlu əsərin əvvəlində sovet tarixşünaslığında müharibədə Bakı neftinin əhəmiyyətinin necə əks olunmasına toxunmuş, ona verilən elmi-hüquqi dəyəri araşdırmışdır. Əsərin 10-cu fəsli "Velvet əməliyyatı" adlanır. Müəllif digər tədqiqatçılar kimi vurğulayır ki, Bakı 1942-ci ilin sentyabrın 25-də "Edelveys" planına əsasən işğal olunmalı idi.[4]

N.İsrafiloğlu əsərin 11-ci fəslini "Bakı – döyüşün taleyi həll olunan şəhər" adlandırmışdır. Müəllif fəsildə Bakının müdafiəsinin SSRİ üçün xüsusi əhəmiyyət daşıdığını, Azərbaycan neftinin müharibə illərində strateji bir məhsul olduğunu göstərir. Bununla əlaqədar Cənubi Qafqazın müdafiəsinin 44-cü orduya həvalə edilməsini bildirən müəllif qeyd edir ki,

---

[1] Султанов, Чапай Али оглы. Выстояли бы СССР и Европа против фашизма, в случае потери Бакинской нефти?: к 60–летию победы / Ч.Султанов. Баку: [б.и.], 2005 / Ч. Султанов. – Баку, 2005.

[2] Yenə orada, s.268.

[3] Султанов, Ч. Нефть, том 1 / Ч.Султанов. – Баку, 2000. – с.198.

[4] İsrafiloğlu, N. Neft və cahan savaşı / N.İsrafiloğlu. – Bakı, 2005. – s.139.

Bakının təhlükəsizliyini təmin etmək üçün 3 müdafiə zolağı salınmışdı. Əsərdə Azərbaycan sovet tarixşünaslığında əks olunmayan Bakıdakı neft mədənlərinin Hitler ordusunun əlinə keçəcəyi təqdirdə partladılması və bunun xüsusi plana uyğun olaraq əvvəlcədən minalanması göstərilmişdir[1]. Göründüyü kimi istər Hitler Almaniyasının, istərsə də SSRİ rəhbərliyinin bu qədər xüsusi və məxfi əməliyyat hazırlaması Bakı neftinin necə əhəmiyyət kəsb etdiyini göstərir.

Almaniya üzərində qələbənin 60 illiyinə həsr olunmuş "İqtisadiyyat" qəzetinin 2007-ci ildəki xüsusi buraxılışında Azərbaycan rəhbərliyinin cəbhəni fasiləsiz olaraq neft və neft məhsulları ilə təmin etməsi, Azərbaycana rəhbərlik etmiş M.C.Bağırovun L.P.Beriyaya 1943-cü ilin martında cəbhəni neft ilə təmin etmək üçün vurduğu teleqramın tam mətni, Sovet İttifaqı Marşalı F.Tolbuxinin Bakı neftinin keçmiş Stalinqrad, Don, Donbass, Dnepr və Dnestryanı, Belqrad, Budapeşt və Vyana cəbhəsində düşmən üzərində qələbə qazanmaqda əhəmiyyətindən bəhs edən fikirləri yer almışdır.[2]

Bakı neftinin 1941-1945-ci illər müharibəsində əhəmiyyətindən bəhs edən tədqiqatçı Georgi Zapletinin 2015-ci ildə nəşr olunmuş "Azərbaycan Böyük Vətən müharibəsi illərində 1941-1945" adlı əsərində müharibə zamanı Almaniya ordusu üzərində qələbə qazanılmasında Bakı neftinin böyük əhəmiyyətinin olduğunu faktlarla sübuta yetirilir. G.Zapletin qeyd edir ki, Bakı neftçiləri müharibə illərində 2 dəfə – 6 fevral 1942 və 6 fevral 1944-cü illərdə ölkənin orden və medalları ilə təltif edilmişdir. Orden və medallarla təltif olunan 1118 nəfərin 38 nəfəri "Lenin" ordeninə layiq görülmüşdür.[3]

Son dövrdə nəşr olunan əsərlərdə Bakı neftinin II Dünya müharibəsi ərəfəsində və müharibə vaxtı beynəlxalq əhəmiyyətinə xüsusi diqqət yetirilmişdir. Belə əsərlərdən biri tədqiqatçı Pərvin Darabadinin 2010-cu ildə Moskvada nəşr olunmuş "XXI əsrdə dünya tarixi və geopolitikasında Qafqaz və Xəzər" adlanır. Burada müəllif Bakı neftinin böyük dövlətlərin maraq dairəsində olduğundan, Qafqaz uğrunda aparılmış hərbi əməliyyatda Xəzərin neft ehtiyatlarının ələ keçirilməsinə dair Yaponiya və Almaniyanın Xəzər ətrafında apardıqları kəşfiyyatdan, Qafqazı ələ keçirmək üçün ingilis - fransız hərbi strateji planlarından bəhs olunur. Qeyd olunur ki, Hitler ordusu tərəfindən Qroznı və Maykopla yanaşı Bakı neftinin ələ keçirilməsi İngiltərə və Fransa üçün çətin vəziyyət yaradacaq idi. Fransa Quru Qoşunlarının baş komandanı general Moris Qamelenin Fransanın baş naziri Eduard Daladyeyə 1940-cı il 22 fevral tarixli məruzəsində qeyd edilirdi: "Bakı Sovet İttifaqına

---

[1] İsrafiloğlu, N. Neft və cahan savaşı / N.İsrafiloğlu. – Bakı, 2005, s.155.

[2] Победа была бы невозможно без Бакинской нефти. Баку, 2007. Спецвыпуск газета "Игтисадиййат". Баку, 2007. – с.37.

[3] Заплетин, Г. Азербайджан в годы Великой Отечественной Войне (1941–1945) / Г.Заплетин. – Баку, 2015. – с.22.

neftin 75%-ni verir. Sovetlərin kənd təsərrüfatı və hərbi gücü Bakı neftindən asılıdır". Türkiyə Cümhuriyyətinin İsveçrədəki səfiri Y.K.Karaosmanoğlunun Ankaraya yazdığı məktubda Bakı neftini ələ keçirmək üçün Fransa səfirinin onunla görüşməkdə təkid etməsini və 5-10 günə birləşmiş qüvvələr Bakı neftini ələ keçirərsə Sovet ordusunun yanacaqsız qalmasının çətinləşəcəyini vurğulayır.[1] Əsərdə Bakının neft mədənlərinin məhv edilməsi üçün göndərilmiş Almaniyanın kəşfiyyatçı diversiya qrupunun fəaliyyətinə geniş yer verilmiş, Bakının neft rayonlarının müdafiəsini təmin edən ABŞ və İngiltərə siyasi rəhbərlərinin Vilvet" planına əsasən 20 amerikan və ingilis aviaeskadrasının Qafqaza göndərilməsi faktlarla əsaslandırılıb.[2]

II Dünya müharibəsinin iştirakçısı, professor İsrafil İsmayılovun 2007-də nəşr olunmuş "Azərbaycan nefti XX əsrdə" adlı əsəri Azərbaycan neftinin tarixi və XX əsrdə dünya neft sənayesində tutduğu mühüm yerdən bəhs edir. İ.İsmayılov da qeyd edir ki, Fransa generalı Moris Qamelen 1940-cı il fevralın 22-də öz hökumətinə təqdim etdiyi məruzədə göstərmişdi ki, Sovet İttifaqının neftinin 75%-ni Bakı verir və onu sıradan çıxarmaq üçün Fransanın Suriyada yerləşən 150 minlik ordusunun hərbi hava qüvvələrindən istifadə etməklə bu vəzifəni həll etmək olar.[3]

Müəllif SSRİ rəhbərləri İ.Stalin, L.Beriya və A.Mikoyanın Azərbaycan xalqına düşmən mövqeyində olmasını göstərir, müharibə illərində azərbaycanlıların Sibirə köçürülməsi kimi ermənilərin mənfur planından xəbər verir.

Azərbaycan neftçilərinin, neft-kimya və maşınqayırma sənayesi işçilərinin, dəmiryolçuların, dəniz donanmasının, tibb işçilərinin əməyinin faktlar və rəqəmlərlə əsaslandırıldığı "Bakı nefti qələbənin açarı: şərəfli keçmiş və işıqlı gələcək 1941-1945" kitabı araşdırılan problemin çox mühüm hissəsinə – Azərbaycanın arxa cəbhəsinin fəaliyyətinə həsr olunmuşdur. Layihə rəhbəri və layihə üzərində işləyən Z.Səmədzadə və b. Azərbaycan xalqının İkinci dünya müharibəsində iştirakının bir sıra mühüm məqamlarına işıq salmış, Azərbaycan xalqının 1941-1945-ci illər müharibəsində və faşizm üzərində qələbə çalmasında danılmaz rolunu işıqlandırmışlar.[4]

2018-ci ildə tarix elmləri doktoru, professor Mixail Yuryeviç Muxinin "Bədii ədəbiyyat" nəşriyyatı tərəfindən "Qələbənin yanacağı: Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945-ci illər" monoqrafiyası[5] çap olun-

---

[1] Дарабади, Р.П. Кавказ и Каспий в мировой истории и геополитике XXI века / Р П.Дарабади. – Москва, 2010. – с.130.

[2] Yenə orada, s.150.

[3] İsmayılov, İ. Azərbaycan nefti XX əsrdə / İ.İsmayılov. – Bakı, 2007. – s.32.

[4] Bakı nefti qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək: 1941–1945 / layihə rəhb. Z.Səmədzadə; layihə üzərində işləyib Z.Səmədzadə [və b.]. –Bakı, 2015. –451 s.

[5] Мухин, М.Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941–1945 гг.) / М.Мухин. –Москва, 2018. – 248 с.

muşdur. M.Muxinin monoqrafiyası 6 fəsildən ibarətdir. Monoqrafiyanın IV fəsli Azərbaycan neftçilərinin 1941-ci ildəki fəaliyyətinə həsr olunmuşdur.

Monoqrafiyanın V fəsli Motorlar müharibəsi üçün yanacaq. Azərbaycan neft sənayesi 1942-1945-ci illərdə" adlanır. Müəllif bu fəsildə 1942-1945-ci illərdə Azərbaycan neft sənayesinin vəziyyətinə, "İkinci Bakı" yaradılması sahəsində həyata keçirilən tədbirlərə, bu tədbirlərin neft çıxarılması, emalı və nəqli sahəsində yaratdığı çətinliklərə, Azərbaycanda neft çıxarılmasının aşağı düşməsinin səbəblərinə, neft sənayesinin maddi-texniki bazası, kadr hazırlığı və s. məsələlərə aydınlıq gətirmişdir.[1]

Muxinin monoqrafiyasının özəlliklərindən biri də, neft çıxarılması və cəbhənin yanacaqla təmini sahəsində Azərbaycan əməkçilərinin fədakar əməyi ilə yanaşı azərbaycanlıların döyüş cəbhələrindəki qəhrəmanlıqlarını da işıqlandırılmasıdır. Monoqrafiyanın VI fəslində ("Yalnız neft deyil...")[2] Azərbaycan milli diviziyalarının yaranması və onların müharibə illərindəki döyüş yolu, arxa cəbhə adamlarının fədakar əməyi, cəbhəyə ümumxalq yardımında Azərbaycan əməkçilərinin iştirakı faktlarla göstərilmişdir.

Qeyd olunan müsbət cəhətlərlə yanaşı monoqrafiyada çatışmazlıqlar da vardır. Monoqrafiyanın birinci və ikinci fəsilləri işlənərkən rus tarixşünaslığındakı istiqamət əsas götürülmüş, Azərbaycanın Rusiya tərkibinə könüllü daxil olması fikrinin əsaslandırılmasına cəhd edilmişdir.[3] Kitabda Azərbaycan neft sənayesinin inkişafı çar Rusiyasının iqtisadi maraqları fonunda işıqlandırılmışdır. Başqa sözlə, Bakıda, xüsusilə Abşeron yarımadasında neft sənayesinin inkişafında yerli amillər, xarici sahibkarların maraqları, milli burjuaziyanın formalaşması "**özünəməxsus**" izah olunmuşdur. **Müharibə illərində Bakı və onun müdafiəsi İran və Türkiyə "təhlükəsi" fonunda verilmişdir.** Müəllif Azərbaycan diviziyalarının döyüş yoluna nəzər salarkən azərbaycanlı döyüşçülərin rus dilini zəif bilməsini qabartmış, milli diviziyalara münasibətdə SSRİ-nin milli siyasəti arxa plana çəkilmiş, kadr hazırlığı, hərbi və texnik vasitələrlə təchizat, və s. məsələlər **"unudulmuşdur**".[4]

Müharibə illərində Cənubi Azərbaycanla əlaqələrin yaradılması və möhkəmləndirilməsində Əziz Əliyevin rolu danılmazdır və dövrə aid yazılan kitablarda onun Cənubi Azərbaycandakı missiyası, həmçinin ÜİK(b)P Dağıstan Vilayət Komitəsinin birinci katibi vəzifəsi dövründəki fəaliyyətinə

---

[1] Мухин, М.Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941–1945 гг.) / М.Мухин. –Москва, 2018, s.165-199.

[2] Yenə orada, s.200-228.

[3] Yenə orada, s.44-45.

[4] Мухин, М.Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941–1945 гг.) / М.Мухин. – Москва, 2018. – s.215.

toxunulmuşdur.[1] 1997-ci ildə işıq üzü görən Tahir Talıblının "Əziz Əliyev-dövrü, həyatı, şəxsiyyəti" kitabında[2] toplanan rəsmi sənədlər, məruzə və nitqlər, yazışmalar və xatirələr maraq doğurur. Təəssüf ki, kitaba Ə.Əliyevin ictimai-siyasi görüşlərini xarakterizə edən xüsusi əhəmiyyətə malik sənədlər daxil edilməmişdir. Bu baxımdan A.G.Hacıyevin kitabı[3] qeyd olunan boşluğun doldurulması sahəsində irəli atılmış addım hesab oluna bilər. Kitabda Dağıstan Muxtar Respublikasında həyata keçirilən tədbirlər arxiv sənədləri və mətbuat materiallarına istinadən faktlarla açılmışdır.

Məlumdur ki, 1941-1945-ci illər müharibəsində həlledici döyüşlərin getdiyi bölgələrdən biri də Qafqaz cəbhəsi idi. 1942-ci ildə Hitler komandanlığının Qafqazın tutulması üçün "Edelveys" planına görə faşistlər Dağıstanı ələ keçirməli, sonra neft Bakısına doğru irəliləməli idilər. Dağıstan, həm də zəngin balığı, heyvandarlığı və inkişaf etmiş üzümçülüyü olan diyar idi. Bölgə gələcək Almaniyanın ərzaqla təchizat mənbəyi kimi qiymətləndirilirdi.

Hitlerçilər Dağıstanın işğalına siyasi əhəmiyyət verirdilər. Düşünürdülər ki, dağıstanlılar arasında milli zəmində toqquşma və parçalanma yarada biləcəklər. Buna görə də Dağıstandakı ruslarla qeyri-ruslar arasında münaqişə yaradılmasına xüsusi diqqət ayrılması tələb olunurdu.

Dağıstanın işğalı həm də strateji əhəmiyyət daşıyırdı. Faşistlərə Qafqaz dağları və Xəzər dənizi arasında ən dar yer olan Dərbənd keçidi lazım idi. Vermaxtın direktivində deyilirdi ki, Qroznı, Malqabek, Mahaçqala onların əlində olsa, Bakını tuta biləcəklər.

Bütün bunlara əsasən hitlerçilər Dağıstan sərhədlərinə yaxınlaşarkən respublikada antisovet qüvvələr fəallaşdı. Dağlarda fərarilərin sayı artdı, quldurluq hərəkətləri çoxaldı, antisovet elementlərin düşmən fəaliyyəti

---

[1] Azərbaycanın və Dağıstanın böyük oğlu. Bakı: Göytürk, 1998, 250 s.; Əziz Əliyev: Böyük ömrün anları. Bakı, 2008; Həsənov, Həsən. Cənubi Azərbaycanda milli demokratik hərəkat (1941–1946–cı illər) / H.Həsənov – Bakı, 2004; Talıblı, Tahir. Əziz Əliyev–dövrü, həyatı, şəxsiyyəti / T.Talıblı. – Bakı, 1997; Vəkilov, C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər / C.M.Vəkilov. – Bakı, 1991, 135 s.; Cemil Hasanlı. Soğuk Savaşın ilk çatışması: İran Azərbaycanı. İstanbul, Bağlam, 2005; Гасанлы, Дж. Советская политика в Иранском Азербайджане, 1941-1946. Первый кризис холодной войны // – Москва: Вертикали истории, – 2003. №5, – с.153-156; Гаджиев, Адиль-Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и послевоенного развития (обшественно-политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г. Гаджиев. – Махачкала, – 2001.

[2] Talıblı, Tahir. Əziz Əliyev–dövrü, həyatı, şəxsiyyəti / T.Talıblı. – Bakı: Göytürk, 1997. – 285 s.

[3] Гаджиев, Адиль-Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и послевоенного развития (обшественно–политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г. Гаджиев. – Махачкала, 2001.

gücləndi. Fərarilər və quldurlar kolxozların və kolxozçuların əmlakını qarət edir, mal-qaranı oğurlayır, məsul partiya və sovet işçilərini, həmçinin fəalları öldürürdülər. Digər tərəfdən faşistlər ideoloji işi qüvvətləndirmişdilər. A.Hitler özünü Dağıstanın və Şimali Qafqazın imamı elan etmişdi. Faşistlər milli siyasətdə qeyri-rus xalqlarının ruslara qarşı qoyulmasına böyük diqqət verirdilər. İşğal olunmuş rayonların hakimiyyətindən gürcülər, ermənilər və ruslar arasındakı qarşıdurmalarda istifadə etmək tələb olunurdu.[1] Faşist rəhbərləri millətçilik, türkizm kimi şüarlardan silah kimi istifadə edir, marionet müsəlman dövləti yaratmaq ideyasını irəli sürürdülər. Yayılan vərəqlərdə hitlerçilər əhalini sovet hakimiyyətini, partiya orqanlarını ləğv etməyə, kolxoz, sovxoz və dövlət mülkiyyətini məhv etməyə çağırırdılar.[2]

Dağıstanda kütləvi-siyasi iş çox pis təşkil edilmişdi. Aullarda antisovet elementlər müxtəlif şayiələr yayırdılar. Yerli millətlərdən olan kadrların tərbiyəsinin qoyuluşunda nöqsanlar vardı, xüsusilə qeyri-ruslardan olan kadrlar azlıq təşkil edirdi. Vilayət partiya komitəsinin 84 işçisindən cəmi 21 nəfəri, yaxud 25%, 43 təlimatçısından 7 nəfəri yerli millətlərdən idi.[3] Bu səbəbdən də, yaranmış ağır vəziyyətdə, xüsusilə faşistlərin Dağıstanın ərazisinin işğal etdiyi, hadisələrə laqeydliklə yanaşıldığı vaxtda respublika partiya təşkilatının işinin qüvvətləndirilməsi, rəhbərliyin möhkəmləndirilməsi üçün Dağıstan partiya komitəsinin fəaliyyətinin yenidən qurulması tələb olunurdu. Bu sahədə Azərbaycan SSR hökuməti və Azərbaycan K(b)MK 40 nəfər hazırlıqlı partiya və sovet işçisini Əziz Əliyevin başçılığı altında Dağıstana göndərmişdi. DMK-nin 16 sentyabr 1942-ci il tarixli qərarı ilə Ə.Əliyev Azərbaycan AK(b)P MK-nın katibi vəzifəsindən azad olunaraq Dağıstan Vilayət Komitəsinin birinci katibi təyin olundu.[4]

DMK-nin 1942-ci il 16 sentyabr tarixli qərarında deyilirdi: "Yoldaş Əliyev möhkəm partiya işçisidir. O, möhkəm Azərbaycan, Bakı partiya təşkilatında yaxşı tərbiyə olunmuş, Azərbaycan K(b)P MK-nın üçüncü katibi işləmişdir. O, MK-da qabiliyyətli partiya işçisi kimi məlumdur, …Əliyev öz gücünü səfərbər edərək respublikadakı vəziyyət düzəldə bilər".[5] Doğrudan da Ə.Əliyev vilayət komitəsində işlədiyi ilk aylarda vəziyyəti, dağıstanlıların

---

[1] Внешняя политика Советского Союза в период Великой Отечественной войны Т.! Москва, 1946. – с. 252.

[2] Гаджиев, Адиль-Герей. Азиз Мамед–Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и после–военного развития (общественно–политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока. Махачкала, 2001. – с.13

[3] ЦГА РД, фонд№1, опис №23, дело №3, листы – 2.

[4] ЦГА РД, фонд№1, опис №23, дело №3, листы – 1.

[5] Гаджиев, Адиль–Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и послевоенного развития (общественно–политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г. Гаджиев. – Махачкала, –с.15.

xarakterini və adətlərini öyrəndi,[1] vilayət komitəsi kolxoz təsərrüfatlarının yenidən qurulmasına dair təxirəsalınmaz tədbirlər qəbul etdi.

Dağıstan Vilayət Komitəsinin 1942-ci il 23 sentyabr tarixli plenumundakı çıxışında Ə.Əliyev quldurluq və fərariliklə mübarizəni önə çəkdi, 1942-ci il oktyabrın əvvəlində xalq müdafiə partizan dəstələri, qırıcı batalyonlar yaradılması haqqında qərar qəbul olundu. Respublikada hərbi intizam möhkəmləndirildi, respublikanın həyatı hərbi şəraitə uyğun yenidən quruldu. Vilayət komitəsinin qərarı ilə artıq 1942-ci il oktyabrın 8-də Dağıstan ərazisində hər birində 30-50 nəfər olmaqla Xasavyurt, Kumtor-Kalin, Buynaks, Qarabudaqkənd, Botlix, Qunib, Serqokalin, Dərbənd, Kasımkənd, Avxar rayonlarında, Buynaks, Mahaçqala və Dərbənd şəhərlərində 13 partizan dəstəsi fəaliyyət göstərirdi.[2]

1942-ci ildə faşistlər Şimali Qafqazı cəbhəni yaranda Dağıstanın 1800-dək qızı könüllü cəbhəyə getdi. Onlar Mozdok, Malqobek, Orconikidze döyüşlərində mərdlik və qəhrəmanlıq göstərdilər. 2 mindən artıq dağıstanlı qadın müharibə cəbhələrində döyüşdü. Dağıstanlı qızlar-qadınlardan 830 nəfər rabitəçi, avtomatçı, snayperçi oldu.

Dağıstan partiya təşkilatı Dağıstan xalqlarının ənənələrindən, ağsaqqalların nüfuzundan gənclərin vətənpərvərlik tərbiyəsində istifadə etdi. 1942-ci ilin oktyabrında dağlı ağsaqqalların, keçmiş qırmızı partizanlar, vətəndaş müharibəsi və Vətən müharibəsi iştirakçılarının müraciətində gənclər Şamil, Ullubi Buynakski, Moxas Daxadoyev və Dağıstanın digər cəsur oğulları kimi qorxmaz və cəsarətli olmağa çağırıldı.[3]

Döyüşən ordunu qüvvələrlə təmin etmək, silah və sursat istehsalını artırmaq, təxliyə olunmuş insanları və müəssisələri yerləşdirmək, əsgər ailələrinə qayğı və s. məsələlərin həlli ciddi intizam və məsuliyyət, çoxtərəfli iş tələb edirdi. Aparılmış təşkilatçılıq işinin nəticəsində 1942-ci ildə respublikanın müəssisələri 5 mühüm silah növünü, 19 növdə sursat, o cümlədən minomyotlar, pulemyotlar, avtomatlar, torpedalar, aviasiya bombaları, zenit mərmiləri, mina, qumbara, patron və s. istehsalını mənimsədilər. Dağıstan sənayesi hər ay 1200 minomyot, 100 min mina, 5 min artilleriya mərmisi, 30 min qumbara, 40 min tank əleyhinə fuqas, 10 min PPŞ, 500 min butulka yandırıcı qarışıq buraxdı. 1942-ci ilin 10 ayında respublika müəssisələri cəbhə üçün 3,5 mindən artıq 85 mm. zenit qumbarası, 115 min 88 mm., 631 min 50 mm. mina, 460 min 45 mm. mərmi, 335 min RQD-33 qumbarası və digər döyüş vasitəsi və sursatı hazırlayaraq cəbhəyə göndərdi.

---

[1] Данийалов, Абдурахман. Дагестан: Время, судбы / А.Данийалов. – Махачкала, 1991. – с.244-245.

[2] ЦГА РД, фонд №1, опис №23, дело №3, листы – 20.

[3] Дагестанская правда, 1942, 29 октябрь.

1944-cü ildə Dağıstanın 11 müəssisəsi 29 növdə cəbhə sifarişini yerinə yetirirdi. Müdafiə fonduna Dağıstan zəhmətkeşləri 101 milyon rubl, 250 kiloqram gümüş və qızıl, 750 kq. əlvan metal, tank və təyyarə tikintisi fonduna 350 milyon rubl verdilər. Dağıstanlılar ölkə müdafiə fonduna verdiyi bir milyarddan yuxarı pul vəsaiti hesabına 3 zirehi qatar, "Şamil" tank dəstəsi, Buynaks, V.Emirov, M.Daxadoyev, Q.Saidov, A.Boqatıroe və b. adlarda aviasiya eskadrilyaları tikildi.[1] Müharibə illərində 58 dağıstanlı Sovet İttifaqı Qəhrəmanı və Rusiya Qəhrəmanı adına, 7 nəfər "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görüldü.

Kitabda qeyd olunur ki, Dağıstanın kolxozçuları fədakarlıqla çalışdılar. 1926-cı il siyahıyaalmasına görə Dağıstanda 81 xalq yaşayırdı. 1942-ci ildə Dağıstanın 22 dağlıq rayonunda yaşayan yarım milyondan çox insanın 60 faizi kənd əhalisi idi. Burada respublikada olan bütün mal-qaranın 82,5 faizi, əkin sahələrinin 28 faizi cəmləşmişdi. Ə.Əliyev vəziyyəti təhlil edərək Dağıstana kömək üçün qərarlar qəbul edilməsinə nail oldu. DMK-nin 16 sentyabr 1942-ci il tarixli, SSRİ XKS və ÜİK(b)P MK-nın "Dağıstan MSSR dağlıq rayonlarının kolxozlarının möhkəmləndirilməsi tədbirləri haqqında" 8 sentyabr 1943-cü il tarixli qərar qəbul etdi. Ə.Əliyevin fəal iştirakı ilə 1944-cü il oktyabrın 18-də "Dağıstan MSSR kənd təsərrüfatına kömək tədbirləri və yeni rayonların əlavə məskunlaşdırılması haqqında", martın 11-də "Dağıstan MSSR-də meyvəçilik və üzümçülüyün bərpası və inkişafına dair təxirəsalınmaz tədbirlər haqqında", martın 10-da ÜİK(b)P MK-nın və martın 27-də SSRİ XKS-nin "Dağıstan MSSR-ə kömək göstərilməsi haqqında" qərarları qəbul olundu. 1941-1944-cü illərdə Dağıstanın kənd əməkçiləri ölkəyə 120 min tondan çox buğda, 48 min ton ət, 1332 ton yağ, 1134 ton pendir, 50 min tona yaxın yun, 2 milyon ədədə yaxın dəri məmulatı, 15 milyon ədəddən çox yumurta, müdafiə fonduna könüllü olaraq 350 milyon rubl verdilər. Cəbhəyə 150 vaqon hədiyyə, minlərlə ton üzüm, tərəvəz, meyvə və ərzaq göndərdilər.[2]

Ə.Əliyev yaxşı bilirdi ki, faşistlərin Dağıstanı işğal etməsi Bakıya olan yolun açılması demək idi. Cənubi Qafqazın, həmçinin Orta Asiya və Qazaxıstan, İran, Hindistan və digər Şərq ölkələrinin taleyi Dağıstanın faşist işğalçılarına necə sinə gərməsindən asılı idi. Bu səbəbdən də, Dərbənd keçidinin böyük hərbi strateji əhəmiyyət daşıdığını qiymətləndirən Ə.Əliyev,

---

[1] Гаджиев, Адиль-Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и послевоенного развития (общественно-политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г. Гаджиев. – Махачкала, – с.33.

[2] Гаджиев, Адиль-Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП (б) в годы Великой Отечественной войны и послевоенного развития (общественно–политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г. Гаджиев. – Махачкала, – с.34.

cəbhənin Dağıstan sərhədlərinə yaxınlaşması ilə əlaqədar müdafiə hüdudlarının möhkəmləndirilməsinə xüsusi diqqət yetirdi. Müdafiə hüdudlarının tikintisinə 150 min nəfər səfərbər olundu ki, bu müharibənin birinci ilindəkindən 2 dəfədən çox idi. Sulak və Samur çayları boyunca müdafiə hüdudları tikildi. Mahaçqala, Dərbənd, Xasavyurt və Buynaks şəhərlərinin müdafiəsi məqsədilə 70 km.-dən artıq 8 müdafiə hüdudu, 15 aerodrom, 21 mindən artıq atəş nöqtəsi, 117 tank əleyhinə və 86 piyada əleyhinə maneə, 360 kilometr əlaqə dəhlizi tikildi. Müdafiə hüdudlarının tikintisində əmək qəhrəmanlığına görə 20 mindən artıq dağıstanlı "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olundu. Müdafiə hüdudlarının tikintisindəki əməyinə görə 200 nəfər dağıstanlı qadın hökumət mükafatları ilə təltif olundu.

Kitabda Ə.Əliyevin tibb mütəxəssisi olması və müharibə illərində Dağıstanda tibbin və səhiyyənin inkişafında yeni mərhələ başlanması faktlar və sənədlərlə açılmışdır. Qeyd olunur ki, müharibə başlayanda respublikadakı yeganə tibb universitetinin bağlanması təhlükəsi yaranmışdı. 1942-ci il sentyabrın 7-də DMK-nin qərarı ilə Dağıstan Dövlət Universiteti Dərbəndə təxliyə olunmuşdu. Məşğələlər kəsilmiş, müəllimlər Mahaçqalada qalmış, iş dayanmışdı. Ə.Əliyev ilk növbədə tibb institutunun fəaliyyətini nəzarətə götürdü, bir neçə gün sonra – 1942-ci il oktyabrında institut Mahaçqalaya təxliyə olundu, institut üçün 4 mərtəbəli bina ayrıldı. 1943-cü ildə institut daha bir təhlükə ilə üzləşdi. SSRİ Səhiyyə Nazirliyi Dağıstan Tibb İnstitutunu Orconikidze şəhərinə köçürmək istədi. İnstitutun saxlanmasında Ə.Əliyev böyük rol oynadı.

Ə.Əliyev təxliyə hospitallarının işi ilə daim maraqlanır, onların material-texniki bazasının möhkəmləndirilməsini diqqətdə saxlayır, yaralıların tezliklə sağalmasına çalışırdı. Professor X.O.Bulaç xatirələrində yazır ki, 1941-1945-ci illərdə müalicə kursu keçən 13.490 yaralıdan 10.398 nəfəri və ya 79%-i sıraya qayıtmışdı.

Yerli milli kadrların hazırlanmasına Dağıstan partiya təşkilatı gündəlik qayğı göstərirdi. Dağıstan çoxmillətli respublika idi. Ə.Əliyev rəhbərliyə başlayarkən yerli millətlərdən kadr hazırlığında ciddi çatışmazlıqların olduğunu hiss etmişdi. 1585 həkim, feldşer və digər tibb mütəxəssisindən 95 nəfəri kumık, 2 nəfəri dargin idi. Eyni mənzərə kənd təsərrüfatında da müşahidə olunurdu. Aqronomlardan 69 nəfəri rus, 6 nəfəri avar, 3 nəfəri dargin, 7 nəfəri kumık idi. Mexaniklərin 33 nəfəri rus, 1 nəfəri avar, 1 nəfəri lak idi. Darginlərdən və ləzgilərdən mexanik yox idi. Sənayedə işləyən mühəndis-texniki işçilərdən 205 nəfəri rus, 10 nəfəri kumık, 1 nəfəri ləzgi, 2 nəfəri avar, 4 nəfəri dargin idi. Aparılmış təşkilati iş nəticəsində 1944-1945-ci illərdə sənaye, nəqliyyat və rabitədə işləmək üçün 25 min nəfər hazırlandı və ya yaxud yenidən hazırlandı. Çoxlu sayda dağıstanlı gənc ADU-ya qəbul olundu. Universitetin aspiranturasında hazırlıq keçdi. Elmi kadrların hazırlanmasına Ə.Əliyevin diqqətinin bariz nümunəsi 1945-ci ildə SSRİ EA

Dağıstan bazasının yaradılması oldu. SSRİ XKS-nin 30 oktyabr 1945-ci il tarixli qərarında deyilirdi: "SSRİ EA Dağıstan bazası birləşmiş elmi-tədqiqat müəssisəsidir".

1944-cü ildə Dağıstan xalqları deportasiya təhlükəsi ilə üzləşdilər. ÜİK(b)P MK-da Dağıstan xalqlarının Orta Asiya və Qazaxıstana sürgünü məsələsi müzakirə olundu. Dağıstan xalqlarının bu qorxulu təhlükədən xilas olunmasında Ə.Əliyev böyük rol oynadı. Məsələnin ÜİK(b)P MK-da müzakirəsində Ə.Əliyev, Dağıstan XKS-nin sədri A.Daniyalov və Dağıstan Vilayət Ali Sovet Rəyasət Heyətinin sədri A.Taxtarov iştirak etdilər. İ.Stalinlə görüşən Əziz Əliyev dağıstanlıları Vətənin müdafiəsinə qalxdığına, 25 minlik könüllü dəstələr yaradıldığına onu inandırdı. Moskvadan qayıdandan sonra Əziz Əliyevin göstərişi ilə vətəndaş müharibəsi qəhrəmanı Kara Karayevin komandanlığı altında könüllü eskadron yaradıldı. Eskadronun komissarı Əhməd Şaripov, qərargah rəisi və partiya təşkilatçısı Məhəmməd Rəsul Tavakayev, bayraqdarı Qazı Ömərov təyin olundu. Eskadronun yola salınma zamanı Ə.Əliyev Kara Karayevə üzərində "Əlahiddə Dağıstan süvari eskadronu" sözləri yazılmış Qırmızı bayraq təqdim etdi. Eskadronun döyüş yolu İsersk stansiyası altından başladı. Eskadron Mozdokun azad edilməsində iştirak etdi. Eskadronun qəhrəmanlığını xarakterizə edən 416-cı Taqanroq diviziyasının komandiri general-mayor Sızranov yazmışdı: "Dağıstanlı döyüşçülər diviziyanın şərəfli döyüş yolunda bizim sıralarımızda mərdlik və qəhrəmanlıqla döyüşdülər". 1942-ci ildə Dağıstan ərazisində formalaşdırılan 91-ci atıcı diviziya döyüş qəhrəmanlığına görə sonralar "Melitopol" fəxri adını aldı. Dağıstanlı gənclər müharibə cəbhələrində qəhrəmanlıq göstərdilər.[1] Nəticədə, Dağıstan xalqlarının deportasiya təhlükəsi sovuşdu, Dağıstana qonşu olan çeçenlər isə Orta Asiya və Qazaxıstana sürgün olundular.

Müharibə xalq təsərrüfatında olduğu kimi mədəniyyət sahəsinə də təsir göstərdi. Ə.Əliyev Dağıstanın ən çətin anlarında belə təhsil, mədəniyyət, elm problemlərini ciddi nəzarətdə saxlayırdı. 1943-cü il fevralın 4-də Dağıstan MSSR XKS və Vilayət partiya komitəsinin bürosu "Respublikada incəsənətin inkişafına dair tədbirlər haqqında" qərar qəbul etdi. Dağıstan xalqlarının tarixinin, etnoqrafiyasının, həmçinin dilinin öyrənilməsinə dair tədqiqatlar genişləndirildi. Müharibə illərində respublikanın teatrları Dağıstan xalqlarının vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyəsində fəal iştirak etdilər. Kumık teartı Acamalovun «Сталинский капкан», «Ансар», «Аткай» əsərlərini, avar teatrı Dağıstanın xalq şairi Həmzət Sadasın «Базалай» pyesini yeni quruluşda səhnələşdirdi. Rus teatrının repertuarında «Надежда Дурова», «Русские люди» ("Rus adamları"), «Фронт» ("Cəbhə"), «Кремлевские куранты» ("Kreml zəngləri") vətənpərvərlik pyesləri əsas yer tuturdu.

[1] Газ. "Дагестанская правда", 1942, 12 декабря.

Ə.Əliyevin şəxsi göstərişi əsasında 1943-cü ilin əvvəlində Mahaçqalada Kumık və Rus Dram Teatrı tərkibində Qorki adına Dağıstan Dövlət Teatrı təşkil edildi. Həmin vaxt Buynakskda Avar Respublika Dram Teatrı təşkil olundu. Dargin və Lak milli teatrları yaradılması üçün tədbirlər müəyyənləşdirildi.

İncəsənət işçiləri arxada yerləşən hospital və hərbi hissələrdə böyük iş apardılar. Müharibə illərində onlar 30 min hamilik konserti verdilər. Dağıstan ansamblı iki dəfə Cənubi Qafqaz cəbhəsi hissələrində, bir dəfə Uzaq Şərq cəbhəsində döyüşçülərə xidmət göstərdilər.

Dağıstan Vilayət Partiya Komitəsinin qərarı ilə Dağıstan məktəblərində rus dilinin tədrisi müəyyənləşdirildi. 1943-cü il yanvarın 8-də Dağıstan Vilayət Partiya Komitəsi bürosunun qərarı ilə Dağıstan məktəbləri üçün ana dili ilə yanaşı rus dili müəllimi hazırlığı da nəzərdə tutuldu.

Dini problemlər Ə.Əliyevin diqqətində olan və nəzarətində saxlanılan məsələlərdən idi. 1944-cü ildə Dağıstanda və Şimali Qafqazda islam tarixində mühüm hadisə baş verdi. Şimali Qafqaz müsəlman xadimləri Buynaksda Şimali Qafqaz Müsəlmanları İdarəsinin təşkilinə razılıq üçün Dağıstan MSSR Ali Sovetinə müraciət etdilər. 1944-cü il mayın 16-da Dağıstan MSSR Ali Soveti Şimali Qafqaz müsəlman qrupunun təklifini məqbul hesab etdi və Buynaksda Şimali Qafqaz Müsəlmanlarının Dini İdarəsinin təşkilinə icazə verildi.

Araşdırılan problemlərdən biri də – SSRİ-nin rəhbər dairələrinin anti-Azərbaycan milli siyasətinin bariz nümunəsi olan **21 Azər hərəkatına münasibətdir**. Bəhs olunan problemə dair ədəbiyyatın təhlili deməyə göstərir ki, Güney Azərbaycanda şah rejiminin devrilməsindən sonra çap edilmiş əsərlərdə, müsahibə və xatirələrdə 1941-1946-cı illərdə Güney Azərbaycandakı milli-demokratik hərəkat və muxtariyyət tələbi haqqında həqiqətlər etiraf olunmağa başlamış, Güneydə azadlıq istəyən xalqın başına gətirilən faciələr böyük ürək ağrısı ilə xalqa çatdırılmışdır.[1] Bu sahədə 70-ci illərdə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda yaradılmış "Güney Azərbaycan tarixi" şöbəsi əməkdaşlarının, xüsusilə Cənubi Azərbaycanda xalq hərəkatının fəallarından olmuş M.Çeşmazərin əməyi böyük olmuşdur.[2] Araşdırmalar göstərir ki, Güney Azərbaycandakı hərəkata Sovetlərin xəyanəti və müdaxiləsi, cənubda muxtar dövlətin yaradılmasına Stalin-Mikoyan-Beriya qrupunun münasibəti, İran Xalq Partiyasının (Tudə) Azərbaycan Demokrat Firqəsinə qısqanc münasibəti və bir çox hallarda partiyaya qarşı əks-həmlələrin təşkil olunması, Qəvamülsəltənənin Sovetlərlə sövdələşməsinin ma-

---

[1] Rəhimli, Ə. Güney Azərbaycanda milli-demokratik hərəkat / Ə.Rəhimli. – Bakı, 2003; Rəhimli, Ə. Mübarizə burulğanında keçən ömür. S.C.Pişəvəri / Ə. Rəhimli. – Bakı, – 2009; Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli–demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, – 2015.

[2] Çeşmazər, M.M. Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyəti / M.Çeşmazər. – Bakı: Elm, – 1986. – 160 s.

hiyyəti, Milli Hökumətin süqutunda neft amilinin rolu, İrana qarşı Sovet ekspansiyasının niyyətləri, şah qoşunlarının Azərbaycana hücumundan əvvəl hazırlanmış təxribat əməliyyatları, Milli Hökumətin məğlubiyyətinin səbəbləri, taktiki səhvləri və ondan irəli gələn ibrət dərsləri SSRİ-nin süqutuna qədər birtərəfli araşdırılaraq sovet ideologiyasının tələbləri baxımından izah olunmuş, Cənubi Azərbaycandakı milli-demokratik hərəkata separatçılıq damğası vurulmuşdur. Azərbaycan Demokrat Firqəsinin mühacirət dövründə 21 Azərlə, S.C.Pişəvəri,[1] Azərbaycan Milli Hökuməti və onun fəaliyyəti ilə bağlı bir neçə kitab, broşura, bloknot çap edilmişdir.[2] S.C.Pişəvərinin seçilmiş əsərləri,[3] Lütfəli Ərdəbilinin hazırladığı "Fədailər Azərbaycan xalqının 21 Azər nehzətində" (nehzət-inqilab – M.Ə.) monoqrafiyası[4] və digərlərində 21 Azər hərəkatına, Azərbaycan Milli Hökumətinə sovetlərin münasibəti, SSRİ-nin milli siyasətində Azərbaycana qarşı ikili standartlara dair maraqlı materiallara rast gəlinir.

S.C.Pişəvərinin seçilmiş əsərlində[5] 21 Azər hərəkatına, Azərbaycan Milli Hökumətinə sovetlərin münasibəti, SSRİ-nin milli siyasətində Azərbaycana qarşı ikili standartlara dair maraqlı materiallara rast gəlinir. Bu sahədə 70-ci illərdə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunun tərkibində yaradılmış "Güney Azərbaycan tarixi" şöbəsi əməkdaşlarının, xüsusilə Cənubi Azərbaycanda xalq hərəkatının fəallarından olmuş M.Çeşmazərin əməyi böyük olmuşdur.[6]

Göründüyü kimi Azərbaycanın II Dünya müharibəsində iştirakı tarixşünaslığı olduqca zəngindir. Tarixşünaslığın təhlilinə istinadən deyə bilərik ki, II Dünya müharibəsi "...bir-birinə əks olan iki düşüncənin, iki ideologiyanın, iki hərbi qüvvənin qarşılaşması, dünyanı yenidən nüfuz dairələrinə bölmək uğrunda aparılan mübarizə idi. Bu müharibədə hansı tərəfin haqlı və haqsız olduğunu söyləmək və qiymətləndirmək, birini düşmən, digərini mələk kimi qələmə vermək...ədalətsizlik olardı. Yalnız bir həqiqəti

---

[1] Əhmədov, V.M. C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı / V.Əhmədov. – Bakı: Göytürk, – 1998. – 195 s.

[2] Güney Azərbaycan / Ş.Tağıyeva, S.Bayramzadə // – Bakı, 2000; Tağıyeva, Ş. Güney Azərbaycan (Məlumat kitabı) / Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. – Bakı, 2000.

[3] Pişəvəri, M.C. Seçilmiş əsərləri / Toplayan, tərtib və tərcümə edənlər: Ə.Əminzadə, T.Musəvi və H.Ciddi. Red-ru Əmirəli Lahrudi. – Bakı, 1984; Pişəvəri, S.C. İran Azərbaycanında demokratik hərəkat tarixi. –Bakı: 1947.–c.I-II; Pişəvəri, S.C. Xatirələr (1941-1945) / S.C.Pişəvəri. – Bakı, 2005.

[4] Bax: Rəhimli, Ə.Mübarizə burulğanında keçən ömür. S.C.Pişəvəri / Ə.Rəhimli. – Bakı, 2009.

[5] Pişəvəri, M.C. Seçilmiş əsərləri / Toplayan, tərtib və tərcümə edənlər: Ə.Əminzadə, T.Musəvi və H.Ciddi. Red-ru Əmirəli Lahrudi / Bakı, 1984; yenə onun, İran Azərbaycanında demokratik hərəkat tarixi. I-II c. Bakı, 1947 (Əlyazma hüququnda); Yenə onun, Xatirələr (1941-1945). Bakı, 2005.

[6] Çeşmazər, M.M. Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyəti / M.M.Çeşmazər. – Bakı, 1986.

etiraf etmək lazımdır ki, milli-mənəvi amil bu müharibədə həlledici şərtlərdən biri olmuş", vətəndaşlıq şüuru, əzmkarlıq və mərdlik kimi mənəvi keyfiyyətlər qələbədə mühüm rol oynamışdır.

Mövzunun aktuallığını şərtləndirən məsələlərdən biri də müharibə illərində Cənubi Qafqaz respublikalarının Azərbaycan SSR-dən ərazi iddialarına Moskva tərəfindən şərait yaradılması, Cənubi Azərbaycanda baş verən milli-azadlıq hərəkatının boğulmasında SSRİ-nin rəhbər partiya və sovet orqanlarında yüksək mövqe tutmuş ermənilərin iştirakına SSRİ rəhbərliyinin göz yumması, Azərbaycana qarşı SSRİ-nin milli siyasətindəki yer alan ikili münasibətin araşdırılmamasıdır.

Azərbaycan tarixinin 1941-1945-ci illər dövrünə müraciət edilməsi, xüsusilə tarixi təcrübədən istifadə olunması baxımından da aktualdır. Bəhs olunan dövrdə qəbul olunmuş qərarların, partiya və dövlət rəhbərlərinin nitqlərinin və çıxışlarının, cəbhə komandanlarının xatirələrinin, ayrı-ayrı döyüşlərin xronikasının, mövzuya aid nəşr olunmuş memuarlar, əsgər və zabitlərin məktublarının, vətənpərvərlik ruhunda yazılmış ədəbiyyat və incəsənət nümunələrinin tədqiqat problemi baxımından yenidən nəzərdən keçirilməsi vacibdir.

Ermənistanın Azərbaycandan ərazi iddialarına, Azərbaycana qarşı elan olunmayan müharibələri davam etdirməsinə, keçmiş SSRİ Silahlı Qüvvələrinin Xankəndində yerləşən 366-cı alayının fəal iştirakı ilə Azərbaycanın neçə-neçə yaşayış məntəqəsində, xüsusilə Xocalı şəhərində soyqırımı törədilməsinə dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar Azərbaycanın haqlı tələblərinə susmaqla münasibət bildirdilər. BMT-nin qərarlarına hörmətsizlik göstərən Ermənistana heç bir sanksiya tətbiq edilmədi. Azərbaycan dövlətinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll etmək tələbinə qarşı Ermənistanın danışıqlardan yayınması, status-kvonu saxlamaq cəhdləri, ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin münaqişənin hərbi yolla həllinin olmamasına dair iddiaları Ermənistanı bir az da şirniklendirdi. Nəhayət, 30 ilə yaxın bir dövrdə münaqişənin həlli istiqamətində əməli iş görülmədi. Yaranmış vəziyyətdən və Qərb dairələrinin münaqişənin həllinə ikili standartlardan yanaşmasından istifadə edən Ermənistan Silahlı birləşmələri mütəmadi olaraq atəşkəsi pozdu, irimiqyaslı təxribatlar törətdi, işğal olunmuş ərazilərdən Azərbaycan ərazilərini atəşə tutdu. Beynəlxalq təşkilatların münaqişəyə biganə münasibətindən hiddətlənən Azərbaycan Ordusu cavab atəşi ilə düşməni susdurdu, 2015-ci ilin avqust və 2016-cı ilin aprel döyüşlərində Azərbaycan Ordusu mühüm qələbələr qazandı. 2020-ci ilin iyununda Ermənistan yenidən Azərbaycanın dövlət sərhədini pozmağa cəhd etdi, lakin itki verərək geri çəkildi. 2015, 2016 və 2018-ci ilin hərbi əməliyyatlarından nəticə çıxarmayan və Azər-

baycan Ordusunun gücünü düzgün qiymətləndirə bilməyən Ermənistan Silahlı Qüvvələri 2020-ci ilin sentyabrında hücuma keçdi və Azərbaycan Ordusu əks-hücum əməliyyatlarına başladı. 44 gün ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin 10 min nəfərə yaxın canlı qüvvəsi və əksəriyyət texnikası məhv edildi. Azərbaycan Ordusu Qarabağın incisi olan Şuşa şəhərini, həmçinin bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etdi. Vətən müharibəsi – 44 günlük müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatdı. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktına imza atmağa məcbur oldu. Azərbaycanın "Dəmir yumruğu" 30 illik işğala son qoydu.

II Dünya müharibəsinin sonlarına yaxın Azərbaycandan torpaq iddialarına düşən, müharibədən sonrakı illərdə Azərbaycandan torpaq qopartmaq sevdasından əl çəkməyən və SSRİ-nin süqutu ərəfəsində işğal etdiyi Azərbaycan torpaqlarından əlinin çıxdığını hiss edən Ermənistanın 44 günlük II Qarabağ müharibəsi – Vətən müharibəsində biabırcasına məğlubiyyəti və torpaqların işğaldan azad edilməsi araşdırılan mövzunu bir daha aktuallaşdırdı. Bu baxımdan Azərbaycan tarixşünaslığında tarixi təcrübənin öyrənilməsi, səhvlərin aradan qaldırılmasına yönələn tədqiqatlara ehtiyacı vardır.

Monoqrafiyada müharibə illərində faşizm üzərində qələbədə Azərbaycan xalqının əməyinin lazımınca qiymətləndirilməməsi, yaranmış tarixi şansdan istifadə olunaraq Şimali Azərbaycanla Cənubi Azərbaycanın birləşdirilməməsi və bu sahədə rus-erməni-gürcü qruplaşmasının rolunun aşkara çıxarılması üçün SSRİ-nin milli siyasətinin antiazərbaycan mövqeyinin faktlarla sübut olunması qarşıya məqsəd kimi qoyulmuşdur. Tədqiqatın vəzifəsi kimi aşağıdakı məsələlərin araşdırılması vacib hesab edilmişdir:

– Müharibə ərəfəsində respublikada hərbi-müdafiə işinin vəziyyətini araşdırmaq, müdafiə işinin təşkili və əhalinin hərbi hazırlığının vəziyyətini öyrənmək, təhlillər və ümumiləşdirmələr aparmaq;

– Müharibə illərində Azərbaycanda hərbi səfərbərlik, döyüşən ordu hissələrinin formalaşdırılması sahəsində görülən işlərin həcmini və əhəmiyyətini düzgün müəyyənləşdirmək, hərbi-vətənpərvərlik tərbiyəsi sistemini araşdırmaq;

– Milli diviziyaların təşkili, onların döyüş yoluna dair yeni faktları aşkara çıxarmaq;

– Sovet-İran əlaqələrində Azərbaycanın rolunu işıqlandırmaq;

– Faşizm üzərində qələbədə Azərbaycan xalqının rolunu faktik materiallar əsasında təhlil etmək.

Monoqrafiyada əsaslandırılır ki, milli diviziyalarda diviziyadaxili münasibətlərinin milli zəmində gərginləşdirilməsinin başlıca səbəbi azərbay-

canlı olmayan zabit kadrların rəhbər heyəti təşkil etməsi, milli hərbçi kadr hazırlığı problemlərini və neqativ halların mənbəyinin əsasında müsəlmanlardan ibarət döyüşçülərə mənfi münasibətin dayanmasıdır. Azərbaycan SSR-ə qarşı ermənilərin və gürcülərin ərazi iddialarına SSRİ Mərkəzi aparatında rəhbər orqanlara başçılıq edən rus-erməni-gürcü qruplaşması şərait yaradırdılar. SSRİ-nin milli respublikalara, o cümlədən Azərbaycan SSR-ə olan ikili münasibət nəticəsində Azərbaycanda antisovet əhval-ruhiyyə formalaşırdı.

Arxiv materiallarının təhlili göstərir ki, Cənubi Azərbaycanda baş verən hadisələrə SSRİ ikili standartlardan yanaşırdı. Şimali Azərbaycanla Cənubi Azərbaycanın birləşmək imkanının baş tutmamasında İ.Stalinin SSRİ-nin təhlükəsizliyinin qorunması tezisi dayanmışdı. O, hesab edirdi ki, Qafqazda iki xristian respublikasına qonşu olan güclü və böyük Azərbaycan yaradılması bölgədə qüvvələrin nisbətini dəyişə bilərdi. SSRİ rəhbərliyinin Azərbaycanla bağlı milli siyasətindəki ikili standartlardan biri də Bakının "cəbhəyanı şəhər" elan olunmaması və Bakıya "Qəhrəman şəhər" adının verilməməsidir.

Tədqiqatın elmi yeniliyinin əsasını Azərbaycanla bağlı SSRİ-nin milli siyasətindəki çatışmazlıqların aşkara çıxarılması təşkil edir. Arxiv materialları və ədəbiyyatın təhlili nəticəsində sübut olunmuşdur ki, faşizm üzərində qələbədə Azərbaycan xalqının istər ön, istərsə də arxa cəbhədə əməyi lazımınca qiymətləndirilməmişdir. Milli diviziyaların təşkilində və onlara qeyri-azərbaycanlıların rəhbər təyin olunmasındakı nöqsanlar, milli hərbi hissələrin zəifləməsinə, millətçilik meyillərinin qüvvətlənməsinə səbəb olan antimilli siyasət arxiv sənədləri ilə sübut olunmuşdur. Müharibənin sonuna yaxın Şimali Azərbaycanla Cənubi Azərbaycanın birləşdirilməsi şansının yaranmasının əsaslandırılması, bu sahədə rus-erməni-gürcü qruplaşmasının və SSRİ-nin rəhbər partiya və sovet təşkilatlarının anti-Azərbaycan siyasətinə dair faktlar tədqiqat işinin yeniliyi hesab oluna bilər.

Tədqiqat işinin əsasını ÜİK(b) P MK-nın, SSRİ XKS-nin və SSRİ Ali Soveti Rəyasət Heyətinin,[1] həmçinin Azərbaycan SSR XKS və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin[2] müharibə dövründəki qərarları, DMK-nin əmrləri və direktivləri, dövlət və hökumət hərbi orqanları rəhbərlərinin çıxışları, ordu komandanlarının əmrləri və direktivləri, milli diviziyaların

---

[1] Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 12 томах] / – Москва: Политиздат, 1977, – т.12, – 606 с.; Политбюро ЦК РК(б)–ВКП (Б) – повестки дня заседаний [в 3 томах]. – Москва: РОССПЭН, т.3. – 1940–1952. – 2001. – 1200 с.

[2] Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR hökumətinin qərarlarının xronoloji külliyyatı (1936–1945) / – Bakı: Azərnəşr, – c.2. – 1961. – 396 s.

strukturuna, şəxsi heyətin və texnikanın sayına aid sənədlər, Azərbaycan K(b)P MK rəhbərliyinin döyüşən ordu rəhbərləri ilə yazışmaları və Azərbaycan K(b)P MK bürosunun qərarları,[1] milli diviziyalar və Azərbaycan

[1] Выписка из протокола №245 заседания Бюро ЦК КП(б) Азербайджана от 16 июня 1942 г. «О мероприятиях по оказанию помощи командованию Дальневосточного фронта по усилению политико–воспитательной работы среди бойцов–азербайджанцев, находящихся в частях Дальневосточного фронта» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы – 35–37; Выписка из протокола №238 заседания Бюро ЦК КП (б) Азербайджана от 4 июня 1942 г. «О командировании на длительный срок группы ответственных работников в помощь командованию СД, расположенных на территории Азербайджанской ССР» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы – 85–86; Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О мероприятиях по ускорению работ по переформированию 402-й и 223-й стрелковых дивизий в национальные дивизии») // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 39-40; Выписка из протокола №217 заседания Бюро ЦК КП(б) Азербайджана от 7 марта 1942 г. «О прикреплении к 223-й стрелковой дивизии дополнительной группы руководящих работников» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 26, ед.хр. №335, листы – 46-47; Выписка из протокола №235 заседания Бюро ЦК КП(б) Азербайджана от 21 мая 1942 г. «О работе прикрепленных ЦК КП(б) Азербайджана к Азербайджанским дивизиям» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 73-75; Выписка из протокола №331 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О мероприятиях по улучшению работы районных, поселковых и сельских Советов депутатов трудящихся» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №28, ед.хр. №23, листы – 123-128; Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 30 июня 1943 г. «Письмо политработников тт. Раджабова, Кулиева, Касымзаде, Юсубова от 30 июня 1943 гг. 223-й дивизии и ответ на их письмо» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 231-235; 240-242; Выписка из протокола №250 заседания Бюро ЦК КП(б) Азербайджана от 31 августа 1942 года; телеграмма Масленникова, Губкина и Фоминых №782 от 30 августа 1942 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №92, листы – 92; 183; 222; 225; Переписка по вопросам оборонного строительства 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №319, листы – 1-69; Переписка с частями Дальневосточного фронта (1942-1943 гг.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы –1-97; Письмо М.Дж.Багирова к А.Алиеву, М.Амирасланову, М.Ибрагимову, Агаронову от 10 ноября 1941 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №282, лист – 90; Письмо М.Дж.Багирова на имя И.Сталина от 20 декабря 1941 г. // Архив Политических Документов Управления

Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №282, лист – 31; Письмо М.Дж.Багирова на имя Г.Маленкова от 10 декабря 1945 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №169, дело №249 / ч.1, листы –11-12; Письмо секретар ЦК КП (б) Азербайджана М.Дж.Багирова на имя Л.П.Берия и Закфронта «О состоянии 223-й стрелковой дивизии» от 12 сентября 1942 года (№685) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 1-14; Письмо командующего войсками Дальневосточного фронта генерала армии Апансенко к секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 8 мая 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы – 3-5; Письмо члену военного совета Закфронта, секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от командира 223-й Стрелковой Дивизии генерал-майора Зюванова от 25 января 1943 г. №00217/1 // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №152, листы –147–148; Письмо командира 223–й Стрелковой Дивизии генерал-майора Зюванова, зам. ком. 223-й Стрелковой Дивизии по политчасти майора Кадырова, начальника политотдела 223-й Стрелковой Дивизии капитана Алиева секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирова от 22 апреля 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы –161–162; Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы –162-163; Письмо воинов-азербайджанцев 223-й Стрелковой Дивизии Касымова А.Р., Раджабова А.Р., Тахирли М.А. секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 19 февраля 1944 года//Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед. хр. №91, листы – 112-116; Письмо командира 223–й Стрелковой Дивизии капитана Сафаралиева секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 18 мая 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 217-219; Письмо бывшего военкома 223–й Стрелковой Дивизии полкового комиссара М.Алиева на имя члена Военного Совета Закавказского Фронта и секретаря ЦК КП(б) Азербайджана 25 января 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 21-24; Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 25 января 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы –147-148; Письмо Уранова секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 25 декабря 1942 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 151-159; Письмо Комиссии по истории Гражданской войны Академии Наук СССР секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 11 февраля 1944 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед. хр. №197, листы – 30-51; Постановление Военного Совета Закфронта 17 сентября 1942-года (прот, №081) «О состоянии 223-й стрелковой дивизии» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Рес-

публики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 57-58. Постановление Военного Совета Закавказского фронта №0081 от 17 сентября 1942 г. «О состоянии 223-й Стрелковой дивизии» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист – 33; Постановление Военного Совета Закавказского фронта №0081 от 17 сентября 1942 г. «О состоянии 223–й Стрелковой дивизии» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 130-131; Постановление ЦК КП(б) Азербайджана «О мероприятиях по усилению партийно–политической работы среди красноармейцев–азербайджанцев» от 10 октября 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №103, дело №49, листы – 160-162; Постановление ЦК КП(б) Азербайджана «Об изучении русского языка бойцами всеобуча» 14 июля 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №103, дело №75, лист – 12; Постановление ЦК КП(б) Азербайджана «О мероприятиях по усилению партийно-политической работы в воинских частях, сформированных в республике» от 13 ноября 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №103, дело №49, лист – 7; Постановление ЦК КП(б) Азербайджана «О мобилизации партийно-политических работников в ряды Красной Армии» 24 сентября 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №40, листы –7-8; Постановление ЦК КП(б) Азербайджана «О мероприятиях по дальнейшему усилению политико-воспитательной работы среди бойцов–азербайджанцев и усилению связи с ними трудящихся Азербайджана» 14 августа 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №129, дело №35, листы – 11-12; Спецсообщение начальника отдела контразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 1 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №140, листы – 116-118; Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 3 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №40, лист – 115; Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 6 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №140, листы –121-124; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст.майора Госбезопасности Якубова «О состоянии борьбы с дезертирством на территории Азербайджанской ССР» от 9 июля 1942 г. на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 138-152; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова «О состоянии эвакогоспиталей в Азербайджанской ССР (по данным на 1/04 1942 г.)» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 327–332; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова

oğullarının döyüş qəhrəmanlığından bəhs edən əsərlər, hərb xadimlərinin əsərləri, müharibə dövrünə dair ARPİİSSA, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivinin, AR MDTA sənədləri, "Azərbaycan SSR Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər)" sənədlər toplusu və keçmiş müdafiə nazirliyinin arxiv sənədləri təşkil edir. Araşdırılan problem üzrə internet saytlarında yerləşdirilən Rusiya Federasiyası Dövlət Arxivinin, Rusiya Federasiyası Müdafiə Nazirliyinin Mərkəzi Arxivinin (Центральный

«О состоянии работы эвакогоспиталя №3688, находящегося при больнице имени Шаумяна» от 13 декабря 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 170–183; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова «О некоторых неполадках и недостатках в работе госпиталя» от 10 мая 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 187-189; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова «О настроениях интеллигенции, рабочих, служающих и колхозников по Республике» на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 24 июня 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 592-599; Справка Наркома Внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова «О настроениях инженерно-технических работников нефтяной, энергетической, другой промышленности» на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 24 июня 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №140, листы –18-36; Справка Наркома внутренних Дел Азерб.ССР, ст. майора Госбезопасности Якубова «Об антипартийных и антисоветских проявлениях некоторых членов и кандидатов в члены ВКП(б)» на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 16 июня 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 11–17; Справка Замнаркома внутренних Дел Азербайджанской ССР, ст.майора Госбезопасности Емельянова «О положении строительства оборонительных рубежей» от 26 октября 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №160, листы – 237-239; Справка «О культмассовой работе и художественном обслуживании населения и советских войск в Южном Азербайджане, переписка о работе и кадрах газет «Ветен йолунда», «Друг Ирана», о высылке литературы, посылке художественных бригад и по другим вопросам // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №30, ед.хр. №224, листы –1-51; Телеграмма секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова в Наркоминдел Союза ССР товарищу Кавтарадзе о рекомендации главврачом больницы в Тавризе Самедова Салмана Ибрагим оглы 2 августа 1944 года (№349) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №152, лист – 60; Телеграмма командующего 4-м Украинским Фронтом Маршала Ф.И.Толбухина в ЦК КП(б) Азербайджана в связи с присвоением 77-й стрелковой Краснознамененной дивизии наименования «Симферепольская» от 30 апреля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №177, дело №3, лист – 41;

архив Министерства обороны Российской Федерации), A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində mühafizə olunan sənədləri tədqiqata cəlb edilmişdir. Tədqiqat prosesində dövrü mətbuat materiallarından, statistik külliyyatlardan və hesabatlardan, internet saytlarının materiallarından istifadə olunmuşdur.

Tədqiqat işində müharibə dövründə milli diviziyaların strukturuna, şəxsi heyətin tərkibinə, Azərbaycan K(b)P MK rəhbərliyinin döyüşən ordu rəhbərləri ilə yazışmalarına dair arxiv sənədləri ilk dəfə tədqiqata cəlb edilmişdir. Monoqrafiyada istifadə edilmiş faktiki materiallardan, elmi nəticələr və ümumiləşdirmələrdən Azərbaycan tarixinə dair dərsliklər və dərs vəsaitlərinin yazılmasında, ixtisas kurs və seminarların aparılmasında köməkçi vəsait kimi istifadə edilə bilər.

II FƏSİL

XX ƏSRİN 20-Cİ İLLƏRİNİN AXIRLARI – 30-CU İLLƏRDƏ DÜNYANIN SİYASİ MƏNZƏRƏSİ

Dünya Versal sülhündən sonra

XX əsr alman militarizminin əsası XIX əsrin ikinci yarısında qoyulmuşdur. Danimarka, Avstriya və Fransaya qarşı müharibədə Prussiyanın qələbəsi nəticəsində alman imperiyası yarandı. İmperiyanın yaranması ilə onun geosiyasi maraqları da genişləndi. Alman millətinin "həyat məkanı"nın genişləndirilməsi uğrunda mübarizə Almaniyanın xarici siyasət strategiyasının mühüm sahəsinə çevrildi. Kansler fon Byulov bəyan etmişdi: "Artıq zaman keçmişdi, digər xalqlar öz aralarında torpağı və suyu böldükləri zaman biz almanlar, mavi səma ilə kifayətləndik. Biz özümüz üçün günəş altında yer tələb edəcəyik".[1] Bu vəzifənin həyata keçirilməsi digər xalqların torpaqlarının tutulması və istismarı hesabına nəzərdə tutulurdu.

Dünyada qarşıdurmanın yaranmasının səbəblərindən biri də, Almaniyanın əlavə xammal mənbələri, bazarlar ələ keçirmək istəyi idi. Bunlara isə XX əsrin 20-ci illərində İngiltərə, Fransa və Rusiya nəzarət edirdi. Almaniya öz məqsədinə çatmaq üçün həmin ölkələrin hökmranlığına son qoymaq, İngiltərənin və Fransanın müstəmləkələrini və Rusiyanın qərb torpaqlarını – Polşa, Pribaltika, Ukrayna və Bessarabiyanı ələ keçirməyə can atırdı.

Birinci dünya müharibəsində "Antanta" bloku qalib gəldi. Parisdə sülh konfransı keçirən qalib dövlətlər (1919-cu il 18 yanvar – 28 iyun) 1919-cu il iyunun 28-də Almaniya ilə sülh müqaviləsi imzaladılar. Versal sülh müqaviləsini imzalayan fransız marşal Foş bildirmişdi ki, bu sülh deyil, bu iyirmi il üçün barışıqdır.[2] Doğrudan da, Versal sülhündən sonrakı 20 ilin sonunda dünya xalqları yeni müharibə ilə üz-üzə qaldı. Çünki Mustafa Kamal Atatürkün dediyi kimi, Versal müqaviləsi I Dünya müharibəsinə səbəb olan amillərdən heç birini yerbəyer etmədi, əksinə dünənin əsas rəqibləri arasındakı uçurumu daha da dərinləşdirdi. Avropanın gələcəyi Almaniyanın təyin edəcəyi vaxtdan asılı qaldı. 70 milyonluq çalışqan və intizamlı millətin gec-tez Versal paktını ortadan qaldırmağa cəhd edəcəyi qaçılmaz idi. Bu səbəbdən də yeni – II Dünya müharibəsinin təşəbbüskarı yenə də Almaniya oldu.

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.5.

[2] Севестьянов, Г.Н. Европейский кризис и позиция США. 1939-1941 / Г.Н.Севестьянов. – Москва, 1992. – с.5.

Məlumdur ki, 1914-1918-ci illər I Dünya müharibəsi Almaniyanın silahlı qüvvələrinin məğlubiyyəti ilə başa çatmışdı. Versal sülhünün nəticəsi olaraq Almaniyanın "həyat məkanı" daraldı, onun əsas rəqibləri olan İngiltərə və Fransa demək olar ki, dünyanın 1/3-nə nəzarət etməyə başladılar. Müharibədən sonrakı 10 ildə Almaniya böhran keçirdi. İstehsal azaldı, işsizlərin sayı artdı, xalq kütlələrinin həyat səviyyəsi aşağı düşdü. Veymar respublikasının liderləri 1929-cu il böhranı ilə mübarizədə köməksiz qaldılar.

İki Dünya müharibəsi arasındakı dövrdə bir sıra beynəlxalq və regional əhəmiyyətli hadisələr baş verdi. Dövrün siyasi hadisələri tələblər (1919-1925), əməkdaşlıq (1925-1930), gərginlik (1930-1935) və təcavüz (1935-1939) mərhələlərinə bölünür. **Birinci mərhələdə** Almaniya ilə Versal (1919-cu il 28 iyun), Avstriya ilə Sen-Jermen (1919-cu il 10 sentyabr). Bolqarıstan ilə Neyl (1919-cu il 27 noyabr), Macarıstan ilə Trianon (1920-ci il 4 iyun) və Osmanlı imperiyası ilə Sevr (1920-ci il 10 avqust) müqaviləsi bağlanmışdı. **İkinci mərhələnin** ən böyük hadisələrindən biri 1925-ci il oktyabrın 5-dən 16-dək keçirilən Lozanna konfransı oldu. Konfransın sonunda Almaniya, Fransa, İngiltərə, İtaliya və Belçika arasında qarşılıqlı təhlükəsizlik haqqında müqavilə – Reyn təminat paktı imzalandı. 1928-ci il avqustun 28-də 65 dövlət Paris müqaviləsinə imza atdı.

Üçüncü mərhələ 1926-cı ildə Benito Mussolinin (1883-1945) və 1933-cü ildə Adolf Hitlerin Almaniyada hakimiyyətə gəlməsi ilə tarixə düşdü. İtaliyada Benito Mussolinin başçılığı ilə faşist diktaturası yaradıldı. Almaniyada da faşist diktaturası quruldu. Digər ölkələrə nisbətən daha çox zərər görən Almaniyanın iqtisadi böhrandan xilas olması üçün "Həyat sahəsi, irq və torpaq doktrinası" ideyası irəli sürüldü. Alman əhalisi daha çox avtoritar idarə-üsulundan əziyyət çəkdilər. Adolf Hitlerin hakimiyyətə gəlişi ilə Almaniya əhalisinin radikallaşması gücləndi. Dünyada iki müharibə ocağı-Şərqdə Yaponiya, Qərbdə Almaniya və İtaliya müharibə ocaqları yarandı.

Birinci Dünya müharibəsi səngərlərinin dərinliklərindən dünyaya baxan və əsgər kütləsinin dünyagörüşündən çıxış edən Hitlerə və almanların məğlubiyyətindən əziyyət çəkənlərə aydın idi ki, bu məğlubiyyət həm də alçalma idi. Digər tərəfdən Hitler qərb liderlərinə adekvat deyildi – o, başqa sferadan çıxmışdı. Fürer sadə adamlar arasından çıxmaqla yanaşı, düşmənlərinə qarşı münasibətdə prinsipial idi. Fürerin fiqurası digər ənənələrlə tərbiyə olunan ingilis-fransız diplomatiyası üçün gözlənilməz idi. Opponentlərinin çoxsaylı konfliktlərə meyl etməsinin əksinə olaraq Hitler birbaşa xətt yeridirdi. Qətiyyətlilik, öz işinə fanat münasibət füreri ətrafındakılardan fərqləndirirdi.

Hitler alman cəmiyyətində yeni ideyaların yaranmasına nail oldu, adamları öz ətrafına cəlb etdi. Alman əhalisini təəccübləndirdi. Hitler öz hə-

rəkətləri ilə zəhmətkeşlərin sosial problemlərinin yalnız nasist dövlətinin həll etməyə qadir olması fikrini xalqın şüuruna yeridə bildi. Milli iftixar hissi, alman xalqının fürerə inamı, ədalətli sosial quruluş yaratmaq ideyası öz işini gördü. Qərb dövlətlərinin nüfuzlu dairələrində nasizmə münasibətin artması almanların beynəlxalq aləmdə nüfuz qazanmasına səbəb oldu. Nəticədə, faşizm və milli sosializm Avropada özünə tərəfdarlar tapdı.

Dünya iqtisadi böhranı dövlətlərarası ziddiyyətləri kəskinləşdirdi. Xarici bazarlarda nüfuzların, mənafelərin müdafiəsi uğrunda mübarizə şiddətləndi.

Dünya iqtisadi böhranı təkcə qabaqcıl ölkələrə deyil, müstəmləkə və yarımmüstəmləkə ölkələrinə də ağır zərbə vurdu. Müstəmləkə və asılı ölkələrdə-Hindistan, Latın Amerikası, Çin, Misir, Birma, Filippin, Hind-Çində böhran özünü daha qabarıq göstərdi. Beləliklə, kapitalizmin böhransız inkişafı haqqında ideya alt-üst oldu.

Mərkəzi və Cənubi-Şərqi Avropa ölkələrində dünya iqtisadi böhranı ilə yanaşı, siyasi böhran da gücləndi. İctimai inkişafda dərin dəyişikliklər baş verdi, ölkələr daxilində mübarizə daha da dərinləşdi. İctimai inkişaf yollarının axtarışına qoşulan siyasi partiyalar və ictimai təşkilatlar siyasi mübarizənin yeni mərhələsinə daxil oldular. Onlar kütlələrin siyasi mübarizəsinin təşkilinə rəhbərlik etməyə başladılar.

Dördüncü mərhələ 1935-1939-cu illəri əhatə edir. 1935-1936-cı illərdə İtaliya Həbəşistanı (Efiopiyanı) işğal etdi. 1935-ci ildə Almaniyada ümumi hərbi mükəlləfiyyət elan edildi, 1936-cı ildə alman silahlı qüvvələri hərbsizləşdirilmiş Rein bölgəsinə daxil oldu. Bununla da Versal sistemi iflasa uğradı.

1929-cu ilin sonunda ABŞ-dan başlayan dünya iqtisadi böhranı tezliklə bütün kapitalist dünyasının əhatə edərək bu ölkələrdəki məhsuldar qüvvələrə güclü zərbə vurdu. Sənaye məhsulunun istehsal həcmi 1929-cu illə müqayisədə 1932-ci ildə İngiltərədə 82,5%, ABŞ-da 52%, Almaniyada 60%, Fransada 74%-ə qədər azaldı.

İctimai inkişaf yollarının axtarışı. Faşizmin ikinci dalğası və onun nəticələri

XX əsrin 30-40-cı illərində ölkələrdə idarəetmə sistemində iki forma: hitlerçi (faşist) və stalinçi (inzibati) idarəçilik sistemləri hakim formaya çevrilmişdi.

Faşist təşkilatının yarandığı ölkələrdən biri də İtaliya idi. 1919-cu ildə meydana gələn bu təşkilatı 1903-cü ildən sosialist partiyasının üzvü olmuş və 1914-cü ildə partiyadan qovulmuş **Benito Mussolini** yaratmışdı.

Mussolini Benito 1883-cü ildə anadan olmuşdu. Mussolini 1914-cü ildə partiyadan xaric edildikdən sonra 1915-1917-ci illərdə orduda xidmət etmiş, 1919-cu ilin martında "Faşio di kombatimento" ("Mübarizə ittifaqı") təşkilatını yaratmışdı. 1921-ci ildə "Faşio di kombasimento" "Mübarizə ittifaqı" partiyası "Milli faşist partiyası" adlanır və onun ali rəhbəri (Düçe) Mussolini təyin olunur. 1922-ci ildə hakimiyyətə gələn və 1926-cı ildə İtaliyada totalitar faşist diktaturası yaradan Mussolini İkinci dünya müharibəsi illərində Hitlerin ən yaxın silahdaşına çevrilir. 20-ci illərin əvvəllərində İtaliyada sürətlə inkişaf edən faşizm hərəkatının sıralarında 320 min adam var idi. Mussolini 1945-ci ilin aprelində partizanlar tərəfindən edam edilmişdi. Onu həbs edən partizanlar arasında azərbaycanlı Vilayət Hüseynov da olmuşdu.[1]

Faşizm – italyan sözü olub, dəstə, birlik, siyasi görüşlər, bağlılıq deməkdir. Siyasi cərəyan kimi, XX əsrin 20-ci illərinin əvvəllərində meydana gəlmiş faşizm I Dünya müharibəsindən sonrakı inqilabi dəyişikliklərin alternativi idi[2] və totalitar rejimə əsaslanırdı. Almaniyada faşist partiyasının yaranmasında mason "Alman Ordeni" əsas rol oynamışdı. İlk faşist təşkilatı 1919-cu il yanvarın əvvəllərində "Alman fəhlə partiyası" (DOP) adı ilə Antor Dreksler tərəfindən yaradılmışdı. 1919-cu il yanvarın ortalarında o, bu partiyanı "Alman nasional-sosialist fəhlə partiyası" adlandırmışdı. 1920-ci ildə Adolf Hitler onun lideri seçilmişdi. 1923-cü ilin noyabrında nasistlər Veymar Respublikasına qarşı "Milli inqilab", "pivəxana qiyamı" təşkil etməyə cəhd göstərmiş, lakin o, baş tutmamış, onun təşkilatçılarından biri olan A.Hitler 5 il həbsə məhkum edilmişdi. Həbsxanada yazdığı "Mayn kampf" ("Mənim mübarizəm") kitabı faşist təcavüzkarlarının proqram sənədi hesab olunur.[3] Əslində bu kitabı onun üçün ABŞ-ın Almaniyadakı səfirliyinin hərbi attaşesi tərəfindən yazıldığı da məlumdur.

1929-1933-cü illərin dünya iqtisadi böhranı faşizmin inkişafına təkan verdi. Sosial çətinliklərdən istifadə edən alman nasistləri müxtəlif vədlərlə kütlələri öz tərəflərinə çəkməyə başladılar. Nasistlərə qarşı vahid cəbhə yarada bilməyən kommunistlərin və sosialistlərin təqsiri üzündən Hitlerin haki-

[1] Azərbaycan tarixi: [7 cilddə]. – Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – s.82.
[2] Məmmədov İsaq, Məmmədov, Çingiz. Siyasi tarix XX əsr / İ.Məmmədov, Ç.Məmmədov.– Bakı, 2003. – s.142.
[3] Yenə orada, s.142.

miyyətə gətirilməsi asanlaşdı. Versal müqaviləsi buxovlarından azad olmaq və böhrandan çıxmaq yolunu faşist diktaturasının yaradılmasında görən orta təbəqələr Hitlerin yalançı təbliğatına uyaraq onu müdafiə etdilər. Veymar Respublikasından narazı olan sənayeçilər, bankirlər və hərbi bürokratik elita Hitleri müdafiə etdi. Onların təhriki ilə **prezident Hindenburq 1933-cü il yanvarın 30-da A.Hitleri reyxkansler təyin etdi.**[1] Bu proses – A.Hitlerin Almaniyada hakimiyyətə gətirilməsi Entoni Sattonun və Valentin Falinin əsərlərində geniş şəkildə şərh edilmişdir. Hitler ilk gündən siyasi rəqiblərinə qarşı mübarizəyə başladı. Beləliklə, faşizmin inkişafının ən yüksək dövrü başladı.

P.fon Hindenburq

1933-cü il martın 5-də Reyxstaqa seçkilər keçirildi. Seçkilərin yekununa görə kommunistlər 5 milyon, nasistlər 17 milyon, qalan burjua partiyaları 9 milyon seçici səsi qazandılar. Martın 14-də AKP-nın, iyunun 24-də bütün siyasi partiyaların fəaliyyəti dayandırıldı. 1933-cü il iyunun 30-da A.Hitlerin əmrinə əsasən Gerinq Berlində, Breslauda, Münxendə və bir çox başqa şəhərlərdə, həmçinin həbs düşərgələrində faşistlər (SS) mindən çox adamı Hitlerə qarşı çıxmaqda təqsirləndirərək məhv etdilər. Hitlerin siyasətindən narazı olan ictimai və siyasi xadimlər güllələndilər. Bu hadisə "**Uzun bıçaqlar gecəsi**" kimi tarixə düşdü.

1934-cü il avqustun 2-də Hindenburqun vəfatından sonra Adolf Hitler kansler və prezident vəzifəsini birləşdirərək özünü "fürer", yəni rəhbər adlandırdı. Nasist partiyası bütün kütləvi təşkilatlara, o cümlədən "Əmək cəbhəsinə", "Hitlerçi gənclər" və s. kimi təşkilatlara rəhbərlik etməyə başladı.[2]

1933-1934-cü illərdə Almaniyanın sosial-iqtisadi stukturu formalaşdırıldı. İqtisadiyyata rəhbərlik etmək üçün "Alman təsərrüfatının Baş Şurası", Əkinçilik və Əmək Nazirliyi, "Alman əmək cəbhəsi" yaradıldı. "Nasional-sosialist partiyası" müharibəni açıq təbliğ etməyə başladı.

Öz məqsədinə çatmağı müharibədə görən Adolf Hitler ordunun təşkilinə xüsusi diqqət yetirdi. 1935-ci il martın 16-da silahlı qüvvələrin genişləndirilməsi üçün əsaslı addım atıldı. Almaniyada Vermaxtın-Almaniya silahlı qüvvələrinin yaradılması haqqında qanun verildi, ümumi hərbi mükəlləfiyyət tətbiq edildi. Beləliklə, Hitler Almaniyaya sürətlə silahlanmaq imkanı yaratdı. Əgər 1934-cü ildə Almaniyada 840 təyyarə istehsal olunurdusa, 1936-cı ildə bu rəqəm 4.733 ədəd olmuşdu. Hərbi istehsal 1934-cü illə

---

[1] Məmmədov, İsaq, Məmmədov, Çingiz. Siyasi tarix XX əsr / İ.Məmmədov, Ç.Məmmədov.– Bakı, 2003. – s.147.

[2] Siyasi tarix. II hissə. Bakı, 1998, s.18; Məmmədov, İsaq, Məmmədov, Çingiz. Siyasi tarix XX əsr / İ.Məmmədov, Ç.Məmmədov. – Bakı, 2003. – s.148-156.

müqayisədə 1940-cı ildə 22 dəfə artmışdı. 1935-ci ildə Almaniyada 29 diviziya vardısa, 1939-cu ilin payızında onların sayı 102-ə çatmışdı. Müharibəyə qədərki 7 ildə Vermaxtın qüvvələrinin sayı 102 mindən 4,6 milyon nəfərə çatdı.[1] Bu Almaniyanın 1918-ci ildə müəyyənləşdirilmiş 100 min nəfərlik ordu saxlamaq hüququndan bir neçə dəfə çox idi.

1935-ci ilin yazında Almaniya artıq rəsmi olaraq Versal sazişinin bütün hərbi maddələrinə riayət etməkdən imtina etdi. 1936-cı ilin martında Almaniya birtərəfli qaydada Lozanna müqaviləsini pozaraq demilitarizasiya olunmuş Reyn zonasını işğal etdi. Fransanın şərq sərhədlərində yenidən alman süngüləri görünməyə başladı və Reyn zonası faşist platsdarmına çevrildi.[2]

Vermaxtda fərqli qayda-qanun müəyyənləşdirilmişdi. Əgər Veymar Respublikasının Andiçmə mətnində alman dövlətinə və konstitusiyasına sədaqət tələb olunurdusa, vermaxtın əsgərləri fürerə – Hitlerə sədaqət Andı içirdilər. A.Hitler həm də vermaxtın Ali Baş Komandanı idi. Dövlət rəhbəri silahlı qüvvələr üzərində mütləq hakimiyyətə malik idi. Bu isə işğalçılıq planlarının həyata keçirilməsinə şərait yaradırdı.

Beləliklə, 1933-1939-cu illərdə Almaniyada müharibə dövləti yaradıldı, bütün iqtisadiyyat, ideologiya və cəmiyyətin həyatı müharibəyə hazırlığa səfərbər edildi. Ölkənin bütün ehtiyatları dövlətin silahlandırılmasına cəlb olundu. Seçilmiş kursun davamı, cəmiyyətin hazırlanması üçün fəal ideoloji iş, möhkəm sosial və əmək intizamı, aqrar bölmənin insanlarının ordu üçün işləməsi, təhsilin yüksək səviyyəsi – bütün bunlar Almaniyanın bu yolda qələbəsinin əsas səbəblərindən idi.

Qərb dövlətlərinin müdafiə mövqeyi tutması, müharibədən yayınmağa cəhd etmələri Hitler siyasətinə yardımçı oldu. Hitlerin açıq antikommunizm mövqeyi isə qərb dövlətlərini "Sovet Rusiyasına" qarşı "kökləyirdi". Faşist liderləri və diplomatları Qərb liderlərini əmin edirdilər ki, Almaniya Qərb dövlətlərini "bolşevizm təhlükəsi"ndən qorumaq, təhlükəsizliyi təmin etmək üçün silahlanır. Hitler 1935-ci il dekabrın 18-də Berlindəki Polşa səfirinə bildirmişdi ki, onun yeganə arzusu "Rusiyanın Qərbə irəliləməsinə" mane olmaqdır, o, "**Avropa ölkələri ilə həmrəydir, ancaq bu Polşa-Sovet sərhədlərindən keçməlidir**".[3] Başqa sözlə, bolşevik Rusiyasına, yaxud SSRİ-yə nifrət də yeni dünya müharibəsinin səbəbləri sırasında idi.

Dünya ictimaiyyətini çaşdıran dezinformasiya yolunda mühüm addımlardan biri güc tətbiq etməmək haqqında Polşa-Almaniya Bəyannaməsi oldu. Almaniya-Polşa yaxınlaşması Berlin üçün təkcə ona görə əlverişli deyildi ki, Avropada fransız ittifaqı sistemi pozulurdu. Bu yaxınlaşma, həm də Polşanı

---

[1] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985. – с.20.

[2] Yenə orada.

[3] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.10-11.

təcavüzkar antisovet siyasəti yeritməyə sövq edir, onun Hitler Almaniyasının təsiri altına düşməsini sürətləndirirdi. Hətta, faşist liderləri Polşa rəhbərləri ilə SSRİ-yə hücum planını birlikdə müzakirə etmişdilər. 1935-ci ildə Polşaya səfər edən Gerinq Polşa diktatoru Pilsudskiyə təklif etmişdi ki, SSRİ-yə qarşı müharibədə birləşmiş Polşa-Almaniya qüvvələrinə başçılıq etsin. Təklif çox məmnunluqla qarşılanmışdı.

Üçüncü Reyxin başçısı Böyük Britaniyanı "təbii müttəfiq" sayırdı. Buna görə də, Adolf Hitlerin antisovet təbliğatında İngiltərə xüsusi yer tuturdu. Bu ondan irəli gəlirdi ki, İngiltərə SSRİ qarşısında güclü Almaniya görmək istəyirdi. Böyük Britaniya ilə oyunda Hitler çalışırdı ki, mühüm potensial qüvvə olan ingilis-fransız ittifaqı ilə hesablaşsın. Hitler 1935-ci ilin martında Almaniyada ümumi hərbi mükəlləfiyyət tətbiq edəndə, Böyük Britaniyanın əks hərəkətləri ilə qarşılaşmadı. Berlinə gələn İngiltərənin Xarici İşlər naziri A.İdenə Hitler bildirmişdi ki, Almaniya silahlanmaqla Avropanın bolşevizmdən müdafiə olunması üçün böyük xidmətlər göstərmək məqsədini güdür. İngiltərə isə Almaniyanın təcavüzkar siyasətini mükafatlandırmaq yolunu tutdu. 1935-ci ilin iyunun 18-də Bolduenin rəhbərlik etdiyi İngiltərə hökuməti Almaniyaya hərbi-dəniz qüvvələrinin artırılmasına imkan verən ingilis-alman dəniz sazişini imzaladı. Maraqlıdır ki, London bu addımı özünün I Dünya müharibəsindəki müttəfiqi Fransanın razılığını almadan atdı. Razılaşmadan bəhs edən Ribbentrop öz xatirələrində göstərir ki, "Hitler heç vaxt bu qədər xoşbəxt deyildi".[1]

Böyük Britaniyadan fərqli olaraq Fransa və Çexoslovakiya Avropanın "bolşevizm təhlükəsindən" xilaskarına az inanırdı. Bu səbəbdən də, onlar Almaniyada ümumi hərbi mükəlləfiyyət elan edildikdən sonra yeni müttəfiqlər axtarmağa başladılar və həmin ildə SSRİ ilə qarşılıqlı yardım haqqında müqavilə imzaladılar. A.Hitler Almaniyanın təcavüzkar kursunun aparıcı Qərb dövlətləri tərəfindən dəstəyinə nail olduqdan sonra özünün ərazi iddialarını praktiki olaraq reallaşdırmağa başladı. Bu yolda ilk addım Saar vilayətinin Almaniyaya birləşdirilməsi oldu. 1935-ci il martın 1-də Saar vilayətinin Reyxə birləşdirilməsi ilə mühüm kömür – metallurgiya rayonu Almaniyanın sərəncamına keçdi.

1935-ci ilin yazında Almaniya artıq rəsmi olaraq Versal sazişinin bütün hərbi maddələrinə riayət etməkdən imtina etdi. 1936-cı ilin martında

Almaniya birtərəfli qaydada Lozanna müqaviləsini pozaraq delimitarizasiya olunmuş Reyn zonasını işğal etdi. Fransanın şərq sərhədlərində yenidən alman süngüləri görünməyə başladı və Reyn zonası faşist platsdarmına çevrildi.[2]

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.11.

[2] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985. – с.20.

Lakin Almaniya Reyn vilayətinə görə Fransa ilə silahlı münaqişəyə hazır deyildi. Delimitarizasiya olunan Reyn vilayətinə daxil olacaq alman əsgərlərinin sayı 20 minə çatmırdı. Oradakı daimi fransız ordusunun sayı isə heç bir səfərbərlik edilmədən 50 min nəfər idi. Hitlerin tərcüməçisi P.Şmidt xatırlayır ki, "…əgər fransız ordusu Reyn vilayətinə hərəkət etsə idi… bizim sərəncamımızda olan hərbi ehtiyatlar zəif müqavimət üçün də kifayət etmədiyindən biz quyruğumuzu büküb geri çəkilməli idik".[1] Elə bu səbəbdən də, Hitlerin bu addımı əvvəl aksiyanın müvəffəqiyyət qazanacağına şübhə ilə yanaşan alman generallarının ciddi müqaviməti ilə qarşılaşdı.

Dünya ağalığı iddiasında olan Almaniya 1936-cı ildə Yaponiya ilə antikomintern paktı imzaladı və bu pakta 1937-ci ildə İtaliya da qoşuldu.

Faşist Almaniyasının Reyn zonasını işğal etmək istəyi Fransanı narahat edirdi. Fransanın Xarici İşlər naziri P.Flander martın 11-də Böyük Britaniya hökumətindən Reyn vilayətindəki almanlara qarşı hərbi müqavimət göstərməyi xahiş etdi. Ancaq Britaniya hökuməti təklifi müdafiə etməkdən imtina edərək Fransaya müdaxilə etməməyi məsləhət bildi. Bununla da, Hitlerə aydın oldu ki, Paris və London Almaniyaya qarşı ciddi müqavimətə hazır deyillər.

Reyn vilayətinin Almaniya qoşunları tərəfindən tutulması Avropada qüvvələrin balansını dəyişdi. Hitlerin müvəffəqiyyətləri ölkədə onun nüfuzunu qaldırdı. Apardığı kursun doğruluğu haqqında onda yəqinlik yaratdı. Bu hadisə "Kiçik Antanta" ölkələrinin rəhbərlərini də ciddi düşünməyə məcbur etdi. Rumıniya xarici işlər naziri Tituleski fransız həmkarına birbaşa bəyan etdi ki, "Fransa özünü müdafiə edə bilmirsə, uzaq müttəfiqlərini necə müdafiə edəcək?."

Reyn böhranının həll edilməsindən sonra İspaniyada vətəndaş müharibəsi alovlandı. Bu İtaliya və Almaniyadakı faşist rejimlərini yaxınlaşdırdı. Almanlar İspaniyada öz silahlarını yoxladılar, təyyarələrini sınaqdan çıxardılar. Bütün bunlar da Almaniyanın silahlanmasına kömək etdi.

Artıq Hitlerdə yəqinlik yaranmışdı ki, "həyat məkanı"nı dənizin arxasında deyil, Avropada axtarmaq vaxtı çatmışdı. Bu səbəbdən də, ordunun, donanmanın və hava qüvvələrinin texnika ilə təchizi sürətləndirildi və tezliklə başa çatdırıldı. Artıq 1938-ci ilin mart ayında alman silahlı qüvvələrinin sıralarında 4,6 milyon əsgər və zabit var idi. Qarşıya qoyulmuş məqsədin reallaşması üçün vaxt yetişmişdi.

Böyük alman imperiyasının qurulmasına Adolf Hitler Avstriyadan başladı. Avstriya modernləşdirmə ehtiyatlarına görə dünyada birinci yeri tuturdu. Avstriyada sink, gümüş kimi qiymətli faydalı qazıntılar çıxarılırdı. 1936-cı ildə – anşlyüsdən – birləşmədən az öncə orada neft tapılmışdı. Artıq

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.12.

1937-ci ilin neft hasilatı 33.000 ton təşkil edirdi. Almaniya Avstriyanın 300 milyon alman markası təşkil edən qızıl ehtiyatını ələ keçirmək istəyirdi. Fürer belə hesab edirdi ki, etnik və mədəni cəhətdən almanlara yaxın olan Avstriyanın əhalisi ciddi müqavimət göstərməyəcək. Avstriyada Almaniya ilə yaxınlaşmağın tərəfdarı olanların da sayı çox idi. Həm də, Avstriya-Macarıstan I Dünya müharibəsində Almaniyanın sadiq müttəfiqi olmuşdu. Bütün bunlar Hitleri şirniklendirirdi.

Habsburqlar sülaləsi dövrünün nostalji hisslərini yaşayan Avstriya cəmiyyətinin böyük hissəsi isə özlərini yüksək tutur və I Dünya müharibəsindən sonra Avstriyanı parçalanmış hesab edirdilər.

Qərb dövlətlərinin Avstriya **anşlüsünə** – Almaniyaya birləşdirilməsinə münasibəti Hitleri çox narahat edirdi. Bunların içərisində İngiltərə önəmli yer tuturdu. Bu səbəbdən də, Almaniya İngiltərə tərəfi ilə vacib məsləhətləşmələr apardı və ingilislərin mövqeyi reyxin liderlərinə ümid verdi. 1937-ci il noyabrın 19-da Oberzalsburqda Hitlerlə görüşdə lord Qalifaks bildirdi ki, İngiltərə Avstriya probleminin sülh yolu ilə həllində maraqlıdır. Həm də, İngiltərə özünün rəsmi nümayəndəsinin dilindən bildirdi ki, anşlyüs olarsa o, Almaniya ilə müharibə etməyəcək.

Böyük Britaniyanın Avstriya ilə bağlı mövqeyi Hitleri fəal hərəkət etməyə təhrik etdi. O, 1938-ci il fevral ayının 7-də Avstriya kansleri Şuşinqi Berxtesqadendəki iqamətgahına dəvət etdi. Görüş fevral ayının 12-də baş tutdu. Görüşdə fürer ultimativ formada Avstriyada nasist partiyasının fəaliyyətinə qoyulan qadağanın götürülməsini, həbsdə olan nasistlərə amnistiya verilməsini, aparıcı dövlət vəzifələrinə nasist liderlərinin təyin edilməsini kanslerdən tələb etdi. Hitlerin ultimatumunda, həmçinin alman və Avstriya ordusu arasında zabit mübadiləsi də daxil olmaqla sıx münasibətlər yaradılması nəzərdə tutulur, Avstriya Almaniya "iqtisadi sisteminə" daxil edilirdi. A.Hitlerin təzyiqi ilə Şuşinq "… **öz ölkəsinin ölüm hökmünü imzaladı**".[1]

Avstriyanın anşlüsü üçün ən əlverişli məqam seçilmiş və buna hazırlıq görülmüşdü. Fransa hökumət böhranı keçirirdi. Avstriyanın müstəqilliyinin keçmiş qarantı, Almaniya siyasətindən daha çox asılı olan İtaliya Efiopiya ilə müharibəyə cəlb olunduğundan Avstriyanın anşlüsunə mane ola bilməzdi. Martın 9-da Londona gələn Ribbentrop Baş nazir Çemberlen, lord Qalifaks, kral VI Georq və arxiyepiskop Kenterberi ilə görüşərək onların anşlüysə münasibətlərini öyrəndikdən sonra martın 10-da Berlinə bildirdi ki, "İngiltərə Avstriyaya münasibətdə heç nə etməyəcəkdir". Martın 11-də italyan lideri Mussolini Hitlerə bildirdi ki, Avstriya onun üçün "mövcud deyildir".

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов.– Москва, 2005. – с.15.

Avstriyanın qonşusu Çexoslovakiya da müqavimət göstərmədi. 1938-ci il martın 11-də Dövlət operasında keçirilən yığıncaqda marşal Gerinq Çexoslovakiyanın Almaniyadakı səfiri doktor Masnı ilə görüşdə bildirdi ki, "Çexoslovakiyanın Almaniyadan qorxmağa heç bir əsası yoxdur. Alman qoşunlarının Avstriyaya yeridilməsi "ailə işidir". Hitler Praqa ilə münasibətləri yaxşılaşdırmağı arzulayır". Ölkəsinin xarici işlər nazirliyi ilə əlaqə saxlayan Masnı tezliklə cavab verdi ki, Çexoslovakiya ordusu səfərbər olunmamışdır. Beləliklə, Avstriya bir anda Almaniya tərəfindən uduldu. Avstriyanın müstəqilliyini elan etmiş Versal sisteminin daha bir şərtinin üstündən xətt çəkildi.

İmzalanmış sənəd Avstriya nasistlərinin əl-qolunu açdı. Nasistlər Hitlerin Almaniyadakı çıxışından siyasi fitnəkarlıq məqsədi ilə istifadə edərək kütləvi nümayiş təşkil etdilər. Nümayişdə Avstriyanın milli bayrağı qopardılıb yerə atıldı. Nasist Leüss-İnkvartın rəhbərlik etdiyi Daxili İşlər Nazirliyinin polisləri nümayişçilərin hərəkətlərinə mane olmadılar. Gərginliyi aradan qaldırmaq, qızışmış kütləni sakitləşdirmək məqsədi ilə Şuşinq referendum keçirməyi qərara aldı. Lakin martın 12-də general Feodor fon Bokun başçılığı altında 8-ci alman ordusunun "**Otto**" planına uyğun olaraq, Avstriya sərhədini keçməsi martın 13-nə təyin edilmiş səsvermənin baş tutmasına imkan vermədi.[1] Alman ordusu heç bir yerdə müqavimətə rast gəlmədi.

General Quderian xatırlayır ki, alman qoşunları sakitliklə, hətta sevinclə qarşılanırdı… Hitler öz doğma şəhəri Lintsə gəldi. Martın 14-də Avstriyanın tamamilə təslim olması (anşlüs) haqqında sənəd imzalandı. Avstriya "Alman Reyxinin əyaləti oldu".[2]

Avstriyanın anşlyüsündən sonra aprel ayında keçirilən referendumda iştirak edənlərin 99,7 %-i onu dəstəklədi. Avstriya tarixçiləri təsdiq edirlər ki, əhalinin əksəriyyəti Hitlerlə ittifaqa səs vermişdi. Qoşunların referendumadək (12 mart 1938-ci il tarixədək) Avstriyaya yeridilməsi, avstriyalı uşaqlarının nümunəvi alman sanatoriyalarına göndərilməsi, işsizlərin hərbi obyektlərdə işlə təmin olunması və başqa tədbirlərlə nasistlərin avstriyalıların simpatiyasını qazanmağa cəhd etməsi də referendumun gedişinə öz təsirini göstərdi

İnkişaf etmiş Avstriya sənayesi Almaniyanın iqtisadi potensialını gücləndirdi. 1938-ci ildə Avstriyada 385.000 ton çuqun və 690.000 ton polad əridildi. Ölkədə maşınqayırma, elektrotexnika və toxuculuq sənayesi məhsulları istehsalı artdı. Almaniya yüksək keyfiyyətli dəmir filizi aldı. Bir sözlə, Avstriyanın birləşdirilməsi Almaniyanın hərbi-strateji vəziyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdırdı ki, bu da Çexoslovakiyaya qarşı təcavüzə hazırlıq üçün xüsusi ilə vacib idi.

---

[1]Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.14.

[2]Yenə orada, c.15.

III FƏSİL

SSRİ-ni İKİNCİ DÜNYA MÜHARİBƏSİNƏ APARAN YOL

Uzaq Şərqdə müharibə ocağının yaranması

1937-ci ilin yayında Yaponiyanın təcavüzkar dairələri qəflətən Çin respublikasına basqın etdi. Bəlli səbəblərdən, xüsusilə təhlükəsizliyin qorunması səbəbindən sovet hökuməti bu işğala qarşı çıxdı və Uzaq Şərqdə təhlükəsizliyini təmin etmək üçün Nankin hökumətinin xahişi ilə Çinə silah, hərbi texnika və digər avadanlıqlar verdi, hərbi təlimatçılar və məsləhətçilər göndərdi.

R.V.Rıçaqovun komandanlığı altında olan təyyarəçilərin ilk qrupu Çinə 1937-ci ilin payızında gəldi. Bu gəliş tezliklə hava döyüşlərində vəziyyəti dəyişdi, yapon aviasiyasının uçuşlarına son qoyuldu. Təyyarəçi - sınaqçı kapitan A.A.Qubenko şəxsən 5 yapon təyyarəsini vurdu. 1938-ci il mayın 31-də Xanko altında hava döyüşlərində o, hava taranı tətbiq etdi və öz təyyarəsini salamat yerə endirə bildi. Kapitan A.S.Blaqoveşenskinin komandanlıq etdiyi qırıcı aviasiya qrupu 29 düşmən təyyarəsini məhv etdi. 11 hava döyüşündə iştirak edən A.S.Blaqoveşenski 7, baş leytenant Q.P.Kravçenko düşmənin 3 təyyarəsini sıradan çıxardı. Qırıcılar qrupunun komandiri mayor S.P.Suprun 2 düşmən bombardmançısını vurdu. Qırıcılar eskadrilyasının komandiri, baş leytenant O.N.Borovkov 102 döyüş uçuşu keçirdi. Onun komandanlığı altında eskadrilya düşmənin 13 gəmisini batırdı, 32 qırıcı məhv olundu. 1938-ci il fevralın 23-də sovet təyyarəçilərinin bombardmançı aviadəstənin komandiri F.P.Polınının rəhbərliyi altında yaponların Tayvan adasındakı aviabazasına güclü zərbə endirildi. Nəticədə ada böyük yanğın ocağına çevrildi və 40 düşmən təyyarəsi, aviasiya vasitələri olan anbar və 3 illik yanacaq ehtiyatı yararsız hala düşdü.

Çinin səmasında hava döyüşlərinə başlayanadək qəhrəmanlıqlarına görə **14 sovet təyyarəçisi** – A.S.Blaqoveşenski, O.N.Borovkov, S.S.Qaydaçenko, N.A.Qubenko, V.V.Zverev, Q.P.Kravçenko, M.N.Marçenkov, E.M.Nikolayenko, F.P.Polınin, İ.P.Selivanov, S.V.Slyusarev, S.P.Suprun, İ.S.Suxov, T.T.Xryukin – **Sovet İttifaqı Qəhrəmanı adı aldılar**. Qəhrəmanların 9 nəfəri rus, 4 nəfəri ukrain, 1 nəfəri belarus idi. Demək olar ki, hamısının yaşı 30-35 arasında idi.[1]

[1] Герои Советского Союза: Историко-статистический очерк / Д.Н. Артомонов, А.А.Бабаков, Н.В. Борисов и др.; / Под ред. И.Н.Шкадова. Москва, 1984, s.15.

Sovet İttifaqı Qəhrəmanı SSRİ-də fəxri ad, yüksək fərqlənmə dərəcəsi olmuşdur. SSRİ MİK-nin 29 iyul 1936-cı il tarixli qərarı ilə təsdiq olunan "Əsasnamə"də qeyd olunur ki, bu rütbə şəxsi və kollektiv qəhrəmanlıq göstərməsi ilə əlaqədar fərqlənmənin yüksək dərəcəsi sayılır. Onun təltif olunması hüququ əvvəlcə SSRİ Mərkəzi İcraiyyə Komitəsinə, elə həmin ildə isə SSRİ Ali Soveti Rəyasət Heyətinə həvalə olunmuşdur. Bu adı Sovet dövləti və cəmiyyəti qarşısında qəhrəmanlıq göstərməsi ilə əlaqədar xidmətə görə SSRİ Ali Sovetinin Rəyasət Heyəti verirdi.

Sovet İttifaqı Qəhrəmanına **"Lenin" ordeni, "Qızıl Ulduz" medalı və SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı** təqdim edilirdi. Sovet İttifaqı Qəhrəmanına ikinci dəfə qəhrəmanlıq hünərinə görə yenidən "Lenin" ordeni, "Qırmızı Ulduz" medalı və SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı təqdim oluna bilər. İki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən şəxsin qəhrəmanlıq hünəri şərəfinə onun vətənində və ya SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə başqa yerdə tunc büstü qoyulurdu. Üç dəfə Sovet İttifaqı Qəhrəmanının tunc büstü Moskvada qoyulurdu.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1973-cü il 14 may tarixli Fərmanı ilə əgər Sovet İttifaqı Qəhrəmanı olan şəxs Sosialist Əməyi Qəhrəmanı adı ilə təltif olunurdusa, yenə də onun vətənində büstü qoyulmalı idi.

Sovet İttifaqı Qəhrəmanı adından yalnız SSRİ Ali Sovetinin Rəyasət Heyəti məhrum edə bilərdi.

"Qızıl Ulduz" medalı SSRİ Ali Soveti Rəyasət Heyətinin 1939-cu il 1 avqust tarixli Fərmanı ilə təsis olunmuşdur. 1939-cu il oktyabrın 16-dan Sovet İttifaqı Qəhrəmanı adlanır. "Qızıl Ulduz" medalı beşguşəli ulduz şəklində qızıldan ibarətdir. Paltara düzbucaqlı lövhəcik vasitəsilə bərkidilir, lövhəcik qırmızı muar lentlə (eni 20 sm) örtülmüşdür. Azərbaycan SSR-də 1 yanvar 1978-ci ilədək 123 nəfər) "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur.

Bəllidir ki, 1931-ci ildə Mancuriyanı işğal edən Yaponiya SSRİ-yə hücum etmək üçün məqam gözləyirdi. Sovet sərhədlərində böyük sayda qoşunlar cəmləşdirməyə başlamışdı. İşğalçılar dəfələrlə təxribat törətmişdilər.

Xasan gölü Sovet Dənizsahili ərazisinin cənub hissəsində, Mancuriya ilə Koreya və SSRİ sərhədində yerləşirdi. Bu strateji rayonu qoşunların hərəkəti üçün tam hazır hesab etmək olmazdı. Mühəndis qurğuları demək olar ki, yox idi. Yaponiya qoşunlarının Xasan gölü rayonuna gəlişindən sonra sovet sərhədçiləri səngərlər qazmağa və tikanlı məftil xətlər çəkməyə başlamışdılar. Yaponiyanın hərbi naziri İtaqaki də kəşfiyyat məlumatların-

dan yəqin etmişdi ki, bu rayon "sovetlər tərəfindən müdafiəyə zəif hazırlanmışdı". Bu səbəbdən də, 1938-ci il iyul ayının 29-da yapon qoşunları 2 rotanın köməyi ilə sovet ərazilərinə basqın etdilər. Əsas hücum obyekti Adsız (Безимянная) yüksəkliyi seçildi. Hücum anında yüksəklikdə leytenant Aleksey Maxalinin rəhbərliyi altında 11 sərhədçi keşik çəkirdi. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, sərhədçilər bir neçə saat imperator ordusuna müqavimət göstərərək mövqeyi saxlaya bildilər. Nəhayət, 5 nəfər sərhədçini, o cümlədən əlbəyaxa döyüşdə qəhrəmancasına həlak olan Maxalini itirən müdafiəçilər yüksəkliyi əldən verdilər. Müdafiəçilərin köməyinə qonşu sərhədçilər və döyüşçülər, o cümlədən leytenant Levçenkonun tank hissələri yetişdilər. Zirehli maşınların himayəsi ilə sovet döyüşçüləri yüksəkliyə qalxdılar və axşam saat 6-da yaponlar Adsız yüksəkliyindən qovuldular. Sonrakı gün əməliyyat rayonuna gölün qərb sərhədində mövqe tutan atıcı batalyon gətirildi. Lakin bundan sonra da, insident sona çatmadı. İyulun 29-dakı hücum sadəcə olaraq qüvvələrin sınağı oldu. İki gündən sonra yaponlar daha böyük birləşmələrlə hücumu bərpa etdilər. Güclü artilleriya hazırlığından sonra 2 yapon batalyonu iyulun 31-də gecə saat 2-də Gölarxası (Заозерная) yüksəkliyinə, bir batalyon isə Adsız yüksəkliyinə hücum etdilər. Hücum edənlərə artilleriya böyük dəstək verirdi. Sovet artilleriyasına özgə ərazilərinə atəş açmaq qadağan edildiyindən və qüvvələr qeyri-bərabər olduğundan sovet qoşunları tutduqları mövqeyi tərk edərək gölün şimal və cənub sahillərinə çəkildilər və yeni müdafiə xətti tutdular.

Yaponiyanın hərbi əməliyyatlarına sovetlər tərəfindən verilən cavab gecikmədi. 1938-ci il avqustun 1-də Xalq Müdafiə Komissarı K.E.Voroşilov "Gölarxası və Adsız yüksəkliklərini tutmuş müdafiəçiləri məhv etmək və süpürüb atmaq haqqında" əmr verdi. Lakin Xasan gölü rayonuna gəlmiş 40-cı diviziya avqustun 2-3-dəki əməliyyatlarda müvəffəqiyyətsizliyə uğradı. Əməliyyata əvvəlcədən hazırlaşmış yaponlar yüksəkliyi 2 sutka güclü müdafiə məntəqəsinə çevirə bildilər. Xarici siyasi münaqişədən çəkinən sovet döyüşçüləri Mancuriya ərazisini atəşə tutmadılar. Bu isə yaponlara tutulmuş yüksəkliyə ehtiyat qüvvələrinin müqavimətsiz olaraq gətirilməsinə imkan verdi. Yalnız avqustun 4-də sovet qoşunlarına Mancuriya ərazisindəki yapon qoşunlarına atəş açmaq barədə göstəriş verildi.

Döyüşlərin gedişi prosesində Xasan gölü rayonuna yeni qüvvələr göndərildi. Avqustun 5-də döyüş rayonuna 32-ci diviziyanın gəlməsi ilə orada sovet qoşunlarının sayı 15 min nəfərə çatdı. Quru qoşunlarını dəstəkləmək üçün 250 təyyarə, o cümlədən 180 bombardmançı və 70 qırıcı ayrıldı. Qoşunların 137 topu və 285 tankı vardı. Döyüşlərə komandan Uzaq Şərq cəbhəsinin ştab rəisi, korpus komandiri Ştern təyin edildi. Onun komandanlığı altında avqustun 6-da artilleriyanın, tankların və aviasiyasının dəstəyi ilə 32-ci və 40-cı diviziya yenidən hücuma başladı. Qeyri-sabit hava şəraiti olduğu üçün ilk artilleriya aviasiya hazırlığı baş tutmadı. Aviasiya

ancaq günün ikinci yarısından fəaliyyət göstərməyə başladı. Kütləvi uçuşlar, böyük kalibrli fuqas bombaları qumluqlarda partlasalar da əhəmiyyətli nəticə vermədi. Əsas ağırlıq yenidən piyada qoşunların üzərinə düşdü. Avqustun 8-də 40-cı diviziya 32-ci diviziyanın 96-cı alayı ilə birlikdə Gölarxası yüksəkliyini tutaraq yeni müdafiə mövqeyi yaradılmasına başladı.

Xasan gölü rayonundakı döyüşlərdə 4-cü atıcı diviziyasının 120-ci atıcı alayının əla döyüş nümayiş etdirdi. Diviziya komandiri, kapitan K.İ.Provalovun əsgərləri cəsarətlə döyüşərək işğalçıları Gölarxası yüksəkliyindən qovdular. İki dəfə yaralanmasına baxmayaraq kapitan K.İ.Provalov döyüş meydanını tərk etmədi. 40-cı diviziyanın baş siyasi rəhbəri İ.A.Pocarskiy, diviziya rəisinin komsomol üzrə köməkçisi, siyasi rəhbər İ.V.Qvozdov qəhrəmanlıq və cəsarət nümunəsi göstərdilər.

Tankçılar qəhrəmanlıqla döyüşdülər. Taqım komandiri, leytenant V.P.Vinokurov döyüş maşınını düşmənin atəş nöqtəsinə sürdürdü. Ağır döyüşlərdə kiçik komandir A.İ.Timakovun tankı vuruldu, sürücü-mexanik həlak oldu. Tankın pulemyotunu çıxaran Timakov düşmənə atəş açaraq onlarla düşmən əsgərini məhv etdi.

120-ci atıcı alayın 40-cı atıcı divizionun tibb rəisi, 2-ci ranq hərbi həkim B.P.Beqoulev Gölarxası yüksəkliyi uğrunda döyüşlərdə yaralıların təxliyyəsini təşkil etdi. Özü yaralanmasına baxmayaraq yoldaşlarına sonadək kömək göstərdi. Sonralar sovet-fin müharibəsi dövründə Beqoulev səhra hospitalına, 1941-1945-ci illər müharibəsi dövründə isə cərrahiyyə hospitalına rəhbərlik etdi. Avqustun 9-da yapon qoşunları sovet ərazilərindən bütünlüklə qovuldu. Məğlubiyyətlə barışmayanlar avqustun 10-da yenidən Gölarxası yüksəkliyini qaytarmağa cəhd etsələr də, məğlub oldular.

Xasan gölü rayonundakı döyüşlərin əhəmiyyəti böyük idi. Yaponlar bu rayonda ilk dəfə cavab zərbəsi aldılar. Döyüşdə piyada qoşunlar artilleriyanın, tankların və aviasiyanın birgə hərəkəti təcrübəsini qazandılar.

Yaponların məlumatına görə, Xasan gölü döyüşlərində 500 nəfər öldü, 900 nəfər yaralandı. Sovet tərəfi 792 nəfər itki verdi, 2.752 nəfər yaralandı. Xasan gölü döyüşləri şərəfinə **1938-ci il oktyabrın 17-də "İgidliyə görə" medalı təsis edildi.**[1] 26 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Qəhrəmanlar arasında 5 sərhədçi, 12 piyadaçı, 6 tankçı, artillerist, aviasiyaçı və tibb işçisi var idi. Qəhrəmanların 1 nəfəri rus, 5 nəfəri ukrain, 2 nəfəri tatar idi. Təltif olunanlar arasında 22 komandir, 4 nəfəri qızılorduçu vardı.

---

[1] Bax: Каталог орденов, медалей и нагрудных знаков, находящихся в розыске. Внимание, розыск. Часть 3. / Руководители В.В.Петраков, В.К.Рош. Подготовка материалов А.А. Подмазо, С.И.Нелюбов. Москва, 2007. – с.143.

“İgidliyə görə” medalı SSRİ Ali Soveti Rəyasət Heyətinin 17 oktyabr 1938-ci il tarixli Fərmanı ilə təsis olunmuşdur. Bu medalla Qızıl Ordunun, Hərbi Dəniz Donanmasının və sərhəd qoşunlarının hərbi qulluqçuları, həmçinin digər sovet vətəndaşları təltif olunurdular. 1941-1945-ci illər müharibəsi başlananadək SSRİ sərhədlərinin müdafiəsi və sovet-fin müharibəsinin iştirakçılarından 26 minə yaxın hərbi qulluqçu təltif olunmuşdur. 1941-1945-ci illərdə 4 milyon nəfər bu medala layiq görülmüşdür.

1939-cu ilin mayında Monqolustanın şərqində, Xalxin-Qol rayonunda daha bir böyük sərhəd münaqişəsi yarandı. Xalxin-Qol rayonunda 1939-cu ilin may-sentyabrında yapon militaristləri Monqolustan Xalq Respublikasının ərazisini tutmaq və Sovet Uzaq Şərqinə hücum üçün dayaq məntəqəsi yaratmaq məqsədilə silahlı münaqişə törətdilər. Münaqişə mayın 11-də başladı. Həmin gün yapon qoşunları monqol sərhədçilərinin mövqelərinə hücum edərək onları Xalxin-Qola sıxışdırdılar. Yaponların iddiasına görə bu çay Monqolustanla Mancuriya ərazisində Yaponiyanın yaratdığı **Mançjou-Qo** dövlətinin sərhəddi olmalı idi. Yaponlar MXR-nın Xalxin-Qoladək ərazisinin bir hissəsində möhkəmləndirilmiş sərhəd yaratmaq istəyirdilər. Təbii ki, SSRİ öz müttəfiqi Monqolustanı köməksiz qoymadı. Tezliklə monqol qoşunları yaponları öz ərazilərindən qovdular.

Mayın 28-də fəal əməliyyatlara başlayan yapon təcavüzkarları iyulda böyük itkilər bahasına Xalxin-Qolun şərq sahilində Monqolustan Xalq Respublikasının ərazisinin bir hissəsini tuta bildilər. 1939-cu il sentyabrın 15-də SSRİ və Yaponiya nümayəndələrinin imzaladığı sazişə əsasən sentyabrın 16-da hərbi əməliyyatlar dayandırıldı.

Münaqişənin miqyasının genişlənməsi ilə əlaqədar yaponlar öz qruplaşmalarının sayını artırmağa başladılar. İyunun sonunda yapon əsgərlərinin sayı 38 minə, tankların sayı 135-ə, təyyarələrin sayı 225-ə çatdı. Çinlə döyüşdə təcrübə toplayan yaponlar havada hökmranlığı ələ keçirərək sovet-monqol qoşunlarının kommunikasiyalarını dağıtmaq istədilər. Yaponların aviasiyası qəfil hücumlarla Monqolustan ərazisində aerodromları dağıtdı, sovet təyyarələrini məhv etdi. May-iyun aylarındakı hava döyüşlərində yeni konstruksiyalı yapon qırıcıları havada sovet “İ-16 m” qırıcılarını üstələdi. Bu səbəbdən də, müttəfiqlərin Xalxin-Qola qədərki yaxın təchizat stansiyaları arasındakı əsasən səhralıqlardan ibarət olan məsafə xeyli böyüyərək 650 km-ə çatdı.

Xalxin-Qol döyüşlərinin birinci mərhələsində uduzan sovet komandanlığı həlledici və kordinal tədbirlər planlaşdırdı. Yeni konstruksiyalı

“İ-153” qırıcıları, məşhur as Y.V.Smuşkeviç və onun rəhbərliyi altında İspaniyada döyüşlərdə təcrübə toplamış təyyarəçilər münaqişə rayonuna göndərildi. İyun ayında Xalxin-Qoldakı sovet-monqol qruplaşmasına rəhbərliyə diviziya komandiri G.K.Jukov təyin edildi. Onun sərəncamında 12,5 min adam, 135 tank və 225 təyyarə var idi.

Müvəffəqiyyətlərdən ruhlanan Yaponiya Xalxin-Qolda özünün təsir dairəsini genişləndirmək üçün iyulun əvvəllərində yenidən hücuma keçdi. Döyüşün ilk günündə yaponlar döyüş meydanını ələ keçirə bilsələr də, 4-5 iyul döyüşlərində məğlub oldular və çayın arxasına geri çəkildilər. Bir neçə böyük döyüşdən sonra (22-23 iyun) havada ağalıq edən yapon aviasiyası ağır məğlubiyyətə düçar oldu. G.Jukovun yazdığına görə Böyük Vətən müharibəsi illərində hava döyüşlərində bu qədər təyyarə iştirak etməmişdi.

Xalxin-Qolda ilk dəfə olaraq sovet aviasiyası döyüş raketlərindən istifadə etdi. Məğlubiyyətlə barışmaq istəməyən yaponlar avqustda Xalxin-Qola geri çəkildilər. Bu rayonda sərəncamında 75 min adam, 182 tank və 300 təyyarə olan general Ripponun komandanlıq etdiyi 6-cı Ordu cəmləşdi. Onun əsasını Çində müharibə məktəbi keçmiş yapon birləşmələri təşkil edirdi.

G.Jukov və X.Çoybalsan
1939-cu il

Avqustun 20-də bazar günü sovet-monqol qoşunları **(komandan G.K.Jukov və X.Çoybolsan**) qəti hücuma keçdilər. Hücumu üç saatlıq artilleriya hazırlığı və aviasiya zərbələri müşayiət etdi. Cinahlarda müvəffəqiyyət qazanan sovet zirehli tankları və mexanikləşdirilmiş hissələr cəbhəni yardılar və avqustun 23-də düşmənin inadlı müqavimətini qıraraq onun 6-cı ordusunun əsas qüvvələrini mühasirəyə aldılar. Avqustun 26-da 6-cı ordunun mühasirəsi başa çatdı. Avqustun 31-dək mühasirədəki düşmən qruplaşmaları darmadağın edildi və Monqolustan Xalq Respublikası işğalçılardan təmizləndi.

Yaponlar Xalxin-Qolda 55 minə yaxın (N.A.Şefova görə 61 min), əsgər və zabit (onlardan 25 min nəfəri həlak olmuşdu), sovet-monqol qoşunları isə 9.824 nəfər (N.A.Şefova görə 18,5 min nəfər)[1] əsgər və zabit itirdi. Xalxin-Qoldakı qələbəyə görə G.K.Jukov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

[1]Bax: Шефов, Н.А. Вторая Мировая. 1939–1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005.



1939-cu il 11 may – 16 sentyabrda yapon ordusunun mühasirəsi və darmadağın edilməsi ilə başa çatmış Xalxin-Qolda yapon və sovet monqol qoşunları arasında döyüş

Xalxin-Qol döyüşçülərinin iştirakçılarından 17.121 nəfər orden və medallarla təltif edildi, 70 nəfər, onlardan 3 nəfəri 2-ci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Xalxin-Qol çayı rayonunda baş vermiş döyüşlərdə Azərbaycandan 26 döyüşçü və komandir iştirak etdi. **Azərbaycanlı zabit və döyüşçülərdən Q.M.Atayev, M.Atakişiyev, A.Y.Bağırov, X.Qədirov, A.İbrahimov, Ə.B.Əliyev, K.Məmmədyarov, Q.Musayev**, **M.Nəsirli, O.Qasımov, Ş.Rzayev, A.Hüseynov** və b. fərqləndilər.[1] Onlar 127-ci atıcı alayının 63-cü zenit diviziyasında, 185-ci artilleriya və zenit alayının 66-cı xüsusi zenit-artilleriya diviziyasında, 11-ci tank briqadasının və başqa hərbi hissələrin tərkibində döyüşlərdə iştirak etmişdilər. Monqolustan Xalq Respublikasının Böyük Xuralının fərmanı ilə döyüşlərdə iştirak etmiş 17-ci Ordunun 57-ci motoatıcı diviziyasının 127-ci alayının tank komandiri "Döyüş xidməti uğrunda" ordeni, 11-ci tank briqadasının 63-cü xüsusi zenit-artilleriya divizionunun komandiri mayor **Əliyev Allahverdi Balabəy oğlu "Qütb ulduzu" ordeni ilə təltif olundu**. Xalxin-Qol döyüşünün azərbaycanlı iştirakçısına Qələbənin 30 illiyi münasibətilə yubiley medalı verilmiş-

[1] Azərbaycan Sovet Ensiklopediyası / baş red.: C.B.Quliyev; red hey. M.H.Abdullayev [və b.] X cild. – Bakı, 1987. – s.44.

dir. Təltif olunanlar arasında 57-ci atıcı alayının 127-ci atıcı alayının taqım komandiri, ehtiyatda olan **kapitan Ş.V.Rzayev** və başqaları vardı.[1]

Ümumilikdə, Xalxin-Qol döyüşlərində 70 döyüşçü və komandir Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. FKQO HHQ idarəsinin korpus komandiri Y.V.Smuşkeviç, aviasiya alayının komandirləri S.İ.Qritsevets və Q.P.Kravçenko 2-ci dəfə bu adı aldılar. Xalxin-Qol döyüşlərinin 44 qəhrəmanı sonralar 1941-1945-ci illər müharibəsində iştirak etdi.

Münhen sövdələşməsi. Çexoslovakiyanın işğalı.

Avstriyanın faşist Almaniyasına "birləşdirilməsi" ilə əlaqədar qərb dövlətləri ilə aparılan sövdələşmələr A.Hitleri bir az da ruhlandırdı. Avstriyaya qoşun yeridilməsindən iki ay sonra Almaniyanın hədəfi Çexoslovakiya oldu.

Məlum olduğu kimi, Çexoslovakiya ərazisində mühüm sənaye müəssisələri, o cümlədən "Şkoda" poladəritmə zavodu və hərbi müəssisələr yerləşirdi. Çexoslovakiya böhranının başlanmasına səbəb 1938-ci ilin may ayının 21-də sərhədyanı şəhər Xebdə baş verən hadisə oldu. Çex polisi ilə toqquşmada iki Sudet almanı öldü. Bu hadisə Almaniyanın Çexoslovakiya əleyhinə açıq kampaniya aparmağa imkan yaratdı. Hitler alman qoşunlarını Çexoslovakiya ilə sərhədə yeritdi. Hadisələrin başqa istiqamət alacağını yəqin edən Sovet İttifaqı və Fransa Çexoslovakiyaya olan öhdəliklərini yerinə yetirməyi Almaniyaya bir daha xatırlatdı. Hitler qoşunlarını sərhəddən geri çəkməyə məcbur oldu. O, Çexoslovakiyanın taleyini həll etmək üçün yenidən Qərb dövlətləri ilə razılığa gəlməyə, eyni zamanda, alman rəhbərliyi ilə ölkə daxilində Sudet almanlarının separatçı hərəkətlərini gücləndirməyə başladı.

Qeyd olunduğu kimi, alman təcavüzünün təkrar olunmasının səbəbi Qərb dövlətlərinin ciddi müharibəyə hazır olmamaqları idi. Hazırlığın qeyri-qənaətbəxş olması rəsmi dövlət sənədlərində də əksini tapmışdı. 1938-ci ilin sentyabrında İngiltərənin baş naziri Çemberlenə ünvanlanan İmperiya Komitəsi Qərargahının rəisinin geniş qeydlərində hər hansı vəziyyətdə Almaniya ilə müharibəyə girmək məsləhət bilinmirdi. Böyük Britaniyanın hərbi naziri Xor-Belişin sözlərinə görə, Almaniyaya qarşı vuruşmaq "hər halda doldurulmamış silahla pələng ovuna çıxmaq idi".[2] Böyük Britaniyanın Baş naziri Nevil Çemberlen Almaniyanın Mərkəzi Avropada hökmranlıq etməsini normal sayırdı. "Biz …ona imkan verməliyik, əks halda hər 15-20 il də müharibə bizdə olacaqdır". İngilis rəhbərliyi bu cür fikirlərlə faktiki olaraq Hitlerə 1938-ci ildə diplomatik zəfər yolu açmış oldu.

---

[1]Azərbaycan tarixi: [7 cilddə]. c.6 (aprel 1920 – iyun 1941). Bakı, 2000. – s.406–407.

[2]Шефов, Н.А. Вторая Мировая. 1939–1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.17.

Çexoslovakiyanı tutmağı planlaşdıran Almaniya öz qonşuları ilə də fəal xarici siyasət apararaq Çexoslovakiyaya qarşı ərazi iddiaları olan Polşanı və Macarıstanı da ona qarşı hazırlaya bildi. Polşa Çexoslovakiyanın Teeşinsk vilayətini, Macarıstan isə Slovakiyanın cənub rayonlarını və Zakarpat Ukraynasını almağa can atırdı.

1938-ci il sentyabrın 15-də Berxtesqadendə Nevill Çenberlenlə Adolf Hitlerin görüşü oldu. Görüşdə Böyük Britaniyanın Baş naziri faktiki olaraq Çexoslovakiyanın sərhədyanı ərazilərinin Almaniyaya verilməsi haqqında fürerin tələbi ilə razılaşdı. Müharibədən qorxan Fransa da bu məsələdə Böyük Britaniyanın yolu ilə getdi.

Çexoslovakiyaya hücum üçün 36 alman diviziyası hazırlanmışdı. Hitler hücumu 1938-ci il oktyabrın 1-nə planlaşdırmışdı. Sentyabrın 22-də Polşa və Macarıstan qoşunları da Çexoslovakiya ilə sərhəddə yaxınlaşmışdı.

Alman-faşist işğalına qarşı ancaq SSRİ etiraz səsini qaldırdı. SSRİ XİN M.Litvinov sentyabrın 21-də rəsmən bəyan etdi ki, onun ölkəsi Çexoslovakiya ilə müqaviləyə sadiqdir və alman təcavüzü olacağı halda öz müttəfiqinə kömək etməyə hazırdır. Doğrudur, 1935-ci il paktına görə SSRİ-nin köməyi Fransanın Çexoslovakiyanı müdafiə edilməsi ilə eyni zamanda olmalı idi. Ancaq SSRİ Çexoslovakiya rəhbərliyinə anlatdı ki, əgər Fransa Almaniyaya qarşı köməkdən imtina etsə belə, o, Çexoslovakiyaya kömək edəcəkdir.

Çexoslovakiyaya kömək üçün 40-dan çox sovet diviziyası 1938-ci ilin sentyabr ayında döyüş hazırlığına gətirildi. Lakin SSRİ-nin çağırışına Fransa və Böyük Britaniya əhəmiyyət vermədilər. SSRİ-dən çox Qərb dövlətlərinə inanan Çexoslovakiya isə SSRİ dövlətinin təkliflərinə reaksiya vermədi.

Qərb dövlətlərinin əksinə olaraq italyan lideri B.Mussolini A.Hitlerlə məsləhətləşərək qalxmış problemi həll etmək üçün dördtərəfli görüş keçirməyi təklif etdi. Bu təkliflə razılaşan A.Hitler sentyabrın 26-da Berlindəki idman sarayında təşkil edilən kütləvi mitinqdə çıxış edərək N.Çemberleni və bütün dünyanı əmin etdi ki, əgər Sudet almanlarının problemi həll olunarsa, o, gələcəkdə Avropada ərazi iddiaları ilə çıxış etməyəcəkdir. Fürer nitqini: "…Biz sonuncu, həlli vacib olan problemi həll edəcəyik. Bu mənim Avropa qarşısında irəli sürdüyüm sonuncu ərazi tələbidir" sözləri ilə bitirmişdi.[1]

Bu "sülhsevər" çıxışı yüksək qiymətləndirən Böyük Britaniyanın hökuməti sentyabrın 28-də Sudet məsələsində B.Mussolininin vasitəçi olması təklifi ilə çıxış etdi. A.Hitler Fransa və Böyük Britaniya ilə razılaşdırılmış konfransın çağırılmasına həvəslə razı oldu.

1938-ci il sentyabrın 29-da Münhendə 4 dövlətin – Almaniya, İtaliya, Böyük Britaniya və Fransanın iştirakı ilə konfrans açıldı. Sovet İttifaqı və

[1]Шефов, Н.А. Вторая Мировая. 1939–1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.17-18 .

Çexoslovakiya danışıqlara dəvət olunmamışdılar. N.Çemberlen və E.Daladye A.Hitlerin şərtlərini qəbul etdilər.

Konfransda Çexoslovakiyanın Sudet vilayətinin 10 gün (1-10 oktyabr 1938-ci il) müddətində bütün qurğular, fabriklər, zavodlar, xammal ehtiyatları, dəmir yolları ilə birlikdə Almaniyaya verilməsi məsələsinə baxıldı və razılaşma əldə olundu.

Razılaşmada Çexoslovakiyanın qonşuları Polşa və Macarıstanın ərazi iddiaları da nəzərə alınaraq onların tələblərinin 3 ay ərzində ödənilməsi nəzərdə tutulurdu. Sentyabrın 30-da Münhen sövdələşməsi qəbul edildi. Səhəri gün N.Çemberlen A.Hitlerdən ingilis-alman "Bəyannamə"sinin imzalanmasını xahiş etdi. Bəyannamədə tərəflərin bir-biri ilə müharibə etməyəcəyi və bütün problemlərin məsləhət yolu ilə həll ediləcəyi ifadə olunurdu. A.Hitler heç bir əhəmiyyət daşımayan Bəyannaməni həvəslə imzaladı. Çemberlen isə heyranlıqla bildirdi ki: "…bu bütün məsələlər üçün sülh"dür.

Razılaşmada Çexoslovakiyanın qonşuları Polşa və Macarıstanın ərazi iddiaları da nəzərə alınaraq onların tələblərinin 3 ay ərzində ödənilməsi nəzərdə tutulurdu. Sentyabrın 30-da Münhen sövdələşməsi qəbul edildi. Səhəri gün Çemberlen A.Hitlerdən ingilis-alman "Bəyannamə"sinin imzalanmasını xahiş etdi. Bəyannamədə tərəflərin bir-biri ilə müharibə etməyəcəyi və bütün problemlərin məsləhət yolu ilə həll ediləcəyi ifadə olunurdu. A.Hitler heç bir əhəmiyyət daşımayan Bəyannaməni həvəslə imzaladı. Çemberlen isə heyranlıqla bildirdi ki: "…bu bütün məsələlər üçün sülh"dür.

1938-ci il oktyabrın 1-də gecə alman qoşunları Sudet vilayətinə daxil oldu. İşğaldan sonra A.Hitlerin və qərb himayəçilərinin uzağı görməməsi aydın oldu. Sudetdəki Çexoslovakiyanın müdafiəsinə dair generalların hazırladıqları planla tanış olduqdan sonra fürer etiraf etmişdi ki: "…Onda mənə aydın oldu ki, mənim generallarım niyə görə məni ləngidirdilər. Bizə qarşı ciddi təhlükə vardır". Sonralar feldmarşal Manşteyn Nürenberq prosesində bildirmişdi ki, "… əgər Çexoslovakiya müdafiə olunmağı qərarlaşdırsaydı, çexlərin müdafiəsini yarmağa bizdə vasitə yox idi".[1]

Münhen sövdələşməsinə əsasən Çexoslovakiyanın yüksək inkişaf etmiş sənaye sahələri Almaniyanın əlinə keçdi. Nəticədə Hitler Almaniyası silah istehsalı üçün güclü imkanlar əldə etdi. Böyük Britaniya və Fransanın da hərbi-iqtisadi potensialı yüksəldi. Ancaq Münhen sövdələşməsindən sonra Sovet-Çexoslavakiya-Fransa müqaviləsi, nəticədə Avropada kollektiv təhlükəsizlik sistemi yaratmaq məsələsi reallaşa bilmədi.[2]

---

[1]Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.19.

[2]Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – с.29-33.

29-30 sentyabrda Münhendə "Münhen sazişi"nin imzalanması.
Soldan sağa: N.Çemberlen, E.Daladye, A.Hitler, B.Mussolini

Münhendən sonra Almaniyanın dəstəyi ilə 1938-ci ilin oktyabr-noyabr aylarında Polşa və Macarıstan Çexoslovakiyadan iddia etdikləri əraziləri - Polşa sənayecə inkişaf etmiş Teeşinsk vilayətini, Macarıstan isə Slovakiyanın cənub rayonunu və Zakarpat Rusunu aldı. Çexoslovakiyanın işğalı ilə A.Hitler geosiyasətçi Bismarkın birbaşa davamçısı olaraq: "**…kim Çexiya üzərində hakimdirsə, Avropa üzərində hakimdir**" vəsiyyətini həyata keçirmək yolunda mühüm addımı atmış oldu.

Çexoslovakiya dövlətinin zəifləməsindən Slovakiya separatçıları istifadə etdilər. 1938-ci il oktyabr ayının 6-da onlar Slovakiyaya muxtariyyət tələb etdilər. Noyabrın 19-da Çexoslovakiyanın deputatlar Palatası Slovakiyanın muxtariyyəti haqqında qanunu təsdiq etdi. Almaniya üçün əlverişli olan parçalanma planını həyata keçirmək üçün alman rəhbərləri slovak separatçılarını həvəsləndirdilər. Separatistlərin lideri Tisonun Berlində A.Hitlerlə görüşündən sonra Slovakiya özünün müstəqilliyini elan etdi. Çexoslovakiyanın bölünməsində marağı olan Polşa da bu aktı dəstəklədi.

1939-cu il martın 15-də alman qoşunları Çexoslovakiya torpaqlarını işğal etdilər. Çexoslovakiyanın tutulması nəticəsində faşist Almaniyası 1.582 təyyarə, 500 zenit qurğusu, 2.175 top, 469 tank, 1 milyondan çox

tüfəng, 1 milyon patron, 3 milyon mərmi ələ keçirdi. Çexoslovakiyanın tutulması ilə Avropada strateji çəki dəyişdi.[1]

Adolf Hitlerin müvəffəqiyyətlərindən həvəslənən faşist İtaliyası 1939-cu il aprelin 7-də Albaniyanı tutaraq 5 gündən sonra bu dövləti öz tərkibinə daxil etdi. Yalnız bu təcavüzkar hərəkətdən sonra İngiltərə Aralıq dənizində öz maraqlarını qorumağa hazır olması barədə bəyanatla çıxış etdi.

A.Hitler əldə etdikləri ilə kifayətlənmək istəmirdi. 1939-cu il martın 22-də Litvaya Memel və ona qonşu ərazilərin Almaniyaya verilməsi barədə ultimatum təqdim edildi. Bir gün sonra – martın 23-də A.Hitler təntənəli sürətdə "azad edilmiş" şəhərə daxil oldu.[2]

Dünya Münhendən sonra

Ölkələrin II Dünya müharibəsinə sürüklənndiyi şəraitdə imperialist təcavüzkar dövlətlərə qarşı yeganə rəqib SSRİ qalmışdı. SSRİ dövlətini bir nömrəli düşmən elan edən tərəflər bir tərəfdən SSRİ-yə nifrət edir, digər tərəfdən isə onun hansı tərəfdə çıxış etməsində maraqlı olsalar da, hər iki tərəf SSRİ-ni təkləmək məqsədilə birbirinə güzəştə getməyə hazır idilər. Müharibə ərəfəsindəki "Münhen siyasəti" – Münhen sövdələşməsi bunun bariz nümunəsi idi. Münhen sövdələşməsində (19-30 sentyabr 1938-ci il) Böyük Britaniya və Fransa hökumət başçıları (N.Çemberlen və E.Daladye) Avropanı nüfuz dairələrinə bölmək üçün Almaniya və İtaliya hökumət başçıları ilə (A.Hitler və B.Mussolini) razılığa gəldilər. Çexoslovakiyanı parçalamaq, onun bir sıra sərhəd rayonlarını Almaniyaya vermək barədə qərar qəbul etdilər. Qərb dövlətləri, ilk növbədə Fransa və Böyük Britaniya Almaniyaya güzəştə getməkdə məqsəd faşist Almaniyasının üzünü SSRİ-yə çevirmək idi. Münhen siyasəti göstərdi ki, İngiltərə və Fransa faşist Almaniyasını SSRİ-yə qarşı yönəltmək üçün ona hər cür güzəştə getməyə hazır idi. 1938-ci ilin sentyabrında A.Hitler və N.Çemberlen tərəfindən hücum etməmək haqqında imzalanmış bəyanat, həmin ilin dekabrında Parisdə Fransanın və Almaniyanın xarici işlər nazirləri – Bonne və Ribbentropun imzaladığı eyni məzmunlu bəyanat, 1938-ci ilin payızında və 1939-cu ilin martında Londonda iqtisadi və müstəmləkə məsələləri barəsində geniş saziş bağlamaq haqqında ingilis-alman danışıqları həmin güzəştə getmənin müxtəlif həlqələri idi. 1939-cu ilin iyulunda Böyük Britaniya Yaponiya ilə Çinin işğalını təsdiq edən sənəd imzaladı.[3]

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.21.

[2] Zeynalov, Ə. Sınaq illəri / Ə.Zeynalov. – Bakı, 2002. – s.84.

[3] Siyasi tarix. II hissə. Bakı, 1998, s.34-35.

1939-cu ilin martında Çexoslovakiya Almaniya tərəfindən işğal olundu. Elə həmin ayda Litvanı Klaypeda (Memel) vilayətinin Almaniyaya verilməsi haqqında saziş imzalamağa məcbur etdi. 1939-cu il martın 23-də Rumıniya faşist Almaniyasının vassallığına keçdi. Almaniya Dansiqin ona verilməsini və Polşa dəhlizinin yaradılmasına imkan verilməsini Polşa dövlətindən tələb etdi.[1]



Avropa Almaniya və SSRİ müharibəsi ərəfəsində
1939-1941-ci illər

Dünya birliyindən təcrid edilmiş SSRİ təcavüzkar dövlətlər qarşısında tərəddüd edir, manevr etmək üçün yollar arayır, faşist təhlükəsinə qarşı Fransa və Böyük Britaniyaya meyl edirdi. Bu məqsədlə SSRİ 1933-cü ilin aprelindən başlayaraq İngiltərə və Fransa ilə danışıqlara başlamışdı. Danışıqların çox ləng və həvəssiz getdiyini görən Almaniya SSRİ tərəfindən təhlükəsizliyini təmin etmək üçün manevr edərək SSRİ ilə yaxınlaşmağa başladı. Nəhayət avqustun 15-də danışıqlar başlandı.

[1]Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.34.

IV FƏSİL

İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI

İkinci dünya müharibəsinin başlanması

Müharibə dövlətlərin siyasi və iqtisadi məqsədlərinə çatmaq üçün apardığı silahlı mübarizə, çox ağır ictimai-siyasi bir hadisə olub bir-biri ilə qarşılıqlı sıx əlaqədə olan daxili və xarici siyasətin davamıdır və ümumi sosioloji-iqtisadi əsas üzərində yaranır. Müharibə birbaşa hakim sinfin təbiətini, marağını ifadə edən daxili siyasət, eyni zamanda təbii olaraq xarici siyasətin xarakterini müəyyən edir.[1]

Bəşəriyyət XX əsrdə iki dünya müharibəsinin şahidi və iştirakçısı olmuşdur. XX əsrin ən dəhşətli müharibələrdən biri II Dünya müharibəsi idi. 61 dövlətin, dünya əhalisinin 1.700 milyon nəfərinin və ya dörddə üçünün iştirak etdiyi bu müharibə 40 ölkənin ərazisində getmiş, 110 milyon adam, yaxud Birinci dünya müharibəsindəkindən 40 milyon nəfər artıq insan hərbi səfərbərliyə alınmışdı. Müharibədə 50 milyondan çox adam həlak olmuş, 100 milyondan çox insan yaralanmış və şikəst qalmışdı. Təkcə Sovetlər birliyi müharibədə 29 milyon nəfərə itki vermişdi.[2] II Dünya müharibəsi zamanı ABŞ və bəzi Avropa ölkələri üzrə insan itkiləri aşağıdakı cədvəldəki kimi olmuşdur.[3]

Cədvəl 4.1

Ölkələr	Hərbçilər	Mülki şəxslər	Cəmi
SSRİ	12.000.000	17.000.000	29.000.000
Polşa	597.000	5.860.000	6.200.000
Almaniya	3.250.000	6.440.000	5.690.000
Yuqoslaviya	305.000	1.350.000	1.660.000
Rumıniya	450.000	465.000	915.000
Macarıstan	200.000	600.000	800.000
Fransa	245.000	350.000	595.000
İtaliya	380.000	153.000	533.000
Böyük Britaniya	403.000	92.700	495.000
ABŞ	407.000	6.000	413.000
Çexoslovakiya	7.000	315.000	322.000
Hollandiya	13.700	236.000	249.000
Yunanıstan	19.000	140.000	159.000
Belçika	76.000	23.000	99.000

[1] Azərbaycan 1941-1945-ci illər müharibəsində / Məqalələr toplusu / Bakı, 2008.

[2] Великая Отечественная война,1941–1945: Словарь – справочник. (Н.Г.Андроников, А.С.Балицан, М.М.Кирьян, и др). Москва, 1985. – с. 111-119.

[3] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016 . – s.7.

II Dünya müharibəsinin başlanmasında Almaniya, İtaliya, ABŞ, İngiltərə, Fransa və Yaponiyanın bilavasitə günahı vardır. Bu dövlətlərdə müharibənin səbəblərinə dair 3 baxış formalaşmışdı. Liberal-demokratik dövlətlər (ABŞ-Böyük Britaniya-Fransa) müharibənin əsas səbəbini totalitar və faşist dövlətlərin dünyaya hakim olmaq iddialarında görürdülər. Blok dövlətlərin (Almaniya-İtaliya-Yaponiya) baxışında iri kapitalist ölkələrin iqtisadi cəhətdən zəif olan millətləri əsarətdə saxlamaq cəhdləri üstünlük təşkil edirdi. SSRİ isə hesab edirdi ki, imperialist və kapitalist dövlətlər dünyanı yenidən bölməyə can atırlar.

İkinci dünya müharibəsi əvvəlki müharibələrdən miqyasına və məqsədlərinə görə fərqlənir. Bu müharibə bir-birinə qarşı geosiyasi mövqedən çıxış edən aparıcı dünya dövlətlərinin dünyanı yenidən bölmək uğrunda mübarizəsinin nəticəsi idi. Versal-Vaşinqton sisteminin alçaldıcı olması, Avropanın mərkəzində, Almaniyada qisasçılıq və militarizm ideyasının yüksək dərəcədə inkişaf etməsi, Hitler "reyxi"nin irqçilik, "dəyərsiz xalqlar"ı əsarət altına almaq siyasəti, dünya ağalığına nail olmaq iddiaları, Qərb dövlətlərinin qarşıdakı təhlükəni dərk etməmələri, ABŞ-ın "qarışmamaq" siyasəti; SSRİ-nin müharibəni özündən uzaqlaşdırmaq üçün Almaniyaya güzəştə getməsi və digər səbəblər II Dünya müharibəsinin baş verməsinin başlıca səbəbləri idi. Son dövrlərin müharibə tarixinə dair ədəbiyyatın təhlili nəticəsində müharibənin baş vermə səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Dünya iqtisadiyyatının qeyri-bərabər inkişafı – Almaniya, İtaliya və Yaponiyanın iqtisadiyyatlarını gücləndirmək üçün yeni xammal mənbələri ələ keçirməyə və satış bazarının hazır məhsullar hesabına genişləndirilməsinə can atması;

2. XX əsrin 30-cu illərinin ikinci yarısında Almaniyanın, İtaliyanın və Yaponiyanın Avropanı, Şimali Afrikanı və Uzaq Şərqi nüfuz dairələrinə bölmək uğrunda mübarizəsi;

3. "Versal müqaviləsi" sisteminin Avropa və Asiyanın bir çox ölkələrinin maraqlarına cavab verməməsi; onların Millətlər Liqasında təsiredici nüfuz və səlahiyyətinin olmaması;

4. Avropada və Asiyada milyonlarla insanın yoxsulluq və ehtiyac içində yaşaması. Almaniya, İtaliya və Yaponiyada faşist və militarist ideyaların yayılması və s.

XX əsrin 30-cu illərinin əvvəllərində Hitler Dantsiq senatının prezidenti Geman Ranşninqlə məxfi söhbətində demişdi: "…Bizə geniş məkan lazımdır və belə bir məkan istənilən siyasi vəziyyətdə hər cür koalisiyadan kənarda müstəqil qalmağa imkan verəcəkdir. Şərqdə bizə Qafqazadək və hətta İranadək hökmranlıq etmək lazımdır. Qərbdə bizə Fransanın sahilboyu əraziləri gərəkdir. Bizə Finlandiya və Hollandiya lazımdır. İsveç bizim

olmalıdır. Biz müstəmləkəsi olan dövlət olmalıyıq. Biz heç olmasa İngiltərə kimi dəniz dövlətinə çevrilməliyik".[1]

Ayxhols yazır ki, 1940-cı ilin noyabrında Gerinq Vermaxtın generallarına belə bir açıqlama verdi: "Mərkəzi Avropanı yalnız bol Ukrayna məhsulları ilə doydurmaq mümkündür. Almaniya Qafqazın neftinə malik olmaq üçün mütləq bu əraziyə girməkdən ötrü özünə yol açmalıdır. Ona görə ki, bunsuz İngiltərə və Amerikaya qarşı genişmiqyaslı hava müharibəsinin aparılması mümkün deyildir".

Dünya ölkələrinin son 10-15 ilin tarixşünaslığında baş verən keyfiyyət dəyişikliklərinə, hərbi-siyasi və strateji vəziyyətə, döyüşən tərəflərin qüvvələrinin nisbəti və cəbhədə silahlı mübarizənin xarakterinə görə tarixçilər İkinci dünya müharibəsini 5 dövrə bölürlər:

- Birinci dövr – 1 sentyabr 1939-cu ildən 21 iyun 1941-ci ilədək olan dövrü əhatə edir. Bu dövr faşist Almaniyasının Polşaya hücumu ilə başlandı. Müharibə başlayan vaxt Almaniya və Polşanın silahlı qüvvələri qeyri-bərabər idi. Polşaya hücum edən alman ordusunun şəxsi heyətini 1,6 milyon nəfər təşkil edirdi.[2] Almaniyanın 62 hərbi birləşməsi, 2.800 tankı, 6.000 top və minomyotu, 2.000-ə yaxın döyüş təyyarəsi vardı.[3]

Polşa Ordusunun şəxsi heyəti 1 milyon nəfər idi. Polşanın 55 hərbi birləşməsində 870 tank, 4.300 top və minomyot, 824 döyüş təyyarəsi vardı. Tankların 1/4-ni yüngül tanklar təşkil edirdi. Döyüş təyyarələrinin təxminən yarısı döyüş əməliyyatları üçün yararsız idi.[4]

Polşa ərazisində keçirilən hərbi əməliyyatları 3 mərhələyə bölmək olar: birinci mərhələ sentyabr ayının 1-8-ni, ikinci mərhələ 9-16 sentyabrı, üçüncü mərhələ 17 sentyabrdan 5 oktyabradək olan dövrü əhatə edir.

Müharibənin ilk günü ağır nəticələr verdi. Mülki əhali alman aviasiyası tərəfindən atəşə tutuldu. Polşa ordusu ilə komandanlıq arasında əlaqələr kəsildi. Müharibənin 7-ci günü alman əsgərləri Varşavaya yaxınlaşdılar. Sentyabr kampaniyasının ən böyüyü Bzur çayındakı döyüş oldu və 4 gün davam etdi.[5]

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016. – s.186.

[2] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985, – с. 31.

[3] Bax: Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005.; Шефов, Н.А. Вторая Мировая. 1939–1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005; Вторая Мировая война: Итоги и уроки. Москва, 1985; Москва, 2005; История второй мировой войны. Москва, 2005. – с. 50.

[4] История второй мировой войны. 1939-1945. В 12 т. Москва, 1975, т.3, с. 26; Советская военная энсиклопедия. Т.2. Москва, 1976. – с.535, 531.

[5] Yenə orada, 1976.

Varşavanın müdafiəsinə general Valerian Çuma komandirlik edirdi, lakin mühasirəyə alınmış şəhərin əsl rəhbəri onun meri Stefan Stajinski idi.[1]

1939-cu il sentyabr ayının 3-də səhər İngiltərə və Fransa Polşa ilə bağladıqları qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq Almaniyaya müharibə elan etdilər. Sentyabrın 3-10 arasında Böyük Britaniya dominionları Avstraliya, Yeni Zelandiya, Hindistan və Kanada da Almaniyaya müharibə elan etdilər[2]. Ancaq döyüş əməliyyatları hələlik Polşa ərazisində gedirdi. SSRİ isə Almaniya ilə bağladığı 1939-cu il 23 avqust müqaviləsinə əsasən bitərəfliyini saxlayırdı. Qərb cəbhəsində "Qəribə müharibə" davam edirdi. Sentyabrın 27-də Hitler silahlı qüvvələrin Baş komandanlarının Qərargah rəislərinin müşavirəsində tezliklə qərbə hücuma hazırlıq haqqında əmr verdi: "…müharibənin məqsədi: İngiltərəni diz çökdürmək" idi.[3]

Müharibənin başa çatmasından keçən 75 ilin təhlili göstərir ki, İngiltərə və Fransa müqavilə öhdəliklərinə əməl etmədilər. Polşa Ordusunun və mülki əhalinin qəhrəmancasına müqavimətinə baxmayaraq, almanlar ölkənin içərilərinə doğru irəlilədilər. Qüvvələrin qeyri-bərabərliyi, Polşa hökuməti və komandanlığın ölkənin silahlı qüvvələrinə rəhbərlikdə yol verdiyi səhvlər nəticəsində alman faşist orduları Qərbi və Mərkəzi Polşanı tutdu, Narev, Visla, San, bəzi yerlərdə isə Buğ çayında dislokasiya olundular.[4]

Müharibənin ilk günlərindən faşist Almaniyası SSRİ-ni Polşaya qarşı müharibəyə sövq etdi. Faşist Almaniyasının Xarici İşlər naziri Ribbentrop sentyabrın 3-də SSRİ hökumətinə təklif etdi ki, Polşaya ordu yeritsin. Ribbentrop belə hesab edirdi ki, SSRİ-nin Polşaya qoşun yeritməsi Qərb ölkələrinin SSRİ-yə müharibə elan etməsi ilə nəticələnər və bu halda Almaniya müharibənin başlanmasındakı günahını bölüşdürmüş olardı. Sovet hökuməti təklifə cavab olaraq Polşaya qoşun yeridilməsinin müvafiq vaxtda həyata keçiriləcəyini, müəyyənləşdirilmiş demarkasiya xəttinə əməl edilməsinin vacibliyini xatırlatdı.[5]

Qərb dövlətlərinin SSRİ-yə münasibətdə öz planları vardı. Onlar belə hesab edirdilər ki, SSRİ müharibəyə qoşulacaq, beləliklə alman-sovet müharibəsi tezliklə başlanacaqdır. Faşist Almaniyası... SSRİ-yə hücum edəndən sonra senator Harri Trumen bildirmişdi: "**Əgər biz görsək ki, Almaniya udur, Sovet İttifaqına kömək edəcəyik. Yox. Əgər görsək ki, SSRİ qalib gəlir, Almaniyaya kömək etmək lazımdır. Qoy onlar nə qədər**

---

[1] История второй мировой войны. 1939-1945. В 12 т. Москва, 1975, т.3, с. 26; Советская военная энсиклопедия. Т.2. Москва, 1976. – с.535, 531.

[2] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – s.41.

[3] Галдер, Ф. Военный дневник. / Ф. Галдер Т.2.. – Москва, 1969. – с.138.

[4] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – s.41.

[5] Орлов, А.С. Накануне: Расчеты и пересчеты / В кн. Война и обшество, Москва, 2004; кн.1, с.12.

mümkündür bir-birini öldürsünlər”. SSRİ isə ümid edirdi ki, imperialistlər özləri-özlərini gücdən salacaqlar.

Almanya-Polşa müharibəsi SSRİ-nin dövlət sərhədlərinin yaxınlığında getdiyini dəyərləndirən Sovet rəhbərliyi almanların gizli protokolla müəyyənləşdirilmiş Pissa, Narev, Visla və San çayları xəttində dayanacaqlarına o qədər də əmin deyildi.[1] Ona görə də, necə və hansı bəhanələrlə qoşunların Polşa ərazisinə yeridilməsini, bunun sovet xalqına və bütün dünyaya necə izah olunacağını[2] götür-qoy etməyə başladı, nəhayət Şərqi Polşanın tutulmasının hərbi-strateji cəhətdən vacibliyini, bu ərazilərin Qırmızı Ordu tərəfindən tutulmadığı halda həmin ərazilərə almanların daxil ola biləcəyini və Almaniya ilə münasibətlərin kəskin xarakter alacağını, həmçinin Polşaya sovet qoşunlarını yeridildiyi halda Böyük Britaniya və Fransanın SSRİ-yə müharibə elan edəcəyini nəzərə alaraq SSRİ qoşunlarının Polşaya hücumuna iki amillə haqq qazandıraraq Almaniyanın dəstəyi ilə Yaponiya ilə barışıq əldə etmək və Polşadakı ukrain və belarus əhalisinin “xaosdan” müdafiə etməyi[3] önə çəkdi. Hadisələrin təhlili göstərir ki, SSRİ rəhbərliyi yeni “Münhen tələsi”nə düşməkdən qorxurdu. Çünki, İngiltərə və Fransa Almaniyaya müharibə elan etsələr də, faktiki olaraq Polşaya heç bir köməklik, yardım etmirdilər. Beləliklə sentyabrın 17-də saat 5^{40} dəqiqədə Qırmızı Ordu hissələri sovet-Polşa sərhədini keçmək və Pissa, Narev, Visla və San çayları istiqamətində irəliləmək göstərişi aldı.[4]

Qoşunların Polşaya yeridilməsi ilə almanlarla məsələ müvəqqəti həll edildi. Polşada nəzərdə tutduğu əraziləri işğal edən SSRİ ordusu 10.000 nəfərə yaxın Polşa zabitini əsir götürdü və onların əksəriyyəti qəddarlıqla Smolensk şəhəri yaxınlığındakı Xatın meşəsində məhv edildilər.

Birinci dövrün mühüm hadisələrindən biri 1940-cı ilin mayın 10-da Faşist Almaniyasının Fransaya hücumu oldu. Alman qoşunları əsas zərbəni Şimali Fransaya endirərək mayın 20-də La-Manşa çıxdı. Buna qədər-mayın 14-də Hollandiya qoşunları təslim olmuşdu. Mayın 28-də isə Belçika ordusu təslim oldu. Dünker rayonunda mühasirəyə alınmış ingilis-fransız qoşun hissələri, ağır hərbi texnikanın itirilməsi bahasına Böyük Britaniyaya köçürüldü. İyunun əvvəllərində fransızların Somma və Sena çayları boyunca tələsik yaratdıqları cəbhə almanlar tərəfindən yarıldı. İyunun 10-da Fransa hökuməti Parisi tərk etdi. İyunun 14-də Paris döyüşsüz təslim oldu və ayın 22-də təslim aktı imzalandı.

---

[1] Орлов, А.С. Накануне: Расчеты и пересчеты / В кн. Война и обшество, Москва, 2004; кн.1, с.12.

[2] Война и обшество. 1941-1945 в двух книгах (Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, кн.1, 2004. – s.11.

[3] Yenə orada, s.11-12.

[4] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – s. 41.

1940-cı il iyun ayının sonunda Londonda Şarl de Qollun başçılıq etdiyi "Azad Fransa" (1942-ci ildən "Döyüşən Fransa" adlandı) təşkilatı yarandı.

1940-cı il iyunun 10-da İtaliya Böyük Britaniya və Fransaya qarşı müharibəyə başladı. İtalyan qoşunları avqustda Britaniya Somalisini, Keniya və Sudanın bir hissəsini tutdu, oktyabrda Liviya və Misirə soxuldu. Lakin italyanların hücumu tezliklə dayandırıldı. Onların Albaniya və Yunanıstana da hücumu dəf olundu.

Militarist Yaponiyası Çinə qarşı təcavüzünü genişləndirdi. Çinin cənub-qərb rayonları işğal olundu, Hind-Çinin bir hissəsi tutuldu.

1940-cı ilin avqustunda alman qoşunları Böyük Britaniyanın şəhərlərinə hücüma, həmçinin Atlantik okeanında fəal hərbi əməliyyatlara başladı. 1940-cı ilin sentyabrın 22-də Berlində dünyanı yenidən bölüşdürmək barədə Almaniya-İtaliya-Yaponiya üçlük paktı imzalandı. Tarixə "Berlin-Roma-Tokio" üçbucağı kimi daxil olmuş militarist ittifaq yaradıldı. Sonralar bu pakta Macarıstan, Bolqarıstan, Finlandiya, Rumıniya, Danimarka, Slovakiya, Xorvatiya və b. ölkələr də daxil oldular. Berlin paktının (1940) imzalanmasından sonra Almaniya Şərqə-SSRİ-yə hücuma hazırlaşmağa başladı. Bu məqsədlə martın 1-də alman qoşunları Bolqarıstana, apreldə italyan-alman, sonra isə macar qoşunları Yuqoslaviya və Yunanıstanı işğal etdilər.[1]

- **İkinci dövr-22 iyun 1941-ci ildən 19 noyabr 1942-ci ilədək olan dövrü** əhatə edir. Keçmiş sovet tarixşünaslığında bu dövr Böyük Vətən müharibəsinin başlanması kimi müəyyənləşdirilmişdir.

1941-ci il iyunun 22-də faşist Almaniyası SSRİ-yə böyük hərbi qüvvə ilə hücum etdi. SSRİ sərhədlərində alman-faşist qoşunlarının 153, əlaltılarının isə 37 diviziyası, o cümlədən 19 tank və 1 motoatıcı diviziya cəmləşdirilmişdi. Müharibənin ilk dövrlərində xeyli ərazini ələ keçirməsinə baxmayaraq faşist Almaniyasının "Barbarossa" planında nəzərdə tutulmuş məqsədlər həyata keçmədi. Müqavimət hərəkatı genişlənməyə başladı.

1941-ci il dekabrın 7-də Yaponiya Sakit okeandakı Perl-Xarbor hərbi bazasına zərbə endirdi və ABŞ-a qarşı müharibəyə başladı. Dekabrın 8-də ABŞ, Böyük Britaniya və bir sıra dövlətlər Yaponiyaya, 11-də isə Almaniya və İtaliyaya müharibə elan etdilər. Vaşinqton konfransında (1941, 22 dekabr-1942, 14 yanvar) "Lend-liz" üzrə SSRİ-yə kömək haqqında qərar verildi. 1942-ci il yanvarın 1-də Vaşinqtonda 26 dövlətin bəyannaməsi imzalandı və sonralar həmin bəyannaməyə digər dövlətlər də qoşuldu. Müharibənin ikinci dövründə Stalinqrad vuruşması (19 noyabr 1942 - 3 fevral 1943) baş

[1] Bax: Великая Отечественная война, 1941-1945: Словарь – спрвочник. (Н.Г.Андроников, А.С.Балицан, М.М.Кирьян, и др). Москва, 1985, с.115; ASE, IV cild. Bakı, 1980, s. 409.

verdi. Stalinqradın müdafiəsi dövründə sovet qoşunlarının əsas zərbə qüvvələri düşmən qüvvələrini ağır tələfata uğratdı, əks-hücum üçün şərait yarandı.

Müharibənin ikinci dövründə Atlantik okeanında İngiltərə donanmasına ciddi tələfat verildi. Yavada ingilis-amerikan-holland donanmasının ağır məğlubiyyəti (1942, 27-28 fevral) Sakit okeanda Yaponiyanın mövqeyini gücləndirdi. 1942-ci ilin birinci yarısında ABŞ-ın silahlı qüvvələrinin artması qüvvələrin nisbətini müttəfiqlərin xeyrinə dəyişdirdi. Yaponiya Sakit okeanda fəaliyyətini məhdudlaşdırmağa məcbur oldu.

- Üçüncü dövr – 19 noyabr 1942-ci ildən 31 dekabr 1943-cü ilədək olan dövrü təşkil edir.[1] Bu dövrdə müharibənin gedişində əsaslı dönüşə nail olundu. Almanların əzilməsi, faşist blokunun dağılması, Stalinqrad və Qafqaz uğrunda döyüşlər bu dövrə xasdır.

Üçüncü dövrdə Stalinqrad ətrafında qələbə faşist Almaniyasını sarsıtdı, sovet ordusu 1943-cü ilin yayında Şimali Qafqazda, Donbasda, Leninqrad ətrafında düşmənə sarsıdıcı zərbələr vurdu. Kursk qövsündəki vuruşma Almaniyanı strateji müdafiəyə keçməyə məcbur etdi.

Bu dövrün ən mühüm hadisələrindən biri Tehran konfransı (1943) oldu. 1944-cü ilin yayında ikinci cəbhənin açılması müharibənin gedişində qüvvələrin nisbətini dəyişdirdi. Sakit okeanda və Asiyada vuruşan tərəflərin nisbətində əhəmiyyətli dəyişikliklər baş verdi.[2]

- Dördüncü dövr – yanvar 1944-cü ildən 9 may 1945-ci ilədək olan dövrü əhatə edir və bu dövr SSRİ-nin və Avropa ölkələrinin ərazisinin faşist işğalçılarından azad edilməsi, Avropada nasizm üzərində qələbə ilə xarakterikdir.[3] Bu dövrün ən mühüm hərbi-siyasi hadisələri-antifaşist koalisiyasının hərbi-iqtisadi qüvvəsinin artması, Avropada müttəfiq qoşunları əməliyyatlarının fəallaşması ilə müəyyən olunur.

1944-cü ilin qışında Leninqrad və Novqorod ətrafında düşmən darmadağın edildi, Sovet qoşunları Rumıniya ərazisinə daxil oldu. Kareliya bərzəxində və Cənubi Kareliyada sovet qoşunlarının hücumu Finlandiya hökumətini barışıq (1944, 19 sentyabr) bağlamağa, faşist blokundan çıxmağa və Almaniyaya müharibə elan etməyə (1944, 5 mart) məcbur etdi. Belarusiya və Yassı-Kişinyov əməliyyatları nəticəsində Polşa, Moldaviya SSR ərazisi və Rumıniyanın xeyli hissəsi azad olundu. Sovet qoşunları Bolqarıstana daxil oldu, 1944-cü ilin sonundan başlayaraq Çexoslovakiya, Yuqoslaviya və Macarıstanın azad edilməsi uğrunda əməliyyatlar keçirildi. Visla-Oder (1945) və Şərqi Prussiya əməliyyatlarında (1945) alman-faşist

---

[1] Bax: Великая Отечественная война, 1941-1945: Словарь – спрвочник. (Н.Г.Андроников, А.С.Балицан, М.М.Кирьян, и др). Москва, 1985. – с.115-116.

[2] Azərbaycan Sovet Ensiklopediyası. Eldəgəz – İtabira /baş red. C.B.Quliyev; red. hey. M.H.Abdullayev, M.T.Abasov [və b.] IV cild. – Bakı: Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası, 1980. – s.410.

[3] Yenə orada, s.408.

qoşunları darmadağın edildi. Krım konfransında müharibədən sonrakı məsələlər müzakirə olundu.[1]

Müharibənin sona çatmasında Berlin əməliyyatı mühüm rol oynadı. Berlin qruplaşması ləğv olundu. Mayın 6-11-də Praqa əməliyyatında alman-faşist qoşunlarının sonuncu qruplaşması ləğv edildi. Mayın 8-də Karlxorstda (Berlin yaxınlığında) V.Keytelin başçılığı ilə Almaniya ali komandanlığının nümayəndələri danışıqsız təslim olma haqqında aktı imzaladılar.

- Beşinci dövr – 1945-ci il 9 may – 2 sentyabrı əhatə edir. Bu dövr Yaponiyanın darmadağın edilməsi və Asiyada II Dünya müharibəsinin başa çatması ilə xarakterizə olunur.[2]

1945-ci ildə təcavüzkar dövlətlərdən yalnız Yaponiya mübarizəni davam etdirməkdə idi. Potsdam konfransında (1945) Uzaq Şərqdəki vəziyyət müzakirə olundu. SSRİ avqustun 8-də Yaponiyaya, avqustun 10-da Monqolustan Xalq Respublikası Yaponiyaya müharibə elan etdi. Qısa müddətdə Kvantun ordusu darmadağın edildi, Şimal-Şərqi Çin, Şimali Koreya, Cənubi Saxalin və Kuril adaları azad olundu. Heç bir hərbi-siyasi zərurət olmadan ABŞ avqustun 6-da və 9-da Yaponiyanın Xirosima və Naqasaki adalarına atom bombası atdı. Nəhayət, təzyiqlərə davam gətirməyən Yaponiya 1945-ci il sentyabrın 2-də təslim olmaq haqqında aktı imzaladı.

Beləliklə, 2194 gün (6 il) davam edən II Dünya müharibəsi 1945-ci il sentyabrın 2-də başa çatdı. Müharibə dövründə təkcə antihitler koalisiyası ölkələrində 588 min təyyarə (425 min döyüş təyyarəsi), 236 min tank, 1.476 min top, 616 min minaatan, Almaniyada isə təqribən 109 min təyyarə, 46 min tank və hücum silahı, 435 mindən çox top və minaatan və s. silahlar istehsal edildi.[3]

İkinci dünya müharibəsində 50 milyondan artıq adam həlak oldu. Müharibədə SSRİ dövlətinin itkisi 29 milyondur.

Hitler Almaniyasının Polşaya hücumu

1939-cu il sentyabrın 1-də saat 4-də Moskvaya, Kremlə, Stalinə Berlindəki sovet səfirliyindən daxil olan təcili şifroqramda göstərilirdi ki, alman radiosu avqust ayının 31-də gecə məlumat yaymışdı ki, "Polşa əsgərləri sərhəd şəhəri Qleyvitsdəki alman radiostansiyasını tutmuşlar və radio vasitəsi ilə əhalini "Almaniyaya qarşı müharibəyə başlamağa" – çağırmışlar". **Həqiqətdə isə onlar Polşa ordusunun formalarını geymiş alman əsgərləri idi.** Şifro-

---

[1] Великая Отечественная война,1941-1945: Словарь – спрвочник (Н.Г.Андроников, А.С.Балицан, М.М.Кирьян, и др). Москва, 1985. – с.116.

[2] Великая Отечественная война: Энциклопедия (Гл. ред.М.М.Козлов). Москва, 1985, с.190-192

[3] Azərbaycan Sovet Ensiklopediyası. Eldəgəz – İtabira /baş red. C.B.Quliyev; red. hey. M.H.Abdullayev, M.T.Abasov [və b.] IV cild. – Bakı, 1980. – s.411.

qramı oxuyan sovet liderinə aydın idi ki, bu "sərhəd əhvalatı" alman rəhbərliyi tərəfindən hazırlanmışdı. Cilalanmamış bu kobud məlumat əslində Polşaya qarşı müharibəyə başlamağa bəhanə idi.[1] Bununla Üçüncü Reyx dünya ictimaiyyətinə bildirmək istəyirdi ki, Polşaya hücumda Almaniya deyil, qarşı tərəf günahkardır. Həqiqətdə isə, alman komandanlığı hələ 1939-cu ilin aprelində Polşaya hücum üçün "Vays" adlı hərbi əməliyyat planı hazırlamışdı. Bu plana görə sürətli hücumla Polşanın əsas hərbi qüvvələri darmadağın edilməli idi. Polşanın qısa müddətdə işğalı üçün general F.fon Bokun komandanlığı ilə "Şimal" qrupu (3 və 4-cü səhra orduları və 1-ci hava donanması) və general Q.Pundştedmanın rəhbərliyi ilə "Cənub" (8-ci, 10-cu, 14-cü səhra orduları və 4-cü hava donanması) ordu qrupu ayrılmışdı.

Müharibə başlayan vaxt Almaniya və Polşanın silahlı qüvvələri qeyri-bərabər idi. Polşaya hücum edən alman ordusunun şəxsi heyəti 1,6 milyon nəfər idi**.** Faşist Almaniyasının 62 hərbi birləşməsi, 2.800 tankı, 6.000 top və minomyotu, 2.000-ə yaxın döyüş təyyarəsi vardı.[2]

Polşa ordusunun şəxsi heyəti 1 milyon nəfər idi. Polşanın 55 hərbi birləşməsində 870 tank, 4.300 top və minomyot, 824 döyüş təyyarəsi vardı.[3] Tankların 1/4-ni yüngül tanklar təşkil edirdi. Döyüş təyyarələrinin isə təxminən yarısı döyüş əməliyyatları üçün yararsız idi.[4]

1939-cu il sentyabrın 1-də dan yeri ağararkən alman ordusu **"Veys" ("Wiess")** planına əsasən müharibə elan etmədən İkinci Reç Pospolitanın sərhədlərini şimaldan, qərbdən, cənub-qərbdən keçdi. Polşa ordusu düşmənə amansız müqavimət göstərdi, müdafiə xəttini Qdın, Qdansk və Xel yarımadasındakı polyak ön istehkamları müdafiə edirdi. Sonuna qədər Ali Baş Komandanın əmrlərini yerinə yetirən Vesterplatte əsgərləri xüsusi qəhrəmanlıq nümunəsi göstərdilər. Mayor Henri Suxarskinin komandanlığı altında bir dəstə müdafiəçi 7 gün ərzində arxasında ağır artilleriyanın və aviasiyanın köməyi olan 2 mindən çox alman əsgərinin hücumunun qabağını aldı. Polyak istehkamlarını yaxındakı Qdansk limanından, bir neçə gün əvvəl buraya xoş məramla gəlmiş "Hlezviq-Qolşteyn" zirehli gəmisi top atəşinə tuturdu.[5]

1939-cu il sentyabr ayının 3-də səhər Böyük Britaniya və Fransa Polşa ilə bağladıqları qarşılıqlı yardım haqqında müqaviləyə uyğun olaraq, Alma-

---

[1] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – с.39.

[2] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны. Москва, 2005. с.50.

[3] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985. – с.31.

[4] История второй мировой войны. 1939-1945. В 12 т. Москва, 1975, т.3, с.26.

[5] A.Dıbkovskaya, M.Jarın və Y.Jarın. Polşa tarixi. Ən qədim zamanlardan bu günümüzədək/Tərc. ed. Habil Məmmədov / Bakı, 2010. – s.81.

niyaya müharibə elan etdilər. Sentyabrın 3-10 arasında Britaniya dominionları Avstraliya, Yeni Zellendiya, Hindistan və Kanada da Almaniyaya müharibə elan etdilər.[1] Ancaq döyüş əməliyyatları hələlik Polşa ərazisində gedirdi. SSRİ isə Hitler Almaniyası ilə bağladığı 1939-cu il 23 avqust müqaviləsinə əsasən bitərəfliyini saxlayırdı. Polşada vəziyyət getdikcə gərginləşirdi. Alman orduları ölkənin içərilərinə doğru irəliləyirdi. Artıq sentyabrın 15-də almanlar Lyublini tutmuş və Brestə yaxınlaşmışdılar. Polşa hökuməti öz müttəfiqlərindən kömək istəsə də, onlar heç bir kömək göstərmir, Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etsələr də, hərbi əməliyyatlara başlamırdılar. Qərb cəbhəsində "Qəribə müharibə" davam edirdi. Sentyabrın 27-də A.Hitler silahlı qüvvələrin baş komandanlarının Ştab rəislərinin müşavirəsində tezliklə qərbə hücuma hazırlıq haqqında əmr vermişdi: "…müharibənin məqsədi: İngiltərəni diz çökdürmək" idi.[2]

Şübhəsiz ki, Böyük Britaniya və Fransa özlərinin müqavilə öhdəliklərinə əməl etsəydilər, onda müharibənin gedişi başqa istiqamət alardı. Polşa ordusunun və mülki əhalinin qəhrəmancasına müqavimətinə baxmayaraq işğalçılar ölkənin içərilərinə doğru irəliləyirdilər. Qüvvələr qeyri-bərabər idi. Sentyabrın ortalarına yaxın artıq Polşa hökuməti və komandanlıq ölkənin silahlı qüvvələrinə rəhbərlikdə səhvlərə yol verərək Varşavanı tərk etdilər və ölkənin cənub-qərb hissəsində yerləşdilər ki, lazım gəldikdə Rumıniya sərhədlərini keçə bilsinlər. Bir sözlə, ölkə idarəsiz qalmışdı.

Alman-faşist qoşunların Polşaya basqını 1939-cu il

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.41

[2] Галдер, Ф. Военный дневник / Ф. Галдер. – Москва, 1969. Т.2. – с.138.



Polşa əməliyyatı

Qaçqınlar dəstəsi, döyüşçülərin kolonları nizamsız olaraq şərqə və cənub-şərqə irəliləyirdi. Alman orduları isə Qərbi və Mərkəzi Polşanı tutmuş, Narev, Visla, San, bəzi yerlərdə isə Buğ çayında dislokasiya olunmuşdular.[1]

Müharibənin ilk günlərindən Almaniya SSRİ-ni Polşaya qarşı müharibəyə sövq etməyə başladı. Böyük Britaniya və Fransanın Almaniyaya müharibə elan etməsindən sonra Ribbentrop sentyabrın 3-də sovet hökumətinə təklif etdi ki, Polşaya ordu yeritsin. Alman lideri belə hesab edirdi ki, SSRİ-nin Polşaya qoşun yeritməsi Qərb ölkələrinin SSRİ-yə müharibə elan etməsi ilə nəticələnər və bu halda Almaniya müharibənin başlanmasındakı günahını bölüşdürmüş olardı. Ribbentropun Polşaya qoşun yeritmək haqqında 3 sentyabr 1939-cu il tarixli təklifini Sovet hökuməti hərtərəfli müzakirə edərək "…bu müvafiq vaxtda həyata keçiriləcəkdir" cavabını verdi.[2]

Qərb dövlətlərinin öz planları vardı. Onlar belə hesab edirdilər ki, SSRİ müharibəyə qoşulacaq, beləliklə alman-sovet müharibəsi tezliklə başlanacaqdır. SSRİ isə ümid edirdi ki, imperialistlər özləri-özlərini gücdən salacaqlar. Həqiqətdə isə, Almaniya-Polşa müharibəsi sovet sərhədlərinin yaxınlığında gedirdi. Sovet rəhbərliyi hadisələrin müvəffəqiyyətli gedişin-

[1] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.41.

[2] Орлов, А.С. Накануне: Расчеты и пересчеты / В кн. Война и обшество. Москва, 2004; кн.1, с.12.

dən sonra almanların gizli protokolla müəyyənləşdirilmiş Pissa, Narev, Visla və San çayları xəttində dayanacaqlarına o qədər də əmin deyildi.[1]

Vəziyyət təxirəsalınmaz, lakin çətin qərarların qəbulunu tələb edirdi. Bir tərəfdən, Şərqi Polşanın tutulması hərbi-strateji cəhətdən lazım idi. Əgər bu əraziləri Qırmızı Ordu tutmasaydı, həmin ərazilərə almanlar daxil ola bilərdilər. Digər tərəfdən, Ribbentropun sovet qoşunlarının Polşaya yeridilməsi barədə tələbi yerinə yetirilməsəydi, onda Almaniya ilə münasibətlər kəskin xarakter alardı. Narahatlıq doğuran səbəblərdən biri də, ondan ibarət idi ki, SSRİ Polşaya qoşun yeritdiyi halda Böyük Britaniya və Fransa SSRİ-yə müharibə elan edə bilərdilər. Nəhayət, sovet qoşunlarının Polşaya hücumuna ancaq iki amillə haqq qazandırmaq mümkün hesab edildi: 1) Almaniyanın dəstəyi ilə Yaponiya ilə barışıq; 2) Polşa hökuməti ölkənin idarəsini itirdiyinə görə Polşadakı ukrain və belorus əhalisinin "xaos"dan müdafiə etmək.[2]

Sovet rəhbərliyi yeni "Münhen tələsi"nə düşməkdən qorxurdu. Çünki, İngiltərə və Fransa Almaniyaya müharibə elan etsələr də, faktiki olaraq Polşaya heç bir köməklik etmirdilər. Məhz göstərilən arqumentləri nəzərə alan V.Molotov İ.Ribbentropa bildirmişdi ki, "sovet qoşunları bir neçə həftə ərzində hərəkət edəcəklər".[3] Nəhayət, sentyabrın 17-də saat 5^{40} dəqiqədə Sovet ordusunun döyüşçüləri Sovet-Polşa sərhədini keçmək və Pissa, Narev, Visla və San çayları istiqamətində irəliləmək göstərişi aldı. Sovet qoşunları Polşa ərazisində demək olar ki, təxminən sutkada 25 km. irəliləyə bildilər. Hərəkət edən 7 ordu və 2 atlı – mexanikləşdirilmiş qrup aviasiya ilə dəstəklənirdi. Orduya havadan zərbə endirmək, toplardan şəhərlərə və əhaliyə atəş açmaq qadağan edilmişdi.[4] Bu, "xilasetmə yürüşündə" Sovet ordusunun hazırlığında və əməliyyat planlarında nöqsanların – tankların tez-tez sıradan çıxması, aerodromların yararlı olmaması, Hərbi Hava Qüvvələri ilə əlaqənin qeyri-qənaətbəxş olması və səfərbərliyin lazımi səviyyədə keçirilməməsi – olduğu aşkarlandı.

Qoşunların Polşaya yeridilməsi ilə almanlarla məsələ müvəqqəti həll edildi. Ancaq hadisəni sovet adamlarına və dünyaya izahı gündəmdən çıxmamışdı. Çünki Sovet qoşunlarının Polşaya yeridilməsi yerli əhali və Polşa hökuməti tərəfindən birmənalı qarşılanmadı. Polşa əhalisinin bir hissəsi Sovet ordusunun bu hərəkətini bəyənmədi. Qərbi Ukrayna və Qərbi Belarusiya əhalisinin əksəriyyəti isə Sovet Ordusu döyüşçülərini özlərinin xilaskarı kimi qarşıladılar. Polşa hökuməti və Baş Komandanlıq hadisələri real

---

[1] Орлов, А.С. Накануне: Расчеты и пересчеты / В кн. Война и обшество. Москва, 2004; кн.1, с.12.

[2] Война и обшество. 1941-1945 в двух книгах. (Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, кн.1, 2004. – с.11-12.

[3] Yenə orada, s.11-12.

[4] Орлов, А.С. СССР –Германия, 1939-1941 / А.С.Орлов. – Москва, 1991. – с .11-12.

qiymətləndirərək bildirdilər ki, Polşa Sovet İttifaqı ilə müharibə vəziyyətində deyildir.

Faşist Almaniyasının planlarında Norveçin və Danimarkanın işğalı əsas yerlərdən birini tuturdu. Norveç limanı olan Narvik vasitəsilə Almaniyaya yüksək keyfiyyətli İsveç filizi aparılırdı ki, bu da alman hərbi sənayesi üçün strateji xammal idi. Bircə fakt kifayətdir ki, müharibə illərində hər alman tankı və ya topunun hazırlanmasında 30% İsveç metalından istifadə olunmuşdu. Almaniya üçün Norveçin tutulması onun donanmasının, xüsusi ilə sualtı qayıqlarının okeana çıxışına geniş yol açardı. Çünki, Böyük Britaniya Baltik dənizində bu yolu mühasirəyə almışdı. Digər tərəfdən, İsveçdən dəmir filizinin fasiləsiz göndərilməsinə imkan yaranardı. Nəticədə Böyük Britaniyanın strateji vəziyyəti əhəmiyyətli dərəcədə zəifləmiş oldu.

1940-cı il fevralın 16-da alman gəmisi "Altmark" gəmisinə qarşı baş verən hadisə Norveçə qarşı hərbi hazırlığa təkan verdi. Hadisənin mahiyyəti belə idi: "Altmark" gəmisinin göyərtəsində ticarət gəmisindən əsir götürülmüş 229 ingilis əsiri var idi. İngilis esminesi "Kossak" dənizdən hücum edərək əsirləri xilas etməyə cəhd edəndə "Altmark" Norveçin neytral sularına daxil oldu. Lakin ingilislər beynəlxalq qaydaları pozaraq norveçlilərin etirazına məhəl qoymadan özlərinin "Kossak" gəmisindən "Altmark"a hücum edərək əsirləri azad etdilər. Böyük Britaniyanın Norveçin neytral sularını pozması Hitleri Norveçə hücum etməyə vadar etdi.[1]

Şimali Avropanı – Danimarka və Norveçi işğal etmək üçün alman komandanlığı "**Veserebung**" ("Vezerdə təlim") kodu altında işğal planı işləyib hazırlamışdı. Plan 1940-cı il martın 11-də Direktivlə təsdiq olunmuşdu. Planda bu ölkələrin tutulması üçün hava və dəniz desant qüvvələrinin tətbiqi nəzərdə tutulmuşdu. "Veserebung" əməliyyatının keçirilməsi üçün 21-ci birləşmiş ordu qrupunun tərkibində general N.Falkenxorstun komandanlığı altında 9 diviziya və bir briqada ayrılmışdı.

Norveçin qüvvələri isə böyük deyildi. Hücum məqamında Norveç silahlı qüvvələri səfərbər edilmədiyindən cəmi 15 min nəfər idi. Bunlar əsasən milis qoşunlarından ibarət olub alman hissələri ilə müqayisə edilə bilməzdi. Nəhayət, mayın 3-də səhər Norveç döyüşçülərinin təslim olması haqqında akt imzalandı**.** Mərkəzi Norveç bütünlükdə alman ordusunun nəzarəti altına düşdü.

Norveç kampaniyası döyüşlərində Norveç ordusu təxminən 1.700 nəfər, İngiltərə 4.400 nəfərə yaxın, fransız və polyak hissələri 530 nəfər itki verdilər. Norveçin tutulması almanlara 1.317 nəfərin ölümü, 1.604 nəfərin

---

[1]Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.72.

yaralanması və 2.375 nəfərin itkin düşməsi ilə başa gəldi. Döyüş müddətində almanlar 1.237 təyyarə, Qərb müttəfiqləri isə 112 təyyarə itirdilər.[1]

Danimarka və Norveçin işğalı ilə faşist Almaniyası Şimali Avropada strateji mövqeləri ələ keçirdi və ölkəyə dəmir filizi göndərilməsini təmin etdi.

Almaniya Şimali Avropada apardığı döyüşlərlə yanaşı ingilis-fransız əsas qüvvələrini dağıtmaq üçün Almaniya Birləşmiş Quru Qoşunları Komandanlığı 1939-cu il oktyabrın 19-da "**Gelb**" (**Gelb-sarı**) adlı planı təsdiq etmişdi. Adolf Hitler belə hesab edirdi ki, Fransa və Böyük Britaniya ilə uzun müharibə Almaniyanın ehtiyatlarını tükədər və onu SSRİ tərəfindən öldürücü zərbəyə məruz qoyar. Ona görə də, hücumla "Fransanı sülhə məcbur etmək lazım idi". Hitlerin fikrinə görə, Fransanın oyundan çıxması həm də Böyük Britaniyanı onun şərtlərini qəbul etməyə vadar edər.

1939-cu il avqustun sonunda Fransanın silahlı qüvvələrini 2.674 min nəfər (108 diviziya), 26 mindən çox top və minaatan, 3100 tank, 3.335 təyyarə, 174 gəmi (o cümlədən 77 sualtı qayıq) təşkil edirdi. Böyük Britaniya güclü hərbi dəniz qüvvələrinə malik idi. Onun 328 döyüş gəmisi və 1.222 döyüş təyyarəsi, Hərbi Hava Qüvvələrinin sərəncamında 3.891 təyyarə, Quru qoşunlarında 25 diviziya, 19 briqada, 5,6 min top və minaatan, 547 tank vardı. Böyük Britaniyanın müstəmləkələrində əsgərlərin ümumi sayı 1.270 min nəfərə çatırdı.[2]

1940-cı il mayın 10-da səhərçağı alman qoşunları Hollandiya, Belçika və Fransa ərazisindəki aerodromları, şəhərləri və hərbi strateji obyektləri bombardman edərək Qərb cəbhəsində hücuma keçdi**.** Almanların Hollandiya və Belçika ərazilərindən hücumu haqqında məlumat alan müttəfiqlər "Dil" əməliyyatına uyğun olaraq müttəfiq qoşunlarının Belçika ərazisinə yeridilməsi əməliyyatına başladılar. Alman təyyarələri eyni zamanda Fransa hərbi döyüş meydanlarına da zərbə vurdular. Mayın 14-də Hollandiya komandanlığı sonrakı müqaviməti əhəmiyyətsiz hesab edərək təslim danışıqlarına başlamağa qərar verdi. Almanlar tezliklə Hollandiyanı işğal etdilər. Fransızların imkanları olmasına baxmayaraq, Belçikanı müdafiə etmədilər. Mayın 13-15-də alman qoşunları aviasiyanın yardımı ilə Maosda yerləşərək oradakı fransız birləşmələrini dağıtdılar. Alman tankları gündə 50 km-dək yol qət edir, onların arxasınca mexanikləşdirilmiş piyada qoşunlar boşluqları doldururdular.[3]

Mayın 22-də alman qoşunları dənizdən hərəkət edərək şimal istiqamətində müttəfiqlərin Bulona, sonrakı gün isə Veleyə gedən yolunu kəsdilər.

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.75-76.

[2] Yenə orada.

[3] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.46; Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А.Шефов. – Москва, 2005. – с.81.

Sonra almanlar Qravlinə çıxdılar. Ondan 10 mildə – sonuncu liman, Böyük Britaniyanın əlində olan **Dünker** yerləşirdi. Burada Hitlerin əmri ilə tankların hərəkəti dayandırıldı. Mayın 27-də döyüşə yenidən tank qrupu buraxıldı. Ancaq tanklar da ingilislərin müdafiəsini yara bilmədilər. Bu əməliyyatda 860 ingilis gəmisi və Fransa Hərbi Dəniz Donanması, həmçinin balıqtutan, nəqliyyat və idman gəmiləri iştirak edirdi. Mayın 27-dən iyunun 4-dək ingilis təyyarəçiləri 2.739 təyyarə uçuşu etdi və 140 alman təyyarəsini vurdular. **Dünker** altında ingilislər 106 təyyarə itirdilər. Xilasetmədə iştirak edən gəmilərdən 224-ü batırıldı, təxminən o qədər də zədələndi. İngilislər 68 min nəfər adam, həmçinin bütün döyüş texnikasını və silahlarını itirdilər.[1]

Müttəfiqlər iyunun 4-dək Dünkerdən 338 mindən artıq adamı (bundan 112 mini fransız və belçikalı idi) təxliyə edə bildilər. Mayın 28-də Belçika Ordusu təslim oldu. İyunun 4-də döyüş sursatı qurtaran və xilasetmədən kənarda qalmış 40 min nəfərə yaxın fransız əsgəri əsir düşdü.

Dünker əməliyyatı başa çatdı. İngilislər öz ordularının nüvəsini xilas edə bildilər. Almanların "Gelb" planının əsas strateji vəzifəsi – Finlandiyada ingilis-fransız qoşunlarını mühasirəyə almaq və əsir götürmək vəzifəsi yerinə yetirilmədi.

İyunun 5-də Fransa uğrunda mübarizənin ikinci mərhələsinə – Qərbdə əməliyyat planına başlandı. "**Rot**" ("Qırmızı") adlanan əməliyyat 1940-cı il iyun ayının 5-də Somma çayında fransızların müdafiəsinin yarılması ilə başladı. İyunun 14-də alman qoşunları Fransanın paytaxtına daxil oldular. İyunun 22-də Fransa təslim oldu.

Fransa 2 zonaya bölündü. İqtisadi cəhətdən inkişaf etmiş rayonlar işğal altına düşdü və Hitler Almaniyasının nəzarətinə keçdi. İkinci zonada paytaxt Vişi olan Marşal Petenin (1856-1951) rəhbərliyi altında yeni Fransız hökuməti təşkil olundu. İyunun 24-də İtaliya ilə barışıq imzalandı. Fransa II Dünya müharibəsindən çıxdı.

Fransa xalqı general Şarl de Qollun (1890-1951) başçılığı ilə alman işğalçılarına qarşı mübarizəni davam etdirdilər.

Fransanın darmadağın edilməsi Böyük Britaniyanı Almaniya ilə təkbətək qoydu. İngiltərə qonşularının böyük hissəsi Fransada məhv olmaqdan canını qurtarsa da, ölkənin silahlı qüvvələri Almaniya ilə müqayisədə çox pis vəziyyətdə idi.

U.Çörçill hökuməti müdafiəyə kor-koranə getmədi. Fəal siyasət aparılmağa başlandı. 1940-cı ilin iyununda Böyük Britaniya hökuməti almanların fransız donanmasının gəmilərini ələ keçirib onlardan Böyük Britaniyanın əleyhinə istifadə etməsinin qarşısını almaq üçün onları məhv etmək

---

[1] Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А. Шефов. – Москва, 2005. – с.84.

haqqında qərar qəbul etdi. İngilislər "Katapult" kodu altında əməliyyata hazırlaşdılar və 1940-cı ilin iyul ayının 3-4-də əməliyyat keçirildi. Fransız dənizçiləri müqavimətsiz ingilislərin tərəfinə keçdilər, ancaq Şimali Afrikada İngiltərə donanması güc tətbiq etməyə məcbur oldu.

Fransanı darmadağın edən almanlar Böyük Britaniyaya çıxmağa cəhd göstərdilər. Hitler Böyük Britaniya ilə hesabı tez həll etmək istəyir, Şərqə can atırdı. Bu səbəbdən də, 1940-cı il iyunun 19-da alman reyxstağının tən-tənəli yığıncağında A.Hitler bəyan etdi ki, Böyük Britaniyaya sülh təklif edir. Bu bəyanatın əsasında nəinki 1940-cı il şəraitində Britaniya adasına desant çıxarmağın mümkün olması, həmçinin Sovet-Finlandiya müharibəsində Qırmızı Ordunun hazırlıqsız olduğunu bildiyi üçün SSRİ-yə qarşı yaxın vaxtlarda hücum etməyə can atan Almaniyanın gələcək planları durdu. Almaniya Birləşmiş Quru Qoşunları Komandanlığının rəisi general F.Qalder sonralar xatirələrində yazırdı ki: "Əsas məsələ bir daha gücümüzü göstərmək idi".[1]

Alman faşist komandanlığı 1940-cı il iyulun 16-da Britaniya adalarına "**Zeeleve**" ("Seeleve" – Dəniz şiri) kodu altında desant əməliyyatına hazırlıq haqqında 16 №-li dekret imzaladı. "Zeeleve" əməliyyatı əsasən siyasi niyyət güdürdü. Vermaxtın Britaniya adalarını hücumla hədələməsi Böyük Britaniyanı müharibədən çıxmağa vadar edə bilərdi. Eyni zamanda İngiltərəyə desant əməliyyatına hazırlığın nümayişi sovet rəhbərliyində strateji yönümlü informasiya yaradar və SSRİ-yə hücumu ört-basdır edərdi.[2]

İngiltərə uğrunda hava döyüşləri 1940-cı il avqustun 8-də başladı. Hər gün 1400-1800 uçuş həyata keçirildi. Bu uçuşlar Böyük Britaniya Hərbi Hava Qüvvələrinin güclü müqaviməti ilə rastlaşdı. Artıq avqustun 18-də Almaniya Hərbi Hava Qüvvələri 367 təyyarə, Böyük Britaniya isə 213 təyyarə itirmişdi.

Avqustun 24-dən sentyabrın 5-dək almanlar Böyük Britaniyanın əsas HHQ bazalarını bombardman etdilər. Almanların hücumuna cavab olaraq Böyük Britaniya sentyabrın 24-29-da 80 bombardmançı təyyarə ilə Berlini 2 böyük bombardmana məruz qoydu. Almaniyanın Drusseldorf, Essen və b. şəhərlərinə də uçuşlar təşkil olundu. Bundan sonra A.Hitler Böyük Britaniya hərbi hava limanlarının bombardman edilməsinin dayandırılması haqqında əmr verdi.

Britaniya şəhərlərinin ciddi dağılmasına baxmayaraq Almaniya hava hücumunda qarşısına qoyduğu məqsədinə nail ola bilmədi. 1941-ci il mayın ortalarında alman aviasiyasının əsas hissələrinin Şərqə atılması və SSRİ-yə hücuma hazırlıqla əlaqədar İngiltərəyə uçuş faktiki olaraq kəsildi.

---

[1] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.47.

[2] Yenə orada, s.48.

İngiltərə uğrunda döyüşlərin gedişində (iyul-avqust 1940-cı ildə) almanlar 1.733 təyyarə və 100 təyyarəçi, ingilis aviasiyası 917 qırıcı və 450 təyyarəçi itirdi. 1941-ci il mayın ortalarında Britan adalarında 40 min nəfər həlak olmuş, 46 min nəfər yaralanmışdı ki, onlardan 25 mini Londondan idi.

Başlanmış II Dünya müharibəsi şəraitində Balkan yarımadası dövlətləri iqtisadi və geostrateji əhəmiyyət kəsb edirdi. Balkan ölkələrinin ehtiyatlarının ələ keçirilməsi, bununla da Yaxın Şərqə qısa nəzarət və Şərqi Aralıq dənizində dayaq məntəqələrinin tutulması bu regionda Böyük Britaniyanın mövqelərini zəiflədərdi. Həm də, Balkanların işğalı Böyük Britaniya imperiyasının əsas kommunikasiyalarını təhlükə altına alardı. Bütün bunlar isə Bolqarıstan və Türkiyənin Almaniya tərəfindən müharibədə iştirakına təkan verərdi.

Yunanıstana "özünün maraq dairəsi" kimi baxan faşist İtaliyası 1940-cı il oktyabrın 28-də əvvəllər işğal olunmuş Albaniya ərazisindən yunan ərazilərinə hücum etdi. İtaliyanın ağır vəziyyətindən onun müttəfiqi Almaniya istifadə etdi. Alman ordularının 1940-1941-ci ilin qışında Yunanıstana soxulmalarını təmin etmək üçün fəal diplomatik hazırlıq aparıldı. Yuqoslaviyaya alman diplomatiyasının təzyiqi nəticəsində (Yuqoslaviyaya yunan Saloniki vəd edilmişdi) Yuqoslaviya hökuməti 1941-ci il martın 25-də Vyanada "Üçlər paktı"na qoşulmaq haqqında protokolu imzaladı. Bundan hiddətlənən əhali hökumətə etimadsızlıq göstərdi. Martın 27-də baş verən dövlət çevrilişi nəticəsində hakimiyyətə gələn yeni Yuqoslaviya hökuməti (general D.Simoviç) öz ölkəsini faşist təsirlərindən qurtarmaq üçün 1941-ci il aprelin 5-də SSRİ ilə "Dostluq və hücum etməmək haqqında" müqavilə imzaladı.[1]

Hitler Almaniyası Balkanlarda yaranmış diplomatik böhranı hərbi yolla həll etməyə üstünlük verdi. 1941-ci il martın 27-də Almaniyanın Birləşmiş Quru Qoşunları Hərbi Komandanlığı "Yuqoslaviyanın hərbi və siyasi qüvvələrini qısa müddətdə hərbi əməliyyatla məhv etmək haqqında" 25 №-li Direktivi təsdiq etdi.[2]

Hücum ərəfəsində Yuqoslaviya Ordusu 31 diviziya və 32 əlahiddə alaydan ibarət idi. Onlardan 11 diviziya plana görə müdafiə rayonlarında yerləşdirilmişdi. Ordunun texniki təchizatı pis idi. Yuqoslaviyanın cəmi 110 tankı və 416 təyyarəsi var idi.

Yunanıstan Ordusu da çətin vəziyyətdə idi. Ordunun əsas kütləsini təşkil edən 15 diviziya İtaliya-Yunanıstan cəbhəsində və Albaniya ilə sərhəddə cəmləşdirilmişdi. Alman qoşunlarının Yuqoslaviyaya basqını 1941-ci il aprel ayının 6-da gecə başladı.

---

[1] Siyasi tarix. II hissə. Bakı, 1998. – s.44.

[2] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.50.

Yuqoslaviyadakı hərbi əməliyyatlarla eyni vaxtda Almaniya Ordusu Yunanıstana qarşı da hərbi əməliyyat keçirdi. Bolqarıstan ərazisindən 1941-ci il aprelin 6-da hücuma başlayan alman ordusunun zərbə qüvvələri (6 diviziya) üç günlük gərgin döyüşlərdən sonra yunanların möhkəmləndirilmiş müdafiə xəttini yardılar və aprelin 9-da Salonik şəhərini tutdular. Alman ordularının Albaniya sərhədində toplaşan yunan qoşunlarının arxasına çıxması nəticəsində aprelin 23-də yunan ordusu təslim olmaq haqqında razılaşmanı imzalandı.

Balkanlarda təcavüzü başa çatdıran nasistlər 1941-ci ilin 20 may – 1 iyununadək Kriti tutmaq üçün desant əməliyyatı keçirdilər. Əməliyyatı həyata keçirmək məqsədilə alman komandanlığı kifayət qədər hava-desant, dağ-dəniz qüvvələri – 29 min əsgər və zabit, 700 döyüş və 500 nəqliyyat təyyarəsi ayırmışdı.[1] 1941-ci il mayın 20-də ingilis mövqelərinin kütləvi aviasiya bombardmanından sonra alman paraşütçüləri Kritin şimal-qərb hissəsinə desant tökməyə başladılar. Alman desantçıları ingilislərin güclü müqavimətinə rast gəldilər və xeyli itki verdilər.

Britaniya donanması da ağır itki verdi. 9 böyük gəmi batdı, 15-dən yuxarı gəmi ciddi zədə aldı. 1941-ci il iyunun 1-də alman qoşunları Kritin işğalını başa çatdırdılar.[2]

Yuqoslaviya, Yunanıstan və Kritin Almaniya tərəfindən işğalı ilə Avropanın böyük ərazisi, canlı qüvvəsi və xammal ehtiyatları, inkişaf etmiş sənaye və kommunikasiya xətləri Almaniyanın əlinə keçdi. Avropada strateji meydan yaradıldı.

SSRİ-Finlandiya müharibəsi

II Dünya müharibəsi başlayanda Moskva düşünürdü ki, Finlandiyanın ərazisində digər dövlətlərin, o cümlədən Hitler Almaniyasının xüsusi xidmət orqanları fəallaşacaq və müxtəlif qüvvələrdən SSRİ-yə qarşı istifadə edilə bilər. Bu barədə məlumatlar 1935-ci ildə başlayaraq daxil olmaqda idi.[3]

Finlandiya (fin dilində Suomi) 1939-cu ildə 388 min 279 kvadrat kilometrlik əraziyə malik idi. Ölkə ərazisinin 12%-i göllük idi. Ölkədə 3500 göl vardı. Ölkə əhalisinin sayı 3,8 milyon nəfər idi. Əhalinin 98 % lüteran (protestant) məzhəbinə mənsub idi. Finlandiyada kəndlər olmadığından əhali tək-tək dağınıq daxmalarda yaşayırdı. Şəhərlər iri deyildi. Yalnız Helsinkidə 230 min əhali yaşayırdı. Ölkənin ikinci böyük şəhəri 64 min əhalisi olan Abo idi. Finlandiya zəngin ölkə olmadığından Almaniya üçün SSRİ-nin şimaldan təhlükəsizliyini təmin etməsi baxımından əhəmiyyət daşıyırdı. SSRİ-nin Finlandiyadan tələblərinin də özünəməxsus əsasları vardı.

---

[1] Вторая Мировая война: Краткая история. Москва, 1985. – с.78.

[2] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – с.50.

[3] ЦА ФСБ России. Ф.3, оп. 2, д. 500, л. 356-357 https:// www.prlib. ru/item/1296863

Sovet hökuməti 1939-cu il oktyabrın 5-də Finlandiyaya müraciət edərək bir sıra ərazi məsələlərini həll etmək təklifini irəli sürdü. Ancaq Finlandiyanın Xarici İşlər naziri E.Erkko bəyan etdi ki, biz SSRİ-yə heç bir güzəştə getməyəcək. Hətta Finlandiya SSRİ ilə sərhəd rayonlarında hərbi təlimlərə başladı, ehtiyatda olanlar orduya çağırıldı. Helsinki, Vıborq, Varel keçidindəki və Fin körfəzi sahillərindəki əhali təxliyə edilməyə başlandı. Bütün bunlara baxmayaraq, oktyabr ayının 12-də danışıqlar başlandı. Fasilələrlə bir ay davam edən danışıqlarda səlahiyyətli nümayəndə heyətinə SSRİ tərəfindən İ.Stalin, V.Molotov, fin tərəfindən Finlandiyanın İsveçdəki diplomatik nümayəndəsi Y.Pasikivi başçılıq edirdi.

Sovet hökuməti Finlandiyaya Pribaltika hökumətləri ilə bağlanmış müqavilələrə oxşar müqavilə təklif etdi. Fin hökuməti bunu Finlandiyanın bitərəfliyinə zidd olan hal kimi qiymətləndirdi və müqavilə bağlamaqdan imtina etdi. Belə olduqda, Sovet hökuməti Finlandiyaya Varelya keçidində sərhədlərin 10 km. geri çəkilməsini, Fin körfəzindən SSRİ-yə bir neçə ada, o cümlədən Barens dənizindən Balıqçı və Orta adalarının bir hissəsinin, əvəzində isə Kareliyada ondan 2 dəfə böyük ərazilərin Finlandiyaya verilməsini təklif etdi.

SSRİ, həmçinin təklif etdi ki, hərbi-dəniz bazası tikmək üçün Xanko yarımadası SSRİ-yə icarəyə verilsin. Sonuncu təklif Leninqrada (indiki Sankt-Peterburq) olacaq dəniz hücumunda sipər rolunu oynaya bilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı.

Finlandiya tərəfi Xankonun icarəyə verilməsindən başqa, digər güzəştlərə razı idi. Beləliklə, danışıqlarda irəliləyiş əldə etmək imkanı yarandı. Ancaq hər iki tərəf bu məsələdə səbirsizlik göstərdi. 1939-cu il noyabrın 26-da Sovet hökuməti rəsmi olaraq bildirdi ki, fin artilleriyası SSRİ ərazisinə atəş açmış, insan tələfatı olmuşdur. Təklif olundu ki, fin ordusu 25-30 km sərhəddən uzaqlaşdırılsın. Noyabrın 27-də fin tərəfi cavab notasında bildirdi ki,



Finlandiyada almanların fəaliyyətinin aktivləşməsinə dair SSRİ XDİK-nın xüsusi məlumatı

qeyd olunan atəş SSRİ sərhədçiləri tərəfindən törədildiyindən baş vermiş hadisənin birlikdə araşdırılmasına ehtiyac vardır. Finlandiya, həmçinin hər iki tərəfdən qoşunların məlum məsafəyə çəkilməsi haqqında danışıqlara başlamağa hazır olduğunu bildirdi. Danışıqların bərpasına imkan yaranmasına baxmayaraq İ.Stalin dövlət rəhbəri kimi müdriklik göstərmək əvəzinə məsələnin hərbi yolla həllini seçdi.

1940-cı il fevralın 11-də Şimal-Qərb cəbhənin qoşunları güclü artilleriya hazırlığından sonra hücuma keçdilər, üçgünlük ağır döyüşlərdən sonra müdafiənin baş xətti, sonra ikinci və arxa xətt yarıldı. **Martın 12-də Mannerheym xəttinin yarılması ilə demək olar ki, müharibə başa çatdı.**

Karl Qustav Emil Mannerheym 1889-cu ildə İsveç əsilli ailədə anadan olmuşdur. Finlandiya Rusiya İmperiyasının tərkibində olduğu üçün Rusiya ordusunda xidmətə başlamış, Rusiya ordusunun tərkibində Rus-yapon müharibəsi və Birinci Dünya müharibəsindəki fəal iştirakına görə, general-leytenant rütbəsinə qədər yüksəlmişdir. 1917-ci ildə Finlandiya müstəqilliyini elan etdikdən sonra öz ölkəsinə qayıtmış və xidmətini davam etdirmişdir. 1918-ci ilin dekabrında kral naibi vəzifəsinə təyin olunan K.Mannerheym 1919-1931-ci illərdə könüllü olaraq tibbi və sosial yardım təşkilatlarında çalışmış, 1931-ci ildə Milli Müdafiə Şurasının rəhbəri təyin olunmuşdur. Mannerheym bu vəzifədə xidmət etdiyi səkkiz il ərzində Leninqrad şəhərinin qarşısında yerləşən Karel bərzəxini boydan-boya keçən və SSRİ-dən gələ biləcək hücumların qarşısını almaq üçün planlanan **Mannerheym xəttinin** hazırlanmasını tamamlamışdır.[1]

Marşal Mannerheym SSRİ-nin tələblərini qəbul etməyə razı oldu. 1940-cı il martın 12-də Moskvada sülh müqaviləsi imzalandı. Vıborq daxil olmaqla Kareliya bərzəxi SSRİ-yə verildi. SSRİ-Finlandiya sərhədi Leninqradın 70 km-ə çəkildi. Bu sərhəd əvvəl şəhərin 32 km-dən keçirdi.

Leninqradın və Murmansk dəmiryolunun təhlükəsizliyi üçün ilkin zəmin yarandı. Xanko yarımadası SSRİ-yə icarəyə verildi. Leninqradın və Murmansk dəmiryolunun təhlükəsizliyi üçün ilkin zəmin yarandı. Xanko yarımadası SSRİ-yə icarəyə verildi. Sovet-Finlandiya müharibəsində sovet tərəfi 290 min nəfərədək itki verdi, onlardan 126.875 nəfər öldü və itkin düşdü, yaralandı və dondu. 5 mindən çox adam əsir düşdü. Finlərdən 48.243 nəfər öldürüldü, 43 min nəfər yaralandı. Bir sözlə, hər düşmən əsgəri üçün iki sovet əsgəri qurban verildi. Sovet-fin müharibəsində göstərdiyi qəhrəmanlığa görə **412 nəfərə** Sovet İttifaqı Qəhrəmanı adı verildi.

[1] https://az.wikipedia.org/wiki/Karl_Qustav_Emil_Mannerheym

İqtisadiyyatın hərbi qaydada qurulması

Faşist Almaniyası SSRİ ilə bağladığı hücum etməmək haqındakı müqaviləni pozaraq 1941-ci il iyunun 22-də 190 diviziya ilə Barens dənizindən Qara dənizə qədər olan geniş cəbhə boyu qurudan, dəniz və havadan hərbi əməliyyata başladı. Ölkənin başı üstünü almış ölüm təhlükəsi, vətənpərvərliyin nəhəng gücü bütün ölkəni xalq müharibəsinə, müqəddəs müharibəyə qaldırdı. Başlanmış müharibə ölkənin bütün sahələrinin, o cümlədən iqtisadiyyatın müharibə tələblərinə uyğun qurulmasını tələb etdi. Müharibə başlayanda SSRİ-də üçüncü beşilliyin planları icra olunurdu. Bununla belə artıq ikinci beşilliyin sonlarında iqtisadi yüksəliş əldə olunmuş, ümumi sənaye məhsulu istehsalına görə Avropada birinci, dünyada ikinci yerə çıxaraq iqtisadi cəhətdən qüvvətlənmişdi.[1] 1913-cü ilə nisbətən 1940-cı ildə ölkənin məcmu ictimai məhsulu 5,1 dəfə, milli gəliri 5,3 dəfə, sənayenin ümumi məhsulu 7,7 dəfə artmışdı.[2]

Hitler Almaniyasının iqtisadiyyatına gəldikdə isə qeyd etmək lazımdır ki, müharibənin ilk dövründə bu ölkənin özündə və ondan asılı olan ölkələrdə SSRİ-yə nisbətən 100 milyon nəfərdən artıq əhali yaşayır, 1,5 dəfə çox polad, 2,5 dəfə çox daş kömür istehsal olunurdu. Müharibənin ilk dövründə SSRİ-nin sərhəd rayonlarının işğalı, Donbas və Moskvaətrafı daş kömür hövzələrindən, cənub rayonlarının metallurgiya bazasından, Ukrayna və digər rayonların taxılından, nəqliyyat vasitələrindən, əhali və iş qüvvəsinin ehtiyatlarından məhrum olması ölkənin xalq təsərrüfatında ciddi çətinliklər yaratdı. 1941-ci ilin noyabr ayı üçün düşmənin zəbt etdiyi ərazidə ölkə əhalisinin 40 faizi yaşayırdı, ümum sənaye məhsulunun 33 faizi, çuqun istehsalının 71 faizi, polad istehsalı və elektrik enerjisi istehsalının 58 faizi, daş kömür istehsalının 63 faizi, sement istehsalının 52 faizi, şəkər istehsalının 87 faizi, taxıl istehsalının 38 faizi, iribuynuzlu mal-qaranın ümumi sayının 38 faizi toplanmışdı.[3]

Ölkənin iqtisadiyyatının hərbi qaydada qurulması, habelə düşmən üzərində qələbənin təmin edilməsi məqsədilə hərbi və mülki sənayenin, kənd təsərrüfatının əsas fondlarının, xammal və yanacağın, qiymətli metalların, mədəni abidə və yaradıcılıq təşkilatlarının, həmçinin milyonlarla adamın arxaya köçürülməsi, yerləşdirilməsi və fəaliyyətə başlaması üçün kompleks tədbirlər müəyyənləşdirildi və icrasına başlandı. 1941-ci ilin iyul-noyabr aylarında ölkənin Şərq rayonlarına 1.523 müəssisə, o cümlədən 667-si

---

[1] Ədülsəlimzadə, Qüdrət. Azərbaycan iqtisadiyyatı Böyük Vətən müharibəsi illərində / Q.Əbdülsəlimzadə. – Bakı, 1985. – s.4.

[2] Народное хозяйство СССР 1922-1972 гг. Юбилейный статитисческий ежегодник. Москва, 1972. – с. 48, 153.

[3] История Коммунистической Партии Советского Союза. Москва, 1970 – Т.5, кн. – с. 288.

Urala, 244-ü Qərbi Sibirə, 78-i Şərqi Sibirə, 308-i Mərkəzi Asiyaya, 226-sı Volqaboyuna köçürüldü.[1] 10 milyondan çox əhalinin ölkənin Şərq ərazilərinə köçürülməsi təmin edildi. Ölkənin vahid hərbi düşərgəyə çevrilməsinin təmin olunması arxa ilə cəbhənin birliyinin təminində mühüm rol oynadı. Həyata keçirilmiş əsaslı tədbirlərin nəticəsi idi ki, müharibə illərində SSRİ-də Hitler Almaniyasına nisbətən 2 dəfə çox hərbi texnika istehsal olundu. Ölkənin qərb rayonlarında itirilmiş əkin sahələrinin yerinin doldurulması üçün ölkənin şərq hissəsində – Volqaboyu, Ural, Qərbi Sibir, Qazaxıstan, Mərkəzi Asiya və Zaqafqaziyada sürətlə yeni əkin sahələrinin istifadəyə verilməsi prosesi başladı. Heyvandarlığı inkişaf etdirmək üçün kompleks tədbirlər həyata keçirildi.

Müharibə nəqliyyat vasitələrinin bütün növlərinin – dəmiryolu, çay, dəniz, avtomobil, hava və boru kəmərləri qarşısına böyük və ciddi tələblər qoydu. Müharibə dövründə bütün nəqliyyat növləri üzrə yük daşınmasının təqribən 80-85 faizi dəmiryol nəqliyyatının payına düşdü. 1943-cü ildən başlayaraq müharibənin ilk dövrlərində düşmən tərəfindən işğal edilmiş ölkənin dəmiryol şəbəkəsinə malik olan rayonların azad edilməsi ilə dəmiryol nəqliyyatının işində yeni mərhələ başlandı. Azad edilmiş rayonlarda dəmiryolu nəqliyyatının bərpası və genişləndirilməsi ilə yanaşı Şimalda, Volqaboyunda, Uralda, Qərbi Sibirdə, Qazaxıstan və Qafqazda dəmiryolu xətləri çəkilib istifadəyə verildi. 1945-ci ildə ölkədə dəmir yolu xətlərinin ümumi uzunluğu 1940-cı ilə nisbətən 6,8 min km. artaraq 112,9 min km-ə çatdı.[2] 1943-cü ildən başlayaraq çay nəqliyyatı ilə yük daşınması işi yaxşılaşdı. 1945-ci ildə çay nəqliyyatı ilə yük daşınması səviyyəsi 1940-cı ilin 77 fazini təşkil edirdi. Müharibə illərində dəniz nəqliyyatında 1945-ci ildə yük daşınması 1940-cı illə müqayisədə 1,5 dəfə artdı.

Sadalanan rəqəmlərin arxasında maliyyə vəsaitinin dayandığı sirr deyildir. Ümumilikdə müharibə illərində ölkənin iqtisadi səfərbərliyi, maliyyə ehtiyatlarından planlı surətdə hərbi iqtisadiyyatın ehtiyacları üçün istifadə olunması, əhalinin pul vəsaitlərinin könüllü surətdə səfərbər edilməsi, ölkənin milli gəlirinin bölgüsü və yenidən bölgüsü düşmən üzərində qələbənin təmin edilməsində çox mühüm rol oynadı. 1940-cı ildə SSRİ-nin dövlət büdcəsinin ümumi xərclərinin 32,5 faizi hərbi məqsədlərə sərf olunurdusa, 1942-ci ildə bu rəqəm 59,3 faiz, 1943-cü ildə 59 faiz, 1944-cü ildə 52,2 faiz, 1945-ci ildə 42,9 faiz təşkil etmişdi.[3]

---

[1] История Великой Отечественной войны Советского Союза.1941–1945: В 6-ти т. Москва, 1961-1965, т.2. Москва, 1961. – с.148.

[2] Народное хозяйство СССР 1922-1972 гг. Юбилейный статитический ежегодник. Москва, 1972. – s. 296.

[3] Советская экономика в период Великой Отечественной войны 1941-1945 гг. Москва, 1970, с. 423.

Müttəfiqlərin yardımı

Müharibə tarixşünaslığında müttəfiqlərin köməyi problemi müasir mərhələdə də müzakirə mövzusudur. SSRİ-yə silah, hərbi texnika, ərzaq və geyim ləvazimatlarının göndərilməsi haqqında qərar antifaşist koalisiyası ölkələrinin nümayəndələrinin Moskva müşavirəsində (29 sentyabr - 1 oktyabr 1941) qəbul edildi və qarşılıqlı yardım haqqında Razılaşma protokolu ilə təsdiqləndi. Amerikanın müharibənin erkən dövründə töhfəsi "Lend-liz" adlandırılan bütün müttəfiqlərin silahlı qüvvələrini silah-sursatla təmin etmək oldu.

SSRİ, Böyük Britaniya və ABŞ nümayəndələrinin qarşılıqlı hərbi yardım haqqında müqaviləni imzalaması

ABŞ və Böyük Britaniya 1 oktyabr 1941-ci ildən – 30 iyun 1942-ci ilə kimi olan dövrdə SSRİ-yə 400 təyyarə, 500 tank, zenit və tank əleyhinə top və başqa növ silahlar göndərilməsini öhdəyə götürdülər. SSRİ bu məhsulların əvəzini ölkənin qızıl ehtiyatlarından və qarşılıqlı xammallarla (xrom, marqanes, platin, qızıl) ödəməliydi. Razılaşdırılmış sxemə görə SSRİ 1941-ci ildə ABŞ-dan nağd pula 41 milyon dollardan çox mal aldı.[1] 1941-ci il noyabrın 7-də ABŞ prezidenti F.Ruzveltin qərarı ilə "Lend-liz" haqqında qanun SSRİ-yə şamil edildi.

[1] Орлов, А.С, Кожанов В.П. Ленд-лиз: взгляд через полвека: (о поставах союзников в СССР в годы Второй Мировой войны // Новая и новейшая история. Москва, 1994, №3, с.178.

Hərbi yüklər SSRİ-yə 4 əsas marşrutla göndərilirdi:

1. Şimal marşrutu – dəniz hərbi gəmi dəstəsinin müşayiəti ilə Şimali Atlantika, Arktika dənizindən Murmanska, Arxangelsk və Molotovskaya (Severodvinsk);

2. Cənub marşrutu – hava, dəmiryolu və avtomobil nəqliyyatı ilə İran ərazisindən Cənubi Qafqaza ;

3. Sibir marşrutu – hava nəqliyyatı ilə Alaskaya, Şərqi Sibirdən keçməklə Krasnoyarska;

4. Uzaq Şərq marşrutu – dəniz nəqliyyatı ilə Kaliforniyadan (Sakit okeandan keçməklə) Sovet Uzaq Şərq limanına.[1]

Bu marşrutların içərisində ən əlverişlisi və qısası Şimal marşrutu idi ki, dəniz gəmi karvanları 10-12 günə SSRİ ərazisinə çatırdı. Müharibə illərində şimal marşrutu ilə tərkibində 78 hərbi gəmi dəstəsinin müşayiəti ilə 1.530 nəqliyyat gəmisi keçmişdi. Onlardan 42-si SSRİ-yə gəlmiş, 36-sı isə SSRİ-dən getmişdi. Sovet limanına 4 milyon ton yük gətirilmişdi ki, bu müttəfiqlərin ümumi göndərdikləri məhsulların 27%-ni təşkil edirdi.

Şimal marşrutu çox riskli marşrut idi. 1941-1945-ci illərdə bu marşrutda 85 nəqliyyat gəmisi məhv olmuş, 41 gəmi müxtəlif səbəblərdən bazaya qayıtmışdı.[2] Marşrutun mühafizəsini həyata keçirən sovetlərin və müttəfiqlərin Hərbi Dəniz Donanması düşmənin 27 sualtı qayığını, 2 linkorunu və 3 esminesini batırmışdı.[3]

Cənub marşrutu vasitəsi ilə Cənubi Atlantika, İran körfəzi –İrandan SSRİ-yə döyüş təyyarələri, tanklar, avtomobillər, partlayıcı vasitələr, təyyarə benzini və başqa hərbi yüklər gətirilirdi. Müharibə illərində bu marşrutlarla 4,2 milyon ton yük və ya "Lend-liz" üzrə SSRİ-yə göndərilən malların 23,8%-i gətirilmişdi.[4]

Moskva razılaşmasına görə 1941-ci il oktyabrın 1-dən ABŞ və Böyük Britaniya SSRİ-yə hər ay 400 təyyarə (onların 100 ədədi bombardmançı və 300 ədədi qırıcı) göndərməyi öhdəyə almışdı. Təyyarələrin bir hissəsi gəmilərlə gətirilirdi. İrandan keçərək SSRİ-yə gətirilən yüklərə general L.İ.Zorin rəhbərlik etmişdi.

Sibir marşrutu Sakit Okeandan keçirdi. Sakit okean və ya Uzaq Şərq yolu qismən stabil yol olub yük gətirilməsi üçün əlverişli idi. 1941-1945-ci

---

[1] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П. Рудаков. – СПб., 2005. – с.302.

[2] Орлов, А.С, Кожанов В.П. Ленд-лиз: взгляд через полвека: (о поставах союзников в СССР в годы Второй Мировой войны // Новая и новейшая история. Москва,1994, №3, с.180.

[3] Великая Отечественная война 1941-1945 гг. Воен.ист. очерки В 4 кн. Москва, 1998-1999, кн.4, с.208.

[4] Орлов, А.С, Кожанов В.П. Ленд-лиз: взгляд через полвека: (о поставах союзников в СССР в годы Второй Мировой войны // Новая и новейшая история. Москва, 1994, №3, с.186.

illərdə sovet Uzaq Şərq limanları vasitəsilə (Vladivostok, Petropavlovsk-Kamçatka, Komsomolsk – Amur, Maxovka, Xabarovsk və b) 2.000 gəmiyə qədər yük gətirilmişdi[1] ki, bu ümumi yüklərin 47%-ni təşkil edirdi. Müharibə illərində Ferbenks-Krasnoyarsk marşrutu ilə Sovet İttifaqına 7.925 təyyarə daxil olmuşdu.[2]

Uzaq Şərq marşrutu ilə 1941-1945-ci illər müharibəsi dövründə 8,3 milyon ton yük, yaxud ümumi göndərilənlərin 47,1%-i gətirildi. Bilavasitə "Lend-liz" proqramı ilə 32 ovçu sualtı qayıqlı gəmi, 20 gözətçi kater, 55 tral gəmisi, 31 desant gəmisi daxil oldu.

Ordu üçün zəruri olan hərbi təyinatlı məhsul istehsalı ilə yanaşı, ruslar qərb texnologiyasını və istehsal güclərini həm rus ticarət donanması-uzaq təyinatlı rus ticarət donanmasının, həm də Hərbi Dəniz Donanmasının böyük hissəsinin tikintisi üçün istifadə etdilər.

SSRİ "Lend-liz" üzrə ABŞ-dan 29 milyon dollar qiymətində neft emalı zavodu, bombardmançı təyyarələr üçün nişangah, zirehli texnika, təyyarə və helikopterlər, güllədən qoruyan zireh istehsalı üçün patent, sintetik kauçuk istehsal etmək üçün 5 zavod, lokomotivlər, tol, dinamit və tüstüsüz barıt, bombardmançı və qırıcı təyyarələr, tank, yük maşınları və yük qoşquları aldı.[3]

Ümumiyyətlə, 4 marşrut üzrə SSRİ-yə 12.195 müxtəlif tipli təyyarə, 12.980 tank, 13 min zenit qurğusu və tank əleyhinə top, 427 min avtomaşın, 560 gəmi və s. gətirildi. Bundan başqa SSRİ külli miqdarda – 9.345 min ton sənaye avadanlıqları (yanacaq – sürtgü materialları, partlayıcı maddələr), 11 mindən çox dəmiryolu Vaqonu, 2 mindən çox parovoz, 842 min ton kimyəvi xammal və müharibənin aparılması üçün vacib olan digər materiallar aldı. Alınan malların içərisində 4,9 min ton ərzaq məhsulları da vardı. Mütəxəssislərin hesablamalarına görə SSRİ-yə daxil olan ərzaq məhsulları ilə 10 milyonluq ordunu 1.688 sutka ərzində yedizdirmək olardı.[4]

Tarixi ədəbiyyatda "Lend-liz" üzrə SSRİ-yə göndərilən silah, sursat, ərzaq və digər malların Sovet İttifaqının iqtisadiyyatında, həmçinin qələbədəki rolu, müttəfiqlərin qələbəyə töhfəsinə dair fikirlər birmənalı deyildir. II Dünya müharibəsinin başa çatmasından ötən 75 ildən artıq dövrdə bu məsələyə münasibət dəyişib. Tarixçilər "Lend-liz"in rolunu təkcə say göstəriciləri ilə məhdudlaşdırmırlar. Əsas diqqət materialların keyfiyyətinə,

---

[1] Война и обшество. 1941-1945 в двух книгах. (Отв. ред. Г.Н.Севостьянов. Инс–т российской истории. Москва, кн.1, 2004, с.378

[2] Орлов, А.С, Кожанов В.П. Ленд-лиз: взгляд через полвека: (о поставах союзников в СССР в годы Второй Мировой войны. // Новая и новейшая история. Москва, 1994, № 3, с.186.

[3] Ralf Epperson. Gözəgörünməz əl / R.Epperson. – Bakı, 2014. – s.322.

[4] Суприн, М.Н. Продоволственные поставки в СССР по ленд-лизу в годы Второй Мировой войны // Отечественная история. 1996, №3, с.46-54.

silahların müəyyənləşdirilmiş müddətdə SSRİ-yə çatdırılmasına, mülki və hərbi sənayenin tələbatının necə ödənilməsi məsələlərinə yönəldilmişdi.

Amerika Birləşmiş Ştatlarından SSR-yə 427.284 hərbi yük maşını göndərilmişdi. Bunlar bütün dünyada qoşunların ən çox xoşladığı "Studebekker"lər və "Doci"lər idi. Bundan əlavə, Sovet İttifaqı Amerikadan 50501 ədəd "Villis" cipləri almışdı. Stalin ABŞ-dan tərkibində 595 gəmi və freqatlar, 105 sualtı qayıq, 77 minatutan gəmi, 3 buzqıran, sualtı qayıqları ovlayan 140 ədəd gəmi, 202 ədəd torpeda kateri və s. olan bütöv bir donanma aldı. Yalnız Amerika Sovet İttifaqına 13.303 ədəd yedəkçi və zirehli avtomobil, 35.041 döyüş motosikleti, 8.089 ədəd yolçəkən maşın, 1.981 lokomotiv, 11.155 dəmiryol vaqonları, 136.000 ton partlayıcı maddələr, 3.820.906 ton ərzaq məhsulları, 2.541.008 ton neft və neft məhsulları, 317.694 ton metal (o cümlədən zirehli), 50.413 ton dəri, 15.010.900 cüt dəri əsgər çəkməsi və s. verdi. Siyahını xeyli uzatmaq olar. Bu siyahıda həmçinin 4.952 "Aerokobra" qırıcısı və 2.410 "Kinqkobra", qırıcıların hər beş tipindən cəmi 9.681 ədəd, 2.771 ədəd "A-20" bombardmançısı və 861 ədəd "B-25" bombardmançısı, 423.017 ədəd səhra telefon aparatı, qalay, kobalt, berillium, kalium, kobalt filizi, 5.807 ton alüminium boru, 166.699 ton alüminium xəlitəsi, 624 ton külçə halında olan alüminium, 56.387 ton alüminium təbəqələri, 34.793 ton külçə halında olan tunc və latun, 7.335 ton tunc və latun məftillər, 24.513 ton latun və tunc təbəqələri, 181.616 ton izolə edilmiş mis məftillər, molibden konsentratı, maqnezium ərintiləri, mis, sink, qurğuşun, nikel, 350.000 ton manqan filizi, 69.000.000 kvadratmetr yun parça və 3.700.000 avtomobil təkəri var. Bundan əlavə, okeanın o tayından SSRİ-yə 81.000 ton rezin, yüz minlərlə radiostansiya, komplekt halında neftayıran zavodlar, radiolokatorlar, torpedolar, dəniz minaları, qoşun, qərargah və hospitallar üçün çadırlar, maşınqayırma müəssisələri üçün körpü-kranlar, səhra çörək zavodları, snayper nişangahından tutmuş atəşin idarə edilməsi üçün ən mürəkkəb cihazların optikası, səhra mətbəxləri, sement, yüz min tonlarla rels, cərrahiyyə alətləri, on min tonlarla tikanlı məftil, on milyonlarla elektrik lampası, hospitallar üçün avadanlıqlar, desant-daşıyıcı vasitələr, min tonlarla pərdələyici torlar, paraşütlər, dəmirçipress avadanlıqları, xüsusi dəqiq cilalanma dəzgahları, metal borular, buldozerlər, 8.218 zenit və 5.815 tank əleyhinə top, 8.701 artilleriya traktoru, 473.000.000 top mərmisi, avtomat tüfənglər, avtomatlar, pulemyotlar, gəmilər və təyyarələr üçün naviqasiya avadanlıqları və daha başqa şeylər göndərilmişdi.[1] Ümumilikdə, "Lend-liz" üzrə SSRİ-nin sifarişi və alınan

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016. – s.273.

malların ümumi həcmi (1941-ci il iyun – 1945-ci il sentyabr) aşağıdakı cədvəldəki kimi olmuşdur.[1]

Cədvəl 4.2.

Göndərilən məhsulların adı	Ölçü vahidi	SSRİ sorğulamışdı	ABŞ göndərmişdir	Sovet sifarişinə görə %
Təyyarələr	ədədlə	8.160	3.452	42, 3 %
Radioaparatları	.____.	26.880	26.880	100 %
Lokomativ	.____.	3.000	500	16, 6 %
Platforma (alüminium)	.____.	80.640	35.700	44, 2 %
Taxıl	tonla	1.680.730	1.180.000	70, 2 %

Cədvəldən göründüyü kimi "Lend-liz" üzrə SSRİ-yə kömək əhəmiyyətli olmuşdur. Bununla belə müttəfiqlər özləri etiraf etmişlər ki, onlar öz öhdəliklərinə tam əməl etməmişlər. U.Çörçill yazırdı ki, "… əgər biz razılaşmalara möhkəm əməl etsəydik, onda katastrof olardı". "Lend-liz" üzrə göndərilən malların keyfiyyətinə də münasibət birmənalı deyildir. 1942-ci ilin yayında İ.Stalin F.Ruzveltə xəbərdarlıq edirdi ki, ABŞ tankları tank əleyhinə vasitələrdən tez alışırlar.[2]

ABŞ-İngiltərə aviasiya texnikası Sovet təyyarəçilərinin rəğbətini qazanmadı. İ.Stalin F.Ruzveltə məktubunda "Kitixank" qırıcılarından bəhs edərək bildirirdi ki, onlar indiki alman qırıcıları ilə döyüşə davam gətirmirlər".[3]

Hərbi yüklərin qiymətini düşmənlə mübarizəyə canını vermiş əsgərlə müqayisə etmək sadəlövhlükdür. Hələ müharibə illərində ABŞ-ın görkəmli dövlət rəhbərləri bunu dəfələrlə qeyd etmişlər. ABŞ prezidenti F.Ruzveltin xüsusi nümayəndəsi Q.Qopkins qeyd etmişdi: "…Biz heç vaxt belə hesab etməmişik ki, "Lend-liz" üzrə bizim yardımımız Şərq cəbhəsində Hitler üzərində sovetlərin qələbəsində əsas amil olmuşdur. Bu rus ordusunun qanı və qəhrəmanlığı ilə qazanılmışdı". ABŞ Dövlət katibi E.Stettinius bildirmişdi ki, "… bu yardımı rusların ödədiyi dollarla və tonlarla ölçmək olmaz. Bu öldürülmüş və əsir alınmış milyonlarla nasist əsgəri, döyüş meydanlarından geri çəkilərkən alman ordusunun atıb getdiyi atılmış nasist tankları, dəmir əsirə çevrilmiş toplar və yük maşınlarıdır".

---

[1] Война и общество 1941-1945: [в 2–х книгах] / Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, – кн.1. – 2004. – с.367.

[2] Переписка Председателя Совета Министров СССР с президентами США и Великобритании во время Великой Отечественной войны. Т.1. Москва, 1989, кн.2, с.31.

[3] Yenə orada.

SSRİ-nin aviasiya sənayesi müharibə illərində 122 min müxtəlif tipli təyyarə istehsal etdi. "Lend-liz" üzrə SSRİ-yə 22.195 təyyarə daxil oldu. Bu da sovet ordusunun təyyarə parkında 18%, cəbhə bombardmançı təyyarələrində 20%, cəbhə qırıcılarında 16-23%, dəniz aviasiyasında 29% təşkil edirdi.

Müharibə illərində SSRİ-də 219 min avtomaşın istehsal olundu. Müttəfiqlər isə SSRİ-yə 427 min avtomaşın göndərmişdi. Bu avtomaşınlar 1943-1945-ci illərin əməliyyatlarında Qırmızı Ordunun hərəkətini xeyli yüngülləşdirmişdi. Müharibənin sonuna "Lend-liz" üzrə göndərilən avtonəqliyyat ordu parkının 70%-ni təşkil edirdi. Lakin müttəfiqlərin köməyinin qələbədə həlledici faktor olmasını iddia edən qərb alimlərinin fikirləri ilə də razılaşmaq ədalətsizlik olardı. "Lend-liz" haqqında tarixi ədəbiyyatda müttəfiqlərin SSRİ-yə köməyi rəqəmlərin dili ilə ölçülür, göndərilmiş silah-sursat, hərbi texnikanın sayı müqayisə olunur. Belə bir yanaşma fikrimizcə doğru deyildir. Statistik rəqəmlərə əsasən deyə bilərik ki, müttəfiqlər kömək etmişlər. Ən vacibi isə göndərilən hərbi texnika, silah və sursat vaxtında Qırmızı Ordunun köməyinə çatmışdır.

"Lend-liz" təkcə SSRİ üçün deyil, ABŞ üçün də səmərəli olmuşdu. 1940-cı ildə ABŞ-ın ümumi daxili məhsulu 90 milyard dollar məbləğində hesablanırdısa, 1944-cü ildə bu rəqəm 200 milyarda çatdı, işsizlik faktiki olaraq aradan qaldırıldı. 1940-cı ildə işsizlərin sayı 12 min nəfər idi. ABŞ 1945-1946-cı illərdə dünyanın ümumi daxili məhsulunun demək olar ki, 50 %-ni istehsal edirdi.[1] ABŞ nəhəng satış bazarları əldə etmişdi.

Sovet İttifaqı öz növbəsində ABŞ-a 300 min ton xrom, 32 min ton marqans filizi, xeyli platin, qızıl, ümumi dəyəri 2,2 milyard dollar olan mal-material verdi. ABŞ prezidenti H.Trümen yazırdı ki: "Lend-liz" üzrə xərclənən pullar çox sayda amerikalıların həyatını xilas etdi, "Lend-liz" üzrə sursat alan hər bir rus, ingilis, yaxud avstriyalı əsgər döyüşə gedərək bizim gənclərimiz üçün olan təhlükəni azaltdı".

Qələbənin başlıca sahibi arxa və ön cəbhədə vuruşan SSRİ-də yaşayan xalqlar oldu. Bu qələbədə tarlada çalışan kəndlinin, gecə-gündüz dəzgah arxasından çəkilməyən fəhlənin, hər qarış torpaq uğrunda canından keçən əsgərin, qələbənin təşkilatçısı olan dövlətin, onun xadimlərinin əməyi yüksək qiymətə layiqdir.

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016. – s.23.

V FƏSİL

AZƏRBAYCAN SSR 1939-1945-Cİ İLLƏRDƏ

Müharibə ərəfəsində Azərbaycan SSR-də ictimai-siyasi və sosial-iqtisadi həyat

Müharibə ərəfəsinə aparan yol Azərbaycan SSR üçün ağır və məşəqqətli olmuşdur. Respublikanın həyatında baş verən siyasi və iqtisadi yeniliklər bir tərəfdən müsbət irəliləyişlərə təkan versə də, sosial strukturda ciddi dəyişikliklərə səbəb olurdu. 1926-1939-cu illər arasında əhalinin sayı təxminən 900 min nəfərədək artmışdı.[1] Təhlillər göstərir ki, artımın başlıca mənbəyini kənardan gələnlər təşkil edirdi. Respublikada rusların və qeyri-azərbaycanlıların məskunlaşdırılması sürətlə davam etdirilmiş, onların sayı 2 dəfədən çox artaraq 220,6 min nəfərdən 528,3 min nəfərə, ermənilərin sayı 284,4 min nəfərdən 388,0 min nəfərə çatmışdı.[2] Bütün bunlara baxmayaraq respublika əhalisinin çəkisində azərbaycanlılar 58,4 faiz təşkil edirdi.

Azərbaycan SSR-də siyasi, iqtisadi və mədəni mərkəzi kimi Bakının əhalisi sürətlə artırdı. 1926-1939-cu illərdə Bakı şəhərinin əhalisi tərkibində azərbaycanlıların faizi aşağı düşdüyü halda, rusların faizi 35,2 faizdən 44,4 faizə çatmışdı.[3] Beləliklə, Azərbaycan SSR-in, o cümlədən Bakı şəhərinin əhalisinin milli tərkibində baş verən dəyişikliklər, xüsusilə rusların məskunlaşdırılması nəticəsində yerli əhalinin ictimai-siyasi fəaliyyət sahələrindən sıxışdırılması, Moskvanın müttəfiq respublikalara, xüsusilə türk-müsəlman respublikalarına münasibətdə aparılan milli siyasətlə bağlı idi.

Mərkəzi hakimiyyətin apardığı milli siyasət nəticəsində Azərbaycan SSR-də əhalinin sosial strukturunda ciddi dəyişikliklər baş verdi. 1939-cu ildə fəhlə və qulluqçuların sayı 41,7 faiz, fəhlələrin xüsusi çəkisi 25,1 faiz təşkil edirdi.[4] Fəhlə təbəqəsinin tərkibi yekcins deyildi. Fəhlə və qulluqçuların tərkibində azərbaycanlılar azlıq təşkil edirdi. Bu hal respublikada fəhlə təbəqəsinin mənbəyinin kənardan gələnlərin üstünlük təşkil etməsi ilə əlaqədar idi. Respublika iqtisadiyyatının müxtəlif sahələrində çalışan azərbaycanlıların xüsusi çəkisi 1933-cü ildəki 34,8 faizdən 1939-cu ildə 27,9 faizə düşmüşdü. Respublikada kəndlərdən işçi qüvvəsi cəlb olunması qənaətbəxş deyildi. Neft və digər sənaye sahələrində mühüm postları ələ almış şovinist əhval-ruhiyyəli məmurların yeritdiyi siyasət, kənd əhalisinin

---

[1] Азербайджан в цифрах. Краткий стат. сб. Баку,1964. – с.20.

[2] Azərbaycan tarixi: [7 cilddə]. c.6 (aprel 1920 – iyun 1941). Bakı, 2000. – s.368.

[3] Yenə orada, s.369.

[4] Очерки истории рабочего класса Азербайджанской ССР. Т.1. (1917-1940 гг.). Баку, 1974. – с.230.

əsasən pambıq becərilməsinə cəlbi, kənd əhalisində miqrasiya fəallığının az olması, məişət xüsusiyyətləri, çoxuşaqlılıq və s. öz rolunu oynayırdı.

Qadınların istehsalata cəlbi aşağı səviyyədə idi. 1939-cu ildə qadın fəhlə və qulluqçuların xüsusi çəkisi beş faiz təşkil edirdi.[1]

1941-ci ildə respublika iqtisadiyyatının müxtəlif sahələrində çalışan 47,8 min mütəxəssisin 8 min nəfəri ali təhsilli azərbaycanlı idi.[2]

II Dünya müharibəsi ərəfəsində respublikada ictimai-siyasi vəziyyət mürəkkəb idi. "Sosializm cəmiyyəti" quruculuğu prosesinin gedişində inzibati-amirlik idarəetmə sisteminin möhkəmlənməsi, partiyanın rəhbər rolunun artması, partiya sıralarının təmizlənmə prosesində əyintilərə yol verilməsi, əsaslı yoxlanılmadan kommunistlərin partiya sıralarından çıxarılması və heç bir əsas olmadan xalq düşməni elan olunmaları ölkədə narazılıqları artırırdı. Partiyadan çıxarılanların 48,5 faizinin azərbaycanlılar təşkil etməsi, 1938-ci ilin yanvar ayının 1-dək Azərbaycan SSR kommunistlərinin sayının 28.349 nəfər və ya 38,5 faiz azalması Azərbaycan K(b)P-nin "səmərəli fəaliyyəti" hesab olunmalıdır.

Bütün ölkədə olduğu kimi, Azərbaycan SSR-də də totalitar rejimin tətbiq edilməsi, inzibati-amirlik sisteminin bütün sahələri çulğaması respublikanın iqtisadi, siyasi və mədəni həyatındakı çoxsaylı təşkilatların fəaliyyətini kəskin şəkildə məhdudlaşdırdı. Həmkarlar təşkilatları partiyadan asılı vəziyyətə düşdülər.[3]

Komsomol təşkilatları gənclərin yaradıcılıq fəallığını artırmaq əvəzinə partiya qərarlarının icraçısına çevrildi.

1935-ci ilin yanvarında çağırılan Ümumazərbaycan VIII Sovetlər qurultayı sovetlərin işinin təkmilləşdirilməsini, deputat qruplarının rolunun yüksəldilməsinin zəruriliyini göstərsə də, sovetlər tədricən oz hüquqlarını itirdi. Tənqid və özünütənqid şüarları altında keçirilən hesabat yığıncaqları 16 faiz deputatın geri çağırılması ilə nəticələndi.

1936-cı ilin noyabrında Moskvada Fövqəladə VIII Sovetlər qurultayı SSRİ-nin yeni Konstitusiyasının layihəsini müzakirə edərək qəbul etdi. Dekabrın 5-də qəbul edilən SSRİ Konstitusiyası Sovet İttifaqında sosializmin qələbəsini qanunvericilik yolu ilə təsbit etdi.

Müharibəyə qədər ki, dövr milli siyasətdə cinayət tərkibli hadisələrlə müşayiət olundu. Hakimiyyət Mərkəzin əlində cəmləşməyə başladı, rus xalqının SSRİ xalqlarının taleyində "roluna" üstünlük verildi, ölkənin digər millət və xalqları partiya vasitəsilə ona tabe edildi. Mərkəzin şovinist siyasəti Azərbaycanda "müvəffəqiyyətlə həyata keçirilməyə başlandı". Respublikada burjua millətçiləri, pantürkçülər, "terror akt"ları hazırlayan təşki-

---

[1] ARDA, Fond №2511, siyahı №3, iş № 385, vərəq – 1-6.
[2] Yenə orada, vərəq – 25.
[3] Azərbaycan tarixi: [7 cilddə]. c.6 (aprel 1920 – iyun 1941). Bakı, 2000. – s.376.

latlar, ziyankarlar, təmayülçülər, o cümlədən Xəzər gəmiçiliyində, "Azneft-kombinat"da, Bakı şəhər komsomol təşkilatında əksinqilabçı və təxribatçı-casus özəkləri, Şamaxı, İsmayıllı, Əli Bayramlı (indiki Şirvan şəhəri), Cəbrayıl, Astraxanbazar (indiki Cəlilabad rayonu) və başqa rayonlarda "üsyançı dəstələr" "aşkar edildi".

1937-ci ilin iyununda çağırılmış XIII qurultaydan sonra Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının adı dəyişdirilərək Azərbaycanın Kommunist (bolşeviklər) Partiyası adlandırıldı. MK Rəyasət Heyəti MK Bürosu ilə əvəz olundu.

1939-cu ilin martında çağırılan ÜİK(b)P XVIII qurultayının qəbul etdiyi SSRİ xalq təsərrüfatının inkişafına dair üçüncü beşillik plan II Dünya müharibəsi ərəfəsində iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına dair göstəriciləri müəyyənləşdirdi.

SSRİ-də və Azərbaycan SSR-də neft və qaz çıxarılmasına dair cədvəl[1]

Cədvəl 5.1.

İ l l ə r	**SSRİ**	**Azərbaycan SSR**	**Azərbaycan SSR-n payı (faizlə)**
1913	9234,1	7669,1	83
1927/28-ci təsərrüfat ili	11472,2	7504,2	65
1932	21367,2	12182,3	57
1937	28901,1	21413,7	74
1938	30082,4	22144,9	74
1939	30200,0	21586,0	71
1940	30858,6	22267,3	72

Beşillik planda Azərbaycan SSR iqtisadiyyatının qarşısında duran vəzifələr sırasında neft və qaz istehsalını artırmaq ilk yeri tuturdu. Azərbaycanda neft hasilatını 28,2 faiz artırmaq, 27,4 milyon ton neft, yaxud ölkədə çıxarılacaq neftin 50 faizindən artıq neft istehsal etmək planlaşdırıldı. Bu 1938-ci ildəkindən 6 milyon ton artıq neft demək idi.[2] Burada SSRİ-nin neft ehtiyatının 28 faizinə Azərbaycanın maddi ehtiyatlarından israfçılıqla istifadəyə yol açılması daha aydın görünür. Digər tərəfdən, "İkinci Bakı"nın yaradılması barədə qurultayın qətnaməsindəki qeydlər qarşıdakı beşillikdə Azərbaycan SSR Neft Sənayesinə Mərkəzin diqqətinin azalacağından xəbər verirdi.

[1] РГАЭ, Фонд № 4372, опис №42, дело № 415, лист – 23 (cədvəl əl yazmasındadır)
[2] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. – Bakı, 1964. – s. 584.

Respublikanın neft sənayesinin ixtisaslı kadrlarla təminatı, texniki təchizatda, əmək intizamı və təsərrüfat-texniki rəhbərlikdə problemlər qalırdı. 1937-1938-ci illərdə neft sənayesi işçilərinin əsassız repressiyası iqtisadiyyatın bu sahəsinə xeyli ziyan vurdu. SSRİ XKŞ və ÜİK(b)P MK-nın 1938-ci il yanvarın 28-də "Azərbaycan SSR-də neft çıxarılması və neft emalını artırmaq üçün əsaslı tədbirlər haqqında" xüsusi qərarı da əhəmiyyətli dəyişikliklər yaratmadı. 1940-cı ilin ilk beş ayında neft quyularının istismara verilməsi planı 70,6 faiz yerinə yetirildi.[1]

"Azneftkombinat" üzrə neft çıxarılması və qazma işləri cədvəldəki kimi olmuşdur.[2]

Cədvəl 5.2.

	Ölçü vahidi	**1939**	**1940**
Neft çıxarılması	min ton.	21547,5	22175,5
Orta sutkalıq neft çıxarılması	tonla	59034	60589
Neft çıxarılmasının illik artımı	min ton	-557,6	628,1
Qazılmış quyulardan istifadəyə verilmişdir	ədəd	496	538
Dayanmış quyulardan istifadəyə verilmişdir	ədəd	694	624
Qazma: cəmi	min ton	887,6	943,2

1940-cı ilin 10 ayında "Azneftkombinat" üzrə neft çıxarılması planının yerinə yetirilməsinə dair cədvəl (tonla)[3]

Cədvəl 5.3.

Trestlər	**Plan**	**10 ayda faktiki yerinə yetirilmişdir**	**Planın yerinə yetirilməsi (faizlə)**
Leninneft	4135,7	3298,6	**79,8**
Kirovneft	1972,7	1423,9	**72,2**
Orconikidzeneft	3550,2	3125,4	**88,0**
Kaqanoviçneft	2976,2	2128,8	**71,5**
Əzizbəyovneft	3632,4	2577,6	**71,0**
Artyomneft	951,6	708,5	**74,6**
Stalinneft	3707,4	3284,4	**88,6**
Molotovneft	1894,8	1445,6	**76,3**
Körgözneft	14,6	126,2	**56.5**
Nefçala	224,6	114,0	**52,9**

[1] Нефтяная промышленнность СССР. – Москва, 1940, № 2. – с.25.
[2] РГАЭ, Фонд № 4372, опис №45, дело №472, лист – 169.
[3] РГАЭ, фонд № 4372, опис №41, дело №844, лист – 5.

Siyəzənneft	140,0	8,2	**5,9**
Türkmənneft	630,0	488,3	**77,5**
Gürcüneft	50.0	33,3	**66,6**
Azneftkombinat-cəmi	**23400**	**18241,7**	**78,0**

1940-cı il iyunun 26-da SSRİ Ali Soveti Rəyasət Heyəti "Səkkiz saatlıq iş gününə, yeddi günlük iş həftəsinə keçilməsi və idarə və müəssisələrdən özbaşına getmələrinin qadağan olunması barədə" fərman verdi. Fərmanın həyata keçirilməsi müəyyən irəliləyişlərə səbəb olsa da, işə çıxmayanların sayı yenə də çoxluq təşkil edirdi. 1940-cı ilin birinci rübündə Azərbaycan neft kombinatında 8.530 nəfər işdən azad edilmişdi ki, onların 7.000 nəfəri işə çıxmayanlar idi.[1] Əslində 1938-1940-cı illərdə həyata keçirilən tədbirlər neft çıxarılması sahəsində müəyyənləşdirilmiş planların yerinə yetirilməsinə imkan vermirdi. Azərbaycan SSR Neft Sənayesi 1940-cı ildə 22.231 min ton neft istehsal etdi ki, bu Sovet İttifaqında çıxarılan neftin 71,4 faizini təşkil edirdi. 1940-cı il üzrə Xalq Neft Komissarlığı üzrə ümumu daxili məhsul buraxılışı planının yerinə yetirilməsi (1926/27-ci ilin qiymətləri ilə. min manatla) aşağıdakı kimi olmuşdur.[2]

Cədvəl 5.4.

	1940-cı il planı	**1940-cı ildə faktiki yerinə yetirilmişdir**				**İllik**
		I rüb	II rüb	III rüb	IV rüb	
Xalq Neft Komissarlığı	3986780	687922	756893	800583	828468	3073866
Azneftkom binat	1686030	377845	413706	421268	446071	1658889

"Bakı neft rayonunun maddi-texniki bazasının möhkəmləndirilməsi və neft çıxarılması inkişafının təmin edilməsi haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın 1940-cı il 14 noyabr qərarına əsasən neft çıxarılmasının perspektiv planı (min tonla) aşağıdakı kimi müəyyənləşdirilmişdir.[3]

Cədvəl 5.5.

	1941	**1942**	**1943**
Neft emalı	19485	19900	20950
Benzin istehsalı	1562	1810	1900
O cümlədən qazlı benzin	60	116	150
Kerosin	4400	4580	4790
Liqroin	850	975	920
Dizel yanacağı	900	920	1100
Yağ	1555	1636	1736

[1] Нефтяная промышленнность СССР. Москва. – 1940, № 2, с.25.
[2] РГАЭ, фонд № 4372, опис № 38, дело № 997, лист – 25 .
[3] РГАЭ, Фонд № 4372, опис № 41, дело № 844, лист – 99.

Müharibə ərəfəsində **dəmiryol nəqliyyatının** inkişafı sahəsində cidd işlər aparılırdı. 1926-cı ildə Azərbaycanda keçmiş ittifaqda ilk elektrikləşdirilmiş dəmiryolu sayılan Bakı-Sabunçu-Suraxanı dəmiryolu açılmışdı.[1] 33 km. uzunluğunda olan bu dəmir yolu xətti istifadəyə verildiyi birinci ildə gündə 51 cüt qatar hərəkət edirdi ki, həmin qatar da ildə 9 milyon nəfərə yaxın sərnişin daşıyırdı.[2]

Azərbaycan SSR Ali İqtisadi Şurası 1928-ci ilin iyun ayında Bakı-Culfa dəmiryolu çəkilişini başa çatdırmaq haqqında qərar qəbul etdi. 1928-1929-cu təsərrüfat ilində bu yolu Mincivan stansiyasına çatdırmaq nəzərdə tutuldu. Yolun inşası üçün 3 mln. manat ayrıldı.[3]

1928-1929-cu təsərrüfat ilinin əvvəlində Bakı-Culfa dəmiryolunda qatarların hərəkəti 259 km. uzunluğunda olan Qumlaq stansiyasınadək idi.[4] 1930-cu ilin may ayından etibarən bu yolun uzunluğu 283 km-ə çatdırılaraq Mincivan stansiyasına kimi qatarların hərəkətinə açılmışdı.[5]

1933-1937-ci illərdə respublika dəmiryolunun ümumi yük dövriyyəsi 6.227 min tondan 10.908 min tona çatmış, yaxud 4.681 min ton (175,1%) artmışdı.[6] Bu müddətdə Azərbaycan dəmiryolu ilə sərnişin daşınması 4.968 min nəfərdən 5.749 min nəfərə çatmış, yaxud 781 min nəfər (115,7 %) artmışdı.[7] 1940-cı ildə Azərbaycan dəmiryolunda işləyənlərin sayı 16.200 nəfər idi.[8]

1939-cu ildə Maştağa-Buzovna (9,4 km) elektrik dəmiryolu çəkildi.[9] 1941-ci ildə 20-ci illərin əvvəllərində tikintisinə başlanmış 445 km uzunluğunda dəmiryolu xəttinin çəkilişinin başa çatdırılması ilə Naxçıvanla Bakı arasında dəmiryolu məsafəsi iki dəfə qısaldı və İranla əlaqələrin artmasına imkan verdi.

1941-ci ildə istismara verilən Salyan-Astara dəmiryol xətti zonanın şəhərləri ilə Bakının əlaqələrini asanlaşdırdı. Ümumilikdə 1941-ci ildə respublika dəmiryol xətti 1937-ci ildəki 1.193 km-dən 1.210 km-dək uzadıldı və

---

[1] Газ. «Бакинский рабочий», 1926, 6 июл.

[2] Əlizadə, Nizami Əli oğlu. Azərbaycan dəmiryolu nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər). Tarix elm. nam. alimlik dərəcəsi almaq üçün dis…Bakı, 1997, 134 s. – s.22

[3] ARMDA, Fond №412, siyahı №1, vərəq –7.

[4] Обзор деятельности правительства за 1929 г. Отчет VII Всеазербайджан–скому съезду Советов. Баку, 1931. – с. 185

[5] Обзор деятельности правительства за 1929 г. Отчет VII Всеазербайджан–скому съезду Советов. Баку, 1931. –с. 186.

[6] Транспорт и связь Азербайджанской ССР. Стат.сб. Баку, 1975. – с.304.

[7] Социалистическое строительство в Азербайджанской ССР. Стат. сборник. Баку, 1975.– с.304.

[8] ARDA, Fond №411, siyahı. №16, iş №284, vərəq – 65-66.

[9] Баку в цифрах. Стат. сб. Баку, 1967. – с.36.

yük dövriyyəsi 13,2 milyon tona çatdı. Dəmiryol nəqliyyatı ilə sərnişin daşınması artdı.[1]

Müharibə ərəfəsində Xəzər dəniz nəqliyyatında yük dövriyyəsi yüksəlirdi. 1940-cı ildə SSRİ dəniz nəqliyyatı yük dövriyyəsinin 46 faizi Xəzər dənizinin payına düşürdü. Xəzər dəniz nəqliyyatı ilə daşınan 14,8 milyon ton yükün 13,4 milyon tonunu neft məhsulları təşkil edirdi.[2]

Üçüncü beşillikdə respublikada avtomobil yollarının çəkilişi və təmirində xeyli irəliləyiş hiss olunurdu. Ancaq yenə Mərkəzin Azərbaycana qısqanclıqla ikili yanaşmasının nəticəsində respublikanın cənub-qərbindəki 170 km. şose yolları heç bir əsas olmadan Ermənistan şose yolları idarəsinə verildi.

1940-cı ildə Azərbaycan SSR Xalq Avtomobil Nəqliyyatı Komissarlığı yaradıldıqdan sonra respublika avtomobil təsərrüfatında işlərin həcmi, yük və sərnişin daşınmasında irəliləyişlər yaranmağa başladı. Ümumilikdə, üçüncü beşillikdə Azərbaycan SSR-də bütün sənayenin ümumi həcmi artdı. 1937-ci illə müqayisədə 1940-cı ildə ümumi məhsul istehsalı 21 faiz, o cümlədən neft çıxarılması 4 faiz, qaz çıxarılması 25 faiz, elektrik enerjisi istehsalı 32 faiz, polad istehsalı 32 faiz, maşınqayırma və metal emalı sənayesinin ümumi həcmi 98 faiz, sement istehsalı 14 faiz, pambıq-parça istehsalı 22 faiz, ipək parça istehsalı 19 faiz, gön-dəri ayaqqabı istehsalı 49 faiz, qənnadı məmulatı 31 faiz, konserv istehsalı 100 faiz artdı.[3]

1940-cı ildə Azərbaycan SSR-də 3.429 kolxoz və 50 sovxoz vardı. Azərbaycan SSR-də kənd təsərrüfatının yenidən qurulması, kənd təsərrüfatının maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində əsaslı tədbirlər həyata keçirildi. 1939-cu ilin oktyabrında Samur-Dəvəçi kanalının çəkilişinə başlandı. Kanalın 100 km. olan birinci hissəsi 1940-cı ilin aprelində başa çatdırıldı və 67 min hektar əkin sahənin suvarılması imkanı yarandı.[4]

Respublikanın digər rayonlarından da suvarma arxlarının çəkilişinə başlandı. Nəticədə suvarılan əkin sahəsi 1.124 min hektara çatdı.

Kənd təsərrüfatında mühüm dayaq məntəqəsi olan MTS-lərin sayı artaraq 67-yə, traktorların sayı 6,1 minə çatdı. Bununla belə müharibə ərəfəsində kənd təsərrüfatı texnikası ləng artır, müdafiə məqsədləri üçün metala tələbat artdığından texnikanın tətbiqi ləngiyirdi.

Respublikada çayçılıq və digər sitrus bitkiləri təsərrüfatları yenə də Lənkəran-Astara və Zaqatala-Balakən zonasında qalırdı. Bu sahələrin inkişafı üçün Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK 1938-ci ilin avqustunda qərarlar qəbul etdi, nəticədə Azərbaycan neft və pambıqdan

---

[1] ARPİİSSA, Fond №1, siyahı №4, iş№4, vərəq – 83.

[2] Транспорт и связь СССР. Стат. сб. Москва, 1967. – с. 41.

[3] Достижения Советского Азебайджана за 40 лет в цифрах. Стат. сб. Баку, 1960. – с. 52-53.

[4] Газ. “Бакинский рабочий”, 1940, 25 апреля.

sonra sitrus bitkiləri bazasına çevrilməyə başladı. Lakin kənd təsərrüfatı məhsulları istehsalında geridə qalma halları davam edir, maddi maraq prinsipləri pozulurdu. Kolxoz torpaqlarının həyətyanı sahələr kimi satılması və icarəyə verilməsi halları kolxoz üzvlərinin ictimai təsərrüfatdan yayınmasına səbəb olurdu. Kənd təsərrüfatında ictimai torpaqların dağıdılması hallarına son qoyulmasında ÜİK(b)P MK və SSRİ XKS-nın 1939-cu ilin mayında qəbul etdiyi "Kolxoz ictimai torpaqlarının dağıntılardan müdafiə olunması haqqında" qərarı mühüm rol oynadı. Qərara uyğun olaraq partiya və sovet işçiləri yerlərə göndərildi, 92 min hektardan artıq torpaq sahəsi kolxozçulardan alınaraq kolxozlara qaytarıldı. Əmək intizamının möhkəmləndirilməsinə diqqət artırıldı. 1940-cı ilin may ayınadək işə çıxmayan 40 mindən artıq kolxozçu işə qaytarıldı. Beləliklə, inzibati rəhbərlik yolu ilə kənd təsərrüfatı planları çətinliklə yerinə yetirildi.

Müharibə ərəfəsində maldarlıq üzrə bir sıra tədbirlər həyata keçirildi. Xırdabuynuzluların sayı artsa da, iribuynuzluların sayı azaldı. Bunun əsas səbəbləri sırasında maldarların əməyinin aşağı olması, maddi maraq yaradılmaması, heyvandarlıq üçün münasib həyətlərin, otlaq sahələrinin olmaması və yemin çatışmaması, ictimai maldarlıqda məhsuldarlığın aşağı olması dayanırdı.

III beşillikdə (1932-1937) SSRİ-nin xalq təsərrüfatında neft sənayesinin əhəmiyyəti kəskin şəkildə artmağa başladı. SSRİ Dövlət Plan Komitəsinin məlumatına əsasən, 1937-ci ildə neft yanacağı əsasında bütün dəmiryol daşımalarının 20%, avtomobil nəqliyyatı və aviasiya daşımalarının isə təxminən 100%-i yerinə yetirilmişdir. Çörək və digər kənd təsərrüfatı məhsullarının 75%-i neft yanacağı ilə çalışan traktorların köməyi ilə əldə olunmuşdu. Xalq təsərrüfatının sürtgü yağlarına olan tələbatı da 100% həcmində neft sənayesi tərəfindən təmin edilirdi.[1]

Üçüncü beşillikdə Mərkəz Azərbaycan SSR və Orta Asiya respublikaları qarşısına ölkənin şimal vilayətlərinin əhalisinin tərəvəzə olan tələbatının ödənilməsi vəzifəsini qoymuşdu. Buna uyğun olaraq Azərbaycanın kənd təsərrüfatı rayonları şimal rayonlarına faraş tərəvəz və pomidor göndərməyə başladı, 1940-cı ildə tərəvəz və kartof planı xeyli artırıldı.

Kənd təsərrüfatında irəliləyişlərə nail olunmasında ixtisaslı kadrlara ehtiyac duyulurdu. 1940-cı ilin əvvəlində respublikada 2000-dək ixtisaslı kənd təsərrüfatı mütəxəssisi-aqronom, zootexnik, baytar həkimləri, mexanizatorlar çalışırdı. Qadın traktorçu sürücülərin hazırlanması sürətlənmişdi. Bütün bunlara baxmayaraq, kənd təsərrüfatı ilə bağlı məsələlər tam həll olunmadığından pambıq planları yerinə yetirilmədi, buğda məhsulu azaldı. Respublikanın aqrar sektorunda mərkəzləşmə gücləndi, inzibatçılıq artdı.

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016 . – s.123.

Müharibə ərəfəsində əhalinin maddi-mədəni vəziyyətində az da olsa dəyişikliklər baş verməkdə idi. Respublikada dövlət büdcəsinin gəliri 1939-cu ilə nisbətən 12,8 faiz artmış, sosial-mədəni xərclər 1940-cı ildə 734,2 milyon manata çatmışdı.

Bakı və onun rayonlarında mənzil tikintisi sürətlənir, ictimai yemək-xanalar şəbəkəsi genişlənir, Bakı ətrafında iri tərəvəzçilik və heyvandarlıq bazaları yaradılırdı.

Respublikada əməkçilərin sağlamlığının qorunması, bədən tərbiyəsi və idmanın inkişafı üçün tədbirlər həyata keçirilirdi. 1940-cı ildə xəstəxa-nalarda 1.218 çarpayı vardı. Tibb kadrlarının sayı 3.083 nəfər idi.[1] 1940-cı ildə respublikada 15.200 yerlik 389 körpələr evi və 48.832 yerlik 909 uşaq bağçası fəaliyyət göstərirdi,[2] 88 ana və uşaq məsləhətxanası var idi.[3]

Müharibə tarixinə dair ədəbiyyatda göstərilir ki, 1940-cı ildə sovetlər birliyində yaşayan xalqlar arasında faktiki olaraq mədəni gerilik aradan qaldırılmışdı. Bu hal milli respublikalarda və vilayətlərdə rus dilinin məc-buri öyrənilməsi, latın əlifbasından kiril əlifbasına keçidlə əlaqələndirilirdi. Araşdırmalar göstərir ki, bu faktlar reallıqdan uzaqdır. Azərbaycanda müha-ribəyə qədər 3 dəfə əlifba dəyişilməsi nəticəsində üç nəsil xalqın tarixindən ayrı düşmüşdü. Xalqımız ərəb qrafikasını bilmədiyi üçün 20-ci illərədək yazılanları, 20-80-ci illərin nəsilləri latın qrafikası, yeni nəsil isə ərəb və kiril qrafikası ilə yazılanları oxuya bilmir. Müharibə ərəfəsində mədəni quruculuq sahəsində əldə olunanlara gəldikdə isə 30-cu illərdə təhsil saha-sində həyata keçirilən tədbirlər müharibə ərəfəsində öz nəticəsini verməkdə idi. İkinci beşillikdə – 1932/33-cü dərs ilində 439.408 nəfər uşağı əhatə edən 2.907 ümumtəhsil məktəbi fəaliyyət göstərirdisə, 1937/38-ci tədris ilində 587.158 uşağı əhatə edən 3.320 məktəb var idi. Məktəblərdə 16.392 nəfər müəllim çalışırdı.[4]

ÜİK(b)P və SSRİ XKS 1938-ci il mart ayının 13-də "Milli vilayətlərin və respublikaların məktəblərində rus dilinin öyrənilməsi haqqında" qərar qə-bul etdi. Bu qərar əsasında Azərbaycan partiya təşkilatının rus dilinin tədri-sini yaxşılaşdırmaq üçün 1938-ci il martın 23-də qəbul etdiyi qərarda rus di-linin tədrisinə metodiki rəhbərliyin gücləndirilməsi, müəllim hazırlığının yaxşılaşdırılması, rus dili dərslərinin tədrisinin II sinifdən başlanılması, həftəlik saatların miqdarının bir saatdan 5 saata artırılmasının zəruriliyi qeyd olunurdu.

1938/39-cu tədris ilində rus dili müəllimi hazırlığı üçün Bakıda Sabir adına xüsusi pedaqoji məktəb yaradıldı. Qərardan sonra rus dilində 10

---

[1] Достижения Советского Азебайджана за 40 лет в цифрах. Стат. сб. Баку, 1960. – с. 236

[2] Yenə orada, s. 235.

[3] Yenə orada.

[4] Культурное строительство СССР.Стат.сб. Москва-Ленинград, Госстатиздат, 1940, с.43; Культурное строительство СССР.Стат. сб. Москва-Ленинград, 1956. – с.98-99.

dərslik, sinifdənxaric oxu üçün 18 adda kitab, aşağı siniflərdə söhbətlər üçün cədvəl, 10 adda metodiki vəsait hazırlandı.[1] Görülmüş tədbirlər məktəb şəbəkəsinin artmasına şərait yaratdı. Müharibə ərəfəsində məktəb şəbəkəsi aşağıdakı cədvəldəki kimi olmuşdur.[2]

Məktəb şəbəkəsi

Cədvəl 5.6.

İllər	İbtidai siniflər	Yeddiillik məktəblər	Orta məktəblər	Qeyri məktəblər	Cəmi
1939/40	1777	1218	534	13	3542
1940/41	1668	1210	654	13	3575

Şagirdlərin sayı

Cədvəl 5.7.

İllər	İbtidai siniflər üzrə	V-VII siniflər üzrə	VIII-X siniflər üzrə	Cəmi
1939/40	425.229	181.638	42.684	649.551
1940/41	406.153	192.825	54.093	654.902

ÜİK(b)P MK-nın 1940-cı il iyul plenumunun qərarına cavab olaraq SSRİ Ali Sovetinin Rəyasət Heyəti 1940-cı il oktyabrın 2-də "Dövlət əmək ehtiyat qüvvələri sisteminin yaradılması haqqında" fərman verdi. Fərmanda sənət məktəbləri (SM), dəmiryol məktəbləri (DM), fabrik-zavod təhsili (FZT) məktəbləri yaradılması nəzərdə tutulurdu.

SSRİ XKS-nin qərarına müvafiq olaraq Ehtiyat Əmək Qüvvələri Baş İdarəsi 1940-cı il oktyabrın 4-də "Dərs ilinin başlanmasına hazırlıq, şəhər və kolxoz gənclərini sənət məktəblərinə, dəmiryol məktəblərinə qəbul etmək haqqında" 1 №-li fərman verdi. Azərbaycan SSR XKS müvafiq qərarla Bakıda təhsil müddəti 2 il olan FZT məktəbi yaradılmasını müəyyənləşdirdi. 1940-cı il dekabrın 1-də respublikanın sənət və FZT məktəblərində ilk dərs ili başlandı. 1941-ci ilin iyununda respublikada 11 yeni FZT məktəbi açıldı.

Müharibəyə qədərki dövrdə mətbuat sürətlə inkişaf etdirdi. "Kommunist", "Bakinskiy raboçiy" qəzetləri ilə yanaşı "Yeni yol", "Gənc işçi", "Şərq qapısı", "Azərbaycan pioneri" və b. qəzetlər nəşr olunmağa başladı. "Azərbaycan müəllimi", "Maarif və mədəniyyət", "Təbliğatçı", "Pioner", "Azərbaycan qadını", "Molla Nəsrəddin", rus dilində nəşr olunan

[1] Məmmədov, M. Azərbaycan SSR–də ümumi icbari təhsilin həyata keçirilməsi / M.Məmmədov. – Bakı, 1960. – s.117.

[2] Культурное строительство СССР.Стат.сб. Москва-Ленинград, 1940. – с.43; Культурное строительство СССР.Стат. сб. Москва-Ленинград, 1956. – с.98-99.

“Нефтяная хозяйства”, “Народное хозяйство”, “Экономическая жизнь” jurnalları kütləvilik qazandı.

Müharibə ərəfəsində Azərbaycanda mütəxəssis hazırlığı demək olar ki, həll olunmuşdu. Savadsızlığın və azsavadlılığın ləğv edilməsi sahəsində uğurlar qazanılmış, 1940-cı ildə respublika əhalisi içərisində savadsızlığın ləğv edilməsi əsasən başa çatdırılmışdı. 1939-cu il siyahıyaalma yekununa görə respublikada 7-49 yaşlı əhalinin 82,2 faizi savadlı idi.[1]

Respublikada kitab çapı sürətlənirdi. Kitabxanaların sayı artır, kitab fondu zənginləşirdi. 1940-cı ildə respublikada olan 1.383 kitabxanada 2,6 milyon nüsxə kitab vardı.

Müharibə ərəfəsində respublikada 1633 klub, 22 muzey, 31 teatr,[2] 426 kinoqurğusu[3] fəaliyyət göstərirdi.

Azərbaycan kino sənəti əhalinin maarifləndirilməsi sahəsində səmərəli fəaliyyət göstərirdi. “Almas” (1935), Bakılılar” (1938), “Kəndlilər” (1939), “Yeni üfüq” (1940) filmləri əhali tərəfindən rəğbətlə qarşılanmışdı.

Müharibə ərəfəsində – 1940-cı ildə respublikada 60 elmi müəssisə vardı. SSRİ EA Azərbaycan Filialında 21 elmlər doktoru və professor, 161 elmlər namizədi çalışırdı.

İkinci dünya müharibəsinin başlanması antifaşist mövzularda yeni nümunələrin yaranmasını gündəmə gətirdi. 1940-cı ilin mayında Moskvada Azərbaycan günləri dekadası açıldı. M.S.Ordubadinin romanları rus dilinə tərcümə olundu. S.Vurğun, S.Rüstəm, M.İbrahimov, M.Cəlal, Ə.Əbülhəsən, M.Hüseyn, S.Rəhimovun əsərləri populyarlıq qazandı. A.S.Puşkin, M.Y.Lermontov, N.V.Qoqol, L.N.Tolstoy, N.A.Nekrasov, A.P.Çexov, M.Qorki və b. əsərləri Azərbaycan dilinə tərcümə edildi.

Müharibəyə qədərki dövrdə Azərbaycan musiqisi və təsviri incəsənəti uğurlar qazandı. Bu uğurlarda Ü.Hacıbəyovun xidmətləri misilsiz idi. 1940-cı il oktyabrın 23-25-də Azərbaycan rəssamlarının birinci qurultayı keçirildi. Rəssamlardan Ə.Əzimzadə, Q.Xalıqov, Ş.Şərifzadə, heykəltəraşlar P.Sabsay, F.Abdurahmanov, C.Qaryağdı yeni əsərlər yaratdılar.

Müharibə ərəfəsində əldə olunmuş uğurlarda, xüsusilə yaradıcılıq sahəsində “sosializm realizmi”, elmdə “dialektik materializm” ideologiyası hakim idi. Bu ideologiyaya görə sovet hakimiyyəti qurulmasaydı, bolşeviklər hakimiyyətə gəlməsəydilər müttəfiq respublikaların xalqları “cəhalətdə qalacaqdılar”. Yaradılan əsərlərin baş qəhrəmanı İ.Stalin idi, əldə olunan uğurlar onun adı ilə bağlanırdı.

30-cu illərdə milli kadrlara qarşı siyasi terror və repressiyalar davam

---

[1] Итоги Всесоюзную переписи населения 1959 г. Азербайджанской ССР. Москва, 1963. – с.43.

[2] Культурное строительство Азербайджанской ССР. Стат. сб. Баку, 1961. – с.14-15.

[3] Народное хозяйство Азербайджанской ССР в 1985 г. Баку, 1986. – с.239.

etdirildi.[1] 1934-cü il dekabrın 1-də ÜİK(b)P MK katibi, Leninqrad Vilayət Komitəsinin birinci katibi S.M.Kirovun öldürülməsi[2] SSRİ-də kütləvi repressiyalara təkan verdi. S.M.Kirovun öldürülməsi günü SSRİ MİK-nin "Terror aktlarının hazırlanması və törədilməsi işlərinin aparılması qaydası haqqında" qərarından sonra[3] ölkədə partiya orqanlarında yoxlamalar və təmizlik aparılmağa başlandı. ÜİK(b)P MK-nın 1937-ci ilin fevral-martında keçirilən plenumunda İ.V.Stalin mart ayının 3-də plenumun işinə yekun vurarkən böyük sayda "xalq düşmənləri"nin aşkar olunması və ifşa olunmasına çağırışı etməsi[4] 1936-1937-ci illərdə minlərlə adamın partiya sıralarından xaric olunması ilə nəticələndi. Azərbaycan K(b)P MK bürosunun 1937-ci il 5 noyabr tarixli iclasında 279 nəfər partiya sıralarından uzaqlaşdırıldı.

1938-1939-cu illərdə orduda da "təmizlik" aparıldı. Xalq Müdafiə Komissarının 11 müavini məhkum edildi. Ali Hərbi Şuranın 80 üzvündən 75 nəfəri, 8 admiral, o zaman sağ qalmış 4 marşaldan 2-si, 16 ordu generalından 14-ü, korpus ordu generallarından 90 faizi, 80 min zabitdən 35 mini məhv edildi. 1937-1938-ci illərdə Ukrayna Mərkəzi Komitəsi aparatının tərkibi tamamilə dəyişdirildi. ÜİK(b)P MK-nin 139 üzv və namizədindən 98 nəfəri həbs olundu və demək olar ki, hamısı güllələndi.[5] 1937-ci ilin dəhşətli repressiyası SSRİ XDİK N.İ.Yejovun 20 iyul 1937-ci il №00447 əmri əsasında həyata keçirilirdi.[6] Əmrdə 1937-ci ilin avqust ayının 5-dən bütün respublikalarda, diyar və vilayətlərdə keçmiş qolçomaqların, fəal antisovet ünsürlərin və cinayətkarların repressiya olunması üzrə əməliyyat başlanması tələb edilirdi. Əmrdə respublikaların Xalq Daxili İşlər Komissarlarına, XDİK-nın diyar və vilayət idarə rəislərinə geniş səlahiyyətlər verilirdi.[7]

Stalin elə bir sistem, elə bir qorxu imperiyası qurmuşdur ki, onun şəxsən bütün işlərdə yer almasına ehtiyac yox idi. Sistem cəllad baltası kimi öz işini görürdü. İnsanların, xüsusən də vəzifəli şəxslərin ona olan heyranlığı, ona yarınmaq həvəsi, yuxarılara görsənmək arzuları bərabərində Stalinin arzularını da gerçəkləşdirirdi.

---

[1] Kərimov, E. Etnoqrafiya ictimai elmlərin tacıdır // Elm, 2005, 7 noyabr, s. 14.

[2] Исмаилов, Э. История «большого террора» в Азербайджане / Э.Исмаилов. – Москва, 2015. – с.13.

[3] Сборник законодательных и нормативных актов о репрессиях и реабилитации жертв политических репрессий (Сост. Е.А.Зайцев). Москва, 1993. – с.21.

[4] Лубянка. Сталин и Главное управление госбезопасности НКВД. Архив Сталина. Документы высших органов партийной и государственной власти. 1937–1938. Москва, 2004. – с.95.

[5] Балашов, А.И., Рудаков Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб., 2005. – с.105.

[6] Məmmədov, A. M.C.Bağırov –Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı. – 2013. – s.58–62.

[7] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. –Bakı, –2013. – s.58–59; ARPİİSSA, Fond №1, siyahı№55, iş№17, sax.vah.114.

Stalin sadəcə qara milləti qorxu altında saxlamırdı. O, hətta ən yaxınındakı şəxsləri belə, caynağına almışdı. Bu isə o demək idi ki, onun ətrafındakılar ondan narazı idilər. Onun əlində əsir idilər, amma bu əsirlikdən xilas olmaq üçün heç nə etmirdilər. Halbuki, onlar çox, Stalin isə bir nəfər idi. Heç nə edə bilmirdilər, çünki əlindəki qamçı ilə onları qamçılayan şəxsə heyran idilər. Onları bataqlığa aparan şəxsi xilaskar gözündə görürdülər. Səslərini çıxara bilmirdilər, çünki Stalinin qorxu imperiyasında yaşayırdılar. Çünki, onların bir-birinə inamı yox idi. Çünki Stalinin Beriya, Yejov kimi cəlladları var idi.[1] Stalin həm də insanları... xalqın adından cəzalandırır, onlara "xalq düşməni" damğası vururdu. ....[2]

Göründüyü kimi, 1920-1930-cu illərdə terror SSRİ-nin dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Azərbaycan SSR XDİK yanında xüsusi üçlük[3] 1937-ci ildə siyasi cinayət üzrə 2.846 nəfəri azadlıqdan məhrum etmiş, 2215 nəfər güllələnmişdir. Yalnız antisovet təbliğatı və təşviqatına görə 1.108 nəfərə güllələnmə kəsilmişdir.

1937-ci ildə "əksinqilabçı millətçi-burjua" təşkilatının üzvü kimi Azərbaycan SSR-də 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qaldı.[4] Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutmuş şəxslər var idi.

Əhalinin hər min nəfərinə düşən repressiyaya məruz qalanların sayına görə Azərbaycan birinci yeri tuturdu. 1937-1938-ci illərdə əhalisi üç milyondan bir az çox olan Azərbaycanda 20 mindən çox adam güllələnmiş, 200 mindən çox adam sürgün edilmişdir, başqa sözlə hər 12-13 nəfərdən biri repressiyanın qurbanı olmuşdur.[5] Repressiya nəticəsində xalqımız zehni sərvətindən və intellektual potensialından məhrum edildi.

Repressiyaya məruz qalanlar içərisində elm və mədəniyyət xadimləri də var idi. Azərbaycan elmi öz faciəli dövrünü yaşamışdı. 1937-1938-ci illərin repressiyaları Azərbaycan elminə və mədəniyyətinə böyük zərbələr vurdu. Repressiya illərində 50 mindən artıq adam güllələnmiş, 100 mindən çox insan Sibir və Qazaxıstana sürgün edilmişdi. Hüseyn Cavid, Mikayıl

---

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – s.320.

[2] Yenə orada, s.321-322.

[3] **Üçlük** – L.Kaqanoviçin təklifinə əsasən ÜİK(b)P Siyasi Bürosunda xüsusi səlahiyyətlərə malik vəzifəli şəxslərdən "üçlüklər" formalaşdırılması haqqında qərar qəbul edilmişdir.

[4] ARPİİSSA, Fond №1, siyahı. 46, iş№33, vərəq – 112.

[5] Cəfərov, C. Azərbaycan kəndi: kollektivləşmə illərində (1920–ci illərin sonu – 30-cu illər) / C.Cəfərov. – Bakı, 2008. – s.162; Məmmədov, N.Z. Sovet hakimiyyət orqanlarının 1937-1939-cu illərdə Böyük terror siyasəti (XDİK-nin 00447 №-li əmri ilə) // Bakı Universitetinin Xəbərlər. Humanitar elmlər seriyası, 2016, №1, s. 107.

Müşfiq, Tağı Şahbazi, Salman Mumtaz kimi böyük şəxsiyyətlər məhv edilmişdi.[1]

1937-ci ildə 12493 nömrəli iş ("alimlərin işi") üzrə B.V.Çobanzadə, X.S.Xocayev, A.M.Tağızadə, A.R.Zifeldt, İ.M.Həsənov, Q.K.Bağırov, H.B.Zeynallı, M.Ə.Ələkbərli, Əli Nazim, Salman Mumtaz, T.A.Şahbazi, V.M.Xuluflu, Q.S.Qubaydullin, C.M.Məmmədzadə və b. repressiya olundular.

Alimlərin çoxu xarici dövlətlərin (İran, Türkiyə, İngiltərə və b.) xeyrinə casusluq etməkdə günahlandırıldı. 1937-ci ildə "üsyançı, terrorist, ziyankar-təxribatçı və millətçi təşkilatın fəal üzvlərindən" olduğuna görə V.Xuluflu həbs olundu. SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası V.Xuluflunu bütün şəxsi əmlakı müsadirə olunmaqla, ən ağır cəzaya – güllələnməyə məhkum etdi.

1937-ci il oktyabrın 12-də SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının bağlı məhkəmə iclası (iclas saat 11.20-də başlanmış, 11.40-da qurtarmışdır) keçirildi. Əmlakı müsadirə edilməklə B.V.Çobanzadə ən ağır cəzaya-güllələnməyə məhkum olundu. Hökm 1937-ci il oktyabrın 13-də dərhal yerinə yetirildi.

Kütləvi repressiya dalğasının yeni qurbanları sırasına Q.Qaraqaşlı, etnoqraf və dilçi Cavad Bağırov (Bağırzadə), Naxçıvan Muxtar Respublikanın ictimai, dövlət və maarif xadimi, diyarşünas Vahab Həsənzadə (1890-1960), tarixçi, türkoloq, ədəbiyyatşünas, şair Əli Mirzəağa oğlu Hüseynzadə (1906-1982), ADU-nun 1926-1937-ci illərə qədər rektorları olmuş Tağı Şahbazi (1926-1929), Maqsud Məmmədov (1929-1930), Məmmədkazım Ələkbərli (1934-1935), Balabəy Həsənbəyov (1935-1937),[2] ADU-nun Tarix fakültəsinin dekan müavinləri dosent Baba Əsgərov və dosent Hüseynəli Billəndərli, "SSRİ xalqları tarixi kafedrası"nın müdiri, professor Ə.Qubaydullin və digərləri də günahsız yerə həbs edilərək güllələndilər.

30-cu illərdə ADU-nun müəllimlərindən Ağamir Məmmədov, Əhməd Kazımov, Heydər Verdiyev, Ədil Abdullayev, Abbas Yusifov, Cavad bəy Rəfibəyov, Mirzə Məmmədov, Əsgər Quliyev, Əbülfəz Quliyev, Əşrəf Quliyev, Əbülfəz Axundov, Məcid Həmzəyev, Nikolayev, Belyayev, Drabkin və b. repressiyaya məruz qaldılar.[3]

---

[1] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti – Bakı şəhəri, 29 dekabr 2000-ci il //http://dgk.nmr.az/media/files/cde88643eea575802e3a9a3dc7136542.pdf; Bünyadov, Z. Qırmızı terror / Z.Bünyadov. – Bakı, 1993. – s.4.

[2] Hacıyev, S.T., Əziz, B.O. İctimai fikrin inkişafı və milli oyanışda BDU-nun yeri // Bakı Universitetinin xəbərləri. Humanitar elmlər seriyası, 2009, №3, s.62.

[3] Yenə orada.

Kütləvi repressiya dalğasının qurbanları

Aleksandr Bukşpan (1898-1937)

Vəli Xuluflu (1894–1937)



Xalid Səid Xocayev (1888-1937)

Qaziz Qubaydullin (1887–1937)

Əlirza Atayev (1898–1962)

İdris Həsənov (1897-1950)

Boris Tixomirov (1898–1937)

Zinət Zakirov (1904-1938)

Hənəfi Zeynallı (1896–1937)

Əhməd Triniç (1893–1936)

Balabəy Həsənbəyov (1899-1937)

Bəkir Çobanzadə (1893–1937)

Azərbaycan SSR-də 30-cu illər repressiyası dövründə milli elmi kadrlarla yanaşı Bakıda doğulub yaşayan və Sovet İttifaqının müxtəlif yerlərindən işləməyə dəvət olunan millətlərin nümayəndələri də repressiyaya məruz qalırdılar. Onların içərisində tarixçilərdən Boris Nikolayeviç Tixomirov, Panteleymon Krestoviç Juze, Aleksandr Semyoniviç Bukşpan və b. var idi.

1936-1938-ci illərdə məqsədyönlü şəkildə Azərbaycanın repressiyalara məruz qalmış genetik elmi fondun nümayəndələri arasında görkəmli alimlər, orijinal təfəkkür sahibləri Ruhulla Axundov, Rəşid İzmayılov, Hüseynəli Biləndərli, Ağamir Məmmədov, Həsən İmanov, Əli Nazim (Mahmudzadə), Əkrəm Cəfərov (Cəfər), Əhməd Əhmədov, Məmmədhəsən Baharlı (Vəlili), Mövsüm Salamov, Mustafa Vəkilov, Məcid Quliyev, Yusif Rəhimli, İsgəndər Sitaşi, Yakov Hummel, Artur Zifeldt-Simumyagi, İbrahim Əminbəyli, İbrahim Uaruar, Zinyətşah Zakirov, Mariya Quliyeva, Abbas Yusifov, Baba Əsgərov, İsrafil Kazımov, Əbdüləziz Salamzadə, Əli Məmmədbəyov, İsrafil Axundov, Əli Səbri Qasımov, Əhməd Kazımov, Əşrəf Quliyev, Məcid Həmzəyev, Əbülfəz Axundov, Mikayıl Hüseynov, Haim Qarber, Anatoliy Çiçikalov kimi istedadlı alim, elm və maarif xadimləri vardı.

C.Naxçıvanski

Qırmızı Ordunun rəhbər heyətinə qarşı başlamış "hərbi-faşist iş birliyində" iştirak etmə ittihamı müttəfiq respublikalardan da yan keçmədi. 1937-ci il iyulun 16-da Mir Cəfər Bağırov 77-ci Azərbaycan dağ-atıcı diviziyasının komandiri Q.M.Vəzirovun və diviziyanın siyasi şöbəsinin rəhbəri D.A.Əliyevin də üzvü olduğu əksinqilabi "millətçi" təşkilatın "ifşa" olunduğu haqqında məlumat verdi.[1] Diviziya komandiri Q.Vəzirov iyul ayının 29-da XDİK tərəfindən həbs olunaraq hərbi qiyama cəhddə təqsirləndirilərək güllələndi.[2]

Azərbaycan diviziyasının briqada komandiri Cəmşid Naxçıvanski, Həsən Rəhmanov, briqada komissarı Cabbar Əliyev də repressiya qurbanı oldular.[3] Diviziya komandiri vəzifəsini müvəqqəti icra etmək üçün təyin

---

[1] Мильбах, Владимир Спартакович, Ларькин В.В. Командующие войсками Закавказского военного округа в 1937-1938 гг. и их роль в процессе массовых политических репрессий командно-начальствующего состава // Новейшая история России. Москва, 2016, №2, с.198.

[2] Везиров, Гамбай Мамед оглы (1899) // rus. openlist. wiki; Зейналов Р. Военное строительство – военно-патриотическая и оборонно-массовая работа в Азербайджанской ССР в период строительства социализма (1920 – июнь 1941 г.). Баку, 1990. – с. 177.

[3] Мильбах, Владимир Спартакович, Ларькин В.В. Командующие войсками Закавказского военного округа в 1937-1938 гг. и их роль в процессе массовых политических

olunmuş polkovnik A.Abbasov və diviziyanın hərbi komissarı A.Dadaşov avqustun 7-də Zaqafqaziya Hərbi Dairəsinin komandanı N.V.Kuybışevə bir sıra komandirlərin vəzifədən azad edilmələri barədə məruzə etdilər. Sonrakı günlər ərzində A.Dadaşov bir sıra şəxslərin də vəzifələrindən azad olunmaları barədə məlumat verdi.

Polkovnik A.Abbasovu əksinqilabi fəaliyyətdə ittiham etdilər. 1938-ci ilin aprelində XDİK-in xüsusi iclası onu 8 il islah-əmək düşərgəsinə məhkum etdi. Lakin 1941-ci ilin sentyabrında SSRİ XDİK Ali Hərbi Tribunalı ona RSFSR Cinayət Məcəlləsinin 58-2, 58-8, 58-10, 58-11 maddələrinə əsasən ölüm hökmü verdi. Ümumilikdə 1937-ci il ərzində Azərbaycanda 110 hərbi qulluqçu həbsə məruz qalmışdı.[1]

Qırmızı orduda repressiyaların olması komandirlər və siyasi işçiləri qorxuya salmışdı. Bu həm də, öz növbəsində yeni donosların yazılmasına və həbslərə səbəb olurdu. Repressiyalara məruz qalmış komandirlərin yerinə cavan kadrlar gəlirdi, onların isə ixtisaslaşmaları və təcrübələri ən azından böyük hərbi birləşmələri idarə etməyə çatmırdı. Komanda idarə heyətinin fövqəladə yerdəyişməsi, daimi vəzifə dəyişikliyi və vəzifə artımı yaradırdı. Vəzifədə olanlar bu vəzifələrə müvəqqəti gözlə baxdıqları üçün çox vaxt məsuliyyətdən qaçırdılar. Məhz buna görə də Qırmızı Ordunun, o cümlədən də Qafqaz milli diviziyalarının döyüş hazırlığı 1937-1938-ci illər ərzində xeyli zəiflədi. 1937-ci ilin noyabr ayında Hərbi Şura tərəfindən Zaqafqaziya Hərbi Dairəsinin hərbi hazırlığı qənaətbəxş sayılmadı. Zaqafqaziya Hərbi Dairəsinin komandanı Kuybışev də buna repressiyaların səbəb olduğunu bildirmişdi.[2]

Qırmızı Ordunun milli hərbi hissələri, birləşmələri, hərbi məktəbləri ÜİK(b)P MK və SSRİ Xalq Komissarlar Sovetinin 7 mart 1938-ci il tarixli qərarına əsasən yenidən formalaşdırılaraq birbaşa mərkəzə tabe edildi. Nəticədə silahlı qüvvələr Almaniyanın SSRİ-yə hücumu ərəfəsində xeyli zəiflədi.

30-cu illərdə milli hərbçi kadrlarımızın məhvi, rus millətçilərinin "Qafqazı qoy qafqazlılar müdafiə etsin" fikri milli siyasətdə Azərbaycana olan münasibətin bariz nümunəsidir. Elə bunların nəticəsi idi ki, 1938-ci ildə ləğv olunan milli diviziyalar, müharibə başlandıqdan sonra yenidən bərpa olunmağa başladı.

репрессий командно-начальствующего состава // Новейшая история России. Москва, 2016, №2 , с.199.

[1] Наджафов, D. Как Азербайджан пережил "большой террор"… Интервью с ученым–историком Эльдаром Исмайловым". news.az. 9 avqust 2007; Безугольный А.Ю. Народы Кавказа и Красная Армия. 1918-1945 годы. Москва, 2007. – s. 142-143.

[2] Зейналов, Р. Военное строительство-военно-патриотическая и оборонно-массовая работа в Азербайджанской ССР в период строительства социализма (1920 – июнь 1941г.). Баку, 1990. – s. 177-178.

30-40-cı illərdə Stalin repressiyaları nəticəsində misilsiz itkilər verən təkcə ziyalılar deyil, bütövlükdə milli mədəniyyətimiz oldu. Bu qüdrətli simalar, Azərbaycan naminə çətin sovet illərində fədakarlıqla çalışaraq, respublikanın elmi, iqtisadi və mədəni inkişafına layiqli töhfələr verməklə bərabər, gələcək nəsillərə böyük mənəvi irs qoydular.

Müharibənin başlanması. Hərbi və mənəvi səfərbərlik

II Dünya müharibəsi, o cümlədən SSRİ məkanında yaşayan xalqların bilavasitə cəlb edildiyi 1941-1945-ci illər müharibəsi tarixə qovuşsa da, Qələbədən 75 ildən artıq vaxt keçməsinə baxmayaraq, bu gün də tarixçilərin, sosioloqların və politoloqların tədqiqat obyekti olaraq qalmaqdadır.

1941-ci il iyun ayının 22-də səhər Almaniya "**Fürer"in Slavyan-Tatar gövdəli və Yəhudi başlı bir məxluq adlandırdığı** SSRİ-yə hücum etdi.

Alman generalları şahidlik edirlər ki, sovet-alman sərhədinin əsas sahələrindən alman qoşunları 3^{15} dəqiqədə hərbi əməliyyata başlamışlar. Baş Ştabın rəisi G.K.Jukov hərbi əməliyyatların başlanmasından 4^{10} dəqiqədə xəbər tutmuşdu. O, həmin dəqiqə Stalinə zəng etmiş, 5^{45} dəqiqədə Molotov, Beriya, Timoşenko, Mexlis və Jukov onun kabinetinə daxil olmuşlar.[1]

A.Hitler Almaniyanın Rexskansleri

İ. Ribbentrop Almaniyanın xarici işlər naziri

F.Qalder Vermaxtın Baş Qərargahının rəisi

Müşavirənin nəticəsi olaraq Baş Hərbi Şuranın 2 №li Dekreti hazırlanmış, direktiv sərhədyanı əyalətlərə 8^{30}-9^{30} arasında verilmişdi. Bu Zaman

[1] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004, кн.1, с.59.

alman-faşist qoşunları hücuma keçmiş, sərhəd müdafiəçiləri onların qarşısını kəsməyə cəhd göstərsələr də nəticəsiz olmuşdu.

2 №-li Direktivlə tanışlıq göstərir ki, Baş Ştab yerdəki vəziyyətlə yaxından tanış olmadığından tələb olunurdu ki, bütün qüvvələr və vasitələrlə düşmən qoşunları, aviasiyanın hücumları ilə almanların təyyarələri aeorodromlarda məhv edilməli, yerüstü qoşun qrupları darmadağın edilməlidir. Aviasiya alman ərazilərinin 100-150 km. dərinliklərinə zərbə endirməli, Köniqsberq və Memel bombardman edilməlidir.[1]

SSRİ-nin qərb sərhədləri böyük təhlükə altında idi. Bir-birinin ardınca şəhərlər əldən gedir, diviziyalar mühasirəyə düşürdülər. İyunun 28-də alman orduları Minskiyə hücum etdilər. Minsk altındakı 44 diviziyadan 30-u mühasirəyə alıdı. Qərb istiqamətində yaranan fövqəladə təhlükə nəzərə alınaraq cəbhəyə Xalq Müdafiə Komissarı S.K.Timoşenko rəhbərlik etməyə başladı. Əməliyyat idarəsinin rəisi Q.K.Mexlis ştab rəisi təyin edildi, əvvəlki komandan Q.Pavlov Moskvaya çağrılaraq həbs edildi. Tezliklə hərbi tribunalın qərarı ilə güllələndilər.[2]

Müharibə başladı.

22 iyun 1941-ci il

SSRİ-nin Qərb Hava hücumundan Müdafiə Dairəsində 26 aerodrom, Kiyev Hərbi Dairəsində 23, Baltikyanı Xüsusi Hərbi Donanmasının 11,

[1]Ətraflı bax: Великая Отечественная война, 1941-1945. Воен. – ист. Очерки. В 4 кн. Кн.1. Суровые испытания. Москва, 1998; Вторая Мировая война: Итоги и уроки. Москва, 1985.

[2] Война и обшество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. М., 2004, кн.1, с.61.

Odessa Hərbi Dairəsinin 6 aerodromu qəfil zərbələrə məruz qaldı. İyunun 22-də günortayadək SSRİ Hərbi Hava Qüvvələri 1200 təyyarə itirdi, 300 təyyarə hava döyüşlərində havaya qalxarkən vurulmuş, 900 təyyarə aerodromlarda məhv edilmişdi. Qərb Hərbi Dairəsinin 528 təyyarəsi yerdə, 210 təyyarəsi isə havada vurulmuşdu.[1]

1941-ci ilin avqust ayından noyabr ayınadək alman qoşunları SSRİ-nin 300 barıt, patron və mərmi zavodunu demək olar ki, döyüşsüz ələ keçirdilər. Həmin zavodların illik məhsuldarlığı 101 milyon mərmi korpusu, 32 milyon artilleriya mərmisinin korpusu, 24 milyon aviasiya bombası korpusu, 61 milyon mərmi gilizi, 10 milyon əl qumbarası, 93600 ton barıt, 3600 ton trotil və s. həcmində idi. Qərb ekspertləri qeyd edirlər ki, müharibənin ilk aylarında SSRİ-nin əsas sənaye potensialı Don çayından qərb tərəfdə yerləşdiyindən həmin obyektlər almanların əlinə keçdi. Rusiya 31 min böyük və kiçik sənaye müəssisəsinin məhsulundan, 250 min elektrik motorundan, 175 min dəzgahdan, təxminən 30 domna və marten peçlərindən, habelə gücü 5 milyon kilovat olan elektrik stansiyasından məhrum oldu.[2]

Düşmənə qarşı mübarizədə bütün qüvvələri səfərbər etmək məqsədilə 1941-ci il iyunun 30-da SSRİ Ali Sovetinin Rəyasət Heyətinin və SSRİ XKS-nin qərarı ilə Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı və dövlət hakimiyyətinin ali orqanına çevrildi. Onun qərarları müharibə zamanında qanun qüvvəsində idi və bütün dövlət, ictimai və hərbi təşkilatlar, həmçinin vətəndaşlar üçün məcbüri idi. DMK-nin hər bir üzvü dövlət, xalq təsərrüfatı və hərbi sahənin bir və ya bir neçə sahəsinə rəhbərlik edirdi. Belə ki, silah və sursat isehsalı məsələləri ilə N.A.Voznesenski, təyyarə və təyyarə mühərriki istehsalı ilə Q.M.Malenkov, tank istehsalı ilə V.M.Molotov, ərzaq, yanacaq və əmlak məsələləri ilə L.M.Mikoyan, dəmiryol daşımaları ilə L.M.Kaqanoviç məşğul olurdu.

İ.Stalin
DMK-nin sədri

V.Molotov
SSRİ Xalq Xarici İşlər komissarı

S.Timoşenko
SSRİ Xalq Müdafiə komissarı

Müharibə illərində DMK böyük iş aparmışdı. O, sutkada 17-18 saat işləmiş, ümumilikdə qəbul etdiyi 100 minə yaxın direktiv və qərarın həyata keçirilməsinə nail olmuşdu. Bu qərarların təxminən 2/3-si bu və ya digər mənada iqtisadi və hərbi istehsalın təşkili məsələlərini əhatə etmişdi. DMK-nin fəaliyyətinin miqyası böyük olmuşdu. Təkcə direktiv və qərarlarla kifayətlənməmiş, bundan başqa Stalin çox sayda teleqram, telefonoqram imzalamış, şifahi tapşırıqlar vermişdi ki, onlar heç bir yerdə qeydə alınmamışdı. İ.Stalinin DMK-nə ünvanlanan məruzələrinin xülasəsini, arayışları, məlumatları da əlavə olunsa, DMK-nin işinin nə qədər ağır və məsuliyyətli olduğunu təsəvvür etmək olar. DMK-nın xüsusi idarəetmə aparatı müəyyən edilməmişdi. O, öz fəaliyyətini XKS və komissarlıqların aparatlarında, cəbhə boyu şəhərlərin binalarında, ayrı-ayrı yerlərdə təşkil etmişdi.

DMK-nin daxili iş orqanı çevik büro idi ki, o xalq komissarlarının cari işlərinə nəzarəti həyata keçirirdi.

Hərbi əməliyyatlara strateji rəhbərliyi həyata keçirən yeni və baş icraçı kollegial orqan olan Ali Baş Komandanlığın Baş Qərargahı idi və o birbaşa DMK-nin qarşısında hesabat verirdi. Baş Qərargah 1941-ci il iyun ayının 23-də yaradılmışdı. İlk əvvəl o Ali Komandanlığın Qərargahı adlanırdı. Onun sədri Müdafiə Komissarı Marşal S.K.Timoşenko, üzvləri İ.V.Stalin S.M.Budyonnı, K.E.Voroşilov, Q.K.Jukov (Baş Qərargahın rəisi), M.Q.Kuznetsov, V.M.Molotov təyin edilmişdi**.** Qərargahın yanında müşavirlər qrupu yaradılmışdı. Oraya L.P.Beriya, N.V.Vatutin, İ.A.Voznesenski, N.N.Voronov, A.L.Jdanov, R.F.Jiqarev, Q.İ.Kulik, Q.M.Malenkov, K.A.Meretskov, L.Z.Mexlis, A.İ.Mikoyan, V.M.Şapoşnikov daxil olmuşdular. İşçi orqan Baş Qərargah idi. Əslində elə bir şərait yaranmışdı

L.Beriya
SSRİ Xalq Daxili İşlər Komissarı (1941-ci ildən)

İ.Voznesenski
SSRİ XKS sədrinin 1-ci müavini

L.Mexlis
SSRİ Xalq Müdafiə Komissarının müavini

ki, 2 baş komandan fəaliyyət göstərirdi, biri hüquqi, o biri isə faktiki. Bu əlbəttə, Baş Qərargahın işini çətinləşdirirdi. Müdafiə Komissarı S.K.Timoşenko Qərargahın sədri kimi İ.V.Stalinin razılığı olmadan heç bir prinsipial vacib qərar qəbul etmirdi.

1941-ci il iyul ayının 10-da DMK-nin qərarı ilə Qərargah Baş Komandanlıqdan Ali Baş Komandanlığın Qərargahı kimi yenidən yaradıldı. Avqustun 8-də Stalin Ali Baş Komandan təyin edildi. Əslində ordu və xalq üzərində tam və bölünməz hakimiyyət İ.Stalinin əlində cəmləşdi. O, Siyasi Büronun üzvü, ÜİK(b)P MK-nın Baş Katibi, DMK-nin sədri, XKS-nin sədri, Müdafiə Komissarı və Ali Baş Komandan kimi 6 vəzifə aparırdı. Sovet dövlətinin rəhbərliyi müharibənin ilk günlərindən düşmənə qarşı aydın mübarizə proqramı ilə çıxış etdi. SSRİ dövlətinin 1941-ci il 22 iyun bəyanatında, ÜİK(b)MK və SSRİ XKS-nin 23 iyun tarixli qərarında, SSRİ XKS və ÜİK(b)MK-nın 29 iyun tarixli direktivində və DMK-nin sədri İ.V.Stalinin radio ilə 3 iyul tarixli çıxışında partiya və sovet orqanlarının, ictimai təşkilatların və bütün zəhmətkeşlərin müharibə şəraitində vəzifələri müəyyən edildi.[1]

Müharibənin başlanması ilə ideoloji iş sahəsində qarşıda duran vəzifələr dəyişdi və müharibə tələblərinə uyğun qurulmasına başlandı. Müharibənin ilk günlərindən kütlələr arasında aparılan ideya-siyasi iş partiya və hökumətin 1941-ci il 29 iyun tarixli Direktivinin tələbləri əsasında quruldu. Direktivdə deyilirdi ki, "…faşist Almaniyası ilə cəlb olunduğumuz müharibədə sovet dövlətinin olum və ya ölüm məsələsi həll olunur"[2]. "… işin bütün sahələrində ciddi mərkəziyyət, müstəsna operativlik olmalı, hər bir partiya təşkilatı, hər bir dövlət orqanı tapşırıqların vaxtında və dürüst yerinə yetirilməsini təmin edən qərargaha çevrilməli, məsələlər operativ həll edilməli, göstərişlər və direktivlər dürüst və dərhal yerinə yetirilməlidir".[3]

Mənəvi səfərbərlikdə qarşıda duran vəzifələrdən biri xalqlar arasında dostluğun möhkəmlənməsi, adamların vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyəsi idi. Xalqda mübarizənin ədalətli olduğuna inam, döyüşçülərdə və arxa cəbhədə adamlar arasında yüksək mənəvi ruh yaratmaq başlıca istiqamət olmalı idi.[4] Ona görə də, hər kəs müharibənin məqsəd və vəzifələrini, onun ədalətli, azadlıq xarakterini bilməli və başa düşməli idi.

---

[1] Mədətov, Q.Ə. Azərbaycan 1941-1945-ci illər müharibəsində. (Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri) / Q.Ə.Mədətov. – Bakı, 2018. – s.18-19.

[2] Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференции и пленумов ЦК:Т 12. Москва, 1977. – с. 404.

[3] Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференции и пленумов ЦК:Т 12. Москва, 1977.– с. 18.

[4] Sovet xalqının böyük rəşadəti (1941-1945-ci illər Böyük Vətən müharibəsində Sovet İttifaqının qələbəsinin 30 illiyi münasibətilə. Bakı, 1975.– s.6.

İdeoloji işdə faşist idelogiyasına nifrət, hakim alman şovinizminə və rasizmə qarşı arasıkəsilməz mübarizə əsas yer tuturdu. Həyata keçirilən ideya-siyasi işin məzmunu, istiqaməti, onun təşkilat quruluşu müəyyənləşdirildi. Avqust ayının 6-da Azərbaycan K(b)P MK-nın rayon komitələrinə göndərdiyi təlimatı məktubda tələb olunurdu ki, şəhər və rayon komitələri işini yenidən qurmalı, sənaye müəssisələrində, MTS-lərdə, kolxoz və sovxozlarda, çağırış məntəqələrində təşviqat məntəqələri yaradılmalı… bütün təbliğat və təşviqat işləri hərbi sayıqlığın yüksəldilməsinə, müdafiənin gücləndirilməsinə və əmək məhsuldarlığının artırılmasına xidmət etməlidir.[1]

Müharibənin ilk aylarında respublikada yaradılan 2633[2] təşviqat məntəqəsində 31.832 nəfər təşviqatçı çalışırdı.[3] 1.803 mühazirəçi ideya-siyasi işə cəlb olunmuşdu.[4]

1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3.331,8 min nəfər idi. Müharibə başlayanda orduya səfərbərlik respublikada ümumxalq hərəkatına çevrildi. Minlərlə oğlan və qız hərbi komissarlıqlara ərizə ilə müraciət edərək cəbhəyə getdilər. Müharibənin başlanğıcında təqribən 40 min adam könüllü surətdə əsgər köynəyi geyindi, təqribən 200 min adam xalq qoşununa yazıldı. Müharibənin birinci ilində Azərbaycan K(b)P 40 min kommunisti cəbhəyə göndərdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycan SSR-dən ordu sıralarına **698.237 nəfər kişi**, **11 min 266 qadın səfərbərliyə alındı, 260 min nəfərə qədər evdar qadın, təqaüdçü, yeniyetmə** istehsalata gəldi. Hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlandı. Azərbaycan SSR ərazisində **87 batalyon, 1123 özünümüdafiə dəstəsi**, **77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar** formalaşdırıldı.[5]

Könüllülərin cəbhəyə yola salınması. Bakı, 1941-ci il

1941-ci il iyun ayının 4-ü üçün Bakı şəhərində 75.000, Naxçıvan MSSR-də 7.000, Kirovabadda (Gəncədə) 10.000 nəfər Xalq Qoşunu sırala-

[1] Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945 / Q.Ə.Mədətov.– Bakı, 1965.– s.242.
[2] ARPİİSSA, Fond №1, siyahı № 103, iş №88, vərəq –183.
[3] Yenə orada, iş №52, vərəq – 7.
[4] Yenə orada, siyahı № 237, iş №99, vərəq – 74.
[5] Yenə orada, siyahı № 280, iş№ 4, vərəq –108-109.

rına yazıldı.[1] Ümumilikdə 1941-ci il ərzində respublika 186.704 nəfər Xalq Qoşunu sıralarına yazılmışdı.[2]

Respublikada hərbi təlim proqramının tətbiqi ilə bağlı ümumi icbari təlimə başlandı. 1941-ci ilin sonu 1942-ci ilin əvvəlinədək respublikada 700 mindən çox adam bu proqrama cəlb edildi, 400 minə yaxın adam təlim kursunu davam etdirdi.[3]

SSRİ hökumətinin 1941-ci ilin IV rübü və 1942-ci il üçün qəbul etdiyi xalq təsərrüfatı planında Azərbaycan əməkçilərinin vəzifələri müəyyənləşdirilmişdi. Respublikada yüksək oktanlı benzinlər, sürtgü yağları istehsalının artırılması, atıcı silahlar, hərbi ləvazimat buraxılması, ağır hərbi texnikanın təmirinin təşkil edilməsi planlaşdırılmışdı. Nəqliyyatçıların işinin yenidən qurulması yeni dəmiryol xətlərinin çəkilməsi və istifadəyə verilməsini, parovozların hərəkətinin xüsusi hərbi qrafiklə təmin olunmasını, dəmiryol və dəniz nəqliyyatının hərbi qaydada işləmək qabiliyyətinin artırılması tələb olunurdu. Azərbaycanın kənd təsərrüfatı əməkçiləri qarşısında respublika çörək bazasını yaratmaq, taxıl, pambıq, yaşıl çay yarpağı, heyvandarlıq məhsulları istehsalını artırmaq, hərbi təsərrüfat əhəmiyyətli yeni növ kənd təsərrüfatı bitkiləri əkib-becərmək vəzifələri qoyulmuşdu. Respublikanın elm və mədəniyyəti ölkənin müdafiəsi işinə tabe edilməli idi.[4]

Müharibə şəraitində ən vacib vəzifələrdən biri cəbhəyə səfərbər olunanların istehsalatda əvəz olunması idi. Azərbaycan K(b)P yerli partiya və sovet təşkilatlarına ünvanladığı 28 iyun 1941-ci il tarixli məktubunda bildirilirdi ki, orduya səfərbərlik müəssisələrdə işin ritmini pozmamalı,[5] cəbhəyə gedənləri əmək veteranları, cəbhəçilərin həyat yoldaşları, gənclər və yeniyetmələr əvəz etməlidir. Müharibə dövründə respublikada 26 min əmək veteranı istehsalata qayıtdı.[6] Müharibənin ilk 8 ayı ərzində cəbhəçi ailələrindən 16 min qadın sənaye müəssisələrinə gəldi. Müharibənin birinci ilində təkcə neft sənayesində 13 mindən artıq gənc işə qəbul olundu.[7] 1942-ci ilin yayında neft sənayesində 25 min qadın işləyirdi. Bu neft sənayesi fəhlələrinin 33 faizinin təşkil edirdi.[8]

1942-ci ilin sonunda respublikada istehsal olunan ümumi məhsulun 90-95 faizini hərbi məhsullar təşkil edirdi. Təkcə 1942-ci ildə hərbi məhsul istehsalı 10 dəfədən çox artmışdı. Dzerjinski adına zavodda silah istehsalı

---

[1] ARPİİSSA, Fond №2, siyahı № 42, iş №23, vərəq – 27.
[2] Yenə orada, siyahı № 153, iş №89, vərəq – 1.
[3] Yenə orada, iş №193, vərəq – 284.
[4] Böyük Oktyabr ideyalarının təntənəsi.–Bakı, 1987. – s.165.
[5] ARPİİSSA, Fond №1, siyahı №16, iş№ 2, vərəq – 13.
[6] Yenə orada, siyahı №1, iş№ 3, vərəq – 119.
[7] Yenə orada, siyahı №169, iş№ 6, vərəq – 39.
[8] Böyük Oktyabr ideyalarının təntənəsi.–Bakı, 1987. – s.166.

may ayı ilə müqayisədə iyun ayında 144, avqust ayında 268, oktyabr ayında 433, noyabr ayında 449 faiz olmuşdu.[1]

Respublika partiya təşkilatı ordu hissələrində kütləvi siyasi işi genişləndirmişdi. Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS-nin "Partiya siyasi işçilərin Qızıl Ordu sıralarına səfərbər edilməsi haqqında" 24 sentyabr 1941-ci il tarixli,[2] "Azərbaycanlı qızıl ordu döyüşçüləri arasında partiya-siyasi işin qüvvətləndirilməsi tədbirləri haqqında" 10 oktyabr 1941-ci il tarixli[3], "Respublikada formalaşdırılmış hərbi hissələrdə siyasi tərbiyə işini genişləndirmək tədbirləri haqqında" 13 noyabr 1941-ci il tarixli[4] qərarları mənəvi və hərbi səfərbərliyə təkan verdi. Əhali arasında aparılan məqsədyönlü kütləvi-siyasi və təşkilati iş nəticəsində kənd təsərrüfatı məhsulları tədarükünə dair planlar yerinə yetirildi. Azərbaycan əməkçiləri cəbhə üçün nəzərdə tutulan məhsulların göndərilməsinə nail oldular. Döyüşən ordu əsgərləri üçün müxtəlif geyim şeyləri toplandı, istiqraz vərəqələrinə yazılış, tank və təyyarə kolonları yaradılmasına vəsait toplanışı mütəşəkkil keçdi.

Qəhrəman qala –Brest uğrunda döyüşlər

Məlumdur ki, antik dövrdə ticarətdə əsas rolu yollar və çaylar oynayırdı. Sonralar sığınmaq və mühafizə rolunu oynayan qalalar meydana gəldi. XI əsrdə ortaya çıxan qalalardan biri də Brestye (Brest) idi. Qala çox əlverişli bir yerdə - Qərb Buq və Mukhavets (Muxavets) arasında yerləşdiyindən Berestye tezliklə böyük bir ticarət mərkəzi statusu əldə etdi. İki su yolları şərqdən qərbə və əksinə gediş-gəlişə imkan verirdi. Buq vasitəsilə Polşa, Litva və Avropaya, Muxavets boyunca, Pripyat və Dneper vasitəsilə, Qara Dəniz və Yaxın Şərqə gediş-gəliş mümkün idi. Mənbələr orta əsr Brest qalasının gözəlliyi haqqında məlumat verir. Erkən orta əsrlər dövrünün qala heykəllərinin təsvirləri muzey eksponatlarını xatırladır. Brest qəsrinin dövlətin səlahiyyətinə keçməsindən sonra şəhərin planında quru qoşunlarının yerləşməsi məqsədilə kiçik dəyişikliklər baş vermişdir.

800 il mövcud olan Brest qalası Polşa-Litva Birliyi (Polşa) və Litva hökmdarlarının təsiri altında olmuş və yalnız 1795-ci ildə Rusiya torpaqlarının tərkib hissəsinə çevrilmişdi. Ancaq Napoleonun işğalına qədər çar Rusiyası qədim qalaya çox əhəmiyyət verməmişdi. Yalnız 1812-ci ildə rus-fransız müharibəsi dövründə Brest qalası etibarlı bir mövqe kimi əhəmiyyət kəsb etdi, lakin rus qoşunları fransız qoşunları üzərində qələbə qazanaraq qalada möhkəmləndi.

1835-ci ildə Brest qəsəbəsində yanğın baş verdi. Yanğın təxminən 300 binanı məhv etdi və baş verən yanğın qalanın yenidənqurma prosesini sü-

---

[1] Böyük Oktyabr ideyalarının təntənəsi. – Bakı, 1987. – s.168.
[2] ARPİİSSA, Fond №1, siyahı №103, iş №46, vərəq – 7-8.
[3] Yenə orada, iş №49, vərəq – 160-162.
[4] Yenə orada, siyahı №103, iş №52, vərəq – 7.

rətləndirdi. 1835-ci il yanğınından dərhal sonra, çar hökuməti qalaya dövlət əhəmiyyəti olan bir qərb fosfat statusu vermək üçün onu modernləşdirməyə qərar verdi, zərər çəkənlərə pul vəsaiti və tikinti materialları şəklində kompensasiya verildikdən sonra, dövlət onları qala kənarında deyil, ayrı-ayrılıqda yerləşdirməyə razı saldı. Qoşundan iki kilometr uzaqlıqdakı qala bir qoruyucu funksiyası qazandı. Qalada 12 min əsgər yerləşdirmək mümkün oldu. Qala 9 qülləli bir zireh ilə möhkəmləndirildi, qalanın yenidən qurulması 6 il davam etdi.

Qalanın "ürəyinə" giriş dörd qapıdan ibarət idi. Onlardan üçü, əlçatmazlığının simvolu kimi, müasir Brest qalası tərəfindən qorunub saxlanılmışdı.

1939-cu ildə Qərbi Belarusiyanın Polşadan olan bu tarixi bölgəsi SSRİ-yə verildi. Qala Belarusiya Respublikasının Brest şəhərinin inzibati hissəsinə çevrildi. Qala istehkam olaraq, SSRİ-nin qərb sərhədindəki müdafiə xəttinin ümumi sxeminə daxil edildi və onun ərazisində fərqli birləşmələrdən ibarət hərbi qarnizon yerləşdirildi.

İkinci dünya müharibəsinin başlanmasının ikinci günündə - sentyabr ayının 2-də Brest qalasına alman təyyarələri 10 bomba atdı, Ağ Saray zədələndi. Bombardman zamanı qalada 35-ci batalyon, 82-ci piyada alayı və digər hissələr, həmçinin öz hissələrinə göndərilmək üçün səfərbər edilmiş ehtiyatdakılar vardı.

K.Plisovski

Şəhər qarnizonu və qala general Frantsişka Kleeberqin "Polese" operativ qrupuna tabe idi. Sentyabrın 11-də qarnizona rəis general **Konstantin Plisovski** təyin edildi. O, öz tabeliyində olanlardan 2.000-2.500 nəfərlik döyüş qabiliyyətli dəstə təşkil etdi. Sentyabrın 13-də qaladan hərbçilərin ailələri köçürüldü, körpülər və keçidlər minalandı, qalanın baş qapısı tanklarla mühasirəyə alındı, quru qoşunları üçün səngərlər tikildi.

Buğ çayı üzərindən Brestə Quderianın zirehli tank korpusu hücuma keçdi. Quderian nəzərdə tuturdu ki, şəhəri tutsun, cənuba tərəf hərəkət edərək polyakların əsas qüvvələrinin cəmləşdiyi "Narev" qrupu ilə birləşməsinə imkan verməsin. Alman hissələri qala müdafiəçilərindən quru qüvvələrinə görə 2 dəfə, artilleriyaya görə 6 dəfə üstün idilər. Sentyabrın 14-də 10-cu tank diviziyasının 77 tankı şəhəri və qalanı ələ keçirməyə cəhd etdi, lakin dəf olundular. Həmin gün alman aviasiyası qalanı bombalamağa başladı. Növbəti günün səhərisi küçə döyüşlərindən sonra almanlar şəhərin böyük hissəsini ələ keçirməyə nail oldular. Sentyabrın 16-da səhər almanlar 10-cu tank və 20-ci motorlaşdırılmış diviziyalarla qalaya hücuma başladılar. Axşama doğru qismən üstünlük əldə olunsa da, irəli gedə bilmədilər. Qalanın qapısını qoruyan FT-17 tankları almanlara böyük itki verdi.

Ümumilikdə, sentyabrın 14-də almanların 7 hücumu dəf olundu, qala müdafiəçiləri şəxsi heyətin 40%-ni itirdi. Hücum zamanı Quderianın adyutantı yaralandı. Sentyabrın 17-də gecə döyüşlərində yaralanan K.Plisovski qalanı tərk etmək və Buğ çayını keçərək cənuba getmək haqqında əmr verdi. Qoşunlar zədələnməyən körpü ilə Terespol istehkamlarına və oradan Terespola getdilər.

Sentyabrın 22-də almanlar Brest qalasını sovet ordusunun 29-cu tank briqadasına verdi. Beləliklə, Brest və Brest qalası SSRİ-nin tərkibinə daxil oldu.

1941-ci il iyunun 22-də qalada 8 atıcı batalyon, 1 kəşfiyyat, 1 artilleriya alayı və 2 artilleriya diviziyası, bəzi xüsusi atıcı alayların və korpusların hissələri, 4-cü ordunun 28-ci atıcı korpusunun 6-cı Orlov və 42-ci atıcı diviziyası, 17-ci Qırmızı Bayraqlı Brest sərhəd dəstəsi, 33-cü əlahiddə mühəndis alayı, XDİK-nın 132-ci atlı batalyonun qoşunları-cəmi 7-8 min adam dislokasiya olunmuşdu.

Alman komandanlığı qalaya hücumu 45-ci piyada diviziyasına (təxminən 17 min nəfər) tapşırmışdı. Plana görə qala müharibənin birinci günü saat 12-dək alınmalı idi. Bu səbəbdən də, iyun ayının 22-də saat $3^{:15}$ dəqiqədə qalaya artilleriya atəşi başladı. Atəş nəticəsində anbar və su xətti dağıldıldı, ətrafla əlaqə kəsildi, qaladakı qarnizon ciddi itki verdi. İyunun 24-də almanlar möhkəmləndirilmiş Volınski və Terespol mövqelərini ələ keçirdilər, qarnizonun qalıqları mövqeləri saxlaya bilmədiklərindən axşam Sitadelə keçdilər.

Aerodromda vurulmuş sovet təyyarələri. 1941-ci il iyun.

Beləliklə, ordu Korinski və Sitadel möhkəmləndirilmiş mövqelərində cəmləşdirildi. Korinskidə adamların sayı təxminən 400 nəfər idi. Onlar mayor Pyotr Mixayloviç Qavrilovun komandanlığı altında diqqətlərini Şərq qalasına cəmləşdirdilər. Müdafiəçilər hər gün düşmənin 7-8 hücumunu dəfə

etməli oldular. İyunun 26-30 arasında mövqelər əldən verildi. Bununla da, qalanın müdafiəsinin təşkili iflasa uğradı.

1941-ci ildə bir sıra hərbi hissələrin daxil olduğu qalada möhkəmləndirilmiş hərbi qarnizon yaradılmışdı. Bunlar azsaylı tərkibi ilə 6-cı və 42-ci diviziyaların tərkibində olan 44-cü, 84-cü (3-cü batalyon – **Xolm qapısı** yaxınlığındakı kazarmada), 125, 333-cü atıcı alayları, 330-cu mühəndis alayı, 45-ci əlahiddə rabitə batalyonu, 455-ci, 170-ci və 226-cı artilleriya alayları, 211-ci artilleriya alayı, 393-cü əlahiddə artilleriya divizionu, eləcə də 447-ci korpus artilleriya alayı, 84-cü əlahiddə kəşfiyyat batalyonu, tank batalyonu, 18-ci əlahiddə rabitə batalyonu, 158-ci əlahiddə avtomobil batalyonu, 262-ci əlahiddə sanitar batalyonu, 17-ci sərhəd dəstəsinin 9-cu sərhəd məntəqəsi və NKVD qoşunlarının 132-ci əlahiddə batalyonu idi.

Brest qalası, Xolm qapısı

Qala qarnizonunun müdafiə mövqelərinə birbaşa hücum edən 45-ci Alman piyada diviziyasında 10 mindən çox əsgər vardı və onlar avtomobillər, zirehli maşınlar və artilleriya ilə tam təchiz olunmuşdu. Qala ilk gündən düşmən hücumlarını qətiyyətlə dəf etməyə başladı. Müdafiə günlərində 12-ci Ordu Korpusunun bütün qüvvələrinin yarısına qədərinə - bütün 45-ci və 34-cü Piyada Diviziyasının bir hissəsinə böyük zərbələr endirdi və onlara ağır itki verdi. Kəskin qida, dərman, sarğı, silah-sursat və xüsusilə içməli su çatışmazlığı şəraitində qalanın müdafiəçiləri, 1941-ci il iyulun 20-dək düşmənə fəal müqavimət göstərdilər. Düşmən yalnız ağır mühasirə silahlarından, o cümlədən mərmilərinin hər birinin ağırlığı 2 ton olan "Karl" adlandırılan özüyeriyən topdan (Nasist Almaniyasında cəmi 6 belə minaatan var idi) istifadə etməyə başladıqdan sonra qalaya sahib oldu və sağ qalan bütün qəhrəman müdafiəçilər əsir götürüldü.

Adolf Hitler, əsgər və komandirlərin misilsiz qəhrəmanlıqlarını eşidərək 1941-ci il avqustun 26-da şəxsən Brest qalasının xarabalıqlarını ziyarət etmiş, bu səfərdə italiyalı müttəfiqi Benito Mussolini də onunla olmuşdu.[1]

[1] http://etmtv.news/az%C9%99rbaycanlilar-brest-qalasininmudafi%C9% 99sind% C9%99-ii-yazi/

Brest qalasının müdafiəsi əfsanələrə bənzər qəhrəmanlıq nümunələri ilə 1941-1945-ci illər müharibəsi tarixinə daxil oldu. Brest qalasının müdafiəsi haqqında ilk məlumat 1942-ci ilin fevralında Krivtsov rayonunda Orlov altında alman qruplaşmasının məhv edilməsi zamanı ələ keçirilmiş sənədlərdən məlum oldu. 1948-ci ildə "Oqonek" jurnalında yazıçı Mixail Zlaoqorovun "Brest qalası" yazısı dərc olundu, 1951-ci ildə rəssam Ryotr Krivonoqov "Brest qalasının müdafiəçiləri" şəklini çəkdi. Sergey Smirnov 1955-ci ildə Brest qalası haqqında dram əsəri yazdı, 1956-cı ildə Konstantin Smirovun ssenarisi əsasında "Ölməz qarnizon" filmi çəkildi. Brest qalasının müdafiəçilərinin qəhrəmanlığı yazıçı Sergey Smirnovun inadkar axtarışları sayəsində illər sonra məlum oldu. İnsanlar Brest qarnizonunun ən məşhur müdafiəçilərinin adlarını ilk dəfə onun "Brest qalası" kitabından öyrəndi.



Brest qalası hücumdan sonra

1957-ci əvvəlində SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Brest qalasının müdafiəsinin rəhbərlərindən biri olan Pyotr Mixayloviç Qavrilova Sovet İttifaqı Qəhrəmanı adı verildi. 1958-ci ildə P.M.Qavrilov SSRİ Ali Sovetinə deputat seçildi. Mərkəzi qalanın qarnizonunun komandiri E.M.Fomin "Lenin" ordeni, mühasirənin qəhrəmanı, həlak olmuş kapitan İ.N.Zubaçov, kapitan V.V.Şablovski, böyük siyasi rəhbər N.V.Nesterçuk, leytenant A.F.Naqanov I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundular. Brest qalasının müdafiəçilərindən bir qrupu SSRİ-nin orden və medalları ilə təltif edildilər.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1965-ci il 8 may tarixli fərmanına (№ 3573-VI) əsasən Brest qalası fəxri ada – "Lenin" ordeni və "Qızıl Ulduz" medalı verilməklə "Qəhrəman qala" elan olundu.

1971-ci ildən Memorial Muzey Kompleksi statusu qazandı. Heykəltaraş Aleksandr Pavloviç Kibalnikovun layihəsi əsasında "Brest-Qəhrəman

qala” memorialı tikildi. Brest qalasının qəhrəman müdafiəsinə dair bədii və sənədli filmlər çəkilmişdir.

Brest qalasının müdafiəsində Azərbaycandan hərbi xidmətə çağırılmış əsgərlər də iştirak etmişdilər. Bu onların ilk döyüş meydanları deyildi. Azərbaycanlılar Xasan gölü, Xalxin-Qol döyüşlərində, sovet-fin müharibəsində iştirak etmiş, onların çoxu orden və medallarla təltif olunmuşdular.

Brest qalası və Brest qarnizonunun şəxsi heyəti 4.000 nəfərdən çox olmuşdu.[1] Dəqiq olmayan məlumata görə onların arasında azərbaycanlıların sayı 44 (bəzi mənbələrdə 80) nəfər göstərilir. Brest qalasının müdafiəçiləri arasında **İmran Mehtiyev, Aslan Qafarov, Qaraşov, Nəbi Məmişov, Qarayev, Allahverdi İmanov, İbrahim Səfərov, Andrey Kastrulyin, Muxtar Qədimov,**[2] **Aleksey Korobov, Pavel Korobov, Aleksey Novoyatlov, Nəsir İsgəndərov, Vasili Boqdanov** və b. adları tez-tez xatırlanır.[3]

Qalanın azərbaycanlı müdafiəçilərindən biri **Ənvər Mirzə Mansur oğlu Mansurov** idi. Məşhur musiqiçi Niyazi Kərimov “Ölümün gözünün içinə baxan Azərbaycan musiqiçiləri” kitabında 70 bəstəkar, musiqiçi, konservatoriya tələbələri arasında bəstəkar Eldar Mansurovun əmisi Ənvər Mirzə Mansur oğlu Mansurovun da adını çəkmişdir.

Ə.Mansurov 1917-ci il dekabrın 19-da Bakıda Mirzə Mansur oğlunun ailəsində anadan olmuşdur. 1939-cu ildə ordu sıralarına çağırılan Ə.Mansurov əvvəlcə SSRİ-Finlandiya müharibəsində (1939-1940) iştirak etmiş, 1941-ci ildə Brest qarnizonuna köçürülmüşdür. O, faşistlərin müdafiəçilərə növbəti hücumunu dəf edərkən qəhrəmancasına həlak olmuşdur. “Kommunist” qəzetinin 1958-ci il 23 fevral tarixli nömrəsində dərc olunan “Brest qalasının şanlı müdafiəçiləri” yazısında L.Poladov qala müdafiəçiləri, o cümlədən Ə.Mansurov haqqında məlumat vermişdir.[4]

Yuri Fominin (komissar Yefim Fominin oğlu) 2001-ci ildə Kiyevdə nəşr olunan «Человек из легенды» kitabında Brest qalasının müdafiəçiləri sırasında 84-cü atıcı alayın 9-cu bölüyünün əsgəri kimi azərbaycanlı döyüşçü Daniyal Abdullayevin adı 2 dəfə xatırlanıb. Təəssüf ki, 2009-cu ildə müəllifin eyni adla Kiyevdə yenidən çap olunan kitabında isə Daniyal Abdullayevin adı silinmişdir.

---

[1] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Э. Шарипов. – Баку, 2018. – с. 11.

[2] Yenə orada, c. 36.

[3] “Kommunist” qəzeti, 1958. 23 fevral

[4] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Э. Шарипов. – Баку, 2018. – с. 13.

84-cü piyada alayının 3-cü batalyonunun 9-cu bölüyünün taqım komandirinin köməkçisi olan serjant **Daniyal Əbdul oğlu Abdullayev** Azərbaycan SSR-in Balakən rayonunun Mahamalar kəndində dünyaya göz açmışdı. Qala uğrunda gedən döyüşlər zamanı başından ağır qəlpə yarası alan D.Abdullayev iyunun 30-da almanlar tərəfindən əsir götürülmüşdür. Polşada-Byala Podlyaska, Demblin və Edlind, Almaniyada Noyhammer şəhərinin yaxınlığındakı düşərgələrdə əsirlik həyatı yaşayan D.Abdullayev 1943-cü ildə qaçmağa müvəffəq olaraq fransız partizanlarına qoşulmuş, əvvəlcə sıravi əsgər, sonra isə bölük komandiri kimi döyüşlərdə müstəsna igidlik göstərmiş, xüsusi xidmətlərinə görə iki dəfə Fransa Respublikasının "Hərbi Xaç" ordeni ilə təltif edilmişdir.[1] D.Abdullayev müharibədən sonra vətəninə qayıtmışdır.

Brest qalası müdafiəçiləri arasında 84-cü piyada alayının rabitə bölüyünün əsgəri, əslən Gədəbəy rayonunun Kiçik Qaramurad kəndindən olan 84-cü alayda xidmət etmiş **Nəsir Məmməd oğlu İskəndərov, Ağamirza Əli oğlu Nəzərov**, 333-cü piyada alayının hava hücumundan müdafiə bölüyünün komandiri serjant **Xəlil Həmzə oğlu Haqverdiyev** də vardır.

Xəlil Həmzə oğlu Haqverdiyev – Müharibəyə qədər Gədəbəy rayonunun Çaldaş kəndində musiqi müəllimi işləmiş, sonar ordu sıralarınaa səfərbər olunmuş, 84-cü atıcı alayın 3-cü batalyonunda xidmət etmişdir. 1941-ci il iyunun 22-də qalanın müdafiəsi zamanı həlak olmuş, Brest qalasının ərazisində dəfn olunmuşdur.

Qalanın müdafiəsinin iştirakçıları arasında kapitan **Sahib Məmmədov** və tankçı **Nicad Abdullayevin** adı da fəxrlə çəkilir.

Brestdəki bir tank rotasının komandiri olan **Nəcəf Ağa oğlu Abdullayev** Brest bölgəsində yerləşən 22-ci Tank Diviziyasının 2-ci batalyonunda komandir olmuşdur. Nəcəf ailəli idi. Müharibənin başlandığı gün ailəsi qalada idi. Düşmənin davamlı hücumlarını dəf edən günlərdə almanlar qeyri-adi bir mərhəmət nümayiş etdirərək uşaqları olan qadınları qalanın kə-

[1] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть–Литовский крепости / Э.Шарипов – Баку, 2018. – s. 14.

narındakı mühasirədən azad edirlər. Onların arasında N.Abdullayevin ailəsi də vardı. 8 ildən sonra o, ailəsini tapa bilmişdi.[1]

1962-ci ildə Bakıda "Azgosizdat" tərəfindən "Bakınskiy raboçiy" qəzetinin müxbiri Lev Adolfoviç Polonskinin 40.000 tiraj "Mühasirədə olan Brestdə" adlı kitabı çap olunmuşdur. Kitabda qala müdafiəçilərindən **İmran Mehdiyev, Boris Mixaylovski, Nəbi Məmışov, habelə sağ qalanlar Andrey Kastryulin, Muxtar Qədirov və başqalarının adları fəxrlə çəkilir.**

1941-ci il iyunun 1-nə olan məlumata görə 84-cü atıcı alayın ştatında döyüşçü və komandirlərin sayı 2154 nəfər olmuşdur. Onlardan uzun axtarışlar nəticəsində 675 nəfərin adı müəyyənləşdirilmişdir.[2]

84-cü piyada alayının hərbi həkimi Muxtar Məmməd oğlu Qədirov (Kadırov) Bakıdan olmuşdu. Müharibə M.Qədirovu Cənub Adadakı tibbi batalyonda öz növbətçi olduğu vaxt yaxalamışdı. Atışma altında Muxtar Qədirov xidməti borcunu vicdanla yerinə yetirərək yaralı əsgərlərlə birlikdə (onların arasında bud nahiyəsindən ağır yaralanan **Qəmbər Teymurov** da vardı) almanlara qarşı son çıxılmaz bir əks-hücumu təşkil etdi. Qalanın müdafiəsi günlərində düşmən toplarının atəşi altında əsgərlərin həyatını xilas edən hərbi həkim M.Qədirov ağır yaralanaraq əsir alındı. O, düşərgənin ağır həyatına dözərək əsirləri xilas etməkdən çəkinmədi.[3] Əvvəlcə Byala Podlyaska əsir düşərgəsində, sonra Marburqda, daha sonra hərbi əsirlər üçün Varşava hərbi müalicə məntəqəsində oldu. Azərbaycan mühacirləri tərəfindən həkimin azadlıq müqabilində millətçi təşkilatların birində iştirak etməyə inandırmaq cəhdi göstərilsə də, M.Qədirov razılıq vermədi. Nəhayət müharibənin sonunda Muxtar Məmməd oğlu Qədirov vətəninə qayıtdı və kənddə rayon həkimi kimi fəaliyyətini davam etdirdi.

Siyasi rəhbər müavini Andrey İvanoviç Kastryulin, əslən Şamaxı rayonunun Çuxuryurd kəndindəndir. 84-cü piyada alayının 120 mm-lik minaatan batareyasının siyasi rəhbər müavini olan A.İ.Kastryulin komissar Fominin əmrinə görə 3-cü bölüyün başında mühasirənin yarılmasına cəhddə iştirak etmişdi. İkinci qrupun (4-cü bölük) rəhbəri Semyon Xnıkin olmuşdur. Qruplar döyüşçülərin yarıdan çoxunu itirmiş, əvvəlki çıxış vəziyyətinə qayıt-

[1] http://etmtv.news/az%C9%99rbaycanlilar–brest–qalasinin–mudafi%C9%99sind%C9%99/

[2] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Шарипов Э. – Баку, 2018. – с. 35.

[3] "Kommunist" qəzeti, 1958, 23 fevral

mışlar. Sonralar A.Kastryulin əsir düşmüşdür. O, əsirlikdən qaçmış, Sloveniyada partizan dəstəsində döyüşmüşdür. Sağ qalmışdır.[1] Müharibədən sonra Bakıda Pedaqoji İnstitutu bitirib Şamaxıya qayıdan A.Kastryulin kənd məktəbində müəllim işləmişdi. O, bir müddət kolxoz sədri vəzifəsini də icra etmişdir. Brest qalasının müdafiəsi zamanı göstərilən qəhrəmanlığa görə Andrey İvanoviç Kastryulin "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

Semyon Xnıkin Gədəbəy rayonunun Novo-Saratovka kəndində anadan olmuşdur. Siyasi rəhbər müavini idi. 1941-ci il iyun ayının 24-də Sitadelin müdafiəsi üçün qalanın müdafiəsinə dair birləşmiş komandanlığın yaradılması haqqında məşhur iclasda iştirak etmişdir. S.Xnıkin komissar Fominin əmrinə əsasən 4-cü bölüyün şəxsi heyəti ilə mühasirənin yarılmasına başçılıq etmişdir. 3-cü rotaya A.İ.Kastryulin başçılıq etmişdir. Əməliyyatda uğursuzluq nəticəsində qrup döyüşçülərin yarısını itirmişdir.

Şəmkir rayonunun Kiçik Qaramurad Dərya kəndindən olan **Xəlil Məmmədov** (Başqa mənbədə Gədəbəyin Kiçik Qaramurad kəndinin adı çəkilir) 84-cü Piyada alayının 76 mm-lik artilleriya batareyasında xidmət etmişdir. Qala müdafiəçilərindən biri olmuş, nasistlərə qarşı süngü hücumlarında iştirak etmişdir. Müdafiə döyüşlərinin birində, iyunun 30-da almanlar tərəfindən əsir götürülmüş, əsirlikdə, faşistlərə komissar Yefim Fomini nişan vermiş xaini əlləri ilə boğub öldürmüşdür.

Qala uğrunda döyüşlərin iştirakçısı **Allahverdi Ələkbər oğlu İmanov** Gürcüstan SSR-in Sartıçala kəndində doğulmuşdur. Hərbi xidmətə çağırılanadək Bakıda avtobazada sürücü işləmiş, 1939-cu ilin dekabrında Azərbaycan SSR-in Bakı şəhərindən orduya çağırılmışdır. 333-cü alayın musiqi taqımının truba çalanı olmuşdur.

İbrahim Şirəli oğlu Səfərov 1910-cu ildə Neftçala rayonunun Aşağı Qaramanlı kəndində anadan olmuşdu. 1939-cu ilin dekabrında orduya çağırılmışdı. 333-cü piyada alayının musiqi taqımının barabançısı olan A.İmanov və İ.Səfərov düşmən hücumlarının dəf edilməsində və nasistlərlə çoxsaylı əlbəyaxa döyüşlərdə iştirak etmişlər. Almanlar tərəfindən məhv edilən hərbi mağazadan yaralılara, qadınlara və uşaqlara yemək daşıyıb vermişlər. Baş leytenant Potapovun əmri ilə Allahverdi İmanov belarusiyalı serjant Vasili ilə birlikdə, mühasirədən çıxmaq üçün almanların mövqelərindəki zəif nöqtəni müəyyənləşdirmək üçün kəşfiyyat işində də iştirak etmişlər. Belə reydlərin birində Vasili öldürülmüş, **A.İmanov iyunun 30-da baş leytenant Potapovun komandanlığı altındakı qrupla mühasirədən çıxmağı bacarsa da, qaladan kənarda, Brest bölgəsində faşistlər tərəfindən tutulmuşdu.** Döyüş zamanı İbrahim Səfərov da tutularaq əsir götürülmüşdü. Müharibədən sonra **A.İmanov** və **İ.Səfərov** vətənlərinə qayıtmışlar.

---

[1] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть–Литовский крепости / Шарипов Э. – Баку, 2018. – с. 20.

Gədəbəy rayonunda anadan olmuş **serjant İ.Dadaşov,** alay komissarı Fominin başçılığı ilə, düşmənin hücumunun dəf olunması və qala ərazisinə girən növbəti alman dəstələrinin məhv edilməsində iştirak etmişdi. O, bir qrup döyüşçü ilə nasistlər tərəfindən tutulan 84-cü piyada alayının klubuna hücum edənlər sırasında olmuş, 135-ci Vermaxt piyada alayının bölmələrinin sonrakı ləğvində yaxından iştirak etmişdir. İyunun 23-də İ.Dadaşov, silahında və qalan üç mərmidən istifadə edərək, körpünü partlatmış və düşmənin hücumunun qarşısını almışdır. Komissar Fominin əmri ilə Üç arkalı darvazaya edilən hücumda da iştirak edən serjant İ.Dadaşov 1941-ci il iyunun 28-də qalanın zirzəmilərinə sığınan yaralı döyüşçülər, qadınlar və uşaqlar üçün su çıxararkən Muxavets çayının sahilində həlak olmuşdur.

Yevlaxdan hərbi xidmətə çağırılan **serjant İmran Mehdiyev** 84-cü piyada alayının 3-cü batalyonunda xidmət edib. Almanlara qarşı dəfələrlə əks-hücumlarda iştirak etmiş, **1941-ci il iyun ayının 23-də Sablin ilə birlikdə zirzəmi üzərində bayrağı qaldırmışdır.** Mühasirədən çıxmaq məqsədi ilə almanların mövqelərindəki zəif cəhətləri müəyyən etmək üçün o döyüşçü əsgərlərlə Muxovets çayının dibi ilə o biri tərəfdə kəşfiyyat işlərində iştirak etmişdi. Mühasirədən çıxmağa çalışarkən Komisar Fominin təşkil etdiyi hücumda siyasi rəhbər Semyon Xnıkinin qrupunda iştirak etmiş, 1941-ci il iyunun 27-də həlak olmuşdur. O, həyətində dəfn edilmişdir. İ.Mehdiyevin qəhrəmanlığını haqqında "Kommunist" qəzetinin 1958-ci il 23 fevral tarixli, "Молодеж Азербайджана" qəzetinin 1956-cı il 17 oktyabr tarixli sayında dərc olunan məqalələrdə məlumat verilmişdir.

Борис Михайловский

Boris Nikolayeviç Mixaylovski – 1912-ci ildə Krasnodar ölkəsinin Kuban vilayətinin Slavyanskaya stanitsasında anadan olmuşdur. 30-cu illərin repressiyası B.N.Mixaylovskinin ailəsindən də yan keçməmişdir. Onun atası xalq düşməni elan olunaraq Sibirə sürgün olunmuş, anası Larisa Qriqoryevna pensiya hüququndan məhrum edilmişdir.

B.N.Mixaylovskinin 1920-ci ildə 8 yaşı olmasına baxmayaraq, ona da ittiham elan edilmişdir. Həbsdən qaçmaq üçün tanış müəlliməsinin məsləhəti ilə doğma yerlərini tərk edərək Azərbaycan SSR-in Gədəbəy rayonunun Novo-İvanovka kəndinə gəlmişlər. 1939-cu il dekabrın 20-də B.N.Mixaylovski Gədəbəy Rayon Hərbi komissarlığından ordu sıralarına çağırılmışdır.

B.N.Mixaylovski komissar Y.Fominin təşəbbüsü ilə 24 iyunda vahid müdafiə komandanlığının yaradılması ilə bağlı məşhur iclasın iştirakçı-

larından biri idi. İştirakçılarının tam siyahısı budur: alay komissarı Fomin, kapitan İvan Nikolaeviç Zubaçev, baş leytenant Semenenko, baş leytenant Potapov, leytenant Vinogradov (zirzəmi penceresinde karandaşla dayanır, əmrin mətnini diktəsi altında yazır), sərhədçi leytenant Andrey Kijevatov, Skripkov, Xnıkin, Andrey Kastryulin, baş leytenant Ananiashvili, starşina Boris Mixailovski, siyasi kəşfiyyat zabiti. 30 iyun tarixinədək Boris həmişə komissar Fominin yanında idi, əslində onun ən yaxın köməkçisi və məsləhətçisi idi. Alman pulemyotçuları tərəfindən 30 iyun tarixində həlak olduğu düşünülürdü, amma əslində, geri dönərkən yolda bombardmana düşmüşdü. Mixaylovskinin bir dostu, 1963-cü ildə Minskdə nəşr olunan "Qəhrəmanlıq Müdafiəsi" kitabındakı xatirələrində, Mixaylovskinin 22 iyun 1941-ci il tarixində almanlarla əlbəyaxa döyüş zamanı öldüyünü bildirir.[1]

Brest qalasının qəhrəman müdafiəçilərindən biri də **Qaraşov** idi. O, əl pulemyotu ilə almanlara ciddi itkilər vermiş, onları geri çəkilməyə məcbur etmişdir. Döyüşdə ağır yaralanmış Qaraşov iyunun 28-də həlak olmuşdur.

Serjant **Qarayev** Nuxadan idi. O, müharibəyədək çoban işləmişdi. 84-cü atıcı alayın 3-cü batalyonunda xidmət etmişdir. Qarayev faşistlərin hücumunun dəf olunmasında fəallıq göstərmiş, almanlarla əlbəyaxa döyüşə girmişdi. Belə hücumların birində Qarayev serjant N.A.Tarasovun həyatını xilas etmişdir. Təəssüf ki, A.N.Tarasov 1963-cü ildə Minskdə nəşr olunan "Героическая оборона" ("Qəhrəman müdafiə") kitabında 1939-cu ildə birlikdə ordu sıralarına çağırılan öz silahdaşını xatırlamamışdır.

Almanlar ilə döyüşlərdə mühəndis batalyonunun veterinar-texniki işçisi əsgər **Qəmbər Teymurov** da iştirak etmişdir. Həyatını təhlükə altına atan Qəmbər, yanan anbardan 5 qutu döyüş sursatı götürərkən əllərini yandırmışdı. S.S.Smirnov "Brest qalası" kitabında yazır ki, gecələrin birində damdakı alman təxribatçıları ilə döyüşə atılan Qəmbər bir almanı məhv etmiş, digərini isə ələ keçirməklə başqa partlayışın qarşısını almışdı.

Q.Teymurov "Maksim" pulemyotundan atəş açaraq düşmənin qarşısını almağa kömək edərkən pulemyotun arxasında həlak olmuşdu.

Zəngəzurun Yuxarı Giratax məktəbində işləmiş, 84-cü piyada alayının 3-cü batalyonunda xidmət edən sıravi **əsgərlər Nəbi Məmməd oğlu Məmişev, Yusif Atakişiyev və G. Qaffarov** da müdafiəçilər arasında idi.

---

[1]Azərbaycanlılar Brest qalasının müdafiəsində–II yazı // http://etmtv. news/ az % C9% 99rbaycanlilar–brest–qalasinin–mudafi%C9%99sind%C9%99–ii–yazi/

Salyan rayonu, Aşağı Xıllı kəndindən serjant, 333-cü atıcı alayın HHM bölüyündə bölmə komandiri olan **Ağamirzə Əli oğlu Nəzərov**, Nuxadan hərbi xidmətə çağırılmış 84-cü atıcı alayının əsgəri **Əliyev Əhməd Məhərrəm oğlu, Xəlil Haqverdiyev** qalanın müdafiəsində qəhrəmancasına həlak olmuş, 1939-cu il iyulun 13-də Ağdaş rayonundan hərbi xidmətə çağırılmış **Yusif Balakişi oğlu Atakişiyev** 1941-ci il iyununda itkin düşmüşdür.[1]

Aslan Qafarov 84-cü piyada alayının nəqliyyat rotasında xidmət edirdi. Onun təşəbbüsü sayəsində hərbi təlimlərdə iştirak etmək üçün müharibə ərəfəsində Brestə gələn bir bölməyə aid PPD avtomatları və patronlar, yüngül pulemyotlar, bölük və batalyon minaatanları olan silah və sursat olan anbar aşkar edilmiş, komissar Fominin əmri ilə minaların bir hissəsi 333-cü alayın baş leytenantı Potapovun dəstəsinə və müdafiədəki qonşulara verilmişdi. Bu səbəbdən də, almanlar müdafiəçilərin mövqelərinə növbəti hücum zamanı ağır avtomat və minaatan atəşinə məruz qalmış və ağır itki vermişdilər. Aslan Qafarov Siyasi rəhbər A.Kastryulinin komandanlığı altında mühasirədən çıxan dəstədə iyunun 29-da düşmən pulemyotunu məhv edərkən qumbara qəlpələrindən həlak olmuşdur.[2]

Truxin Pavel Petroviç tərəfindən yaradılan "Unudulmuş Alay" saytında Qızıl Ordunun əsgəri **Məsi Mahmud oğlu Əbdurahmanovun** adı yerləşdirilmişdir. 1940-cı il fevralın 5-də Ağdaşdan hərbi xidmətə çağırılan Məsi Əbdurahmanov müharibə başlananda 84-cü piyada alayının 2-ci batalyonunun 6-cı bölüyündə xidmət edirdi. O, 1941-ci ilin dekabrında itkin düşmüşdür.[3]

Gədəbəyin Çay Rəsullu kəndindən olan **döyüşçü Musa Abbas oğlu Əliyev** də 84-cü piyada alayında xidmət etmiş, əvvəlcə taqım, sonra isə bölük komandiri olmuşdur. O, əsir düşmüş, sonra baş leytenant Çerni ilə birlikdə qaçaraq partizan dəstəsinin yaradılmasında iştirak etmişdi. Partizan dəstəsinin komandiri M.Çernyak idi. Komanda Belarusun Brest bölgəsinin Jabinski rayonunda fəaliyyət göstərirdi.

---

[1] Azərbaycanlılar Brest qalasının müdafiəsində–II yazı // http://etmtv. news/ az % C9%99 rbaycanlilar–brest–qalasinin–mudafi%C9%99sind%C9%99–ii–yazi/

[2] Yenə orada.

[3] Yenə orada.

Zolan Cəlal oğlu (sənəddə **Çeloieviç** yazılmışdır) **Məmmədov** – 1920-ci ildə Ağdaş rayonunun Seyidli Saatlı kəndində anadan olmuşdur. ÜİLKGİ-nin üzvü idi. 1939-cu il dekabrın 23-də Ağdaş Rayon Hərbi Komissarlığından ordu sıralarına çağırılmışdır. Minsk rayonunda mühasirəyə düşmüşdür. 1945-ci il aprelin 6-da əsirlikdən azad olunmuşdur. 1987-ci ildə II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunmuşdur.

Yolçu Girioviç Cavadov – 1919-cu il təvəllüdlü idi. Azərbaycan SSR-in Ağdam rayonunun Comalı kəndində anadan olmuşdur. 1939-cu ildə orduya çağırılmışdır. 1941-ci il iyunun 22-də Brest-Litovskidə əsir düşmüşdür. 1941-ci ilin oktyabr ayında əsirlikdə ölmüşdür.[1]

Soltan Hümmət oğlu Əzizov – Şəki rayonunun Qışlaq kəndindədir. Batareyada starşina olmuş, sonra zabitlər kursunu bitirmişdir. İkinci dünya müharibəsi başlanan ilk aylardan diviziya komandirinin müavini kimi döyüşlərə atılmışdır. S.Əzizov Belarusiya Respublikasının Brest, Kursk, Oryol və digər şəhərlərdə tabeliyində olan əsgər və zabitlərlə birlikdə böyük döyüş şücaəti göstərmişdir. Kenşperqin, Berlin və başqa şəhərlərin alınmasında əvəzsiz qəhrəmanlıqlar nümayiş etdirən Soltan Əzizov komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılmış, "Qırmızı ulduz" ordeni və medallarla təltif edilmişdir.[2]

Brest qalasının azərbaycanlı müdafiəçiləri arasında ordu sıralarına Bakıdan çağırılmış **Rudakovskiy Mixail Platonoviş**, Gürcüstan SSR-in Aspindza rayonunun Vanikənd kəndindən olan Brest-Litovskidə əsir düşmüş **Bayramov Şahlı Abbasoviç,**[3] Gürcüstan sakini, 1910-cu il təvəllüdlü, 6656-cı artilleriya-zenit alayında xidmət etmiş, 1941-ci il iyunun 29-da Brest-Litovskidə əsir düşmüş **İsmayılov Murtuza İsmayıloviç,**[4] **G**ürcüstan SSR-in Saqaradje rayonunun Normaqanlo kəndində anadan olmuş, 1939-cu ildə Saqaradje Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmış **Qurbanov Soiv**, 1919-cu ildə Gürcüstan SSR-in Qamboqone rayonunun Samtredji kəndində doğulmuş, 1941-ci il iyunun 23-də Brest-Litovskidə əsir düşmüş və 1941-ci il sentyabrın 29-da həlak olmuş **Namaz Zülfüqaroviç Babayev,** 1915-ci ildə Qasım İsmayılov rayonunun (indiki Goranboy rayonu) Kurotpaki kəndində anadan olmuş, 1941-ci il iyunun 22-də Brest-Litovskidə əsir düşmüş, 1941-ci il sentyabrın 29-da həlak olmuş və Demblində dəfn edilmiş **Baxşıyev Baxış,** 1917-ci il təvəllüdlü, 1941-ci il iyunun 22-də Minskdə düşmən tərəfindən əsir alınmış, 1941-ci il sentyabrın 24-də xəstəlikdən cəbhə ştalaqında (307) ölmüş **Əhmədov Çulan,** 1918-ci il təvəllüdlü, Azərbaycan SSR-in Mahmudlu stansiyasından olan, 1941-ci il

---

[1] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Шарипов Э. – Баку, 2018. – с. 42.

[2] http://veteran.gov.az/news/1198-soltan-hummet-oglu-ezizov- 100

[3] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Шарипов Э. – Баку, 2018. – с. 42.

[4] Yenə orada, 42-43.

iyulun 7-də əsir düşmüş, 1942-ci il aprelin 4-də əsirlikdə ölmüş və Ponyatovada dəfn edilmiş **İbrahimov İbiş Qulayeviç,** 1939-cu ildə Azərbaycandan ordu sıralarına çağırılmış **Surxayev Aslan,** 1914-cü il təvəllüdlü, Azərbaycan SSR-in Kürdmaşı kəndindən olan, 1941-ci il iyunun 22-də Brest-Litovskidə əsir düşmüş və 1941-ci il oktyabrın 25-də həlak olmuş **Cəfərov Məmməd,**[1] 1914-cü ildə Azərbaycan SSR-in Qax rayonundan olan milliyyətcə gürcü, baytarlıq texnikumunu bitirmiş, Leninqrad (indiki Sankt-Peterburq) ali veterinar məktəbində təkmilləşdirmə kursunda oxumuş, 1936-cı ildə ordu sıralarına çağırılmış, 125-ci atıcı polkda böyük baytar həkimi olmuş, əsir düşmüş və azad olunmuş **İvanidze Boris Vladimiroviç,**[2] müharibəyə qədər Zəngəzurda Yuxarı Qıraxtax orta məktəbində işləmiş, 84-cü atıcı alayın 3-cü batalyonunda xidmət edən **Nəbi Məmmədsəfər oğlu Məmişov** da vardır.

Aleksey Korobov Gədəbəy rayonunun Novo-Saratovka kəndində anadan olmuşdu. 84-cü atıcı alayın rabitə rotasında siyasi rəhbər müavini olmuş, qalanın müdafiəsində iştirak etmişdir. **Qədir Qulam oğlu Ələkbərov** – Gədəbəy rayonunun Qazi Murad kəndində anadan olmuşdu. 3-cü sinif təhsilli idi. Ailəli olmuşdur. 3 övladı vardı. Qırmızı Ordu sıralarına çağırılana qədər Gədəbəy rayonunun Ataxal kəndində yaşamışdır. O, 125-ci atıcı alayın 3-cü batalyonun 1-ci bölüyündə xidmət etmiş, 1941-ci il iyunun 22-də əsir düşmüşdür. Q.Ələkbərov 1941-ci il sentyabr ayının 15-də həlak olmuşdur.

Məmmədov Xəlil Səməd oğlu – 1917-ci ildə Gədəbəy rayonunun Çay Posuçi kəndində anadan olmuşdur. Orduya çağırılana qədər Şınıx kəndində müəllim işləmişdir. 1920-ci il təvəllüdlü, Qafan rayonundan olan **Quliyev Şahsuvar Ziyad oğlu** 1939-cu ildə Qafan Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmış və itkin düşmüşdür. 1918-ci ildə Azərbaycan SSR-in Bərdə rayonunun Mustafa Halı kəndində anadan olmuş **Bayramov Bayram Salman oğlu (**siyahıda № 48) 1939-cu ilin oktyabrında Bərdə Rayon Hərbi Komissarlığından orduya çağırılmışdı. 333-cü alayın 1-ci atıcı batalyonunun 1-ci bölüyündə atıcı olmuşdur. 1941-ci il iyunun 25-də sonuncu məktubu alınmışdır. İtkin düşmüşdür. **Xeybərov Əjdər** (siyahıda № 116) – 1944-cü il aprelin 26-da hospitalda dünyasını dəyişmişdir. **Qurbanov Qurban Həmid oğlu (**siyahıda №192**)** – 1916-cı ildə Ağdaş rayonunun Məndşir Qaraoğlan kəndindəndir. 1940-cı ildə ordu sıralarına çağırılmışdır. 333-cü atıcı alayın 3-cü atıcı batalyonunda xidmət etmişdir. Q.Qur-

[1] Шарипов, Эльмир. Азербайджанцы в обороне Бресть-Литовский крепости / Шарипов Э. – Баку, 2018. – s. 47.
[2] Yenə orada, s. 45.

banov Brest-Lbtovskidə əsir düşmüş, azad edilmişdir. **Bayramov Şıxəli Abbasoviç** – 1941-ci il iyunun 26-da əsir düşmüş, 1941-ci il sentyabrın 29-da həlak olmuşdur. **Canıyev Heybət** – 1941-ci il iyunun 26-da əsir düşmüş, 1941-ci il oktyabrın 13-də həlak olmuşdur. **İslamov Mamed** – 1941-ci il iyulun 7-də əsir düşmüş, 1941-ci il sentyabrın 9-da həlak olmuşdur. **Əbdürrəhmanov Məsi Mahmud oğlu** – 1941-ci ildə itkin düşmüşdür.[1]

125-ci atıcı alayda xidmət edən azərbaycanlılar qalanın müdafiəsində qəhrəmanlıq göstərmişlər.

Eyvazov Məhəmməd Göycə oğlu (siyahıda №12) – 1918-ci ildə Azərbaycan SSR-in Tovuz rayonunun Azanlı kəndində anadan olmuşdur. 1939-cu ildə Tovuz Rayon Hərbi Komissarlığından hərbi xidmətə çağırılmışdır. Sonuncu məktubu 1941-ci il iyunun 26-da göndərilmişdir. İtkin düşmüşdür.

Məmmədov Bağdat İsayeviş (siyahıda №12) – 1914-cü ildə Qazax rayonunun Muğanlı kənd (sovxoz) sakinidir. 1936-cı ildə kiçik leytenant kursunu bitirmişdir. ÜİK(b)P üzvlüyünə namizəd olmuşdur. Kiçik leytenant rütbəsində pulemyot vzvodunun komandiri idi. Həlak olmuşdur.

Xəlilov Məmməd Mirzəliyeviç (siyahıda №473) – 1916-cı ildə Ermənistan SSR-in Çapılı kəndində anadan olmuşdur. 1941-ci il iyunun 23-də Brest-Litovskidə əsir düşmüşdür.

Semoçkin Aleksey Mixayloviç (siyahıda №565) – 1917-ci ildə Lənkəranda anadan olmuşdur. 1941-ci il iyunun 25-də Kortiz-Berezada əsir düşmüşdür. 101345 №-li düşərgədə saxlanmışdır. 1942-ci il noyabrın 2-də həlak olmuşdur.

Səfərov Rəşid Aslanoviç – 1939-cu il avqustun 15-də Qaryagin rayonunun (indiki Füzuli rayonu) Qarğa Bazar kəndində anadan olmuşdur. 131-ci yüngül artilleriya alayında xidmət etmişdi. Hərbi həkim idi. 1941-ci il iyulun 24-də əsir düşmüşdür. Taleyi məlum deyil.

Hüseynov Əhməd 1918-ci ildə Azərbaycan SSR-in Bərdə rayonunun Nəzərli kəndində anadan olmuşdur. VI sinif təhsili olmuşdur. 1939-cu ildə orduya çağırılmış, 1941-ci il iyunun 29-da əsir düşmüşdür. 62743 №-li düşərgədə saxlanılmış, əsirlikdə həlak olmuş, Demblində dəfn olunmuşdur.

Cəniyev Eyvan – 1919-cu il təvəllüdlüdür. Azərbaycan SSR Lerik rayonundandır. 49-cu atıcı diviziyanın 222-ci atıcı polkunda xidmət etmişdir.

Cəfərov Məmməd –1914-cü il təvəllüdlüdür. Azərbaycan SSR-in Gədəbəy rayonunun Kürdmaşı kəndindəndir. 218-ci artilleriya alayında xidmət etmişdir. 1941-ci il iyunun 23-də Brestdə əsir düşmüş, 18116 №-li düşərgədə saxlanılmışdır.

---

[1] Bax: З.Дулаева, Ф.Джаббаров, Ф.Багиров, Ф.Агаев. Они сражались за Беларус… (Участие азербайджанцев в освобождении Беларуси). Баку, 2012. – с.57.

İsgəndərov Abdulla Safoeviç – 1913-cü il təvəllüdlüdür. 1941-ci il iyulun 1-də Brestdə əsir düşmüşdür. 1925 №-li düşərgədə saxlanılmışdır. 1942-ci il iyunun 11-də əsirlikdə həlak olmuşdur. Demblində dəfn edilmişdir.

Kərimov Əli Kərim oğlu – 1914-cü il təvəllüdlüdür. Şamaxı rayonu Şıxlar kənd sakinidir. 229-cu atıcı alayda kəşfiyyatçı, snayper, minatəmizləyən, rabitəçi olmuşdur.

İmanov Aldəmir Cəfəroviç – 22-ci tank diviziyası, 5466-cı tank alayında xidmət etmişdir. 1941-ci il iyunun 25-də Brest-Litovskidə əsir düşmüş, 1494 №-li düşərgədə saxlanılmış, 1942-ci il aprelin 7-də həlak olmuşdur.

Ümumiyyətlə Brest qalasının özünün müdafiəsində iştirak edənlərin və Brest qarnizonunda xidmət edənlərin sayı 1900 nəfərdən artıq olmuşdur. Brest Qalasının azərbaycanlı müdafiəçiləri bu gün qardaşlıq qəbiristanlıqlarında uyuyur. Təəssüf doğuran odur ki, həmin qəbiristanlıqların yerləşdiyi şəhərin, rayonun və ya kəndin "rəhbərləri" onların kimliyini hələ tam müəyyənləşdirməmişlər. Azərbaycanda isə milliyyətinə və dininə fərq qoymayaraq hər bir döyüşçünü, qələbə naminə fədakarlıq göstərən hər kəsi axtarır, tapır, gənc nəslə çatdırırıq. Haqqında bəhs etdiyimiz Brest qalasının müdafiəçilərindən olan azərbaycanlılar haqqında da axtarışların səmərəsiz olmasının əsas səbəbi ayrı-seçkilikdir. Necə ola bilər ki, döyüşdə yaralanan əsgəri xilas edən onu tanımasın və ya xatırlatmasın.

Qala müdafiəçiləri haqqında axtarışların 50-ci illərin əvvəllərindən başlamasından 75 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyi, respublika arxivləri, səfirliklər heç bir əsaslı iş görməmişlər. Paradoksal haldır ki, Ukrayna, Belarusiya, SSRİ-nin təsir dairəsində olan keçmiş Şərqi Avropa dövlətləri də öz ərazilərində onların faşizmdən xilas edilməsində canlarından keçmiş azərbaycanlılar haqqında məlumatları bizdən istəyirlər. Axı onlar haqqında sənədlər Rusiya Federasiyası Müdafiə Nazirliyinin və həmin dövlətlərin arxivlərində saxlanır. Arxiv idarələrinin yarıtmaz işi isə göz qabağındadır.

Dünya tarixşünaslığı, qaliblər, hətta məğlublar belə faşizm üzərində qələbədə Bakı neftinin rolundan yazırlar. Bəs nə üçün Azərbaycan Respublikasının arxiv idarələri, Xarici İşlər Nazirliyi, səfirliklər bu problemə dair materialları əldə etmirlər? Nə üçün arxiv materialları toplusu hazırlanmır? Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bu sahədəki işinə müsbət qiymət vermək mümkün deyildir.

Azərbaycan mətbuatı istisna olmaqla ölkəmizdəki televiziya kanallarında xarici ölkələrdə uyuyan mərd oğullarımız haqqında verilişlər təsadüfi xarakter daşıyır. Bunu Azərbaycan Milli Kitabxanasının 2020-ci ildə 1941-1945-ci illər müharibəsində Qələbənin 75 illiyi münasibətilə tərtib etdiyi

“Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində: Biblioqrafiya” kitabından aydın görmək olar”.[1]

Leninqrad şəhəri müdafiəsinin qəhrəmanları

Leninqradın alman-faşist işğalçılarından 900 günlük müdafiəsi müharibə tarixinin parlaq səhifələrindən birini təşkil edir. 1941-ci ilin sentyabrından düşmənin aviasiya və artilleriyası şəhərin müdafiəçilərinə qarşı hücuma başladı. 600 gün ərzində Leninqrad şəhəri düşmənin hücumlarına məruz qaldı. Alman-faşist işğalçıları və onların əlaltıları dinc sakinlərə məxsus 5.495 yaşayış evi və ümumi sahəsi 1.801.053 kv.m. olan 4.865 həyətyanı tikililəri məhv etdilər və ya dağıtdılar. 1.830 baş iribuynuzlu mal-qara, 110 at, 1.933 donuz, 4.236 qoyun və keçi, 43.644 baş müxtəlif ev quşları, 2.269 arı ailəsi, 1.504 ton buğda, 1.038 ton un, 14.315 ton kartof və tərəvəz, 1.091 qeyri-qida məhsulu aparıldı, 2.910.363 cild kitab, 84.604 qızıl və gümüş məmulatları məhv edildi. Ümumi zərərin miqdarı 38.354 min rubl təşkil edirdi**.**

Leninqrad uğrunda döyüşlərin qəhrəmanlarından biri Hüseyn Əliyevdir.[2]

Əliyev Hüseyn Balaəmi oğlu 1918-ci il noyabrın 25-də Bakı şəhərinin Pirşağı qəsəbəsində doğulmuşdur. Bakı şəhəri Dəyirman küçəsi 8 №-li evdəki 39 nömrəli məktəbdə oxumuş, sonra “Qırmızı dənizçi” fabrik zavod təhsili (FZT) məktəbində təhsil almış, Bakı təyyarə klubunda uçuşun ilk elementlərinə yiyələnmişdir.
H.Əliyev 1940-cı ildə Yeysk hərbi dəniz təyyarəçilik məktəbini bitirmişdir. 1941-ci ildə müharibə başlayanda Baltik Donanmasının Hərbi Hava Qüvvələrində Tallində, sonra Leninqradda xidmət etmişdir.
Leytenant Hüseyn Əliyev qırıcı təyyarəçi idi. 49 döyüş uçuşu keçirmişdir.

Hüseyn Əliyev Leninqrad göylərində düşmənlə hava döyüşlərində 6 faşist təyyarəsini vurmuşdu. Son döyüşdə o, 2 düşmən təyyarəsini məhv etmiş, üçüncüsünü zədələmişdi. 1941-ci il iyulun 18-də H.Əliyev növbəti uçuşdan qayıdarkən qəflətən buludlar arasından düşmənin 3 “Yunkers-88” təyyarəsinin çıxdığını görür. Qeyri-bərabər döyüşdə iki faşist təyyarəsini vu-

[1] Bax: Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində: Biblioqrafiya / Tərt.ed.: M.Vəliyeva, H.Manafova, X.Abbasova; elmi red.K.Tahirov; red.M.Cəfərova. – Kitab I: (Azərbaycan dilində). – Bakı, 2020. – 640 s.

[2] Sovet dövrü tarixşünaslığında Hüseynbala Əliyev kimi qeyd olunmuşdur.

rub yerə salan H.Əliyev kabinədə partlayan düşmən mərmisindən 30-a qədər qəlpə yarası alır. Döyüşdə ağır yaralanmasına baxmayaraq H.Əliyev təyyarəsini yerə salamat endirə bilir və ağır yaradan kabinədə həlak olur. 30 yara alan cəsur həmyerlimiz ölümündən sonra "Lenin" ordeni ilə təltif edilmiş, onun adı əbədi olaraq xidmət etdiyi hissənin şəxsi heyəti siyahısına daxil edilmişdir.[1]

"**Lenin" ordeni** SSRİ-nin ali ordeni olub 1930-cu il aprelin 6-da təsis edilmişdir.

"Lenin" ordeninin tarixi 1926-cı il iyulun 8-dən başlayır. O zaman Fəhlə Kəndli Qızıl Ordusu (bundan sonra – FKQO) baş idarəsinin rəisi V.N.Leviçev 4 dəfə "Qırmızı Bayraq" ordeni olanlara yeni ordenin – "**İliç ordeni"**nin verilməsi haqqında təklif irəli sürür. Ancaq bu təltif ən yüksək döyüş fərqlənməsi nişanı olmalı idi. Rusiyada artıq vətəndaş müharibəsi başa çatdığından layihə qəbul olunmur. Həmin vaxt SSRİ XKS Sovet İttifaqının yeni ali təltifinə ehtiyac olduğunu, həmçinin təkcə hərbi xidmətə görə deyil, digər məsələlərin də nəzərə alınmasını vacib hesab etdi. 1930-cu ilin əvvəlində "Lenin" ordeni adlandırılan ordenin layihəsi üzərində iş başladı. Rəssamlar ordenin eskizini işləməyə başladılar. Çox sayda eskizlər içərisində rəssam İ.İ.Dubasovun eskizi bəyənildi. 1930-cu ilin yazında maket hazırlamaq üçün eskiz heykəltəraş İvan Şadr və Pyotr Taejnıyə verildi. Həmin ildə "Qoznak" fabrikində ilk nişan hazırlandı. "Lenin" ordeni nişanının tam nümunəsini Aleksey Puqaçev oydu.

"Lenin" ordeni ilə SSRİ vətəndaşları, müəssisələr, təşkilatlar müttəfiq və muxtar respublikalar, muxtar vilayətlər, rayonlar, şəhərlər və digər yaşayış məntəqələri, həmçinin iqtisadiyyat, elm və texnika, ədəbiyyat və incəsənət, sovet cəmiyyətinin sosial-mədəni inkişafında müstəsna xidmətləri olan şəxslər, partiya və dövlət xadimləri təltif olundular.[2]

N.K.Çukovskinin "Baltik səməsı" romanında, V.Ketlinskayanın "İradə" povestində H.Əliyevin qəhrəmanlığından bəhs edilmiş, M.Rahimin "Leninqrad göylərində" poeması ona həsr olunmuşdur. H.Əliyevin adına küçə vardır. "Azərbaycanfilm" kinostudiyası 1967-ci ildə H.Əliyev haqqında "Hünər əbədidir" filmini çəkmiş, rejissor Tahir Əliyev "Qafqaz qartalının uçuşu" sənədli filmini Azərbaycan təyyarəçisi H.Əliyevin hünərinə həsr etmişdir. Pirşağı qəsəbəsində büstü qoyulmuşdur. Hüseyn Əliyevin döyüşdüyü hissənin komandiri və komissarı qəhrəmanın atasına yazdığı mək-

[1] "Kommunist" qəzeti, 1958. 23 fevral.

[2] https://ru.wikipedia.org/wiki/%D0%9E%D1%80%D0%B4%D0%B5%D0%BD_%D0%9B%D0%B5%D0%BD%D0%B8%D0%BD%D0%B0

tubda Hüseynin cənazəsi önündə faşist əclaflarını amansız surətdə qıracaqlarına and içdiklərini, vətənə, xalqa son nəfəsinədək sadiq olan dostları ilə fəxr etdiklərini yazır və qəhrəmanın xatirəsini daim yaşadacaqlarını bildirirdilər.

Azərbaycanlı təyyarəçi Yusif Hüseyn oğlu Quliyev əsl qəhrəmanlıq göstərmişdi. 1941-ci ilin yayında o, Leninqrada hücum edən 4 faşist təyyarəsi ilə təkbaşına döyüşə girib onlardan ikisini vurmuş, ikisini isə geri qaçmağa məcbur etmişdi. Leninqradın müdafiəsində azərbaycanlı döyüşçülər – Bakı aeroklubunun yetişdirmələri Hüseyn Bağırov, Yevgeni Sıqanqov, Asəf Səmədov, Aleksandr Şitov və başqaları iştirak etmişdilər.

Məhəmməd Səmədov 1942-ci ilin sonunda Leninqrad səmasındakı döyüşdə qəhrəmancasına həlak olmuşdu.[1] Qırmızı bayraqlı Baltik donanmasının qvardiya baş leytenantı Hüseyn Bağırov havada kəşfiyyata çıxaraq düşmən batareyalarının yerini öyrənir, onların foto şəklini çəkir, döyüşçülər həmin obyektləri darmadağın edirdilər. Pilot Rizvan Zeynalov Leninqrad yaxınlığında faşist təyyarələrini məhv etməklə mühasirənin yarılmasında döyüş dostları ilə qəhrəmanlıq göstərdi. Leninqrad ətrafındakı döyüşlərdə N.Mustafayevin kəşfiyyatçı dəstəsi düşmənin 40 nəfərlik dəstəsinin hücumunu dəf etdi. Düşmənin 6 pulemyotu, 40 avtomat tüfəngi, 12 motosikleti ələ keçirildi.[2]

Azərbaycan xalqının igid oğullarından biri Ağcabədi rayonunda anadan olmuş snayperçi Məmmədəli Abbasovdur. Hərbi Dəniz Donanmasının igid döyüşçüsü M.Abasov Şimal donanması komandanlığının ilk tapşırığını yerinə yetirərkən 25, ikincisində 38, üçüncüsündə 71, dördüncüsündə 31 faşisti məhv etdi. Beləliklə, 101 faşist məhv olundu. O, "Qızıl Bayraq" ordeni ilə təltif olundu. Növbəti döyüşlərin birində qəhrəman daha 32 faşistin həyatına son qoydu. 1943-cü ildə Məmmədəli Abbasovun şəxsi hesabında 166 öldürülmüş faşist vardı. "Bakinskiy raboçiy" qəzetindəki məqalədə bildirilirdi ki, əsir alınmış alman zabiti istintaq zamanı mahir snayper M.Abasovun sorağının alman generalına çatdığını, M.Abasovu öldürmək və ya əsir almaq üçün 8 usta avtomatçı ayrıldığını və onlara birinci dərəcəli xaç vəd edildiyini söyləmişdi.

1943-cü ilin iyun ayında qvardiya baş leytenantı Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun oğlu Cahangir (Vladimir) Bağırov faşistlərlə mübarizədə igidlik göstərdi. Cəbhənin bu yerində hərbi obyektləri bombalamağa gələn düşmən təyyarələri ilə qeyri-bərabər vuruşmada 7 düşmən təyyarəsindən birini vurdu. V.Bağırov ölümündən sonra "Lenin" ordeni ilə təltif olundu.

---

[1] Газ. "Вышка", 1943, 14 августа.
[2] Газ. "Бакинский рабочий", 1941, 4 сентября.

İlyas İsmayılov 1941-ci il iyunun 22-də Kareliya cəbhəsində bir kənddə 11 faşisti məhv etmişdi. "Lenin" ordeninə layiq görülən İlyas İsmayılov haqqında "Bolşevik" jurnalı "Sovet adamlarının döyüş dostluğu" adlı məqalədə yazırdı: "Snayper – nəzarətçi İlyas İsmayılov elə birinci döyüşdə düşmənin bütün bir hərbi bölməsini məhv etdi. Azərbaycanlı İsmayılov hansı xalqa mənsub olmasından asılı olmayaraq, öz silah dostlarının fəxri olub".[1]

Məhərrəm Bayramov Şimalın qalın meşələrində rəşadətlə vuruşurdu. Ələkbər Nadirov kəşfiyyatçılar dəstəsində pulemyotçu kimi Kareliya meşələrində onlarla ağ fini məhv etdi. Atlı kəşfiyyatçılar komandiri Pirəli Səlimov dəfələrlə ölümlə üz-üzə qaldı, mahir döyüşçü 50 nəfər faşisti məhv edərək dörd təkərli pulemyotu, iki əl pulemyotunu, minaatan və çoxlu avtomatı qənimət kimi götürdü.[1]

Leninqradı müdafiə edənlər sırasında Şimal donanmasının qorxmaz və ağıllı sualtı qayıqçılarından biri 2-ci ranq kapitan M.İ.Hacıyev idi. Onun komandanlıq etdiyi sualtı qayıq diviziyası iyun 1941-ci ildən may 1942-ci ilədək 12 döyüşdə iştirak edərək 10 düşmən gəmisini məhv etdi. Leninqrad uğrunda azərbaycanlı döyüşçülərin döyüş xidmətlərindən bəhs edən "Bakinskiy raboçiy" qəzetində dərc olunmuş məktubda bildirilirdi: "…Leninqrad cəbhəsində iti gözlü, möhkəm biləkli, qəlbi qələbəyə inamla dolu onlarca Zaqafqaziyalı snayperçilər vardır. Onlar bütün cəbhənin sevimlisi olub, azadlıq sevən Azərbaycan xalqının şərəfini yüksəldirlər".

Moskva şəhərinin müdafiəsində

SSRİ Müdafiə nazirliyinin baş Kəşfiyyat İdarəsinin keçmiş polkovniki V.B.Rezun 1978-ci ildə Qərbə qaçaraq V.Suvorov təxəllüsü ilə bir neçə kitab yazmışdır. V.Suvorov yazır ki, 1942-ci ilin noyabr ayının axırlarına yaxın alman qoşunları Sovet İttifaqının təxminən 1,8 milyon kv^2 km. ərazisini işğal etdilər. Müharibəyədək burada 80 milyon nəfər SSRİ əhalisinin 42%-i yaşayırdı. Ölkənin istehsal obyektlərinin böyük bir hissəsi-əridilmiş çuqunun 71%-i, metalın 57%-i kömür hasilatının 63%-i, elektrik enerjisinin 42%-i, əkin sahələrinin 47%-ni itirmişdi. 1941-ci ilin yayında SSRİ-də 5 zavod tank istehsal edirdi, onlardan 4-ü düşmən aviasiyasının və hətta yerüstü qoşunlarının təsir dairəsində idi. 1941-ci il ölkədə böyüklüyünə görə ikinci nəqliyyat qovşağı olan və SSRİ-nin Avropa hissəsinin bütün cənubuna xidmət göstərən Kiyev almanlar tərəfindən tutulmuşdu.[2]

Vermaxt Leninqrad uğrunda döyüşlərlə bərabər Moskva altında da xeyli qüvvə cəmləşdirmişdi. **Moskva uğrunda döyüş (30 sentyabr 1941-20 aprel 1942-ci il)** ümumdünya tarixində əhəmiyyətli hadisə oldu. Sovet

---

[1] Болшевик // 1941, № 13, с.34.

[2] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər. (Rus dilindən tərcümə) /Ç.Sultanov. – Bakı, 2016. – s.521.

qoşunlarının əks-hücumu nəticəsində faşistlərin “Mərkəz” ordu qrupuna dağıdıcı zərbə endirildi. Sovet ordusu tərəfindən alman-faşist qoşunlarının Moskva altında darmadağın edilməsi Vermaxtın məğlubedilməzliyi haqqında əfsanəni sarsıtdı.

Hitlerçilərin planında Moskvanın ələ keçirilməsi əsas yeri tuturdu. Bu səbəbdən də, bir neçə istiqamətdən paytaxta hücum başladı. Moskvanın tutulması planının şərti kod adı “**Tayfun**” idi.



Moskva altında döyüş (30 sentyabr 1941-ci il - 20 aprel 1942-ci il) yarım il davam etdi. Döyüşdə hər iki tərəfdən 2,8 milyondan çox adam, 2.000-ə qədər tank, 1,6 mindən çox təyyarə, 21 min top və minomyot iştirak etdi.[1] Gərgin döyüşlərdə sovet tərəfindən ümumilikdə 7.035 min adam, 53 mindən çox top və minomyot, təxminən 6,5 min tank və 3 mindən çox təyyarə döyüşə cəlb edildi. 1941-ci il sentyabrın 30-dan 1942-ci ilin 20 aprelinədək sovet ordusuna 1. 805. 923 nəfər səfərbərliyə alındı ki, onlardan 926.244 nəfəri geri qayıtmadı. 4.171 tank, 21.478 top və minomyot, 983 təyyarə sıradan çıxdı. Sovet ordusu Vermaxta nisbətən çox itki verdi. Düşmən 615 mindən artıq adam itirdi.[2]

Moskva şəhəri üzərinə birinci hava hücumu 1941-ci il iyulun 21-də saat 22^{-07} dəqiqədə elan olundu və 22 iyul 3-25 dəqiqədə hava həyəcanı ləğv edildi. Moskvaya birinci kütləvi aviasiya uçuşunda 200-250 faşist təyyarəsi iştirak etdi. Ancaq yalnız bir təyyarə şəhərə daxil ola bildi və bomba atdı.

---

[1] Великая Отечественная война, 1941-1945: Словарь – спрвочник. (Н.Г.Андроников, А.С. Балицан, М.М. Кирьян, и др). Москва, 1985. – с.281-282.

[2] ASE, VII cild: Мисир – Прадо. Bakı, 1983. – s.70.

SSRİ Xalq Müdafiə Komissarı İ.V.Stalinin 22 iyul 1941-ci il əmrində (№241) deyilirdi ki, hava müşahidə xidmətinin sayıqlığı nəticəsində qaranlıq gecə olmasına baxmayaraq, düşmən təyyarələrinin müəyyənləşdirilməsi və rabitəsi aşkar olundu. Qırıcılar və zenitçilər sonuncu məlumata görə 22 düşmən təyyarəsini vurdular.

Gərgin döyüşlər Volokolamski istiqamətində baş verdi. 316-cı diviziyanın komandiri **Panfilov İvan Vasilyeviç** Volokolamski istiqamətində gedən döyüşlərdə qəhrəmanlıq göstərdi. "Lenin", 2 "Qırmızı Bayraq" ordenləri və medallarla təltif olunmuş Panfilov İvan Vasilyeviç (1893-1941) Moskvada Novodeviçye qəbiristanlığında dəfn olunmuşdur. 1941-ci ilin noyabrında 316-cı diviziya "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuş, ona 8-ci qvardiya və İ.V.Panfilovun adı verilmişdir.[1]

1941-ci il noyabrın 16-da 4-cü alman tank qrupu (ən azı 400 tank) aviasiyanın dəstəyi ilə kütləvi hücuma keçdi. Onların qarşısını Panfilovun dəstəsi saxladı. Onlar Dubasekova rayonu keçidində 28 nəfərlik qırıcılar qrupu və avtomatçılarla birlikdə düşmən tanklarını qarşıladılar. Qrupun tərkibində N.Y.Afanasyev, Y.A.Bondarenko, R.D.Dutov, N. Esibulatov, D.Şopokorov və b. vardı.

Düşmənin ilk hücumu dəf olunanda almanların daha 20 tankı və avtomatçılar qrupu döyüşə atıldı. Bölüyün siyasi rəhbəri V.Q.Kloçkovun "Rusiya böyükdür, ancaq geri çəkilməyə yer yoxdur-arxada Moskvadır" sözlərindən ruhlanan döyüşçülər yenidən irəli atıldılar. Döyüş 4 saat davam etdi. Düşmən 18 tank və çoxlu əsgər itirdi, 28 nəfərdən cəmi 4 nəfər – İ.R.Vasilyev, D.T.Timofeyev, İ.D.Şadin və Q.M.Şesyakin sağ qaldılar. General-mayor L.M.Dovatorun komandanlıq etdiyi süvari qrupu Meca çayı sahilində müdafiə döyüşləri apardı. Noyabrın 18-dən 27-dək şimal-qərbi İstrada olan döyüşlərdə tank briqadasının 23-cü orta tank bölüyünün komandiri, leytenant N.F.Kretov fərqləndi. Onun ekipajı düşmənin 14 tankını, 9 minomyotunu, 3 topunu və 800-dən artıq əsgər və zabiti məhv etdi. 1941-ci il iyulun ortalarından Moskva faşist aviasiyasının əməliyyat obyektinə çevrildi. Moskvaya yenidən ilk kütləvi uçuş 250 bombardmançı tərəfindən iyulun 22-də həyata keçirildi. 1941-ci ilin iyul-dekabr aylarında Moskvanın Hava Hücumundan Müdafiə döyüşçüləri 800-dən çox təyyarənin iştirak etdiyi 122 hava hücumunu dəf etdilər və şəhərin səmasında 229 təyyarə vuruldu.

Moskvaya ikinci uçuş kiçik qrupla 10-15 dəqiqəlik intervalla iyulun 23-də həyata keçirildi. Bu dövrdə Moskva Hava Hücumundan Müdafiə qüvvələri sərəncamında 602 döyüş təyyarəsi, 1.044 zenit topu, 618 zenit

[1] Малинин, Г.А. Генерал Панфилов. / Г.А.Малинин. – Саратов, 1981; Великое не умирает. 2 изд. Фрунзе, 1981.

projektoru, 124 aerostat var idi.[1] Şəhərin hava hücumundan müdafiə qüvvələri düşmənin uçuşunun qarşısını müvəffəqiyyətlə dəf etdilər. 1941-ci ilin iyul-avqust aylarında 3 həftə müddətində Moskvaya uçuşda 2.400 düşmən təyyarəsi iştirak etdi, onlardan 200-dən yuxarısı Moskva səmalarında vuruldu. Ümumilikdə 1941-ci ilin 22 iyulundan 22 avqustunadək düşmən Moskvaya 24 hava hücumu təşkil etdi. Moskava hava hücumunun birinci 2 ayında sovet qoşunları 110-dan artıq, zenit artilleriyası isə 60-a yaxın düşmən təyyarəsini vurdu.[2]

Oktyabr-noyabr aylarında düşmən təyyarələrinin Moskva şəhəri üzərinə uçuşları artdı, elə gün oldu ki, 6 dəfə hava həyəcanı verildi. Oktyabr ayı ərzində Moskva şəhəri üzərinə faşistlər 2 min bombardmançının iştirakı ilə 31 uçuş həyata keçirdilər. 72 təyyarə şəhərə soxulmuşdu. Hava döyüşlərində zenit atəşi ilə 278 düşmən təyyarəsi vuruldu. Noyabrın 14-də almanlar gündüz həyata keçirdiyi kütləvi uçuşlarda 43 təyyarə itirdilər və bundan sonra Moskva şəhəri üzərinə gündüz uçuşlarından imtina etdilər. Müharibənin birinci 5 ayında faşistlər Moskvaya 8.278 təyyarə uçuşu həyata keçirdi, 29 təyyarə şəhər səmasını yardı.

Alman-faşist qoşunları 30 oktyabrdan "Tayfun" hücum əməliyyatına başladılar. Oktyabrın 4-də Qərb cəbhəsində müdafiəni yardılar. Moskva üzərində təhlükə yarananda G.K.Jukov Leninqraddan geri çağırılaraq oktyabrda yeni yaradılmış Qərb cəbhəsi komandanı təyin olundu.

Moskva altında əks-hücuma dair tərtib olunmuş plan 1941-ci il noyabrın sonunda başa çatdı. Bu vaxt Moskvaya 1-ci zərbə ordusu (komandan V.İ.Kuznetsov) Yaşma rayonundan, 20-ci ordu (qərargah rəisi L.M.Sandalov) Ryazan rayonundan yaxınlaşdı.

Moskvalılardan – qısa müddətdə xalq müqavimətçilərindən 12 diviziya (təxminən 300 min adam) formalaşdırıldı.

Moskvanı müdafiə edən Bakı Hava Hücumundan müdafiə qüvvələrinin zenit artilleriya alayının döyüşçüləri düşmənin 40 təyyarəsini vurdu, 104 düşmən təyyarəsi zədələndi.[3]

1941-ci il noyabrın 6-da faşist təyyarələri Moskva şəhəri üzərinə hücuma cəhd etdilər. Sovet təyyarələri-qırıcılar və zenitçilər şəhər səmasında və onun astanasında 34 düşmən təyyarəsini vurdular. Alman-faşist komandanlığı Moskva üzərinə 80-ə yaxın diviziya, 2.000 tank, 1.000 təyyarə yeritdi. A.Hitler bütün dünyaya elan etdi ki, noyabrın 7-də Qırmızı Meydanda öz qoşunlarının paradını keçirəcək. A.Hitler komandanlığının Şərq cəbhəsi əsgərlərinə müraciətində deyilirdi: "Əsgərlər! Sizin qarşınızda Moskvadır!

---

[1] Исмаилов, И.З. Азербайджан в битве за Москву зимой 1941-1942 гг. / И.З.Исмаилов.– Баку, 1991.– s.15-16.

[2] Самсонов, А.М. Великая битва под Москвой (1941-1942 гг.) / А.М.Самсонов. – Москва, 1958.– с.76–77.

[3] Газ. «Бакинский рабочий», 1966, 2 декабря.

Müharibənin iki ili ərzində bütün paytaxtlar sizin qarşınızda əyilmişdir. Siz ən yaxşı şəhərlərin küçələri ilə addımlamışsınız. Ancaq Moskva qalmışdır. Məcbur edin ki, qarşınızda əyilsin, silahınızın gücünü göstərin. Moskva-müharibənin qurtarması, Moskva-istirahət deməkdir. İrəli! ”[1]

Noyabrın 7-də səhər tezdən Qırmızı Meydanda parad keçirildi. Parada qədər Mavzoley ikimərtəbəli parça ev maketində gizlədildi. Leninin cəsədi isə artıq iyulun əvvəlində Urala köçürülmüşdü. Parad iştirakçılarına DMK-nin sədri İ.V.Stalin müraciət etdi. Paraddan sonra Moskva uğrunda döyüşlər davam etdi. Bu döyüşlərin iştirakçısı, tarixçi İsrafil İsmayılov yazır ki, 1941-ci il noyabrın sonlarında faşistlər Klin şəhərinə soxuldular, ağır müdafiə döyüşləri getdi. Yalnız onların bir sahəsində 16-cı faşist ordusunun 650 tankı var idi. Bu zaman Moskvanı arxa cəbhə ilə birləşdirən 11 dəmir yolundan 7-si düşmən tərəfindən ələ keçirilmişdi. Moskva dairəvi dəmiryolu gərgin şəraitdə fəaliyyət göstərdi.[2]

1941-ci ilin sonunda düşmən Krasnaya Polyananı tutdu və Moskvanın şimalındakı cəbhənin yarılması təhlükəsi yarandı. Moskva vilayətinin 27 rayonu tamamilə, 10 rayon isə qismən faşistlər tərəfindən ələ keçirildi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 may 1965-ci il tarixli Fərmanı ilə “Lenin ordeni” və “Qızıl Ulduz” medalı ilə təltif edilməklə Moskva “Qəhrəman şəhər” elan edildi.

Moskva altında döyüşlər hərb tarixinə qızıl hərflərlə yazılmışdır. Bakı əməkçiləri 1941-ci il oktyabrın 26-da «Правда» qəzeti vasitəsi ilə moskvalılara müraciət etdilər. Müraciətdə deyilirdi: “Doğma Moskva! Bu gün sən təhlükədəsən. Lakin sən tək deyilsən....Bakılılar səninlədir, bütün Azərbaycan xalqı səninlədir”.[3]

Paytaxtın müdafiəsinə bütün ölkə, o cümlədən Cənubi Qafqaz respublikaları qoşuldu. Şəhərin yaxın və uzaq astanasında 802 km uzunluğunda tank əleyhinə maneələr quruldu. Moskva altı müdafiə xəttində 7.581 atəş nöqtəsi quraşdırıldı. Moskvaya yeni hərbi hissələr, silahlar, döyüş sursatları, ərzaq göndərilməyə başlandı. Bu sahədə Bakı xüsusilə fərqləndi. DMK-nin tapşırığına əsasən Bakıda “PPŞ” («Пулемет-пистолет Шпагина») hazırlayan zavod yaradıldı. Burada məşhur “Katyuşa” minomyotu üçün milyona yaxın mərmi hazırlandı.

Hərbi aviasiya benzini hazırlanması xüsusi əhəmiyyət kəsb edirdi. 1941-ci ilin may-avqust ayları ərzində Bakı ölkədə istehsal olunan benzinin demək olar ki, 85 %-ni verdi. Azərbaycan SSR-də 1941-ci ildə 219,4 min

---

[1] Исмаилов, И.З. Азербайджан в битве за Москву зимой 1941-1942 гг. / И.З.Исмаилов. – Баку, 1991. – с. 20.

[2] Yenə orada, s. 21.

[3] Газ. «Бакинский рабочий», 1941, 26 октября.

ton, 1942-ci ildə 340 min ton B-78 markalı yüksək oktanlı benzin istehsal olunmuşdu.[1]

Müharibənin ilk günlərində Azərbaycan alimləri daha aktual problemlər üzərində elmi-tədqiqat işlərini gücləndirdilər. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı ilə S.D.Hüseynov, M.A.Dalin, Q.B.Şaxtaxtinski, S.M.Mehtiyev, Q.X.Əfəndiyev, Ş.B.Əliyev, B.F.Neqreyev, V.S.Qutırya, A.Q.Xanlarova, U.L.Bağbanlı, M.A.Məmmədov, M.M.Mövsümzadə, B.A.Dadaşov və b. elmi tədqiqatlarını davam etdirdilər. Y.Məmmədəliyevin rəhbərliyi altında bir qrup alim 1941-ci ilin iyul-avqust aylarında xlormetilenin mənimsənilməsinə başladılar. Neftçilər, maşınqayıranlar, digər sənaye müəssisələrinin kollektivləri gecə-gündüz işlədilər.

Azərbaycanlı döyüşçülər Moskva uğrunda döyüşlərdə igidlik göstərdilər. Moskva altındakı döyüşlərdə azərbaycanlı döyüşçülərdən Həzi Aslanov, Əşrəf Məmmədov, İdris Vəliyev, Şamil Hüseynov, Aliyə Rüstəmbəyova və b. fərqləndilər. Pulemyotçu İdris Vəliyev Moskva döyüşləri dövründə 160-dan çox faşisti məhv etdi. Keçmişdə məşğuliyyətinə görə kolxozda çoban olan qvardiyaçı serjant, paraşütçü-kəşfiyyatçı Şamil Hüseynov Moskva yaxınlığındakı Kamenka kəndi ətrafında üç gün davam edən döyüşdə mərdlik və rəşadət göstərdi. Döyüş yoldaşı Yakovlev ilə birlikdə Ş.Hüseynov 40 nəfərə qədər alman əsgərini məhv etdi.[2] Onun döyüş xidmətləri "Qırmızı Bayraq" ordeni ilə qiymətləndirildi. Bakının Lenin rayonunun keçmiş müəllimi siyasi rəhbər Əşrəf Məmmədov Moskvanı müdafiə edərkən qəhrəman kimi həlak oldu. Serjant Fariz İbrahimov çox təhlükəli şəraitdə komanda məntəqəsi ilə rabitə əlaqəsini bərpa etdi, "İgidliyə görə" medalı ilə təltif olundu.[3] Moskva altındakı döyüşlərin qəhrəmanlarının önündə **Həzi Aslanov və İsrafil Məmmədov** dayanırdı.[4]

İsrafil Məmmədov 20 döyüşçü ilə 10 saat ərzində faşistlərin bütöv bir batalyonunun hücumlarının qarşısını alaraq düşməni irəliləməyə imkan vermədi, 300-dən çox düşmən əsgər və zabiti məhv edildi. İsrafil Məmmədov özü qeyri-adi hünər, şəxsi qəhrəmanlıq və döyüş aparmaq qabiliyyəti nümayiş etdirərək 70-dən çox faşisti, o cümlədən 3 zabiti məhv etdi.[5]

Beş gün ərzində Verxne-Kamsk ətrafındakı döyüşlərdə **aslanovçular** düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini, 2000-dən çox faşist zabit və əsgərini məhv edib, 700 zabit və əsgəri əsir aldı. Hərbi qənimət olaraq

---

[1] Исмаилов, И.З. Азербайджан в битве за Москву зимой 1941-1942 гг. / И.З. Исмаилов.– Баку, 1991. – с. 22.

[2] Qranin, Y. Azərbaycan oğulları Moskva və Lninqrad uğrunda döyüşlərdə /Y.Qranin.– Bakı,1943. – s.8-9.

[3] Yenə orada, s.9.

[4] H.Aslanov və İ.Məmmədov haqqında monoqrafiyanın "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

[5] Газ. «Красная Звезда», 1941, 16 декабря.

167 müxtəlif avtomobil və motosiklet, 80 araba, xeyli ərzaq, hərbi ləvazimat əldə etdilər.[1] Qəhrəman tankçıların döyüş xidmətləri yüksək qiymətləndirildi. Alayın 100-dən çox döyüşçüsü orden və medallarla təltif olundu. 1942-ci il dekabrın 22-də podpolkovnik Həzi Aslanova Sovet İttifaqı Qəhrəmanı adı verildi. «Правда» qəzeti yazırdı ki, "Aslanovun tank hissəsi ...mərdlik və bacarıqla, qorxu bilmədən, qələbəyə inam hissəsi ilə vuruşurdu".[2]

Moskva səmasını qoruyan, zenit batareyasının komandiri leytenant Məmmədrəsul Paşayevin batareyası bir neçə düşmən təyyarəsini məhv etdi. M.Paşayev "Qırmızı Ulduz" ordeni ilə təltif olundu. Moskvanın müdafiəsində pulemyotçu İdris Vəliyev, zenitçi serjant Seyfəli Əlibalayev, həkim və tibb bacıları Aliyə Rüstəmbəyova, S.Qarayeva və başqaları da iştirak etdilər.[3]

Moskvaaltı torpaqlarda paytaxtın müdafiəsində iştirak edənlərdən biri də Zəngilanda dünyaya göz açan, füsunkar dağların təbiətinin nemətləri ilə böyüyən ehtiyatda olan kapitan Atəş Bayraməli oğlu Rəsulov idi. 122-ci artilleriya briqadasının 430-cu qaub-artilleriya alayının kəşfiyyat bölməsinin kəşfiyyatçısı olan A.Rəsulov döyüş xidmətlərinə görə 12 orden və medalla təltif olundu, sonralar tarix elmləri namizədi elmi dərəcəsi alan cəsur döyüşçü Moskva divarlarından Elba çayına qədər döyüş yolu keçdi.[4]

Ehtiyatda olan baş leytenant Pərviz Əli oğlu Tağızadə müharibənin başlanmasına az qalmış aviasiya-texniki məktəbini bitirmiş və xidmətə yay alayında başlamışdı. P.Tağızadənin xidmət etdiyi alay Belarusiya, Smolenşina və Moskvaaltı səmalarında döyüşürdü. Döyüş xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni, "Moskvanın müdafiəsinə görə" medalı və digər təltiflərin sahibi P.Tağızadə sonralar geologiya-mineralogiya elmləri namizədi elmi dərəcəsi aldı, dosent vəzifəsində elmi fəaliyyəti ilə yanaşı gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində səmərəli fəaliyyət göstərdi.

Diviziya həkimi və baş həkim kimi fəaliyyət göstərən Sərkərov Səməd Səfibəyoviç Zərbə Ordusunun 2-ci atıcı briqadasının tərkibində Kaşino və Volokolamsk şəhərlərinin azad edilməsində iştirak etdi. 2 dəfə "Qırmızı Ulduz", 2 dəfə II dərəcəli "Vətən müharibəsi" ordenləri, "Döyüş xidmətlərinə görə" və "Moskvanın müdafiəsinə görə" medalları ilə təltif edildi.[5]

Masallı sakini, baş leytenant Məmmədov İsa Musa oğlu müharibəni Moskva ətrafında qarşıladı. 32-ci alayın tərkibində Moskva şəhərinin müda-

---

[1] Герой Советского Союза – сыны Азербайджана. – Баку, 1965. – с.13.

[2] Газ. «Правда», 1942, 27 декабря.

[3] Mədətov, Q. Azərbaycan Böyük Vətən müharibəsində. 1941-1945 / Q.Mədətov. – Bakı, 1965. – s.82-83.

[4] Исмаилов, И.З. Азербайджан в битве за Москву зимой 1941-1942 гг. / И.З.Исмаилов.– Баку, 1991. – с. 31.

[5] Исмаилов, И.З. Азербайджан в битве за Москву зимой 1941-1942 гг. / И.З.Исмаилов.– Баку, 1991. – с. 31.

fiəsində, Kiyevin azad edilməsində və Berlinin alınmasında iştirak etdi. İ.Məmmədov göstərdiyi qəhrəmanlığa görə 15 orden və medallarla təltif olunmuşdu.

Bakılı, ehtiyatda olan kapitan Şahbazzadə Məmməd İslam oğlu müharibənin başlanması haqqında xəbəri Moskva komandirləri məktəbində eşitdi. Tezliklə Moskvanın Sokolniki rayonundakı hissəyə göndərildi və 1941-ci ilin avqustunda bombardman zamanı yaralandı. Müalicədən sonra 173-cü atıcı diviziyanın tərkibində paytaxtın müdafiəçiləri sırasına daxil oldu. Sonra onun xidmət etdiyi alay Stalinqrad altındakı Kotlubana göndərildi.

"Moskvanın müdafiəsinə görə" medalı ilə təltif olunmuş Əmiraslanov Məcid Qənbər oğlu Şəmkirdə doğulmuşdu. O, döyüş xidmətlərinə görə "Şöhrət" ordeni, "İgidliyə görə", "Döyüş xidmətlərinə görə", "Praqanın azad edilməsinə görə" və b. medallarla təltif olunmuşdu.[1]

Oğuz rayonundan olan İsrafil Zakir oğlu İsmayılov 1941-1942-ci ilin qışında Moskva müdafiəçilərinin sıralarında döyüşdü. 51-ci zenit-artilleriya diviziyasının 1798-ci artilleriya alayında xidmət edən İ.İsmayılovun alayı 1941-ci ilin payızında düşmən Moskvaya yaxınlaşarkən Qərb cəbhəsi 5-ci Ordusunun tərkibinə daxil edildi, Moskvanın havadan müdafiəsində iştirak etdi.

İ.İsmayılov müharibədən sonra elmi yaradıcılıqla məşğul oldu, tarix elmləri doktoru elmi dərəcəsi, professor elmi adını aldı, Azərbaycan Respublikası Veteranlar Şurasında işlədi, gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində səmərəli fəaliyyət göstərdi. O, müharibə tarixinə dair bir neçə əsərin müəllifidir.

L.Məmmədbəyova

Moskva şəhərini müdafiə edənlər sırasında azərbaycanlı qızlar da vardı. Bakıda təyyarəçilik kursunda təhsil almış **Leyla Ələsgər qızı Məmmədbəyova** ilk uçuşunu 1931-ci ildə həyata keçirmiş, 1932-ci ildə Moskvada Tuşino Mərkəzi uçuş Məktəbində Qolovin, Mazuruk və Alekseyevin yanında uçuş təlimlərini təkmilləşdirmiş, "U-2" təyyarəsinin sirlərini öyrənmişdi. **Şərqin ilk təyyarəçi qadını olan L.Məmmədbəyova** Moskva uğrunda döyüşlərdə iştirak etdi. Müharibədən sonra həyatını təyyarəçilik peşəsinə həsr edən Leyla altı uşağını böyüdüb başa çatdırdı, planer-paraşütçü klubunda desantçılar hazırladı, Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyəti (OADGYC) Bakı komitəsində sədr müavini vəzifəsində çalışdı.

[1] Yenə orada, s. 32.

L.Məmmədbəyovanın böyük oğlu Firudin İkinci dünya müharibəsində, kiçik oğlu Xanlar Qarabağ döyüşlərində iştirak etdi, hər ikisi döyüş təyyarəçisi kimi şücaət göstərdi.

Leyla Məmmədbəyova 1961-ci ildə təqaüdə çıxmışdır.

L.Məmmədbəyovanın xarakteri Mikayıl Müşfiqin "Əfşan" (1933), S.Vurğunun "Leyla" (1935) əsərlərinin ilham qaynağı olmuşdur. "İsmət" filmi (rejissor Mikayıl Mikayılov) L.Məmmədbəyovaya həsr edilmişdir. Nazim Rza İsrafil oğlunun 1995-ci ildə çəkdiyi "Leyla" filmində cəsur təyyarəçinin həyat və fəaliyyəti işıqlandırılmışdır.[1]

1919-cu ildə anadan olan **Züleyxa Mir-Həbib qızı Seyidməmmədova** 1935-ci ildə Bakı aeroklubunu, 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu (indiki Neft və Sənaye Universitetini-M.Ə.), 1941-ci ildə N.C.Jukovski adına Hərbi Hava Akademiyasını bitirdi. 1941-1945-ci illər sovet-alman müharibəsi illərində qırıcı təyyarəçi və qadınlardan ibarət qırıcı aviasiya alayı komandirinin müavini oldu, 500-dən artıq hava uçuşu, 40-dan artıq hava döyüşü keçirdi.

Z.Seyidməmmədova

Seyidməmmədova 1945-ci ildə ordudan tərxis olundu. ALKGİ MK katibi, 1946-1952-ci illərdə Azərbaycan KP MK-nın məsul işçisi, 1952-1975-ci illərdə Azərbaycan SSR İctimai Təminat naziri, sonra Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti Rəyasət Heyətinin sədrinin müavini oldu. Azərbaycan SSR Ali Sovetinin 2, 6, 8-ci çağırış deputatı seçildi, "Lenin", 2-ci dərəcəli "Vətən müharibəsi", 2 "Qırmızı Əmək bayrağı", 2 "Şərəf nişanı" ordenləri və medallarla təltif olundu. Z.Seyidməmmədova "Təyyarəçinin qeydləri" (Bakı, 1969 (rus dilində) kitabının müəllifidir.[2] Onun haqqında Nazim Rza İsrafiloğlu "Züleyxa", «Небесные братья» və "Göylər Sonsuz Bir Dənizdir" filmlərini çəkmişdir.

Züleyxa Seyidməmmədovanın maraqlı həyat taleyi olmuşdur. Anası ilə bir məktəbdə oxumuş, məktəb illərində təyyarəçilik idman növünə maraq göstərmişdir. Oğlu Aydın Seyidməmmədov həmin illəri belə xatırlayır: "Onlar yay aylarını Şüvəlandakı bağ evlərində keçirərdilər. Anası Mina xanım 11 yaşında ata babası Mir Əhməd ağanın əmisi oğlu Mir Həbib ağaya ərə verilmişdi. Züleyxa onun ikinci övladı idi. Böyük qızı Sima Mina xa-

---

[1] "Xalq cəbhəsi" qəzeti, 2014. – 5 aprel. – s.15; Kazımzadə, A. Kinomuzun "İsməti": ["İsmət" filmində baş rolun ifaçısı, təyyarəçi qadın Leyla Məmmədbəyova haqqında] // Kaspi.– 2014.– 15-17 mart.– S. 22-23.

[2] Алиев, Н.М. Соколы Азербайджана / Н.М.Алиев. – Баку, 1979; ASE, VII c. Bakı, 1983. – s. 328.

nımdan 14 yaş, Züleyxa isə on beş yaş kiçik idi. Mir Həbib ağa təhsilli idi. Həm dini savad almış, həm də realnı məktəbdə oxumuşdu. Mühasibliyi öyrənmişdi. Hacı Zeynalabdin Tağıyevin sağ əli sayılırdı. Onun pullarının necə xərcləndiyini qəpiyinədək hesablayır, hər ayın sonunda Tağıyevə məlumat verirdi. Mir Həbib ağanın bu qədər etibar qazanması təsadüfi deyildi. O, ömründə haram tikəyə əl uzatmazdı. Sovet hökuməti qurulandan sonra Mir Həbib ağanın işləri müşkülə düşdü. Uzun müddət işsiz qaldı. İlk vaxtlar yeni hökumət onun nə Tatarski (indiki Əlimərdan bəy Topçubaşov küçəsi – red.) küçəsindəki ikimərtəbəli evini, nə də 1915-ci ildə Şüvəlanda tikdirdiyi bağ evini əlindən aldı. Dəcəl, inadkar Züleyxa oxuduğu 16 №-li məktəbdə dərs əlaçısı idi. Valideynləri onun ali təhsil alıb neft mühəndis olmasını istəyirdilər”.[1]

Məktəbdə oxuyarkən fizika müəllimi Cümşüd Əfəndiyev yeddinci sinif şagirdlərini Bakı təyyarə meydanına ekskursiyaya aparır. Züleyxa ilk dəfə təyyarələri yaxından görür. Əslində, onun gördüyü təyyarələr dövrünü başa vurmuş “K-5” tipli köhnə monoplanlar idi. Evə qayıdan məktəbli Züleyxa anasına “Təyyarəçi olmaq istəyirəm!” – deyir. Anası qızın tərsliyinə bələd olduğundan içinə qorxu hissi yayılır.

Züleyxa orta məktəbi bitirib Əzizbəyov adına Neft-Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti – M.Ə.) mədən fakültəsinə daxil olur. Tələbəlik həyatının maraqlı günləri təyyarəçilik arzusunu müvəqqəti unutdurur. Lakin günlərin birində tələbə yoldaşları ilə yenə ekskursiyaya gedir, yoldaşları ilə “U-2” təyyarəsində göylərə qalxır, doğma Abşerona, mavi Xəzərə ilk dəfə səmadan baxır. Səhəri gün institutda tələbələr aeroklub yaratmaq fikrinə düşürlər. Kluba təyyarə almaq üçün pul toplanmağa başlanır. Təyyarə alınır. Çox keçmir ki, tələbə aeroklubu bütün ölkədə məşhur olur. 1934-cü ilin baharında Bakı aviasiya klubuna Zabrat qəsəbəsinin yaxınlığında meydança verilir. Ərazi daşdan, kol-kosdan təmizlənir, tələbə təyyarə düşərgəsi yaradılır. Züleyxa da tələbə dostları kimi təlimatçının tapşırıqlarına səylə əməl edir. Az müddət sonra ilk dəfə təyyarəni idarə edir. Uzun yoxlamalardan, sınaqlardan sonra, 1934-cü ilin oktyabrında ona təyyarədə təkbaşına uçmağa icazə verilir. Günlər keçir, o uçuş qrupunu əla qiymətlərlə bitirib təyyarəçi adını alır. Paraşütçülər qrupunda məşğul olur. 1935-ci ilin mayında paraşütlə tullanmağı sınaqdan keçirir. Bir dəfə paraşütdən atılanda külək onu dənizə salır. Xoşbəxtlikdən qayıq vaxtında ona çata bilir və Züleyxa dənizdə batmaqdan xilas olur. 1935-ci ildə Moskvada paraşütçülərin birinci Ümumittifaq toplanışında Cənubi Qafqazı təmsil edən komandanın yeganə qız üzvü gənc Züleyxa Fəxri fərman və paraşüt təlimatçısı adı alıb Bakıya dönür, aeroklubda ona təlimatçı kimi xüsusi qrup verilir.

---

[1]http://www.bing.com/search?setmkt

Z.Seyidməmmədova institutu bitirənədək yeddi yüz saatadək uçuş keçirmiş, təlimatçı kimi üç il ərzində 75 təyyarəçi, 80 paraşütçü hazırlamışdı. Təyyarəçiliyin sirlərini daha dərindən öyrənmək məqsədilə Jukovski adına Hərbi-Hava Akademiyasına məktub göndərir. Lakin qadınlar şturman fakültəsinə qəbul olunmadığından atasının məsləhəti ilə Mircəfər Bağırovun qəbuluna gedir. M.C.Bağırov "Paraşütdən tullananda külək dənizə aparan qız sənsənmi? " – deyir və onu tanıyır. Onun Hərbi-Hava Akademiyasına daxil olması üçün Mərkəzi Komitənin adından məktub göndərilir, qəbul üçün razılıq alınır və Züleyxa Moskvaya gedir. 1938-ci ilin yayında imtahan verərək Jukovksi adına Hərbi-Hava Akademiyasına qəbul olunan ilk şturman qız Züleyxa Seyidməmmədova olur.[1]

Z.Seyidməmmədova təhsilini müvəffəqiyyətlə davam etdirir, əlaçı tələbələrdən olur. Lakin günlərin birində aldığı acı xəbər onu sarsıdır. Aydın Seyidməmmədov anası barədə xatirələrində yazır ki, günlərin birində fakültə komandiri (onlar dekana belə müraciət edirdilər) onu yanına çağıraraq atasının xalq düşməni kimi həbs olunduğu barədə məlumat daxil olduğunu və məlumat doğru olarsa onun akademiyadan xaric olunacağını bildirir. Züleyxa fikirləşir ki, atasını kulak, ya da milyonçu Tağıyevin yaxın adamı kimi həbs edə bilərdilər. Doğrudan da, Mir Həbib ağa həbs olunmuş, Şüvəlandakı evi müsadirə edilmişdi. Bu məlumatı kimsə dərhal Moskvaya çatdırmışdı. Züleyxa çox götür-qoydan sonra şəhər baş poçt idarəsinə gedir və Azərbaycan Kommunist Partiyasının birinci katibi M.C.Bağırova teleqram vurur. Teleqramda xalq düşmənləri onun atasının saf adını ləkələmək istəyirlər və təhsil aldığı Hərbi-Hava Akademiyasına yanlış məlumatlar vermişlər. Daha sonra teleqramda onun respublikanın göndərişi ilə burada oxuduğu, tələbələr arasında yeganə qız olduğu, Bakıdan məlumat alındıqdan sonra, onun burada oxuyub-oxumamaq məsələsinə baxılacağı bildirilir və teleqramın sonunda haqqı, ədaləti qorumağı M.C.Bağırovdan xahiş edir.

Bakıda teleqramı oxuyan M.C.Bağırov köməkçisindən onun Moskvaya oxumağa göndərildiyini öyrənir, atasının sovet hökuməti əleyhinə danışdığı və H.Z.Tağıyevin mühasibi olduğu üçün həbs olunduğunu dəqiqləşdirir.[2] Əlbəttə, məsələ çox ciddi idi. Mərkəzi Komitənin məktubu ilə oxumağa göndərilən qızın atası xalq düşməni elan olunmuşdu. Bu respublika üçün mənfi hal sayıldığından M.C.Bağırov Züleyxanın atasının təcili sürətdə azad olunması, məsələnin gizli saxlanılması barədə göstəriş verir. Moskvaya isə məlumatın yanlış olduğu barədə məlumat bildirilir. Beləliklə, Züleyxa təhsilini davam etdirir.

---

[1] http://www.bing.com/search?setmkt

[2] http://eldergisi.ws/index.php?/weblog/more/169/

Züleyxa təhsil aldığı illərdə anası Mina xanım Tibb İnstitutunu bitirir, atası pionerlər evində mühasib kimi işini davam etdirir. Ancaq müharibənin başlaması Züleyxanın yenicə həyata keçməyə başlamış arzularını yarımçıq qoyur. Akademiyada təlim təyyarə alayında qırıcı təyyarənin şturmanı təyin olunur. Alay Moskvanın müdafiəsinə göndərilir. Sovet İttifaqı Qəhrəmanı M.Raskovanın yaratdığı üç alaydan (Bombardmançı, qırıcı və gecə uçuşları üçün "PO – 2" polku) birinə daxil olur. Zülyexa xanım 1941-ci ilin sonunda yenicə yaradılmış 586-cı qadın qırıcı aviaalayının (alayın komandiri Tamara Kazarinova idi) müavin və alayın şturmanı təyin edilir.

Qızlar döyüşə hazırlaşmağa başlayır, gecə-gündüz ciddi hərbi təlimlər keçirlər. Nəhayət, Saratovu düşmən aviasiyasının hücumundan qorumaq tapşırığını alırlar. Eyni zamanda, hərbi və sanitar qatarlarının keşiyini çəkir, cəbhə xəttində və ölkə daxilində xüsusi əhəmiyyətli təyyarələri müşayiət edirlər.

Züleyxa xanım bir hadisəni heç vaxt unutmur və həyəcanla danışır. Məsələnin mahiyyəti belə idi: Bir dəfə onlara dörd qırıcı təyyarə ilə xüsusi əhəmiyyətli təyyarəni qarşılayıb Stalinqradadək müşayiət etmək tapşırığı verilir. Müşayiət zamanı qəflətən alman təyyarəsinin yaxınlaşdığını görürlər. Şturman kimi Züleyxa xanımın xüsusi təyyarədən ayrılmağa ixtiyarı yox idi. Qırıcı təyyarələrdən ikisini düşmən təyyarəsinin üstünə göndərir. Təhlükənin qarşısı alınır. Düşmən təyyarəsi uzaqlaşdırılır. Sonralar öyrənir ki, təyyarədəki xüsusi qonaqlar almanlar tərəfindən dağıdılmış Stalinqrad şəhərinə baxmağa gedən Ali Baş Komandan İ.Stalin və digər yüksək rütbəli şəxslər olmuşlar. Alman təyyarəsinin hücumu isə təsadüfi deyildi. Əgər almanlar təyyarədə İ.Stalinin olduğunu bilsəydilər, hücumu intensivləşdirərdilər.

Z.Seyidməmmədovanın döyüşdüyü qadın qırıcı təyyarə alayının Volqa sahillərindən başlayan döyüş yolu Ukraynayadək uzandı. Qəhrəman təyyarəçi Stalinqrad və Kursk qövsündə döyüşlərdə, Korsun-Şevçenko əməliyyatında iştirak etdi. Müharibənin sonunu Buxarestdə 586-cı qadın qırıcı aviaalayının komandirinin müavini kimi qarşıladı.

Vətənə müharibədən qəhrəman aviasiya kapitanı kimi dönən təyyarəçinin qardaşları da müharibədə iştirak etdilər. Yaralansalar da, salamat qayıtdılar. Müharibə veteranı kimi evlə təmin olundular. İkimərtəbəli ata mülkünü dövlətə təhvil verdilər.

Z.Seyidməmmədova müharibədən sonra Bakı Şəhər Partiya Komitəsində təlimatçı kimi işə başladı. 1946-cı ildə Azərbaycan LKGİ MK-nın katibi seçildi və həmin vəzifədə 1951-ci ilə kimi işlədi. 1951-1974-cü illərdə respublika ictimai təminat naziri vəzifəsində çalışdı. Əlbəttə, bu yolda çətinliklərlə rastlaşdı, ona ləkə vurmaq məqsədilə anonim məktublar yazıldı. MK-ya göndərilən məktubların birində yazmışdılar ki, Züleyxa Seyidməmmədova özü haqqında məlumatlarda qohumlarının xaricdə yaşadığını gizlədərək partiyanı aldatmışdır. Əslində, məsələ belə idi: "Mina xanımla Mir

Əsədulla Mirqasımovun qardaşı Mir Zeynalabdin H.Z.Tağıyevin maliyyə yardımı ilə xaricə oxumağa göndərilmişdi. İnqilabdan sonra pul göndərilmədiyindən onlar çətinliklərlə üzləşmişdilər. Mir Zeynalabdin geri dönməmiş, Parisdə vəfat etmişdi". Seyidməmmədovlarla Mirqasımovların yüksək vəzifələrdə işləməsini gözü götürməyənlər bu məsələni qabardaraq onları ləkələmək istəmişdilər. Məsələ MK-da müzakirəyə çıxarılır. Lakin Züleyxa xanım MK-nın birinci katibi İmam Mustafayevin iradları ilə razılaşmır, dayısının Parisdə yaşamadığını və vəfat etdiyini, partiya sıralarına isə 1941-ci ildə keçdiyini və partiyaçı kimi döyüşə getdiyini bildirir.

Z.Seyidməmmədova gec ailə qurmuş, övladı olmamışdı. Qardaşı Kamalın həyat yoldaşı vəfat edəndə onun qızı Gülarəyə, kiçik qardaşı Xəlil dünyasını dəyişəndə qardaşının altıaylıq oğluna analıq etmiş, Gülarəni gəlin köçürtmüşdü. Gülarənin oğlu Cəmili qardaşı oğlu ilə birlikdə böyütmüş, oxutmuş, evləndirmişdi.

Z.Seyidməmmədova iyirmi il nazir işlədi. Ona əsil qayğını ümummilli lider H.Əliyev göstərdi. Nazir olanda gözləri tutulmağa başlamışdı. İşdən azad olunmaq barədə ərizəsinə birinci katib Heydər Əliyev müsbət yanaşmadı. Çox təkitdən sonra Züleyxa xanım Dostluq Cəmiyyətinə müavin təyin edildi. Heydər Əliyevin müdrikliyi sayəsində Züleyxa xanım evə qapanmaqdan xilas oldu.[1]

Z.Seyidməmmədova 1999-cu ildə dünyasını dəyişib. Vəsiyyətinə əsasən Şüvəlanda ata-anasının yanında dəfn olunub. 2009-cu ildə onun 90 illiyi təntənə ilə qeyd edilib.

Azərbaycanın şair və yazıçıları Moskva müdafiəçilərini öz əsərləri ilə ruhlandırırdılar. Xalq şairi S.Vurğunun 1941-ci ilin oktyabrında yazdığı məşhur "Moskva" şeiri döyüşçülər arasında məşhur idi. "Bakinskiy raboçiy", "Kommunist" qəzetləri öz səhifələrində Moskva müdafiəçiləri haqqında materiallar dərc edirdi.

Moskva döyüşləri 9 ay davam etdi. Döyüşlərdə hər iki tərəfdən 2 milyondan çox adam, 3,5 minə yaxın tank, 1,5 minədək təyyarə, 20 mindən yuxarı top iştirak etdi.[2] Moskva altında döyüş başa çatanda düşmən Moskvadan 100-350 km geri atıldı. 58 alman-faşist diviziyası məhv edildi və ya sıradan çıxarıldı.

Alman-faşist qoşunları Moskva altındakı döyüşü uduzdu. Onların qələbə əldə etmək, Moskvada qələbə paradı keçirmək xəyalı puça çıxdı. Bunu sonralar Hitler Almaniyası liderləri, ABŞ və Fransanın dövlət xadimləri və kütləvi informasiya rəhbərləri etiraf etdilər. Hərbi cani G.Gerinq Nurenberq prosesində "**Siz etiraf edirsiniz ki, Sovet İttifaqına hücum etməkdə böyük cinayətə yol vermisiniz?**" sualına cavabında demişdi: "**…mühari-**

[1] http://eldergisi.ws/index.php?/weblog/more/169/
[2] История Второй Мировой войны 1939-1945 гг. Т.4. Москва, 1961. – с.292.

bənin gedişi göstərdi ki, çox şey haqqında bilmirdik, çox şey haqqında hətta şübhələnmirdik. Heç bir fəal kəşfiyyat sovetlərin həqiqi potensialını üzə çıxara bilməz. Mən insanlar haqqında danışıram".[1]

Moskva döyüşləri dünya müharibəsinin gedişinə həlledici təsir etdi. ABŞ-ın dövlət katibi G.Stettiniusun qeyd etdiyi kimi, "əgər Sovet İttifaqı öz cəbhəsini saxlaya bilməsəydi, almanların Böyük Britaniyanı tutmaq imkanları yaranardı".[2]

Görkəmli fransız jurnalisti Jan Şampenau qeyd etmişdi ki, "Hitler ümumiyyətlə sovetlər ölkəsinin adamlarının vətənpərvərliyinin dərəcəsini qiymətləndirmək qabiliyyətinə malik deyildi".[3] Bunun əksinə olaraq Hitler hələ müharibənin əvvəlində – 1941-ci il iyulun 4-də bildirmişdi ki, o hər zaman özünü düşmənin vəziyyətinə qoyur. Faktiki olaraq o, müharibəni uduzmuşdur. 10 gün sonra yapon səfiri Xurosu Osima ilə söhbətində fürer demişdi: "Stalini bu dəfə Napaleonun taleyi gözləyir".[4]

Moskva altındakı döyüşlərdəki qəhrəmanlıqlarına görə **110 nəfər** Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Onlardan 56 nəfəri Quru Qoşunlarını, 54 nəfəri Hərbi Hava Qüvvələrini təmsil edirdi. Sovet İttifaqı Qəhrəmanlarının 28 nəfəri donanmaçı, 6 nəfəri serjant və starşina, 66 nəfəri orta komanda heyətindən, 10 nəfəri böyük və yüksək komanda tərkibindən idi. 9 nəfər partizan bu yüksək ada layiq görüldü. Qəhrəmanların 76,3%-i kommunist, 8,2%-i komsomolçu, milli tərkibinə görə 70 nəfəri rus, 30 nəfəri ukrain idi. **Moskvanın müdafiəsində qəhrəmanlıq və igidlik göstərdiyi üçün 36 min döyüşçü orden və medallarla təltif olundu**.[5]

"Moskvanın müdafiəsinə görə" medalı ilə təltif olunanlardan **Bakı şəhərindən** Ağayev Həmdulla Abdul oğlu, İsmayılov İsrafil Zakir oğlu, İsmayılov İbrahim İsa oğlu, Məmmədov Əliağa Əli Baba oğlu, Səmədov Rəşid Mövsüm oğlu, Mahmudov Mahmud Soltan oğlu, Həsənov Səfalı Gülmalı oğlu, Vəliyev Yusif Əli oğlu, Arazov Ağadadaş Bəysultan oğlu, Yunusov Əbdül Kərim Zeynal oğlu, Ağayev Bala Hüseyn oğlu, Əzizov Hüseyn Məmət oğlu, Həkimov Əliağa Möhsüm oğlu, Salamov Heydər Mikayıl oğlu, Fərhadov Əzizağa Əliqarayeviç, Məmmədov Niyazi Namazoviç, Məlikov Şahrza Əlirza oğlu, Rzayev Böyük Ağa Tağı oğlu, Quliyev Nəcəf Əliyeviç, **Naxçıvan Muxtar Respublikasından** Hacıyev İsmayıl Hacı oğlu, Hüseynov Kamran Əddadi oğlu, Rəsulov Qəhrəman Rəhim oğlu, Sultanov Fərrux Əziz oğlu, **Sumqayıt şəhərindən** Abdullayev Əhməd Nəs-

---

[1] Газ. «Правда», 1965, 19 ноября.

[2] Рейнгардт, Клаус. Поворот под Москвой. Крах гитлеровской стратегии зимой 1941-1942 гг. (перевод с немецкого) / К. Рейнгардт. – Москва, 1980. – с.5.

[3] За рубежом // 1980, № 2, с.8.

[4] Рейнгардт, Клаус. Поворот под Москвой. Крах гитлеровской стратегии зимой 1941-1942 гг. (перевод с немецкого) / К. Рейнгардт. – Москва, 1980. – с. 49.

[5] Газ. «Бакинский рабочий», 1966, 2 декабря.

rulla oğlu, Qəniyev Cabbar Ağaverdi oğlu, Mirzəyev Əlihəsən Mirzə oğlu, Məmmədov Surxay Bayram oğlu, Novruzov Ağacan Əkbər oğlu, Rzayev Şahbaz İbrahim oğlu, Salamov Yaqub Yusub oğlu, **Gəncə şəhərindən** Zeynalov Rəsul Süleyman oğlu, İlyasov Adil Cəbrayıl oğlu, Qazıyev Nasir Abbas oğlu, Məmmədov Mahmud Axund oğlu, **Şirvan şəhərindən** Cəbrayılov Mikayıl Həmzə oğlu, Əsgərov Ələsgər Surxay oğlu, Ağayev Rizvan Analı oğlu, Bədəlov Aman Verdi oğlu, Hüseynov Əlisaleh Habil oğlu, Məmmədov Nazir Vəzir oğlu, Ələkbərov Səfa Bəxtiyar oğlu, Niftaliyev Mirzəağa Veysəl oğlu, Mehrəliyev Əbülfəz Zülfəli oğlu, **Astara rayonundan** Nəbiyev Həmzəağa Rəcəb oğlu, **Abşeron rayonundan** Feyzullayev Feyzi Əhməd oğlu, **Ağdamdan** Abdullayev Səlim Məhəmməd oğlu, Fərəcov Xəlil Cabbar oğlu, **Ağdaşdan** Əhmədov Mustafa Şabəddin oğlu, Hacıyev Adışirin Mürşüd oğlu, Rəsulov Rəsul Əhəd oğlu, **Bərdə rayonundan** Əhmədov Cəbi Barxudar oğlu, Baxışov Əsgər Abış oğlu, Məmmədov Behbud Qurban oğlu, **Balakəndən** Mehtiyev Bayram Davud oğlu, **Goranboydan** Əliyev Gəray Mabud oğlu, Aslanov Qasım Əsəd oğlu, Bayramov Bayram Qəhrəman oğlu, Həmzəyev İslam Muxtar oğlu, **Daşkəsəndən** Məmmədov Əli Həsən oğlu, **Cəbrayıldan** Vəliyev Osman Əhmədxan oğlu, Hüseynov Zəki Məmmədəli oğlu, Quliyev Murtuza Bayram oğlu, Xudiyev Əli Mahmud oğlu, **Zaqataladan** Həsənov Məmməd İsmayıl oğlu, Çobanov Məmməd Həbib oğlu, **İmişlidən** Əhmədov Abbas Hümbət oğlu, **Gədəbəydən** Kazımov Məmməd Kazım oğlu, Muradov İmran Mirzə oğlu, Səmədov İbrahim Həsən oğlu, **Qazax rayonundan** Allahverdiyev Müseyib Abdulla oğlu, Əliyev İslam İbrahim oğlu, Əhmədov Əsəd Nəsib oğlu, Vəliyev İsmayıl Alxas oğlu, İbrahimov Qulaməli İsmayıl oğlu, İsmayılov İzzət Mehrəli oğlu, İgidov İsfəndiyar İsmayıl oğlu, Nəbiyev Nəbi Daşdəmir oğlu, Ömərov Ömər Səməd oğlu, Yusifov Paşa İsgəndər oğlu, **Qubadlıdan** Əliyev Baxış Hüseynəli oğlu, **Quba rayonundan** Əliyev İkraməli Cəmələddin oğlu, Əliyev Əliağa Mövlud oğlu, Aslanov Oruc Nəbi oğlu, Dadaşov Həbibulla Cəbrayıl oğlu, İdrisov Aslan Xeyrulla oğlu, **Laçından** Qəhrəmanov Surxay Cəmil oğlu, Kərimov Camal Qara oğlu, Şahsuvarov Məmmədəli Ədil oğlu, **Lənkərandan** Hüseynov Mirzəhüseyn Ağababa oğlu, Şahmuradov Qəni Kişi oğlu, **Masallıdan** Abdullayev Əlikişi Ağabala oğlu, Aslanov Şəki Hüseyn oğlu, Məmmədov İsa Musa oğlu, Mahmudov Şəfi Məmməd oğlu, Talıbov Sahib İbrahim oğlu, **Neftçalada**n Hüseynov Əbdülhəsən Əlihəsən oğlu, Xankişiyev Balakişi Əliabbas oğlu, **Ucardan** Hüseynov Məlik Mail oğlu, **Füzulidən** Hümbətov Əliverdi Kərim oğlu, Məmmədov Musa İsrafil oğlu, **Şəmkirdən** Əmiraslanov Məcid Oruc oğlu, **Şamaxıdan** Alxasov Ağamirzə Əli oğlu, Zərbəliyev Həbdi Veysəl oğlu, Mədətov Ağaverdi Şamil oğlu, Novruzov Lətif Abbas oğlu və b. **hörmətlə xatırlanır**.

Sevastopol altında döyüş

Alman-faşistlər Moskva altında məğlubiyyətə uğradıqdan sonra ikinci cəbhənin olmamasından isti-

fadə edərək öz canlı qüvvələrini və döyüş texnikasını sovet-alman cəbhəsinin cənub qanadında cəmləşdir-məyə başladılar. 1942-ci ilin mayından başlayaraq döyüşlər yenidən bərpa olundu. Almanlar Krım cəbhəsinin qoşunlarına zərbə endirdi. Mühasirəyə alınmış Sevastopolda vəziyyət getdikcə ağırlaşdı. 1942-ci il iyunun 22-də Sevastopolda ilk düşmən təyyarələri göründü. 20 gündən çox Sevastopol altında gərgin döyüşlər başladı. Sevastopol şəhərinin qəhrəmancasına müdafiəsi 1941-ci il oktyabrın 30-dan 1942-ci ilin 4 iyuluna kimi davam etdi.

1941-ci il oktyabrın sonundan noyabrın 26-dək Sevastopol müdafiə rayonunun azsaylı hissələri alman-faşist qoşunlarının ön hissələri ilə döyüşə girərək sahil müdafiə və gəmi artilleriyalarının, həmçinin donanma aviasiyasının köməyi ilə düşmənin sürətli hücumla Sevastopolu ələ keçirmək cəhdlərini dəf etdilər. Noyabrın əvvəllərində Qara dəniz donanmasının komandanı vitse-admiral F.S.Oktyabrskinin başçılığı ilə Sevastopol Müdafiə Rayonu (bundan sonra – SMR) yaradıldı, Sevastopol qarnizonunun hissələri, Qara dəniz donanmasının gəmiləri və aviasiyası, əlahiddə Primorye ordusu (general İ.Y.Petrov) SMR-na daxil edildi. Sevastopol Müdafiə Rayonunun qüvvələri alman-faşist qoşunlarının 3 böyük hücumunu (1941, 5 noyabr və 17 dekabr, 1942, 7 iyun) qəhrəmanlıqla dəf etdilər, düşmən canlı qüvvə və texnika cəhətdən ağır tələfata uğradıldı.[1]

Sevastopolun müdafiəçiləri içərisində azərbaycanlı – Xaçmaz rayonundan kolxozçu **Bəxtiyar Kərimov** da vardı. Bəxtiyar Kərimov çörək aparan hissədə qulluq edirdi. Bir dəfə o, 11 alman avtomatçısı ilə rastlaşır. Alman əsgərləri ilə döyüşdə ölümcül yaralanan Bəxtiyar Kərimovun yanında 11 alman əsgərinin cəsədini sayırlar.[2]

Kiçik siyasi rəhbər L.Reqdman "Kommunist" qəzetinə göndərdiyi "Bəxtiyar Kərimovun igidliyi" adlı məktubda yazırdı: "Cəbhənin Krım tərəfi. Arabaçı qızıl əsgər Bəxtiyar Kərimov çörəkxanadan qayıdırdı. Qar tozunu sovuran külək onun qulaqlarına rus dilində deyil, başqa dildə danışanların qırıq-qırıq sözlərini çatdırdı. Kərimov səs gələn tərəfə diqqətlə qulaq asdı, atını saxladı, dərhal tüfəngini əlində möhkəm sıxdı. Yolun sol tərəfində, dərə ilə faşist kəşfiyyatçılar dəstəsi gəlirdi. Kərimov Bəxtiyar kolun dalında gizlənən faşistləri saydı: bunlar 11 nəfər avtomatçıdan ibarət idilər.

Bəxtiyar bir güllə atıb quldurlardan birini yerə sərdi. Almanlar yerə uzandılar. Kəşfiyyatçılar dəstəsindən iki əsgər ayrılıb, müxtəlif tərəfdən sürünə-sürünə yola çıxmaq üçün irəliləyirdilər. Cəlladlardan biri də dərədən çıxdıqda Bəxtiyar dərhal ona bir güllə atdı. Quldur dərəyə yıxıldı. Bunu görən faşistlər şiddətli atəş açdılar. Kərimov çiyninə, boynuna və qulağına

---

[1] Жидилов, Е.И. Мы оставали Севастополь. Москва, 1960; 77-я Симфоропольская. Баку, 1974; Огневые дни Севастополья. 2-изд. Симфоропол, 1984.

[2] AMEA TİEA, Fond№1, iş №29, qovluq ~№3-a, vərəq – 212–214.

güllə dəydiyini hiss etdi. Yerə yıxılıb bir dəqiqə özündən getdi. Gözünü açarkən quldurun dərədən çıxdığını gördü.

Bəxtiyar tələsmədən yanındakı iki qumbaranı atmaq üçün hazırladı, sonra bir az qalxıb bu qumbaraları yırtıcı faşistlərin üzərinə tulladı. Qüvvətli partlayış əmələ gəldi. Bəxtiyarın qulağı cingildədi. Yırtıcı düşmənlərdən daha səkkizinin meyiti yuvarlanıb dərənin dibinə düşdü.

Sağ qalan və döşündə iki dəmir xaç nişanı olan kiçik zabit qumbaranın qəlpəsi ilə yaralanmışdı. Buna baxmayaraq faşist zabiti özündən getmiş B.Kərimov tərəfə sürünə-sürünə bir neçə güllə atdı. Ölümcül yaralanmış Bəxtiyar çox çətinliklə gözünü açdıqda düşmənin onun üzərinə əyildiyini gördü. Qızıl əsgərin ürəyində qəzəb hissi o qədər böyük idi ki, ölümcül yaralandığına baxmayaraq özündə qüvvət hiss etdi və faşisti tutub özünə tərəf çəkdi. Quldur faşisti əli ilə boğa bilməyən Bəxtiyar onun hülqumunu dişinə keçirdi.

Biz azərbaycanlı gəncin 11 quldur faşisti məhv etdiyi bu faciəli çarpışma yerinə bir saatdan sonra alayla gəlib çatdıqda döyüşçülər papaqlarını çıxartdılar və bir dəqiqə susaraq qəhrəmanın xatirəsini yad etdilər”.[1]

Sevastopol müdafiəçilərinin içərisində starşina Xankişiyev, qvardiya yefreytoru Həsən Həsənov, Nurəli Mirzəyev, Hacıyev, Kərimov, İbrahimov da var idi.[2] “Kommunist” qəzeti mart nömrələrinin birində «Комсомольская правда» qəzetinin müxbirinin “Ölməzlik” məqaləsini dərc etmişdi. Məqalədə deyilirdi: “Onlar 16 nəfər idi. Onları “Mübariz ailə” adlandırırdılar. Onların içərisində top nişançısı Fəzli Əhmədov, batalyonun kəşfiyyatçısı Aslan Vəliyev, top nişançısı Denis Baxışov, doldurucu İsmayıl Məmmədov da vardı. Kiçik batareya tankların ikinci hücumuna davam gətirdi. 30 düşmən maşını gəlirdi. Fəzli Əhmədov, Tkaçenko və Abramenko sıradan çıxdılar. İndi Məmmədov iki topdan atəş açırdı. Onun top güllələri ilə düşmənin iki maşını alışıb yandı. Məmmədov çiynindən yaralansa da, son nəfəsinə qədər döyüş başında qaldı”.[3]

Sevastopol uğrunda döyüşlərdə azərbaycanlı Həşim Məmmədov qorxmazlıq nümayiş etdirdi. Cəsur şahin Midhət Ələkbərov 1942-ci il aprelin 27-də Kerç şəhəri üzərində 9 faşist təyyarəsi ilə döyüşə girmiş, 2-sini məhv etmiş, qalanlarını qaçmağa məcbur etmişdi. Kerç rayonu döyüşlərində Qəhrəman Məmmədov qırıcı təyyarəsi ilə 3 faşist təyyarəsinə qarşı vuruşmuş, onlardan birini vurmuş, 2-si qaçarkən onları təqib edərək qeyri-bərabər döyüşdə həlak olmuşdu.

---

[1] “Kommunist” qəzeti, 1942, 4 fevral.

[2] Məktublar – 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941-1945 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.145-146.

[3] “Kommunist” qəzeti, 1942, 24 mart

Krım uğrunda döyüşlərdə topçu A.Sultanov,[1] İ.Nuriyev,[2] topçu komandir Mirzəli Mirzəyev, kəşfiyyatçı Hacıbala Ağayev və Allahverdi Qasımov cəsarətlə döyüşdülər.[3]

Alfa Şirazi, hərbi həkim Sara İbrahimova, tibb bacıları A.Rüstəmbəyova, B.Mircavadova, R.Əhmədova, Ş.Əsgərova, R.Gözəlova və onlarla başqaları yüzlərlə yaralını ölümün pəncəsindən aldılar.

Rüstəmbəyova Aliyə Fətulla qızı döyüşçülər arasında "partizan həkim" kimi məşhur idi. A.Rüstəmbəyova 1907-ci ildə anadan olmuş, tibb təhsilinə Azərbaycan Tibb Universitetində başlamış, sonra təhsilini I Leninqrad Tibb Universitetində davam etdirmişdi. Təhsilini başa vuran Aliyə bir müddət Özbəkistanda işləmiş, sonra görkəmli terapevt alim, akademik M.S.Vovşinin klinikasında işləmişdi.

A.Rüstəmbəyova

Aliyə Rüstəmbəyova müharibənin ilk günündən orduya səfərbər olundu, tibb sanitar hissələrinin birində işə başladı. 1942-ci ilin döyüşləri zamanı mühasirəyə düşən Aliyə Smolensk vilayətində olan partizan dəstələrindən birinə qoşuldu, 1942-ci ilin iyun döyüşlərində həlak oldu.[4]

Manafova Pakizə Yaqub qızı 1921-ci ildə Nuxada anadan olmuşdur. Nuxa Tibb Məktəbini bitirmişdi. 1941-ci ilin payızında orduya səfərbər olunan Pakizə Manafova yüzlərlə yaralını ölümdən xilas etmiş, yeri gələndə əsgərlərlə yanaşı döyüşmüşdür.

P.Y.Manafova 1943-cü il fevral ayının 28-də Azov dənizi sahilində gedən döyüşlər zamanı həlak olmuşdur.

P.Manafova

P.Manafovanın döyüş xidmətləri orden və medallarla qeyd edilmişdir. Şəkidəki küçələrdən biri P.Manafovanın adını daşıyır.

1960-cı ildə general-leytenant Y.İ.İdilov "Biz Sevastopolu qoruyuruq" xatirə kitabında yazırdı: "…Sanitar hissənin rəisi Marmanşteyn öz təsərrüfatının boşaldılmasına başlayır. Tibb bacıları və sanitarlar tibb alətləri və sterilizə edilmiş materiallarla dolu qutuları və yükləri daşıyırlar. Nəzərim ixtiyarsız olaraq iki qız sanitar üzərində dayanır. Ciddi donanma forması bu qızlara necə də yaraşır! Gürcü Keto

---

[1] Газ. «Вышка», 1942, 5 декабря.

[2] Yenə orada, 28 aprel.

[3] Mədətov, Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (*Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri*) /Q.Ə.Mədətov.– Bakı, 2018.– s.94.

[4] ASE, VIII cild: ПРАДО-СПРИНТ. Bakı, 1984. – s. 235.

Xomereki və azərbaycanlı Əsmər Həsənova… Əsmər arıqdır, incə sifətli, qarayanızdır”.[1]

Ə.Həsənova

Həsənova Əsmər Əkbər qızı 1920-ci ildə Nuxada anadan olmuşdu. İlk təhsilini şəhər 10 nömrəli məktəbdə almış, 1937-ci ildə Nuxa Tibb Məktəbini bitirərək Ağdaş rayonunda əmək fəaliyyətinə başlamışdı. 1939-cu ildə iş yerini Nuxa Mərkəzi Rayon Xəstəxanasına dəyişən gənc tibb bacısı Əsmər Həsənova 1941-ci il iyunun 22-də cəbhəyə gedir. Əsgəri xidmətə Kerçdə başlayan Ə.Həsənova həmin ilin avqustunda Sevastopola 7-ci Hərbi-Dəniz briqadasına feldşer göndərilir. Ə.Həsənova 1942-ci ilin sentyabrında döyüşlərin birində kontuziya alır, müalicədən sonra Nuxadakı mərkəzi xəstəxanada tibb bacısı kimi işə başlayır. Ə.Ə.Həsənova döyüş xidmətlərinə görə orden və medallarla təltif olunmuş, 1990-cı ildə dünyasını dəyişmişdir.[2]

Əsmər Həsənova Sevastopolun qəhrəman müdafiəsində öz döyüş rəfiqəsi Keto Xomereki ilə 25 nəfər yaralı döyüşçünü qayalar arasında gizlədərək iki həftə orda saxlamış, yemək və su ilə təmin etmiş, yaralıları həyata qaytarmışdılar. Ə.Həsənovanın həyata qaytardığı yaralı döyüşçü-zabit B.Süleymanovun Əsmərə yazdığı məktubdan sətirlər: “Əsmər bacı! Mən 1942-ci ilin iyun ayını xatırlayıram, həmin ağır günlərdə Sevastopolun tunellərində darısqal mağaralarda yaralı əsgərlərə sizin necə qayğı ilə xidmət etdiyinizi yadıma salıram, mən də həmin yaralılar içərisində idim, o günləri xatırlayıram və heç zaman unutmayacağam”.[3]

Əsmər Həsənovanın ən çətin günlərindən biri sualtı qayıqda Tuapseyə göndərilən 5 nəfər yaralı əsgər və zabiti müşayiət etməsi olmuşdu. Həmin günlərin ağır anları 7-ci briqadanın komandiri, general-leytenant İ.İ.Sidirovun “Biz Sevastopolu müdafiə edirdik” adlı əsərində təsvir olunub. İ.İ.Sidirov Ə.Həsənova haqqında yazır: “…bəddəncə zəif, qaraqaş, qaragöz qızlar… gənclərə xas olan bütün müsbət keyfiyyətləri özlərində təcəssüm etdirmişlər”.[4] Kubra Məmmədova, Lətafət Məmmədova və Pakizə Vahabova 44-cü diviziyanın tərkibində Sevastopol şəhəri uğrunda döyüşlərdə iştirak etdilər. Pakizə Vahabova 1942-ci ilin dekabrında qəhrəmanlıqla həlak oldu, Kubra Məmmədova tibb leytenantı rütbəsinədək yüksəldi, 1942-ci ilin qışında ikinci dəfə yaralandığı üçün ordudan tərxis olundu.

---

[1] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S.Məmmədov.– Bakı, 1988.– s.27.
[2] Yenə orada, s.28.
[3] Zeynalov, Əkrəm. Azərbaycanın tibb işçiləri 1941-1945-ci illər müharibəsində /Azərbaycan 1941-1945-ci illər müharibəsində: (Məqalələr toplusu). Bakı, 2008. – s.61.
[4] Yenə orada

Məmmədova Lətafət Rəsul qızı 1921-ci ildə Nuxada anadan olmuş, 1939-cu ildə Nuxa Tibb Məktəbini bitirmişdi. Müharibə başlayanda cəbhəyə könüllü gedən Lətafət Məmmədova feldşer kimi fəaliyyət göstərmişdir.

L.Məmmədova

Müharibədən sonra Azərbaycan SSR Daxili İşlər Nazirliyinin 4 nömrəli əmək-islah düşərgəsində işləyən L.Məmmədova, 1950-1952-ci illərdə Bakı Ali Partiya Məktəbində təhsil aldı, 1960-cı ilin may ayına qədər Nuxa Şəhər Partiya Komitəsində təlimatçı işlədi.

1963-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu (indiki İqtisad Universiteti) bitirən L.Məmmədova orden və medallarla təltif olunmuşdur.

Aliyə Azərlinin cəbhə yolu Tamandan, Krasnodardan, Şimali Qafqazdan keçdi, Mozdok döyüşlərində, Kerç və Sevastopol uğrunda vuruşmalarda iştirak etdi, Azov uğrunda döyüşlərdə yaralandı. Sanitar batalyonunda müalicə olunan Aliyə 6 ay Rostov yaxınlığında hospitalda qaldı, yenidən Dnepropetrovsk, Poltava, Melitopol, Stalino, Şaxtı şəhərləri ətrafında döyüşlərdə iştirak etdi. Ukrayna və Belarusiya torpaqlarının faşistlərdən təmizlənməsinin şahidi oldu. 1945-ci ildə Aliyənin sorağı Şərqi Prussiyadan gəldi, döyüş yolunu Berlində başa vurdu.

Züleyxa Rzayeva Sevastopol uğrunda döyüşlərdə canını qurban verdi. Xerson uğrunda döyüşlərdə iştirak edən həkim Sara Mirnağızadə xatirələrində yazırdı ki, ağdamlı qız Əminə, Bakıdan Dostu xanım, Ədilə qorxmazlıq və mərdlik nümunəsi göstərərək qəhrəmanlıqla həlak oldular.

Həkimlər Leyla Məmmədbəyli və Fatma Ağayeva Sevastopolda neçə-neçə əsgəri ölümdən xilas etdilər.

Həyat və Hüseyn Rəsulbəyovlar Kerçdə və Sevastopolda döyüşdülər. Dilşad Rəhimova Moskva hava hücumundan müdafiə alayında zenit artilleriya batalyonunda bölmə komandiri kimi neçə-neçə faşist təyyarəsini məhv etdi. Onun döyüş xidmətləri "Qızıl Ulduz" ordeni ilə qiymətləndirildi.

Sevastopolu qəhrəmancasına müdafiə edən azərbaycanlı döyüşçülərin igidliyi "Sevastopoldakı azərbaycanlı döyüşçülərin, komandirlərin, siyasi işçilərin və Sevastopol müdafiəçilərinin bütün şəxsi heyətinin Azərbaycan SSR fəhlələrinə, kolxozçularına və ziyalılarına" məktubunda əks olunmuşdu. Məktubda bildirilirdi ki, "Sevastopolun qəhrəmancasına müdafiəsi günlərində bir çox yoldaşlarımız – Azərbaycan xalqının bir çox igid oğulları Vətən uğrunda döyüşlərdə mərdlik və fədakarlıq nümunələri göstərdilər. Əsgər Səmədov öz minaatanının atəşi ilə düşmənin 2 minaatan qurğusunu və 16 faşisti məhv etdi. Mina atıcıları dəstəsinin komandiri olan serjant Əhmədov bu yaxınlarda bir gündə düşmənin bir minaatanını məhv etdi və

10 hitlerçini öldürdü. Qorxmaz kəşfiyyatçı Səfərov almanların iki atəş nöqtəsini dağıtdı və 25-ə qədər hitlerçini zərərsizləşdirdi”.[1]

Sevastopol 250 gün qəhrəmancasına müdafiə olundu. Şəhər müdafiəçilərinin qəhrəmanlığı yüksək qiymətləndirildi. 46 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Azərbaycanlı döyüşçülər A.Abbasov, Q.Məmmədov, B.Kərimov, H.Həşimov, H.Hacıyev, A.Heydərov, Ə.Həsənov, Ş.Əhmədova, Z.Rzayeva və b. Sevastopol döyüşlərindəki qəhrəmanlıqlarına görə orden və medallarla təltif olundular.[2]

1942-ci ilin dekabrın 22-də SSRİ Ali Soveti Rəyasət Heyəti “Sevastopolun müdafiəsinə görə” medalını təsis etdi. Yüzlərlə döyüşçü həmin medalla təltif olundu. Qələbənin 20 illiyi ildönümündə – 1965-ci il mayın 8-də “Lenin” ordeni və “Qızıl Ulduz” medalı verilməklə Sevastopola “Qəhrəman şəhər” adı verildi.

Əsaslı dönüşə doğru

1942-ci il ərəfəsində Sovet dövlətinin vəziyyəti ağır olaraq qalırdı. Material və insan itkisi, böyük ərazilərin düşmən ordusu tərəfindən zəbt olunması vəziyyəti bir az da ağırlaşdırmışdı.

Almaniyanın vəziyyəti də ürəkaçan deyildi. Onun “İldırımsürətli müharibə” planı iflasa uğramaqda idi. Moskva altında döyüşlərdə Sovet qoşunları müəyyən uğurlara nail olsa da, hələlik müharibənin gedişində köklü dəyişikliklər baş vermirdi.

II Dünya müharibəsinin miqyası getdikcə genişlənirdi. 1941-ci il dekabrın 7-də Yaponiya Perl-Xarborada ABŞ donanmasına və Sakit okeanda Britaniya mülklərinə hücum etdi. İngiltərə və ABŞ Yaponiyaya, bir neçə gün sonra Almaniya və İtaliya ABŞ-a müharibə elan etdi. ABŞ müharibəyə daxil olduğu zaman faşist Almaniyasının əsas qüvvələri Şərq cəbhəsi istiqamətində cəmləşdi. Yaponiya isə SSRİ-nin Uzaq Şərq sərhədində milyonluq ordusunu saxlamaqda idi.[3]

Sovet ordusunun 1941-1942-ci ilin qış kampaniyasında cəbhədəki uğurları, arxa ilə ön cəbhənin birliyinin möhkəmlənməsi əvvəlki dövrlərə nisbətən SSRİ-nin hərbi-siyasi vəziyyətini qismən yaxşılaşdırdı. SSRİ, ABŞ və İngiltərənin müttəfiqlik münasibətləri inkişaf edirdi. Antihitler koalisiyası, onun siyasi, hərbi və iqtisadi rolu faşist blokuna qarşı mübarizədə mühüm tarixi faktlar idi.

SSRİ, ABŞ və İngiltərə özünün insan potensialına görə əsas təcavüzkar olan Hitler Almaniyasını 2 dəfə üstələyirdi.

1942-ci ilin aprelində qış kampaniyası başa çatdı. Sovet qoşunları bir sıra vilayətləri və Kerç yarımadasını işğalçılardan azad etdi. Ordu böyük miqyasda hərbi əməliyyatlar təcrübəsi qazandı. Qızıl Ordunun qış qələbəsi

---

[1] “Kommunist” qəzeti, 1942, 30 may.
[2] ASE, VIII cild: Prado-Spirint. Bakı, 1984. – s. 321.
[3] Самсонов, А.М. Сталинградская битва / А.М.Самсонов. – Москва, 1982.– с.29.

Şərqdə müharibənin tezliklə qurtaracağı planını pozdu, SSRİ-nin beynəlxalq aləmdə nüfuzunu qaldırdı və antihitler koalisiyasının yaranmasına şərait yaratdı.

1942-ci ilin yanvarında Vaşinqtonda SSRİ, ABŞ, İngiltərə və Çin də daxil olmaqla 26 dövlət Bəyanat qəbul etdilər. Bəyanatda təntənəli surətdə bildirilirdi ki, imza edən dövlətlər bütün ehtiyatlarını faşist Almaniyası bloku ölkələrinə qarşı yönəldəcək, düşmənlə seperat müqavilələr bağlamayacaqlar.[1]

Bütün uğurlara və müvəffəqiyyətsizliklərə baxmayaraq, 1942-ci il SSRİ üçün ən ağır il oldu və müharibənin birinci dövrü başa çatdı. Siyasi rəhbərliyin səhvləri üzündən qələbə kütləvi insan itkisi hesabına başa gəldi. Tam olmayan məlumata görə sovet silahlı qüvvələri təxminən 17 ay ərzində 11.162 min adam itirdi, 24.771 tank, 129.397 top və minomyot, 11.873 döyüş tüfəngi sıradan çıxdı.[2]

Hərbi Dəniz Qüvvələrinin qəhrəmanlığı nəticəsində Odessa 73 gün, Xarkov 164 gün, Sevastopol 250 gün düşmənə sinə gərdi. Alman Baş Ştabının rəisi F.Qalderin etirafına görə, 1941-ci il iyunun 22-dən 1942-ci il sentyabrın 15-dək alman qoşunları şərq cəbhəsində ölənlər və yaralananlarla birlikdə 1.637.280 adam itirdi.[3] Vermaxtın siyasi rəhbərliyinin və generalların hərbi kampaniyanı Şərqdə tezliklə başa çatdırmaq planının həqiqətə uyğun olmadığı aydınlaşdı.

Odessa ətrafındakı döyüşlərin qəhrəmanları sırasında Qasım Əsədov və Məlik Hüseynov da qəhrəmanlıq nümunəsi göstərdilər. Qasım Əsədov döyüşlərdə həlak oldu. O, ölümündən sonra I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundu. Məlik Hüseynov isə Odessa vilayətinin Strukova kəndi döyüşlərində əbədiyyətə qovuşdu.[4]

Hissə komandirinin İdris Vəliyevin ailəsinə göndərdiyi məktubda bildirilirdi ki, İdris Vəliyevin minamyotçuları faşistlərin hərbi sursatla dolu anbarını, 60 əsgər və zabiti, 2 tank pulemyotu nöqtəsini məhv etmişlər. Odessanın müdafiəsi zamanı bombardmançı şahin Y.Quliyev düşmənin 100 tankını, 175 avtomobilini, 600 əsgər və zabitini zərərsizləşdirmişdi. O, döyüş xidmətlərinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.[5]

Nəcəfqulu Rəfiyevin tankçılar dəstəsi Poltava ətrafında düşmənin 2 ağır tankını, 6 topunu, 50-dək əsgərini, həmin ilin sentyabrında faşistlərin

---

[1]Внешняя политика Советского Союза в период Отечественной войны. т.1. Москва, 1944. – с.170-171.

[2] Гражданская авиация СССР в суровые годы война. Москва, 1990. – с.157, 369.

[3] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс–т российской истории. Москва, 2004, кн.1, с. 99.

[4] Mədətov, Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (*Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri*) / Q.Ə.Mədətov.– Bakı, 2018.– s.209-210.

[5] Azərbaycanın şanlı oğulları. III kitab. Bakı, 1945. – s.59–60.

16-ya qədər müxtəlif topunu, bir tankını, 40 əsgərini məhv etdi, 3 faşist əsgəri əsir alındı.[1]

Müharibənin birinci dövründə böyük iqtisadi potensialı olan antihitler koalisiyası formalaşdı. Bütün itkilərə və səhvlərə baxmayaraq aydın oldu ki, böyük alman hərb maşınının qarşısını almaq mümkündür. SSRİ-nin hərbi uğurlarını görən Qərb müttəfiqləri SSRİ-yə tank, təyyarə, top, ərzaq, geyim, xammal və başqa materiallar göndərməyə başladılar. Sözsüz ki, ölkənin ağır vaxtında bu köməyin əhəmiyyəti böyük idi. Bir sözlə, müharibənin birinci dövründə strateji təşəbbüsün sovet komandanlığının əlinə keçməsi üçün iqtisadi və hərbi şərait yarandı.

Stalinqrad vuruşması 6,5 ay (1942-ci ilin 17 iyulundan – 1943-cü ilin fevralın 2-dək) davam etdi. Döyüş əməliyyatları 100 min kv. km. olan ərazidə getmiş, cəbhə xəttinin uzunluğu 400-800 km. çatırdı. Döyüşün ayrı-ayrı mərhələlərində hər iki tərəfdən 2 milyondan çox adam, 2 mindən çox təyyarə, 26 minədək minomyot və top iştirak etmişdi. 1942-ci ilin noyabrın ortalarından 1943-cü ilin martın sonuna kimi düşmənin 100-dən çox diviziyası darmadağın edilmişdi, 1941-1945-ci illər müharibəsinin ikinci ilində hitlerçilərin ümumi itkisi 2.700 min nəfər olmuşdu. Bu itkilər heç də H.Bolduin və T.Xiqqinsin iddia etdiyi kimi "kəskin rus qışı", "zəif kommunikasiya şəbəkəsi" ilə əlaqədar deyildi.[2]

Stalinqradın alınmasına Hitler böyük əhəmiyyət verirdi. Çünki Stalinqrad güclü sənaye potensialına malik bir vilayət idi, sovet hakimiyyəti illərində ölkənin iri sənaye mərkəzlərindən birinə çevrilmişdi. Müharibə ərəfəsində 126 sənaye müəssisəsi, o cümlədən 28 ittifaq və 2 respublika əhəmiyyətli müəssisə var idi. 445 min nəfər əhali yaşayan Stalinqraddakı «Красный Октябр» zavodu ildə 775,8 min ton polad və 584,3 min ton prokat istehsal edirdi. Stalinqradda və Stalinqrad vilayətində 325 min fəhlə və qulluqçu işləyirdi. 125 məktəb və ali təhsil müəssisəsi, teatr, şəkil qalereyası, idman qurğuları və s. fəaliyyət göstərirdi.[3]

Stalinqrad Orta Asiya və Uraldan gələn nəqliyyat magistrallarında əlaqələndirici məntəqə idi. SSRİ-nin rayonlarını Qafqazla birləşdirən kommunikasiyalar buradan keçirdi. Bakı neftinin daşınmasında Stalinqrad əhəmiyyətli rol oynayırdı.

Stalinqradda əks-hücum noyabrın 19-da saat 7:30-da Sovet Ordusu artilleriyasının atəşi ilə başladı. Hitlerçilər Sovet qoşunlarının hücumunu pozmaq üçün fasiləsiz əks-hücum təşkil etdilər. Xüsusilə faşistlərin 57-ci ordusunun hissələri güclü müqavimət göstərdi. Ancaq Sovet qoşunlarının hücumunu dayandırmaq mümkün olmadı. Birinci gün düşmənin müdafiəsi

---

[1] Azərbaycanın şanlı oğulları. III kitab. Bakı, 1945. – s.76.
[2]H.Balydin. Battles Lost and Won, p.170; T.Higgins. Hitler and Russia. – p 225.
[3]Самсонов, А.М. Сталинградская битва. Москва, 1982. – s. 75.

yarıldı. Mühasirədə müvəffəqiyyətin inkişafı üçün 13-cü, 14-cü mexanikləşdirilmiş korpuslar və 4 süvari korpusu yeridildi. General V.T.Volskinin komandanlıq etdiyi 4-cü mexanikləşdirilmiş korpusun hissələri düşmənin müqavimətini qıraraq Cənub-Qərb cəbhəsinin tankçıları ilə birləşmək üçün Sovetski rayonuna daxil oldular. Eyni zamanda mühasirənin xarici cəbhəsini yaratmaq məqsədilə 51-ci ordunun hissələrinin qüvvələri cənub-qərbə doğru hərəkət etdilər. Noyabrın 23-də gündüz podpolkovnik P.K.Sidkovun 45-ci tank briqadası və Cənub-Qərb cəbhəsinin 4-cü tank korpusu Sovetski yaşayış məntəqələrinə çıxaraq podpolkovnik M.İ.Radionovun 36-cı mexanikləşdirilmiş briqadası və Stalinqrad cəbhəsinin 4-cü mexanikləşdirilmiş korpusu ilə birləşdilər. Don və Volqa çayları arasında faşist qoşunlarının mühasirə halqası başa çatdı. Birləşmələrin hərəkətinin arxasınca atıcı diviziyalar hərəkət etdilər. Onlar mühasirənin halqasını bir az da daraltdılar. Noyabrın 23-də Stalinqrad cəbhəsinin 64-cü və 57-ci orduları Çervlen çayı sahillərinə çıxaraq və düşmənin cənuba çəkilməsinin xarici mühasirəsini daraltdılar. Nəticədə düşmənin qərbdən və cənubdan mühasirəsi tam təmin edildi. Beləliklə, 3 cəbhənin qoşunları qarşılıqlı sıx əlaqədə qarşıya qoyulmuş vəzifəni yerinə yetirdilər. Düşmənin 11 diviziyası məhv edildi,[1] 160-a yaxın yaşayış məntəqəsi azad olundu, 22 düşmən diviziyası və 160-dan çox hərbi hissəsi (330 min nəfər əsgər və zabit) mühasirəyə düşdü. Həmin gün alman-faşist qoşunlarının Rasnonindəki qruplaşması təslim oldu.[2] 51-ci birləşmə 35.000 nəfərdən artıq düşmən əsgər və zabitini məhv etdi.

Dekabrın sonunda sovet qoşunları Stalinqrad ətrafında geniş hücuma keçərək düşməni 15-200 km. geriyə atdılar və bu mühasirədəki düşmən qüvvələrini ləğv etməyə imkan yaratdı. 91 min nəfər əsir alındı, təqribən 140 min nəfər hücum dövründə məhv edildi. 1943-cü ilin yanvar ayında cəbhədə 212 min adam, 6.500-ə yaxın top və minomyot, 254 tank və 330-dək təyyarə vardı. Qüvvələrin nisbətinə görə sovet tərəfi o qədər də üstünlüyə malik deyildi, insanların sayına görə düşməndən geri qalırdı, tankların sayına görə demək olar ki, bərabər idi. Yalnız artilleriyanın sayına görə 1,3 dəfə üstün idi.

Yanvarın 31-də Paulsun təslim olması Hitleri çox qəzəbləndirdi və müqavimət göstərən şimal qrupuna göstəriş verdi ki, nəyin bahasına olursa-olsun əsir düşməsinlər.

---

[1] ASE, IX cild: Sputnik-Fronton. Bakı, 1986. – s.22

[2] Великая Отечественная война Советского Союза 1941-1945. Краткая история. Москва, 1965. – s.213-214.

Alman ordusunun general-feldmarşalı **Pauls Fridrix Vilhelm Ernest** (23.09.1890-01.02.1957) 1890-cı il sentyabr ayının 23-də Braytenau-Herşaqe şəhərciyində anadan olmuşdur. Pauls özünün məlum olmayan mənşəyini gizlətmişdir. Onun atasının xırda burjua olmasına baxmayaraq, o, orduya daxil olanda öz familiyasına "fon" artiklını əlavə etmişdir. Münhen Universitetinin hüquq fakültəsində bir neçə il oxuduqdan sonra 1910-cu ildə 3-cü Baden piyada alayı sıralarına daxil olmuş, bir ildən az müddətdə leytenant rütbəsi almışdır.

Birinci dünya müharibəsi illərinin böyük hissəsini qərargahda işləməsinə baxmayaraq, gənc Pauls həm Qərb, həm də Şərq cəbhəsində döyüşməyə nail olur. O, özünü savadlı qərargahçı kimi göstərdiyinə görə müharibə qurtardıqdan sonra rexsverə düşə bilir. 1919-cu ildə Fridrix Vilhelm Pauls rexsverin təhlükəsizlik şöbəsinin rəisi təyin olunur və Baş Qərargahın zabitlər hazırlayan gizli kursuna göndərilir. 1933-cü ilin ortalarında Pauls podpolkovnik, 2 il sonra isə polkovnik rütbəsi alır və zirehli tank qoşunları qərargahının rəisi təyin olunur. 1939-cu ildə general-mayor rütbəsi alan Pauls Reyxenaunun 4-cü ordu qrupuna qərargah rəisi vəzifəsinə keçirilir. Müharibə başlanandan əvvəl bu qrup 6-cı səhra ordusuna çevrilir, Polşa kampaniyasında iştirak edir, sonra Belçika və Fransada döyüşür. Fridrix Pauls 1940-cı il sentyabrın 3-də Quru Qoşunları Baş Komandanlığının birinci oberkvartimeysteri postunu tutur. Qalder özünün yeni müavininə SSRİ-yə 130-140 diviziya ilə hücum planının işlənməsi haqqında göstəriş verir.

Müharibə dövründə Paulsun rəhbərlik etdiyi qoşunlar müxtəlif cəbhələrdə vuruşmuşlar. 1943-cü il fevral ayının 2-də Stalinqrad döyüşündə vermaxtın 6-cı səhra ordusu təslim olur. Pauls əsir düşür. Alman qərargahında gözləyirdilər ki, tezliklə öz-özünə qəsd edəcəkdir, ancaq narahatlıq əbəs imiş. Birinci sorğu-sualdan sonra 6-cı ordunun əsir generalları Moskva altındakı Krasnoqorsk düşərgəsinə göndərilir. 1943-cü il aprelin 25-də Pauls və generallar Suzdala aparılır və hərbi əsirlər üçün düşərgədə – monastırda yerləşdirilir. 1943-cü ilin iyununda ilk dəfə olaraq Vilhelm Pik feldmarşala baş çəkir. Köhnə kommunist Suzdala demək olar ki, iki həftəyə gedir, ancaq feldmarşalı əymək və ya onu hər hansı bir zabitlə əməkdaşlığa cəlb etmək mümkün olmur. Bir aydan sonra Paulsu vermaxtın əsir düşən generallarının saxlandığı düşərgəyə keçirirlər. 1943-cü il iyul ayının 13-də Krasnodorskda V.Pikin təkidi ilə "Azad Almaniya" Milli komitəsi təsis olunur. Feldmarşal 1944-cü ilin yazınadək ittifaqa girməyə etiraz edir. 1944-cü il avqustun 8-də sovet komandanlığının nümayəndələri Paulsa məlumat verirlər ki, Berlində Hitlerə qarşı sui-

qəsddə əlaqəsi olan şəxsi dostu feldmarşal Vislebeni asmışlar. Həmin gün feldmarşal Pauls özünün məşhur müraciəti ilə çıxış edir, avqustun 14-də alman zabitlərinin ittifaqına daxil olmaq arzusunda olduğunu bildirir.

Pauls 1953-cü il oktyabrın 25-də Almaniyaya qayıdır, həmin gün Drezdenə yola düşür, Vayser Xirşin böyük olmayan malikanəsinə gedir. Pauls 1957-ci il fevralın 1-də dünyasını dəyişmişdir.[1]

Qrupun əmri yerinə yetirməyə cəhd göstərməsinə baxmayaraq, Sovet komandanlığı Paulsa təklif etdi ki, şimal qrupunu silahları yerə qoymağa məcbur etsin. Feldmarşal "özü əsirdir və əsirin əmr vermək səlahiyyəti yoxdur" deyərək bu təklifdən imtina etdi. Fevralın 1-də düşmən müqavimət göstərməyin əbəs olduğunu başa düşərək ağ bayraq qaldırdı. Cəbhənin qoşunları 131 min adam, o cümlədən 2,5 mindən çox zabit və başda feldmarşal Pauls olmaqla 24 general əsir aldılar.[2] Əsirlərdən 1 nəfər general-polkovnik, 1 nəfər general-leytenant, 2 nəfər polkovnik-leytenant, 4 nəfər kapitan, 1.444 nəfər ober-leytenant, 182 nəfər leytenant idi.[3] 51-ci birləşmə 35.000 nəfərdən artıq düşmən əsgər və zabitini məhv etdi.

Stalinqrad vuruşmasında Azərbaycan xalqının mərd oğulları-təyyarəçilər Nuru Əliyev və Tacəddin Əfəndiyev, minomyotçu Şamil Hüseynov, topçu Xeyrulla Şahgəldiyev və başqaları döyüşlərdə qəhrəmanlıq göstərdilər. Stalinqrad vuruşmasında A.Axundov, A.Abbasov, M.Qəribov, M.İsrafilzadə, A.Əliyev, N.Əliyev, B.Ələsgərov, Ə.Kərimov, B.Muxtarov, A.Mustafayev, Ə.Həmidov, Ə.Hüseynov, Ş.Hüseynov, M.Cəfərov və başqaları igidliklə döyüşdülər.[4] Top nişançıları F.Əhmədov və Baxışov, top sürücüsü Şahvəliyev, kəşfiyyatçı A.Vəliyev, doldurucu İ.Məmmədov və b. Stalinqrad uğrunda vuruşmalarda qəhrəmancasına həlak oldular.

Ağdaş rayonunun Əlfətli kəndində anadan olan Əyyub Həmidov 1940-cı ildə ordu sıralarına çağırılır, hərbi hissədə rabitəçi peşəsinə yiyələnir. Müharibə başlananda Əyyubgilin hissəsi Qərb cəbhəsində döyüşə yollanır. Bir dəfə Əyyub sıx və qalın meşədə telefon aparatını qulağına sıxıb ətrafı diqqətlə dinləyirdi. Birdən onun qulağına yad sözlər dəyir. Tez komanda məntəqəsinə xəbər verir. Meşə döyüşçülər tərəfindən əhatə olundu və 12 düşmən əsgəri tutulur. Ə.Həmidov döyüş xidmətlərinə görə I dərəcəli "Vətən müharibəsi" ordeni və "İgidliyə görə" medalı ilə təltif edilmişdi.[5]

Qazax rayonundan olan komandir, leytenant Əmrah Əhmədovun batareyası 13 düşmən tankını və zirehli maşınını, 200-ə qədər hitlerçini məhv

[1] Лубченков, Ю. 100 великий полководец Второй мировой. Москва, 2009 (100 великих)
[2] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985. – с.70.
[3] Yenə orada.
[4] ASE, IX cild: Sputnik-Fronton. Bakı, 1986. – s.23.
[5] "Kommunist" qəzeti, 1943, 27 aprel.

etmiş, düşmənin 50-dən artıq atəş nöqtəsi susdurulmuşdu. Ə.Əhmədov özü 5 alman tankını sıradan çıxarmışdı. Döyüş şücaətlərinə görə Ə.Əhmədov və 11 zirehdələn topçu orden və medallarla təltif edilmişdi.[1]

Quba rayonundan olan komandir Əli Aydəmirov şəxsi qoçaqlıq göstərdi. Batalyon komandirinin siyasi hissə üzrə müavini kapitan Abas Bağırov, hərbi feldşer Allahverdi Piriyev döyüş meydanlarında igidliklə vuruşdu.

Volqa döyüşlərinin igidləri arasında "Lenin" ordeni ilə təltif olunan pulemyotçu Əbdül Baba,[2] "Qırmızı Bayraq" və "Qırmızı Ulduz" ordenləri ilə təltif olunan Gəray Kərimov,[3] döyüşçü əsgər Əli Hüseynov, leytenant Abdulla Axundov, mayor Cəlil Nəcəfov[4] da vardı.

Siyasi şöbənin baş təlimatçısı, Goranboy rayonunun Qaraqoyunlu kəndindən olan kapitan Cəlil Məmmədov buzlar üzərində 35 km. yol gedərək döyüşdə 9 almanı məhv etdi.[5]

Abdulla Axundov 1919-cu ildə anadan olmuşdu. Hüquqşünas olmaq istəyən A.Axundov 1941-ci ildə faşistlərin SSRİ-yə hücumunu eşidən kimi cəbhəyə yollandı. Pulemyotçu peşəsinə yiyələnən Abdulla Stalinqradın müdafiəsində azərbaycanlılarla birlikdə igidliklə vuruşdu. 24 yaşlı qəhrəman 12 döyüşçü ilə "Q" xutoru uğrunda cəsarətlə döyüşdü. Göstərdiyi igidliyə görə "Qızıl Ulduz" ordeni ilə təltif olundu. Son vuruşmada göstərdiyi qəhrəmanlığa görə Abdulla Axundov "Qızıl Bayraq" ordeni ilə təltif edildi. Artıq onun döyüş hesabında 500-dən artıq məhv edilmiş alman əsgər və zabiti vardı.[6]

Quba rayonunun Nügədi kəndindən olan Əli Bala oğlu Mirzəyev "Qızıl Ulduz" ordeni ilə təltif edildi. Tovuz rayonunun Qovlar kəndindən olan topçu baş serjant Teymur Əmir oğlu Babayev sərrast atəşi ilə böyük bir düşmən dəstəsinin hücumunu dəf etdi.

Düşmən tanklarına qarşı vuruşmalarda Kürdəmir rayonundan olan əsgər Maqadim Mərdan oğlu Məmmədov, Bakıdan leytenant Yusif Qurban oğlu Zeynalov, Astara rayonundan Müsaid Hüseyn oğlu Rəhimov, Kürdəmir rayonunun I Qaraqaşlı kəndindən olan əsgər Rəsul Qaib oğlu Salmanov, Laçın rayonundan leytenant Hüseyn Nadir oğlu Yusifov, Naxçıvan şəhərindən baş serjant Tahir Məmmədov, Bakıdan leytenant Bilal Rəsulov və leytenant Ələkbər Hacı oğlu Hacıyev igidlik göstərdilər.

---

[1] Газ. «Известия», 1943, 27 апреля.
[2] Газ. «Бакинский рабочий», 1942, 5 декабря.
[3] Yenə orada.
[4] Газ. «Вышка», 1943, 29 января.
[5] "Kommunist" qəzeti, 1943, 28 aprel.
[6] Yenə orada, 13 aprel.

Zaqatala rayonundan olan rabitəçi leytenant Mustafa Əliabbas oğlu Mustafayev, D.Dünyamalıyev və L.Həşimov "İgidliyə görə" medalı ilə təltif olundular.[1]

Stalinqradın müdafiəsində igid azərbaycanlı Davud Səfərov sərrast pulemyotçu kimi şöhrət qazandı. Cəsur kəşfiyyatçı Şamil Hüseynov 41 faşisti öldürdü, birini əsir götürdü. Naxçıvanlı baş serjant Əli Hüseynov zirehdələn silahı ilə almanların 2 tankını, 2 avtomobilini və onlarca canlı qüvvəsini məhv etdi. Kiçik leytenant İsmayıl Quliyevin pulemyotçular taqımı 6 saat davam edən vuruşmada 430 almanı məhv etdi. Bakılı Mikayıl Qəribov Stalinqrad cəbhəsində şöhrət qazandı. Baş serjant Qəribov 9 qvardiyaçı ilə müdafiə olundu. Hitlerçilər qəribovçulara 2 dəfə hücum etdilər. Birinci hücumda almanlar 25, 2-ci hücumda 70 adam itirdilər. Qvardiya leytenantı, pulemyot bölüyünün komandiri II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olunan Hüseyn Tağıyev, 20 yaralı döyüşçünü və komandiri döyüş meydanından çıxararaq "Qırmızı Ulduz" ordeni ilə təltif edilən tibb işçisi, naxçıvanlı Məmməd Əliyevlə, Ağdam rayonundan olan rabitəçi Əyyub Həmidovla xalqımız fəxr edir.[2]

1942-ci ilin oktyabrında azərbaycanlı leytenant Mikayıl Həbibovun komandirlik etdiyi 11 döyüşçü I strateji məntəqəni sovet qoşunları gələnədək 2 gün 40 faşistin hücumundan müdafiə etdi. "Komcomolckaya pravda" 5 noyabr tarixli nömrəsində yazırdı ki, M.Həbibovun dəstəsi 120-dən çox faşisti məhv etmişdi. M.Həbibovun qəhrəmanlığı "Lenin" ordeni ilə mükafatlandırılmışdı.

M.Abdullayevin topçular bölməsi düşmənin 25 döyüş nöqtəsini dağıtmış, 350-dən çox faşist məhv edilmiş, 49 əsgər və zabit əsir alınmışdı.

B.Abbasov

Stalinqrad döyüşlərinin qəhrəmanlarından biri də, **Balaoğlan Abbasov oldu.** Balaoğlan Abbasov 1919-cu ildə Mirzəağa Abbasqulunun ailəsində doğulmuşdu. Lənkəranda Sutamurd kəndində təhsil almış, "Bolşevik" kolxozunda çəltik sahəsində və çay plantasiyalarında işləmişdi. Kolxozda işləyərkən komsomol sıralarına daxil olan Balaoğlan müharibənin ilk günlərindən cəbhəyə yollanmışdı.

ARPİİSSA-də Azərbaycan K(b)MK-nin xüsusi bölməsində saxlanılan sənədlərdə B.Abbasovun igidliyinə dair[3] Stalinqrad cəbhəsindən diviziya komandirinin siyasi hissə üzrə müavini, polkovnik

---

[1] "Kommunist" qəzeti, 1943, 23 fevral.
[2] Yenə orada, 1943, 19 noyabr.
[3] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №319.

Şlixterin böyük serjant, snayperçi Balaoğlan Abbasov haqqında yazdıqları maraq doğurur. 35 səhifəlik bu yazışmalarda teleqramlar, Zaqafqaziya Hərbi Şurasının üzvü, Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun Zaqafqaziya cəbhəsi Şimal qoşunları qrupu komandanı, general-leytenant Maslennikova, hərbi şura üzvləri Fomin və Qruşevə məktubları, cəbhə və digər mətbuat orqanlarında B.Abbasov haqqında dərc olunmuş yazılar toplanmışdır.

B.Abbasov 1942-ci ildə yazdığı məktubunda 82 faşisti,[1] 30 yanvar 1943-cü il tarixli məktubunda isə 90 faşisti, bir döyüşdə 25 almanı məhv etdiyini bildirirdi.

Sənədlərdəki materiallar içərisində Şlixterin Azərbayacan K(b)P MK katibi M.C.Bağırova teleqramı və məktubu diqqəti cəlb edir. Teleqramda Balaoğlan Abbasovun tərcümeyi-halı barədə diviziyanın təbliğat və təşviqat şöbəsinə müfəssəl məlumat verilməsi xahiş olunur. Şlixterin məktubunda oxuyuruq: "Hörmətli yoldaşlar! Bizim diviziyamıza böyük kədər üz vermişdir. Balaoğlan Abbasov həlak olmuşdur.

Kiçik müddətdə Stalinqrad altında diviziyanın döyüşlərində Balaoğlan bütün diviziyanın sevimlisinə çevrilmişdir. 51 gündə Abbasov tüfənglə 105 alman faşistini məhv etmişdir. Abbasov nəinki çox yaxşı snayperçi, rus Nikolay Yazıkov, belarus İvan Bobrik, ukrain Nikolay Nebero ilə birlikdə diviziyada snayperçi hərəkatının təşəbbüsçüsü oldu. Balaoğlan və onun dostlarının döyüş təşəbbüsü əla nəticə verdi. Diviziya snayperçiləri 2 ay ərzində 2.615 alman yaramazını məhv etdilər".[2]

Məktubda bildirilirdi ki, diviziyada çoxlu mərd insanlar vardır. Stalinqrad altında döyüşlərdə snayperçi ustalığı və fədakar igidliyinə görə B.Abbasov oktyabr ayında "İgidliyi görə" medalı ilə təltif olunub, ölümündən sonra "Qırmızı bayraq" ordeninə təqdim edilib. Məktubun sonunda bildirilirdi: "B.Abbasovun xatirəsi döyüş meydanlarına bizimlə gedəcək, bizim hər bir gülləmizdə, hər mərmimizdə yaşayacaqdır. Biz əminik ki, Azərbaycan xalqının fədakar oğlunun nümunəsi nəinki cəbhə döyüşçülərində, həmçinin alman işğalçılarını məhv etmək kimi müqəddəs işdə hamını ruhlandıracaqdır".[3]

Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun imzası ilə Stalinqrad cəbhəsində snayperçi, baş serjant B.Abbasov haqqında diviziya komandirinin siyasi hissə üzrə müavini, polkovnik Şlixterin məktubunun sürəti və materiallar Şimal Qoşunları Qrupu Zaqafqaziya cəbhəsi komandanı general-leytenant Maslennikova, sürəti hərbi şura üzvləri Fomin və Qruşevə göndərilmişdir. Məkubda bildirilirdi ki, Stalinqrad cəbhəsi cəbhə qəzeti «Красная Армия» üçün "N" diviziyasının siyasi aparatı tərəfindən seçilmiş sənədlər respublika zəhmətkeşlərinin tərbiyəsi və cəbhəyə göndəriləcək

---

[1] Письма славы и бессмертия 1941–1945 гг. Баку, 1987. – с.177.
[2] ARPİİSSA, Fond №1, siyahı №27, sax.vah. №319. – vərəq – 17.
[3] Yenə orada, vərəq – 19.

gənclərin döyüş qabiliyyətinin möhkəmləndirilməsində mühüm təşviqat vasitəsi kimi tərəfimizdən istifadə edilir. Snayper B.Abbasov haqqında göndərilən materialların Şimal qrupu hissələrində, həmçinin ordu və diviziya qəzetində yerləşdirilməsi və azərbaycanlılara çatdırılması əhəmiyyətli olar.[1]

B.Abbasov haqqında materiallar həmçinin Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının üzvü, Zaqafqaziya Cəbhəsi Siyasi İdarəsinin rəisi S.Sorokinə də göndərilmişdir. S.Sorokinə göndərilən məktubda deyilirdi: "Alman işğalçıları ilə döyüşdə qəhrəmanlıqla həlak olan şöhrətli döyüşçü B.Abbasov haqqında materiallar döyüşçülərin siyasi tərbiyəsində və Zaqafqaziya cəbhəsi hissələrindəki azərbaycanlıların döyüş qabiliyyətinin möhkəmləndirilməsi üçün gözəl material ola bilər. Xahiş edirik ki, qəzet redaksiyasına müvafiq göstəriş verəsiniz ki, …Stalinqrad cəbhəsi komandanlığı və "N" diviziyasının siyasi aparatı Abbasov haqqında materiallardan praktiki işdə istifadə etsinlər".[2]

"Snayper" məqaləsində leytenant Gerasimov B.Abbasov haqqında yazırdı: "Almanlar hücum edəndə ilk eşelonda cəbhəyə yollandı Abbasov. Qaçqınlarla söhbətləri, bombaların dağıtdığı kəndləri, dağılmış şəhərləri, uşaqların, qadınların və qocaların meyitləri düşmənə nifrət hissini artırdı.

1941-ci ilin iyul ayında Balaoğlan ilk almanı öldürdü. Düşmən avtomatçıları yaxınlaşırdı. Balaoğlan dizi üstə atəş açırdı. Güllələr fit çalır, yaxında minalar partlayır, ancaq onu yerindən tərpədə bilən qüvvə yox idi".[3]

Qəzetdə "Bizim cəbhənin məşhur adamları" adlanan məqalədə birinci sırada-leytenant N.Maxonin, mayor İ.Keşov, baş leytenant N.Şmotka, baş leytenant M.Passar, baş serjant R.Usmanov, ikinci sırada – serjant N.Şves, sanitar təlimatçısı M.Kuxarskaya, **baş serjant B.Abbasov**, üçüncü sırada S.Şkolenko, kiçik leytenant K.Durdiyevin adı qeyd olunmuşdu.[4]

Cəbhə qəzetinin buraxdığı vərəqədə ölkənin ən yaxşı snayperçilərin adı və onların məhv etdiyi almanların sayı (M.Surkov-702, N.Pexo-343, V.Qalkin-323, Pavliçenko Lyudmila-309, F.Xaitov-300, İ.Antonov-225, S.Namokonov-224, Popov-180, Dorjiyev-18 və b.) sadalanmış,[5] 10 snayperçidən hər birinin oktyabr ayının 20-dək məhv etdiyi almanların sayı göstərilmişdir: N.Qrızlov-135, M.Pasar-127, Frolov-107, Todorskiy-102, Boltırev-102, V.Salbiyev-92, **B.Abbasov-90**, N.Bayan-83, İ.Lukin-78, R.Usmanov-76.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, sax.vah. №319, – vərəq – 2.
[2] Yenə orada, vərəq – 3.
[3] Yenə orada, vərəq – 8.
[4] Yenə orada, vərəq – 9.
[5] Yenə orada, vərəq – 12.

Cəbhə qəzeti yüksək dəqiqliyə malik 99 atıcının toplanışından bəhs edən məqalə də vermişdi. Qəzet yazırdı ki, onlar bir ayda 3.430 faşisti məhv etmişlər. Bunların içərisində B.Abbasovun da adı qeyd olunmuşdur.[1]

Diqqəti çəkən vərəqələrdən biri "**Almanı öldür**" adlanırdı. Bu vərəqədə snayperçilərin döyüş hesabı aşağıdakı kimi idi:

1. Balaoğlan Abbasov-106
2. Nikolay Yazıkov-105
3. Afanasiy Kuznetsov-93
4. İvan Borbrik-77
5. Fyodr Qolovkin-73
6. Fyodr Zaqurski-73
7. Stepan Morşinin-65
8. Nikolay Storejenko-57
9. İvan Qriqoryev-56
10. Nikolay Litvinenko-52.[2]

Vərəqədə həmçinin "**Balaoğlanın qanı**" adlı məqalə və şəkli verilmişdir. Məqalədə bildirilirdi ki, çoxları onunla rastlaşmamış, yaxşı tanımırlar. Ancaq onu bilirlər ki, 106 alman öldürülüb.

B.Abbasovun həlak olması döyüş dostlarının və hissə komandanlığının böyük kədərinə səbəb oldu. Diviziya komandirinin siyasi hissə üzrə müavini polkovnik Şlixterin məktubunda bildirilirdi ki, 51 gün ərzində Abbasov 106 almanı öldürmüş, Stalinqrad altındakı döyüşdə snayperçilik məharətinə görə "İgidliyə görə" medalı və ölümündən sonra "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdu.[3]

P.Pavlenkonun "Balaoğlan Abbasov" kitabında oxuyuruq: "Bir dəfə igidlik göstərib onunla kifayətlənən adam hələ qəhrəman adlana bilməz. Qəhrəman o adamdır ki, başqalarını da tərbiyə edə bilib, özü kimi qəhrəman etsin**.**

Kim igidlik göstərərək 2 nəfəri, 3 nəfəri, 100 və 1.000 nəfəri igidlik üçün ruhlandırırsa, xalqın həqiqi qəhrəmanı olar. Abbasov belə qəhrəmanlardandır".[4]

Döyüş yoldaşları B.Abbasovun anasına göndərdiyi məktubda yazırdı: "Biz mübariz dostumuz Balaoğlanın cənazəsi qarşısında belə bir igid oğul yetirmiş Azərbaycan xalqına təşəkkür edirik. Balağlan Abbasovun şərəfli silahı etibarlı bir snayperə veriləcəkdir. Faşistlərə qarşı B.Abbasov kimi sönməz kin bəsləyən onlarca yeni snayperlər qəhrəman Balaoğlan Abbasovun yerini tutacaqlar. Döyüş meydanlarında vuruşarkən biz Balaoğlanı

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, sax.vah. №319, vərəq – 15.
[2] Yenə orada, vərəq – 16.
[3] "Kommunist" qəzeti, 1944, 5 mart; Baloğlan Abbasov. M., 1943.– s.22.
[4] Bax. Pavlenko, P. Baloğlan Abbasov. Bakı, 1943, 24 s.

heç zaman unutmayacağıq. O həmişə bizə nümunə olacaqdır, əclaf faşistlərə atdığımız hər bir güllə, hər bir mərmi onun intiqamını alacaqdır".

B.Abbasov döyüşlərdə igidlik göstərən yeganə azərbaycanlı deyildi. Belə igidlərin sayı yüzlərlə, minlərlədir. Volqa döyüşlərində tibb bacılarının şücaəti, cəsurluğu və yenilməzliyi bir daha təsdiq olundu. Döyüş meydanlarından yaralı əsgərləri çıxaran, faşistlərlə döyüşə girən tibb işçiləri arasında azərbaycanlı qızlar az deyildi.

Azərbaycan qadınları kişilərlə çiyin-çiyinə döyüşdülər. Həlimə Rzayeva, Zərifə Camalbəyova, ana və qız Bəyim və Səlimə Əlizadələr, Böyükxanım Bağırova Stalinqrad döyüşlərində iştirak etmişlər.

Faşist qoşunları Stalinqrada yaxınlaşanda Həlimə Rzayeva APİ-nin (indiki ADPU) III kursunda oxuyurdu. Tezliklə həmkarları kimi Stalinqrad uğrunda döyüşlərin qoynuna atılan H.Rzayeva V.İ.Çuykovun komandan olduğu 62-ci ordu döyüşçüləri arasında Kalaç rayonunda vuruşdu. Gecə ikən Volqa çayının sol sahilinə içi dolu yaralı olan bərə ilə keçərkən yaralandı. H.Rzayevanın xidmətləri "Döyüş xidmətlərinə görə" medalı ilə qeyd olundu.[1]

Zərifə Camalbəyovanın cəbhə yolu Ukrayna çöllərindən başladı, Poltava və Xarkov şəhərlərində döyüşlərdə iştirak etdi, 1942-ci ildə leytenant rütbəsində "Qırmızı Ulduz" ordeni ilə Stalinqrada qədəm qoydu. Naxçıvanlı 23 yaşlı Zərifə 76-cı diviziyanın döyüşçüləri ilə düşmənlə əzmlə vuruşdu, "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olundu. Zərifə Camalbəyova 1943-cü ilin axırında səhhətinə görə ordudan tərxis olundu, Azərbaycan SSR-in Naxçıvan MSSR-in Babək rayonunda feldşer-mama məntəqəsinə rəhbərlik etdi.[2]

Bəyim və Səlimə Əlizadələr cəbhəyə birgə getdilər. Qara dəniz sahillərindən başlayan cəbhə həyatı Stalinqradda sınağa çəkildi. S.Əlizadə "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu. Düşmən Stalinqrad ətrafında darmadağın edildikdən sonra ana və qızı sovet ordusu sıralarında Ukrayna çöllərində, Poltava, Murqova, Kiyev şəhərlərinin faşist işğalçılarından azad olunmasında iştirak etdilər. I Belarusiya cəbhəsinin qoşunları ilə 335-ci atıcı diviziyasının tərkibində Berlinə qədər döyüş yolu keçdilər. 1947-ci ildə ordudan tərxis olunan Səlimə Əlizadə Vətənə "Qırmızı Ulduz" ordeni ilə qayıtdı.

"Stalinqradın müdafiəsinə görə" medalı

[1] "Kommunist" qəzeti, 1943, 6 noyabr.
[2] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları. Bakı, 1988. – s.49.

Azərbaycanlılar harada döyüşmələrindən asılı olmayaraq doğma torpağın adını uca tutmağa çalışdılar. Azərbaycanlılardan 16.500 nəfərdən artıq döyüşçü "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu.[1]

Stalinqradın müdafiəsinə görə 112 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Təltif olunanlar arasında Azərbaycan xalqının qəhrəman oğlu Həzi Aslanov da var idi. Sonralar daha 13 nəfər bu adla təltif olunmuşdur.[2]

Stalinqrad döyüşlərində azərbaycanlı döyüşçülərin fəaliyyətini xarakterizə edən 51-ci qvardiya diviziyası komandiri, siyasi işçi və döyüşçülərinin məktubda deyilirdi:

"Stalinqrad döyüşlərində döyüşçülər kütləvi qəhrəmanlıq göstərirlər. Diviziyanın 3000 nəfər döyüşçüsü orden və medallarla təltif olunmuşlar. Dondan Volqayadək, Kletkidən Stalinqrada qədər yol keçən diviziya döyüşçüləri düşmən qüvvələrinə böyük itki verdi. "N" diviziyasının azərbaycanlı döyüşçülərinin, komandir və siyasi işçilərinin Azərbaycan xalqına məktubunda bildirilirdi ki, əfsanəvi Stalinqrad divarları altında ordu faşistlərə ağır zərbə vurmuşdu. Diviziyanın döyüşçüləri arası kəsilməz hücumlarla 900 km. yol qət etmişdir.

Bu yolda diviziya çoxlu şəhər və kəndləri hitlerçilərdən azad etmiş, minlərlə insanı xilas etmişlər. Döyüşlər zamanı dəqiq olmayan məlumata görə 21 tank, 84 avtomaşın, 41 top, 12 minomyot, 32 pulemyot, silah dolu 80 qatar məhv edilmişdir. Yaşayış məntəqələrinin birində Əli Əliyev mərdlik və qəhrəmanlıq nümunəsi göstərərək düşmən avtomaşınının olduğu qrupa 150-200 metr yaxınlaşmış, sonra pulemyotdan atəş açaraq 300-dən artıq faşisti vurmuşdu. Yerdə qalan faşistlər atəşə davam gətirməyərək qaçmağa üz qoymuşlar. Tankvuran topun komandiri, baş serjant Ənvər Məmməd oğlu Kərimov öz mərmisi ilə 2 düşmən tankını vurmuşdur. Minomyot alayının komandir müavini, baş leytenant Paşa Qafur oğlu Kərimovun rəhbərlik etdiyi rota 4 tankvuran pulemyotu, 2 taqıma yaxın alman avtomatçısını məhv etmişdir".[3]

Məktubda döyüşlərdə fərqlənən azərbaycanlı igidlərdən Paşa Kərimov, Mahmud Əliyev, Zahid Osmanov, İmamverdi Qədirovun "Qızıl Ulduz" ordeni, Sultan İsmayılov, Dərgah İsayev, Həsən Qulu Səfərov, İsak Əhmədov, Mamed Daşdəmirov, Mamed Kərimov, Əli Əliyev, Lətif Hüseynovun "İgidliyə görə" medalı, Mirzəməmməd Talışlı, Rahid Musayev,

---

[1] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – s.51.

[2] "**Stalinqradın müdafiəsinə görə**" **medalı** SSRİ Ali Sovetinin 22 dekabr 1942-ci il tarixli qanunu ilə təsis olunmuşdur. Medalın rəsimləri Nikolay Moskalyov tərəfindən çəkilib. https://az.wikipedia.org/wiki/%22Stalinqrad%C4%B1n_m%C3%BCdafi%C9%99sin%C9%99_g%C3%B6r%C9%99%22_medal%C4%B1

[3] Газ. «Бакинский рабочий», 1943, 30 мая.

Kazım Əminov, Abbas Əliyev, İlyas Mahmudov, Oruc Qarayev və b. "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunduğu bildirilirdi.[1]

Araşdırmalar göstərir ki, Azərbaycanın partiya, sovet və təsərrüfat orqanları cəbhə ilə sıx əlaqə saxlayır, əsgərlərlə arxa cəbhədə çalışanların görüşləri təşkil olunurdu. Belə görüşlərdən biri, 1943-cü il aprelin 11-də Bakıda Təbliğat və Təşviqat evində keçirildi. Stalinqrad ətrafında vuruşma iştirakçıları ilə Azərbaycan zəhmətkeşlərinin görüşündə Azərbaycan, Gürcüstan və Ermənistan K(b)P MK katibləri Bağırov, Çarkviani və Artyunov iştirak etdilər. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.B.Qasımov stalinqradlıları Azərbaycan SSR Baş Sovetinin Prezidiumu, Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK adından təbrik etdi. Görüşdə iştirak edənlər "N" birləşməsi qvardiyaçılarının Cənubu Qafqaz xalqlarına olan müraciətnaməsinə Azərbaycan xalqının cavab məktubunun mətnini qəbul etdilər.[2]

Məktubda deyilirdi: "Bizim qəhrəman döyüşçülərimiz! Siz harada olsanız da öz doğma Azərbaycanımızı müdafiə edirsiniz. Siz bizim göz işlətdikcə uzanan pambıqlı Muğan və Mil səhralarını, çiçəkli Lənkəranın limon və portağal bağlarını, ətirli Azərbaycan çay tarlalarını,…Qubanın alma və armud bağlarını müdafiə edirsiniz".[3]

Azərbaycan xalqının azərbaycanlı döyüşçülərə məktubunda[4] hitlerçilər tərəfindən vəhşicəsinə əzab verərək gözləri çıxarılan, qulaqları kəsilən Cəfər İsmayılzadə, hitlerçi cəlladlar tərəfindən qolları burulub bəndlərindən çıxarılan, sonra isə süngü ilə tələf edilən Əlibəy Qazızadə, qarnı yırtılan yefreytor İslam Əliməmməd oğlu, dirəyə sarılaraq əlləri arxadan dəmir məftillə bağlanan və dirəyə sarınmış halda ölən Əsgər Mustafa oğlu xatırlanır və bildirilir ki, bir gündə öz pulemyotu ilə 200 faşisti öldürən Əbdül Rəcəbov, 300 faşist əsgər və zabitini məhv edən Xanqulu Sadıqov, bir döyüş günündə öz bölməsi ilə düşmənin 13 tank hücumunu dəf edib 30 tankı və zirehli maşını sıradan çıxarmış podpolkovnik Akim Abbasov kimi oğulların igidliyinə səbəb Vətən eşqidir.[5] Məktubu Azərbaycan zəhmətkeşlərindən 897.146 nəfər imzalamışdı.

Azərbaycan xalqının azərbaycanlı döyüşçülərə məktubu əsgər və komandirlər tərəfindən ruh yüksəkliyi ilə qarşılandı. Məktubu oxuyan Akim Abbasov yazırdı ki, ordenli zirehdələn əsgər Əli Mirzəyev düşmənin şiddətli hücumu zamanı əsil azərbaycanlı kimi vuruşdu. O, zirehdələn silahı ilə bir gündə 5 tank vurub yandırdı və qəhrəmanlıqla həlak oldu. Ordenli kapitan

---

[1] Газ. «Бакинский рабочий», 1943, 30 мая.
[2] "Kommunist" qəzeti, 1943, 13 aprel.
[3] Yenə orada.
[4] Azərbaycan xalqının azərbaycanlı döyüşçülərə məktubu / – Bakı, 1943. – 26 s.
[5] "Kommunist" qəzeti, 1943, 13 aprel.

Məcid Əliyevin komandası altında vuruşan azərbaycanlılar onlarca düşmən maşınını sıradan çıxardı.[1]

Stalinqrad əməliyyatı 1942-ci il noyabrın 19-dan 1943-cü il fevral ayının 2-nə qədər davam etdi. «Кольцо» adlanan bu əməliyyat 2 fevralda düşmənin tam darmadağın edilməsi ilə nəticələndi. Cəbhənin qoşunları 131 min adam, o cümlədən 2,5 mindən çox zabit və başda feldmarşal Pauls olmaqla 24 generalı əsir aldılar.

Sovet qoşunlarının Stalinqrad ətrafında əks-hücumu nəticəsində almanların 6-cı və 4-cü tank, 3-cü və 4-cü rumın, 8-ci italyan orduları darmadağın edildi. Faşist bloku ölənlər, yaralananlar, əsir alınanlar və itkin düşənlərlə birlikdə təqribən 1,5 milyon əsgər və zabit itirdi. Bu sovet-alman cəbhəsindəki qoşunların ¼-nə bərabər idi. 2 minə yaxın tank və hücum silahı, 10 minə yaxın döyüş və nəqliyyat təyyarəsi, 7 mindən artıq avtomaşın məhv edildi.[2]

İkinci dünya müharibəsinin ən ağır və gərgin döyüşlərindən olan, 200 gecə və gündüz davam edən Stalinqrad altında döyüş sovet ordusunun tam qələbəsi ilə başa çatdı. Həmin gün Almaniyada qələbə və yubiley atəş-fəşanlığı keçirilmədi, kilsə zəngləri ölüm zəngini çaldı. İlk dəfə olaraq Almaniyada 3 günlük matəm elan olundu.

Dünya xalqları Volqadakı qələbə münasibətilə sovet qoşunlarının qəhrəmanlığını alqışladı. Tehranda üç dövlət başçısının konfransında Böyük Britaniyanın Baş naziri U.Çorçill sovet nümayəndə heyətinə Böyük Britaniyanın kralı VI Georqun faşist işğalçıları üzərində qələbə münasibətilə Stalinqrad vətəndaşlarına hədiyyə etdiyi qılıncı təqdim etdi.



Почетный меч — дар короля Великобритании Георга VI гражданам Сталинграда в ознаменование разгрома немецко-фашистских захватчиков

Stalinqrad ətrafında qələbə faşist Almaniyasını sarsıtdı, onun hərbi və siyasi nüfuzuna sarsıdıcı zərbə vurdu. **Stalinqrad ətrafında və Qafqazda sovet qoşunlarının qələbəsi İkinci dünya müharibəsində əsaslı dönüş oldu**. Stalinqrad vuruşmasının nəticələri Almaniyada böhran əmələ gətirdi, faşist blokunun binasını təməlindən sarsıtdı. Yaponiya və Türkiyə Almaniya tərəfindən SSRİ-yə qarşı müharibəyə qoşulmaqdan imtina etmək məcburiyyətində qaldılar. SSRİ-nin bey-

[1] "Kommunist" qəzeti, 1943, 24 aprel.

[2] Великая Отечественная война Советского Союза 1941–1945. Краткая история. Москва, 1965. – с.220.

nəlxalq nüfuzu artdı. Stalinqrada 1965-ci ildə "Qəhrəman şəhər" adı verildi. 1963-1967-ci ildə Mamayev kurqanında xatirə abidə kompleksi tikildi.

Kursk qövsünün qəhrəmanları

Stalinqrad ətrafında ağır məğlubiyyətdən sonra sovet-alman cəbhəsində böyük yay hücumu keçirməyi, strateji təşəbbüsü ələ almağı və müharibənin gedişini öz xeyrinə dəyişdirməyi qərara alan Almaniya 1943-cü ilin yayında Kursk rayonunda hücuma keçməyi qərarlaşdırdı. Planda Oryol və Belqorod sahəsindən Kurska eyni zamanda iki zərbə endirməklə Kursku mühasirəyə alıb məhv etmək, sonra isə arxadan zərbə endirməklə Cənub-Qərb cəbhəsi birləşmələrini darmadağın etmək planlaşdırıldı.[1]

Kursk vuruşması (1943-cü il) İkinci dünya müharibəsinin ən böyük vuruşmalarından biridir. Kursk qövsündə baş vermiş bu vuruşma iki mərhələyə – müdafiə (5-23 iyul) və hücum (12 iyul – 23 avqust) dövrlərinə bölünür.

Hitler komandanlığı sovet-alman cəbhəsinə tank diviziyalarının təqribən 70%-ni, döyüş təyyarələrinin 65%-dən çoxunu cəlb etdi. Yeni döyüş texnikası – "Pələng", "Bəbir" tankları, "Ferdinant" topları, yeni qırıcı və hücum təyyarələrini döyüşə cəlb olundu.[2] Özüyeriyən "Ferdinant topları", qırıcılar "Fokke-Vulf-190[a]" və hücumçu "Xenşelğ-129" birbaşa piyadaları dəstəkləmək üçün nəzərdə tutulmuşdu.

Hitler komandanlığı Kursk istiqamətində ümumi zərbə vurmağı, burada yerləşən sovet ordu hissələrini mühasirəyə almaq və məhv etməyi planlaşdırmışdı. Buna görə də, "Sitadel" («Цитадель») adını alan hücum planı tərtib olundu. Bu planı həyata keçirmək üçün düşmən diqqətlə hazırlaşmağa başladı. "Sitadel" əməliyyatının başlanması ərəfəsində düşmən döyüş bölgəsinə 900 mindən çox əsgər və zabit, 10 minədək silah və minomyot, təqribən 2.700 tank və 2 mindən artıq təyyarə cəmləşdirdi. Düşmən daha çox yeni döyüş texnikasına ümid bəsləyirdi.

SSRİ Ali Baş Komandanlığının Qərargahı isə 1943-cü ilin yay-payız kampaniyasında "Mərkəz", "Cənub" alman ordu qruplarını darmadağın etməyi, Solsahil Ukraynası, Donbas, Belarusiyanın şərq rayonlarını azad edərək Smolensk, Soy çayı, Dneprin orta və aşağı axarları xəttinə çıxmağı nəzərdə tuturdu. Aprelin 8-də Kursk çıxıntısında olan G.K.Jukov marşal A.M.Vasilyevski ilə birlikdə cəbhədə vəziyyəti öyrənərək yaxın günlərdə sovet qoşunlarının hücumunu məqsədə müvafiq hesab etdilər[3] və bu barədə İ.Stalinə məruzə olundu.

Kursk çıxıntısına iki cəbhədə-Mərkəz və Voronej cəbhəsində 1,3 mil-

---

[1] ASE, VI cild: Kuba – Misir. Bakı, 1982. – s. 27-28.

[2] Bax: Битва Курском дуге. Москва, 1975; История Второй Мировой войны. 1939-1945. т.7, Москва, 1976.

[3] Дементьев, Василий Дмитриевич. Курская битьва / В.Д.Дементьев.– Москва, 1983. – с.2.

yondan çox adam, 19,1 min top və minomyot (reaktiv və zenit artilleriyasız), 3.444 tank və özüyeriyən qurğular, 2.172 təyyarə cəlb olundu[1]. Döyüş rayonuna silah-sursat, yanacaq, ərzaq dolu eşelonlar gətirildi. Cəbhəyə 141.354 vaqon yük daşındı.

Sovet hərbi kəşfiyyatı **"Zitadelle" ("Bürc")** əməliyyatının mahiyyətini, həmçinin düşmənin hücumunun tarixini və vaxtını dəqiq müəyyənləşdirmək məqsədilə iyulun 5-də alman mina təmizləyənləri əsir götürdü. Onlar hücumun səhər saat 3-də olacağını, alman qoşunlarının çıxış vəziyyəti tutduğunu bildirdilər.

Düşmən hücumunun ehtimal olunduğu istiqamətlərdə uzunluğu 250-300 km. olan səkkiz güclü müdafiə səngəri tikildi. Kursk, Oryol, Voronej və Xarkov vilayətlərinin əhalisi ilə birlikdə qoşunlar 10 min km. uzunluğunda səngər və gediş-gəliş üçün yollar qazdılar ki, bu da Moskvadan Berinq boğazınadək olan məsafəyə bərabər idi.

Sovet komandanlığı düşmənin zərbə qruplarının toplaşdığı rayonda əvvəlcədən artilleriya hazırlığı keçirməyi qərara aldı. İyulun 5-də saat 6-ya yaxın səmada düşmən aviasiyası görünəndə eyni vaxtda sovet qoşunları artilleriya və minomyotlardan atəş açdılar. Saat $5^{:30}$-da düşmən Mərkəz cəbhəsinə, saat $6^{:00}$-a Voronej cəbhəsinə qarşı hücuma başladı. Sovet qoşunlarının ön hissəsinə faşist tankları və hücum silahları, onların arxasınca piyadalar hücuma keçdilər.

İyulun 5-də almanlar 5 hücum təşkil etdi, sovet qoşunlarının sıralarını yarmağa cəhd göstərdilər. 16-cı hava ordusunun (komandan general S.İ.Rudenko) 200 qırıcı və 150 bombardmançı təyyarələri düşmənə zərbələr endirdi və onların hərəkətini ləngitdi.

Döyüşün birinci günü göstərdi ki, düşmən əsas zərbə üçün Oxlovatkini seçmişdir. İyulun 6-da "Mərkəz" cəbhə komandanlığı 2-ci tank ordusu (komandan general A.Q.Rodin), 19-cu tank korpusu və 13-cü ordu qüvvələri ilə zərbə vurmağı qərara aldı. Ancaq düşmən 250-dək tankı və piyadaları döyüşə buraxmaqla sovet qoşunlarının hərəkətini dayandırmaq istədi. Sovet qoşunlarının əks-hücumu təşkil edildi. Bu Oxlovatki istiqamətində düşmənin irəliləməsinə mane oldu.

Ponır və Oxlovatkidə davam edən 6 günlük qanlı döyüşdə almanlar sovet qoşunlarının müdafiəsini 6 km-dən 12 kilometrədək yardılar. Düşmən 42 min əsgər və zabit, 500-dək tank itirdi və müdafiə keçməyə məcbur oldu.

73-cü qvardiya atıcı diviziyasının 214-cü qvardiya atıcı alayı düşmənin 120 tankının hücumunun qarşısını aldı. 12 saat davam edən döyüşdə kapitan A.A.Beliqinin batalyonu xüsusi fərqləndi. Batalyona düşmənin 70-dək tank və piyada alayı hücuma keçdi. Komandirin ölümündən sonra ko-

---

[1]Дементьев, Василий Дмитриевич. Курская битьва / В.Д.Дементьев.– Москва, 1983. – с.3.

mandanlığı 8-ci bölüyün komandiri, qvardiya kapitanı **İ.V.İlyasov** öz üzərinə götürərək düşmənə zərbə endirdi. 14 tank və bir neçə hitlerçi məhv olundu.

Oryol rayonunda hücumla eyni vaxtda düşmən Belqorod tərəfdən hücum etdi. İyulun 5-də saat 6-da səhər almanlar döyüşə 700-dək tank və böyük piyada qüvvələri yeritdi. Döyüşlərdə 245-ci tank alayı 42 düşmən tankı və digər döyüş texnikasını məhv etdi. Hitlerçilər itkilərə baxmayaraq, 196-cı qvardiya atıcı alayını mühasirəyə sala bildilər. 73-cü qvardiya atıcı diviziyası iyulun 5-də Krutoy Loq kəndində 12 saat ərzində döyüş apardı. 120 alman tankı, o cümlədən 35 "Pələng" 214-cü polka hücum etdi. Qvardiyaçılar 39 düşmən maşınını məhv etdilər, 1000-dək hitlerçi öz mövqeyini qoyub qaçdı. 3-cü batalyonun şəxsi heyəti qəhrəmanlıq nümunəsi göstərdi. Kapitan **İ.V. İlyasov Sovet İttifaqı Qəhrəmanı** adı ilə təltif olundu.

Sovet komandanlığı **Orlov** platsdarmında düşmənin darmadağın edilməsini qərarlaşdırdı. "**Kutuzov**" kod adı ilə məlum olan Orlov əməliyyatının ümumi planına görə eyni vaxtda şimaldan, şərqdən və cənubdan zərbə endirmək, düşmən qruplaşmasını tutmaq və məhv etmək nəzərdə tutulurdu. Şimaldan Qərb cəbhəsi qoşunları (komandan general V.D.Sokolovski), Şərqdən Bryansk cəbhəsi (komandan general M.M.Popov) və cənubdan Mərkəz cəbhəsi qoşunları hücum etməli idi. Almanlar dərin eşelonlaşdırılmış müdafiəni inkişaf etdirmiş, mühəndis sistemləri yaratmışdılar. Sovet qoşunları ilk dəfə idi ki, belə müdafiə olunan düşmənlə rastlaşırdı.

İyulun 12-də səhər tezdən hücum xəttində Qərb və Bryansk cəbhə qruplaşmaları güclü artilleriya və aviasiya hazırlığı keçirdi. Düşmənin müdafiə qurğularının əsas hissəsi məhv edildi, tank əleyhinə müdafiə dağıdıldı, artilleriya atəşi gücləndirildi. Günün ikinci yarısında düşmən güclü müqavimət göstərməyə başladı. Döyüşə 5-ci alman tank diviziyası yeridildi. Aviasiya fəallaşdı. 11-ci qvardiya ordusu (komandan general İ.X.Baqramyan) döyüşə 5-ci tank korpusunun daxil edilməsi qərarına gəldi. Ancaq komandanlığın səriştəsizliyi nəticəsində korpus ikinci müdafiə xəttini yara bilmədi. Hücuma almanlar əks-hücumla cavab verdilər.

General Sokolovski iyulun 13-də 50-ci ordunu (komandan general İ.V.Boldin) döyüşə buraxdı. 2 gün ağır döyüşlər getdi. Bu müddətdə sovet qoşunları 25 km-dək irəliləyə bildi. Almanlar digər cəbhələrdən əlavə qüvvələr cəlb etdi. Bir neçə tank diviziyası 9-cu ordudan götürüldü. Bununla da, Mərkəz cəbhəsinin iyulun 15-də əks-hücuma keçməsinə imkan yarandı.

Avqustun 5-də səhərçağı Oryol tamamilə işğalçılardan təmizləndi. Ali Baş Komandanın əmri ilə Oryol və Belqorod əməliyyatının iştirakçılarına təşəkkür elan edildi.[1]

---

[1] Дементьев, Василий Дмитриевич. Курская битьва / В.Д.Дементьев.– Москва, 1983. – с.19.

Sovet qoşunlarının Oryol platsdarmında əks-hücumu 37 gün davam etdi. Bu müddətdə qoşunlar qərbə doğru 150 km. irəlilədi. 2.500 yaşayış məntəqəsi azad olundu.

İyul-avqust döyüşlərində sovet təyyarəçiləri ilə yanaşı "Normandiya" fransız eskadrilyası təyyarəçiləri də almanlarla döyüşdə iştirak etdi.

Normandiya fransız eskadrilyası 1942-ci ilin sonunda sovet hökuməti və fransız Milli Komitəsinin razılaşmasına əsasən yaradılmışdı. Əlcəzairdən və İrandan keçməklə SSRİ-yə 14 təyyarəçi və 58 aviamexanik gətirilmişdi.

14 qırıcı "ЯК" alan mayor San Lui Tyülyanın komandanlığı altında 1943-cü il martın sonunda Volqa rayonunda cəbhəyanı aerodromda yenidən təşkil olundu, sonra Kursk qövsündə döyüşlərdə fəal iştirak etdi. Fransız təyyarəçiləri 33 alman təyyarəsini vurdu.

Oryol əməliyyatında mayor Şahmar Hüseynov igidlik göstərdi. Ş.Hüseynov müharibə başlayanda Moskvada Lenin adına Hərbi-Siyasi Akademiyada oxuyurdu. İlk gündən ön xətdə görünən, 1942-ci ildən "N" atıcı diviziyasının siyasi şöbəsində rəhbər işdə olan Ş.Hüseynov bölüyü dəfələrlə hücuma apardı, komandanlığın tapşırıqlarını nümunəvi yerinə yetirdi. Sovet ordusunun 1943-cü il yay hücumları dövründə Oryol şəhərinin şimalında Smolensk, Spas-Demyansk və Eliya rayonlarında vuruşma meydanlarında əsgərlər arasında partiya-siyasi iş apardı. O, faşistlərlə vuruşmalarda igidlik və qəhrəmanlıq göstərdiyinə görə "Qızıl Ulduz" ordeni ilə təltif edildi.[1]

Oryol istiqamətində gedən döyüşlərdə leytenant Davud Quliyev 4 döyüş dostu ilə kəşfiyyata getmiş, 20 nəfərlik düşmən qarnizonunu məhv etmiş, qəhrəmanlıqla həlak olmuşdu. Davud Quliyev ölümündən sonra "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi.[2]

Oryol uğrunda döyüşlərin qəhrəmanlarından biri də Hüseyn Əjdərov idi. O, Vyaji kəndi uğrunda döyüşdə faşistlərin pulemyot yuvasını və 15 hitlerçini məhv etmiş, sonrakı döyüş günündə Oryol şəhərinin mərkəzində binanın üzərinə qırmızı bayraq sancmışdı. Döyüş igidliyinə görə "Qırmızı Bayraq" ordeni ilə təltif olunan cəsur döyüşçü komandanlığın etimadını doğrultmuşdu.[3]

Oryol əməliyyatının qaynar çağında sovet komandanlığı Belqorod rayonunda alman döyüş qruplaşmalarının ləğvi üçün hazırlıq apardı.

---

[1] "Kommunist" qəzeti, 1944, 9 fevral.

[2] Mədətov, Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (*Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri*) / Q.Ə.Mədətov.– Bakı, 2018. – s.193.

[3] Газ. «Бакинский рабочий», 1943, 5 сентября.

“Rumyantsev” adlanan əməliyyata görə sovet komandanlığı Belqorodun şimal rayonlarından düşmənə həlledici zərbə vurmağı qərara aldı. Bu məqsədlə qoşunlarda qruplaşma keçirildi, lazımı ehtiyat gətirildi. Voronej və Səhra cəbhələri qoşunları çətin şəraitdə əks-hücuma keçdilər. Ağır müdafiə döyüşlərində vəziyyətin bərpa olunması ilə düşmən böyük qüvvə itirdi.

Kurskdan cənubda fəaliyyət göstərən düşmən qruplaşmasında avqustun əvvəllərində 300 minədək artıq adam, 3,5 min top və 600 tank vardı. Havadan onları 900 təyyarə dəstəkləyirdi.

Avqustun 3-də saat 5-də güclü artilleriya hazırlığı başladı. Eyni zamanda aviasiya ilə böyük təyyarələr qrupu düşmənin artilleriya mövqelərinə, qərargaha və ehtiyatlara zərbə endirdi. Saat 8-də artilleriya düşmənin müdafiəsinin dərinliklərinə atəş açdı, tanklar və piyadalar hücuma keçdilər. Günün ortasında Voronej cəbhəsi komandanlığı döyüşə 1-ci tank və 5-ci qvardiya tank ordusunu buraxdı. Bununla da, düşmənin müdafiəsinin taktiki zonasının yarılması tezliklə başa çatdı, Tamarovka-Belqorod yolu yenidən tutuldu.

Səhra cəbhə qoşunları daha ağır şəraitdə şimali **Belqoroda** hücuma keçdi. Avqustun 3-də saat 15-dək gərgin döyüşlər getdi. Cəbhənin yarılmasını sürətləndirmək məqsədilə general İ.Konev döyüşə 1-ci mexanikləşdirilmiş korpusu yeritdi və onların qarşısına qoyulan vəzifələri yerinə yetirdi. Avqustun 4-də döyüş bütün hücum xəttində davam etdirildi. **Avqustun 5-də Səhra cəbhəsi qoşunları Belqorodu azad etdilər.** Oryol və Belqorodun azad olunması şərəfinə müharibə tarixində ilk dəfə Moskvada 120 topdan 12 yaylım atəş açıldı.

Belqorod uğrunda döyüşlərdə M.Əliyev 15 gündə atəş xəttindən 79 nəfəri, Vitebsk şəhəri yaxınlığında ön xətdən 25 yaralını xilas etdi. Komandanlıq leytenant M.Əliyevi 2 dəfə “Qızıl Ulduz” medalı ilə təltif etdi.[1]

Müharibədən əvvəl Azərbaycan Tibb Universitetində oxuyan və Qaraşəhərdəki 7 №-li müalicəxanada işləyən Qədəmşah Sadıqov Stalinqrad vuruşmalarında iştirak etdi. Hərbi həkim kimi yaralıları müalicə etdi, 40-dan artıq döyüşçünü silahları ilə birlikdə döyüş meydanlarından çıxardı. Voroşilovqrad, Voronej, Xarkov, Belqorod uğrunda döyüşlərin iştirakçısı olan Q.Sadıqov “Qızıl Bayraq” və “Qızıl Ulduz” ordenləri, “İgidliyə görə” və “Stalinqradın müdafiəsinə görə” medalları ilə təltif olundu.[2]

Avqustun 13-də Səhra cəbhəsi qoşunları xarici müdafiə xəttini yardılar. Ayın 18-22-də ağır döyüşlər getdi. İ.M.Manaqorovun komandanlıq etdiyi 53-cü ordunun döyüşçüləri müvəffəqiyyətlə hərəkət etdi. Onlar düşmənin **Xarkov** qruplaşmasının cənub-qərb yolunu kəsdilər. Tamamilə mühasirəyə düşməkdən qorxan düşmən şəhərə 355-ci SS piyada və süvari diviziyasını dartıb gətirdi. Avqustun 22-də sovet qoşunları Xarkovu qərbdən

---

[1] “Kommunist” qəzeti, 1944, 9 noyabr.

[2] Yenə orada, 1943, 22 mart.

və şərqdən ələ keçirdilər. Avqustun 22-də günün ikinci yarısında düşmən Xarkovdan geri çəkilməyə başladı. **Avqustun 22-də Xarkov işğalçılardan tamamilə təmizləndi**. Xarkov uğrunda döyüşlərdə fərqlənən Səhra cəbhəsinin 10 diviziyası fəxri "Xarkov" adına layiq görüldü.

Xarkovun və Xarkov sənaye rayonunun azad edilməsi ilə Kursk döyüşü başa çatdı. Döyüşlərin gedişində düşmənin 4-cü tank ordusunun 15 diviziyası darmadağın edildi, 3 həftə ərzində sovet qoşunları cənub və cənub-qərb istiqamətində 140 km. irəlilədilər. Xarkov altında qələbə Solsahil Ukraynasının və Donbasın azad edilməsi üçün qoşunların hücumlarına imkan yaratdı.

Sovet ordusunun Stalinqrad və Kurskda qələbəsi faşist Almaniyasının strateji planlarını alt-üst etdi. Kursk altında faşist ordusunun məğlubiyyəti daxili siyasi böhranı dərinləşdirdi, müttəfiqlərin müharibədən çıxmasına imkan yaratdı, işğal olunmuş ölkələrdə azadlıq hərəkatı gücləndi. Bunları nəzərə alan alman komandanlığı yeni mövqe tutmaq, strateji müdafiə cəbhəsi yaratmaq istədi. Bu strateji müdafiədə birinci dərəcəli vəzifə Ukraynanı saxlamaq, Donbasın sənaye və ərzaq ehtiyatlarını əldə etmək idi.

Düşmənin əsas qüvvələrinin Oryol ətrafında, Kursk, Belqorod və Xarkovda darmadağın edilməsindən və onun müdafiəsinin Mius çayında yarılmasından sonra sovet qoşunları cəbhəsi 1943-cü il avqustun sonunda Leninqradın cənubundan, İlim gölü, Velikiye Luki, Şərqi Bryansk, Qərbi Xarkovdan, sonra Severski-Donets çayından Slavoseversk, Şərqi Taqanroqdan keçirdi.[1] Yaranmış əlverişli şəraiti öyrənən Baş Qərargah 1943-cü ilin yaz-payız kampaniyası planına uyğun olaraq sovet qoşunları qarşısına Velikiy Lukidən Azov dənizinə qədər hücumu genişləndirmək vəzifəsini qoydu.

Cənub-Qərb cəbhəsində sovet qoşunları düşmənin güclü qruplaşması ilə üz-üzə dayanmışdı. Düşmənin "Mərkəz" ordu qrupuna 3-cü atıcı, 4-cü tank, 8-ci və 1-ci tank, "Cənub" ordu qrupundan 6-cı ordu daxil idi. 1.240 min əsgər və zabit, 12.600 top və minomyot, 2.100-dək tank və hücum silahı, 2 minə yaxın döyüş təyyarəsi vardı.

Sovet qoşunları düşmənə qarşı 2.633 min adam, 51.200-dən yuxarı top və minomyot, 2.400-ə qədər tank və özüyeriyən artilleriya qurğusu və 2.850 təyyarə cəmləşdirmişdi. Qüvvələr üstünlüyü sovet ordusu tərəfində idi. Sovet qoşunları düşmənin şəxsi heyətinə görə 2,1 dəfə, tanklara görə 1,1 dəfə, təyyarələrə görə 1,4 dəfə, top və minomyotlara görə 4 dəfə üstün idi.[2]

Cənub-Qərb və Cənub cəbhəsi qoşunları R.Y.Malinovski və F.İ.Tolbuxinin komandanlığı altında avqustun 13-dən sentyabrın 22-dək Donbas əməliyyatı keçirdi. Sovet qoşunları düşmənə güclü zərbə vurdu, bütün

---

[1] Ананев, Иван Матвеевич. 30 лет битвы за Днепр / И.М.Ананев.– Москва, 1973.– с.4.

[2] Великая Отечественная Война Советского Союза 1941-1945 гг. Краткая история. Москва. Воениздат, 1970. – с. 266.

Solsahil Ukraynası və Donbas azad edildi, birbaşa Dneprdə mövqe tutulmasına və çayın qərb sahilində platsdarmın ələ keçirilməsinə başlandı.

Mərkəz, Voronej, Səhra və Cənub-Qərb cəbhələri qoşunları demək olar ki, eyni vaxtda Dneprə yaxınlaşdı. Dneprin axarına atılmış alman-faşist qoşunları sovet qoşunlarının sonrakı hücumlarının qarşısını almağa cəhd göstərdi. Düşmən belə hesab edirdi ki, uzun müddətli sürətli hücumla güclü Dnepri keçmək mümkün olmayacaq. Ancaq bu dəfə də Hitler yanılmışdı.

Dneprin keçilməsi bütün qoşun növləri və aviasiyanın sıx qarşılıqlı əlaqəsi şəraitində həyata keçirildi. Sovet ordusunun 4 cəbhəsi demək olar ki, eyni vaxtda Dneprə çıxdı.

1943-cü ilin sentyabrın 12-dən 1943-cü ilin oktyabrın 7-dək qəhrəmanlıq və mətanət göstərdiklərinə görə 17,5 min döyüşçü orden və medallarla təltif olundu. Dneprdə mövqe tutulmasında və Kiyevin azad olunmasında fərqlənən 663 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Qəhrəmanlar arasında Çexoslovakiya briqadasının podporuçiki Rixard Tecarjik və poruçik Antonun Soxor vardı.[1]

1961-ci il iyunun 21-də **Kiyev şəhəri "Lenin" ordeni, 1965-ci ildə "Qızıl Ulduz" medalı ilə təltif olundu.**

Döyüşlər davam edir

Azərbaycanlı döyüşçülər Pribaltikadan tutmuş Qara dənizə kimi cəbhələr boyu irəliləmiş, azərbaycanlı gənclər harada döyüşmələrindən asılı olmayaraq doğma torpağın adını hər zaman uca tutmağa çalışmışlar. İki il ərzində Qafqaz sıra dağları, Krım və Karpat dağlarında döyüşlərdə fərqlənən leytenant Əkbər Məmmədov döyüşdə alman əsgərini öldürdüyünə görə "Qırmızı Ulduz" ordeni, "İgidliyə görə" və "Qafqazın müdafiəsi uğrunda" medalları, Şaban İsmayılov 3 düşmən əsgərini öldürdüyünə və bir pulemyot ələ keçirdiyinə görə "İgidliyə görə" və "Qafqazın müdafiəsi uğrunda" medalları, Zeynal Dadaşov 2 düşmən əsgərini öldürərək onların müdafiə mövqeyini tutduğuna görə "Hərbi xidmətə görə" və "Qafqazın müdafiəsi uğrunda" medalları ilə təltif olundular.[2]

Ucar rayonunun Qazıyan kəndindən olan Əliyev Əsəd Heydər oğlu döyüşlərdə göstərdiyi igidliyə və düşmənin 26 əsgərini məhv etdiyinə görə "Qırmızı ulduz" ordeni ilə təltif edildi.

Qvardiyaçı baş leytenant Səfər Vəfadar oğlu Məmmədov **Latviyanın** almanlardan təmizlənməsində xüsusi igidlik göstərdi. Döyüşçü Seyfulla Əliyev "Kommunist" qəzetinə göndərdiyi 20 yanvar 1945-ci il tarixli məktubda baş serjant S.Məmmədovun döyüş tapşırığını necə yerinə yetirdiyindən bəhs edərək yazırdı ki, "Düşmənin müdafiə xəttinin zəif yerinin öyrənilməsi üçün "dil" gətirmək lazım idi. Bu tapşırıq müvəffəqiyyətlə yerinə ye-

---

[1]Ананев, Иван Матвеевич. 30 лет битвы за Днепр / И.М.Ананев. – Москва, 1973. – с.36.
[2]AMEA TİEA, "Cəbhədən məktublar", qovluq 28, s. 284-285.

tirildi. S.Məmmədov tezliklə düşmən arxasına keçib bir neçə faşisti yerə sərib …qumbaraların zərbəsindən gicəllənən alman zabitini əsir götürmüşdü. S.Məmmədovun igidliyi II dərəcəli "Vətən müharibəsi" ordeni ilə qiymətləndirilmişdi. [1] Seyfulla Əliyev məktubun sonunda bildirirdi ki, S.V.Məmmədov II dərəcəli "Vətən müharibəsi", III dərəcəli "Şərəf ordeni" və "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.[2]

"N" hərbi hissəsinin döyüşçüləri Səttarov, Qasımov, Xəlilov və b. "Bakinskiy raboçiy" qəzetinə yazdığı məktubda Bakının Kirov rayonundan keçmiş neftçıxarma ustası Süleyman Səttarovun, Bakının Çaparidze rayonundan olan əla artilleriyaçı Əli Əşrəf oğlu Babayevin, Oktyabr rayonundan döyüş maşınının əla sürücüsü Qasım Qasımovun, Nuxa rayonundan əla artilleriyaçı Mehdi Rəcəbli və Əbdüləli Əliyev, Sabirabad rayonundan Məmmədnəbi Ağayev və Məmməd Cəfərov və başqalarının qəhrəman artilleriyaçılar olduğunu yazırdılar.[3]

Azərbaycan övladlarının qəhrəmanlığı, partiya və sovet işçilərinin, sərkərdələrin diqqətindən yayınmamışdı. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri, Azərbaycan K(b)P MK katibi M.C.Bağırova "N" saylı "Qızıl Ulduz"lu birləşmənin komandiri Voronin, həmin birləşmənin rəisi Rubko, hərbi komissar A.Qerasiyev və siyasi şöbə rəisi Q.Peçertskinin yazdığı məktubda azərbaycanlı döyüşçülərin döyüş tapşırıqlarını yerinə yetirmək üçün canlarını əsirgəmədikləri, döyüşlərdə cəsarət, yenilməzlik və mətanət göstərdikləri qeyd olunurdu. Məktubda bildirilirdi ki, onların hissəsinin döyüşçüləri onların 21 aprel 1943-cü il tarixli məktubunu böyük minnətdarlıq hissi ilə qarşılamış, məktub döyüş tapşırıqlarını yeni qələbələrlə yerinə yetirmək üçün onları ruhlandırmış, döyüşçüləri yeni uğurlara səfərbər etmişdir. Məktubda, həmçinin bildirilirdi ki, son 2 gündəki döyüşdə 2.500 alman əsgəri məhv edilmiş, döyüşlərdə pulemyotçu Aşurov, döyüşçülər Quliyev, M.Hüseynov və b. cəsarət, yenilməzlik və mətanət göstərmişlər.[4]

16-cı atıcı korpusun komandirinin Azərbaycan K(b)P MK-ya yazdığı 10 may 1943-cü il tarixli məktubunda bildirilirdi ki, azərbaycanlı döyüşçülər 21 aprel 1943-cü il tarixli məktubu və Ali Baş Komandanın 1 may 1943-cü il tarixli 195 saylı əmrini böyük sevinclə qarşılamış və məktuba cavab olaraq qırıcı təyyarəçi Səlim Muradov 1942-ci ildə yaratdığı şəxsi hesabındakı vurulmuş təyyarələrin sayını 16-ya çatdırmışdı.

21 aprel 1943-cü il tarixli məktuba cavab olaraq, Ordubad şəhər sakini, döyüşçü Fərəcov Qurban Qulam oğlunun yazdığı məktubda bildirilirdi

---

[1] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941-1945 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.37.

[2] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq 29, s.98-99.

[3] Газ. «Бакинский рабочий», 1944, 9 февраля.

[4] AMEA TİEA, Fond №1, siyahı №1, iş №28, vərəq –145-147.

ki, azərbaycanlı döyüşçülər 1942-1943-cü ilin qışında digər döyüşçülərlə birlikdə cəbhələrdə 1500 km yol qət etmişlər. 3 ay müddətində döyüşçülərimiz Voronej, Stalin vilayəti, Çesen-İnquş, Şimali Osetiya, Qabardin-Balkar və Kalmıkiya Muxtar, Stavropolerkez, Karaçay və Adıgün muxtar vilayətlərini, demək olar ki, Rostov, Xarkov və Kursk vilayətini düşməndən azad etmiş, 700 min nəfər əsir alınmış və məhv edilmişdir. Almanlar 7.000 tank, 4.000 təyyarə, 17.000 top və digər silahlar itirmişlər.[1] Eyni hisslər mayor M.Məmmədov, kapitan A.Əliyev, leytenant Hüseynov, döyüşçü Ağayev, serjant Y.Vahabov, kiçik leytenant B.Tağıyev, döyüşçülər S.Kərimov, desantçı R.Əlimirzəyevin imzaladığı məktubda da ifadə olunmuşdur.[2]

Qafqaz uğrunda döyüşlər

Qafqaz uğrunda döyüşlər 1941-1945-ci illər müharibəsi döyüşləri içərisində mühüm yer tutur.

Faşist komandanlığı Qafqazı işğal etmək üçün "Edelveys" adlanan xüsusi əməliyyat planı işləyib hazırlamışdı. "Edelveys" planına görə, Qafqazı general-feldmarşal Listin komandan olduğu "A" qrupu ordusu işğal etməli idi. Plana görə "A" qrupu ordusu Donun arxasına çəkilən sovet ordusunu mühasirəyə alıb əzdikdən sonra müxtəlif istiqamətlərdən Qafqaza doğru hərəkət etməli idi. General-polkovnik Ruoffun 17-ci ordusu qərbdən Novorossiysk-Tuapse istiqamətində hücuma keçməli və qərbdən Cənubi Qafqaza soxulmalı idi. General-polkovnik Kleystin 1-ci tank ordusu şərqdən Qroznı-Mahaçqala-Bakı istiqamətində irəliləməli, 1942-ci il sentyabrın 25-də Bakını tutmalı idi. Alman-faşist işğalçılarının təcavüzkar planında Qafqaz, xüsusilə Cənubi Qafqaz xüsusi yer tuturdu. Leypsik mətbəəsində çap olunmuş "Qafqazın soraq kitabçası"nda göstərilirdi: "**Bakı neft fontanı, Qroznı ən yaxşı benzin, Gürcüstan marqans …Zəngəzur mis diyarıdır**".[3]

Şimali Qafqazda hərbi əməliyyatlar 150 gün davam etdi. Qafqaz uğrunda döyüşlər 2 dövrdən-müdafiə və hücum dövrlərindən ibarətdir.

Birinci dövr 25 iyul 1942-ci ildən 31 dekabr 1942-ci ilə kimi olan Cənub, Şimali Qafqaz və Zaqafqaziya cəbhələri qoşunlarının Donun aşağı axarı, Baş Qafqaz keçidinin dağətəyi və Terekdə fəal müdafiə döyüşləri və ilə xarakterikdir.

İkinci dövr 1943-cü ilin yanvarından oktyabr ayının 9-dək olan hadisələri əhatə edir. Bu dövrdə sovet qoşunları sovet-alman cəbhəsinin cənub cinahında, Şimali Qafqaz və Kubanda müvəffəqiyyətli hərbi əməliyyatlar həyata keçirdilər.[4]

---

[1] AMEA TİEA, Fond №1, siyahı №1, qovluq 3a, vərəq – 4.
[2] Газ. «Бакинский рабочий», 1943, 28 апреля.
[3] Kərimov, S.K. Kiçik torpaq uğrunda döyüşlərdə / S.K.Kərimov. – Bakı, 1982. – s.10.
[4] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кафказ / Х.М.Ибрагимбейли. – Москва, 1983. – с.4.

Qafqazı və İranı tutmaq üçün alman hərbi-siyasi rəhbərliyi bir səhra ordusu, 4 korpus və 10 diviziya (Qafqaz İran operativ qrupu daxil olmaqla) ayırmışdı.

Alman-faşist komandanlığının Sovet hökumətinin ərazisinin tutulmasına dair Qafqaz rexs komissarlığının planına görə 7 baş komissarlığa – "Kuban", "Stavropol", "Gürcüstan", "Ermənistan", "Azərbaycan", "Qroznı komissarlığı" və "Kalmıkiya baş komissarlığı" yaradılmalı idi. Sonralar isə "Türküstan" rexs komissarlığı yaradılması planlaşdırılırdı.

1941-ci ilin noyabrından 1942-ci ilin sentyabrınadək keçiriləcək "Qafqazdan hücum" əməliyyatı 6 mərhələdə keçirilməli idi.

"Qafqaz keçidindən hücumda məqsəd neft rayonlarının (Maykor, Qroznı və Bakı) 1942-ci ilin sentyabrında tutulması nəzərdə tutulurdu".

Faşist Almaniyasının Şərq siyasətində, onun tərtib etdiyi "Ost" planında Qafqaz, o cümlədən Azərbaycan xüsusi yer tuturdu. A.Rozenberqin başçılığı ilə yaradılmış Şərq işləri üzrə nazirliyin nəzdindəki komissarlıqlardan biri "**Qafqaz"** adlanırdı. Qafqazın işğalı üçün tərtib edilmiş "Edelveys" planına görə Qafqaz beş işğal rayonuna bölünməli idi. "Ost" planında da Bakının 1942-ci il sentyabrın 25-də tutulması planlaşdırılmışdı.

Alman-faşist komandanlığının məqsədi sovet qoşunlarını cənub və cənub-şərqi Rostovda mühasirəyə almaq və məhv etmək və Şimali Qafqaza, sonra Baş Qafqaz keçidindən keçməklə bir qrup qərbdən Novorossiysk və Tuapseyə, şərqdən Qroznı və Bakıya yiyələnmək idi.

Faşist işğalından sonra Bakı nefti "Ost-oyl", "Kontinent-oyl" və b. şirkətlərin sərəncamına verilməli idi. Bakıda neftin çıxarılması, emalı və daşınması Almaniyanın "Kontinental" neft cəmiyyətinə tapşırılmışdı.

ABŞ və İngiltərənin də Qafqazda, xüsusilə Azərbaycanda marağı vardı. Onların hazırladıqları "**Vilvet**" planına görə sovet ordusu Qafqazdan çıxarılıb Stalinqrada aparılmalı, burada faşistlərə qarşı amerikan-ingilis hərbi hissələri vuruşmalı idi.[1]

Qafqazı işğal etmək, Yaxın və Orta Şərq ölkələrinə təcavüzü genişləndirmək üçün vermaxt seçmə tank, piyada və dağ-yegir qoşunları ayırmışdı. "A" ordu qrupunun əsas qruplaşmasının birinci eşelonunda 167 min əsgər və zabit, 1.130 tank, 4.540 silah və minomyot, 1.000-dək döyüş təyyarəsi vardı.[2]

Baş Qafqaz keçidinin yüksək dağlıq dolaylarında döyüş əməliyyatları aparmaq üçün "A" ordu qrupuna 17-ci səhra ordusunun tərkibində 49-cu dağ-atıcı korpusu verilmişdi. Bu korpusun tərkibinə vermaxtın seçmə Alp diviziyası, alpinistlərdən ibarət alman ordusunun fəxri olan 97-ci və 101-ci

---

[1] Siyasi tarix. II hissə. Dərs vəsaiti. Bakı, 1998. – s.67.

[2] Великой Отечественной войны Советского Союза 1941-1945 гг. Краткая история. Изд. 2-е. Москва, 1970. – с.166.

yüngül piyada, 1-ci, Fransa və Yuqoslaviya döyüşlərində möhkəmlənmiş 4-cü dağ-atıcı "Edelveys" diviziyası daxil idi. 4-cü dağ-atıcı "Edelveys" diviziyasının bayrağında "Edelveys" – ağ dağ çiçəyi çəkilmişdi. Belə emblem əsgər və zabitlərin mundirlərinin qoluna da tikilmişdi. Diviziya o dövrün ən müasir silahları ilə təchiz edilmişdi.

"A" ordu qrupunu havadan 4-cü hava donanması qorumalı idi. Onun tərkibinə "A" ordu qrupunun qoşunlarına 2 aviasiya korpusu daxil edilmişdi. Onların ümumi sayı 467.434 nəfər idi.[1]

Düşmən qruplaşmasına qarşı cənub və Şimali Qafqaz cəbhəsi (51,37,12,18,56-cı ordular) qüvvələrinin hissələri və 4-cü hava ordusu (112 min adam, 121 tank, 2.160 silah və minomyot və 130 təyyarə) dayanmışdı. Beləliklə, alman-faşist qoşunları sovetlərin Cənub cəbhəsi qoşunları üzərində adamlara görə 1,5 dəfə, silah və minomyotlara görə 2,1 dəfə, tanklara görə 9,3 dəfədən çox, təyyarələrə görə 7,7 dəfə üstün idi.

"Edelveys" planını həyata keçirən Vermaxtın ali komandanlığı və şəxsən A.Hitler Qafqazın çoxmillətli tərkibindən istifadə etməyə, rus xalqına qarşı millətlərarası nifaq salmağa ümid edirdi.

A.Hitler "Edelveys" əməliyyatının yerinə yetirilməsinə həm də iqtisadi əhəmiyyət verirdi. "A" ordu qrupunun zabitləri, generallar, hissə və birləşmələrin qərargahı Leypsiqdə xüsusi çap olunmuş "Qafqaz üzrə bələdçi-məlumat"la («Справочником-путоводителем по Кавказу») təchiz edilmişdi.

Qafqaz istiqamətini qoruyan Cənub cəbhəsi qoşunlarının (komandan general-leytenant R.Y.Malinovski) tərkibində 7 ordu (51, 37, 18, 12, 56-cı və 24-cü Vexne-Kurmoyavski, Azov dənizinin cənubunda donanma) güclü müdafiə olunurdu. 4-cü hava ordusu (ordu generalı K.A.Verşinin) cənub cəbhəsini 130 təyyarə ilə havadan dəstəkləyirdi.

Şimali Qafqaz cəbhəsi qoşunlarına (komandan marşal S.M.Budyonnı) 47-ci ordu, 1-ci atıcı və 17-ci kazak süvari korpusu daxil idi. Havadan general S.K.Qoryunovun komandanlığı altında 5-ci hava ordusu (100 təyyarə) Azovdan Lazereskiyə qədər Azov və Qara dəniz sahillərini müdafiə edirdi. Cəbhənin operativ tabeliyinə Qara dəniz Azov donanması daxil idi.[2]

Zaqafqaziya cəbhəsi (komandan ordu generalı İ.V.Tülenov) tərkibinə 45-ci, 46-cı ordu, 15-ci süvari korpusu və aviasiya (126 təyyarə) Lazanevskidən Batuma qədər Qara dəniz sahillərini və SSRİ-nin Türkiyə ilə sərhədini müdafiə edirdi.

---

[1] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кафказ / Х.М.Ибрагимбейли. – Москва, 1983.– с.8.

[2] Великой Отечественной войны Советского Союза 1941-1945 гг. Краткая история. Изд. 2-е. Москва, 1970.– с.178.

Dağıstanda, Moskvada və Dərbənddə yeni formalaşdırılan 44-cü ordu birləşmələri döyüşə hazır idi.

Qafqaz uğrunda döyüşlərdə Zaqafqaziya cəbhəsi ordusu qoşunlarında 17 atıcı (o, cümlədən 9 milli Qafqaz) və 3 süvari diviziyası, 3 atıcı və 3 tank briqadası, 12 artilleriya, 5 minomyot, 12 zenit artilleriya polku və 12 zirehli qatar daxil idi.[1]

1942-ci il iyulun 25-də alman-faşist qoşunları əvvəl zəbt etdiyi Donun sol sahilindən Salski, Stavropol və Krasnodar istiqamətindən hücuma başladı. Əməliyyatın birinci günü Cənub cəbhəsinin mərkəzində mürəkkəb vəziyyət yarandı. 51-ci ordunun qoşunları düşmən qoşunlarının tank və motorlaşdırılmış qruplarını mərdliklə qarşıladı və iyulun 25-də gün ərzində qüvvələr bərabər olmasa da, hücumları müvəffəqiyyətlə dəf etdilər. 37-ci ordunun hissələrinin və birləşmələrinin komandir və döyüşçülərinin dözümlülüyü və mərdliyinə baxmayaraq cənub istiqamətində 253 km-dək geri çəkilmək məcburiyyətində qaldı. Donun sol sahilinə çəkiləndə zenit artilleriyası və aviasiya əhalini lazımı səviyyədə qorumadığı üçün düşmən aviasiyası qoşunların və əhalinin toplandığı yeri bombaladı.

Sovet qoşunları möhkəm müqavimət göstərsə də, düşmənin üstün qüvvələrinin zərbəsi ilə iyulun 27-də Cənub cəbhəsi ordusu arasında böyük məsafə yarandı, bu isə müdafiəni pozdu. İyulun 27-də düşmən Rostov Donu və Bryanskı tutdu.

1942-ci ilin sonunda yaranmış ciddi vəziyyət təxirəsalınmaz tədbirlərin görülməsini tələb etdi. Sovet Ali Baş Komandanlıq Qərargahı iyulun 28-də Cənub və Şimali Qafqaz cəbhəsi birləşmələrindən vahid Şimali Qafqaz cəbhəsi yaratdı, marşal S.M.Budyonnı komandan, generallar R.Y.Malinovski və Y.T.Çereviçenko müavinlər, L.R.Kopnies, İ.S.İsakov və P.İ.Seleznyov Hərbi Şuranın üzvləri təyin olundular.

Bu cür fövqəladə yenidənqurma alman-faşist işğalçılarına qarşı qüvvələri birləşdirmək zərurətindən irəli gəlirdi. Şimali Qafqaz cəbhəsi qarşısına "A" qrupu ordusunun hücumunun qarşısını almaq vəzifəsi qoyuldu. Stalinin 227 №-li 28 iyul 1942-ci il tarixli əmrində qoşunların hərəkətlərinə rəhbərlikdə yol verilmiş nöqsanları aşkara çıxarmaq, düşmənin müqavimətini köklü surətdə yaxşılaşdırmaq və onun hücumunu dayandırmaq tələb olundu. Bu əmrin Qafqaz müdafiəçilərinin siyasi-mənəvi vəziyyətinin möhkəmləndirilməsində böyük əhəmiyyəti oldu.

Qafqaz dağlılarının bütün qüvvələrini səfərbər etmək və cəbhəyə köməyi gücləndirmək məqsədilə müttəfiq respublikalar, ölkə və vilayət partiya təşkilatları Zaqafqaziyaya öz işçilərini göndərdilər.

Qoşunların idarəsini yaxşılaşdırmaq məqsədilə S.M.Budyonnı cəbhə qoşunlarını 2 qrupa: (Stavropol istiqamətində qorunmaq üçün Don (51,37 və

---

[1] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кафказ / Х.М. Ибрагимбейли. – Москва, 1983.– с.10.

12-ci ordular – komandan general R.Y.Malinovski), Krasnodar istiqamətində və Taman yarımadasını müdafiə üçün Primorski (18, 56 və 47-ci ordular, 1-ci əlahiddə atıcı korpus və 17-ci Kuban kazak süvari korpusuna (komandan, general Y.T.Çereviçenko) böldü.

Qərargah Zaqafqaziya cəbhəsi qarşısına Terek Urux çayları hüdudunda və Baş Qafqaz keçidində müdafiəni hazırlamaq, həmçinin Qroznı-Mahaçqala-Bakı istiqamətində çoxxətli müdafiə yaratmaq vəzifəsini qoydu. Bu məqsəd üçün Qərargah özünün ehtiyatlarını ayırdı və cəbhə qoşunlarını qüvvətləndirmək üçün təcili əlavə birləşmələr göndərildi.

Yaranmış vəziyyətlə əlaqədar iyulun 3-də Vermaxtın operativ rəhbərlik qərargahının rəisi A.Yodl müşavirədə A.Hitlerə bildirdi ki, Qafqazın taleyi Stalinqradın altında həll olunur, vaxt gəlib ki, "A" ordu qrupundan qüvvələri "B" ordu qrupuna keçirmək lazımdır.[1] Belə qərarın qəbul edilməsinin əsas səbəbi 6-cı ordunun Stalinqradı tutmaq cəhdinin baş tutmaması idi. 4-cü tank ordusunun Qafqazdan Stalinqrad istiqamətinə göndərilməsi düşmənin "A" ordu qrupunu zəiflətmişdi. Ancaq alman-faşist komandanlığı Kropatkin və Voroşilovsk istiqamətində hücumu inkişaf etdirməyə davam edirdi, həmçinin Kuşevski rayonuna hücum edərək mühüm yollar şəbəkəsini ələ keçirmək və Krasnodara gedən yolu tutmaq istəyirdi. Avqustun əvvəllərində "A" qrupu ordusu komandanlığı sovet qoşunlarını Kubanın cənubunda mühasirəyə almağı qərarlaşdırdı. Bu məqsədlə 1-ci tank ordusu Tuapseyə girmək üçün Armavirdən Maykopa güclü zərbə endirdi. Düşmən avqustun 9-da Maykopu, 12-də Beloreçenski, 13-də Tveri (10 km Nefteqorskin şimalında) ələ keçirsə də,[2] hitlerçilər Don və Kuban arasındakı sovet qoşunları qrupunu mühasirəyə sala bilmədi. Qafqazın qəhrəman müdafiəçiləri Tuapsedə möhkəm dayandılar və düşmənin Qara dənizə yolunu kəsdilər.

Avqustun ikinci yarısında Qafqazda vəziyyət yenə də gərgin olaraq qalırdı. Düşmən Qroznı və Mahaçqala, Novorossiysk və Tuapseni yarmaqla hədələyirdi. Onlar Kluxov dolayını tuta bildilər və Qara dəniz donanmasının bazasını (Poti və Oremçuru) və digər obyekti tutmaq təhlükəsi yarandı.

ÜİK(b)P, DMK və Baş Qərargah əlavə tədbirlər müəyyənləşdirdi. Zaqafqaziya cəbhəsi yeni mühəndis hissələri aldı. Onların sayı avqustun sonu ilə müqayisədə sentyabrda 6 dəfə artdı. Baş Qərargahın ehtiyatından Zaqafqaziya cəbhəsinə 2 qvardiya atıcı korpusu, 11 atıcı briqadası verildi və onlar Xəzər dənizi vasitəsilə Astarxan və Krasnovodskdan Mahaçqalaya gətirildi. 840 avtomaşın və digər vasitələr alındı.[3]

---

[1] Галдер, Ф. Военный дневник. Т.3, пер. с нем. Москва, 1971. – с.310.

[2] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кавказ / Х.М.Ибрагимбейли. – Москва, 1983.– с.14.

[3] История Второй мировой войны 1939-1945. Т.5. Москва, 1976. – с.212.

Baş Qərargahın göstərişinə əsasən Zaqafqaziya cəbhəsi qoşunları yenidən qruplaşdırıldı. 44-cü ordunu Mahaçqala rayonundan Terek, Sulak, Sumı çayları müdafiə hüdudlarına çıxarmaq lazım gəldi. Terek, Urux sovet-Türkiyə sərhədinə və Qara dəniz sahillərinə atıcı diviziya, 3 atıcı briqada, 3 artilleriya alayı və b. hissələr atıldı. Mahaçqala rayonunda yeni 58-ci ordu formalaşdırıldı.

Terek və Urux çaylarının müdafiəsi üçün böyük qüvvələrin cəmləşdirilməsi və Zaqafqaziya cəbhəsi qərargahının bu hüduda böyük diqqət yetirməsi Zaqafqaziya cəbhəsi qoşunları Şimal qrupunun yaranmasını sürətləndirdi. Qrupa komandan general İ.S.Maslennikov təyin olundu. Bu qrupun tərkibinə 44-cü və 9-cu ordular, 41-ci qvardiya atıcı korpusu, 89-cu və 417-ci atıcı diviziya, 52-ci tank briqadası, 36-cı və 42-ci zirehli qatar divizionu, 50-ci və 132-ci minomyot alayı daxil edildi.

Baş Qərargahın 1942-ci il 1 sentyabr tarixli Direktivinə görə Don və Primorski qoşunlar qrupu yenidən formalaşdırıldı. Şimali Qafqaz cəbhəsi tərkibinə 12-ci, 18-ci, 47-ci, 56-cı ordular, 4-cü qvardiya kazak süvari korpusu və 5-ci hava ordusu daxil edilərək **Zaqafqaziya cəbhəsi Qara dəniz qrupu** adlandırıldı. Qrupa komandan general Y.T.Çereviçenko təyin edildi.

Zaqafqaziya cəbhəsinin müdafiəsi aşağıdakı kimi quruldu. Cəbhənin sağ cinahında Xəzər dənizindən Terek, Baksan, Qundelan (Kabarda-Balkariya) hüdudları 400 km xətti 44, 9 və 37-ci ordular müdafiə edirdi. Bunlar qoşunların birinci eşelonlarını təşkil edirdi.

İkinci eşelona Mahacqala rayonunda müdafiəyə hazırlaşan 58-ci ordu daxil idi. Bakı, Qroznı və Orconikidze şəhərləri ətrafında müdafiə yaradıldı.

Bakıda da öz qərargahı olan xüsusi müdafiə rayonu yaradıldı. Şimaldan Bakıya gələn yollarda 10 müdafiə xətti quruldu. Bakı ətrafı yollarında tanka qarşı 100 kilometrdən çox maneə, 500 kilometrdən çox əlaqə yolları yaradıldı. Bakı müdafiə xəttinin qurulmasında ümumi həcmi 1 milyon 800 min kubmetr olan torpaq işləri görüldü. Bu işlərdə 43 min nəfərdən artıq adam iştirak etdi.[1]

Mərkəzdə Baş Qafqaz keçidini (400 km-dək xətt) 46-cı ordu qoşunları müdafiə edirdi.

Beləliklə, Zaqafqaziya cəbhəsi qoşunlarının (komandan ordu generalı İ.V.Tülenov) operativ quruluşu 2 eşelonlu idi. Sovet komandanlıqlarına xüsusi müdafiə tikililərinin yaradılmasında Dağıstan, Çeçen-İnquş, Şimali Osetiya və Kabarda-Balkar muxtar respublikaları əhalisi kömək göstərdi. Mahaçqala rayonu tikililərinin inkişafına 20 minə yaxın adam çıxdı. ÜİK(b)P Dağıstan Vilayət Komitəsinin təşəbbüsü və rəhbərliyi ilə Mahaçqala və Dərbənd əhalisi 7.532 müxtəlif müdafiə qurğuları tikdi. Dağıstan

[1] ARPİİSSA, Fond №1, siyahı № 280, sax.vah. №4, vərəq – 55-58.

ərazisində 70 km uzunluğunda 9 çöl müdafiə hüdudları quruldu. Qroznı xüsusi müdafiə rayonu tikintisinə 8 minədək əhali çıxdı.[1]

Çeçen-İnquşetiyanın əhalisi Terke, Terski və Syujenski keçidlərinin müdafiə qurğularını təkmilləşdirdilər. Orconikidze ətrafında Şimali Osetiyanın 20 mindən yuxarı vətənpərvər işləyirdi. Urajuo kəndindən Kiyev stansiyasınadək 50 km müdafiə hüdudları tikildi.

Kabarda-Balkar, Şimali Osetiya, Çeçen-İnquş və Dağıstanın bütün millətləri və xalqları 1942-ci ilin yanvar-fevral aylarında 12 milyon kub m. torpaq işləri, 29 min kub m. beton və kərpic qoyma işləri yerinə yetirdilər. Nəticədə 640 km. uzunluğunda 92 km. dərinliyində müdafiənin yaradılması təmin edildi. Tank əleyhinə maneələrin uzunluğu 900 km-ə çatırdı. 3 minədək atəş nöqtəsi tikildi. Bütünlükdə, Şimali Qafqazın müdafiə qurğularının tikintisində Dağıstandan 24 min, Çeçen-İnquşetiyadan 32 min, Şimali Osetiyadan 20 mindən yuxarı, Kabarda-Balkardan 42 mindən artıq, Stavropol ölkəsindən 63 mindən artıq adam iştirak etdi.[2]

Qafqaz xalqlarının düşmənə nifrəti, faşist işğalçılarına qarşı mübarizəsi müxtəlif formada özünü göstərdi. Əməkçilər müdafiə fonduna vəsait toplayır, tank kolonlarının, aviasiya eskadrilyalarının, zirehli qatarların və digər döyüş texnikasının tikintisinə vəsait köçürdülər. Dağıstan əməkçiləri "Şamil" tank kolonunun, Q.Saidov, V.Əmirov, U.Buynakski, A.Boqatıryev adına aviasiya eskadrilyasının tikintisinə 25 milyon rubldan artıq vəsait verdilər.[3]

Şimali Qafqazın əməkçiləri «Коста Хетагуров» və «Зашитники Владикавказа» tank kolonu tikintisi fonduna 112.325.786 rubl, Şimali Osetiyanın kənd əhalisi 3.047.214 rubl[4], Gürcüstan kolxozçuları 1942-ci ilin sentyabrında «Грузинский колхозник» tank kolonunun tikintisinə 110 milyon rubl,[5] Azərbaycan zəhmətkeşləri tank kolonları və aviasiya eskadrilyası tikintisinə 230 milyon rubldan artıq vəsait ayırdılar.[6]

Yaranmış vəziyyəti öyrənən ÜİK(b)P MK, DMK və respublikalarının partiya, sovet və təsərrüfat orqanları, Qafqazın xalqları və millətləri müdafiə işlərinə cəlb etdi. Sənaye müəssisələri silah, döyüş texnikası, sursat, ümumiyyətlə, cəbhə üçün lazım olan məhsullar buraxılışını sürətləndirdi.

---

[1] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кавказ / Х.М.Ибрагимбейли. – Москва, 1983.– с.17.

[2] Yenə orada, s.18.

[3] История Дагестана. Т.III. Москва, 1968; Элдаров, Р.А. Славный путь борьбы и побед / Р.А.Элдаров.– Р.А. Махачкала, 1956.– с.86.

[4] Девятая (юбилейная) сессия Верховного Совета Северо-Осетинской АССР. Оржоникидзе, 1945. – с.27.

[5] Очерки истории Коммунистической партии Грузии. Ч.II. Тбилиси, 1963. – с.200.

[6] Yenə orada, c. 243.

Cənubi Qafqaz və Şimali Qafqaz respublikalarının əməkçiləri 1942-ci ilin dekabrında Cənubi Qafqaz cəbhəsi qoşunlarına və Qara dəniz donanmasına 366 min ton buğda, 42 min ton yüksək keyfiyyətli avtomobil benzini yola saldı.

Respublika əmək kollektivlərinin nümayəndələri müntəzəm qoşun hissələrində oldular. Onlar Cənub və Şimali Qafqaz cəbhəsində yaralı azərbaycanlı döyüşçülərlə görüşdülər. Azərbaycan SSR-dən cəbhələrə 67 səyyar kino-avtomaşın, 42 kino qurğusu göndərilmişdi. Qoşun hissələrinə 21 mətbəə üçün avadanlıq verilmişdi.[1]

Yüksək dağlıq ərazilər uğrunda mübarizə Baş Qafqaz keçidinin aşırımlarında Qafqaz uğrunda döyüşlərin parlaq səhifəsini təşkil etdi. 333-cü atıcı korpusun komandanlığı kapitan M.P.Ağayevin 394-cü diviziyanın tədris batalyonu leytenant N.E.Xudobinin komandanlığı altında Suxumi piyada məktəbi dəstəsini Kluxorski aşırımına göndərdi. Düşmənin arxa cəbhəsində fəaliyyət göstərmək üçün 9 dağ döyüş dəstəsi yaradıldı. Avqustun 20-22-də sovet döyüşçüləri düşmənin bütün hücumlarını dəf etdilər. Sentyabrın 25-dən dekabrın 20-dək sonralar Suxumi sahilinə hücum üçün düşmən bir neçə dəfə Tuapse rayonunu tutmağa cəhd etdi. 17-ci səhra ordusunun qüvvələri (162 mindən artıq adam, 147 tank və hücum silahı, 1.316 top, 950 minomyot) 4-cü hava donanmasının 350 təyyarəsinin dəstəyi ilə sentyabrın 25-də 2 güclü aviasiya zərbələrindən sonra Nefteqorsk və Qoryaçiy Knora Saunyava hücuma keçdi. Tuapsedə 18-ci ordu (komandan general F.V.Komkov-32 min adam, 244 silah, 362 minomyot) oktyabrın 9-da hücumu dayandırdı. Düşmən döyüşdə 10 mindən yuxarı adam itirdi.

1942-ci ilin axırlarında alman ordusu Şimali Qafqazdan qovulmağa başlandı. Canlı qüvvə və texnika sarıdan böyük tələfat verən düşmən sovet ordusunun hücumlarının qarşısını almaq üçün bütün qüvvəsini sərf etdi. Lakin sovet əsgər və zabitləri düşmən qarşısında geri çəkilmədi.

Krasnodar diyarının şərq sərhədlərində düşmən müqaviməti gücləndirdi. Faşistlər binada tikdikləri müdafiə qurğularına arxalanır, əks-hücumlar təşkil edərək Sovet qoşunlarının irəliləməsinin qarşısını almağa cəhd edirdi. Lakin sovet döyüşçüləri müdafiə xəttini yararaq 1943-cü il fevralın 11-də gecə hücumundan sonra Kubanın mərkəzi Krasnodarın şərq kənarına gəldilər. Digər sovet qoşun hissələri şəhərin cənub kənarını tutdular. Şəhər səhərə yaxın düşməndən təmizləndi. Bununla da Kuban torpaqlarının faşistlərdən təmizlənməsinin ikinci dövrü başladı. Düşmən dənizə tərəf sıxışdırıldı.

Almanlar Taman yarımadasını Qafqaza hücum üçün əlverişli əməliyyat meydanı və Krım yolunda mühüm istehkam hesab edirdi. Düşmən Kuban çayının aşağı tərəfinə və Taman yarımadasının müdafiəsi üçün çoxlu

[1] Azərbaycan Kommunist Partiyası tarixinin oçerkləri. Bakı, 1964. – s.618.

texnika və canlı qüvvə yığmışdı. Düşmənin inadlı müqavimətinin səbəbləri vardı. Belə ki, düşmən mövqelərinin hər iki cinahı dəniz idi. Mövqelərin şimal tərəfdən cinahı Azov dənizinə çatırdı. Düşmən mövqelərinin digər cinahı cənub tərəfdə Qara dəniz sahilində idi. Burada mühüm təpələr, Novorossiysk şəhəri və limanı, Semes körfəzi düşmənin əlində idi.

Polkovnik S.Pokrovski yazırdı ki, bütün çətinliklərə baxmayaraq, sovet əsgərləri bu maneələri aradan qaldıra bildilər. Sentyabrın 10-cu gecəsi xırda gəmilərə minən dənizçilər Novorossiysk limanına girib quruya, habelə şəhərin şərq tərəfinə çıxa bildilər.

Düşmən vaxt qazanmaq və öz qoşunlarının Krıma köçürülməsini təmin edə bilmək üçün inadlı müqavimət göstərdi. Geri çəkilən yolları və yaşayış məntəqələrini minaladı. Oktyabrın 2-də sovet qoşun hissələri Axtanuzovski limanı ilə Qızıldaş limanı arasında düşmən mövqelərini yararaq Starotitarovskaya stansiyasını tutdu. Ertəsi gün Tsokur limanı ilə Qara dəniz arasındakı istehkamlar tutuldu. Səhər qoşunların ön hissələri Taman şəhərinə və limana girdilər.

Sovet ordu hissələri şimal şərq tərəfə dönərək mərkəzdə, habelə Azov dənizi sahillərində, Qolubnitskayanın yaxınlığında müqaviməti davam etdirərək düşmənin Taman yarımadası qoşunlarının arxasına keçib Kerç boğazının ən dar yerinə girib düşmənin Taman ordusunu darmadağın etdilər.

Hitlerçilər Taman yarımadasında böyük itkilərlə üzləşdilər. 20 mindən artıq alman əsgər və zabiti məhv edildi, 3 mindən artıq adam əsir götürüldü.[1]

Qafqazın müdafiəçiləri içərisində leytenant Kazımov da vardı. Almanlar çoxlu piyada qüvvə toplayaraq bir neçə tankın köməyi ilə əks-həmləyə keçdikdə leytenant Kazımovun batareyası ciddi müqavimət göstərdi. 4 yerdən yaralanmasına baxmayaraq, Kazımov top komandiri kimi döyüşü davam etdirdi, batareya 20 hitlerçini və bir tankı sıradan çıxardı. Leytenant Kazımov döyüş şücaətlərinə görə "Qızıl Ulduz" ordeni, "İgidliyi görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olunmuşdu.[2]

Tuapse limanının strateji əhəmiyyətini başa düşən alman-faşist komandanlığı şəhəri yerlə yeksan etmək istəyirdi. 465 dəfə düşmən aviasiyası şəhəri bombardman etdi, 70-90 təyyarə eyni zamanda "ulduz uçuşu" həyata keçirdi. Tuapsenin dinc kvartallarına düşmən aviasiyası 10 mindən yuxarı böyük fuqas, çox sayda yandırıcı bomba və xüsusi konteyrlərdə yandırıcı qarışıq atdı. Şəhər sonadək dağıdılıb yandırılsa da, yaşadı və mübarizə apardı.[3]

---

[1] "Kommunist" qəzeti, 1943, 12 oktyabr.

[2] "Kommunist "qəzeti, 1944, 5 noyabr.

[3] Восемнадцатая в сражениях за Родину. Боевой путь 18-й армии. Москва, 1982. – с.142-143.

Oktyabrın 25-də düşmən güclü artilleriya və aviasiya hazırlığından sonra hücuma keçdi. 37-ci ordunun müdafiəsini yararaq həmin gün Nalçiki tutdu. Beləliklə, Nalçik-Orconikidze əməliyyatı başladı. Oktyabrın 28-də alman-faşist qoşunları Çikolonu ələ keçirdi və Orconikidzeye hücumu inkişaf etdirdilər, noyabrın 2-də yeni tank ordusu birləşmələri şəhərin astanasına çıxdılar. Böyük insan və texnika itkisi hesabına hitlerçilər Şimali Osetiya Muxtar Respublikasının bir sıra rayonlarını tuta bildi. Ancaq Orconikidzeni əl keçirə bilmədilər.

Nalçik-Orconikidze müdafiə əməliyyatında Zaqafqaziya cəbhəsinin Şimal qrupu düşmənin 4-dək diviziyasını, o cümlədən 2 tank diviziyasını, "Brandenburq" alayını darmadağın etdi, 140-dək tank, 7-dən çox top, 2.300-dən artıq avtomaşın ələ keçirildi. Döyüş meydanında düşmən 5 mindən yuxarı əsgər və zabit itirdi.[1] Bu əməliyyatda Zaqafqaziya cəbhəsi Şimal qrupu döyüşçüləri kütləvi qəhrəmanlıq və mərdlik göstərdilər. Alayın A.U.Voroşevin hərbi dəniz məktəbinin kursantlarından olan 34-cü atıcı briqadası xüsusi fərqləndi. Dənizçilər 10 mindən artıq düşməni Suara dərəsinə buraxmadı.[2] General F.V.Zaxarovun 2-ci qvardiya atıcı diviziyasının hissələri hücum edən 2-ci rumın dağ-atıcı diviziyasının 80 tankına qarşı mərdliklə müdafiə olundu, bir gündə 60-dək tank və 800-dək əsgər və zabit məhv edildi.

Döyüşlərdə bütün xalqların nümayəndələri-rus L.Andreyev, V.Trifonov, osetin V.Tsumayev, A.Abayev, ukrain Dmitri və İvan Ostarenko, azərbaycanlı İ.Səfərov, özbək A.Rəhmonov fərqləndilər.

Qafqaz döyüşlərinin cəsur döyüşçüləri arasında kiçik serjant T.Qurbanov,[3] qvardiyaçı əsgər Süleyman Sabirov,[4] "Qırmızı Bayraq" ordeni ilə təltif olunan A.Abbasov, 79 düşmən tankını məhv edən batalyon komandiri A.Ə.Abbasov[5] da vardı.

Partizanların döyüşçülərlə əlbir hərəkəti nəticəsində düşmənə itki verildi. Qafqaz uğrunda döyüşlər dövründə yalnız Kubandakı 86 partizan dəstəsində 3.500 kommunist, 4 ölkə partiya təşkilat katibi, 147 rayon və şəhər komitəsinin katibi fəaliyyət göstərirdi.

Alman-faşist işğalı dövründə Kubanda xalq intiqamçıları 500 döyüş, o cümlədən 300-dən çox diviziya və kəşfiyyat əməliyyatı keçirdi, minlərlə hitlerçi məhv edildi, 450 nəfər əsir götürüldü, 60 körpü və keçid dağıdıldı, 15 parovoz, 300-dən artıq vaqon, 200 avtomobil, 7 anbar partladıldı, 3

---

[1] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кафказ / Х.М.Ибрагимбейли. – Москва, 1983.– с.28.

[2] История Второй мировой войны 1939-1945.Т.5. Москва, 1976. – с.225.

[3] "Kommunist"qəzeti, 1942, 16 oktyabr.

[4] Газ. «Бакинский рабочий», 1942, 25 сентября.

[5] ARPİİSSA, Fond №1, siyahı №153, iş 417, vərəq –134.

qərargah dağıdıldı, 14 dəmiryol qatarı döyüşçülər və döyüş texnikası ilə birgə aşırıldı.[1]

Stavropol ölkəsi ərazisində tərkibində 2 mindən çox adam olan 40 partizan dəstəsi fəal mübarizə aparırdı. Stavropol partizanlarının hərəkəti nəticəsində 3.200-dən çox hitlerçi, 21 tank, 8 zirehli maşın, 102 avtomaşın, bir təyyarə, 17 körpü, 9 anbar məhv edildi. Düşməndən 82.435 baş iribuynuzlu mal-qara, 400 mindən çox qoyun, 6 minə yaxın at alınaraq geri qaytarıldı.

1943-cü il yanvarın 1-də Terek çayının aşağı axarından və Baş Qafqaz keçidinin dağətəyinin qərb hissəsində sovet qoşunlarının hücumu başladı. Hücum dövrü 3 mərhələyə bölünür:

Birinci mərhələ – 1943-cü ilin yanvarın 1-dən fevralın 4-dən olan dövrü;

İkinci mərhələ – 1943-cü ilin fevralın 5-dən sentyabrın 9-dək olan dövrü;

Üçüncü mərhələ – 1943-cü ilin sentyabrın 9-dan oktyabrın 9-dək olan dövrü əhatə edir.

Zaqafqaziya cəbhəsinin Şimal qrupu hücuma birinci keçdi. Ona Mozdok rayonunda düşmənin 1-ci tank ordusunun birləşmələrini darmadağın edilməsi tapşırılmışdı. Bu əməliyyatda əsas zərbəni vurmaq general V.A.Xomenkonun komandan olduğu 44-cü orduya həvalə edildi. 58-ci ordu Terek çayının sağ sahilindən hücum etdi, sol cinahda isə Şimal Qrupu ordularının 9-cu və 37-ci ordusu, ayrı-ayrı hissələr Nalçikə ümumi istiqamətdə hücum etməli idilər.

Sağ cinahdan 4-cü qvardiya Kuban və 5-ci qvardiya Don kazak süvari korpusunun döyüş hissələrinin hücumu planlaşdırılmışdı.

Vermaxtın ali baş komandanlığı sovet qoşunlarının Stalinqrad altında əks-hücumundan və Şimali Qafqaz qruplaşmasının mühasirə qorxusundan narahat idi. Ona görə də, 1-ci tank ordusunun geri çəkilməsi barədə qərar qəbul edildi. Yanvarın 3-də 44-cü ordunun 5-ci qvardiya süvari korpusu qarşılıqlı əlaqədə geri çəkilən 1-ci tank ordusunun hissələrini təqib etməyə başladı. Həmin gün Nalçik uğrunda döyüşlər bərpa olundu, alman-faşist komandanlığı şəhərin güclü mühəndis qurğularına malik olduğundan və minalanmasından qorxurdu. 2-ci qvardiya atıcı diviziyası 37-ci ordunun bütün maneələri dəf edərək gecə Nalçikə hücum etdi və küçə döyüşlərindən sonra 1943-cü il yanvarın 4-də şəhərə yiyələndi.

Digər sahildə 9-cu ordunun qoşunları şərqdən və cənubdan Proxladnı şəhərinə hücum etdi və gərgin döyüşlər nəticəsində yanvarın 5-də onu azad etdi. Həmin gün qərb və şimal-qərb istiqamətində 4-cü qvardiya Kuban suvari korpusunun birləşmələri hücuma keçdilər. Döyüşçülər geri çəkilən

[1] Пономаренко, П.К. Слово о партизанах Северных Кавказа – Народный подвиг в битве за Кавказ. / Сб. статей. Москва, 1981. – с.208.

hitlerçi hissələrini təqib edərək yanvarın 8-də möhkəmləndirilmiş Kuban çayı hüdudlarına çıxaraq, mövqe tutdular və 3-cü piyada diviziyasının hissələrini geri ataraq tutduqları mövqeyi möhkəmləndirdilər.[1] Yanvar ayının 10-dək davam edən döyüşlər nəticəsində Şimal qrupu 150-170 kilometr irəlilədi, Şimali Osetiya və Kabarda-Balkar MSSR, Stavropol ölkəsinin bir hissəsi alman-faşist işğalçılarından azad edildi. Şimal qrupu qoşunları yanvarın 11-də Mineralnıye vodı, Pyatiqors, Jeleznovodsk, Yesentuki, Kislovodsk şəhərləri və dəmiryol stansiyaları azad olundu. Yanvarın 16-da Şimal qrupunun qoşunları Stavropol istiqamətində hücum edərək Klans-Çerkassk çayı hüdudlarına çıxdı. Həmin gün Qara dəniz qrupu qoşunları hücuma keçdi. 347-ci atıcı diviziyanın hissələri Stavropola sürətlə hücum etdilər və şəhər alman-faşist işğalçılarından təmizləndi. Yanvarın 22-də Cənub cəbhəsinin 28-ci ordusu ölümcül zərbə ilə böyük dəmiryol qovşağı olan Salsk şəhərini azad etdi.

Şimali Qafqaz cəbhəsi komandanlığı Qərargahın 25 yanvar tarixli Direktivində qoşunlara 1943-cü ilin yanvarın 7-də yaradılan N.Y.Kriçenkonun atlı-mexanikləşdirilmiş qrupu Batayska hücum edərək düşmənin Rostov-Bataysk qruplaşmasına arxadan zərbə endirmək, Cənub cəbhəsi sol cinahdan qarşılıqlı əlaqədə zərbə vuraraq yanvarın 28-də Bataysk, Azov və Rostovu azad etmək, 44-cü və 58-ci ordunun komandanlığı düşmənin təqibini davam etdirərək 1-ci tank ordusunun geri çəkilən birləşmələrini darmadağın edərək fevralın 2-də Azov, Semibalka, Eyskin hüdudlarına çıxmaq və 9-cu ordu Bekeşevsk, Timaşevski istiqamətində hücum edərək yanvarın 31-də onları azad etmək, fevralın 3-də Primorsk-Arxangelski ələ keçirmək, 37-ci orduya Kropatkin şəhərini tutmaq, fevralın 1-də Krasnodarın azad edilməsi vəzifəsi tapşırıldı.

Vermaxtın Ali komandanlığı və "A" ordu qrupu komandanlığı sovet qoşunlarının hücumunu dayandırmağa, intizamsız qaydada qaçan birləşmələri yenidən qruplaşdırmağa imkan daxilində böyük qoşun, döyüş texnikası və silahları Taman yarımadasına aparmağa cəhd etdi.

Qarşıdakı hərbi əməliyyatları əlaqələndirmək, qoşunların tərkibini yeniləşdirmək üçün Baş Qərargah bir sıra tədbirləri həyata keçirdi. Zaqafqaziya cəbhəsi Şimal qrupu qoşunları 1943-cü il yanvarın 24-də **Şimali Qafqaz cəbhəsi** adlandırıldı və qüvvətləndirildi. Baş Qərargah Şimali Qafqaz cəbhəsi qarşısına düşmənin Krasnodar qruplaşmasını mühasirəyə almaq və məhv etmək vəzifəsini qoydu. Cəbhənin qoşunları general-polkovnik İ.İ.Maslennikovun komandanlığı altında qarşıya qoyulan vəzifənin yerinə yetirilməsinə başladı.

---

[1] Иванов, Г.П. Боевая доблесть кубанцев. Исторический очерк / Г.П.Иванов.– Краснодар, 1961.– с.70.

Şimali Qafqazın azad edilməsi döyüşlərində Kubanın snayper məktəbində təhsil almış 36 qız 227-ci atıcı diviziyanın 570-ci atıcı alayında mərdliklə vuruşaraq 600-dən artıq hitlerçi əsgər və zabiti məhv etdi.[1]

1943-cü ilin fevralında Şimali Qafqaz cəbhəsi döyüşçüləri 800 km irəlilədilər, 200 min kv.km ərazi işğalçılardan təmizləndi. 5 ay davam edən Qafqaz uğrunda müdafiə döyüşlərinin yekununa görə düşmən çoxlu itki verdi, döyüş texnikası sıradan çıxarıldı. Qara dəniz və Xəzər dənizi, Dunaydan Terekə qədər ərazilərdə, Baş Qafqazın yüksək dağlıq dolaylarındakı döyüşlərdə alman-faşist qoşunları bir daha məğlubiyyətə uğradılaraq alman hərb maşını gücdən salındı, faşistlərin Qafqazı tutmaq, Bakı neftinə sahib olmaq arzuları xəyala çevrildi.

1943-cü il oktyabrın 9-da SİTA Şimali Qafqaz cəbhəsindən xəbər verirdi ki, ordu generalı Petrovun qoşunları qurudan zərbə endirmək və dənizdən qoşun çıxarmaqla, günlərlə davam edən qızğın vuruşmalar nəticəsində alman faşistlərinin Taman yarımadasındakı qoşunlarını darmadağın etmək işini başa çatdırmış və Taman yarımadasını hitlerçilərdən tamamilə təmizləmişdir.[2]

Qafqaz döyüşlərində digər xalqlar və millətlərdən yaranan diviziyalar fəal iştirak etdi. Onların arasında Azərbaycanın 77, 223, 402 və 416-cı, 242, 392, 394 və 414-cü qırıcı atıcı və dağ-atıcı diviziyaları da vardı.

Qoşunların iki cəbhədə hücumları dövründə 300 minədək düşmən əsgər və zabiti, 900-dək tank, 2000-dən yuxarı təyyarə, 2.122 top, 1.400-dək minomyot, 5.000-dək pulemyot, 7.200-dək avtomobil məhv edildi, 600-dən yuxarı müxtəlif gəmilər batırıldı. Eyni zamanda sovet qoşunları 458 tank, 1.392 top, 1.538 minomyot, 35.414 avtomat və tüfəng, 15.195 avtomaşın, 800 min ədəddən yuxarı mərmi ələ keçirdi. Döyüşlərdə 1.100-dən artıq düşmən təyyarəsi vuruldu.[3]

Faşist işğalçılarından azad olmaq əlaməti olaraq Osetin xalqı adından Şimali-Osetiya vilayət partiya təşkilatı bürosu və respublika XKS ordu generalı İ.V.Tülenov və general-leytenant İ.İ.Maslennikovu gümüş şaşka və xəncər, gümüş kəmər, qızıl suyuna çəkilmiş yapıncı ilə mükafatlandırdı.

1942-ci il oktyabrında (Oktyabrın 25-ci ildönümü münasibətilə) Azərbaycan K(b)P MK və Bakı Komitəsi katibi M.C.Bağırov, Azərbaycan SSR XKS sədri T.Quliyev və Azərbaycan SSR Baş Soveti Prezidiumunun sədri M.B.Qasımov Azərbaycan zəhmətkeşləri adından Qafqaz müdafiəçilərinə məktub göndərdilər. Məktubda döyüşçüləri möhkəm, cəsarətli olmaq, fədakarlıq və igidlik göstərməyə çağırılırdı.

---

[1] Костенко, А. Уходили на войну девчата / А.Костенко.– Краснодар, 1969. – с.4.

[2] "Kommunist" qəzeti, 1943, 12 oktyabr.

[3] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кафказ / Х.М.Ибрагимбейли. – Москва, 1983.– с.58.

Məktub Qafqaz döyüşçüləri arasında böyük ruh yüksəkliyinə səbəb oldu, döyüşçülər, bölmə və hissə komandirləri, diviziyaların komandirləri yuxarıda adları qeyd olunan rəhbərlərə yazdıqları cavab məktublarında döyüşçülərin qəhrəmanlığından söz açırdılar. Döyüşçülərin imzaladıqları məktublarda onların Qafqazın müdafiəsində möhkəm dayandıqları, Qafqazın hər bir şəhərini, kəndini, küçəsini, hər bir evini canları ilə müdafiə edəcəklərini bildirirdilər.

Əjdər Cümşüd oğlu Ağayev, Azərbaycan SSR Baş Sovet deputatı Şahin Məmməd oğlu Əliyev və əsgər Məzahir Hüseynovun imzaladığı məktubda[1] bildirilirdi ki, Cəbrayıl rayonunun Əfəndilər kəndindən olan leytenant Ədil Məmiş oğlunu çox sevirlər. Cəsur döyüşçü düşmənin 26 əsgərini və bir zabitini öldürmüş, 2 düşmən tankını məhv etmişdir. Əbilov Kabadin-Balkar MSSR-in bir kəndi uğrunda döyüşdə 6 nəfər yoldaşı ilə birgə səngərdə olan 14 faşistdən 9-nu öldürmüşdü. Qəfil hücumdan özlərini itirən almanların səngərdə qoyub getdikləri bir dəzgahlı pulemyot, 2 əl pulemyotu, 10 avtomat silah, 7.430 patron ələ keçirilmişdir. 8 saat davam edən döyüşdə Əbilovun dəstəsi ümumilikdə 36 alman əsgərini və bir zabiti, Əbilov şəxsən 18 düşmən əsgərini və bir zabiti məhv etmişdir.

Q.Məmmədov

Məktubda göstərilir ki, Gəncədən olan sanitar təlimatçısı Müseyib Osman oğlu Dilbazov düşmənin arasıkəsilməz atəşi altında 23 yaralı sovet döyüşçüsünü döyüş meydanından çıxarmış, körpü dağıdıldıqdan sonra həmin yaralı döyüşçüləri belinə alaraq Terek çayından üzə-üzə keçirmişdir. Mərdlik və igidlik göstərdiyinə görə Dilbazov "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur. Sabirabad rayonundan olan əsgər Məmməd Məmmədov, qvardiyaçı əsgər Yusif Qasımov, Zəngilan rayonunun Sarıl kəndindən olan Təhməz Təhməzov döyüşlərdə igidlik göstərmişlər.[2]

Mayor Həşim Həşimovun Şəmkir rayon Partiya Komitəsinə və "Kommunist" qəzetinin redaksiyasına yazdığı məktubdakı faktlar azərbaycanlı döyüşçülərin igidliyinə parlaq nümunədir. H.Həşimov yazır: "Şəmkir rayonunun Qarçətiran kəndində anadan olmuş Hacıyev Aslan Dostmamed oğlu Krımın ağır günlərində öz mərdliyi və şücaəti ilə vətənə hədsiz sədaqətini göstərdi. Faşistlər Zaqafqaziyanı hədələyəndə Hacıyev Qafqaz cəbhəsinə gələrək "N" topçu alayında diviziya komandirinin siyasi hissə üzrə müavini təyin edildi…Kapitan Hacıyev Taqanroq, Melitopol, Nikolayev, Odessa, Kişinyov şəhərlərinin faşistlərdən azad edilməsində əsl

[1]AMEA TİEA, "Cəbhədən məktublar", qovluq №28, fond №1, s. 157-158.
[2] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq №28, fond №1, s.158.

rəşadət, mərdlik və qəhrəmanlıq göstərmişdir… Göstərdiyi böyük qəhrəmanlığa görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdur.

Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri **Qafur Nəsir oğlu Məmmədov** idi.[1] Qafqaz uğrunda döyüşlərdə istehkamçı və minatəmizləyən Cəbrayıl Allahverdiyev 1.543 minanı, Turac Rəşidov 1.000-dən çox minanı zərərsizləşdirdi.

İsrafil Məmmədov, Ədilə Babayeva, Humay Əlibəyli, Böyükxanım Bağırova, Roza İbadovanın döyüş yolu Şimali Qafqazdan başlamış, Donbas, Çerkass, Voroşilovqrad şəhərlərində, Ukraynanın yüzlərlə kəndinin alınması döyüşlərində iştirak etmişlər.

Kapitan Hacıyev Dnestr uğrunda döyüşlərdə igidlik göstərdi. Dnestr sahili uğrunda aparılan mübarizədəki böyük xidmətlərinə görə komandanlıq onu II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif etdi. Kapitan A.Hacıyev Kişinyov şəhəri uğrunda da cəsarətlə döyüşdü. Kişinyov uğrunda döyüşlərdəki şücaətinə görə "Qırmızı bayraq" ordeni ilə təltif olundu.[2]

Astara rayonunun Penzər kənd sovetliyində məktəbdə müəllim işləyən və 1942-ci ildə ordu sıralarına çağırılan Fəttah Manafzadə Qafqazdan Şərqi Prussiyaya qədər döyüş yolu keçdi. Onun ilk döyüş yolu Qafqazın qarlı dağlarında, Krasnodar ölkəsində, sonra isə Novorossiyskidə oldu. Döyüşdə yaralanan Fəttah Manafzadə Tbilisidə müalicə olunduqdan sonra 1943-cü ilin mayında II Belarusiya cəbhəsinə yollandı. F.Manafzadə 1943-cü ilin iyun ayının 20-dən avqustun 14-dək olan döyüşlərdə faşistlərin 7 tankını, 28 avtomaşını və zirehli maşınını sıradan çıxardı, 19 müşahidə məntəqəsini dağıtdı, 89 pulemyotu məhv etdi, düşmənin 23 əks-hücumunu dəf edərək 500 nəfərdən çox əsgər və zabiti məhv olundu.[3]

Top komandiri F.Manafzadənin 26 noyabr 1944-cü il tarixli məktubundan aydın olur ki, 1942-ci ildə Stalinqrad cəbhəsində həlak olmuş qardaşı Zəkəriyyə və Mozdok altında həlak olmuş əmisi oğlu Ağadadaşın xatirəsi onu hitlerçilərdən intiqam almağa sövq etmiş, göstərdiyi igidliyə görə II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri və "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.[4]

Masallı rayonunun Qazınoba kəndindən müəllim Hacıməmməd Qasımov, İmişli orta məktəbindən müəllim, yefreytor Tağızadə Səməd Əli, İsmayıllı rayonunun Zabrat kənd məktəbinin dərs hissə müdiri Əlican Həbibov, yenə həmin rayonun Aşıqbayram kənd məktəbinin müəllimi

---

[1] Q.Məmmədov haqqında "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

[2] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq 9, s. 47.

[3] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir (Məktublar və sənədlər toplusu). Письма-живая история войны 1941-1945 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.30.

[4] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq № 9, s. 37-39.

Muradov Feyruz Mirzəli oğlu, yenə həmin rayonun Nura kənd ibtidai məktəbinin müəllimi Cəfərov Fəttah, Cəbrayıl rayonundan mühasib Vəliyev Həlal Sədat Qulu oğlu Qafqaz uğrunda döyüşlərdə mərdlik göstərdilər.[1] Qafqaz cəbhəsində vuruşanlardan biri də təyyarəçi-hücumçu Nurəddin Məcid oğlu Əliyev idi. O cəbhədən göndərdiyi məktubda döyüş dostlarının alman-faşistlərə qarşı necə igidliklə vuruşduqlarını qeyd edirdi.[2]

1942-ci ilin noyabr-dekabr aylarında düşmən sovet qoşunlarının zərbələrinə davam gətirməyərək geri çəkilməyə məcbur oldu və onun planları pozuldu. Qafqazın müdafiəsi dövründə düşmən böyük itkilər verərək Stalinqrad ətrafında cəmləşməyə imkan tapa bilmədi. Stalinqrad ətrafında düşmənin darmadağın edilməsi düşməni Mozdokdan şimal-qərbə çəkilməyə məcbur etdi. 1943-cü il yanvarın 3-də Şimal qrupu (yanvarın 24-dən Şimali Qafqaz cəbhəsi) qoşunları alman-faşist qruplaşmalarını təqib etməyə başladı. Bir çox şəhərlər azad edildi və sovet qoşunları 650 km irəliləyə bildi. Kropatkin və Tixoretski, fevralda Neftoqorsk, Maykop və Krasnodar azad olundu. 1943-cü ilin payızında sovet qoşunları Qara dəniz donanması ilə birgə Novorossiysk və Taman yarımadasını azad etdilər.

Novorossiyskinin müdafiəçiləri

Alman-faşist komandanlığının Qafqazın işğalı planlarında Novorossiyskinin tutulması mühüm yer tuturdu. Avqustun 19-da düşmən Krım stansiyası və Tempyuk şəhərləri istiqamətində zərbə vurdu. Beləliklə, Novorossiysk müdafiə əməliyyatı başladı.

Hitler komandanlığı Novorossiysk altına çıxmağa məcbur oldu. sentyabrın 2-5-də düşmən qoşunları Krımdan Taman yarımadasına keçməyə başladı. Sentyabrın 9-da böyük say üstünlüyünə malik düşmən itki verərək şəhərin böyük hissəsini tutmağa müvəffəq olsa da, irəli gedə bilmədi. Sentyabrın 26-da sovet qoşun birləşmələri qəhrəmanlıqla və mətanətlə bu hüdudu müdafiə etdilər.

47-ci ordunun qoşunları, dəniz piyadaları birləşmələri və Qara dəniz donanması sayca üstün olan düşmənə qarşı döyüşdə istisnasız dəyanət göstərdilər. Polkovnik V.A.Vrutskinun 318-ci atıcı diviziyası, polkovnik E.E.Kabanovun 77-ci Azərbaycan atıcı diviziyası, general A.M.Plamenkinin 216-cı atıcı diviziyası, podpolkovnik D.V.Krasnikovun 83-cü dəniz atıcı briqadası, polkovnik D.V.Qordeyevin 255-ci dəniz piyada briqadası və b. xüsusilə fərqləndilər. Novorossiysk altında düşmən 14 min əsgər və zabit, 47 tank, 95 top və minomyot, 25 təyyarə, 320 avtomaşın və digər döyüş texnikası və silah itirdi.[3]

---

[1] Письма славы и бессмертия 1941-1945 гг. Баку, 1987. – s.106.

[2] Газ. «Бакинский рабочий» , 1943, 23 феврал.

[3] Ибрагимбейли, Хаджи Мурат. Битва за Кавказ / Х.М.Ибрагимбейли.– Москва, 1983.– с.20.

Müharibə tarixini tədqiq edən tarixçilər öz əsərlərində Kiçik torpaq uğrunda döyüşən ordunun fəaliyyətinə dair maraqlı faktlar qələmə almışlar. Əslində Kiçik torpaq əfsanəvi bir ərazi kimi müharibə tarixinin parlaq səhifələrindən birinə çevrilmişdir.

Kiçik torpaq Novorossiysk şəhərinin cənub təpəsində, Semes buxtasının qərb sahilində ərazi sahəsi olub müharibə illərində sovet qoşunlarının burada dayaq məntəqəsi ələ keçirmək, onu qorumaq, sonra da genişləndirmək uğrunda şiddətli döyüşlərin apardığı bir məkan olmuşdur. Bu torpaq uğrunda döyüşlər 1943-cü il fevralın 4-dən sentyabrın 16-dək davam etmişdir.

18-ci ordunun siyasi şöbə rəisi L.İ.Brejnev başda olmaqla ordunun siyasi orqanlarının aydın məqsədli partiya-siyasi işi Kiçik torpağın müdafiəsində böyük rol oynadı. Kiçik torpaq uğrunda döyüşlərin **21 iştirakçısı** Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Kiçik torpağın müdafiəsində 1942-ci ildə Bakıda təşkil olunmuş 165-ci əlahiddə atıcı briqada iştirak etdi, Azərbaycandan yüzlərlə döyüşçü, o cümlədən S.Q.Adışov, S.Ç.Ağacanov, S.İ.Qurbanov, M.Ə.Zeynalov, A.N.Krillov, Ə.T.Piriyev, M.P.Quliyev, M.H.Xudiyev, T.H.Nərimanov, A.B.Babayev, H.H.İsmayılov, A.İsmayılov, S.M.Rüstəmbəyova və b. mərdliklə vuruşdular. Kiçik torpağa desant çıxarılması və döyüş əməliyyatları zamanı döyüşçülərin şücaət və qəhrəmanlığı L.İ.Brejnevin "Kiçik torpaq" kitabında bədii əksini tapmışdır.[1]

18-ci ordunun tərkibində 33 millətin nümayəndələri, o cümlədən 1000 nəfərə qədər azərbaycanlı olmuşdu. Ağamehdi Babayev, Tofiq Abbasov, Ağahüseyn Əliyev, Hacağa Əliyev, Hüseyn Babayev, Əliağa Cəfərov, Sadıq Sadıqzadə (**Bakı),** Fərmanov), İsmayıl Tağıyev (**Lənkəran**), Xalıq Qurbanov (**Masallı**), İman Abışov (**Neftçala**), Sofiyaxanım Rüstəmbəyova (**Sumqayıt**), İbrahim Həsənov **İliç (indiki Babək rayonu**), Məmməd Zeynalov **(Ordubad**), Novruz Xudiyev (**Cəbrayıl**) və başqaları Kiçik torpaqda döyüşdülər.[2]

Novorossiysk uğrunda döyüşlərdə azərbaycanlı döyüşçülər – Oruc Ağayev, Xanbaba Muradov, Hüseynağa Sadıqov, Novruz Aslanov, Qaçay Bəhramov, Davud Qasımov (Bakı), Səkinə Məmmədova, Süleyman Eldarov (Nuxa), İsmayıl Ağamirzəyev (Ağdam), Çoban Haqverdiyev (Ağstafa), Oruc Əsgərov (Jdanov – indiki Beyləqan) və başqaları əsgəri rəşadət göstərdilər.

---

[1] Brejnev, L.İ. Kiçik torpaq (xatirələr) / L.İ.Brejnev.– Bakı, 1978; Гречко, А.А. Битва за Кавказ. 2-изд. / А.А. Гречко.– Москва, 1973; На левом фланге. Москва, 1976; На легендарном плацдарме. Ростов на Доне, 1980; ACE, V cild: İTALİYA-KUBA. Бакı, 1981. – с.413.

[2]Brejnev, L.İ. Kiçik torpaq (xatirələr) / L.İ.Brejnev.– Bakı, 1978. – s.17.

1943-cü ilin yanvar-fevral ayları sovet tərəfi üçün uğurlu hesab oluna bilər. Belə ki, 18-ci ordu 46-cı ordu ilə birlikdə Krasnodarı hitlerçilərdən təmizlədi. 18-ci ordunun döyüşçüləri Kiçik torpağı 255 gün əllərində saxladı, 1943-cü ilin sentyabr-oktyabrında Novorossiysk – Taman əməliyyatlarında iştirak etdilər.

1943-cü il fevralın 3-dən 4-ə keçən gecə mayor Sezar Kunikovun başçılığı ilə Novorossiyskin cənubunda Mısxako çıxıntısında yerləşən Staniçka qəsəbəsinə desant çıxarıldı və desantçılar faşistlərin işğal etdikləri ərazidə bir parça torpağı onlardan zorla alaraq döyüşə-döyüşə torpağın ərazisini genişləndirdilər.

Döyüş dostları Dürrə Məmmədovanı daim xatırlayırlar.

D.Məmmədova

Məmmədova Dürrə Abbas qızı 1923-cü ildə Nuxada anadan olmuşdur. 1940-cı ildə Bakı Əczaçılıq Texnikumunu bitirmişdir. Müharibə başlayana qədər Nuxadakı 85 №-li aptekdə işləmiş, könüllü cəbhəyə getmişdir. Novorossiysk şəhəri 43 nömrəli hərbi-dəniz donanmasının sərəncamına göndərilən gənc Dürrə sonralar Novorossiysk Hərbi-Dəniz donanmasının sanitar anbarına köçürülmüş, tibb işçisi kimi 18-ci ordunun Qara dəniz hərbi hissələrinin dərmanlar, sarğı ləvazimatları və tibbi avadanlıqlarla təchizi məsələləri ilə məşğul olmuş, yaralılara yardım göstərmişdi.

D.A.Məmmədovanın döyüş şücaətləri "Qırmızı Ulduz" ordeni, 13 medal və fəxri fərmanlarla qiymətləndirilmişdi.

1948-ci ildə tibb xidməti leytenantı rütbəsi ilə ordudan tərxis olunan D.Məmmədova 1949-1951-ci illərdə Leninqradda, 1951-1961-ci illərdə Uzaq Şərqdə hospitallarda, 1961-ci ildən respublika Baş Apteklər İdarəsində çalışdı.

1965-ci ildən Müharibə Veteranları Sovet Komitəsinin Bakı şöbəsinin sədr müavini, 1978-ci ildən Respublika əhəmiyyətli fərdi pensiyaçı olan D.Məmmədova "Tibb xidməti əlaçısı" döş nişanına, "Azərbaycanın əməkdar səhiyyə işçisi" fəxri adlarına layiq görülmüşdü. Onun döyüş yolu haqqında oçerk, şeir və povest yazılmışdır. D.A.Məmmədova gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində fəal iştirak etmişdir.

Dürrə Abbas qızı Məmmədova 2010-cu ildə vəfat etmişdir.

Məlik Quliyev 1943-cü ilin fevralında Kiçik torpağa çıxan ilk desantçılardan idi. O, döyüşlərin birində ağır yaralandı. 1-ci dərəcəli starşina M.Quliyev Kiçik torpaqda dəfn olundu və ölümündən sonra "Lenin" ordeninə layiq görüldü.

S.Məmmədova

Səkinə Məmmədova Novorossiysk uğrunda döyüşlərdə iştirak etdi, leytenant rütbəsinədək yüksəldi, 1945-ci ilin sonunda xəstəliyinə görə ordudan tərxis olundu. "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunan Səkinə Məmmədova müharibədən sonra Bakıdakı 439 №-li aptekin müdiri kimi əmək fəaliyyətini davam etdirdi.

Qubadlı rayonunun Qarakişilər kəndində dünyaya gələn Həsənxan İsmayılov alman-faşist işğalçıları ilə ilk dəfə Sevastopolda qarşılaşdı. Sinəsindən ağır yaralanan döyüşçü bir ay hərbi xəstəxanada müalicə olunduqdan sonra 255-ci dəniz piyada briqadasının tərkibində Novorossiysk şəhəri uğrunda döyüşlərdə iştirak etdi. Sentyabrın 10-da yenidən yaralandı.

H.İsmayılovun döyüş yolu Polşadan keçdi, 1944-cü il mayın 8-də Lyublin şəhəri uğrunda döyüşlərdə yenidən yaralandı. Keniqsberqdə müalicə olunan döyüşçü Qələbə xəbərini hərbi xəstəxanada eşitdi. Döyüş xidmətlərinə görə orden və medallarla təltif olunan **H.İsmayılov** bədənində 17 faşist qəlpəsi ilə doğma Qarakişilər kəndinə qayıtdı.

Döyüş cəbhələrində mərdliklə vuruşan gənclərdən biri də, müharibədən sonra Şəkidə məişət xidməti kombinatında işləyən, "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görülmüş Eldarov Süleyman idi.[1]

N.Həşimova

Bakılı Şərqiyyə Ələkbərova ilk döyüş yoluna Novorossiyskdən başladı. Leytenant rütbəsinədək yüksələn kəşfiyyatçı azərbaycanlı qızı "Döyüş xidmətlərinə görə", "1941-1945-ci illərin Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olundu.[2]

Novorossiysk, Kabardinka, Tuapse, Taman uğrunda vuruşmalarda cəsur qızlardan Adilə Məmmədova, Lyudmila Kərimova, Suzanna Salmanova, Naibə Həsənova, Suğra Paşayeva, Səkinə Əliyeva, Sara İbrahimova və başqaları mərdlik nümunələri göstərdilər.

---

[1] S.Eldarov barədə "Şöhrət" ordeni ilə təltif olunan azərbaycanlılar bölməsində məlumat verilmişdir.

[2] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S.Məmmədov.– Bakı, 1988. – s. 19.

1941-ci il iyul ayının 24-də orduya səfərbər olunan Naibə Həşimova-Əfəndiyeva 1921-ci ildə Kürdəmirdə anadan olub. Bakı tibb texnikumunu bitirib. Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabirin nəvəsidir.

N.Əfəndiyeva Qara dəniz Donanmasının Novorossiysk şəhərinin hərbi dəniz bazasının sanitar bölməsində, sonra donanmanın 43 №-li hospitalında diş həkimi vəzifəsində işlədi. 1943-cü il iyunun 21-də Qara dəniz Donanması Hərb Hava Qüvvələrinin 12-ci aviasiya bazasında tibb xidməti baş serjantı rütbəsində çalışdı.[1]

N.Həşimova 1943-cü ildə səhhətinə görə ordudan tərxis olundu. ADU-nun hüquq fakültəsində təhsil alan Naibə xanım V kursda oxuyarkən 26 Bakı komissarı (indiki Səbail rayonu) rayon xalq məhkəməsinə hakim vəzifəsinə seçildi. 12 il burada işlədikdən sonra Bakının Oktyabr və Şaumyan rayon xalq məhkəməsində hakim kimi çalışdı və 1979-cu ildə təqaüdə çıxdı.

N.Həşimova "Almaniya üzərində qələbəyə görə", 1941-1945-ci illərin Böyük Vətən müharibəsinin 20-ci və 45-ci illiyi medalları, həmçinin Qırmızı bayraqlı Qara dəniz Donanması, 18-ci ordunun və əlahiddə dəniz sahili ordunun veteranı döş nişanları ilə təltif olunmuşdur.

Ş.Əlizadə

Şura Əlizadə Bakıda ziyalı ailəsində anadan olmuşdu. Atası Əlicabbar kişi mühəndis, anası Fatma Şaxtaxtinskaya həkim-professor idi. Qara dənizdən Sarı dənizə qədər döyüş yolu keçmiş Şura Əlizadə Kerç, Sevastopol, Tuapse, Novorossiysk döyüşlərində, Kerç-Eltikən dəniz desant əməliyyatında, Sevastopolun azad edilməsində iştirak etdi. Qələbə günündə Sevastopolda həkim işləyən Şura 1947-ci ildə Sakit okean donanmasından tərxis edildi.

Şimali Qafqaz cəbhəsində 56-cı ordunun tərkibində tibb bacısı, 18-ci ordu tərkibində 83-cü Qırmızı Bayraqlı dəniz briqadasının 144-cü xüsusi batalyonunun sanitar təlimatçısı Lyudmila Kərimova Azov, Rostov, Novorossiysk, Gelinck və Qara dəniz sahili torpaqlarında döyüş yolu keçdi.

Səfiyyə Rüstəmbəyova 1943-cü ilin fevralında Novorossiysk şəhərinin düşməndən azad edilməsi əməliyyatlarında göstərdiyi əsgəri rəşadətə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olundu.[2]

S.İbrahimova

[1] Yenə orada, s.37.

[2] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları /S.S.Məmmədov.– Bakı, 1988. – s.44-46.

Müharibə başlananda Qöncə Qaragözova Tbilisidə Dəmiryol Nəqliyyatı İnstitutunda oxuyurdu. 1942-ci ildə cəbhəyə gedən Qöncə Krasnodarda 56-cı ordunun 17-ci atıcı diviziyasında alayın baş həkimi təyin olundu. O, alayda səhiyyə işinin təşkilinə, yaralılara vaxtında yardıma, ağır olanların arxaya köçürülməsinə cavabdeh idi. Zaparojye döyüşlərində odunalovun içərisinə atıldı, yaxşı xidmətə və rəşadətə görə II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundu. Daha sonra Taman və Kerç yarımadasında xidmətdə olarkən yaralandı. Müalicə olunaraq yenidən döyüş yoldaşlarının yanına qayıdan tibb kapitanı Q.Qaragözova 1944-cü ilin aprel ayında ordudan tərxis olundu, Ağstafaya qayıtdı, həkim işlədi, 1953-cü ildə Gəncəyə köçdü.

Krım yarımadasında Aluşta-Yalta istiqamətində keçirilən döyüş əməliyyatlarında hünər göstərmiş Firuzə, Böyükxanım və Xədicə tibb batalyonunda xidmət etdilər, əsir düşdülər, Almaniyaya aparılarkən qaçıb partizanlara qoşuldular. Partizan qızlar Ukraynanın İrdı, Qorodişev, Cila, Çiqirin, Znamenko, Keremençuq, Şpola, Kamenko, Nov-Mirqorod kimi şəhər və qəsəbələr ətrafında qəfləti hücumlarla faşistlərə ciddi tələfat verdilər.

1944-cü ilin yanvarında doğma vətənə qayıdan qızlar yeni həyata başladılar. Kiçik leytenant Xədicə Lətifova Şəkiyə qayıtdı. Firuzə Fətəliyeva Bakıda urologiya klinikasında, Böyükxanım Bağırova Xəzər dənizçiləri xəstəxanasında tibb bacısı işləməyə başladı.

Novorossiysk şəhəri uğrunda döyüşlərin iştirakçılarından biri də Ənvər Sadıqov olmuşdur. Novorossiysk şəhəri azad edildikdən sonra Ə.Sadıqov 1-ci Ukrayna cəbhəsində, 117-ci qvardiya diviziyasının 335-ci alayının tərkibində vuruşmağa başladı, 1944-cü ilin yanvarında ağır yaralandı, 17 yaşında təltiflərlə vətənə qayıtdı.

Kiçik torpağa çıxarılan ilk desantçılar sırasında Yunus Şahkərimov da vardı. Yunus Şahkərimov 1942-ci ildə Bakıdakı 2-ci piyada hərbi məktəbini bitirdikdən sonra Bakıda təşkil olunan 165-ci atıcı briqada tərkibində cəbhəyə yollandı. Briqada 18-ci ordunun tərkibinə daxil edildi.

Döyüşlərdə ağır yaralanan döyüşçü Yunus müalicədən sonra generalmayor M.Əbilovun komandanlıq etdiyi 250-ci Bobruysk atıcı diviziyasının tərkibində vuruşmağa başladı. Y.Şahkərimov Qələbə gününü Berlin yaxınlığındakı Elba çayının sahillərində qarşıladı.

Əli Mirzə oğlu eyni gündə Balaxanıdan cəbhəyə səfərbər olunan 33 nəfərdən yaşca ən kiçiyi idi. Səfərbər olunan zaman onun 17 yaşı vardı. Bir müddət təlim keçdikdən sonra 77-ci milli Azərbaycan diviziyasının 105-ci atıcı kəşfiyyat qrupunun pulemyotçusu kimi döyüş meydanına atıldı, 1942-ci ilin oktyabr ayında yaralandı. Sağaldıqdan sonra 18-ci ordunun 32-ci qvardiya atıcı diviziyasının 80-ci alayına göndərildi. 1943-cü ilin fevralında bombardman zamanı Əli torpaq altında qaldı və yenidən ağır yaralandı. Onu huşsuz halda tapdılar. Hətta onun evlərinə Əlinin həlak olması barədə "qara

kağız” göndərildi. Ancaq müalicədən sonra özünə gələn Əli evlərinə məktub yazdı. Baş vermiş “möcüzə” hamını heyrətləndirdi. Yefreytor Əli Mirzə oğlu 1945-ci ilin mayında evə qayıdarkən Rostov-Bakı qatarında qələbə xəbərini eşitdi.[1] Əli cəbhəyə gedən 33 nəfərdən yeganə sağ qalan döyüşçü idi.

Azərbaycan xalqı 18-ci ordunun 51-ci atıcı briqadasının siyasi şöbəsinin keçmiş təlimatçısı A.B.Babayevin, 18-ci ordunun 83-cü dəniz atıcı briqadasının keçmiş komandiri V.M.Muradovun, 18-ci ordunun hərbi dəniz qoşunları rəisinin keçmiş köməkçisi, Sovet İttifaqı Qəhrəmanı A.F.Vəzirovun, 18-ci ordunun 9-cu qvardiya atıcı briqadasının keçmiş rota komandiri, Sovet İttifaqı Qəhrəmanı Z.M.Bünyadovun, 18-ci ordunun rabitə qovşağının keçmiş siyasi nəzarətçisi Q.Q.Bəhrəmovun, 18-ci ordunun 318-ci atıcı diviziyasının keçmiş tibb xidməti starşinası, Sovet İttifaqı Qəhrəmanı S.H.Abdullayevin, 8-ci qvardiya əlahiddə atıcı briqadasının xüsusi atıcı rotasının keçmiş istehkamçısı, Sovet İttifaqı Qəhrəmanı Ə.T.Piriyevin, 83-cü dəniz piyada atıcı briqadasının keçmiş bölmə komandiri M.Hüseynovun, 255-ci dəniz piyada briqadasının keçmiş döyüşçüsü H.Ə.Əliyevin, 16-cı əlahiddə atıcı briqadasının keçmiş avtomatçısı M.Muradovun, 83-cü dəniz piyada atıcı briqadasının keçmiş döyüşçüsü S.Ə.Sadıqzadənin və dəniz piyada atıcı briqadasının 16-cı batalyonunun keçmiş döyüşçüsü İ.Q.Abışevin avtomatçılar bölməsinin keçmiş komandiri M.R.Quliyevin, 5-ci qvardiya tank briqadasının keçmiş bölük atıcısı Həsənağa Sadıqovun, 255-ci dəniz piyada briqadası 14-cü batalyonunun sanitar taqımının keçmiş komandiri İ.S.Tağıyevin, 176-cı atıcı diviziyanın 46-cı atıcı alayının keçmiş starşinası M.Ə.Zeynalovun və 404-cü atıcı polkunda bölmə komandiri olmuş Ə.Ə.Məhərrəmovun, 490-cı top əleyhinə qırıcı topçu alayında baş serjant T.T.Abbasovun və başqalarının döyüş xidmətlərini unutmamışdır.[2]

Novorossiysk döyüşlərinin qəhrəmanları – 18-ci ordunun 351-ci atıcı diviziyası kəşfiyyatçılar taqımının komandiri Yusif Səfərov, 129-cu atıcı diviziyasının 404-cü atıcı alayının 1-ci batalyonunda rota aşpazı Hacıbaba Babayev, 176-cı atıcı diviziyası 404-cü atıcı alayında starşina Məmməd Zeynalov, 83-cü dəniz piyada briqadasının 305-ci atıcı batalyonunun döyüşçüsü Əliağa Cəfərov, 8-ci qvardiyaçı atıcı briqadasının kəşfiyyat bölüyünün kəşfiyyatçısı İbrahim Həsənov, 51-ci əlahiddə atıcı briqadasının siyasi şöbəsinin təlimatçısı Ağamehdi Babayev, 78-ci tankvuran atıcı batalyonunda bölük komandiri Nizami Xudiyev, 128-ci qvardiyaçı atıcı diviziyası 100-cü alayında avtomatçılar taqımının komandir köməkçisi Qədir Babayev, 83-cü dəniz piyada atıcı briqadasının 16-cı batalyonunda tibb xidməti rəisi Hüseyn Babayev, döyüşçülər İsrail Əmrahov, Hüseyn Əkbərov, Piri Məmmədov, Novruz Osmanov, Məhyəddin Abbasov, Musa İbrahimov, İsmayıl Səmədov, Əhməd Qədirov, Məmməd Sultanov, Məm-

[1] Kərimov, S.K. Kiçik torpaq uğrunda döyüşlərdə /S.K.Kərimov.– Bakı, 1982. – s.59-61.
[2] Yenə orada, – 100 s.

mədəli İbrahimov, İsfəndiyar Salmanov, Zahid İbrahimov, Nurəddin Səmədov, Məmməd Əhmədov, Tacəddin Əfəndiyev, Əsabəli Əsgərov, Soltan Əzizov, Ramazan Əliyev, Hüseyn Rəsulov və başqaları əsgəri rəşadət və mərdlik nümunələri göstərdiklərinə görə orden və medallarla təltif edildilər.[1]

Krım uğrunda döyüşlər

Krım əməliyyatı (1944) – IV Ukrayna cəbhəsi qoşunları (komandan F.İ.Tolbuxin) və Əlahiddə Sahil Ordusunun (A.İ.Yeryomenko), Qara dəniz donanması (F.S.Oktyabrski) və Azov Hərbi Donanmasının (S.G.Qorşkov) köməyi ilə Krımın alman-faşist işğalçılarından azad olunması üçün keçirdiyi əməliyyatdır (8 aprel –12 may). Aprelin 8-də hücuma keçən IV Ukrayna cəbhəsi qoşunları Armyanski tutdular, cənubdan düşmənin geri çəkilməli olan Perekop qruplaşmasının arxasına çıxdılar. Aprelin 11-nə keçən gecə Əlahiddə Sahil Ordusunun qoşunları aviasiyanın köməyi ilə hücuma keçdilər və Kerç şəhərini tutdular. Sovet qoşunları mayın 9-da Sevastopolu azad etdilər. Mayın 12-də Xersones burnunda düşmən qoşunlarının qalıqları təslim oldu. Krım əməliyyatı təqribən 200 minlik düşmən qruplaşmasının tamamilə darmadağın edilməsi ilə başa çatdı. Düşmən 140 min nəfərdən artıq itki verdi.[2]

Krımın azad edilməsində Azərbaycanda təşkil olunmuş 77-ci və 227-ci diviziyalar fərqləndilər. 1944-cü il mayın 7-də 77-ci diviziya Sapun dağının ələ keçirilməsində fəal iştirak etdi. Krım uğrunda vuruşmalarda Ə.Piriyev, Ş.Əliyev (Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür – M.Ə.), Ə.Qurbanov, M.Dadaşov, Ə.Ağamirov, M.Məmmədov və başqaları fərqləndilər.[3]

195-ci dağ minomyot alayının serjantı M.Y.Həsənov diviziya məntəqəsini qoruyaraq düşmənin 3 tankını tank əleyhinə silahla vurdu.

Azad edilmiş Krım ərazisinin Eltiken rayonunu döyüşçülər "Odlu torpaq" adlandırırdılar. Məhz 36 sutka ərzində "Odlu torpaq"da düşmənin üstün qüvvələri ilə fasiləsiz gərgin döyüşlər getdi, Eltikençilərin döyüşçüləri müharibə tarixinə qızıl səhifələr yazdılar. Onlardan 3 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Qəhrəmanlar sırasında 318-ci atıcı diviziyanın 1331-ci atıcı alayının atıcı bölüyünün komandiri, kapitan A.S.Miroşnik, minomyot taqımının komandiri, kiçik leytenant N.N.Topolnikov, atıcı taqımın komandiri, kiçik leytenant A.M.Kokorin, starşina P.V.Popravka, atıcı bölüyün sanitar təlimatçısı, tibb xidməti starşinası, həmyerlimiz Səməd

---

[1] Bax: Kərimov, S.K. Kiçik torpaq uğrunda döyüşlərdə / S.K.Kərimov.– Bakı, 1982. – s.63–87.

[2] Bax: Василйевски, А.М. Дело всей жизни. 2-е изд. / А.М.Василйевски.– Москва, 1975; Мадатов, Г.А. Азербайджан в Великой Отнчественной войне / Г.А. Мадатов.– Баку, 1975;

[3] ACE, V cild: İTALİYA-KUBA. Бакı, 1981. – s. 579.

Abdullayev,[1] atıcı V.M.Esebua, "BKP-33" zirehli katerin komandiri, qvardiya baş leytenantı K.İ.Vorobyov, 386-cı dəniz piyadası batalyonunun bölük komandiri, leytenant P.Q.Deykalo, 17 №-li motobatalyonun komandiri, 2-ci dərəcəli starşina A.A.Elizarov, 13 №-li motobatalyonun 2-ci dərəcəli starşinası A.D.Yemelyanenko və b. var idi.

Krım uğrunda döyüşlərdə serjant Abdul Rəsul oğlu Xəlilov, Bala Ağa oğlu Qasımov, bölük komandiri, yazıçı Əbülhəsən Ələkbərov, Kamal Məmmədov, siyasi rəhbər Əsgərov, komandir Səlimov, siyasi işçi Şirinov və b. mərdliklə vuruşdular. Bölmə rəhbəri, artilleriyaçı Nəcəf Səlimov 3 döyüş günündə düşmən 3 torpaq atəş nöqtəsini dağıtdı, 3 müşahidə məntəqəsi, 3 atəş nöqtəsi susduruldu, 2 minomyot batareyasını məhv etdi, 10 nəfər faşist əsgər və zabitini öldürdü.[2]

Krım uğrunda döyüşlərdə Z.Manafova yoldaşlarına tibbi yardım göstərdi.

Manafova Ziynət Qaffar qızı 1923-cü ildə Nuxada dünyaya gəlmişdir. 1938-ci ildə Nuxa Tibb Məktəbini bitirən Z.Manafova rayonun Aşağı Şabalud kəndində əmək fəaliyyətinə başlamış, müharibə başlayanda səfərbərliyə alınmışdır.

Z.Manafova

1941-1943-cü illərdə döyüş cəbhələrində olan Z.Manafova iki dəfə ağır yaralanmış, Kerç, Novorossiysk, Kislovodsk və Qazax hospitallarında müalicə olunmuşdu.

Tibb leytenantı Z.Manafova "Qafqazın müdafiəsinə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdu.

Müharibədən sonra Z.Manafova müxtəlif vəzifələrdə işləmiş, lakin sevdiyi tibb bacısı peşəsindən ayrılmamışdır. Beş övlad anası Ziynət xanım Şəkinin ictimai həyatında fəal iştirak etmiş, gənclərin hamisi olmuşdur.

Z.Manafova 2011-ci ildə dünyasını dəyişmişdir.

Körfəz yanında cəmləşməyə və meydanın ələ keçirilməsindəki qəhrəmanlığa və mətanətə görə 129 döyüşçüyə Sovet İttifaqı Qəhrəmanı adı verildi. 1973-cü il sentyabrın 14-də "Lenin" ordeni və "Qızıl Ulduz" medalı verilməklə Kerç şəhəri "Qəhrəman şəhər"lər siyahısına daxil edildi.

Krım faciəsinə oxşar hal Xarkov ətrafındakı döyüşlərdə də yaşandı. 1942-ci ilin Xarkov əməliyyatının müvəffəqiyyətsizliyini Stalin özü də etiraf etdi.

---

[1] Səməd Abdullayev haqqında monoqrafiyanın "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

[2] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941-1945 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.118.

1944-cü ilin hücum əməliyyatları

1943-cü il əməliyyatları işğal olunmuş ərazilərin tam azad edilməsi üçün şərait yaratdı. **Sağsahil Ukraynası** istiqamətində hücumlar 1943-cü ilin dekabrında Obruçdan Xersona qədər olan 1.400 km cəbhə boyu genişləndi. 1943/44-cü ilin qış kampaniyasında sovet ordusu əks zərbələr endirdi. Korsun-Şevçenko istiqamətində düşmənə zərbə vuruldu. Düşmənin Korsun-Şevçenko istiqamətində ləğv edilməsində 294-cü atıcı diviziyanın 565-ci xüsusi mina təmizləyən batalyon komandiri, kapitan D.F.Boqdanın komandirliyi altında diviziyanın irəliləməsinin mühəndis təminatını yaratdı. Smeli, Qorodiş, Zavodovku, Korsun, Stebel və digər yaşayış məntəqələri uğrunda döyüşlərin gedişində onlar düşmənin 5 minə yaxın tank əleyhinə minasını çıxararaq özlərinin 2,5 minə yaxın minasını yerləşdirdilər.

237-ci tank briqadasının tank ekipajı sürücü-mexaniki, starşina M.P.Kolesnikovun rəhbərliyi ilə düşmənin 3 tankını (onlardan 2-si "Pələng" idi), 4 tank əleyhinə topu, 30 atəş nöqtəsini və 100-ə yaxın hitlerçini məhv etdilər.

Tankçılar düşmənə güclü zərbə endirdilər. II Ukrayna cəbhəsinin komandanı, Sovet İttifaqı Marşalı İ.S.Konevin yazdığı kimi, "…tanklar yanmış işıqları ilə hərəkət edir…döyüşçülər avtomatla, karabinlərlə əlbəyaxa vuruşurdular…".

Korsun-Şevçenko döyüşündə göstərdiyi qəhrəmanlığa görə 73 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olundu. Onların arasında 181-ci tank briqadasının tank komandiri, kiçik leytenant S.P.Abramsev, 322-ci qvardiya qırıcı-tank əleyhinə ağır artilleriya alayının top komandiri, qvardiya baş serjantı Z.L.Asfəndiyarov, 1431-ci yüngül artilleriya alayının silah nişanlayıcısı, serjant P.X.Buxtulov və b. var idi.

1944-cü il martın 26-da 384-cü əlahiddə dəniz piyada batalyonunun 55 könüllüsü, 28-ci ordunun 2 rabitəçisi, 57-ci xüsusi mühəndis mina təmizləyən batalyonun 10 mina təmizləyən əlaqələndiricisi yerli balıqçı A.Andreyevlə 7 balıqçı qayığında Cənubi Buğu keçib limana çıxararaq elevatorun bir neçə binasını tutdu və düşməni mühasirəyə aldılar. Desantçılar arasında rus P.P.Artyomov, M.V.Kanavalov, E.M.Pavlov, ukrain Q.İ.Kovtun, belarus A.S.Lyutuy, azərbaycanlı A.A.Məmmədov, avar A.D.Əddülməcidov, tatar M.K.Həkimov, qırğız Əkrəm Xayrətdinov və b. vardı.

Desantçılar 2 sutka qəhrəmancasına vuruşdu, düşmənin 18 hücumu dəf edildi, 700 əsgər və zabit öldürüldü. Desantçıların əksəriyyəti qəhrəmanlıqla həlak olsalar da, hücumçu hissənin gəlişinə qədər dözdülər.

Azərbaycan övladları **Ukrayna torpaqlarının** faşistlərdən təmizlənməsində igidlik göstərdilər. Onlar Dneprin keçilməsində, Ukrayna düzlərində vuruşmalarda böyük hünər nümayiş etdirdilər. 3-cü Ukrayna cəbhəsində vuruşan azərbaycanlı döyüşçülərdən biri Dneprin keçilməsində mi-

silsiz igidlik göstərərək Sovet İttifaqı Qəhrəmanı adını almış Səlahəddin Kazımov idi.

Qorxmaz topçu bakılı serjant Ağa Sultanov döyüşlərdə dəfələrlə fərqləndi. Baş serjant Məmməd Əfəndiyev yaşayış məntəqələrinin faşistlərdən təmizlənməsində qoçaqlıq göstərdi. Düşmənin canlı qüvvəsi və texnikası sıradan çıxarıldı. 19 döyüşçü orden və medallarla təltif olundu.

Pulemyotçu İbrahim Sultanov, döyüşçü Məmməd Məmmədov cəsarətlə döyüşdülər. Təyyarəçi İbrahimov düşmənin 7 tankını, 2 avtomobilini məhv etdi. İkinci döyüşdə 3 alman tankı və 4 avtomobili sıradan çıxarıldı. Onun şücaəti "İgidliyə görə" medalı ilə qeyd olundu.

2 dəfə "Qızıl Ulduz" və "Qızıl Bayraq" ordenləri ilə təltif edilmiş kapitan Baxış Mehdiyevin, "Qızıl Ulduz" ordeni ilə təltif edilmiş Əliş Manafov və Əli Əliyevin adı iftixarla çəkilir.

223-cü atıcı diviziya Ukraynanın azad edilməsi döyüşlərində fəal iştirak etdi.[1] Sovet İttifaqı Qəhrəmanı Mikayıl Məmməd oğlu Ələkbərov Dnepr çayını ilk keçənlərdən oldu. O, qızğın vuruşma günlərində düşmənin şiddətli atəşi altında kəşfiyyata gedərək mühüm yaşayış məntəqələrinə və Dnepr çayının sağ sahilinə gedən bir çox hərbi əhəmiyyətli yolları öyrəndi. O, Bozodevka kəndini azad edərək 4 hitlerçini öldürdü və ikisini əsir götürdü. Qoşun hissələri Dneprin sağ sahilində yeri möhkəmləndirdikdən sonra Ələkbərov kəşfiyyatçı yoldaşları ilə irəli gedərək düşmənin 14 əks-kəşfiyyat hücumunu dəf etdi, özü 10 hitlerçini zərərsizləşdirdi.[2]

Dnepr ətrafı döyüşlərdə topçulardan Həsən Mirzəyev, Xanmirzə Hüseynov, İsfəndiyar Əliyev və b. əsil igidlik və ustalıq nümunəsi göstərdilər. Topçular düşmənin 18 taxta torpaq atəş nöqtəsini, 40 avtomobilini, 300-dən artıq əsgər və zabitini məhv etdilər. Topçu İsfəndiyar Əliyev, serjant Həsənalı Məmmədov, kəşfiyyat manqasının komandiri Çərkəz Qurbanov cəsarətlə vuruşdular. Çərkəzin dəstəsi 100-dək alman əsgər və zabitini məhv etdi, 35 nəfər əsir götürüldü. Sağsahil Ukraynası səmasında Sovet İttifaqı Qəhrəmanı, təyyarəçi Q.Reçkalov və S.D.Luqanski qəhrəmanlıqla döyüşdülər. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 1 iyul fərmanı ilə onlar ikinci "Qızıl Ulduz" medalı ilə təltif olundular. Sağsahil Ukraynası uğrunda döyüşlərin nəticələrinə görə Silahlı Qüvvələrin bütün növlərindən olan 724 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adı aldı.

Ümumilikdə, şimal-qərb istiqamətindəki döyüşlərdə iştirakına görə 486 döyüşçüyə Sovet İttifaqı Qəhrəmanı adı verildi ki, onların 8 nəfəri bu ada ikinci dəfə layiq görülürdü.

Ali Baş Komandan İ.V.Stalin 1944-cü il 1 may tarixli əmri ilə sovet döyüşçüləri qarşısına alman-faşistlər tərəfindən tutulmuş torpaqların azad

---

[1] "Kommunist" qəzeti, 1943, 31 oktyabr.

[2] Yenə orada, 7 noyabr.

edilməsi, Qara dənizdən Barens dənizinə qədər bütün xətt boyu Sovet İttifaqı sərhədlərinin bərpası vəzifəsini qoydu. Sovet qoşunları Belarusiya əməliyyatına (23 avqust – 29 avqust 1944-cü il) başladılar.

1944-cü ilin qış hücumu zamanı Sovet Silahlı qüvvələri SSRİ ərazisinin böyük hissəsini azad etdi, dövlət sərhədini 400 km məsafədə bərpa edərək Rumıniya ərazisinə daxil oldular. Sovet İttifaqının beynəlxalq aləmdə mövqeyi xeyli möhkəmləndi, işğal olunmuş ölkələrdə antifaşist hərəkatı genişləndi. Müttəfiqlərin köməyi olmadan yalnız Sovet ordusunun gücü ilə faşist Almaniyasının darmadağın ediləcəyini başa düşən ABŞ və İngiltərə hakim dairələri ikinci cəbhəni açmağa məcbur oldular.

Belarusiya əməliyyatının məqsədi düşmənin "Mərkəz" ordu qrupunu darmadağın edib Belarusiyanı azad etmək idi. Düşməni Belarusiyada darmadağın etmək üçün 1-ci Pribaltika cəbhəsi, 3-cü Belarusiya cəbhəsi, 2-ci Belarusiya cəbhəsi tərkibinə yenidən yaradılan 1-ci Polşa ordusu və Dnepr hərbi donanması da daxil olan 3-cü Belarusiya cəbhəsi qoşunları cəlb edildi. Dörd cəbhə 19 ümumqoşun və 2 tank ordusunu, o cümlədən 166 diviziya, 12 korpus, 21 briqada, cəmi 1,4 milyondan çox adam, 31 min top və minaatan, 5,2 min tank və özüyeriyən artilleriya qurğusunu birləşdirirdi. Bu cəbhənin qoşunlarına 5 mindən çox təyyarə, uzaqvuran aviasiya və HHM aviasiyası kömək edirdi.

Hərbi əməliyyatların xarakterinə və yerinə yetirilən tapşırığın məzmununa görə Belarusiya əməliyyatı 2 mərhələyə bölünür. 1-ci mərhələdə (23 iyun – 4 iyul) 4 əməliyyat keçirildi və Minsk qruplaşmasının mühasirəyə alınması başa çatdırıldı. İyulun 31-də Minsk azad edildi. Onun qərbində 4-cü və 9-cu alman ordularının birləşmələri mühasirəyə alındı.

Sovet qoşunları 12 gün ərzində Belarusiyanın böyük hissəsini azad etdilər. Alman faşistlərinin "Mərkəz" ordu qrupunun başlıca qüvvələri darmadağın olundu.

2-ci mərhələdə (5 iyul – 29 avqust) cəbhələr bir-biri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərən 5 müvəffəqiyyətli hücum əməliyyatı həyata keçirdilər. Sovet qoşunları Belarusiyanı bütövlükdə, Litva və Latviyanın isə bir hissəsini azad etdilər.

Sovet qoşunları azad olmuş Minskdə dəhşətli mənzərə ilə qarşılaşdılar. Almanlar mədəniyyət ocaqlarını, teatrları, ali məktəbləri və elmi-tədqiqat müəssisələrini, uşaq bağçasını, pionerlər sarayını, 2 doğum evini, bir çox səhiyyə və maarif ocaqlarını dağıdıb talan etmişdilər. Faşistlər V.İ.Lenin adına kitabxanadan 1 milyon 500 min qiymətli kitabı, Elmlər Akademiyası kitabxanasından 30 min kitabı Almaniyaya aparmışdılar. Minskdə 23 böyük müəssisə, 4 mehmanxana partladılmış və yandırılmış, su kəməri, çirkab lağımları, telefon-teleqraf şəbəkəsi yararsız hala salınmışdı.

Minskdə baş verən cinayətlərdə Hitler hökuməti və cinayətlərin təşkilatçıları və bilavasitə iştirakçıları: Minsk şəhər komendantı, general-ley-

tenant Şperliq, SD (məxfi səhra polisi) rəisləri Şlekel və Ştraux, SD rəisi müavini Kayzer, SS qoşunları rəisi Qotberq, Belarusiyanın baş komissarları Kube və Bekker və b. məsuldurlar.[1]

Azərbaycan oğulları Belarusiyanın azad edilməsi əməliyyatlarında igidlik göstərdilər. Q.Əkbərov və N Rəfiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Minsk şəhərinin azad edilməsində H.Aslanovun qvardiya tank briqadasının döyüş fəaliyyəti Ali Baş Komandanlıq əmrində qeyd edildi.[2]

Mogilyov şəhəri və Mogilyov vilayəti uğrunda döyüşlərdə 63 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Onların arasında 1-ci qvardiya hücumçu mühəndis-minatəmizləyən briqadanın komandiri, qvardiya polkovniki **azərbaycanlı A.F.Vəzirov**[3] və b. vardı.

Maya Bayramova həkim kimi cəbhəyə çağırılmışdı, I Ukrayna, sonra I və II Belarusiya cəbhəsində xidmət etdi. Tibb xidməti baş leytenantı rütbəsinədək yüksəldi. Cəbhə yolunu Polşanın Lyublin şəhərində tamamlayan M.Bayramova 1946-cı ilin yazınadək Berlində qaldı. Onun döyüş xidmətləri II dərəcəli "Vətən müharibəsi" ordeni, "Döyüş xidmətlərinə görə", "Varşavanın azad edilməsinə görə", "Berlinin alınmasına görə" medalları ilə qeyd edildi.

Baş çavuş Əmir Məmməd oğlu Əmirov 1942-ci ilin sentyabr ayına qədər Şəmkir rayon torpaq şöbəsində müfəttiş-mühasib işləmişdi. Müharibədə Şimali Qafqazın döyüşlərində iştirak etməyə başladı. Oryol uğrunda vuruşmalarda Əmirin mina təmizləyənləri ordunun hücumu üçün 200-dən artıq minanı zərərsizləşdirərək yolu açdılar.

Ə.Əmirov Belarusiya uğrunda gedən döyüşlərin iştirakçısı oldu. Desna, Soy, Dnepr və Prut çaylarının keçilməsində igidlik göstərdi. Bobruysk şəhəri uğrunda vuruşmalarda meşədə almanlarla döyüşə girən mina təmizləyənlər 30 nəfərədək alman əsgər və zabitini öldürərək, onların 60 nəfərini əsir tutdular. Ə.Əmirovla bərabər Şəmkirin Dəllər Cəyir kənd sakini Teymur Rüstəmov, Qazax rayonundan Qara Xəlilov, Lənkəran rayonundan Şahrza Səmədov da qəhrəmancasına döyüşdülər.[4]

Belarusiyanın azad edilməsində göstərdikləri qəhrəmanlığa görə **471 döyüşçüyə** Sovet İttifaqı Qəhrəmanı adı verildi. Qəhrəmanların 75 nəfəri əsgər və matros, 178 nəfəri çavuş və baş çavuş, 149 nəfəri kiçik zabit, 60 nəfəri böyük zabit idi. Qəhrəmanlar arasında 344 nəfər rus, 64 nəfər ukrain, 16 nəfər belarus vardı. 386 nəfər qəhrəmanın yaşı 30-dək idi. 1974-cü ildə

---

[1] "Kommunist" qəzeti, 1944, 23 sentyabr.

[2] ASE, II cild: БАЛЗАМ-ГАЈДАР. Bakı, 1978. – s.85-86.

[3] A.F.Vəzirov haqqında "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

[4] "Kommunist" qəzeti, 1944, 12 noyabr.

Belarusiyanın azad edilməsinin 30 illiyində Minsk şəhərinə "Lenin" ordeni və "Qızıl Ulduz" medalı təqdim edilməklə "Qəhrəman şəhər" adı verildi.

1944-cü ilin yay və payız döyüşləri nəticəsində işğal olunmuş sovet əraziləri azad edildi, hitlerçilər Polşa və Macarıstanın bir hissəsindən qovuldular, Yuqoslaviyanın şərq rayonları azad olundu, Çexoslovakiya və Avstriyada da müvəffəqiyyətli hərbi əməliyyatlar keçirildi.

1944-cü il martın 26-da Umansk-Botoşan əməliyyatı ilə II Ukrayna cəbhəsi qoşunları Prut çayına, SSRİ ilə Rumıniya dövlət sərhədinə çıxdılar. Moskva bu tarixi hadisəni 324 topdan açılan yaylım salam atəşi ilə qeyd etdi. Martın 27-də cəbhə qoşunları Prut çayını keçdilər və Rumıniyanın azad edilməsinə başlanıldı. Rumıniyanın azad edilməsində Yassı-Kişinyov əməliyyatının həlledici rolu oldu.

Yassı-Kişinyov əməliyyatı (1944) alman-faşist qruplaşmalarını darmadağın etmək məqsədilə Sovet qoşunlarının 1944-cü il avqustun 20-29-da keçirdiyi strateji əməliyyat olmuşdur. Sovet qoşunları II Ukrayna (R.Y.Malinovski) və 3-cü Ukrayna (F.İ.Tolbuxin) cəbhələri, Qara dəniz donanması (F.S.Oktyabrski) və Dunay hərbi donanmasından (S.G.Qorşkov) ibarət idi. Rumıniyanın mərkəzi rayonlarına gedən yolu "Cənubi Ukrayna" alman-faşist orduları (25 alman, 27 rumın diviziyası, 5 rumın piyada briqadası) qoruyurdu. Sovet qoşunları düşmənin müdafiəsini yardı, avqustun 24-də günün sonu üçün sovet tank birləşmələri düşmənin qruplaşmasının əsas qüvvələrinin (təqribən 72 diviziya) mühasirəyə alınmasını başa çatdırdı, avqustun 27-29-da Kişinyov rayonunda mühasirəyə alınmış qruplaşma ləğv edildi. Əməliyyat nəticəsində **Moldaviya SSR azad edildi**. Rumıniya və Bolqarıstanda faşistpərəst rejimlər devrildi, yeni hökumətlər Almaniyaya müharibə elan etdilər. Yuqoslaviyaya yardım edilməsi və Macarıstanda hərbi əməliyyatların genişləndirilməsi üçün imkan yarandı, Bolqarıstanda milli-azadlıq hərəkatı gücləndi.[1]

Sovet qoşunları qısa müddətdə düşmənin "Cənubi Ukrayna" ordu qrupunun 22 alman diviziyasını tamamilə darmadağın etdi. Rumıniya faşistlər tərəfindən müharibədən çıxdı və avqustun 24-də Almaniyaya müharibə elan etdi. Yassı-Kişinyov əməliyyatından sonra 2-ci və 3-cü Ukrayna Cəbhəsi qoşunları 1-ci və 4-cü Rumın Ordusu ilə döyüş əlaqəsi yaradaraq sentyabrda Rumıniya ərazisinin azad edilməsini başa çatdırdılar.

Yassı-Kişinyov əməliyyatında Azərbaycanda təşkil olunmuş 223-cü "Qırmızı Bayraq" ordenli atıcı diviziya iştirak etdi. Şəkili Əhəd Məmmədov Yassı-Kişinyov birləşmələrinin məhv edilməsində, Belqrad-Budapeşt uğrundakı vuruşmalarda igidlik göstərdi. Hərbi hissənin komandiri, general-mayor Çistyakov Şəki rayonunun Qoxmuq kənd sakini balaca Fikrətə göndərdiyi məktubda yazırdı: "Qorxmaz, cəsur, öz vətəninin sadiq oğlu döyüşçü Əhədin qardaşı Fikrətə,…sənə məlum edirik ki, sevimli…qardaşın

[1] ACE, V cild: İtaliya – Kuba. Bakı, 1981. – s. 91-92.

Stalinqraddan başlamış Budapeştə kimi şanlı döyüş yolu keçmişdir. O, vuruşa-vuruşa istəkli topu ilə düşmənin 11 tankını … məhv etmiş, 36 avtomobilini və başqa bir çox texnikasını, canlı qüvvəsini sıradan çıxarmışdır…”.[1]

Rumıniyanın sərhədində döyüşən Böyükkişi Həşimov ad-san qazanmışdı. Döyüşlər Qalan şəhəri uğrunda gedirdi. Almanlar və rumınlar burada möhkəm müdafiə xətti yaratmışdılar. Döyüşün qızğın çağında sovet iki hissəsi arasında telefon əlaqəsinin kəsilməsindən istifadə edən düşmən hissələri ayırmağa cəhd göstərir. Bu zaman B.Həşimov düşmənlə atışa-atışa telefon xəttini bərpa edir. Özü ağır yaralansa da, 18 alman əsgəri məhv edir. Qalan şəhərinin alınmasında Məmməd Hüseynov, Balakişi Əzizov və b. igidlik göstərdilər.[2]

Moldaviya uğrunda vuruşmalarda İskəndər Quliyev səhiyyə işçisi kimi həm yaralılara yardım etdi, həm də düşmənlə əlbəyaxa döyüşdə qəhrəmanlıq göstərdi. Döyüşlərin birində İskəndər 61 alman əsgər və zabitini məhv edib 19 yaralını əsir götürdü.

Mayor Mehdiyevin döyüşçüləri bir gündə əks-hücuma keçərək düşmənə böyük itki verdilər. Cəlal Həsənovun topçuları rəşadətlə vuruşdular. Minaatıcı Məcnun Əsədov, pulemyotçu Həsən Sadıqov, rabitəçi İltifat Mehbalıyev, serjant Əhmədağa İbrahimov və b. hökumət mükafatlarına təqdim olundu.[3]

Həlledici zərbə

Ağır müharibənin sonu görünməkdə idi. Bütün cəbhələrdə ağır məğlubiyyətə uğrayan Hitler Almaniyası qərb dövlətləri ilə separat danışıqlara cəhd göstərirdi. Sovet hökuməti isə düşməni öz yuvasında məhv etmək üçün yeni hücum əməliyyatları hazırlayırdı.

1945-ci il yanvar ayının 13-dən aprel ayının 25-dək çətin göl-bataqlıq ərazidə 2-ci və 3-cü Belarusiya və 1-ci Pribaltika cəbhəsi qoşunları Qırmızı Bayraqlı Baltik donanması ilə birgə **Şərqi Rumıniya əməliyyatı** keçirdi. Əməliyyat nəticəsində düşmənin Şərqi Prussiya və Polşanın şimal hissəsindəki qruplaşmaları darmadağın edildi.

Şərqi Prussiya əməliyyatı gedişində 3-cü Belarusiya cəbhəsi qoşunları komandanı, ordu generalı İ.D.Çernyaxovski şəxsi qəhrəmanlıq, yenilməzlik və cəsarətlilik nümunəsi göstərdi. 1941-ci ildən sərhəddə 28-ci tank diviziyasının komandanı kimi ilk döyüşünü qəbul edən general uzun döyüş yolu keçərək ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Fevralın 18-də Melzak rayonunda döyüşdə İ.D.Çernyaxovski ölümcül yaralandı.

---

[1] “Nuxa fəhləsi” qəzeti, 1945, 16 mart.
[2] “Kommunist” qəzeti, 1944, 28 noyabr.
[3] Yenə orada.

Şərqi Prussiyada döyüşən azərbaycanlı əsgər Əliqulu Əmirov özünün qorxmazlığı, əsgəri dəyanəti və işinin ustası olması ilə döyüş dostlarının rəğbətini qazandı. 1939-cu ildən orduda xidmət edən Ə.Əmirov döyüş yoldaşı Ələsgər Qasımovla I və II Belarusiya cəbhəsində döyüşdü. 4 il döyüş meydanlarında olan Əliqulu Əmirov "Qırmızı bayraq", I və II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, "Hərbi xidmətə görə", "Stalinqradın müdafiəsinə görə" medalları ilə, döyüş yoldaşı Ələsgər Qasımov III dərəcəli "Zəfər" ordeni, "Qafqazın müdafiəsi uğrunda" medalı ilə təltif olundular.[1]

Şərqi Prussiya əməliyyatının 18 iştirakçısı ikinci "Qırmızı Ulduz"la təltif edildi.

Döyüşlərdə fərqlənən **200 döyüşçü** Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Berlin əməliyyatında

Almaniya hərbi qüvvələri 1945-ci ili böyük təşvişlə qarşıladı. Sovet komandanlığı 1945-ci ildə bütün cəbhələrdə hücuma keçməyi, düşmənin Oder-Neyse sahillərində müdafiəsini yarmağı (16 -19 aprel), Berlin qruplaşmasını mühasirəyə almaq və parçalamaq (19-25 aprel), nəhayət, mühasirəyə alınmış düşmən qruplaşmasını məhv edərək Berlini tutmaqla (26 aprel – 8 may), Almaniyaya qarşı döyüşləri başa çatdırmağı planlaşdırdı.

Birinci mərhələdə həyata keçiriləcək əməliyyatlar 15 gün üçün nəzərdə tutulmuşdu. Bu müddətdə düşməni Şərqi Prussiya, Polşa, Çexoslovakiya, Macarıstan və Avstriyada darmadağın etmək, Poznan və Vyana sahillərini ələ keçirmək, sonrakı 30 gündə isə Berlini və Praqanı alaraq qərb müttəfiqləri ilə birləşmək və nəhayət, Almaniyanın darmadağın edilməsini başa çatdırmaq planlaşdırılmışdı.

Berlinin alınmasına hazırlıq ərəfəsində sovet qoşunlarının 7 cəbhəsinə marşallar və 4 ordu generalı rəhbərlik edirdi. Alman qoşunlarının yalnız Qərbdə bir feldmarşalı qalmışdı. A.Hitlerə qəsdə iştirakında günahlandırılanlar – Rommel və Klüqe intihar etmişdilər. İlin əvvəlinə ancaq Rundştedt və Model qalmışdılar.

Müharibənin bütün mərhələlərində, o cümlədən son əməliyyatlarda Hərbi Dəniz Donanması da iştirak etdi. Dənizdə, göllərdə və çay hövzələrində fəaliyyət göstərən sovet HDD qüvvələri düşmənin 600-dən çox döyüş və köməkçi gəmilərini, təxminən o qədər sayda da nəqliyyat və yük gəmilərini məhv etdi. Sovet HDD 132 böyük gəmi və sualtı qayıq, 750-yə yaxın digər gəmilər və katerlər, 6,5 minə yaxın təyyarə və şəxsi heyətdən 155 min nəfər itirdi.

[1] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq №9, s.124-125.

Mart ayında Berlinə hücumu davam etdirmək üçün şərait yarandı. Artıq sovet qoşunları Berlinin 60 km-də, Qərb müttəfiqləri isə əvvəlki kimi 500 km-də dayanmışdılar. Sovet qoşunları Berlin istiqamətində aprelin 16-da hücuma keçdi. Səhər 5-də cəbhədə I Belarusiya cəbhəsi 3-cü zərbə ordusunun 8-ci qvardiya qoşunları güclü artilleriya hazırlığına başladı. Düşmənin müdafiəsinin yarılmasında 16-cı hava ordusu yerüstü qoşunlara fəal kömək etdi. İki dəfə Sovet İttifaqı Qəhrəmanı, mayor İ.M.Kojedub Berlin altında döyüşlərdə öz hesabında olan vurulmuş düşmən təyyarələrinin sayını 62-yə qaldırdı. İ.M.Kojedub və A.İ.Pokrışkinin üçüncü dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Aprelin 22-də A.Hitler özünün sonuncu müşavirəsini keçirdi. Aprelin 28-də gecə Berlindəki alman qoşunlarının komandanı general Q.Beydlinq Hitlerə döyüş sursatının qurtarması və müqavimətin əhəmiyyətsiz olması barədə məruzə etdi. Berlində son döyüşün mərkəzi Rexstaq oldu. Aprelin 30-da 3 dəfə Reyxstaqa hücum edildi. Mayın 1-də axşam 301-ci diviziyanın alayları 148-ci və 230-cu diviziyalarla qarşılıqlı əlaqədə faşist reyxi başçılarının son sığınacağı olan baş komandanlıq qərargahını – İmperiya Dəftərxanasının binasını və bunkerini ələ keçirmək uğrunda döyüşə başladılar. 9-cu atıcı korpusun siyasi şöbəsinin təlimatçısı mayor Anna Vladimirovna Nikulina qələbə bayrağını İmperiya Dəftərxanasının binasına sancdı. İmperiya Dəftərxanası ələ keçirilərkən döyüşçülər bunkerin yanında müharibənin ideoloji rəhbəri Göbbelsin və onun həyat yoldaşı Maqdanın yarıyanmış meyitini tapdılar. Sonralar məlum oldu ki, Köbbels və onun arvadı əvvəlcə uşaqlarının altısını da zəhərləmiş, sonra özlərini öldürmüşlər.

Reyxstaqı alan diviziyanın serjantları **M.A.Yeqorov və M.V Kantariya** bayrağı Rexstaqa sancdılar.



Sovet bayrağı Reyxstaq üzərində. 1945-ci il 1 may

Yeqorov Mixail Alekseyeviç 1923-cü il mayın 5-də Rusiya Federasiyasının Smolensk vilayətinin Rudyanski rayonunun Yermoşenki kəndində kəndli ailəsində doğulmuşdur. Milliyyətcə rusdur. İbtidai təhsil almış, kolxozda işləmişdir. Smolensk almanfaşist qoşunları tərəfindən işğal olunan zaman partizan dəstəsinə daxil olmuşdur. 1944-cü ilin dekabrından döyüşən orduda olmuşdur. I Belarusiya cəbhəsi 3-cü zərbə ordusunun 150-ci atıcı diviziyasının 756-cı atıcı alayında kəşfiyyatçı kimi fəaliyyət göstərmişdir.

Yeqorov Mixail Alekseyeviç

Sovet İnformasiya Bürosunun məlumatına görə M.A.Yeqorov leytenant A.P.Berest və kiçik leytenant Meliton Katariya ilə Berlin uğrunda döyüşlər zamanı Qələbə bayrağını Reyxstaqın damına sancmışdır. Göstərdiyi qəhrəmanlığa görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 8 may 1945-ci il tarixli fərmanı ilə ona "Lenin" ordeni və "Qızıl Ulduz" medalı (№6972) verilməklə Sovet İttifaqı Qəhrəmanı rütbəsi ilə təltif olunmuşdur.

M.A.Yeqorov 1947-ci ildə ordudan tərxis olunmuşdur. O, Smolenskdə sovet partiya məktəbini bitirmiş, Rudyanski süd konserv kombinatında işləmişdir. 1975-ci il iyun ayının 20-də avtomobil qəzasında həlak olmuşdur. "Lenin", "Qırmızı Bayraq", I və II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz", "Şöhrət" ordenləri, Almaniya Demokratik Respublikasının I dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" ordeni, "Qızıl Ulduz" (№6972), "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" və s. medallarla təltif olunmuşdur.[1]

Kantariya Meliton Varlamoviç

Kantariya Meliton Varlamoviç (1920-1993) Abxaziya MSSR-nin Cavari kəndində (indi şəhər) kolxozçu ailəsində anadan olmuşdur. Milliyyətcə gürcüdür. 1938-ci ildə ordu sıralarına çağırılanadək kolxozda işləmiş, 1941-ci ilin dekabrından döyüşlərdə iştirak etmişdir. I Belarusiya cəbhəsi 3-cü zərbə ordusunun 150-ci atıcı diviziyasının 756-cı atıcı alayında kəşfiyyatçı kimi Litvada, Staroy Rus altında, Kursk qövsündə, Belarusiyada faşistlərlə döyüşdə, Varşavanın azad olunmasında iştirak etmiş, Şərqi Prussiyada döyüşmüşdür.

M.V.Kantariya 1946-cı ildə ordudan tərxis olunmuş, xırda ticarətlə məşğul olmuşdur. Sonra Abxaziya MSSR-in Suxumi şəhərində yaşamış, mağaza müdiri işləmişdir. O, 1947-ci ildə ÜİK(b)P sıralarına daxil olmuş, Abxaziya MSSR Ali Sovetinin deputatı seçilmişdir.

[1] http://ru.wikipedia.org/wiki

“Lenin”, “Qırmızı Bayraq”, I dərəcəli “Vətən müharibəsi” ordenləri və medallarla təltif olunmuşdur.[1]

Gürcü-abxaz münaqişəsinin başlanması səbəbli 1993-cü ilin sentyabrında öz evini tərk edən M.V.Kantariya əvvəlcə Tbilisiyə, sonra isə Moskvaya gəlmiş və həmin ildə vəfat etmişdir.

M.V.Kantariya Tsalenqicix rayonunun Cavari kəndində dəfn olunmuşdur.

Reyxstaq binasına bayrağı kimin birinci sancdığı bu günədək mübahisəlidir. SİTA-nın müxbiri Yevgeni Xaldeyin məşhur 2 may 1945-ci il tarixli “Qələbə bayrağı Reyxtaqda” fotoşəkilində bayrağın sancılmasında dağıstanlı **Abdulkərim İsmayılov,** kiyevli **Aleksey Kovalyov və Minskdən olan Aleksey Qoriçekin** də iştirak etdiyi göstərilir.

Bir çoxları kimi M.A.Eqorov və M.V.Kantariya Sovet İttifaqı Qəhrəmanı adına layiq görülsələr də, I Belarusiya cəbhəsi komandanlığının həmin vaxt təqdimatı təsdiqlənməməsi səbəbi, onlar 1945-ci ildə təltifi ala bilmədilər. Qəhrəmanlar Qələbənin birinci ildönümündə – 1946-cı ildə təltif olundular.

Maraqlıdır ki, Qələbə bayrağını Berlində Reyxstaq üzərinə sancmış SSRİ Silahlı Qüvvələrinin zabit və serjantlarına Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanında M.Yeqorov və M.Kantariyadan əlavə daha 3 nəfərin də adı vardır.

“**Qələbə bayrağını Berlində Reyxstaq üzərinə sancmış SSRİ Silahlı Qüvvələrinin zabit və serjantlarına Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında**” SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanında deyilir: Aşağıdakılara “Lenin” ordeni və “Qızıl Ulduz” medalı verilməklə Sovet İttifaqı Qəhərmanı adı verilsin:

1. Kapitan Vasili İnnokentyeviç Davudova
2. Serjant Mixail Alekseyeviç Yeqorova
3. Kiçik serjant Meliton Varlamoviç Kantariyaya
4. Kapitan Stefan Andreyeviç Nestoryevə
5. Baş leytenant Konstantin Yakovleviç Samsonova

SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernik
SSRİ Ali Soveti Rəyasət Heyətinin katibi A.Qorkin

Moskva, Kreml, 8 may 1946-cı il[2]

Göründüyü kimi, müharibənin qurtarmasından 75 ildən artıq vaxt keçməsinə baxmayaraq, Reyxstağa bayrağın kimin birinci sancması mübahisəli olaraq qalır. Çox təəssüflər olsun ki, yazılan tarixdə həqiqətdən

[1] http://ru.wikipedia.
[2] “Azərbaycan gəncləri” qəzeti, 1946, 9 may.

kənar, yalana söykənən faktlar da var. Bu yalanlar uzun illərdir ki, həqiqət kimi tarixə salınıb, çünki, bu yalan həqiqət kimi həmin fövqəl qüvvələrə lazım idi. İnsanlıq tarixinə sırınan həmin saxtakarlıqların bir qismi elə həqiqət kimi də ömürlük statusu almış, bir qismi isə müəyyən müddətdən sonra təkzibedilməz faktlar və şahidlərin ifadələri ilə ifşa olunmuşdur.

Reyxstağın alınmasında iştirak edən azərbaycanlı müharibə veteranları bildirirlər ki, Reyxstağa daxil olanlar içərisində kapitan Mirzə Hüseynov, onun müavini Şahbaz Hüseynov və onların başçılıq etdikləri kəşfiyyat qrupu da vardı. Məsələnin maraqlı tərəfi odur ki, Mirzə Hüseynov Reyxstağın günbəzinə Qələbə bayrağını sancdıqdan sonra binaya daxil olan polkovnik bunu görür və onu tapança ilə vurub öldürərək yerə salır. Bunu görən Şahbaz Hüseynov bu haqsızlığa dözməyərək belindəki qumbaranı polkovnikin ayaqları altına atır və qumbaranın partlaması nəticəsində o həlak olur. Şahbaz Hüseynov komandiri M.Hüseynovu yaxınlıqda dəfn etdikdən sonra həbs olunur və Hərbi Tribunalın qərarı ilə ömürlük azadlıqdan məhrum edilir. Yalnız 50-ci illərin ikinci yarısında Şahbaz Hüseynov Azərbaycan SSR DTK-nin şöbə müdiri H.Ə.Əliyevin təqdimatına əsasən həbsdən azad olunur və doğulduğu Yardımlı rayonuna qayıdır. Bu tarixi hadisələr Ş.Hüseynov haqqında çəkilmiş "Demona gedən yol" adlı sənədli filmdə öz əksini tapmışdır. "**Vedibasar**" **qəzetinin baş redaktoru Sərtib Məhərrəmovun 1945-ci il mayın 6-da Reyxstağa qələbə bayrağını sancan azərbaycanlı zabit kapitan Mirzə Hüseynovun faciəli ölümü ilə bağlı hadisənin şahidi, Mirzə Hüseynovun müavini olmuş Şahbaz Hüseynovla görüşündən hazırladığı yazıda bildirilir:** Bu yazımızda həmin hadisələrin bəlkə də yeganə şahidinin dedikləri ilə bu günədək bəşəriyyətə, tarixə sırınan bir saxtakarlıqdan, tarixi cinayətdən söhbət açacağıq.

Alman faşizminin məğlubiyyəti ilə başa çatan II Dünya müharibəsinin sonuncu günü Reyxstaq üzərinə qələbə bayrağının rus **Yeqorovla** gürcü **Kantariya** tərəfindən sancılmasını hamımız yalnız bədii filmlərdə görmüşük. Müharibə tarixini yazan keçmiş Sovet alimləri də şübhəsiz ki, hadisəni belə də yazaraq tarixə çeviriblər. Sənədli xronikada isə Yeqorovla Kantariyanın bayrağı Reyxstağa yalnız bərkitmələri görünür. Bəs bu bayrağı Reyxstağın günbəzinədək kim gətirib, Yeqorovla Kantariyadan əvvəl qələbə bayrağını Reyxstağa kim sancıb, onun başına hansı hadisə gəlib? Bütün bu suallara cavab tapmaq üçün həmin hadisələrin yeganə şahidinin yaşadığı Yardımlı rayonunun Çayüzü kəndinə getdik.

Ş.Hüseynov

Yaxın dostum və qohumum Elman Məmmədov bu yaxınlarda zəng edib mənə dedi ki, Yardımlı ra-

yonunda **Şahbaz Hüseynov** adında 86 yaşlı müharibə veteranı yaşayır. "Vedibasar"ın nəşr olunmasından xəbərdardır və sənlə görüşüb nə isə demək istəyir. Onunla görüşsən yaxşıdır. Eşidəcəyin xəbərlər həm "Vedibasar" üçün, həm də bütün oxucular üçün çox qiymətlidir. Həmişə qəzetimizə doğma münasibət göstərən Tofiq Mir Yaqub oğlu və Sədaqət Abbas oğlu ilə Yardımlıya getdik. Rayon mərkəzində bir mağazanın qarşısında söhbət edənlərin yanında dayandıq. Salamlaşandan sonra Çayüzü kəndinə necə gedəcəyimizi soruşduq. Ucaboy, ortayaşlı bir kişi: – elə mən də həmin kəndə gedirəm, gedək göstərim, – dedi. Sonra bildik ki, adı Yaşılxandır. Çayüzü kəndi çox xoşumuza gəldi. Təmiz havası, müxtəlif meyvə ağacları, yaşıllıqlar göz oxşayırdı. Suyu tamam azalmış kiçik çayı keçib bir həyətin qarşısında dayandıq. Yaşılxan qardaşımız: – Şahbaz müəllim, qonaqların var, – deyə çağırdı. Heç bir dəqiqə keçməmiş hündürboylu, qıvraq bir ağsaqqalın bizə tərəf gəldiyini gördük. Baxışlarından nur süzülən nurani ixtiyar gənclik şövqü ilə bizə xoşgəldin elədi, əl verib görüşdü: – Qonaqlarım xoş gəlib, dedi. Şahbaz müəllim ayrı-ayrılıqda üçümüzə də diqqət yetirdi. İlk dəfə gördüyündən tanımadı. Evə dəvət elədi. Həmişə həssas və diqqətli olan Tofiq müəllim onun sual dolu baxışlarından hər şeyi oxuduğundan qolundan tutan ağsaqqalı intizarda qoymaq istəmədi və dedi:

– Biz Vediliyik.

...

–Deməli, siz **mənim komandirim Mirzə Hüseynovun** yerlilərisiz? Ay sizi Allah pənahında saxlasın. Bir daha xoş gəlibsiz.

Bir azdan səliqəli süfrə arxasında samovar çayı içə-içə gəlişimizin məqsədini Şahbaz müəllimə dedik. Söhbətimiz həm şirin, həm kövrək, duyğusal, həm də yaddaqalan oldu. Diktafonun düyməsini sıxdım. Sıxdım ki, Şahbaz müəllimin səsini tarixə çevirsin. –

Şahbaz Hüseynovla edilən söhbət:

– Hörmətli Şahbaz müəllimi xoş gördük.

– Yardımlıya xoş gəlibsiniz. Sizi gördüyümə çox şadam.

– Döyüş yolunuz haradan və necə başlayıb?

– 1942-ci il iyul ayının 10-da II Dünya müharibəsinə getmişəm. Almanlarla ilk döyüşə Qafqazın müdafiəsində qatılmışam. Quluxovıy aşırımında gedən döyüşlərdə yaralanmışam. Müalicə olunduqdan sonra ikinci dəfə ön cəbhəyə getmişəm. Krasnodon şəhərinin müdafiəsi zamanı ikinci dəfə yaralanmışam.

– Haqqında danışmaq istədiyiniz komandirinizi nə vaxtdan tanıdınız?

– Müalicə olunduqdan sonra, 1943-cü il sentyabr ayının 29-da Dnepr sahillərində 2-ci Belarusiya cəbhəsi, 38-ci ordunun (komandir general-polkovnik Çibisov), 40-cı korpusunun (komandir general-leytenant Moskalenko), əlahiddə avtomat-qırıcı batalyonuna (komandir mayor Qrişşenko) göndərilmişəm.

Məni həmin batalyonun tərkibindəki kəşfiyyatçılar taqımına verdilər. Komandirimiz əslən Qərbi Azərbaycanın Vedi rayonundan leytenant Mirzə Hüseynov idi. Məni onun köməkçisi təyin etdilər.

– Hansı döyüş yollarını bərabər keçdiniz?

– Əvvəlcə Kiyev şəhərinin azad olunması uğrunda döyüşdük. **Mirzə Hüseynov "Qızıl Bayraq", mən isə "Qırmızı Ulduz" ordeni ilə təltif olunduq.**

– Berlin şəhərinin alınması uğrunda gedən döyüşlərdən ətraflı danışmağınızı xahiş edirik.

– Müharibənin sonlarında almanlar güclü müqavimət göstərirdilər. Onlar heç cür təslim olmaq istəmirdilər. Berlin yaxınlığında bir Zeyer təpəliyi var. Sovet qoşunları həmin təpəlik uğrunda gedən döyüşlərdə 300 min əsgər itirdi. Bizdən əvvəl həmin döyüşlərdə demək olar ki, 4 ordu məhv olmuşdu. Növbə bizim ordunun idi.

Leytenant Mirzə Hüseynovun rəhbərlik etdiyi taqımın kəşfiyyat taqımı olduğunu əvvəldə dedim. Hücumdan qabaq lazımi işləri görmüşdük. Düşmənin müdafiə mövqeyi haqqında hərbi məlumatları toplamış, komandanlığa vermişdik. Berlin üzərinə həlledici hücum zamanı elə öndə gedən də Mirzə Hüseynovun taqımı idi. Böyük itkilər hesabına olsa da, Berlin şəhərinə ilk dəfə daxil olan 40-cı korpusun əlahiddə avtomat qırıcı batalyonunun kəşfiyyatçılar taqımı oldu. Təsdiqləyirəm ki, Berlinə ilk daxil olan da leytenant Mirzə Hüseynov oldu. Qalan əsgəri hissələr bizdən sonra şəhərə daxil oldular. Reyxstağın böyründə bizə bir neçə yanmış cəsəd göstərib dedilər ki, bəs, Hitlerdir, ətrafı ilə bərabər özlərini yandırıblar.

– Şahbaz müəllim, bizə demək istədiyiniz əsas hadisə nədir?

– Çox sevinirəm ki, yetmiş ildə ürəyimdə saxladığımı komandirimin ata yurdunun adını yaşadan qəzetə danışacam.

O, asta-asta dilləndi:

...

– 1945-ci il mayın 1-də Sovet qoşunları Berlin şəhərini tutdular. Şəhərə birinci daxil olanlar isə komandirim, kapitan Mirzə Hüseynovun rəhbərlik etdiyi kəşfiyyat batalyonu oldu. Hamı qələbə sevincini yaşayırdı. Komandirim dağıdılmış 3 mərtəbəli Reyxstağın divarlarını qartal kimi qalxıb, zirvədə durdu. Özü ilə götürdüyü Sovet bayrağını Reyxstağın zirvəsinə sancdı, bağladı. Qollarını göyə qaldırıb: – "Pobeda za nami" dedi. Hamı onu alqışladı. Elə bu vaxt məndən bir qədər aralıda duran polkovnikin komandirimə atəş açdığını gördüm. Mirzə Hüseynov əvvəlcə günbəzin üstünə, oradan da sürüşüb yerə yıxıldı. Hamı bir anlığa özünü itirdi. Yardımlı rayonundan olan Damət Verdiyev adlı əsgər silahdaşımla özümüzü komandirimizə çatdırdıq. Sovet zabiti onu alnından vurmuşdu. Müharibədə olduğu 3 il ərzində bircə sıyrıq belə almayan Mirzə Hüseynov 26 yaşında xain şovinizmin qurbanı olmuşdu. Bu xəyanətə dözə bilmədim. Qumbaranı

açıb polkovnikin ayaqları altına ataraq, onu partlatdım. Sonra silahdaşımla komandirimizi hadisə yerindən 150-200 metr uzaqlıqda bir söyüd ağacının altında dəfn etdik, dua oxuduq.

Bir saatdan sonra kinooperator gətirib, Yeqorovla Kantariyanı Reyxstağın zirvəsinə qaldırıb, bayrağı sancdırdılar, lentə aldılar. Hər şey aydın oldu:

– Qələbə bayrağını, müsəlman övladı yox, xristian olan rusla gürcü sancmalıymış. Stalinin göstərişinə əsasən. Həmin gün axşam məni sovet zabitini öldürdüyüm üçün həbs etdilər. Məhkəmədə mənə ömürlük həbs cəza verdilər, soyuq Sibirin ünyetməz bir guşəsində olan həbsxanaya göndərdilər. 23 yaşında idim. On bir il həbsdə yatdım. Bir gün həbsxana nəzarətçisi kamera nəfəsliyini açıb dedi ki, hazırlaş, Bakıya gedirsən. Elə bildim məni ələ salır. Lakin elə deyilmiş. Həqiqətən də, səhərisi məni Bakıya etap etdilər.

Sərtib müəllim: 1956-cı ildə Sov.İKP-nın XX qurultayında iştirak edən Polmiro Tolyatti və Broz Tito çıxışları zamanı Mehdi Hüseynzadənin və digər bir neçə azərbaycanlının müharibə zamanı satqın olmadıqlarını, faşistlərə qarşı qəhrəmanlıqla vuruşduqlarını deyir, onlara qarşı mövqelərin dəyişəcəyinə inandıqlarını söyləyirlər. Həqiqətən də, Moskvadan Azərbaycan SSR rəhbərliyinə, xüsusi idarələrinə tapşırıqlar verilir ki, bu məsələni obyektiv araşdırsınlar. Həmin siyahıda məhz qələbə günü sovet zabitini qətlə yetirən Şahbaz Hüseynovun da adı olur. Bakının tələbi ilə Şahbaz müəllim geri çağırılır.

Şahbaz müəllim: – Bakıda məni o vaxt hələ tanımadığım bir idarəyə, binaya gətirdilər. Səhərisi ucaboy, qartal baxışlı bir şəxsin kabinetinə apardılar. O, olduqca rəhmli, təmkinli, inandırıcı səsi ilə hadisənin necə olduğunu soruşdu. Mən də hadisəni olduğu kimi danışdım. Mən danışdıqca gözlərimin içinə baxan həmin şəxs bir anlığa danışmadı. Sonra isə mənə yaxınlaşıb, asta səslə dedi:

– Qeyrətli oğlansan!

Bir həftədən sonra məni azadlığa buraxdılar. Öyrəndim ki, mənə azadlığı bəxş edən həmin şəxs həmin illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin şöbə müdiri işləyən Ulu Öndərimiz Heydər Əliyev imiş. Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçiləndən bir-iki il sonra respublikanın cənub rayonlarına səfəri zamanı bizim Yardımlı rayonuna da gəldi. Rayon fəalları ilə görüşü zamanı biz müharibə veteranları ilə də görüşdü. Görüş zamanı Ulu öndər hər bir veteranla bir-bir görüşdü. Sıra mənə çatanda görüşdü, amma əlimi buraxdı, məni azacıq özünə tərəf çəkib, təbəssümlə dedi:

– Daha qumbara partlatmırsan?

Təqribən 15 il keçməsinə baxmayaraq, bu dahi insan məni tanıdı. Heydər Əliyevin güclü, iti hafizəsi məni heyran etdi. ...Biz hamımız bu həqiqət üçün Heydər Əlirza oğlu Əliyevə borcluyuq.[1]

Berlin əməliyyatında iştirakına görə **559 nəfər** döyüşçü Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Qəhrəmanların 43 nəfəri ordu və donanmanı təmsil edirdi. Qəhrəmanların 115 nəfər serjant və starşina, 210 nəfəri kiçik zabit idi. Yüksək rütbə alanların 304 nəfərinin yaşı 30-dək olmuşdu.

Yuxarıda qeyd olunan müsahibədə Şahbaz Hüseynov bunkerin yaxınlığında Hitlerin meyitinin aşkar olunduğunu bildirmişdi. 5-ci zərbə ordusu İmperiya Dəftərxanasını ələ keçirdikdən sonra mayor Şapalovun batalyonunun döyüşçüləri də aviasiya bombasının yaratdığı xəndəyin içərisindən **Adolf Hitlerin və arvadı Yeva Braunun** yarıyanmış meyitlərini tapmışdılar. Meyitlər xəndəyə atılmış, üstlərinə azacıq torpaq tökülmüş və heç kim yaxınlaşmasın deyə barıtı çıxarılmış faustpatron qoymuşlar. Podpolkovnik Klimenkonun döyüşçüləri meyitlərin kimə məxsus olduğunu başa düşdüklərindən onları ekspertizaya göndərmişlər. Məlum olmuşdur ki, meyitlər zəhərlənməkdən ölmüş A.Hitlerin və arvadı Yeva Braunundur. **Zəhər içməzdən əvvəl Hitler özünün siyasi və şəxsi vəsiyyətnamələrini yazmış, alman xalqından gizli 13 il birgə yaşadığı Yeva Braunla nikah bağlamaq kimi bir komediya oynamışdı. Bombaların partlayışları ilə müşayiət olunan "toy mərasimindən" sonra "yeni evlənənlər" öz otaqlarına keçmiş və intihar etmişlər. Faşistlər isə radio ilə xəbər yaymışlar ki, Hitler Berlin uğrunda döyüşlərdə həlak olmuşdur.**

Qələbədən 75 il keçsə də Adolf Hitlerin ölümü ilə bağlı mülahizələr bu gün də davam edir. Odur ki, dövrün sənədlərindən nümunələr gətirməklə Hitlerin intiharı haqqında ən yaxın adamlarının gündəliklərindəki sətirlərə nəzər yetirək.

Feldmarşal Vilhelm Keytel Almaniyanın danışıqsız təslim olması haqqında Aktı imzaladıqdan sonra onun haqqında olan qərarın icrasını gözləyərək xatirələrini yazır.[2]

Xatirələrdən sətirlər:

22 aprel. "Biz Yodlla (Yodl təslim Aktını imzalamış və asılmışdır) Bunkerə məruzə üçün fürerin yanına gəldik. Mən fürerdən danışmaq istədiyimizi bildirdim… Hər dəfə olduğu kimi o, mənə iki söz deməyə imkan vermədi və təxminən aşağıdakıları dedi:

…Bilirəm, nə haqqında mənimlə danışmaq istəyirsiniz. Qərarı müəyyənləşdirmək lazımdır. Qərar artıq qəbul olunmuşdur! Mən Berlində qalıram və sonadək şəhəri müdafiə edirəm".

---

[1] Bax: Sərtib İslamoğlu. Reyxstaqa qələbə bayrağını kim sancıb? Yeqorovla gürcü Kantariya, yoxsa...vedili Mirzə Hüseynov? // "Vedibasar" qəzeti, 2010, 1-15 oktyabr, №20.

[2] Бах: Кейтель, В. 12 ступенек на эшафот…/ В Кейтель. – Ростов, 2000.

Mən etiraz etməyə başladım, dedim bu ağılsızlıqdır, ölkəyə və orduya rəhbərlik üçün yaxın gecədə Berlini tərk etmək lazımdır.

Hitler etiraz etdi.

24 aprel. Gerinq bütün vəzifələrdən çıxarıldı, mükafatlarından və fürerin varisi olmaqdan məhrum edildi.

…Hitler özündə deyildi və SS mühafizə rotasından Gerinqin həbs edilməsini və yerində güllələnməsini əmr etdi. Lakin fürerin bu əmri yerinə yetirilmədi. Gerinq tapmaca kimi yox oldu. Amerikanlar tərəfindən zəhərlənmişdi.

Bu anda mənim üçün gözlənilmədiyi halda telefonda Bormanın səsi eşidildi…

30 aprel. Biz Denislə vəziyyətimizi müzakirə edir və vahid fikrə gəlmirik, vəziyyət ümidsizdir. O mənə Bormanın radioqramını göstərdi, Fürerin vəziyyəti göstərir ki, Göbbels dövlət başçısı postuna verilsin.

1945-ci il 1 may, gecə. Denis məni 08.00-da Plenə dəvət edir. Qrosadmiral məni təkbətək qəbul edir və 2 yeni radioqram göstərir:

1. O, Göbbelsin yeni hökumət üzvlərinin siyahısı göstərdi və bu sözlərlə başladı: 30 apreldə fürer bizdən vaxtsız ayrıldı.

2. Bormanın radioqramı, hadisələr, xüsusi qaydada danışıqlar, Denis fürerin varisi təyin olunması vaxtıdır.

Mayın 2-də mən yenidən Plenə gəldim. Denis bütün cəbhələrdə tezliklə hərbi əməliyyatların kəsilməsi vacibliyi barədə fikirlərini bölüşdürdü".

Tarixçi V.Medinski Hitlerin ölümü ilə əlaqədar yazır ki: "1945-ci il mayın 2-də Hitlerin qərargahının yerləşdiyi Reyxstaqda yanmış cəsədlər tapılır. Bunların içərisində imperiyanın təbliğat naziri Göbbelsin və onun arvadının cəsədləri olur. Bu barədə Jukov Stalinə mayın 3-də teleqram göndərir.

Hitlerin sağ və ya ölü olması haqqında qəti fikir yox idi. Stalin Jukova bildirir ki, faşist əclaflarına heç vaxt inanmaq olmaz, araşdırmaq lazımdır, hamısını yoxlasın. Ştemenko bildirir ki, tezliklə imperiya dəftərxanasının bağında iki cəsəd-kişi və qadın və 2 it cəsədi tapılıb. Cəsədlərin kimə məxsusluğunu müəyyənləşdirməkdə Hitlerə və onun sevgilisinə protez diş qoyan stomatoloq kömək edir. Bundan sonra heç kimdə şübhə yeri qalmır ki, yanmış iki cəsəd Hitler və sevgilisi Yeva Braunun cəsədidir".[1]

Hitler tərəfindən reyxsprezident təyin olunan qross-admiral K.Denis nəinki esesçilərin fanatı, hətta AHSDP-nin üzvü olmamışdı. Denis Almaniyanı hakimiyyət üçün məsuliyyəti öz üzərinə götürəndə A.Hitler artıq sağ deyildi. Hələlik Şərq cəbhəsində müharibə kəsilməmişdi. 1945-ci il mayın 1-də 22-00-da alman radiosunda çıxışında Denis bəyan etmişdi: "Mənim ilk

[1] Мединский, В.Р. Война. Мифы СССР. 1939-1945. Второе издание / В.Р.Медински. Москва, 2014. – с.577-578.

vəzifəm bolşeviklərin Almaniyanı məhv etməkdən xilas etməkdir. Yalnız bu məqsəd naminə silahlı mübarizə davam edəcəkdir. Hələlik bu məqsədə nail olmağa amerikanlar və ingilislər maneçilik törədirlər, biz onlara qarşı müdafiə döyüşlərini davam etdirməyə məcburuq”.[1]

Hakimiyyət yeni hökumətin legitimliyini təmin etmək üçün mayın 1-də gecə general Krebs Göbbels və Bormanın adından ordu generalı V.İ.Çuykovun yanına gələrək sovet komandanlığından müvəqqəti olaraq Berlində hərbi əməliyyatları dayandırmağı və Almaniya ilə SSRİ arasında sülh danışıqlarına hazırlıq üçün şərait yaradılması təklifi ilə müraciət edirlər. Bu təklif Q.K.Jukova, sonra isə Baş ştaba – İ.V.Stalinə məruzə edilir. Sovet tərəfi danışıqsız təslim olmağı tələb edir.

Hitlerin vəsiyyəti əsasında təşkil olunmuş yeni alman hökuməti müharibənin perspektivsizliyini anlayırdı. Göbbels 1945-ci il may ayının 2-də intihar etdi. Hitlerin “sağ əli” Martin Borman mayın 2-də mühasirədən çıxmaq üçün reyxs dəftərxanasının sərvətlərini götürərək yeraltı qurğular və metro vasitəsi ilə Fridrixştrasse vağzalına gəlir və sovet qoşunlarının tutduqları bu rayondan keçərkən ələ keçdi. Quru Qoşunları Birləşmiş Komandanlığının ştab rəisi general Krebs güllələndi.[2]

1945-ci il mayın 1-də Çexoslovakiyada-Praqada xalq üsyanı qalxdı. Üsyanın yatırılması üçün esesçilər və seçmə diviziyalar göndərildi. Şəhər düşmən aviasiyası tərəfindən bombalandı. Praqalıların köməyinə Berlin altındakı I Ukrayna cəbhəsinin 4-cü və 3-cü qvardiya tank ordusu göndərildi. Mayın 9-da günorta üstü Praqa faşistlərdən təmizləndi. Mayın 9-da axşam Moskva Praqanın azad olunmasını atəşfəşanlıqla salamladı.

Almaniya üzərində qələbəyə görə” medalı

Çexoslovakiya torpağında azadlıq döyüşlərində iştirakına görə **88 döyüşçü** Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olundu.

1945-ci ilin may ayının 8-dən 9-na keçən gecə təslimolma aktına Almaniya tərəfindən feldmarşal V.Keytel, admiral Q.Fridenburq və aviasiya general-polkovniki Q.Ştumpf, müttəfiqlər tərəfindən ekspedisiya qüvvələrinin Baş Komandanlığının səlahiyyətlisi-aviasiya baş marşalı A.Tedder, Qızıl Ordu Baş Komandanlığından Ali Baş Komandanın birinci müavini, Sovet İttifaqı Marşalı Q.K.Jukov imza atdılar. İmza törənində ABŞ strateji hava qüvvələri komandanı, general K.Sraats, fransız

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014, 288 с.– с.278.

[2] Балашов, А.И., Рудаков, Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков.– СПб., 2005.– с.321.

ordusunun baş komandanı, ordu generalı C.M.De Latr de Tassini şahid kimi iştirak etdilər.

Beləliklə, faşist Almaniyasının darmadağın edilməsi başa çatdı. Ölkədən kənardakı döyüşlərdə faşist Almaniyasının darmadağın edilməsindəki fəal iştirakına görə **4.202 döyüşçü Sovet İttifaqı Qəhrəmanı** adı aldı. Onlardan 76 nəfəri bu ada ikinci dəfə layiq görüldü. 2 nəfər **A.İ.Pokrışkin və İ.N. Kojedub** bu ada üçüncü dəfə layiq görüldülər.

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 9 may 1945-ci il tarixli Fərmanı ilə "**1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə**" medalını təsis etdi**.** Medalın müəllifləri rəssamlar E.M.Romanov və İ.K.Andrianovdur. Medal büründən hazırlanır, düzgün dairə şəklində olub diametri 32 mm-dir. Medalın üz tərəfində Sovet İttifaqı Marşalı hərbi geyimində İ.V.Stalinin sol tərəfə döndərilmiş sinə profili təsviri vardır. Medalın yuxarı dairəsində "Bizim işimiz haqq işidir", aşağı dairəsində isə "Biz qalib gəldik" sözləri yazılmışdır. Medalın arxa tərəfində dairə boyu "**Almaniya üzərində qələbəyə görə**", mərkəzdə "**1941-1945-ci illər Böyük Vətən müharibəsi**" sözləri yazılmış**,** aşağı hissəsində isə **beşguşəli ulduz** təsvir olunmuşdur.[1]

Medalın Əsasnaməsinə görə II Dünya müharibəsi cəbhələrində Qırmızı Ordu, Hərbi Dəniz Qüvvələri və Xalq Daxili İşlər Komissarlığı qoşunlarının sıralarında bilavasitə iştirak edən və ya hərbi rayonlardakı işləri ilə qələbəni təmin edən bütün hərbi personalı və mülki heyət, Böyük Vətən müharibəsi dövründə Qırmızı Ordu, Hərbi Dəniz Qüvvələri və Xalq Daxili İşlər Komissarlığı qoşunları sıralarında xidmət etmiş, lakin yaralanma, xəstəlik və xəsarətlər səbəbindən ordunu tərk edən, habelə birbaşa dövlət və partiya təşkilatlarının qərarı ilə verilmiş bütün hərbi personal və ordu xaricində çalışan mülki işçilər təltif olinmuşdur. SSRİ Ali Soveti Rəyasət Heyətinin 07 iyul 1945-ci il tarixli qərarı ilə medal haqqında Əsasnaməyə edilən əlavəyə əsasən, "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı həm də Xalq Daxili İşlər Komissarlığı orqanlarının və SSRİ Dövlət Təhlükəsizlik Komissarlığının şəxsi heyətinə verilmişdir.

"1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı sinənin sol tərəfində, SSRİ-nin digər medallarından "Sovet Zapolyaryesinin müdafiəsinə görə" medalından sonra taxılır. "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı ən populyar medal hesab olunur. 1 yanvar 1995-

Partizan dəstələrində

[1] Ордена и медали Великой Отечественной войны 1941-1945 гг. / составитель: Хохлова С.А. (главный библиограф). Казачевская межпоселенческая районная библиотека им.Баранских Н.Н и Н.В, 2008. – с.50.

ci ilə qədər təqribən 14.933.000 şəxs "1941-1945-ci illər Böyük Vətən müharibəsində Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif olunub. Mükafatlandırılanlar arasında alman ordusu və müttəfiqlərinə qarşı döyüşlərdə iştirak edən Bolqarıstan silahlı qüvvələrinin 120 min hərbçisi də var.[1]

Qərb ədəbiyyatında **partizan hərəkatına** dair müxtəlif fikirlər formalaşmışdır. Partizan hərəkatını öyrənməkdə ixtisaslaşan amerikan müəlliflərindən E.Xayell və D.Armstronq partizan hərəkatında əhalinin çox cüzi hissəsinin iştirak etdiyini sübut etməyə çalışırlar. E.Xayel heç bir xalq üsyanı olmadığını, xalq kütlələrinin bu hərəkatda iştirak etmədiyini, Y.D.Armstronqun isə partizan hərəkatının "könüllü" təşkilat olmadığını iddia edir.

Partizan hərəkatı müharibə illərində düşmənlə mübarizədə ümumxalq mübarizəsinin əsas formalarından biri oldu. 1941-ci il iyulun 18-də ÜİK(b) P MK-nın "Alman qoşunları arxasında mübarizənin təşkili haqqında" qərarından sonra bu hərəkat daha mütəşəkkil xarakter aldı. Müharibə illərində 6.200 partizan dəstəsi və gizli qrup fəaliyyət göstərdi. Bu dəstə və qruplarda bir milyondan çox adam düşmənə qarşı mübarizə apardı. Milyonlarla insan düşmənin iqtisadi, siyasi və hərbi tədbirlərini alt-üst etdi.

Partizan hərəkatı RSFSR, Ukrayna, Belarusiya, Baltikyanı ölkələr, Moldaviyanın işğal olunmuş ərazilərində daha geniş yayıldı. Sovet İttifaqı Qəhrəmanı M.İ.Kuznetsov, İ.D.Kudrin, V.A.Molodov, V.A.Laqin, S.İ.Solntsev, F.F.Ozmitel və digər kəşfiyyatçılar arxa cəbhədə fəaliyyət göstərdilər.

Müharibə tarixində öz qəhrəmanlıqları ilə partizan birləşmələrinə rəhbərlik edən D.N.Medvedev, K.Q.Orlovski, M.S.Prudnikov, N.A.Prokonşuk və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Ümumiyyətlə, partizan mübarizəsində iştirak edən 172 vətənpərvər bu yüksək hərbi adla təltif olundular.

Rusiya Federasiyası ərazisində fəaliyyət göstərən **38 partizana** "Sovet ittifaqı qəhrəmanı" adı verilmişdir. Partizanlar Leninqrad, Smolensk, Bryansk, Moskva, Orlov və digər vilayətlərdə düşmənə qarşı daha fəal mübarizə apardılar. Onlar arasında Leninqrad vilayətində düşmənə qarşı mübarizədə şöhrətlənən partizan briqadası komandiri A.V.Qerman və K.D.Karitski, briqada komissarı İ.İ.Serqunin, partizan alayı komandiri V.V.Yeqorov, A.F.Tarakanov, partizan dəstəsi komandiri Q.P.Qriqoryev, V.İ.Nikifirov, V.P.Ploxov və b. vardı.

---

[1] https://az.wikipedia.org/wiki/%221941–1945–ci_ill%C9%99r_B%C3%B6y%C3%BCk_V%C9%99t%C9%99n_m%C3%BCharib%C9%99sind%C9%99_Almaniya_%C3%BCz%C9%99rind%C9%99_q%C9%99l%C9%99b%C9%99y%C9%99_g%C3%B6r%C9%99%22_medal%C4%B1

1941-ci ilin sonunda düşmənin işğal etdiyi ərazidə 2 mindən çox partizan dəstəsi (90 min adam) fəaliyyət göstərirdi. DMK-nin 1942-ci il 30 may tarixli qərarı ilə Ali Baş Komandanlığın Qərargahı yanında Partizan Hərəkatının Mərkəzi Qərargahı yaradıldı.

Kovpakın başçılıq etdiyi Sumı partizan birləşməsində 20-dən çox azərbaycanlı igidlik göstərdi. Krasnodonda fəaliyyət göstərən "Gənc qvardiya"nın üzvlərindən biri **Əli Dadaşov** idi.

Belarusiyanın «Дядя коля», "Pravda", G.Zaslanov adına partizan dəstəsində azərbaycanlılar döyüşdülər.

Sovet İnformasiya Bürosu 1941-ci il noyabrın 24-də Moskva vilayətinin bir neçə partizan dəstəsinin alman-faşist birləşməsinin qərargahının yerləşdiyi yaşayış məntəqəsinə hücum etməsi barədə yaydığı məlumatda bildirilirdi ki, partizan-döyüşçülər 600-dək alman əsgər və zabitini öldürmüş, yanacaq anbarını, maşın təmiri bazasını, 80 yük maşınını, 4 tankı və zirehli maşını, sursatı və bir neçə pulemyot nöqtəsini məhv etmişdir.

1942-ci il dekabrın əvvəllərində partizanlar Krasnodar-Stalinqrad dəmir yolunda döyüşçülər və yük olan 14 eşelonu partlatdılar. Onlar 20 dəmiryolu və 37 şose körpüsünü, 72 km telefon-teleqraf xəttini və səhra kabelini yararsız hala saldılar.

Partizanlar Ukrayna ərazisində demək olar ki, bütün vilayətlərdə-xüsusilə Çerniqov, Sum, Vinnitski, Xarkov, Xmelnitski, Poltava vilayətlərində daha fəal idilər. Sovet Ukraynası uğrunda döyüşlərdə 55 partizan Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Müharibə illərində Ukrayna K(b)P Çerniqov Vilayət Komitəsinin birinci katibi, 1943-cü ilin martından Volınski gizli vilayət komitəsinin birinci katibi olan A.F.Fyodorov eyni zamanda Çerniqov, sonra Çerniqov-Volınski partizan birləşməsinin komandiri oldu. Onun başçılıq etdiyi dəstə 1942-ci ilin martınadək 16 döyüş keçirərək 1000-ə yaxın hitlerçini məhv etdi, 33 avtomobil və dəmiryolu körpüsünü partlatdı, düşmənin 5 yük-qatarını qəzaya uğratdı. 1942-ci ilin may ayında Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən A.F.Fyodorova 1943-cü ildə general-mayor rütbəsi verildi.

A.F.Fyodorovun rəhbərliyi altında keçirilən "Rels müharibəsi" və "Konsert" əməliyyatları nəticəsində düşmənə güclü zərbə vuruldu. 1943-cü il iyul ayının 7-dən 1944-cü ilin 15 martınadək silah-sursat, yanacaq və hərbi texnika ilə dolu 549 düşmən eşelonu, 10 minlərlə əsgər və zabit məhv edildi, 15 min nəfər hitlerçi yaralandı. "Kolesniy uzel" əməliyyatına görə A.F.Fyodorov ikinci "Qızıl Ulduz" medalı ilə təltif olundu.

Komandanlığın Çerniqov şəhəri ərazisində düşmən arxasında döyüş tapşırığını nümunəvi yerinə yetirdiyinə görə Q.O.Zbanatskiy, A.V.Tkanko, V.N. Drujinin və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

1942-ci ilin ikinci yarısından partizan reydləri təşkil olunmağa başladı. Məqsəd işğal olunmuş ərazilərdə ümumxalq mübarizəsini qüvvət-

ləndirmək, düşmən arxasında böyük əməliyyatlar keçirmək idi. Bu forma Ukraynada daha geniş yayıldı. Bryansk meşələrində, Sağsahil Ukraynasında S.A.Kovpak və A.N.Saburovun birləşmələrinin 1942-ci ilin oktyabr-noyabr aylarında baş tutan paralel reydlərində böyük müvəffəqiyyət əldə olundu.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı S.A.Kovpakın birləşməsi 26 ay ərzində işğalçılarla mübarizədə Ukrayna, Belarusiya və RSFSR ərazisinin 18 vilayətində 10 min kilometr yol qət etdilər. Bu döyüşlərdə komissar S.V.Rudnev, 1-ci Ukrayna partizan diviziyasının komandiri P.P.Verşiqor, diviziya komandiri müavini R.A.Kleyn, diviziya qərargah rəisi D.İ.Bakradze və P.L.Kuboko və b. fərqləndilər.

Müharibə illərində Belarusiya partizanları düşmənə qan uddurdular. Onlardan **73 nəfəri** Sovet İttifaqı Qəhrəmanı adı aldı.

Belarusiyada partizan hərəkatının təşkilatçılarından və rəhbərlərindən biri V.Z.Korc idi. V.Z.Korcun partizan birləşməsi 60-a yaxın alman qarnizonunu darmadağın etmiş, 62 dəmiryol körpüsünü partlatmış, düşmənin çox sayda texnikasını və rabitə xəttini sıradan çıxarmışdı.

Azərbaycanlı döyüşçülər partizan hərəkatına parlaq səhifələr yazdılar. 8-ci Azərbaycan partizan dəstəsinin[1] üzvləri 1943-cü ilin əvvəlində Krımın Kuybışev rayonunda hərbi düşərgədə saxlanılan 800 hərbi əsir arasında Zabit Əliyev MəmmədKərim oğlu, Hacıyev Sahib Cəbrayıl oğlu, Rzayev Hüseyn Məmməd oğlu düşərgədə hərbi əsirlərdən ibarət gizli təşkilat yaratdılar. Təşkilat taqıma və rotalara bölündü, bölmələrə komandirlər təyin edildi. Təşkilatın qarşısında duran əsas vəzifə düşərgədən əsirlərin kütləvi qaçışını təşkil etmək idi. Yerli müəllimə Fatimə Səlimovanın köməyi ilə gizli təşkilat Kuybışev rayon partiya komitəsi ilə əlaqə yaradaraq əsirlərin düşərgədən qaçışını təşkil etdilər.

Krım Vilayət Partiya Komitəsinin arxiv materiallarında göstərilir ki, 1943-cü il sentyabrın 18-də Məmməd Əliyev və Mahmud Həsənov təxribat törətməyi planlaşdırmış, nəticədə Yaltadan Balaklava gedən 3 alman bərəsi batırılmışdı. Ancaq 1943-cü il sentyabrın sonunda satqınların xəbərçiliyi ilə təşkilat aşkarlandı və 29 fəal üzvü həbs olundu. Lakin həbsxanaya aparılarkən Əliyev və Qafarov Xersonda gözətçilərin gözündən yayınaraq qaçdılar və Simferepola gedirlər. F.Səlimovanın köməyi ilə onlar yenidən əlaqələri bərpa edirlər. Hərbi əsirlərin düşərgəsindən qaçan azərbaycanlılar «Красный партизан» dəstəsini yaradırlar.

«Красный партизан» dəstəsi 1943-cü il noyabrın 7-dək Kuybışev rayonunun Göygöz meşəsində yerləşir, almanların kiçik qarnizonlarına və bölmələrinə hücum edirlər, silah və mərmi ələ keçirirlər. 1943-cü il noyabrın 7-də dəstə Cənubi Krımda 8-ci Azərbaycan partizan dəstəsi adı ilə 7-ci partizan briqadasına daxil olur. Dəstənin komandiri Məmməd Əliyev, komissarı Əbdülkərim Əşirov, qərargah rəisi Sahib Hacıyev idi. Dəstənin

[1]http//www/savach–az.com

birinci böyük müvəffəqiyyətli əməliyyatı düşmən qarnizonuna qarşı olur. Əməliyyata Məmməd Əliyev rəhbərlik edir və əməliyyatın gedişində düşmən qarnizonu tamamilə darmadağın olunur, 50 əsgər və zabit məhv edilir. Döyüşdə dəstə üzvlərindən Bayram Bağırov, Məmməd Hacıyev, Məmməd Sultanov, Rüfət Bilalov xüsusi ilə fərqlənirlər.

1943-cü ilin avqust ayının 28-də 350 nəfərdən çox azərbaycanlı əsir gecə ikən keşikçiləri susdurub silah anbarını ələ keçirir, sonra meşəyə qaçaraq partizan dəstəsi yaradırlar. Partizan dəstəsinin komandiri Məmməd Axundov, komissar Ələsgər Əliyev, qərargah rəisi İzətulla Nəsrullayev təyin edilirlər. «Шорс» adlanan partizan dəstəsi 1944-cü ilin qarlı günlərinin birində M.Şukayevin başçılıq etdiyi partizan birləşməsinə qoşulurlar.

Partizanlar Slavuta meşəsindən Karpat və Tatra dağlarınadək 8 min km. döyüş yolu keçmiş, Dnepr və Prut çaylarının, Rovno, Ternopol, Lvov, Çernovitsa, Zakarpatye vilayətlərində faşistlərə ağır zərbələr endirmiş, düşmənin 9 qarnizonunu, 70 avtomaşınını, 8 körpüsünü, 2 min tona yaxın yanacağını, 4 hərbi eşelonunu, 21 təyyarəsini, 2 sursat anbarını, 1.200 nəfər əsgər və zabitini məhv etmişdilər.

1944-cü il fevralın 8-də Məmməd Əliyevin rəhbərliyi altında dəstə Fomi-Sala kəndi rayonunda alman qarnizonu ilə döyüşə girir və düşmənin 50 əsgər və zabiti, 2 yük maşını məhv edilir. Ümumilikdə, partizan dəstəsi 1944-cü ilin fevral ayı ərzində 200-dək hitlerçini məhv edir. 1944-cü il martın 5-də 8-ci Azərbaycan dəstəsi 12-ci dəstə ilə birlikdə əməliyyat keçirir, nəticədə Deremanka kəndindəki düşmən qarnizonu məhv olunur. Döyüşün gedişində düşmənin 60 əsgər və zabiti öldürülür.

Vəziyyətin kəskinləşdiyini görən alman komandanlığı partizanları məhv etmək üçün 1944-cü ilin martında dağ-atıcı diviziyasının bölmələrini Kuybışev rayonuna göndərir. Partizan kəşfiyyatı zərbənin Böyük Ozenbaş, Qovuş, İstila, Malıy Ozenbaş və Tatar Osman kəndləri rayonundan vurulacağını müəyyənləşdirir. 1944-cü il martın 12-də 8-ci Azərbaycan partizan dəstəsi Böyük Ozenbaş kəndi rayonunda müdafiə mövqeyi tutur. Birinci döyüşdə artilleriya, minomyot, 7 tank və 9 zirehli maşının dəstəyi ilə düşmənin 500-dək əsgəri iştirak edir. Partizanların mövqeyinə 2 bombardmançı ilə zərbə vurulur. Dəstənin döyüşçüləri düşmənin hücumunu dəf edirlər. Düşmənin 167 əsgər və zabit öldürülür. Lakin qüvvələr bərabər olmadığından düşmən partizan dəstəsini mühasirəyə almağa müvəffəq olur. Məmməd Əliyevin qəhrəmanlığı və bölməyə bacarıqla rəhbərliyi nəticəsində mühasirə yarılır. Döyüşlərin gedişində düşmənin 40 əsgər və zabiti öldürülür, 2 topu partladılır, 3 yük maşını yandırılır. Bütünlüklə, 1944-cü ilin martında 8-i

Azərbaycan partizan dəstəsinin döyüşçüləri düşmənin 250 əsgər və zabitini məhv edirlər.[1]

1944-cü ilin aprelində 8-ci Azərbaycan partizan dəstəsi 227-ci Azərbaycan atıcı Diviziyasının hissələri ilə birlikdə Yaltanın azad edilməsində iştirak etdi. Aprelin 15-də 8-ci dəstə Məmməd Əliyev və Əbdülkərim Əşirovun rəhbərliyi altında Aluştadan Yaltaya geri çəkilən alman hissələrinə zərbə vurdular. Döyüşün gedişində 400 hitlerçi öldürüldü, 300 nəfər əsir götürüldü. 7 yük maşını, 5 top məhv edilir. 5 pulemyot, 350 tüfəng və 18 avtomat ələ keçirildi. Döyüşçülər düşmənə Natalino, Nikita, Nikita Nabatat bağını və Maqaraş istirahət evini yandırmağa imkan vermədilər. Qumlu yollar və körpülər minadan təmizləndi, döyüşçülərin yolu açıldı. Yaltanın azad edilməsində fərqləndiyi üçün partizan dəstəsinin döyüşçüsü Y.Məmmədova təşəkkür elan edildi. Həmin gün qərargah rəisi Sahib Hacıyevin rəhbərliyi altında 20 nəfərdən ibarət bölmə Albat-Göygöz yolu ilə geri çəkilən alman hissələri ilə döyüşə girir. Döyüşdə 13 nəfər məhv edilir, 128 hitlerçi əsir alındı. 8 yük maşını, 3 pulemyot, 8 avtomat, 88 tüfəng və 3 ərzaq anbarı ələ keçirildi. Partizanlar əməliyyatın gedişində itki vermirlər. Döyüşçülər R.Balayev və M.Hüseynov xüsusi fərqləndilər.

1944-cü ilin aprelində Krımda işğalçılara qarşı müvəffəqiyyətli əməliyyata görə 8-ci Azərbaycan partizan dəstəsinin komandirinə, komissar və qərargah rəisinə Ali Baş Komandanlığın nümayəndəsi Sovet İttifaqı Marşalı K.Y.Voroşilov tərəfindən təşəkkür elan olundu.

Ümumilikdə, 8-ci Azərbaycan partizan dəstəsi 7 ay ərzində düşmən arxasında 32 döyüş əməliyyatı keçirmişdi. 1.225 nəfər düşmən əsgər və zabit məhv olunmuş, 451 nəfər əsir götürülmüşdü. Partizanların əməliyyatı nəticəsində 9.700 metr rabitə xətti sıradan çıxarıldı. 7 top, 11 minomyot, 12 pulemyot, 500 vahid digər atıcı silah və 11.000 patron ələ keçirildi. 8-ci Azərbaycan partizan dəstəsi 1944-cü ilin aprelində döyüş ordusu tərkibinə daxil edildi.[2]

Azərbaycanlı qızlar İtaliyada partizan hərəkatında iştirak etdilər. Onlardan biri Mədinə Əhmədova idi. Mədinə cəbhə həyatına 1941-ci ilin payızında Krımda 386-cı diviziyanın 474-cü tibbi sanitar batalyonunda başlamışdı. Əsir düşən M.Əhmədova Almaniyaya gətirilir, Ravensburqyuk qadın həbs düşərgəsinə salınır. Bir neçə aydan sonra faşistlər əsirləri, o cümlədən Mədinəni İtaliyaya aparırlar. Burada İtalyan partizanlarına qoşulan Mədinə müharibənin sonunadək düşmənə qarşı mübarizə aparır.

---

[1] Султанов, Чапай. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов.– Баку, 2011. – с.290.

[2] Султанов, Чапай. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов.– Баку, 2011. – с. 291.

Raufə Həsənova 1942-ci ildə cəbhəyə çağırılanda ADU-nun II kursunda oxuyurdu. 339-cu zenit artilleriya alayında II dərəcəli radist kimi Şimali Qafqaz döyüşlərində iştirak etmişdir.

Nazxanım Səfərova Ucar rayonunun Qazıqumlaq kəndində dünyaya gəlmişdi. Ağdaş pedaqoji məktəbini fərqlənmə diplomu ilə bitirmişdi. Nazxanım 1942-ci ildə orduya çağırılır. Onun cəbhə həyatının ilk səhifəsi Kareliyada İmandra gölünün sağ sahilində yazılır. Belarusiyanın Baranoviçi şəhəri yaxınlığında düşmənlə üz-üzə qalır. Döyüşdə göstərdiyi igidliyə görə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunur. Murmanskdan başlanan döyüş yolu sona çatır. M.Səfərova müharibədən sonra Yevlax Rayon Partiya komitəsi yanında qadınlar şurası sədrinin müavini işləyir. Onun 44 illik pedaqoji fəaliyyəti medal, döş nişanları, fəxri fərmanlarla qiymətləndirilir.

Ətir Talıbova II Ukrayna cəbhəsində zenit-artilleriya alayında sıravi əsgər kimi döyüş yoluna başlamışdı. O, qulluq etdiyi alayla Odessa, Dnepropetrovsk, Xerson, İvanovo-Voznesensk, Mogilyov və digər şəhərlərdə ordunun tərkibində döyüşmüşdü.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən partizan dəstəsinin tərkibində 500 nəfər azərbaycanlı döyüşçü olmuşdu. Əsir düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulan Ə.Baxışov və Ə. Əlimərdanov döyüşlərdə xüsusi ilə fərqlənmişlər.

Uritski adına partizan dəstəsinin komandiri Hümmət Namazov, döyüş dostları R.Əsgərov, Ə.Məhərrəmov, S.Bağırov, Q.İmanov, M.Tağıyev, T.Quliyev, M.Daşdəmirov, Ş.Vəliyev, M.Bayramov və başqaları qəhrəmanlıqla vuruşmuşlar. Uritski adına dəstə 1944-cü il avqustun 4-dən 1945-ci ilin yanvarın 31-dək faşistlərlə 25 dəfə döyüşmüş, 7 dəfə düşmən qarnizonuna basqın etmişlər… Onlar 246 hitlerçini öldürmüş, 187 nəfərini yaralamış, 49 nəfəri əsir almış, düşmənin 41 parovozunu və 85 avtomobilini qəzaya uğratmış, 5 neft buruğunu və 21 təyyarəsini yandırmış, 7 körpüsünü partlatmışlar. Qənimət olaraq 26 əl pulemyotu, 124 tüfəng, 37 avtomat, 36 tapança, 12.250 patron, 541 qumbara ələ keçirilmişdi.

Almaniyanın "Ştrans " düşərgəsində saxlanılan M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Qulubəyov və başqaları hərbi əsirlər arasında iş aparırdılar. Nəticədə hərbi hissələrdəki gizli antifaşist təşkilatlarının üzvləri qaçaraq partizanlara qoşuldular. Belələrindən biri də Mehdi Hənifə oğlu Hüseynzadə idi.[1]

Cəsur partizan Aslan İbadov əsir düşərgəsindən 15 nəfərin qaçmasını təşkil etmiş, onlar «Чернигов» partizan dəstəsinə qoşulmuşlar. A.İbadovun rəhbərlik etdiyi bölük düşmənin körpüsünü, onlarla qatarını, avtomobilini, 500-ə yaxın əsgər və zabitini məhv etmişdi.

---

[1] M.Hüseynzadə haqqında "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

Müharibə illərində partizanlar 20 mindən çox düşmən eşelonunu qəzaya uğratdı, 58 zirehli qatarı partlatdı, 10 mində çox parovozu və 110 min vaqonu sıradan çıxardı, 12 min körpünü partlatdı, 50 mindən çox avtomaşını məhv etdi.

127 mindən çox partizan 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsinin partizanı" medalı, 184 min nəfərdən çox partizan və gizli fəaliyyət göstərmiş şəxs orden və medallarla təltif olunmuşlar. 248 min nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü.[1]

1944-cü il sentyabrın 8-də 3-cü Ukrayna cəbhəsinin öndəki dəstəsi rumın-bolqar sərhədini keçdi. 1944-cü ilin sentyabr günlərində ordu **Yuqoslaviya**nın sərhədlərinə çıxdı. 3-cü Ukrayna cəbhəsi qoşunları Yuqoslaviya Xalq Azadlıq Ordusu və Bolqarıstan Vətən Cəbhəsi Orduları ilə sentyabrın 28-dən oktyabrın 20-dək Belqrad əməliyyatını keçirdi.

Polşa xalqının azad edilməsi döyüşləri hələ 1944-cü ilin II yarısında Belarusiya və Lvov-Sandomir əməliyyatı gedişində başlamışdı. İyul-avqust aylarında I Belarusiya cəbhəsi qoşunları müvəffəqiyyətli hücumu genişləndirərək Lyublin-Brest əməliyyatı keçirmiş və alman-faşist qruplaşmalarını Şərq rayonlarından qovmuşlar. Lvov-Sandomir əməliyyatı nəticəsində Polşanın cənub-şərq ərazisinin xeyli hissəsi azad edildi və Sileziya istiqamətində hücum üçün əlverişli şərait yarandı. Qərbi Buğ yanında mövqe tutan 24-cü atıcı korpusun 350-ci atıcı diviziyasının hissələri 1176-cı alayın kapitanı P.M.Korışevin komandanlığı altında müvəffəqiyyət qazandılar. Həmin alayın avtomatçılar taqımı azərbaycanlı leytenant **P.X.Bağırovun** komandirliyi altında çay üzərindəki körpünü tutdular.

Yassı və Kişinyov altında hücumu davam etdirən 2-ci Ukrayna cəbhəsi qoşunları sentyabrın sonlarında Macarıstan sərhədlərini keçdilər. 1945-ci il fevralın 13-də Budapeştə olan çoxgünlük hücum başa çatdı. **Macarıstanın paytaxtı** azad olundu.

Müqavimət hərəkatının iştirakçıları

Müqavimət hərəkatı antifaşist hərəkatının işğal olunmuş ərazilərdə faşistlərlə mübarizənin əsas mübarizə formalarından oldu. Azərbaycanlı döyüşçülər Avropa xalqlarının faşist işğalından təmizlənməsində qəhrəmanlıq göstərdilər. Rumıniyanın azad edilməsində Gəray Əsədov[2] xüsusi qəhrəmanlıq göstərdi.

Azərbaycanlı döyüşçülər **Fransada** müqavimət hərəkatında iştirak etdilər. Fransanın cənubunda, Rodes rayonunda ilk Azərbaycan alayı formalaşdı. 1942-ci ilin yayında Polşanın Edlin şəhərində azərbaycanlı hərbi əsirlərdən gizli antifaşist təşkilatı yarandı. Təşkilatın üzvləri Hadı Qiyasbəyov, İsmayıl Heydərov, Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacı-

[1] ASE, VII cild: Мисир – Прадо. Bakı, 1983. – s.472.

[2] G.Əsədov haqqında "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

yev və başqaları Fransa şəhərlərinin faşistlərdən azad edilməsində iştirak etdilər.

Fransa müqavimət hərəkatının iştirakçılarından biri, müharibə illərində əsir düşməsinə baxmayaraq, döyüş dostlarının köməyi ilə əsirlikdən qaçaraq fransız partizanlarına qoşulan "Xarqo" ləqəbli döyüşçü Ə.Cəbrayılov, İtaliya müqavimət hərəkatında iştirak etmiş Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsgərov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov və başqaları faşistlərə qarşı cəsarətlə vuruşmuşlar

Cəbrayılov Əhmədiyyə Mikayıl oğlu 1920-ci il sentyabrın 22-də Şəkinin Oxut kəndində anadan olmuşdur. Armed Mişel, Xarqo, Fraci, Kuraci, Rus Axmed, Deqol Əhmədiyyə və s. adlarla məşhurdur. Fransa müqavimət hərəkatının iştirakçılarından olmuşdur.

Ə.Cəbrayılov 1942-ci ildə ordu sıralarına səfərbər olunmuş, 1942-ci ilin may ayında yaralanmış, əsir düşmüş və Fransadakı Montobon həbs düşərgəsinə göndərilmişdi. Düşərgənin xidmətçisinin köməyi ilə qaçan Ə.Cəbrayılov fransız partizanlarının dəstəsinə qoşulmuş, alman-faşist işğalçılarına qarşı əməliyyatlarda iştirak etmiş, döyüş dostlarının rəğbətini qazanmışdır. O Fransanın Hərbi Xaç, Könüllü xidmətə görə xaç, Fransanın hərbi medalı, Fəxri Legionun Ali Ordeni ilə təltif olunmuşdur. Təltifləri Şarl de Qol və Morez Torezdən qəbul etmişdir.

Ə.Cəbrayılov müharibədən qayıtdıqdan sonra SSRİ-də repressiya olunmuş, uzun müddət təqiblərə və təhqirlərə məruz qalmışdır. 1975-ci ildə Fransaya getmək və partizan dostları ilə görüşməyə imkan tapmışdır.

Ə.Cəbrayılov

Ə.Cəbrayılov 1994-cü ildə dünyasını dəyişmişdir.

Cəbrayılov Əhmədiyyə Mikayıl oğlunun həyat və döyüş yolu haqqında çox yazılsa da, ən mötəbər mənbə onun yazdığı xatirə dəftəridir.[1] Ə.Cəbrayılov 22 sentyabr 1920-ci il tarixində Şəki rayonunun Oxud kəndində anadan olmuşdur. 1927-35-ci illər ərzində Şəki rayonu Oxud kənd natamam orta məktəbində təhsil almışdır. 1935-ci ildə Şəki Kənd Təsərrüfatı Texnikumunun Maldarlıq-İpəkçilik şöbəsinə daxil olmuş və 1938-ci ildə həmin məktəbi bitirərək ipəkçi ixtisasına yiyələnmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin əmrinə əsasən, 1939-cu ildə Quba-Qusar-Xaçmaz-Dəvəçi-Yalama rayonlararası İpək idarəsinin aqronomu vəzifəsinə təyin edilmiş və il ərzində

[1] Ə.Cəbrayılovun əlyazma Xatirə dəftərini onun oğlu C.Cəbrayılov kompüterdə yağmışdır. Həmin əlyazmanın kompüter variantı müəllifin şəxsi arxivindədir.

göstərdiyi yaxşı nəticələrə görə, dövlət tərəfindən 3 min manat mükafat və döş nişanı ilə təltif edilmişdir.

Cəbrayılov bir axşam qəzetləri mütaliə edərkən hərbi məktəbə qəbul elanını oxuyur. Səhəri gün Bakı şəhərinə gələrək Qızıl Ordu sıralarına daxil olmaq üçün Hərbi Komissarlığa ərizə ilə müraciət edir. O, Hərbi Komissarlıqda qəzetdəki elanı göstərərək Nevinnomıssk Təyyarəçilik Məktəbinə göndərilməsini xahiş edir. Bu onun uşaqlıq arzusu idi.

1939-cu ildə Cəbrayılovu həmin məktəbə göndərirlər. O özü ilə komsomola üzvlük biletini, xasiyyətnamə, idmanda qazandığı diplomu, təşəkkürnamə və döş nişanı aparır. İmtahanlardan müvəffəqiyyətlə keçərək məktəbə daxil olur. 1939-cu ilin noyabr ayında kursant formasını əyninə geyinən Cəbrayılov özünü çox xoşbəxt hiss edirdi. O, tez bir zamanda təyyarənin bütün sirlərini öyrənir. Müvafiq silah növlərindən, texnikadan istifadə qaydalarını mənimsəyir və alman dilində sərbəst danışdığı üçün kiçik leytenant rütbəsinə yüksəlir.

1941-ci ildə elan edilməmiş müharibə başlayan zaman Cəbrayılov da təyyarəçi yoldaşları ilə birlikdə bombardmançı təyyarə ilə Rostov, Xarkov, Kiyev, Poltava, Moskva, Minsk, Smolensk və Lvov ətrafındakı döyüşlərdə iştirak edir. O zaman Rostov, Xarkov, Lvov və bir çox şəhərlər alman işğalçılarının nəzarəti altında idi. Komandanlıq kiçik leytenant Cəbrayılovun bacarıqlı hərbçi olmasını nəzərə alaraq 350 saylı alaya siyasi rəhbər təyin edir. Həmin alay bir çox şəhər, kənd və xutorları alman faşistlərindən təmizləyir. Döyüşlərdəki şücaətini nəzərə alaraq, Cəbrayılova leytenant rütbəsi verilir. Döyüşlərin birində yaralanan Cəbrayılov hospitalda sağaldıqdan sonra yenidən döyüşə, kəşfiyyata göndərilir. 1942-ci ildə baş leytenant rütbəsi alır.[1]

1942-ci ilin aprel-may aylarında alman faşist işğalçıları Lozovaya, Barvinki, İzyum və Denes şəhər və xutorlarını mühasirəyə almışdılar. Rəhbərliyin əmri ilə Cəbrayılov bombardmançı təyyarə ilə döyüşə göndərilir. Onun təyyarəsi alman faşistləri tərəfindən vurulur. Ağır yaralı halda təyyarənin düşdüyü ərazidə vuruşan 9-cu ordunun döyüşçüləri Cəbrayılovun yaralarını sarıyaraq köməklik göstərirlər. Ağır yaralı olmasına baxmayaraq, 9-cu ordunun zabit və əsgərləri ilə əks hücuma keçən Cəbrayılov digər döyüşçülərlə birlikdə mühasirəyə düşür və əsir alınır.[2] Alman faşistləri maşın, motosiklet və velosipedlə, əsirlər isə piyada, ac-susuz gündə təxminən 60 km. yol qət edirlər. Yerli adamlar əsirlər keçən yola çörək qırıntıları, kartof, meyvə, kələm – bir sözlə, əllərinə nə keçirdisə, səpirdilər. Əgər alman işğalçıları əsirlərə yemək verən adam görsə idilər, yerindəcə güllələyərdilər.

---

[1] Niyazi Rəhimov. Fransada qəhrəmanliq tarixi yazan azərbaycanlı. https://www.muallim.edu.az/news.php?id=12438

[2] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.1.

Əsirlərin arasında mülki vətəndaşlar da var idi. Onların çoxu qoca, qadın və uşaqlar idi. Yolda ölənlər də çox olurdu. Alman faşistləri apardıqları əsirlərin yola səpələnmiş yeməyə əl uzatdıqlarını gördükdə güllə atırdılar. Cəbrayılovun əynində təyyarəçi paltarı olduğundan ukraynalı əsirlər hava qaralan zaman meşədən keçəndə onun qaçıb canını qurtarmasını təşkil edirlər. Bu iş üç dəfə təkrar olunur, ancaq Cəbrayılov ağır yaralı olduğundan çox uzağa gedə bilmir və almanlar onu tutub yenə də əsirlərə qatırlar. Onu ona görə öldürmürdülər ki, o, təyyarəçi idi.[1]

Ə.Cəbrayılov yazır: "1942-ci ilin may ayı idi. Almanlar əsirlərin içərisində olan komandirləri, partiyaçıları və yeriyə bilməyən adamları xəndək qazaraq basdırırdılar. Hətta ürəyi soyumamış kimi əsirlər basdırılan torpağa atəş də açırdılar. O, 1940-cı ildə aldığı partiya biletini pencəyinin çiyin hissəsinə tikmişdi. Təyyarəçi paltarında zabit olduğu bilinmədiyi üçün çox sevinirdi. Ancaq partiya biletinin tapılacağından çox qorxurdu. Almanlar əsirlərin üst-başını axtaranda Cəbrayılovun canına üşütmə düşür. Əgər əsirlərin üstündən Leninin, Stalinin şəkli olan vəsiqə, bilet çıxsa, kommunist deyərək yerindəcə güllələyərdilər. Tərcüməçi almanları başa saldı ki, müsəlmandır. Müsəlman olduğu və "dil bilmədiyi" üçün almanlar Cəbrayılovun danışdıqlarına inanırdılar. Əsirlərin içərisində almanlara qulluq göstərənlərin bəzisi tərcüməçilik edirdi.[2]

1942-ci ilin oktyabr ayında bir qrup əsiri işləmək üçün Fransaya aparırlar. Onların içərisində Ə.Cəbrayılov da var idi. Fransada dağılmış binaları təmizləyən zaman Cəbrayılovun vəziyyəti ağırlaşır, sətəlcəm olur, qan tüpürür. Günlərin bir günü Henri adlı alman əsgəri yerdə qan görür. Əsirləri sıraya düzərək kimin tüpürdüyünü soruşur. Qorxudan heç kim cavab vermir.

Hər bir əsirin ön və arxa tərəfində üzərinə nömrə və əsir düşərgəsinin adı yazılmış taxta parçası asılmışdı. Alman əsgəri nömrə ilə çağıraraq 20 nəfəri sıraya düzür və kim boynuna almasa, hamısını güllələyəcəyini deyir. Cəbrayılov dözməyərək: "Xəstə mənəm", - deyir. Alman əsgəri Cəbrayılovu güllələmək üçün xəlvəti yerə aparmaq istəyəndə alman SS-nin böyüyü avtomobillə keçir və əsgərdən soruşur ki, 4167 nömrəli əsiri hara aparırsan. "Ağır xəstə olduğu üçün güllələməyə", – deyə əsgər cavab verir. Avtomobildə gələn SS-in komandiri isə: "Bu gün mənim şad günümdür, öldürmək olmaz, onu bağışlayıram, aparın hospitala",– deyir.

Ə.Cəbrayılov yazır: "Hospitalda türkə ərə gedib türk dilini yaxşı bilən bir süpürgəçi yaşlı qadın işləyirdi. Qadının adı madam Janna idi. O, həmişə partizanlara kömək edirdi. O, qoltuğunda mənə xəlvəti çörək və dərman gətirirdi. Oturub həmişə mənimlə türkcə danışırdı. Mən ona ana, o isə oğul

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.2.
[2] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.3.

deyərək müraciət edirdi. Madam Janna söhbət əsnasında dedi ki, 28 il İstanbulda ərdə olub, almanlar ərini və oğlunu asıblar və o da Fransaya gəlib.

1942-ci ilin dekabr ayının axırı idi. Tuluza şəhərində gecə madam Jannanın evində gözlərimi açdım. Mənə Armed deyə müraciət etdilər. Əvvəlcədən adımı madam Jannaya söyləmişdim. Mən bura necə düşdüyümü soruşanda madam Janna dedi: "Mən sənə dərman verdim ki, huşunu itirəsən. Sən huşunu itirən kimi mən almanların komendantından xahiş etdim ki, oğlumun harada öldüyünü bilmirəm, icazə verin, bu, oğluma oxşayır, özüm dəfn edim. Onlar icazə verdilər ki, tabuta qoyub qəbiristanlıqda basdıraq və indi də çıxarıb gətirmişik evə".

Həmin gecə saat 5-də evlərindən bir kilometr aralı olan qəbiristanlığa apardılar. Orada hazırlanmış təzə qəbri göstərdilər. Hazırlanmış qəbrə uzandım. Tabutun üstündən taxta ilə örtüb, torpaqladılar. Hava gəlmək üçün xüsusi boru qoymuşdular. ...Qəbrin içərisində nəfəs almaq çox çətin idi, günü elə bil bir ilə bərabər olurdu. Axşam gəlib məni evlərinə apardılar. Yaxşı qulluq göstərdilər. Bu iş bir ay davam etdi. Bir gün mən madam Jannaya dedim ki, qəbirdə yatmaq əsirlik dövründən də pisdir. Səhəri gün əvvəlki gün kimi tezdən oyandım. Məni gətirib hamama saldılar. Təzə paltar verdilər. Çox sevinirdim. Güzgü qarşısında dayanıb, özümə doyunca tamaşa etdim.

Madam Janna alman jandarmlarının bütün evlərdə axtarış etdiklərini söylədi. Məni həyətdəki zirzəmiyə apardı. Burada çoxlu sayda çaxır tuluqları, butulkalar var idi. Madam Janna məndən bir ağac tuluğa girərək ağzını bağlamağımı xahiş etdi və tapşırdı ki, zirzəminin işığı yanıb, yenidən sönüb, bir də yanmasa, çöldə dayanma, tez həmin tuluqda gizlən və kim çağırsa da, səsini çıxarma.

Madam Janna qızına tapşırığını verib, işə gedir. Madam Jannanın qızı madmazel Sara səhər yeməyi gətirərkən işığı yandırıb söndürmür. Mən o dəqiqə özüm tuluğa girib, ağzımı bağladım. Madmazel nə qədər səslədisə, səsimi çıxarmadım. Günorta yenə də madmazel işığı yandırıb söndürmədi, yeməkləri tuluğun birinin üzərinə qoyub məni səslədi, mən yenə səsimi çıxarmadım. Madmazel gedəndən sonra yeməklərə baxdıqca ağzım sulanırdı. Ac idim, ancaq yeməklərə əl vurmadım. Mən qorxudan o günü ac qaldım.

Madam Janna axşam evə gələndə qızı Saradan məni soruşdu. Qız isə anasından mənim hara getdiyimi soruşanda anası tez zirzəmiyə gəldi. Məni bağrına basdı, üz-gözümdən öpdü, ac qalmağıma çox yandı və özünü təqsirkar bildi. Bu minvalla səhərlər zirzəmidə, axşamlar evdə yatırdım.

Axşamlar evdə Sara mənə fransız dilini öyrətməyə başladı. Mən evdə olan əşyalardan müraciət etməyə qədər bir çox şeylər öyrəndim. Bir gün Sara mənə dedi: "Armed, siz anamla türk dilində danışanda həsəd aparıram, həm də sizin diliniz fransız dilinə tez uyğunlaşır".

Bu evin xüsusi sirri var idi. Qapının döyülməsindən bilirdilər ki, yaddır, tez şkafdan aşağı mərtəbəyə, oradan da başqa otağa, bağa çıxış var idi. Almanlar əsas partizanları axtarırdılar. Tutduqları partizanları və qaçmaq istəyən əsirləri dar ağacından asırdılar ki, fransızlara görk olsun.

Bir gecə madam Janna üst mərtəbədəki otağın qapısını döydü. Mən təəccübləndim ki, öz otağının qapısını döyür. Otağa daxil olduqda orada tanımadığım dörd nəfər oturmuşdu. Bunlar bizi görüb ayağa qalxdılar, çox səmimiyyətlə görüşdülər. Onlar mənim vəziyyətimi, almanların məni incitdikləri barədə soruşdular. Onlar məni sovet komandiri kimi qəbul etdilər. Rus ordusunda təyyarəçilik məktəbini bitirdiyimi və baş leytenant olmağımı söylədikdə bir-birilərinə nə isə deyib, gülümsədilər. Bu hadisə 1943-cü ilin yanvar ayında baş verirdi. Onlar Fransada yeni təşkil edilmiş partizan dəstəsindən idilər. Madam Jannaya mənim barədə nə isə deyirdilər və qadın tez-tez başını əyirdi. Onlar bizimlə görüşüb, gecə ilə getdilər.

Səhəri gün axşam madam Janna məni madmozellər Mariyan və Jualet ilə tanış edərək bildirdi ki, bunlar sənə fransız dilini öyrədəcəklər. O gündən evdəkilər mənimlə fransız dilində danışırdılar. Bir sözü 5-10 dəfə təkrar etdirirdilər. Var qüvvələri ilə fransız dilini mənə öyrətməyə çalışırdılar. Evə gələn adamlar mənimlə fransız dilində söhbət edirdilər.[1]

Əhmədiyyə Cəbrayılov (solda oturub)
Fransada bir qrup partizanlarla birgə

Beləliklə, 4167 №-li əsir Əhmədiyyə Cəbrayılov 1942-ci ildə əsir düşərgəsindən qaçdı və Müqavimət hərəkatı sıralarına daxil oldu, tez bir zamanda fransız və alman dillərini öyrəndi və istedadlı kəşfiyyatçıya çevrildi. Ə.Cəbrayılov yazır ki, 1943-cü ilin mart ayında partizanlar: Reke, Dumas və

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.3-5.

Piter gecə məni özləri ilə şəhərin ətrafında olan dağ ətəyində yerləşən kilsəyə apardılar. Bura partizanların görüş yeri idi. Onlar məni səmimiyyətlə qarşıladılar. Kilsə sahibi keşiş Los da partizan idi. Şəhər sakinləri bunu bilmirdilər. 1943-cü ilin aprel ayı idi. Fransanın cənub hissəsində başçısı general Delatır, kapitan Delplonq, Dumas, Rene, Pınar və Piterdən ibarət gizli təşkil edilmiş partizan dəstəsi var idi. Həmin dəstə Fransada adlı-sanlı, cəngavər, qorxmaz və qırıcı dəstə idi. General mənə tapança bağışladı. Üç gün həmin yerdə istirahət etdik.

Bir gün gecə bir maşın bizim olduğumuz yerə gəldi. Tanımadığım bir adamla madmozel Jualet əlində bir kağızla peşman halda otağa daxil oldu və Armed Mişeli aparmağa gəldiyini bildirdi. Gələn oğlan mənimlə tanış oldu. Bu, Bessek idi. ... Partizanlarla görüşüb ayrıldıq. Maşına minib şəhərə yola düşdük. Posta yaxınlaşanda o, oturduğu oturacağın altından bir avtomat çıxararaq mənə uzatdı və maşının sürətini azaldaraq postda duran alman əsgərini nişan almağı söylədi. Mən əsgəri vurdum. Maşını başqa küçəyə sürərək və darısqal küçədən keçərək dağa qalxdıq. Kilsəyə yaxınlaşdıq və içəri daxil olduq. Kilsə gözəl idi. Burada 25 partizan toplaşmışdı. Fransanın şəhərlərində almanların bütün millətlərdən əsgərləri var idi. Mən Əhmədiyyə Mikayıl oğlu olduğum üçün mənə Armed Mişel və ya Mişel Akmed deyirdilər. Mən də etiraz etmirdim.

1943-cü ilin iyun ayı idi. Fransanın adı çəkilən qırıcı, dağıdıcı və qorxmaz partizanlar korpusu olan Birinci Eskadron Tarki və Qoran partizan korpusunun rəisi Delplonq, Dumas, Akmed Mişel və ən qoçaq partizan leytenant Besseklə tanınırdı. Bir gün Delplonq bütün partizanları yığaraq dedi: "Bu gündən Armed Mişelə "Xarqo" deyə müraciət edin".[1]

O alman kapitanı formasında partizan əməliyyatlarında iştirak etdi, 500-dək uşağın Almaniyaya aparılmasına imkan vermədi. Uşaqların xilas olunması əməliyyatında yaralanan Əhmədiyyə alman formasında olduğundan müalicə üçün alman hospitalına göndərildi. Müalicə başa çatdıqdan sonra qatar üzərində uçuşda göstərdiyi qəhrəmanlığa görə Tuluzanın yaxınlığındakı Albi şəhərciyindəki alman qarnizonuna komendant təyin edildi. Hadisəni Ə.Cəbrayılov belə xatırlayır: "Albe şəhərinə yola düşdük. Bir azdan eşitdim ki, Albe şəhərinə çatmışıq. Komendantlığı mənə təhvil verdilər və şəhərlə tanış etdilər. Əhalinin, şəhərin partizanlardan qorunmasını tapşırdılar. Şəhərdə almanlara xidmət edən vətəndaşların siyahısını mənə verdilər ki, bunlar sənə kömək edəcəklər. Bu məni çox sevindirdi ki, adamları yaxşı tanıyacağam. Mən əlaltıların hərəsini bir bəhanə ilə tutub partizanlara təhvil verirdim, şəhərdə partizan adı ilə tutub döyərək dustaq edirdim. Bu işlər almanların xoşuna gəlirdi ki, gələn gündən yaxşı işləyir.

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri s.5.

Mən benzin anbarlarını yandırıb partizanların üstünə yıxırdım. Almanların əlaltılarından üç-dördünü tutub asdırdım.

Fransada almanlar sovet əsirlərindən batalyonlar düzəltmişdilər və azərbaycanlılar Rodezdə, ruslar Marseldə, gürcülər Himdə, özbəklər Montabonda, tatarlar isə Oş şəhərində saxlanılırdı. Həmin əsirlər fransız dilini bilmədiklərinə görə, fransızlar onlara yaxınlıq vermirdilər. Heç küçədə partizanlarla əlaqə yarada bilmirdilər. Mən xəstəxanada olmayan dərmanları tapıb, sovet kapitanı Mirzəxan Məmmədova verirdim. Rodez şəhərində olan legionun kapitanı Mirzəxan Məmmədovun partizanlarla əlaqəsi var idi. Onunla görüşməyi partizanların rəisi tapşırmışdı. Mən xəstəxanaları gəzirdim. Rodezdə azərbaycanlılar olduğuna görə, ora getmək mənim arzum idi. Tapşırığı alan kimi ürəklə getdim və Mirzəxan Məmmədovla görüşüb, verilən tapşırığı ona çatdırdım. Düşərgəyə gələndə həmyerlim Nuru Abdullayev, Koroğlu Paşabəyli, Mikayıl, Əsabil Məmmədov, Həmrət oğlu Həzrət, Namazov (Kirovabad), Müəllim (Göyçay), Qarayev Hüseyn (İmişli), Bəhrəmov Tade (Astara), Moxuxov Şirin (Balakən), Bəkirov Umar (Şəki), Viktor Kozlov (Kirovsk vilayəti), Müəllim (Sabirabad), Müəllim (İsmayıllı) və s. ilə tanış oldum. ...Başqa palataya keçəndə Cəbiyev Əli, Məmmədov Məhərrəm, Nuxalı Müddəlif müəllim və Məmmədov Ənvəri gördüm.[1]

Səkkiz aylıq vəzifəsi dövründə Əhmədiyyə rəhbərliyin və tabeliyində olanların hörmətini qazandı. Bir dəfə Albi komendantının tələbi ilə hərbi əsirlər şəhər yollarının təmirinə aparıldı. Bu tapşırığın yerinə yetirilməsi prosesində əsirlərin bir hissəsi meşəyə qaçmağa müvəffəq oldu. Bu hal Şarl de Qolu çox sevindirdi. Əhmədiyyə isə almanların sərəncamında qalmaqdan "bezdi" və qaçaraq yenidən fransız partizanlarına qoşuldu.[2]

Cəbrayılovun Fransa Müqavimət hərəkatında iştirakını təsdiqləyən sənəd (1994)

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.26-27.

[2] Воспоминания Ахмедия Джебраилова. http://209.85.229.132/ search?q =cache: Q4Ic1 VNiy0oJ:press.az/news1_ru.php%3FId%3D91+воспоминания,+Ахмедия+Джебраилов &hl=ru&ct=clnk&cd=10 &gl=az; http://life.trend.az/

1944-cü ildə amerikan və ingilis qoşunları qərb tərəfdən hücuma keçdilər. Ə.Cəbrayılov komendant olduğu xəstəxanada yeriməyi bacaranları özü ilə aparıb partizanlara təhvil verir. Tarn-e-Qaron partizan korpusunun köməyi ilə Bordo, Marmand, Mont de Marsan, Oş, Tarbe, Tuluza, Montabon və Frez şəhərləri tutulur, sonra Paris şəhərinə hücum edib, çox çətinliklə ələ keçirirlər.

Ə.Cəbrayılov bir hadisəni fərəhlə xatırlayaraq yazır: "Bessek və mən şəhərin bütün yerlərində qaçıb-gizlənən almanları axtarmağa başladıq. Bir gün axtarış zamanı binaların birinin zirzəmisində qoca, başı-gözü ağarmış, bəstəboy, arıq bir kişini gördük. Bessek məndən onu tanıyıb-tanımadığımı soruşdu. Mən tanımadığımı söylədikdə cavabım onu təəccübləndirdi. Bildirdi ki, bu qoca Fransa Prezidenti olmuş marşal Petendir. Biz onu tutaraq partizanların qərargahına təhvil verdik. 22 avqust 1944-cü il Paris şəhərinin mərkəzində toplanmış mitinqdə mən də rus və fransız dillərində çıxış etdim. Səhnədə olan yoldaşlarım məni atıb-tutmağa başladılar. Fransız dilində bütün əhali istər zabit, istərsə də əsgərlər ucadan bir mahnı oxudular. Fransa Kommunist Partiyasının katibi yoldaş Moris Torez öz təşəkkürünü üçüncü dəfə idi ki, mənə bildirirdi. Mitinq başa çatandan sonra Fransa rəhbərləri qonaqlığa gedəsi oldular. Həmin qonaqlığa məni də dəvət etdilər. Qonaqlıqda məclisin başında Şarl de Qoll, Moris Torez, Jan Duklo, Pyer Paskini və s. oturmuşdular. Mənə bir zabit dedi ki, sizi general Şarl de Qoll çağırır. Mən onlara yaxınlaşanda Şarl de Qoll mənə əlini uzadıb dedi: **"Rus oğlu, gəl, yanımda otur**". Burada mənim, sovet ölkəsinin sağlığına badə qaldırdılar. Burada saysız-hesabsız şəkillər çəkildi.

Ə.Cəbrayılov Şarl de Qollun iştirak etdiyi banketdə (1994)
(yuxarıda soldan ikinci)

Fransa hökumət rəhbərləri tərəfindən Fransanın ən ali ordeni ilə təltif olundum. Paris şəhərində keçirilən paradda həmişə qabaqda gedirdim. Çox vaxt əlimdə bayraqlar olurdu. Paradda harada olsam, məni qabağa gətirirdilər ki, həmin ordenləri kim alıbsa, o da öndə getməlidir. Dövlət tərəfindən mənə üstü yazılmış nikeldən düzəldilmiş tapança bağışladılar".[1]

Müharibə qurtarandan sonra Ə.Cəbrayılov Fransa Respublikasının prezidentinin dəftərxanasında işləməyə başladı. Fransız qadını ilə evləndi. Artıq onun iki oğlu, yaxşı mənzili var idi. Ə.Cəbrayılov-Armed Mişel Müqavimət Hərəkatı veteranlarının ən hörmətli üzvlərindən birinə çevrilmişdi.

Fransadakı həyat 27 yaşlı gəncin Vətənə qayıtmaq hissini söndürə bilmədi. O, yenidən Əhmədiyyə Cəbrayılov olmaq, kəndə qayıtmaq istədi. Yoldaşlarının onu dilə tutması, Fransa hökumətinin pulsuz zavod sahibliyi təklifi, hətta ABŞ-da vətəndaşlıq təklifi onu fikrindən döndərə bilmədi. Vətənə qayıdışı və faciələrlə dolu anları Ə.Cəbrayılov belə xatırlayır: "1946-cı ildə öz xahişimlə Fransadakı Sovet konsulu Duxunov yoldaşın yanına getdim. Əynimdə amerikan forması, döşümdə Fransa ordenləri. O məndən fransızca soruşurdu, mən rusca cavab verirdim. O məndən soruşdu ki, rus dilini haradan öyrənmişəm. Mən dedim: "Mən rusam, qafqazlıyam, Bakıdanam, azərbaycanlıyam". O, yerindən durub məni qucaqladı, alnımdan öpdü və soruşdu ki, Fransaya necə düşmüşəm. Mən ətraflı danışdım. O məni özü ilə otelə apardı, bizim üçün yemək hazırlatdı. Məndə olan amerikan pistoleti fransız kommunist qız Simoneyə bağışladım.

Məni qatarla yola saldılar. Mən Fransadan alman şəhərinə çatdım, burada bizi bir sutka saxladılar. Postda amerikanlar dururdu. Bizi anadangəlmə yoxladılar. Mənə bağışlanan qızıl saatı əlimdən aldılar. Biz qatarı dəyişdik. Polşa sərhədinə çatdıq. Sərhəddə postda amerikanlar və sovet adamları dururdular. Burada təzədən yoxlamalar başlandı. Xarlenin mənə bağışladığı motosikleti qatardan düşürdülər. Beş saat sonra qatar yola düşdü. Biz sovet ölkəsinə çatdıq. Sovet ölkəsinin NKVD-si yenidən sorğu-suala başladı. Hər şeyi yoxladılar. Məndəki orden və medallar onları çox heyran etdi. "Bunları necə qazanmısan, qoçaqsan", – dedilər. Burada üç gün qaldıq. Yola düşəndə mənim liter biletimi alıb, yola saldılar.

Polşadan Kiyev şəhərinə, oradan da Moskvaya gəldik. Burada məni yenə hərbi NKVD polkovnik-leytenantı qəbul etdi. O mənimlə səmimi söhbət etdi. Polkovnik-leytenant öz kabinetinin şkafından kərə yağı, çörək, salat və spirtli içki çıxarıb stola qoydu. Biz çörək yeyə-yeyə Fransadakı vəziyyət barədə soruşdu. Səhəri gün həmin polkovnik-leytenant 2000 rubl və yol üçün quru azuqə verərək dedi: "Yoldaş Kalininin tapşırığıdır". Sonra məni Moskvada zabit yeməkxanasına gətirdi. Orada olan bütün zabitlər

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.27.

mənim orden və medallarıma heyranlıqla baxırdılar. Sonra məni oradan yola saldılar.

Mən Xarkov və Rostovdan sonra Mahaçqaladan Dərbəndə keçmək istədikdə dörd nəfər sovet gözətçisi biletləri yoxladı. Mənim də liter biletimə baxıb haradan gəldiyimi soruşdular. Mən cavab verdim ki, Parisdən. Literi geri qaytarmadılar və Bakı şəhərində düşüb adımı dəftərə salmağı söylədilər. Məndən Fransada verilən ən yüksək ordeni aldılar ki, muzeyə qoyacaqlar. Bakıya çatmağa bir stansiya qalmış məni və əşyalarımı başqa vaqona köçürdülər. Burada məndən başqa altı nəfər də var idi. Bakı vağzalına çatdıq. Bütün əhali düşüb gedəndən on dəqiqə sonra biz düşdük. Səhər saat 07:00 idi. Həm ac idim, həm də susuz. Gözətçilər çörək, su almağa imkan vermirdilər. Səhər saat 09:00-da bütün işçilər gəlib, vağzalda öz yerlərini tutdular. Bizi böyük bir zala apardılar. Mən içəri girəndə mənə oturmaq üçün divan göstərdilər. Orada uzun stol var idi. Rus polkovniki, ...iki başqa leytenant və iki azərbaycanlı (üst geyimlərindən bilinirdi) var idi. Bura mənim üç çamadanımı və əşyalarımı gətirdilər. Bütün əşyaları stolun üstünə tökdülər, bir-bir baxdılar. Sonra çamadanı yığışdırıb polkovnik dedi: "Əgər sizi kim incitsə, Bakı Dəmir yol NKVD-sinə – bura gəl və ya məktub yaz". Mənimlə görüşüb azərbaycanlıya məni yola salmağı tapşırdılar. Azərbaycanlılar mənim biletimi alıb, əşyalarımı qatara yükləyib, özümü də hörmətlə Yevlaxa yola saldılar. Mən Yevlaxa, oradan Şəkinin Oxud kəndinə gəldim.[1]

Vətənə-doğma Oxut kəndinə qayıdan Ə.Cəbrayılov aqronom işlədi, ailə həyatı qurdu. Ancaq həyat burada onun üzünə gülmədi. Onu əsirlikdə, vətənə xəyanətdə təqsirləndirdilər, təltifləri əlindən alındı, kənddə çoban işləməyə məcbur oldu. "Hərbi xaç"ın əlindən alınması Əhmədiyyəni bir an rahat buraxmadı. Axı, G.K.Jukovdan başqa heç bir sovet generalı və marşalı bu cür fransız ordeni ilə təltif olunmamışdır.

İllər keçdi. Bir gün ona Moskvadan çağırış gəldi. Məlum oldu ki, Fransa veteranlar şurası ona böyük məbləğdə pul hədiyyə etmişdir. Hadisə qeyri-adi idi və onu N.S.Xruşşovun qəbuluna dəvət edirdilər. Qəbulda Mərkəz Komitənin Birinci katibi ona təklif edir ki, pulu sovet sülh fonduna köçürsün və bu barədə Fransa veteranlar şurasına məlumat verilsin. Əvəzində Əhmədiyyəyə mərkəzdə mənzil, MK-nın sanatoriyasına göndəriş təklif edilirdi. Əhmədiyyə isə tamamilə başqa variant təklif etdi: Yaddaşını qaytarsınlar. Onun orden və medalları, foto şəkilləri qaytarıldı. Aqronom Əhmədiyyə Fransa müqavimət hərəkatının iştirakçısı, Fransa prezidentinin dəftərxanasının əməkdaşı Armed Mişel olduğunu etiraf etdi. Kolxozda onun vəzifəsi yüksəldildi-briqadir təyin olundu.

---

[1] Ə.Cəbrayılovun Xatirə dəftəri, s.27.

1966-cı ildə baş vermiş hadisə Ə.Cəbrayılovun həyatını tamamilə dəyişdirdi. Belə ki, SSRİ-yə rəsmi səfərindən əvvəl bir az əvvəl Şarl de Qol hava limanında onu qarşılayacaq dostları arasında döyüş dostu Armed Mişelin də olmasını arzu edir. Yenə də yüksək qonağın döyüş dostu ilə söhbət keçirilir, bildirilir ki, qonaq döyüş dostunun Oxut kəndindəki evini görmək arzusunda ola bilər. Bunun üçün qonşularının evi ilə onun evi və həyətyanı sahəsi birləşdiriləcək. Əhmədiyyə bu alçaldıcı təklifdən imtina edir.

Yeni ssenarinin hazırlanmasına başlanır. Əhmədiyyə işin xatirinə təklif edir: əgər general soruşsa, o kolxoz sədri olduğunu bildirəcək.

Nəhayət vaxt yetişir. Təyyarənin trapında Şarl de Qol L.İ.Brejnevlə, digər rəsmi şəxslərlə görüşdən sonra Armed Mişeli görür və dostlar qucaqlaşırlar. Beləliklə, ancaq general de Qollun səfərindən sonra Əhmədiyyənin arzuları həyata keçməyə başlayır, Parisdəki birinci ailəsi və döyüş dostları ilə əlaqəsi bərpa olunur.[1]

Bu hadisədən sonra şəkililər onu "Deqol-Əhmədiyyə" deyə çağırmağa başladılar.

Ə.Cəbrayılov əvvəl Oxut kəndindəki kolxozun sədri, sonra tərəvəzçilik müəssisəsinin direktoru olarkən işinə çox məsuliyyətlə yanaşırdı. Sonralar Fransa səfirliyi ilə əlaqələrin yaradılması, ev muzeyinin təşkili, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində onun iştirakı bütünlükdə rayon müharibə veteranlarına nümunə oldu. Veteranlar və gənclər Ə.Cəbrayılovu böyük hörmətlə xatırlayırlar.

Əhmədiyyə Cəbrayılova 1972, 1975, 1982-ci illərdə döyüşlərdə iştirak etdiyi yerləri gəzməyə icazə verilir. O, Montoban, Rodez, Tuluza,

Şarl de Qollun Moskvaya gəlişi ilə bağlı Ə.Cəbrayılovun adına 1966-cı ildə göndərilən dəvətnamə

[1] http://209.85.229.132/search?q=cache:Q4Ic1VNiy0oJ:press.az/news1_ru.php%3FId%3D91+vospominaniə,+Axmediə+Djebrailov&hl=ru&ct=clnk&cd=10&gl=az; http://life.trend.az/

Albi şəhərlərinə gedir, həmçinin Paris, Bordo, Strazburq, Lion, Dijon və Marseldə olur, keçmiş döyüş yoldaşları ilə görüşür. 1975-ci ildəki səfəri zamanı o, Fransa Senatında senator Jak Düklo tərəfindən qəbul edilir və ona bu görüşdən xatirə medalı təqdim olunur.

1976-cı ildə müharibədəki iştirakına görə "Oktyabr İnqilabı Ordeni" ilə təltif olunur. 1977-ci ildə Tarn və Qaronda Fransa partizan hərəkatında birgə iştirak etdiyi Rene Şambar SSRİ-yə gəlir və Əhmədiyyə Cəbrayılovla görüşür.

1990-cı ildə Şarl de Qollun anadan olmasının 100 illiyinə həsr olunmuş mərasimlərdə iştirak etmək üçün fəxri qonaq qismində Parisə dəvət olunur. Həmin mərasimdə 10 dəqiqəlik çıxış edir. 1994-cü il yanvarın 6-da isə Əhmədiyyə Cəbrayılova "Fəxri Legion" ordeni təqdim edilir.[1]

1942-1944-cü illərdə azərbaycanlı hərbi əsirlər Polşanın Edlin, Almaniyanın Noyhammer-Ştrans, Fransanın Rodes, İtaliyanın Udine, Triyestin Opçina, Çexoslovakiyanın Bno və Bıstritsa rayonlarında gizli antifaşist təşkilatı yarada bilmişdilər.

N.Abdullayev

Edlin şəhərindəki gizli təşkilat hərbi əsirlər arasında geniş antifaşist təbliğatı aparırdı.

1943-cü ilin ortalarında alman-faşist komandanlığı Polşadakı azərbaycanlılar və digər millətlərdən olan əsirləri Fransanın cənubuna köçürdü.

1944-cü ildə Rodes şəhərindəki gizli antifaşist təşkilatı Fransa KP ilə əlaqə yaratdı və əsirlərin böyük dəstəsinin partizanlara qoşulmasını təmin etdi.[2]

Ə.Cəbrayılovun həmkəndlisi **N.Abdullayev** əsrlikdən qaçaraq 1944-cü il avqust ayının 15-də Fransa partizanlarına qoşula bildi, Fransanın Lion, Tuluza, Marsel və başqa şəhərlərində almanlara qarşı partizan hərəkatında iştirak etdi.

Azərbaycanlı hərbi əsirlər İtaliya müqavimət hərəkatında iştirak etdilər. Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsədov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov və başqaları Appenin yarımadasının müxtəlif regionlarında faşistlərə qarşı vuruşdular.

Uzaq Şərq qəhrəmanları

Uzaq Şərq kampaniyası İkinci dünya müharibəsinin finalı kimi sovetlərin qələbəsini təsdiqlədi. 24 gün davam edən bu kam-

[1] Niyazi Rəhimov. Fransada qəhrəmanlıq tarixi yazan azərbaycanlı. https://www.muallim.edu.az/news.php?id=12438

[2] ASE, VII cild. Bakı, 1983. – s. 116-117.

paniya dinamikliyinə, mürəkkəbliyi və miqyasına, başlıcası isə nəticələrinə görə vacib kampaniyalardan biridir.

1945-ci il may ayının 9-dan 10-a keçən gecə general Le Meyin rəhbərlik etdiyi Amerikanın 20-ci hava donanmasının bombardmançı təyyarələri "İbadət evi" əməliyyatına başladı. Tokio şəhəri...hava hücumunun hədəfinə çevrildi. Onlar Dyuponun və "Standart oil" konsernlərinin hazırladığı minlərlə yandırıcı bombaları şəhərin üzərinə yağdırmağa başladılar. Yaponiyanın paytaxtı od tutub yanan cəhənnəmə çevrildi...Bu nüvə bombardmanı deyildi, lakin bir gecədə 83 mindən artıq Tokio sakini həlak olmuşdu[1]. Bu bombardmandan 6 ay sonra –1945-ci il avqustun 6-da ABŞ istehsalı B-29 "Enola Gay" təyyarəsindən "Balaca" bombası atıldı. Bu insanlara qarşı istifadə olunan ilk atom bombası idi. Nəticədə Hirosimada 140 mindən çox adam öldü və yaralandı. 1945-ci il avqustun 9-da Naqasakiyə atılan "Şişman" bombası isə 75 mindən çox insanın ölümünə və yaralanmasına səbəb oldu.[2]

Atom bombasının partlaması anı

Atom bombasının ixtiraçısı Robert Oppenheimer, Yaponiya məhv edildikdən sonra aşağıdakı sözləri söyləyib: "Biz bilirdik ki, Yer kürəsi artıq eyni vəziyyətdə qalmayacaq. Bu fikirlərə bəzilərimiz güldü, bəzilərimiz isə ağladı. Çoxumuz isə mənzərə qarşısında susdu". Yaponiyaya atılan bu iki atom bombası dünyadakı bütün müharibə strategiyaları və siyasətlərini yıxaraq, köklü bir dəyişiklik üçün qapı açdı.[3]

Mancuriya strateji əməliyyatı Kvantun ordusunun darmadağın edilməsi ilə başa çatdı. Bu əməliyyat Zabaykal, 1-ci və 2-ci Uzaq Şərq cəbhəsi, Sakit Okean donanması və Qırmızı Bayraqlı Amur hərbi donanmasının işti-

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (Rus dilindən tərcümə) / Ç.Sultanov. – Bakı, 2016. – s.18.

[2] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər. (Rus dilindən tərcümə) / Ç.Sultanov.– Bakı, 2016. – s.18.

[3] https://konkret.az/ilk-atom-bombasinin-istehsalina-ve-neticelerine-sebeb-olan-manhetten-layihesi-haqqinda-maraqli-faktlar/

rakı ilə həyata keçirildi. Uzaq Şərq qoşunlarına komandanlıq A.M.Vasilyevskiyə tapşırıldı. Əməliyyatda Monqol Xalq İnqilab ordusu da iştirak etdi.

Zabaykal Cəbhəsi qoşunlarına Sovet İttifaqı Marşalı Malinovski komandanlıq edirdi. Vətəndaş müharibəsi iştirakçısı, general-leytenant N.N.Oleşevin komandanlığı altında 39-cu ordunun 113-cü atıcı korpusunun döyüşçüləri Böyük Xinqan dağı və Mancuriya səhrası ilə döyüşə-döyüşə 950 km. məsafə qət etdilər. Onlar 15 gündə 500-dən çox əsgər və zabiti məhv etdi, 2500-ə yaxın əsir götürdülər.

Yapon imperialistləri ilə döyüşlərdə qəhrəmanlıqlarına görə Qırmızı Bayraqlı Amur hərbi donanması komandanı, kontr-admiral N.V.Antonov, çay gəmiləri briqada komandiri, kapitan-leytenant İ.A.Xvoytyanov və gəmi komandiri, 3-cü dərəcəli kapitan V.D.Korner Sovet İttifaqı Qəhrəmanı adı aldılar.

Koreyanın azad edilməsi döyüş əməliyyatlarında 1-ci Uzaq Şərq cəbhəsinin 25-ci ordunun qoşunları, həmçinin Sakit Okean gəmilər və dəniz piyada birləşmələrinin hissələri iştirak etdilər.

Avqustun 11-də Cənubi Saxalin əməliyyatı başa çatdı. Əməliyyatı 2-ci Uzaq Şərq cəbhəsinin 16-cı ordusu Şimali Sakit okean donanması ilə birgə qarşılıqlı əlaqədə keçirdilər. Birgə əməliyyat nəticəsində avqustun 25-də Cənubi Saxalinin azad edilməsi başa çatdı. 1904-1905-ci illər müharibəsi nəticəsində Rusiyadan ayrılan ərazilər geri qaytarıldı.

1945-ci il avqustun 17-də Uzaq Şərqdəki Sovet qoşunlarının baş komandanı, marşal A.M.Vasilyevski Kvantun ordusunun baş komandanı, general O.Yamadaya radioqrama göndərdi. Avqustun 18-də Kuril desant əməliyyatı başladı. Avqustun 19-da yapon komandanlığı danışıqsız təslim haqqında əmr versə də, ancaq avqustun 23-də müqavimət dayandırıldı. Avqustun 23-də Şumşu adası tamamilə azad edildi.

Beləliklə, Yaponiyanın Kvantun qruplaşması darmadağın edildi. Hərbi əməliyyatlar nəticəsində və düşmənin təslim olmasında sovet döyüşçüləri 600 min yapon əsgər və zabiti əsir aldı, 300 min avtomat, 700 tank, 1,8 milyondan çox silah, 860 təyyarə ələ keçirildi. 40 milyon insan yaşayan 1,3 milyon kv. km ərazi azad edildi.

C.Abbasova

Azərbaycanlı qızlar – bakılı Təzəxanım Əlizadə, şəkili qızlar Cəvahir Abbasova, Mülayim Cəfərova, bakılı Fəridə Vəzirova və başqaları kişilərlə çiyin-çiyinə Uzaq Şərq döyüşlərində iştirak edirlər.

Abbasova Cəvahir Rzaqulu qızı – 1919-cu ildə Nuxada dünyaya gəlmişdi. 1937-ci ildə Nuxa Tibb Məktəbini, 1942-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmişdi. 1942-1946-cı illərdə

ordu sıralarında olan Cəvahir Abbasova Şimali Qafqazda, Şərqi Sibirdə tibb sanitar batalyonlarında, səhra hospitallarında cərrah kimi fəaliyyət göstərmişdi.

1946-cı ilin iyul ayında hərbi xidmətdən kapitan rütbəsində tərxis olunan C.Abbasova Nuxa Səhiyyə şöbəsində müxtəlif vəzifələrdə işləmiş, cərrahlıqla yanaşı nevropatoloq ixtisasına yiyələnmiş, həm də Şəki Tibb məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuş, məqalələri çap olunmuşdur.

C.Abbasova 1973-cü ildə "V.İ.Lenin adına Şəki ipək kombinatı fəhlələrinin mərkəzi və əsəb xəstəliklərinin klinikasına dair" mövzusunda dissertasiya müdafiə etmişdir.

Tibb üzrə fəlsəfə doktoru, "Səhiyyə əlaçısı", "Yüksək dərəcəli həkim" (1978) Cəvahir Abbasova orden və medallarla təltif olunmuşdur.

Cəvahir Rzaqulu qızı Abbasova 2003-cü ildə dünyasını dəyişmişdir.[1]

Hərbi xidmətə Bakı Hava Hücumundan Müdafiə Qoşunları 3-cü projektor alayının 2-ci batalyonunda sıravi əsgər kimi başlayan Fəridə Vəzirova Bakı səmasının keşiyində dayanmışdı. Uzaq Şərqə yapon işğalçılarına qarşı döyüşlərin fəal iştirakçısı olan F.Vəzirova, "Yaponiya üzərində qələbəyə görə" medalı ilə təltif olunmuşdu.

Fəridə Vəzirova ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirdi, ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının aspirantı oldu, 1856-cı ildə "Cəfər Cabbarlı yaradıcılığında sosialist realizmi" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsi aldı. 1963-cü ildə Azərbaycan Yazıçılar İttifaqına üzv qəbul edildi. Professor vəzifəsinədək yüksələn F.Vəzirovanın əsərləri rus, özbək, erməni dillərində nəşr olunmuşdur.

1945-ci il sentyabrın 2-də, saat 9:^{04}-də Tokio körfəzində ABŞ-ın "Missuri" linkorunun göyərtəsində Yaponiya danışıqsız təslim aktını imzaladı.

Aktı Yaponiya imperatoru, yapon hökuməti adından xarici işlər naziri M.Siqemitsu və yapon ordusunun baş qərargahının rəisi Ö.Y.Medzu imzaladılar. Yaponiya ilə müharibə vəziyyətində olan müttəfiq dövlətlər adından Aktı –ABŞ generalı D. Makartur;

– Ayrı-ayrı ölkələr adından:
– Admiral Ç.Nimitş (ABŞ)
–general Su Yunçan (Çin)
– admiral V.Freyzer (Böyük Britaniya)
– general-leytenant K.N.Derevyanko (SSRİ)
– general-T.Vleymi (Avstraliya)
– polkovnik N.Mur-Kosqreym (Kanada)

[1] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S. Məmmədov. – Bakı, 1988. – s.113.

– general F.Zekler (Fransa)
– admiral K.Xelfqiq (Niderland)
–Vitse-aviasiya marşalı L.İsit (Yeni Zellandiya) imzalamışlar.

Yaponiya aktı imzalamaqla 26 iyul 1945-ci il Potsdam Bəyannaməsini qəbul etdi.

Yaponiya üzərində qələbə asan başa gəlmədi. SSRİ silahlı qüvvələri Yaponiya ilə müharibədə ölənlər, yaralananlar və itkin düşənlərlə birlikdə 36.456 adam itirdi, onlardan 12.031 nəfəri həlak olmuşdu.

Müharibədən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə **2 sentyabr Yaponiya üzərində qələbə günü** kimi rəsmiləşdirildi. Qələbənin 75 illiyi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin fərmanı ilə **Yaponiya üzərində qələbə günü** kimi 3 **sentyabr** müəyyənləşdirildi.

Müharibə başa çatsa da, müttəfiqlərin planları tam həyata keçməmişdi. Stalinin fikirlərindən bəhs edən V.Molotov xatırlayır ki, "Müharibədən sonra Stalinin bağına SSRİ-nin yeni sərhədlərinin xəritəsini gətirdilər. O, xəritəni knopka ilə divara vurdu və "Baxaq, nə alınıb" dedi. O, xəritəyə yaxınlaşaraq **Şimalda bizdə hər şey qaydasındadır**-dedi. **Finlandiya** bizim qarşımızda çox günahkardır **və onun sərhədləri Leninqraddan uzaqlaşdırıldı**, **Pribaltika – bu əzəli rus torpağıdır**-yenə də bizimdir, **belarus bizimdir**, indi də bütünlüklə, ukraynalılar, moldovalılar həmçinin birlikdə. Beləliklə, qərbdə bizdə normaldır. O, şərq sərhədlərində necə. Baxaq, necə yaxşı – **Port Artur bizim**!". O, qəlyanı Çinə çevirdi. "**Çin, Monqolustan – hər şey qaydasındadır**".

Ancaq burda sərhəd məni heç qane etmir – **dedi. İ.Stalin** Cənubi Qafqazı göstərdi. Dardanel. **Bizim türk torpaqlarına… iddiamız var**. Aydın idi ki, İ.Stalinin beynində Cənub cinahında dünya "şahmat lövhəsi"ndə o, yeni şahmat gedişi hazırlayırdı. O zaman onun 11 milyon ordusu var idi.[1]

ABŞ-ın öz planları var idi. 1945-ci il dekabrın 14-də ABŞ və İngiltərənin hərbi planlaşdırma komitəsi 432 D №-li Direktiv qəbul etmişdi. Direktivdə SSRİ-nin 20 nöqtəsinə (Moskva, Leninqrad, Qorki, Kuybışev, Sverdlovski, Novosibirsk, Omsk, Saratov, Kazan, Bakı, Daşkənd, Çelyabinsk, Nijniy Tagil, Maqnitorqorsk, Perm, Novokuznetsk, Qroznı, İrkutsk, Yaroslavl və b.) nüvə zərbəsi vurulması qeyd olunmuşdu. Bu planı ABŞ, İngiltərə və Fransa həyata keçirməli idi. Hücum üçün İtaliya, Hindistan (Britaniya koloniyası) və Çin (amerikan hərbi bazası) ərazisindəki bombardmançılardan istifadə planlaşdırılmışdı. Lakin bu baş tutmadı. SSRİ isə özünün nüvə silahını hazırlayırdı.

---

[1] Султанов, Чапай. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов.– Баку, 2011. – с.21.

Tarixçilər bildirirlər ki, atom bombasının sirlərini SSRİ-yə amerikalı casuslar vermişlər. Bu işin təşkilində SSRİ-nin ABŞ-dakı səfiri A.A.Qromıkonun böyük xidməti olmuşdu. Bu məsələ üzrə 1950-ci ildə Ethel və Julius Rozenberqlər ittiham olunmuşlar. Məsələyə aydınlıq gətirmək üçün hakim İrvnq Kaufmanın Rozenberqlərə ölüm hökmü kəsəndə dediyi sözləri xatırlamaq kifayətdir. Hakim demişdi: "Mən sizin cinayətinizin qətldən ağır olduğunu hesab edirəm… Ən yaxşı alimlərimizin qiymətləndirməsinə görə, rusların atom bombası üzərində işləri tamamlaya biləcəkləri vaxtdan çox-çox əvvəl rusların əlinə atom bombasını verməyiniz, artıq indi, hesab olunur ki, Koreyada kommunist təcavüzünü meydana çıxarmışdır… Həqiqətən də, sizin xəyanətiniz sayəsində tarixin gərdişi, sözsüz ki, bizim ölkəmizin ziyanına dəyişmişdir".[1]

Lakin atom bombasının tarixçəsi Rozenberqlərdən əvvəl başlamışdı. Ralf Epperson "Gözəgörünməz əl" kitabında yazır: "İkinci dünya müharibəsi dövründə Birləşmiş Ştatlar ordusunun zabiti mayor Gorge Racey Jordan "Lend-Liz" üzrə yüklərin Montana ştatındakı "Qreyt Fols" hərbi hava bazasından göndərilməsinə cavabdeh idi. Alyaskada Ferbenksə göndərilməzdən əvvəl daşı-nacaq yüklər təyyarələrə burada yüklənir, Alyaskadan həmin yükləri rus təyyaraçiləri daşıyırdılar.

Təbiətən hər şeyə maraq göstərən adam olan mayor Jordan bəzi portfelləri və qutuları açmış və müxtəlif kağızların üzərində ona tanış olmayan müxtəlif sözlər görmüşdü: uran, tsçiklotron, proton, neytron, kobalt, plutonium. Jordan "Ok Ric, Manhetten dairəsi" ünvanından olan müxtəlif

[1] Epperson, Ralf. Gözəgörünməz əl / R.Epperson.– Bakı, 2014. – s.495.

hesabatlar aşkar etmişdi – bu, Tennessi ştatının Ok Ric şəhərində Amerika alimlərinin atom bombası layihəsi üzərində işlədikləri, özündə "bölünmə zamanı əldə olunan enerji" tipli ifadələr ehtiva edən "Manhetten Layihəsi" idi.

Jordanın aşkar etdikləri arasında həm də "…təqribən bir tonun dörddə üçü qədər… uran birləşməsinə, ən azı, üç qaimə var idi. Eləcə də bir kiloqram və yaxud 2,2 funt metalşəkilli uran göndərildiyi təsdiq olunurdu, həmin vaxt isə bunun Amerikada olan bütün ehtiyatı cəmi 4,5 funt təşkil edirdi".

İlk atom bombasının istehsalına və nəticələrinə səbəb olan "Manhetten" layihəsindən bəhs edən müəlliflər bildirirlər ki, "**Manhetten**" **1942-1945-ci illər arasında ABŞ hökuməti tərəfindən aparılan bir tədqiqat layihəsi idi.** Formal adı Manhetten Mühəndis Zonası (MMZ) olan bu layihə 1941-46-cı illərdə general R.Gruvsun hərbi rəhbərliyi ilə ABŞ Hərbi Mühəndisləri Komandanlığının nəzarəti altında həyata keçirilib. Layihənin elmi-tədqiqat işlərinə Amerika alimi Robert Oppenheymer rəhbərlik edib.

Layihə 1945-ci ildə üç nüvə silahının əldə edilməsi və sınaqdan keçirilməsi ilə nəticələnib. İlk sınaq 1945-ci il iyulun 16-da Yeni Meksika ştatının Alamogardo şəhəri yaxınlığında plutonium ilə zənginləşdirilmiş bombanın sınaq partlayışı (Üçlük sınağı) ilə həyata keçirilir.[1] Layihə XX əsrin 30-cu illərində almanların nüvə texnologiyaları sahəsində apardıqları tədqiqatlara cavab olaraq, 1939-cu ildə, əvvəlcə kiçik bir tədqiqat proqramı şəklində yaranıb. Tədricən layihə genişləndirilib və prosesə 130 minlik işçi qüvvəsi cəlb edilib. Layihənin ümumi dəyəri 2 milyard ABŞ dolları olaraq (2007-ci ilin istehlakçıların qiymət indeksinə əsasən 23 milyard $) qiymətləndirilirdi. Nəhayət, "Manhetten" layihəsini sınamaq üçün "Trinity" adlı bir test qurulur və ilk atom bombası 1945-ci il iyun ayının 16-da saat 17:30-da partladılır. Nyu Meksikonun 193 kilometr cənubundakı Alamogordo hava bazasında partladılan atom bombası 9 kilometr uzaqlıqdakı bir bunkerdən elm adamları tərəfindən seyr edilib. Atom bombası 15.000-20.000 ton TNT detonatorlarına bərabər bir güc meydana gətirir. Bu, ABŞ üçün uğur demək idi. Bombanın partladığı qüllə tamamilə məhv olur və 730 metr radiusda olan hər şeyə təsir göstərir.[2]

Bu tapıntılar 1949-cu ilə qədər, Rusiya ilk atom bombasını partlatdığı günədək mayor Jordan üçün az əhəmiyyət kəsb edirdi.[3]

Birləşmiş Ştatlar SSRİ-yə təkcə atom bombası üzrə sənədləri və üstündə onun hazırlanması üçün komponentləri verməmiş, eyni zamanda müharibənin sonu üçün rusları tsiklotronlarla təmin etmək üçün tədbirlər

---

[1] https://konkret.az/ilk–atom–bombasinin–istehsalina–ve–neticelerine–sebeb–olan–manhetten–layihesi–haqqinda–maraqli–faktlar/

[2] Yenə orada.

[3] Epperson, Ralf. Gözəgörünməz əl / R.Epperson.– Bakı, 2014.– s.495-496.

görmüşdü. Məlumdur ki, SSRİ qoşunları Berlinə birinci girmişdi. Sənədlərdən məlum olur ki, bu işdə ABŞ SSRİ-yə imkan yaratmışdı. 1945-ci ilin mayında ruslar Berlindəki "Kayzer Vilhelm İnstitutu"ndan tsiklotronu SSRİ-yə aparmışlar.

Lakin ABŞ hökumətinin təqdim etdiyi texnologiyaya baxmayaraq, SSRİ öz atom bombasını 1949-cu ildə partlada bildi. Partlayış haqqında "Layf" jurnalı 1949-cu il 3 oktyabr tarixli nömrəsində məqalə yerləşdirsə də, çoxları bu hadisəni birmənalı qarşılamadı. Hətta ruslara amerikanların kömək etdikləri barədə fikirlər səslənməyə başladı. Hadisələrin sonrakı gedişi göstərdi ki, Amerika rusların atom energetikasına yardımı dayandırdılar.

Xatırlatma: İkinci dünya müharibəsi Almaniyanın məğlubiyyəti ilə başa çatdı. Qalib ordular Elbada görüşdülər. Keçmiş Almaniyanın ərazisi dörd işğal zonasına bölündü. Əslində 2 zona yaradıldı. ABŞ, İngiltərə və Fransaya aid zonanın ərazisi SSRİ-yə ayrılan ərazi ilə təxminən eyni idi.

1948-ci il iyunun 12-də "təmir işlərinə görə" Qərbi Berlinlə avtomobil əlaqəsi kəsildi. İyunun 24-də nəqliyyat blokadası rejimi təyin edildi. Sovet işğal hökuməti Qərbi Berlinə aparan bütün elektrik güc kabellərini açdı. Bunun üçün bəhanə müttəfiqlərin apardığı pul islahatı oldu. Beləliklə, Berlinin blokadası başladı və 11 ay davam etdi.

Berlin adi şəhərlərdən deyildi. Bu vaxta qədər şəhər bir neçə il bombalanmışdı. 1945-ci il fevralın 3-də müttəfiqlərin aviasiyası Berlinə 2,25 kilo ton bomba atmışdı.[1] Sonra şəhər küçə döyüşlərində tamamilə dağıdılmışdı. Əhali talonla ərzaq almışdı. Bu mərhələdə artıq Almaniya dövləti mövcud deyildi. Bu səbəbdən də, müttəfiq işğalçı administrasiyası alman əhalisinin minimum həyat şəraiti üçün hüquqi məsuliyyət daşıyırdı. Bundan başqa, Qərbi Berlində 6,5 min ingilis-amerikan hərbçiləri vardı.

Amerika SSRİ-yə nüvə zərbəsi vurmağa hazırlaşırdı. Bu zərbənin 1948-ci ilin iyununda "Dropsot" planına əsasən olması güman edilirdi. Bunun üçün yüzlərlə atom bombası və yüksəklikdə uçan bombardmançı B-29 təyyarəsi hazırlanmışdı. Bomba zərbəsi üçün 20 şəhər, o cümlədən Moskva və Leninqrad seçilmişdi. Təbii ki, dinc şəhərlərin bombalanması üçün bəhanə tapılmalı idi. Görünür, İ.Stalin müharibə üçün bəhanə vermədi. Nəticədə H.Trümen qərarından imtina etməli oldu. 1948-ci ilin iyununda Oreqon ştatında çıxış edən Trümen demişdi: "Mən Co Stalinlə çox yaxınlaşmışam, qoca Co mənim xoşuma gəlir. O təmiz oğlandır. Ancaq Co Siyasi Büronun əsiridir. O istədiyini edə bilməz".[2]

---

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин.– Москва, 2014, с.82.

[2] Yenə orada.

H.Trumen Berlinlə “hava körpüsü” yaratmaq haqqında əmr verdi. Bu qərarı verərkən 2 milyonluq əhalinin yaşadığı şəhəri havadan təchiz etmək müzakirə olunmadı. Ancaq şəhəri havadan ərzaqla təmin etmək çox çətin məsələ idi. Amerikalılar gündə 1000 ton yüklə şəhərin ərzaq təchizatına başladılar. İyunun sonunda gündəlik yükün həcmi 4400 tona çatdı. Bütün imkanlar səfərbər olunmaqla Qərbi Berlində əlavə 2 aerodrom tikildi. Payızda yük axını gündə 5620 ton təşkil edirdi. Hər 2-3 dəqiqədən bir Qərbi Berlin aerodromlarından böyük 4 mühərrikli nəqliyyat təyyarələr uçmağa başladı. Stalin baş verənləri müşahidə edir və qışı gözləyirdi. Berlinin yanacaqsız və elektrik enerjisiz qalması gözlənilirdi. Amerikalılar isə təyyarə ilə daş kömür daşımağa başladılar. Blokadada olan şəhərə 1,5 milyon tona qədər (1.421.119 ton) daş kömür, hətta kiçik elektrik stansiyaları gətirildi. Mütləq rekord 1949-cu ilin 16 aprelində oldu. Bir dəqiqədə bir təyyarə uçmaqla 1400 təyyarə ilə 13 min ton yük gətirildi. Ümumilikdə 278.228 təyyarə uçuşunda 2,32 milyon ton yük daşındı. Bu orta hesabla hər reysdə 8,3 min ton deməkdir. Hər gün Berlinə orta hesabla 2700 ton ərzaq gətirilirdi. Əməliyyatların gedişində 31 amerikan və 41 ingilis təyyarəçisi həlak oldu. Amerikalılar “hava körpüsünə” 2 milyard dollar sərf etdiyi halda, Stalin bir qəpik xərcləmədi.

VI FƏSİL

AZƏRBAYCANLILARDAN İBARƏT DİVİZİYALAR

77-ci Motorlu Atıcı Diviziya

Məlumdur ki, 1920-1938-ci illərdə Qırmızı Ordunun bəzi hissələri milli-ərazi prinsipləri ilə formalaşırdı. İttifaq respublikaların yerli əhalisi milli-atıcı diviziyalarda hərbi xidmət edirdilər. Müharibə başlayandan az sonra – 1941-ci il avqustun 11-də DMK-nin qərarına əsasən Zaqafqaziya hərbi dairəsində 15 piyada diviziyanın (Azərbaycanda və Gürcüstanda hər birində 6, Ermənistanda 3) yaradılması nəzərdə tutuldu.[1]

Müharibə illərində Zaqafqaziya respublikalarının milli diviziyalarının təşkilinin böyük siyasi və hərbi əhəmiyyəti vardı. Müharibənin ilk illərində bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar təşkil olundu. Azərbaycan SSR ərazisində ilk diviziyalar 1941-ci ilin avqustunda Qusarda (396-cı), Gəncədə (398-ci), Yevlaxda (400-cü), Xankəndində (402-ci), Bakıda (404-cü) yaranmağa başladı. 1941-ci ilin oktyabrında 223-cü, 1942-ci ildə 271 və 416-cı diviziyalar yaradıldı.[2] Bununla da milli hərbi hissələrin və birləşmələrin formalaşması prosesi başlandı. Bu diviziyaların milli tərkibi çoxmillətli idi. Məsələn, 1942-ci ilin iyun ayına kimi 271-ci atıcı diviziyanın tərkibində 7.143 nəfər döyüşçü vardı ki, bunun da 3.081 nəfər rus, 2.907 nəfəri azərbaycanlı, 632 nəfəri ukraynalı, 410 nəfəri özbək, 65 nəfəri erməni, 36 nəfəri belorus, 38 nəfəri yəhudi və 10 nəfəri gürcü idi.[3] Azərbaycan, Ermənistan və Gürcüstanda təşkil olunmuş 61, 151, 276, 386 və 388-ci atıcı diviziyalarda azərbaycanlılar, gürcülər və ermənilər şəxsi heyətin 60-70 faizini təşkil edirdi. Müharibə başlayandan sonra dövrün hərbi texnikası ilə tanış olmayan, təcrübəsiz və hərbi təhsili olmayan tələsik toplanmış milli diviziyaların şəxsi heyətinin xeyli hissəsi xidmətə yararsız olmaqla yanaşı, həm də əsgərlərin böyük hissəsi rus dilini bilmirdi. Bu səbəbdən də zabit korpusu əsasən slavyan xalqlarının nümayəndələrindən formalaşdırılırdı.

Azərbaycanlılar da əsasən respublika ərazisində yerləşən Orconikidze adına 77-ci Azərbaycan dağ-atıcı diviziyada xidmət keçirdilər. Lakin ÜİK(b)P MK və SSRİ XKS-nin "Fəhlə və Kəndli Qırmızı Ordusunun milli hissələri və birləşmələri haqqında" 1938-ci il 7 mart tarixli qərarı ilə hərbi

---

[1] İlqar Niftəliyev. Azərbaycanın İkinci dünya müharibəsində iştirakının bəzi məsələlərinə yeni baxış. 1905.az./azərbaycanın-ikinci-dünya-müharibəsində-iştirakının – bəzi-məsələlərinə yeni baxış.

[2] Yenə orada.

[3] Orucov, Q. Azərbaycan Qafqaz döyüşlərində / Q.Orucov. – Bakı, 1980. – s.32-33.

birləşmələr ləğv edildi və ümumi hərbi mükəlləfiyyət qaydası tətbiq edildi. 1939-cu il sentyabrın 1-də qəbul olunmuş "Ümumi hərbi xidmət haqqında" qanuna görə hərbi xidmət sinfi və milli mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların vəzifəsi elan olundu. Xalq Müdafiə Komissarlığının 1940-cı il 16 iyul tarixli qərarı ilə 77-ci diviziyanın adından "Azərbaycan" sözü götürüldü.[1]

77-ci diviziya 1941-ci ilin dekabrında Kerç-Feodesiya əməliyyatlarında, 1942-ci ilin avqustunda və sonra Qafqazın müdafiəsində döyüşdə fəal iştirak etdi.

1941-ci ilin dekabrında Cənubi Qafqaz cəbhəsi qərargahının əmrinə əsasən Krım cəbhəsinə göndərilən 77-ci diviziya Kerç-Feodosiya desant əməliyyatında xüsusi fərqləndi. Diviziya Novorossiysk ətrafında düşmənin 5 piyada alayını darmadağın etdi. Döyüşdə düşmənin 8.200 əsgər və zabiti sıradan çıxarıldı, 18 tank, 22 top və minomyot batareyası, 40 ədəd müxtəlif çaplı top, 45 avtomaşın məhv edildi. Diviziya canlı qüvvəsindən 6.810 nəfər itirdi.

77-ci atıcı diviziyanın komandiri general A.Rodionov

1942-ci ilin sonunda 77-ci Diviziya çoxlu itki verdiyinə görə Dağıstana göndərildi. Şəxsi heyət yenidən təşkil olunduqdan sonra döyüşə hazır vəziyyətə gətirildi və 58-ci ordunun tərkibinə daxil edildi. Diviziya 1942-ci il dekabrın 31-də İjersk stansiyasına göndərildi. Diviziyanın şəxsi heyətinin 68%-ni azərbaycanlılar təşkil edirdi.[2]

77-ci Diviziya Mozdokun, Krasnodarın azad edilməsi uğurundakı döyüşlərdə, düşmənin Kuban torpağından qovulmasında, Novrossiyskinin müdafiə xarakterli döyüşlərində xüsusilə fərqləndi. O, 18-ci rumın diviziyasını tamamilə darmadağın etdi.[3]

Novorossiysk şəhəri uğrunda döyüşlərdə 5 piyada alayı əzildi, 8000 nəfərdən artıq hitlerçi öldürüldü və yaralandı, 172 nəfər əsir alındı. 18 tank, 40-dan çox müxtəlif top, 22 top və minomyot, əsgər və hərbi yardımla dolu 15 avtomaşın məhv edildi.[4]

---

[1] İlqar Niftəliyev. Azərbaycanın İkinci dünya müharibəsində iştirakının bəzi məsələlərinə yeni baxış.1905.az./azərbaycanın-ikinci-dünya-müharibəsində-iştirakının-bəzi-məsələlərinə yeni baxış.

[2] Abdullayev, Seyfəddin Qiyas oğlu. 1941-1945-ci illər müharibəsində Azərbaycanda hərbi–müdafi və hərbi təşkilatı iş. Tarix elm. nam. diss… Bakı, 2000. – s.125.

[3] Yenə orada.

[4] Mədətov, Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (*Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri*) / Q.Ə. Mədətov. – Bakı, 2018. – s.113.

77-ci Azərbaycan milli atıcı diviziyasının döyüş yolu

58-ci ordu qoşunlarının komandanı, qvardiya general-leytenantı K.Melnik, Hərbi Şura üzvü polkovnik A.Usenko və polkovnik K.Qruşenkonun M.C.Bağırova 5 iyun 1943-cü il tarixli məktubunda göstərilirdi ki, S.Orconikidze adına Qırmızı bayraqlı 77-ci atıcı Diviziya Şimali Qafqazın və Kubanın alman faşist işğalçılarından azad olunmasında döyüş xidmətləri göstərmişdir. 77-ci Diviziyanın hissələri 1942-1943-cü ilin qışında 850 km. yol keçmiş, Lebedinova-Nikolayeva (Kubanda) alman-faşist işğalçıları ilə döyüşə girmiş, düşməni ciddi məğlubiyyətə uğradaraq Kubanın onlarla yaşayış məntəqəsini azad etmişlər. Azərbaycan xalqı Kürdəmir rayonunun Ərəb-Mehti kəndindən keçmiş müəllim, kapitan Yəhyayev Əbdül Qədir oğlu və baş leytenant Həsənovla fəxr edə bilər. Onlar Lebedi və Novo-Nikolayeva yaşayış məntəqəsi uğrunda düşmənin müdafiəsinin yarılmasını təmin etmiş, yaşayış məntəqələrini düşməndən azad etmişlər.[1] Lənkərandan olan qızıl əsgər Məmmədov Qubad Ağa Baba oğlu, Puşkin rayonunun (indiki Biləsuvar rayonu) Aşağı Çıraqlı kəndindən Bayramov Xudan Novruz oğlu, döyüşçü Jelyayev və Vovin ilə birlikdə iki ordenli Vladislav Vorobyovun komandanlığı altında yeni düşmən minalarının zərərsizləşdirilməsi yollarını tapmış, güclü atəş altında 2.000-dən artıq mina çıxarmış, diviziyanın hissələrinin keçid yolunu açmışlar. Ölümü gözünün önünə alan döyüşçü Məmmədov və Bayramov tanklarını əks-hücumuna qarşı qumbara atmış, düşmən tanklarının hücumunu dəf etmişlər. Alman işğalçılarına qarşı döyüşdə göstərdiyi qəhrəmanlığa görə 77-ci diviziyanın 550 döyüşçüsü, komandir və siyasi işçisi SSRİ-nin orden və medalları ilə təltif olunmuşlar.[2]

---

[1]ARPİİSSA, Fond №1, siyahı № 28, sax.vah.№188, vərəq – 33.
[2]Yenə orada, vərəq – 34.

77- ci diviziyanın zabitlərindən bir qrup

Diviziyanın əsgərlərinin döyüş rəşadəti diviziya komandiri Qorpişenko, siyasi rəhbər Cavadov və qərargah rəisi Sokolovun Azərbaycan K(b)P MK-ya yazdığı raportda bildirilirdi. Raportda deyilirdi: "77-ci diviziyanın döyüşçüləri düşmənə qarşı vuruşmalarda amansız olmuş və qəhrəmanlıq nümunələri göstərmişlər, xüsusilə Qasım İsmayılov rayonunun (indiki Goranboy) Yenikənd sakini M.Məmmədov düşmən tanklarını 20 metr məsafəyə buraxaraq öz sərrast atəşi ilə onların 3 tankını məhv etmişdir. M.Rüstəmov qoşunlarımızı irəliləməyə qoymayan düşmənin arxasına keçərək ona qəfləti atəş açmış və beləliklə qoşunlarımızın hərəkəti üçün imkan yaranmışdır".[1]

Krımın azad edilməsi döyüşlərində 77-ci atıcı Diviziya düşmənin 3.000 əsgər və zabitini, 3 təyyarəsini, 18 tank və zirehli maşınını, 70 ədəd avtomaşınını, 122 ədəd müxtəlif çaplı top minomyotunu, 131 pulemyotunu, 325 avtomat silahını sıradan çıxarmış və 1.652 əsgər və zabitini əsir almışdır.[2] Düşmənə qan udduran döyüşçülərimiz Suren-Baran, Aranovka və Ekaterinovka yaşayış məntəqələrini azad edərkən düşmənin 5.000 əsgər və zabitini məhv etmiş, 430 nəfərini əsir almışdır.[3] 1944-cü il aprel ayının 13-də Simferopol uğrunda döyüşdə fərqləndiyi üçün mayın 24-də Ali Baş Komandanlıq tərəfindən 77-ci diviziyaya fəxri "Simferopol" adı verilmişdi, diviziyanın 613 əsgər və zabiti döyüş mükafatları ilə təltif olunmuşdu. Onların

[1]Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində. Bakı, 1-75. – s.22.
[2] Arxiv MO SSSR, Фонд № 1222, опис №1, дело №3, лист – 23.
[3] Arxiv MO SSSR, Фонд № 416 SD, опис №247398, дело №1, s.75.

arasında Həsən Quliyev, Əli Qarayev, Əmir Quliyev, Xudu Mehdiyev, Abdul Rəcəbov, Həsən Abbasov, Əbil Seyidov, Yəhya Bağırov və başqaları vardı.[1] Diviziya 1944-cü il aprel ayının 13-də Simferopol uğrunda döyüşlərdə fərqləndiyi üçün mayın 24-də diviziyaya fəxri "Simferopol" adı verildi. Bu münasibətlə IV Ukrayna cəbhəsi qoşunları komandanı marşal F.İ.Tolbuxin Azərbaycan K(b)P MK-ya teleqram göndərdi.[2]

Qafqaz uğrunda vuruşmalarda 60 əsgər və zabitə (İ.Süleymanov, Q.Məmmədov və b.) Sovet İttifaqı Qəhrəmanı adı verildi. Təqribən 600 min döyüşçü "Qafqazın müdafiəsinə görə" medalı və ordenlərlə təltif olundu.

Bütün bunlarla yanaşı, 77-ci diviziyada hərbi xidmət və döyüş yolu sakit keçməmişdir. 1919-cu ildən 1945-ci ilədək milli diviziyaya 15 komandir təyin olunmuş, onlardan cəmi 2 nəfəri – C.Naxçıvanski və Vəzirov azərbaycanlıdır.

1942-ci il dekabr ayının 21-də diviziyanın şəxsi heyətində 7.965 nəfər var idi ki, onların 96 nəfəri rəis heyəti, 735 nəfəri kiçik rəis heyəti və 6.267 nəfəri sıravi döyüşçü idi. Diviziyanın 864 nəfər rəis heyətindən 639 nəfəri rus, ukraynalı və belorus, cəmi 160, sıravi döyüşçülərin 7.217 nəfəri azərbaycanlılar idi. Göründüyü kimi, milli tərkib diviziya daxilində qeyri-səmimi münasibətə şərait yaradır, nəticədə sıravi döyüşçülər arasında narazılıqlar yaranır və xoşagəlməz hadisələrin baş verməsinə səbəb olurdu.[3] Diviziyada azərbaycanlı döyüşçülərin sayının çox olmasına baxmayaraq, rəis heyəti əsasən qeyri-azərbaycanlılardan ibarət idi. Diviziyanın 912 nəfər komandir heyətindən 639 nəfəri rus, ukrain və belorus, cəmi 160 nəfəri azərbaycanlı idi. Sıravi döyüşçülərin sayında azərbaycanlılar üstünlük təşkil edirdi. Göründüyü kimi, milli tərkib diviziya daxilində qeyri-səmimi münasibətə, sıravi döyüşçülər arasında narazılıqlara şərait yaradır, nəticədə xoşagəlməz hadisələrin baş verməsinə səbəb olurdu.[4]

Yaş həddinə görə diviziyada aşağıdakı cədvəldə əksini tapmışdır.[5]

---

[1] Материалы по 77 СД (начало: 30.10.1941 – окончено: 13.09.1945 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, дело № 339, листы – 12.

[2] Телеграмма командующего 4-м Украинским Фронтом Маршала Ф.И.Толбухина в ЦК КП(б) Азербайджана в связи с присвоением 77-й стрелковой Краснознаменной дивизии наименования «Симферепольская» от 30 апреля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №177, дело №3, лист – 41.

[3] Материалы по 77 СД (начало: 30.10.1941–окончено: 13.09.1945 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, дело №339, листы – 109.

[4] ARPİİSSA, Fond №1, siyahı №177, iş №3, vərəq – 109-110.

[5] ARPİİSSA, Fond №1, siyahı №177, iş №3, vərəq – 109-112.

Cədvəl 6.1.

Yaş həddi	Orta komandir heyəti	Kiçik komandir heyəti	Sıravi heyət	Cəmi
23 yaşdan 25 yaşa qədər	195	179	5204	5578
25 yaşdan 30 yaşa qədər	166	135	168	469
30 yaşdan 35 yaşa qədər	239	221	170	630
35 yaşdan 40 yaşa qədər	184	119	200	503
40 yaşdan 45 yaşa qədər	81	51	194	326
45 yaşdan 50 yaşa qədər	45	30	149	224
50 yaşdan yuxarı	2	–	–	2
Cəmi	**912**	**735**	**6085**	**7732**

Diviziyanın komandirləri aşağıdakılar olmuşdur.[1]

1919-cu ildən 1922-ci ilə qədər	Popov
1922-ci ildən 1923-cü ilə qədər	Baranov
1923-cü ildən 1931-ci ilə qədər	C.Naxçıvanski
1931-ci ildən 1937-ci ilə qədər	Q.Vəzirov
1937-ci ildən 1940-cı ilə qədər	Pimenov
1940-cı ildən avqust 1942-ci ilin iyun ayınadək	General-mayor Volkov
İyun 1942-ci ildən avqust 1942-ci ilədək	Polkovnik Toronsev
Avqust 1942-ci ildən oktyabr 1942-ci ilə qədər	Polkovnik Kabanov
Noyabr 1942-ci ildən dekabr 1942-ci ilə qədər	Podpolkovnik Tatarçevski
Dekabr 1942-ci ildən fevral 1943-cü ilə qədər	Podpolkovnik Kaşkin A.M.
Fevral 1943-cü ildən mart 1943-cü ilədək	Podpolkovnik Çernıy
Mart 1943-cü ildən iyun 1943-cü ilə qədər	Polkovnik Kudinov
İyun 1943-cü ildən dekabr 1943-cü ilədək	Polovnik Qorpişenko
Dekabr 1943-cü ildən mart 1944-cü ilədək	Polkovnik Sivajekov
Mart 1944-cü ildən	Sovet İttifaqı Qəhrəmanı, general-mayor Radionov A.

Diviziyaya daxil olan alayların da komandirləri qeyri-azərbaycanlılar olmuşdur. Polkovnik Vəzirov, podpolkovnik Ağayev və podpolkovnik Rəhimov istisna olmaqla qalanlar qeyri-azərbaycanlılar idi:

–105-ci atıcı alayı – podpolkovnik Vəzirov –
– podpolkovnik Slijevski
– 276-cı atıcı alayı – podpolkovnik Ağayev
– mayor Tkaçenko
– podpolkovnik Rəhimov

[1] ARPİİSSA, Fond №1, siyahı №177, iş №3, vərəq – 12-13.

– podpolkovnik Abeldayev
– podpolkovnik Voloşenko
– Kamkin
– Butin
– 324-cü atıcı alayı – podpolkovnik Belyakov
– podpolkovnik Qrinev
– podpolkovnik Staşko
– Stepin
– 239-cu atıcı alayı – podpolkovnik Pankul
– podpolkovnik Afkaidze

Alay komandirlərindən Kaşkin, Qorpeşenko və Ağayev döyüşlərdə həlak olmuşlar.[1] 1941-1945-ci illər müharibəsində 77-ci Simferopol diviziyasının döyüşçüləri döyüşlə Qafqazdan Kurilandiyaya qədər 10.900 kilometr döyüş yolu keçmiş, bunun da 2.555 kilometrini vuruşa-vuruşa qət etmişdir. Diviziya 1.500 yaşayış məntəqəsini azad etmiş, 50.000 min düşmən əsgər və zabitini, 238 tankı, 2.833 avtomaşını, 18 təyyarəni, 859 pulemyotu məhv etmişdir. Diviziyanın 11.237 əsgər və zabiti SSRİ-nin orden və medalları ilə təltif edilmişdi.[2] Düşmənin 29.106 tüfəng və avtomatı, 672 əl və dəzgah pulemyotu, 147 avtomaşını, 43 motosikleti, 68 döyüş anbarı, 1015 dəmiryol vaqonu və 6 parovozu hərbi qənimət kimi ələ keçirilmişdi.[3]

1941-1945-ci illər müharibəsində 77-ci "Simferopol" diviziyasının döyüşçüləri Qafqazdan Kurlyandinə qədər 10.900 kilometr döyüş yolunun 2.555 kilometrini döyüşlərlə keçirmiş, 1.500 yaşayış məntəqəsini azad etmişdi.[4] 77-ci diviziyanın döyüşçülərindən 11 nəfər "Lenin", 2 nəfər "Qızıl Ulduz", 68 nəfər "Qırmızı Bayraq", 15 nəfər "Suvorov" və "Aleksandr Nevski", 1 nəfər "Boqdan Xmelnitski", 101 nəfər I dərəcəli "Vətən müharibəsi", 238 nəfər II dərəcəli, 1.149 nəfər "Qırmızı Ulduz", 30 nəfər 2-ci dərəcəli "Şöhrət", 412 nəfər 3-cü dərəcəli "Şöhrət" ordeni, 208 nəfər "İgidliyə görə", 1.131 nəfər "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olun-

77-ci atıcı diviziyanın şərəfinə xatirə nişanı

[1] ARPİİSSA, Fond №1, siyahı №177, iş№ 3, vərəq – 13.
[2] Arxiv MO SSSR, Фонд №77 SD, опис №480820, дело 4, с.26.
[3] ARPİİSSA, Fond №1, siyahı №177, iş№ 3, vərəq –12-13.
[4] Материалы по 77 СД (начало: 30.10.1941– окончено: 13.09.1945 г.) //Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, дело №339, листы –12-13.

muş,[1] döyüşçülərdən 8 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Bütün bunlarla yanaşı, 77-ci diviziyada hərbi xidmət və döyüş yolu sakit keçməmişdir. 1920-ci ildən 1945-ci ilədək milli diviziyaya 15 komandir təyin olunmuş, onlardan cəmi 2 nəfəri – C.Naxçıvanski və Q.Vəzirov azərbaycanlı olmuşdur.

223-cü atıcı diviziya

Baş Komandanlığın 1941-ci il 18 oktyabr tarixli əmri ilə 46-cı ordunun Gürcüstan SSR-dən gəlmiş 168-ci ehtiyat alayı əsasında yaradılan 223-cü diviziyaya təcrübəli rəislər komandanlıq etmişlər. Diviziyanın komandiri polkovnik V.S.Romanov, hərbi komissarı alay komissarı M.A.Əliyev, qərargah rəisi podpolkovnik N.Q.Preobrajenski idi. Diviziyanın qərargahı Bakı şəhərində yerləşirdi.

V.P.Züvanov

1941-ci il dekabrın 23-də 223-cü diviziya Bakı neft yataqlarını müdafiə üçün şəhərin hüdudlarından kənarda hazırlanan müdafiə xəttində yerləşdirilir. 1942-ci il fevralın 22-də diviziya komandirliyini **Vladimir Pavloviç Züvanov** (Heybət Atamoğlu oğlu Heybətov) qəbul edir.

V.P.Züvanovun azərbaycanlılardan komplektləşdirilmiş diviziyaya komandir təyinatı təsadüfi olmamışdır. Azərbaycanda neftçi ailəsində böyümüş Züvanov adamları yaxşı tanıyır və Azərbaycan dilini bilirdi.

223-cü diviziyanın təşkili 1942-ci ilin aprelində başa çatır. Diviziyanın hərbi hissələrinin mitinqində batalyon komissarı rütbəsində olan Səməd Vurğun çıxış edir və onu diviziyanın fəxri əsgəri qəbul edirlər.

Məlum olduğu kimi, alman-faşist komandanlığı 1942-ci ilin yay hücumunda Qafqaz istiqamətinə başlıca əhəmiyyət verirdi. Hitler 1942-ci ilin əvvəlində bildirmişdi ki, hava yaxşılaşan kimi onun ordusu Qafqaz istiqamətində – Bakı neftinə doğru ən mühüm istiqamətlərdən zərbələr endirəcəkdir. Öz planlarını həyata keçirmək üçün alman qoşunlarına yanacaq lazım idi və bu ehtiyatı təmin etmək üçün "Cənub" ordusunun qarşısına Qafqazı və Stalinqradı tutmaq, Volqa çayında hərəkətin və yük daşınmasının qarşısını kəsmək və dayandırmaq vəzifəsi qoyulmuşdu.

---

[1] Материалы по 77 СД (начало: 30.10.1941 – окончено: 13.09.1945 г.) //Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, дело №339, листы –14.

1942-ci ilin yayında 92 faşist diviziyası Qafqaza və Stalinqrada doğru irəliləməyə başladı. 1942-ci il iyulun 30-da Baş Qərargahda çıxış edən Yodl bildirdi ki, "Qafqazın taleyi Stalinqrad ətrafında həll ediləcəkdir". "A" qrupu feldmarşal Listin komandanlığı ilə Qafqazın Qara dəniz sahillərini, Qroznı rayonunu tutmaq və Xəzər dənizi sahili boyunca Bakıya hücum etmək məqsədilə cənuba doğru hərəkət etdi. "B" qrupu orduları feldmarşal fon Bokun komandanlığı ilə Stalinqradı tutmalı, sonra öz qüvvələrinin bir hissəsini Həştərxan üzərinə yeritməli idi.

Qafqaza hücum üçün ordulara Listi komandan təyin edəndə Hitler ümid edirdi ki, tezliklə qələbə çalınacaq, bu səbəbdən də əməliyyatı çox sevdiyi dağ çiçəyi "Edelveys" adı ilə kodlaşdırmışdı.

1942-ci il avqustun ortalarında böyük Qafqaz silsiləsinin mərkəzi hissəsində 49-cu alman dağ-atıcı korpusu ilə Cənubi Qafqaz cəbhəsinin 46-cı ordusunun 3-cü atıcı korpusunun qüvvələri arasında dağ aşırımları uğrunda döyüşlər başladı. Bu dövrdə artıq 223-cü Diviziyanın komplektləşdirilməsi başa çatmışdı. 1942-ci il avqustun 1-də diviziya döyüşən 44-cü ordunun tərkibinə daxil edildi. Sentyabrın əvvəlində diviziya tutduğu mövqeləri tərk edərək yürüş cərgələri ilə Dərbənddən keçərək Mahacqalaya yola düşdü. Sentyabrın ortalarında Terek çayının sağ sahilində Qudermesdən Xəzər dənizinə qədər ikinci eşelonda müdafiə mövqeyi tutdu. Dekabrın 9-dan 10-a keçən gecə diviziya Terek çayının şimal sahilində Mozdok şəhərindən 50 km. şərqdə 9-cu korpusun hissələrini əvəz etdi. Dekabrın 1-də 223-cü Diviziya, 416-cı Azərbaycan və 414-cü Gürcüstan atıcı diviziyaları ilə birgə hücuma keçdi. Düşmən Naurskaya və İşşerskaya stanitsalarını tərk etməyə məcbur oldu.

İkinci günün axırında diviziya Krivonosovonu azad edərək, dekabrın 15-də Qalyuqayevskaya iri dəmiryol stansiyasını bütünlüklə ələ keçirdi. Dekabrın 1-də 1039-cu atıcı alay hitlerçiləri Sorokono yaşayış məntəqəsindən çıxardı. Digər iki alay ağır döyüşlərlə Stoderevskaya stansiyasına girdilər və dəmiryol qovşağı azad edildi.

Mozdok istiqamətində hücum 1943-cü il yanvarın 1-də başladı. Tərkibində 223-cü Diviziyanın da vuruşduğu 44-cü ordu düşmənin qruplaşmasını məhv etmək üçün Mozdok istiqamətində zərbə endirməli, 44-cü ordudan sağda Proxladnaya və Vorontsovo-Aleksandrovskoye üzərinə hücuma keçən iki süvari korpusu Kua çayı üzərindəki keçidləri ələ keçirməli və Georgiyevskinin tutulması üçün şərait yaratmalı idi. Göründüyü kimi, vəzifə ağır, qarşıda isə silahlanmış düşmən dayanmışdı.

223-cü atıcı diviziya dəmiryol xətti boyunca Stoderevskaya, Osetinskaya məntəqəsindən keçərək Mozdok üzərinə zərbə endirdi. Düşmən ordusu mövqelərini tərk etdi. 223-cü diviziyanın alayları geri çəkilən düşməni təqib edərək yanvarın 2-də Terek çayının cənub sahilinə çıxdı. Lakin əsir götürülən alman əsgəri alman qoşunlarının Mozdoku müdafiə etmək

niyyətində olduğunu bildirdi, yanvarın 3-də şiddətli döyüşlər yenidən başladı. Düşmənin 3-cü və 13-cü tank diviziyalarının əks-həmlələri dəf edildi. Nəhayət, 417-ci Diviziya Tereki keçib Mozdokun cənub-şərqinə çıxa bildi. Bu vaxt 223-cü Diviziyanın bölmələri şəhərin cənub-qərb ucqarındakı evləri tuturdu. Günorta vaxtı 223-cü diviziyanın bölmələri 417-ci atıcı diviziyanın hissələri ilə birlikdə Mozdoku bütünlüklə almanlardan təmizlədi.

223-cü Diviziyanın hissələri ilə almanlar arasında fasiləsiz döyüşlər yanvarın 4-10-u arasında davam etdi. Düşmən bir sıra yaşayış məntəqələrindən, o cümlədən Proxladnayadan qovulub çıxarıldı, Sovet qoşunları yanvarın 10-da Georgiyevski şəhərinə yaxınlaşdılar.

Georgiyevsk şəhəri əlverişli mövqedə yerləşirdi. Şəhər XVIII əsrdə qəza, sonra isə quberniya şəhəri olmuşdu. O vaxt Qafqazı çar Rusiyasının mərkəzi ilə birləşdirən poçt yolu Georgiyeski şəhərindən keçirdi. Qafqaz canişininin bir iqamətgahı da burada yerləşirdi. 1883-cü ildə burada Rusiya ilə Gürcüstanın Kartli-Kaxetiya çarlığı arasında müqavilə imzalanmış, İranın himayəçiliyindən imtina edən gürcü çarı II İrakli Rusiya təbəəliyini qəbul etmişdi. Bu hadisə tarixə "Georgiyevski traktatı" kimi daxil olmuşdu.

Almanlar şəhərin müdafiəsinə böyük əhəmiyyət verirdilər. Çünki bura Pyatiqorsk, Jeleznovodsk və Mineralnıye Vodıdan geri çəkilən almanlar üçün sipər rolu oynaya bilmədi. Bu səbəbdən də, diviziya komandiri V.Züvanov 1039-cu alayı şəhərin cənub-qərb ucqarına yönəltdi. 1041-ci alay mayor Hüseyn Hacıyevin komandirliyi ilə almanları sıxışdırmağa başladı. 351-ci əlahiddə kəşfiyyat bölüyünün taqım komandiri, leytenant Nəsir Aşurov düşmənin arxasına keçə bildi. 1037-ci alay sol cinahda təlim batalyonu ilə əlaqədə Podkumok çayını keçib şəhərə aparan yolu atəşə tutdu. 120 millimetrlik minaatanlar batareyasının komandir müavini Rəhman Kərimov daş evdə yerləşən almanları hədəfə aldı. Artilleriya divizionunun komandir müavini Cəlal Həsənov çavuş Abdulla Bayramovun topu ilə düşmən tanklarını atəşə tutdu. Batalyonların hücumuna davam gətirməyən almanlar Georgiyevskidən qaçarkən çəlləklərin üzərinə "spirt" yazaraq çəlləkləri zirzəmidə yerləşdirdilər. Əslində çəlləklərdə denaturlaşdırılmış spirt idi. "Spirt"dən qəbul edən xeyli adam zəhərləndi və 223-cü Diviziyanın bütün tibbi heyəti diviziya tibb xidməti rəisi mayor İsgəndər İsmayılov başda olmaqla adamları xilas etməyə səfərbər oldular.

Georgiyevski şəhərinin alınmasında 223-cü Diviziyanın əsgərlərinin xüsusi xidmətləri oldu. 44-cü ordunun Hərbi Şurasının Azərbaycan K(b)P MK-ya ünvanladığı teleqramda da Azərbaycan oğullarının rəşadəti fəxrlə bildirilirdi.[1]

Georgiyevskidə məğlub olan düşmən geri çəkilərək 1-ci tank Ordusunu Armavir və Tixoretsk istiqamətinə apardı. Düşməni addımbaaddım iz-

[1] ARPİİSSA, Fond №1, siyahı №177, sax. vah.№2, vərəq – 84.

ləyən 44-cü Ordunun birləşmələri hücumu gücləndirdilər. 223-cü Diviziyanın döyüşçüləri yanvarın 11-dən 12-nə keçən gecə 52-ci tank briqadası ilə qarşılıqlı əlaqədə Mineralnıye Vodı şəhərini azad etdilər.[1]

Döyüşlər getdikcə çətinləşir, keçilməz yollar, geri çəkilən almanların körpüləri partlatması, dəmiryollarının yararsız hala salınması hissələrin irəliləməsini çətinləşdirirdi.

Tibbi sanitar batalyonun qızları da çətin şəraitdə işləməyə məcbur idilər. Mozdok altında ağır döyüşlərdə yaralanan Səlimə Xəlilova rəfiqələri Anna Züvanova (komandirin həyat yoldaşı), Anatollu Əbilova və Xanım Əhmədova ilə birlikdə yaralılara yardım göstərirdilər.

Anatollu İbrahim qızı Əbilova 223-cü diviziyanın döyüşçüləri ilə birlikdə Mozdokda döyüşə girdi, Ukrayna torpağında Xarkov, Dneprodzerjinsk, Kotovsk, Odessa uğrunda döyüşlərdə iştirak etdi, onunla birlikdə Cəvahir Mirzəyeva, Səlimə Xəlilova əsgəri rəşadət göstərdilər.

A. Əbilova

A.Əbilova II Ukrayna cəbhəsi qoşunları tərkibində Belarusiyadan, Rumıniya və Macarıstandan keçib qələbə gününü mayın 9-da Çexoslovakiyada qarşıladı. Ordudan tərxis olunduqdan sonra respublikanın ictimai-siyasi həyatında fəal iştirak etdi.

Sanitar qızlar həm də yeri gələndə snayperçi kimi döyüşə atılırdılar. Göstərdiyi qəhrəmanlığa görə Səlimə Xəlilova "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.

A.Hitler Qafqazı itirmək istəmirdi, bu səbəbdən də Taman yarımadasında möhkəmlənməyi qərarlaşdırdı. Kuban uğrunda döyüşlər başladı. 1943-cü il yanvarın 21-də azacıq istirahətdən sonra 223-cü atıcı diviziya 2-ci ordunun eşelonunda Kubanı, Kiçik və Böyük Zelençuku, Upuru keçərək 1840-cı ildə Laba çayı üzərində qala kimi əsası qoyulmuş Labinskaya stanitsasına çatdılar. Stanitsa uğrunda döyüşlərdə diviziyanın siyasi komissiyasının katibi Abdulla Hüseyn oğlu Rəcəbovun minaatanları fərqləndilər. Düşmən Labinskayanı tərk etməyə məcbur oldu. 1943-cü il yanvarın 24-dək 223-cu Diviziya geri çəkilən düşməni təqib edərək Urmiya, Rodnikovskaya, Konstantinovskaya, Kurqaninskaya, Mixalyovskaya, Petropavlovskaya, Temirqovskaya, Tenginskaya, Novo-Labinskaya stanitsalarını azad etdi. Beləliklə, bir aylıq ağır döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri düşmənin Şimali Qafqazdan çıxarılması uğrunda döyüşlərdə Terekdən Kubana qədər 600 km. yol qət edərək Çeçen-İnquşetiya Muxtar Respublikasının, Stavro-

[1] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.25-26.

pol diyarının, Çərkəz Muxtar Vilayətinin və Krasnodar diyarının azad olunmasında iştirak etdilər.[1]

223-cu diviziyanın ön hissələri 1943-cü il fevralın 1-nə keçən gecə Nekrasovskaya stanitsasını azad edib, Xatuqay xutoruna daxil oldular. Diviziyanın komandiri Züvanovun fikrincə diviziya ilk mərhələdə Kuban üzərində keçidləri tutub çayı keçmək üçün hazırlıq görməli və əsas qüvvələrlə rayon mərkəzi Ust-Labinskayaya hücum etməli idi. Belə də oldu, diviziya fevralın 1-nə keçən gecə stanitsaya daha da yaxınlaşdı. Səhər saat 5-də artilleriya hazırlığı başlandı. Bundan istifadə edən diviziya hücuma keçdi. 1039-cu və 1041-ci alayların əsgərləri görünən kimi almanlar atəşi gücləndirərək hissələrin hücumuna mane olmağa çalışdılar. Yüksəklikdə mövqe tutmuş düşmən üstünlüyü əldə saxlayırdı. Saat 12-də hücum siqnalı verildi. "İL-2" hücum təyyarələri düşmənin ehtiyat qüvvələrinə və geri çəkilən hissələrinə zərbələr endirməyə başladı. 1039-cu alayın 3-cü batalyonu Əmir Məmmədovun komandanlığı altında alman səngərlərinə birinci çatdı. Fevralın 2-də günortaya qədər 223-cü Diviziya 9-cu dağ-atıcı diviziyası ilə əlaqədə Ust-Labinskaya stanitsasını almanlardan tamamilə azad etdi. Düşmən geri çəkilərək Voronejskaya stanitsası altında 2-ci müdafiə xəttində möhkəmləndi. Burada 2 alman diviziyası və təqribən 60 tank cəmləşdirilmişdi. Onlar 223-cü diviziyanın sol və sağ cinahına hücuma keçdilər. Lakin yenə də almanlar müvəffəqiyyət qazana bilmədilər. Fevralın 3-də dağıdılmış və yandırılmış Voronejskaya stanitsası azad olundu.

Alman orduları Şimali Qafqazda çətin vəziyyətə düşmüşdülər. Düşmən Şimali Qafqaz qruplaşmasını Rostova doğru çəkmək istəyirdi. Almanların "A" ordu qrupunun əsas qüvvələri, 21 diviziya daxil olmaqla Kubanın aşağı axarına və Taman yarımadasına tərəf geri çəkildi.

Sovet qoşunları Krasnodarı azad etməyə hazırlaşmağa başladı. Fevralın 1-də Krasnodar azad olundu. Qarşıda almanların son "sığınacağı" olan Krasnoselskaya vardı. Krasnoselskaya uğrunda döyüşlərdə alay komandiri Hüseyn Hacıyev, onun müavini Əliş Manafov, batalyon komandirinin siyasi hissə üzrə müavini Nəcməddin Mayılovun başçılıq etdiyi hissələr rəşadətlə vuruşdular.

Mayor Abbas Abdullayevin komandirlik etdiyi 1037-ci alay inamla hərəkət etdi. Hücumlar zamanı kapitan Əli Səfərov ölümcül yaralandı, aldığı yaradan hospitalda vəfat etdi. Taqım komandiri Səfər Aslanov, sıravi əsgərlər İsmayıl İsmayılov, Mirağa Cəfərov qəhrəmanlıqla həlak oldular. Öz döyüşçüsü Qara Əliyevlə alman tankını vurmuş tank əleyhinə bölüyün siyasi rəhbəri Yusif Ələsgərov ağır yaralandı. 351-ci əlahiddə kəşfiyyat bölüyünün kəşfiyyatçısı Hacıağa Eynullayev döyüşdə fərqləndi.

---

[1] Mehdiyev, B.M. 223-cü Qırmızı bayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.41.

Müvəffəqiyyət qazanmayan düşmən fevralın 13-də müdafiəyə keçdi. Qarşıda Krasnoarmeyskayanın azad olunması dayanırdı. Alaylar düşmən üzərinə hücuma keçdilər. 1041-ci alayın zərbə qüvvəsi olan iki batalyon, kapitan Məhəmməd Nurəddinov və kapitan Dəmir Məmmədovun komandirliyi altında irəlilədilər. Nurəddinovun batalyonu stanitsanın şimal-qərb kənarına çıxa bildi. Şiddətli artilleriya atəşindən sonra alman piyadaları 1041-ci alayın üzərinə yeridi. Hər iki tərəfdən güclü atəş səsləri yüksəlir, əsgərlərin sıraları seyrəlirdi. Leytenant Daşdəmir Hacıyevin komandir olduğu ikinci atıcı bölüyün vəziyyət ağırlaşdı. Leytenant Hüseyn Hüseynovun batareyasında cəmi iki tank salamat qalmışdı. 818-ci alayın siyasi rəhbəri Məmmədsəlim Tahirli (M.S.Tahirli Azərbaycanın böyük satirik şairi Mirzə Ələkbər Sabir Tahirlinin oğludur. 1966-1970-ci illərdə APİ-də (indiki ADPU-da) qiyabi təhsil üzrə prorektor işləmişdir) ən çətin anlarda topların yanından çəkilmədi. Siyasi rəhbər Şahlar Şərifov, döyüşçülərdən Mirzə Həbibov, Cəbrayıl Yetimov, Qurbanəli Eyvazov və bir çox başqaları qəhrəmanlıqla həlak oldular.

Krasnoarmeyskayanın azad olunması münasibətilə mitinq təşkil olundu. Azərbaycan milli ədəbiyyatının ən yaxşı nümayəndələrinin – **Səməd Vurğun, Mehdi Hüseyn, Süleyman Rüstəm, Məmməd Rahim, Zeynal Xəlil, Əhməd Cəmil, Rəsul Rza, Məmməd Aranlının** daxil olduğu nümayəndə heyəti, həmçinin 223-cü diviziyanın hərbi hissələrinin və xüsusi bölmələrinin nümayəndələrinin iştirak etdiyi mitinqdə, Krasnoarmeyskaya stanitsası uğrunda döyüşlərdə fərqlənmiş dəstə komandiri Əli Əliyev Azərbaycan hökumətinin qərarını oxudu. Georgiyevski şəhərinin, rayon mərkəzi Ust-Labinskayanın və Krasnoarmeyskaya stanitsasının azad edilməsində fərqləndiyinə görə 223-cü Diviziyanın hərbi hissələrinə, birləşmələrə, bölmələrə verilmək üçün müəyyənləşdirilmiş Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin keçici Qırmızı Bayrağı diviziyanın 1041-ci alayına verildi.[1]

Qafqaz uğrunda döyüşlər faşist Almaniyasının niyyətlərini puça çıxardı. Zaqafqaziya cəbhəsinin qoşunları arasında Qafqaz xalqlarından təşkil olunmuş 10-dan çox diviziya, o cümlədən 77-ci, 223-cü, 402-ci, 416-cı Azərbaycan diviziyaları vuruşurdu. Onlar Qafqazın müdafiəsində, ilk növbədə müdafiənin ən ağır dövründə – 1942-ci ilin avqust-dekabr aylarında böyük rol oynadılar. Digər hissələr və birləşmələrlə birlikdə düşmən Şimali Qafqazdan qovuldu.

Milli diviziyalar öz vəzifələrinin öhdəsindən şərəflə gəldilər. Qafqaz cəbhəsində 66 min 161 nəfər azərbaycanlı döyüşçü iştirak etdi. Qafqazdakı döyüşçülərin qəhrəmanlığı yüksək qiymətləndirildi. SSRİ Ali Soveti

[1] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.90

Rəyasət Heyətinin 1943-cü il 25 yanvar tarixli fərmanı ilə "Qafqazın müdafiəsinə görə" medalı təsis olundu.

1943-cü ilin yazı böyük operativ fasilə dövrü oldu. Əslində hər iki tərəf qarşıdakı döyüşlərə hazırlaşır, qüvvələri müəyyənləşdirir, döyüşlərdə itirilmiş itkilərin yerini doldurmaq üçün yerdəyişmələr aparırdı. 223-cü Diviziyanın da tərkibini tamamlamaq lazım gəldi. Yeni qüvvələr hesabına diviziyanın tərkibi tamamlandı.

Almanlar şərti olaraq "Sitadel" adlandırdıqları əməliyyata hazırlaşırdılar. Hitlerçilər Kursk istiqamətində 50-yə yaxın diviziya toplamışdılar. Düşmənin niyyətindən xəbər tutan sovet komandanlığı da qüvvələri həmin istiqamətdə toplamaqda davam edirdi.

1943-cü ilin yayında baş vermiş döyüşlər qüvvələr nisbətini dəyişmişdi. Oryol-Belqorod, Belqorod-Kursk istiqamətlərində hitlerçilərin darmadağın edilməsi, alman-faşist qoşunlarının Oryol döyüş meydanının ləğvi üzrə Qərb, Bryansk və Mərkəz cəbhələri qoşunlarının hücumu, düşmənin Belqorod-Xarkov qruplaşmalarının darmadağın edilməsi uğrunda Voronej, Cənub-Qərb və Səhra cəbhələrinin əks-hücumu döyüşçülərin döyüş təcrübəsini artırmışdı. 46-cı Ordunun qoşunları da yenidən qruplaşdırıldıqdan sonra Xarkovun cənub-qərbindəki Taranovka-Borki rayonuna yeridilmişdi. 223-cü Diviziya Sokolova-Merefa istiqamətində, Xarkov-Lozovaya dəmiryolunun Taranovka-Borki sovxozu rayonunda yolu kəsərək düşmənin Xarkov qruplaşmasının yolunu cənubdan bağlamalı idi.

Nəhayət, 1943-cü il sentyabrın 10-da qoşunlar uzun sürən aviasiya və artilleriya hazırlığından sonra hücuma keçdilər. 223-cü Diviziya Borki sovxozu uğrunda ağır döyüşlər apardı. 1037-ci alay 57-ci alman ehtiyat alayının müdafiə sahəsini yaramağa müvəffəq oldu. 1941-ci alay sağ cinahda irəlilədi. Mayor İsgəndərovun batalyonu üzərinə yeriyən alman tanklarının hücumu dayandırdı. Ağır itki verən düşmən geri çəkildi. 223-cü Diviziya bütünlüklə Borki sovxozunu ələ keçirdi. Borki sovxozu ərazisində əla döyüş xidmətlərinə və Xarkov qruplaşmasının darmadağın olunmasında iştirakına görə 223-cü Diviziyanın şəxsi heyətinə 46-cı Ordunun Hərbi Şurası tərəfindən təşəkkür elan olundu. "Pravda" qəzeti döyüşçülərin qəhrəmanlığından bəhs edərək 1943-cü ilin yayında yazırdı: "Donbas, Konotov və Baxmaçın, Mariupol və Vonovaxanın, Çaplino və Barvenkovonun şöhrətli, xilaskar qəhrəmanları Oryol, Xarkov və başqa şəhərlərin xilaskar qəhrəmanları kimi alman vəhşiliklərinə qarşı öz qəhrəman mübarizələri ilə dünyanın bütün azadlıqsevər xalqlarının məhəbbətini qazanmışlar. Onların qələbəsinin şöhrəti heç zaman unudulmayacaqdır".[1]

---

[1]Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.114-115.

Döyüşlərdə uğur əldə edən 46-cı Ordunun qarşısına çətin bir vəzifə – Dnepri Dneprodzerjinski şəhərinin şimal-qərbinə, Soşinovka-Aul rayonuna keçmək vəzifəsi qoyuldu. Bu ərəfədə 223-cü Diviziyanın alayları Dneprin sol sahilinə – Boqdanovka-Yelizavetovka-Kulişa rayonuna çıxmışdı. Ön hissələr və kəşfiyyat dəstələri 1943-cü il sentyabrın 26-na keçən gecə Dnepri keçməyə başladılar. İlk olaraq çaya 1039-cu alayın hücum qrupları girdilər. 1041-ci alay da çayı keçməyə başladı. Sentyabrın 28-də Aul meydanında döyüşlər qızışdı. 223-cü Diviziyanın alayları Aulu tutmalı və Dneprodzerjinskini Apyatixatka ilə birləşdirən dəmiryol xəttinə çıxmağa, qüvvələri artırmağa şərait yaratmalı idi. 223-cü Diviziyanın alayları sentyabrın 29-da aviasiya və artilleriyanın zərbələrinin müşayiəti ilə hücuma keçdilər. 223-cü Diviziyanın alaylarının Dneprin sağ sahilində genişlənən hücumu, Aul döyüş meydanının yaradılması, dəmiryolu hissəsinin xeyli hissəsinin tutulması ilə düşmənin Pyatixatkaya olan yolu kəsildi. Vəziyyətin ağırlaşdığını görən hitlerçilər qüvvələri qruplaşdırmağa və ehtiyatları yaxına çəkməyə başladı, 4 piyada diviziyasını (28, 39, 62, 28) və 128-ci tank alaylarını gücləndirməyi qərara aldı. Bu diviziyalar Aul-Çervonnoye sahəsində 46-cı ordusunun 223-cü, 236-cı diviziyalarına, həmçinin 68-ci korpusun 36-cı və 41-ci qvardiya, 303-cü atıcı diviziyalarına qarşı dururdu. Alman batalyonlarının hücumunu qarşılayanlardan biri də 1941-ci alay oldu. Batalyon komandiri İsayev yaralansa da, döyüş meydanından çəkilmədi. Alay siyasi rəhbəri Talıb Paşayev və bölük komsomol təşkilatı rəhbəri Sərxan Beydullayev döyüşçülərlə birlikdə qəhrəmanlıq göstərdi. Mayor Nurəddinovun batalyonu əlbəyaxa döyüşdən çəkinmədi. 1037-ci alay mayor Məmmədhüseyn Aşurovun komandanlığı altında inadla döyüşdülər. Mozdokdan Dneprədək döyüş yolu qət etmiş qorxmaz döyüşçü baş leytenant Nəcəf Eminbəyli döyüşdə qəhrəmancasına həlak oldu.

Oktyabrın 15-də 2-ci Ukrayna Cəbhəsinin qoşunları ordu generalı İ.S.Konevin komandanlığı altında Səhra cəbhəsinin zərbə qruplaşması ilə birlikdə Kremençuq döyüş meydanından Pyatixatka-Krivoy Roq istiqamətində hücuma keçdilər. Nəticədə düşmənin işğal etdiyi Sağsahil Ukraynasının içərilərinə girən döyüş meydanı Sovet qoşunlarının nəzarəti altına keçdi. Oktyabrın ikinci yarısında Krivoy Roq rayonunda və Kirovoqraddan şərqdə kəskin döyüşlər başladı. Oktyabrın 19-20-də 223-cü Diviziya 46-cı Ordunun tərkibindən çıxarılaraq Kremençuq döyüş meydanına, 2-ci Ukrayna Cəbhəsinin ehtiyatına verildi. Diviziya hücumu genişləndirərək dekabrın 7-də iri yaşayış məntəqəsi Spasovonu tutdu. Diviziya 1943-cü ilin noyabr-dekabr aylarında 6 yaşayış məntəqəsini azad etdi. Düşmənin 4.500 nəfər əsgər və zabiti, 20 tankı, 5 zirehli maşını, 14 topu, 68 minaatanı, 83 pulemyotu məhv edildi.[1] Beləliklə, diviziya Sağsahil və Solsahil Ukraynası

[1] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.150

ərazisində aparılan döyüşlərin gedişində 1.000 kvadrat kilometrə qədər Ukrayna torpağını alman işğalçılarından azad etdi və döyüşə-döyüşə 400 kilometr yol keçdi.

Diviziyanın döyüş xidmətləri Ə.Qasımovun Azərbaycan K(b)P MK-ya yazdığı məktubda dolğun ifadə olunmuşdu. Məktubda döyüşçülərin qəhrəmanlığından bəhs olunur və sonda bildirilirdi: "…Bütün heyət qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak oldu….Onların ölməz qəhrəmanlığı hər bir azərbaycanlıya məlum olmalıdır".[1]

Azərbaycan K(b)P MK katibləri H.Həsənov, Q.Məmmədov və S.Qafarzadə tərəfindən imzalanmış 1944-cü il 17 yanvar tarixli cavab məktubunda deyilirdi: "Hörmətli Ə.R.Qasımov yoldaş! Sənin bizim üçün doğma olan 223-cü Diviziyanın adamları və işi haqqında Azərbaycan K(b)P MK-ya göndərilən ətraflı məktubunu aldıq. Məktubu diqqətlə oxuduq, diviziya döyüşçülərinin və zabitlərinin döyüş xidmətlərindən olduqca razı qaldıq. MK bürosu məktubun məzmunu ilə respublikanın rəhbər işçilərini tanış etmiş, respublika zəhmətkeşləri, xüsusilə gənclər arasında bu məktubun geniş yayılması, diviziya ilə müntəzəm əlaqə yaradılması haqqında bir sıra göstərişlər verilmişdir".

1944-cü ilin yanvar-fevral aylarında diviziyanın alayları məhəlli əhəmiyyətli döyüşlərdə iştirak etdilər. Fevralın 23-28-də keçirilən yenidən qruplaşmadan sonra diviziya 57-ci Ordunun tərkibində Kotovka yaşayış məntəqəsi rayonunda yerləşdirildi. Fevralın 29-da diviziyanın alayları hücuma keçərək almanların müdafiəsini yardılar.

223-cü Diviziyanın alayları Cənubi Buğun keçilməsində əsil rəşadət göstərdilər. Diviziyanın Dnestrə çıxan alayları ümumi uzunluğu 400 kilometr olan 30 günlük hücum yolunu başa çatdırdılar. 1944-cü ilin üçüncü zərbəsində iştirak edən diviziya 950 kvadrat kilometr Ukrayna və Moldova torpaqlarını, 89 yaşayış məntəqəsini azad edərək 50 minə qədər adamı xilas etdilər. Bu dövr ərzində 2.900 hitlerçi öldürüldü, 104 nəfər əsir alındı, 10 tank, 25 top, 85 pulemyot, 300-dən çox avtomobil və başqa hərbi sursat məhv edildi.[2]

223-cü Diviziyanın döyüş yolunda Dnestr uğrunda döyüşlər xüsusi mərhələni təşkil edir. Alman komandanlığı Dnestr uğrunda döyüşləri strateji istiqamət kimi qiymətləndirir və sovet qoşunlarını Balkanlara buraxmamağa çalışırdı.

223-cü Diviziyanın bir çox adlı-sanlı döyüşçüləri Dnestri keçərkən şöhrət qazandılar. 1041-ci alayın rəşadətli döyüşçüləri M.Mirzəyev, B.Hacıyev, İ.Əliyev döyüşlərdə igidlik nümunələri göstərdilər. Taqım komandiri

---

[1] Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945). Баку, 1976. – с. 485

[2] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.186.

Qurban Baxşəli oğlu, tuşlayıcı serjant S.Əliyev, serjant Hüseynov şəxsi qəhrəmanlıqları ilə döyüşçüləri ruhlandırdılar.

Diviziyanın şəxsi heyətinin cəsarəti, igidliyi və yüksək hərbi məharəti 1944-cü ilin may günlərində özünü göstərdi. 1037-ci alayın bölmələri düşmənin əks-hücumlarını müvəffəqiyyətlə dəf etdilər. İyulun 14-də 1037-ci alayın sahəsində iki alman hərbiçisi özlərini könüllü təslim etdilər.

Diviziya Şopen döyüş meydanında cəsarətlə vuruşdu. Diviziya hissələri burada 5 min kub metrlik torpaq işi gördü, 24 kilometr xəndək qazdı, tank və piyada əleyhinə 10 min mina qoydu. Snayperçilər 355 hitlerçini məhv etdilər. Şopen döyüş meydanındakı döyüşlərin gedişində diviziya düşmənin 2600 əsgər və zabitini, onlarla top və pulemyotunu, 9 tankını və digər hərbi sursatını sırada çıxardı.

1944-cü il avqustun 7-də 223-cü Diviziya Benderinin cənub-şərqinə keçirildi. Baş Qərargahın əmrinə uyğun olaraq 3-cü Ukrayna Cəbhəsinə Benderidən cənubda düşmənin müdafiəsini yaratmaq əmr olundu. 223-cü Diviziya 57-ci Ordunun tərkibinə daxil edildi. Beləliklə, komandanlığın əmrinə müvafiq olaraq 57-ci Ordu əsas zərbəni sağ cinahındakı 68-ci korpusun qüvvələri ilə endirməli idi. Korpusun tərkibinə daxil olan 1008-ci və 595-ci qırıcı tankvuran artilleriya alayları, 523-cü minaatan alayı, fuqas odsaçan batalyonu, 5-ci əlahiddə hücum alayı 9-cu və 64-cü korpusların artilleriya və minaatanlarının köməyi ilə hücuma keçərək Xacimus, Kirkoyeştı rayonunda düşmənin müdafiəsini cəbhə boyu 4 km. məsafədə yarmalı idi.

Dnestrin müdafiəsində keçirdiyi 130 gündən sonra 223-cü Diviziya 1944-cü il avqustun 20-də Yassı-Kişinyov əməliyyatının iştirakçısı oldu. Diviziyanın 1037-ci və 1039-cu alayları 68-ci korpusun 2-ci səddini təşkil edirdi. 1041-ci alay Benderi rayonunda Dnestrin döngəsində 57-ci Ordunun sağ cinahını qoruyaraq "Suvorov qəsəbəsi"nə yönəlmişdi.

Döyüşlərin birinci günü 37-ci və 46-cı ordular düşmənin müdafiə xəttini cəbhə boyu 40 km-ə qədər məsafədə yardılar. 57-ci ordunun müvəffəqiyyəti o qədər də yüksək olmadı. Hücum cəhdləri nəticə vermədiyindən ordu komandanlığı 223-cü Diviziyanı döyüşə yeritdi. Döyüşün ilk dəqiqələri 223-cü Diviziya üçün uğursuz olduğundan almanların Benderi artilleriya qrupu atəşi gücləndirdi. Avqustun 28-də düşmən günün ikinci yarısında 8 dəfə şiddətli əks-hücuma keçdi. Diviziyanın döyüşçüləri süngü döyüşünə keçməyə məcbur oldular. Avqustun 24-də almanlar geri çəkildilər və döyüşçülər onları təqib etməyə başladılar.

223-cü Diviziya Yassı-Kişinyov əməliyyatında iştirak edərək 25 yaşayış məntəqəsini əhatə edən 279 kvadrat kilometr ərazini azad etdi. 50.000 min nəfərdən artıq sovet adamı faşist köləliyindən qurtarıldı. Döyüşlərdə düşmənin 4 min nəfərdən artıq əsgər və zabiti məhv edildi. 7 tank və zirehli maşın, 10 top, 11 minaatan, 110 pulemyot, 30 avtomobil sıradan çıxarıldı. 3.885 nəfər əsir alındı. 1 təyyarə, 5 tank, 3 top, 20 minaatan,

145 pulemyot, 2 minə yaxın tüfəng və avtomobil, 5 parovoz, 108 vaqon, 1500 yüklü araba, 500 at, 5 müxtəlif anbar qənimət kimi ələ keçirildi.[1]

3-cü Ukrayna Cəbhəsi qəzetinin müxbiri olmuş yazıçı Məmməd Aranlı Səməd Vurğuna yazdığı məktubunda 223-cü Diviziyanın 1041-ci alayının döyüş xidmətlərindən bəhs edərək bildirirdi ki, alay 6-cı alman ordusunu parçalayaraq onun geri çəkilmə yollarını kəsmiş, Yassı-Kişinyov əməliyyatında həlledici rol oynamışdır.

Yassı-Kişinov əməliyyatından şərəflə çıxan diviziyanın komandanlığı azərbaycanlı döyüşçülərin qəhrəmanlığı haqqında Azərbaycan K(b)P MK, Azərbaycan SSR XKS və Azərbaycan SSR Ali Sovetinə 1944-cü il 4 sentyabr tarixli məktubunda yazırdı: "Böyük Vətən müharibəsi cəbhələrində Azərbaycan oğulları… qəhrəmanlıqla vuruşurlar….Bizim diviziyamızın döyüşçüləri və komandirləri…nəhəng döyüşlərlə Kubandan, Ukraynadan, Moldovadan ötərək, ciddi su maneələrindən – Don, Dnepr, Cənubi Buğ və Dnestr çaylarından keçmişlər.

Bizim diviziyanın yetirməsi Mehdiyev xidmətə leytenant kimi başlamış, indi mayordur, alay komandiridir…sinəsini altı orden və medal bəzəyir …Azərbaycanın rəşadətli oğulları M.Mirzəyev, Bağırov, İ.Əliyev igidlik nümunələri göstərmişlər və göstərirlər …Starşina Səfiquluyev təcrübəli partiya rəhbəri kimi yetişmişdir. Səfiquliyev "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdir. Qoçaq kəşfiyyatçı, taqım komandiri Qurbanov Çərkəz Baxşəli oğlu sıravi əsgər idi, indi zabitdir. Qurbanov üç dəfə ordenlə təltif olunmuşdur. Çavuş Hüseynov iki tankı vurmuş və onlarca almanı öldürmüşdür. Onun üç hökumət mükafatı vardır. Top tuşlayıcısı çavuş **S.Əliyev** də üç ordenlə təltif olunmuşdur. Fəhlə Əsədullayevin qızı **Sona** çətinliklərdən qorxmayaraq yaralılara kömək göstərir. Hökumət onu "Qırmızı Ulduz" ordeni ilə mükafatlandırmışdır".

Məktubda Azərbaycan xalqının göndərdiyi hədiyyələrin diviziyada döyüş ruhunun artmasına kömək etdiyindən bəhs olunur və bildirilirdi ki, …düşmənin Dnestrdə möhkəmləndirilmiş müdafiəsinin yarılması uğrunda döyüşlər ərəfəsində alınmış bu hədiyyələr döyüşçüləri, çavuş və zabitləri misilsiz qəhrəmanlıqlara ruhlandırmışdır. Diviziyanın şəxsi heyəti hədiyyə göndərmiş Azərbaycan kolxozçularına, fəhlələrinə və ziyalılarına öz dərin minnətdarlığını bildirir.

Məktubun sonunda bildirilirdi: "…indi bizim diviziyamız Rumıniya torpaqlarına qədəm qoymuşdur. Diviziyanın döyüş yolu hər bir döyüşçünü ruhlandırır. Onlar diviziyanın şöhrətini artırmağa və gələcəkdə də belə igidliklə, cəsarətlə vuruşmağa, düşmən üzərində sevincli qələbə gününü

[1]Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.231.

yaxınlaşdırmağa söz verirlər”. [1] Məktubu 223-cü diviziyanın komandiri, polkovnik Tatarçevski, 223-cü diviziyanın siyasi şöbə rəisi, qvardiya polkovniki Lebedev imzalamışdılar.

Məktub göndərilən zaman diviziyanın ilk komandiri Züvanov 416-cı Taqanroq Diviziyasının komandir müavini idi. 223-cü Diviziya yarandığı vaxtdan 3 ordunun tərkibində döyüş yolu keçmişdir. Diviziyanın təşkil olunma dövrü **37-ci Orduda** keçmiş, Şimali Qafqazda döyüş təcrübəsi toplamış, Xarkov ətrafında ilk sınaqdan əla çıxan diviziya **46-cı Ordu**nun tərkibində bütün Solsahil Ukraynasını azad etmiş, Dnepri keçmişdir. Moldaviyaya daxil olan diviziya **57-ci Ordunun** tərkibində Yassı-Kişinyov əməliyyatında iştirak etmişdir.

223-cü Diviziya 1944-cü il sentyabrın 2-də Dunay çayını – SSRİ və Rumıniya dövlət sərhədlərini keçdi. Bundan iki gün əvvəl avqust döyüşlərində iştirakına və Konstantsa (Rumıniya) şəhər limanının ələ keçirilməsinə görə diviziyanın bütün şəxsi heyətinə təşəkkür elan edilmişdi. Sentyabrın 7-də diviziyanın alayları rumın-bolqar sərhədinin bir neçə kilometrliyində cəmləşdi. Sentyabrın 9-na keçən gecə 57-ci Ordunun ön hissələri rumın-bolqar sərhədini keçdilər. Onların içərisində 223-cü Diviziyanın alayları da vardı. Sentyabrın 9-da üsyan etmiş bolqar xalqı monarxist – faşist hökumətini devirdi. Diviziyanın alayları Şumen və Razqradı azad edib sentyabrın 15-də Vetova adlı ərazi cəmləşərək müvəqqəti müdafiə mövqeyi tutdular. Sentyabrın 24-də diviziya Plevenə daxil oldu. Bolqarıstan ərazisində əla döyüş xidmətlərinə və Şumen (Şumla) şəhərinin azad olunmasına görə Ali Baş Komandanın 1944-cü il 9 sentyabr tarixli əmri ilə 223-cü Diviziyanın bütün şəxsi heyətinə təşəkkür elan olundu.

Sentyabrın 27-də 57-ci Ordunun avanqard dəstələri Breqevo-Kosovo-Şişentsı xəttinə çıxaraq yerli əhəmiyyətli döyüşlərə başladı. 68-ci Ordunun birləşmələrinə də hücum əmri verildi. Sentyabrın 28-də diviziya Bolqarıstan-Yuqoslaviya sərhədində cəmləşdi. Sol cinahda hücum edən 223-cü Diviziya Rqotin, Slatina dəmiryol qovşaqlarını təmizləmək, cənubdan Zayeçardan gələn yolları tutmaq və düşmənin ehtiyat qüvvələrinin Heqotinə yaxınlaşmasına mane olmaq əmri aldı. Beləliklə, 57-ci Ordunun hissələri arasında Yuqoslaviya torpaqlarına birinci qədəm qoymaq 1941-ci alaya qismət oldu. Alay ordunun digər hissələrindən əvvəl Timok çayını keçdi. Ağır döyüşlərdə almanların 1-ci Alp Diviziyasının 1-ci və 73-cü alaylarının bölmələrini darmadağın edib Tabakova stansiyasını, Veliko Yasekovo, Koprivnitsa, Salaş kəndlərini azad edərək Rqotinə yaxın mövqe tutdu.

Almanlar Rqotində böyük qüvvə cəmləşdirmişdilər. 1041-ci alay almanların müdafiəsini yararaq düşməni yaxınlıqdakı təpələrdən vurub çıxardı və şəhərin şimal-şərq kənarına çatdı. 1041-ci alay 1039-cu alayla bir-

[1]ARPİİSSA, Fond №1, siyahı №238, iş №258, vərəq – 30-32.

ləşərək almanları güclü atəşə tutmağa başladı. Oktyabrın 2-də gecə saat 1-də şəhər tamamilə almanlardan təmizləndi. 400-ə qədər alman əsgəri məhv edildi, 300 nəfərdən çox adam əsir alındı. Rqotin uğrunda döyüşlər 223-cü Diviziyanın 1941-ci alayının döyüş tarixinə qızıl hərflərlə yazıldı. 1941-ci alayın komandiri mayor Baxış Mehdiyev döyüşün uğurunu təmin etmişdi.[1]

Oktyabrın 7-də Zlota qarnizonu təslim oldu. Oktyabrın 9-da 223-cü Diviziya Boqovin müqavimət qovşağının qərb tərəfindən ötüb düşmən qarnizonunu məhv etdi. General Fişerin döyüş qrupu məhv edildi. Fişer özü nəqliyyat "Yunker" təyyarəsində qaçdı. Düşmən Boqovitsanın küçələrində 700 əsgər və zabitinin cəsədini qoydu, 250 hitlerçi əsir götürüldü. Beləliklə, Şərqi Serbiyanın azad edilməsi uğrunda mübarizənin birinci mərhələsi başa çatdı.

Oktyabrın 12-də diviziyanın hissələri Moravaya çataraq Çupriya şəhərində döyüşə girdilər. Çətin əməliyyat şəraitində irəliləyən diviziya Jaqubitsanı, Krepolini keçərək cənub-qərb istiqamətində döyüşlər apardı. 68-ci Korpusun üç diviziyası – 93-cü, 113-cü və 223-cü diviziyalar Böyük Morava çayına çıxdı və 57-ci ordunun əsas zərbə istiqaməti müəyyənləşdi.

Lakin düşmən şiddətli müqavimət göstərir, yol qovşaqlarını əldə saxlamağa çalışırdı. Bu isə 3-cü Ukrayna cəbhəsinin Belqrad əməliyyatını çətinləşdirirdi. Bütün çətinliklərə baxmayaraq sovet qoşunları oktyabrın 15-də Yaqodinaya xeyli yaxınlaşdı. Yaqodina üzərinə hücum edən hissələr 200-dən çox almanı məhv etdi, 74 nəfər əsir alındı. Oktyabrın 17-də bütün artilleriyanın çayın qərb sahillərinə keçirilməsi başa çatdı.

Belqradın azad edilməsi çətin şəraitdə gedirdi. Almanlar hissələrinin itkiləri ilə razılaşmayaraq müqavimət göstərməkdə davam edirdilər. Nəhayət, oktyabrın 19-da alman qruplaşmaları ləğv edildi. Bir gün sonra - **oktyabrın 20-də Belqrad azad edildi.** Moskva Yuqoslaviya paytaxtını azad etmiş döyüşçüləri 24 topdan 24 yaylım atəşi ilə salamladı. Ali Baş Komandanlığın əmrində adı çəkilənlərin birinci sırasında **223-cü Azərbaycan atıcı diviziyası** vardı. Həmin vaxtdan diviziya "**Belqrad**" **diviziyası** adlanmağa başladı. SSRİ Ali Sovetinin 19 iyun 1945-ci il tarixli fərmanı ilə "Belqradın azad olunmasına görə" medalı təsis olundu və bu əməliyyatın bütün iştirakçıları bu medalla təltif olundu.

223-cü diviziya Belqraddan keçərək yeni tapşırıqları yerinə yetirmək üçün döyüş yolunu davam etdirdi. Şərqi Serbiyanın azad olunması uğrunda döyüşlər oktyabrın sonunda başa çatdı. 223-cü diviziya öz hücum zolağında Yuqoslaviyanın 150 min əhalisi yaşayan 2.000 kvadrat kilometrdən çox ərazini azad etdi. Oktyabr döyüşlərində düşmənin 5.000 nəfərdən çox əsgər və zabiti öldürüldü, 3.327 nəfər əsir alındı. 5 tank, 30 top, 10 minaatan, 50 pulemyot, 95 avtomaşın sırada çıxarıldı. 3 tank, 42 top, 20 minaatan, 25 pulemyot, 2.100 tüfəng və avtomat, 69 avtomaşın və yedək maşını, 45

[1] Белградская операция. Москва, 1964. – с.156-157.

parovoz, 1.300 vaqon, 12 müxtəlif anbar, çoxlu silah və hərbi əmlak qənimət alındı.[1]

223-cü Belqrad Diviziyasının qəhrəmanlarının bir çoxu vətəndən uzaqda uyuyur. Belələrindən biri də, Sloveniyanın Çepovan kəndində uyuyan Mehdi Hüseynzadədir.[2]

Transivaniya və Belqrad istiqamətində əməliyyatlar başa çatdıqdan sonra 2-ci və 3-cü Ukrayna cəbhələrinin qoşunları Macarıstan ərazisində döyüşlər apararaq 1944-cü ilin dekabrın 26-da Budapeştdə düşmənin 180 minlik qruplaşmasını mühasirəyə aldılar. Artıq bu zaman 223-cü Diviziyanın hissələri Sambor şəhərinin şimal-qərbində Yuqoslaviya-Macarıstan sərhədini keçmişdilər.

Diviziya yeni ili düşmənin Budapeşt qruplaşmasının xarici həlqəsində qarşıladı. Almanlar tank qüvvələrini cəmləşdirərək Yestorqom istiqamətində Budapeştin üzərinə hərəkət etdilər. Düşməni Budapeştə buraxmamaq vəzifəsini yerinə yetirən 223-cü Belqrad Diviziyası fevralın 10-da öz sahəsini təhvil verərək yenidən 46-cı ordunun 68-ci Belqrad atıcı Korpusunun tərkibinə daxil edildi. 1945-ci il **fevralın 13-də Budapeşt azad edildi**. Qoşunlar Tata şəhərinə doğru istiqamət götürdülər. Martın 19-da şəhər sonuncu alman avtomatçılarından azad edildi. Ali Baş Komandanlığın 25 mart 1945-ci il tarixli 308 №-li əmri ilə Budapeşt şəhərinin qərbindəki Verteş-xedşaq dağında düşmənin möhkəmləndirilmiş müdafiə istehkamlarının yarılmasına və Tata şəhərinin alınmasına görə 223-cü "Belqrad" Diviziyasına təşəkkür elan olundu. **SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 26 aprel tarixli fərmanı ilə 223-cü Azərbaycan "Belqrad" atıcı Diviziyası "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.**

223-cü Diviziyanın döyüşçüləri sırasında xeyli qızlar vardı. Öz cəsurluğu ilə seçilən azərbaycanlı Qədriyyə döyüş yoluna Şimali Qafqazdan başlamış, o həm də Ukrayna torpağında döyüşmüşdü. 3-cü Ukrayna cəbhəsi, 46-cı Ordunun xüsusi şöbəsində xidmət etdi.

Leytenant rütbəsi alan Qədriyyə Macarıstana qədər döyüş yolu keçdi, qələbəni Vyanada qarşıladı. 1945-ci ildə ADU-nun tarix fakültəsinin fəlsəfə bölməsinə daxil olan Qədriyyə 1953-cü ildə namizədlik, 1971-ci ildə doktorluq dissertasiyası müdafiə edərək öz elmi-pedaqoji fəaliyyətini davam etdirdi.

Bikə Gözəlova Ağdaş şəhərində anadan olmuşdu. Döyüş yoluna 223-cü atıcı Diviziyasında Mozdokda başlayan Bikə, Budapeştə qədər döyüş yolu keçdi, qələbə sevincini Çexoslovakiya torpağında qarşıladı. "Qafqazın

---

[1] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.259.

[2] M.Hüseynzadə haqqında "Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları" bölməsində ətraflı məlumat verilmişdir.

müdafiəsinə görə", Budapeştin, Belqradın, Vyananın alınmasına görə, Almaniya üzərində qələbəyə görə medalları ilə təltif olunan Bikə Gözəlova ordudan tərxis olunduqdan sonra Ağdaşda əmək fəaliyyətini davam etdirdi.

223-cü Diviziyanın tərkibində Dnepr çayını keçən, yaralıların döyüş meydanlarından çıxarılmasında mərdlik nümunəsi göstərən Furfanda Kazım qızı Cəmilova diviziya ilə birlikdə Rumıniya və Bolqarıstanın faşistlərdən azad edilməsində, Belqrad döyüşlərində iştirak etdi, "Qırmızı Ulduz" ordeni ilə təltif olundu. Döyüşdə yaralanan F.Cəmilova Qələbəyə üç gün qalmış ordudan tərxis olundu.[1]

Diviziyanın cəsur qızlarından biri Sona Ağayeva idi. Onun sorağı Bolqarıstan, Macarıstan, Avstriya, Yuqoslaviya torpaqlarından gəldi. O, "Belqradın azad edilməsinə görə", Budapeştin və Vyananın alınmasına görə, "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olundu.

223-cü "Belqrad" Diviziyası növbəti təşəkkürü 1945-ci il martın 28-də aldı. Bu dəfə Ali Baş Komandanlıq 315 №-li əmrlə Dyer və Komarom şəhərləri uğrunda döyüşlərdə göstərilən döyüş fəaliyyətinə görə diviziyaya təşəkkür elan edirdi. Daha bir təşəkkür 1945-ci il mayın 8-də elan olundu. Bu Qllaburnn və Ştokkerau şəhərlərinin azad olunmasına görə verilir və sayca on birinci idi.

Bakıdan Praqaya qədər 6 dövlətin – Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexosolvakiyadan keçən 223-cü Diviziyanın 30 aylıq döyüş yolu 5.000 kilometrə bərabərdir. 30 aylıq döyüşlər zamanı diviziya sahəsi 10.000 kvadrat kilometr olan 400-dən çox yaşayış məntəqəsini faşist işğalçılarından azad etdi, 19 şəhərin, o cümlədən Mozdok, Georgiyevski, Dneprodzerjinsk, Benderı, Kotovskoye, Konstansa, Şumin, Rqotino, Bor, Yaqodino, Belqrad, Kralyevo, Budapeşt, Komarom, Vyana, Florisdorf, Qllabrunn və digər şəhərlərin azad edilməsində iştirakçı oldu.

223-cü Diviziya döyüş yolunda irili-xırdalı 50-dən artıq çaydan, o cümlədən 4 dəfə Dunaydan keçmişdir.

Alman faşistləri ilə döyüşlərdə 223-cü Diviziyanın döyüşçüləri 45 mindən çox alman əsgərini məhv etdilər, 43.800 nəfər əsgər və zabit əsir alındı. Düşmənin 28 təyyarəsi, 113 tank və döyüş maşını, 549 səhra topu, 311 minaatan qurğusu, 1.152 pulemyotu, 25 mindən çox avtomaşını məhv edildi. Diviziya 28 təyyarə, 113 tank və zirehli maşın, 549 səhra topu, 311 minaatan, 1.152 pulemyot, 200-dən artıq avtomaşın, 25 minə qədər tüfəng və avtomat, 219 parovoz, 7.400 vaqon, 1.350 at, 70 anbar və böyük miqdarda döyüş sursatını ələ keçirdi və ya məhv etdi.[2]

---

[1] Bax: Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S. Məmmədov. – Bakı, 1988.

[2] Mehdiyev, B.M. 223-cü Qırmızıbayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev. – Bakı, 2000. – s.274.

223-cü Azərbaycan milli atıcı diviziyasının döyüş yolu

223-cü Azərbaycan atıcı diviziyasının komandiri, polkovnik Tatarçevski Azərbaycan K(b)MK-ya yazdığı məktubda diviziyanın döyüş yolundan bəhs edərək mayorlar Mehdiyev, Manafov, Rəcəbov, kapitan Sailov və başqalarının döyüş keyfiyyətlərindən, vətənə sədaqətlə xidmət etmələrindən, döyüşdə qəhrəmanlıqla həlak olan mayor Fazilov, Vəliyev, Musayev və başqalarının döyüş yolundan bəhs edirdi.[1] Diviziya döyüşçülərinin fədakarlığının nəticəsi idi ki, yüksək döyüş məharətinə və igidliyinə görə 20 nəfər azərbaycanlı döyüşçüyə, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev və X.Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi.[2]

Şərəfli döyüş yolu keçmiş 223-cü Diviziyanın şəxsi heyəti çətinliklərə sinə gərməklə yanaşı, ağır günlər də yaşamışdır. 223-cü Diviziyanın komandiri general-mayor V.Zuvanovun Azərbaycan K(b)P MK katibi M.C.Bağırov 1943-cü il 25 yanvar tarixli 00217/1 №-li məktubunda bildirilirdi ki, diviziyanın ordudan orduya: 44-cü ordudan 58-ci orduya, əksinə 44-cü ordudan yenə 58-ci orduya verilməsi, sonuncu dəfə 37-ci orduya daxil edilməsi nəticəsində qarşısına yeni vəzifələr qoyulsa da, heç bir köməklik göstərilmirdi. Müntəzəm olaraq rəhbərliklərin dəyişməsinə baxmayaraq, müəyyən olunmuş ərzaqla təminat, yataq ağlarının vaxtında dəyişilməsi həyata keçirilmir, yataq ağlarının dəyişdirilməməsi isə epidemiya təhlükəsi

[1] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941–195 гг. (Сборник писем и документов). Bakı, 2009, s.197-198.

[2] Əmrahov, M.İ. İkinci dünya müharibəsi / M.İ.Əmrahov. – Bakı, 2010. – s.394.

yaradırdı.[1] Məktubda bildirilirdi ki, Geogiyevskidən yolda artilleriya alayı, tankəleyhinə divizion, artilleriya-zenit batareyası, sanitar alayının əmlakı, avtobölük, 1037 və 1039-cu atıcı alayların batareyaları yolda qalmışdı. Atlar və dəvələr əldən düşmüş bu səbəbdən də vaxtlı-vaxtında yemək, silah-sursat çatdırılmır, təhlükəli vəziyyət yaranırdı. Dəfələrlə ordu komandanlığına edilən müraciətlər nəticəsiz qalmışdır.[2]

Məktubda diviziyanın atlarının əldən düşməsi, traktor və maşınların yararsızlığı, yanacaqla vaxtında təmin edilməməsi səbəbli İşerskdə isti əşyalar olan anbarın, Georgiyevskidə 818-ci artilleriya alayının 2 diviziyonun, 1037-ci atıcı alayın 120 m/m-lik bir top batareyasının, 1037-ci atıcı alayın 76-45 m/m-lik top batareyasının, Minvodda artilleriya-zenit batareyasının, 4 top və 4 maşının, Suvorovskidə tank əleyhinə diviziyanın, tibbi-sanitar alayının tibbi əmlak və bütün maşınlarının, Çerkaskda səhra çörək-xanasının, daşıma avtorotasının, tibbi-sanitar batalyonun 3 maşının qaldığı bildirilir, göstərilənlərin diviziyanın şəxsi heyətinin 60%-ni təşkil etdiyi üçün köməklik xahiş olunurdu.[3]

223-cü Diviziyanın komandiri, general-mayor V.Züvanov 1943-cü il mart ayının 10-da M.C.Bağırova məktubla müraciət edərək diviziyanın siyasi işində yaranmış boşluqdan bəhs edərək bildirirdi ki, siyasi hissə üzrə müavin təyin olunmuş alay komissarı Məmmədov Ust-Labinskidən əməliyyata getmiş və müraciət olunan günədək geri qayıtmamışdır. Bu səbəbdən də, siyasi iş üzrə müvafiq kadr göndərilməsi vacibdir. [4]

General-mayor Züvanov, komandirin siyasi hissə üzrə müavini mayor Qədirov, siyasi şöbə rəisi kapitan Əliyevin 1944-cü il 1 aprel tarixli məktubunda qaldırılan məsələlər ordu komandanlıqlarının milli diviziyalara olan münasibətinə yaxşı nümunədir. Məktubda bildirilirdi ki, 223-cü atıcı diviziya 1942-ci ilin ortalarında döyüşə girmiş, diviziya İçer hüdudlarından Slavyanska və Azov dənizi sahillərinə qədər faşist işğalçılarından 5 şəhəri və 103 yaşayış məntəqəsini azad etmişdi. Komandanlığın əmrlərini müvəffəqiyyətlə yerinə yetirdiyinə görə diviziya Cənubi Qafqaz cəbhəsi Şimali Qafqaz qrupundan, 44, 58, 37-ci orduların Hərbi Şuralarından təbrik te-

---

[1] Письмо члену военного совета Закфронта, секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от командира 223-й Стрелковой Дивизии генерал-майора Зюванова от 25 января 1943 г. №00217/1 // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №152, листы –147-148.

[2] Yenə orada, vərəq –147.

[3] Yenə orada, vərəq – 147-148.

[4] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист –162.

leqramları almışdır. Bu döyüşlərdə azərbaycanlı döyüşçülər və komandarəis tərkibi alman işğalçılarına qarşı döyüşdə mərdlik və cəsarət göstərmişlər. Hökumət mükafatları ilə təltif olunanların sayı 219 nəfər çatmışdır.[1]

Məktubda bir daha xatırladılırdı ki, hücum dövründə diviziya 44, 58, 37-ci orduların, hazırda isə 46-cı Ordunun tərkibinə verilmişdir. Beləliklə, diviziyanın şəxsi heyəti yeni ordu heyəti ilə tanış olduqdan az sonra digər orduya verilir. Tez-tez dəyişdirilən tabeçilik diviziyanın silah-sursat, ərzaq və başqa lazım olanlarla təchizatına mənfi təsir göstərir. Məsələn, 1943-cü il martın 17-də 223-cü diviziya Slavyanka sahəsindən çıxarılaraq Staro-Nije Stebliyekvski sahəsinə göndərilir, ən yaxşı pulemyotçular, minomyotçular, avtomatçılar, kəşfiyyatçılar və başqaları 9-cu Orduya verilir və diviziya Staro-Nije Stebliyekvski sahəsində müdafiədə saxlanılır. Lakin diviziyanın şəxsi heyətinin tamamlanması və silahlandırılması təşkil edilmir.

Diviziya Bakıdan bu hüdudlaradək müdafiə və hücumla piyada min kilometrlərlə yol keçmiş, arabalar, nəqliyyat atları və insanları itirmişdir.[2] Çerkask şəhərindən başlayaraq hücum prosesində diviziyada tamamlanma yerli əhalidən – Kuban kazaklarının azad olunmuş kəndlərinin sakinlərindən – əsasən keçmiş hərbi əsirlər və ordu hissələrinin müvəqqəti geri çəkilməsi zamanı evlərində qalmış şəxslərin hesabına aparılmışdı. Keyfiyyətinə görə bu tamamlamada siyasi cəhətdən etibarsız adamlar da diviziyaya daxil olmuşdu. Digər tərəfdən komandir və siyasi işçilərin əksəriyyəti rus dilini yaxşı bilmədiyindən, cəlb olunmuşlar arasında partiya-siyasi iş lazımı səviyyədə aparılmamış, beləliklə diviziya bu cür tamamlamada özünün milli əlamətlərini itirməyə başlamışdı.

Məktubda bildirilirdi ki, səkkizinci gündür ki, diviziya qeyd olunan hüdudda yerləşir və qarşıdakı günlərdə görüləcək işlər məlum deyildir. Digər ordu tərkibinə verilməsi ilə əlaqədar ərzaq məhsulları, geyim şeyləri, mərmilər, silah və nəqliyyat çatışmır. Tezliklə komplektləşməni təmin etmək və milli əlamətləri qorumaq məqsədilə diviziyanın cəbhənin digər hissələrində olan azərbaycanlılardan tamamlanmasına köməklik vacibdir. Geyim şeylərinin, mərmilərin və silahların ştata uyğun gətirilməsi sürətləndirilməlidir. Məktubun sonunda xahiş olunurdu ki, diviziyanın bir ordudan digərinin tərkibinə verilməsinin saxlanılması vacibdir. Çünki bu hal şəxsi heyətin hökumət mükafatları almasına və hərbi rütbələrin verilməsinə mənfi təsir göstərir.[3]

---

[1] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист vərəq –162.

[2] Yenə orada, vərəq –161.

[3] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 10 марта 1943 года // Архив Полити-

Diviziyanın milliliyinin saxlanılması diviziya komandiri, kapitan Səfərəliyevin M.C.Bağırova ünvanladığı 1943-cü il 18 may tarixli məktubunda da kəskin qoyulmuşdu.[1] Məktubda bildirilirdi ki, 223-cü Diviziya 1942-ci ilin dekabrından 1943-cü ilin may ayınadək Azərbaycan xalqının etibarını şərəflə doğrultmuş, azərbaycanlı döyüşçülərdən faşistlər tərəfinə keçən və əsir alınan olmamışdır. Bununla belə ağır döyüşlərdə diviziya şəxsi heyətin 50-60%-ni itirmiş, 1943-cü ili aprelin ortalarında Miller dağından 40-50 kilometrlikdə olan Dyaçkino stansiyası yaxınlığında dislokasiya olunan 46-cı Orduya tamamlanmaq üçün verilmişdir. Diviziyanın milliliyini saxlamaq üçün çox iş görülmüşdür. Ancaq bütün imkanlara baxmayaraq, diviziya siyasi hissə üzrə komandir müavini Qədirovun işə müdaxiləsi ilə azərbaycanlı kadrların əksəriyyəti digər birləşmələrə və hissələrə verilmiş və 1943-cü ilin mayınadək diviziyada cəmi 2.400 azərbaycanlı qalmışdı. Qədirovun yaratdığı çaşqınlıq və şayiələr azmış kimi, general-mayor Züvanov diviziya komandirliyindən çıxarılmış və Çöl Hərbi dairəsinin sərəncamına verilmişdi. Onun yerinə heç bir üstünlüyü ilə fərqlənməyən, sıra üzrə komandir müavini, diviziyaya 1943-cü ilin martında gəlmiş podpolkovnik Tatarçevski təyin olunmuş, Qədirov isə gündəlik siyasi iş aparmaq əvəzinə diviziyadan kadrların qovulması ilə məşğuldur.[2]

Səfərəliyevin məktubunda bildirilirdi ki, qısa müddətdə 46-cı Ordunun birləşmələrinin tərkibində olan və döyüşlərdə iştirak edən azərbaycanlı rəis və sıravi heyətin hesabına diviziyanı kadrlarla təmin etmək olar. Hazırda diviziyanın ehtiyatda olmasını nəzərə alaraq diviziyanı döyüşçü azərbaycanlılarla tamamlayaraq yenidən döyüşə girmək imkanı yaranmışdır.[3]

223-cü Diviziyaya ikili münasibəti sübut edən məktublardan biri də diviziyadan A.R.Qasımov, A.Q.Rəcəbov, M.A.Tahirli tərəfindən 1944-cü il fevral aynın 1-də Azərbaycan K(b)P MK katibi M.C.Bağırova göndərilən məktubdur.[4] Məktubda göstərilir ki, 1944-cü il 1 fevral tarixinədək diviziyada 646 azərbaycanlı döyüşçü vardır və bu ümumi şəxs heyətin 19 %-ni təşkil edir. Diviziyada 108-ci atıcı alayda sıra hissəsi üzrə komandir müavini mayor Aşurov, 1041-ci atıcı alayda 3-cü batalyon komandiri mayor Ağayev, 1041-ci atıcı alayda qərargah rəisi mayor Mehdiyev, 1041-ci atıcı alayda

---

ческих Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист vərəq –161.

[1] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист – 217-219.

[2] Yenə orada, vərəq – 219.

[3] Yenə orada.

[4] Yenə orada, vərəq – 112-116.

hissə üzrə komandir köməkçisi mayor Zərbəyliyev,[1] 818-ci artilleriya alayının 2-ci divizionunun komandir müavini mayor Babayev, 818-ci artilleriya alayının 3-cü divizionunun komandiri kapitan Həsənov, 818-ci artilleriya alayında 7-ci batareyanın komandiri baş leytenant Nağıyey, PTR bölüyünün komandiri baş leytenant Feyzullayev kimi təcrübəli zabitlər vardır. 1 fevral 1944-cü il tarixə azərbaycanlı zabitlərin sayı 65, serjantların sayı 8 nəfər olmuşdur. Diviziya 2-ci Ukrayna cəbhəsinin mühüm müdafiə sahəsi olan Kirovoqrad vilayətinin Novqorod rayonunun Verblyujka kəndində idi.[2]

A.R.Qasımov, A.Q.Rəcəbov, M.A.Tahirli məktubda bildirirdilər ki, mayor Aşurov uzun müddətdir alay komandirinin sıra üzrə müavini işləyir. Lakin o, hələ də mayor olaraq qalır. Ancaq diviziya komandirləri işləyənlər general-mayor rütbəsi almışlar. Mayorlardan Mehdiyev, Ağayev, Babayev, Məmmədov və digər azərbaycanlı zabitlərə qarşı münasibət yaxşı deyildir. Məktubda göstərilirdi ki, diviziyanın siyasi şöbəsinin keçmiş təlimatçısı Qasımzadə Ənvər qanunsuz olaraq diviziyadan çıxarılmışdır. 46-cı Ordunun işçiləri onun işlərindən razı idi, ancaq məlum olmayan səbəbdən onu işdən çıxartdılar və digər birləşmələrə aşağı vəzifəyə göndərdilər, alay təşviqatçısı oldu. Kapitan İsmayıl Baxşıyev və digər azərbaycanlı zabitlərə də eyni münasibət bəslənilir. Onların da vəzifələri aşağı salınmaqla heç bir əsas olmadan birləşmələrə göndərilmişdilər.[3]

Diviziyanın sanitar rəisi İsgəndər İsmayılov heç bir səbəb olmadan tutduğu vəzifədən azad olunmuşdur. Adları sadalananlar və digər azərbaycanlı kadrlar diviziya yaranandan işləyir və komandanlığın əmrlərinin yerinə yetirilməsində böyük əmək sərf etmiş, döyüşlərdə igidlik və qətiyyət göstərmişlər. Bütün bunlara baxmayaraq heç bir hökumət mükafatı almamışlar.[4]

Diviziyada azərbaycanlı döyüşçülərə də münasibət yaxşı olmamışdır. Azərbaycanlı döyüşçülər əsasən arxa müəssisələrdə və xüsusi bölmələrdə qalmışlar. Onlardan rasional istifadə olunmur və SSRİ DMK-nin əmri pozularaq başqa atıcı bölmələrə göndərilirlər.

1943-cü il noyabrın 24-dən dekabrın 1-dək artilleriya alayından atıcı bölmələrə 91 atıcı azərbaycanlı əsgər göndərilmişdir. Digər bölmələrdə də vəziyyət belədir. Bunlar isə keçmiş qulluqçular, diviziyalarda döyüş yolu keçmiş əsgərlərdir. Diviziya təşkil edənləri qorumaqdansa, komandanlıq on-

---

[1] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист – 112.

[2] Yenə orada, vərəq – 113.

[3] Yenə orada, vərəq –116.

[4] Yenə orada, vərəq –114.

ları təhqir edir, yerlərini dəyişdirir. Məsələn, silahı atəş nöqtələrinə yönəldən nişançı Qədimov, Mehdiyev, silah komandiri serjant Tapdıq Teymurov, nişançı Səfər Əmirov, nişançı Hacıağa Abdullayev, topoqraf Hüseyn Hüseynov, Ömər Hacıyev artilleriya alayından göndərilmiş, onları isə yenicə azad edilmiş ərazilərdən yenidən səfərbər olunanlar əvəz etmişlər. 15 il təcrübəsi olan, orduya səfərbərliyə qədər "Azneftkombinat"da çilingərlik işlərinə rəhbərlik edən Əbdülhüseyn Qədimov, sürücü Vəli Məmmədov, Bağır Məmmədov və b. qanunsuz olaraq atıcı alaya atıcı kimi göndərilmiş və görünür təlim görmədiklərindən həmin gün həlak olmuşlar.

Artilleriya alayında insanlar tapmaca kimi yoxa çıxırlar. Diviziyada ali təhsilli insanlardan səmərəli istifadə olunmur. Onların içində neftçi-mühəndis var ki, onları arxaya göndərib istifadə etmək olar. Çox çətinliklə bir neçə nəfərin Bakıya göndərilməsinə nail olunmuşdur. 1041-ci atıcı alayda SSRİ EA Azərbaycan filialının keçmiş baş elmi işçisi Qənbərovdan sıravi poçtalyon kimi istifadə olunur. Qənbərov sıra xidmətinə yararlı deyildir. Hissə komandirinin adına Bakı komitəsinin hərbi şöbəsindən Qənbərovun arxada mütəxəssi kimi istifadəsinə dair 2 məktub daxil olsa da, diviziya komandanlığı heç bir əhəmiyyət verməmişdir.[1]

Bu cür qeyri-normal hadisələrin baş verməsi diviziyada yüksək vəzifələr tutmuş rusların və digər qeyri-müsəlmanların azərbaycanlı döyüşçülərə münasibətindən irəli gəlirdi. Diviziya siyasi şöbəsini rəisi, qvardiya podpolkovniki Lebedev milli döyüşçülərə, xüsusən azərbaycanlılara qarşı düzgün olmayan yol seçmişdir. Diviziyanın 4-cü şöbəsinin rəisi mayor Sosedov açıq şovinist siyasəti aparırdı. Sosedov diviziya formalaşanda hərbi hissədə katib olmuş və mayor rütbəsinə qədər yüksəlmişdi. Onun atası eser olmuş, sonrakı kollektivləşmə dövründə antisovet fikirlər söyləmişdir. Bunları bilən Sosedov partiya sıralarına daxil olarkən gizlətmiş, cinayət, şovinist və məişət zəminində partiya sıralarından xaric olunanda diviziya siyasi şöbəsi rəisi Lebedevin dəstəyi sayəsində töhmət verilməklə məsələyə xitam verilmişdi. Sosedov partiya sıralarında qaldı və Lebedevlə birgə millətçi xətti davam etdirdi, azərbaycanlı döyüşçülərin xidmətlərini azaltmağa başladı. İş o yerə çatır ki, azərbaycanlı döyüşçülərin qəhrəmanlığı gizlədilir, onların təltif olunması ləngidilir, yaxud maneə olunurdu. Məsələn, 1943-cü ilin sentyabr ayının sonunda 1039-cu alay Dnepri keçmiş, döyüşdə bölük komandiri leytenant Qançarov qəhrəmancasına həlak olur. Ağır dəqiqələrdə bölük komandirliyini gizir Kazım Kazımov üzərinə götürür. O öz bölüyü ilə almanların əks-hücumunu dayandırır, digər bölmələrin irəliləməsi üçün yol

[1] Письмо командира 223-й Стрелковой Дивизии генерал-майор Зюванова секретарю ЦК КП(б) Азербайджана М.Д.Багирову от 10 марта 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист –115.

açılır. 7 gün ərzində bölük fasiləsiz döyüşlərlə taktiki cəhətdən qiymətli kurqana yiyələnir, düşmənə böyük zərbə vurulur, şəxsən Kazımov 30 alman faşistini məhv edir. Oktyabrın 3-də düşmən avtomatçılardan və tanklardan istifadə edərək əks-hücuma keçir, kurqana yiyələnməyə cəhd göstərir. Qeyri-bərabər döyüşdə K.Kazımov düşmənin hücumunun qarşısını alaraq əks-hücumu dəf edir. Ağır yaralanan K.Kazımov qan itirsə də, komandanlığı davam etdirir, tabeliyində olanları döyüşə səfərbər edir. Azərbaycan xalqının qəhrəman oğlu son nəfəsinədək döyüş sahəsindən çəkilməmişdir. K.Kazımov Dneprin sahilində kənddə dəfn olunmuşdur.[1]

Məktubda bildirilirdi ki, serjant Səfiquliyev qəhrəmanlıq göstərmişdir. O, döyüşdə 100 nəfərə yaxın hitlerçini öldürmüşdü. Ona Sovet İttifaqı Qəhrəmanı fəxri adı verilməsi barədə diviziyada məsələ qaldırılmış, ancaq onun sənədləri formal olaraq tərtib edilmiş, 3 aydan çox vaxt keçməsinə baxmayaraq heç bir təltif olmamışdır.

818-ci artilleriya alayında nişançı Hüseynov 3 tankı yandırmış, 2 tankla vuruşmuşdur. Mükafata təqdim olunandan bu günədək Hüseynov döyüşləri davam etdirməsinə baxmayaraq təşəkkür belə almamışdır.

1037-ci atıcı alayda siyasi hissə üzrə batalyon komandiri kapitan Musayev 9 alman faşistini əsir almışdır. Bu faktın üstü örtülmüş və batalyon komandirinin adına yazılmış və o, hökumətin yüksək mükafatını almışdır.[2]

Məktubda sadalanan və baş vermiş digər oxşar hallara son qoyulması üçün yuxarı instansiyalar qarşısında məsələ qaldırılması xahiş olunurdu. Döyüşçülər bildirirdilər ki, 46-cı Ordunun siyasi şöbə rəisi polkovnik Markov və Hərbi Şura üzvü Sanakayev 7-ci qvardiya ordusunun siyasi şöbə rəisi qarşısında məsələ qoyulmuşdu. Ancaq onlar döyüşçülər və Lebedevlə söhbət aparsalar da, köklü dəyişikliklər olmamışdı. Yanvarın 27-də diviziyanın siyasi şöbəsində ordu siyasi şöbəsinin rəisinin iştirakı ilə keçirilən iclasda yoxlama briqadasının rəhbəri, məruzəçi Burlay qeyri-rus millətlərindən olan döyüşçülər arasında aparılan siyasi-tərbiyə işindən bir kəlmə olsa da, danışmamışdı.

Arxiv sənədlərinə əsasən deyə bilərik ki, Azərbaycan K(b)K MK diviziyalardakı vəziyyətlə daim maraqlanır, ortaya çıxan çətinliklərin həll edilməsi istiqamətində əməli tədbirlər həyata keçirirdi.[3] Azərbaycan K(b)P

---

[1] Письмо воинов–азербайджанцев 223-й Стрелковой Дивизии Касымова А.Р., Раджабова А.Р., Тахирли М.А. секретарю ЦК КП(б) Азербайджана М.Дж.Багирову от 19 февраля 1944 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист –116.

[2] Yenə orada.

[3] Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О командировании на длительный срок группы ответственных работников в помощь командованию СД, расположенных на территории Азербайджанской ССР» // Архив Политических Документов Управления Делами Президента Азер-

MK-nın 1942-ci il 7 mart tarixli qərarı ilə (prot.№217) MK üzvü, MK və Bakı Komitəsi aparatının rəhbər işçilərindən 20 nəfərdən ibarət qrup ayrılmışdır.[1] 223-cü atıcı diviziyada işləmək üçün avqustun 31-də təyyarə ilə tərkibində Gözəlov, Məmmədov, Şahgəldiyev, Şahbazov, Süleyman Rüstəm və M.C.Bağırov olmaqla Azərbaycan K(b)P MK briqadası, 2 gündən sonra əlavə 20 nəfər siyasi işçi ezam olunmuşdur.[2]

M.C.Bağırovun "223-cü atıcı diviziyasındakı vəziyyət haqqında" L.P.Beriya və Zaqafqaziya Cəbhəsi komandanı, ordu generalı Tülenova 12 sentyabr 1942-ci il tarixli 685 №-li məktubundan[3] və Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının 17 sentyabr 1942-ci il tarixli "223-cü atıcı diviziyadakı vəziyyət haqqında" qərarından[4] məlum olur ki, 1942-ci ilin avqustunda Zaqafqaziya Cəbhəsi Şimal Qrupunun komandanı İ.Maslennikovdan alınmış teleqram əsasında diviziyada fərarilik hallarına qarşı mübarizə məqsədilə Azərbaycan K(b)P MK-nın məsul partiya işçiləri göndərilmişdir.[5]

байджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы – 85-86; Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О мероприятиях по ускорению работ по переформированию 402-й и 223-й стрелковых дивизий в национальные дивизии») // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 39-40; Выписка из протокола №217 заседания Бюро ЦК КП(б) Азербайджана от 7 марта 1942 г. «О прикреплении к 223-й стрелковой дивизии дополнительной группы руководящих работников» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 46-47; Выписка из протокола №235 заседания Бюро ЦК КП(б) Азербайджана от 21 мая 1942 г. «О работе прикрепленных ЦК КП(б) Азербайджана к Азербайджанским дивизиям» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 73-75.

[1] Выписка из протокола №217 заседания Бюро ЦК КП(б) Азербайджана от 7 марта 1942 г. «О прикреплении к 223-й стрелковой дивизии дополнительной группы руководящих работников» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 46-47.

[2] Qasımov, Ə. Bir diviziyanın mübariz işi və adamları / Ə.Qasımov. – Bakı, – 1944. – s.2

[3] Письмо секретар ЦК КП (б) Азербайджана М.Дж.Багирова на имя Л.П.Берия и Закфронта «О состоянии 223-й стрелковой дивизии» от 12 сентября 1942–года (№685) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 1-14.

[4] Постановление Военного Совета Закавказского фронта №0081 от 17 сентября 1942 г. «О состоянии 223-й Стрелковой дивизии» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 130-131.

[5] Письмо секретар ЦК КП(б) Азербайджана М.Дж.Багирова на имя Л.П.Берия и Закфронта «О состоянии 223-й стрелковой дивизии» от 12 сентября 1942 года (№ 685) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист – 1.

Sənədlər göstərir ki, milli diviziyaların vəziyyəti, diviziya daxili proseslər cəbhə komandanlıqları və Hərbi Şura üzvlərinin iştirakı ilə müzakirə olunurdu. Məsələn, Zaqafqaziya Cəbhəsi Hərbi Şurasının 17 sentyabr 1942-ci il tarixli qərarında göstərilir ki, Müdafiə Komissarlığının 227 №-li əmrinin diviziyanın hissələrində yerinə yetirilməsini təmin etmədiyinə və partiya-siyasi işi özbaşına buraxdığına görə diviziya hərbi komissarı, polk komissarı Əliyev vəzifəsindən azad edilmiş, diviziya siyasi şöbəsinin rəisi batalyon komissarı İsmayılov, 1037-ci atıcı alayın hərbi komissarı batalyon komissarı Eminov, 1039-cu atıcı alayın hərbi komissarı batalyon komissarı Zeynalov, 1041-ci atıcı alayın hərbi komissarı, böyük siyasi rəhbər Adıgözəlov, 818-ci artilleriya alayının hərbi komissarı batalyon komissarı Qasımov, diviziya siyasi şöbəsinin partiya komissiyasının katibi, böyük siyasi rəhbər Əsədov tutduqları vəzifələrindən azad olunmuşlar. Onların yerinə yeniləri təyin edilmişdir.[1]

Sadalananlardan belə qənaətə gəlmək olur ki, diviziya əvvəlki simasını itirir, diviziyanın azərbaycanlı döyüşçülərini digər birləşmələrə keçirməklə onun döyüş ruhunun aşağı salınmasına cəhd göstərilirdi. Sənədlərin öyrənilməsi göstərir ki, diviziyanın siyasi rəhbərliyi ilə yanaşı, ordu siyasi şöbəsi, cəbhə siyasi idarəsinin də işində ciddi nöqsanlar olmuşdur. Onlar milli diviziyalarla bir və ya iki təlimatçı vasitəsi ilə əlaqə saxlayır, milli diviziyalarla iş şəraiti nəzərə alınmırdı. Diviziyanın şübhəli və yad elementlərdən təmizlənməsi qeyri-qənaətbəxş olmuşdur. Nəticədə fərariliyə hazırlıq, antisovet əhval-ruhiyyə və təxribatçılıq hərəkətlərinə görə diviziya hissələrində saxlanmış 309 nəfər əsgər və kiçik komandirdən 30 nəfər həbs olunmuş, 117 nəfər cərimə batalyonlarına göndərilmiş, 11 nəfər vətən xaini kimi sıra qarşısında güllələnmiş, 161 nəfər komplektləşdirilmək üçün ordunun arxa hissəsinə ezam olunmuşdur.[2]

Azərbaycan K(b)P MK-ya daxil olmuş məktublar, ayrı-ayrı döyüşçülərin müraciətlərinin təhlili göstərir ki, ordu və cəbhə komandanlıqları milli diviziyalara, xüsusilə Azərbaycan milli diviziyalarına münasibətdə ayrı-seçkiliyə yol verir, diviziyaların milli kadrlarla təminatına məsuliyyətlə yanaşmır, döyüşçülərin ərzaq məhsulları və geyim vasitələri ilə təmin olunmasına, döyüşçülərin sağlamlığı qayğısına lazımı diqqət yetirilmir. Təbii ki, sadalananlar Mərkəzin milli siyasətində Azərbaycana ikili münasibətindən irəli gəlirdi. Faktlar göstərir ki, ordu və cəbhə komandanlıqlarına, komandir və siyasi işçilərə yanlış məlumatların ötürülməsi ilə milli diviziyalara etibarsızlıq formalaşdırılır, əsaslı fakt olmadan azərbaycanlı döyüş-

---

[1] Постановление Военного Совета Закавказского фронта №0081 от 17 сентября 1942 г. «О состоянии 223й Стрелковой дивизии» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, лист – 131.

[2] Yenə orada, vərəq –33.

çülər arxaya, cərimə batalyonlarına göndərilir, günahsız, təmiz, xeyirxah komandir və döyüşçülər şovinizmin və erməni fitnələrinin qurbanlarına çevrilirdilər.[1]

223-cü Diviziya 1945-ci il avqustun 9-da SSRİ Yaponiyaya qarşı müharibəyə başlayanda Uzaq Şərqə göndərildi. Göstərdikləri əsgəri rəşadətə görə Qara Sarıyev, Aslan Aslanov, Hacı Hacıyev, Niyaz Hüseynov, Hacı Rzayev, Ələkbər Səfərov və b. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il sentyabrın 30-da təsis etdiyi "Yaponiya üzərində qələbəyə görə" medalı ilə təltif olundular.

271-ci atıcı diviziya

Qırmızı Bayraq və I dərəcəli Boqdan Xmelnitski ordenli 271-ci diviziya 1942-ci ilin avqust-sentyabr aylarında Azərbaycan SSR-də təşkil olundu. Təşkili zamanı başlıca olaraq Gəncə şəhəri, Qazax, İsmayıllı, Kəlbəcər və Zəngilan rayonlarından olan çağırışçılardan bu diviziya Azərbaycan SSR-də hazırlandı və silahlandırıldı.[2] Diviziya 1942-ci ilin sonunda cəbhəyə göndərilərək Dağıstanda və Şimali Osetiyada, Terek çayının sahillərində müdafiə mövqeyi tutdu. 1942-ci ilin dekabr ayında 271-ci Diviziya Mozdok rayonunun Mitrafonovka kəndində düşmənin ön xəttinin 15 kilometrliyində müdafiə mövqeyində dayandı. Komandanlığın düşmən mövqelərini yarmaq barədə tapşırığını uyğun olaraq, 1943-cü il yanvarın 1-də Aqabatır, Kizilov və Mixaylovka yaşayış məntəqələrini azad etmək üçün 271-ci atıcı diviziya hücuma keçdi. Həmin yaşayış məntəqələri düşməndən təmizləndi. Düşmənin şiddətli müqavimətinə baxmayaraq, diviziya hücumu davam etdirərək almanları təqib etməyə başladı.

Düşmənin müdafiə xəttinin yarılmasında orta və kiçik komandirlərdən Rzayev, İsgəndərov, Yusifov, Allahverdiyev, Rəhimov və Nəsirovun rəhbərlik etdiyi hissələr hünər və igidlik göstərdilər.

2-ci batalyonda 3-cü alayın komandiri sıradan çıxdıqda komandirin siyasi hissə üzrə müavini, İsmayıllı rayonundan olan İsayev komandanlığı öz üzərinə götürüb Aqabatır kəndinə cənub tərəfdən girdi. Kiçik komandir Qurban Əliyevin kəşfiyyat dəstəsi iki dəfə düşmənin arxasına keçərək qiymətli məlumatlar topladı və düşmənin canlı qüvvəsini məhv etdilər.

271-ci Diviziya hücumu davam etdirərək Orconikidze və Krasnodar diyarında yüzlərlə yaşayış məntəqələrini alman-faşist işğalçılarından azad etdikdən sonra fevral ayının əvvəllərində Rostov vilayətinə gəldi. Fevralda diviziya Rostovdan Taqanroqa çəkilərək düşmənin yolunu kəsdi. Sayca xeyli artıq qüvvəyə malik düşmən tankların köməyi ilə əks-hücuma keçərək

---

[1] Ибрагимова, Х.Г. Азербайджанские Национальные Дивизии: организация, боевой путь, междивизионные национальные отношения, кадровые проблемы // – Тбилиси: Кавказ и Мир. Международный научный журнал, – 2017. №22, – с.130-131.

[2] "Kommunist" qəzeti, 1943, 12 sentyabr.

Semerinovka vağzalını geri qaytarmağa cəhd etdi. Lakin diviziyanın döyüşçüləri düşmənin hücumlarını dəf etdilər.

271-ci Diviziya hücumu davam etdirərək düşməni təqib etdi. 2000 evdən ibarət olan Çaltır, habelə Vesyolıy, Podnyato və Sujenoe məntəqələri azad edildi. Diviziya Mius çayının sahillərinə çatdı, Taqanroqdan Matveye-Kurqan rayonuna gedən dəmiryolların kəsilməsində iştirak etdi. Mozdok rayonundan başlayaraq Mius çayının sahillərinədək 1200 kilometrdən artıq məsafədə hücumda olan alman-faşist işğalçılarına ağır zərbələr endirən 271-ci atıcı diviziyanın hesabında yüzlərlə öldürülmüş və əsir tutulmuş faşist, ələ keçirilmiş xeyli silah-sursat vardı.

1925-ci ildə anadan olmuş Kəlbəcər rayonunun keçmiş kolxozçusu, yefreytor Mişur Əhməd oğlu Əliyev diviziyanın məşhur istehkamçılarından idi. O, kəşfiyyatçıların düşmən arxasına keçməsini təmin edir, yeri gəldikdə düşmənlə əlbəyaxa döyüşə girirdi. Qoşunların yollarının minalardan təmizlənməsində göstərdiyi məharətə görə komandanlıq onu "Qızıl Ulduz" ordeni ilə təltif etdi.[1]

Qafqaz uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə orden və medallarla təltif olunmuş baş leytenant Kərimov (Kürdəmir rayonu), baş çavuş Cəfərov (Salyan rayonu) və gizir Babayev (Maştağa rayonu) yay hücumları zamanı göstərdikləri qoçaqlığa görə ikinci dəfə təltifə təqdim olundular. Azərbaycanın keçmiş dəmiryolu işçisi, bölmə komandiri Əliağa Hacı oğlu Hacıyev ikinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edildi. Əlibala Əsgərov 7 faşisti süngü ilə məhv etdiyinə görə medalla təltif olundu. Diviziyanın 100-ə qədər döyüşçüsü və komandiri yay hücumlarında göstərdikləri qəhrəmanlığa və döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiklərinə görə orden və medallara layiq görüldülər.

271-ci Qorlovka diviziyası 1943-cü il sentyabrın 9-da Mahaçqalada müdafiə mövqeyi tutdu, sentyabrın əvvəllərində Donetsk əməliyyatlarında fəal iştirak etdiyinə və diviziya döyüşçülərinin göstərdiyi rəşadətə görə fəxri "**Qorlovka**" diviziyası adı ilə təltif olundu. Diviziya Ukrayna, Polşa və Çexoslovakiyanın faşistlərdən azad olunması döyüşlərində iştirak etdi. Diviziyanın 865-ci atıcı alayının tabor komandiri Aslan Qaraşov Rostov yaxınlığındakı qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak oldu. Diviziyanın baş çavuşu Qulu Cəfərov "Qızıl Ulduz" ordeni ilə təltif olundu.[2]

Şimali Qafqazdan Praqayadək döyüş yolu keçən diviziya alman-faşist işğalçılarına qarşı vuruşmalarda igidlik və mərdlik göstərdiyi üçün "Qırmızı bayraq" və II dərəcəli "Boqdan Xmelnitski" ordenləri ilə, minlərlə döyüşçü SSRİ-nin orden və medalları ilə təltif olundular.

---

[1] "Kommunist" qəzeti, 1943, 12 sentyabr.

[2] Yenə orada, 23 avqust.

Döyüşlərdə iştirak etmiş 20 nəfər azərbaycanlı, o cümlədən Z.Bünyadov, A Vəzirov, M.Abdullayev və başqaları Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.[1]

396-cı Atıcı Diviziya

396-cı Milli Atıcı Diviziya 1941-ci ilin avqustunda İranda 44-cü ordunun tərkibində idi, həmin ilin sonunda diviziya respublikanın Quba bölgəsinə gətirildi və Şimali Qafqaza göndərilmək üçün hazırlandı. Diviziyanın ilk komandiri Q.Korçakov, komandir müavini Əsədullayev, komissarı polkovnik Xavər Əliyev olmuşdu. Diviziyanın şəxsi heyətinin əsasını azərbaycanlılar təşkil edirdi.

396-cı Diviziyanın tərkibində 803, 816, 819-cu atıcı alayları və 957-ci artilleriya alayı var idi. Diviziya 1941-ci ilin sonunda Krıma göndərildi və 51-ci ordunun tərkibinə daxil edildi.

396-cı Diviziya Krımda may döyüşlərində iştirak etdi, həmin döyüşdən sonra sovet hissələri Taman yarımadasına köçürüldü. 396-cı Diviziyanın şəxsi heyəti Tiflisə, oradan Qubaya göndərildi və yeni tərtib edilən 223-cü Diviziyanın tərkibinə daxil edildi. Diviziyanın iştirak etdiyi 1942-ci ilin may döyüşlərində X.Vəliyev, Y.İsmayılov, Ə.Hüseynov, A.Abbasov, K.Ağayev, N.Aslanov, T.Axundov, Mehdi Muxtarov, T.Axundov, Q.Süleymanov və başqaları xüsusi ilə fərqləndilər.

402-ci Atıcı Diviziya

İkinci dünya müharibəsi bütün bəşəriyyətə sübut etdi ki, başqa millətlərin nümayəndələri ilə birlikdə Azərbaycan xalqının içərisindən çıxan bir sıra yüksək rütbəli zabitlər – general, polkovnik-leytenant, kapitan və s. hərbi rütbəli şəxslər müxtəlif cəbhələrdə döyüş nümunələri göstərdilər. Əməliyyatlara rəhbərlik edən general-mayor Akim Abbasov, polkovnik-leytenant Ənnağı Hüseynov, Məmməd bəy Tahirov, İ.Vəliyev, F.Zeynalov, H.Mehdiyev, T.Əliyev, M.Məmmədov, M.Məhərrəmov və b. şanlı döyüş yolu keçdilər. Müharibə illərində yaradılan milli diviziyalar hərb tarixinə qızıl səhifələr yazmışdılar. Belə diviziyalardan biri də, 402-ci Azərbaycan Milli Atıcı Diviziyasıdır.

402-ci Milli Atıcı Diviziya 1941-ci ilin avqustunda Azərbaycan SSR-in Naxçıvan Muxtar Respublikasının Naxçıvan və Ordubad şəhərlərində təşkil edildi. Müxtəlif vaxtlarda T.A.Əliyarbəyov, H.M.Zeynalov və başqaları diviziyaya komandanlıq etmişlər. Azərbaycan K(b)P MK 1941-1942-ci illərdə diviziyada işləmək üçün 1.000 nəfərdən çox hərbçi kadr göndərdi. 1941-ci ilin oktyabrından 1942-ci ilin aprelinədək diviziya Sovet Ordusu tərkibində 3 atıcı alay (833, 839, 840), topçu alayı (960), əlahiddə tank əleyhinə zenit batareyası, əlahiddə təlim atıcı, rabitə,

[1] Azərbaycan Sovet Ensiklopediyası. Eldəgəz – İtabira / baş red. C.B.Quliyev; red. hey. M.H.Abdullayev, M.T.Abasov [və b.] IV cild. – Bakı, 1980. – s.405-406.

istehkam, tibbi-sanitar batalyonları, kəşfiyyat kimyəvi müdafiə bölükləri vardı.[1]

402-ci Milli Diviziyanın təşkili ilə əlaqədar sonralar diviziyanın döyüş yolunda xüsusi xidmətləri olan M.Y.Tahirov yazır ki, Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Hüseyn Nəcəfov, Ali Sovetin sədri M.A.Rəhimov, Nazirlər Sovetinin sədri Bala Əhmədov (Balam-mətov) bizə qayğı göstərirdilər. [2] 402-ci Diviziyanın formalaşması davam edirdi. M.Y.Tahirov birləşmənin rəisi təyin edilmiş, Xoy şəhərinin qarnizon rəisi olmuş və Xoy şəhərinə köçmüşdü. 833-cü alay Xoy şəhərində (komandir, kapitan Aşurov), 840-cı alay Naxçıvanda (komandir, kapitan Abdul Manaf Abdullayev), 839-cu alay Maku şəhərində (komandir, kapitan Əsədullayev), birinci top alayı Naxçıvanda, ikinci top alayı Culfada, xırda hissələr Naxçıvan və Ordubad rayonunda yerləşdirildi. Akim Abbasov operativ şöbənin rəisi təyin olundu. Qasımov siyasi şöbə rəisi, Bayramov partiya komitəsinin sədri seçildi. Beləliklə, birləşmənin formalaşması başa çatdı.

Diviziyanın formalaşması və döyüş hazırlığının təkmilləşdirilməsində **Ənnağı Məmmədqasım oğlu Hüseynovun** xidmətləri böyük olmuşdur. Sıravi əsgərlikdən polkovnik rütbəsinədək yüksələn Ə.Hüseynov ağ finlərlə müharibədə alay komandiri olmuş, Mannerheym mühəndis möhkəmləndirilmiş xəttinin darmadağın edilməsində, onun nişançı alayı igidlik göstərmişdir. Ə.Hüseynov "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif olunmuş, ordu generalı Timoşenko ona adına yazılmış qılınc bağışlamışdır.[3]

Ə.Hüseynov

1941-ci ildə müharibə başlayanda müharibənin ilk ilində 2-ci "Qırmızı Əmək bayrağı" ordeni ilə təltif olunan Ə.Hüseynov milli diviziyaların təşkili münasibətilə SSRİ Müdafiə naziri tərəfindən Azərbaycan 402-ci Milli Diviziyasına komandir təyin edilmişdir. Ə.Hüseynov 402-ci milli diviziyanın qısa müddətdə silahlanmasında, şəxsi heyətin vəzifələrinin müəyyənləşdirilməsində, döyüş qabiliyyətinin möhkəmləndirilməsində böyük rol oynamışdır.

Diviziya 1941-ci ilin oktyabr ayınadək İranda (Cənubi Azərbaycanda) yerləşmişdi. 1941-ci ilin oktyabr ayının əvvəllərində vətənə qayıdan diviziya müharibə zonasına Naxçıvan-Culfa-Bakı-Qudermes marşrutu ilə yola salınmışdır. Yola salınma mərasimində Naxçıvan MSSR rəhbərliyi iştirak etmiş və onlar diviziyanı Qudermesə qədər müşayiət etmişlər.

---

[1] ASE, III cild: Qayıbov – Eldarov. Bakı, 1979. – s. 533.
[2] 402-ci Azərbaycan milli diviziyasının döyüş yolu. Bakı, 1998. – s.8.
[3] Yenə orada – s.11-12.

Diviziya Bakıda təntənə ilə qarşılanmışdır. Müşayiət edənlər sırasına Azərbaycan K(b)P MK katibi H.Şahgəldiyev, Mirzə İbrahimov, Səməd Vurğun, Süleyman Rəhimov, Teymur Quliyev, Üzeyir Hacıbəyov, Bülbül, Süleyman Rüstəm, Yusif Məmmədəliyev, Mikayıl Hüseynov qoşulmuşdular. Qudermesdə təşkil edilmiş toplanışda S.Vurğun və S.Rüstəm çıxış etmişlər. Zaqafqaziya Cəbhəsi komandanı, ordu generalı Tülenov, Azərbaycan K(b)P MK katibi M.C.Bağırov, Moskvadan Kaqonoviç və başqaları səhra partiya fəalları yığıncağında iştirak etmişlər. İclasda M.C.Bağırov çıxış edərək diviziyanın qarşısında duran vəzifələrdən danışmışdır.

Diviziyanın ən böyük döyüşlərindən biri Mozdok ətrafında olmuşdu. 1942-ci ilin noyabr ayının 30-da başlanan hücum əməliyyatlarında iştirak edən diviziya dekabrın ilk on günündə 40 km-dək irəliləməyə müvəffəq oldu, döyüş əməliyyatlarında kapitan Məcid Əliyev, baş leytenant Abdulla Dadaşov, leytenant Bilal Rəsulov, pulemyotçu Osman Hacıyev, döyüşçü Mirzəyev xüsusilə fərqləndilər. Şair Rəsul Rza döyüş günlərində 402-ci diviziyada olmuş, döyüşçülərlə görüşmüş, Ağcabədi rayonunun Hindarx kəndindən olan pulemyotçu Osman Hacıyevin döyüş hünərindən bəhs edən "Osman Hacıyevin hünəri" adlı oçerk yazmışdı.

1942-ci il dekabrın 1-də səhər alman faşistləri hücuma keçirlər. Bu zaman düşmən geri oturdulur. Dekabrın 2-də almanlar yenidən hücuma keçirlər. Dekabrın 5-də artilleriya hazırlığından sonra böyük qüvvə ilə 402-ci Diviziyanın hissələrinin üzərinə hücum edən almanlar soldan 840-cı alayı və 834-cü alayı keçərək 833-cü alayı mühasirəyə alıb məhv etmək istəyirlər. 833-cü alayın döyüşçüləri ciddi müqavimət göstərirlər. Yaralananlara həkim Nuru Mehdiyev, sanitarlar Dilbər Təhməzbəyova, Səkinə Əliyeva, Fatma, Ququş köməklik göstərirlər. Cəmi iki döyüşçü yaralanır. Diviziya komissarı K.İsmayılov 30 nəfəri dövlət mükafatına təqdim edir. Onların arasında kiçik leytenant Sadıqov, M.İsmayılov, İ.Q.Alahverdiyev, D.Təhməzbəyova, D.N.Əliyeva, S.İsmayılov, Ququş Məmmədova da vardı. Mozdok altında baş verən döyüş diviziya alaylarının döyüş təcrübəsini artırdı.

Diviziyanın ən ağır döyüşlərindən biri Mozdok ətrafında oldu. 1942-ci ilin noyabr ayının 30-da başlanan hücum əməliyyatlarında iştirak edən diviziya dekabrın ilk on günündə 40 km-dək irəliləməyə müvəffəq oldu, gərgin döyüşlər nəticəsində 10 yaşayış məntəqəsini – Ostraşikovo Staro-Buxarova, Sirkutovskiy, Xaxalatski Naydenovski, Smirnovka və s. düşməndən təmizləndi, faşistlərin 100-dən çox tankı, zirehli maşını, yüzlərlə əsgər və zabit məhv edildi. Ağır döyüşlərdə ciddi tələfata uğrayan diviziyanın şəxsi heyətinin bir hissəsi ordu komandanlığının əmri ilə 416-cı diviziyaya verildi. Diviziya müharibə dövründə ordu üçün ehtiyat qüvvələr hazırlayan hərbi hissəyə çevrildi. 1943-1944-cü illərdə 402-ci diviziyadan digər milli diviziyaların tərkibini möhkəmləndirmək, döyüşçü və komandirlər hazır-

lamaq üçün ehtiyat baza kimi istifadə olundu. Diviziya 1943-cü ildə 2.200 nəfər, 1944-cü ildə 1.500 nəfər yeni çağırışçını qəbul edərək döyüşə hazırlamışdı.[1]

Azərbaycanın müasir hərb tarixində özünəməxsus yeri olan sərkərdələrdən biri də **Akim Əli oğlu Abbasov** olmuşdur.

Akim Abbasov

Akim Əli oğlu Abbasov 25 may 1911-ci ildə Zəngəzur mahalının Ərikli kəndində dünyaya göz açmışdır. 1918-ci ildə ailəsi ilə birlikdə Naxçıvanın Nəzərabad kəndinə köçmüş, 1920-ci ildə Naxçıvan şəhərində məskunlaşmışlar. Akim Abbasovun anası 1918-ci ildə, atası isə 1920-ci ildə vəfat etmişlər. 1922-ci ildə Naxçıvan şəhərində 3 saylı zəhmət məktəbinin uşaq evinə köçürülən Akim təhsilini orada davam etdirmiş, 1927-ci ildə A.Abbasovun 16 yaşı olanda o zaman Bakıda yerləşən Zaqafqaziya hərbi hazırlıq məktəbinə təhsilə məsləhət görülür. Bu məktəb Bakıda, indiki Bakı Şəhər İcra Hakimiyyətinin qarşısında, 132 və 134 №-li məktəbin binasında yerləşirdi. Həmin məktəbin Azərbaycan və Gürcüstan üçün milli hərbiçi kadrların hazırlanmasında xüsusi payı vardır. Bu məktəbdə tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov, özbək generalı Raximov, gürcü generalı Qeladze, Sovet İttifaqı Qəhrəmanı, polkovnik Aslan Vəzirov, polkovnik Qüdrət Cahangirov, başlanğıcda Həzi Aslanovun komandanlığı altında döyüşən polkovnik Nüsrət Bağırov, 416-cı Azərbaycan diviziyasının tərkibində Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçmiş podpolkovnik İsmayıl Aslanov ilk hərbi hazırlıqlarını keçmişlər.[2] Bu məzunlar arasında hərbi yolu seçməyənlər də olmuş, başqa sahədə şöhrət qazanmışlar. Bu sırada bəstəkar və dirijor, Sosialist Əməyi Qəhrəmanı, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı, Cəvahirləl Nehru mükafatı Niyazi Tağızadə-Hacıbəyov da vardır.

Akim Abbasov Zaqafqaziya hərbi hazırlıq məktəbini 1930-cu ilin mayında başa vurduqdan sonra hərbi təhsilini davam etdirmək üçün Tbilisiyə göndərilir. O Tbilisidəki Zaqafqaziya hərbi piyada kursunda oxuyur və orada Sov. İKP sıralarına daxil olur. 1932-ci ildə bu məktəbi bitirərək 77-ci Azərbaycan Dağ-Atıcı Diviziyasına taqım komandiri vəzifəsinə təyin olunan A.Abbasov bir müddət sonra komandanlıq tərəfindən Zaqafqaziya hərbi piyada məktəbinə göndərilir. Kursu müvəffəqiyyətlə bitirən Akim Abbasov öz diviziyasına qayıdır və 4-cü dağ-atıcı alayın komandiri təyin olunur. Sonra o, 76-cı dağ-atıcı diviziyaya keçirilir və diviziya əməliyyat şöbəsinin qərargah rəisinin köməkçisi olur. 1934-cü ildə bölük komandiri

[1] ASE, III cild. Bakı,1979. – s.394-395.
[2] Абасов, М. Дороги генерала Акима Аббасова / М.Абасов. – Баку, 1965. – с.7-8.

olan Akim Abbasov 1937-ci ilədək diviziyada qulluğunu davam etdirmiş, 1938-ci ilin əvvəllərində Naxçıvan şəhərinə göndərilmişdir.

1940-cı ildə A.Abbasov general-mayor Q.K.Qoryunovun komandan olduğu 76-cı atıcı diviziyaya göndərilir və bir həftədən sonra döyüş və siyasi hazırlıq məşğələlərinə başlayır. İş sutkada 16-18 saat davam edir. A.Abbasovun daxil olduğu əməliyyat dəstəsi polkun dislokasiyasına dair diviziya hissələrinin döyüş və siyasi hazırlıq planını işləyib hazırlayır.

Müharibənin ilk günlərindən Naxçıvan şəhərində 76-cı atıcı diviziyası formalaşmağa başlayır, A.Abbasov əvvəl qərargah əməliyyat rəisinin köməkçisi, sonra isə rəisi təyin edilir.

76-cı Diviziya 1941-ci ilin sentyabr ayında Cənub-Qərb Cəbhəsinə göndərilir. Diviziya Poltava yaxınlığındakı Çutova, İskrovka rayonları yaxınlığında ilk döyüş əməliyyatlarına başladı. Diviziya qarşısına Novyan-Meref Kolomak rayonuna, sonra Poltava vilayətinin İskrovka-Çutova rayonuna çıxmaq vəzifəsi qoyuldu. Diviziya Atarbekov yaşayış məntəqəsində əks hücumla faşist hissələrinin irəliləməsini dayandırmalı idi. Diviziya komandiri A.Abbasovu yanına çağıraraq qarşısına yeni hərbi vəzifə qoydu: Krasnı xutoru rayonunda sovet hissələrinin 137-ci artilleriya polku ilə rabitə itirilmişdir. Onlar mühasirəyə düşdüklərindən müdafiə mövqeyinə çıxa bilmirlər. Akim Abbasova əmr edilirdi ki, kəşfiyyat eskadron taqımını ələ keçirməli, 137-nin sağ cəbhə ilə əlaqə yaradaraq, Merefə çıxmaq üçün bütün tədbirlər görülməsini təmin etməli idi.

1941-ci ilin payızında Xarkov altında olan çoxgünlük döyüşü Akim Abbasov dəfələrlə xatırlamışdı. Məhz elə burada A.Abbasov başa düşmüşdü ki, qələbəni təkcə cəsarət həll etmir, taktiki hazırlıq, hərbi texnika, komandirin tez və düzgün qərar qəbul etmək bacarığı, qarşılıqlı hərəkəti düzgün təşkili də vacibdir.

A.Abbasov 1941-ci ilin noyabr ayında 76-cı Atıcı Diviziyasının 207-ci atıcı alayının komandiri təyin edildi. Bu alay Belqrad vilayətinin Şebekino rayonu yaxınlığında gedən döyüşlərdə düşmənin canlı qüvvəsini və xeyli sayda texnikasını məhv etdi. Müdafiə döyüşləri gedə-gedə 76-cı Diviziya Voloçanski, Belıy Kolodes, Sovetskaya, Proletarskaya, Qliluşkonu rayonunda müdafiədə yer tutdular. Diviziya iki il burada qaldı.

A.Abbasovun mühüm döyüş əməliyyatlarından biri də Belqorod vilayətinin Şebekino-Pentsova rayonunda baş verdi. Döyüşçülərin qarşısına çox mühüm vəzifə qoyulmuşdu. Düşmən Moskvaya yaxınlaşırdı. Moskvanın müdafiəsində dayanan qoşunların kifayət qədər ehtiyatı çatışmırdı. Belə olduğu halda, düşmənin vəhşi hücumunun qarşısını almaq, həlledici ehtiyat gələnə qədər vaxt qazanmaq lazım idi.

Artilleriya alayı və motosikletçilər gücləndirildi. Kapitan A.Abbasova Belqorod şəhəri istiqamətində Şoloxova-Myasedovo astanasında düşmənə əks hücum etmək, düşmən qüvvələrini İqutmenko, Pionerlaqer, Axarbekov, Dalnaya İqumenko yaşayış məntəqələri rayonunda məhv etmək, Belqorod

şəhəri rayonunda Şimali Donets rayonuna çıxmaq tapşırıldı. A.Abbasovun rəhbərlik etdiyi alay qarşıya qoyulmuş vəzifəni ləyaqətlə yerinə yetirdi.

Məlum olduğu kimi, 1942-ci ilin iyununda milli birləşmələrin təşkili sürətlənir. Bununla əlaqədar olaraq mayor A.Abbasov Cənub Qərb cəbhəsindən Zaqafqaziya Cənubi Qafqaz cəbhəsinin komandanlığının sərəncamına göndərilir və 402-ci atıcı diviziyasının əlahiddə şöbəsinin rəisi təyin olunur. Həmin ilin payızında alman-faşist ordusunun Qafqaz qruplaşmalarına qarşı hücum əməliyyatlarının hazırlanması ilə əlaqədar A.Abbasov 402-ci Atıcı Diviziyasının 833-cü alayının komandiri təyin edilir.

A.Abbasovun döyüşçüləri Qafqaz uğrunda döyüşlərdə də qəhrəmanlıq göstərirlər. Döyüş tapşırığını nümunəvi yerinə yetirdiyinə, göstərdikləri hərbi bacarıq və qəhrəmanlığa görə yüzdən çox əsgər müxtəlif dövlət mükafatları, mayor Akim Abbasov isə ikinci "**Qırmızı bayraq**" ordeni ilə təltif olunmuşdu.[1]



"**Qırmızı Bayraq**" *ordeni Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin 16 sentyabr 1918-ci il tarixli Dekreti ilə RSFSR-in, Sovet Sosialist Respublikaları İttifaqı təşkil olunduqdan sonra SSRİ Mərkəzi İcraiyyə Komitəsinin 1 avqust 1924-cü il tarixli Dekreti ilə SSRİ ordeni kimi təsdiq olunmuşdur.*

Ordenin statusu Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 11 yanvar 1932-ci il tarixli qərarı ilə təsdiq olunmuş, sonralar SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 iyun 1943-cü il tarixli Fərmanı ilə dəyişiklik və əlavələr edilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin 28 mart 1980-ci il tarixli Fərmanı ilə ordenin statusu yeni redaksiyada təsdiq olunmuşdur.

"*Qırmızı Bayraq*" *ordeni ilə Sosialist vətəninin müdafiəsində xüsusi cəsarət, qəhrəmanlıq və mərdlik göstərən sovet ordusu, Hərbi Dəniz Donanması hərbi qulluqçuları, sərhəd və daxili qoşunları, SSRİ dövlət təhlükəsizlik orqanlarının əməkdaşları, hərbi hissələr, hərbi gəmilər, birləşmələr, həmçinin SSRİ vətəndaşı olmayan şəxslər də təltif olunurdular.* "*Qırmızı Bayraq*" *ordeni ilə ikinci dəfə təltif olunduqda həmin şəxsə* "*2*" *rəqəmi yazılmış, sonrakı təltiflərdə isə müvafiq rəqəm yazılaraq verilirdi. Təltif müvafiq olaraq SSRİ Müdafiə Nazirliyinin, SSRİ Daxili İşlər Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin təqdimatı əsasında həyata keçirilirdi. Ordenlə təltif olunan hərbi hissələr, hərbi gəmilər, birləşmələr* "*Qırmızı bayraqlı*" *adlanırdı.*

"*Qırmızı Bayraq*" *ordeni sinənin sol tərəfində Oktyabr inqilabı ordenindən sonra 2-ci daşınır.*

[1]Абасов, М. Дороги генерала Акима Аббасова / М.Абасов. – Баку, 1965. – с.44.

Ordenin layihəsinin müəllifi rəssam V.V.Denisovdur. Ordenin birincisi ilə Çelyabinsk inqilab komitəsinin sədri, keçmiş fəhlə Vasili Konstantinoviç Blyuxer təltif edilmişdir.[1]

Ordenlə təltif olunanlar içərisində M.İ.Kalinin, S.M.Ordconikidze, Q.K.Kuybışev, həmçinin vətəndaş müharibəsi sərkərdəsi M.V.Frunze, M.N.Tuxaçevski, M.N.Budyonnı, K.E.Voroşilov, V.İ.Çapayev, Q.İ.Kotovski və başqaları da vardır.

1928-ci il sentyabrın 1-dək ordenlə 14.678 nəfər, 1933-cü il yanvarın 1-dək 16.317 nəfər təltif olunmuşdur.

1928-ci il sentyabrın 1-dək ordenlə iki dəfə təltif olunanlar – 285 nəfər, 1933-cü il yanvarın 1-dək – 378 nəfər;

1928-ci il sentyabrın 1-dək ordenlə üç dəfə təltif olunanlar – 31 nəfər, 1933-cü il yanvarın 1-dək – 60 nəfər;

1928-ci il sentyabrın 1-dək ordenlə dörd dəfə təltif olunanlar – 4 nəfər, 1933-cü il yanvarın 1-dək – 7 nəfər olmuşdur.

1933-cü ilin əvvəlinədək RSFSR üzrə "Qırmızı Bayraq" ordeni ilə təltif olunanların sayı 16.762 nəfər olmuşdur. 28 qadın da bu ordenə layiq görülmüşdür.

Ümumiyyətlə, 1924-cü ildən 1991-ci ilə kimi "Qırmızı Bayraq" ordeni ilə təltif olunanların sayı 581.300 nəfərdən artıq olmuşdur.

402-ci Atıcı Diviziyasının çətin döyüşlərindən biri 1942-ci ilin sentyabr ayında İşşersk rayonu yaxınlığında baş verir. Bu döyüşdə Akim Abbasovun rəhbərlik etdiyi 833-cü alay da iştirak edir və 8 yaşayış məntəqəsini ələ keçirir, düşmənin külli miqdarda canlı qüvvəsi, zirehli maşını məhv edilir. Döyüşün nəticələrinə görə 120 döyüşçü müxtəlif hökumət təltifləri alırlar. Akim Abbasov isə "**Lenin**" **ordeninə** təqdim edilir.

402-ci Atıcı Diviziyası komandanlığının 1942-ci il 14 dekabr tarixdə imzaladığı təltif vərəqəsində göstərilirdi ki, "… 1942-ci ilin 2 və 3 dekabr tarixində mayor Abbasovun yığma alayı düşmənin dəhşətli müqavimətinə baxmayaraq döyüş tapşırığını yerinə yetirərək 43 alman tankı yandırılmış və sıradan çıxarılmış, 32 zirehli maşın məhv edilmiş və yandırılmış, bir avtomaşın və 2 ratsiya məhv edilmiş, 500-dən artıq faşist öldürülmüşdü…". [2]

Lakin məlum olmayan səbəbdən təltifin Cənubi Qafqaz cəbhəsi komandanlığı tərəfindən təsdiqi ləngidilir. Bundan narahat olan A.Abbasov Azərbaycan K(b)P MK katibi, Zaqafqaziya cəbhəsi Hərbi Şurasını üzvü M.C.Bağırova məktubla müraciət edir.

---

[1]https://www.google.com/search?q=%E2%80%9EQ%C4%B1rm%C4%B1z%C4%B1+Bayraq%E2%80%9D+ordeni&oq=%E2%80%9EQ%C4%B1rm%C4%B1z%C4%B1+Bayraq%E2%80%9D+ordeni&aqs=chrome..69i57j0i22i30.1946j0j4&sourceid=chrome&ie=UTF–8

[2]ARPİİSSA , Fond №.1, siyahı №28, saxlama vahidi № 158.

К о п и я

К о п и я

298
24 II 1943 г.

СЕКРЕТАРЬ ЦК КП(б) АЗЕРБАЙДЖАНА
ЧЛЕНУ ВОЕННОГО СОВЕТА ЗАКАВКАЗСКОГО ФРОНТА
тов. М.Д. Б А Г И Р О В У

От командира 833 стрелкового полка 402 стр. дивизии
майора АББАСОВА А.А.

ЗДРАВСТВУЙТЕ ТОВАРИЩ БАГИРОВ.

В дни Великой Отечественной войны, во время наступления нашей доблестной Красной Армии против немецко-фашистских войск, мне вверенный 833 стрелковый полк 402 стрелковой дивизии также принял непосредственное участие в изгнании и уничтожении оккупантов из нашей родной земли. Военные действия нашего полка развернулись в районе населенных пунктов " Нов.Леднев", " Найденовское "," Сборный ", Потихонин", " Кречетков ".Несмотря на жесткое сопротивление, сопровождающееся неоднократными танковыми контратаками сыны Азербайджанского народа показали храбрость, стойкость и мужество в борьбе с немецкими оккупантами. За период боевых действия 86 бойцов и командиров нашего полка награждены и представлены к Правительственным наградам. Меня за умелое руководство полком во время боевых действий, за проявленную храбрость и мужество по Вашему указанию командование 402 СД представило к Правительственной награде " ОРДЕН ЛЕНИНА". Наградной лист и соответствующие документы были направлены по инстанции Штабу Закавказского фронта 3.XII. 1942 года. Командующий 44 Армии генерал-майор Хоменко в частной беседе 16 декабря прошлого года сообщил мне, что я был представлен Военному Совету фронта, но, однако, до сего времени я не знаю результатов представления.

A.Abbasovun M.C.Bağırova məktubunun surəti



Обязательно все графы заполнить полностью.

НАГРАДНОЙ ЛИСТ

Фамилия, имя и отчество АББАСОВ АКИМ АЛИЕВИЧ

Военное звание майор

Должность, часть Командир 833 стрелкового полка 402 СД.

Представляется к Правительственной награде " ОРДЕН ЛЕНИНА".

1. Год рождения 1911 2. Национальность Азербайджанец

3. С какого времени состоит в Красной Армии 1927-38-41 г. 4. Партийность чл. ВКП(б) с 1931 г.

5. Участие в боях (где и когда) Юго-западный фронт с 1 октября 1941 г. по 13 марта 1942 г. и с 1.10- 42 года Северной группе Закфронта.

6. Имеет ли ранения и контузии Ранен 12 февраля 1942 года.

7. Чем ранее награжден (за какие отличия) Наград не имеет.

8. Каким РВК призван Нахичеваньским республиканским Военкоматом

9. Постоянный домашний адрес: (представляемого к награждению или его семьи) г. Нахичевань на /Аракс, ул. Пушкина, дом №

Для подшивки

I. Краткое, конкретное изложение личного боевого подвига или заслуг

Поставленная боевая задача наряд 833 сп.- занятие нового рубежа в наступательном бою в районе "Сборный" за 2 и 3 декабря 1942 года полком под командованием майора Аббасова, несмотря на жестокое сопротивление противника, данное задание выполнено. В результате боя нанесены противнику потери: а) подбито и сожжено 43 немецких танка, б) подбито и сожжено 32 немецких бронемашины, в) уничтожена одна автомашина и две рации.

Майор Аббасов командовал умело и решительно.

Вывод: За самоотверженность в руководстве и организации в борьбе против немецких оккупантов представляю к правительственной награде " ОРДЕН ЛЕНИНА

п/п. Командир 402 отд. [redacted]

"3" декабря 1942 [redacted]

Зав. [redacted]

Копия с копии верна

Akim Abbsovun “Lenin” ordeninə təqdim olunmuş təltif vərəqəsi[639]

24 fevral 1943-cü il tarixli 298 saylı məktubda deyilirdi ki, “…402-ci atıcı diviziyanın 833-cü polku işğalçıların ölkədən qovulması və məhv edilməsində birbaşa iştirak edir. Bizim polkumuzun hərəkəti Novıy Lednev, Naydenovskaya, Sbornıy, Potixonin, Kureçetov yaşayış məntəqələri rayonunda genişləndirmişdir. Düşmənin güclü müqavimətinə baxmayaraq, Azərbaycan xalqının oğulları əks hücumları ilə onlara cavab vermiş, alman

işğalçılarına qarşı döyüşdə cəsarətlilik, mərdlik və cəsurluq göstərmişlər. Döyüş əməliyyatı dövründə bizim alayın 66 döyüşçü və komandiri mükafatlandırılmış və hökumət mükafatlarına təqdim edilmişdir. Döyüş əməliyyatlarına bacarıqla rəhbərlik etdiyimə və göstərdiyim cəsarət və mərdliyə görə Sizin göstərişinizlə 402-ci Atıcı Diviziyanın komandanlığı "Lenin" ordeni hökumət təltifinə təqdim etmişdir.

Təltif vərəqəsi və müvafiq sənədlər 3.XII. 1942-ci il tarixdə Zaqafqaziya cəbhəsi qərargahına göndərilmişdir. Dekabrın 16-da 44-cü ordunun komandanı, general-mayor Xomenko mənimlə şəxsi söhbətində Cəbhə Hərbi Şurasına təqdim olunduğunu bildirmişdi, ancaq bu vaxta qədər nəticə mənə məlum deyildir. Mən alman işğalçıları ilə döyüş üçün, həmçinin böyük etibarı doğrultmaq üçün 833-cü alayı yenidən formalaşdırıram… Mənə cavabın gecikməsinə qarışmağınızı xahiş edirəm".[1]

Görünür, bu öz çirkin caynaqlarını keçmiş SSRİ-nin bütün hakimiyyət strukturlarına ilişdirə bilmiş erməni daşnakları və onların şovinist himayədarlarının qəhrəman Azərbaycan övladının yüksəlişinin qarşısını almaq üçün etdikləri növbəti cinayət əməllinin nəticəsi idi.[2]

1942-ci ilin aprelində qış kampaniyası başa çatdı. Sovet qoşunları bir sıra vilayətləri və Kerç yarımadasını işğalçılardan azad etdi.

Terek çayının sağ sahilində vəziyyətin kəskinləşməsi ilə əlaqədar Cənubi Qafqaz cəbhəsi Hərbi Şurasının qərarı ilə 1942-ci il oktyabr ayının 4-də 402-ci atıcı diviziya Naxçıvan MSSR-dən Quqermesə göndərildi və 44-cü ordunun tərkibinə daxil edildi.

1942-ci ilin çətin yayında Cənubi Qafqaz cəbhəsi coğrafi, siyasi, iqtisadi və hərbi strateji cəhətdən xüsusi yer tuturdu. Məhz həmin ilin martında mayor A.Abbasov gözlənilmədən cəbhə qərargahına çağırıldı və Şimali Qafqaz cəbhə komandanlığının sərəncamına heç bir ay keçməmiş Tbilisiyə, Cənubi Qafqaz cəbhəsinin sərəncamına göndərildi.

Beləliklə, Akim Abbasov 76-cı Diviziyadan ayrıldı. O, bu diviziyada düşmənlə ilk döyüşə girəndə 402-ci Azərbaycan Atıcı Diviziyası qərargahında operativ şöbənin rəisi idi. 1942-ci ilin sentyabrında bu diviziya Mozdokun şimali-şərqində yerləşən İsersk, Kapustino, Novo Lednev, Mayorsk yaşayış məntəqələri rayonunda düşmənlə döyüşə girmişdi. Akim Abbasov 402-ci Diviziyanın 833-cü alayının komandiri təyin edilmişdi. A.Abbasov yaxşı xatırlayır ki, diviziyanın bu polku 1942-ci ilin 30 sentyabrından 11 dekabradək gərgin döyüşlərlə Staro Buxarova, Şirkitovskoe, Xoxalatskiy, Mayenevskiy, Smirnova, Patixonnıy, Oboronnı yaşayış məntəqələrini azad etmişlər. Bu döyüşlərdə diviziyanın 833-cü atıcı alayı fərqlənmişdi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №158.

[2] Bəhramov, C. Azərbaycan oğulları Qafqaz uğrunda döyüşlərdə // Elm qəzeti, 2010, 3 mart, s.9.

Qafqazın müdafiəsi dövrü 1942-ci ilin dekabrın 1-dək davam etdi. Stalinqrad altında düşmənin darmadağın edilməsi səbəbli Qafqaz sıra dağları ətəklərindən hitlerçilərin Bakıya, Cənubi Qafqaza və Qara dəniz sahillərinə can atması cəhdi baş tutmadı. Yaranmış vəziyyət hücum üçün şərait yaratdı. 1943-cü il yanvarın 1-də 44-cü ordu Mozdok istiqamətində hücuma keçdi. Abbasovun alayı 402-ci Diviziyanın tərkibinə daxil idi. Alay döyüş əməkdaşlığı şəraitində müdafiəni yararaq geri çəkilən düşmən hissələrini izləməyə başladı. Yanvarın 3-də Şimal qrupu Mozdok və Malqoveki, 4-də Nalçiki, 5-də Proxladnını azad etdi.

833-cü atıcı polkunun döyüşçüləri Mazdok yaxınlığında. 1942-ci il

1945-ci ildə polkovnik A.Abbasovun 34 yaşı tamam oldu. O, həmin ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun qiyabi şöbəsinə daxil olaraq 1948-ci ildə bu ali məktəbi bitirdi. 1948-ci ildə Moskva vilayətindəki Solneçnoqorsk Ali atıcı – taktiki kursuna göndərildi. "**Vıstrel**" ("**Atəş**") kursunu 1949-cu ildə bitirərək 216-cı Azərbaycan atıcı diviziyasının komandirinin müavini təyin edildi və bu vəzifədə 1952-ci ilə kimi xidmətini davam etdirdi.

1953-cü ilin oktyabrından 1954-cü ilin noyabrınadək M.V.Frunze adına Hərbi Akademiyanın nəzdindəki Ali Akademiyada təhsil alan A.Abbasov həmin ildə Hərbi Akademiyaya daxil oldu və 1956-cı ildə Akademiyanı bitirdi. 1957-ci ildə SSRİ Nazirlər Sovetinin qərarı ilə ona "**general-mayor**" hərbi rütbəsi verildi.

A.Abbasovun 20 il ərzində rəhbərlik etdiyi diviziya birləşmə içərisində nümunəvi hissə hesab olunmuşdu. Mürəkkəb ordu kollektivinə rəhbər-

likdə A.Abbasov 80 nəfərdən çox perspektivli komandir hazırlayaraq ali hərbi təhsil almaq üçün ölkənin müxtəlif hərbi akademiyalarına göndərdi.

1960-cı ilin sonlarında general-mayor A.Abbasov Bakı şəhərində yerləşən 39486-cı Diviziya komandiri təyin olundu və 1966-cı ildə istefaya gedənə qədər diviziya komandiri kimi çətin, məsuliyyətli hərbi xidmətini şərəflə yerinə yetirdi. 1962-ci ildə general-mayor rütbəsində ehtiyata buraxılarkən A.Abbasova Cənubi Qafqaz qoşunları Hərbi Şurasının Fəxri Fərmanı ilə təltif olundu. Fəxri Fərmanda deyilirdi: "Sıravi əsgərlikdən general-mayor rütbəsinədək şərəfli döyüş yolu keçmiş Akim Abbasov… Silahlı qüvvələr sıralarında 40 ilə yaxın komandanlıq etmişdir".[1]

Akim Abbasov ölkəni ictimai-siyasi həyatında da fəal iştirak etmişdi. Respublika Ali Sovetinin 4, 5, 6-cı çağırış deputatı seçilmişdir. Xidmət etdiyi dövrdə 3 "Qırmızı bayraq", 2 "Qızıl Ulduz", I dərəcəli "Vətən müharibəsi" ordenləri, Fəxri orden və 25-dən çox medalla, Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 5 Fəxri Fərmanı və Respublika Ali Sovetinin 8 Fəxri Fərmanı ilə təltif olunmuşdur. Əmək və müharibə veteranı general A.Abbasov silahlı qüvvələrdə xidmət etdiyi 40 ilin 14 ili Azərbaycan diviziyasının payına düşür.

Ordudan tərxis olunduqdan sonra A.Abbasov 1967-ci ilin iyun ayından 1979-cu ilədək Azərbaycan SSR Nazirlər Sovetinin qərarı ilə Avtomobil Nəqliyyatı Nazirinin müavini işləmiş, 1982-ci ildən Azərbaycan SSR Sülhü Müdafiə Komitəsində sədr müavini və Sülhü Müdafiə Fondu (Şurasının) Azərbaycan SSR bölməsinin sədri olmuş, 1986-cı ildə Sülhü Müdafiə Komitəsinin "Sülhü möhkəmləndirməyə görə" Böyük Qızıl Medalı ilə təltif olunmuşdur.

Akim Abbasov 1989-cu il aprelin 25-də Bakı şəhər Müharibə Veteranları komitəsinin sədri, həmin ilin dekabr ayında Sovet Müharibə Veteranları Komitəsinin plenum üzvü seçilmişdi.

A.Abbasov Bakı şəhəri, Xankəndi şəhəri, Bakının Oktyabr və Lənkəran rayonları sovetlərinin deputatı olmuşdur.

Xocalı faciəsi baş verəndə A.Abbasov ağır xəstə idi. Baş vermiş hadisələr onun xəstəliyini daha da şiddətləndirdi. Akim Əli oğlu Abbasov 1992-ci il fevralın 27-də dünyasını dəyişdi.

1996-cı ildə Heydər Əliyevin sərəncamı ilə Akim Abbasovun anadan olmasının 85 illik yubileyi respublikada təntənə ilə qeyd olunmuşdur.

Akim Abbasov haqqında iş yoldaşlarının, döyüş dostlarının xatirələrində onun şəxsi keyfiyyətləri, zabit kimi döyüş bacarığı və yoldaşlıq münasibətləri öz əksini tapmışdır. Xalq yazıçısı Əli Vəliyev, bəstəkar, dirijor Niyazi, general-mayor M.Q.Quliyev, polkovnik A.T.Haqverdiyev, hüquq elmləri doktoru, professor Əyyub Əsgərov, AMEA-nın müxbir üzvü, pro-

[1] Zeynalov, Nəriman. Oğul o kəsdir ki, … / Nəriman Zeynalov. – Bakı, 1975. – s.35-36.

fessor Abas Zamanov, şair Nəriman Həsənzadə general A.Abbasov haqqında ən xoş sözləri söyləmişlər.

Nəriman Zeynalovun "Oğul o kəsdir ki…", C.B.Quliyev, Q.Ə.Mədətov və A.A.Nadirovun "Sovet Naxçıvanı", Qurban Orucovun "Azərbaycan Qafqaz uğrunda döyüşlərdə", Kamil Bəktaşinin "General Akim Abbasov", tarixçi Məzahir Abasovun «Абасов М. Дороги генерал Аким Аббасов», Y.A.Məlikov və İ.Ə.Əyyubovun "Vətənin igid oğulları", İsmayıl Kazımovun "General Akim Abbasov" kitablarında Akim Abbasovun həyat və döyüş yolundan bəhs olunmuşdur.

General-mayor Mustafa Nuriyev, general-mayor M.Q.Quliyev, 1-ci qrup müharibə əlili, istefada olan zabit N.C.Vəzirov, vaxtilə Bakı Müharibə Veteranları Komitəsinin sədri olmuş polkovnik A.T.Haqverdiyev xatirələrində qeyd edir ki, Akim Abbasov alovlu vətənpərvər, təbliğatçı idi. Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə ona "Azərbaycan Respublikasının fəxri təbliğatçısı" adı verilmişdir.

Lənkəran Dövlət Universitetinin Dilçilik kafedrasının müdiri, filologiya elmləri namizədi, dosent, "Əməkdar müəllim" Mirhaşım Mirmurtuza oğlu Talışlının, Lənkəran Kommunal Müəssisələri kombinatının mülki xidmət bürosunda sex rəisi, Lənkəran Müharibə veteranları şurasının sədr müavini Məmmədrza Məmməd oğlu Məmmədovun, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədrinin müavini Baloğlan Rüstəmovun, Vaxtilə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş Dilruba Camalovanın xatirələrində onun qayğıkeş insan, sədaqətli cəbhə yoldaşı kimi keyfiyyətləri əksini tapmışdır.[1]

Akim Abbasov 4 oğul böyütmüşdür. Hafiz prokurorluq orqanlarında çalışmışdır. Oğlu **Arif** tarixçi-etnoqraf kimi elm sahəsində səmərəli fəaliyyət göstərmiş, AMEA-nın müxbir üzvü seçilmişdir. **Asif** atasının yolunu davam etdirərək Azərbaycan Respublikasının hərbi komissarı kimi yüksək vəzifəyə yüksələ bilmişdir. Kiçik oğlu **Akim** isə daxili işlər orqanlarında şərəflə işləmişdir.

General-mayor A.Abbasovun xatirəsi əbədiləşdirilmişdi. Bakı Şəhər Xalq Deputatları Soveti Rəyasət Heyətinin 1995-ci il 24 may tarixli 5/3 saylı qərarı ilə Yasamal rayonundakı Kiyev prospektinə (A.Şərifzadə küçəsindən İzmir küçəsinədək general-mayor **Akim Əli oğlu Abbasovun** adı verilmişdir. Xəzərdəki gəmilərdən biri "**General Abbasov**" adını daşıyır. 1994-cü ilin mayında onun adına xeyriyyə fondu təşkil olunmuşdur.

416-cı Atıcı Diviziya

Qırmızı bayraqlı və II dərəcəli "Suvorov" ordenli **416-cı Diviziya** 1942-ci ilin mart-sentyabr aylarında yaradılmış milli diviziyadır. Müxtəlif vaxtlarda koman-

[1] Bəhramov, Cəbi, Əmrahov, Mais. Generalı xatırlayarkən. Akim Abbasov –100. Tarixi oçerk / C.Bəhramov, M.Əmrahov. – Bakı, 2011. – s.23, 110.

danları S.P.Starojilov, V.T.Maslov, T.A.Əliyarbəyov, D.M.Sızranov, H.M.Zeynalov, P.M.Ryabov, R.Ə.Məcidov və b. diviziyanın qərargah rəisi və siyasi rəhbəri olmuşlar. Diviziyanın tərkibində 2 atıcı alay, topçu alay, minomyot və tank vuran qırıcı divizionu, topçu və qərargah batareyası, tibbi-sanitar batalyonu vardı.

Diviziyada "Qızıl əsgər" qəzeti nəşr olunurdu. 1942-ci ilin mayında diviziyanın döyüşçüləri and içdilər, həmin ilin iyununda diviziya 44-cü Ordunun tərkibinə daxil olmuşdu. Diviziya Dağıstan MSSR ərazisində yerləşirdi. Sentyabrın axırında diviziyanın hissələri cəbhə xəttinə yaxın Batırki, Lipatov, Postnı rayonlarında yerləşdirildi. 1942-ci il noyabrın 30-da diviziya cəbhə xəttinə gətirildi və Şimali Qafqazda Mozdok rayonunda müdafiə mövqeyi tutaraq Şimali Qafqazda ümumi əks-hücumda iştirak etdi və dekabrın 2-də Novo-Lednev və Kapustino yaşayış məntəqələri düşməndən azad edildi. Diviziya 1943-cü ilin yanvar-fevral aylarında Mozdok, Kafkazskoe Linilin, Stavropol, Armavir, Azov dənizi sahilləri uğrunda gedən döyüşlərdə və bu yerlərin düşməndən təmizlənməsində iştirak etdi.

General D.Sızranov

44-cü Ordu Hərbi Şurasının üzvü, general-mayor Uranov 25 dekabr 1942-ci il tarixdə M.C.Bağırova ünvanladığı məktubunda 416-cı Atıcı Diviziyanın işindən bəhs edərək bildirirdi ki, əməliyyat prosesində digər diviziyalara nisbətən bu diviziyada iş yaxşı təşkil olunmuş, insanlar mərdlik və qəhrəmanlıqla döyüşdülər. Diviziyanın hesabına Staro-Lendev, Sorokin, Berrukix və b. məntəqələr düşməndən təmizləndi. 1373-cü atıcı alayın partiya bürosunun katibi kapitan Babayev İbrahim Əli oğlu, 1373-cü atıcı alayın komsomol komitəsinin büro katibi, baş leytenant Məmmədov Nəsib Əmrah oğlu qəhrəmanlıq göstərdilər. Birinci sanitar taqımın sanitarı, döyüşçü Mustafayev Məhəmməd İbixan oğlu öz postunda fədakarcasına işlədi, döyüş meydanından 20 döyüşçü və komandiri silahla birlikdə çıxardı. 3-cü minomyot alayının döyüşçüsü Şahverdiyev Dəmir Məmməd oğlu düşmənin atəş altında özünün şəxsi igidliyi ilə digər döyüşçülərə nümunə göstərdi. Leytenant Abdullayev kəşfiyyatda 15 düşmən tankı ilə rastlaşır, özünü itirmədən onlara atəş açır və nəticədə bir düşmən tankı yandırılır, 2 faşist öldürülür və biri əsir götürülür. PTR döyüşçüsü Cavadov Mir Cabbar düşmən tankını yandırdı. 8-ci alayın taqım komandiri leytenant Məmmədov İbad İbrahim oğlu düşmənin iki tankını yandırdı və döyüşdə qəhrəmanlıqla həlak oldu. 8-ci rotanın taqım komandiri leytenant Məmmədov Aslan Rüstəm oğlu tank əleyhinə silahla düşmənin iki tankını vurdu. Batalyon komandiri kapitan Ağayev batalyona yaxşı rəhbərlik edərək

vəzifəsini müvəffəqiyyətlə yerinə yetirdi.[1] 3-cü batareyanın birinci taqımının komandiri V.S.Mirzəyev öz silahı ilə alman tankını məhv etdi. Məktubda diviziyanın itkilərindən də bəhs olunurdu. Bildirilirdi ki, gərgin döyüşlərin gedişində diviziya 3.122 nəfər (23 dekabr 1942-ci il tarixə) itirdi. Onlardan 245 nəfər komandan tərkibli, 407 nəfəri kiçik komandan tərkibi, 2.470 nəfəri sıravi idi. 556 nəfər öldürüldü, 1.952 nəfər yaralandı, 642 nəfər itkin düşdü. Atlı dəstə 82 baş at itirdi. Silah itkisinə də yol verildi. 262 PPŞ, 14 dəzgahlı pulemyot, 57 PTR, 33 müxtəlif minomyot itirilmişdir. Diviziya 402-ci Atıcı Diviziya hesabına tamamlanmış, polkovnik Qaragözovun əvəzinə diviziyaya komandir polkovnik Sızranov, polkovnik Zeynalovun əvəzinə qərargah rəisi polkovnik Ryabov təyin edilmişdir. Yeni təyin edilən rəhbərlər təcrübəli və ciddidirlər.[2]

Diviziyanın tərkibi yeniləşdirilirdi. 1943-cü ilin yayında və payızında diviziyaya 600 nəfər təlim keçmiş azərbaycanlı döyüşçü göndərildi. Diviziya 1943-cü ilin fevral-avqust aylarında digər əsgəri hissələrlə birlikdə Sambek müdafiə xətti rayonunda mövqe tutdu. 1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində göstərdiyi əsgəri igidliyə görə Kalmius xəttinin yarılmasında, Meliotopolun düşməndən təmizlənməsində fərqləndi, "**Taqanroq**" diviziyası fəxri adı verildi. Diviziya "Qırmızı Bayraq" ordeninə layiq görüldü.

Taqanroq uğrunda döyüşlərdə fərqlənən İbrahim adlı azərbaycanlı əsgər xüsusi şücaət göstərdi.[3] Naxçıvanın Dizə kəndindən olan Mahmud Hüseynov cəbhədə olduğu müddətdə öz pulemyotu ilə düşmənin 3 təyyarəsini vurub saldı, bir zirehli maşını yandırdı, 22 hitlerçini məhv etdi, 12 nəfəri əsir götürdü. Döyüşlərdə göstərdiyi şücaətə görə "Qırmızı Ulduz" ordeni və medallarla təltif olundu.[4]

Taqanroq uğrunda döyüşlərdə Naxçıvan şəhərindən baş çavuş A.Qasımov, Gəncə şəhərindən döyüşçü çavuş A.Ələkbərov, Qəbələ şəhərindən Ş.Hüseynov, Sabirabad rayonundan döyüşçü V.Afanasyev, Şəki şəhərindən döyüşçü İ.Axundov cəsarətlə vuruşdular.[5]

416-cı Atıcı Diviziyanın komandiri, polkovnik Sızranov və diviziyanın siyasi hissə üzrə komandir müavini polkovnik Məcidovun Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda bildirilirdi ki, Ağcabədi rayonundan olan Əlinağı və Əliməstan Bunyatovlar 10-dan çox faşisti məhv etmişdi. Baş çavuş Novruz Abdullayevin rəhbərlik etdiyi döyüşçülər qrupu igidlik göstərdilər. İsmayıllı rayonundan döyüşçü Nurəddin Əsgərov, Maştağalı

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, sax.vah. №91, vərəq – 154-155.
[2] Yenə orada, vərəq – 155.
[3] AMEA TİEA, "Cəbhədən məktublar" qovluq №9, s. 4.
[4] Yenə orada, s. 88.
[5] Yenə orada, s. 129-130.

döyüşçü Qənbərəli Cabbarov, Gürcüstan SSR-dən Məzahir Mərkoşi "Qızıl Ulduz" ordeni ilə təltif olundular.

"Kommunist" qəzetinin avqust nömrələrinin birində "Azərbaycan xalqının tapşırığını şərəflə yerinə yetirəcəyik" adlı yazıda Azərbaycan oğullarının döyüş qəhrəmanlığından bəhs olunurdu. Yazının müəllifi "N" diviziyası döyüşçüləri adından Sızranov Məcidov və başqalarıdır. Yazıda bildirilirdi ki, "N" diviziyasından Azərbaycan k(b)P MK-ya bir məktub gəlmişdir. Məktubda göstərilirdi ki, gənc azərbaycanlı döyüşçülərdən ibarət qüvvələr diviziyanın döyüş bayrağını artırmışdır. Döyüşçülərdən Naxçıvan MSSR-in Şahbuz rayonunun Zireş kəndindən olan kəşfiyyatçı Tahir Məmmədov, Stalinneft trestinin buruq ustası, baş serjant Novruz Abdullayev, Maştağa kəndindən olan Qəmbərəli Ələsgərov düşmənlə döyüşdə mərdlik və qəhrəmanlıq göstərmişdir.

Məqalədə qeyd edilir ki, Zərdab rayonunun Soslu kəndindən olan Baloğlan Səfər oğlu Məmmədov 57, Bərdə rayonunun Muxtarlı kəndindən olan Cəlal Allahverdi oğlu Məmmədov 48, Ağdaş rayonunun Mürsəlli kəndindən olan Mirzəməmməd Məcid oğlu Allahverdiyev 43, Nuxa şəhərinin Bağırov adına küçəsindəki 4 №-li evdə yaşayan İsmayıl Əli oğlu Abdullayev 42, Bakı şəhərində 5-ci Paralel küçəsində 35 №-li evdə yaşayan Qasım Cəfər oğlu Abbasov 31, İsmayıllı rayonunun Lahıc kəndindən olan Qulu Nəsir oğlu Quliyev 29, Cəbrayıl rayonunun Aranlı kəndindən olan Zaman Əmiəli oğlu Mirzəyev 28, Qax rayonunun Güllük kəndindən olan Həzrət Yusif oğlu Qasımov 28, Xızı rayonunun Xızı kəndindən olan Məmməd Muxtar oğlu Bəhmənov 25 alman əsgər və zabitini məhv etmişdi. 50-ə qədər döyüşçü və komandir orden və medallarla təltif olunmuşdular. [1]

Azərbaycanın qəhrəman oğullarının döyüş şücaətlərindən cəbhə qəzetləri də yazırdı. Belələrindən biri "Döyüşən ordu" qəzeti idi. Qəzet yazırdı ki: "Avtomatçılar bölməsinin döyüşçüləri azərbaycanlı Hüseyn Əjdərov bir dəstə avtomatçı ilə birlikdə Byaji kəndi yaxınlığında yenicə tutulmuş "Tövlə" mövqelərini müdafiə edirdi. Almanlar 12 lay taxta-torpaqla örtülmüş və daş divarların arxasında möhkəmləndirilmiş olan atəş nöqtələrindən güllə yağdırırdılar. Avtomatçılarımıza əmr verildi ki, almanları bu atəş nöqtəsində dərhal vurub çıxarsınlar.

Uca boylu, pəhləvan qamətli döyüşçü Əjdərov bir qədər qumbara götürüb sürünə-sürünə düşmənin …atəş nöqtəsinə tərəf irəlilədi. Hər atəş nöqtəsində 15 faşist əsgəri vardı. Əjdərov atəş nöqtəsinə çatdıqda buraya bir-birinin ardınca bir neçə qumbara tulladı. İçəridəki almanların hamısı məhv edildi".[2] Yazının müəllifi bildirir ki, həmin gün Əjdərov 30 qumbara işlətdi, 50-dək alman əsgəri məhv edildi.

---

[1] "Kommunist" qəzeti, 1943, 29 avqust.
[2] "Döyüşən ordu" qəzeti, 1943, 2 avqust.

Diviziyanın snayperçiləri 4 ay ərzində 1.017 alman əsgər və zabitini, artilleriya hissəsi düşmənin 80 artilleriya və minomyot batareyasını, atıcı hissə 2.500 hitlerçini məhv etmişdi. Ordenli kapitan Ə.Y.Abdullayev, batalyon komandirinin müavini, ordenli kapitan, bakılı Firudin Süleymanov, bakılı kapitan Əbülfət Yusifov döyüşçülərə nümunə olmuşdular.[1]

1944-cü ildə diviziya 5-ci Zərbə Ordusunun tərkibində bütün cəbhə boyu döyüşdə fərqləndi. Diviziya Dneprin keçilməsində, Nikolayev, Odessa, Kişinyov şəhərlərinin azad edilməsində iştirak etdi. Odessa uğrunda müvəffəqiyyətli hərbi əməliyyatlara görə II dərəcəli "Suvorov" ordeni ilə təltif olundu.

"Kommunist" qəzeti "Üç qəhrəman şəhərin müdafiəçisi" adlı məqaləsində bildirirdi ki, Yusif Quliyev ilkin olaraq Leninqradın müdafiəsində iştirak etmişdi. Onların 6 qırıcısı bir dəfə almanların 43 bombardmançısı ilə qarşılaşdı. 4.000 metr hündürlükdə başlanan döyüşdə Yusif 5 bombardmançı ilə döyüşdü. Odessa müdafiəçiləri sırasında döyüşlərdə iştirak edən Yusif Quliyevin şturman olduğu bombardmançı təyyarə qısa müddətdə düşmənin 100 tankını, 175 avtomobilini, 600 əsgər və zabitini məhv etdi. Yusifin təyyarəçilər heyəti göstərdiyi qəhrəmanlığa görə "Qızıl Ulduz" ordeni ilə təltif edildi. Odessa uğrunda döyüşlərdə Yusif 2-ci dəfə yaralandı. Müalicədən sonra Sevastopolun müdafiəsində iştirak etdi.[2]

416-cı Diviziyanın 421-ci əlahiddə rabitə hissəsində komandir, kapitan Kramarenkonun təşəbbüsü ilə rabitə qrupu yaradılmışdı. Telefon və teleqraf stansiyasının rəisi, baş serjant Səfər Abdullayev atəş altında komandanlıqla rabitəni yaxşı təşkil etdiyi göstərdiyi igidliyə görə "Qırmızı Ulduz" ordeni və döyüş medalları ilə təltif olunmuşdu. "N" alayının radiostansiya rəisi Davud İsrafilov faşistlərin Kişinyov şəhəri altına darmadağın edilməsinə şərait yaratmış, "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu. Radiostansiya rəisi Abbas Məhərrəmov öz işinin ustası kimi komandirinin əmrlərini gecikdirmədən topçu komandirlərinə radio vasitəsilə lazımi vaxtda çatdırdığına və top atəşlərinin açılmasını təmin etdiyinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdi.[3]

Budapeşt uğrunda döyüşlər özünün gərginliyi və strateji əhəmiyyətinə görə digər döyüşlərdən fərqlənirdi. Azərbaycanlı döyüşçülər Budapeşt uğrunda döyüşlərdə yenə fərqləndilər. Kapitan Müseyib Qurbanovun Budapeştdən yazdığı məktubunda aparılmış əməliyyat nəticəsində fevralın 13-də 2-ci Ukrayna Cəbhəsinin qoşunları 3-cü Ukrayna Cəbhəsi qoşunlarının köməyi ilə Budapeşt şəhərini tutduqlarını bildirir və azərbaycanlı döyüşçülərin rəşadətindən söz açırdı. Məktubda bildirilirdi ki, polkovnik Saqimovun

---

[1] Газ. «Бакинский рабочий», 1943, 5 октября.
[2] "Kommunist" qəzeti, 1943, 14 sentyabr.
[3] AMEA TİEA, "Cəbhədən məktublar" qovluq №9, s. 36-37.

azərbaycanlılardan ibarət diviziyası Budapeşt ətrafında düşmənin 9 müdafiə xəttini yarmış, 11 əks-hücumun qarşısını almış və düşmən böyük tələfata uğramışdı.

Mayor Məmməd Məmmədovun tankvuran topçular diviziyası 3 günlük döyüşdə düşmənin 10 tankını və 100-dən çox hitlerçini məhv etdi. Mayor Manafovun atıcı bölməsi düşmənin şiddətli müqavimətini qıraraq 3 macar yaşayış məntəqəsini aldı, çoxlu sayda alman və macar əsgər və zabiti məhv edildi.

Bakılı kəşfiyyatçı Bayramov 25 gün düşmən arxasında olaraq, düşmənin planları haqqında məlumatları komandanlığa ötürdü. Kamal Paşayev Budapeşt küçələrində vuruşdu, düşmən tankını vurdu, 2 hitlerçini məhv etdi. İstehkamçı Həlim İbrahimov Dunay çayını keçərək sahəni minadan təmizlədi. Ağdam rayonundan olan 5 ordenli kiçik leytenant Çərkəz Qurbanovun taqımı təkcə son döyüş ayında 100-dən artıq alman və macar əsgər və zabitini məhv etdi, 70 hitlerçi, o cümlədən 3 alman zabiti əsir götürüldü.[1]

Müharibənin ilk günlərindən könüllü olaraq cəbhəyə gedən Quba rayonunun 2-ci Nüvədi kəndindən olan döyüşçü Yaqub Qasımov sıravi əsgərlikdən qvardiya leytenantı rütbəsinədək yüksəldi. Onun minaatanlar bölüyü, Qafqaz, Krım, Odessa uğrunda döyüşlərdə fəal iştirak etmiş, biz neçə dəfə yaralanmış, Macarıstana qədər uzun bir döyüş yolu keçmişdi. Göstərdiyi igidliyə görə "Qırmızı Ulduz", "Boqdan Xmelnitski" ordenləri, "Döyüş xidmətlərinə görə", "İgidliyə görə" medalları ilə təltif olunan Yaqub Qasımovun şücaətindən "Kommunist" qəzetinə göndərilmiş məktubda geniş bəhs olunurdu. "…Qoşunlarımız Macarıstanın paytaxtı Budapeşt şəhəri ətrafına gəlib çıxmışdılar… Döyüş meydanının təbii şəraiti dağlıq, meşəlik olması düşmənin müdafiəsini daha da möhkəmləndirmişdi…Beləliklə, bizim piyada qoşunlarımızın hücum yolu üzərində ciddi çətinlik yaranmışdı. Bu an birləşmə komandiri Yaqub Qasımovu yanına çağıraraq… düşmənin arxasına keçib, onu mina atəşinə tutulmasını əmr edir… Cəsarətli zabit, qoçaq azərbaycanlı balası məharətlə hərəkət edərək cinahdan düşmənin arxasına keçdi. Minomyotları xəlvət yerə qoyub hitlerçiləri arxadan mina atəşinə tutdu. Bu gözlənilməz zərbədən vahiməyə düşən düşmən Qasımovun kiçik dəstəsi üzərinə 8 tank, bir bölük avtomatçı göndərdi… Qvardiyaçı minaatıcılar düşmənin 8 tankını və 40-da artıq əsgərini məhv etdilər".[2]

1945-ci il fevralın axırında diviziya digər hissələrlə birlikdə düşmənin inadlı müqavimətini qıraraq Oder sahillərinə çıxdı. Oderin keçilməsindəki vuruşmalarda göstərdiyi əsgəri rəşadət üçün diviziyanın 6 döyüşçüsünə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

---

[1] AMEA TİEA, "Cəbhədən məktublar" qovluq №9, s. 92-98.
[2] Yenə orada, s. 163-164.

Oder çayını birinci keçənlərdən olan kapitan Bəxtiyar Fərəcovun "Kommunist" qəzetinə yazdığı məktub döyüşçülərimizin qəhrəmanlığına dair faktlarla doludur.[1]

416-cı Taqanroq Diviziyası Şərqi Prussiya və Yuxarı Sileziya yaxınlığında hitlerçilərin darmadağın edilməsində iştirak etdi. Vislanın qərb sahili uğrunda döyüşlərə hazırlıqda diviziyanın partiya rəhbəri Mənsur Paşayev, rabitəçi Məmməd Səmədov, bölük komandirləri İsrafil İbrahimov, İlyas Nəsrullayev, Darnək Alıyev və Şirin Süleymanov, kimi bölük komandirləri, taqım komandiri Paşa Hüseynov fərqləndilər.[2] 1945-ci ilin fevralında 416-cı Diviziya Oder çayını keçilməsi əməliyyatında Bəhyəddin Mirzəyev xüsusi şücaətindən və sərkərdəlik məharətini göstərdi və ona Sovet İttifaqı Qəhrəmanı adı verildi. Kustrin körpüsünün ələ keçirilməsində şücaət göstərən 416-cılar düşmənin mindən çox əsgər-zabitini, 7 artilleriya minaatan batareyasını, 185 qaynar nöqtəsini, 150 qoruyucu evi, 4 anbarını məhv etdi, 265 əsgər və zabiti əsir götürdülər.[3]

1945-ci ilin yazında Visla və Oder çayları arasında gedən döyüşlərdəki xidmətlərinə görə diviziyanın 1368-ci atıcı alayı "Qırmızı bayraq", 1095-ci alayı III dərəcəli "Suvorov", 444-cü əlahiddə sanitar batalyonu "Qırmızı Ulduz" ordeni ilə təltif olunmuşdu.[4]

1054-cü Artilleriya alayının komandiri M. Mahmudov

1945-ci ilin fevral-mart aylarında diviziya Berlinin qapısı sayılan Kustrin şəhərinin alınmasında yaxından iştirak etdi. Diviziyanın azərbaycanlı döyüşçüləri Kustrin uğrunda döyüşlərdə əsgəri rəşadət göstərdilər. "Kommunist" qəzetinin xüsusi müxbirləri Novruz İbrahimov və kapitan Nüsrət Bağırov xəbər verirdilər ki, Kustrin şəhərinin alınmasında Qəbələ rayonunun Vəndam kəndindən olan İsmayılov Məmmədnəbi Süleyman oğlu şəhəri və qalanı almaq uğrunda əla vuruşduğuna görə Ali Baş Komandanlıqdan təşəkkür aldı. Məmmədnəbinin piyada dəstəsi 1.500 almanı əsir götürdü.[5]

1945-ci il yanvarın 20-də general-mayor Sızranovun və **mayor M.Mahmudovun 1054-cü artilleriya alayı** Kustrin şəhəri və qalasına hücumda

---

[1] AMEA TİEA, "Cəbhədən məktublar" qovluq №9, s. 129.

[2] Зейналов Р, Бородецкий Л. 416-я Таганрогская / Р.Зейналов, Л.Бородецкий.– Баку, 1969. – с.172.

[3] Yenə orada, s.207.

[4] ASE, III cild: Qayıbov – Eldarov. – Bakı, 1979. –s.533.

[5] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941–195 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.54-55.

fərqləndilər. Leytenant Məmməd Abdullayevin topçu bölməsi düşmənin 25 döyüş nöqtəsini dağıdaraq 350-dən çox faşisti öldürdü, 49 nəfəri əsir aldı. Bu döyüşlərdə M.Abdullayev 24 faşist məhv etdi. 10-dan çox faşist tankı, 26 avtomobili, 5 zenit topu, 2 zirehli maşını, 190 əsgər və zabiti məhv edən şahin Nuru Əliyev "Qırmızı bayraq" ordeni ilə təltif olundu.

Kustrin uğrunda döyüşlərdə Oderdən keçmək mühüm əhəmiyyət kəsb edirdi. Oderin qərb sahilində gedən döyüşlərdə Qazax rayonunun Şıxlı kəndindən olan İslam Vəliyev öz topu ilə alman tankını məhv etdi. Onun döyüş yoldaşı Məhərrəm Hüseynov 3 alman əsgərini öldürdü. İgid azərbaycanlı balaları İ.Vəliyev döyüşlərdə göstərdiyi şücaətə görə "Qırmızı bayraq", II dərəcəli "Vətən müharibəsi" ordenləri, Məhərrəm Hüseynov II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundular.

Kustrin uğrunda döyüşlərdə kapitan Xeyrulla Səttar oğlu Gülməmmədov fərqləndi. Dörd ilə yaxın döyüşlərdə iştirak edən döyüşçü X.Gülməmmədov Turuk, Don, Dnepr, Visla sahillərində dəfələrlə almanlarla üzüzə gəldi, hər dəfə azərbaycanlı igidə yaraşan mərdlik göstərdi. Əfəndiyevin batareyası hücum edən 9 alman tankını və motorlu topu atəşə tutdu, düşmənin 5 tankı və 3 motorlu topu vuruldu. Düşmən 13 saat ərzində 24 dəfə hücuma keçsə də, hər dəfə itkilər verərək geri çəkildi. "Qızıl Ulduz" ordeni, "İgidliyə görə" və "Qafqazın müdafiəsi uğrunda" medalları ilə təltif olunmuş naxçıvanlı baş çavuş Qasım Qasımov, kürdəmirli Şıxəli Zərbəliyev xüsusi qəhrəmanlıq göstərdilər.[1] Baş leytenant Allahyar Ələkbərov, tibb xidməti kapitanı Ağasaleh Qəniyev əsgər və zabitlərin hörmətini qazandılar. Topçu Əmrah Əhmədovun batareyası döyüş yoluna Terekdən başladı. Taqanroqa qədər olan döyüşlərdə onun batareyası 17 tankı vurdu, onlarla düşmən topunu sıradan çıxardı, yüzlərlə faşisti məhv etdi. Batareyanın döyüşçüləri Böyükkişi Həsənov, Süleyman Məmmədov, Knyaz Cavadov, Teyyub Hüseynov, Alı Yunusov və b. öz qəhrəmanlıqları ilə şöhrət qazandılar. Şəkidən olan İsa Qurbanov hücum edən 25 düşmən əsgərindən 4 nəfərini vurdu.

Kustrin uğrunda döyüşlərin qəhrəmanlarından biri batalyon komandiri, baş leytenant Yusifov Əjdər Abbas oğlu oldu. Son qala alınanda onun alayı 95 alman əsgərini əsir götürdü, 300-dən çoxunu məhv etdi. Ali Baş Komandanlıqdan 8 dəfə təşəkkür alan baş leytenant Ə.Yusifov "Qırmızı Ulduz", I və II dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olundu.[2]

Kustrin şəhərinin alınmasında zərdablı Həsənov Məmməd Məmməd oğlu, Əhədov Əhəd Əbdülhəmid oğlu, qəbələli Azməmmədov Bayramalı Tağı oğlu "Vətən müharibəsi" ordeni ilə təltif olundular.[3]

---

[1]AMEA TİEA, "Cəbhədən məktublar" qovluq № 9, s. 186-188.

[2] Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu). Письма – живая история войны 1941-195 гг. (Сборник писем и документов). Bakı, 2009. – s.357-362.

[3] Yenə orada, s.45-46.

416-cı Taqanroq Atıcı Diviziyası başqa birləşmələrlə birlikdə faşist Almaniyasının paytaxtının mərkəzi – kayzer Vilhelm sarayını, alman operasının binası, Unter-Den-Linden, alman reyxsbankı, Parizen-meydanı, Sileziya vağzalı, Brandenburq qapıları – Berlin üçün həlledici döyüşdə iştirak etdi. 27 ay ərzində 2500 kilometrdən çox məsafə qət edən, 40 çayı, o cümlədən Dnepr, Visla, Oder və başqalarını keçən 416-cı Taqanroq diviziyası 7900 kvadrat kilometrdən çox ərazi azad etdi, düşmənin 22.996 alman zabit və əsgərini məhv edildi, 5.474 nəfər əsir götürüldü, xeyli sayda hərbi texnika qənimət kimi ələ keçirildi.[1]

1945-ci il martın 12-də Moskvada Kustrin qaliblərinin şərəfinə, o cümlədən 416-cı diviziyanın şərəfinə 224 topdan 24 yaylım atəşi açıldı.

N.İmanquliyev "Kommunist" qəzetindəki yazısında Cənub Cəbhəsindən Əli Bayramlı (indiki Şirvan rayonu) rayonundan olan kəşfiyyatçı Qənbər Bədəl oğlu Ağayev, ağstafalı leytenant Əfəndi Məcid oğlu Əfəndiyev, taqım komandiri bakılı Qasım Cəfər oğlu Abbasovla 416-cı Diviziyanın fəxr etdiyi döyüşçülər olduğunu bildirirdi.

Berlin əməliyyatında iştirak edən 416-cı diviziya 1945-ci il aprelin 20-də Klosserdorfu tutub Reyxstaq istiqamətində hücumu davam etdirdi. 1945-ci il mayın 2-də diviziyanın bölmələri Brandenburq darvazasına qələbə bayrağı sancdılar.

416-cı Azərbaycan milli atıcı diviziyasının döyüş yolu

Kalius çayı ətrafında gedən döyüşlərdə faşistlər ciddi müqavimət göstərməsə də, düşmən minaatıcısı qoşunların irəliləməsinə mane olurdu. Bu minaatıcının yerini öyrənmək və susdurmaq kəşfiyyatçı Qənbər Ağayevə

[1] Зейналов Р, Бородецкий Л. 416-я Таганрогская / Р.Зейналов, Л.Бородецкий. – Баку, 1969. – с.231.

tapşırıldı. Q.Ağayev sürünə-sürünə düşmən mövqelərinə yaxınlaşdı, 4 mina-atıcı olduğunu müəyyənləşdirdi, atdığı qumbara ilə 3 düşmən əsgərini məhv etdi. Sağ qalmış 4-cü düşmən əsgəri qaçmaq istəyərkən onu yaxaladı və komanda məntəqəsinə gətirdi.

Leytenant Əfəndi Məcid oğlu Əfəndiyev avtomatçılar taqımının komandiri idi. Qafqaz dağlarının ətəklərindən başlayıb Ukrayna düzlərinə gedən döyüşlərdə qəhrəmanlıq göstərən komandir döyüş tapşırıqlarına məsuliyyətlə yanaşırdı. Avqust ayının axırlarında düşmən qüvvəsini toplayaraq Moxri, Elanşik və Vasilyevka kəndləri ətrafında möhkəm müdafiə yaratmışdı. Yaranmış şəraiti qiymətləndirən komandanlıq düşmən arxasına avtomatçılar taqımını göndərməyi qərara aldı.

Ə.Əfəndiyevin taqımı düşmən arxasına keçdi. Bunu görən almanlar atəş açmağa başladılar. Leytenant Əfəndiyev düşmən avtomatçılarının mühasirəyə almasına imkan verməyərək hücuma keçdi. Döyüşdə Əfəndiyev özü 17 almanı məhv etdi.

Taqım komandiri, kiçik leytenant Qasım Abbasov usta atıcı idi. Sambek rayonunda gedən bir vuruşmada Abbasov 31 hitlerçini öldürdü.[1]

"N" hərbi hissəsinin komandirinin siyasi hissə üzrə müavini mayor Moloçkonun Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda deyilirdi: "Bizim zenit topları hissəsində bir batareya vardı. Batareyanın şəxsi heyəti azərbaycanlılardan ibarətdir…Onlar bir ay 10 gün müddətində 12 faşist təyyarəsini vurmuşlar. Top komandiri çavuş Hüseyn Yusif oğlu Axundovun topçuları düşmənlə mübarizədə özlərini xüsusi göstərmişlər. Batareyada birinci nişançı, Kürdəmir rayonunun Qaralar kəndindən olan Əli Yusif oğlu Həsənovdur. Top hesablayıcılarından Beyləqan rayonunun Xələc kəndindən Baxışov, Əli Bayramlı (indiki Şirvan) rayonunun Şeyxsəmədoğlu kənd sovetliyindən Əziz Xan oğlu Babayev, Ağdam rayonunun Evoğlu kəndindən Məmməd Əli oğlu Hacıyev, Yevlax rayonunun Salahlı kənd sovetliyindən Ələmdar Cəfər oğlu Cəfərov, Əli Bayramlı (indiki Şirvan) rayonunun Ağaməmmədli kənd sovetliyindən uzaqölçən Ataxan Surxay oğlu Babzarov vuruşmalarda mərdlik və igidlik göstərdilər.

Qasım İsmayılov rayonunun Goranboy kəndindən ordu sıralarına çağırılan serjant Zülfüqar Əli oğlu Həsənov 4 düşmən təyyarəsini vurub salmışdı. Batareyanın 12 döyüşçüsü orden və medallarla təltif edilmişdi.[2]

Mayor Abbas Muradov 416-cı Diviziyaya ilk təşkil olunan vaxt gəlmişdi. Bir neçə döyüşdə iştirak etdi və özünü qorxmaz döyüşçü kimi göstərdi. 1942-ci il dekabrın 24-də təpə uğrunda döyüşlərdə fərqlənən A.Muradovu komandanlıq I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif etdi.[3]

---

[1] "Kommunist" qəzeti, 1943, 12 oktyabr.
[2] Yenə orada, 1944, 6 noyabr.
[3] Yenə orada

416-cı Diviziyanın tərkibində yüzlərlə müəllim vardı. Belələrindən biri Əli Bayramlı (indiki Şirvan) rayon xalq maarif şöbəsinin keçmiş müdiri Əbülfət Yusifov idi. 12 düşmən tankının hücumunu görən Ə.Yusifov tank vuran silahı ilə 2 düşmən tankını yandırdı, qalanlarını qaçmağa məcbur etdi. Komandanlıq Ə.Yusifovu "Qızıl Ulduz" ordeni ilə təltif etdi. Ucar rayonunun Qarabörk kəndində tam olmayan məktəbin keçmiş direktoru Musa Musayev düşmən qüvvələrinin sayını öyrənmək məqsədilə kəşfiyyata gedən döyüşçülər üçün tikanlı çəpərlərdən və minalar düzülmüş sahələrdən yol açmaq bacarığına və cəsarətinə görə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olundu.

Düşmənin atəş nöqtələrini susduran döyüşçülərdən biri də Şəmkir rayonundan keçmiş müəllimi Hümbət İsmayılov idi. Onun döyüş şücaətləri ikinci dəfə "Qızıl Ulduz" ordeni ilə qeyd edildi. Döyüşlərdə göstərdiyi xidmətlərinə görə Azərbaycan Dövlət Darulfünununun keçmiş tələbəsi M.Əliyev "Qızıl Ulduz" ordeni, keçmiş müəllim M.Niftullayev II dərəcəli "Vətən müharibəsi" ordeni, keçmiş müəllim B.Ardaqanlı "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olundular.[1]

416-cı Diviziyanın döyüşçüsü, Şəkinin Zunud kənd sakini İsaq Qurbanov minomyot atan dəstənin komandiri kimi Mozdokdan Berlinədək döyüş yolu keçdi. Dnepr sahilində düşmənin 3 tankını sərrast atəşlə məhv etdiyi, Visla çayı ətrafında faşistlərə tələfat verdiyi, Oder çayı boyunda almanların tankını susdurduğuna görə 1-ci və 2-ci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdu.[2]

M.Süleymanov

Müharibə başlananda Şəki rayonunun Təpəcənnət kənd məktəbində müəllimlik edən Muxtar Süleymanov ilk günlərdən döyüşdə iştirak etdi. Qəhrəman müəllim Moskva ətrafında, Ukrayna və Belarusiya uğrunda döyüşlərdə, Varşavanın azad edilməsində igidlik və şücaət göstərdi. Mayor **Muxtar Süleymanov** L.M.Dovatorun əfsanəvi birləşməsində kəşfiyyat polkunun rəisi idi. O, paytaxtın divarları yanında döyüş xidmətlərinə görə 2 "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.

Mayor Muxtar Süleymanov danışırdı ki, 1941-ci ilin noyabrın 6-da onların qvardiya atlı alayı Novo-Petrovskanın cənub-qərbində meşədə dayanmışdı. Əmr verildi ki, onlar növbəti gün səhər tezdən Moskvada olmalıdırlar. Alay səhərə yaxın təyinat yerinə gəlib çıxdı, burada bildirirlər

---

[1] "Kommunist" qəzeti, 1944, 11 fevral.

[2] Hacıyev Nemət. Unudulmaz qəhrəmanlıq / N.Hacıyev. – Bakı, 1969. – s.67.

ki, onlar Qırmızı Meydanda ənənəvi paradda iştirak edəcəklər. M.Süleymanov etiraf edir ki, onlardan çoxları buna təəccüblənir: İndi düşmən paytaxtın divarları önündə olan zaman parad və yığıncaqların vaxtıdırmı? Yalnız sonralar başa düşürlər ki, sovet adamlarının sıx birləşdirilməsi və düşmənin dəf edilməsində bu paradın nə qədər böyük əhəmiyyəti var imiş.

Sıçovka-Jizdra rayonunda düşmənin arxasına keçərək **Oryol-Kursk** marşrutunda dəmiryol körpülərinin partladılmasına rəhbərlik etmək Muxtar Süleymanova tapşırıldı. Tapşırıq M.Süleymanovun rəhbərlik etdiyi dəstə tərəfindən ləyaqətlə yerinə yetirildi. Əsgər və zabitlərdən 170 nəfəri orden və medallarla təltif olundu. Nümunəvi rəhbərlik etdiyi üçün M.Süleymanov "Aleksandr Nevski" ordeninə layiq görüldü.

"Nuxa fəhləsi" qəzeti 1943-cü il oktyabr nömrəsində yazırdı: "Döyüş cəbhəsinin ölməz qəhrəmanı, vaxtı ilə Nuxanın gözəl təbiətli kəndlərindən birində müəllimlik etmiş gənc Muxtar Süleymanovun vuruş meydanlarında misilsiz və saysız qəhrəmanlıqları Nuxa gənclərinə ölməz şərəf qazandırmışdır…gənc Muxtar cənub-qərb cəbhələrində və Moskva ətrafındakı şiddətli döyüşlərdə həmişə düşmənə qələbə çalmışdır. O, öz atının tərkində bir alman zabitini qərargaha gətirdiyi zaman onun həqiqi bir qəhrəman olduğuna şübhə etmirdik. Döyüş qəhrəmanlığına görə o, iki dəfə ordenlə təltif edilmişdir".[1]

Qvardiya mayoru Muxtar Süleymanov 11 dəfə yaralanmış, iki "Qırmızı bayraq", birinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı ulduz" ordenləri və 9 medalla təltif olunmuşdur.[2] Müharibədən sonra uzun illər məsul partiya və təsərrüfat işlərində işlədi.[3]

Şəkili **Gülü İlyasov** hələ 17 yaşı tamam olmamış öz xahişi ilə ordu sıralarına getdi. Yenicə tibb texnikumunu bitirmiş Gülü ilk gündən özünü təkcə feldşer kimi deyil, həm də qəhrəman döyüşçü kimi göstərdi. O, **416-cı** Taqanroq Diviziyasında Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi, Polşada Soxaçiyev, Skerneviye və Lvov şəhərləri uğrunda vuruşlarda, Visla çayı boyu hücumda, Kustrin, Brandenburq və Berlinin alınmasında fəal iştirak etdi, baş leytenant rütbəsinədək yüksəldi.

G.İlyasov

416-cı Diviziyanın 1368-ci atıcı alayının komandiri V.Kurakatşvili hərbi feldşer, tibb xidməti

[1] "Nuxa fəhləsi" qəzeti, 1943, 29 oktyabr.

[2] Qranin, Y. Azərbaycan oğulları Moskva və Leninqrad uğrunda döyüşlərdə / Y.Qranin. – Bakı, 1943. – s.7.

[3] Газ. «Бакинский рабочий», 1986, 12 ноябрь.

leytenantı G.İlyasovun döyüşlərdə göstərdiyi igidlik və qəhrəmanlığına görə dəfələrlə komandanlıq tərəfindən təşəkkür aldığını bildirirdi.[1] G.İlyasov birinci dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə" medalı, ümumiyyətlə 6 orden və medalla təltif olunmuşdu.[2]

S.Məmmədov

Gənc müəllim **Saleh Məmmədov** döyüş cəbhələrində həqiqi qəhrəmanlıq göstərmiş, həmyerlilərinin başını ucaltmışdır. Onun xidmət etdiyi polkun komandiri Salehin ailəsinə yazırdı: "Saleh Məmmədovun "Qızıl Ulduz" ordeni ilə təltif edilməsi münasibəti ilə Sizi təbrik edirəm. Sərrast atıcı snayperçi olan Saleh bu yaxınlarda bizim cəbhənin ön hissəsində az vaxt içərisində 51 faşisti öldürüb".[3] Qvardiya baş serjantı, ordenli **İdris Vəliyev** mənfur düşmənlə Borodino çölündə vuruşurdu. İdris pulemyotçulara rəhbərlik edirdi. O, döyüşlərdə 160 almanı məhv etmişdi.[4] Düşmənə qarşı mübarizədə bir addım da geri çəkilməyən **Allahyar Haqverdiyev** Oryol-Kursk, Şərqi Prussiya, Moqilyov, Orşa, Minsk, Kaunas, Alenburq, İnsterburqun düşməndən azad olunmasında, Neman çayının qəhrəmancasına keçilməsində qorxmazlıq nümunələri göstərdi, "Qırmızı bayraq", "Aleksandr Nevski", birinci dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olundu.[5]

Ə.Ağamirzəyev

1936-cı ildə Moskvada zabitlər hazırlayan məktəbi bitirərək leytenant rütbəsi alan **Əsabəli Ağamirzəyev** 416-cı Diviziyanın 1368-ci atıcı alayının birinci batalyonunda komissar vəzifəsinə irəli çəkilmiş, döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə ikinci dərəcəli "Vətən müharibəsi" ordeni və 5 medalla təltif olunmuşdu. Şəkinin Qoxmuq kəndindən Məmmədovlar ailəsindən 4 qardaş – Bəybala, Əlibala, Əhəd və Ədil cəbhəyə səfərbər olundu, evdə kiçik qardaş Fikrət qaldı. Qardaşlardan Bəybala və Əlibaladan "qara kağız" alındı, Əhəd və Ədil qəhrəmanlıqla vuruşdular.

---

[1] Они освобождали Молдавию, они штурмовали Берлин: (Воспоминания и очерки о 5-ой ударной армии) /Сост. Свиридов И.К. Марчук Ю.А. / Кишинев, 1984, (Библ. Серия МССР). – с. 133.

[2] Hacıyev, Nemət. Unudulmaz qəhrəmanlıq / N.Hacıyev. – Bakı: Gənclik, 1969. – s.67.

[3] Əfəndiyev, S.T. Şəki Böyük Vətən müharibəsi illərində / S.T. Əfəndiyev. – Mingəçevir, 2010. – s.16.

[4] Qranin, Y. Azərbaycan oğulları Moskva və Leninqrad uğrunda döyüşlərdə / Y.Qranin. – Bakı, 1943. – s.7

[5] Hacıyev, Nemət. Unudulmaz qəhrəmanlıq /N.Hacıyev. – Bakı: Gənclik, 1969. – s.68.

Diviziyanın qazandığı qələbələrdə kişilərlə yanaşı Ədilə Abbasova, Səkinə Bayramova, Nəzakət Yəhyayeva, Şükufə Əsgərova, Rəşidə Qasımzadə, Zəhra Səlimova, Mina Hacıyeva, Cənnət Kazımova, Səkinə Şəfiyeva, Pakizə Manafova, Rübabə Rzayeva, Mina Teymurova və onlarla başqalarının əməyi az olmadı. Azərbaycanlı qızlar – Rübabə, Səkinə, Nəzakət, Rəhimə və Tahirə "Döyüş xidmətlərinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olundular.[1]

Bilqeyis Qasımova müharibə başlananda Şəkidəki 4 №-li Fabrikin uşaq bağçasında işləyirdi. 1942-ci il aprelin 7-də cəbhəyə çağırıldı. Onun qulluq etdiyi bölük 1943-cü ildə Şimali Qafqaza göndərildi. Projektorçular bölməsində çalışdı. Bilqeyis Qasımova "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olundu.

Əminə Əliyeva 1942-ci ildə səfərbərliyə alındı. 45-ci ordunun 408-ci Diviziyasının sanitar batalyonunda şəfqət bacısı olan Əminə Qafqaz uğrunda döyüşlərdə iştirak etdi.

Müharibə dövründə alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarına görə diviziyanın 152 döyüşçü qadınından 45 nəfər, o cümlədən hərbi feldşer B.Mircavadova "Qızıl Ulduz" ordeni, 42 nəfər "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" medalları ilə təltif olundu. 17 qadın zabit rütbəsi aldı. Onların arasında T.Fəttahova, B.Mircavadova, R.Babayeva və b. vardı. Bu əməliyyatda 3 cəbhənin qoşunları iştirak etdi. 2,5 milyon sovet döyüşçüsü, 7.500 hərbi təyyarə, 6.200 tank və özüyeriyən artilleriya qurğusu, 42.000-dən çox top və minomyot Berlin üzərinə yönəldildi. Reyxstaq divarlarına avtoqraf yazanlar sırasında Böyükxanım Mircavadova və Rəhimə Babayeva da vardı.[2] Rəhimə Babayeva "Döyüş xidmətlərinə görə" Qafqazın, Berlinin, Almaniyanın alınmasına görə medalları ilə təltif olundu.

T.Fəttahova

Tahirə Fəttahova qədim Gəncədə dünyaya göz açmış, müharibə başlananda Bakı əczaçılıq məktəbini bitirmişdi. Orduya çağırılan gənc Tahirə əvvəlcə 752-ci Hərbi Səhra Xəstəxanasının, 1942-ci ildə 416-cı Azərbaycan Milli Diviziyası təşkil olunanda onun aptek rəisi təyin olundu. İlk döyüşü Terek sahillərində qarşıladı. Mozdokdan Taqanroqa kimi döyüş yolu keçən T.Fəttahova bütün çətinliklərə baxmayaraq, əsgərləri dava-dərmanla təchiz etdi, Taqanroq uğrunda döyüşlərdə "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olundu. Visla çayı keçilərkən, Almaniya torpağına qədəm qoyularkən, Kustrin və Berlin şəhərləri

[1] AMEA TİEA, "Cəbhədən məktublar", qovluq №9, s. 165-170.
[2] Azərbaycan qadını, 1963, № 2.

alınarkən Ali Baş Komandanlığın təşəkkürünü aldı. T.Fəttahova "Qırmızı Ulduz" ordeni, "Qafqazın müdafiəsinə görə", "Berlinin alınmasına görə", "1941-1945-ci illərin Böyük Vətən müharibəsi illərində Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdi.

Rəşidə Qasımzadə 1941-ci ildə ordu sıralarına çağırıldı. Əvvəlcə 29-cu batalyonda qulluq etdi, 1942-ci ilin əvvəlində 416-cı diviziyaya göndərildi.

R.Qasımzadə

Diviziya ilə döyüş yolu keçən R.Qasımzadə "Qırmızı Ulduz" (1944), İkinci dərəcəli "Vətən müharibəsi" (1945) ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə" və digər medallarla təltif edildi.

Müharibədən sonra Bakıda tibb bacısı işləyən Rəşidə Qasımzadə Beynəlxalq Qırmızı Xaç Komitəsinin qərarına əsasən "Florens Nojtinqeyl" medalı ilə təltif edildi.

B. Mircavadova

Cəbhə dostları Böyükxanım Mircavadovadan söz düşəndə onu cəsur əsgər kimi dəyərləndirirdilər. O, Azərbaycan qadınları arasında ilk dəfə "Qırmızı Ulduz" ordeni ilə təltif edilmiş şəfqət bacısı idi. 1941-ci il iyun ayının 28-də cəbhəyə çağırılan B.Mircavadova 44-cü Orduda xidmətə başladı, 1942-ci ilin yazında 416-cı Diviziyanın 68-ci atıcı alayına göndərildi. Mozdok şəhəri yaxınlığındakı döyüşdə 87 yaralını ölümdən qurtardığı üçün "Qırmızı Ulduz" ordeni ilə, həmçinin "Qafqazın müdafiəsinə görə", Varşavanın və Berlinin alınmasına, Almaniya üzərində qələbəyə görə medalları ilə təltif edilmişdi.

Nəcibə Məmmədova Böyükxanım kimi Taqanroq və Melipotol şəhərlərinin azad edilməsi döyüşlərinin iştirakçısı olmuşdu, Berlinə qədər döyüş yolu keçmişdi. 1945-ci ildə ordudan tərxis olunan N.Məmmədova həkimlik peşəsini davam etdirdi. 1976-cı ildə "Əmək veteranı", 1982-ci ildə "Səhiyyə əlaçısı" döş nişanına layiq görüldü.

Zəhra Səlimova döyüş yolunu 416-cı Diviziyada keçdi. Onun döyüş dostu Rübabə Əhmədova-Rzayeva da 416-cı Diviziyada mətinləşdi, leytenant rütbəsi aldı, II dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri, "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olundu. 1946-cı ildə ordudan tərxis olunan R.Əhmədova tibb bacısı kimi peşəsini davam etdirdi.

1942-ci ilin aprelin 20-dən 1945-ci ilin mayın 2-dək Qafqaz dağlarından Berlinədək döyüş yolu keçən 416-cı diviziya 1942-ci il sentyabrın 30-dan 1945-ci ilin mayın 2-dək olan dövrdə düşmənin 22.996 nəfər əsgər

və zabitini məhv etdi, 5.474 nəfəri əsir aldı, onlarla tank və zirehli maşın, 195 top, 31 minomyot, 210 və 842 yüngül pulemyot, 4.997 tüfəng, 683 avtomaşın, 21 zirehli maşın, 800 atəş nöqtəsi və 68 müxtəlif ərzaq, sursat və ləvazimat sıradan çıxarıldı. Diviziya bu müddətdə 17 tank, 297 ədəd müxtəlif tipli top, 189 minomyot, 325 pulemyot, 1.067 yüngül pulemyot, 12.135 ədəd tüfəng, 18.990 avtomat, 818 avtomaşın, 164.873 mərmi, 38 zirehli maşın, 540 vaqon, 240 parovoz və s. texnikanı hərbi qənimət kimi ələ keçirdi.

Berlinə ilk daxil olan 416-cı Diviziyanın[1] döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adı aldı, 11 nəfər "Lenin", 358 nəfər "Qırmızı Əmək Bayrağı", 3 nəfər 2-ci dərəcəli "Kutuzov", 47 nəfər "Aleksandr Nevski", 540 nəfər 1-ci dərəcəli "Vətən müharibəsi", 1.756 nəfər 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 5.205 nəfər "Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə "İgidliyə görə" və "Hərbi xidmətlərinə görə" medalı ilə təltif olundu. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə gününədək 14.369 nəfər müxtəlif orden və medallarla təltif edildi.[2]

Azərbaycan oğulları yüksək komandirlik istedadı nümayiş etdirdilər. H.Aslanov, İ.Quliyev, T.Əbilov, H.Hüseynov, A.Vəzirov, Q.Abdullayev, A.S.Əliyev, A.Abbasov, Q.Zeynalov, V.Züvanov (H.Heybətov), N.Kərimov, M.Osmanov və b. sovet ordu hissələrində diviziyalara, briqadalara və polklara, partizan dəstələrinə məharətlə komandirlik etdilər. Faşizmə qarşı mübarizədə **121 nəfər** Azərbaycan SSR vətəndaşı (onlardan **43 nəfəri azərbaycanlı** idi) Sovet İttifaqı Qəhrəmanı adına, **Həzi Aslanov** bu ada **iki dəfə (1942 və 1991)** layiq görüldü, **30 nəfər** "Şöhrət" ordeninin tam üç dərəcəsinin kavaleri oldu.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin 2005-ci il fevral ayının 16-da Rusiyada Azərbaycan ilinin açılış mərasimindəki çıxışında azərbaycanlıların 1941-1945-ci illər müharibəsində cəbhələrdə fədakarcasına vuruşduğunu bir daha xatırladaraq demişdi: "Biz Böyük Vətən müharibəsi cəbhələrində fədakarcasına vuruşmuş və ümumi qələbəmizi təmin etmiş 600 min azərbaycanlının igidliyini və qəhrəmanlığını ehtiramla yad edirik".[3]

---

[1] Жуков, Г.К. Воспоминания и размышления / Г.К. Жуков. – Москва, 1971. – с.668.

[2] ASE, III cild: QAYIBOV-ELDAROV. – Bakı, 1979. – s.533; Əmrahov M.İ. İkinci dünya müharibəsi M.İ.Əmrahov. – Bakı, 2010. – s.387.

[3] Əliyev, İlham. İnkişaf məqsədimizdir. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. Yanvar-mart 2005, 100 kitabda. 8-ci kitab / buraxılışına məsul R.Mehdiyev. Bakı, 2011. – s.93.

VII FƏSİL

AZƏRBAYCAN SSR-in İQTİSADİYYATI CƏBHƏNİN XİDMƏTİNDƏ

Bakı nefti olmasaydı, bəlkə də Sovet İttifaqının qələbəsi mümkün olmazdı

Heydər Əliyev

Bakı sovet ordusunun cəbbəxanası kimi. Bakı nefti müharibə illərində

II Dünya müharibəsinə başlayanda - "Almaniya "açılmış süfrə"yə yaxınlaşanda artıq orada yer yox idi. Yerlər digər imperialist dövlətlər tərəfindən tutulmuşdu. Almaniya öz sintetik yanacağı və müəyyən qədər rumin yanacağı ilə qalmışdı. Həm də Hitlerə məlum idi ki, yaşamaq üçün neft lazımdır və bu neft əsasən SSRİ-də – Qafqazda idi. Digər tərəfdən Almaniyanın müttəfiqi Yaponiyanın da nefti yox idi. Almaniya yaxşı başa düşürdü ki, İngiltərə və Amerikaya qarşı genişmiqyaslı hava müharibəsi aparmaq üçün neft lazımdır. Qələbə qazanmaq üçün arxada neft, metal, kömür, çörək, yanacaq, xammal olmalı, bunlar üçün strateji planlar hazırlanmalı və təmin edilməli idi. Bu səbəbdən də, İkinci dünya müharibəsinin ilk dövrlərindən Qafqaz faşist Almaniyasının hərbi-siyasi və strateji planlarında yer alırdı. 1941-ci il iyul ayının 16-da Hitlerin yanında keçirilən müşavirədə sovet ərazilərinin işğalının başa çatdırılması, işğal olunacaq ərazilərin idarə edilməsi və ələ keçiriləcək yeni rayonların istismarı ilə bağlı məsələlər müzakirə edilmişdi. Bilavasitə Hitler tərəfindən hazırlanmış "Ost" (Şərq) Baş planına görə Sovet Azərbaycanının ərazisi mərkəzi Tiflis olan Qafqaz reyxskomissarlığına daxil edilmiş, onun paytaxtı Bakı şəhəri isə "Almaniya reyxinin" bir hissəsi kimi verilmişdi. Amerika tarixçisi A.Dallin nasist hökumətinin ələ keçirdiyi və işğal edəcəyi Sovet ərazilərinin inzibati xəritəsini tərtib etmişdi. Həmin xəritədə Sovet Azərbaycanının ərazisində bəzi dəyişiklik edilmiş, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ermənistanın hüdudlarına daxil edilmişdir.[1]

Almaniyanın SSRİ-yə hücumundan 2 ay əvvəl yaradılmış Oldenburq İqtisadi Qərargahı Sovet Azərbaycanının təbii sərvətlərini, ilk növbədə isə Bakı neftini ələ keçirmək üçün müxtəlif planlar hazırlayırdı.

Qeyd edək ki, yanacaq qıtlığının hansı fəlakətlərə yol açdığını Almaniya I Dünya müharibəsi illərində yaşamışdı. I Dünya müharibəsi başa çat-

[1] Газ. «Известия», 1959, 24 июня.

dıqdan sonra Fransanın yanacaq üzrə Baş Komitəsinin direktoru, senator Anri Beranje yazırdı ki, "Kim neftə sahib olsa, dünyaya sahiblik edəcək. Ona görə ki, mazuta minnətdar olaraq dənizdə, aviasiya benzininə görə havada, avtomobil benzininə və kerosinə görə quruda hökmranlıq edəcək.[1]

Sovet neftinin əsasən Azərbaycanda cəmləşdiyini Hitler yaxşı bilirdi SSRİ-də və Azərbaycanda neft və qaz çıxarılmasına dair cədvələ diqqət yetirək.[2]

Cədvəl 7.1.

	SSRİ	**Azərbaycan SSR**	**Azərbaycan SSR-in payı (faizlə)**
1913	9234,1	7669,1	83
1927/28-ci təsərrüfat ili	11472,2	7504,2	65
1932	21367,2	12182,3	57
1937	28901,1	21413,7	74
1938	30082,4	22144,9	74
1939	30200,0	21586,0	71
1940	30858,6	22267,3	72

Cədvəldən aydın olur ki, II Dünya müharibəsi başlayanda SSRİ neftinin 71 faizi Azərbaycanda çıxarılırdı. Bu səbəbdən də, Almaniyanın silah və hərbi sənaye istehsalı ilə məşğul olan Şpeer də müharibədən sonrakı istintaqında bildirmişdi ki, "neftə olan tələbat şübhəsiz Rusiyaya hücumda əsas amil olmuşdur.[3] Şpeer SSRİ-yə hücum səbəblərindən danışarkən bildirmişdi ki, Hitler üçün əsas prioritet bizi yanacaqla təmin etmək olmuşdur.[4] Hitlerin müasirlərinin şahidliyindən aydın olur ki, Qafqaz neftini ələ keçirmək üçün o, hesab edirdi ki, Reyxi tam təmin edəcək və sonda o məğlubedilməz olacaqdır.[5]

SSRİ də nefti müharibədə qələbənin açarı hesab etməklə yanaşı, həm də siyasi üstünlük vasitəsi hesab edirdi.

---

[1] Рахманкулов, Л.Л., Николаев, С.В., Латынова, Ф.Н., Бульданов, Ф.Ш. О проблеме истощения мировых запасов нефти // Башкирский химический журнал, 2008. Том 15. №2, с.5.

[2] РГАЭ, Фонд № 4372, опис №42, дело № 415, лист – 23 (cədvəl əl yazmasındadır).

[3] Султанов Чапай Али оглы. Выстояли бы СССР и Европа против фашизма, в случае потери Бакинской нефти?: к 60 – летию победы / Ч. Султанов. Баку: [б.и.], 2005. – с.47.

[4] Лоран, Э. Нефть: лож, тайны, махинации / Э. Лоран. – Москва, 2008. – с.77-78.

[5] Ергин Д. Добыча. Всемирная история борьбы за нефть, деньги и власть / Д.Ергин. – Москва, 2001. – с.338.

Xarici İşlər Xalq Komissarı müavini M.M.Litvinov yazırdı ki, Neft bizim dünya burjuaziyası ilə oyunda ən böyük vasitədir və biz ondan maksimum siyasi üstünlük üçün istifadə etməliyik….”.[1]

1939-cu ildə Hitler Reyxinin ərazisində cəmi 805 min ton neft çıxarılırdı. Reyxin iqtisadiyyatı və ordusu daim yanacaq yoxluğunu hiss edirdi. 1940-cı ildə Hitler bir sıra Avropa qitəsi ölkələrini diplomatik yolla tutmaq, yaxud öz nəzarəti altına almağa müvəffəq oldu, hətta ildə 1,5 milyon ton neft hasil edən Rumıniya neft mədənləri Almaniyaya işləməyə başladı.[2] Deməli, Hitlerin Qafqazı, xüsusilə Bakını ələ keçirmək istəyi tamamilə qəbul ediləndir.

1941-ci il mart ayının 27-də imzalanmış xüsusi sərəncamla Bakı neftinin emalı və nəqli Almaniyanın “Ost-oyl” və “Kontnent-oyl” şirkətlərinə tapşırıldı. 1942-ci ilin iyul ayında təsdiq edilmiş “Edelveys” planına görə Bakının işğalı 1942-ci ilin sentyabr ayının 25-də başa çatdırılmalı idi. Almaniyanın hərbi əməliyyat planlarında şimal-şərq istiqamətindən Bakıya qəfil desant çıxarılması nəzərdə tutulurdu ki, sovet orqanları neft mədənlərini məhv etməyə macal tapmasınlar.

Müharibə başlanan kimi Azərbaycan SSR sənaye müəssisələrində işləyən fəhlələr orduya səfərbərliyə alındı. Onların yerini gənclər və istehsalat təcrübəsi olmayanlar tutdu. Təkcə Bakı sənaye müəssisələrinə 70 minə qədər gənc işə daxil oldu. Abşeron yarımadasında neftçıxarma komplekslərində əməkdaşların sayında ciddi azalma yarandı. Onların bir hissəsi orduya səfərbər olundu, bir hissəsi isə Şərq regionlarında neft sənayesi müəssisələrinin işini sürətləndirmək və qaydaya salmaq məqsədilə göndərildi. 1941-ci ildə Bakıdan 579 neftçi ezam edildi. Ezam olunan neftçilərin müəssisələr üzrə bölgüsü aşağıdakı kimi olmuşdur.

Cədvəl 7.2.

Ezam olunmuşdur:	**Nəfərlə**
“Başneft” kəşfiyyatından	**412**
“Molotovneftkombinat”ın Turbin qazma kontorundan	**53**
Stalin adına İşimbay zavoduna	**23**
Dzerjinski adına zavoda	**25**
Myasnikov adına Pavlov zavoduna	**31**
“Başnefttikinti”nin 1№-li trestinə	**11**
Embaneft tikintiyə	**11**
Çkalov adına Orsk zavoduna	**2**
“Aznefttikinti”yə	**11**

[1] Соколов, А.К. Советский “Нефтесиндикат” на внутреннем и международных рынках в 1920-е гг. // Экономическая история. Обозрение. Вып.10. – Москва, 2005. – с.101.

[2] Комаров, Д.Е. Этот дефицит может быть покрыт только за счет России // Военно-исторический журнал. Москва, 2003, № 5, с.46.

Müharibə illərində SSRİ-nin əsas neft bazası yenə Azərbaycan SSR idi. SSRİ-də çıxarılan neftin 70-75 faizini, təyyarə benzininin, hərbi dəniz qüvvələri üçün xüsusi mazutun 85-90 faizini Azərbaycan SSR verirdi. Azərbaycan SSR-də neft və neft məhsulları ilə yanaşı silah, hərbi sursat və ləvazimat istehsal edilir, yerli və yüngül sənayenin işi müharibənin tələblərinə uyğun qurulurdu. Sənayenin hərbi qaydada yenidən qurulması Azərbaycan K(b)P MK-nın diqqət mərkəzində idi. Azərbaycan K(b)P MK Bürosunun 1941-ci il noyabrın 25-də keçirilən iclasında Maşınqayırma zavodlarında hərbi məhsul istehsalının mənimsənilməsi məsələsi geniş müzakirə edilmişdi. Həmin ilin noyabr-dekabr aylarında Azərbaycan K(b)P MK plenumu xalq təsərrüfatının hərbi qaydada qurulmasını müzakirə edərək partiya, sovet və təsərrüfat təşkilatlarına, həmkarlar ittifaqları və gənclər təşkilatlarına tapşırıqlar vermişdir.

Atalarını, qardaşlarını və ərlərini əvəz etmiş qadınlar Bakı mədənlərində. 1942-ci il.

Müharibə başlanan kimi respublikanın sənaye müəssisələrinin kollektivlərindən Avtomobil təmiri zavodunun, "Qaradağneft" trestinin fəhlə və qulluqçuları Sovet hökumətinə müraciət edərək iş saatının artırılmasını xahiş etdilər. Müraciətdə bildirilirdi: "Müharibə dövründə 8 və 10 saatlıq işlə kifayətlənmək olmaz. Biz cəbhə üçün, düşmənə qalib gəlmək üçün nə qədər lazımdırsa, o qədər işləyəcəyik".[1] "Qaradağneft"çilərinin və avtomobil təmirçilərinin təşəbbüsü respublikanın fəhlələri tərəfindən müdafiə edildi. 1941-ci ilin iyun ayının 24-ə qədər respublikanın 50 min fəhlə və qulluqçusu hökumətə iş gününü uzatmaq haqqında xahişlə müraciət etdilər.[2]

[1]ARPİİSSA, Fond №1, siyahı №651, iş №151, vərəq – 25.
[2] Böyük Oktyabr ideyalarının təntənəsi. – Bakı, 1987. – s.165.

1941-1942-ci illərdə respublikadan 5.457 yük, 370 minik, 300 xüsusi avtomaşın, 476 traktor, 50 min atın orduya səfərbər olunması[1] Azərbaycan SSR xalq təsərrüfatının maddi-texniki bazasını xeyli zəiflətdi. Dövlət Müdafiə Komitəsinin (DMK) qərarı ilə 1941-ci ilin yayında Bakıdan bir neçə mühüm maşınqayırma və avtomobil zavodları, 9 qazma kontoru kollektivi bütün ləvazimat kompleksləri və avadanlıqları ilə birlikdə şərq rayonlarına köçürüldü. 100 qazma ustası, 150 qazmaçı və onların köməkçisi, 500 çilingər, 230 mühəndis, "Azərneftqaztikinti"nin 2300 nəfərdən ibarət bütün işçiləri-ümumilikdə 11 min nəfər şərqə getmişdi.[2]

Bakıda istehsal olunun "Katyuşa" mərmisi

Müharibənin ilk günlərindən Bakıdan cəbhəyə neft məhsulları, silah, döyüş sursatı, hərbi ləvazimat və ərzaq daşınmağa, məşhur Katyuşa" reaktiv mərmiləri hazırlanmağa başlandı. "ЯК-3" qırıcı təyyarələri, tanklar və ağır

Bakı yığılan "ЯК-3" qırıcı təyyarəsi

R-39 "Aerokobra" qırıcısı

[1] ARPİİSSA, Fond №1, siyahı №169, iş № 6, vərəq – 39.
[2] Böyük Oktyabr ideyalarının təntənəsi. – Bakı, 1987. – s.166.

silahlar istehsal olundu.[1] 1942-ci ilin sonlarından Bakıda 130 növ silah, sursat, başqa hərbi ləvazimat, tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, ağ streptosid, cərrah ipək sapı, tənzif, pambıq, şpris istehsal olunurdu.

1941-1945-ci illərdə Bakıda 63 yeni neft və kimya sənayesi müəssisəsi tikilib işə salındı. 300-dən çox mühüm ixtira və texnoloji üsul işlənib hazırlandı və istehsalata tətbiq edildi. 100 növ yeni kimya məhsulu, o cümlədən 36 növ sürtgü yağı, 26 növ yanacaq və partlayıcı vasitə, 9 növ müxtəlif markalı aviasiya benzini, 8 növ müxtəlif markalı dizel yanacağı istehsal edildi.[2]

Qələbədən ötən 75 ilin təhlili göstərir ki, Azərbaycan SSR-in müharibədə iştirakı, o cümlədən cəbhənin neft və neft məhsulları ilə təmin edilməsində rolu sovet tarixşünaslığında, müharibəyə dair memuarlarda birtərəfli işıqlandırılmış, qələbənin səbəbləri sadalanarkən başa çatmış ötən müharibənin texnika, motorlar müharibəsi olduğu, cəbhənin yanacaqla təmin olunmasında Bakı neftçilərinin əməyi lazımınca qiymətləndirilməmişdi.

Müharibə dövrü statistik külliyyatlarında, hökumət sənədlərində, ümumiləşdirici əsərlərdə göstərilir ki, Sovet-alman müharibəsi başlayanda ümumittifaq neftinin 87 %-i Qafqazda (Bakı, Qroznı, Maykop), 6 %-i Volqa-Ural, 4,8 %-i Qazaxıstan və Orta Asiya, 2,1 %-i Uzaq Şərqdə çıxarılırdı. Deməli, Qafqazda istehsal olunan neft ümumittifaq neftinin 87,1 %-ni təşkil edir, onların içərisində isə Bakı ümumi neftin 71,0 %-ni verirdi.



1941-ci ildə SSRİ-də 33 milyon ton neft istehsal edildi. 1941-ci ildə Bakı Ümumittifaq hasilatının 71,2 %-ni – 23,5 ton neft verdi. 1941-ci il planına vaxtından əvvəl-dekabrın 19-da əməl edən Azərbaycan neftçiləri neft çıxarılması planına 102 %, neft emalı planına 122,8 %, benzin istehsalı planına 118 % əməl etdilər.

1941-ci ildə "Pravda" qəzetində dərc olunmuş məktubda qeyd olunurdu ki, "…Buradan (Bakıdan – M.Ə.) relslərlə qatarlar dayanmadan gedir. Xəzərdə gəmi karvanları üzür. Onlar cəbhəyə "qara qızıl" aparırlar. Bakı neftçiləri… cəbhəni yanacaqla təchiz edirlər. Onlar bu gün də ön cəbhələrin əsgərləri kimi çalışırlar və istəyirlər ki, …bizim şahin təyyarəçilərimiz düşmənə şiddətli zərbə vursun-

[1] AMEA TİEA, Fond №1, siyahı №11, iş № 5080, s.37.

[2] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse-prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. – Bakı, 2012. – s.36.

lar, bizim tankçılarımız öz maşınlarını düşmən ordusunun içindən apara bilsinlər, qüdrətli gəmilərimizin yayılan atəşləri düşməni məhv etsinlər ki, …biz azadlığımızı qoruya bilək…".[1] "İndi artıq müharibənin müqəddəratını qəflətən hücum etmək kimi təsadüfi hallar deyil, daim öz təsirini göstərən şərtlər: arxanın möhkəmliyi, ordunun mənəvi ruhu, diviziyaların sayı, ordunun silahlanması və ordu başçılarının təşkilatçılıq bacarığı həll edəcəkdir.[2] Neftsiz vuruşmaq olmaz, kim neft işində üstündürsə, gələcək müharibədə onun qələbə çalacağı yəqindir".[3] Bu baxımdan 1942-ci ildə Azərbaycan neftçiləri qarşısında ölkəyə 18,2 milyon ton neft verilməsi vəzifəsi qoyuldu. Ancaq Bakı mədənlərinin real vəziyyəti baxımından bu plan qeyri-obyektiv idi. Bu səbəbdən də Azərbaycan neftçiləri 1942-ci ildə 15,7 milyon ton neft istehsal etdi. Bu SSRİ-də istehsal edilən 21,9 milyon tonun 71,7 faizini təşkil edirdi.



Bakı nefti cəbhəyə göndərilir

Neft sənayesində işin yaxşılaşmasında və ixtisaslı kadrlarla təmin olunmasında DMK-nin 1943-cü ildə qəbul etdiyi qərarlar mühüm rol oynadı. 1943-cü ildə ixtisaslı neftçi kadrlar ordudan tərxis olundular, 1925 və 1926-cı il təvəllüdlü gənclərin əsgəri çağırışdan azad olunaraq neft sənayesində işləməyə səfərbər edildilər. Ümumilikdə respublikanın sənaye müəssisələrinə müharibə illərində 70 mindən çox gənc gəldi.[4] 1943-cü ildə Azərbaycan neftçilərinin 12,9 milyon ton neft çıxarması planlaşdırıldı. Bakı neftinin əhəmiyyətini nəzərə alan SSRİ DMK 1943-cü il iyunun 1-də "Azərbaycan neft sənayesinə kömək haqqında" qərar qəbul etdi, DMK öz

[1] Газ. «Правда». 1941, 26 октября.
[2] "Kommunist" qəzeti. 1944, 23 fevral.
[3] Yenə orada, 11 fevral.
[4] ARPİİSSA, Fond №1, siyahı №280, iş № 3, vərəq – 517.

ehtiyatlarından neft sənayesinin ehtiyacları üçün 150 avtomaşın və digər nəqliyyat növləri ayırdı. 1943-cü ildə ölkədə istehsal olunan 17,9 milyon ton neftin 12,7 milyon tonu Azərbaycan SSR-də çıxarıldı. Bu, ümumittifaq neftinin 71%-ni təşkil edirdi. Respublika neftçiləri aviasiya benzini istehsalı üzrə plana 134%, kerosin istehsalı üzrə 101,7%, dizel yanacağı istehsalı üzrə 139,6%, aviasiya yağı istehsalı üzrə 105,7%, donanma mazutu istehsalı üzrə 162% əməl etdi.

Sovet dövrü tarixşünaslığında müharibənin sonuna yaxın Bakıda neft istehsalının azalaraq 14,6%-ə enməsi fikirləri qeyd olunur. Bu məsələdə Bakı neftçiləri günahlandırılır. Əslində neft istehsalının azalmasının əsas səbəblərindən biri DMK-nin qərarına əsasən 1941-ci ilin II yarısı və 1942-ci il ərzində bütün qazma kontorlarının Şərqə köçürülməsi idi. Neft avadanlıqlarının təxminən yarısı, mühəndis-texniki kadrlar "**İkinci Bakı**" **rayonuna göndərildi**. 1942-ci il noyabrında "Başneftkombinat"a 68, "Molotov – neftkombinat"a 67, "Kuybışevneft"ə 130, "Kazaxneftkombinat"a 1, "Türkmənneft"ə 84, "Kalininneft"ə 39 və digər rayonlara 12 nəfər, ümumilikdə 396 nəfər ezam edilmişdi.[1]


237

СОВЕТ НАРОДНЫХ КОМИССАРОВ СССР

ПОСТАНОВЛЕНИЕ № 446

от 8 - Апреля 1942 г. Москва, Кремль.

Об организации нефтяных комбинатов в районах "Второго Баку" и частичном изменении организационной структуры Народного Комиссариата Нефтяной Промышленности

Совет Народных Комиссаров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Организовать и подчинить непосредственно Наркомату Нефтяной Промышленности следующие нефтекомбинаты (на полном хозрасчете) и тресты:

а) "Молотовнефтекомбинат" (г.Молотов) в составе:

Краснокамского промысла
Верхне-Чусовского промысла
геолого-разведочной конторы
конторы турбинного бурения
Верхне-Чусовского нефтеперерабатывающего завода
Молотовского нефтеперерабатывающего завода (строительство)
строительной конторы
конторы подсобных предприятий
транспортной конторы
коммунальной конторы
конторы технического снабжения
проектной конторы

б) "Куйбышевнефтекомбинат" (г.Куйбышев) в составе:
треста "Бугурусланнефть"
треста "Сызраньнефть"
Ставропольского промысла
треста "Куйбышевнефтеразведка" (на базе Средне-Волжского геологоразведочного треста, из'ян его из состава "Главгеологии")

Azərbaycanın paytaxtı SSRİ-nin Şərq rayonlarında "İkinci Bakı"nın yaradılmasında olduqca vacib, müstəsna rol oynadı. Azərbaycan neft sənayesinin bütün istehsal-texniki və intellektual potensialı həmin bölgələrdəki yeni yataqların mənimsənilməsinə səfərbər edildi. Ən qısa müddətdə, cəmisi bir neçə həftə ərzində, respublikanın neftçıxarma kadr və texniki-istehsal potensialının həlledici hissəsi, 12 min nəfərdən çox ixtisaslı neftçi, on min tonlarla neft sənayesi avadanlıqları Bakıdan ölkənin Şərqinə yola salındı. Bu, sözün əsl mənasında, Azərbaycanın neft sənayesinə güclü zərbə idi və uzun müddət respublikamızda neft sənayesinin inkişafına təsir etdi.

Dövlət Müdafiə Komitəsinin 1942-ci il 14 avqust tarixli "Bakı neft sənayesi üzrə xüsusi hazırlıq tədbirləri haqqında"kı qərarına görə yaranmış

[1] РГАЭ, фонд №4372, опис №42, дело № 433, лист – 14.

hərbi vəziyyətlə əlaqədar olaraq SSRİ Daxili İşlər Xalq Komissarlığına bir vəzifə olaraq tapşırılırdı ki, SSRİ Neft Sənayesi Xalq Komissarlığı ilə birlikdə Bakı neft sənayesi obyektlərinin (quyuların, sisternlərin, rezervuarların, müəssisələrin və avadanlıqların) sıradan çıxarılmasına hazırlıq üzrə xüsusi tədbirlər həyata keçirsin.

SSRİ Daxili İşlər Xalq Komissarının müavini yoldaş Merkulov və neft sənayesi xalq komissarının müavini yoldaş Baybakov Bakıya ezam olunsunlar və aşağıdakı tədbirləri həyata keçirsinlər:

a) Hazırlanmış tədbirlərin həyata keçirilməsi üçün hər obyektə üçlükdən – obyektin rəhbəri, partiya təşkilatı rəhbəri və XDİK-nın əməliyyatişçisindən ibarət heyət ayrılsın.

b) Miqdarı əvvəlcədən hesablanmış partlayıcı maddələr lazım gələn vasitələr və alətlərlə birlikdə obyektlərə gətirilsin.

c) Xüsusi tədbirlərin həyata keçirilməsində iştirak etmələri nəzərdə tutulan şəxslərdən hər bir obyektə sutka boyu növbətçilər qoyulsun.

ç) Merkulov və Baybakov yoldaşlar bütün işləri Azərbaycan rəhbərliyi ilə birlikdə aparsınlar.[1]

Azərbaycanda neft hasilatının azalması səbəbləri və 1944-cü ildə 10 milyon tondan çox neft verilməsinin mümkün olmaması Moskvaya bildirilsə də, Azərbaycanın heç bir izahı nəzərə alınmadan 12,8 milyon ton neft istehsalı planlaşdırıldı.

Azərbaycan neft sənayesindəki vəziyyət Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun 1943-cü ilin noyabrında DMK sədri İ.V.Stalinə ünvanlandığı məktubda geniş təhlil olunurdu. Məktubda bildirilirdi ki, Azərbaycan neftçıxarma sənayesi özünün mövcud olduğu dövrdə ən yüksək neft hasilatına 1941-ci ilin iyununda çatmış, istismar olunan 7.237 quyudan sutkada 69.686 ton neft çıxarılmışdı. Müharibə dövründə neft çıxarılması aşağı düşmüş, 1943-cü il noyabrın 1-nə sutkalıq hasilat 5.015 istismar quyusundan 34.430 ton təşkil etmişdir. Gözlənilir ki, 1943-cü ildə 12,7 milyon ton, yaxud 1941-ci ildə çıxarılan 23,5 milyon tonun 54% hasil edilsin.[2]

Müharibə dövründə neft və qaz hasilatının aşağı düşməsi "Azneftkombinatı"nın istehsal bazasını əhəmiyyətli dərəcədə zəiflətdi. Müharibənin ilk günündən Bakının neftmaşınqayırma zavodları bütövlükdə müdafiə məhsullarının buraxılışına qoşuldu. Əgər 1941-ci ilin I yarısında "Azneftmaş" zavodları neft sənayesi üçün 80 milyon rublluq əmtəəlik məhsul buraxmışdısa, 1942-ci ilin I yarısında 5 milyon rublluq məhsul istehsal edildi. 1943-cü ilin əvvəlindən zavodların neft avadanlığı istehsalı qismən bərpa olundu. 1943-cü ilin I yarımilində 26,7 milyon rublluq məhsul buraxıldı.

Eyni zamanda xarici mal göndərənlərdən material və avadanlıq daxil olması kəskin azaldı. Demək olar ki, bütün növ boruların, xüsusilə müdafiə,

---

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

[2] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 1.

meşə, kompressorlar üçün ehtiyat hissələri, traktorlar, avtomaşınlar və s. alınması tamamilə kəsildi.

Müharibə illərində ixtisaslı neftçi kadrların sayı əhəmiyyətli dərəcədə azaldı. 1941-ci ildə "Azneftkombinat"da 100.898 adam işləyirdisə, 1943-cü il oktyabrın 1-nə işçilərin sayı 64.986 nəfər, yaxud müharibədən əvvəlki səviyyənin 64 faizini təşkil edirdi. İşçilərin azalmasının əsas səbəbi 30.595 nəfərin ordu sıralarına çağırılması və 10.695 nəfərin şərq rayonlarına göndərilməsi idi. Bu dövrdə neftçi kadrların tərkibi qeyri-ixtisaslı fəhlələr, əsasən əvvəllər heç yerdə işləməyən qadınlar hesabına tamamlanmışdı. Müharibəyə qədər Azneftkombinatında qadınların xüsusi çəkisi 23,2 % təşkil edirdisə, 1943-cü ilin noyabrına 50%-dən çox idi.

Fəhlə qüvvəsinin şərq rayonlarına göndərilməsi qazma işlərində özünü kəsin büruzə verirdi. Belə ki, "Azneftkombinat"ın bütün qazıma kontoru tam tərkibdə adamlar və avadanlıqlarla Urala, Volqaya və Orta Asiyaya göndərilmişdi. Nəticədə 1942-ci ildə bütün "Azneftkombinat" üzrə quyuların qazılması tam dayandırıldı, bununla da Azərbaycan sənayesi neft çıxarılmasında həlledici faktor olan quyuların qazılmasından məhrum edildi.

Son iki il yarımda işləyən quyulara xidmət pisləşmişdi. Planlı ehtiyat təmiri aparılmadığından, qaldırıcı traktorların, təmir briqadalarının, sıxılmış hava və qazın olmaması, səbəbli işləyən quyular dayandırıldı.[1]

Fəaliyyət göstərən quyulardan neft çıxarılmasının aşağı düşməsi köhnəlmiş kompressor parkında özünü göstərirdi. Kompressor təsərrüfatı o qədər pisləşdi ki, 64 yeni qaz mühərrikli kompressorların istifadəyə verilməsinə baxmayaraq kompressor parkının ümumi məhsuldarlığı 1941-ci ilin iyunun 1-də sutkada 10.394 min kubmetrdən 1943-cü ilin oktyabrında 8.216 min kub metrə kimi aşağı düşdü. Müharibə dövründə dayandırılan kompressorların əsaslı təmiri və onlar üçün ehtiyat hissələrinin buraxılışı ancaq 1943-cü ilin birinci rübündə bərpa olundu. Təbii ki, ehtiyat hissələrinin buraxılış həcminin müharibəyə qədərki dövrdə, yarısından çox olmayan hissəsini təşkil edən kompressor stansiyası tələbatı ödəyə bilməzdi. Neft quyuların məhsuldarlığının aşağı düşməsinə müharibənin 2 ili ərzində köhnəlmiş və dəyişilməyən yerüstü istismar avadanlıqları güclü təsir edirdi. Müharibəyə qədər 241 fontan quyusu vardısa, onların sayı azalaraq 66-ya düşdü.[2] Bu səbəbdən qaz tədarükü də kəskin azaldı.

Quyuların yeraltı təmirinin geri qalması traktor parkının köhnəlməsi ilə əlaqədar idi. Müharibənin əvvəlindən avtotəmir bazasının hərbi məqsədlərə qoşulması səbəbi, traktorların əsaslı təmiri dayandırıldı. Eyni zamanda digər səbəblərdən ehtiyat hissələrinin daxil olması dayandı. Nəticədə təmirsiz, amortizasiya müddətini bitirmiş maşınların əhəmiyyətli hissəsi iş

---

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 2.
[2] Yenə orada, vərəq – 3.

üçün yararsız hala düşdü. Traktorların əsaslı təmiri 1943-cü ilin fevralın 1-də bərpa olunsa da, müsbət nəticəsini vermədi. Dizel traktor qaldırıcıların təmiri 65,4% təşkil edirdi. Digər tərəfdən Azneftkombinatın nəqliyyat vasitələrindən orduya 161 traktor, 1155 avtomaşın və 694 at verilmişdi.[1]

Neft təsərrüfatı avadanlıqlarının köhnəlməsi ilə əlaqədar müharibə illərində neft sənayesinin material-texniki təchizatı kəskin pisləşdi. Baxmayaraq ki, SSRİ DMK özünün 30.01.1943, 06.04.1943, 08.07.1943-cü il tarixli qərarları ilə "Azneftkombinat" üçün xüsusi olaraq əhəmiyyətli miqdarda material və avadanlıq ayırmasına baxmayaraq, bir sıra xalq komissarlıqları qərarda göstərilənlərin yerinə yetirilməsini müntəzəm olaraq pozdular, neft komissarlığı ayrılanların alınmasını təmin edə bilmədi. "Boreü" zavodundan kompressorların ehtiyat hissələrinin tədarükü təmin olunmadı.[2]

SSRİ DMK-nin 7 oktyabr 1943-cü il tarixli "Azərbaycan neft çıxarma sənayesinin işinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarı "Azneftkombinat" üzrə cari hasilatın saxlanılması və möhkəmləndirilməsi istiqamətinə yönəldilən əhəmiyyətli kömək hesab olunmalıdır. Bununla belə, cəbhənin və özünün neftə olan, artan tələbatını nəzərə alaraq yalnız Azərbaycan neft sənayesinin cari vəziyyəti, həmçinin yaxın 2 ildə onun inkişaf perspektivi, bir sıra məsələlərin həllini vacib hesab edirdi,[3] neft hasilatının artırılması vəzifələri üçün Azərbaycan neft sənayesinin genişləndirilməsi və bərpası üçün radikal tədbirlərin keçirilməsi tələb olunurdu.

DMK-nin 7 oktyabr 1943-cü il tarixli qərarının həyata keçirilməsi 1944-cü ildə 1.000-ə yaxın dayanmış quyuların istismara verilməsi, fəaliyyətdə olan quyular fondunun yaxşılaşdırmasına və kəşfiyyat qazıma işləri üçün işlərin genişləndirilməsinə şərait yaratdı. Hesablamalar göstərir ki, 1944-cü ildə 11 milyon ton və ya 1943-cü ildə hasil ediləndən 1,7 milyon ton az neft gözlənilir. 1944-cü ilin dekabrın ortalarında sutkalıq neft hasilatı 28.000 tondan çox təşkil etmirdi.[4]

Həyəcan doğuran məsələlərdən biri də, şərq neft rayonlarının Bakıda neft hasilatının kəskin aşağı düşməsini kompensasiya edə bilməməsi idi. Bunu son 2-3 ilin rəqəmləri də təsdiq edirdi. Hökumət tərəfindən Bakıdan on minlərlə ixtisaslı fəhlələrin, böyük miqdarda avadanlıq, xüsusilə qazma və başqa avadanlıqların neft çıxarılması üçün "İkinci Bakı" rayonuna göndərilməsi haqqında əvvəllər qəbul edilən tədbirlərdən sonra 1943-cü ilin avqustunda 10.600 ton, yaxud sutkada 1.000 ton artım vardır.[5]

Məktubda qeyd olunurdu ki, yaranmış vəziyyətə baxmayaraq, Azərbaycan Neft Sənayesində neft hasilatı imkanları böyükdür. Məsələn, 1943-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 4.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq – 5.
[4] Yenə orada.
[5] Yenə orada, vərəq – 6.

cü ilin oktyabrında dayanmış quyuların sayı 5.685 olmuş, onlardan 2.000 quyu müharibə dövründə istismardan çıxmışdı. Müəyyən şərait yaratmaqla yaxın iki ildə (1944 və 1945-ci illərdə) sutkalıq hasilatı 1944-cü ilin dekabrında 40.000 ton və 1945-ci ilin dekabrında 48.000 tona çatdırmaq olar. Bu yüksəliş dayanmış 3.100 quyunun istismara verilməsi şərti ilə mümkün olardı. Bunun üçün 1944-cü il ərzində 978 min ton hasilatla 4.500 işləyən quyudan və 829 min ton hasilatla 1945-ci ildə 1.600 quyudan, onlardan bəzilərinin əsaslı təmir aparılmaqla işə buraxılması tələb olunurdu.[1]

Neft hasilatının artırmaq üçün əsaslı və həlledici fakt yeni quyuların qazılması idi. Bunun aşağıdakı cədvəldən görmək olar.[2]

Cədvəl 7.3.

İllər	Cəmi neft hasil olunmuşdur, min tonla	Yeni quyulardan neft çıxarılmışdır	
		min tonla	Ümumi hasilatda faizlə
1939	21.547,5	3.342,1	15,5
1940	22.175,5	3.728,0	16,8
1941	23.481,9	3.787,5	16,1
1942	15.709,5	515,7	3,3
1943-cü ilin 10 ayında	**10.670.9**	**78,0**	**0,7**

Cədvəldən göründüyü kimi, 1942-1943-ci illərdə yeni quyulardan neft hasilatı faktiki olaraq kəsilmişdir.

Təhlillər göstərir ki, quyulardan fontanla hasilat kəskin aşağı düşmüşdü. Əgər 1941-ci ilin iyununda 241 fontan quyusu sutkada 18.284 ton neft verirdisə, 1943-cü ilin oktyabrında 66 quyu yalnız 2.832 ton, yəni 6,5 dəfə az neft verdi. Azərbaycan K (b)P MK belə hesab edirdi ki, yaxın iki ildə neft hasilatını artırmaq layihəsi qazma işlərini inkişaf etdirməyi tələb edir. İşləyən quyuların sayını 1944-cü ilin sonunadək 340-a, 1945-ci ilin sonuna 360-a çatdırılması tələb olunur. Bunun üçün 1944-cü ildə istismar quyularının sayı 900 min metr və 1945-ci ildə 1.300 min metr təşkil edər. Bu 1944-cü ildə 670 yeni quyunun istismara buraxılması və onlardan 1.088 min ton neft hasil etmək, 1945-ci ildə 1.000 quyunun qazılmasını qurtarmaq və onlardan 2.600 min ton neft hasilatı təmin edəcək.[3]

Azərbaycan K(b)P MK belə hesab edirdi ki, 1944-1945-ci illərdə – heç olmazsa 2 il ərzində 4.700 dayanmış və yeni quyunun istismara verilməsi vacibdir. Əgər nəzərə alınsa ki, 1941-ci ildə Azərbaycan neft

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 6
[2] Yenə orada, vərəq – 7.
[3] Yenə orada.

sənayesində ən yüksək nəticə əldə olunaraq 1.237 quyu istismara verilmiş, onda qarşıdakı işlərin həcmini müəyyənləşdirmək çətin deyildir. "Azneftkombinat" isə böyük material və insan ehtiyatları tələb edən bu həcmdə işin öhdəsindən gələ bilməz.[1]

1944-1945-ci illərdə neft hasilatına dair Azərbaycan K(b)P MK-nın proqramı böyük miqdarda neft avadanlıqları, onun təmiri üçün ehtiyat hissələri tələb edirdi. "Azneftkombinat"ın maşınqayırma zavodlarının imkanları bu tələbatı ödəyə bilməzdi. Neft avadanlıqları ilə əlaqədar yaranmış vəziyyəti qismən düzəltmək məqsədilə "Azneftkombinat"ın maşınqayırma zavodlarının sursat və silah istehsalından azad olunması vacib idi və həmin məhsulların istehsalını təxliyə bazalarına təhkim etmək olardı. Bununla yanaşı mövcud zavodların və Bakıda tikilən yeni maşınqayırma zavodlarının SSRİ XKS və ÜİK(b)P-nin 24 dekabr 1940-cı il qərarına uyğun olaraq bərpasının həyata keçirilməsi lazım gəlirdi. Digər tərəfdən mövcud zavodların bərpasını 1944-cü ilin sonu və 1945-ci ilin əvvəllərində başa çatdırmaq, yeni zavodların tikintisi isə 1946-cı ilin əvvəlində mümkün idi. Dəzgah avadanlıqlarının mülki zavodlarda istehsalı və xaricdən alınması hesabına artırılması tələb olunurdu.[2] Hesablamalara görə köhnə və yeni zavodların, həmçinin mədən emalatxanalarının bərpası üçün aşağıdakı cədvəldə göstərilən məmulatlar tələb olunurdu.

Cədvəl 7.4.

Məmulatların adı	**1944-cü il**	**1945-ci il**
Metalkəsən dəzgahlar	350	480
Dəmirçi gürzü	10	12
Döymə presləri	2	-

.

Məktubda əsaslandırılırdı ki, 1944-1945-ci illərdə neft hasilatının nəzərdə tutulan miqdarda artırılması planlı qazımanın kəskin artırılmasını tələb edir. Əgər müharibəyəqədərki dövrdə "Azneftkombinat"da işdə eyni vaxtda 216 qazma qurğusu vardısa, 1944-cü ilin sonunda onların sayını 340-a çatdırmaq lazımdır. Nəzərdə tutulan planı yerinə yetirmək üçün olanlarla bərabər "Azneftkombinat"da Bakıya aşağıdakı sayda əsas növlər üzrə xüsusi zavodlardan istehsalat dəzgahları və materiallar gətirilməsi tələb olunurdu.

Cədvəl 7.5.

Məmulatların adı	**1944-cü il**	**1945-ci il**
Çökmə boruları:	105.1000 ton	142.000 ton
Qazıma boruları:	3.860.000 metr	1.147.0000 metr
Meşə materialı:	88.000 kub m	112.000 kub m.
Palçıq şlanqları:	23.000 metr	30.000 metr

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 8.
[2] Yenə orada, vərəq – 9.

Qazıma bucurqadları (ağırlıq qaldıran mexanizm) Qazıma bucurqadları (ağırlıq qaldıran mexanizm)	60	-
Rotorlar (vallar):	115	-
Palçıq nasosları	450	
Elektrik motorları: 130-180 kva	1000	150
Daxiliyanma mühərrikləri 15-250 at gücündə:	150	- [1]

Yuxarıda qeyd edildiyi kimi, 1944-1945-ci illər ərzində işləyən quyuların fondlarının kəskin artırılması layihələndirilirdi. 1.770 quyunun istismara verilməsi və bütün işləyən fondun saxlanılması üçün "Azneftkombinat"a Bakı zavodlarının məhsullarından əlavə aşağıdakı əsas avadanlıq və materialların göndərilməsi planlaşdırılmışdı.

Cədvəl 7.6.

Avadanlıqların adı	**1944-cü il**	**1945-ci il**
Dizel traktorları:	3.000	400
o cümlədən qaldırıcılar:	200	200
Qaldırıcı avtomaşınlar:	900	1150
Traktorlar üçün ehtiyat hissələri:	2.200.000 rubl	1.750.000 rubl
Avtomaşınlar üçün ehtiyat hissələri:	2.760.000 rubl	3.640.000 rubl
Tökmə aqreqatları:	92	-
Palçıq nasosları	450	
Elektrik motorları: 130-180 kva	1000	150
Daxiliyanma mühərrikləri 15-250 at gücündə:	150	5 [2]

1944-1945-ci illərdə neft hasilatını və maşınqayırmanı təmin etmək məqsədilə onun bazası üçün tikinti kəskin artırılmalı idi. 1944-cü il əsaslı kapital qoyuluşu proqramına 245.040 min rubl, 1945-ci proqramına 287.605 min rubl tələb olunurdu.[3]

Cədvəl 7.7.

Maliyyə vəsaiti tələb olunan sahələr	**1944-cü il**	**1945-ci il**
Neft mədən təsərrüfatına (mexaniki emalatxana, boru bazası, mədənlərin hermetikləşdirilməsi və qeyri işlərə)	3.780	33.200 min rubl
Kompressor və vakuum stansiyası: (1944-cü ildə 15 stansiya)1945-ci ildə 14 stansiya)	51.000	56.000 min rubl

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 10.
[2] Yenə orada, vərəq – 11.
[3] Yenə orada, vərəq – 12.

Maşınqayırma zavodları (traktor təmiri və onlar üçün ehtiyat hissələrinin istehsal zavodu, kompressor zavodu, qazıma alətləri zavodu və L.Şmitd adına, I May adına, Kirov adına zavodların və b. bərpası)	14.600	34.800 min rubl
Neftayırma zavodu	29.000	60.000 min rubl
Tikinti materialları sənayesi (hazırda fəaliyyət göstərən sement zavodlarının bərpası və yeni sement zavodlarının tikintisi, əhəng zavodu, daş karxanası, odadavamlı və sadə kərpic zavodları)	23.300	20.000 mi rubl
Qeyri tikintilər (yol, mənzil-kommunal, tikinti təşkilatlarının gücləndirilməsi və s.)	93.360	83.605 min rubl

"Azneftkombinat" sistemində mövcud olan tikinti təşkilatlarının işini yuxarıda göstərilən işlərin həcminə görə təşkil etmək üçün "Azneftkombinat"a xüsusi istehsaldan əlavə 117.000 kub metr meşə materialı, 350 ton dam örtüyü dəmiri, 1.600.000 metr müxtəlif borular, 350.000 ton dəmir təbəqə, 5.000 ton armatur dəmiri, 1,2 min ədəd siyirtmə və vintellər tələb olunurdu.[1]

Azərbaycan Neft Sənayesində elektrik təchizatı sahəsində böyük tikinti işləri aparmaq tələb olunurdu. Əlavə generatorların quraşdırılması ilə əlaqədar "Azərenerji"nin stansiyalarının genişləndirilməsi, uzaq neft trestlərinin və kəşfiyyat meydançalarını təmin etmək üçün "Azneftkombinat"a hər birinin gücü 300-350 kv.t olan 15 səyyar elektrostansiya ayırmaq lazım idi. 1944-1945-ci illərdə planlaşdırılmış obyektlərin buraxılışı üçün 40 elektrik yarımstansiyası və 400 kilometr elektrik enerjisi xətlərinin tikintisi və quraşdırılması tələb olunurdu.[2]

Neft sənayesi texniki ziyalılarının maddi-məişət şəraitinin və texniki xidmətin yaxşılaşdırılması qarşıda duran mühüm məsələlərdən idi. Bu məqsədlə Azərbaycan K(b)P MK və Azərbaycan K(b) Bakı Komitəsi 1944-cü il oktyabr ayının 24-də büro iclasında məsələni (prot. №397) müzakirə etdi. Büro iclası qeyd etdi ki, son vaxtlar bir sıra partiya, sovet, təsərrüfat və b. təşkilatların neft sənayesi ziyalılarına və xüsusilə sex rəisləri, sıravi mühəndis və b. maddi-məişət şəraitinin yaxşılaşdırılmasına və mədəni xidməti məsələlərinə diqqəti zəiflətmişlər. Texniki işçilərin maddi-məişətinə bu cür münasibət, həmçinin onların texniki və ideya-siyasi səviyyəsini yüksəltmək məqsədilə büro iclası partiya, sovet, təsərrüfat, həmkarlar və komsomol təşkilatlarına tapşırdı ki, mühəndis-texniki ziyalıların ehtiyac və tələblərinə qayğını gücləndirsinlər, onların mədəni, texniki və ideya-siyasi səviyyəsinin

[1] ARPİİSSA, Fond №1, siyahı №28, saxlama vahidi №198, vərəq – 13.
[2] Yenə orada.

yüksəldilməsi sahəsində konkret tədbirlər müəyyənləşdirsinlər və həyata keçirilməsini təmin etsinlər.

Azərbaycan K(b)P Bakı Komitəsinin büro iclası Bakı Şəhər İcraiyyə Komitəsinə, rayon sovetlərinə, Azneftkombinata və neft trestlərinə tapşırdı ki, 2 ay müddətində yerli ehtiyatlar hesabına mühəndis-texniki işçilərin mənzillərini təmir etdirsinlər. Büro iclası Azərbaycan SSR Xalq Ticarət Komissarlığının 1944-cü ilin IV rübündə neft sənayesi texniki işçiləri üçün 1000 cüt qadın ayaqqabısı, 200 cüt kişi ayaqqabısı, 80 ədəd kostyum, 750 ədəd şalvar, 750 ədəd idman geyimi, 200 ədəd qadın paltosu, 500 kəsik yun parça, 300 kəsik ipək parça, 350 ədəd qadın ipək donu, 300 ədəd qadın yun donu, 5 ədəd yun ətək (yubka), 300 ədəd kişi yun köynəyi ayıracağı barədə məlumatını nəzərə aldı.[1] Büro həmçinin "Azneftkombinat"ın Fəhlə Təchizat İdarəsinin rəisi Dvelayanın IV rübdə texniki ziyalılar üçün aşağıda göstərilən sənaye məhsulları:

1. Pambıq parça (**xarici**) – 5 metrdən ibarət 8.280 kəsik – 41.400 metr, yaxud hər mühəndis-texniki işçiyə 10 metr;
2. Yun parça – 3 metrdən 3.000 kəsik – 9.000 metr;
3. İpək parça – 3 metrdən 4.140 kəsik – 12.420 metr, hər bir mühəndis-texniki işçiyə 3 metr;
4. Şalvar – 1.000 cüt;
5. Ayaqqabı – 1.650 cüt[2] – ayrılması haqqında bildirişini nəzərə aldı:

Büro qərarlarına uyğun olaraq Azərbaycan K(b)P Bakı Komitəsinin katibi A.Məmmədov 4 noyabr 1944-cü il tarixli arayışında bildirirdi ki, 1944-cü ilin IV rübündə aşağıdakı adda məhsulların ayrılması və verilməsi planlaşdırılmışdır.

Cədvəl 7.8.

Sıra №	**1944-cü ilin IV rübündə ayrılması nəzərdə tutulub**	**3 noyabr 1944-cü il tarixə ayrılmış və paylanmışdır**
1	Pambıq parça – 8.280 kəsik	4.318 kəsik
2	Kostyum üçün kəsik (yun) – 3.080 kəsik	1.524 kəsik
3	Kişi şalvarı – 1.050 cüt	815 cüt
4	İpək parça – 4.640 kəsik	4.318 kəsik
5	Ayaqqabı – 2.850 cüt	560 cüt
6	İdman paltarı – 750 ədəd	280 ədəd
7	Qadın paltosu – 200 ədəd	108 ədəd
8	İpək don – 350 ədəd	150 ədəd
9	Yun don – 300	120 ədəd
10	Yun ətək (yubka) – 50	100 ədəd [3]

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 40.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq – 21.

Məktubda həmçinin qeyd olunurdu ki, bundan başqa 4.318 adama ərzaq talonu hesaba alınmadan əlavə 1,5 kq ət, 1,0 kq pendir, 3,0 kq tərəvəz, hər adama bir balıq konservi buraxılacaq.[1]

Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq 1944-cü ildə gərgin işlədilər və ittifaqda çıxarılan 18,3 milyon ton neftin 11,8 milyon tonunu, yaxud 64,5%-ni verdilər. 1945-ci ildə isə Bakı 11,9 milyon ton neft istehsal etdi. Bu Ümumittifaq neft hasilatının 59%-ni təşkil edirdi.

1941-1944-cü illərdə Azərbaycan SSR və SSRİ-də ümumilikdə neft çıxarılması aşağıdakı kimi olmuşdur.[2]

Cədvəl 7.9.

İllər	1941	1942	1943	1944
Azərbaycan SSR (milyon ton)	23,5	15,7	12,7	11,8
SSRİ (ümumilikdə milyon ton)	33,0	22,0	18,0	18,3
SSRİ-də neftçıxarmada Azərbaycanın xüsusi çəkisi (%-lə)	**71,2**	**71,4**	**70,6**	**64,5**

Ümumilikdə, 1941-1945-ci illərdə SSRİ-də 110,6 milyon ton neft çıxarıldı. Onun 75,2 milyon tonu, yaxud 68%-i Bakının payına düşdü. İkinci dünya müharibəsi dövründə (1939-1945-ci illər) SSRİ-də 172 milyon ton neft çıxarıldı ki, ondan 118,9 milyon tonunu, yaxud 69%-ni Bakı verdi. Rəqəmlər Bakı neftçilərinin fədakar əməyinin bariz nümunəsidir.

Müharibə illərində arxa cəbhədə ümumittifaq yarışının ön sıralarında gedən Bakı neftçiləri 1942-ci ildə 48 dəfə birinci yeri tutdu və 14 dəfə DMK-nin keçici Qırmızı Bayrağını aldılar.[3] 1943-cü ildə neft müəssisələri Ümumittifaq yarışında 99 dəfə qalib gəldi, 26 dəfə DMK-nin keçici Qımızı Bayrağını aldı və 29 dəfə birinci mükafata layiq görüldülər.[4] 1942 və 1944-cü illərdə Bakı neftçilərinin bir qrupu SSRİ-nin orden və medalları ilə təltif olundular. Müharibə illərində neft hasilatının artırılmasında görkəmli nailiyyətlər əldə etdiyinə görə "Azneftkombinat"ın rəisi S.A.Vəzirov, "Azneftzavod" birliyinin rəisi R.Q.İsmayılov, "Azneftkombinat" baş geoloqu B.K.Babazadə və buruq ustası Rüstəm Rəhimov Sosialist Əməyi Qəhrəmanı adına layiq görüldülər. "Leninneft"in 11-ci mədəninin, "Stalinneft"in 4-cü mədəninin, 423 №-li NEZ-nun, leytenant Şmidt adına Maşınqayırma Zavodunun qabaqcıl kollektivi "Lenin" ordeninə, "Qaradağneft"in 4-cü mədəninin kollektivi isə "Qırmızı Əmək Bayrağı" ordeninə layiq görüldülər, yüksək keyfiyyətli təyyarə benzini istehsalını təşkil etdiklərinə və onun

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 21.
[2] РГАЭ, фонд №4372, опис №45, дело №472, лист – 169.
[3] "Kommunist" qəzeti. 1965, 7 may.
[4] Промышленность Азербайджана за 40 лет (1920-1960 гг.). Баку, 1960. – с. 32.

istehsalını artırmağa nail olduqlarına görə kimyaçı alimlər Y.Məmmədəliyev, V.Qutırya, neft texnologiyası mühəndislərindən R.İsmayılov, A.Markin və M.Qorelik Dövlət mükafatına layiq görüldülər.[1]

N.Voznesenski yazırdı ki, Bakı cəbhəni və xalq təsərrüfatını fasiləsiz neft məhsulları ilə təchiz etdi, yerdə və səmada yüz minlərlə motoru hərəkətə gətirdi.[2]

Azərbaycan neftçiləri müharibə illərində 280 dəfə ümumittifaq yarışının qalibi oldu, 100 dəfə birinci yer tutdu, 160 dəfə DMK-nin keçici Qırmızı Bayrağını aldılar. Respublikanın 50 mindən çox fəhlə və qulluqçusu, kənd əməkçisi SSRİ-nin orden və medalları ilə təltif olundular. 40 nəfərdən çox adam "Lenin" ordeni ilə təltif olundu.

Sovet İttifaqı Marşalı, G.K.Jukovun Azərbaycan xalqına ünvanladığı məktubda bildirilirdi ki, "…Azərbaycan zəhmətkeşləri öz fədakar əmək ləri ilə Vətənin müdafiəsi işinə əvəzsiz töhfə verdilər. Bakı neftçiləri cəbhə üçün, Vətənimizin zəfəri üçün düşmən üzərində tezliklə qələbə çalmaq üçün lazımi qədər yanacaq əldə etdilər…".[3] Sovet İttifaqı Marşalı F.İ.Tolbuxin yazırdı ki, "Qızıl Ordu qazandığı çoxlu qələbələrinə, hücum edən hissələrə vaxtlı-vaxtında keyfiyyətli yanacaq göndərdiyinə görə Azərbaycan xalqı və cəsur Bakı neftçiləri qarşısında borcludur".[4]

Nikolay Baybakov Bakı neftçilərinin qəhrəmanlığını belə xarakterizə edirdi: "Onlar dəbli ayaqqabılarını çıxarıb, kirz çəkmələr geydilər. Bəzəkli şlyapalarını bir qırağa atıb başlarına qulaqlı, ağır papaq keçirdilər. Qadınlar heç bir işdən qorxmurdu. Hətta buruq qazıma işlərində də çalışırdılar!".[5]

Azərbaycan neftçilərinin əməyini yüksək qiymətləndirən Marşal A.A Qreçko: "Qafqazın müdafiəsi dövründə cəbhəyə Azərbaycandan tükənməz axın kimi yüksək keyfiyyətli benzin, silah, döyüş sursatı və ərzaqla dolu yük qatarları gəlirdi"[6] demişdi.

Bakı neftçilərinin rolundan bəhs edən Sovet İttifaqı Marşalı K.Rokossovski yazmışdı: "...Bakı zəhmətkeşləri yorulmadan neft hasilatını artıraraq xalq təsərrüfatını və cəbhəni yüksək keyfiyyətli yanacaqla təmin edərək çox böyük müvəffəqiyyətlər əldə etmişlər. Doğrudan da, bizim qorxmaz şahinlərin hər bir hərbi döyüş zərbəsində, cəsur sovet tankçılarının hər bir hücumunda, alman-faşist işğalçıları üzərindəki hər bir qələbədə müvəffəqiyyətin kifayət qədər payı Bakı neftçilərinə məxsusdur".[7]

---

[1] Промышленность Азербайджана за 40 лет (1920-1960 гг.). Баку, 1960. – с. 32, 57.

[2] Вознесенский, Н. Военная экономика СССР в период Великой Отечественной войны / Н. Вознесенский. – Москва, 1947.– с.54.

[3] Газ. «Бакинский рабочий», 1945, 29 апреля; Жуков,Г.К. Воспоминания и размышления / Г.К.Жуков. – Москва, 1971. – с.658.

[4] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde-1516873.

[5] Yenə orada.

[6] Гречко, А.А. Битва за Кавказ / А.А Гречко. – Москва, 1967.– с. 35.

[7] Газ. «Бакинский рабочий», 1945, 6 мая.

Böyük dövlətlərin Bakı və Bakı nefti ətrafında toqquşan maraqları. Bakı nefti Qərb dövlətlərinin planlarında

Müharibə aparan dövlətlər bilirdilər ki, Birinci Dünya müharibəsi zamanı Qərb cəbhəsində gedən döyüşlərin sonuna yaxın neft əsas amil rolunu oynadı. Müharibə gündən-günə daha çox yanacaq "içən" maşınların yarışına çevrildi. Amerikanın köməyi və Britaniyanın yiyələndiyi torpaqlardan axıb gələn neftin sayəsində ingilis, eləcə də fransız qoşunları Birinci Dünya müharibəsində Almaniyaya öldürücü zərbə endirməyi bacardı. Hesablamalar göstərirdi ki, alman ordusunun yanacağa olan gündəlik tələbatı 65-70 min ton olmuşdu. Bu da bir ay ərzində 2 milyon ton deməkdir. Ona görə də alman ordusu müharibənin gedişində cənuba doğru hücum planlarını genişləndirərək artıq Şimali Qafqaza qədər gəlib çıxmışdı. Faşistlər neftə can atırdılar. Neft isə Bakıda idi. Bakı Sovet İttifaqının neftlə döyünən qəlbi idi. Ətraf isə Hitleri Bakının işğalına inandırmışdı.[1]

Birinci Dünya müharibəsindən sonra almanların Bakı neftini hədəfə almaları başa düşülən idi. Almaniya Silahlı Qüvvələri Ali komandanlığı yanında kəşfiyyat və əks kəşfiyyat idarəsinin – "Abver"in rəisi, admiral Fridrix Vilhelm Kanaris təsdiq edirdi ki, SSRİ-nin xammal ehtiyatlarını, ilk növbədə, Bakı neftini tez bir zaman ərzində tutmadan, ələ keçirmədən Qələbə mümkün deyil. Sovetlər Birliyinin tərkibində olmasına baxmayaraq, neftlə zəngin ölkə kimi Azərbaycan vuruşan ölkələrin planlarında önəmli yer tuturdu. 1937-ci ildə Azərbaycan SSR-də sənaye müəssisələrinin sayı 5834 idi. Onlarda fəhlələrin orta illik sayı 119,3 min nəfər təşkil edirdi[2].

1937-1938-ci illərdə SSRİ-də neft çıxarılması (min tonla) aşağıdakı cədvəldəki kimi olmuşdur.[3]

Cədvəl 8.

	1937	**1938**
Cəmi	28397,4	30082,4
İllik planın yerinə yetirilməsi %-lə	88, 3	96,0
Cari ilə görə %-lə	103, 8	105,9
O cümlədən Azneftdə	21360,8	22105,1
İllik planın yerinə yetirilməsi %-lə	95,1	98,0
O cümlədən əvvəlki ilə görə %-lə	103,8	103,5
O cümlədən Qrozıneftdə	2729,0	2657,1
İllik planın yerinə yetirilməsi %-lə	91,0	90,9
O cümlədən əvvəlki ilə görə %-lə	83,7	97,4

1938-ci ilin məlumatına görə, bütövlükdə, SSRİ-də 29 milyon 450 min ton neft istehsal edilirdi ki, bunun da 21 milyon 500 min tonu

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873.
[2] РГАЭ, фонд № 4372, опис №44, дело № 683, лист – 185.
[3] РГАЭ, фонд № 4372, опис №37, дело № 349, лист – 4.

Azərbaycanın payına düşürdü. 1939-cu ildə Azərbaycanda 21.586,0 min ton, 1940-cı ildə 22.267,3 min ton. 1941-ci ildə 23.052,0 min ton neft çıxarılmışdı. Neft hasilatı 1940-cı ildə əvvəlki illə müqayisədə 3,2%, 1941-ci ildə 3,5% artmışdır.[1]

İkinci dünya müharibəsinin başlanması yanacağa olan ehtiyacı kəskin şəkildə artırdığından, bir sıra məqamlarda Bakı neftinə qələbəni müəyyən edən başlıca strateji amil kimi baxırdılar. Beynəlxalq siyasətdə Bakı neftinin əhəmiyyətini, onun hərbi əməliyyatlara təsir imkanlarını İkinci dünya müharibəsinin ilk dövrlərində Böyük Britaniyanın Baş naziri Uinston Çörçill açıq etiraf edir və müxtəlif yazışmalarında bunu gizlətmirdi.

Almaniya ilə iqtisadi əməkdaşlıq çərçivəsində SSRİ-nin Bakı nefti hesabına Berlini yanacaqla təmin etmək təhlükəsinin güclənməsi müttəfiqlərin Qafqaza, ilk növbədə isə Sovet Azərbaycanına olan strateji maraqlarını daha da artırdı. Bakı nefti haqqında hərbi blokların gizli planları, 1939-1940-cı illərdə ingilis və fransızların Bakı neft mədənlərini bombardman etmək niyyətləri, 1942-ci ildə faşist Almaniyasının Bakını ələ keçirmək cəhdləri bu planların tərkib hissəsi idi.

İkinci dünya müharibəsinin başlanğıcında Gerinq dönə-dönə andaman edirdi ki, Almaniya neft məhsulları ilə bağlı bütün ehtiyaclarını tamamilə ödəməyə qadirdir. Lakin hərbi ekspertlərin hesablamalarına görə, üzdə olan neft balansı heç də Almaniyanın xeyrinə deyildi. Almaniyanın 1918-ci ildəki fəlakətin ən başlıca səbəblərindən biri olan kəskin neft çatışmazlığı idi.

German Qerinqin isə hələ müharibə başlamazdan əvvəl SSRİ ərazilərinin nəzərdə tutulan işğalı zamanı iqtisadi talan haqqındakı direktivlərində yazılır: "İşğal edilməli ərazilərdən istifadə olunması işləri, ilk növbədə, ərzaq və neft sahələrindəki təsərrüfatlarda aparılmalıdır. Nə qədər mümkünsə, Almaniya üçün daha çox ərzaq və neft əldə etmək – şirkətin əsas iqtisadi məqsədi belədir. Bunlarla yanaşı, alman sənayesinə işğal olunmuş vilayətlərdən digər məhsullar da çatdırılmalıdır".

Faşist Almaniyası üzərində qələbədən 77 ildən artıq vaxt keçsə də, müharibə dövründə Bakı neftini ələ keçirmək uğrunda Qərb dövlətlərinin planlarının mahiyyəti bütövlükdə açılmayıb. Danılmaz faktdır ki, Bakı neftinin müharibədəki əhəmiyyətini başa düşən Almaniya Qafqazın neft rayonlarının ələ keçirilməsinə xüsusi əhəmiyyət verirdi. 1939-cu ildə Hitler Reyxinin ərazisində neft çıxarılmasının həcmi 805 min ton olmuşdu.[2] Reyxin iqtisadiyyatı və ordusu neft sarıdan daima aclıq çəkirdi. Bu səbəbdən də, Reyx Abşeron yarımadasına, onun neft mədənlərinə can atırdı.

---

[1] Мухин, М.Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (19411-1945 гг.) / М.Мухин. – Москва, 2018. – с.148.

[2] Мухин, М.Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941-1945 гг.) / М.Мухин. – Москва, 2018. – с.141.

1940-cı ilin sonunda Almaniya ildə 190 min ton alüminium, SSRİ isə 50 min ton alüminium əridirdi. Almaniya 1,6 milyon ədəd, SSRİ isə 700 min ədəd metalkəsən dəzgaha malik idi. Faktiki olaraq SSRİ əsas iqtisadi parametrlərdə Almaniyaya (onun işğal etdiyi əlaltıları ilə birlikdə) 2-2,5 dəfə uduzurdu.[1] Bu baxımdan Sovet neftinin (Azərbaycan neftinin) əhəmiyyətini Hitler yaxşı başa düşürdü. O, hesab edirdi ki, Rusiyanın çökməsi ilə almanlar tərəfindən itkilərin sayı sintetik yanacaqla məşğul olanların sayından çox olmayacaqdır. Almaniyanın Silah və hərbi sənaye naziri A.Şpeer müharibədən sonra keçirilən sorğular əsasında Hitlerin SSRİ-yə hücumunda neft amilinin əsas rol oynadığını bildirmişdi.

Artıq 1941-ci ilin yazında Bakının neft mədənlərinin istismarının təşkili məqsədi ilə almanlar xüsusi idarə – Vestfalen qərargahını yaratmışdılar. 1941-ci il iyul ayının 16-da Hitlerin qərargahında keçirilən müşavirədə qeyd olunmuşdu ki, "Bakı vilayəti... alman konsessiyası olmalıdır".

1942-ci ildə Hitlerin direktivində deyilirdi ki, cənub cəbhəsindəki əməliyyatların əsas hədəfi Qafqaz sıra dağlarını adlayıb səxavətlə sovet ordusunu neftlə qidalandıran Bakını ələ keçirməkdir. Bununla da onlar sovet ordusunu, necə deyərlər, "oksigensiz qoymaq", iflasa uğratmaq ümidində idilər.[2]

Müharibə ədəbiyyatının təhlili, döyüş əməliyyatlarına dair xəritələr və sərkərdələrin hesabatları belə qənaətə gəlməyə imkan verir ki, Almaniya təkcə müharibənin ilk yarımilində deyil, həmçinin müharibənin gedişi prosesində də Bakı məsələsini "yaddan çıxarmamışdır". Ölkənin Şərq siyasətində Qafqaza, o cümlədən Azərbaycana xüsusi diqqət yetirilirdi. A.Rozenberqin başçılığı ilə təşkil edilən Şərq İşləri üzrə Nazirliyin nəzdində olan strukturlardan biri Qafqaz Komissarlığı idi. Hələ 1941-ci il aprelin 29-da yaradılan Oldenburq iqtisadi qərargahı tərəfindən təsis edilmiş planda Qafqazın, ələlxüsus Bakının işğalı mərkəzi yer tuturdu. Çünki Hitler və ətrafındakılar yaxşı başa düşürdülər ki, Bakı nefti olmadan müharibədə uğur qazanmağa ümid yoxdur. Bütün dünyaya ağalıq etmək iddiasında olan alman strateqləri və onların müttəfiqləri bircə prinsipə güvənirdilər: "Kim dünyanı idarə etmək istəyirsə, neftə nəzarəti ələ keçirməlidir. Bütün neftə – harada olursa-olsun, harada çıxırsa-çıxsın!".[3]

Qafqaz, xüsusilə Bakı zəngin neft rayonu olduğundan faşist Almaniyasının hərbi-siyasi və strateji planlarında yer alırdı. 1938-ci ilin məlumatına görə, bütövlükdə, SSRİ-də otuz milyon tona yaxın neft istehsal edilirdi ki, bunun da 21,5 milyon tonunu Azərbaycana vermişdir.[4] 1941-ci

---

[1] Yenə orada, s.166.

[2] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

[3] Yenə orada.

[4] Мухин, М. Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941-1945 гг.) / М.Мухин. – Moskva, – с.148.

ilin iyul ayının 16-da Hitlerin yanında keçirilən müşavirədə sovet ərazilərinin işğalının başa çatdırılması, işğal olunacaq ərazilərinin idarə edilməsi və ələ keçiriləcək yeni rayonların istismarı ilə bağlı məsələlər müzakirə edilmişdi. Bu səbəbdən də, alman rəhbərliyi Qafqazın tutulması planının hazırlanma məhəlləsində Qroznı və Bakı neft mədənlərinin fasiləsiz işini təmin etməli olan neftçi-mütəxəssislər briqadası formalaşdırmağa başlamışdır. Bir sözlə, "neft cəbhəsi" müharibə kontekstində xüsusi əhəmiyyət kəsb edirdi.

Planla tanışlıq onun uğursuzluğundan xəbər verirdi. Burada 31 milyon adamın köçürülməsi nəzərdə tutulurdu.[1] Ərazilərin alman əhalisinin köçürülməsi üçün azad olunması nəzərdə tutulurdu. İnsanlara hara – Urala, yoxsa Sibirə köçürülməsi sual altında idi. Planda öz ərazilərindən 95% rus, polyak, 50% eston, 70% latış, 85% litvalı, 50% fransız və çexin köçürülməsi planlaşdırılırdı.[2] Hitler tərəfindən hazırlanmış "Ost" (Şərq) Baş planına görə Sovet Azərbaycanının ərazisi mərkəzi Tiflis olan Qafqaz reyxs komissarlığına daxil edilmiş, onun paytaxtı Bakı şəhəri "Almaniya reyxinin" bir hissəsi kimi verilmişdi. Amerika tarixçisi A.Dallin tərtib etdiyi nasist hökumətinin ələ keçirdiyi və işğal edəcəyi Sovet ərazilərinin inzibati xəritəsində Sovet Azərbaycanının ərazisində bəzi dəyişiklik edilmiş, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ermənistanın hüdudlarına daxil edilmişdi. Almaniyanın SSRİ-yə hücumundan 2 ay əvvəl yaradılmış Oldenburq İqtisadi Qərargahının planlarında Azərbaycan SSR-in təbii sərvətlərinin, ilk növbədə isə Bakı neftinin ələ keçirilməsi nəzərdə tutulurdu.

"Ost" Baş planına markqraflıq İnqermanlandiya (Leninqrad vilayəti), Qotenau (Krım və Xerson) və Memel-Narev (Litva-Belosok) Qroznı və Bakı neft mədənlərinin fasiləsiz işini təmin etməli olan İnqermanlandiyada şəhər əhalisinin 3 milyondan 200 min nəfərə endirilməsi planlaşdırılırdı. Polşa, Belarusiya, Pribaltika, Ukraynanın tam almanlaşdırılması nəzərdə tutulurdu. 1941-ci ilin oktyabrında Hitler nitqində deyirdi: "Böyük çay keçidlərində alman şəhərləri əmələ gəlməlidir. Yol boyunca alman kəndli təsərrüfatlarının əsası qoyulmalı və birrəngli asiyalı görünüşlü çöl tezliklə müasir başqa rəng almalıdır. 10 il sonra ora 4 milyon, 20 ildən sona 10 milyon alman köçürüləcək. Müharibə gedən rus şəhərləri – Moskva, Leninqrad yaşamamalıdır, alman ayaqları altından qaçmamalıdır".[3] "Ost" Baş planı bir neçə dəfə yazılmış və Şərq cəbhəsində uğurlarla əlaqədar kəskinləşdirilmişdir. Almanların dərc etdiyi variant 1942-ci ilin iyununa aiddir.

---

[1] Мединский, В.Р. Война. Мифы СССР. 1939–1945. Второе издание / В.Р.Мединский. – Moskva, 2014. – с.133.

[2] Yenə orada, s.134.

[3] Мединский, В.Р. Война. Мифы СССР. 1939–1945. Второе издание / В.Р.Мединский. – Moskva, 2014. –134

1943-cü ildən başlayaraq Almaniya öz ərazilərini necə saxlamaq haqqında düşünməyə başlayır. "Voenno-istoriçeskiy jurnal"ın 1990-cı il 5-ci sayında dərc olunmuş Admiral Kanarislə A.Rozenberqin 30 oktyabr 1941-ci il tarixli söhbətindən məlum olur ki, baş kəşfiyyatçı ilə baş ideoloq Sovet İttifaqı ilə gələcək müharibənin siyasi planını müzakirə etmiş, 2 məşhur nasist "rus məkanını" 4 dövlətə bölmüşdülər: 1. Şərq istiqamətində genişləndirilmiş Finlandiya; 2. Belarus torpağı hesabına genişləndirilmiş Pribaltika (Sonralar almanlaşdırma perspektivi qismində alman protektoratlığı); 3. Müstəqil Ukrayna; 4. Alman idarəsi altında Qafqaz federal dövləti.[1]

1941-ci ilin mayında Rozenberq Hitlerə işğal olunacaq ərazidə 5 (beş) qubernatorluq yaradılacağı barədə direktivin layihəsini təqdim edirdi:

1. Belarus, Estoniya, Latviya, Litvanın daxil olacağı Ostland reyxs komissarlığı;

2. Krım, Don ərazisi, müstəqil Volqa-Povoljye alman Muxtar Respublikası – Diskrikt Qalisiya (Rozenberq bu cür Ukraynanı reyxin dayağı qismində görürdü və ona muxtariyyət verilməsini təklif edirdi);

3. Qafqaz reyxs komissarlığı;

4. Urala qədər Rusiya (alman xəritəsində "Moskoviem" adlandırılırdı);

5. Türküstan. Hitler planı qəbul edir. Ancaq Ukrayna muxtariyyətini çıxarır, muxtariyyətsiz də keçinərik[2] – deyir.

Bu bölgü Hitlerin 1926-cı ildə "Mayn Kampf" da yazdığına uyğundur. Nurenberq prosesində "Ost" Baş planının mövcudluğuna yeganə sübut 1942-ci ilin aprelin 27-də qoşunların reyxsfüreri, Şərq nazirliyinin 1-ci baş siyasi idarəsinin müstəmləkələşdirmə (əhalinin görülməsi) şöbəsinin rəisi E.Vetselin imzaladığı "Ost" planına qeydlər və təkliflər olur. Tamamilə məxfi" qrifi altında saxlanılan sənəd maraq doğurur.

Sənədlərdən biri Ali Baş Komandanlığın "Barbarossa əməliyyatı" adlanan 21 №-li Direktiv idi (Fürer qərargahı No 33408). Direktiv 9 nüsxə çap olunmuş və "Tamamilə məxfidir" qrifi ilə Hitler tərəfindən imzalanmışdır. Hələ 1941-ci il iyulun sonunda – müharibə başlayanda bir ay sonra alman komandanlığı hesab etdi ki, "Barbarossa" yaxın vaxtda başa çatacaq. Moskva və Leninqrad plana görə 25 avqustda, Volqa oktyabrın əvvəlinə, Bakı və Batum noyabrın əvvəlinə alınacaq.[3] Ancaq 1941-ci ilin avqust döyüşləri göstərdi ki, "Barbarossa əməliyyatı" baş tutmayacaqdır.

1942-ci il iyulun 23-də Hitler "Brauşveyq" əməliyyatının yeni "Blau" adı ilə davam etdirilməsi haqqında 45 №-li Direktiv imzaladı. Direk-

---

[1] Yenə orada,. s. 135–136.

[2] Yenə orada, s.137.

[3] Мединский, В.Р. Война. Мифы СССР. 1939–1945. Второе издание / В.Р.Мединский. – Moskva, 2014. – с.149.

tivdə "Edelveys" əməliyyatının planı yer almışdı. Plana görə Qafqazın neft rayonlarının (Maykop, Qroznı, Bakı) tutulması ilə Sovet İttifaqının zəiflədilməsi, Qafqaz və İran yolunun ələ keçirilməsi ilə SSRİ-nin xarici aləmlə əlaqəsini kəsmək və yanacaq mənbəyini tutmaq, Türkiyəni SSRİ-yə qarşı müharibəyə sürükləməklə Qara dəniz donanmasını tamamilə məhv etmək, nəhayət Zaqafqaziyanı yarmaqla Uzaq Şərqdə və Hindistana hücum üçün şərait yaratmaq nəzərdə tutulurdu.[1] "Edelveys" planına görə Bakının işğalı 1942-ci il sentyabr ayının 25-də başa çatdırılmalı idi. Sovet orqanlarının neft mədənlərini məhv etməyə imkan verilməməsi məqsədilə Bakıya şimal-şərq istiqamətindən qəfil desant çıxarılması nəzərdə tutulurdu.[2]

Bakı nefti Fransa və İngiltərənin hərbi-strateji planlarında xüsusi yer almışdı. Almaniya Parisi ələ keçirən zaman – 1940-cı ilin iyun ayında kiçik La Şarite şəhər vağzalında alman yefreytoru Parisdən aparılan gizli fransız arxivini, o cümlədən ingilis-fransız danışıqlarının yazısını ələ keçirir. Fransız qərargahının gizli sənədlərindən məlum olur ki, Fransa və İngiltərənin planında Qafqazın və Bakının neft sənayesinin ələ keçirilməsi əsas yerlərdən birini tutur.

1939-cu ilin oktyabrında ABŞ-ın Fransadakı səfiri U.Bullit Vaşinqtona xəbər verirdi ki, Parisdə "Bakının bombardman edilməsi və dağıdılması" müzakirə olunur.

Türkiyənin İsveçrədəki səfiri Yaqub Qədri Karaosmanoğlu (türk tarixçisi) xatirələrində yazır ki, İkinci dünya müharibəsi başlayanda Fransa səfiri hər bir görüşdə ona deyirdi ki, Sizin ordu 25-30 diviziyadan ibarətdir. Yaxın Şərqdəki bizim ordu 500 min nəfərə çatır. Buna müttəfiqlərin dağıdıcı gücünü də əlavə etsək Rusiyanın neft rayonlarını (Bakını) 5-10 günə tuta bilərik. Biz Qızıl Ordunun motorlaşdırılmış hissələrini yanacaqsız qoyarıq.[3] Qərb müttəfiqləri bilirdilər ki, sovet ordusu Bakı nefti ilə işləyir.

1939-cu il 23 avqust sovet-alman müqaviləsi bağlandıqdan sonra da Qafqazın neft mədənlərini, hər şeydən əvvəl Bakını ələ keçirmək Fransanın planlarında qalırdı. 1939-cu ilin sentyabrında zabit Pol de Villeliyum Almaniyanın neft təchizatını və sovet nefti göndərilməsindəki imkanları öyrənmək üçün tapşırıq aldı. O, bu imkanın 1,5 milyon ton olduğunu müəyyənləşdirdi və neft mədənlərinə havadan hücumu nəzəri cəhətdən mümkün hesab etdi. Hətta, Fransanın maliyyə naziri P.Reyno 1939-cu il oktyabrın

---

[1] Nazim, R.İ. Neft və cahan savaşı / R.İ.Nazim. – Bakı, 2005. – s.116; Siyasi tarix / – Bakı: Azərbaycan Ensiklopediyası, – II hissə. – 1998. – s.67; Мурадалиева, Э. Кровь земная – нефть Азербайджана и история: [в 2 книгах] / – Баку, кн.1. – 2005. – s.211–213.

[2] Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) / C.Həsənli. – Bakı, 2015, – s.271; Siyasi tarix / – Bakı: Azərbaycan Ensiklopediyası, – II hissə. – 1998. – s.67.

[3] Султанов, Чапай. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. – Баку, 2010. – с.100.

10-da Villeliyumla söhbətində Fransa HHQ-nin Suriyadan Qafqazın neft mədənlərini bombardman etməsi vəziyyəti ilə maraqlandı, fransız və ingilis gəmilərinin Qara dənizə boğazlardan keçməsi problemini müzakirə etdilər.

Fransız hökumətinə general Qamelanın təqdim etdiyi qeydlərində bildirilirdi: „Qafqazın neft rayonlarına qarşı hərbi əməliyyatlar bu rayonun neft sənayesi məntəqələrinə yönəldilməlidir. Bura Bakı, Qroznı- Mahaçqala, Batum daxildir. Qroznı-Maykop Qafqaz keçidinin ətəyində yerləşir və olduqca uzaqdır, hərbi əməliyyat, hətta aviasiyanın hərəkəti obyektləri "Bakı və Batumdur".[1]

SSRİ Qərb müttəfiqləri üçün ciddi təhlükəyə çevrildiyindən, ingilis və fransızlar ona qarşı müxtəlif hərbi planlar hazırlayırdılar. Bu planlardan biri də Suriyada yerləşən fransız ordusu tərəfindən Cənubi Qafqaza hücum edib Bakını bombardman etmək idi. 1939-cu ilin sentyabrında Fransanın hakim dairələri əvvəlcə siyasi, daha sonra isə hərbi səviyyədə Bakı, Qroznı və Maykopun neft mədənlərinin sıradan çıxarılmasını müzakirə edirlər. Bakının bombalanması haqqında Fransa rəsmi dairələrinin belə mövqeyi onların Qafqaz, ilk növbədə isə Azərbaycan mühacirlərinə marağını artırmışdı. Avropanın müxtəlif ölkələrinə səpələnmiş mühacir xadimləri Mir Yaqub Mehdiyev başda olmaqla Azərbaycan Milli Komitəsi təsis edib Fransa siyasi dairələri ilə əlaqəyə girdilər.[2] Dekabr ayının 7-də Xarici İnformasiya Bürosu Parisdə olan Azərbaycan nümayəndəliyinin üzvlərinin siyasi etibarlılığını öyrənmək üçün Nazirlər Şurasına, Xarici İşlər və Hərbi Nazirliklərə sorğu ilə müraciət etdi.[3]

Fransa hökuməti Fransa Ali Hərbi Şurası sədrinin müavini general Moris Qamelenə və Fransa Dəniz Baş Qərargahının rəisi admiral Jan Lui Darlana tapşırdı ki, Rusiyanın neft mənbələrinin sıradan çıxarılmasının mümkün variantlarını hazırlasınlar. Yanvar ayının 19-da onlar Baş Nazir Eduard Daladyenin adına hazırladıqları "Neft mənbələrini məhv etmək məqsədilə SSRİ-yə nəzərdə tutulan hücum əməliyyatı haqqında" mülahizələrində il növbədə Qara dənizdə neft daşıyan Almaniya gəmilərinin ələ keçirilməsini, sonra Qafqaza birbaşa müdaxilə, nəhayət Qafqazda müsəlman xalqlarının azadlıq hərəkatının müdafiə edilməsi nəzərdə tutulurdu.[4]

---

[1] Yenə orada, sc.100-101.

[2] Султанов, Чапай. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. – Баку, 2010. – с.443-444.

[3] Le Sommissaire général à l'Information à Son Excellence Monsieur Ed. Daladier, président du Conseil, ministre des Affaires étrangères, de la Défense Nationale et de la Guerre. A. S. de la délégation nationale d'Azerbaïdjan. Paris. 07.12.1939 // Ministere des Affairs Etrangere de France, Archives Diplomatique, CPC, 1914-1940. Série Z (Europe). Dossier №1093, URSS (nationalités et régionalisme), folio 340.

[4] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с. 361-362. Əlavə məlumat üçün bax: Zehra Önder. II. Dünya Savaşında Türk Dış Politikası, s.51; J.Glasneck u. İ.Kircheisen. Türkei und

Fransanın Sovet İttifaqındakı hərbi attaşesi general Oqyust Antuan Palass 1939-cu il dekabr ayının 24-də Parisə göndərdiyi "Qafqazda hərbi əməliyyatlar meydanının mümkünlüyü haqqında" sənəddə də Qafqazın dəmir yolları, Bakı-Batum dəmir yolunun ümumi texniki xarakteristikasını verir, Qafqazdan Cənubi Qafqaza gedən yollar, orada yerləşdirilən ordu hissələrinin sayı haqqında hərbi xarakterli məlumatlar yer almışdı.[1] Fransanın Türkiyədəki hərbi attaşesi "Qafqazın neft mərkəzlərinə hücumun forma və şərtləri" adlı təhlil xarakterli sənəddə SSRİ-də neft istehsalının 4/5 hissəsinin, rus benzininin 2/5 hissəsinin, aviasiya benzininin hamısının Bakı mədənlərində istehsal edildiyi göstərilirdi.[2]

1940-cı ilin fevral ayından başlayaraq müttəfiqlər Qafqaz əməliyyatını daha da intensivləşdirməyə başladılar. Qeyd olunduğu kimi, SSRİ-ni Bakıdan ayırmaq və onu həyat mənbəyi neftdən istifadədən məhrum etmək, Bakının bombardmanı üçün Türkiyə və İranla razılıq əldə olunması və sovetlərə düşmən əhval-ruhiyyədə olan yerli azərbaycanlıların diversiya əməliyyatına cəlb edilməsi idi. Bu əməliyyatda Bakının erməni əhalisindən istifadə nəzərdə tutulurdu. Fransanın yüksək çinli hərbçiləri hesab edirdilər ki, sovet silahlı qüvvələri və Rusiyanın kənd təsərrüfatı bütövlükdə Bakı neftindən asılıdır.[3] Əslində bu fikir 1940-cı ilin mart ayında Azərbaycan nümayəndələrinin Qafqazın iqtisadı həyatı və Bakının neft ehtiyatları haqqında hazırladıqları geniş arayışda da göstərilirdi ki, Bakı öz neft ehtiyatlarına görə dünyada ikinci yerdə dayanır. Bu səbəbdən Moskvanın Bakını və Qafqaz sərhədləri boyunca Azərbaycanı hərbi cəhətdən daha da möhkəmləndirməsi təəccüb doğurmur.

1940-cı ilin mart ayında Bakının bombardman edilməsi planı daha da dəqiqləşdirildi. Fransa hərbi dairələri Bakının bombardman edilməsi üçün Suriya və İraqdakı hərbi hava bazaları ilə yanaşı Türkiyənin hava sahəsindən istifadə etmək aktuallaşdı. Mart ayının 20-də ingilis-fransız komandanlığının Hələbdə (Suriya) keçirilən müşavirəsində 1940-cı ilin iyununa

---

Afghanistan. Brennpunkte der Orıentpolitik im Zweiten Weltkrieg. Berlin (Ost), 1968, p.53; W.L.Langer, S.E.Gleason. The Challenge to Isolation 1937-1940. New York, 1952, p.390; M. Beloff. The Foreign Policy of Soviet Russia 1929-1941. New York, 1952, p.301.

[1] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с..349-351.

[2] Conditions et modalites d'une attaque contre les centres petroliers du Caucase. Le 23 Decembre 1939 // Ministère des Affaires Etrangère de France, Archives Diplomatique, Paris, Deuxieme guerre 1939-1945, Papiers 1940, papiers Rochat, dossier №36 (URSS), folio 66.

[3]Die Geheimakden des französischen Generalstabes, Auswartiges Amt, 1939/1941, Nr/ 6, Deutsches verlag, 1941, p.205. Almaniya xarici işlər nazirliyinin nəşr etdiyi "Fransa Baş Qərargahının gizli sənədləri" toplusunun tam mətni üçün bax: RDSSTA, фонд №1357, опис №3, дело №163, листы –1-198 .

qədər Qafqaz əməliyyatını həyata keçirmək üçün Orta Şərq regionunda ilk olaraq 20 aerodromun tikintisinin başa çatdırılması[1] qərara alındı. Müşavirədən iki gün sonra Böyük Britaniya və Fransanın quru ordularının baş komandanı general Qamelen Fransa Nazirlər Şurasının sədri Pol Reynonun adına "Almaniya və SSRİ-ni Qafqazın neft mənbələrindən məhrum etmək üçün nəzərdə tutulan əməliyyat" haqqında son dərəcə məxfi bir sənəd hazırladı. Sənəddə Rusiyanın iqtisadiyyatı üçün zəruri olan xammaldan məhrum etmək, Bakını bombardman məqsədilə müttəfiqlərin İranın şimalında aviasiya bazası tikmək və ya Böyük Britaniyanın ağır bombardmançı təyyarələrini İranın hava məkanından uçuşlarına Rza şahdan razılıq alınması əsaslandırılırdı. Hərbi əməliyyatın başlanması 1940-cı ilin iyul ayının sonlarına planlaşdırılmışdır. [2] General Qamelenin fikrincə Bakıya hava hücumu ya Türkiyənin, Diyarbəkir-Van-Ərzurum rayonlarından, ya İran ərazisindən, ya da Suriya və İraq (Cizrə və Mosul rayonu) ərazilərindən olmalı idi. Bakı ilə Təbriz arasında məsafənin 400 km, Bakı ilə Ərzurum və Mosul arasında məsafənin 700 km olmasını nəzərə alaraq general Qamelen belə hesab edirdi ki, Bakının bombalanmasına uzaq məsafəyə uçan 6-8 qrupdan ibarət olan müasir ağır bombardmançı təyyarələr həyata keçirməli idilər.

Aprel ayının 17-də general Veyqan "Qafqaz nefti" əməliyyatının hazırlıq mərhələsi haqqında sonuncu məlumatları Fransa Ordusunun Quru ordularının Baş komandanı general Qamelenə və Hərbi Hava Qüvvələrinin Komandanı general Vyuyemenə təqdim etdi. Məlumatda 30 gün ərzində bütün hazırlıq tədbirlərinin başa çatdırılması göstərilir, müttəfiqlərə Qafqaza hücum üçün Türkiyənin öz ərazisindən tramplin kimi istifadə etməyə icazə verib-verməməsi xüsusi vurğulanırdı.

1939-cu ilin oktyabrında Bakının bombalanması planı Londonda da müzakirə edilirdi. Baş Nazir N.Çemberlen və Hərbi Dəniz Naziri U.Çörçill Bakının bombalanmasından daha çox Qara dənizə sualtı gəmilər göndərib Almaniyaya neft daşınmasına mane olmağa üstünlük verirdilər. Böyük Britaniyanın, istərsə də Fransanın Moskvadakı səfirləri məxfi kanallarla Qafqaz haqqında, xüsusilə Azərbaycan neft sənayesi, dəmir yolları, Cənubi Qafqazda dislokasiya olunan ordu hissələri haqqında məlumatları Londona və Parisə göndərirdilər.[3]

---

[1] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I, с.383.

[2] Оришев, А.Б. Иранский узел. Схватка разведок. 1936–1945 гг. / А.Б.Оришев. – Москва, 2009. – с.100.

[3] 1939-1940-cı illərdə ingilis və fransızların Bakını bombardıman etmək planları barədə ətraflı məlumat üçün bax: G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921-1945), p.239-271.

1940-cı il yanvarın 11-də Moskvadakı ingilis səfirliyi bildirmişdi ki, Qafqazdakı aksiya "qısa müddətdə Rusiyanı diz üstə qoya bilər",[1] Qafqaz neft mədənlərinin məhvi isə SSRİ-yə "nokaut zərbəsi" qabiliyyətinə malikdir.[2]

1940-cı il yanvarın 24-də Böyük Britaniya Baş Qərargahının rəisi Ayronsaydın Böyük Britaniya rəhbərliyinə təqdim etdiyi "Müharibənin baş strategiyası" adlı memorandumunda qeyd edilirdi ki, Rusiyanın iqtisadiyyatı müharibənin aparılması üçün Bakının neft təchizatından asılıdır. Bu rayonların uzaq məsafədən bombardman edilməsi mümkün olmadığından, ancaq Türkiyə və İran ərazisi üzərindən uçuş mümkün idi.

Böyük Britaniyanın müdafiə üzrə koordinatoru lord Çetfildin hökumətə göndərdiyi məruzədə SSRİ-də 3 əsas neft çıxarılan rayonun – Bakı, Qroznı və Maykopun olduğu bildirilirdi. Bakını məhv etməyə Çörçill də hazırlaşırdı. Almanlar Bakıya yaxınlaşanda Çörçillin qərargah rəisinə göndərdiyi qeydlərdə deyilirdi: "Tamamilə aydındır ki, əgər almanlar güclü təzyiq göstərsələr 18-ci, 50-ci diviziyalar lazım olan yerə çata bilməsələr, Böyük Britaniya diviziyaları İranda və İraqda keyfiyyət qazana bilməsələr onları Qafqaza göndərmək imkanı yaradın. "Kruseyder" əməliyyatının ləngidilməsi bizim əl-qolumuzu bağlayır… Yeganə addım biz Şimali İranda 4-5 ağır bombardmançı eskadrilya yerləşdirməliyik ki, Qafqazın müdafiəsində ruslara kömək göstərsin ki, əlbəttə bu mümkündür, ən pis halda biz Bakının yandırılmasına cəhd edərik".[3]

Bütün bunlardan aydın olur ki, Londonda və Parisdə Bakı neftinin SSRİ üçün nə dərəcədə vacib olduğunu yaxşı anlayır və qiymətləndirirdilər.

Odur ki, Qafqazdakı hərbi əməliyyatlarda əsasən Bakının neft sənayesinə zərbə endirilməsi nəzərdə tutulmuşdu. Müttəfiqlərin aviasiya dəstəsi hər birində 13 maşından ibarət ağır bombardmançı, 6-8 aviaqrupdan ibarət olmalı idi. Yalnız 6 qrup "Farman-221" və "Qlen Martin" tipli fransız təyyarələri hər uçuşda **100 neft təmizləyici zavoda** 70 ton bomba tökməli idi. Göründüyü kimi, məqsəd çox ciddi idi və xüsusi hazırlıq tələb edirdi. Fransanın təkliflərində 6-8 qrupun hər birində 13 ağır bombardmançı təyyarədən istifadə olunması təklif olunurdu.[4]

Qərb müttəfiqlərinin Bakıya hücumuna dair çox saylı variantlar olmuş, uzun müzakirələrdən sonra 1940-cı ilin aprelində xarakterinə görə 2

---

[1] Сиполс, В.Я. Тайные документы «странной войны» // Новая и Новейшая история. 1993, №3, с.121.

[2] Yenə orada, s.124.

[3] 1939-1940-cı illərdə ingilis və fransızların Bakını bombardıman etmək planları barədə ətraflı məlumat üçün bax: G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921-1945), s.104.

[4] Безыменский, Л.А. Великая Отечественная война в… 1940 годы? // Международная жизнь, 1990, №8, с.109.

plan-ingilis "**MA-6**" və fransız "**RİP**" planları işlənib hazırlanmışdı. Hər iki tərəfin komandanlığı hesab edirdi ki, Qafqazın neft mədənlərinə hücum üçün 90-100 təyyarə lazımdır. Bakının 15 günə dağıdılması nəzərdə tutulurdu. 1940-cı il aprel ayının 4-5-də Fransa Hərbi-Hava Qüvvələrinin Baş Komandanlığının əlaqələndirmə qrupu Qafqazın neft rayonlarının bombardman edilməsi ilə əlaqədar iki günlük iclas keçirib əməliyyat planını müzakirə etdi. Plana görə Bakının vurulması Mosuldan nəzərdə tutulurdu. Batumdakı 12 neftayırma zavodunu sıradan çıxarmaq üçün 6 "Qlenn-Martin" qrupu 15 gün ərzində 6 döyüş uçuşu həyata keçirməli, Bakının və Qroznının neftayırma zavodlarının bombardman edilməsi "Vellinqton" tipli 6 bombardmançı eskadrilya tərəfindən yerinə yetirilməli idi. "**Qafqaz nefti**" adlanan bu əməliyyatda 90-dan 100-ə qədər fransız və ingilis təyyarəsinin iştirakı, hər uçuş əməliyyatı zamanı isə neftayırma zavodlarına **70 ton bomba** tökülməsi nəzərdə tutulurdu.[1]

Bakı neft mədənlərinin bombardman edilməsi əməliyyatını Böyük Britaniya Hərbi Hava Qüvvələri həyata keçirməli, Gürcüstanın Qara dəniz sahillərindəki neft müəssisələrini və Qroznı neft mədənlərini Fransa aviasiyası dağıtmalı idi.[2]

Ancaq Türkiyənin Qərb dövlətlərinin planlarına qoşulmaması Bakıya hücumun həyata keçirilməsinə imkan vermədi. Doğrudur, tarixi ədəbiyyatda SSRİ-Türkiyə münasibətlərində, guya türklərin Bakını bombalamaq planlarından xeyli yazılıb. Məlumdur ki, 1941-1945-ci illərdə Türkiyə Cümhuriyyəti şəhərləri SSRİ və III Reyxin xüsusi xidmət orqanlarının gərgin mübarizə meydanına çevrildi. Gizli sənədlərin oğurlanması, səfirlikdəki adamların xüsusi xidmətə cəlb edilməsi, "xüsusi yararsız" şəxslərin fiziki cəhətdən aradan qaldırılması qarşılıqlı cavabla qiymətləndirilirdi. Mübarizənin apogeyi* 1942-ci il fevralın 24-də Atatürk bulvarında, Ankaranın mərkəzində bombaların partlaması, milliyyətcə bolqar olan bir gəncin Hitlerin Türkiyəyə göndərdiyi Frans fon Papenin öldürülməsi cəhdi oldu. Doğrudur, bunun kim tərəfindən "sifariş" edildiyi bu günədək aydın olmasa da, fon Papen müharibədən sonra öz memuarında qeyd edirdi ki, bu gestaponun xüsusi əməliyyatı olmuş, almanlar bununla Sovet kəşfiyyatını Türkiyə Cümhuriyyətinə qarşı qoymaq istəmişlər.

---

[1] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). Москва, 1995. – с.377-379.

[2] Bax: P.Buffotot. Le projet de bombardement des petroles sovietiques du Caucase en 1940 // Revue historique des armees, revue commune aux trios armees TERRE-AIR-MER, Vincennes, 1979, №4, p.96.

* **Apogey** – Ayın və ya Yerin süni peykinin orbitinin Yerdən ən uzaq nöqtəsidir. Ayın apogeyi 406700 km-dir. [1]

Hitler Almaniyası çalışırdı ki, Türkiyə Cümhuriyyətini SSRİ-yə qarşı müharibəyə sövq etsin. Moskva isə bu variantları dəf etməyə çalışırdı. Ən mühüm məsələlərdən biri odur ki, problemə aid sənədlər hələ də məxfi saxlanılırdı.

Hitler Almaniyasının mətbuat attaşesi Lyudviq Moyziş xatirələrində yazır ki, fon Papenə edilən sui-qəsddən sonra Ankaranın Moskva ilə münasibətləri pisləşdi. Sovet kəşfiyyatının Ankaradakı rezidenti Georgi Mordvinov həbs olundu, Türkiyə ordusunun 20 seçmə diviziyası SSRİ ilə sərhədə toplanıldı. Lakin sovet kəşfiyyatı təşəbbüsü ələ ala bildi. Həmin dövrdə Ankarada yaşayan ingilis tarixçisi Stiven Kerlinq təsdiq edir ki, sovet kəşfiyyatının müvəffəqiyyət qazanmasında saxta informasiya əsas rol oynadı. Belə ki, Türkiyə Cümhuriyyəti Baş Qərargahına hər ay faşistlərin məlumatları daxil olurdu. Bildirilirdi ki, guya SSRİ Uzaq Şərqdən Qafqaza göndərdiyi 50 diviziya iki gün ərzində Ankarada olacaq. Yaxud kürdlər üsyana hazırlaşır və s. Belə bir versiya da dolaşırdı ki, guya Moskvada dəniz desantı çıxarılması, Sovet Ordusunun İrandan hücum etməsi barədə İ.Stalinin kabinetindən oğurlanmış plan türklərə verilmişdir.

Belə bir fikir də hökm sürür ki, əgər Stalinqrad vuruşmasında Sovet Ordusu məğlub olsaydı, türklər Bakını tutacaqdılar. «Большие клеши» ("Böyük qısqac") əməliyyatına görə almanlar Bakını tutduqdan sonra İranın və Yaxın Şərqin neft yataqlarını türklərsiz tutmağı planlaşdırırdı. Ancaq bir şeyi unutmaq olmaz ki, əgər türklər Bakını tutsaydılar, döyüşlərin gedişində neft hasilatının ritmi pozular, neftin emalı və daşınmasında ləngimələr baş verərdi. Yox, əgər Türkiyə Stalinqrad döyüşünün getdiyi vaxtda, 1942-ci ildə hərbi əməliyyatlara başlasaydı, bir sıra Avropa dövlətlərinin müharibədən çıxması SSRİ üçün əhəmiyyətsiz olardı. Bu isə müharibənin sonunda qələbəyə ortaq olanların sayını azaldardı. Yəni, Türkiyənin müharibəyə girməsi ilə Avropa dövlətləri müharibədən çıxar, qoşunları geri çəkər, SSRİ isə 2 cəbhədə sovet-alman, sovet-türk cəbhəsində mübarizəni davam etdirərdi. Digər tərəfdən 1942 və 1943-cü illərin neft hasilatı da məlumdur. Neft hasilatı sənayesində vəziyyət əvvəlki kimi ağır olaraq qalırdı. 1943-cü ildə xalq təsərrüfatı əvvəlki ildən 4 milyon ton az neft almışdı. İlk baxışda belə görünür ki, 1943-cü ildə ölkədə neft hasilatı azalır. Ancaq təyyarəçilər, tankçılar, avtomobil sürücüləri cəbhədə lazımı qədər yanacaq aldılar. Fikrimizcə, bu Azərbaycan SSR-ə, Bakı neftinə qısqanclıqla bağlıdır.

Arxiv sənədlərinin təhlili göstərir ki, xüsusi xidmət orqanları qonşu İranda eyni formada fəaliyyət göstərirdilər. Milis tez-tez Avropa geyimində sənədsiz Bosfor boğazında olurdu. Bir dəfə, Stalinqradda Paulsun məğlubiyyətindən sonra alman qrupu İstanbulda rusların bayram etdiyi kafeyə hücum etmiş, atışmada bir SS zabiti öldürülmüşdü.

Təbii ki, bütün bu planlardan SSRİ rəhbərliyinin xəbəri var idi və Qafqazın müdafiəsinə dair bir sıra tədbirlər görülürdü. **Başqa sözlə, Bakı həm müttəfiqlərin, həm də almanların hədəfində idi**.

II Dünya müharibəsinin başlanmasından bir il əvvəl – 1938-ci ilin sentyabrında Bakı hava hücumundan müdafiə hissələrində 2 zenit top batareyası (hər birində 4 top) mövcud idi. Az sonra zenit artilleriyası diviziyası yaradıldı. Həmin diviziya batareyasından birinin komandiri N.E.Hüseynov 1943-cü ildə Bakıda yerləşən zenit artilleriyası diviziyasının komandiri təyin edildi.[1]

İ.Stalin Kominternin İcraiyyə Komitəsinin sədri G.Dimitrova verdiyi təlimatlarda açıq şəkildə etiraf edirdi ki, hücum etməmək haqqında müqavilə bu və ya digər dərəcədə Almaniyaya kömək etdi.[2] Sentyabr ayının 17-də Sovet Ordusu Polşaya daxil oldu və sentyabrın 23-də Polşanın işğalının başa çatdırılması münasibəti ilə Brest şəhərində birgə sovet-alman paradı keçirildi.[3]

Oktyabrın 1-də Türkiyənin Xarici İşlər Naziri Ş.Saracoğlunu qəbul edərkən, İ.Stalin açıq şəkildə etiraf etdi ki, "Biz Almaniya ilə Polşanı bölüşdürdük".[4] Tanınmış rus alimi akademik O.Rjeşevski haqlı olaraq yazır ki, 23 avqust müqaviləsi və onun davamı kimi sentyabrın 28-də imzalanmış dostluq və sərhədlər haqqında sovet-alman müqaviləsi digər ölkələrin və xalqların taleyini onlardan xəbərsiz həll etdi.[5]

Oktyabrın 19-da ittifaq haqqında ingilis-fransız-türk müqaviləsi imzalandı. Hələ oktyabr ayının 1-də Moskvada aparılan danışıqlarda Türkiyəni Qərb müttəfiqləri ilə müqavilə imzalamaqdan çəkindirmək üçün İ.Stalin bildirmişdi ki, "türklər məndən soruşmadılar, əgər onlar məndən soruşsaydılar, mən onlara məsləhət görərdim ki, ingilis-türk və fransız-türk paktını bağlamağa razılaşmasınlar".[6]

İ.Stalin Türkiyəyə münasibətdə öz fikirlərini Berlin danışıqlarından dərhal sonra 1940-cı ilin noyabr ayının 25-də Kominternin İcraiyyə Komitəsinin baş katibi G.Dimitrovla söhbətdə demişdi: **"Biz türkləri Asiyaya**

---

[1] Бакинский округ ПВО. Баку, 1974. – с.51.

[2] Ətraflı məlumat üçün bax: Д.Г.Наджафов. Об историко–геополитическом наследии советско-германского пакта 1939 года // Правда Виктора Суворова-2. Восстанавливая историю. Второй мировой. Москва, 2007.

[3] 23 avqust 1939-cu il sovet-alman müqaviləsi və onun doğurduğu hərbi-siyasi nəticələr barədə daha ətraflı məlumat üçün bax: Международный кризис 1939-1941 гг.: от советской-германский договоров 1939 года до падения Германии на СССР. Москва, 2006, 560 с.

[4] İ.Stalin və V.Molotovun Ş.Saracoğlu ilə danışıqlarının stenoqramı. 01.10.1939 // RDSSTA, f.558, s.11, i.388, v–21

[5] Великая Отечественная война: Энциклопедия. Москва, 2010. – с.9.

[6] İ.Stalin və V.Molotovun Ş.Saracoğlu ilə danışıqlarının stenoqramı. 01.10.1939 // RDSSTA, f.558, s.11, i.388, v–22.

qovacağıq. Bu necə Türkiyədir? Orada 2 milyon gürcü, 1,5 milyon erməni, 1 milyon kürd və sair var. Türklər ancaq 6-7 milyondurlar".[1]

23 avqust sovet-alman müqaviləsi və ona əlavə olaraq imzalanmış gizli protokollara görə Sovet İttifaqı Hitler Almaniyasının əsas neft təchizatçılarından biri idi. Həmin məlumatlara görə SSRİ neft ehtiyatlarının 80 faizi Qafqazda, ilk növbədə isə Bakı rayonunda yerləşirdi.[2] Sentyabr ayının 23-də SSRİ Daxili İşlər Xalq Komissarı L.Beriya Azərbaycan SSR Daxili İşlər Komissarlığına göndərdiyi məxfi göstərişdə diversiya aktlarına qarşı Bakı neft mədənlərinin mühafizəsinin gücləndirilməsini tələb edirdi. SSRİ XDİK-nın məlumatına görə, Fransa kəşfiyyat orqanlarının göstərişi ilə Qafqazdan olan xarici mühacir təşkilatlar Bakı neft mədənlərində diversiya aktları həyata keçirmək üçün fəal iş aparır və bu məqsədlə Qafqaza diversantlar göndərirlər. Həmin dövrdə Beyrutdan Suriyaya gələn general Veyqan Qafqaz mühacirlərinin nümayəndələri ilə görüşdə bildirdi ki, Qafqazın gələcəkdə müttəfiqlər tərəfindən azad edilməsinin mümkünlüyünü istisna etmir, lakin bu məqsədə nail olmaq üçün region haqqında dəqiq kəşfiyyat məlumatlarının olmasını zəruri hesab edir.[3] L.Beriya yazırdı: "Parisdə diversant kadrların hazırlanması işi gedir ki, onları yaxın vaxtlarda Türkiyə və İran sərhədlərindən Zaqafqaziyaya göndərsinlər". Diversantların Azərbaycan ərazisinə keçmələrinin və diversiya aktlarının qarşısının alınması üçün L.Beriya Azərbaycan XDİK-nın agentura-məlumat şəbəkəsinin təmizlənməsini, "Azneftkombinat"ın bütün sahələrində agentura şəbəkəsinin qurulmasını, yeni agentlərin cəlb edilməsi işinin gücləndirilməsini, rəhbər əməliyyat işçilərinin şəxsən təlimatlandırılmasını, "Azneftkombinat"ın mədən və müəssisələrinin, xüsusilə neftayırma zavodlarının mühafizə dəstələrinin şəxsi heyətinin öyrənilməsi və həmin müəssisələrin antisovet ünsürlərdən, şübhəli şəxslərdən təmizlənməsini təklif edirdi.[4]

Bakının neft mədənlərində diversiya aktları müharibənin əvvəllərində almanlar tərəfindən yaradıldı. **Alman hərbi kəşfiyyatının ("Abver"in) ikinci şöbəsi (sabotaj-təxribat) Bakı neft mədənlərinin ələ keçirilməsi təhlükəsi baş verdiyi halda Bakı neft mədənlərinin məhv edilməsi tapşırığını almışdı.**

---

[1] Q.Dimitrov. Дневник (9 март 1933 – 6 февраль 1949). София, 1997. – с.203; The Diary of Georgi Dimitrov, 1933-1949. New Haven, CT: Yale University Press, 2003. – p.137; Odd Arne Westad. The Global Cold War. Third World Interventions and the Making of Our times. Cambridge University Press, 2007. – p.59.

[2] G.Mamoulia. Les combats independantistes des Caucasiens entre URSS et puissances occidentales. Le cas de la Georgie (1921–1945). Paris, L'Harmattan 2009, p.239

[3] Мамулия, Г. Борьба за свободу и независимость Кавказа (1921-1945) / Г.Мамулия.– Тьилиси-Париж, 2012. – с.337.

[4] Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов. Том I. Накануне. Книга первая (ноябрь 1938 г. – декабрь 1940 г.). Москва, 1995. – с.94-95.

1942-ci il iyulun sonlarında Rostov şəhəri təslim oldu, almanların Qafqaza yolu açıldı. 1942-ci il avqustun 9-da Maykop almanlar tərəfindən alındı. Faşist dağ "Edelveys" diviziyası Elbrusa reyxin bayrağını sancanda İ.Stalin Bakının neft mədənlərinin və neftayırma zavodlarının məhv edilməsi haqqında əmr verdi. Sənədlərdə təxliyə zamanı bir sıra tədbirlər nəzərdə tutulurdu.

Bakının başı üzərində ciddi təhlükə yarananda Bakının neft mədənlərinin partladılması gündəmə gəldi. 1942-ci il iyul ayının 1-də Stalin məşhur həmyerlimiz Nikolay Konstantinovu Baybakovu yanına çağırıb ona demişdi: „Siz Qafqaza gedirsiniz və yerli neft mədənlərini minalayırsınız. Əgər Hitlerə bircə ton da olsa, neft saxlasanız, sizi mən özüm güllələyəcəyəm. Yox, əgər Hitler gedib Qafqaza çatmasa, siz neft mədənlərini vaxtından əvvəl partlatmış olsanız, onda biz yenə də sizi güllələyəcəyik. Cavan, otuz yaşını təzəcə adlamış nazir müavini özündə güc, cəsarət tapıb, asta səslə deyir: Yoldaş Stalin, siz mənə heç seçim yolu saxlamırsınız".[1] Bu epizodu xatırlayan Nikolay Baybakov sonralar bu barədə yazmışdı: "İ.Stalin gəlib yanımda durdu. Əlini astaca qaldırıb ehmalca öz gicgahına vurdu:

- Seçim buradadı, yoldaş Baybakov, Budyonnu ilə uçursunuz. Fikirləşin. Məsələləri yerində həll edin.[2] O zaman Baybakov mütəxəssisləri yığıb Şimali Qafqazda xüsusi üsulla quyuları dağıtmağa başladı. İlk növbədə az məhsul verən quyular partladıldı. Faşistlər Qroznı və Maykopunun neft yataqlarına daxil olduğu vaxt oradakı neft verən quyular partladıldı.

Ziyad Səmədzadə yazır ki, O zaman Baybakov mütəxəssisləri yığıb Şimali Qafqazda xüsusi üsulla quyuları dağıtmağa başladı. İlk növbədə, az məhsul verən quyular partladıldı. Sonra isə alman-faşist hücumlarının genişlənmə tempindən asılı olaraq digər quyulara keçdilər. Axırıncı məqamda, yəni faşistlərin Qroznı və Maykopun neft yataqlarına daxil olduğu vaxtda isə oradakı yaxşı neft verən quyular partladıldı… Sonra N.Baybakovun qrupu təcili olaraq Bakıya yola düşdü. Burada da onun qarşısında duran vəzifə eyni idi: düşmənə bir damla belə neft verməmək! Krasnodar, Qroznı... bəli, dəhşətli, ağır və ağrılı... Ancaq Bakıda hər şey o qədər doğma, o qədər əziz idi ki! Buraların qurulması üçün özü o qədər güc, can qoymuşdu ki! İndisə öz əlləri ilə…[3]

Dəmiryolçu veteranlar xatırlayırlar ki, almanlar Stalinqrada yaxınlaşanda xüsusi partlayıcı əşyalarla dolu bir neçə xüsusi vaqon Bakıya gəldi.

---

[1] Azərbaycan İkinci dünya müharibəsi illərində: faktlar, rəqəmlər və reallıqlar.https: //banker.az/az%C9%rbaycan–ikinci–dünya–müharib%C9%99si–ill/C8%rind%–C9faktla–r%C9%99r%C9%99ml% 99r–v%C9%99–reallıqlar/

[2] Azərbaycan İkinci dünya müharibəsi illərində: faktlar, rəqəmlər və reallıqlar.https: //banker.az/az%C9%rbaycan–ikinci–dünya–müharib%C9%99si–ill/C8%rind%–C9faktla–r%C9%99r%C9%99ml% 99r–v%C9%99–reallıqlar/

[3] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

Onları xüsusi əməliyyatçılar müşayiət edirdilər və tapşırığı yerinə yetirmək üçün əmr gözləyirdilər. Əməliyyatçılar həmin vaqonlarda yeyir və yatırdılar. Heç kim onların yaxınına buraxılmırdı.

Müharibənin ilk aylarında dəmiryol qovşağında 8.500 yanacaq dolu sistern yığılıb qalmışdı. Onlar düşmən aviasiyasının hücumuna məruz qaldılar. Almanlar 2-3 milyon ton yanacaq ələ keçirdi və yandırdılar. Stalinqrad döyüşünün iştirakçıları söyləyirlər ki, yanacağın axması səbəbindən Volqa çayı yanırdı.

Bakıda bu "tədbiri" həyata keçirməyi İ.Stalin Kaqanoviçə tapşırmışdı. Stalin Kaqanoviçin bu sahədə qabiliyyətinə yaxşı bələd idi və İ.Stalinin tapşırığı ilə İsa məsihin məbədini də Kaqanoviç partlatmışdı.

DMK yeni, tamamilə məxfi bir qərar qəbul etdi. Öz qərarında DMK hesab edirdi ki, sovet qoşunlarının məcburən geri çəkildiyi halda fəaliyyətdə olan neft quyuları fondu, neft mədən təsərrüfatları, neft emalı zavodlarının partladılmasına hazırlıq işləri aparılmalı, sonra da məhv edilməlidir. Sənədlərdən məlum olur ki, həmin günlərdə feldmarşal Maynşteyn telefonla Hitlerə yalvarır ki, Qafqazdakı alman qoşunlarını onun tabeliyinə keçirsin. O da həmin qoşunla Stalinqrad altında mühasirəyə düşmüş orduya köməklik göstərsin.

Bakını tutmaq almanlara nəsib olmadı, üstəlik faşist Almaniyası Bakı neftində boğuldu… Yanacaqsız qalan almanların tank qoşun birləşmələri Qafqaz dağlarının ətəyində dayanmağa məcbur oldular. Bakının neft yataqları isə son anda partladılmaqdan xilas oldu. 1942-ci il, payızın axırına yaxın düşmənin Qafqaz üzərinə hücumu dayandırıldı. Vermaxtın qoşun birləşmələri Qafqaz dağlarını aşıb neft yataqlarını tutmaq gücündə olmadı. Almaniya neft uğrunda gedən böyük müharibənin ən həlledici mərhələsini uduzdu. Bu strateji məğlubiyyət idi. Məğlubiyyətin nəticələri isə tez bir zamanda özünü büruzə verdi.[1]

SSRİ Ali Soveti Rəyasət Heyəti 1942-ci ilin fevralında Azərbaycan SSR-dən 500-dən artıq neft sənayesi işçisini dövlət tapşırıqlarını nümunəvi yerinə yetirdiyi üçün orden və medallarla təltif etdi. "Pravda" qəzeti yazırdı ki, neft Bakısı bu günlərdə yüksək əmək hünəri qazanmışdır. Mühəndislər, geoloqlar, texniklər sutkalarla laboratoriyaları, buruqları, kompressorları, sexləri və zavodları tərk etmədilər. Birinci növ benzin, liqroin, yağ fasiləsiz olaraq cəbhəyə gedirdi. Bu gərgin əməyin nəticəsi idi". Vaxt keçsə də, bu yaddan çıxmayacaq.[2]

---

[1] Azərbaycan İkinci dünya müharibəsi illərində: faktlar, rəqəmlər və reallıqlar.https: //banker.az/az%C9%rbaycan–ikinci–dünya–müharib%C9%99si–ill/C8%rind%–C9faktla–r%C9%99r%C9%99ml% 99r–v%C9%99–reallıqlar/

[2] Султанов, Чапай. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. – Баку, 2010. – с.115.

Paradoksal vəziyyət yaranmışdı. Bir tərəfdən neft çıxarılmasında nöqsanlara görə tənqid, digər tərəfdən təltif. Bütün bunlar SSRİ-n milli siyasətində Azərbaycan məsələsinə ikili yanaşmanın nəticəsi idi.

Cənubi Azərbaycanda baş verən hadisələrin faciəli sonucuna əsaslanaraq deyə bilərik ki, Stalin Azərbaycana münasibətdə ikili mövqe tutdu, aldadıcı jestlərlə özünü dost kimi göstərdi, həqiqətdə isə ikiyə parçalanmış xalqın birliyinə zərbə vurdu, müharibədən sonra respublikanın nüfuzunun artmasına mane olmağa çalışdı.

1941-1942-ci illərdə Sovet Azərbaycanının partiya, sovet, təsərrüfat, elm, mədəniyyət və ədəbiyyat xadimlərindən təşkil olunmuş "Əziz Əliyevin missiyası" sözün tam mənasında xalq diplomatiyasının bütün formalarından istifadə edirdi. Sovet İttifaqının İran siyasətinin birinci mərhələsində bu missiya Cənubi Azərbaycanda əhəmiyyətli sosial-iqtisadi, siyasi, milli və mədəni işlər həyata keçirə bildi. "Əziz Əliyevin missiyası" İranda olan sovet ordularının tərkibinə daxil edilsə də, əslində bu missiya daha çox diplomatik işlə məşğul olur və Sovet Azərbaycanını Cənubda siyasi, iqtisadi, mədəni, milli və mənəvi cəhətdən təmsil edirdi. Bilavasitə Moskvanın göstərişi ilə Azərbaycan siyasi işçilərinin 1942-ci ilin mart ayında İrandan çıxarılması müttəfiqlərarası diplomatik münasibətlərin tərkib hissəsi, beynəlxalq aləmdə baş verən dəyişikliklərin təzahür forması idi. Bu proses 1941-1945-ci illər müharibəsində əsaslı dönüş başa çatana, yəni 1944-cü ilin ortalarına qədər davam etdi. 1944-cü ilin mart ayında Sovet Azərbaycanından olan 20-yə yaxın şəxsin İranın, xüsusilə onun Azərbaycan vilayətinin müxtəlif şəhərlərinə diplomatik vəzifələrə təyinat almaları ilə Cənubi Azərbaycanda siyasi proseslərin yeni mərhələsi başladı və həmin mərhələ 1945-ci ilin dekabr ayının 12-də (Azər ayının 21-də) İran Azərbaycanı muxtariyyətinin elan edilməsi və milli hökumətinin yaradılması ilə nəticələndi.

Bakıdan Cənubi Azərbaycana göndərilən siyasi işçilər Moskvada qısamüddətli diplomatik kurslarda dinləyici kimi iştirak etmişdilər. Peşəkar diplomatlar hazırlanması məqsədilə Azərbaycan gənclərinin ilk dəstəsi SSRİ Xarici İşlər Xalq Komissarlığının Ali Diplomatiya Məktəbinə göndərildi. Yüksək diplomatik təhsil almış bu gənclər sonralar respublikanın siyasi, elmi və mədəni həyatında mühüm rol oynadılar. Məhz, belə yüksək ixtisaslı peşəkar kadrların hesabına Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığı Sovet İttifaqının Şərq siyasətində, xüsusilə, İran hadisələrində regional mərkəz funksiyasını yerinə yetirməyə başladı.

1945-ci ilin payızında Cənubi Qafqaz sovet respublikaları arasında ərazi və sərhəd mübahisələrinin yaranması İkinci dünya müharibəsindən sonra Cənubi Qafqaz respublikalarında güclənən icazəli millətçilik bilavasitə, Moskvadan qaynaqlanır və daha çox cənub sərhədləri boyunca yerləşən İran və Türkiyəyə istiqamətlənirdisə, həmin millətçilik dalğası tezliklə regionda yerləşən respublikaların arasında ərazi və sərhəd dəyişikliyi ideya-

sını doğurmağa başladı. Bu müstəvidə Ermənistan və Gürcüstan sovet respublikalarının Azərbaycan SSR-ə qarşı ərazi iddiaları müzakirə mövzusuna çevrildi.

İ.Stalinin İrana dair xüsusi planı vardı və o, bu ölkədə neft qələbəsi əldə etmək istəyirdi. Maykl Bruks «Нефть и внешняя политика» kitabında yazır: "1944-cü ilin əvvəlində SSRİ Xalq Xarici İşlər Komissarının müavini S.İ.Kaftaradze İranın şimalında neft konsessiyası almaq haqqında komissiyanın rəhbəri kimi İrana gəldi. Əvvəlcə İranın baş naziri Səid Sovet İttifaqının təklifinə müsbət yanaşdı və sonra gözlənilmədən bildirdi ki, neft konsessiyası verilməsinə dair bütün məsələlərə müharibə qurtardıqdan sonra baxıla bilər. Ancaq müharibədən sonra Stalin öz fikirlərini reallaşdıra bilmədi, amerikanlar və ingilislər İ.Stalini qoşunları İrandan, daha doğrusu Cənubi Azərbaycan ərazilərindən çıxarmağa məcbur etdilər. Azərbaycan K(b)P MK-nın birinci katibi M.C.Bağırovun İrandan qoşunların çıxarılmamasına təkid etsə də, İ.Stalini qərarından döndərə bilmədi. Stalin M.C.Bağırovun ciddi təkidlərindən sonra "Mən onlarla döyüşə bilmərəm" dedi. Mir Həsən Seyidov bildirir ki, gecə saat 2-də Stalinin köməkçisi Poskrebışev zəng çaldı. "Haradadır Bağırov. Bir saatdır mən onu tapa bilmirəm. Xahiş edirəm, onu tapın, qoy təcili Stalinə zəng vursun" deyərək telefonun dəstəyini asdı. Mən həmin dəqiqə Zuğulbaya zəng edib Bağırovla birləşdim, olanlar haqqında ona danışdım və xahiş etdim ki, təcili şəhərə gəlsin. Yarım saatdan sonra onun maşını birinci qapı qarşısında idi. O xeyli həyəcanlanmışdı. Bağırov dəstəyi qaldırdı və xahiş etdi ki, Kremlin kommutatoru ilə birləşdirsinlər. Bir saniyə sonra Stalin cavab verdi və dedi: "Biz İrandan qoşunları çıxarmağa məcburuq. Siz təkliflərinizi hazırlayın və verin, bununla əlaqədar nə etmək lazımdır". Bağırov yalvarıcı səslə Stalindən xahiş etdi ki, bunu etməsin, indi işlər orada yaxşı gedir, bizim bütün işimiz puça çıxır, bu hərəkat məhv olar. Bu xalqın tarixində böyük işdir". Ancaq İ.Stalin öz dediyində təkid etdi. Bağırov daha 2 dəfə təkidlə xahiş etdi ki, qoşunları İrandan çıxarmasın. 20 dəqiqədən çox davam edən bu dialoqdan sonra İ.Stalin dedi: "**Bu əmrdir, onu yerinə yetirmək lazımdır. Biz yeni müharibə başlaya bilmərik**".[1] Bu bir daha onu təsdiq edir ki, Bakı neftinin azərbaycanlı əsgər və zabitlərin ön cəbhədəki qəhrəmanlıqları, arxa cəbhənin fədakar işi İ.Stalin tərəfindən qiymətləndirilmədi. İ.Stalin dəfələrlə Bakının roluna yüksək qiymət versə də, sonda "Qəhrəman şəhər"lər siyahısından kənarda qaldı. Bəhanə isə bu regionda hərbi əməliyyatların getməməsi oldu. Rusiya alimi və politoloqu A.Sevastyanov bu barədə yazır: "Müharibədən sonrakı illərdə bayramlarda, ildönümlərində sovet rəhbərlərindən kiminsə Qələbədə Bakı neftinin rolu haqqında durub danışmağını heç xatırlamıram.

[1] Султанов, Чапай. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. – Баку, 2010. – с.147.

Bakıya "Qəhrəman şəhər" fəxri adı verilmədi. Yada düşmədi, görmədilər, gözə dəymədi, sənəd çatmadı və sair və ilaxır... Mükafatlarla bağlı bunlar bir qayda olaraq baş verir. Axı, həqiqətin gözünə gərək düz baxasan! Azərbaycan nefti olmasaydı, müharibə uduzulacaqdı. SSRİ-nin taleyi 1941-ci və 1942-ci illərin payızında nazik simdən asılı qaldı. Bakı neftçilərinin sayəsində bu nazik sim qırılmadı. Hər beş təyyarədən, tankdan, avtomobildən dördü Bakının neft mədənlərindən çıxarılan neftlə, Bakının neft emalı zavodlarında alınan benzin və solyarka ilə doldurulurdu".[1]

Ümummilli lider Heydər Əliyev Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi münasibətilə keçirilən təntənəli gecədəki nitqində bu barədə deyirdi: "Bu Qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi... O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq respublikamızda istehsal edilirdi...". Ancaq sovet rəhbərliyi "İkinci Bakı" yaratmaqla Bakı neft mədənləri sıradan çıxarıldı, quyular partladıldı, kadr potensialı və neft texnikası dağıdıldı.

Onda sual olunur, Bakı niyə "Qəhrəman şəhər" elan olunmadı? Doğrudanmı, Bakının "cəbhəyanı şəhər" olmadığı bunun əsas səbəbi olmuşdur?

Bakıya "Qəhrəman-şəhər" statusu verilməməsinin bir sıra səbəbləri var idi. Bunun üçün müharibədən sonrakı birinci ildə partiya və hökumət tərəfindən qəbul olunmuş bir məxfi qərara nəzər yetirmək lazımdır. Həmin qərara görə qəhrəman şəhərlər ilk növbədə bərpa olunmalı, buradakı zavod və fabriklər ən müasir avadanlıqlarla təmin edilməli idi. Bu baxımdan Bakının dağılmış mədənlərinin, köhnəlmiş neft emalı və maşınqayırma zavodlarının bərpa olunması və onların müasir avadanlıqlarla təchiz edilməsi üçün milyardlarla rubl tələb olunurdu. Stalinin planında isə "İkinci Bakı" birinci sırada idi. Deməli "**İkinci Bakı**" **Stalin üçün ənənəvi neft Bakısının bərpasından daha sərfəli hesab olunurdu**. Digər tərəfdən, **Stalin Zaqafqaziyada iki xristian respublikası ilə qonşu olan müsəlman respublikasının paytaxtını xüsusi fərqləndirmək istəmirdi.**

Stalin özünün söylədiyi "**Neft haqda məsələ həyat məsələsidir, kimin nefti çox olacaqsa, gələcək müharibədə kimin hakim vəziyyəti tutması, dünya sənayesində və ticarətində kimin hökm etməsi də ondan asılı olacaq" sözlərini unutdu,** beşillikləri, maqnitkaları, dneprhesləri,

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

türksibləri və uralmaşları xatırlayarkən nədənsə Bakı yada düşmədi. Amma Tiflis heç vaxt unudulmadı. Müharibədən sonrakı illərdə İrəvanla əlaqədar da Sov.İKP MK-nun xüsusi bir qərarı qəbul olundu.

"Cəbhəyanı şəhər" məsələsi də qondarma tezislərdən biri idi. Məlumdur ki, 1941-ci ildən 1945-ci ilədək Azərbaycanda 75 milyon ton neft hasil edilmişdi. Müharibə illərindəki qiymətlərlə çıxarılan neftin dəyəri 8 milyard dollardan çox, neftin emalını nəzərə aldıqda isə həmin məbləğ 20 milyard dollara yaxındır. Onda sual oluna bilər ki, "Qəhrəman şəhər" olmaq üçün mütləq almanların hücumunu gözləmək lazım idi? Yaxud, SSRİ-nin 10 şəhərinə hansı meyarlara əsasən bu ad verilmişdir? Fikrimizcə əsas meyar qələbəyə verilən töhfə olmalı idi.

Daha bir mühüm arqument, Moskva "cəbhəyanı şəhər" deyildimi? Məlumdur ki, Stalin 1945-ci il mayın 1-də 20 №-li əmrlə müttəfiq respublikaların paytaxtlarında və qəhrəman-şəhərlərdə atəşfəşanlıq təşkil olunması barədə göstəriş vermişdi. Onlar Leninqrad, Stalinqrad, Odessa və Sevastopol şəhərləri idi. Qələbənin yubileyinin 20 illiyi ərəfəsində – 1965-ci il, mayın 8-də SSRİ Ali Sovetinin Rəyasət Heyəti "Yüksək fərqlənmə dərəcəsi – "Qəhrəman şəhər" adı haqqında Əsasnaməni təsdiq etdi. Bu sənədə müvafiq olaraq, fərqlənən şəhər "Lenin" ordeni və "Qızıl Ulduz" medalı ilə təltif olunurdu. Həmin gün nəinki Moskva, eləcə də Kiyev qəhrəman-şəhər adını aldı. Brest qalası isə "qəhrəman qala" adına layiq görüldü. O zaman mayın 9-nu istirahət günü elan etdilər. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Anastas Mikoyan elə o günü 1941-1945-ci illər Böyük Vətən müharibəsində sovet xalqının qələbəsinin 20-ci ildönümünün qeyd olunması ilə əlaqədar olaraq silsilə fərmanlar imzaladı. Paytaxt haqqında fərmanda deyilirdi: "Moskva şəhərini "Lenin" ordeni və "Qızıl ulduz" ordeni ilə təltif edərək ona "Qəhrəman şəhər" fəxri adı verilsin". Xatırladaq ki, şəhərə qəhrəman adının verilməsi ictimai təşkilatların istəyi idi və həmin istək və arzu ilə bağlı sənədlər vilayət partiya komitələrinin birinci katibləri tərəfindən ölkə rəhbərliyinə təqdim edilirdi. Şəhərdən isə xalq təsərrüfatı və məişət məsələlərində hansı nailiyyətlər əldə etməsi haqda hesabat tələb olunurdu. Yalnız bundan sonra həmin şəhərə xüsusi komissiya göndərilirdi. Komissiya isə işlərin həqiqətən də hansı vəziyyətdə olduğunu aydınlaşdırırdı. Bundan sonra müvafiq məsələ Müdafiə Nazirliyində və partiyanın Mərkəzi Komitəsində son dərəcə ciddi şəkildə müzakirə edilirdi. Bütün bunlardan sonra məsələnin həlli Siyasi Büroya çıxarılırdı". Əlbəttə, belə bir bazarlaşmada, həm də Mikoyanın rəhbərlik etdiyi təşkilatın iştirakı olan bir yerdə Bakının "qəhrəman şəhər" adını alması mümkün deyildi[1]. Görəsən, respublika partiya təşkilatı Bakının "Qəhrəman şəhər" elan olunması haqqında ölkə rəhbərliyinə müraciət etmişdirmi? Yaxud, cəbhəyanı şəhər

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016 . – s.525.

olan Rostov qəhrəman şəhər adını niyə almadı? Xarkov müharibədən Avropanın bütün digər şəhərlərindən daha çox əziyyət çəkmişdi. Bununla belə, qəhrəman-şəhər adını ala bilmədi. Çünki Stalin Xarkovu xatırlamağı xoşlamırdı. Eyni sözləri Brest şəhəri haqqında da səsləndirmək olar. Brest qalasına "Qəhrəman qala" adı verildi, Brest şəhəri isə "yada düşmədi". Stalin 1941-1942-ci illərdə Azərbaycana hökumət mükafatlarını yağdıran İ.Stalin bilərəkdən Bakıya qəhrəman şəhər adını vermədi, bununla da Bakının II Dünya müharibəsindəki bütün xidmətlərinin üstündən bir xətt çəkdi.

Azərbaycan Respublikasının Prezident İlham Əliyev 1941-1945-ci illər müharibəsi ilə əlaqədar çıxışlarında hər zaman Azərbaycanın faşizm üzərindəki Qələbəyə sanballı töhfəsini xüsusi qeyd edir. Rusiyanın TASS informasiya agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana eksklüziv müsahibəsində Prezident İlham Əliyev bu məsələyə bir daha münasibət bildirərək deyib: "Bəzən müəyyən dairələrin tarixi həqiqəti təhrif etmək, İkinci dünya müharibəsində Qələbədə Sovet İttifaqının rolunu azaltmaq və faşizmi qəhrəmanlaşdırmaq üçün əlaqələndirilmiş səylərinin şahidi oluruq. Ona görə bu meylə son qoyulmalıdır, biz bunu yalnız birgə səylərimizlə edə bilərik. O cümlədən Böyük Vətən müharibəsi dövründə baş vermiş hadisələr haqqında həqiqəti gənc nəslə çatdırmaq yolu ilə. Ona görə ki, onlar həqiqəti bilməlidirlər, vətənpərvərlik, əcdadlarının qəhrəmanlığı ruhunda tərbiyə olunmalıdırlar. Əlbəttə, bəzi ölkələrdə baş verənlər, İkinci dünya müharibəsi iştirakçılarının abidələrinə qarşı vandalizm aktı, faşistlərə heykəllər qoyulması nifrət və ikrah hissi oyadır. Bunu keçmiş SSRİ məkanında, MDB məkanında görmək xüsusilə xoşagəlməzdir. Axı, faşizm üzərində ümumi Qələbə naminə ən böyük qurban verən Sovet İttifaqı olub. Buna görə bu meyillər pislənməli, bu cəhdlərə son qoyulmalı və mənim fikrimcə, dünya liderləri bu barədə daha açıq danışmalıdırlar".[1]

Ona görə də Bakının və Bakı neftinin II Dünya müharibəsində faşizm üzərində Qələbədə roluna saxta yanaşmalara son qoymaq üçün elmi və hərbi dairələrdə müharibəyə dair bir çox faktlara tam aydınlıq gətirilməlidir.

[1]https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

VIII FƏSİL

ARXA CƏBHƏDƏ

Müharibənin başlanması ilə ölkə iqtisadiyyatının da müharibə şəraitinə uyğun qurulmasına başlanıldı. Sovet hökumətinin hərbi sənaye müəssisələrində işləyən işçilərin istehsalata səfərbər edilməsi, əmək qabiliyyətli şəhər əhalisinin sənaye və tikintiyə cəlb olunması haqqında qərarları, səfərbərliklə əlaqədar orduya çağırılanların əvəz edilməsinə qanuni əsas yaratdı.[1] Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS yerli partiya təşkilatlarına müraciət edərək orduya səfərbər olunan işçiləri əvəz etmək üçün müxtəlif ehtiyat mənbələrindən istifadəni irəli sürdü. 1941-1942-ci illərdə respublika iqtisadiyyatından orduya 5.457 yük, 371 minik, 701 başqa avtomobil, 476 traktor, 50 min at səfərbər edildi.[2] Respublikanın elektrik sənayesində işləyən mühəndis və fəhlələrin 40%-i, Xəzər dənizçiliyinin quru yükdaşıma bölməsindən 423 nəfər orduya çağırıldı.[3] Qadınların istehsalata gəlişi hər gün artırdı. Müharibə başlayandan ayın sonunadək neft sənayesində işə 979 qadın gəldi. 1941-ci ilin oktyabrında neft mədənlərində 1800 nəfərdən çox qadın işləyirdi. 1942-ci ilin yayına qədər Bakının neft sənayesi müəssisələrinə 13 mindən çox qız gəlmişdi.[4] Respublika iqtisadiyyatının işçi qüvvəsi ilə təchiz olunmasında inzibati idarələrdə çalışanların istehsalata cəlbi də böyük rol oynadı. Müharibənin birinci iş günü ərzində Bakının inzibati idarələrindən istehsalata təqribən 750 adam gəldi.[5] Kənd təsərrüfatında da orduya çağırılanları qadınlar əvəz edirdi. Qadınlar müxtəlif kənd təsərrüfatı peşələrinə yiyələnirdilər. 1942-ci ilin I yarısında respublikada 3.000 nəfər traktorçu qadın hazırlanmışdı. Ümumilikdə 1941-1942-ci illərdə respublika üzrə hazırlanan 10.000 mexanizatorun yarıdan çoxu qadın idi.[6]

Sənaye və nəqliyyat

Müharibə illərində Azərbaycan SSR-in sənayesi öz işini müharibə tələbləri baxımından yenidən qurdu. 1942-ci ilin iyul ayında Bakıda rekord müddət ərzində Hərbi Sursat Xalq Komissarlığının "Katyuşa" üçün M-13 mərmiləri istehsal edən 610 saylı yeni zavodu yaradıldı. Zavodda reaktiv mərminin korpusu, detalları, ayrı-ayrı hissələri istehsal olunurdu. Azərbaycan K(b)P MK mərmi korpuslarının fasiləsiz istehsalını "L.Şmidt" adına,

---

[1] Директивы КПСС и Советского правительства по хозяйственным вопросам. Том 2. Москва, 1957. – с.722.

[2] ARPİİSSA, Fond №1, siyahı №654, iş №6, vərəq – 39-40.

[3] Mədətov, Q.Ə. Azərbaycan SSR 1941-1945-ci illər müharibəsində. (*Yenidən işlənmiş və təkmilləşdirilmiş nəşri*) / Q.Ə.Mədətov. – Bakı, 2018. – s.42.

[4] Yenə orada, s.45-46.

[5] Yenə orada, s.44.

[6] ARPİİSSA, Fond №1, siyahı №103, iş №6, vərəq – 69.

“S.M.Kirov” adına, “Zaqfederasiya”, “Oktyabr inqilabı”, “Paris kommunası”, 458 nömrəli zavod, “Budyonnı” adına, “Bakinskiy raboçiy”, “1 May”, “Montin”, “Beriya”, “Lenin” adına avtomobil təmiri zavoduna, Hüsü Hacıyev adına, Volodarski adına zavoda, Kirov adına “Əzizbəyovneft” zavodunun emalatxanasına, Dmitrov adına “Molotov-neft” trestinin emalatxanasına “Azprosovet”ə tapşırmışdı. 1941-ci ilin sonunda hərbi məhsul istehsal edən zavod sexləri planı 200 faiz yerinə yetirmişdilər. Artıq ilin axırına yaxın Azərbaycanda 130 növdə silah, döyüş sursatı, hərbi ləvazimat, material istehsal olunurdu. 1942-ci ildə Bakıda “doğulmuş” “ЯК-3” qırıcıları cəbhəyə uçmağa başladı. Qeyd edək ki, yerli sənaye Xalq Komissarlığının, eləcə də “Azərsənayeşurası”nın xətti ilə Bakıda (Leninqraddan sonra) “Molotov kokteyli” istehsalına başlanmışdı. 1941-ci ilin 8 noyabrında 35 min ədəd yandırıcı butulka və 14 min ehtiyat patron istehsal olunaraq yeşiklərə yığıldı. Müəssisənin istehsal gücü sutka ərzində 10 min ədədə çatdırılmışdı.[1]

Aviabombaların istehsalına başlayan gəmi təmiri zavodu planı vaxtından əvvəl ödəyirdi. Avtomobil təmiri zavodunun kollektivi “M-13” minomyotu hissələrini, “PPŞ” avtomatlarını, tank hissələrini istehsal edirdi. Kirovabad (Gəncə) şəhərində 12 sənaye müəssisəsi müharibənin tələbləri əsasında yenidən qurulmuşdu və 26 adda hərbi məhsul istehsal edirdi.

1941-ci ildə kəşfiyyat qazma işlərinin həcmi Azərbaycan neft sənayesi tarixində özünün ən yüksək göstəricisinə – 43 min 274 tona çatdırıldı. Azərbaycan neftçiləri tərəfindən 1941-ci ilə aid illik planın vaxtından yerinə yetirilməsi barədə Azərbaycan K(b)P MK və Xalq Komissarları Sovetinin verdiyi 1941-ci il 21 dekabr tarixli raportda deyilirdi: “Öz işini hərbi dövrün tələblərinə uyğun yenidən quran Sovet Azərbaycanının neftçiləri dekabr ayının 19-da neft və qaz hasilatı üzrə illik planı vaxtından qabaq yerinə yetirmişlər”.[2]

Müharibənin birinci ilində mümkünsüz görünən bir nəticə əldə olundu. 1941-ci ilin yekunlarına görə, Sovet İttifaqı 33 milyon ton neft hasil etdi. Artım tam 6 faiz oldu. Ölkənin baş neft rayonu – Bakı şəhəri rekord göstərici ilə istehsalı 23,5 milyon tona çatdırdı.

Bakıda qısa müddətdə “UTİ-4” B təyyarəsi bazasında 15 B döyüş variantı “UTİ-4” tipində yığıldı. 1942-ci ilin yanvarına Bakı zavodu 20 “UTİ-4” maşını buraxdı, fevralda buraxılış 2 dəfə artdı. Bir müddət sonra Bakıda “ЯК” qırıcıları yığılmağa başladı. Müxtəlif tipli 782 təyyarə təmir olunaraq cəbhəyə göndərildi.

Bakıda “Lend-liz” üzrə daxil olan yeni texnikanı mənimsənilməsi nəticəsində aviatexnikanın güclü təmir mərkəzi yaradıldı. Amerikalıların köməyi və “P-39” qırıcılarının ehtiyat hissələri ilə “Aerokobra” buraxılışına

---

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

[2] Yenə orada.

başlanıldı. Bu mərkəzin apardığı işin nəticəsi idi ki, sonralar "Aerokobra" təyyarəsi 59 alman təyyarəsini vurmuş 3 dəfə Sovet İttifaqı Qəhrəmanı A.Pokrışkin də fəal iştirak etmişdi.[1]

1943-cü il ərzində bakılılar ölkəyə 5 milyon tondan artıq müxtəlif neft məhsulları, o cümlədən 795 min ton müxtəlif növ benzin, 3.332 min ton liqroin, kerosin, dizel yanacağı, 640 min tona yaxın solyar yağı və donanma mazutu, 420 min ton təyyarə yağı və avtol verdilər.[2] Ümumilikdə 1942-1944-cü illərdə Bakının neftayırma zavodları cəbhəyə bir milyon tondan artıq "B-78" markalı benzin göndərdi. Bu 20.540 ədəd böyük yüklü doldurulmuş sistern hazır məhsul demək idi.

Xalq istehlakı malları istehsalı hərbi şəraitə uyğunlaşdırıldı. Ordunun təchizi üçün ərzaq malları istehsalı, geyim, ayaqqabı və digər növ məhsullar istehsalı artırıldı. Müharibənin birinci dövründə Azərbaycan SSR-in yüngül sənaye müəssisələri ordu üçün vacib olan 30 növ məhsul istehsalını mənimsədi. Tikiş sənayesi şinel, yay geyimləri, qulaqlı papaqlar, pilotkalar, yataq ağları və digər məhsullar hazırlamağa başladı.

Müharibəyə qədər Lenin adına Toxuculuq Kombinatı əhalinin ehtiyacı üçün mallar istehsal edirdi, müharibə başlayandan sonra orduya lazım olan geyimlər, tibbi tənziflər və b. mallar buraxılmasına başladı. 1942-ci ilin sonunda Bakıda Postovdan köçürülüb gətirilmiş ayaqqabı fabriki əsasında 1 №-li Ayaqqabı Fabriki, 1944-cü ildə isə yüngül sənaye tullantıları və yerli materiallar əsasında plastik Dəri Zavodu, daha sonra 2 №-li Dəri Zavodunda məhsul istehsalına başlandı.

Respublika kimya sənayesi öz işini müharibə tələblərinə uyğun qurmuşdu. Kimya zavodlarında yanğın əleyhinə geyim və inventarlar buraxıldı, mühafizə paltarlarının hopdurma olunması prosesi mənimsənilirdi. Yeyinti sənayesi əvvəllər xaricdən gətirilən yeni növ preparatların buraxılmasını mənimsədiyindən yerli xammaldan istifadə vasitəsilə tibbi preparatlar buraxılışı təşkil edildi. Bakının ət kombinatı steril ampulalarla jelatin, aktivləşdirilmiş kömür, tonalbin və başqa preparatlar istehsal etdi. Yerli sənaye və sənaye kooperativlərinin işçiləri hərbi-təsərrüfat məhsulları buraxılışına qoşuldular. Qısa müddətdə yeni məhsulların buraxılması ilə cəbhə ehtiyacları ödənməyə başlandı. Yerli sənaye müəssisələri 200 növə yaxın müxtəlif məhsulların istehsalını mənimsədi. Hərbi idarələrin tapşırıqlarına əsasən yerli sənaye və sənaye kooperativ müəssisələri qısa müddətdə döyüşçülər üçün keçə ayaqqabı, yun corab buraxılışını təşkil etdi. Azərbaycanın yeyinti sənayesi işçiləri əhalini xüsusən müharibə şəraitində çox vacib olan "C"

---

1 Султанов, Чапай. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. –Баку, 2010. – с.140.

2 Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016 . – s.297.

vitamini ilə təmin edə bilmişdilər. Ət-Süd Sənayesi Komissarlığı müəssisələrində insulin istehsalı altı dəfə artmışdı.[1]

Azərbaycan SSR ərazisi ölkənin dəmiryol və su nəqliyyatının mühüm qovşaq nöqtələrindən idi. Respublika dəmir yollarında qatarların müntəzəm işləməsini təşkil etmək məqsədilə 1941-ci il iyunun 24-dən xüsusi hərbi cədvəl tətbiq olundu, vağzalların hava hücumundan müdafiəsi, işıq və səs siqnalları olmayan xüsusi qatarlar yaradıldı.[2] Sərnişin daşınması məhdudlaşdırıldı, sərnişin vaqonları sanitar vaqonlarına çevrildi. Müharibə başlayandan sonra, 2 gün ərzində 4 hərbi sanitar qatarı təşkil olundu.[3]

Cənubi Qafqaz Dəmiryolunda kütləvi daşınmalar iyunun 23-dən başlandı. İyunun 23-dən ayın sonunadək yoldan 6.849 vaqonu olan 152 qatar, 1941-ci il iyul ayı ərzində isə ümumi sayı 17.442 vaqon olan 201 qatar yola salındı.[4]

Azərbaycan SSR Dəmiryolu fəhlələri, qulluqçuları, mühəndis-texniki işçiləri bütün qüvvələri səfərbər edərək yük daşıma planlarını müntəzəm olaraq 200-300 faiz yerinə yetirdilər. 1941-1945-ci illərdə Cənubi Qafqaz Dəmiryolunun Azərbaycan SSR sahəsi böyük hərbi əhəmiyyətli vəzifəni yerinə yetirdi. Stansiyanın Bakı bölməsindən cəbhə və xalq təsərrüfatı üçün 480 min vaqona yaxın quru yük və 500 min sisterndən artıq neft məhsulları göndərildi.

Alman-faşist qoşunları irəlilədikcə ölkənin şimal rayonlarında yerləşən əhalinin və müəssisələrin köçürülməsinə başlandı. Bu müəssisələr Mərkəzi Asiya respublikalarına köçürülməli olduğundan, əvvəlcə Bakıya gəlir, sonra dəniz limanı vasitəsilə daşınırdı. Ona görə də, yüklərin boşaldılması üçün meydançaların yaradılmasına başlandı. Qısa müddətdə Bakı, Keşlə, Sumqayıt, Ələt, Salyan, Binəqədi, Puta və digər dəmiryol stansiyalarında köçürülən yüklərin boşaldılması və saxlanılması üçün 22 min vaqon yük üçün nəzərdə tutulmuş yeni meydançalar hazırlandı. Oktyabr ayından ilin sonuna kimi Bakı dəmiryolu şəbəkəsinə Rostov, Xarkov, Odessa, Taqanroq, Novorossiysk və digər şəhərlərin 450-dən artıq müəssisəsindən köçürülən yüklər daxil oldu.[5]

Faşist Almaniyasına qarşı mübarizədə SSRİ ilə birgə əməkdaşlığa dair 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli sazişlə, habelə ABŞ-ın "**lend-liz**" kredit və icarə haqqında qanununun həmin ilin noyabrında SSRİ-yə də şamil edilməsi ilə bağlı Böyük Britaniya və ABŞ İran körfəzi, habelə İran ərazisindəki dəmiryolları, sonra isə quru və dəniz yolları vasitəsilə müxtəlif

---

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

[2] ARPİİSSA, Fond №1, siyahı №313, iş №88, vərəq – 168.

[3] Yenə orada, 169.

[4] Əlizadə, N. Azərbaycan dəmir yolu nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941–1945-ci illər). Tar. elm. nam. diss. avtorf. Bakı, 1997. – s. 16.

[5] Azərbaycan xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985. – s.88.

təyinatlı yüklər göndərməyə başlamışdılar. ABŞ-dan SSRİ-yə "Aerokobra" adlanan qırıcı təyyarələr də gətirilirdi. Dənizlə çatdırılan təyyarələr isə Abanada boşaldılır, sovet mütəxəssisləri tərəfindən oradaca yığılır, həmin təyyarələri sovet pilotları sınaqdan keçirirdi. Sonra isə təyyarələr hava yolu ilə Tehrandakı "Kvali-Margi" aerodromuna gətirilir, orada isə sovet hərbçiləri onların qəbulunu həyata keçirirdi.

Stalinlə ABŞ Prezidenti F.Ruzvelt arasındakı razılaşmaya əsasən, amerikalılar İran ərazisindən keçib SSRİ sərhədinə çatan dəmir və şose yolları çəkmişdilər. Bu iş ən qısa müddətdə, 1942-ci ilin iyununa qədər başa çatdırılmışdı. Dəmir yolu lokomotivlərlə vaqon və stansiyalarla təchiz olunmuşdu. Bu yol İran körfəzindən, bu ölkənin sərhədindən SSRİ-nin cənubuna, Bakıya qədər uzanırdı. Amerikalılar İran körfəzində iki liman da tikmişdilər. Limanlar da elə bu məqsədlə tikilmiş və lazımi infrastrukturla təmin olunmuşdu. Okeanın o tayından göndərilən yüklər bu limanlara boşaldılır, oradan da SSRİ-yə daşınırdı. İran ərazisindən keçən şose və dəmir yolunun inşasında yerli əhali ilə bərabər, ABŞ ordusunun xüsusi batalyonları da iştirak edirdi. Bu marşrutla ilk daşınmalar 1941-ci ilin noyabr ayından başladı. O zaman okeanın o tayından 2.972 ton yük göndərilmişdi.

"Lend-liz" yükləri İran körfəzinin şimal qurtaracağındakı limanlara – Bəsrəyə, Xürrəmşəhrə, Abadana, Bəndər-Şapura gəlirdi. Bu limanlarda avia və avtomobil yığma zavodları da tikilmişdi. Həmin limanlardakı yüklər SSRİ-yə iki yolla – Xəzər su yolu və Qafqazdan keçən quru yolla daşınırdı. 1942-ci ilin mayında yüklərin göndərilməsi, orta hesabla, ayda 80-90 min ton, 1943-cü ilin ikinci yarısında isə ayda 200 min ton təşkil edirdi. Yüklərin sonrakı daşınması Xəzər Hərbi Donanmasının gəmiləri vasitəsilə həyata keçirilirdi. Bu gəmilər 1942-ci ilin sonuna qədər alman faşist aviasiyasının fasiləsiz hücumlarına məruz qalırdı. Təkcə 1942-ci ilin oktyabr və noyabr aylarında yuxarıda qeyd edildiyi kimi 32-dən çox yüklə dolu gəmi batırılmış, bəziləri də ciddi zədə almışdı.[1]

Müharibə ərzində İrandan SSRİ-yə avtomobillər Tehran-Aşqabad, Tehran-Astara-Bakı, Culfa-Orconikidze marşrutları üzrə daşınırdı. Zirehli texnika ilə yüklənmiş gəmilər isə 1943-cü ilin martından Bakı limanına gəlməyə başladı. Avtomobillər, bir qayda olaraq, təyinat məntəqəsinə sürülüb çatdırılırdı. Üstəlik, həmin avtomobillərə "lend-liz" yükləri də yüklənirdi. Tanklar isə dəmiryolu platformalarına yüklənib Bakıya aparılır, Bakıdan da lazımi istiqamətlərə paylanırdı.

Müharibə illərində ABŞ və Böyük Britaniyadan, sonralar Kanadadan SSRİ-yə 400 min avtomobil, 2,6 min ton neft və neft məhsulları, 9,6 min top, 10,8 min tank və 18,7 min təyyarə göndərildi ki, bunlar Azərbaycan

[1]https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

dəmir yolu vasitəsilə təyinat yerlərinə çatdırıldı.[1] Hərbi yüklərin daşınmasına rəhbərlik edənlərdən biri də Ə.M.Əzizbəyov idi.[2]

Azərbaycan SSR dəmiryolçuları yüklərin qəbulu və yola salınması ilə işlərini bitmiş hesab etmədilər. Onlar 1500 parovozu təmir edərək ölkənin müxtəlif dəmiryolu xətlərinə göndərdi, təmir olunmuş 925 parovoz Xəzər dənizi vasitəsilə şərqə yola salındı.[3] Azərbaycan dəmiryolçuları müharibə illərində 1 milyon 600 min vaqon, o cümlədən 600 min yük və yanacaq sisterni yola saldı.[4]

1941-ci ildə Bakı-Mincivan, Mincivan-Culfa, Osmanlı-Astara, Salyan-Neftçala, Papanin-Ağcaqabul hərbi və təsərrüfat əhəmiyyətli yol xətləri çəkilişi başa çatdırıldı.

Azərbaycan dəmiryolçuları azad olunmuş rayonların dəmir-yolçularına da köməklik göstərirdilər. Depo və yol emalatxanalarının kollektivləri bu rayonların stansiyalarına avadanlıq və alətlər göndərmişdilər. Bakı və Biləcəri depolarından Stalinqrad, Tixoretski, Minvod, Qafqaz və başqa stansiyalar üçün 36 adda 1000-dən çox alət, iki komplekt "Bekker" qaldırıcı kranı, şpalları qaldırmaq üçün avadanlıq, üç elektrik mühərriki, dörd çilingər dəzgahı, Kirovabad (Gəncə) deposundan Şimali Qafqaz dəmiryolçularına beş dəst çilingər aləti, 100-dən çox parovoz borusu, on dəst ressor və digər materiallar yola salınmışdı.

1944-cü ilin dekabrında Donbasa 250 min cüt ayaqqabı, 25 min dəst isti alt paltarı, 5 min palto və 15 vaqon ərzaq məhsulları göndərilmişdi.

Cənubi Qafqaz respublikalarının, o cümlədən Azərbaycan dəmiryolçularının müharibədəki xidmətini yüksək qiymətləndirən ordu generalı İ.V.Tülenov yazırdı ki, "Zaqafqaziya dəmiryolçuları və Xəzər dənizçiləri yorulmadan işləyirdilər. Köçürülməni həyata keçirərək, onlar eyni zamanda düşmən bombaları altında Qafqaza yüz minlərlə əsgər, minlərlə silah, yük maşınları, min tonlarla hərbi sursat, ərzaq daşımışdılar".[5]

1941-1945-ci illərdə Zaqafqaziya dəmiryolunun Bakı şöbəsi dəmiryolçuların şücaəti nəticəsində cəbhəyə və xalq təsərrüfatının ehtiyacları üçün 1 milyon 600 min vaqon, o cümlədən 480 min vaqona qədər quru yük və 500 min sistern neft məhsulları göndərmişdi.

Müharibə başlayana qədər yük daşımasında Xəzər Dəniz Donanması birinci yeri tuturdu. Xəzər dənizi ilə bütün SSRİ dənizləri üzrə yüklərin 1/3 daşınırdı. Bu həm də dəniz limanlarına, neftayırma zavodları və pambıq bazalarına yaxınlıqla izah olunurdu. Xəzər-Volqa vasitəsi ilə Qafqaz və

---

[1] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – s. 26-27.

[2] Vəkilov C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər. Bakı, 1991. – s. 28-29.

[3] Багиров, А.М. Железнодорожники Азербайджана в Великой Отечественной войне. 1941-1945 гг. // За технический прогресс, 1975, № 5, с.55.

[4] Ахмедов, З.А., Керимбеков, Н.Г. Стальной магистрали Азербайджана 100 лет / З.А. Ахмедов, Н.Г. Керимбеков. – Баку, 1980. – с.97.

[5] Тюленов, И.В. Через три войны / И.В.Тюленов. – Москва, 1960. – с.176.

Mərkəzi Asiyanın meşə materialları və taxıl tədarük edilirdi. Əlbəttə, Xəzər dənizi ilə daşınan yüklərin əsasını neft və neft məhsulları təşkil edirdi ki, Bakıdan Həştərxana, oradan yuxarıya Volqa ilə SSRİ-nin müxtəlif rayonlarına aparılırdı. Azərbaycan SSR sahəsi, xüsusilə Bakı-Biləcəri dəmiryolu qovşağı və stansiyaların birləşməsində yerləşirdi və Cənubi Qafqaz dəmiryolunda mühüm halqa hesab olunurdu.

Müharibə başlayanda Xəzər gəmiçiliyi yük dövriyyəsinə görə SSRİ-də birinci yeri tuturdu. SSRİ-nin bütün dənizləri ilə daşınan yüklərin üçdəbiri Xəzər dənizinin payına düşürdü. Bu, hər şeydən öncə, mədənlərin, neftayırma zavodlarının və pambıq bazalarının dənizə yaxınlığı ilə izah olunurdu. Qafqaza və Orta Asiya bölgələrinə daşınan taxılın, meşə-taxta məmulatlarının Ural və Volqa çayları vasitəsilə Xəzərə çatdırılması da yük dövriyyəsinin yüksək səviyyəsini şərtləndirirdi. Xəzər dənizinin rolunu və əhəmiyyətini müəyyənləşdirən başlıca yüklər neft və neft məhsulları idi ki, bu da əsasən Bakıdan Həştərxana, oradan da Volqa boyunca yuxarıya, SSRİ-nin müxtəlif rayonlarına daşınırdı. Bakı limanı isə yük emalının yüksək intensivliyinə, eləcə də tutumlu buraxılış qabiliyyətinə görə fərqlənirdi. Artıq 1941-ci ilin iyulundan Bakı limanı vasitəsilə ölkənin qərb rayonlarından köçürülən insanların, zavod və fabrik avadanlıqlarının, taxılın və başqa yüklərin Orta Asiyaya və Qazaxıstana göndərilməsinə başlanmışdı.

Dövlət Müdafiə Komitəsinin sənaye avadanlıqları, qoşun birləşmələri, sərnişin və yüklərin təxliyəsi ilə bağlı qərarının yerinə yetirilməsi Xəzər hövzəsinin bütün dəniz nəqliyyatı işçilərindən qüvvələrini daha da cəmləşdirməyi, səyləri artırmağı, mövcud imkanların səfərbər olunmasını tələb edirdi. Bəzən planda nəzərdə tutulmayan on minlərlə sərnişinin, yüz min tonlarla müxtəlif yüklərin ən qısa müddət ərzində daşınması vacib idi. DMK-nın tapşırığına əməl olunaraq gəmilərin müəyyən hissəsi Hərbi Dəniz Donanmasının sərəncamına verilmişdi.[1]

Hərbi hissə və birləşmələrin Xəzər dənizi vasitəsilə təcili daşınması 1941-ci ilin iyul ayından həyata keçirilməyə başladı. Cəbhəyə yollanacaq tank diviziyası Krasnovodskdan dəniz yolu ilə Bakıya çatdırıldı. Daşınmanın təhlükəsizliyi tankları aparan nəqliyyat vasitələrinin keçdiyi yolda 7 gün ərzində dənizdə fasiləsiz keşik çəkən kanoner qayıqlarının sayıqlığı ilə təmin olunurdu. Donanmanın gəmiləri neft və başqa yükləri daşıyan tankerləri müşayiət edir, öz zonasında hava hücumundan müdafiə tapşırıqlarını yerinə yetirir, sualtı minaları zərərsizləşdirmə əməliyyatlarını həyata keçirir və lazım gələndə desant çıxarmağa belə köməklik göstərirdi.

Donanma Zaqafqaziya Cəbhəsi qoşunları Şimal qrupunun əks-hücumlarında mühüm rol oynamış 2 atıcı və savaşçı korpusunu Xəzərin qərb sahillərinə çıxarmışdı. Bundan başqa, Qafqazın müdafiəsi dövründə donanma

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873

11 atıcı briqada, 5 atıcı alayı, 1000-dən çox tank və zirehli maşın, 18,5 min at, 8 mindən çox top, 4 min avtomobil və 200 təyyarə daşımışdı.[1]

Cəbhədəki şəraitin dəyişməsi ilə əlaqədar olaraq dəniz daşımalarının xarakteri də dəyişirdi. Cəbhəyə daha çox neft və neft məhsulları çatdırmağa çalışan "Xəzərtanker"in dənizçiləri müxtəlif vasitələrlə gəmilərin yükgötürmə qabiliyyətini artırmağa çalışırdılar. Məsələn, "Ağamalıoğlu" tankeri hər səfərdə normadan artıq, 700 tona qədər yanacaq götürürdü. 5 reys ərzində gəmi plandan əlavə, 3378 ton neft məhsulları daşımışdı. Bir çox tanker heyətləri özü getməyən gəmilərin ikiqat, üçqat yedəyə alınmasını gerçəkləşdirirdi. Dənizlə daşınan neftin ümumi miqdarının 90 faizindən çoxu Bakı limanından yola salınırdı. Bakı-Həştərxan marşrutu SSRİ baş neft konveyerinin birinci sahəsi idi. Həştərxan, Mahaçqala, Krasnovodsk, Quryev (indiki Aktau) limanları neft məhsullarının boşaltma məntəqələri idi. Müharibə illəri ərzində Xəzər dənizçiləri cəbhəyə 50 milyon ton neft və neft məhsulları, o cümlədən B-74, B-76, B-70 aviabenzinləri, liqroin, solyar, kerosin, dizel yanacağı, avtol, motor nefti, mazut daşıdılar. Bu daşımalar 1942-ci il ərzində 1 milyon 593 min 174 tona çatmışdı.[2]

Stalinqrad uğrunda qızğın döyüşlərin getdiyi bir vaxtda Xəzərin kommunikasiya xətləri ilə 434 min 472 nəfər hərbi və mülki şəxs, 96 təyyarə, 791 tank, 346 zirehli maşın, 222 traktor, 173 min 730 baş at, 213 min 257 ton döyüş sursatı və müxtəlif yüklər daşındı. Bu da alman faşist qoşunlarının qabağına sədd çəkməklə yanaşı, Zaqafqaziya cəbhəsi Şimal qrupunun hücumunda çox həlledici rol oynadı.[3]

Düşmən aviasiyasının hücumları və bədbəxt hadisələr nəticəsində 1942-1944-cü illər ərzində Xəzər ticarət donanması 32 nəqliyyat gəmisini itirdi. 100 nəfərə yaxın dənizçi döyüş meydanında həlak oldu. SSRİ Hərbi Dəniz Donanması Xalq Komissarının 1942-ci il 8 avqust tarixli qərarı ilə Xəzər Donanması "Döyüşən donanma" elan edildi.

Xəzər dəniz nəqliyyatı Azərbaycan SSR nəqliyyat sistemində əhəmiyyətli yer tuturdu. Xəzər dəniz nəqliyyatını iki idarə – quru yükün daşınması ilə məşğul olan Xəzər Gəmiçiliyi İdarəsi ("Kaspflot") və Neft daşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsi ("Kasptanker") təmsil edirdi.

Arxiv materialından[4] aydın olur ki, 1941-ci ilin iyunun 1-nə olan məlumata görə «Каспитанкер»in tərkibində ümumi yükgötürmə qabiliyyəti 205.720 ton olan 69 tanker və «Касфлот» un tərkibində ümumi yük tutumu 79.330 ton olan 76 gəmi var idi.[5] 1941-ci ildə Neft daşıyan Xəzər Neft Gə-

---

[1] https://azertag.az/xeber/Azerbaycan_Ikinci_Dunya_muharibesi_illerinde–1516873
[2] Yenə orada.
[3] Yenə orada.
[4] ARPİİSSA, Fond №1, siyahı №28, iş №122.
[5] Эдлинский, Э.Ф. Каспийский транспортный флот в Великой Отечественной войне Советского Союза 1941-1945 гг. / Э.Ф.Эдлинский. – Москва, 1963. – с.20.

miçiliyi İdarəsi («Каспптанкер») bütün istiqamətlər üzrə 1003,8 min ton, 1942-ci ildə 988,8 min ton, 1943-cü ilin 10 ayında 1242,8 min ton yük daşımışdır.[1]«

Каспптанкер» və «Касфлот» un 1940-1943-cü ildəki fəaliyyətinə dair Azərbaycan K(b)P MK-ya ünvanlanan 13 noyabr 1943-cü il tarixli məktubda «Каспптанкер»in 1941-ci ildə 13333 min ton neft və neft məhsulları daşıdığı bildirilirdi. Xəzər Gəmiçiliyi İdarəsi 1941-ci ildə 518,8 min nəfər, 1942-ci ildə 122,4 min nəfər, 1943-cü ilin 10 ayında 85,0 min nəfər sərnişin daşımışdır.

1942-ci ildə Xəzər gəmiçiləri 46 dəfə faşist hərbi hava qüvvələrinin hücumuna məruz qaldı və müdafiədə faşistlərin 2 bombardmançı təyyarəsi məhv edildi. Buna baxmayaraq Xəzər dənizçiləri cəbhə və ölkənin ehtiyacları üçün 14.960.000 ton neft və neft məhsulları daşıdılar. 1942-ci ildə onlar təkcə neftdaşıyan gəmilərlə 145 min döyüşçü və Xəzər dəniz nəqliyyatçıları 1942-ci ildə Stalinqrad və Qafqaz döyüşləri zamanı cəbhə üçün 1,4 milyon ton neft və neft məhsulları, minlərlə vaqon yük apardılar. Qafqazda sovet ordularının hücumu ərəfəsində dəmiryolçular ön cəbhə xəttinə 17 min vaqon döyüş texnikası, silah və sursat çatdırdılar. **Xəzər dənizçiləri dünya su nəqliyyatı təcrübəsində ilk dəfə olaraq açıq dənizdə yanacaqla dolu sisternləri polad trosla birləşdirib yedək üsulu ilə Bakıdan Krasnovodsk və Həştərxana aparmışdılar.** Ümumiyyətlə müharibə dövründə respublika dəmiryolçuları 1 (bir) milyon vaqon vacib əhəmiyyətli yük daşımış, Respublika nəqliyyatçıları 17 dəfə DMK-nin keçici Qırmızı Bayrağına layiq görülmüş, dəfələrlə yarış qalibi olmuşdular.[2]

1944-cü ilin may ayında Xəzər Gəmiçiliyinin 788 işçisi SSRİ-nin orden və medallar ilə, o cümlədən 16 nəfər "Lenin" ordeni ilə təltif olundu. Ümumilikdə müharibə illərindəki rəşadətli əməklərinə görə Xəzər Dəniz Gəmiçiliyinin 1.534 dənizçisi orden və medallarla təltif edilmişdi.

Yedək üsulu ilə neft daşınması

Müharibə avtomobil nəqliyyatının işinə təsir etdi. Cəbhə üçün həyata keçirilən səfərbərlik həm maddi-texniki bazaya, həm də kadr hazırlığına mənfi təsir göstərdi. 1941-1945-ci illərdə Azərbaycan SSR iqtisadiyyatının bütün sahələrindən

[1]ARPİİSSA, Fond №1, siyahı №28, sax. vah. №122, vərəq – 1.
[2] Böyük Oktyabr ideyalarının təntənəsi. – Bakı, 1987. – s.170.

orduya 5.457 yük, 371 minik və 301 başqa avtomobil səfərbər olundu.[1] Azərbaycan SSR Xalq Avtomobil Nəqliyyatı Komissarlığının müəssisələri avtomobilləri təmir etdilər, ehtiyat hissələri hazırladılar.[2]

1941-ci ildə respublikada 520, 1945-ci ilə 549 rabitə müəssisəsi fəaliyyət göstərirdi. Respublikanın rabitə vasitələri və təşkilatları ilk gündən işlərini müharibə tələblərinə uyğun qurdular. Müharibə ərəfəsində respublikadakı 19.448 ədəd telefon aparatından 18.090 nəfər istifadə edirdi.[3]

Müharibə illərində Bakı Poçt Kontoru gərgin işlədi. 1941-1945-ci illərdə şəhər telefon stansiyalarının sayı 84-ə, abonentlərin sayı 20.489-a çatdı. Kənd telefonlarının sayı 105-dən 122-yə, abonentlərin sayı 1.214-dən 1.345-ə qədər artırıldı.[4]

Kənd təsərrüfatı

Müharibə illərində sənaye sahələrində olduğu kimi, kənd təsərrüfatında da fədakarlıq nümunələri göstərildi. Respublikanın əməkçiləri əmək cəbhəsində gecə-gündüz çalışır, düşmənin məhv edilməsi üçün məhsul istehsal edirdilər. Respublikanın müxtəlif yerlərində keçirilən mitinqlərdə çıxış edənlər cəbhəyə getməyə hazır olduqlarını bildirir, istehsalat tapşırıqlarını artıqlaması ilə yerinə yetirəcəklərinə söz verirdilər. Tovuz rayonunun Lenin adına kolxozda 600 nəfərin iştirakı ilə keçirilmiş mitinqdə qəbul edilmiş qərarda deyilirdi: "Düşmən murdar əlini bizim torpaqlara uzatmışdır. Görünür o, bu murdar əli bədəni ilə birlikdə məhv edəcək gücümüzdən xəbərsizdir".[5]

Qadınlar kütləvi surətdə Xalq Ordusu sıralarına yazılmağa başladılar. Nuxa rayonunun Böyük Dəhnə kənd sakini, kolxozçu Fatma Məsimova Xalq Ordusuna yazılması barədəki ərizəsində bildirirdi: "Mənim iki qardaşım ordudadır. Onlar düşmənlə vuruşurlar. Mən təsərrüfatda qardaşlarımın da əvəzinə işləyirəm. Xahiş edirəm məni xalq qoşununa yazın. Mən bu işdə də qabaqcıl olmağıma söz verirəm".[6]

Yusif Şirvanın "Nuxa fəhləsi" qəzetində dərc olunmuş "İki qardaşın əvəzinə" məqaləsində bildirilirdi ki, Böyük Dəhnə kəndinin qadınları-ərlərini və qardaşlarını cəbhəyə yola salmış Tükəzban Həsrət qızı, Salatın Mustafayeva, Teybə Kərim qızı, məktəbli Zeynəb Xəlilova da Fatma Məsimova kimi taxıl biçinində fərqləndilər və xalq ordusu sıralarına yazıldılar.[7]

---

[1] Мадатов, Г.А. Азербайджан в Великой Отечественной войне / Г.А.Мадатов. – Баку, 1975. – с.40.
[2] ARMDA, Fond № 2986, siyahı №1, iş № 214, vərəq – 17.
[3] Yenə orada, vərəq – 84.
[4] Azərbaycan xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində. Bakı, 1985. – s.99-100.
[5] "Kommunist" qəzeti, 1941, 24 iyun.
[6] "Nuxa fəhləsi" qəzeti, 1941, 17 iyul.
[7] Yenə orada.

Qasım İsmayılov (indiki Goranboy rayonu), Gəncə, Bərdə və Ağdaşdan, Quba və Zaqataladan, Gədəbəy və Saatlıdan, Nuxadan və digər rayonlardan əmək raportları göndərilirdi.[1]

Şamaxı rayon partiya təşkilatının 1941-ci il 27 iyun tarixli məktubunda, Ağdam Rayon Partiya Komitəsinin 1 iyul 1941-ci il tarixli büro iclasının qərarında, İsmayıllı Rayon Partiya Komitəsinin 4 iyul 1941-ci il tarixli qərarında istehsalat planlarının vaxtında yerinə yetirilməsi, məhsuldarlığın artırılması, hər briqadanın, manqanın, fermanın … müntəzəm işləməsi tələb olunurdu.[2]

Müharibənin başlanması ilə qarşıda duran təxirəsalınmaz vəzifələrdən biri cəbhəyə gedən adamların əvəz edilməsi idi. Partiya təşkilatının müvafiq qərarına əsasən müxtəlif ixtisaslar üzrə qısa müddətli kurslar təşkil olundu. SSRİ XKS-nin 27 iyul 1941-ci il tarixli qərarına əsasən ölkədə, o cümlədən Azərbaycan SSR-də qısa müddətli traktorçu kursları açıldı. 1942-ci ildə respublikada 5 mindən artıq traktorçu, 350 kombaynçı, yüzlərlə kolxoz sədri, ferma müdiri, sürücü, briqadir və sairə hazırlanıb təsərrüfatlara göndərildi.[3] Ümumilikdə, 1941-1945-ci illərdə respublikada 11.539 traktorçu, 787 kombayn köməkçisi, 611 sürücü hazırlandı.[4]

1941-ci il iyul ayının 3-də SSRİ Mərkəzi İcraiyyə Komitəsinin sədri M.Kalinin və SSRİ Mərkəzi İcraiyyə Komitəsinin katibi A.Qorkinin imzası ilə "Kənd təsərrüfat vergisinə və əhalidən alınan gəlir vergisinə müharibə zamanı müvəqqəti əlavələr qoyulması haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Fərmanı dərc olundu. Fərmanda 1941-ci ildən etibarən müharibə zamanı üçün müvəqqəti olaraq kənd təsərrüfat vergisinə verilməli olan vergi məbləğinin 100 faizə qədər əlavə qoyuldu.

Məlum olduğu kimi, müharibənin əvvəllərində faşistlər SSRİ-nin əsas taxıl rayonlarını müvəqqəti olaraq işğal etdilər. Bu səbəbdən də, ordunun kənd təsərrüfatı məhsulları və xammalla təchizatında böyük çətinliklər yarandı. Sov.İKP MK-nın göstərişinə əsasən yaranmış vəziyyət yerlərdə müzakirə olunaraq müvafiq tədbirlər müəyyənləşdirildi. Azərbaycan K(b)P MK-nın 1941-ci il dekabrın əvvəllərində keçirilmiş VI plenumu respublikada kənd təsərrüfatının növbəti vəzifələrini müzakirə etdi.

Nuxa rayonunun kənd əməkçiləri taxıl biçini döyümmü və ot çalımı işlərini 1940-cı illə müqayisədə bir az da sürətləndirdilər. Belə ki, 1940-cı il iyul ayının 10-na qədər rayon üzrə taxıl biçini 47,5 faiz olduğu halda, 1941-

---

[1] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.11.

[2] ARPİİSSA, Fond №1, siyahı №651, iş №30, vərəq – 372-373.

[3] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.19.

[4] Новрузов, Т.А. Колхозное крестьянство Азербайджанской ССР в годы Великой Отечественной войны (1941-1945 гг.) / Т.А.Новрузов. – Москва, 1958. – с.81.

ci ilin 10 iyulunda bu göstərici 76,4 faizə çatdı. Qaynar kəndi "Staxanov" adına, Oxut kəndi "Kommunizm" adına kolxoz taxıl biçinini vaxtından əvvəl qurtardılar. Baş Göynük kəndi "Stalin" adına kolxoz 100 hektar əvəzinə 344 hektar sahənin otunu çaldı.[1]

1941-ci ilin taxıl biçini mövsümündə ilk dəfə olaraq qadınlar biçin işlərinə cəlb olundular.

Aparılmış məqsədyönlü təşkilatçılıq işinin nəticəsi olaraq 1941-ci ilin dövlət planları artıqlaması ilə yerinə yetirildi. 1940-cı ilə nisbətən 1941-ci ildə dövlətə 5.933 tondan artıq tərəvəz təhvil verildi, dənli bitkilər üzrə plan yerinə yetirilməklə bərabər, əkin sahələri 10-15 faiz artırıldı. 1941-ci ildə respublikanın kolxoz fermalarında iri və xırda buynuzlu heyvanların sayı 391 min baş artdı.[2]

1942-ci il mayın 20-də ÜİK(b)P MK və SSRİ XKS "1942-ci ildə taxıl məhsulunun yığılması və tədarük edilməsi haqqında" qərar qəbul etdi. Qərarı əldə rəhbər tutan partiya və sovet təşkilatları, kolxoz əməkçiləri bol məhsul yetişdirdilər, "…ümumxalq işi üçün, uşaqlarımızın səadəti üçün qüvvələrini əsirgəmədilər".[3]

Yevlax rayonundakı Sabir adına kolxoz 1942-ci ildə dövlətə plandan əlavə 16.250 kq taxıl, 12.910 kq ət, 175 kq yağ, Qusar rayonunun "Qırmızı əkinçi" kolxozu müdafiə fonduna 10 ton, Telman adına kolxoz 9 ton taxıl verdilər.

Respublikanın kolxozçuları 1941-ci ilə nisbətən 1942-ci ildə dənli bitkilərin əkini sahəsini 54 min 465 hektar artırdılar, dövlətə əlavə olaraq 260.182 pud taxıl təhvil verdilər. 1942-ci ildə dövlət öhdəliklərini artıqlaması ilə yerinə yetirdikləri və plandan əlavə müdafiə fonduna 150.092 pud taxıl verdikləri üçün Dövlət Müdafiə Komitəsi respublika kolxozçularına təşəkkür etdi.

SSRİ XKS və ÜİK(b)P MK əmək qabiliyyətli olan hər bir kolxozçu və kolxozçu qadın üçün məcburi sürət müəyyən edilmiş, ən az əməkgünü miqdarını müharibə zamanı, rayonlardan asılı olaraq ildə 100 gündən 150 günə çatdırmağı qərara aldı. Həmin qərar üzrə kolxozçu ailələrinin 12 yaşından 16 yaşınadək olan yeniyetmə üzvləri üçün ildə məcburi surətdə ən azı 50 əməkgün qazanması müəyyən edildi. SSRİ Ali Soveti Prezidiumunun 1942-ci il 15 fevral tarixli fərmanına uyğun olaraq SSRİ XKS və ÜİK(b)P MK müəyyən etdilər ki, məcburi surətdə müəyyən edilmiş ən az əməkgün miqdarını kənd təsərrüfatı işləri dövründə üzrlü səbəb olmadan qazanmayan əmək qabiliyyətli kolxozçular məhkəməyə verilir və xalq məhkəməsinin qərarı üzrə əməkgünlərinin 25% qədəri kolxozun xeyrinə tutulmaqla kol-

---

[1] "Nuxa fəhləsi" qəzeti, 1941,13 iyul.

[2] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.32.

[3] "Kommunist" qəzeti, 1942, 30 may.

xozlarda 6 aya qədər islah-əmək işlərinə məhkum edilirlər.[1] Bu məqsədlə kolxozlarda belə bir qayda qoyulması təklif edildi ki, bir il üçün məcburi surətdə müəyyən edilmiş ən az əməkgün miqdarı qədər əməkgünü qazanmamış olan əmək qabiliyyətli kolxozçuların və kolxozçu qadınların kolxozdan çıxmış, kolxozçu hüququnu itirmiş və həyətyanı torpaq sahəsindən istifadə etməkdən məhrum olunmuş hesab edilsinlər.

"Şəhər və kənd yerlərində yaşayan əmək qabiliyyətli əhalinin kolxoz, sovxoz və MTS-lərdə kənd təsərrüfatı işlərində çalışmaq üçün səfərbərliyə alınması qaydası haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın 1942-ci il aprel ayının 17-də "Pravda" da dərc edilən qərarı kənd təsərrüfat işlərinin vaxtında görülməsinə təkan verdi.[2]

1942-ci ilin kənd təsərrüfat işlərinin ən qızğın dövrlərində kolxoz, sovxoz və MTS-lərə yardım göstərmək üçün, şəhər və kəndlərdə, sənaye və nəqliyyat müəssisələrində işləməyən əmək qabiliyyətli əhali, habelə idarələrin işinə zərər vurmamaq şərtilə dövlət və kooperativ idarələrində, ictimai idarələrdə işləyən qulluqçuların bir hissəsi səfərbərlik qaydası ilə kolxoz, sovxoz və MTS-lərdə işə cəlb edildilər. Kənd və şəhərlərdəki tam olmayan orta və orta məktəblərin 6-10-cu sinif şagirdlərinin, texnikumların tələbələrinin, ali məktəblərin son kursunda oxuyan tələbələrdən başqa bütün qalan kursların tələbələrinin kənd təsərrüfatı işləri üçün səfərbərliyə alınmasına icazə verildi.

"Kolxozçular üçün məcburi surətdə müəyyən edilmiş ən az əməkgün miqdarını artırmaq haqqında" SSRİ XKS və ÜİK(b)P MK-nın qərarı Nuxa (indiki Şəki) rayonunun Daşbulaq kolxozçularını ruhlandırdı. Kolxozçu qadınlardan Səhnə Hüseynova, Lalə Əliyeva, Züleyxa Pənahova, Həmayil Həmid qızı taxıl yığımında gündəlik normanı 2-3 qat artıqlaması ilə yerinə yetirərək iki əməkgünü qazandılar.[3]

SSRİ XKS və ÜİK(b)P MK "1942-ci il məhsulundan Qızıl Ordu üçün Taxıl Fondu yaradılması haqqında" qərar qəbul etdi. Qərarda 1942-ci ilin məhsulundan ordu üçün 145 milyon pud miqdarında taxıl fondu yaradılması göstərilirdi.[4]

1942-ci ilin noyabrında Azərbaycan K(b)P MK-nın VIII plenumu keçirildi. Plenum müharibə illərində kənd təsərrüfatının və heyvandarlığın inkişaf etdirilməsi və respublikada 1942-ci ildə görülmüş işlərə yekun vuraraq 1943-cü ildə kənd təsərrüfatının bütün sahələrində, o cümlədən heyvandarlığın inkişaf etdirilməsi sahəsində qarşıda duran vəzifələri müəyyənləşdirdi.

---

[1] Газ. «Правда», 1942, 18 апреля.
[2] "Kommunist" qəzeti, 1942, 5 may.
[3] "Nuxa fəhləsi" qəzeti, 1942, 12 iyul.
[4] Yenə orada.

1942-ci ildə heyvandarlığın inkişafı sahəsində nailiyyətlər əldə olundu. Qazax rayonunda 1942-ci ilin 9 ayı ərzində qoyun-keçilərin sayı 9.550 baş, Nuxa (Şəki) rayonunda 4.065 baş, Astranxanbazar (indiki Cəlilabad rayonu) rayonunda qaramalın sayı 764 baş, qoyun-keçilərin sayı 1.416 baş, Bərdə rayonunda qaramalın sayı 7.074 baş, qoyun-keçilərin sayı 2.968 baş artdı.

Respublikada heyvandarlığın inkişafında Tovuz, İsmayıllı, Kürdəmir, Şamaxı, Şamxor (indiki Şəmkir) rayonlarında nəzərə çarpacaq nailiyyətlər əldə olundu. Ümumilikdə, Azərbaycan SSR kolxozçuları 1942-ci ildə dövlət öhdəliklərini ət təhvili üzrə 123,9 faiz, süd-yağ təhvili üzrə 110,9 faiz, pendir təhvili üzrə 134,7 faiz, yun təhvili üzrə 122,9 faiz, dəri təhvili üzrə 128 faiz yerinə yetirdilər, 1943-cü il məhsul tədarükü planı hesabına 484.197 pud ət, 14.397 pud yağ, 20. 106 pud pendir, 34.200 pud yun təhvil verildi.[1]

Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK "Azərbaycan SSR kolxoz və sovxozlarında heyvandarlığın inkişaf etdirilməsi üçün verilmiş dövlət planlarının 1943-cü ilin birinci yarısında yerinə yetirilməsi yekunları haqqında" məsələ müzakirə edərək nəticələri ümumiləşdirdi. Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK qeyd etdi ki, respublikanın kolxozları və sovxozları „Kolxoz və sovxozlarda mal-qaranın sayını və məhsuldarlığını artırmaq haqqında" və "Kolxoz və sovxozlarda atların sayını artırmaq və onlara yaxşı baxmaq və saxlamaq tədbirləri haqqında" SSR İttifaqı XKS və ÜİK (b)P MK qərarlarını yerinə yetirərək heyvandarlığın inkişaf etdirilməsi üçün verilən dövlət planını yerinə yetirmək işində xeyli müvəffəqiyyətlərə nail olunmuşdur.[2] 1943-cü ilin 6 ayında Ağstafa rayonunun kolxozlarında qaramal 6,4 faiz, davar 58,2 faiz, at 5,5 faiz, Tovuz rayonunda qaramal 4,8 faiz, davar 53,9 faiz, at 21,1 faiz, Qazax rayonunda qaramal 7,8 faiz, davar 46,3 faiz, at 12,6 faiz,[3] ümumilikdə 1943-cü ilin birinci yarısında kolxozlarda qaramal 2,6 faiz, o cümlədən inək və camış 4,6 faiz, davar 17,8 faiz artdı. Qərarda heyvandarlığın Ağdam, Zaqatala, Oğuz, Zərdab, Qusar, Laçın, Kəlbəcər, Göygöl, Cəbrayıl və Qubadlı rayonlarında nəticələrin yaxşı olduğu qeyd olunurdu.

Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK qeyd etdi ki, bir sıra rayonlarda, o cümlədən Astara, Jdanov (indiki Beyləqan) Əli Bayramlı (indiki Şirvan), Masallı, Siyəzən, Salyan, Nuxa (indiki Şəki), Qax və digər rayonlarda 1943-cü ilin birinci yarısında mal-qaranın sayında, xüsusən atların və qaramalın sayında xeyli azalma olmuşdur.

---

[1] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.41.

[2] "Kommunist" qəzeti, 1943, 6 avqust.

[3] Yenə orada.

Azərbaycan SSR XKS və Azərbaycan K(b)P MK iyun ayında kolxozlarda mal-qaranın sayını azaldan rayonların icraiyyə komitələrinin sədrlərinə, rayon partiya komitələri katiblərinə və torpaq şöbə müdirlərinə təklif etdi ki, kolxoz mal-qarasının sayını bir ay müddətində əvvəlki miqdara çatdırmaq üçün ən ciddi tədbirlər görsünlər, mal-qaranın azalmasına yol verilməsində səbəbkar olanlar haqqında tədbirlər görülsün və 1943-cü il üçün verilmiş planın danışıqsız yerinə yetirilməsini təmin etsinlər.

SSRİ XKS və ÜİK(b)P MK-nın "1943-cü ildə məhsul yığımı və kənd təsərrüfatı məhsullarının tədarükü haqqında" qərarını respublikanın kənd əməkçiləri böyük ruh yüksəkliyi ilə qarşıladı. Azərbaycan K(b)P MK-nın X plenumu SSRİ XKS və ÜİK(b)MK-nın məlum qərarını müzakirə edərək konkret tədbirlər müəyyənləşdirdi. Plenumdan sonra Ağdam, Şamaxı, Samux, Lənkəran, Füzuli, Şəmkir və digər rayonlar yüksək öhdəliklər götürdülər. Kolxozçularının sosializm yarışı təşəbbüsünə qoşulması "… orduya kömək işində böyük rol oynadı".[1] Ağdam, İsmayıllı, İmişli və digər rayonlar heyvandarlıq məhsulları tədarükündə fərqləndilər.

Müharibə dövründə respublikanın kolxoz və sovxozları mal-qaranın sayını artırmaqla yanaşı, onun məhsuldarlığını yüksəltməyə nail oldular. 1943-cü ildə dövlətə ət təhvili planı respublika üzrə 100, 8 faiz, yağ təhvili planı 105,8 faiz yerinə yetirildi. Kolxozlar 1944-cü il hesabına dövlətə 28.000 puddan artıq ət, 218.000 litr süd, 4.000 pud pendir və başqa məhsullar verdilər. 1943-cü ildə respublikada heyvandarlığın inkişafı planı qaramal üzrə 106,2 faiz, qoyun və keçilər üzrə 123,9 faiz, donuzlar üzrə 125 faiz yerinə yetirildi.[2] 1943-cü ildə Azərbaycan SSR kənd təsərrüfatı qabaqcıllarından 485 nəfəri SSRİ-nin orden və medalları ilə təltif olundu.[3]

Respublikanın kənd təsərrüfatı işçiləri 1943-cü ili müvəffəqiyyətlə başa vurdular. 1944-cü il hesabına dövlətə xeyli ət, pendir və yun verildi. Kolxozçular azad edilmiş rayonlara yardım fonduna vermək üçün 10 min başa qədər mal-qara kökəltmişlər.[4] Ağdam, Qazax, Bərdə, İsmayıllı, Şamaxı, Xaçmaz və digər rayonlar bu sahədə fərqləndilər. 1943-cü il noyabrın 23-də SSRİ MİK Rəyasət Heyətinin Fərmanı ilə Azərbaycan SSR-in 485 kənd təsərrüfatı işçisi orden və medallarla təltif edildi.[5] Respublikanın kolxozçuları heyvandarlığın inkişafına görə 1943-cü ildə bir dəfə, 1944-cü ildə iki dəfə DMK-nin Keçici Qırmızı bayrağını aldılar.

---

[1] "Kommunist" qəzeti, 1943, 10 oktyabr.

[2] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi. Bakı, 1962 – s.47.

[3] Газ. «Бакинский рабочий», 1943, 24 ноября.

[4] Газ. «Известия», 1943, 2 декабря.

[5] Yenə orada, 1944, 24 ноября.

Azərbaycan SSR kolxozçuları vədlərinə əməl edərək 1944-cü ildə nəzərdə tutulan plana may ayında əməl etdilər.[1] Mal-qara üzrə plana 102,5 %, qoyun-keçilər üzrə 116 % əməl olundu. Azərbaycan kolxozçuları kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltmək və heyvandarlığı inkişaf etdirmək işində böyük nailiyyətlər qazandılar.[2]

1941-1944-cü illərdə neft və pambıq respublikası, qabaqcıl əkinçilik və heyvandarlıq ölkəsi, bolluq diyarı olan[3] Azərbaycan SSR əməkçilərindən 12.560 nəfər SSRİ orden və medalları ilə təltif olundu.

Partiya təşkilatları bütün qüvvələri səfərbərliyə alaraq 1945-ci ildə də yüksək nəticələr qazandılar. 1942-1945-ci illərdə respublika üzrə kənd təsərrüfatı məhsulları öhdəliklərinin yerinə yetirilməsi aşağıdakı kimi olmuşdur:

Cədvəl 8.1.

İllər	Taxıl (faizlə)	Ət (faizlə)	Yağ (faizlə)
1942	100,3	100,4	101,2
1943	100,7	123,9	110,9
1944	100,5	101,1	103,3
1945	106,8	101,5	101,3[4]

Respublikanın kolxoz və sovxozları müharibə illərində ölkəyə milyonlarla pud taxıl, 500 min tona qədər pambıq, min tonlarla ət və başqa kənd təsərrüfatı məhsulları verdilər. İctimai heyvandarlıqda əldə olunan nailiyyətlərə görə Azərbaycan SSR 1943-1945-ci illərdə 4 dəfə DMK-nin keçici Qırmızı Bayrağı ilə təltif olundu.[5]

Müharibə illərində qara və əlvan metal qırıntısı toplamaq üçün 218 ümumrespublika iməciliyi keçirildi və bu iməciliklərdə 319.191 adam iştirak etdi. Respublikada 255.584,8 ton əlvan və qara metal qırıntısı toplanılıb metallurgiya zavodlarına verildi. Bu qırıntıların çəkisi orta hesabla 2.380 tanka və yaxud 3.400 ədəd orta kalibrli topa sərf olunan metala bərabər idi.

Tank dəstələri və təyyarə eskadrilyaları yaratmaq üçün əhalinin vəsaitindən 215 milyon manat pul toplandı. Siyəzən kolxozçuları "Azərbaycan kolxozçusu" tank dəstəsi yaratmaq üçün bir gün ərzində 208.000 manat, 830 kq taxıl topladılar. Bu məqsəd üçün 1942-ci ildə Qazax rayonunda 2 milyon 900 min manat, Goranboy rayonunda 2 milyon 350 min manat, Şəmkir rayonunda 2 milyon 500 min manat, Qaryagin (indiki Füzuli rayonu) rayo-

---

[1] "Kommunist" qəzeti, 1944, 6 avqust.

[2] Газ. «Бакинский рабочий», 1945, 5 май.

[3] Газ. «Известия», 1945, 17 may.

[4] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962.– s.54.

[5] ARMDA, Fond №411, siyahı №14, iş №237, vərəq –20; "Kommunist" qəzeti, 1945, 22 iyun.

nunda 3 milyon 40 min manat, DQMV-də 7 milyon 500 min manat vəsait toplandı.[1]

Azərbaycan SSR-in 75 nəfər qadını xalqa müraciət edərək qadınları ölkənin müdafiə fondunun yaradılmasında fəal iştirak etməyə çağırdı. Vətənpərvərlik təşəbbüsünə qoşulan Azərbaycan xalqı təkcə 1941-1943-cü illərdə 1.601.540 ədəd müxtəlif paltar – isti yun corablar, əlcəklər, alt və üst paltarları, sırıqlı toplayıb bağlamaların üzərinə "Sərrast atıcıya", "Cəsur kəşfiyyatçıya" sözləri yazaraq 125 vaqonla cəbhəyə yola saldılar.[2]

Müharibə illərində qadınlar kolxoz sədri, mühasib, briqadir oldu, lakin Azərbaycan qadını, azərbaycanlı anası olduğunu unutmadı, balalarının təlimi və tərbiyəsini bir an yaddan çıxarmadı. Müharibənin ağır günlərində 3-cü Ukrayna cəbhəsi qoşunlarının komandanı, Sovet İttifaqı Marşalı F.Tolbuxin yazırdı ki, "Azərbaycanın …qızları arxada fədakarcasına işləməklə, almanfaşist işğalçılarına qarşı döyüşlərdə iştirak etməklə bizim, qəhrəman …ordunun hədsiz məhəbbət və hörmətini qazanmışlar".[3]

Qadın və qızlarımız hərbi işin sirlərini öyrənməyə başladılar. Qısa müddət ərzində 300 min nəfər tibb bacısı, sanitar işçisi, 200 min nəfər rabitəçi və sürücü peşəsinə yiyələndi. Keçmiş cəbhəçi Fəridə Vəzirovanın yazdığı kimi, "Qısa hazırlıqdan sonra topçu-zenitçi, rabitəçi, radist, işıqçı, hərbi aqreqatların sürücüləri, siyasi işçi və sair peşələrə yiyələnmiş minlərlə qız hərbi and içərək hissələrə göndərildilər".[4]

Müharibə illərində 222 min qadın döyüşçü, o cümlədən 6.097 nəfər pulemyotçu, 7.796 nəfər əl pulemyotçusu, 19.290 nəfər avtomatçı, 102.343 nəfər snayperçi, 29.509 nəfər rabitəçi mütəxəssis hazırlandı.[5]

1915-ci ildə Bakının Əmircan kəndində anadan olan **ilk azərbaycanlı təyyarəçi qadınlardan biri Sona Piri qızı Nuriyev**a "U-2" təyyarəsinin sirlərini Zabrat qəsəbəsindəki təyyarəçilik klubunda öyrəndi. 1934-cü ildə Bakı təyyarəçilik məktəbini bitirən Sona Poltava şəhəri yaxınlığındakı Bataysk təyyarəçilik məktəbində təlim keçdi.

S.Nuriyeva

Müharibə başlayanda S.Nuriyeva "Duqlas-47" təyyarəsində Moskva-Bakı və Bakı-İran xəttində işləyən sərnişin təyyarəsində işləyirdi.

S.Nuriyeva müharibə illərində arxa cəbhədə çalışdı, 1945-ci ildə "Şərəf nişanı" ordeni ilə təltif olun-

---

[1] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.69-70.

[2] Yenə orada, s.13.

[3] Yenə orada, s.14.

[4] Azərbaycan qadını // 1975, №8.

[5] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S.Məmmədov. – Bakı, 1988. – s. 16.

du.

Müharibədən sonra Almaniya, Çexoslovakiya, Yuqoslaviya, Macarıstan, Bolqarıstan, Polşa, Rumıniya hava xəttində xidmət edən Sona xanım 1949-1968-ci illərdə Zabrat aeroportunda işlədi və 1969-cu ildə təqaüdə çıxdı.[1]

20 yaşında "Lenin" ordeninə, sonralar isə "Şərəf nişanı" ordeninə layiq görülən Sona Nuriyeva SSRİ Ali Sovetinə 1-ci və 2-ci çağırış deputat seçilmişdi.[2]

"Azərbaycan kolxozçusu" adına aviasiya eskadrilyası yaratmaq üçün Xəzər rayonu kolxozçuları öz artıq pullarını həvəslə fonda keçirdilər. Hövsan kəndindəki kolxozun üzvləri 130.000 manat verdilər Kolxoz sədri Q.Babayev 20.000 manat, kolxoz partiya təşkilatı katibi Babaəmi Qafarov 15.000 manat, şitillik müdiri İmamverdi Həsənov 500 manat, sədr müavini Vahab Babayev 10.000 manat, briqadirlərdən İbad Əliyev, Feyzulla Aslanov, İmamyar Babayev və Rza Rəhimovun hər biri 5.000 manat, komsomol təşkilat katibi Çimnaz Həmzəyeva 5.000 manat verdilər.[3]

Keşlə rayonundakı Oktyabrın 19 illiyi adına kənd təsərrüfatı artelinin üzvləri "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyaları yaratmaq üçün fonda 125.000 manat verdilər.

"Azərbaycan kolxozçusu" tank dəstəsi yaratmaq fonduna 305.000 manat vermiş kolxoz sədri Ağarəhim Əliyev döyüş təyyarələri yaratmaq fonduna 30.000 manat, kolxozçulardan Sultanov və İsmayılov hər biri 10.000 manat verdilər.

Sumqayıt rayonundan olan zəhmətkeşlər fərqləndilər. Sumqayıtlılar "Azərbaycan kolxozçusu" tank dəstəsi yaratmaq fonduna 155.000 manat, o cümlədən "Kommunist" kolxozunun sədri Həsənbala Zeynalov aviasiya eskadrilyaları yaratmaq fonduna 50.000 manat, kolxoz ilk partiya təşkilat katib Əlibala Zeynalov 40.000 manat, komsomolçu İmanov 60.000 manat, kolxozçu Əlimirzə Əliyev 30.000 manat verdilər.

Tambovluların təşəbbüsü Molotov rayonu əməkçiləri tərəfindən dəstəkləndi. Rayonun kolxozçuları "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyaları yaratmaq üçün bir gündə 253.000 manat topladılar.

Qobu kəndinin əhalisi vəsait toplanışında xüsusi fərqləndi. Kolxoz sədri Aşur Həsənbala oğlu tank dəstəsi yaratmaq üçün 10.000 manat, eskadrilya fonduna 30.000 manat, kolxoz idarə katibi Adıgözəlov aviasiya eskadrilyaları yaratmaq üçün 15.000 manat, kolxozun heyvandarlıq fermasının müdiri İmran Sultanov 10.000 manat verdilər.[4]

---

[1] Məmmədov, S.S. Azərbaycanın şanlı qızları / S.S.Məmmədov. – Bakı, 1988, s. 24-25; http://www.bing.com/search?setmkt=ru–RU&q=Sona+Nuriyeva

[2] Şərq qadını // 1938, №5.

[3] "Kommunist" qəzeti, 1943,10 yanvar.

[4] "Kommunist" qəzeti, 1943, 12 yanvar.

Maştağa rayonu əməkçiləri döyüş maşınları yaratmaq üçün vəsait toplanışında fəallıq göstərdilər. Xırdalan kəndinin əhalisi bir gündə 114.000 manat topladı. Atası keçmiş kolxoz sədri, hazırda müharibə iştirakçısı olan 12 yaşlı Əbdül Əbilov "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyaları yaratmaq üçün 10.000 manat, kolxozçu Baba İslam oğlu və kolxozun briqadiri Əbdül Vahab oğlu Səmədov hər biri fonda 10.000 manat verdilər.

Hökməli kəndinin təsərrüfat artelinin üzvləri döyüş təyyarələri yaratmaq fonduna 90.000 manat topladılar. Kolxoz briqadirləri Bəyməmməd Orucov, Səfər Məmmədcəfərov, anbardar Pirəli Qeybulla oğlu Həsənov və b. vəsait toplanışında fərqləndilər.

"Kommunist" qəzeti "100.000 manat" başlıqlı yazısında xəbər verirdi ki, Xızı rayonunun kolxozçuları "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyaları yaratmaq fonduna vəsait toplanışında fərqlənmişlər. Rayonun Xızı kənd sovet sədri Fətulla Xələf oğlu Əliyev bu fonda 100.000 manat vermişdir. Rayonun "Oktyabr inqilabının 21 illiyi" kolxozunun sədri Mirzəbala Rəsulov 30.000 manat, "Qızıl Oktyabr" kolxozunun sədri Zərbəliyev 25.000 manat, "21 Yanvar" kolxozunun sədri Həsən Qasımov 30.000 manat, "26 komissar" adına kolxozun sədri Məmməd Əliyev 30.000 manat, Kuybışev adına kolxozun sədri Fətulla İsmayılov 10.000 manat, müharibə əlili, "Kommunist" kolxozunun sədri Hacırza Cəfərov 10.000 manat, Lenin adına kolxozun sədri, 60 yaşlı Hacıəli Abbasov 10.000 manat verdilər.[1]

Şamaxı, Astraxanbazar (indiki Cəlilabad rayonu), Sumqayıt və digər rayonlarda kolxozçular tank və təyyarə dəstələri düzəltmək üçün pul verirdilər. Sumqayıtdan Vəli Səfərov 116 min manat, Şamaxıdan Canməmməd Rəhimov 10 min manat, Ağdamdan Səadət Nəcəf qızı 50 min manat verdilər.

"Azərbaycan kolxozçusu" aviasiya eskadrilyaları yaratmaq fonduna vəsait toplanışında Ağdam rayonunun əməkçiləri vətənpərvərlik təşəbbüsünü bəyəndi. Rayonun Quzanlı kənd sovetinin sədri Yusif Yusifov 10 min, Çəmənli kənd soveti sədri Əli Qarayev 8 min, Qərvənd kənd sovetinin sədri Behbud Hüseynov 5 min, 1 №-li məktəbin müəllimi Barat İsmayılova 8 min, rayon xalq maarif şöbəsinin müdiri Əli Zeynalov 3 min, Yusifcanlı kənd məktəbinin direktoru Yusifova 2 min manat verdilər. Rayon müəllimləri bir neçə saatda 225 min manat topladılar.

Kürdəmir rayonunun əməkçiləri Tambov vilayəti zəhmətkeşlərinin təşəbbüsünə səs verərək Kənkəri kəndindəki "Paris Kommunası" kolxozunun üzvləri fonda 100 min manat köçürdülər. Kürdəmirlilər "Azərbaycan kolxozçusu" tank dəstəsi yaratmaq fonduna vəsait toplanışında fərqlənərək nağd pulla yanaşı ət, yağ, yun və s. topladılar.[2]

---

[1] "Kommunist" qəzeti, 1943, 12 yanvar.

[2] Yenə orada

Xaçmaz rayonunun kolxozçuları "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyasının yaradılması üçün bir neçə gündə 1 milyon 200 min manat topladılar. Voroşilov adına kolxozun sədri Süleyman Vəzirov, Aşağı Zəyzit kənd soveti sədri Məmmədrəsul Rəhimov tank dəstəsi yaradılması fonduna 5 min manat aviasiya eskadrilyaların yaradılması fonduna isə 25 min manat verdilər.[1]

"Kommunist" qəzetinin bölgə müxbiri Qurban Qədiməliyev xəbər verirdi ki, Qax rayonunun Sarıbaş sovetliyindəki kolxozun sədri Nəsib Həsənov qırıcı təyyarələr fonduna 10 min, hesabdar Hacıməmməd Əhmədzadə 5 min, İlisu sovetliyindəki kolxozun sədri Nəsib Seyidbəyov 10 min, kolxoz üzvləri isə 20 min manat toplamışdılar.

Qax rayonunun müəllimləri qırıcı təyyarələr yaradılması fonduna 50 min manat verdilər. Vəsait toplanışında Marqov kənd məktəbinin müəllimi Həzrət Səmədov, Ağnoğul tam orta məktəbinin müəllimi Musa Zeynalov fərqlənmiş,[2] Samux rayonunun əməkçiləri aviasiya eskadrilyaları yaratmaq fonduna bir gündə 255 min manat toplamışdılar.[3]

"Kommunist" qəzeti 1943-cü il yanvar nömrələrinin birində İmişli rayonu kolxozlarında "Azərbaycan kolxozçusu" aviasiya eskadrilyalarının yaradılması fonduna vəsait toplanışının davam etdiyini xəbər verirdi. Qəzet yazırdı ki, 3 gündə rayonda fonda 800 min manat toplanmış, vəsait toplanışında bir çox kolxozların üzvləri fərqlənmişdilər. Dəvəçi və Əli Bayramlı rayonlarının əməkçiləri də fonda vəsait toplanışında irəlidə gedirdilər.[4]

DMK-nin sədri İ.Stalin M.Bağırova göndərdiyi teleqramda bildirildi: "Azərbaycan kolxozçusu" qırıcılar eskadrilyasının yaradılması üçün ilkin olaraq 81.020 min rubl və əlavə olaraq 54.926 min rubl məbləğində vəsait toplamış Azərbaycan Sovet Sosialist Respublikasının kolxozçu kişi və qadınlarına, həmçinin tank kolonunun, aviasiya eskadrilyasının və zirehli qatarların hazırlanması üçün 12.100 min rubl vəsait toplamış Bakı, Kirovabad (indiki Gəncə – red). Nuxa (indiki Şəki – red.) və respublikanın digər şəhərlərinin fəhlələrinə, ziyalılarına, cəbhəçilərin həyat yoldaşlarına, komsomolçulara və pionerlərə mənim qardaşlıq salamımı və Qırmızı Ordunun minnətdarlığını çatdırın".

"**Stalin**".[5]

Müharibə illərində məktəblilərin cəbhəyə yardım hərəkatında iştirakı üçün tədbirlər həyata keçirildi. Sovet İttifaqı Qəhrəmanı H.Aslanovun oğlu, birinci sinif şagirdi Tofiq Aslanov "Azərbaycanın gənc pioneri" tank dəstəsi

---

[1] "Kommunist" qəzeti, 1943, 15 yanvar.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada,16 yanvar.
[5] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016 . – s.287.

yaradılması fonduna 1000 manat verdi. Sumqayıt rayonunun Şurabad kəndindəki 207 №-li məktəb bu məqsəd üçün 53 min manat topladı.

Azərbaycan SSR XKS 1941-ci il 29 oktyabr tarixli qərarı ilə əhalidən toplanan yundan və digər xammaldan paltar və s. şeylər hazırlamaq üçün respublikanın sənaye müəssisələrinə, həmçinin Azərbaycan SSR Sənət Şurasının artellərinə xüsusi plan müəyyənləşdirildi.[1] Respublika əməkçiləri qısa müddətdə cəbhəçilər üçün 13.878 yarımkürk, 33.201 keçə çəkmə, 20.997 cılıqqa, 468.475 cüt yun corab, 337.799 cüt yun əlcək, 101.886 dəst isti alt paltarı, 43.126 qulaqlı papaq, 65.660 gödəkcə yola saldılar.[2] 1041-1943-cü illərdə Azərbaycan əhalisi döyüşçülər üçün 40 milyon manat dəyərində 350 min fərdi bağlama göndərdilər.[3]

Azərbaycan SSR əməkçiləri yalnız 1942-ci ildə döyüşçülər üçün 591 min 400 dəst isti paltar, 855 ton yun, isti kürk tikmək üçün 82 min qoyun dərisi, cəbhə döyüşçüləri və komandirlər üçün 373 min ədəd, Sovet İttifaqı Qəhrəmanları üçün 70 komplekt, generallar üçün 50 komplekt, ümumilikdə 39 milyon 517 min manatlıq hədiyyə göndərdilər. Müdafiə fonduna 1944-cü il yanvarın 1-nə 83.254 baş qaramal, 57.804 pud taxıl, 11.793 kq yağ, 1.596 kq bal və başqa məhsullar, habelə 44.463 min manat nağd pul, çoxlu istiqraz və başqa şeylər verildi. Müharibə illərində cəbhəyə Azərbaycan dilində 3 milyondan çox siyasi, hərbi və bədii ədəbiyyat, 3 milyon 150 min vərəqə və şüar, hər gün 14 min nüsxə "Kommunist" (Azərbaycan dilində) 18 min nüsxə "Bakinskiy raboçiy" və "Vışka" qəzetləri göndərilirdi.[4]

1941-ci ilin oktyabrından 1942-ci ilin yanvarına qədər olan 2-3 ay ərzində Azərbaycan qadınları yığılmış yundan 8.193 cüt çəkmə, 8.193 cüt corab, 21.327 cüt əlcək və s. məhsullar hazırlayıb cəbhəyə göndərdilər. 1941-1943-cü illərdə cəbhəyə əvəzsiz olaraq 160,1 min müxtəlif paltar, 125 vaqon isti paltar, 1,6 milyon lazımlı əşya, 350 min bağlama göndərildi.

ÜİK(b)P və Sovet hökuməti 1942-ci il yanvarın 23-də əsgər ailələrinə köməklik göstərilməsi haqqında qərar qəbul etdi. Azərbaycan K(b)P MK həmin qərarı yerinə yetirərək 1943-cü ildə və 1944-cü ilin birinci rübündə dövlət tərəfindən 255 milyon manat ayırdı. Bundan əlavə əsgər ailələrinə 3.580 ton ərzaq məhsulları, 10.500 döyüşçü ailəsinə mənzil verildi. Respublikanın kənd yerlərində döyüşçü ailələrinə 3.500 baş mal-qara təhkim edildi. 1944-cü ilin 3 ayı ərzində döyüşçü ailələrinə 7 ton taxıl buraxıldı, 150 uşağa pulsuz paltar, 350 ailəyə ev verildi. Hərbi qulluqçu ailələrinə və 1941-1945-ci illər müharibəsi əlillərinə yardım göstərilməsi haqqında ÜİK (b)P MK-nın 1943-cü il 22 yanvar tarixli qərarından sonra respublikanın rayonlarında

---

[1] ARPİİSSA, Fond №1, siyahı №280, iş №3, vərəq – 264.
[2] Yenə orada, siyahı №87, iş №69, vərəq – 1.
[3] ARPİİSSA, Fond №1, siyahı №280, iş №3, vərəq – 275.
[4] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.68.

cəbhəçi ailələrinə xüsusi diqqət yetirildi. Ağdam rayonunda 1943-1945-ci illərdə cəbhəçi ailələrinə 6.758.602 manat yardım edildi, onlara birdəfəlik 182.741 manat pul, 73.818 kq taxıl və ərzaq şeyləri, 5.828 cüt ayaqqabı və müxtəlif paltar, odun və s. verildi. Cəbhəçi ailələrinə vergilərdən 493.900 manat güzəşt edildi, iş qabiliyyəti olanlardan 989 nəfəri işə, 12.403 nəfər uşaq evlərinə və bağçalara yerləşdirildi.[1]

Azərbaycan əməkçiləri müharibənin birinci günündən orduya və əsgər ailələrinə hərtərəfli yardım etməyə başladı. İlk növbədə hərbi qulluqçu ailələrinin işə düzəlməsinə diqqət artırıldı. Hərbi qulluqçu ailələrinin işə düzəlməsi ilə onların maddi yaşayış vəziyyəti yaxşılaşdı, adamlar Vətəni müdafiə etməyə getmiş ərlərini, qardaşlarını və oğullarını istehsalatda əvəz etməyə başladı. Müharibə başlanandan 1944-cü ilədək cəbhəçi ailələrindən 90.717 nəfər işə düzəldildi. Bunlardan 64.952 nəfəri 1943-cü ilin 10 ayında, Azərbaycan SSR XKS yanında dövlət təminatı və yaşayış quruluşu idarəsi təşkil olunduqdan sonra işə düzəldildi. İşə düzələn adamlara sənət öyrətmək mühüm vəzifə idi. Respublikada xüsusi təhsil vasitəsilə 25.000 nəfər sənət öyrəndi.

İctimaiyyətin köməyi ilə müharibə dövründə (1942-ci ilin əvvəlinə) əsgər və hərbi qulluqçuların 187.135 nəfər uşağı, müxtəlif uşaq müəssisələrində yerləşdirildi. Onlardan 6159 nəfər uşaq evlərində dövlət hesabına yaşayır və tərbiyə alırdı.[2]

Müharibə dövründə (1944-cü ilin əvvəlində) 11.325 hərbi qulluqçu ailəsinə 158.737 kvadrat metr mənzil sahəsi verildi. Bundan başqa hərbi qulluqçu və əsgər ailələrinin 403.539 kvadrat metr mənzil sahəsi təmir edildi. Müharibə dövründə əsgər ailələrinə 4.262.35 manat miqdarında birdəfəlik yardım, 430 milyon manat dövlət yardımı və təqaüd, 31.767 sentner ərzaq, 113 min cüt ayaqqabı, 108 min ailəyə paltar, yardımçı təsərrüfat üçün 11.170 hektar torpaq sahəsi, ehtiyacı olan əsgər ailələrinə 2.673 baş sağmal heyvan, 301.820 sentner yem verildi. Respublikanın rayonlarında əsgər ailələrinə kömək üçün ayrıca fond təşkil edildi. Fonda 1.290.788 manat pul, 6.110 sentner ərzaq toplandı.

Respublika komsomol təşkilatları cəbhəçi uşaqlarına kömək üçün fəallıq göstərdilər. 1944-cü il fevralın 1-dən 22-dək uşaqlara yardım fonduna 1.386.825 manat pul yığıldı. 1944-cü il fevralın 20-də keçirilən komsomolçu-gəncləri iməciliyində 84.767 adam iştirak etdi, 100 min manata yaxın pul və 6792 əməkgünü qazanıldı. Respublikanın komsomolçu-gəncləri ata-anaları cəbhədə həlak olan uşaqlar üçün 1.124 pud buğda, 3.960 kiloqram yağ, 591 kiloqram pendir, 2.911 yumurta və 1.176 pud başqa kənd təsər-

[1] "Kommunist" qəzeti, 1944, 23 fevral.
[2] Yenə orada

rüfatı məhsulları topladılar.[1] Sənaye müəssisələrinin komsomolçuları və gənclərinin təşəbbüsü ilə işdən kənar vaxtda 7.757 cüt ayaqqabı və 3.539 dəst paltar hazırlandı.

Rayonların komsomolçuları və gəncləri yardım hərəkatında iştirak etdilər. Cəbrayıl rayon gəncləri 825 cüt ayaqqabı və 300 dəst paltar topladı, cəbhəçi ailələrindən 45-nin mənzili təmir edildi, cəbhəçi ailələri üçün 63 kvadrat metr odun tədarük edildi. İsmayıllı rayonunun gəncləri yardım fonduna 40 min manat pul, 19 pud buğda, yağ, yumurta, düyü, quru meyvə, Kəlbəcər rayonu gəncləri 4 min kiloqram kartof, 61 pud buğda və 20 min manat pul, Qonaqkənd rayonunun 8 kolxozunda ata-anaları cəbhədə həlak olan uşaqlara 120 araba odun, mal-qara üçün 800 sentner yem, 280 cüt ayaqqabı, 183 dəst paltar və s. topladılar.[2]

Azərbaycan əməkçiləri müharibə illərində sıravi və serjant heyətindən olan hərbi qulluqçuların ailələrinə 633 milyon 204 manatdan artıq pul, bundan əlavə hərbi qulluqçu ailələrinə birdəfəlik yardım olaraq 11.715 min manat pul, 60.088 sentner ərzaq, 207.661 cüt ayaqqabı, 270.954 dəst paltar, 313.540 kubmetr odun və s. verildi.[3] 1942-ci ilin aprelində Krasnodar ölkəsinin Vıyelki rayonundakı Krupskaya adına kənd təsərrüfatı artelinin üzvü olan qadınlar Sovet İttifaqının bütün kolxozçularına müraciət edərək işğal olunmuş rayonların kolxozçularına kömək etməyi təklif etdilər. Yenə həmin ildə Ryazan vilayəti Rıbnoye MTS-nin 10 №-li traktor briqadası traktorçu qadınlara müraciət edərək əmək igidliyi göstərməyə səslədilər. Hər iki müraciətə qoşulan Azərbaycan SSR-in kənd əməkçiləri yay şumunu vaxtından əvvəl yerinə yetirdilər. Ağdam rayonunun kolxozçuları 1943-cü ildə dövlətə taxıl planını sentyabra qədər 102 faiz yerinə yetirdilər. Rayon əməkçiləri dövlətə plandan əlavə 100.000 pud taxıl, 3.000 pud ət, 240 pud yağ, 420 pud pendir və başqa məhsullar təhvil verdilər. "Pravda" qəzetinin yazdığı kimi, cəbhə ilə arxanın birliyi səbəbli …ordu bütün vasitələrlə, tank, top, ərzaq və döyüş sursatı ilə təmin olundu.[4]

Kolxoz və sovxozlarda gənclər briqadalarının sayı artmağa başladı. 1942-ci ildə kənd təsərrüfatında cəmi 1.230 gənclər briqadası olduğu halda, 1943-cü ildə bunların sayı 1.570-ə çatdı. 1942-ci ildə respublikamızda 1.230, 1943-cü ildə 2.825, 1945-ci ildə isə 3.165 manqa işləyirdi.[5]

SSRİ XKS və ÜİK (b)P MK 1943-cü il avqustun 21-də "Alman işğalından azad edilmiş rayonlarda təsərrüfatı təcili bərpa etmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda müharibə illərində Şərq rayonlarına köçürülmüş mal-qaranın kolxozlara qaytarılması, heyvanların sayının

---

[1] "Kommunist" qəzeti, 1944, 23 fevral.
[2] Yenə orada.
[3] Kərimov, Əziz. Böyük Vətən müharibəsi illərində Azərbaycan kolxozçularının fədakar əməyi / Ə.Kərimov. – Bakı, 1962. – s.73.
[4] Газ. «Правда», 1942, 26 ноября.
[5] Газ. «Бакинский рабочий», 1943, 10 октября.

artırılması, kolxozlara yardım göstərilməsi və s. tədbirlər nəzərdə tutulurdu. Qərarla əlaqədar olaraq respublikanın İsmayıllı, Şamaxı, Nuxa, Lənkəran, Samux, Göygöl rayonları Stavropol diyarının kolxozlarını hamiliyə götürərək onlara yardım göstərdilər. Azərbaycan SSR-dən Stavropol diyarının qardaşlıq köməyi olaraq 200 ton sement, 10 sistern yanacaq, 6 ton mismar, 8 ton vint, 8 vaqon pambıq, 10 min metrə qədər bez və s. arşın malı, 10 min boşqab, 3 vaqon tibb ləvazimatı, 8 min pəncərə şüşəsi, tikiş fabriki üçün maşınlar və b. şeylər göndərdi.[1]

İsmayıllı rayonu Stavropol ölkəsinin Mozdok şəhərini hamiliyə götürdü. Rayon əməkçiləri şəhərə birinci növbədə 100 baş davar, 50 donuz, 10 ton taxıl, 1 ton pendir, 20 kq yağ, 1.000 kq yun, 40 araba, 1.000 cüt çust, 1.000 cüt yun corab, qab-qacaq, qələm, dəftər və s. göndərdilər. Bakı əhalisi Stavropol vilayətinə müxtəlif əşyalarla dolu 35 vaqonluq eşelon yola saldılar. Respublikanın kolxozları Ukrayna kolxozçuları üçün 42.056 ədəd yorğan-döşək, 3.913 ədəd xalça-palaz, 172.231 ədəd qab-qacaq göndərdi. Bundan əlavə respublikanın ehtiyat fondundan tikinti işləri üçün 1.000 ton sement, 10 vaqon qır, 14.500 kq mismar, 5.150 metr pəncərə şüşəsi, 1944-cü ilin əvvəllərində Stavropol ölkəsinə 149 vaqon müxtəlif avadanlıq, tikinti materialları və b. əşyalar yola salındı.[2]

Respublikanın əməkçiləri azad edilmiş rayonlara 8.335 manat nağd pul, 10.761 baş qaramal, 33.700 pud buğda, 20.620 pud noxud və digər kənd təsərrüfatı məhsulları, 55.800 manatlıq kənd təsərrüfatı alətləri və 79.000 manatlıq tibb ləvazimatları yardım etdilər. Qardaş respublikalar "…azərbaycanlıların gündəlik qayğısını hiss etdilər".[3]

"Azərbaycan kolxozçuları ilə Ukrayna kolxozçuları, Bakı neftçiləri ilə Donbas kömür mədənçiləri arasında olan ənənəvi yarış genişləndi. Bu yarış hər iki respublikanın zəhmətkeşlərini cəbhəyə yardımı daha da genişləndirmək uğrunda mübarizəyə ruhlandırdı, iki qardaş arasında dostluğu daha da möhkəmləndirdi".[4]

Müharibənin birinci dövründə bir sıra sənaye müəssisələrini ölkənin şərq rayonlarına köçürmək, yeni sənaye sahələri təşkil etmək, fabrik və zavodlar tikmək təxirəsalınmaz vəzifələrdən idi. Bununla bərabər cəbhənin ehtiyaclarını ödəmək üçün çoxlu pul tələb olunurdu. Müharibənin çətin şəraitində bu vəzifələri həyata keçirmək üçün əhalinin və ölkənin bütün vəsaiti səfərbərliyə alınmalı idi. Bu xərcləri ödəyən mənbə xalq təsərrüfatı gəlirlərindən ibarət idi. Gəlirləri isə sənaye və nəqliyyat, dinc quruculuq illərində isə kənd təsərrüfatı verirdi. Əhalinin dövlət istiqrazlarına verdikləri vəsait də dövlət gəlirləri içərisində idi.

---

[1] "Kommunist" qəzeti, 1943, 9 dekabr.
[2] Yenə orada
[3] Yenə orada, 1944, 8 iyun.
[4] Yenə orada, 1 noyabr.

Dövlət istiqrazları həmişə ölkənin iqtisadiyyatının əhəmiyyətli bir hissəsi olmuşdur. Belə istiqrazlardan biri "SSRİ-nin müdafiəsini möhkəmlətmək istiqrazı", "Üçüncü beşillik istiqrazları" və nəhayət 1942-ci ilin dövlət hərbi istiqrazlarıdır.

Dinc quruculuq illərində bu istiqrazların yayılması nəticəsində əldə edilən vəsait xalq təsərrüfatını inkişaf etdirmək, mədəniyyəti yüksəltmək, xalq kütlələrinin rifah halını yaxşılaşdırmaq və ölkənin müdafiəsini möhkəmləndirmək işlərinə sərf olunurdu. Müharibə dövründə istiqraz alan vətəndaş başa düşürdü ki, dövlət müdafiə fonduna öz payını verir, düşməndən qorunmaq üçün toplar, tanklar, təyyarələr və başqa müdafiə vasitələri yaradılmasına kömək edir.

Dövlət istiqrazlarına yazılış ölkənin hər yerində olduğu kimi Azərbaycan SSR-də də ildən-ilə artdı. Respublika əhalisi "SSRİ-nin müdafiəsini möhkəmlətmək istiqrazına" 120 milyon manat yazıldıqları halda "Üçüncü beşillik istiqrazına (ikinci il buraxılışına)" 127 milyon manat, "Üçüncü beşillik istiqrazına (üçüncü buraxılış)" 162 milyon manat həcmində yazıldılar.[1] Respublika zəhmətkeşləri 1942-ci ildə dövlətə 237 milyon manat, 1943-cü ildə 166 milyon manat məbləğində pul verdilər.[2] İkinci dövlət hərbi istiqrazı Bakı şəhərinin fabrik və zavodlarında, mədən və idarələrdə, elmi müəssisələrdə və ali məktəblərdə geniş yayıldı. İstiqrazın buraxıldığı iyunun 5-də saat 8-də Bakı rayonlarında istiqraza yazılış məbləği əhalinin aylıq əmək haqqı fondunun 112, 7 faizi miqdarında idi.

Bakının neftçiləri və Naxçıvan MSSR, Dağlıq Qarabağ, Ağdaş, Bərdə, Dəvəçi, İmişli, Qazax, Qubadlı, Quba, Kürdəmir, Lerik, Nuxa, Sabirabad, Xaçmaz, Cəbrayıl, Şamaxı rayonlarının zəhmətkeşləri istiqraza yazılış iki-üç gün ərzində qurtardılar, bir çox kolxozlar yazılış məbləğini nağd ödədilər.[3] Respublikanın kolxozları hökumətin çağırışına səs verərək dövlətə 186 milyon manatdan artıq pul verdilər. Bir çox əməkçilər 50 min manatdan 15 min manatadək istiqraza yazıldılar.

Naxçıvan MSSR əməkçiləri İkinci Dövlət hərbi istiqrazı buraxılışını rəğbətlə qarşıladılar. Noraşen rayonunda kolxoz sədrlərindən Bəhmən Cəfərov 150 min, Hüseyn Əliyev 100 min, Vəli Məmmədov 100 min manatlıq, oğlu ordu sıralarında olan və "İgidliyə görə" medalı ilə təltif olunan Abdulla İsmayıl oğlu 4 min, atası cəbhədə olan 8-ci sinif şagirdi Yunis Novruzov 3 min manat məbləğində istiqraza yazıldılar və pullarını nağd

[1] "Kommunist" qəzeti, 1944, 26 aprel.
[2] Yenə orada, 12 fevral.
[3] Yenə orada, 7 may.

ödədilər.[1] Naxçıvan MSSR-dən Abbasqulu Novruzov 100 min manat, Cəbrayıl rayonundan Cəlil Nəcəfov 120 min manatlıq istiqraza yazıldılar.[2]

Məlum olduğu kimi, 1941-ci il iyunun 24-də ÜİK(b)P MK və SSRİ XKS-nin qərarı ilə "əhalinin, müəssisələrin, hərbi və digər yüklərin, müəssisələrin avadanlıqlarının və digər qiymətli əşyaların təxliyəsinə rəhbərlik üçün SSRİ XKS yanında A.M.Kaqanoviç (sədr) A.N.Kosıgin (sədr müavini), N.M.Şvernik (sədr müavini), B.M.Şapoşnikov, S.N.Kruqlov, P.S.Popkov, N.F.Dubrovin və A.İ.Kirpiçnikovdan ibarət təxliyə üzrə Şura (sovet) yaradıldı. Bir neçə vaxtdan sonra təxliyə üzrə Şuraya A.İ.Mikoyan (sədrin birinci müavini), L.P.Beriya və M.Q.Pervuxin (sədr müavini) əlavə olundu.[3] Lakin bu inzibati orqan təxliyənin başlanğıcında ciddi orqana çevrilmədi. 1941-ci il iyulun 2-də SSRİ XKS və ÜİK(b)P MK "İnsan kontingentinin və qiymətli əşyaların daşınması və yerləşdirilməsi qaydaları haqqında" birgə qərarı dərc edildi.[4] 1941-ci il iyulun 16-da "Təxliyə üzrə Şuranın təşkili haqqında" 173 saylı qərar qəbul olundu. Qərara əsasən N.M.Şvernik (sədr), A.N.Kosıgin, M.Q.Pervuxin sədr müavinləri, A.İ.Mikoyan, İ.M.Kaqanoviç, M.Z.Saburov, V.S.Abakumov komissiyanın üzvləri oldular.

Azərbaycanlılar təxliyə olunan əhaliyə, əsirlərə humanist münasibət bəslədilər. Faşist Almaniyasının SSRİ-nin əsas istehsal rayonlarının işğalı nəticəsində müəssisələr və əhalinin Şərqə köçürülməsinə başlandı. Əhalinin bir hissəsi də müvəqqəti olaraq Azərbaycan SSR-ə köçürüldü. Köçürülən əhalinin qəbulu, müvəqqəti sığınacaqla təmini və yola salınmaq üçün hazırlıq işləri Azərbaycan SSR hökumətinin gündəlik qayğısına çevrildi. Bakı dəniz vağzalındakı yaşayış evləri və inzibati idarə binaları, şəhər mədəniyyət ocaqları, mehmanxanalar və yataqxanalar əhalinin xidmətinə verildi. Gəncə və Yevlax şəhərlərində köçürmə məntəqələri təşkil edildi. Azərbaycan SSR-in Zaqatala, İmişli Jdanov (indiki Beyləqan – red.) və Puşkin (indiki Biləsuvar) rayonlarında aparılan siyahıyaalmaya əsasən, 2745 nəfər təxliyə olunmuşdu. Onlardan ruslar – 114 nəfər, ukraynalılar – 65 nəfər, yəhudilər – 2545 nəfər təşkil edirdi. Qalanları ermənilər, tatarlar, moldovanlar, gürcülər, hətta 13 nəfər polyak idi. 1942-ci il fevralın 1-dək Bakı şəhərinə və şəhərin Dzerjinski rayonuna təxliyə olunmuş 1067 nəfərdən 187-si ruslar, 186-sı yəhudi, 168 nəfəri ukraynalı, 73-ü erməni, 5-i

---

[1] "Kommunist" qəzeti, 1943, 9 iyun.

[2] Yenə orada, 26 aprel.

[3] Куманев, Г.А. Война и эвакуация в СССР. 1941–1945 гг. // Новая и Новейшая история. 2006, №6, с.8.

[4] История Великой Отечественной войны Советского Союза. Т.2. Москва, 1963. – с.141, 143.

gürcü, 7-si azərbaycanlı, 11-i polyak, 8-i tatar və digər millətlərin nümayəndələri idi.[1]

1942-ci ilin yayında Azərbaycan SSR ərazisindən Şərqə köçürülən əhalinin 16.500 nəfərinə Kirovabad (indiki Gəncə – red.), Tovuz, Qazax və Xanlarda (Göygöl – red.) sığınacaq verildi. Köçürülən əhalinin uşaqlarından 158 nəfəri sənət məktəblərinə düzəldildi.[2] Köçürülən əhaliyə xidmət üçün yeməkxanalar, əyləncə yerləri yaradıldı.

Azərbaycana alman əsirləri də göndərilmişdi. Onlar arasında alimlər olmamışdı. Ancaq tikinti işçiləri çoxluq təşkil edirdi. Əsirlər Mingəçevir SES (6.000 nəfər), Sumqayıt Boru-Prokat zavodu (2.600 nəfər), "Daşkəsəntikinti" (160), 108 №-li gizli obyektdə (4.300), "Başnefttikinti"də (1.500) işləmişdir. Əsirlər nadir memarlıq abidələrinin tikintisində – Bakıda Hökumət evi, Aktyorlar evi, "Buzovnaneft", İnşaatçılar prospektində "Böyük həyət" yaşayış massivinin, Dövlət Baş Tikintidə çalışdılar. Əhali əsirlərə humanist münasibət göstərdi, ərzaq və digər məhsullar verdilər.[3] Əsirlərə 80 qram vermişel, 10 qram balıq, 15 qram sala, 15 qram yağ, 30 qram duz, 600 qram kartof, 320 qram tərəvəz verilirdi ki, bu ittifaqın digər yerlərindən artıq idi.

Azərbaycan xalqı faşizm üzərində qələbə naminə öz şəxsi vəsaitini əsirgəmədi. Əhalidən respublikanın müdafiə fonduna nağd şəkildə 31.756 min rubl köçürüldü ki, ondan da 16.456 min rublu Bakı zəhmətkeşləri tərəfindən ödənildi. 30.765 min rubl dəyərində dövlət istiqrazının 13.268 min rublu Bakı zəhmətkeşləri tərəfindən alındı. Müdafiə fonduna 14.872 qram qızıl, (ondan 5.152 qramını Bakı zəhmətkeşləri verdi), 985.943 qram gümüş (ondan 187.076 qramını Bakı zəhmətkeşləri verdi) və s. təhvil verildi.[4]

Respublika zəhmətkeşləri cəbhəyə 14 min yarımkürk, 66 min ədəd gödəkcə, 33 min cütdən yuxarı keçə ayaqqabı, 468 min cüt yun corab, 338 min cüt yun əlcək, 102 min ağ dəsti, 43 min qulaqlı və qulaqsız papaq,[5] ümumilikdə 1941-1943-cü illərdə Azərbaycan SSR əməkçiləri ordu döyüşçüləri üçün ümumi dəyəri 40 milyon rubl olan 350 min fərdi bağlama göndərdi.[6]

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016 . – s.291.

[2] AMEA TİEA, Fond №1, siyahı №1, iş №9, vərəq – 28.

[3] Султанов, Чапай. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов. – Баку, 2011. – с.17.

[4] AMEA TİEA, Fond №1, siyahı №11, iş № 5080, s.26.

[5] ARPİİSSA, Fond №1, siyahı №87, saxlama vahidi № 69, vərəq – 1.

[6] Yenə orada, siyahı №103, sax.vah.2, vərəq – 21,175.

İşğaldan azad olunmuş rayonlara kömək göstərilirdi. Bakılılar 1000-dən çox valideynsiz qalmış uşağın övladlığa götürmüş, yetim uşaqlara yardım fonduna 2 milyon manat pul keçirmişdilər. Azərbaycan SSR Stavropol diyarını, Naxçıvan MSSR Çərkəz vilayətini, DQMV Qaraçay Muxtar Vilayətini, İsmayıllı rayonu Mozdok şəhərini, Gəncə Pyatiqorski şəhərini, Ağdam rayonu Budyonnı, Şəki rayonu Georgoyevsk rayonlarını hamiliyə götürmüşdülər.

1943-1944-cü illərdə düşməndən azad edilmiş rayonlara 177 vaqon tikinti materialı, 200 taxılsəpən, 400 avtomobil, 315 kotan verilmişdi. Respublika kolxozçuları düşməndən azad olunmuş rayonlarda 4144,5 hektar sahədə taxıl və b. kənd təsərrüfatı bitkiləri əkmiş, kökəltmək üçün 6.186 baş iribuynuzlu mal-qara ayırmışdılar. 1942-ci ildə Azərbaycana gətirilmiş 35 min baş mal-qara Şimali Qafqaz azad olunduqdan sonra respublika kolxozları tərəfindən onlara qaytarılmışdı.

IX FƏSİL

ELM, MAARİF, ƏDƏBİYYAT VƏ İNCƏSƏNƏT CƏBHƏNİN XİDMƏTİNDƏ

Qələbənin əldə edilməsində Azərbaycan SSR-in mədəniyyət işçilərinin, elm və mədəniyyət xadimlərinin, təhsil işçilərinin, kütləvi informasiya vasitələrinin, mədəni-maarif müəssisələri və səhiyyə təşkilatlarının, kino və teatr işçilərinin xüsusi payı var.

Radio

Azərbaycan SSR Xalq Komissarları Soveti 1925-ci il aprelin 22-də Bakıda əhatə dairəsi 600 kilometr olan geniş yayımlı radio verilişləri stansiyası tikməyi qərara aldı. 1928-ci il mayın 13-də Azərbaycan SSR Xalq Komissarları Soveti radionun əsasnaməsini təsdiq etdi.[1] Azərbaycan Radiosunun yaranması tarixi haqqında tədqiqat aparan alimlər yazır ki, Azərbaycan radiosunun 1926-cı il noyabrın 6-da Azərbaycanın paytaxtı Bakının küçələri və meydanlarında qurulmuş reproduktorlarından ilk dəfə "Danışır Bakı!" ifadəsi səsləndi.[2] İnsanlar radioya təkcə Bakıda deyil, ətraf yaşayış məntəqələrində də maneəsiz qulaq asa bilirdilər. O zaman həmin hadisə Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik idi. Araşdırmalardan məlum olur ki, ilk dövrdə Bakı studiyası indiki İstiqlaliyyət küçəsi, 10 ünvanında yerləşən Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının (keçmiş İsmailliyə) üçüncü mərtəbəsində, cəmi 3 otaqda fəaliyyət göstərirdi. Şəhər yayım şəbəkəsinin mərkəzi məntəqəsi sayılan birinci otaqda bütün divar boyu böyük lampalarla təchiz olunan aparatlar qoyulmuşdu. İkinci otaq studiyaya giriş idi. Efirə çıxmaq üçün dəvət olunanlar burada öz növbəsini gözləyirdilər. Ondan sol tərəfdə olan kiçik bir kabinədən studiyanın içərisini görmək və nəzarət etmək üçün balaca bir pəncərə açılırdı. Pəncərənin qarşısında adi çemodanın içində qurulan aparat bir tərəfdən studiyanın mikrofonunu, digər tərəfdən isə nəqledici xətti birləşdirirdi. Üçüncü otağın döşəməsinə türkmən xalıları salınmışdı, divarları tünd yaşıl məxmərlə örtülən studiya yerləşirdi. Otağın yuxarı tərəfində mizin üstündə kub şəklində bir mikrofon var idi. Studiyanın ortasında "Steinway" royalı qoyulmuş, divarlar boyu stullar düzülmüşdü. Studiyanın giriş otağından soldakı kiçik otaqda müdir, hesabdar və yazı makinasında işləyən katibə

---

[1] İradə Sarıyeva. 6 noyabr – Azərbaycan radiosunun yarandığı tarix....Bakixəbər.–2015. 6 noyabr.s.15http:// www.anl.az/ down/meqale/ bakixeber/2015/ noyabr/ 462468. htm-https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_D%C3%B6vl%C9%99t_Radiosu

[2] Nəzakət Ələddinqızı. https://sesqazeti.az/news/social/573849.html

otururdular. Həmin yerdəki B-4 tipli radioqəbuledici aparatın vasitəsilə müdir radio verilişlərinin texniki keyfiyyətini yoxlayırdı.[1]

1929-cu ilin oktyabrında məşhur bəstəkar Müslüm Maqomayev Bakı radiosunun musiqi rəhbəri təyin olunur. Azərbaycan radiosunun verilişləri Müslüm Maqomayevin bəstələdiyi "RV-8" radio marşı ilə açılırdı. Bu məşhur əsər 1929-cu ilin sonunda işə salınmış RV radiostansiyasına həsr edilmişdi. Marş ilk dəfə elə həmin studiyada ifa olunur. 1932-ci ildə Müslüm Maqomayev Üzeyir Hacıbəyovla birlikdə Radio Komitəsində ilk notlu Şərq alətləri orkestrinin yaradılmasına nail oldu. İlk dəfə olaraq notlu "Şərq alətləri orkestri"ni yaratmış Azərbaycan radiosunda Niyazi, Səid Rüstəmov, Fikrət Əmirov, Cahangir Cahangirov kimi böyük sənətkarların yeni əsərlərini geniş dinləyici auditoriyasına çatdırıldı. Radio Azərbaycanda yaşayan xalqların da musiqi zövqünün formalaşmasında böyük rol oynadı.[2]

1931-ci ilin iyun ayında M.S.Ordubadinin təşəbbüsü ilə radionun diktorlarından ibarət dram dəstəsi yaradılır. Dəstəyə Leyla Terequlova rejissorluq edirdi. Dəstənin fəal üzvləri olan Soltan Nəcəfov, Leyla Terequlova, Məryəm Xudaverdiyeva, Həyat Musayeva və digərlərinin köməyi ilə kiçik həcmli radio kompozisiyalar, səhnəciklər hazırlanır. Müslüm Maqomayev səhnəciklərə musiqi bəstələyir. Beləliklə Məmməd Səid Ordubadinin "Aprel gəlini", "İstiqraz", "Çobanlar", "6 nömrəli otaq", Soltan Nəcəfovun "Təchizat parazitləri", "Rot-front", "Orucunuz qəbul!" və "Din tacirləri" kimi səhnəciklərinə efir həyatı verilir. M.S.Ordubadi radioya Cəfər Cabbarlı, Hüseyn Cavid, Mikayıl Müşfiq, Seyid Hüseyn, Səməd Vurğun, Süleyman Rüstəm, Məmməd Rahim, Mehdi Hüseyn, Sabit Rəhman, Mircəlal Paşayev kimi nasir və şairləri cəlb etməklə efirdə yeni əsərlərin tez-tez səslənməsinə nail olur.[3]

1932-ci ilin aprel ayında radio yayımı orqanı Mərkəzi İcraiyyə Komitəsindən alınaraq Xalq Komissarları Sovetinin tabeliyinə verilir. 1932-ci il iyulun 5-də Azərbaycan MİK Radio Yayımı üzrə Mərkəzi Komitənin yaradılması barədə qərar qəbul edir. 1933-cü il mayın 5-də Azərbaycan Xalq Komissarları Soveti yanında Radiolaşdırma və Radio Verilişləri Komitəsi yaradılır və 1939-cu ilin avqustunda Radiolaşdırma və Radio Verilişləri Komitəsi Radioinformasiya Komitəsinə çevrilir. Radionun fəaliyyət imkanları ölkə ərazisində radio nöqtələrinin sayının artırılmasını zəruri edir. 1940-cı ilin sonunda ölkə ərazisində radio nöqtələrinin sayı 51 minə çatır. Respublikanın 32 rayonunda yerli radio verilişləri redaksiyaları fəaliyyətə

---

[1] İradə Sarıyeva. 6 noyabr – Azərbaycan radiosunun yarandığı tarix....Bakixəbər.–2015.6 noyabr.s.15http://www.anl.az/down/meqale/bakixeber/2015/noyabr/462468.htmhttps://az wikipedia.org/wiki/Az%C9%99rbaycan_D%C3%B6vl%C9%99t_Radiosu

[2] Nəzakət Ələddin qızı. https://sesqazeti.az/news/social/573849.html

[3] İradə Sarıyeva. 6 noyabr – Azərbaycan radiosunun yarandığı tarix....Bakixəbər.–2015. 6 noyabr.s.15http://www.anl.az/down/meqale/bakixeber/2015/noyabr/462468.htmhttps://az wikipedia.org/wiki/Az%C9%99rbaycan_D%C3%B6vl%C9%99t_Radiosu

başlayır.[1] 1941-ci ildə SSRİ hökuməti radio təbliğatını Türkiyə və İranda yaymağı məqsədəuyğun hesab edir. Həmin ilin iyulunda Azərbaycan radiosu türk və fars dillərində verilişlər hazırlayan iki redaksiya yaradır. 1941-ci il iyulun 20-də "Burası Bakı", "İnco Baku" ifadələri ilk dəfə Azərbaycan radiosu ilə verilən sınaq verilişləri səsləndirilir. Həmin verilişlər 1941-ci il avqustun 18-dən, müntəzəm olaraq "Bakının səsi" çağırışı altında dünya efirinə çıxır. O dövrdə xaricə yayımlanan radio təbliğatına Məmməd Səid Ordubadi, Mikayıl Rəfili, Cəfər Xəndan, Qulam Məmmədli, Adil Əfəndiyev, Lətif Kərimov, Mübariz Əlizadə, Ələsgər Məmmədov, Abbas Gülməmmədov, Cəfər Hacıyev, Hüseyn Məcnunbəyov, Cabbar Cabbarov, Fazil Babayev, Mina Bayramova, Şərif Vəliyev və digər tanınmış yazıçılar, jurnalistlər, şərqşünaslar öz töhfələrini verirdilər. Verilişlərdə Sovet Məlumat Bürosunun xəbərləri, ziyalıların radio ilə çağırışları İran və Türkiyə əhalisinə çatdırılırdı.[2]

Müharibədən söz düşərkən müharibə dövrü insanların yaddaşlarına həkk olunmuş diktor Yuri Levitanın ecazkar səsi xatırlanır. İnternet əsrində bəlkə də radio haqqında danışmaq, onun qələbədəki rolundan söhbət açmaq qəribə səslənsə də, radio və rabitə işçilərinin 1941-1945-ci illərdəki fəaliyyəti ölçüyəgəlməzdir. Bu sahədə Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi müharibə illərində məqsədyönlü fəaliyyət göstərmişdir. Müharibənin ilk günlərindən mühüm məlumatlar 20-30 dəqiqə ərzində rus dilindən tərcümə edilərək Azərbaycan dilində səsləndirilirdi. Xəbərləri və radio verilişlərini əhalinin dinləməsi üçün 4.500-dən artıq səsgücləndiricidən istifadə olunurdu. 1941-ci il iyunun 22-nə keçən gecə müharibənin başlanmasını Azərbaycan dinləyicilərinə diktor Zəhra Salayeva zirzəmidəki yarıqaranlıq bir otaqdan xəbər verdi. Azərbaycan radiosunun işçiləri faşizmlə mübarizədə mikrofonu ən kəsərli silaha çevirdilər. Müharibə dövrünün tələblərinə uyğun olaraq radio buraxılışları çox qısa müddətdə hazırlanır, verilişlər gecə-gündüz ara vermədən yazılır və montaj edilir, xəbər buraxılışlarının gündəlik həcmi 5 saata qədər artırılırdı. Dövrün ən çox dinlənilən verilişi "Azərbaycan – cəbhə üçün" olsa da, əsas ağırlıq "Son xəbərlər" redaksiyasının üzərinə düşürdü. Hər gün dinləyiciyə mühüm məlumatlar, dövlət qərarları 30 dəqiqə ərzində rus dilindən tərcümə edilərək, Azərbaycan dilində çatdırılırdı. Müharibə zonasında Azərbaycan əsgərləri ilə tez-tez görüşlər keçirən S.Vurğun, S.Rüstəm, R.Rza, M.Rahim, M.İbrahimov, M.Hüseyn, Ə.Vəliyev, M.C.Paşayev və digər yazıçı və şairlər radioda çıxış

[1] İradə Sarıyeva. 6 noyabr – Azərbaycan radiosunun yarandığı tarix....Bakixəbər. –2015.6 noyabr.s.15http://www.anl.az/down/meqale/bakixeber/ 2015/noyabr/ 462468. htmhttps: //az.wikipedia.org/wiki/Az%C9%99rbaycan_D%C3%B6vl%C9%99t_Radiosu

[2] Zərxanım Əhmədli. Danışır Bakı. Ədəbiyyat qəzeti. – 2011. – 20 may. – s.3. http://www.anl.az/down/meqale/ edebiyyat/2011/may/176442.htm

edir, vətənpərvərlik mövzularında yazılmış pyeslər, tematik yazılar dinləyicilərin diqqətinə çatdırılırdı

Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi yerlərdə radio verilişlərinin səmərəli təşkilinə köməklik göstərirdi. Komitənin Azərbaycan K(b)P MK-ya göndərdiyi 17 noyabr 1941-ci il tarixli qeydlərində bildirilirdi ki, bir ay müddətində yerlərə ezam olunmuş 8 nəfər işçi 30 rayonda olmuş, əhali arasında radio təbliğatı aparmışdır.[1]

Radionun maraqlı verilişlərindən biri "Azərbaycan cəbhəyə" radio verilişi idi. Bu verilişlərdə bəstəkarlar, şairlər, müğənnilər, artistlər, həmçinin bədii özfəaliyyət kollektivləri iştirak edirdi. Azərbaycan ziyalıları təkcə respublika radiosu ilə deyil, həmçinin Ümumittifaq-Moskva radiosu ilə də çıxış edirdi. 1942-ci il fevralın 12-də Səməd Vurğunun "Koroğlu nəsillərinə bizim salamımız" mövzusunda Moskva radiosundakı çıxışında xalqı ədalətli müharibədə qələbəyə səslədi, hiyləgər düşməni məhv etmək üçün igidlik göstərməyə və mübarizəyə çağıraraq "Bəşəriyyətin faşist zülmündən azad ediləcəyi gün uzaq deyildi. Bu işdə biz tarixi rol oynayacağıq" demişdir.[2]

1943-cü il iyulun 13-də ÜİK(b)P MK-nın "Yerli radio şəbəkələrinin işi haqqında" qəbul etdiyi qərar radio verilişlərinin məzmununun yaxşılaşdırılması sahəsində əməli rol oynadı. Həmin qərarda hərbi-siyasi qərarların, cəbhədəki vəziyyət haqqında xəbərlərin kəndlərə vaxtında çatdırılması vacib sayılır və bu işin həyata keçirilməsi üçün yerlərdə radio şəbəkəsinin və radio nöqtələrinin təşkili lazım bilinirdi. Bu sahədəki işlərə Azərbaycan K (b)P MK Bürosunun 1943-cü il 17 iyul tarixli "Yerli radio verilişləri haqqında" qərarı xüsusi təkan verdi.[3]

Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi Mərkəzi Komitə qərarından sonra əməli tədbirlər planı hazırladı. Bu tədbirlərdə Azərbaycan radiosu bədii kollektivlərinin repertuarını təzələmək, Radio Komitəsinin not kitabxanasını zənginləşdirmək, yeni radio montajları hazırlamaq, radioda səsləndirilən radio operettalarının montajlarını təzələmək, Opera Teatrı, Musiqili Komediya Teatrı və Azərbaycan Dövlət Flarmoniyasından canlı yayımların təşkili, bəstəkarların, konservatoriya tələbələrinin radio verilişlərinə cəlb edilməsi və Azərbaycan musiqi tarixindən söhbətlərin təşkili nəzərdə tutulurdu.

Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi siyasi işin müxtəlif formalarından istifadə edirdi. Belə formalardan biri radio mitinqi idi. Bu veriliş ictimai rəyin formalaşmasında həlledici rol oynayırdı. Radio səsləşmələrini də əhali maraqla qarşılayırdı. Bu səsləşmələrdə birbirindən uzaq düşmüş döyüşən adamların həyatı haqqında məlumatlar veri-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №238, iş №94, vərəq – 19-22.

[2] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – s.278.

[3] ARPİİSSA, Fond №1, siyahı №8, iş №214, vərəq – 19-22 .

lir, düşmən üzərində qazanılan qələbədən söhbət açılırdı. Qəzet nəşrində və onun vaxtında əhaliyə çatdırılmasında yaranmış çətinliklərlə əlaqədar Azərbaycan radiosu qovşaqları vasitəsilə rayon qəzetlərinin hər yeni nömrəsi gündə iki-üç dəfə kəndlər üçün oxunurdu. Bu üsul 29 rayonda həyata keçirilirdi.

Müharibə illərində Azərbaycan radiosunun işinin yaxşılaşdırılmasında Azərbaycan K(b)P MK-nın 1944-cü ilin noyabrında qəbul etdiyi "Azərbaycan radio komitəsi bədii kollektivlərinin işinin yaxşılaşdırılması haqqında" qərarı xüsusi rol oynadı. Həmin qərarda radio ilə verilən musiqi verilişlərinin keyfiyyətinin yaxşılaşdırılması tələb olunurdu. Bu sahədəki işləri əlaqələndirmək məqsədilə Ü.Hacıbəyovun başçılığı ilə Səməd Vurğun, Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov və b. ibarət bədii şura yaradılmışdı. Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi Mərkəzi Komitə qərarından sonra əməli tədbirlər planı hazırladı. Bu tədbirlərdə Azərbaycan radiosu bədii kollektivlərinin repertuarını təzələmək, Radio Komitəsinin not kitabxanasını zənginləşdirmək, yeni radio montajları hazırlamaq, radioda səsləndirilən radio operettalarının montajlarını təzələmək, Opera Teatrı, Musiqili Komediya Teatrı və Azərbaycan Dövlət Flarmoniyasından canlı yayımların təşkili, bəstəkarların, konservatoriya tələbələrinin radio verilişlərinə cəlb edilməsi və Azərbaycan musiqi tarixindən söhbətlərin təşkili nəzərdə tutulurdu. Bədii Şuranın rəhbəri Ü.Hacıbəyov musiqi verilişlərini yaxşılaşdırmaq üçün təkliflərlə MK-ya şəxsi məktubunu göndərmişdi. Məktubda muğamlar, xalq mahnıları, aşıq havalarının səsləndirilməsinə dair Ü.Hacıbəyovun təklifləri maraq doğurur. Böyük bəstəkar məktubunda "Qatar", "Bayatı Qacar", "Şüştər" kimi muğamların radioda səsləndirilməsini məqsədəuyğun saymır və arqumentlərini həmin muğamların insanlarda qəm-qüssəyə səbəb olması ilə əsaslandırırdı. O, belə hesab edirdi ki, radioda "Rast", "Mahur", "Segah", "Bayatı-Kürd" kimi muğamlar səsləndirilməlidir. Hər halda tədqiqatçılar bu məktuba münasibətdə birmənalı rəydə olmasalar da, zaman öz sözünü demişdi. 30-cu illərdən başlayan repressiyaların unutdurulması, insanlardakı ruh düşkünlüyünün qaldırılması tələbi görünür böyük bəstəkarı bu fikirlərə sövq etmişdir.

Radioda ədəbi-bədii verilişlərin bünövrəsi Məmməd Səid Ordubadi tərəfindən qoyulmuşdu. Mustafa Mərdanovun yaratdığı "Radioteatr"da Abbas Mirzə Şərifzadə, Kazım Ziya, Ülvi Rəcəb, Sidqi Ruhulla, Fatma Qədri kimi Azərbaycan səhnəsinin ustad sənətkarları çalışıblar. Azərbaycan radiosunun ədəbi dram redaksiyası verilişlərinin işində canlanma yaranmışdı. 1943-cü ildə redaksiyanın hazırladığı "1905-ci ildə", "Tufan", "Vəfa" pyesləri dinləyicilər tərəfindən maraqla qarşılanmışdı. S.Vurğun, R.Rza, M.Rahim, S.Rəhimov, Mir Cəlal radio ilə yaxından əməkdaşlıq edirdilər.

Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi əməkdaşları, artistlər və müğənnilər ordu hissələrində olmuş, 218 hospitalda, hərbi hissədə və səfərbərlik məntəqəsində 150 hamilik konserti vermişdilər.

Respublikanın rayonlarında – Siyəzən və Sumqayıtda yeni radio binaları inşa olundu, Kirovabad (Gəncə), Naxçıvan, Salyan, Quba, Lənkəran, Tovuz, Qazıməmməd (Hacıqabul) Xaçmaz, Zaqatala, Nuxa (Şəki), Culfa, Şahbuz, Ağdam, Sabirabad rayonlarının radio qovşaqlarında təmir işləri aparıldı. Ağstafa, Ağsu, Mərəzə, Naftalan, Neftçala, Saatlı, Xaldan, Xıllı və Xudatda radiolaşdırma işləri aparıldı. Bütün rayonların Bakı ilə radio əlaqəsi təmin edildi. 1944-cü ilin sonunda respublikanın 50 rayonunda yerli radio verilişləri təşkil olunurdu. Radio şəbəkəsi genişləndirilərək 6 min yeni radio cihazı quraşdırılmışdı. Respublikada 60 minə qədər, o cümlədən kəndlərdə 8 min radio nöqtəsi vardı.[1]

Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsi işçiləri cəbhəyə yardım hərəkatında fəal iştirak etdilər. 1944-cü ilin avqust və sentyabr aylarında cəbhəçi ailələrinə kömək üçün 26 min rubl toplandı.[2]

Müharibə illərində rabitə, poçt, teleqraf və telefon idarələrinin kollektivləri gərgin işlədilər. Onlar cəbhəyə milyonlarla məktub yola saldılar, teleqram qəbul etdilər və göndərdilər. Təkcə 1943-cü ildə rabitə şöbələri 32 milyondan çox məktub yola salmış 15 milyondan artıq teleqram qəbul etmişlər. Müharibə illərində respublikada radio qovşaqlarının sayı 74-dən 85-ə, radio nöqtələrinin sayı 42.939-dan 59.278-ə çatdı. Müharibə illərində 10 rayonda telefon stansiyası yenidən quruldu, 21 rayonda kommutator qoyuldu.

Müharibə illərində Bakı radio mərkəzində zəruri yenidənqurma və təmir işləri aparıldı, Moskva, Ufa, Aşqabad, Tbilisi şəhərləri ilə yeni radio rabitəsi əlaqəsi yaradıldı, köçürülmüş 30 hərbi xəstəxana radiolaşdırıldı, vağzallarda və təşviqat məntəqələrində əlavə radio nöqtələri quraşdırıldı. Radio kollektivlərinin işi "Mən ki, gözəl deyildim" bədii filmində kino həllini tapmışdır.

1945-ci ilin yanvarında Azərbaycan radiosunun gündəlik verilişlərinin həcmi 14 saat 7 dəqiqəyə çatırdı ki, bunun da 8 saat 17 dəqiqəsini yerli proqram təşkil edirdi. SSRİ rəhbərliyi radionun ictimai-siyasi və mədəni həyatda, faşizmə qarşı mübarizədə oynadığı böyük rolu nəzərə alaraq, 1945-ci il mayın 2-də xüsusi qərarla mayın 7-sini Radio Günü elan etdi. 1945-ci ilin mayın 9-da faşizm üzərində qələbə xəbərini Azərbaycanda olan 66.500 radio nöqtəsi əhaliyə çatdırdı.[3] Bu tarixi gün uzun illər boyu Azərbaycanda da bayram edildi. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra

---

[1] Əmrahov, Mais. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində. M.Əmrahov. – Bakı, 2004. – s.29.

[2] ARPİİSSA, Fond №1, siyahı №8, iş №214, vərəq – 34.

[3] Zərxanım Əhmədli. Danışır Bakı. Ədəbiyyat qəzeti. – 2011. – 20 may. – s.3. http://www.anl.az/down/meqale/ edebiyyat/2011/may/176442.htm

Azərbaycan radiosunun yaranma günü – noyabrın 6-sı "Azərbaycan Televiziya və Radio işçilərinin peşə bayramı" elan olundu.[1]

Azərbaycan radiosu II Dünya müharibəsinin əvvəlindən sonuna kimi Azərbaycan əsgərinin mərdliyindən, mübarizliyindən, qətiyyətindən, hünərindən bəhs etdi, arxa cəbhənin səbrindən, dözümündən, ön cəbhəyə dayağından verilişlər hazırladı. Müsəlləh əsgərə çevrilən radio müharibə illərində öz dinləyicisinə ən yaxın sirdaş, min bir sözü-söhbəti, qəlbəoxşar musiqiləri ilə yaralı ürəklərə məlhəm oldu. Azərbaycan radiosu yağı düşmənə öz verilişləri ilə ağır zərbələr endirdi. Bu zərbələrin sahibi radio verilişlərindən ruhlanan Azərbaycan əsgəri idi.

Radio və rabitə işçilərinin müharibə illərindəki fəaliyyəti yüksək qiymətləndirildi. Azərbaycan SSR XKS yanında Radioinformasiya Komitəsinin 16 işçisi "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olundu, 6 işçi Ümumittifaq Radio Komitəsi tərəfindən mükafatlandırıldı.[2]

Təhsil

Müharibə xalq maarifi və məktəblər qarşısında yeni vəzifələr qoydu. Məktəb şəbəkəsinin qorunub saxlanılması, müharibə şəraitində kənd yerlərində ibtidai icbari, şəhərlərdə 7 illik icbari təhsilinin həyata keçirilməsi və genişləndirilməsi qarşıda duran mühüm məsələlərdən idi. Əsas problemlərdən biri istehsalata könüllü gedən yuxarı sinif şagirdlərinin təhsilinin, cəbhəyə kömək uğrunda ümumxalq hərəkatında məktəblilərin və müəllimlərin iştirakının təşkili, valideyn himayəsindən məhrum olan, valideynlərini itirmiş uşaqların uşaq evlərində yerləşdirilməsi idi.[3]

Müharibə illərində ümumi icbari təhsil və məktəblərin işi haqqında SSRİ XKS 1941-ci il 21 iyul tarixdə "Məktəbdə təhsilin keyfiyyətini yaxşılaşdırmaq tədbirləri haqqında", ÜİK(b)P MK və SSRİ XKS 16 sentyabr 1941-ci il tarixdə "Orta məktəblərin yuxarı sinif şagirdlərinə, texnikum və ali məktəb tələbələrinə kənd təsərrüfatı peşələrinin öyrədilməsinə dair", SSRİ XKS və ÜİK(b)P MK 1941-ci il 17 noyabr tarixdə "Məktəblilərin 1942-ci il kənd təsərrüfatı işlərində iştirakı haqqında",[4] SSRİ XKS 1942-ci il 23 yanvar tarixdə "Valideynsiz qalmış uşaqların yerləşdirilməsi haqqında" qərarlar qəbul etdi.[5] Bu qərarlara müvafiq olaraq Azərbaycan SSR XKS və Azərbaycan K(b) P MK-da da qərarlar qəbul olundu.

---

[1] Zərxanım Əhmədli. Danışır Bakı. Ədəbiyyat qəzeti. – 2011. – 20 may. – s.3. http://www.anl.az/down/meqale/ edebiyyat/2011/may/176442.htm

[2] ARPİİSSA, Fond №1, siyahı №8, iş №214, vərəq – 34.

[3] Война и общество. 1941-1945 в двух книгах (Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Кн.2. Москва, 2004. – с. 34-35.

[4] Савальев, В.М., Савин, В.П. Советская интеллигенция в Великой Отечественной войны / В.М.Савин, В.П.Савальев. – Москва, 1974. – с.142.

[5] Вторая Мировая война: Итоги и уроки. Москва, 1985. – с.265-266.

Müharibə respublikanın xalq maarifi orqanlarının işində bir sıra çətinliklər yaratdı. Məktəb binalarının hospitalların və hərbi-tədris məntəqələrinin sərəncamına verilməsi nəticəsində məşğələlər bir-iki növbədən çoxnövbəli məşğələlərlə əvəz olundu.[1] Ümumtəhsil məktəblərinin yuxarı siniflərində, xüsusən kənd orta məktəblərində şagird kontingentinin azalması, sinifdən və məktəbdənxaric işin zəifləməsi ilk növbədə məktəblilərin davamiyyətinin və təhsil müvəffəqiyyətinin aşağı düşməsi ilə nəticələndi. Bu səbəbdən də, 1942-ci ilin dekabrında Azərbaycan SSR XKS və Azərbaycan K(b)P Mərkəzi Komitəsi "Müəllimlərin və şagirdlərin mədəni-məişət şəraitini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edərək xalq maarif orqanları və digər təşkilatlara "Valideynləri Qızıl Ordu sıralarına səfərbərliyə alınmış, ehtiyacı olan uşaqlara yemək, paltar, ayaqqabı, dərsliklər və tədris vəsaiti, həmçinin başqa məktəb ləvazimatı verməklə müntəzəm yardım təşkil etmək",[2] müəssisələr və kolxozların məktəblərə hamilik etməsi, məktəb bufetlərinin zəruri ərzaq məhsulları ilə təmin edilməsi, ata-analarını itirmiş uşaqların oğulluğa və qızlığa götürülməsini təşkil etmək, onların sənət kooperasiyalarında və sənaye kombinatlarında işə düzəlməsi sahəsindəki işi genişləndirmək[3] haqqında göstəriş verdi.

Azərbaycan SSR XKS və Azərbaycan K(b)P Mərkəzi Komitəsinin qərarı baxımından məktəblərin işinin təhlili göstərdi ki, 1942-1943-cü dərs ilinin əvvəlindən respublikanın bir sıra rayonları ümumi icbari təhsil planını yerinə yetirməmişlər, şagirdlərin məktəbdən yayınmasına yol verilmişdir. Laçın, İmişli, Lerik, Masallı, Astraxanbazar (Cəlilabad) rayonlarında ümumi icbari təhsil və bütün məktəbyaşlı uşaqların təhsilə cəlbi sahəsində məqsədyönlü iş aparılmır. Araşdırmalar göstərdi ki, bəzi rayonlar, məsələn Nuxada (Şəkidə) xalq maarif orqanları ilə yerli təşkilatlar məktəb binalarının vaxtında təmiri, məktəblərin odun, peç və s. ilə təmin edilməsinə lazımi diqqət göstərməsi, kolxozların məktəblər üzərində hamiliyi qənaətbəxş deyildir.[4]

Respublikada icbari təhsil qanunun yerinə yetirilməsi sahəsində Azərbaycan SSR XKS-nın 1943-cü il 21 sentyabr tarixli "Uşaqların və yeniyetmələrin nəzarətini təşkil etmək və ümumi icbari təhsil haqqında qanunun yerinə yetirilməsinə nəzarət haqqında" təlimatından sonra 15 nəfərdən az olmayaraq məktəb yaşlı uşağı olan və ən yaxın məktəbdən 3 və daha çox kilometr məsafədə olan kiçik yaşayış məntəqələrində bir komplektli məktəblər açmaq haqqında 1943-cü il 26 noyabr tarixli qərarının mühüm rolu oldu.

SSRİ XKS-nın 1943-cü il 16 iyul tarixli qərarı ilə 1943-cü ildə ittifaq və muxtar respublikaların paytaxtlarında, ölkə, vilayət və iri sənaye şəhərlərindəki məktəblərdə oğlanların və qızların ayrılıqda oxumaları təşkil edildi.

---

[1] Azərbaycan tarixi, VII cild. Bakı, 2003. – s.34-35.
[2] Газ. «Бакинский рабочий», 1942, 26 декабря.
[3] Yenə orada.
[4] "Kommunist" qəzeti, 1943, 27 fevral.

Bu qərarın verilməsində məqsəd oğlanlarla qızların bir yerdə oxuması prosesində təlim-tərbiyə işindəki nöqsanları, oğlanların və qızların fiziki tərbiyəsindəki çatışmazlıqları, onların əməyə hazırlanması, praktik fəaliyyəti və hərbi işi öyrənmələrindəki çətinlikləri aradan qaldırmaq idi. 1943-1944-cü dərs ilində Bakının 25 məktəbində, 1944-1945-ci dərs ilindən etibarən isə Gəncə, Nuxa (Şəki), Stepanakert (Xankəndi), Naxçıvan, Lənkəran, Ağdam və başqa şəhərlərin bəzi məktəblərində oğlanlar və qızlar ayrılıqda təhsil almağa başladılar.[1]

1943-cü il sentyabr ayının 3-də SSRİ XKS yeddi yaşından başlayaraq uşaqların ümumi təhsili haqqında qərar qəbul etdi. Bu qərara görə yeniyetmələr yeddiillik təhsili 14 yaşında başa vurmalı idi. Qərar uşaq bağçası ilə (6 yaş) məktəb yaşı arasındakı (8 yaş) boşluğu ləğv edirdi.

SSRİ XKS-nın 1944-cü il 21 iyun tarixli "Məktəbdə təlim keyfiyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" qərarı ilə ibtidai və yeddiillik məktəbi qurtaran şagirdlərin buraxılış imtahanları və orta məktəbi qurtaran şagirdlərin kamal attestatı imtahanı vermələrini, həmçinin kamal attestatı imtahanlarında müvəffəqiyyət qazanmış və əxlaqdan əla qiymət alan orta məktəb şagirdlərinin qızıl və gümüş medalla təltif olunmaları qaydasını müəyyən etdi. Azərbaycan SSR XMK-nın Kollegiyası SSRİ hökumətinin yuxarıda qeyd olunan qərarından irəli gələn vəzifələrin yerinə yetirilməsi gedişinə uyğun olaraq 1944-cü il oktyabrın 4-də "Orta məktəb attestatlarından sui-istifadə edilməsinə qarşı mübarizə tədbirləri haqqında" məsələ müzakirə edərək bir sıra rayonlarda bu sahədə buraxılan nöqsanları göstərdi və onların aradan qaldırılması üçün tədbirlər hazırladı.[2]

Həyata keçirilmiş tədbirlər maarif işlərinin təkmilləşməsinə öz təsirini göstərdi, xüsusilə 1943-cü ildə müəllimlərin maaşının artırılması təhsilin keyfiyyətinə əməli təsir etdi. 1944-cü ildə xalq maarifinin inkişafı üçün büdcədən 350.771 min manat vəsait ayrıldı. Nəticədə, şagirdlərin təhsilə cəlb olunması yaxşılaşdı. 1942-1943-cü tədris ilində ümumi icbari təhsilə cəlb edilmiş uşaqlar 79, 8 faiz təşkil etdiyi halda, 1943-1944-cü tədris ilində bu rəqəm 94 faizə yüksəldi.

1944-cü ili əvvəlində respublikada 429 uşaq bağçası vardı. Onlarda 53.150 uşaq tərbiyə alırdı. 1944-cü ildə bağçaların sayının 1098-ə, burada tərbiyə alan uşaqların sayının 58.253 nəfərə çatdırılması nəzərdə tutulurdu.[3]

Müharibə illərində rus dillinin tədrisinə diqqət artırıldı. Azərbaycan SSR XMK-nın kollegiyası 1943-cü il dekabrın 22-də "Azərbaycan və erməni məktəblərində rus dili tədrisini yaxşılaşdırmaq haqqında" məsələ mü-

---

[1] Амрахов, М.И. Народное образование в Азербайджана в годы войны (1941–1945 гг) / М.И.Амрахов. – Баку, 2004. – с.42–43.

[2] "Kommunist" qəzeti, 1944, 5 noyabr; Ətraflı bax: Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının qərarları və Xalq Maarif Komissarlığının əmrləri. №1. Bakı, 1944. – 23 s.

[3] "Kommunist" qəzeti, 1944, 26 mart.

zakirə etdi.[1] Azərbaycan SSR Xalq Maarif Komissarlığı kollegiyasının sədri, Xalq Maarif Komissarı Mirzə İbrahimovun sədrliyi ilə keçən iclasın qərarında Bakı şəhərinin Azərbaycan və erməni məktəblərində (1, 91, 99, 132, 152, 164, 172, 176, 187 №-li məktəblərdə) və respublikanın bəzi rayonlarında (Goranboy) rus dilinin tədrisi keyfiyyətinin yaxşılaşdırılması vəziyyətinin yekunu bildirilir və qeyd edilirdi ki, bəzi …məktəblərdə əldə edilmiş müvəffəqiyyətlərə baxmayaraq rus dilinin tədrisi ümumiyyətlə SSRİ Xalq Komissarları Soveti və ÜİK(b)P MK-nın "Milli respublikalarda və vilayətlərdə rus dilinin məcburi öyrədilməsi haqqında" 13 mart 1938-ci il tarixli qərarında irəli sürülmüş əsas tədbirlərə cavab verə bilmir. Şagirdlərin çoxusu öz fikirlərini rus dilində ifadə etmək üçün kifayət qədər söz ehtiyatına malik deyildirlər…".[2]

Azərbaycan SSR XMK kollegiyası məktəblərin rus dili müəllimləri və proqramları ilə təchiz etmək, rus dili müəllimləri üçün əlverişli maddi-məişət şəraiti yaratmaq (odun, işıq, evyanı torpaq sahəsi ilə təmin etmək), şagirdlərə rus dilini öyrənmək üçün sinifdənxaric tədbirlərin genişləndirilməsi və s. kimi tədbirlərin həyata keçirilməsinə dair tapşırıqlar müəyyənləşdirdi.[3]

İstehsalatda işləyən gənclərin təhsili yaddan çıxmadı. Bu sahədə SSRİ XKS-nin 15 iyun 1943-cü il tarixli "Müəssisələrdə işləyən yeniyetmələrin təhsil haqqında" qərarı əhəmiyyətli rol oynadı. Artıq 1943/1944-cü tədris ilində respublikada fəaliyyət göstərən 27 fəhlə-gənclər məktəbində 2.089 fəhlə oxuyurdu.[4] 1944-cü ilin oktyabr ayında Bakı və onun rayonlarında 32 axşam məktəbi açıldı. Onlarda 10.500 gənc təhsil alırdı.[5] 1945-ci ildə fəhlə-gənclər məktəbində 6.047 gənc oxuyurdu.[6]

SSRİ XKS-nin 1944-cü il 6 iyul tarixli "Axşam kəndli gənclər məktəblərinin təşkili haqqında" qərarı axşam kəndli-gənclər məktəblərinin şəbəkəsinin genişlənməsində əhəmiyyətli rol oynadı. 1944-cü ildə kəndli gənclər məktəbləri ilk tədris ilinə başladılar. Həmin il noyabr ayının 1-də respublikada 175 kəndli-gənclər məktəbi fəaliyyətdə idi. Yerli orqanların və Azərbaycan SSR XMK-nın açdığı bu məktəblərdə 15.222 gənc oxuyurdu.[7]

1944-cü il noyabrın 1-də Azərbaycan SSR-də 175 kəndli-gənclər məktəbi işə başladı. Kəndli-gənclər məktəb 2 növ idi. Birincisi 1, 2, 3, 4 sinifdən

---

[1] Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının 22.XII. 1943-cü il tarixli qərarı. Bakı, 1944. – 6 s.

[2] Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının 22.XII. 1943-cü il tarixli qərarı. Bakı, 1944. – s.3.

[3] Yenə orada, s. 4–5.

[4] Azərbaycanda xalq maarifinin inkişaf yolu. Bakı, 1945. – s.146.

[5] Yenə orada

[6] "Kommunist" qəzeti, 1944, 28 oktyabr.

[7] Yenə orada, 25 oktyabr.

ibarət ibtidai məktəb, ikincisi isə 1-dən 7-ci sinfə qədər olan 7 illik məktəbdir. Bu məktəblərə 14 yaşından başlayaraq bütün gənclər və yeniyetmələr qəbul edilirdi. Savadsızlar 1-ci sinfə, qalanları isə təhsil haqqında təqdim etdikləri arayışlardan asılı olaraq müvafiq siniflərə qəbul edilirdilər.

Kütləvi gündüz məktəblərindən fərqli olaraq axşam məktəblərində dərslər ixtisar edilmiş plan ilə keçirilirdi. Bu məktəblərdə dərslər həftədə beş dəfə keçirilir, gündə 4 saat davam etməli, tələbələrin sayı 2-dən artıq olmamalı idi. Bu məktəblərdə ibtidai siniflərdə Azərbaycan dili, rus dili, hesab, təbiət, tarix və coğrafiya, V-VII siniflərdə ibtidai məktəblərdə tədris olunan dərslərdən başqa cəbr və həndəsə, konstitusiya, fizika, kimya dərslərinin tədrisi nəzərdə tutulurdu.[1]

Məlumdur ki, 1940-cı ildə respublikada fəaliyyət göstərən bütün tip texniki peşə məktəbləri Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Əmək Ehtiyatları Baş İdarəsinin tabeliyinə verilmişdi.

Müharibənin başlanması ilə peşə məktəblərinin strukturunda dəyişikliklər baş verdi, onların şəbəkəsi genişləndirildi, şagird kontingenti artdı, Dövlət Əmək Ehtiyatları Baş İdarəsi sistemi yeni iş rejiminə keçdi.

1942-ci ilin ikinci yarısında respublikada daha 10 yeni Fabrik Zavod Təlimi (FZT) məktəbi yaradıldı. Artıq həmin ildə Dövlət Əmək Ehtiyatları Baş İdarəsinin tabeliyində olan 42 texniki peşə təhsili məktəbindən 28-i FZT, 12-si sənət, 2-si dəmiryol məktəbi idi. 18 FZT məktəbində isə yalnız neft sənayesi üçün ixtisaslı işçilər hazırlanırdı. Onlara 13 min oğlan və qız qəbul edilmiş, istehsalata 7.350 ixtisaslı fəhlə göndərilmişdir.[2]

Texniki peşə məktəblərinin yetirmələri cəbhədə qəhrəmanlıqla vuruşdular. Bakıdakı 13 saylı FZT məktəbinin məzunu Mehdi Quliyev 1943-cü ilin noyabrında Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

1945-ci ildə respublikada 30 texniki peşə təhsili müəssisəsi fəaliyyət göstərirdi.[3] Məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlər diqqət mərkəzində saxlanılırdı. Məktəblilərin hərbi hazırlığını yaxşılaşdırmaq və hərbi-vətənpərvərlik tərbiyəsini gücləndirmək sahəsində ÜİK(b)P MK-nın "Məktəblilərin hərbi təhsili haqqında" 1941-ci ilin sentyabr və 1942-ci ilin oktyabrında qəbul etdiyi qərarlar, SSRİ XKS-nin "FZŞ məktəbləri, dəmiryol məktəbləri və peşə məktəbləri şagirdlərinin ibtidai hərbi hazırlığı haqqında" xüsusi qərarı məktəb təhsilinin təşkilində əhəmiyyətli rol oynadı. Azərbaycan K(b)P MK-nın qəbul etdiyi "Orta məktəbin yuxarı sinif şagirdlərinin hərbi və fiziki hazırlığını gücləndirmək haqqında" 9 sentyabr

[1] "Kommunist" qəzeti, 1944, 25 oktyabr.
[2] Mərdanov, M. Azərbaycan təhsil tarixi. II cild. (1920-1991) / M.Mərdanov. – Bakı, 2011 – s.192-193.
[3] Yenə orada, s.194.

1941-ci il tarixdə qərarda[1] hərbi-idman və hərbi-sanitar hazırlığının tədris saatlarının artırılması,[2] nəzərdə tutulurdu. Azərbaycan K(b)P MK-nın 3 noyabr 1942-ci il qərarı əsasında natamam orta məktəblərin və pedaqoji məktəblərin planlarına ilk və çağırışa qədər hərbi hazırlıq kursu fənni daxil edildi.[3] 1943-cü ilin yanvarından etibarən Azərbaycan SSR XMK-nın nəzdindəki məktəblərin bütün siniflərində hərbi hazırlıq dərslərinə başlandı. 1943-cü ildə məktəblərdə 2.387 nəfər hərbi rəhbər çalışırdı.[4]

Müharibə illərində pedaqoji kadrların hazırlanması davam etdirildi. 1940/1941-ci ildə Azərbaycan SSR-in 16 ali məktəbində 14,6 min tələbə təhsil alırdı ki, onların 4.500 nəfəri qadınlar və qızlar idi.[5]

Müharibənin başlanması ilə əlaqədar olaraq bir sıra texnikumlar bağlandı, bəziləri isə ilə birləşdirildi. 1941-ci ildə Qusar, Salyan, Şamaxı, Ordubad, Naxçıvan pedaqoji texnikumları, Bakı Xalq Maarif şöbəsinin məktəbəqədər və siyasi-maarif məktəbləri bağlandı. Nuxadakı (Şəkidəki) Mədəni-Maarif Texnikumu Pedaqoji Texnikumla, 1941/1942-ci ildə isə BXMŞ-nin 2 saylı pedaqoji məktəbi rus pedaqoji məktəbi ilə birləşdirildi. Müharibənin birinci üç ilində respublikada texnikumların sayı 91-dən 60-a endi, tələbələrin sayı təxminən 40%-dən çox azaldı. Cəbhədə vəziyyətin dəyişməsi, sovet qoşunlarının həlledici qələbələr əldə etməsi yerlərdə aparılan işlərə təsir etdi. Yaranmış şərait orta ixtisas təhsilli kadr hazırlığına təkan verdi. 1943/1944-cü dərs ilində Astraxanbazar (indiki Cəlilabad) və Laçında yeni pedaqoji məktəblər təşkil edildi. Orta pedaqoji təhsili olmayan qiyabiçi müəllimlərə kömək məqsədilə respublikanın Astraxanbazar (Cəlilabad), Laçın, Göyçay, Qaryagin (indiki Füzuli), Şamaxı və Zaqatala şəhərlərində Maarif Komissarlığı xətti ilə müəllimlər üçün məsləhət məntəqələrində hazırlıq kursları təşkil edildi.[6]

Respublika dövlət büdcəsindən kadr hazırlığı üçün vəsait ayrılması yaxşılaşdı. 1941-ci ildə bu rəqəm 25 mln. 574 min, 1942-ci ildə 15 mln. 829 min manat təşkil edirdisə,[7] 1944-cü ilin büdcəsində ümumilikdə xalq maarifinə 473 milyon manat ayrılmışdı ki, bunun 325 milyonu Xalq Maarif Komissarlığı üçün nəzərdə tutulmuşdu.[8]

Ağır müharibə şəraitinə baxmayaraq orta ixtisas təhsilli pedaqoji kadrlar hazırlığı sahəsində Nuxa (Şəki) Pedaqoji Texnikumu səmərəli fəaliyyət gös-

---

[1] Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.). Сборник документов и материалов в 2–х томах. – Баку, 1976, I cild. – с.106-107.

[2] ARPİİSSA, Fond №1, siyahı №106, iş №46, sax. vahid №287.

[3] Azərbaycanda xalq maarifinin inkişaf yolu. Bakı, 1945. – s. 81-84.

[4] Yenə orada

[5] ARPİİSSA, Fond №1, siyahı №235, b.6, vərəq – 113, vərəq – 8.

[6] Амрахов, М.И. Народное образование в Азербайджана в годы войны (1941-1945 гг) / М.И. Амрахов. –Баку, 2004. – с.118.

[7] Azərbaycanda xalq maarifinin inkişaf yolu. Bakı, 1945. – s.86.

[8] Yenə orada, s.10.

tərdi. Texnikumda 1940/1941-ci tədris ilində 185 nəfər, 1941/1942-ci tədris ilində 55 nəfər, 1942/1943-cü tədris ilində 36 nəfər, 1943/1944-cü tədris ilində 33 nəfər, 1944/1945-ci tədris ilində 75 nəfər orta ixtisaslı kadr hazırlandı.

Müəllim hazırlığını yaxşılaşdırmaq, müharibə ilə əlaqədar yaranmış ehtiyacı ödəmək üçün bir sıra institutlar Azərbaycan Dövlət Universiteti ilə birləşdirildi.[1] 1943-cü ildən başlayaraq müharibənin gedişindəki dönüş ali təhsilin inkişafına diqqəti artırmağa imkan verdi. Nuxa (Şəki), Quba, Ağdam və Qazaxda yeni müəllimlər institutları açıldı.[2]

1944/1945-ci dərs ilində Nuxa (Şəki) İkiillik Müəllimlər İnstitutunda 197 tələbə oxuyurdu.[3]

1943-cü ilin dekabrında SSRİ XKS-nın qəbul etdiyi "Qiyabi pedaqoji təhsil sisteminin möhkəmləndirilməsinə dair tədbirlər haqqında" qərarından sonra qiyabi təhsil genişləndirilirdi. 1944-cü ilin yanvar ayından başlayaraq Azərbaycan Dövlət Universiteti, Azərbaycan Pedaqoji İnstitutu, Kirovabad Pedaqoji İnstitutu, Nuxa (Şəki), Qazax, Quba, İmişli, Naxçıvan Müəllimlər İnstitutu, Astraxanbazar (Cəlilabad – red.), Laçın, Göyçay, Qaryagin (Füzuli – red.), Ağdam, Şamaxı və Zaqatala Pedaqoji məktəbləri yanında qiyabi təhsil alan müəllimlər üçün məsləhət məntəqələri təşkil edildi.

Müəllim kadrları hazırlanmasında Azərbaycan Dövlət Pedaqoji İnstitutu səmərəli fəaliyyət göstərdi. 1941/1942-ci tədris ilində V.İ.Lenin adına APİ və Qiyabi Pedaqoji İnstitut S.M.Kirov adına ADU ilə birləşdirildi.[4] Müharibənin gedişində yaranmış əsaslı dönüşdən sonra 1943-cü ilin oktyabrında isə Azərbaycan Pedaqoji İnstitutu yenidən müstəqil İnstituta çevrildi.[5]

Müharibə institutun tələbə heyətinə də güclü təsir etmişdi. Əgər 1943-1944-cü dərs ilinin əvvəlində institut 936 nəfər tələbə ilə dərsə başlamışdısa, ilin axırında burada 610 nəfər tələbə təhsil alırdı.[6] 1944-1945-ci dərs ilinin əvvəlində institutda 756 tələbə oxuyurdusa, ilin axırında artıq dərslərə 550 nəfər davam edirdi.[7] 1945-1946-cı dərs ilinin əvvəlində 879 nəfər tələbə ilə fəaliyyətə başlayan institutda ilin sonunda 647 nəfər tələbə var idi.[8]

Müəllimlər müharibə illərində sahibsiz və nəzarətsiz qalmış uşaqların uşaq evlərində yerləşdirilməsində iştirak etdilər. Bakı şəhərində cəbhəçi uşaqlar üçün xüsusi yeməkxana yaradıldı. Həmin yeməkxanadan 4.000 məktəbli, o cümlədən 1.000 nəfər uşaq pulsuz yemək yeyirdi.

---

[1] ARMDA, Fond №1, siyahı №16, iş №30, v. –5, 35.
[2] Azərbaycanda xalq maarifinin inkişaf yolu. Bakı, 1945. – s.43-53.
[3] Yenə orada, s. 95.
[4] ARMDA, Fond №57, siyahı №16, iş №30, vərəq – 5, 35.
[5] Ağayev, B.İ. Azərbaycan Dövlət Pedaqoji Universitetinin tarixi (1921-2001) / B.İ.Ağayev. – Bakı, 2002. – s.87.
[6] ARMDA, Fond №1656, siyahı №2, iş №26, vərəq – 69.
[7] Алимирзоев, Х.О. 50 лет АГУ. Исторический очерк / Х.О.Алимирзоев. – Баку, 1969. – с.154.
[8] ARMDA, Fond №1656, siyahı №2, iş 9, vərəq – 121.

Nuxa (Şəki) rayonunda əsgər uşaqlarından 2.340 nəfəri uşaq bağçalarına, 839 nəfəri uşaq evlərinə cəlb edilmişdi, 3.223 nəfər məktəb bufetlərində pulsuz yeməklə təmin olunmuşdu. Şəhərdə fəaliyyət göstərən 7 uşaq evində 700 sahibsiz uşaq tərbiyə olunurdu. 1944-cü ildə Nuxada (Şəkidə) açılmış 3 uşaq evində 500 sahibsiz uşaq vardı.

Azərbaycan SSR-in təhsil işçiləri, müharibə illərində kütləvi siyasi işdə fəal iştirak etdilər. Müəllimlər təşviqat məntəqələrinin təşkilində yerli hakimiyyət orqanlarına kömək edir, mühaziraçi, məruzəçi və təşviqatçı kimi dəmiryol stansiyalarında, hospitallarda, körpülərdə və vağzallarda kütlələr arasında iş aparırdılar. Müəllimlərin 1942-ci ildə oxuduğu mühazirələri 91.500 nəfər dinləmişdi.[1]

Sovet İttifaqı Qəhrəmanı
Fariz Səfərov

Sovet İttifaqı Qəhrəmanı
Şəmsulla Əliyev

Sovet İttifaqı Qəhrəmanı
Səməd Abdullayev

Sovet İttifaqı Qəhrəmanı
Qəzənfər Əkbərov

1941-1945-ci illər müharibəsində cəbhədə göstərdiyi qəhrəmanlığa görə müəllimlərdən Səməd Abdullayev, Qəzənfər Əkbərov, Şəmsulla Əliyev, Fariz Səfərov və Nikolay Şeverdyayev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.[2]

Müəllimlərin apardığı iş hökumət tərəfindən yüksək qiymətləndirildi. Müharibə dövründə 323 müəllimə "Əməkdar müəllim" adı verildi, 107 nəfər müəllim Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edildi.

Elm

Bütün qüvvə və vəsaitləri düşmənin dəf edilməsi üçün səfərbər etmək, hərbi və dövlət hakimiyyətini tam cəmləşdirmək üçün 1941-ci il iyunun 30-da ölkədə İ.V.Stalinin sədrliyi ilə Dövlət Müdafiə Komitəsi (DMK) yaradıldı. İ.V.Stalinin göstərişi ilə Ümumittifaq Ali Məktəblər Komitəsinin sədri professor S.V.Kaftanov elm sahəsi üzrə müvəkkil təsdiq edildi.

Elm üzrə müvəkkilə çox böyük səlahiyyətlər həvalə olunmuşdu. S.V.Kaftanov öz fəaliyyətində DMK-nın 10 iyul 1941-ci il tarixli qərarı ilə

---

[1] ARPİİSSA, Fond №2, siyahı№46, iş №25, vərəq – 204.

[2] Səməd Abdullayev, Qəzənfər Əkbərov, Şəmsulla Əliyev, Fariz Səfərov və Nikolay Şeverdyayev haqqında monoqrafiyanın "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

yaradılan və özünün sədr olduğu Elmi-texniki Şuraya əsaslanırdı.[1] Elmin inkişafını tənzimləyən digər orqan SSRİ Dövlət Plan Komitəsi idi. Müxtəlif seksiyalara bölünən Elmi-texniki Şura ölkənin tədqiqat müəssisələrinin və ali məktəblərinin elmi işini əlaqələndirir, bu işi müdafiə ilə bağlı aktual problemlərin həllinə istiqamətləndirirdi.[2] Elmi araşdırmaların təşkilinə partiya rəhbərliyini gücləndirmək üçün ÜİK(b)P MK-nın elm şöbəsi yaradılmışdı. ÜİK(b)P MK-nın elm şöbəsi yeni texnikanın xalq təsərrüfatına tətbiq edilməsi planlarını nəzərdən keçirir və təsdiq edir, elmi-texniki və konstruktor təfəkkürünün inkişafını istiqamətləndirirdi.

Fundamental elmi problemlərin tədqiqi ilə məşğul olan elmi müəssisələrə SSRİ EA və onun yerlərdəki orqanları rəhbərlik edirdi. Müharibə ərəfəsində, 1941-ci ilin yanvarında "SSRİ EA-nın filialları haqqında Əsasnamə" təsdiq edilmişdi. Əsasnamədə filialların vəzifələri, onların yaradılmasının təşkilati prinsipləri, rəhbər orqanların yaradılması qaydaları dəqiq müəyyənləşdirilmişdi. Müharibə SSRİ-nin elmi-texniki potensialından geniş və hərtərəfli istifadə olunmasını, qələbə üçün elmin ən yeni nailiyyətlərindən istifadəni, elmin rolunun daha da artırılmasını gündəliyə gətirdi. Müharibənin başlanması ilə xalq təsərrüfatının bütün sahələrinin müharibə tələblərinə uyğun qurulmasına başlanıldı.

Müharibə Respublika alimləri qarşısında məsul vəzifələr qoydu. SSRİ EA AzF-nın bütün institutları fəaliyyətinin xarakterini kökündən dəyişdi, elmi-tədqiqat işlərinin intensivliyi artırıldı, elmi araşdırmalarını davam etdirildi.[3]

Azərbaycan elmi öz işini müharibə şəraitinə uyğunlaşdırırdı. Müharibənin əvvəlində Azərbaycan SSR-də kifayət qədər güclü elmi potensial yaranmış, elmi müəssisələr və ali məktəblər şəbəkəsi formalaşmışdı. Respublikada 16 ali məktəb fəaliyyət göstərirdi, elmi işçilərin sayı 1933 nəfər idi.[4] 1940-cı ildə respublikada 60 elmi müəssisə, o cümlədən 23 elmi-tədqiqat institutu, onların filialı və bölməsi vardı,[5] elmi işçilərin sayı 2 min nəfərə yaxınlaşırdı.[6] SSRİ EA Azərbaycan Filialı, onun elmi-tədqiqat institutları, ali məktəblər, ümumiyyətlə respublikanın bütün elmi potensialı orduya xidmət məqsədlərinə tabe edildi.

---

[1] История Великой Отечественной войны Советского Союза. 1941-1945: В – 6–ти т. Москва, 1961-1965, т. 2, 1963. – с. 540-541.

[2] Кафтанов, С.В. Организация научных исследований в годы войны / Советская культура в годы Великой Отечественной войны. Москва, 1976. – с. 57.

[3] Kərimova, T.S. Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakixanov adına Tarix İnstitutu 1941-1945-ci illər müharibəsi dövründə //Azərbaycan Milli Elmlər Akademiyası Xəbərləri. İctimai elmlər seriyası, 2016, №1, s.12-22.

[4] Советский Азербайджан за 50 лет. Ст. сб. Баку, 1970. – с. 212, 229.

[5] Народное хозяйство Азербайджанской ССР в 1962 г. ст. сб. Баку, 1963. – с.186.

[6] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse-prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012. – s.13.

Müharibə başlayanda SSRİ EA Azərbaycan Filialında 22 şöbəsi olan 7 institut, 11 bölməsi olan 4 müstəqil bölmə 4 muzey və botanika bağı vardı. Filial əməkdaşlarının sayı 496 nəfər idi, onlardan 174 nəfəri elmi işçi idi.[1]

Müharibənin tələbləri ilə əlaqədar elmi-tədqiqatların istiqamətlərində bir sıra dəyişikliklər edildi. Hərbi sənayeni zəruri xammalla, avadanlıqlarla, istehsalı təkmilləşdirilmiş metodlarla təmin etmək ehtiyacı yarandı. Ölkənin xammal ehtiyatlarını səfərbərliyə almaq, çətin tapılan materialları yerli xammallarla əvəz etmək qarşıda dururdu.[2] Bu səbəbdən də elmi müəssisələrə "təxirə salmadan tematikanı yenidən nəzərdən keçirib işin tədqiqat metodunu yenidən təşkil etmək, elmi işçilərin bütün yaradıcı təşəbbüs və güclərinin ilk növbədə Vətənin hərbi qüdrətinin möhkəmləndirilməsi vəzifəsinin həllinə yönəltmək tapşırığı verildi.[3] SSRİ EA Rəyasət Heyətinin 1941-ci il 23 iyun tarixli geniş iclasının "tədqiqat işlərinin mövzularını və metodlarını yenidən nəzərdən keçirmək, elmi işçilərin bütün yaradıcı səylərini və enerjisini, ilk növbədə, vətənin hərbi qüdrətinin artırılması məsələlərinin həllinə yönəltmək" barədə tapşırıqlarına uyğun olaraq müharibənin elə ilk günlərindən elmi müəssisələrin planları yenidən quruldu. 1941-ci il iyulun 5-də SSRİ EA Azərbaycan Filialının Rəyasət Heyəti tərəfindən elmi-tədqiqat işlərinin mövzularına yenidən baxılması üçün komissiya fəaliyyətə başladı.[4] SSRİ EA AzF-nın iş planına da yenidən baxıldı, filialın institutlarının və sektorlarının tematik planları yenidən nəzərdən keçirildi, müdafiə xarakterli işlərin aparıldığı hərbi təşkilatlar, zavodlar və başqa müəssisələrlə əlaqə yaradıldı.[5]

Müharibənin ilk günündən Az.Fa-nın 66 əməkdaşı cəbhəyə yollandı.[6] Döyüş meydanlarında filialın əməkdaşı A.Məmmədov həlak oldu, sonralar Azərbaycanın məşhur arxeoloqu olan Məmmədəli Hüseynov, kimyaçı və tarixçi İsa Səlimxanov, coğrafiyaçı Rəmzi Yüzbaşov almanlara əsir düşdülər.[7]

Mənfur düşmənə qarşı mübarizədə ziyalıların yaradıcı qüvvələrinin səfərbər edilməsinə yönəlmiş kütləvi işin mühüm formalarından biri də mitinq və yığıncaqların keçirilməsi idi. «Правда», «Известия», "Kommunist", «Бакинский рабочий», «Вышка» və başqa qəzetlər həmin mitinq və yığıncaqlar barədə hesabatlar dərc edir, müxtəlif materiallarda respublika

---

[1] ARMDA, Fond №411, siyahı №8, iş 171, v. –25; iş №113, vərəq – 34-36.

[2] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse-prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012. – s.14-15.

[3] Yenə orada, s.15.

[4] Левшин, Б.В. Советская наука в годы Великой Отечественной войны / Б.В.Левшин. – Москва,1983, – с. 67.

[5] ARPİİSSA, f. 1, siy.153, qov. 103, vərəq – 84-100.

[6] ARMDA, f. 411, siy. 8, iş 365, vərəq – 107-108.

[7] Керимова, Т. Вклад ученых Азербайджана в Великую Победу / Служили Родине и науке… / Под ред. акад. А.Ализаде. Баку, 2015. – с.20.

ziyalılarının müharibənin ilk günlərindən başlayaraq nümayiş etdirdikləri vətənpərvərlik, bütün qüvvələrini düşmənin məhv edilməsinə sərf etməyə hazır olduqları barədə söhbət açılırdı.

İyulun 4-də Azərbaycan Dövlət Filarmoniyasında ziyalıların mitinqində EA AzF-ın nümayəndələri də fəal iştirak etdilər. Mitinqdə EAAzF-ın Rəyasət Heyətinin üzvləri M.Topçubaşov, Ü.Hacıbəyov və respublikanın digər görkəmli alim və mütəxəssisləri çıxış edərək arxa cəbhədə qalan alimlərə, bütün ziyalılara "Müraciət" qəbul etdilər. Mitinqdən sonra yüzlərlə mitinq iştirakçısı xalq müdafiəçiləri dəstələrinə könüllü yazıldılar. Onların ilk sıralarında M.A.Mirqasımov, Ü.Hacıbəyov, M.A.Topçubaşov, M.A.Dadaşzadə, Səməd Vurğun, M.V.Abramoviç, S.A.Dadaşov, M.A.Useynov, Q.H.Hüseynov, N.P.Afonski, V.Tornoqradsk və başqaları[1] vardı.

Müharibənin ilk günlərindən Azərbaycan SSR-in neft emalı zavodları öz işlərini müharibənin tələblərinə uyğunlaşdırdı. Zavodlar və elmi kollektivlər müdafiə məhsulları buraxılışına keçdilər. Bu sahədə Filialın Kimya İnstitutu ciddi uğurlar əldə etdi. 1941-1942-ci illərdə alimlər və istehsalatçıların birgə əməyi nəticəsində Bakıda 17 neft kimya və kimya müəssisələri işə salındı. Zavodlarda yeni texnoloji proseslər işlənib hazırlanması məqsədilə laboratoriyalar yaradıldı.[2]

1941-1945-ci illərdə 63 yeni kimya və neft kimyası sənayesi müəssisəsi istifadəyə verildi. 300-dən artıq mühüm ixtira işləndi və istehsalata tətbiq olundu. Nəticədə 100 növ kimya məhsulları, o cümlədən 36 növ yağ, 26 növ yandırıcı və partlayıcı vasitə, 9 adda aviasiya benzini, 8 adda dizel yanacağının kütləvi istehsalına başlandı.[3]

Y.Məmmədəliyev

Kimyaçı alimlərimizin (Y.Q.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, A.Kudinov və b.)[4] neft emalı sənayesinin yüksək ixtisaslı mütəxəssisləri (R.H.İsmayılov, M.A.Qorelik, V.S.Əliyev, A.A.Learkin və b.) ilə birgə əməkdaşlığı sayəsində alınmış və sənaye miqyasında istehsalına başlanmış yüksək oktanlı benzin, habelə sürtkü yağları növləri, M.F.Nağıyev, H.X.Əfəndiyev, İ.Ə.Orucova, Ş.A.Məmmədov, M.M.Mövsümzadənin kimya elmi və neft emalı prosesinin müxtəlif problem-

---

[1] "Kommunist" qəzeti, 1941, 5 iyul.

[2] Мадатов, Г.А. Азербайджан в Великой Отечественной войне / Г.А.Мадатов. – Баку, 1975, – с.55; Пашаев, Н.А. Победа культурной революции в Советском Азербайджане / Н.А.Пашаев. – Москва, 1976 – с.160.

[3] Газ. «Бакинский рабочий», 1971, 23 октября.

[4] Yaqubov, Ə.Ə. Azərbaycan alimləri Böyük Vətən müharibəsi illərində / Ə.Ə.Yaqubov. – Bakı, 1942 – s.12-13.

lərinə dair səmərəli tədqiqatları, geoloqlar (Ş.A.Əzizbəyov, M.Ə.Qaşqay, Ə.D.Sultanov), [1] fiziklər (X.İ.Əmirxanov), riyaziyyatçılar (İ.Q.Yesman), bioloqlar (A.A.Qrossheym), kənd təsərrüfatı sahəsində çalışan alim və mütəxəssislər (F.Ə.Məlikov, A.Ağabəyli, C.M.Hüseynov, İ.D.Mustafayev), həkimlər (M.A.Topçubaşov, M.A.Mirqasımov, V.A.Tornoqradski, F.Ə.Əfəndiyev, İ.S.Kenzburq, C.İ.Abdullayev və b.[2] kəşf, ixtira, təklif və üsulları ilə bilavasitə döyüşən orduya, onun müxtəlif təyinatlı tələblərinin yerinə yetirilməsinə, hərbi qaydada qurulan çox şaxəli xalq təsərrüfatına – sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, rabitənin, səhiyyənin müharibə şəraitində fəaliyyətinə sanballı kömək göstərdilər. Rüstəm İsmayılovun, Murtuza Nağıyevin, İzzət Orucovanın, Şıxbala Əliyevin müharibə illərində Azərbaycan elminin inkişafına verdiyi töhfələr sonradan ölkəmizdə neft-kimya elminin sürətli inkişafına yol açdı. Əliəşrəf Əlizadə, Sabit Orucov, Süleyman Vəzirov, Musa Əliyev, Əhəd Yaqubov, Baba Babazadə və b. sayəsində Azərbaycan neft sənayesi hasilatın artırılmasında böyük uğurlar əldə etdi.

Müharibə dövründə energetiklərimiz də ölkə üçün çox dəyərli işlər görmüşdülər. Həmin günlərdə onlardan bir çoxu motorqayırma üzrə xüsusi tapşırıqların yerinə yetirilməsinə keçdilər. Energetika İnstitutunun əməkdaşları müdafiə əhəmiyyəti daşıyan, fərdi istifadə üçün şor suyu şirinləşdirən aparat ixtira etdilər. Boru kəmərində axıntı, sızma yerlərini müəyyənləşdirən yeni üsul tapıldı. Texnika elmləri namizədi Əmirxanovun işləyib hazırladığı şüşə izolyatorların istehsal texnologiyası Azərbaycan Yerli Sənaye Komissarlığı tərəfindən sənaye müəssisələrində tətbiq olunurdu. Fiziklər lümines – soyuq işıq saçan rənglərin alınma texnologiyasını işləyib hazırladılar. Hərbi qurumların təqdir etdiyi bu texnologiya gecə vaxtı iş şəraitini yaxşılaşdırmaq cəhətdən neft sənayesinə dəyərli bir töhfə idi.

Müharibə illərində fəal iştirakına, cəbhəni və xalq təsərrüfatının vacib məhsullarla təmin edilməsində fəaliyyətinə görə Y.Məmmədəliyev, X.Qutırya "Lenin" ordeni ilə təltif olundular.[3] Kimyaçı alimlərdən Y.Məmmədəliyev, X.Qutırya, M.Kardin, L.Solovyov, A.Markin Dövlət Mükafatına layiq görüldülər. Onlarla kimyaçı mühəndis və fəhlə ordeni və medallarla təltif olundu.[4]

Müharibənin başlanması ilə humanitar elm və tədris müəssisələri işinin fəaliyyət istiqamətini və problematikasını dəyişdi, fundamental elmi

---

[1] Yenə orada, s.16-17.

[2] Yenə orada, s.20.

[3] Ю.Г.Мамедалиев. Библиография. Деятели науки и культуры Азербайджана. Баку, 1965, с. 8; Алексеев, Е.П. Советские ученые – фронту. Защита отечества / Е.П.Алексеев. – Москва, 1985. – с.32.

[4] А.Ш.Шахмиров. История развития химическй промышленности в Азербайджане за годы Советской власти (1920–1970 гг.) Автореф. дис. док. ист. наук. Баку, 1974. – с.66.

tədqiqatların davam etdirilməsi və Kütləvi təşviqat, siyasi maarifçilik fəaliyyəti genişləndirildi.[1]



1941-ci il dekabrın 27-də Azərbaycan SSR Hökuməti "Azərbaycan xalqının Böyük Vətən müharibəsi cəbhələrində döyüşən oğulları haqqında materialların toplanılması, mühafizə olunması və nəşr edilməsi haqqında" xüsusi qərar qəbul etdi.[2] Qərarda materialların toplanılaraq ayrı-ayrı bröşürlər şəklində çap edilməsi tələb olunurdu. Qərardan az sonra respublika tarixçiləri "**Azərbaycan tarixi. Qısa oçerk (Qədim zamanlardan XIX əsrə qədər")**[3] (əlyazma hüququnda) rus və Azərbaycan dilində çap etdirdilər.

Xalqı faşist Almaniyasına qarşı ruhlandırmaq üçün müharibə illərində İ.A.Hüseynovun "Slavyan xalqlarının birgə cəbhəsi", "Napoleonun süqutunun başlanğıcı", "1812-ci ilin dərsləri", "Moskva uğrunda mübarizə", "Partizan müharibəsinin tarixindən", "Stalinqrad", "Puqaçovun üsyanı", "Görkəmli dövlət xadimi Şirvanşah İbrahim", "Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai" məqalələri[4] və "Şah İsmayıl Səfəvi" adlı kitabçası, "Azərbaycan xalqının qəhrəmanlıq keçmişindən" rubrikası altında "Cavanşir", "Babək", həmçinin "Aleksandr Nevski ordeni" adlı məqalələr çap olundu.[5]

EA Azərbaycan Filialının Tarix İnstitutunun əməkdaşları 1943-cü ildə azərbaycanlı sərkərdələrə və hakimlərə – Cavanşir, Babək, Şirvanşah İbrahim, Qubalı Fətəli xana həsr olunan 100-dən artıq elmi-populyar kitabça və məqalələr hazırladılar. Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş işlər arasında M.Y.Vəkilovun "Cavanşir",[6] "Minin və Pojarski", Z.İbrahimovun "Babək üsyanı", "Ərəb işğalçılarına qarşı Azərbaycan xalqının mübarizəsi",

---

[1] Мехтиев, Г. Деятельность Коммунистической партии Азербайджана в период Великой Отечественной войны (1941-1945 гг.) / Г.Мехтиев. – Баку, 1967. – с.218.

[2] Багирзаде, А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны / А.Багирзаде. – Баку, 1989. – с. 54.

[3] История Азербайджана. Краткий очерк (С древнейших времен до XIX века). Баку, 1941, – с.210.

[4] Hüseynov, İ. Böyük dövlət xadimi Şirvanşah İbrahim. – Vətən uğrunda, 1943, №1-2, s. 95-98; Səfəvi dövlətinin banisi Şah İsmayıl Xətai. – Azərbaycan, 1945, №3-4, s. 50-51 (ərəb əlifbası ilə).

[5] Mədətov, Q. Görkəmli tarixçi // Elm qəz. əlavə, 1991, 9 fevral, s.4.

[6] Векилов, М.Джеваншир / М.Векилов. – Баку, 1945.

"Azərbaycan qadınının qəhrəmanlıq keçmişindən", "Böyük dostluq", "Azərbaycan xalqı döyüşkən xalqdır",[1] Y.A.Tokarjevskinin "Azərbaycan partizanları Vətən uğrunda döyüşlərdə", "Qanadlı qəhrəman"[2] İ.Hüseynovun "İki Vətən müharibəsi", "Azərbaycanlılar Birinci imperialist müharibəsində almanları necə əzişdirdilər", Z.Yampolskinin "Azərbaycanlıların Roma işğalçılarına qarşı mübarizəsi",[3] "Böyük üsyan", M.Qazıyevin "Azərbaycanda Vətəndaş müharibəsi qəhrəmanları", "Azərbaycan xalqının yadelli işğalçılara qarşı mübarizəsi tarixindən", "Azərbaycan oğulları Böyük Vətən müharibəsi cəbhələrində",[4] İ.P.Petruşevskinin "XI-XII əsrdə Zaqafqaziya xalqlarının qəhrəmanlıq mübarizəsindən", "Böyük vətənpərvər Şirvanşah İbrahim", "Azərbaycan xalqının XIII-XIV əsrlərdə qəhrəmanlıq mübarizəsindən",[5] P.N.Valuyevin "Qubalı Fətəli xan",[6] "1918-1920-ci illərdə Sovet nefti uğrunda almanların mübarizəsi", Ə.B.Şükürzadənin "Qarabağlı Pənah xan", "Qacar işğalçılarına qarşı mübarizə tariximizdən",[7] V.N.Leviatovun "Şəkili Çələbi xan",[8] Q.Q.Pisarevskinin "1809-cu ildə rus ordusunun buz yürüşü", "Mixayıl İllarionoviç Kutuzov",[9] Avadyayevin "Böyük Azərbaycan sərkərdələri Cavanşir və Babək – yadelli işğalçıların qənimi"[10] kimi kitab və kitabçalar var idi. Azərbaycan və rus dillərində nəşr olunmuş kitab və kitabçalar partiya işçiləri, təbliğatçılar, təşviqatçılar və orduda yayılırdı. 1944-cü il noyabrın 3-də respublika hökuməti Azərbaycan xalqı-

---

[1] İbrahimov, Z. Ərəb işğalçılarına qarşı Azərbaycan xalqının mübarizəsi / Z.İbrahimov. – Bakı. 1942; yenə onun, Azərbaycan xalqı döyüşgən xalqdır. Bakı, 1942; yenə onun, Azərbaycan qadınının qəhrəmanlıq keçmişindən. Bakı, 1943; Babək, Bakı, 1944.

[2] Токаржевский, Е. Азербайджанские партизаны в боях за Родину / Е.Токаржевский. – Баку, 1942; yenə onun, –Баку, 1942.

[3] Yampolski, Z. Azərbaycanlıların Roma işqalçılarına qarşı mübarizəsi / Z.Yampolski. – Bakı, 1943.

[4] Казиев, М. Azərbaycanda Vətəndaş müharibəsi qəhrəmanları / М.Казиев. – Bakı, 1941; Yenə onun, Из истории борьбы азербайджанского народа против иноземных захватчиков. Баку, 1942; Yenə onun, Сыны Азербайджана на фронтах Великой Отечественной войны. Баку, 1943.

[5] Петрушевский, И.П. Великий патриот ширваншах Ибрагим (1382-1417). Исторический очерк / И.П.Петрушевский. – Баку, 1942; Yenə onun, Совместная борьба народов Закавказья против иноземных захватчиков в XI-XII вв. – Известия АзФАН СССР, 1942, №10, с.24-35; yenə onun, Azərbaycan xalqının XIII-XIV əsrlərdə qəhrəmanlıq mübarizəsindən. Bakı, 1943.

[6] Валуев, П. Фатали-хан Кубинский. Исторический очерк / П.Валуев. – Баку, 1942.

[7] Шукюрзаде. Э. Панах-хан Карабахский // Известия АзФАН СССР, 1943, №3, с.109; həmin məqalə – "Vətən uğrunda", 1943, №6, s.68-76; Yenə onun, Qacar işğalçılarına qarşı mübarizə tariximizdən. Bakı, 1943.

[8] Левиатов, В.Н. Челеби-хан Шекинский. – Известия АзФАН СССР, №3, с.109.

[9] Писаревский, Г.Г. Ледовый поход русской армии в 1809 году / Г.Г.Писаревский.– Баку, 1941; yenə onun, Михаил Илларионович Кутузов. Баку, 1942.

[10] Авадьяев, А.А. Великие азербайджанские полководцы Джеваншир и Бабек-гроза иноземных захватчиков. – Известия АзФАН СССР, 1942, №9, с.88-91.

nın müharibədə iştirakı barədə materialların ümumiləşdirilməsi və geniş yayılması məqsədilə "**Azərbaycan Böyük Vətən müharibəsi illərində**" kitabının çapa hazırlanması barədə qərar qəbul etdi.[1]

Azərbaycan alimlərinin qüvvəsini və döyüş ruhunu qoruyub saxlamaqda, onları bir yerə cəmləşdirməkdə 1942-ci il mayın 3-də açılmış Elmi Ziyalılar Evi çox böyük rol oynadı. Bu evin işində Y.H.Məmmədəliyev, M.A.Topçubaşov, S.Vurğun, Ü.Hacıbəyov, H.N.Hüseynov, Q.Ə.Dadaşov, H.Əliyev və başqaları fəal iştirak etdilər. Ümumiyyətlə, SSRİ EA Azərbaycan Filialının alimləri geniş təşviqat-təbliğat işi aparır, hərbi hissələrdə, neft sənayesi müəssisələrində, hospitallarda mühazirələrlə çıxış edir, Azərbaycan SSR rayonlarında, məktəblərdə səfərlərdə olurdular. 1941-1945-ci illərdə 800-dən çox mühazirə oxunmuş, Azərbaycan alimlərinin oxuduqları 1277 elmi-kütləvi mühazirəni 92625 nəfər dinləmiş, 10 səyyar sərgi təşkil edilmiş, 42 xəbərlər bülleteni buraxılmışdır.[2]

1941-1942-ci illərdə hərbi hissələrə Azərbaycan, rus və erməni dillərində 50 min nüsxə siyasi, 3 milyon nüsxə bədii kitab, 150 min təbliğat plakatı, 3 milyondan çox müxtəlif şüar göndərildi.[3] 1941-1942-ci illərdə təkcə Bakı şəhərində əməkçilər üçün 54 min mühazirə oxunmuş, 2,5 min nəzəri konfrans və seminar keçirilmiş, 58 minə qədər məsləhət təşkil olunmuşdu.[4] Çoxsaylı elmi konfranslar və sessiyalar da faşizm üzərində qələbəyə xidmət edirdi. Belə tədbirlərdən biri, 1941-ci il oktyabrın 17-də Leninqraddakı Ermitajda Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş təntənəli mərasim oldu. Sovet alim və şairləri əsgər şinellərində səngərləri tərk edərək Nizami Gəncəvi yaradıcılığının əhəmiyyətindən ilhamla danışdılar, tərcümələrini oxudular.[5]


1141–1941

Государственный Эрмитаж приглашает Вас на

ТОРЖЕСТВЕННОЕ ЗАСЕДАНИЕ

посвященное 800-летию со дня рождения
великого Азербайджанского поэта

НИЗАМИ ГАНДЖЕВИ

Заседание состоится 19 октября 1941 г. в 14 часов,
вход с Малого подъезда, Набережная 9 Января, 34

При входе в Эрмитаж обязательно предъявление
документов и настоящего билета

Nizami Gəncəvinin yubiley mərasiminə dəvətnamə

Təntənəli iclasda Elmlər Akademiyasının sədri, Ermitajın, institutların, universitetlərin işçiləri, Rəssamlıq Akademiyasının, Sovet Yazıçılar Birliyinin, Rusiya Dövlət Muzeyinin, ictimai təşkilatların nümayəndələri,

---

[1] Наука и техника Азербайджана, с. 93.

[2] Гусейнов, Г. Великий Октябрь и культура азербайджанского народа // Известия АзФАН СССР, 1942, №11, с. 38.

[3] ARPİİSSA, Fond №1, siyahı №220, iş №2, vərəq – 7.

[4] Yenə orada, siyahı №183, iş №158, vərəq – 7.

[5] Алиев, Рустам. Большой вклад русских ученых и писателей в низамиведение. – Выдающиеся русские ученые и писатели о Низами Гянджеви / А.Рустам. – Баку: Язычы – 1981. – 434 с., – с.8.

aktyorlar, Şərq poeziyasını sevənlər iştirak edirdilər. İclası Ermitajın direktoru akademik İ.A.Orbeli açdı.[1] Baş elmi işçi A.N.Boldırev „Nizami və onun dövrü" mövzusu üzrə məruzəsi dinlənildi. Yazıçılar adından şair N.S.Tixonov çıxış etdi.

1941-ci il noyabrın 1-də Nizaminin 800 illiyi Gəncədə də qeyd olundu. Yığıncağı SSRİ EA Azərbaycan filialının sədr müavini Heydər Hüseynov açdı, Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov "Şairin vətəni", Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru M.A.Dadaşzadə "Nizami böyük şair və vətənpərvərdir", Səməd Vurğun "Nizami və dünya mədəniyyəti", M.Rəfili "Nizami rus xalqının qəhrəmanlığı haqqında" mövzusunda məruzələri dinlənildi.[2]

Faşizm üzərində qələbədə Azərbaycanın igid oğlanları ilə yanaşı Azərbaycan elminə dünya şöhrəti gətirmiş, düşmən üzərində qələbədə müqayisəyə gəlməz rol oynamış görkəmli tarixçilər: Ziya Bünyadov, İsmayıl Hüseynov, Mahmud İsmayılov, Məzahir Abasov, İsmayıl Həsənov, Məmmədəli Hüseynov, Rəhim Vahidov, Ömər İsmizadə, İsa Səlimxanov, Ənvər Şükürzadə, Həsən Quliyev, Ömər Həbibullayev, Qardaşxan Aslanov, Həmid Əliyev, Rizvan Zeynalov, Nikolay Makeyev, Qasım Məmmədov və yüzlərlə başqalarının payı vardır. Azərbaycanın 100-dən çox alimini SSRİ-nin orden və medallar və fəxri adlarla təltif olundu.

Faşizm üzərində qələbə təkcə döyüşən ordu deyil, həm də arxa cəbhənin əməkçilərinin fədakar əməyi sayəsində qazanıldı. Elmin nümayəndələri kütləvi vətənpərvərlik tərbiyəsində, müdafiə fonduna vəsait toplanışında fəal iştirak etdilər. 1941-ci ilin iyulunda Filialın yığıncağında müdafiə fonduna vəsait toplanışında iştirak etmək haqqında qərar qəbul olundu. Bir ay müddətində Filial üzrə 29 qram qızıl, 2 kq 50,5 qram gümüş, 6.158 rubl, 90.756 rubl dəyərində dövlət istiqrazı toplandı. Tank dəstəsi, sanitar təyyarəsi və s. yaradılmasına 56.914 rubl daxil oldu. Döyüşən ordunun döyüşçüləri üçün 1.079 ədəd isti əşyalar toplandı. Hospitallarda müalicə olunan yaralılar və xəstələr üçün ərzaq və əşyalardan ibarət 930 bağlama göndərildi. Bundan başqa, filialın kollektivi hamiliyə götürdüyü hospitallar üçün 400-dən artıq kitab topladı.[3] Fonda vəsait toplanışında fiziklər Z.Əlizadə, X.Əmirxanov, filosof H.Hüseynov, geoloq Ş.Əzizbəyov, bioloq C.Hüseynov, ədəbiyyatşünas M.Dadaşzadə, kimyaçılar Ş.Məmmədov, M.Səmədov və b. xüsusi fərqləndilər. Bir çox alimlər aldıqları Dövlət Mükafatlarını müdafiə fonduna keçirdilər. 1942-ci ilin aprelində Filialın Rəyasət Heyətinin üzvü, geologiya-mineralogiya elmləri doktoru Əhəd Yaqubov

---

[1] Газ. «Ленинградская правда», 1941, 21 октября.

[2] Багирзаде, А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны / А.Багирзаде. – Баку, 1989. – с.199.

[3] Джангиров, З. Коммунисты-ученые Аз ФАН в дни Отечественной войны // Известия АзФАН СССР, Баку, 1942, №11, с.77.

Birinci dərəcəli SSRİ Dövlət mükafatına layiq görüldü. O, bütün məbləği – 200 min rublu "Qabaqcıl elmə görə" tank dəstəsinin tikintisinə verdi.[1]

Müharibə illərində elmi kadrların hazırlanması prosesi dayanmadı. 30 alim doktorluq, 185 nəfər elmlər namizədi dissertasiyası müdafiə etdi.[2] EAAzF-nın, elmi-tədqiqat idarələrinin və kadrların, elmi əməkdaşların elmi-tədqiqat işinin bu qədər geniş vüsət alması müharibə şəraitinə baxmayaraq, SSRİ hökumətinə və İttifaqın Elmlər Akademiyasına alman işğalçıları ilə müharibənin sonuncu gərgin ilində respublika Akademiyasının təşkil olunması haqqında qərar qəbul etməsi üçün əsas oldu. Müharibənin sonunda Azərbaycan SSR Elmlər Akademiyasının təşkil edilməsi məsələsi ilə əlaqədar hazırlıq işləri sürətləndirildi.

Azərbaycan EA-nın yaradılması prosesi çox mürəkkəb proses idi. Alimlərin qarşısında filialın məşğul olacağı mövzuların, onun strukturunun, tədqiqatların planlaşdırılması və maliyyələşdirilməsi, kadrlar hazırlığı və s. məqamlarla bağlı çoxlu elmi və elmi-təşkilati məsələlər dururdu. Hazırlıq işləri başa çatdırılandan sonra SSRİ Xalq Komissarları Sovetinin 23 yanvar 1945-ci il tarixli qərarına müvafiq olaraq, Azərbaycan SSR XKS 1945-ci il martın 27-də SSRİ EA Azərbaycan filialı və respublikanın bir sıra başqa elmi-tədqiqat müəssisələri bazasında Azərbaycan SSR Elmlər Akademiyasını təsis etdi.[3] Azərbaycan SSR Elmlər Akademiyasının ilk həqiqi üzvlərinin tərkibi, strukturu və Nizamnaməsi təsdiq olundu.

1945-ci il martın 31-də Azərbaycan SSR EA həqiqi üzvlərinin birinci ümumi yığıncağında akademiyanın prezidenti və vitse-prezidentləri, akademiyanın bölmələrinin akademik-katibləri, Rəyasət Heyəti və bölmə sədrləri seçildi. Akademik M.Ə.Mirqasımov yekdilliklə Azərbaycan EA-nın ilk Prezidenti, akademiklər H.N.Hüseynov və Ş.Ə.Əzizbəyov Akademiyanın vitse-prezidentləri, akademik M.Ə.Qaşqay akademik-katib vəzifəsinə seçildilər.[4]

M.Ə.Mirqasımov

Akademiyanın Rəyasət Heyətinin tərkibinə onun Prezidenti M.A.Mirqasımov, vitse-prezidentlər Şamil Əzizbəyov, Heydər Hüseynov, akademik-katib Mirəli Qaşqay və akademik Yusif Məmmədəliyev da-

---

[1] Известия АзФАН СССР // Баку, 1942, № 4, с.9.

[2] А.А.Халилов, Б.Трепетин Азербайджанский филиал Академии наук СССР в годы Великой Отечественной войны. (Летопись 1941-1945 гг.). Баку, 1975. – с.6.

[3] Azərbaycan qanunları, Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR hökumətinin qərarlarının xronoloji külliyyatı. c. II. 1936-1945. Bakı, 1961, s. 342-343; ARMDA, Fond №411, siyahı №28, qovluq №600, vərəq – 88-103.

[4] Халилов А.А., Трепетин, Б. Азербайджанский филиал Академии наук СССР в годы Великой Отечественной войны. (Летопись 1941-1945 гг.) / А.А.Халилов, Б.Трепетин. – Баку, 1975. – с.6.

xil oldu. Bölmə sədrləri vəzifələrinə geologiya-kimya elmləri və neft bölməsinə akademik Ş.Ə.Əzizbəyov, fizika-texnika elmləri və neft bölməsinə akademik İ.Q.Yesman, biologiya və kənd təsərrüfatı elmləri bölməsinə akademik M.Ə.Topçubaşov, ictimai elmlər bölməsinə akademik H.N.Hüseynov sədr seçildi. Yığıncaq SSRİ Elmlər Akademiyasının Prezidenti akademik V.L.Komarovu və akademik İ.İ.Meşşaninovu yekdilliklə Azərbaycan Elmlər Akademiyasının fəxri üzvləri seçdi.[1]

H.Hüseynov

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin 10 iyun 1945-ci il tarixli Fərmanına əsasən elmin və texnikanın inkişafında görkəmli xidmətlərinə görə SSRİ Elmlər Akademiyasının 220 illiyi ilə əlaqədar, Azərbaycanın yeni yaradılmış Elmlər Akademiyasının işçilərinin böyük bir qrupu təltif edildi. Onlardan tarix elmləri doktoru Y.A.Paxomov "Şərəf nişanı" ordeni, tarix elmləri namizədləri İ.M.Cəfərzadə "Əmək rəşadətinə görə" və S.M.Qazıyev "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif olundular.[2]

Beləliklə, 1945-ci ildə qısa tarixi zaman kəsiyində Azərbaycanda elmi fikrinin güclü mərkəzinin Azərbaycan Elmlər Akademiyasının yaradılması respublikada elmin təşkilinin formalaşmasında böyük və məhsuldar bir mərhələnin sonu, vahid milli elm mərkəzinin, onun baş qərargahının yaradılması üçün uzun illər boyu aparılmış işin yekunu oldu.

1945-ci ildə Elmlər Akademiyasının yaradılması qələbə ərəfəsində xalqımızın iqtisadiyyatın, elmin, təhsilin və mədəniyyətin bütün sahələrində əldə etdiyi tərəqqi, onun ziyalı alimlərinin düşmən üzərində qələbəyə verdikləri töhfə ilə əlaqədar idi. 1945-ci ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının təsisi Azərbaycan elminin qələbəsi sayılmalıdır.

Səhiyyə

Azərbaycanın səhiyyə orqanları müharibənin ilk günlərindən öz işlərini yeni qaydada qurmağa başladılar. Respublika ərazisində yaradılan hospitalların avadanlıqlarla təmin olunmasına, evlərdə, ictimai yerlərdə sanitar qaydalarına riayət olunmasına nəzarəti gücləndirdilər. Yeni tibb kadrları hazırlanmağa başlandı.[3] DMK-nın 22 sentyabr və ÜİK(b)P MK-nın 8 oktyabr 1941-ci tarixli qərarlarına uyğun olaraq səhiyyə orqanları yüksək keyfiyyətli tibbi xidmətin təşkili üçün tədbirlər müəyyənləşdirdilər.

Respublika səhiyyə komissarlığı döyüşən orduda və hospitallarda yaralılara xidmət və yardım etmək məqsədilə 2.462 həkim və tibb mütəxəssisi göndərmişdi. Azərbaycan SSR-dən cəbhəyə səfərbər edilmiş 30 min

---

[1] Газ. «Бакинский рабочий», 1945, 1 апреля.

[2] Известия АН Азерб. ССР // Баку, 1945, №6, s. 60-62.

[3] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003 – s.35.

nəfərdən artıq tibb bacısı, şəfqət bacısı və sanitar drujinaçıları çox çətin şəraitdə ordu əsgərlərinə fasiləsiz tibbi yardım göstərirdilər.

Orta ixtisas və ali tibb təhsili alan mütəxəssislərin hazırlanmasında respublikanın 24 orta tibb məktəbi və 3 ali tibb müəssisəsi – Azərbaycan Tibb İnstitutu, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutu və Diş Həkimləri İnstitutu yaxından iştirak edirdilər. Orta tibb məktəblərində və respublika Qırmızı Aypara Cəmiyyəti xətti ilə hazırlanan tibbi kadrların sayı iki dəfədən artıq yüksəlmişdi. Əgər 1941-ci ilin ortalarında, yəni müharibəyə qədər respublikada 3.082 nəfər orta təhsilli tibb işçisi vardısa, 1945-ci ildə onların sayı 7.084-ə çatdırılmışdı.[1]Müharibə illərində respublika Qırmızı Aypara Cəmiyyəti xətti ilə 6.500 nəfər tibb bacısı[2] və sanitar, 13 min sanitar drujinaçısı, 1 mln. nəfərdən artıq adam "Sanitar müdafiəsinə hazır ol!" proqramı ilə işləyən hərbi-tibbi təhsil müəssisələri tərəfindən hazırlanmışdı.[3] Müharibə ərəfəsində respublikanın ali tibb təhsili ocaqlarında 635 nəfər həkimlik diplomu aldığı halda, yalnız 1944-cü ildə 900 nəfər, ümumiyyətlə, müharibə dövründə 3.305 nəfər ali tibb təhsilini tamamlayıb ön cəbhədə, arxada – səhiyyə orqanlarında – hospitallarda, təxliyə müəssisələrində və mülki səhiyyə sistemində çalışdılar.

Müalicə müəssisələri şəbəkəsi qorunub saxlanıldı. 1941-ci ilin birinci yarısında – 6 aya yaxın dövrdə 222 stasionarda 12.665 çarpayılıq xəstə yeri vardısa, 1945-ci ildə respublika xəstəxana şəbəkəsi stasionar üzrə 240-a, orada çarpayıların sayı 12.964-ə, ambulator-poliklinika müəssisələrinin miqdarı 931-dən 978-ə çatdırılmışdı.[4]

Əhaliyə sanitar-profilaktika xidmətinin yaxşılaşdırılması işində 1944-cü ildə yaradılmış Respublika Sanitar Epidemiologiya stansiyası sanitar profilli bütün təşkilatların fəaliyyətinə nəzarət edir, onların işinin səmərəli şəkildə yenidən qurulmasına yaxından köməklik edirdi.

Respublikanın əhalisinin epidemioloji vəziyyətinin yaxşılaşdırılmasına nəzarət etmək məqsədilə daimi fəaliyyət göstərən Respublika Fövqəladə Tibbi Komissiyası yaradılmışdı. Bu təşkilatın köməyi ilə respublikanın kənd yerlərində 1943-cü ildə 2.125 sanitar məntəqəsi fəaliyyət göstərirdi. Respublika Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutu da səmərəli işləyirdi.

Respublikada sanitar-profilaktik işin yeni şəraitə uyğun qurulmasında Azərbaycan SSR Səhiyyə Komissarlığı nəzdində fəaliyyət göstərən Baş Apteklər idarəsi (BAİ) ordunun və arxa cəbhənin dərmanlar, tibbi ləvazimatlar və digər əşyalarla təchizinə xüsusi köməklik edirdi. Bütün müharibə

---

[1] Агазаде, Т.Д. Здравоохранение Азербайджана в годы Великой Отечественной войны. Автореф. дис…канд. ист. наук. Баку,1989. – с.7.

[2] Yenə orada, s.15.

[3] Yenə orada, s.15-16.

[4] Yenə orada, s.17.

dövründə BAİ xəstələrə xidmət göstərilməsi və sarğı materialları üçün 531 milyon 051 min manat vəsait xərcləmişdi.[1]

Azərbaycan K(b)P MK-nın və respublika XKS-nin 9 mart 1942-ci il tarixli "Yerli ehtiyat bazalarından istifadə etmək hesabına kimyəvi əczaçılıq dərman və cihazlarının istehsalının təşkili haqqında" qərarı ilə Bakıda Səhiyyə Komissarlığı nəzdində kimyəvi-əczaçılıq zavodu təşkil edilmişdi. Respublikada tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, ağ streptosid, cərrah ipək sapı, tənzif, pambıq, şpris istehsal olunurdu.[2]

Müharibə dövründə ana və uşaqların mühafizəsinə, uşaq evlərində, internatlarda, uşaq bağçalarında məsləhət məntəqələrində, habelə respublikaya cəbhə rayonlarından köçürülən qadın və uşaqlara, onların sağlamlığına xüsusi qayğı göstərildi.

1941-ci ildə respublikada 66 hərbi hospital yaradılmışdı. Naxçıvan, Şuşa, Nuxa (Şəki – red.), Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar, respublikadakı istirahət evləri hərbi hospitallara çevrilmişdi. Müharibə illərində Bakıda 41 hərbi hospital fəaliyyət göstərmişdi. Hospitallarda 31.400 yer vardı. Hərbi hospitallar Azərbaycan Dövlət Universiteti, Elmlər Akademiyası, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU), Bakı şəhər Mədəniyyət Evi, Konservatoriya binası (kəllə-beyin), Birinci Poliklinika binasında yerləşirdi.

Müharibə illərində respublikada donor hərəkatı genişləndi. 1941-1945-ci illər ərzində yaralı döyüşçülər üçün cəbhəyə 41.609 litr qan göndərildi, 7.229 litr qanı əvəz edən preparatlar hazırlandı. Müharibə dövründə respublikanın 149.170 vətəndaşı donorçu oldu. 1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə "Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi" yaradıldı.

Müharibə dövründə odlu silah yaralarının müalicəsi Azərbaycan tibb elminin qarşısında duran problemlərdən idi. Professor A.İ.Qarayev naftalindən sağaldıcı və ağrıkəsici kimi istifadə metodikasını işləyib hazırladı. Dosent M.K.Əhmədlinin hazırladığı gipsdən istifadə metodikası gözəl nəticələr verdi. Görkəmli tibb alimləri M.Mirqasımov, M.Topçubaşov, M.Məlikov, Z.Məmmədov, F.Əfəndiyev və başqaları yaralı döyüşçülərin sağalıb həyata qaytarılmasında xüsusi xidmətlər göstərdilər.

Tibb İnstitutunun professoru F.Ə.Əfəndiyev hemotorakslı xəstələrdə irinləmə prosesinin diaqnostikası üçün orijinal metod işləyib hazırladı. Sonralar həmin metod "Əfəndiyev sınağı" kimi məşhur olan metodla F.Əfəndiyev plevra empieması zamanı istifadə edilən Şede-Estlenderin torokoplastika üsuluna təkmilləşdirici modifikasiya vermişdi.[3]

---

[1] Yenə orada, s.19.

[2] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003 – s.23.

[3] Ə.Zeynalov. Azərbaycan tibb işçiləri Böyük Vətən müharibəsində / Tarixin metodoloji və aktual problemləri. Beynəlxalq elmi-nəzəri konfrans. Tezislər. Bakı, 2007. – s.67.

Oftalmoloqlar yaralanmış gözlərin müalicəsində böyük uğurlar qazandılar. S.A.Axundova, Bağırbəyova, M.D.Abbasov 230 nəfər döyüşçünün görmə qabiliyyətini tam və qismən bərpa etdilər.[1] Təcrübəli səhiyyə təşkilatçıları V.Mahmudbəyov, H.İsazadə, S.Axundov, M.Qarayev və başqaları orduda və hospitallarda baş mütəxəssis kimi işlədilər.

Azərbaycan SSR əhalisinin yaralılara qayğısı, həkimlərin fədakar əməyinin nəticəsidir ki, tibb elmləri doktoru, professor M.A.Topçubaşov yüzlərlə döyüşçünün həyatını xilas etdi, həkimlər M.H.Abasov, S.Axundov 200-dən çox döyüşçünün gözünü müalicə edərək onları dünya işığına qaytardılar. Professor M.Mirqasımov, F.Əfəndiyev, M.Məlikov, Z.Məmmədov və başqaları fədakar əməklərinə görə yüksək dövlət mükafatları ilə təltif olundular.

Azərbaycanın tibb işçiləri döyüş cəbhələrində də qəhrəmanlıq nümunələri göstərdilər. Hərbi həkim M.Qədirov Brest qalasının müdafiəsi zamanı düşmənin aramsız atəşi altında cərrahiyyə əməliyyatı apararaq onlarla əsgər və zabiti ölümün pəncəsindən xilas etmişdi. 1941-ci ilin oktyabrında Rostov şəhərinin müdafiəsi zamanı hərbi feldşer Allahverdi Kərimov, Moskva yaxınlığındakı Kruyukiova məntəqəsi uğrunda döyüşlərdə Qədəmşah Sadıqov, Smolensk vilayətində "partizan həkimi" ləqəbli Aliyə Rüstəmbəyova, Sevastopolun qəhrəman müdafiəsində Əsmər Həsənova, bir gündə döyüş meydanından 30 yaralını silahları ilə birlikdə çıxararkən həlak olmuş sanitar xidmətçi Əhməd Heydərov, Stalinqrad döyüşlərində 3 ay ərzində 300-dən çox döyüşçünün həyatını xilas etmiş tibb işçisi Həlimə Rzayevanın xidmətləri orden və medallarla qeyd olunmuşdur[2]. Ağdaş rayonundan ordu sıralarına çağırılan, ixtisasca müəllim, tibb xidməti üzrə təlim keçdikdən cəbhədə tibb xidməti starşinası kimi xidmət edən Səməd Həmid oğlu Abdullayev, Qax rayonunun Baydarlı kəndindən cəbhəyə səfərbər olunan Məmməd Cəbrayıl oğlu Məmmədov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Mədəni-maarif müəssisələri

Mədəni-maarif müəssisələri müharibə illərində ideoloji işin dayaq məntəqələrinə çevrilmişdilər. Bu müəssisələrin işçiləri çağırış məntəqələrində, metro stansiyalarında, təşviqat məntəqələrində, hərbi hissələrdə, hospitallarda, sexlərdə və tarlalarda olur, söhbətlər aparır, mühazirələr söyləyir, qəzet və kitab oxuyur, divar qəzetləri buraxır, şərəf kitabı və şərəf lövhəsi, "SİTA pəncərələri", səyyar kitabxanalar təşkil edir, təşviqat briqadaları tərkibində mitinqlərdə, siyasi günlərdə çıxış edirdilər.

Mədəni-maarif müəssisələrinin müharibə illərindəki fəaliyyəti 3 mərhələ ilə xarakterizə olunur. 1940-1941-ci illərdə bu müəssisələr işini mü-

---

[1] Vətənə və elmə xidmət etdilər... Müəllif və tərtibçi: Georgi Zapletin. Red. AMEA-nın vitse-prezidenti, akademik A.Əlizadə. Rus dilindən tərcümə. Bakı, 2012. – s.47.

[2] Ə.Zeynalov. Azərbaycan tibb işçiləri Böyük Vətən müharibəsində / Tarixin metodoloji və aktual problemləri. Beynəlxalq elmi-nəzəri konfrans. Tezislər. Bakı, 2007. – s.65-66.

haribə tələblərinə uyğun qurmuş, 1942-1943-cü illərdən başlayaraq bütün təsir vasitələri müharibənin gedişində yaranmış dönüşün möhkəmləndirilməsinə, torpaqların işğalçılardan azad edilməsinə, 1944-1945-ci illərdə isə faşizm üzərində qələbənin təmin edilməsinə yönəlmişdi.

Müharibəyəqədərki dövrdə Azərbaycan SSR-də geniş kitabxanalar şəbəkəsi yaranmışdı. 1939-cu ildə respublikada kitabxanaların sayı 1.141-ə, burada kitabların sayı 2.389.400 nüsxəyə, 1940-cı ildə isə kitabxanaların sayı 1.383-ə, onlarda olan kitabların sayı 2.611.800 nüsxəyə çatmışdı[1]. Kitabxanaların 299-u şəhərdə, 1.084-ü kənd yerlərində idi. Kütləvi kitabxanalarda kitabların sayı 2,6 milyon nüsxə təşkil edirdi. Onlardan 2 milyon nüsxəsi şəhər, 0,6 milyon nüsxəsi isə kənd yerlərindəki kitabxanalarda cəmləşmişdi.[2]

Kitabxanalar döyüşən orduya Azərbaycan və rus dillərində kitablar göndərməyə başladılar. 1941/1942-ci illərdə Azərbaycan K(b)P MK-nın göstərişi ilə Azərbaycan milli diviziyalarına hər birində 5.000 nüsxə kitab olan 5 kitabxana verildi. Bundan əlavə hərbi hissələrə Azərbaycan və rus dillərində 50 min nüsxə siyasi, 3 milyon nüsxə bədii kitab, 150 min təbliğat plakatı, 3 milyondan çox müxtəlif şüarlar göndərildi. Döyüşən ordu hissələrinə 32 min nüsxə "Kommunist" və «Бакинский рабочий» qəzetləri yola salınmışdı. Müharibənin ilk illərində Bakıdan və Azərbaycanın rayonlarından ordu hissələrinə 34.000-dən artıq Azərbaycan və rus dillərində kitab göndərilmiş,[3] hospitallarda 2.246 oxu və söhbət keçirilmişdi. Mədəni-maarif işlərinin təşkilində Bakının şəhər kitabxanaları fərqlənmişlər.[4]

Müharibənin doğurduğu çətinliklər kitabxanalardan da yan keçmədi. Kitab Fondunu bərpa etmək üçün 1943-cü ilin əvvəlində RSFSR XMK yanında Dövlət Ədəbiyyat Fondu təşkil olundu və fonda kitab toplanışına başlandı. Azərbaycan K(b)P MK "Faşistlər tərəfindən dağıdılmış kitabxanaların bərpası üçün Respublika fondunun yaradılması haqqında" 15 fevral 1943-cü il tarixdə qərar qəbul etdi. Qərarda Azərbaycan K(b)P MK katibliyinə, Bakı şəhər komitəsinə və Azərbaycan SSR XMK tapşırıldı ki, məktəb, ali məktəb, həmkarlar təşkilatı kitabxanalarının respublika fondundan bu məqsədlə kitab ayrılmasını təşkil etsin. Qərarda, həmçinin əhalidən kitabxanalar vasitəsilə kitab toplanışı da təklif olunurdu.[5] Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS 1943-cü ilin noyabrında azad olunmuş rayonlara köməklik üçün Respublika yardım komitəsinin yerlərdə komitələrini yaratdı.[6] Azərbaycan K(b)P MK-nın təklifi ilə Azərbaycan Xalq Maarif

---

[1] Tağıyev, N.H. Sovet hakimiyyəti illərində Azərbaycanda kitabxana işinin inkişafı (1920-1955) / N.H.Tağıyev. – Bakı, 1960. – s.45.

[2] Народное хозяйство Азербайджанской ССР в 1977 году. Баку, 1978. – с.45

[3] Газ. "Бакинский рабочий", 1943, 15 ноября.

[4] ARPİİSSA, Fond №1, siyahı №238, iş№ 282, vərəq – 9-1.

[5] Yenə orada, siyahı №129, iş № 18, vərəq – 6.

[6] Yenə orada, iş №1, vərəq – 276-278.

Komissarlığı yanında Dövlət Ədəbiyyat Fondunun Bakı filialı yaradıldı. Filial öz fəaliyyəti dövründə Bakının təşkilat, müəssisə və kitabxanalarından on minlərlə kitab toplayıb işğaldan azad olunmuş rayonlara göndərdi. Bu rayonların içərisində Primorye, Axtar, Viselkov, Vorenevsk, Kurqan, Georgiyevsk və başqa mərkəzi şəhərlərin kitabxanaları var idi.

Azad olunmuş rayonların kitabxanalarına kitab göndərilmiş aşağıdakı kimi olmuşdur:

1. Stavropola (Stavropol ölkəsinin 43 partiya kabineti kitabxanasına) nüsxə	20.000
2. Stalinqrad vilayəti kitabxanalarına	30.000 nüsxə
3. Armavir şəhər kitabxanasına	4.000 nüsxə
4. Krasnodar ölkə kitabxanasına	2.000 nüsxə
5. Maykop şəhər kitabxanasına nüsxə	2.000
6. Stavropol ölkəsinin rayon kitabxanalarına	9.000 nüsxə
7. Krasnodar ölkəsinin 22 rayon kitabxanasına	4.000 nüsxə.[1]

Ümumiyyətlə, respublikamızın kitabxanaları faşist işğalından azad olunmuş rayonların kitabxanalarını komplektləşdirmək üçün 200.000-dən artıq kitab göndərmişdilər.[2]Kitabxanalar təkcə kitab göndərməklə kifayətlənmir, onların kitabxana texnikası və avadanlığı ilə də təchizinə kömək göstərir, müəllim və kitabxanaçı kadrlar göndərilirdi. 1943-cü ildə respublikamızın 50 nəfərdən çox təcrübəli müəllimi, 100 nəfərdən çox kitabxana və klub işçisi Stavropol ölkəsinə işləməyə getmişdi.[3]

Müharibə illərində Naxçıvan MSSR kitabxanaları səmərəli fəaliyyət göstərdilər. 1940-cı ildə Naxçıvan MR-da 64.000 kitab fonduna malik 73 kitabxana var idi. Bunlardan 15-i Naxçıvan MSSR XMK-nın tabeliyində idi. Kitabxanaların 8-i kənddə, 6-sı isə şəhərdə yerləşirdi. Kənd əhalisinə xidmət edən kitabxanalar və qiraət komaları tərəfindən həyata keçirilirdi.[4] 1942-ci ildə Ordubad rayon kitabxanası 1.286, Culfa rayon kitabxanası 358, Naxçıvan şəhər kitabxanası 528, Ordubad uşaq kitabxanası 860 oxucuya xidmət etmişdi.[5]

1942-ci ildə Azərbaycan SSR-in DQMV-də 39 klub, 44 qiraət koması və 13 kitabxana fəaliyyət göstərirdi. Kitabxanaların 8-i kəndlərdə, 5-i isə şəhərdə yerləşirdi.[6]

1945-ci ildə mədəni-maarif müəssisələri komitəsinin sistemində 2 vilayət, 1 respublika, 36 şəhər, 72 rayon və 128 kənd kitabxanası var idi. Bundan başqa, 318 kitabxana klub müəssisələrinin, 118 kitabxana kolxozların, 62 kitabxana həmkarlar ittifaqlarının, 5 kitabxana başqa idarə və təşkilatların nəzdində idi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №238, iş №282, vərəq – 9-15.
[2] Yenə orada.
[3] "Kommunist" qəzeti, 1943, 22 sentyabr.
[4] ARPİİSSA, Fond №1, siyahı №238, iş №154, vərəq – 63-64.
[5] Yenə orada, vərəq – 63.
[6] Yenə orada, vərəq – 64.

Ümumiyyətlə, 1945-ci ildə respublikada 754 kitabxana var idi ki, bunların 583-ü kənd yerlərində yerləşirdi. Onların kitab fondu 2.130.000 nüsxə idi. Mədəni-maarif müəssisələri sistemində olan kitabxanalarda 996.200 nüsxə, kolxoz kitabxanalarında 62.200 nüsxə, həmkarlar ittifaqları, başqa idarə və təşkilatların kitabxanalarında 595.400 nüsxə kitab var idi. Bu kitablardan 451.500 nüsxəsi kənd yerlərindəki kitabxanalarda idi.

Müharibə illərində Azərbaycan SSR XKC kitabxanaların maliyyələşməsinə xüsusi diqqət yetirirdi. 1942-ci ildə uşaq kitabxanalarının təmiri üçün 17.000 manat, kütləvi kitabxanaların təmiri üçün 118.000 manat,[1] 1943-cü ildə kənd kitabxanalarının təmiri üçün 2,5 milyon manatdan çox vəsait buraxıldı.

1945-ci ildə respublikada 213 yeni kitabxana açıldı.[2] Müharibə illərində kitabxana işçilərinin sayının 50 faiz azalmasına baxmayaraq xidmətin səviyyəsi aşağı düşmədi. 1940-cı ildə oxuculara 97.543 kitab verildiyi halda, 1941-ci ildə 127.762, 1942-ci ildə 107.239, 1943-cü ildə 100.850 və 1944-cü ilin 6 ayında 64.421 nüsxə kitab verilmişdi. Qeyd edilən dövrdə həmkarlar ittifaqı kitabxanalarına 17.6971 nəfər yeni oxucu gəlmişdi. Kitabxanalarda və onun obyektlərində 164 kitab sərgisi təşkil edilmiş, 230 müxtəlif kütləvi tədbir həyata keçirilmişdi. Müharibə illərində 1.800 adda 9.800 min nüsxə tirajla müxtəlif mövzularda kitab və kitabça, 212 adda 1.300.000 nüsxə tirajla plakat çap edilərək kənd kitabxanalarına göndərilmişdi.[3] Müharibə dövründə kitabxana işçiləri cəbhəyə kömək etmək, ordu hissələri və döyüşçülər üçün isti paltar və başqa hədiyyələr toplayıb göndərmək işində fəal iştirak etdilər. 1943-cü ildə Bakı kitabxanaları cəbhəyə 43 hədiyyə bağlaması göndərmişdi. Bu bağlamalarda paltar, azuqə və başqa şeylərlə yanaşı, şair və yazıçıların əsərləri də vardı. 1943-cü ildə qiraət komalarının aqrotexniki mövzuda keçirdiyi söhbətlərdə S.Vurğunun, S.Rüstəmin, M.Rahimin, Ə.Cəmilin və b. müharibəyə həsr olunmuş əsərləri də var idi.

Müharibə illərində mədəni-maarif müəssisələrinin fəaliyyətinin forma və üsulları da yeniləşdi. Mədəni dəyərlərin qorunub saxlanması və təxliyəsi, muzeylər və kitabxanaların köçürülməsi, mədəniyyət müəssisələrinin, xüsusilə klubların, qırmızı guşələrin, qiraət komalarının fəaliyyətinin təmin edilməsi çətin məsələlərdən idi. Klublar, qiraət komaları, qırmızı çadırlar və başqaları təbliğat məntəqələrində əhali arasında izahat işi aparırdı. Məsələn: yay mövsümü dövründə yaylaqlarda 25 qırmızı çadır yaradılmışdı, pambıq tarlalarında kolxozçulara 28 belə çadır xidmət və mühazirələrdə 62.577 nəfər iştirak etmişdi. Həmin müddətdə 3 milyona qədər kitabça, vərəqə, yaddaş, 100 mindən artıq şüar, 75.000 bədii şüar və 15.000 plakat nəşr edi-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №238, iş №154, vərəq – 25.

[2] Yenə orada, iş №308, vərəq – 19.

[3] Bədəlov, E. Böyük Vətən müharibəsi illərində kənd əhalisinə kitabxana xidməti // Kitabxana işçilərinə kömək. 1970, №1, s.19-23.

lib mədəni-maarif müəssisələri vasitəsilə yayılmışdı.[1] Klub müəssisələrinin fəaliyyət dairəsi nisbətən geniş idi. Onlar cəbhəçilərlə görüşür, kolxoz, sovxoz və sənaye müəssisələrində olur, söhbətlər və mühazirələr keçirirdilər. Klublarda sərgilər təşkil edilir, cəbhəyə məktub yazılışına köməklik edilirdi.

Azərbaycan K(b)P MK-nın XII plenumundan sonra kitabxanalarda, klublarda və qiraət komalarında işlər yaxşılaşmağa başladı. Plenumun "Kənddə siyasi maarif işləri haqqında" qərarından sonra az müddətdə respublikanın 40 rayonunda 599 siyasi-maarif ocağı yenidən açıldı. Bunlardan 438-i qiraət koması, 124-ü klub və guşə, 37-si kitabxana idi. Bunlardan başqa respublikanın 38 rayonunun kolxozlarında 131 klub, 402 qiraət koması, 99 kitabxana əhaliyə xidmət edirdi.[2]

Müharibə illərində əhalinin qüvvələrinin səfərbərliyə alınmasında və faşist işğalçılarına qarşı mübarizəyə səfərbər edilməsində muzeylərin rolu az olmamışdır. Muzey işçiləri yazılı sənədləri, əmrləri, elanları, plakatları, vərəqələri, gündəlikləri, yazılı maqnit lentlərini, məktubları, yerli qəzetləri, jurnalları, divar qəzetlərini, fotoşəkilləri, bədii əsərləri, geyimləri, orden və medalları toplayırdılar. Azərbaycan Tarixi Muzeyi, Partiya Tarixi Muzeyi və başqa muzeylərin işi daha yaxşı idi. Müharibə illərində muzeylərdə çox sayda sərgilər təşkil edilmişdi. 1943-cü noyabrın 8-dən 1944-cü ilin sentyabrın 18-dək "Qəhrəman cəbhə və arxa" mövzusundakı sərgidə 283 rəssamın 728 işi nümayiş etdirilmişdi. Müharibə illərində muzeylərdə 11.352 eksponatdan ibarət 121 daimi və səyyar sərgi təşkil edilmiş, sərgilərə 160.000 adam gəlmişdi.

Azərbaycan ədəbiyyatında hərbi-vətənpərvərlik mövzusu

Müharibə başlanan kimi ədəbiyyat və incəsənət işçiləri, şairlər və yazıçılar ümumxalq mübarizəsinin ön xəttində oldular. SSRİ Yazıçılar ittifaqının 1000 nəfərdən artıq üzvü cəbhəyə getdi. 400 nəfərə yaxın yazıçı döyüş meydanlarında qəhrəmanlıqla həlak oldu.

Bu ağır illərdə Azərbaycan yazıçılarından 40 nəfər – Ə.Əbülhəsən, Mirzə İbrahimov, Rəsul Rza, Məmməd Rahim, Əli Vəliyev, Əhməd Cəmil, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, Ənvər Əlibəyli, Zeynal Cabbarzadə, Qılman Musayev, Abdulla Fəruq, Cəfər Xəndan, Böyükağa Qasımzadə, Hüseyn Abbaszadə, Hüseyn Natiq, Bayram Bayramov, İslam Səfərli, İsmayıl Şıxlı, İsmayıl Soltan, Əyyub Abbasov, Məmməd Aranlı, Nurəddin Babayev, Süleyman Vəliyev, Oruc Qoşqarlı, Salam Qədirzadə, İosif Oratovski, Sergey İvanov, Mirzə Müştaq, Seyfəddin Abbasov, Məhərrəm Əlizadə,

[1] ARPİİSSA, Fond №1, siyahı №238, iş№ 281, v. – 35.

[2] Bədəlov, E. Böyük Vətən müharibəsi illərində kənd əhalisinə kitabxana xidməti // Kitabxana işçilərinə kömək. 1970, №1, s. 19-23, 20-21.

Nəsib Əfəndiyev, Həmid Axundlu, Həsən Qasımov, Hüseyn Razı və başqaları əldə silah vuruşmuşlar.[1]

Hüseyn Natiq, Abdulla Fəruq, Sergey İvanov, Məhərrəm Əlizadə cəbhədə həlak olmuşlar. Minlərlə kino və teatr artisti, rəssam və heykəltəraş, bəstəkar və müğənnilər orduda xidmət etmişlər. Müharibənin ilk günlərindən səfərbərliklə əlaqədar keçirilən mitinq və yığıncaqlarda alovlu nitqlərlə çıxış edən yazıçılarımız faşizmin mahiyyətini başa salır, onların törətdikləri vəhşilikləri göstərərək xalqı mübarizəyə çağırırdılar. Ziyalıların Ümumbakı mitinqində S.Vurğun deyirdi: "Azərbaycan torpağında dünyanın dahi şairi Nizami Gəncəvinin məzarı vardır. Azərbaycan torpağında öz lirikası ilə insan gözəlliyini misilsiz bir şəkildə tərənnüm etmiş Vaqifin məzarı vardır. Bu torpaqda böyük materialist filosof və dramaturq olan Mirzə Fətəli Axundovun xatirəsi vardır. Bu torpaqda Xəzər dənizinin sahilində 800 ildən bəri "Qız qalası" adlanan böyük bir abidə vardır ki, bizim qocaman tariximizdən xəbər verir. Azərbaycan xalqı və ziyalıları öz ana torpağının bu gözəl və şairanə abidələrini göz bəbəyi kimi qoruyacaq, onları faşist cəlladlarının güllələrinə, yanğınlara qurban verməyəcək".[2]

Yazıçılar, şairlər, tənqidçilər və ədəbiyyatşünasların çıxışlarının əsas mövzusu Vətənin müdafiəsi, faşizmə qarşı mübarizə idi. S.Vurğun, M.Arif, M.Hüseyn, M.Cəfərov, M.Rəfili, M.İbrahimov və başqaları belə mövzularda tez-tez çıxış edirdilər.

1942-ci ilin iyulunda Azərbaycan K(b)P MK-nın qərarına əsasən Səməd Vurğun, Süleyman Rüstəm, Osman Sarıvəlli, Məmməd Rahim, Rəsul Rza, Əli Vəliyev, Zeynal Xəlil və İlyas Əfəndiyev 416, 402 və 223 diviziyalarla görüşə getmişdilər. Yazıçı Mirzə İbrahimov və M.C.Paşayev 1942-ci ilin sentyabrında Qırmızı Ordunun Uzaq Şərq hərbi hissəsinə gedən nümayəndə heyətinə daxil edildilər.

Qafqaz uğrunda gedən gərgin döyüşlərdə – 1942-ci ilin payızında S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, Mehdi Hüseyn, Z.Xəlil, Məmməd Əkbər, Ə.Məmmədxanlı döyüşçülərlə birgə idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət cənub cəbhəsində-Sevastopol və Kerç müdafiəçilərinin yanında olmuşlar.[3]

Müharibə dövründə o zaman gənc akademik olan Mirzə Əjdər oğlu İbrahimov böyük populyarlıq qazanmışdı. O, həmçinin Azərbaycan ədəbiyyatı tarixinin görkəmli tədqiqatçısı kimi də tanınırdı. Onun Azərbaycan maarifçisi Cəlil Məmmədquluzadənin ("Molla Nəsrəddin") yaradıcılığına həsr olunmuş "Böyük demokrat" adlı əsəri elmi yüksək qiymətləndiril-mişdir.

---

[1] ARPİİSSA, Fond №2, siyahı №46, iş №25, v. – 258.

[2] "Ədəbiyyat qəzeti", 1941, 20 avqust.

[3] Axundov, Ə. Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruşmalarda / Ə. Axundov. – Bakı, 1943. – s.221.

1941-1945-ci illər müharibəsində iştirak etmiş yazıçı və şairlərdən bir qrup

Əyyub Abbasov



Mirzə İbrahimov

Hüseyn Abbaszadə

Əbülhəsən Ələkbərzadə



Zeynal Cabbarzadə

İsmayıl Şıxlı



Ənvər Məmmədxanlı

İslam Səfərli

Salam Qədirzadə

Rəsul Rza



Osman Sarıvəlli



Əli Vəliyev

Əhməd Cəmil

Ənvər Əlibəyli

Məmməd Rahim

Müharibə illərində Azərbaycanın şairləri və yazıçıları Azərbaycan övladlarının qəhrəmanlığını və arxa cəbhənin əmək fədakarlığını tərənnüm edən əsərlər yazmış,[1] Azərbaycan yazıçılarının əsərlərindən ibarət toplu[2] nəşr olunmuşdu. Bu topluya S.Vurğunun, S.Rüstəmin, M.Rahimin, R.Rzanın, M.İbrahimovun, M.S.Ordubadinin, O.Sarıvəllinin, Z.Xəlilin, Ə.Cəmilin, M.Dilbazinin, C.Xəndanın, T.Əyyubovun, N.Rəfibəylinin və başqalarının əsərləri daxil edilmişdi.[3] Azərbaycan nasirlərindən S.Rəhimov, M.S.Ordubadi, M.Cəlal, H.Mehdi, Ə.Məmmədxanlı, Y.Şirvan və başqalarının seçilmiş şerləri daxil olan toplu "Döyüşən qələm" adı altında nəşr olunmuşdu.[4] "Vətən haqqında mahnı" adlı dördüncü kitaba vətənpərvərlik marşları, gənclər, pionerlər və uşaqlar haqqında mahnılar və şerlər daxil edilmişdi.[5]

---

[1] ARPİİSSA, Fond №2, siyahı №47, saxlama vahidi №10, vərəq – 173.
[2] Yenə orada, vərəq – 14.
[3] Yenə orada, siyahı №238, iş №89, vərəq – 34.
[4] Yenə orada, vərəq – 35.
[5] Yenə orada.

Ümumiyyətlə, müharibə illərində Azərbaycanın şairləri və yazıçıları Azərbaycan övladlarının qəhrəmanlığını və arxa cəbhənin əmək fədakarlığını tərənnüm edən 100-dən çox əsər yaratmışlar.[1] Azərbaycan yazıçılarının əsərlərindən ibarət 12 toplu cəbhə üçün böyük tirajla buraxılmışdı.[2] Bakıda cəbhəçi şairlərin xüsusi toplusu nəşr olunmuşdu.

Müharibə ədəbiyyat və incəsənətin bir sıra yeni formalarını yaratmış, kiçik həcmli mübariz şerlər, ictimai-siyasi publisistika-oçerk, hekayə, xüsusi vərəqələr, bir pərdəli pyeslər və səhnəciklər, siyasi felyetonlar və satirik plakatlar, kino-məcmuələr və sənədli filmlər, mahnı və marşlar, səyyar konsertlər və sairə günün tələblərinə cavab verən formalara çevrilmişdi.

M.C.Cəfərovun "Üçüncü imperiyanın səlafi", Ə.Şərifin "Hannibal qapımızın ağzındadır", "Vətənin qəlbi", "Tarixin dərsləri", "Vətən şirindir", H.Hüseynovun "Faşizm elmin düşmənidir", Ə.Vəliyevin "Zöhrə", "Aslan" (1942), A.Zamanovun "Atanın sevinci", "Kazbekin zəfər nəğməsi", "Pakizə", O.Sarıvəllinin "Sevastopol xatirələri", M.Əkbərin "Mahir topçu", M.Cəlalın "Xəbərsiz-ətərsiz" (1942), M.S.Ordubadinin "Böyük dövlət adamı" (1942), Hidayət Əfəndiyevin "Faşizm incəsənəti məhv edir" (1942), R.Rzanın "Leytenant Bayramın gündəliyi" (1942), "Alıcı Tərlan" (1942), "Avropa vulkanı" (1942), Ə.Əzimzadənin "Sən yetim deyilsən" (1942) kimi publisistik məqalələrində faşizmin mürtəce mahiyyəti ifşa olunurdu. B.Qasımzadənin "İgid pulemyotçu", Əvəz Sadığın "Polkovnik Hacıbala Zeynalov", Mir Cəlalın "Həzi Aslanov", Yusif Şirvanın "Kamal", Məmməd Əkbərin "İgid döyüşçülər" və digər oçerklərdə əsgərlərimiz igid, qorxmaz, mübariz bir qəhrəman kimi təsvir edilmişdi.

Müharibə dövrü oçerklərinin baş qəhrəmanı döyüşçüdür, onun fədakarlığı, mübarizə əzmidir. Elə bu səbəbdən də, Mirzə İbrahimovun "Sarı sim", "Anama deyin ki", Mir Cəlalın "Qəhrəmanın yolu", R.Rzanın "Azərbaycan tərlanı", "Leytenant Bayramın gündəliyindən", "Qardaş məzarı", "Qəhrəmanın ölümü", "Əjdər Muxtar", "Böyükxanım" kimi əsərləri sevilə – sevilə oxunurdu.

Müharibənin ilk günlərindən başlayaraq vətənpərvərlik hissi ilə dolu şerlər qəzetlərdə dərc olunmağa başlandı. R.Rzanın "Döyüşçünün nəğməsi", M.Dilbazinin "Qara dəniz", Z.Xəlilin "Quduz Hitlerə", M.Rahimin "Vur, ölən faşistdir", A.Şaiqin "Zəfər bizimdir", Ə.Tələtin "Cəbhəyə", C.Xəndanın "Döyüşə gedirəm", B.Məmmədzadənin "Sevgililər", Ə.Abbasovun "Ana Vətən", H.Rəfibəylinin "Vətən uğrunda" şerləri torpaq, vətən uğrunda mübarizəyə çağırış ruhunda idi.

Azərbaycan poeziyasında vətən sevgisi güclü idi. Azərbaycan şerinin mühüm xüsusiyyətlərindən biri də Z.Xəlilin "Azərbaycan tərlanı", N.Rəfibəylinin "Eşq olsun", "Vətən qızları", M.Rahimin "Toyumuzu edərik",

---

[1]ARPİİSSA, Fond №2, siyahı №47, saxlama vahidi №10, vərəq – 173.
[2] Yenə orada, vərəq – 14.

"Qəhrəman", "Partizan qız", O.Sarıvəllinin "Qan yaddaşı", Ə.Cəmilin "Partizanlar", M.Dilbazinin "Ölməz xatirə" şerlərində və digər poeziya nümunələrində yaradılmış döyüşçü obrazı idi.

Səməd Vurğun

1941-ci il iyunun 22-də, müharibənin elə ilk günündə məşhur Azərbaycan şairi Səməd Vurğun "Vətənin keşiyində" şerini yazdı. Elmlər Akademiyasının həqiqi üzvü, görkəmli elm və incəsənət xadimi, şair Səməd Vurğun (Səməd Vəkilov) təkcə Azərbaycanda deyil, onun hüdudlarından kənarda da tanınırdı. Azərbaycan ədəbiyyatının mükəmməl bilicisi, iki dəfə Stalin mükafatı laureatı S.Vurğunun bir çox dillərə tərcümə edilmiş ecazkar şerləri, "Vaqif", "Xanlar", "Fərhad və Şirin" kimi yüksək bədii məziyyətlərə malik dram əsərləri, habelə Puşkindən və Rustavelidən tərcümələri şöhrət qazanmışdı.[1]

Səməd Vurğunun şerləri üçün vətənpərvərlik hissi daha xarakterik idi. Onun "Ananın öyüdü", "Şəfqət bacısı", "Qoca qəhrəmanın çıxışı", "Qəhrəmanın hünəri", "İgid şahin", "Rus ordusu" və digər şerlərində vətənpərvərlik hissi qüvvətlidir. Səməd Vurğun şerini oxuyan döyüşçü qəhrəmancasına vuruşacağını bildirir, hətta çətin şəraitə baxmayaraq şairə məktub yazır: "Siz şerinizi oxuduğunuz zaman biz səngərdə idik. Səsinizi və odlu misralarınızı dinlərkən elə bir üzərimizə canlandırıcı bir bahar yeli əsdi. Qolumuza qüvvət, gözümüzə yeni bir işıq gəldi... Hamı böyük vətənimiz yolunda canla-başla vuruşmağa söz verdi".[2]

"Fərhad və Şirin" pyesinə görə Səməd Vurğun 1942-ci ildə Dövlət Mükafatına layiq görülmüşdür.[3]

Müharibə dövrü şerlərindən danışarkən S.Rüstəmin "Gün o gün olsun ki", "Ana və poçtalyon" şerləri yada düşür. Leytenant Rəsul Rza oğlu Rəsulov Moskva altından bacısı Məryəm Rəsulovaya 12 noyabr 1942-ci il tarixli məktubunda yazırdı: "Bir əlimdə şair S.Rüstəmin "Gün o gün olsun ki" şerini tutub, o biri əlimlə sənə məktub yazıram. Məryəm, bu şeir nə gözəl yazılmışdır. Döyüş ara verən zamanlarda onu öz əsgərlərimizə dəfələrlə oxumuşam...".[4]

Müharibə mövzusu Əhməd Cəmil şeri üçün də xarakterik idi. Onun "Qisas al", "Nişan üzüyü", "Lay lay", "Qaçqınlar" şerlərində vətənpərvərlik ideyası öndə durur. "Tez ol, sevgilim, tez ol!", "Qəhrəman qardaşıma",

---

[1]AMEA Tİ EA, Fond №166, siyahı №15, vərəq – 10.

[2] Vətən uğrunda // 1942, № 4-5. – s.19.

[3] Багирзаде, А. Интеллигенция Азербайджана в годы Великой Отечественной войны / А Багирзаде. – Баку, 1989. – с.182.

[4] Nəbiyev, B. Kamalın təntənəsi / B.Nəbiyev. – Bakı, 1981. – s.37.

“Vətən oğluna” və başqa şerlərində düşmənlə mübarizədə səfərbərlik hissi qüvvətlidir.

Müharibə illərində qələmini silahla əvəz edən, əlində həm silah, həm də qələm tutan şairlərindən biri də Ənvər Əlibəyli olmuşdur. Tiflisdə topçular məktəbini bitirib leytenant rütbəsini alan Ənvər Əlibəyli Şimali Qafqazda, Terek çayı və Azov dənizi sahillərində, Ukrayna torpağında, Tissa ətrafında düşmənə qarşı ağır döyüşlərin iştirakçısı olmuş, Taqanroqun, Kiyevin faşistlərdən azad edilməsində fədakarlıq göstərmişdir. 416-cı diviziyanın tərkibində öz topları və topçuları ilə birlikdə əzmlə, qətiyyətlə vuruşan baş leytenant Ənvər Əlibəyli dəfələrlə yaralanmış, vətən müdafiəçilərinə baş ucalığı gətirən orden və medallarla təltif edilmişdir. Ənvər Əlibəyli əvvəlcə Cənub cəbhəsində, sonra isə Ukrayna cəbhəsində topçu bateriyasının rəisi olmuşdu.


4-IV-44.
„Italija"da
Başladım.
Nə olur bir sarı yaprag olaydım,
Sabahın yellori, allajıb məni
Aşıb-daşaq qarlı, hündür dağlara
Vətən torpağına salajıb məni,
Sabahın yellori, alajıb məni;
Sizin ellər ayrısı,
Byl-byləm gülləri ayrısı,
Bir gyunüs dözmədim yar
Olmuşam ellər ayrısı.
„Pula" Italija

Mehdi Hüseynzadənin 1944-cü ildə İtaliyanın Pula şəhərində yazdığı şer

1923-cü ildə anadan olmuş İslam Səfərli müharibənin ilk günlərindən orduya getmiş, sıravi döyüşçü, sonralar kəşfiyyatçı olmuşdur. O, ilk şerlərini cəbhədə yazmış və bir qismini ordu mətbuatında çap etdirmişdir. Onun əsərlərindən döyüşən gəncliyin nəfəsi duyulur.

Böyükağa Qasımzadə 383-cü diviziyada atıcı rotasının komandiri olmuşdu. Şairin “İntiqam”, “Məktub”, “Vətən balası”, “And” şerlərini oxuyarkən sanki insan özünü döyüş meydanında hiss edirdi.

Mehdi Hənifə oğlu Hüseynzadə 1918-ci ildə fəhlə ailəsində dünyaya göz açmışdı. Mehdi ixtisası üzrə rəssam, eyni zamanda alman dili müəllimi idi. Onu döyüş yoldaşları öz aralarında “şair deyə çağırırlarmış. Mehdinin “Vətən”, “Dünya”, “Adria sahillərində” və s. şerlərini azərbaycanlı döyüşçülər əzbər bilərmişlər. Onun “Ağlaram”, “Dəli ceyranım” şerləri də təsirli və mənalıdır. Ümumiyyətlə, M.Hüseynzadənin əsərlərinin taleyi müəyyən dərəcədə Musa Cəlilin “Moabit dəftəri”nin taleyinə oxşayır. M.Hüseynzadənin şerlərini qoruyub məhv olmağa qoymayan keçmiş partizanlardan Cavad Həkimli, Həmid Ağayev, Rza Orucov və Mikayıl Qulubəyov olmuşdur.

Müharibə dövrü şerlərində vətənpərvərlik ruhu hakim olan Ələkbər Ziyatay, Bəxtiyar Vahabzadə, Adil Babayev, Qasım Qasımzadə, Nəbi

Babayev (Xəzri), Novruz Gəncəli, Pəncəli Saleh, İmran Seyidov, İbrahim Kəbirli, Qabil İmamverdiyev, Yusif Mehdizadə, Şamil Cəmşid, Məryəm Axundzadə, Əlifağa Bağırov, Ülfət Eyvazov, Nigar Rəfibəyli, Mirvarid Dilbazi və başqaları xalqın mənəvi ruhunun yeniləşməsində əllərindən gələni əsirgəməmişlər.

Vətən eşqi, vətənpərvərlik ruhu müharibə illərinin nəşrində də öz ifadəsini tapmışdı. M.S.Ordubadi, Əbülhəsən Ələkbərzadə, Mir Cəlal, Süleyman Rəhimov, Ənvər Məmmədxanlı, Əli Vəliyev, Hüseyn Mehdi, Hüseyn Abbaszadə və başqalarının əsərləri buna sübutdur.

Əli Vəliyevin "İradə" və "Dəhşət" hekayələri, Süleyman Rəhimovun "Medalyon" povesti, Ənvər Məmmədxanlının "Analar yollara çıxdı", Əbülhəsən Ələkbərzadənin "Sahildə", Mir Cəlal Paşayevin "Axşam şəhəri" hekayələrində düşmənə nifrət, intiqam hissi kükrüyüb daşır, faşizmin dəhşətlərinə qarşı bir ittiham kimi səslənirdi.

Müharibə illərində hərbi vətənpərvərlik mövzusu dramaturgiyada da öz əksini tapmışdı. M.İbrahimovun "Məhəbbət", R.Rzanın "Vəfa", M.Hüseyn və İ.Əfəndiyevin "İntizar", M.Təhmasibin "Aslan yatağı", Z.Xəlilin "İntiqam" pyesləri, tarixi mövzularda yazılan S.Vurğunun "Fərhad və Şirin", M.Hüseynin "Nizami", "Cavanşir", A.Şaiqin "Nüşabə", M.S.Ordubadinin "Dumanlı Təbriz", "Gənc çekistlər", Z.Xəlilin "Qatır Məmməd" əsərləri bu qəbildən idi.

Müharibə illərində Cənubi Azərbaycan ədibləri – Mir Mehdi Etimad, Əli Fikrət, İbrahim Zakir, Balaş Azəroğlu, Mir Mehdi Cavuşi, Əli Tudə, Hilal Nasiri, Mədinə Gülgünün əsərlərində müharibə mövzusu önəmli yer tutmuşdu.

İncəsənətdə müharibə mövzusu

Müharibə illərində bəstəkarlar və **musiqi** ifaçılarının adamları amansız mübarizəyə səsləyən vətənpərvərlik mövzusunda yazdıqları əsərlər arxa və ön cəbhənin yaxın dostuna çevrildilər.

1941-ci il iyun ayının 13-də SSRİ XKS yanında İncəsənət İşçiləri Komitəsinin sədri M.B.Xrapçenkon vətənpərvərlik repertuarı yaratmaq, orduda, səfərbərlik məntəqələrində, əhali arasında xalqı mübarizəyə səsləyən konsert fəaliyyətini genişləndirmək çağırışı ilə respublika, diyar, vilayət və yerli komitələrinə məktub göndərdi. Azərbaycan incəsənət işçiləri də həmin çağırışa səs verdilər.[1] Ü.Hacıbəyov S.Vurğunun sözlərinə "Şəfqət bacısı", Süleyman Rüstəmin sözlərinə "Yaxşı yol" mahnılarını bəstələdi. Onun "Cəngi"sində xalqda özünə inam, ruh yüksəkliyi vardı.[2] Səid Rüstəmovun M.Rahimin sözlərinə yazdığı "Xor üçün mahnı" ordu sıralarında vuruşan əsgərlərə gümrahlıq, qələbəyə inam gətirirdi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №253, iş №7, vərəq – 29-45.

[2] Qafarov, T. Azərbaycan tarixi (1920-1991) / T.Qaffarov. – Bakı, 1999. – s. 2-4.

Olqa Nikolskayanın "Qəhrəmanlıq kantatası", Əşrəf Abbasovun aşıq İmranın sözlərinə yazdığı "Qızıl ordu" mahnısı,[1] Şəfiqə Axundovanın və Ağabacı Rzayevanın yeni əsərləri müharibə illərində populyar olmuşdu.

Azərbaycan bəstəkarları müharibə dövründə müxtəlif janrlarda 400-dən çox musiqi əsəri bəstələmişdi ki, bunların təqribən 25-i simfonik əsər idi[2]. Ü.Hacıbəyovun qələbəyə həsr etdiyi "Qələbə himni", "Azərbaycan SSR-in Dövlət himni", dahi Nizaminin mətninə yazdığı "Sənsiz", "Sevgili canan" əsərləri musiqi inciləri idi. Ə.Bədəlbəylinin B.Zeydmanla birgə yazdığı "Xalqın qəzəbi" adlı birpərdəli operası, Niyazinin "Xosrov və Şirin" operası, "Vətən haqqında xatirələr", "Döyüşdə" simfonik əsərləri, S.Rüstəmovun "Cəbhə eşqi" əsəri, "Cəbhəyə" , "İrəli", "Qəzəl", "Qəhrəmanlar marşı" mahnıları, Ağabacı Rzayevanın "Cəngi", "Vətən nəğməsi", "Dilbərim", "Gözlərin" mahnıları müharibə dövrünün əsərləridir.[3]

Üzeyir Hacıbəyov

Bəstəkar Cahangir Cahangirovun "416-cı diviziya", "Partizanlar nəğməsi", "Mərdlik nəğməsi", "Bahar mahnısı", "Durnalar", Süleyman Ələsgərovun şair Z.Cabbarzadənin sözlərinə yazdığı "Gözlə məni", "Gözləyirəm" mahnıları döyüşçülərin, arxa cəbhədə çalışan anaların və qızların dillər əzbəri olmuşdu. S.Ələsgərovun "Həzi Aslanovun xatirəsinə" simfonik poeması da müharibə illərində yazılmış qiymətli musiqi əsərlərindən idi.[4] Müharibə illərində Moskva konservatoriyasının tələbəsi olan Qara Qarayev və Cövdət Hacıyevin bəslədiyi "Vətən operası" (librettosu İ.Hidayətzadənindir) 1946-cı ildə Dövlət Mükafatına layiq görüldü.

Qara Qarayev

Azərbaycan Dövlət Konservatoriyası və A.Zeynallı adına musiqi məktəbi öz işlərini müharibə şəraitinə uyğun qurdular. Müharibə ilə əlaqədar xərclərin azalması səbəbli incəsənət işləri idarəsinin tabeliyində olan Azərbaycan Dövlət Estradasının bazasında özünü maliyyələşdirmə ilə işləyən Konsert birliyi yaradıldı. Birliyin tərkibinə müxtəlif janrlarda olan təsərrüfat hesablı 6 briqada daxil oldu.[5] Bakıda və onun rayonlarında 11 öz-

---

[1] Qurbanov, B. Sənətimiz müharibə illərində // Qobustan, 1975, №2, s. 2-4

[2] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970 . – s.305.

[3] Yenə orada, s.307.

[4] Mədəni-maarif işi // 1975, №2.

[5] ARPİİSSA, Fond №1, siyahı №238, vərəq – 148, 123.

fəaliyyət təşviqat briqadası yaradıldı. Artıq 1942-ci ilin yanvar ayında Bakıdakı briqadaların sayı 23-ə çatmışdı.

Onlar 460 dəfə çıxış etmişdilər. Azərbaycanın rayonlarındakı 75 təşviqat briqadasının isə 1050 çıxışı olmuşdu.[1] 1943-cü ilin 1 yanvarınadək Bakının bədii özfəaliyyət briqadaları 8.800 konsert, təhsil müəssisələrinin briqadaları 838 konsert vermişlər.[2]

Musiqi təhsilinin inkişafı da diqqətdən kənarda qalmamışdı. Azərbaycan K(b)P MK və BK-nin "Azərbaycanda musiqi təhsilini daha da inkişaf etdirmək tədbirləri haqqında" 2 noyabr 1943-cü il tarixli qərarı bu sahədə əhəmiyyətli rol oynadı. Qərarda göstərilirdi ki, 1943-cü ildə incəsənət işləri sistemində olan yeddiillik musiqi məktəblərində oxuyan 1.239 şagirddən 719 nəfəri, Bakı Xalq Təhsili Şöbəsinin musiqi məktəblərində oxuyan 928 şagirddən 130 nəfəri azərbaycanlı olmuşdu. Azərbaycan Dövlət Konservatoriyası yanındakı 10 illik musiqi məktəblərində 876 nəfər, o cümlədən 409 azərbaycanlı təhsil alırdı.[3]

Qərarda müvafiq olaraq İncəsənət İdarəsində musiqi məktəbləri şöbəsi, Azərbaycan Dövlət Konservatoriyasında "Azərbaycan musiqisi" fakültəsi, dirijor kadrları hazırlığı üçün aspirantura, habelə Şuşada musiqi texnikumu yaradılması nəzərdə tutulurdu.[4]

Respublikada musiqiçi kadrların yetişdirilməsi, onların tərbiyəsi, xüsusilə simfonik musiqinin inkişafında Azərbaycan Bəstəkarlar İttifaqının sədri, Azərbaycan Dövlət Konservatoriyasının direktoru Ü.Hacıbəyovun xidmətləri böyük olmuşdur.[5] 1943-cü ildə M.F.Axundov adına Opera və Balet Teatrının səhnəsində Ü.Hacıbəyovun "Koroğlu" operası rus dilində tamaşaya qoyulmuşdu.

Xalq Müdafiə Komissarlığı hərbi nəşriyyatı tərəfindən S.Vurğunun sözlərinə bəstələnən 5 mahnı kütləvi tirajla çap edilmişdi. "Baharımsan", "Vətən ordusu", "Döyüşçülər marşı", "Zəfər himni", "Yürüş marşı" və digər mahnılar arxada əməkçilər, əsgəri hissələrdə döyüşçülər tərəfindən həvəslə ifa olunurdu.[6]

S.Vurğun və Ü.Hacıbəyovun birgə əməyinin nəticəsi olaraq SSRİ Dövlət himni 1943-cü il dekabrın 31-də Azərbaycan dilində səsləndirildi. Azərbaycan SSR-in Dövlət himni yaradıldı.

1943-cü ildə Azərbaycan bəstəkarlarının Vətən müharibəsinə həsr edilən "Zəfər bizimdir" külliyatı, musiqi məktəbləri üçün dərsliklər, o cümlədən Adil Gərayın "Tar üçün etüdlər"i, Ü.Hacıbəyovun "Azərbaycanlılar üçün iki sonata"sı çap olundu.

---

[1] Yenə orada, saxlama vahidi №199, vərəq – 24.
[2] Yenə orada, vərəq – 24.
[3] Yenə orada, siyahı №129, iş №41, vərəq – 7-12.
[4] Yenə orada.
[5] "Kommunist" qəzeti,1944, 12 iyun.
[6] Yenə orada, 21 iyul.

1943-cü ildə cəbhədə yaranmış dönüş milli musiqiçi kadrların hazırlığına şərait yaratdı. Artıq 1943-cü ildə Azərbaycanın musiqi məktəblərində 3.175 nəfər təhsil alırdı ki, onların 1.745 nəfəri azərbaycanlı idi. Azərbaycan Dövlət Konservatoriyasının kontingenti 1941-1942-ci tədris ilində 141 nəfər (onlardan 45-i azərbaycanlı idi) idisə, 1943-cü ildə kontingentin sayı 167 nəfərə, o cümlədən azərbaycanlıların sayı 59 nəfərə yüksəlmişdi.

10 illik musiqi məktəblərində, 1 və 2 saylı musiqi məktəblərində şagirdlərin sayı 1941-1942-ci ildəki 1.371 nəfərdən (onlardan 615 nəfəri azərbaycanlı idi) 1943-cü ildə 1827 nəfərə, azərbaycanlıların sayı isə 967 nəfərə çatmışdı.[1]

1943-cü ildə Şuşa şəhərində 30 nəfərdən ibarət vokal sinfi olan musiqi məktəbi təşkil edildi.[2] Azərbaycan Dövlət Xoreoqrafiya məktəbini 1943 -cü ildə 12 nəfər balet artisti bitirdi, onlardan 2 nəfəri azərbaycanlı idi. 1943-cü ildə burada 120 nəfər, o cümlədən 60 nəfər azərbaycanlı oxuyurdu. 1943-cü ildə məktəbə qəbul olunan 35 nəfərdən 24 nəfəri azərbaycanlı idi.

Respublika Bəstəkarlar İttifaqı 1944-cü il mayın 27-29-da keçirdiyi plenumda görülmüş işlərə yekun vurdu. Plenumda Ü.Hacıbəyov "Vətən müharibəsi günlərində Azərbaycan bəstəkarlarının yaradıcılığı və Azərbaycan musiqi sənətinin gələcək inkişaf yolu" mövzusunda məruzə etdi. Plenumda professor Bülbül, bəstəkarlardan Səid Rüstəmov, Əfrasiyab Bədəlbəyli, Niyazi, Tofiq Quliyev, Fikrət Əmirov, yazıçı Süleyman Rəhimov və Mehdi Hüseyn çıxış etdilər. Plenum, həm də bəstəkarların qarşısında duran vəzifələri müəyyənləşdirdi. Bəstəkarlar İttifaqının plenumu eyni zamanda təşkilati məsələlərə baxıb yeni idarə heyəti seçdi. Ü.Hacıbəyov sədr, Q.Qarayev və B.Zeydman sədr müavinləri, Əşrəf Abasov və Ağabacı Rzayeva idarə heyətinə üzv seçildilər.[3]

Yeni musiqi əsərlərinin yaradılması ilə yanaşı, əsas məsələlərdən biri də həmin əsərlərin ifası və təbliği idi. Bu işdə Bəstəkarlar İttifaqı ilə Azərbaycan Radio Komitəsi arasında sıx əməkdaşlıq yaranmışdı. Elə bu məqsədlə də Azərbaycan K(b)P MK 1944-cü ilin noyabrında "Azərbaycan Radio Komitəsi bədii verilişlərinin yaxşılaşdırılması haqqında" qərar qəbul etmişdi. Ü.Hacıbəyovun başçılığı ilə Səməd Vurğun, Əfrasiyab Bədəlbəyli, Əşrəf Abbasov və b. ibarət bədii şura yaradılmışdı.

Bəstəkarlar İttifaqı ilə Azərbaycan Radio Komitəsinin birgə tədbirlər planına əsasən: a) Radio komitəsindəki bədii kollektivlərin repertuarını yeniləşdirmək və genişləndirmək; b) Komitənin not kitabxanasını yeni əsərlər hesabına, həmçinin rus və Avropa klassiklərinin əsərləri ilə zənginləşdirmək; c) Bir sıra operaların, o cümlədən "Leyli və Məcnun", "Şah İsmayıl", "Nərgiz", "Koroğlu", "Qızıl Xoruz", "Qar qız", "Karmen", "Sevil-

---

[1] ARPİİSSA, Fond №2, siyahı №46, iş №33, vərəq – 2-5.
[2] Yenə orada.
[3] "Ədəbiyyat qəzeti", 1944, 12 iyun.

ya bərbəri” operalarının, “Qızıl gül”, “Əlli yaşında cavan”, “Tütək çalanlar” operettalarının radio montajını hazırlamaq; ç) Ən yaxşı tamaşaların konsert zallarından canlı yayımını təşkil etmək; d) Azərbaycan Dövlət Konservatoriyasının və musiqi məktəblərinin tələbələrindən səmərəli istifadə etmək və s. nəzərdə tutulmuşdu.[1] Azərbaycan Bəstəkarlar İttifaqının sədri Ü.Hacıbəyov qeyd olunan qərarla əlaqədar ittifaqın və özünün şəxsi mülahizələrini məktub vasitəsilə Azərbaycan K(b)P MK-ya göndərmişdi.

Azərbaycan bəstəkarları musiqi ongünlüklərində fəal iştirak etmişlər. 1944-cü il dekabrın 17-dən 27-nə kimi Tiflis şəhərində musiqi yaradıcılığı sahəsində əldə olunmuş nailiyyətləri nümayiş etdirmək məqsədilə Cənubi Qafqaz respublikalarının sovet musiqi ongünlüyü keçirildi. Festivalda Ü.Hacıbəyov, A.Rəcəbli, S.Hacıbəyov və başqaları iştirak etdilər. Ongünlükdə Azərbaycan musiqi kollektivlərini 90 nəfərlik simfonik orkestr, 60 nəfərlik xalq çalğı alətləri orkestri, 80 nəfərlik xor, mahnı və rəqs, 20 nəfərlik sazçı qızlar ansamblı və Azərbaycan Dövlət Konservatoriyasının pianoçu qızlar qrupu təmsil etmiş, ongünlükdə Azərbaycan bəstəkarlarının əsərlərinə həsr edilmiş 3 konsert verilmiş, kamera musiqisi konsertlərində 15 bəstəkarın 27 əsəri dinlənilmişdi.[2] Ongünlükdə iştirak edən digər kollektivlərin də ifaları maraqla qarşılanmışdı.[3] Ongünlükdə Azərbaycan bəstəkarlarından C.Hacıbəyovun, Qara Qarayevin, Məmməd İsrafilzadənin, Niyazinin simfonik orkestr üçün əsərləri müvəffəqiyyətlə ifa olunmuşdu.[4] “Kommunist”, «Бакинский рабочий», “Ədəbiyyat və incəsənət” qəzetləri ongünlüyün gedişini müntəzəm işıqlandırmışdı.

Dövlət Mükafatı laureatı, bəstəkar Y.Şaporinin “Kommunist” qəzetində dərc edilən “Azərbaycanın gənc bəstəkarları” məqaləsində,[5] SSRİ xalq artisti R.Qlierin «Бакинский рабочий» qəzetindəki məqaləsində[6] «Известия» qəzetindəki ongünlüyün yekunlarına həsr edilmiş məqalədə[7] Azərbaycan musiqisinin müvəffəqiyyətlərindən söz açılmış, Azərbaycan musiqi kollektivlərinin təcrübəsi başqa respublikalara nümunə kimi tövsiyə olunmuşdu.[8] «Известия» qəzeti Azərbaycan musiqisinin parlaq gələcəyi kimi qiymətləndirdiyi S.Hacıbəyov, Q.Qarayev, C.Hacıyev, F.Əmirov, Niyazi, Ədilə Hüseynzadə, Ağabacı Rzayeva, Şəfiqə Axundova və başqalarının

---

[1] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – s. 315-317.
[2] Газ. «Бакинский рабочий», 1945, 5 января.
[3] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – s. 321.
[4] Газ. «Правда», 1945, 2 января.
[5] “Kommunist” qəzeti, 1945, 3 yanvar.
[6] Газ. «Бакинский рабочий», 1945, 5 января.
[7] Газ. «Известия», 1945, 7 февраля.
[8] Газ. «Известия», 1945, 7 февраля.

əsərlərində yenilik ruhu, gənclik və səmimilik hisslərinin olduğunu qeyd edirdi.[1]

1945-ci il fevral ayının 3-də Azərbaycan SSR XKS və Azərbaycan K(b) P MK Cənubi Qafqaz ongünlüyünün yekunlarını müzakirə etdi.

Müharibə illərində aşıqlar orduya çağırıldılar. 120-yə yaxın aşıq briqadalarda birləşərək hərbi hissələrdə, zavod və fabriklərdə, kolxoz və sovxozlarda, MTS-lərdə çıxış etdilər. Müharibə dövründə Aşıq Əsəd 25, Aşıq Məmməd Həsənov və İbrahim Əliyev (Gəncə) hər biri 12 konsert verdilər. Aşıq Teymur Hüseynov (Şəmkir), İslam Yusifov (Gəncə), Qurban xan (Salyan) tez-tez xalq qarşısında çıxış etmişdi.[2] Aşıq Humayın, Aşıq Çoban Tağıyevin, Aşıq Vəlinin, Aşıq Teymurun, Aşıq Hüseyn Cavanın qoşmaları əhali tərəfindən sevilirdi.[3]

Müharibə illərində satirik meyxanalar da geniş yayılmış janrlardan idi.

Ümumiyyətlə, Azərbaycan bəstəkarları müharibə illərində gərgin işləmiş, adamları qələbəyə ruhlandıran nikbin ruhlu əsərlər yaratmış, cəbhədəki yeniliklər, qoşunların cəbhə boyu yürüşü, əldə olunan qələbələr onların əsərlərində öz əksini tapmışdı.

Azərbaycan incəsənətində müharibə mövzusu

Respublikamızın elm və mədəniyyət xadimləri ilə birlikdə **Azərbaycan rəssamları** da qələbə uğrunda ümumxalq mübarizəsində fəal iştirak etdilər. Onların əsərlərinin əsas leytmotivini döyüş qəhrəmanlığı, əmək fədakarlığı, Vətənə məhəbbət, faşist işğalçılarına nifrət hissi təşkil edirdi.

Müharibə illərində respublikamızın 20-dən artıq rəssamı ordu sıralarına çağırıldı. Mehdi Hüseynzadə, Qaffar Seyfullayev, Həsən Haqverdiyev, Əlağa Əliyev, Məmməd Yusifov, Pyotr Karpov, Yaqub Əliyev, Həbib Əzimzadə, Bala Mirzəcamalov, Mirzəbala Almaszadə, Məmmədağa Tərlanov və onlarca başqaları döyüşçü rəssamlar oldular. Bir gözünün şikəst olmasına baxmayaraq Əyyub Məmmədov təkid edərək döyüşən ordu sıralarına getməyə nail oldu. Rəssam Oqtay Salamzadə, sənətşünas Mürsəl Nəcəfov da ordu sıralarına çağırıldı.[4] Rəssamlardan Əlağa Əliyev, Bala Mirzəcamalov, Yaqub Əliyev, Məmməd Yusifov, Pyotr Karpov və Mehdi Hüseynzadə döyüşlərdə həlak oldular.

---

[1] Yenə orada.

[2] ARPİİSSA, Fond №1, siyahı №238, saxlama vahidi №148, vərəq –124.

[3] Газ. «Бакинский рабочий», 1944, 5 марта.

[4] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970 . – c.291-292.

1941-1945-ci illər müharibəsində iştirak etmiş rəssamlardan bir qrup



Oqtay Sadıqzadə



Qafar Seyfullayev

Əzim Əzimzadə

Mehdi Hüseynzadə

Maral Rəhmanzadə

Həsən Haqverdiyev

Mürsəl Nəcəfov



Əyyub Məmmədov

Qəzənfər Xalıqov

Ə.Əzimzadənin, İ.Axundovun, Q.Xalıqovun, Ə.Hacıyevin, S.Şərifzadənin, K.Kazımzadənin, M.Rəhmanzadənin, S.Salamzadənin və digərlərinin hazırladığı plakat, mənzərə, karikatura "Döyüş vərəqələri" adamları qələbə naminə daha yaxşı döyüşməyə və işləməyə səfərbər edirdi.

M.Abdullayev, S.Şərifzadə və B.Mirzəzadənin birgə yaratdıqları "Babəkin yürüşü" (1941), K.Xanlarovun "Cavanşirin ərəblərlə döyüşü", Ə.Kazımovun "Qədim midiyalıların Makedoniyalı İsgəndərlə döyüşü" və b. əsərlərdə tarixi keçmiş əks olunurdu.

T.Tağıyevin 1942-ci ildə yaratdığı "Koroğlu" surəti kamil portretlərdən hesab oluna bilər. H.Məmmədovun "Kəşfiyyatda" (1942), Ə.Kazımovun "Əlbəyaxa vuruşma" (1943) şəkillərində müharibə səhnələri təsvir edilmişdi.

Müharibə dövründə rəssamlar ancaq siyasi plakat, "Təşviqat pəncərələri" və antifaşist karikaturalar hazırlamaqla kifayətlənmirdilər. Onlar müharibə qəhrəmanlarının "portret qalereyası"nı yaradırdılar. Bu qalereyanın eksponatları içərisində Kamal Qasımov, İsrafil Məmmədov, İdris Süleymanov, Hüseyn Əliyev, Məzahir Abbasov, Novruz Aslanov, Əjdər Maniyev kimi müharibə qəhrəmanlarının surətləri fəxri yerləri tuturdu. Bu portretlərin müəllifləri Baba Əliyev, Sadiq Şərifzadə, Cümşüd Babayev, Böyükağa Mirzəzadə, Tağı Tağıyev və b. həm də hərbi mövzularda tematik tablolar yaratmışdılar.

Rəssamlarımızın yaradıcılığında əsgər həyatı xüsusi yer tuturdu. B.Mirzəzadənin "Qızıl əsgərlər kolxozçular arasında" əsəri (1943), B.Mirzəzadənin snayper İ.Süleymanovun, S.Şərifzadənin cəsur təyyarəçilər M.Abasovun, B.Əliyevin, S.Suprunun, T.Tağıyevin H.Əliyevin portretləri, M.Abdullayevin "Qəhrəmanın həyat yolu" (1944) əsəri bu seriyadan çəkilən orijinal sənət nümunələri idi.[1]

Azərbaycan rəssamları Bakıda, Tiflisdə və Moskvada təşkil edilmiş 17 sərgidə iştirak etmişdilər.[2] 1942-ci ilin may ayında onların "Azərbaycan xalqının oğulları – Vətən müharibəsinin qəhrəmanları", avqust ayında "Siyasi plakat və karikatura" sərgiləri təşkil olunmuşdu.

1943-cü ilin avqust ayında Moskvada Dövlət Tretyakov qalereyasında Azərbaycan rəssamlarının sərgisi açıldı. Sərgidə Böyük Vətən müharibəsi iştirakçısı, Azərbaycan xalqının cəsur oğlu H.Aslanovun (rəssam B.Əliyevin işi), siyasi rəhbər K.Qasımovun (D.Babayevin işi), təyyarəçi M.Abasovun (S.Şərifzadənin işi) portretləri nümayiş etdirilmişdi. Sərgidə nümayiş etdirilən arxa cəbhənin qəhrəmanları – ordenli çoban Q.Cümşüdoğlunun (rəssam Q.Xalıqov), Staxanovçu kolxozçu Bibi Qəhrəmanovanın (rəssam S.Şərifzadə), rəssam Ə.Əzimzadənin (rəssam Q.Haqverdiyev), bəstəkar Ü.Hacıbəyovun (rəssam S.Salamzadə), şair S.Vurğunun (rəssam F.Əbdürəhmanov) portretləri də tamaşaçıların diqqətini cəlb etmişdi.

Azərbaycan rəssamları 1943-cü ildə heykəltəraşlıq və qrafika üzrə bir sıra əsərlər işləyib hazırladılar. Bu əsərlər Moskva şəhər Dövlət İncəsənət Muzeyində (fevral 1943), Tretyakov qalereyasında (aprel 1943) nümayiş etdirildi.[3]

Sərgilərdə Mikayıl Abdullayevin "Dövlət Müdafiə Komitəsinin iclası", Azərbaycanın əməkdar incəsənət xadimləri Qəzənfər Xalıqovun və İsmayıl Axundovun plakatları və təşviqat pəncərələri, Tağı Tağıyevin "Koroğlu epopeyası haqqında", Şərifzadənin "Babəkin yürüşü", Fuad Əbdürəhmanovun "Səməd Vurğunun büstü", "Qafqaz partizanları" əsərləri nümayiş olunmuşdu.

Müharibə dövrünün təsviri sənətinin ən kütləvi, operativ və kəsərli növü olan qrafika əsərləri xüsusi əhəmiyyətə malikdir. Müharibə illərində rəssamların fəal iştirakı ilə 70 min tirajla "Təşviqat pəncərələri"nin 400 nömrəsi hazırlandı, 1,5 milyon nüsxə tirajla 50 adda siyasi plakat buraxıldı. "Təşviqat pəncərələri" içərisində Əzim Əzimzadənin "Faşist Almaniyasının qumarbazlar dəstəsinin vurulmuş kartları", İsmayıl Axundovun "Keçinin buynuzu gicişəndə", Qəzənfər Xalıqovun "Döymə qapımı, döyərlər qapını" və b. əsərləri satirik planda işlənmişdi.

---

[1] Kərimov, K.Ç., Əfəndiyev, R.S., Rzayev, N.İ., Həbibov, H.D. Azərbaycan incəsənəti / K.Ç.Əfəndiyev, R.S.Rzayev, N.İ.Həbibov, H.Kərimov. – Bakı, 1992. – s.273-274.

[2] ARPİİSSA, Fond №1, siyahı №238, iş №91, vərəq – 112-113.

[3] Yenə orada, Fond №2, siyahı №46, iş №33, vərəq – 2-5.

Azərbaycan rəssamlarının plakatları məzmunu və siyasi aktuallığı ilə fərqlənirdi. Bu baxımdan İ.Axundovun "Arxada işləyənlər! Bir damcı da olsun artıq yanacaq işlətməyin, yanacaq cəbhəyə lazımdır!" (1942), Q.Xalıqovun "Cəbhəyə daha çox yanacaq!", "Müharibə dövrünün istiqrazına yazılın" (1942), Ə.Hacıyevin "Cəbhəyə isti paltar!" (1941), M.Rəhmanzadənin "Donor olmaq vətənpərvərlər üçün şərtdir" (1942) plakatları bu qəbildən idi.

Plakatlar içərisində S.Şərifzadənin "Qəhrəman əcdadımız" silsiləsinə daxil olan 3 plakatı lakonikliyinə, bədii təsir qüvvəsinə görə başqa plakatlardan seçilirdi.[1]

Ə.Əzimzadənin "Canavar canavara", İsmayıl Axundovun "Qafqaz xəncəri", "Qafqaz partizanları", Qəzənfər Xalıqovun "Zibil axtaran faşistlər", "Taxıl həsrətində olan faşistlərin qumbaralara rast gəlməsi", Əmir Hacıyevin "Zərbəyə rast gələn faşist", Sadıq Şərifzadənin Azərbaycanın qəhrəman keçmişindən Babək, Cavanşir, Koroğluya həsr olunmuş plakatları xüsusi qeyd olunmalıdır. Satirik plakatların sözlərini yazıçılarımızdan Mirmehdi Seyidzadə, Q.Stroqonov, Sabit Rəhman, Nigar Rəfibəyli və b. yazmışdılar.

F.Əbdürrəhmanov

Müharibə illərində Əmir Hacıyev onlarla maraqlı, qiymətli, tərbiyəvi əhəmiyyətli plakatlar yaratmışdı. Bunlardan "Düşmənlər Sovet İttifaqı haqqında arzu edirdilər", "İsti şeyləri cəbhəyə" və s. əsərləri göstərmək olar.

Müharibə Azərbaycan heykəltəraşlarına yeni mövzular üçün ideya verdi. Müharibə başlananda Nizami abidəsinin modelini yenicə bitirən F.Əbdürrəhmanov təyyarəçi Hüseynbala Əliyevin, snayper İsrafil Məmmədovun, döyüşçü Gəray Əsədovun büstlərini hazırladı. Azərbaycan heykəltəraşları F.Əbdürrəhmanov, P.Sabsay, C.Qaryağdı, Q.Əhmədov, Z.Məmmədova və başqaları müharibə qəhrəmanlarının portret-heykəllərini yaratdılar.[2]

P.Sabsayın yaratdığı siyasi rəhbər Kamal Qasımovun heykəli (1942), C.Qaryağdının Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova həsr etdiyi "Zəmanəmizin Koroğlusu" (1944) barelyefi, təyyarəçi Adil Quliyevin büstü, yenə onun "Fərhad dağı yarır" (1945) qabartma heykəli dərin ekspressiya qüvvəsinə malik idi.[3]

---

[1] Kərimov, K.Ç., Əfəndiyev, R.S., Rzayev, N.İ., Həbibov, H.D. Azərbaycan incəsənəti /K.Ç.Əfəndiyev, R.S.Rzayev, N.İ.Həbibov, H.Kərimov. – Bakı, 1992. – s.274.

[2] Mədəni – Maarif işi // 1975, № 2, s.6.

[3] Salamzadə, Ə.R., Rzayev, N.İ., Kərimov, K.S., Əfəndiyev, R.S., Həbibov, N.D. Azərbaycan incəsənəti / Ə.R.Salamzadə, N.İ.Rzayev, K.S.Kərimov. – Bakı, 1977. – s.76.

Dövlət İncəsənət muzeyində saxlanılan portret büstlər, o cümlədən P.Sabsayın "Kamal Qasımovun portreti", "Xıdır Mustafayev", "Mehdi Quliyev", "Biz qisas alacağıq" heykəlləri, F.Əbdürrəhmanovun "Hüseynbala Əliyev", "Qafur Məmmədov", "İsrafil Məmmədov", "Novruz Aslanov" büstləri, həmçinin "Koroğlu", "Cavanşir", "Babək" barelyefləri, C.Qaryağdının "Adil Quliyev", "Həzi Aslanov" büstləri müharibə dövrünün məhsulları olub bu gün üçün də qiymətlidir.

Müharibə illərində rəssamlardan F.Əbdürrəhmanov, K.Kazımzadə, P.Topçubaşova və Ə.Hacıyev "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" adına layiq görüldülər. F.Əbdürrəhmanov, N.Fətullayev, L.Kərimova ordenlərlə, 40-dan artıq rəssam isə medal və fəxri fərmanla təltif olundular.[1]

Azərbaycanın **kino işçiləri** öz fəaliyyətini müharibənin tələblərinə uyğun qurmağa başladılar. 1941-ci ilin 22 iyununda faşist Almaniyası ilə Sovet İttifaqı arasında müharibənin başlanması ilə Azərbaycan kino işçiləri öz işlərini dövrün ağır tələbləri əsasında yenidən qurmalı oldular. Müharibə başlanandan bir neçə gün sonra Bakı kinostudiyasında şair və yazıçılardan Səməd Vurğun, Mehdi Hüseyn, studiyanın direktoru Şəmsəddin Abbasov və rejissor A.Beknazarovdan ibarət komissiya təşkil olundu. Bu komissiyanın vəzifəsi müharibə mövzusunda qısametrajlı bədii və sənədli filmlərin, xüsusi buraxılışların, kinojurnalların yaradılmasına rəhbərlik etməkdən ibarət idi. Bu məqsədlə yazıçılardan S.Rəhman, İ.Qasımov, M.Cəlal, Ə.Sadıq, Ə.Məmmədxanlı, M.Rəfili, rejissorlardan M.Mikayılov, R.Təhmasib, A.Quliyev, M.Dadaşov, N.Bədəlov və başqalarına ssenarilərin yazılması və filmlərin çəkilişləri tapşırıldı.

Görkəmli Azərbaycan bəstəkarı Müslüm Maqomayevin oğlu Məhəmməd Maqomayev müharibə başlanana qədər Bakı kinostudiyasında rəssam işləyirdi. Müharibə illərində o, könüllü olaraq cəbhəyə getmiş, kəşfiyyatçı olmuşdu. Bir sıra mühüm əməliyyatlarda iştirak etmiş, qələbəyə on gün qalmış ağır döyüşlərin birində yaralı yoldaşını xilas edərkən həlak olmuşdu. Quraşdırma çəkilişlər rəssamı Mirzə Rəfiyev, kinooperatorlardan Teyyub Axundov, Əlihüseyn Hüseynov, Seyfulla Bədəlov kinostudiyanın işçisi Yunus Muradov, kinostudiyanın direktoru Zəki Səfərov, rejissorlardan Tofiq Tağızadə, Əjdər İbrahimov, Şamil Mahmudbəyov və başqaları sovet ordusu sıralarında müxtəlif cəbhələrdə vuruşdular.[2]

Müharibənin ilk günlərindən başlayaraq kinematoqrafçılarımızın bir hissəsi arxa cəbhədə öz işini fasiləsiz davam etdirirdisə, digər hissəsi ön cəbhədə çəkilişlər aparırdı. Belə çətin və təhlükəli tapşırıqların yerinə yetirilməsində kino işçilərindən Cavanşir Məmmədovun, Xan Babayevin,

---

[1] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – c.304.

[2] Aydın Kazımzadə. Azərbaycan kinosu və müharibə / Mədəniyyət. – 2010. – 7 may. – s. 14.

Mirzə Mustafayevin, İsmayıl Əfəndiyevin, Əbdül Həsənovun, Kazım Həsənovun, Tofiq Tağızadənin, Camal İsmixanovun, Leonid Koretskinin, Vladimir Yeremeyevin, Mirzə Rəfiyevin, Ağa Zeynal Ələkbərovun, Əli Musayevin, Aleksandr Popovun, Əlihüseyn Hüseynovun və başqalarının böyük zəhməti olmuşdu.[1]

Kino işçilərimizin yaratdıqları kinojurnalların süjetini çağırış məntəqələrinin işi, gənclərin cəbhəyə könüllü yola salınması, arxada səfərbərlik, cəbhəyə yardım, dəzgah arxasında ərlərini, qardaşlarını və oğullarını əvəz edən qadınların əmək fədakarlığı, sənaye və kənd təsərrüfatında çalışanların qəhrəman əməyi təşkil edirdi.

Kinematoqrafçılarımız arxa və ön cəbhədə xalqımızın hünərindən bəhs edən onlarla sənədli film, o cümlədən "Cənub sərhədlərinin keşiyində", "Biz Bakını müdafiə edirik", "416-cı", "Cəbhə arxasında", "Qayğı", "Vətən uğrunda", "Bakı neftçiləri", "Şəfa nəğməsi", "Xəzər dənizçiləri", "Qardaşlıq köməyi", "General Həzi Aslanov" və s. çəkmişlər.

Kinooperatorlardan Ağa Zeynal Ələkbərov, Kazım Həsənov, Mirzə Mustafayev, Cavanşir Məmmədov, Xan Babayev, Leonid Koretski, Əlibala Ələkbərov, Məmmədağa Axundov, Əbdül Həsənov, Vladimir Yeremeyev və başqaları ön cəbhədə çəkilişlər aparmış, düşmənlə vuruşmuş, dəfələrlə ölümlə üz-üzə dayanmışlar. Bu cəbhəçi kinematoqrafçıların silahı kinokamera idi.[2]

1941-ci ilin yayında Bakı studiyası "Qələbə bizimlədir" sənədli xronikal filmin çəkilişinə başlamışdı. 1941-ci ilin sentyabr ayının 14-də Ümumittifaq ekranlarına Bakı kinostudiyasının istehsal etdiyi 2 hissəli bədii film – "Vətən oğlu" adlı kino-novella buraxıldı. Kinorejissor Ağarza Quliyev və operator Muxtar Dadaşovun A.Minskinin ssenarisi əsasında çəkdiyi novella siyasi rəhbər Kamal Qasımovun cəbhədəki hünərindən bəhs edirdi.

1942-ci ildə rejissor A.Quliyev operator Əsgər İsmayılovla birlikdə yazıçı Ənvər Məmmədxanlının ssenarisi əsasında 2 hissəli "Bəxtiyar" kinonovellasını çəkir. Kinonovellada azərbaycanlı əsgər Bəxtiyar Kərimovun çətin, çıxılmaz vəziyyətlərdə düzgün qərar qəbul edərək döyüşçülərə çörək çatdırmasından, ağır yaralanmasından bəhs olunur. Filmdə Bəxtiyar rolunu artist Möhsün Sənani oynayırdı.

Respublikamızın kino işçiləri tez-tez döyüş mövqelərində olur, əsgərlərimizin cəbhə fəaliyyətini lentə köçürürdülər. 1942-ci ildə Krım cəbhəsinə yola düşən Zaqafqaziya kino işçilərinin tərkibində respublikamızdan kino operatorlar V.Yeremeyev, M.Mustafayev, operator köməkçilərindən K.Həsənov və A.Ələkbərov da var idi. Onlar 1942-ci ilin yanvar-mart aylarında Sevastopolda olmuş, şəhərin qəhrəman müdafiəçilərin döyüş həyatına aid

---

[1] Aydın Kazımzadə. Azərbaycan kinosu və müharibə / Mədəniyyət. – 2010. – 7 may. s. 14.
[2] Yenə orada.

kino lentlər çəkmişdilər. Mart ayının axırında Kerç yarımadasına gələn operatorlarımız orada maraqlı epizodları lentə almışdılar. Həmin lentlərdən Mərkəzi sənədli kino filmlər studiyasının çəkdiyi "Müharibə günü", "Qafqaz uğrunda döyüşlər", "Qaradənizçilər" filmlərində və "Günün yenilikləri" kino jurnalında istifadə edilmişdi.[1]

Müharibə illərində fasiləsiz buraxılan "Sovet Azərbaycanı" kinojurnalında cəbhədən çəkilmiş döyüş epizodları, arxa cəbhədə neftçilərin, pambıqçıların, dəmiryolçuların, kişiləri əvəz etmiş qadınların fədakar əməklərinə həsr olunmuş materiallar dərc edilmişdi. Bu lentlərin ümumi həcmi 50 min metrdən çox idi.

1943-cü ildə kinooperator M.Dadaşov yazıçı A.Tolstoyun rəhbərlik etdiyi Dövlət Komissiyasının tərkibində Mineralnı Vodı, Kislovodsk, Pyatiqorsk, Nalçik şəhərlərində, kinooperator S.Bədəlov rejissor A.Həsənovla birlikdə Donbas rayonunda olmuş, döyüşən ordu hissələri ilə irəliləyərək faşistlərin törətdikləri cinayətləri lentə çəkmişdilər.

Kinooperator C.Məmmədov Ukrayna cəbhəsində çəkilişlərdə iştirak etmişdi. Onun çəkdiyi kadrlar əsasında "416" kinooçerki yaranmışdı.

Müharibə illərində yaradılmış kino-oçerklər içərisində A.Həsənovun "Vətən uğrunda", kinooperator M.Mustafayev və rejissor A.Quliyevin "Qayğı", rejissor İ.Əfəndiyevin və operator S.Bədəlovun "Məktuba cavab" lentləri, rejissor A.Dadaşov, operatorlar V.Yeremeyev və L.Koreskin Stavropolun azad olunmasında Azərbaycan xalqının köməyindən bəhs edən "Qardaşlıq köməyi" kino-oçerki uğurlu yaradıcılıq işi idi.[2]

Müharibə illərində Bakı kinostudiyası işçiləri bir neçə film üzərində işlədilər. Müharibənin ilk günlərində əvvəllər çəkilişinə başlanmış "Səbuhi" bədii filmi başa çatdırılıb ekrana buraxıldı. Filmin ssenarisini ədəbiyyatşünas və yazıçı Mikayıl Rəfili yazmış, quruluşçu rejissorlar isə A.Beknazarovla R.Təhmasib olmuşlar. Filmdə A.Qurbanov (A.Bakıxanov), Ə.Şərifov (Mirzə Şəfi), L.Bədirbəyli (Tutu), Kazım Ziya (Axund), İ.Əfəndiyev (Gürcü kəndlisi), H.Sarabski (qoca aşıq), M.Novruzova (kəndli qızı Fatma) rollara çəkilmişlər.

1943-cü ildə Bakı kinostudiyası Leninqrad kino işçiləri ilə birlikdə "T-9" "sualtı qayığı" bədii filmini çəkdi. Sovet dənizçilərinin qəhrəmanlığından bəhs edən bu filmin quruluşçu rejissoru A.Tuqanov (Bakı), operatoru B.Renkov (Leninqrad) idi. Filmin çəkilişində kinooperator M.Dadaşov, səs operatoru Ə.Şeyxov, həmçinin Bakı teatrlarının aktyorları iştirak etmişdilər.

---

[1] Fərzəliyev, Q. Sənədli filmlərimizdə və qrafika sənətimizdə faşizmin ifşası // Mədəni-maarif işi, 1975, №2, s. 8.

[2] ARPİİSSA, Fond №1, siyahı №238, iş №289, vərəq – 25-26.

1943-cü ildə Bakı kinostudiyasında "Bir ailə" filminin çəkilişinə başlanır. Adamların yüksək vətənpərvərliyindən və xalqlar dostluğundan bəhs edən bu filmi rejissor Q.Aleksandrov R.Təhmasib və M.Mikayılovla birlikdə çəkmişdi. "Bir ailə" filmini «Правда», «Известия», «Труд», «Комсомольская правда», «Красный флот», "Kino", «Огонёк» kimi qəzet və jurnallar yüksək qiymətləndirmişdi.[1]

Bakı kinostudiyası 1944-cü ildə də gərgin işləyərək arxa cəbhə ilə ön cəbhənin, Bakı ilə 416-cı diviziyanın əlaqələrini, həmçinin cəbhə şəraitində incəsənətin gücünü əks etdirən "Məktuba cavab", "Bakı mübarizə aparır" kinooçerklərini ekrana buraxdı, ilin sonunadək plandan əlavə dəmiryolçular, azərbaycanlı qadınlar və "416-cı Taqanroq diviziyası" mövzusunda 3 oçerk və "Azərbaycan SSR-in 25 illiyi" tammetrajlı sənədli filmini hazırlamağı nəzərdə tutmuşdu.[2]

Bakı kinostudiyası 1944-cü ildə 38 kinojurnal buraxmağı planlaşdırmışdı. Onlardan 14-ü artıq may ayınadək ekrana buraxılmışdı.[3] Studiyada "İki döyüşçü", "Raykom katibi" bədii filmləri dublyaj edilmişdi.

Müharibə illərində Bakı kinostudiyası "Arşın mal alan" kinokomediyasının çəkilişinə başlamışdı və film 1945-ci ildə ekranlara buraxıldı. Azərbaycan kinematoqrafçılarının bu yaradıcılıq işi Dövlət Mükafatına layiq görüldü. Sonralar bu film dünya xalqlarının 40-dək dilinə dublyaj edildi.[4]

Böyük Vətən müharibəsi mövzusu Azərbaycan kinosunun aparıcı mövzularından olmuşdu. Bakı kinostudiyasının istehsalı olan filmlər Cənubi Azərbaycanda da nümayiş etdirilirdi. Kinostudiyanın istehsal etdiyi "Kəndlilər", "Bakılılar", "T-9" "sualtı qayığı" adlı bədii, "Ordenli Azərbaycan", "Əbədi odlar ölkəsi" adlı sənədli, "Zoya", "O, vətəni müdafiə edirdi", "217 nömrəli adam" dublyaj filmləri uğur qazanmışdı.[5] Müharibədən sonrakı illərdə ekranlaşdırılmış filmlər içərisində rejissor T.Tağızadə, müəllifləri İ.Qasımov, H.Seyidbəyli olan "Uzaq sahillərdə" (1959), ssenari müəllifi İ.Qasımov, rejissoru Ə.Atakişiyev olan "Bizim küçə" (1961), rejissor Ş.Mahmudbəyovun, "Şərikli çörək", ssenari müəllifi M.İbrahimbəyov, rejissoru H.Seyidbəyli olan "Bizim Cəbiş müəllim", rejissoru Ş.Mahmudbəyov olan "Skripkanın sərgüzəşti", ssenari müəllifləri B.Bayramov və İ.Strekov, rejissorları A.Quliyev, T.Tağızadə olan "Mən ki, gözəl deyildim", rejissor Arif Babayevin çəkdiyi "Ömrün ilk günü", rejissor Muxtar Dadaşovun çəkdiyi "Bakıda küləklər əsir", rejissor R.Ocaqovun çəkdiyi "Tütək səsi"

---

[1] Əliyev, Ə. Odlu illərin salnaməsi // Azərbaycan SSR EA-nın xəbərləri. Ədəb., dil və incəsənət ser., 1983, №2, s.91.

[2] ARPİİSSA, Fond №1, siyahı №238, iş №289, vərəq – 25-26.

[3] Yenə orada

[4] Пашаев, Н.А. Очерки истории культурного строительство Советского Азербайджана / Н.А.Пашаев. – Баку, 1965. – с.150.

[5] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, –c 7: (iyun 1941-2002-ci il). – 2003 – s.92.

kinofilmləri Böyük Vətən müharibəsi mövzusunda çəkilmiş əsərlər olub kino tarixinə qiymətli səhifə kimi daxil olmuşdur.[1]

Azərbaycan incəsənətinin mühüm sahələrindən olan **Azərbaycan teatrları** müharibə illərində səmərəli və məqsədyönlü fəaliyyət göstərdilər.

Azərbaycan SSR Xalq artisti Ələsgər Ələkbərov və Azərbaycan SSR Əməkdar artisti Məmmədəli Vəlixanlı hərbi məşğələ zamanı. 1941-ci il 12 noyabr

Müharibənin çətinliklərinə rəğmən, araşdırılan illərdə yeni teatrlar yaradılır, onların səhnələrində həm Azərbaycan müəlliflərinin, həm də dünya klassiklərinin – Şeksprin, Molyerin, Lope de Veqanın əsərləri tamaşaya qoyulurdu. Məsələn, Gəncədə üç yeni teatr: L.Beriya adına Azərbaycan Dövlət Dram Teatrı, erməni dövlət dram teatrı və rus səyyar teatrı açılmışdı. Burada həmçinin uşaq tamaşaları da səhnəyə qoyulurdu. Gəncəli uşaqlar, məktəblilər, gənclər yeni tamaşalara – "Gənc partizan, "Timur və onun komandası", "Zoya Kosmedemyanskaya" tamaşalarına baxmışdılar.[2]

Beləliklə, yaşlılar üçün teatrların sayının artması ilə yanaşı, Gəncədə gənc tamaşaçılar teatrının, açılması üçün bütün şərait yaradılmışdı. Burada həmçinin filarmoniya (direktoru Fikrət Əmirov), musiqi məktəbi, rəsm məktəbi, mədəniyyət və istirahət parkı fəaliyyət göstərirdi.

Müharibə illərində aktyorların sayının azalmasına baxmayaraq, bu teatrların işinə təsir göstərməmişdi. Hər il 10 yeni quruluşda və 8 əvvəlki quruluşda tamaşalar qoyulurdu.[3] Azərbaycan dramaturqlarından Səməd Vurğunun, Süleyman Rüstəmin, Mehdi Hüseynin və başqalarının pyeslərinin tamaşaları böyük maraqla qarşılanmışdı. Bu yazıçıların tarixi mövzulara olunmuş dram əsərləri – "Vaqif", "Xanlar", "Qaçaq Nəbi", "Nizami" tamaşaçıların xüsusi rəğbətini qazanmışdı.

Müharibə illərində Məşədi Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrı özünün fəaliyyətcə geniş, repertuarca çox rəngarəng, mübariz bir dövrünü keçirmişdi. Bu illərdə səhnədə Mirzəağa Əliyev, Mərziyə Davudova, Sidqi Ruhulla, Kazım Ziya, Ələsgər Ələkbərov, Fatma Qədri, Mustafa

---

[1] Hacızadə, İ. Böyük Vətən müharibəsi mövzusu ekranda // Mədəni-Maarif işi, 1985, №2, s.10-11.

[2] AMEA Tİ EA, Fond №1, siyahı №22, iş №1, vərəq – 80.

[3] Yenə orada.

Mərdanov, Əli Qurbanov kimi təcrübəli və peşəkar sənət ustaları ilə yanaşı Hökümə Qurbanova, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Barat Şəkinskaya, Möhsün Sənani, Süleyman Tağızadə, Əjdər Sultanov, Leyla Bədirbəyli, Məcid Şamxalov kimi gənclərdən ibarət yaradıcılıq qüvvəsi çalışmışdı. Teatrın artistlərindən bir qismi silah götürüb cəbhəyə getmişdi. Musa Dadaşov, İbrahim Məmmədov döyüşlərdə həlak olmuşdular.

A.İsgəndərov

Teatrın fəaliyyətində yeni istiqamət 1942-ci ilin əvvəlindən hiss olunmağa başladı. 1942-ci ildə teatrın repertuarına "Madrid", "Aslan yatağı", "Məhəbbət", "Vətən oğlu", "Qaçaq Nəbi", "Dumanlı Təbriz", "Nizami" kimi tamaşalar daxil edildi. Bir-birinin ardınca "Vəfa" (Rəsul Rza), "Çətin dərə" (S.Axundov), "İntizar" (Mehdi Hüseyn və İlyas Əfəndiyev), "İnsan" (Səməd Vurğun), "Mirzə Xəyal" (Mir Cəlal), "Qatır Məmməd" (Zeynal Xəlil) pyesləri teatrda tamaşaya qoyuldu. Azərbaycan dramaturqları ilə yanaşı G.Simonovun "Məni gözlə", "Sərkərdə Suvorov", A.Korneyçukun "Cəbhə", B.Midivaninin "Batalyon Qərbə gedir" pyesləri də teatrın repertuarına daxil edildi. Əsərlərin tamaşaya hazırlanmasın **Adil İsgəndərov** böyük əmək sərf etdi.

1942-ci ilin sonu 1943-cü ilin əvvəlində döyüş cəbhələrindəki ən çətin vəziyyətin nəbzini tutan teatr V.Rokkun "Mühəndis Sergeyev" pyesini, 1943-cü ilin yanvarında M.İbrahimovun "Məhəbbət" pyesini tamaşaya qoymuşdu. "Məhəbbət" tamaşasında yaratdığı Məşədi Qulam Hüseyn rolundakı yüksək sənətkarlığa görə Mirzəağa Əliyev Dövlət mükafatına layiq görüldü.[1]

1943-cü ilin may ayında teatrda Rəsul Rzanın", "Vəfa" pyesi (quruluşçu rejissor Adil İsgəndərov) tamaşaya qoyuldu.[2] Teatr, həmçinin Mehdi Hüseynin "Nizami", M.S.Ordubadinin "Dumanlı Təbriz", B.Şeksprin "Hamlet", Sabit Rəhmanın "Fitnə" pyeslərini də tamaşaya hazırladı.[3]

Müharibə illərində çoxsahəli fəaliyyət göstərən teatrlardan biri də M.F.Axundov adına Opera və Balet Teatrı olmuşdu. Teatr respublika partiya təşkilatının 19 mart 1942-ci il tarixli qərarına uyğun olaraq öz repertuarını yeniləşdirmiş, "Xosrov və Şirin" (Niyazi), "Nizami" (Ə.Bədəlbəyli), "Cəbhə və arxa" (Ü.Hacıbəyov), "Xalqın nifrəti" (B.Zeydman və Ə.Bədəl-

[1] ARPİİSSA, Fond №2, siyahı №46, iş №33, vərəq – 2-5.
[2] Yenə orada.
[3] Yenə orada, Fond №1, siyahı №238, iş №91, vərəq – 112-113.

bəyli), “Suvorov” (Vasilkov), “Moskva altında”, “Koroğlu” (D.Kovalevski) tamaşalarını hazırlamışdı.[1]

Teatrın kollektivi tez-tez sərhədyanı rayonlara gedir, hərbi hissələrdə çıxış edirdilər. 22 iyun 1941-ci ildən 1 yanvar 1943-cü ilədək teatr 3.304 konsert, yaxud 11.396 ayrıca çıxış təşkil etmişdi. Onlardan 1.059-u Qırmızı Ordunun Bakı qarnizonunda və yaxın rayonlarda, 10-u Azərbaycan şəhərlərinə teatr qastrolunda, 56-sı İrana qastrolda göstərilmişdi. Teatrın kollektivi cəbhə xəttində – Kerçdə, Voroşilovqradda, Mahaçqalada döyüşçülərə, komandirlərə və siyasi işçilərə 55 konsert vermişdi.[2]

M.F.Axundov adına Opera və Balet teatrının kollektivi Uzaq Şərq cəbhələrinə iki briqada göndərmişdi. Bu briqadalar hərbi hissələrdə olmuş, 44 dəfə çıxış etmişlər. Teatr uzaq səfərlərdə və sərhədyanı rayonlarda 100-dən çox çıxış etmiş, SSRİ xalq artistləri Bülbül və Şövkət Məmmədova, Azərbaycan SSR xalq artistləri Hüseynağa Hacıbababəyov, Qurban Primov, V.A.Nikolski, əməkdar artistlər Lopatkin R.M., Həqiqət Rzayeva, Yavər Kələntərli, opera solistləri Sona Mustafayeva, Leyla Təhmasib, Q.Zülalov, S.Nefedov, Bəhram Mənsurov konsertlər vermiş, döyüşçülərlə görüşmüşlər.[3]

Teatrın kollektivi müharibə illərində Cənubi Azərbaycanda da qastrol səfərlərinə də gedirdi. Teatr Ü.Hacıbəyovun “Koroğlu”, “Leyli və Məcnun”, “Əsli və Kərəm”, M.Maqomayevin “Şah İsmayıl” operalarını, Ü.Hacıbəyovun “Arşın mal alan” musiqili komediyasını göstərmiş, qastrolların müvəffəqiyyətlə keçməsində rejissor İsmayıl Hidayətzadənin, dirijor Niyazinin, balet ansamblının rəhbəri Qəmər Almaszadənin, artistlərdən Bülbülün, Ələvsət Sadıqovun, Həqiqət Rzayevanın böyük əməyi olmuşdu.[4] Ümumiyyətlə, M.F.Axundov adına Opera və Balet teatrı 22 iyun 1941-ci il tarixdən 1 yanvar 1945-ci il tarixədək 8.304 konsert vermişdi. Onun 1000-dən çoxu Bakı qarnizonu qarşısında təşkil olunmuşdu, 675 konsert Bakı hospitallarında müalicə olunan yaralı döyüşçülər üçün, 925 konsert bilavasitə Bakının səfərbərlik məntəqələrində, dəmiryolu və dəniz vağzallarında, müdafiə təşkilatlarında təşkil edilmişdi.[5]

M.F.Axundov adına Opera və Balet Teatrının kollektivi vəsait toplanışında fəal iştirak edərək müdafiə fonduna 53.349 rubl nağd pul, 104.580 rublluq istiqraz vermiş, hər ay bu fonda 10.760 rubl kömək etmək haqqında

---

[1] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – c.300.

[2] ARPİİSSA, Fond №1, siyahı №238, iş №198, vərəq – 15.

[3] Yenə orada, vərəq – 14-19.

[4] Azərbaycan tarixi: [7 cilddə]. –Bakı: Elm, – c 7: (iyun 1941–2002–ci il). – 2003 – s.92.

[5] Yenə orada.

qərar qəbul etmişdi.[1] Artistlərdən Bülbül, Drozdov, Q.Almaszadə, Y.Kələntərli, A.Rzayeva və başqaları müdafiə fonduna nağd pul, qızıl və gümüş əşyalar vermişdilər.[2] 13 tamaşadan və istirahət günlərində teatrın işçilərindən toplanan vəsait təyyarə eskadrilyası və "Bakı komsomolçusu" zirehli qatarının təşkilinə, tikintisinə, isti paltar alınmasına, tank dəstəsinin yaradılmasına və digər işlərə sərf olunmaq üçün köçürülmüşdü.[3]

Müharibənin sonuna yaxın teatr cəbhə qəhrəmanlarının bədii surətlərini əks etdirən Qara Qarayev və Cövdət Hacıyevin "Vətən" operasını tamaşaya qoymuşdu. Bu opera o zaman Azərbaycanın musiqi həyatında böyük sənət bayramına çevrilmişdi.

Müharibə illərində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində fəal iştirak edən mədəniyyət ocaqlarından biri də Naxçıvan teatrı idi. Müharibənin ilk günlərindən digər mədəniyyət müəssisələrində olduğu kimi Naxçıvan teatrının da əməkdaşları – tanınmış və istedadlı sənətkarlar Rza Məmmədov, Mirələsgər Seyidov, Ağabala Məmmədov, Tələt Nəcəfov, Abbas Quliyev (sonralar Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdü), M.Cəfərov, M.Q.Seyidov və başqaları cəbhəyə getdilər.[4]

Teatrın repertuarına "Evlikən subay" və "Aşıq Qərib" (Z.Hacıbəyov), "Fərhad və Şirin" (S.Vurğun), "İntiqam" (Z.Xəlil), "Yağışdan çıxdıq yağmura düşdük" (N.B.Vəzirov), "Aslan yatağı" (M.H.Təhmasib), "Babək" (O.Sarıvəlli), "Arşın mal alan", "Leyli və Məcnun", "Əsli və Kərəm" (Ü.Hacıbəyov) və s. əsərlər daxil edilmişdi.[5]

Naxçıvan teatrının baş rejissoru və direktoru olmuş İbrahim Həmzəyevin hazırladığı "Aslan qayası", "İntiqam", "Qaçaq Nəbi", "Nizami", "Məhəbbət" tamaşaları əhali tərəfindən rəğbətlə qarşılanmışdı. N.B.Vəzirovun "Müsibəti Fəxrəddin" pyesində İbrahim Həmzəyevin oynadığı Fəxrəddin, (1941), O.Sarıvəllinin "Babək" mənzum dramında Babək (1942), M.Lermontovun "İki qardaş" əsərində Aleksandr (1942), Mehdi Hüseynin "Nizami" tarixi dramında Nizami (1942), M.H.Təhmasibin "Aslan yatağı" pyesində Şahmar (1943), C.Cabbarlının "Oktay Eloğlu" dramında Oktay (1943), A.Ostrovskinin "Günahsız müqəssirlər" əsərində Neznamov (1943), Mirzə İbrahimovun "Məhəbbət" dramında Yusif (1943), V.Şeksprin "Otello" faciəsində Otello (1944), G.Simonovun "Vətən oğlu" pyesində Kamal (1944) obrazları adamların vətənpərvərlik ruhunda tərbiyəsində əhəmiyyətli rol oynamışdı.

---

[1] "Газ. «Бакинский рабочий», 1943, 20 января.
[2] ARPİİSSA, Fond №1, siyahı №236, iş №47, vərəq – 62.
[3] Yenə orada, siyahı №238, iş №198, vərəq – 14-19.
[4] Vəzirov, C. Naxçıvan teatrı Vətən müharibəsi illərində // Ədəbiyyat və incəsənət, 1984, 4 may.
[5] Yenə orada.

Naxçıvan teatrı 1943-1944-cü illərdə repertuarına yenidən baxaraq onu təzələmiş, Rəsul Rzanın "Vəfa", Abdulla Şaiqin "Vətən", N.V.Vəzirovun "Adı var, özü yox", Şillerin "Məkr və məhəbbət", V.Şeksprin "Otello" və b. əsərləri repertuara daxil edilmişdi. Teatrda, həmçinin Qurban Musayevin "Arsenal" (1944), K.Simonovun "Vətən oğlu" (1944), Şkvarkinin "Şən nəğmə" (1944), A.Ostrovskinin "Günahsız müqəssirlər" (1943), C.Cabbarlının "Oktay Eloğlu" (1943), V.Şeksprin "Otello" (1944) əsərlərini uğurla tamaşaya qoymuş və geniş tamaşaçı kütləsinin rəğbətini qazanmışdı.

Ağır sınaq illərində şüurlara və qəlblərə yol tapan teatrlardan biri də Gənc Tamaşaçılar Teatrı olmuşdu. Teatrın aktyorlarından Süleyman Babayev, Hüseynbala Zeynalov, Hidayət Qasımov cəbhəyə getmiş və düşmənlə döyüşdə həlak olmuşdular.

Teatrın repertuarında müdafiə və antifaşist mövzularında pyeslər çox idi.[1] Müharibənin ilk aylarında teatrın səhnəsində "Seyran", "Ayaz", "Eloğlu" kimi qəhrəmanlıq tamaşaları, S.Axundovun "Çətin dərə", S.Axundovun "Qayğı", C.Məmmədov və M.Mirzəyevin "Tərlan" pyesləri tamaşaya qoyulur. Teatrın rus bölməsinin "Qızcığaz" (müəllif Q.Qaydovski, rejissor Q.K.Vronski), "Sevimli qız" (müəllif S.Danilin və E.Raymond, rejissor M.Haşımov), "Partizan Kostya" (müəllif K.Filippov, rejissor A.Tuqanov), "Sənin evin" (müəllif V.Lyubimova, rejissor A.Tuqanov), "Təpə üzərində ev" (müəllif V.Kaverin, rejissor A.Tuqanov) tamaşaları diqqəti cəlb edirdi.[2] Ümumiyyətlə, Azərbaycan Gənc Tamaşaçılar Teatrı müharibə illərində öz fəaliyyətini müharibənin tələblərinə uyğun qurmuşdu ki, bu da bütövlükdə Azərbaycan mədəniyyətinin qələbəyə töhfəsi idi.

Müharibə dövründə öz fəaliyyəti ilə seçilən, milli mədəniyyətimizin inkişafında müstəsna rolu və mövqeyi olan peşəkar teatrlardan biri də Tiflis Azərbaycan teatrı idi. Müharibənin başlanması ilə əlaqədar digər mədəniyyət ocaqlarında olduğu kim, Tiflis Azərbaycan teatrının da həyatı dəyişdi, teatrın repertuarı yeni axara düşməyə, onun fəaliyyəti müharibə şəraitinə uyğunlaşdırılmağa başlandı. 1941-ci ildə artıq teatrın repertuarına "Mənim oğlum", "Professor Matlok", "Bizim şəhərli oğlan", "Kinto", "Aydın" kimi əsərlər daxil edildi. M.F.Axundovun "Vəziri-xani-Lənkəran", S.Vurğunun "Aydın" və "Vaqif", "Fərhad və Şirin", M.İbrahimovun "Həyat" və s. əsərlər teatrda səhnə həyatı qazandı. Teatr 19421943-cü il mövsümünə C.Cabbarlının "1905-ci ildə", M.İbrahimovun "Məhəbbət", R.Rzanın "Vəfa", M.Hüseynin "Nizami", İ.Ramişvilinin "Qonaqpərvərlər" və Rza Şahvələdin "Qız qalası" əsərləri ilə yeni quruluşda başladı.[3]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №238, iş №91, vərəq – 112-113.
[2] "Şərq qapısı" qəzeti, 1943, 14 sentyabr.
[3] "Kommunist" qəzeti, 1944, 27 avqust.

Tiflis Azərbaycan Dram teatrı öz səhnəsində dram əsərləri ilə yanaşı Azərbaycan opera və operettalarını, musiqili komediyalarını da tamaşaya qoyurdu. O dövrün tamaşalarında iştirak edən gənc artistlər – B.Zeynallı, N.Zeynallı, S.Zeynalova, F.Məmmədov, K.Məmmədov, N.Quliyev, S.Məmmədova, N.Əzizov, İ.İbrahimov, T.Kazımov, V.Sürxabi, A.Sailova, Osman Həqqi və b. çıxışları tamaşaçıların rəğbətini qazanmışdı.

Rus Dram teatrı da müharibə illərində öz işini müharibə tələblərinə uyğun qurmuş, öz repertuarını yeni əsərlər hesabına zənginləşdirmişdi. Teatrın 1942-ci ildə göstərdiyi tamaşalar arasında A.Korneyçikin "Cəbhə", "Partizanlar Ukrayna düzlərində", A.Korneyçik və Zaltsmanın "Odessa, biz qayıdacağıq", Baktaryevin "Sərkərdə Suvorov" əsərləri əsas yer tuturdu.[1] Teatr 1942-1943-cü illərdə 482 tamaşa göstərmiş, onun çıxışlarına 316,9 min tamaşaçı baxmışdı.[2]

Müharibə illərində rayon teatrları da səmərəli fəaliyyət göstərmişdilər. Teatrların repertuarında kiçik həcmli pyeslər üstünlük təşkil edirdi. 1942-ci ildə Bakıda və respublikanın 15 rayonunda teatr fəaliyyət göstərirdi. Bütün rayonlarda teatrın olmadığı nəzərə alınaraq 15 rayon teatrına əlavə olaraq 55 rayonda da tamaşa göstərməsi bölgü ilə müəyyənləşdirilmişdi. Məsələn, Ağdam teatrı Ağcabədi, Bərdə, Tərtər və Yevlax, Nuxa (Şəki) teatrı – Vartaşen (indiki Oğuz), Qax, Zaqatala, Balakən rayonlarının əhalisinə xidmət göstərməli idi.[3] Rayon teatrlarına yaradıcılıq köməyi göstərmək üçün rejissorların rayonlara ezam edilməsi M.Əzizbəyov adına dram teatrının müdiriyyətinə həvalə olunmuşdu. 1943-1944-cü illərdə Mehdi Hüseynin "Nizami", N.b.Vəzirovun "Hacı Fərəc lənətullah", Sabit Rəhmanın "Toy", sonrakı dövrdə Şekspirin "12-ci gecə", M.F.Axundovun "Hacı Qara", C.Cabbarlının "Oqtay" əsərləri tamaşaya qoyulmuşdu. Teatrların repertuarları zəngin və rəngarəng idi. Dahi şair Nizaminin həyat və fəaliyyətinin onun doğma şəhərindəki teatrda səhnələşdirilməsi, eləcə də Azərbaycan xalqının qəhrəman oğullarının Vətən müharibəsi cəbhələrində şücaətlərinin tərənnüm edilməsi Kirovabad (indiki Gəncənin – red.) teatr kollektivinin böyük uğuru idi.

Rayon teatrlarına göstərilən yaradıcılıq köməyində əsas məqsəd "teatrların yaradıcı kollektivləri içərisində partiya – siyasi işi yaxşılaşdırmaq idi".[4]

Müharibə illərində Azərbaycanın teatr işçiləri hərbi hamilik işində fəal iştirak etdilər. Müharibənin birinci həftəsində teatr işçilərinin 101 briqadası

---

[1]ARPİİSSA, Fond №1, siyahı №238, iş №91, vərəq – 112-113.

[2] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində /Ə.Bağırzadə. – Bakı, 1970. – s.332.

[3] Yenə orada.

[4] ARPİİSSA, Fond №2, siyahı №116, iş 33, vərəq – 112-113.

157 konsert,[1] avqust ayının birinə kimi Bakı teatrları 425, Kirovabad (indiki Gəncə – red.) teatrı 36, Şamxor (indiki Şəmkir – red.) teatrı 32, Ağdam teatrı 48, Naxçıvan teatrı 26 konsert vermişdilər.[2]

Döyüşçülərə və kənd adamlarına bədii xidmətdə opera və balet teatrının kollektivi daha nümunəvi olmuş, 1943-cü ilin birinci yarısında 795 hamilik konserti vermiş, nümunəvi xidmətinə görə İncəsənət İşçiləri İttifaqı Azərbaycan respublika Komitəsinin Keçici Qızıl Bayrağına layiq görülmüşdü.

Müharibə illərindəki fəaliyyətlərinə görə Azərbaycan səhnəsinin veteranı M.A.Əliyev Dövlət Mükafatına layiq görülmüş, 11 nəfərə respublikanın Xalq artisti və 55 nəfərə isə Əməkdar artist fəxri adı verilmişdir.

---

[1] Bağırzadə, Ə. Azərbaycan ziyalıları Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə. – Bakı, 1970. – s. 337.

[2] Yenə orada, s. 447.

X FƏSİL

AZƏRBAYCANIN SOVET İTTİFAQI QƏHRƏMANLARI BİOBİBLİOQRAFİK MƏLUMAT

Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları[1]

1. Aslanov Həzi Əhəd oğlu
2. Abdullayev Məmiş Şahbaz oğlu
3. Abdullayev Səməd Həmid oğlu
4. Abramov Vladimir Fyodoroviç
5. Aqafonov Georgi Matveyeviç
6. **Allahverdiyev Müseyib Abdulla oğlu**
7. Arzumanov Qurgen Mirzoyeviç
8. Avakyan Qazaros Avetisoviç
9. Avakyan Qrant Arsenoviç
10. Avtandilyan Temik Avatesoviç
11. Ayanyan Eduard Melikoviç
12. Ayrapetyan Qriqori Mixayloviç
13. Ayriyev Armen Tevanoviç
14. Babacanyan Amazasp Xaçaturoviç
15. **Bağırov Müseyib Bağır oğlu**
16. Bağırov Ruben Xristoforoviç
17. Baqramyan İvan Xristoforoviç
18. Baqyan Qriqori Karapetoviç
19. Balandin Vladimir Aleksandroviç
20. Balayan Qaregin Şakeyeviç
21. **Bayramov İsmayıl Xəlil oğlu**
22. **Bünyadov Ziya Musa oğlu**
23. **Cəbiyev Mirzə Ağamurad oğlu**
24. **Cəfərov Ağaşirin Ağaməmməd oğlu**
25. Çelyadinov Dmitri Alekseyeviç
26. **Dadaşov Məhərrəm Əkbər oğlu**
27. Danilyants Yerem İvanoviç
28. **Əhmədov Cəmil Məhəmməd oğlu**
29. **Əkbərov Qəzənfər Qulam oğlu**
30. **Ələkbərov Mikayıl Məmməd oğlu**
31. **Əliyev Məstan Astan oğlu**
32. **Əliyev Şəmsulla Feyzulla oğlu**
33. **Əsədov Gəray Lətif oğlu**
34. Fedorenko Stepan Alekseyeviç
35. Frolov Mixail Fyodroviç

[1] Azərbaycanlı qəhrəmanlar tünd qara rənglə işarələnmişdir.

36. **Həkimov Mikayıl (Mixail) Kəbir oğlu**
37. **Hüseynov Həbibulla Eynulla oğlu**
38. **Hüseynzadə Mehdi Hənifə oğlu**
39. Xarlamov Georgi Nikolayeviç
40. İlyasov İvan Vasiyeviç
41. İonesyan Vladimir Akopoviç
42. İsakov İvan Stepanoviç
43. Kaliniçenko Qriqori Martınoviç
44. Kasparov Suren Akopoviç
45. Kasprov Aşot Cümşüdoviç
46. Kaverin İlya Ananyeviç
47. **Kazımov Səlahəddin Həsən oğlu**
48. Kildiyakov Mixail Andreyeviç
49. Klimov Pavel Dmitriyeviç
50. Koçelayevski Yuri Petroviç
51. Konstantinov Qaruş Sergeyeviç
52. Kovalyov Valentin Fyodoroviç
53. Kuturqa İvan Vasilyeviç
54. Qalustov Qriqori Şaumoviç
55. Qazaryan Andronik Abramoviç
56. **Quliyev Abbas Şahbaz oğlu**
57. **Quliyev Adil Hüseyn oğlu**
58. **Quliyev Mehdi Nadir oğlu**
59. Leonov Demokrat Vladirmiroviç
60. Levin Semyon Smuiloviç
61. Loxanov Aleksey Aleksadroviç
62. Lozov Vasili Savelyeviç
63. Manasyan İsak Markosoviç
64. Maneviç Lev Yefimoviç
65. Manukyan Andronik Aleksandroviç
66. Martirosyan Sakis Soqomonoviç
67. Melikyan Xaçatur Bəyləroviç
68. **Məhərrəmov Məlik Məlik oğlu**
69. **Məhərrəmov Məmməd Əli oğlu**
70. **Məmədov Qafur Nəsir oğlu**
71. **Məmmədov Əmi Ağa oğlu**
72. **Məmmədov Xəlil Məmməd oğlu**
73. **Məmmədov İsrafil Məhərrəm oğlu**
74. **Məmmədov Məmməd Cəbrayıl oğlu**
75. Mironov Valentin Akimoviç
76. **Mirzəyev Bəhyəddin Şahvələd oğlu**
77. Mkrtumov Samson Movsesoviç
78. **Musayev Mərdan Məmməd oğlu**

79. Mustafayev Bəkir Dursun oğlu
80. Mustafayev Xıdır Həsən oğlu
81. Nazarov Konstatin Aleksadroviç
82. Nosov Aleksandr Mixayloviç
83. Ohanesov Vazgen Mixayloviç
84. Osipov Pavel Dmitriyeviç
85. Ostapenko İvan Qriqoryeviç
86. Parseqov Mixail Artyomoviç
87. Petrosyan Suren Qriqoryeviç
88. Petrov Aleksandr İvanoviç
89. Petruxin Nikolay Dmiriyeviç
90. Piriyev Əlif Turxan oğlu
91. Polınkin Dmitri Pavloviç
92. Popov Nikolay Fyodoroviç
93. Rəfiyev Nəcəfqulu Rəcəbəli oğlu
94. Rixard Zorge
95. Rujin Vladimir Mixayloviç
96. Sadıqov Yusif Mədəd oğlu
97. Safonov İlya Moiseyeviç
98. Sedov Qriqori Aleksandroviç
99. Səfərov Aram Avakumoviç
100. **Səfərov Fariz Məcid oğlu**
101. Sərkisov Armais Asaturoviç
102. Sıqanov Yevgeni Terntyeviç
103. Sinyov Yakov Mixayloviç
104. Statsyuk Nikolay Arsentyeviç
105. Stepanyan Nelson Gerogiyeviç
106. Suxov Nikolay Dmitriyeviç
107. Süleymanov İdris Həsən oğlu
108. Svetıçev Georgi Georgiyeviç
109. Şaxnoviç Moisey Davidoviç
110. Şaumyan İvan Konstantinoviç
111. Şeverdyayev Nikolay Petroviç
112. Şlyaxturov Pyotr Petroviç
113. Şükürov Şirin Ağabala oğlu
114. Ter-Ohanov Arsen Aramoviç
115. Verdiyev Əvəz Haşım oğlu
116. Vəliyev Mirzə Dövlət oğlu
117. Vəzirov Aslan Fərhad oğlu
118. Yavrumov Vladimir Akopoviç
119. Yeqorov İvan Klavdiyeviç
120. Yenaliyev Boris Museyeviç
121. Zaxaryan Vatenak Semyonoviç

AZƏRBAYCANLI SOVET İTTİFAQI QƏHRƏMANLARI

Aslanov Həzi Əhəd oğlu
(22.01.1910 – 24.01.1945)

Azərbaycan xalqının qəhrəman oğlu Həzi Əhəd oğlu Aslanov 1910-cu ildə Lənkəranda anadan olmuşdur. Tank qoşunları qvardiya mayoru, general-mayor (1944) rütbəsinə yüksələn H.Aslanov iki dəfə (22.12.1942, 21.06.1991) Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

H.Aslanov 1929-cu ildə Cənubi Qafqaz Hərbi hazırlıq Məktəbini bitirib Leninqrad Süvari Məktəbinə oxumağa göndərilmişdir. İki ildən sonra təhsilini başa vuran gənc Həzi Kotovski adına 3-cü Bessarabiya Süvari Diviziyasının 15-ci süvari alayına taqım komandiri təyin edilir. Ordu həyatına süvari kimi qədəm qoyan H.Aslanov sonralar at belindən düşüb tank sükanı arxasına keçir, 12-ci zirehli avtomobil divizionunda qulluq edir.

H.Aslanov İkinci Qafqaz Diviziyasında qulluq dövründə özünün bacarığı, qeyri-adi çevikliyi və silahla davranışı ilə döyüş yoldaşlarından seçilir. Müharibədən əvvəlki 8 il ərzində Həzi Aslanov orduda taqım komandiri, tank rotasının komandiri, əlahiddə tank batalyonu məktəbinin rəisi, batalyon komandirinin tədris-atıcılıq hissə üzrə köməkçisi, 10-cu Tank-mühəndis Diviziyası komandirinin texniki hissə üzrə köməkçisi kimi vəzifəsinin öhdəsindən bacarıqla gəlir. Ona 1939-cu il fevralın axırlarında kapitan, 1940-cı ilin noyabrında mayor rütbəsi verilir. Hərbi xidmət dövründə ictimai işlərdə fəallıq göstərir, 8-ci çağırış Bakı Sovetinin üzvü, 1937-ci ildə əlahiddə tank batalyonu tank rotasının komandiri olduğu zaman Ukrayna SSR Obruç şəhər Sovetinin üzvü (deputatı) seçilir.

Müharibə başlayanda H.Aslanov Ukraynada Lvov vilayətinin Zloçev şəhərində qulluq edirdi. 1941-ci ilin avqustundan mexanikləşdirilmiş alayın komandirinin texniki hissə üzrə köməkçisi olan H.Aslanov elə ilk döyüşlərdə fərqlənir, sağ qıçından iki yerdən yaralanır. 1941-ci ilin axırlarında cəbhədə yaranmış ağır vəziyyətlə əlaqədar H.Ə.Aslanov Moskvaya çağırılır və Krıma 55-ci Əlahiddə Tank briqadası komandirinin müavini vəzifəsinə göndərilir.

H.Ə.Aslanov 1941-ci ilin dekabrında Moskva yaxınlığındakı döyüşlərdə iştirak edir. Azərbaycanın rəşadətli oğulları topçu Məmmədrəsul Paşayev, avtomatçı Əşrəf Məmmədov, rabitəçi Məmməd Xəlilov, tank bölməsinin komandiri Həzi Aslanov və yüzlərlə digər Azərbaycan oğulları döyüşlərdə qəhrəmanlıq və cəsurluq nümunələri nümayiş etdirirlər. Mayor

Həzi Aslanov Moskva uğrunda döyüşlərdə ilk döyüş mükafatına – "Qırmızı Ulduz" ordeninə layiq görülür.

Moskva döyüşlərində müvəffəqiyyət qazanmayan alman-faşist qoşunları hücumun istiqamətini dəyişirlər. H.Aslanovun tankları Xarkov yaxınlığında döyüşlərdə almanlara sarsıdıcı zərbələr vurur, yüzlərlə faşist, düşmənin çoxlu tankı məhv edilir.

1942-ci ilin yazında podpolkovnik Həzi Aslanov Cənub-Qərb cəbhəsində Krımın Yeddi Quyu kəndi rayonunda vuruşur. Krım uğrunda döyüşlər 55-ci Tank briqadası komandirinin müavini vəzifəsinə təyin edilən H.Aslanov üçün yeni sınaq olur.

1942-ci ilin yazında cəbhədə vəziyyət ağır olaraq qalırdı. Müvəqqəti üstünlüklərə malik olan alman-faşist qoşunları 1942-ci ilin yayında Don sahillərinə çatdı. Stalinqrada soxulmağa çalışdılar. Artıq düşmənin Volqa sahilinə və Şimali Qafqaza çıxmaq təhlükəsi yarandı.

Sovet komandanlığı təcili tədbirlər görməyə başladı. 1942-ci il iyulun 12-də Stalinqrad cəbhəsi yaradıldı və Sovet İttifaqı Marşalı S.K.Timoşenko cəbhə komandanı təyin edildi. İyulun 22-də onu general-leytenant V.N.Qordov, sonra general-polkovnik A.N.Yeryomenko əvəz etdi. A.Yeryomenkoya sonralar Sovet İttifaqı Marşalı rütbəsi verildi.

Stalinqrad cəbhəsinin tərkibinə 55-ci Tank Briqadası da daxil idi. Briqadanın komandiri polkovnik P.P.Lebedenko, təlim hissə üzrə komandir müavini H.Ə.Aslanov idi. İyulun 17-də 62-ci və 64-cü orduların ön dəstələrinin əməliyyatı ilə Stalinqradın yaxın həndəvərində müdafiə döyüşləri başlandı. Bu döyüşlərdə 55-ci Tank Briqadasının bölmələri iştirak etdi.

55-ci tank briqadası 1942-ci il iyulun 24-ə keçən gecə Razqulyayevka-Qurmak-Voropnovo-Karpovskaya-Çerkasovo marşrutu ilə hücuma keçməli idi. Qarşıda Don çayını keçmək kimi çətin vəzifə dururdu. Nəhayət, iyulun 29-da hücum başlayır. Stalinqradın uzaq həndəvərində gedən döyüşlərdə 55-ci briqadanın tankçıları fərqlənirlər. H.Aslanov, həmçinin əsgər və zabitlər hökumət mükafatları ilə təltif olunurlar. Avqust və sentyabr ayında şiddətli döyüşlər davam edir. Noyabrın əvvəllərində cəbhədə vəziyyət daha da ağırlaşır. 55-ci tank briqadası 28-ci tank korpusunun qalıqları ilə birlikdə yenidən komplektləşdirilmək üçün 4-cü Mexanikləşdirilmiş Korpusun tərkibinə verilir. Korpusun 55-ci tank Alayının komandiri vəzifəsinə podpolkovnik H.Ə.Aslanov təyin edilir.

Podpolkovnik H.Aslanovun komandanlıq etdiyi 55-ci Əlahiddə Tank Alayı Stalinqrad cəbhəsinin sol cinahında əməliyyat aparırdı. Onun tankçıları vuruşa-vuruşa 40 kilometrdən artıq yol qət etmişdilər. 1942-ci il noyabrın 19-da Barmansak gölü rayonunda hücuma keçən tank alayı bir neçə saat ərzində düşmənin 4 tankını, 5 minomyot batareyasını, bir ağır topunu, 3 piyada rotasını sıradan çıxarır və 700 hitlerçini əsir aldı. Manşteynin qoşunları ilə döyüşdə düşmənin 45 tankı, 9 minomyot batareyası, 14

tank əleyhinə və 12 səhra silahı, 50 avtomobil sıradan çıxarılır. Noyabrın 22-də axşamüstü tank hissələri Buzinovka rayonuna çıxır, ertəsi gün Sovetsk stansiyasına daxil olurlar. Stalinqrad döyüşçüləri noyabr ayının 23-də Cənub-Qərb cəbhəsinin qoşun hissələri ilə birləşirlər.

1942-ci il noyabrın 19-da Sovet qoşunlarının Stalinqrad ətrafında əks-hücumu başlandı. H.Aslanovun polku, podpolkovnik Diasamidzenin atıcılar polku ilə qarşılıqlı əlaqədə Satsa və Barmansak gölü rayonunda hücuma keçdi. O, döyüşün ilk saatı ərzində düşmənin 4 tankını, 5 minaatan batareyasını, 10 tankvuran tüfəngini, 18 torpaq atəş nöqtəsini darmadağın etdi. Yüzlərlə hitlerçi öldürüldü, 700 əsgər və zabit əsir alındı.

1942-ci il dekabrın ortalarında feldmarşal Paulsa kömək üçün feldmarşal Manşteynin tank ordusu Kotelnikova rayonundan tank taranına başladı. Digər hissələrlə yanaşı H.Aslanovun polku da Kerxnekimsk xutoru ərazisində düşmənin yolunu kəsdi. Şiddətli döyüşlərdə Həzi Aslanovun polku düşmənin 45 tankını, 26 topunu, 50 avtomobilini, 2.000-dən çox faşist əsgər və zabitini məhv etdi. Hərbi qənimət olaraq 125 minik maşını, 12 avtomobil, 30 motosikl, 80 araba, xeyli ərzaq, hərbi ləvazimat ələ keçirildi.


155

лутов к присвоению звания ГЕРОЯ СОВЕТСКОГО СОЮЗА
ен ордена ЛЕНИНА и медали "ЗОЛОТАЯ ЗВЕЗДА"

Подполковник АСЛАНОВ Аза Агдович –
Командир 55 Отдельного танкового
полка.

ческое и умелое руководство в боях своим
лком подбито и сожжено только в районе Верхне-
15-19.12. 30 танков, 50 автомашин и уничтожен
фашистов. Все вышеуказанное нами наблюдалось
ечение всех боев в районе Верхне-Кумская, а
стно от непосредственных начальников, команди-
.

ЗАХАРОВ

БОЛЬШИН

: Начальник 1 отделения 4 Отдела ГУК
Д а к о р
(Лобинцев)

Присвоено звание
Герой Советского Союза
с вручением Ордена Ленина
и медали „Золотая Звезда"

Указ от 22.12.42г.

H.Aslanovun təltif vərəqəsi

Dekabrın 18-də düşmən Verxne-Kumski üzərinə yenidən hücuma keçdi. Podpolkovnik H.Aslanovun tankçıları, mayor Semyonovun topçuları, tankvuran topların topçuları döyüşdə qəhrəmanlıq nümunələri göstərdilər. Alman işğalçılarına qarşı mübarizə cəbhəsində komandanlığın döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiklərinə, bu zaman rəşadət və qəhrəmanlıq göstərdiklərinə, tabeliklərində olan hissələrə bacarıqla və mərdliklə rəhbərlik etdiklərinə görə bir neçə nəfərə, o cümlədən **H.Ə.Aslanova SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 22 dekabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verildi.**

"Pravda" qəzeti "Komandirin mətanəti" məqaləsində yazırdı: "…Bu günlərdə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş podpolkovnik Aslanovun komandanlıq etdiyi tank hissəsi də qorxmazcasına, mətanətlə, bacarıqla, yenilməz iradə, qələbə çalmaq əzmi ilə vuruşmuşdur. Tankçılar düşməni müvəffəqiyyətlə və amansızcasına darmadağın etmiş, almanlar əks-hücuma keçdikdə isə podpolkovnik Aslanovun rəhbərlik etdiyi hissə

düşmənin basqınını dəf etmiş, beş gün ərzində faşistlərin 40 tankını, 50 avtomobilini və bir batalyon piyada qoşununu sıradan çıxartmışdır".

H.Aslanovun qəhrəmanlığı azərbaycanlı döyüşçüləri yeni qələbələrə ruhlandırdı. Qara dəniz Hərbi Donanmasında xidmət edən bir dəstə əsgər və zabitin H.Aslanovun anasına göndərdiyi məktubda qəhrəmanın döyüş yolunun onlar üçün mübarizə timsalı olduğu bildirilirdi.

H.Aslanov hər döyüşdə öz bilik və bacarığını təkmilləşdirir və dərinləşdirirdi. Onun "Pravda" qəzetində dərc olunan "Cinahlardan zərbə" məqaləsi qəhrəmanın döyüşdən-döyüşə təkmilləşdiyini, hərbi biliklərə yiyələndiyini göstərirdi.

1943-cü il fevralın 2-də alman-faşist qoşunlarının Stalinqraddakı böyük qruplaşması darmadağın edildikdən sonra sovet qoşunları Rostova yaxınlaşdılar. Almanlar Rostovdan qərbdə yerləşən Mius çayı sahilində güclü müdafiə sistemi yaratmışdılar. Polkovnik H.Aslanovun əsgərləri Mius cəbhəsi üzərinə hücuma hazırlaşdılar. Aslanovun tank hissəsinin daxil olduğu korpus 1943-cü il fevralın ortalarında 2-ci qvardiya ordusunun tabeliyinə keçdi. Korpusun qoşunlarına əmr verildi ki, Matvey kurqanı istiqamətində hücumu genişləndirsinlər. "Cənub" cəbhəsinin komandanı, general-polkovnik R.Y.Malinovskinin əmri ilə Sovet İttifaqı Qəhrəmanı, qvardiya polkovniki H.Ə.Aslanovun komandanlığı altında korpusun tanklarından birgə tank qrupu yaradıldı. Tank qrupu ilə birgə əməliyyat aparmaq üçün onun sərəncamına 7-ci briqadanın motorlu atıcı batalyonu və avtomatçılar rotası verildi. Aslanovun tank qrupu korpusun önündə gedirdi. O, fevralın 13-də Krivyanskaya stansiyasından hərəkətə başladı, geri çəkilən düşməni təqib edə-edə qərbə tərəf irəlilədi. Elə birinci gün tankçılar döyüşə-döyüşə Kamennı Brod, Budyonnı, Serdyukovo və Bolşoy Odin yaşayış məntəqələrini aldılar. Aslanov düş-

3-cü Belarusiya cəbhəsi qvardiya mexanikləşdirilmiş korpusu. Zirehli tank və mexanikləşdirilmiş qoşunların generalları:
Sovet İttifaqı Qəhrəmanı A.Q.Rodin (mərkəzdə)
Sağdan sola: 8-ci qvardiya mexanikləşdirilmiş briqadanın komandiri Sovet İttifaqı Qəhrəmanı D.N.Belıy, 35-ci qvardiya tank briqadasının komandiri Sovet İttifaqı Qəhrəmanı H.Ə.Aslanov, 3-cü qvardiya mexanikləşdirilmiş korpusun komandiri V.T.Obuxov. 1943-cü il.

mənə aman verməyərək elə o gecə öz tanklarını Matvey kurqanı rayonuna sürdü.

Mius cəbhəsində döyüşlər üç ay ara vermədi. Mius xəttinin hücum tapşırıqlarının müvəffəqiyyətlə yerinə yetirilməsinə və Matvey kurqanının alınmasına görə Həzi Aslanov yenicə təsis edilmiş "Aleksandr Nevski" ordeninə layiq görüldü. H.Aslanov Azərbaycan əməkçilərinə məktubunda bildirirdi ki, Mius və Dnepr çayı sahillərində tankçılar 73 tankı, müxtəlif kalibrli 174 topu, 65 minomyot batareyasını, 320 avtomaşını, 48 torpaq atəş nöqtəsini və 6.250 əsgər və zabiti məhv etdi, düşmən əsgərləri əsir götürüldülər. H.Aslanovun komandanlıq etdiyi hissə döyüş cəbhələrində yüksək döyüş məharəti göstərdi, 100-dən yuxarı döyüşçü və komandir orden və medallarla təltif olundular. H.Aslanovun tankçıları Axtırka, Lebeden, Qadyaç, Mirqorod, Romodan, Zolotonına şəhərlərinin azad edilməsində iştirak etdilər.

Matvey kurqanı rayonundakı ağır döyüşlərdən sonra 1943-cü il martın 10-da 3-cü mexanikləşdirilmiş Qvardiya Korpusu dincəlmək və sıralarını möhkəmləndirmək üçün Novoçerkassk rayonuna göndərildi. Aprelin axırlarında 41-ci əlahiddə qvardiya tank alayı əsasında 35-ci qvardiya tank briqadası yaradıldı. V.T.Obuxov korpusun komandanı təyin edildi. Sovet İttifaqı Qəhrəmanı H.Aslanovun komandanlıq etdiyi 35-ci Qvardiya Tank briqadası 3-cü mexanikləşdirilmiş qvardiya korpusunun önündə gedirdi.

1943-cü il avqustun 16-da V.T.Obuxov döyüşə girmək barədə əmr aldı. Aslanovun tankçıları həmişə olduğu kimi, yenə də öndə döyüşdülər. Malıy İstorop, Qarbuzovka, Pançenkov, Eroşi, Qroşevo yaşayış məntəqələri azad edildi. Aslanovun tankçıları almanlar tərəfindən inadla qorunan Suxoy Yar yaşayış məntəqəsi uğrunda döyüşdə müstəsna igidlik və mərdlik göstərdilər.

H.Aslanovun tankçıları 416-cı Azərbaycan atıcı diviziyası ilə əlaqədə Taqanroqun azad edilməsində iştirak etdi. Minskinin azad edilməsindəki iştirakına görə H.Aslanov 2-ci dərəcəli "Suvorov" ordeni ilə təltif olundu.

Gərgin döyüşlərdən sonra Həzi Aslanov biliyini təkmilləşdirmək məqsədilə 1943-cü il dekabrın 17-dən 1944-cü ilin aprelin 6-dək "Lenin" ordenli Zirehli Tank Qoşunları Hərbi Akademiyasının akademik kurslarının dinləyicisi oldu. Akademik kursları qurtardıqdan sonra 35-ci Qvardiya Tank briqadasına qayıtdı. 1944-cü il martın 13-də SSRİ Xalq Komissarları Sovetinin qərarı ilə ona general-mayor hərbi rütbəsi verildi.

H.Aslanovun tankçıları Belarusiya və Pribaltika ölkələrinin azad edilməsində müstəsna igidlik göstərdilər. Belə döyüşlərdən biri Berezina çayı sahilində olan Borisov şəhərinin azad edilməsi zamanı baş verdi. Qvardiya kapitanı V.A.Borisovun batalyonu döyüşdə almanların iki rotaya qədər piyada qoşununu, 200-ə qədər süvarisini, 5 tankvuran topunu, 4 təyyarəvuran topunu, "Pələng-3" tipli tankını, yükü ilə birlikdə 19 avtomobilini və

başqa texnikasını məhv etdi. Bu müddətdə 26 "Pələng" tankı, 30 pulemyot, 220 yüklü araba və bir tankvuran top ələ keçirildi, düşmənin 120 əsgər və zabiti əsir tutuldu.

Ali Baş Komandanlıq Berezina çayını keçib Borisov şəhəri uğrunda döyüşlərdə iştirak edən 3-cü Belarusiya Cəbhəsinin qoşunlarına 1944-cü il iyulun 1-də təşəkkür elan etdi. Fərqlənən birləşmələr içərisində H.Aslanovun 35-ci Tank briqadasında vardı.

Belarusiyanın şəhərləri azad edildikdən sonra H.Aslanovun tankları Vilnüsə hücumu davam etdirdilər. Şəhər hitlerçilər tərəfindən ciddi müdafiə olunurdu, ətraf minalanmışdı. Vilnüsdə 15 min əsgər və zabit vardı.

H.Aslanovun briqadası 1-ci Pribaltika Cəbhəsinin tərkibinə daxil idi. Generalın qvardiya tank briqadasının Vilnüsə yolu Viliya çayının sahillərindən keçirdi. H.Aslanovun qvardiyaçı tankçıları müstəsna igidlik göstərdilər. Onların arasında "T-34" tankının sürücü-mexanik köməkçisi, qvardiya baş serjantı S.Q.Hüseynov da vardı. "Qələbəyə doğru" adlı xatirələrdə Litvanın paytaxtının azad olunmasında H.Aslanovun tankçılarının xidmətlərindən geniş bəhs olunmuşdur.

Aslanovun rəhbərlik etdiyi tank briqadası Tartu şəhərinə birinci daxil oldu. Baş serjant Hüseyn Əbilovun rəhbərlik etdiyi batareya 1944-cü il martın 5-də Vinnits şəhəri altında Buğ çayını keçib düşmən istehkamlarını yardı və artilleriya hücumu ilə düşmən istehkamını dağıtdı. Döyüşdə göstərdiyi şücaətə görə Hüseyn Əbilov "Vətən müharibəsi" ordeni ilə təltif olundu

3-cü Belarusiya cəbhəsi 3-cü mexanikləşdirilmiş korpusunun 35-ci qvardiya tank briqadası komandiri Sovet İttifaqı Qəhrəmanı Həzi Əhəd oğlu Aslanov (1-ci sırada ortada) və briqadanın zabitləri. Şəkil 1944-cü il iyunun 23-də Orşa-Vitebsk rayonunda hücumdan əvvəl çəkilmişdir.

Xəlil Şirinovun daxil olduğu hissə 1944-cü il iyunun 21-də Karelfin cəbhəsində Sivir çayı boyunca finlərin istehkamını yardı. Kəşfiyyatçı Həsən Əliyev birinci olaraq çayı keçdi və qiymətli kəşfiyyat materialları gətirdi. Döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiyinə görə o, „İgidliyə görə" medalı ilə təltif olundu.

Rabitəçi Yusif Atayev pulemyot atəşi altında dağıdılmış telefon xətlərini bərpa edərək komanda məntəqəsi ilə əlaqəni təmin etdi. Buna görə Y.Atayev "İgidliyə görə" medalı ilə təltif edildi.

1944-cü ilin iyunun 24-dən iyulun 13-nə qədər H.Aslanovun tankçıları hitlerçilərə böyük tələfat verərək düşmənin 15 tankını, 131 topunu, 133 avtomobilini, 40 təyyarəsini, 15 dəmiryolu qatarını, 12 minaatan batareyasını, hərbi yükdaşıyan 100 arabasını, 18 döyüş sursatı və ərzaqla dolu anbarını, 50 atəş nöqtəsini dağıtdı və 2.600-ə qədər əsgər və zabitini məhv etdi. Eyni zamanda aslanovçular düşməndən 220 avtomobil, 37 motosiklet, 7 dəmiryolu qatarı, 16 paravoz, 550 at, 220 araba, 220 velosiped, 74 top, 88 pulemyot, 300 avtomat, döyüş sursatı ilə dolu 5 anbarı qənimət kimi ələ keçirdi, 580 nəfər faşist əsgər və zabiti əsir alındı.

Vilnüs azad edildikdən sonra general H.Aslanovun tank briqadasının daxil olduğu I Pribaltika Cəbhəsinin qoşunları iyulun 22-də Penevic şəhərini azad edərək Şaulyay (Şavli) istiqamətində hücuma keçdi. İyulun 27-də şəhər faşistlərdən azad edildi. H.Aslanovun briqadası 500-dən artıq əsir götürdü. Ali Baş Komandanın əmri ilə tank qoşunları general-mayoru Həzi Aslanovun 35-ci Qvardiya Briqadasına Şavli briqadası adı verildi və briqada "Qırmızı Bayraqlı 35-ci "Şavli qvardiya tank briqadası" adlanmağa başladı.

Şaulyay döyüşlərində qazanılmış uğurlardan sonra cəbhə komandanlığına düşmənə zərbə endirməklə əsas qüvvələrlə İonişkis, Bauskanı və Yelqavanı tutmaq göstərişi verildi.

Yelqava şəhəri Latviya SSR-in Riqadan sonra ən böyük şəhəri idi. Yelqavaya zərbə vuracaq ön dəstələrin tərkibinə general H.Aslanovun tankçıları da daxil edildi. "Volqadan Baltikədək" kitabında oxuyuruq: "1944-cü il iyulun 29-da Aslanovun 35-ci tank briqadasına əmr verildi ki, iyulun 31-də saat 3-də Dobele qəsəbəsinə yiyələnmək, Yelqava-Saldus dəmiryolunu kəsmək, düşmənin dəmiryol qatarının qərbdən yaxınlaşmasına yol verməmək üçün güclü ön dəstə ayırsın". General H.Aslanovun tankçıları bu vəzifənin öhdəsindən ləyaqətlə gələrək əsil qəhrəmanlıq göstərdilər.

35-ci Qvardiya Tank Briqadasının idarəetmə rotasının telefonçusu, qvardiya serjantı M.N.Muradov mərdlik və cəsurluq göstərdi. Düşmənin şiddətli top və minomyot atəşi altında M.Muradov bir qrup rabitəçinin köməyi ilə bölmələrlə əlaqənin kəsilməsinə imkan vermədi. 1944-cü il avqustun 1-də saat 10-00-da qvardiya korpusunun qoşunları digər hissələrlə birlikdə Yelqava şəhərini faşistlərdən təmizlədi. Ali Baş Komandanın əmri ilə Yelqavanı azad etmiş döyüşçülərə təşəkkür elan olundu. Onların arasında tank qoşunları general-mayoru H.Aslanov da vardı.

Qoşunlar Yelqavanı azad etdikdən sonra hücumu dayandırmadılar. Avqustun 18-də H.Aslanov general Obuxovdan 3-cü batalyonun Qaudikyayın şimal-şərq ucqarına göndərilməsi barədə şifahi tapşırıq aldı. Həmin gün günorta çağı düşmənin 20 tankdan və 40 avtomobildən ibarət dəstəsinin hərəkəti haqqında məlumat alındı. Aslanovçular gözlənilmədən atəşlə heç bir tələfat vermədən düşmənin iki tankını, 17 avtomobilini və 8 arabasını məhv etdilər. Tapşırıq yerinə yetirildi.

Avqustun 26-da döyüşlər daha da şiddətləndi. 35-ci Tank Briqadası batalyonunun avtomatçısı, qvardiya baş serjantı Səfərəli Qafar oğlu Babayev döyüşdə özünü cəsur və qətiyyətli əsgər kimi göstərdi. Düşmən 1944-cü il avqustun 26-da bölmələrə döyüş sursatı və ərzaq gətirilən yeganə yolun kənarında pusqu qurdu. Avtomatçı Babayev düşmənin pusqu yerini taparaq avtomat atəşi ilə 11 hitlerçini öldürdü və "dil" tutdu. Briqada komandiri Aslanov onu "Qırmızı Əmək Bayrağı" ordeninə təqdim etdi.

35-ci tank briqadasının motorlaşdırılmış batalyonunun avtomatçısı İbrahim Əliyev mərdliklə döyüşürdü. O, Latviya SSR-in Caqare şəhərindən şimalda gedən döyüşlərdə düşmən basqınının qarşısını mərdliklə aldı, qumbaralar və avtomat atəşi ilə düşmənin 17 əsgərini məhv etdi.

1944-cü ilin avqust döyüşləri sovet qoşunları üçün uğurlu olmaqla yanaşı, Şərqi Prussiya sərhədlərinə çıxmağa imkan yaratdı. Artıq sentyabr ayında qoşunlar Şərqi Prussiya sərhədlərində döyüşürdülər. Düşmənin burada 50-dən çox diviziyası və motorlaşdırılmış 3 briqadası toplanmışdı. Bu qruplaşmaların tərkibində 700 mindən artıq adam, 1.216 tank, hücum topu və minomyot, 400 təyyarə var idi. Ali Baş Komandanlıq düşmənin Pribaltika qruplaşmasını darmadağın etmək və Pribaltika respublikalarını faşist işğalçılarından azad etmək vəzifəsini qoydu. Döyüş əməliyyatları sentyabrın ortalarında başladı. General Obuxovun mexanikləşdirilmiş qvardiya korpusu və bu korpusun önündə gedən H.Aslanovun qvardiya tank briqadası döyüş əməliyyatlarında fəal iştirak etdi. Aslanovçular həm igidlik, həm də cəsarət göstərərək düşmənin içərilərinə doğru 40 km. irəliləyə bildilər.

Generalın həmkəndlisi, Lənkəran rayonunun Kərmətük kəndindən olan tank taqım komandiri, qvardiya baş serjantı Yədulla İsmayılov Pribaltika uğurundakı döyüşlərdə rəşadət göstərdi. Vileyka şəhəri rayonunda, Vilnüs ətrafında mərdliklə döyüşən Y.M.İsmayılov Çeroya şəhəri uğrunda döyüşlərdə cəsarətli hərəkəti ilə döyüş yoldaşlarını heyrətə gətirdi. Hadisə belə baş vermişdir: Çeroya şəhəri uğrunda döyüşlərdə düzənlik yerdə beş "Messerşmit" Y.M.İsmayılovun tankını atəşə tutur. Cəsur qvardiyaçı İsmayılovun heyəti düşmənə pulemyotdan atəş açır. Tanklar saz halda hissənin mövqeyinə qayıdır. O, Yelqava şəhəri uğrunda döyüş tapşırığını məharətlə yerinə yetirdi, düşmənin 150-ə qədər əsgərini öldürdü. Bukaşi qəsəbəsi uğrunda igidlik göstərən Yədulla Manaf oğlu İsmayılov "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olundu.

Aslanovçulardan başqırd S.S.Soltanov, yakut P.V.Oxlopkov, qvardiya mühəndis – kapitanı gürcü L.İ.Meqrelidze, tibb xidməti qvardiya kapitanı rus Q.V.Xromov, tibbi-sanitar taqımının sürücüsü çuvaş S.N.Fyodorov və başqaları döyüş rəşadətləri göstərdilər. Ali Baş Komandanın 1944-cü il 19 sentyabr tarixi əmrində deyilirdi: "…General-leytenant Beloborodovun qoşunları, tank qoşunları general-leytenantı Obuxovun, general-mayor Mancurinin, tank qoşunları general-mayoru Kremerin, polkovnik Starodub-

tsevin, tank qoşunlarının general-mayoru Aslanovun tankçıları düşmənin müdafiəsini yararkən döyüşdə fərqləndilər".

3-cü Qvardiya Korpusunun komandiri, general V.T.Obuxov 1944-cü il noyabrın 11-də H.Aslanovun döyüş xidmətlərindən bəhs edərək yazır: "Tank qoşunları qvardiyanın general-mayoru H.Ə.Aslanov Sovet Belarusiyası, Litvası və Latviyası uğrunda döyüşlərdə mərdlik və rəşadət göstərdi, Mitavadan (Yelqavadan) cənub-qərbdə Caqare rayonunda müdafiədə, habelə Riqa istiqamətində gedən son döyüşlərdə xüsusi mətanət göstərdi. Şəxsən rəşadət göstərdiyi və briqadanın hissələrinə rəhbərlik etdiyi üçün 2-ci dərəcəli "Suvorov" ordeni və "Qırmızı Bayraq ordeni" ilə təltif olundu". Pribaltika döyüşlərindən bəhs edən «Комсомольская правда» qəzeti də Aslanovçuların qəhrəmanlığından yazırdı.

Stalinqraddan Baltik dənizi sahillərinə qədər döyüş yolu keçən igid azərbaycanlı sərkərdə Həzi Əhəd oğlu Aslanov 1945-ci il yanvarın 24-də Mitava (Yelqava) şəhəri yaxınlığında həlak oldu. Həzi Aslanov şərəfli ömür və döyüş yolu keçdi. O, Moskva və Stalinqrad ətrafında, Minsk, Vilnüs, Şaulyay, Yelqava və Riqa ətrafında döyüşərkən doğma Azərbaycanını, onun şərəfini bir an da olsa yaddan çıxarmadı. O, mahir sərkərdə, cəsur və mərd döyüşçü idi, onun parlaq obrazı xalqın qəlbində daim yaşayacaqdır.

Qəzetlər istedadlı sərkərdə haqqında məqalələr, oçerklər, hekayələr vermiş, respublikanın yazıçıları, şairləri və rəssamları ən yaxşı əsərlərini qəhrəman sərkərdəyə ithaf etmişlər. Azərbaycanın xalq şairi Süleyman Rüstəm Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru H.Aslanova həsr etdiyi şerində yazırdı:

Bir Aslan getdi, heyhat, cərgəmizdən, böylədir dünya!
Qəzəb, kin vardı qəlbində döyüşdə, sanki bir dərya.
Həqiqətdən yaranmışdı, günəşdən qüvvət almışdı,
Onun şəxsiyyəti ellərdən bir ülviyyət almışdı.
Xəyalı mavi göylərdə edərdi quş kimi pərvaz,
Ona sirdaşdır, həmdəmdir çiçəkli bir bahar, hər yaz.
Təmiz qəlbində əvvəldən gülümsərdi Vətən eşqi,
Ona ilham verirdi qanlı yollarda zəfər eşqi.
O yumruq boyda qəlbində kədərsiz bir cahan vardı;
Dillərdi hər döyüşdükcə, xəzansız bir bahar gəlsin,
Vətən mülkündə ötməkçin o coşqun nəğməkar, gəlsin.
Gülərdi gözlərində doğma yurdu, şən Azərbaycan,
Əli ilə yazdı tarixə zəfərlə şanlı bir dastan.
Fəlakət bayquşundan intiqam aldı, qisas aldı,
Səadət yurdunun oğlu hər addımda zəfər çaldı.

Keçmiş cəbhəçi, yazıçı Hüseyn Abbaszadə "General" romanını şanlı sərkərdəyə həsr etmişdir.



Указ Президента СССР о присвоении Ази Асланову во второй раз звания Героя Советского Союза. 21 июня 1991 г.

Героя Советского Союза

АСЛАНОВА
Ази Ахад оглы

за успешное руководство боевыми действиями бригады и личный героизм в ходе операции „Багратион" наградить орденом Ленина и второй медалью „Золотая Звезда" (посмертно).

Президент СССР
М. Горбачев

Указ Президента СССР
от 21 июня 19

General H.Aslanov (ölümündən sonra) ikinci dəfə 1991-ci il iyunun 21-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun bu anda ikinci dəfə layiq görülməsində əməkdar incəsənət xadimi, professor Musa Bağırovun çox böyük əməyi vardır. Məhz onun apardığı tədqiqatlar və aşkar etdiyi sənədlər H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə imkan verdi.

General H.Aslanov (ölümündən sonra) ikinci dəfə 1991-ci il iyunun 21-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onun bu anda ikinci dəfə layiq görülməsində əməkdar incəsənət xadimi, professor Musa Bağırovun çox böyük əməyi vardır. Məhz onun apardığı tədqiqatlar və aşkar etdiyi sənədlər H.Aslanova ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adının verilməsinə imkan verdi.

3 dəfə "Qırmızı Bayraq" (1942, 1944, 1945), 2-ci dərəcəli "Suvorov" (1944), "Aleksandr Nevski" (1943), 1-ci dərəcəli "Vətən müharibəsi" (1945), 2 dəfə "Qırmızı Ulduz"(1942, 1944), ordenləri, "Moskvanın müdafiəsinə görə", "Stalinqradın müdafiəsinə görə", "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif olunan H.Aslanovun adına Bakıda Zabitlər evi fəaliyyət göstərir. Bakıda Dağüstü parkda abidəsi qoyulmuşdur. Onun adına küçə, meydan, məktəb və Lənkəranda ev muzeyi vardır.

Onun haqqında: Azərbaycanın qəhrəman oğlu Həzi Aslanov. Bakı, 1943; Mir Cəlal Paşayev. Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov. Bakı, 1944; A.Sərkisov, General Həzi Aslanov/Ayro Sərkisov. – Bakı, 1945; Samsonov, A.M. Sovet İttifaqı Qəhrəmanı H.Ə.Aslanov / A.M.Samsonov. – Moskva, 1949; Oqulçanski, İv. Həzi Aslanov / İv. Oqulçanski. – Moskva, 1960; Mustafayev, X. Tanklarla düşmən üzərinə /X. Mustafayev. – Bakı. – 1962.- s.19-29; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, s.5-11; Abbasov, A. Əsrlərdə yaşayacaq misilsiz qəhrəmanlıq / Abbasov, A. // Azərbaycan kommunisti. – 1965, №5, s.36-42; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, pro-

fessor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, şəkilli, s.16-19; ASE, I cild. Bakı, 1976, s.437; Qurban, T. Köhnə izlər dilə gəldi / Teyyub Qurban // Azərbaycan. –1987. –№11, – s.181-185; Лариса Кучерова. Живая боль войны / Л.Кучерова. – Минск, 2020. – с.288-301.

Abdullayev Məmiş Şahbaz oğlu
(1923-1945)

M.Abdullayev 1923-cü ildə Azərbaycan SSR-in Kürdəmir rayonunun Muradxan kəndində anadan olmuşdur. O, 1942-ci ildə hərbi qulluğa getmişdir. I Belarusiya cəbhəsində hərbi əməliyyatlar aparan 48-ci ordunun tərkibində olan 339-cu atıcı alayında pulemyotçu olmuşdur. Kursk ətrafındakı döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə "Qırmızı Ulduz" ordeni və „İgidliyə görə" medalı ilə təltif olunmuşdur. M.Abdullayev Belarusiya uğrunda döyüşlərdə Ostrov-Mozovetsk rayonunda və Varşavanın şimalındakı Narev çayının keçilməsində şəxsi qəhrəmanlıq göstərmişdir.

1944-cü il sentyabrın 3-də Rınsk kəndi ətrafında gedən döyüşlərdə düşmənin 60 nəfər əsgər və 3 pulemyotçudan ibarət dəstəsinə qarşı cəsarətlə vuruşan M.Abdullayevin daxil olduğu dəstə düşmən dəstələrinin irəliləməsinə mane olmuş, Məmiş Abdullayev pulemyot atəşi altında sürünə-sürünə faşistlərin sol cinahına çıxmış, qəfil atəşlə düşmən əsgərləri içərisində vahimə yaratmış, vuruşma zamanı düşmənin 29 əsgərini öldürmüş və ya yaralamış, iki pulemyot, bir minomyot, 10 tüfəng ələ keçirmişdir.

Məmiş Abdullayev 1945-ci ilin yanvarında Polşa torpaqlarının faşistlərdən azad olunması uğrunda gedən döyüşlərdə həlak olmuşdur. **SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə ölümündən sonra Məmiş Şahbaz oğlu Abdullayevə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.**

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.25-27; Azərbaycanın Qızıl ulduzları. (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H. Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır.). Bakı: İşıq, 1975, 318 s., şəkilli,

s.20-21; Зейналов, Зейнал. Герой Советского Союза Мамиш Абдуллаев / З.Зейналов. – Баку: Гянджлик, 1975. – 39 с.; – (К 30-летию Советского народа в Великой Отечественной войне). ASE, I c., 1976, s.18;

Abdullayev Səməd Həmid oğlu
(1920-1944)

Ağdaş rayonunun ziyalıları qəhrəman müəllim **Səməd Abdullayev** ilə fəxr edirlər. 1920-ci ildə Ağdaş rayonunun Qolqəti kəndində anadan olan S.Abdullayev 1939-cu ildə şəhərdəki Pedaqoji Texnikumda oxumuş, təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağırılmışdı. Hərbi xidmətdə tibb xidməti üzrə təlim keçdikdən sonra Şimali Qafqazda hərbi əməliyyat aparan 18-ci ordunun tərkibindəki 318-ci dağatıcı diviziyasında xidmətə başladı. S.Abdullayev Kubanın, Tamanın və Krımın azad edilməsindəki döyüşlərdə iştirak etmişdir.

1943-cü il noyabrın 1-də Kerç yarımadasına desant çıxarılması əməliyyatlarında iştirak edən S.Abdullayev yaralı döyüşçülərə tibbi yardım göstərmiş, hətta əlbəyaxa döyüşlərdə 5 faşisti məhv etmişdir.

1943-cü ilin iyun ayında Krım istiqamətində gedən döyüşlərdə tibb xidməti starşinası Səməd Abdullayev yaralı döyüşçülərə döyüş meydanında tibbi yardım göstərəndə mühasirəyə düşmək ehtimalını anlayaraq silahla 19 nəfər alman döyüşçüsünü məhv edib, mühasirə halqasını yararaq yaralı döyüşçüləri arxaya çıxarıb. Göstərdiyi qəhrəmanlığa görə Səməd Abdullayev "İgidliyə görə" medalı ilə təltif olunub.

Xidmət etdiyi hərbi hissədə Səməd Abdullayev şəxsi heyətin hörmətini qazanıb, onu hərbi sanitar yox, döyüşçü sanitar adlandırıblar. Döyüş meydanlarında Səməd Abdullayevin "yükü" ikiqat olub – bir əlində sanitar çantası, bir əlində silahı. 1943-cü ilin noyabrında Kerç istiqamətində gedən ağır döyüşlərdə Səməd Abdullayev döyüş meydanında yaralı vəziyyətdə tək qalmış komandirini xilas edib. Əraziyə ardı-arası kəsilməyən bombaların, mərmilərin düşməsinə baxmayaraq Səməd Abdullayev komandirini tək qoymayıb.

Azad edilmiş Krım ərazisinin Eltiken rayonunu döyüşçülər "Odlu torpaq" adlandırmışdılar. Məhz 36 sutka ərzində "Odlu torpaq"da düşmənin üstün qüvvələri ilə fasiləsiz gərgin döyüşlər getmiş, Eltikençilərin döyüşçüləri müharibə tarixinə qızıl səhifələr yazmışlar. Onlardan 3 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Qəhrəmanlar sırasında 318-ci Atıcı Diviziyanın 1331-ci atıcı alayının atıcı bölüyünün komandiri, kapitan

A.S.Miroşnik, minomyot taqımının komandiri, kiçik leytenant N.N.Topolnikov, atıcı taqımının komandiri, kiçik leytenant A.M.Kokorin, bölük giziri P.V.Popravka, atıcı rotanın sanitar təlimatçısı, tibb xidməti starşinası, həmyerlimiz Səməd Abdullayev, atıcı V.M.Esebua və b. olmuşdur. Kerçin Eltiken rayonunun alınmasındakı igidliyinə görə **SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 17 noyabr tarixli Fərmanı ilə Səməd Həmid oğlu Abdullayevə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.**

Səməd Abddullayev Kerç yarımadasında düşmənin əks-hücumlarının birində ağır yaralanmış, lakin sağaldıqdan sonra yenidən öz hissəsinə qayıtmışdır. O, 1944-cü il iyun ayının 8-də döyüş meydanında qəhrəmancasına həlak olmuş, Kerç şəhəri ətrafında dəfn olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.28-29; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H. Abbasov, tarix elmləri namizədi R. E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; ASE, I c. 1976, s.18; Fərzəliyev, Ə.M. Azərbaycanın tibb işçiləri Böyük Vətən müharibəsi illərində: 1941-1945 / Ə.M.Fərzəliyev. – Bakı, 1998. – 104 s.

Allahverdiyev Müseyib Abdulla oğlu (1909-1969)

Müseyib Allahverdiyev 1909-cu ildə Azərbaycan SSR-in Qazax rayonunun Dağkəsəmən kəndində anadan olmuşdur. 1931-ci ildə könüllü olaraq ordu sıralarına getmiş, Bakı şəhərindəki S.Orconikidze adına 77-ci Azərbaycan atıcı diviziyasında xidmət etmişdir. Xidmət müddəti qurtardıqdan sonra könüllü olaraq ordu sıralarında qalan M.Allahverdiyev Tiflisdəki 3 illik Cənubi Qafqaz Hərbi-Siyasi Məktəbə oxumağa göndərilmiş, 1936-cı ildə məktəbi bitirərək baş leytenant rütbəsi almış, 1936-1938-ci illərdə Kirovabadda (indiki Gəncə) yerləşən alayın siyasi rəhbəri vəzifəsində çalışmışdır. 1938-ci ildə Moskva hərbi dairəsinin siyasi idarəsinin sərəncamına göndərilən M.Allahverdiyev 1939-1940-cı illərdə Voloqda, Arxangelsk, Vladimir və Oneqada hərbi xidmətdə olmuşdur.

Müseyib Allahverdiyevin döyüş yolu ilk dəfə Moskva ətrafında başladı. Onun batalyonu çox böyük taktiki əhəmiyyəti olan təpə uğrunda vuruşdu. Düşmənin iki batalyona qədər qüvvəsi, tanklar və motorlu topların köməyi ilə M.Allahverdiyevin mövqeyinə, təpəni tutmaq üçün hücum etdi.

Düşmənin bütün cəhdləri boşa çıxdı. M.Allahverdiyevin batalyonu 100-ə qədər hitlerçini, bir tankı və iki motorlu topu məhv etdi. Komandanlıq bölüyün bu şücaətini nəzərə alaraq bir çox döyüşçünü orden və medallarla, o cümlədən M.Allahverdiyevi "Qızıl Ulduz" ordeni ilə təltif etdi.

Müseyib Allahverdiyev 1941-1942-ci illərdə 200-dən artıq döyüşdə iştirak etdi. Bu döyüşlərdə onun batalyonu yüzlərlə düşmən əsgər və zabitini, texnikasını sıradan çıxardı.

M.Allahverdiyev hərbi işi dərindən öyrənirdi. 1941-ci ildə könüllü cəbhəyə yollanan Müseyib Moskva və Xarkov ətrafında, Dnepropetrovskidə, Zaporejyedə, Nikolayevdə, Krivoy-Roqda, Kişinyovda, Budapeştdə igidliklə vuruşdu, Moskva altından başlanan döyüş yolu Budapeştə qədər uzandı.

Azərbaycan xalqının qəhrəman oğulları Ukrayna torpaqlarının faşist işğalçılarından azad edilməsi döyüşlərində iştirak etdilər. M. Allahverdiyevin batalyonu Xarkovdan 40 km. aralıda yerləşən Çuquyev şəhəri yaxınlığında düşmənə zərbə endirərək Xarkova doğru irəliləməyə müvəffəq oldu. O, öz batalyonu ilə birlikdə Şimali Donets çayının sol sahilində Martova, Peçençi, Yuriçenko kəndlərinin, Dnepropetrovsk, Dneprodzerjinsk, Zaporojye, Nikopol, Krivoy Roq, Kirovoqrad kimi şəhərlərin faşistlərdən azad edilməsində iştirak etdi.

Batalyon 1944-cü il avqustun 24-də Kişinyov şəhərinin azad edilməsində fərqləndi, Dnepr çayını keçərək Macarıstan ərazisində döyüşlərdə iştirak etdi. Əsgərlər 500-ə qədər faşisti məhv etdi, 2.200 nəfər əsir alındı. 24 top, 36 pulemyot, 3 avtomaşın, 10 araba, 8 minaatan, 2 hərbi sursat və bir ərzaq anbarını ələ keçirildi.

M.Allahverdiyevin batalyonu Budapeşt şəhərinin azad edilməsində qəhrəmanlıq göstərdi. Bu döyüşdə 700-ə qədər hitlerçi məhv edildi.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 mart 1945-ci il tarixli fərmanı ilə M.Allahvediyevə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Batalyon komandiri M.Allahvediyev 1946-cı ildə ordudan tərxis olunub doğma kəndinə qayıtdı.

Allahverdiyev Müseyib Abdulla oğlu 1961-ci ildə vəfat etmişdir.

Müseyib Allahverdiyev yaxşı ata və ailə başçısı olmuşdur. Böyük oğlu Abdulla Respublika Dövlət Avtomobil Müfəttişliyində, ortancıl oğlu Şamil tikinti idarəsində mühəndis işləmiş, kiçik oğlu Rəhman elmi işçi olmuşdur. M.Allahverdiyevin qızlarından Tamara və Esmira müəllimlik, Pəri isə tibb işçisi peşəsini seçmişdi.

Onun haqqında: Müseyib Qurbanov. İgid / Qurbanov M. – Bakı: Azərbaycan LKGİ MK Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1946, 23 s.; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.36-40; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru

M.H. Abbasov, tarix elmləri namizədi R. E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Vaqif Nəsibov. Sovet İttifaqı Qəhrəmanı Müseyib Allahverdiyev / Nəsibov Vaqif. – Bakı: Gənclik, 1975, 30 s.; ASE, I c. Bakı, 1976, s. 21;

Bağırov Müseyib Bağır oğlu
(1915-1981)

Qvardiya baş leytenantı, qvardiya atıcı diviziyasının qvardiya alayının komandiri Müseyib Bağırov 1915-ci ildə Gəncədə anadan olmuşdur. Bakı dəniz texnikumunu bitirən gənc Müseyib 1941-ci ildə ordu sıralarına çağırıldı. Hərbi məktəbi 1943-cü ildə bitirən M.Bağırov 4-cü ordunun tərkibindəki 69-cu qvardiya atıcı diviziyasında taqım komandiri oldu.

1943-cü ilin yayında Ukraynanın Kirovoqrad şəhəri yaxınlığında döyüşlərdə leytenant M.Bağırovun başçılıq etdiyi dəstə qəflətən hücum edib strateji cəhətdən əhəmiyyətli olan bir təpəni tutur. Təpənin tutulduğunu görən alman tankçıları avtomatçılarla birgə təpəyə hücuma keçirlər. Tanklar təpəyə yaxınlaşdıqda M.Bağırov öz döyüşçülərinə atəş əmri verir. Döyüşçülər bir-birinin ardınca üç tankı vururlar. Düşmənin birinci həmləsinin qarşısı alınır. Lakin az sonra düşmənin yerləşdiyi istiqamətdə sovet əsgərləri geyimində piyadalar görünür. M.Bağırov düşmənin hiylə işlətdiyini başa düşür. Onlar yaxına buraxılır və pulemyot atəşi ilə 120 düşmən əsgərini məhv edilir. Döyüşdə M.Bağırov ağır yaralanmasına baxmayaraq müdafiəyə rəhbərlik edir və Sovet Ordusu hissələri gələnədək strateji təpə əldə saxlanılır. Qeyri-bərabər döyüşdə 250 faşist əsgər və zabiti məhv edilir. Bunun 100 nəfəri M.Bağırovun payına düşürdü.

Stalinqrad döyüşlərində iştirak edən M.Bağırov 100-ə yaxın faşisti məhv etdi. "Qələbəyə doğru irəli" ordu qəzeti M.Bağırovun qoçaqlığını təsvir edərək yazırdı: "Azərbaycan xalqının şanlı oğlu əfsanəvi qəhrəman kimi vuruşmuşdur. Bağırov və onun qartalları kimi vuruşun". 1944-cü ilin yanvarında "Красная Знамя" qəzetinin çap etdirdiyi vərəqə M.Bağırovun qəhrəmanlığına həsr edilmişdi.

M.Bağırov SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 fevral 1944-cü il tarixli Fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

1944-cü ilin yayındakı döyüşlərdə başından və iki əlindən yaralanan M.Bağırov 8 ay xəstəxanada müalicə olundu, Kişinyov şəhərində komendant işlədi, sonra Bakıya göndərildi.

1945-ci ildə kapitan rütbəsində ehtiyata buraxıldıqdan sonra Müseyib Bağırov Bakıda yaşayır və işləyir. O, 1946-cı ildə ticarət texnikumunu bitirir. Bir neçə il "Neftçalaneft" neft mədənləri idarəsində geoloji kəşfiyyat rəisi işləyir. Ancaq qəzanın aradan qaldırılmasında 25 metrlik hündür qüllədən düşür, möcüzə nəticəsində cağ qalır, ancaq tibb işçiləri ona fiziki əməklə məşğul olmağı qadağan edirlər. Bundan sonra Müseyib Bağırov "Qaradağneft" də fəhlə təchizatı şöbəsində işləyir, sonra Lökbatan fəhlə qəsəbəsində universal mağazada və Bakıda "Qastronom" mağazada direktor işləyir.

Müseyib Bağırov 1981-ci ildə dünyasını dəyişmişdir.

Əsas işi: Volqadan Dunayadək. Bakı, 1974

Onun haqqında: "Vətən uğrunda" cəbhə qəzeti, 29 oktyabr 1943-cü il; Герои и подвиги. Москва, 1958, с.283; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.47-50; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; ASE. I c. Bakı, 1976, s.532; Əmirov, H.T. Müseyib Bağırov / H.T.Əmirov. – Bakı: Azərnəşr, 1985, 32 s.

Bayramov İsmayıl Xəlil oğlu
(1900-1945)



Atıcı bölmə komandiri, starşina İsmayıl Bayramovun qəhrəmanlığı xalqımızın yaddaşına əbədi həkk olunmuşdur. İ.Bayramov 1900-cü ildə Stavropol ölkəsinin Dolinovka kəndində anadan olmuşdur. Müharibə başlayanda doğma kəndində kolxoz sədri vəzifəsində işləyən İsmayıl Bayramov 1941-ci ildə orduya çağırılmışdır. O, 1944-cü ilin payızında 4-cü Belarusiya cəbhəsi qoşunlarının Şərqi Prussiyadakı hücumunda iştirak etmişdir.

I Ukrayna cəbhəsinin 6-cı ordusunun 243-cü atıcı alayında bölük partiya təşkilatı katibi olan İ.Bayramov Polşaya qədər ağır döyüş yolu keçdi. Onun başçılıq etdiyi bölük 1945-ci il fevralın 10-da Neymarkt stansiyası uğrunda döyüşdə fərqlənərək düşmənin 4 əks-hücumunun qarşısını aldı, özü 18 faşisti məhv etdi. Sonuncu qumbarası ilə özünü və faşistləri məhv edən

igid döyüşçü **İsmayıl Bayramova 1945-ci il aprelin 10-da SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verildi.**

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.60-62; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Kazım M. Sovet İttifaqı Qəhrəmanı İsmayıl Bayramov / Məmməd Kazım. – Bakı, 1975, 24 s; ASE, I c. 1976, s. 545-546.

Bünyadov Ziya Musa oğlu
(1921-1997)

Ziya Bünyadov 1921-ci il dekabrın 24-də Azərbaycan SSR-in Astara şəhərində anadan olmuşdur. 1939-cu ildə 18 yaşında hərbi xidmətə çağırılan gənc Ziya 1941-ci ildə Bakıda hərbi məktəbi bitirmişdir. 1941-ci il iyunun 22-də faşist Bender şəhərində olan 20 yaşlı leytenant müharibə başlayanda Z.Bünyadov düşmənlə döyüşə girdi. Həlledici dəqiqlərdə döyüşçülərini süngü ilə hücuma aparan Ziya hitlerçilərin geri çəkilməsinə nail oldu. Lakin bir qədər sonra faşist tankları hücuma keçdi. Alay komandiri alayın döyüş bayrağını qorumağı Z.Bünyadova tapşırdı. Ağır döyüşlər getməsinə baxmayaraq hitlerçilərin hücumu dayandırıldı. Z.Bünyadov və bayraqdar sovet hərbi qərargahının olduğu kəndə daxil oldular.

1942-ci ilin yayı və payızında Qafqaz uğrunda döyüşlər qızışdı. Düşmən qoşunlarının yerini, sayını və hücum istiqamətini öyrənmək üçün "dil" gətirmək tələb olunurdu. Bu tapşırıq Z.Bünyadovun döyüşçülərinə həvalə edildi və tapşırıq yerinə yetirildi.

1942-ci ilin avqustunda I Belarusiya cəbhəsi 5-ci xüsusi atıcı bölüyə göndərilən Z.Bünyadov Qafqazda, Ukraynada, Moldaviyada, Belarusiyada və Polşada döyüşlərdə iştirak etdi. 1944-cü ildə Xerson, Melitopol, Odessa, Moldova, Rumıniyanın şəhərlərinin faşist işğalçılarından azad edilməsində misilsiz xidmətlər göstərdi.

1945-ci ilin yanvarında 1-ci Belarusiya cəbhəsinin qoşunları Manquşev və Pulavı möhkəmləndirilmiş plasdarmlarından hücuma başladı. Kapitan Z.Bünyadovun xüsusi qvardiya bölüyü birincilər sırasında artilleriya və piyadaların müşayiəti altında Pilitsa çayını keçərək körpünü tutdu. Faşistlər Z.Bünyadovun döyüşçülərini kənara atmağa cəhd göstərsə də, geri çəkilərək canlı qüvvə və texnika itirdilər. Qəlpə yarası alan Z.Bünyadov sonadək döyüş meydanından çəkilmədi.

1945-ci il yanvarın 14-də kapitan Z.Bünyadovun komandiri olduğu bölük Pilitsa çayını keçərək körpünü müdafiə etdi, qoşun hissələrinin hücu-

ma keçməsinə, düşmənin 4 piyada diviziyasının mühasirəyə alınmasına şərait yaratdı. Kapitan Z.Bünyadovun rəhbərlik etdiyi bölük Domorovka kəndinin cənubunu və dəmiryol xəttini, yanvarın 14-də birinci olaraq Pilitsa çayını keçərək sol sahili 89-cu qvardiya diviziyası atıcı hissələrinin əsas qüvvələri gələnə qədər saxladı. Z.Bünyadovun əsgərləri düşmənin 160 əsgər və zabitini məhv etdi, 45 nəfər əsir alındı, 5 altılüləli minaatan, 3 top, böyük miqdarda avtomat, tüfəng və hərbi sursat ələ keçirildi. **Z.Bünyadov 1945-ci il fevralın 27-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.**

1945-ci il yanvarın 14-16-sı arasında Varşavanın cənubunda 123-cü əlahiddə ordu bölüyü Manquşev plasdarmında düşmənin dərin eşelonlu müdafiə xəttini yararaq, kapitan Z.Bünyadovun komandirliyi altında xüsusi qəhrəmanlıq, hünər və mərdlik göstərdi.

Z.Bünyadov ordudan tərxis olunduqdan sonra 1946-1950-ci illərdə Moskva Şərqşünaslıq İnstitutunda oxudu, 1950-ci ildə həmin institutun aspiranturasına qəbul edildi. O, 1954-cü ildə namizədlik dissertasiyasını müdafiə edərək Azərbaycana qayıtdı. Azərbaycan EA-nın Tarix İnstitutunda elmi axtarışlarını davam etdirən gənc Ziya Bünyadov Ərəb Xilafəti və Azərbaycanın VII-XIII əsrlər tarixinin tədqiqatçılarından biri oldu.

Z.Bünyadov 1960-cı ildə alban tarixçisi M.Qoşun "Alban xronikası" əsərini ingilis dilindən, 1971-ci ildə Ə.Bakuvinin "Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri"ni və 1973-cü ildə Nəsəvinin "Sultan Cəlaləddin Mankburnin həyatının təsviri" əsərini ərəb dilindən rus dilinə tərcümə etdi.

1964-cü ildən AMEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunda "Orta əsrlər tarixi" şöbəsinin rəhbəri olan Z.Bünyadov həmin ildə tarix elmləri doktoru elmi dərəcəsi və 1965-ci ildə professor elmi adı almışdır. Z.Bünyadov 1967-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1976-cı ildə Elmlər Akademiyasının həqiqi üzvü, 1981-ci ildən AE Şərqşünaslıq İnstitutunun direktoru, 1990-cı ildə Azərbaycan EA-nın vitse-prezidenti seçilmişdir. Azərbaycan Respublikası I çağırış Milli Məclisin (1995-2000) deputatı idi. Öz çıxışlarında dəfələrlə saxtakar erməni tarixçilərinin yalançı iddialarını faktlarla ifşa etmişdir. Əsərləri İraq, Fransa və Türkiyədə nəşr olunmuşdur. Şərqşünas və tarixçi, Sovet İttifaqı Qəhrəmanı, Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi

Ziya Bünyadovun əsərləri Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünkü nəsillərə, dünya ictimaiyyətinə çatdırmaq baxımından əvəzsizdir.

Z.Bünyadov Ərəb ölkələri ilə dostluq Cəmiyyəti Rəyasət Heyətinin vitse-prezidenti, 18-ci ordunun veteranlar şurasının Bakı bölməsinin sədri, Ümumittifaq inqilabi və döyüş şöhrəti yürüşünün Azərbaycan qərargahının rəisi olmuşdur.

Ziya Bünyadov müharibə illərində göstərdiyi igidlik və qəhrəmanlığa görə "Qırmızı bayraq", "Qırmızı Ulduz", "Aleksandr Nevski", II dərəcəli "Vətən müharibəsi" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Varşavanın azad edilməsinə görə", "Berlinin alınmasına görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif edilmişdir.

1990-cı illərdə Bünyadov Bakının Azadlıq meydanında nitq söyləyən, Ermənistanın Azərbaycana hərəkətlərinə qarşı çıxan və ermənilərin iddialarına etiraz edən, bu sahədə ən çox söz söyləyən insanlardan biri idi. Ziya Bünyadov öz çıxışlarında dəfələrlə erməni tarixçilərin iddialarına cavab vermişdir.

Z.Bünyadov 1997-ci il fevral ayının 21-də yaşadığı binanın qarşısında cinayətkar qrup tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir. Bakıda yerləşən Fəxri Xiyabanda dəfn edilib.

Əsas işi: Azərbaycan XII-IX əsrlərdə. Bakı, 1965, Azərbaycan Atabəylər Eldənizlər dövləti. Bakı, 1978. Бабек и Византия. ДАН Азерб. ССР, т.15, 1959, №7; О длительности пребывания хазар в Албании 7-8 вв. // Изв. АН Азерб. ССР (серия общественных наук), 1964, №4; Из истории Кавказской Албании 7-8 вв. /В сб.: Вопросы истории Кавказской Албании. Баку, 1962. Обзор источников по истории Азербайджана (источники арабские). Баку, 1964; Азербайджан в VII-IX вв. Баку, 1965; Ширван в XII-I пол XIII в. // Изв. АН Азерб. ССР (серия истории, философии и права). 1975, №4, 1976, №2;

Onun haqqında: Sovet İttifaqı Qəhrəmanı // Kommunist. – 1945. - 6 aprel; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.63-65; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; ASE, II c. Bakı, 1976, s. 592; Zaytsev, V. Abidə: [cəbhə dostlarından Z.Bünyadova və b. həsr olunur] / Vyaçeslav Zaytsev; tərc.ed. V.İbrahim // Azərbaycan. – 1983. – №8, s.82-87; Zeynalov, R.Qızıl ulduzlu alim / R.Zeynalov, S.Məmmədova // Azərbaycan məktəbi. – 1985. – №3. – s.51-53; Baxşəliyeva, G., Akademik Z.Bünyadovun həyat və fəaliyyəti zəngin yaradıcılıq və qəhrəmanlıq yolunu əks etdirir / Gövhər Baxşəliyeva // Azərbaycan veteranı. – 2019.-12 yanvar.– s.6.

Cəbiyev Mirzə Ağamurad oğlu
(1925-1972)

Mirzə Cəbiyev 1925-ci ildə Astara rayonunun Hamoşam kəndində anadan olmuşdur. 1943-cü ildə könüllü cəbhəyə getmiş, 1944-cü ildə kiçik leytenant rütbəsi alaraq III Belarus Cəbhəsi qoşunlarının 43-cü ordusu tərkibində cəbhəyə göndərilmişdir. İlk hərbi xidmətinə Orconikidze şəhərindəki 90-cı ehtiyat alayında başlayan M.Cəbiyev 1943-cü ilin iyul ayında Penza şəhərində yerləşən 195-ci diviziyaya göndərilmişdir.

M.Cəbiyev ilk döyüşünü 1944-cü ilin aprel ayında Belarusun Bandare kəndində keçirir və döyüşdə göstərdiyi şücaətə görə "Şərəf" ordeni, 1944-cü ilin iyun ayında Vitebsk şəhəri uğurundakı döyüşlərə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunur. 3-cü Belarus Cəbhəsi qoşunları Şərqi Prussiyaya daxil olanda leytenant M.Cəbiyev də onların sırasında idi. Keniqsberq uğrunda döyüşlər başlayır. M.Cəbiyev 1945-ci il aprelin 6-da Kenqsberq ətrafındakı döyüşlərdə iştirak edir və qələbə bayrağını sancır. 1945-ci il aprelin 19-da göstərdiyi şəxsi igidliyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülür.

Müharibədən sonra kapitan M.Cəbiyev Astara rayonunda sovxoz direktoru işləmişdir. Vətənində büstü qoyulmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.231-235. Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; İsmayılov İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.111.

Cəfərov Ağaşirin Ağaməmməd oğlu
(1906-1984)

Ağaşirin Cəfərov Neftçala rayonunun Ballıcalı kəndində dünyaya göz açmışdır. 1929-cu ildə ordu sıralarına çağırılan Ağaşirin az vaxtdan sonra alay məktəbinə göndərilir və məktəbi bitirərək serjant rütbəsi alır. Hərbi xidməti

başa vurduqdan sonra doğma kəndlərinə qayıdan A.Cəfərov kolxozda işləyir, kolxoz sədri vəzifəsinə irəli çəkilir. 1941-ci ilin iyun ayında yeni müharibənin başlanması ilə orduya səfərbərlik keçirilir və A.Cəfərov oktyabr ayında orduya çağırılır. Hərbi xidmətə çağırılanda traktorçu peşəsinə yiyələnmişdi. Orduda pulemyotçu peşəsinə yiyələnən kiçik serjant A.Cəfərov 1942-ci ilin noyabrında Cənub cəbhəsində 51-ci Ordunun tərkibində 416-cı Diviziyada döyüş yoluna başlayır.

416-cı Diviziya müharibənin qızğın çağında təşkil olundu. Diviziya Qafqaz dağlarından Berlinədək döyüş yolu keçdi. 1943-cü il avqust ayının 30-da Rostov vilayətinin və Taqanroq şəhərinin azad edilməsindəki xidmətlərinə görə diviziyaya fəxri "Taqanroq" adı verildi. Taqanroq ətrafında vuruşmalar zamanı düşmənin 10.000 nəfərə kimi əsgər və zabiti məhv edildi, ərzaqla dolu 150 maşın ələ keçirildi.

A.Cəfərov Qafqaz uğrunda döyüşlərdə ilk sınaqdan çıxdı. Mozdok ətrafında düşmənə qarşı igidliklə vuruşaraq, 20-yə qədər faşisti öldürdüyünə və komandanlığın əmrini nümunəvi yerinə yetirdiyi üçün "Döyüş xidmətlərinə görə" medalı ilə təltif edildi. Taqanroqun azad edilməsi döyüşlərində şücaətlə vuruşan A.Cəfərov pulemyot atəşi ilə 100-ə qədər düşmən əsgərini məhv edərək "Qırmızı Ulduz" ordeninə layiq görüldü.

416-cı Diviziyanın döyüşçülərindən 8 nəfər, o cümlədən Ağaşirin Cəfərov 1943-cü ilin oktyabrında Melitopol şəhəri yaxınlığındakı döyüşlərdə göstərdiyi igidliyə görə noyabr ayının 1-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Həmin günlərdə 4-cü Ukrayna Cəbhəsinin komandanı general F.İ.Tolbuxin cəsur pulemyotçuya teleqram göndərdi. Teleqramda deyilirdi: "Kiçik çavuş Ağaşirin Ağaməmməd oğlu Cəfərova. Sovet İttifaqı Qəhrəmanı adı almağınız münasibətilə Sizi təbrik edirəm. Düşmənlərin darmadağın edilməsində sizə yeni döyüş müvəffəqiyyətləri arzulayıram".

A.Cəfərov müharibədən sonra doğma rayonunda və Bakıda müxtəlif vəzifələrdə işlədi, 1984-cü il may ayının 3-də dünyasını dəyişdi.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.235-237; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Sovet İttifaqı Qəhrəmanı Ağaşirin Cəfərov haqqında // Azərbaycan neft təsərrüfatı: Aylıq elmi-texniki və istehsalat jurnalı. – 1975. – №5, – s. 38-404; İsmayılov İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.124; Zeynalov Elçin. Ağaşirin Cəfərov / E.Zeynalov. – Bakı: 1985, 12 s.; Əmrah, M. 416-cı Azərbaycan milli atıcı diviziyasının döyüş yolu hünər yoludur: / Mais Əmrah // Azərbaycan. – 2015. – 9 may. – s.13.

Dadaşov Məhərrəm Əkbər oğlu
(1912-1945)

Məhərrəm Dadaşov 1912-ci ildə Salyan rayonunun Beştalı kəndində dünyaya göz açmışdır. Müharibə başlanana qədər traktorçu işləyən Məhərrəm 1941-ci ildə orduya səfərbər edildi. 223-cü tank briqadasında xidmət edən baş çavuş M.Dadaşov döyüş cəbhələrində oldu, Rumıniya və Çexoslovakiyada aparılan döyüşlərdə xüsusi mərdlik və igidlik göstərdi.

M.Dadaşovun xidmət etdiyi hissə Çexoslovakiyanın Vislut şəhəri yaxınlığında vuruşurdu. Hitlerçilər ağır toplardan, minaatanlardan, pulemyotlardan atəş açırdılar. Vəziyyətin ağırlığını görən Məhərrəm tankını düşmənin atəş nöqtəsinin üstünə sürür. O, öz maşını ilə 16 minaatan və pulemyot atəş nöqtəsini, 6 tankvuran topu və onlarla hitlerçini məhv edir. Döyüşdə ağır yaralanan cəsur döyüşçü 1944-cü il sentyabrın 17-də həlak olur.

SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə Məhərrəm Dadaşova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.86-87; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Ağacavad Əlizadə. Sovet İttifaqı Qəhrəmanı Məhərrəm Dadaşov / A.Əlizadə. – Bakı: Gənclik, 1975, 30 s.

Əhmədov Cəmil Məhəmməd oğlu
(1924-1944)

Qvardiya leytenantı, atıcı taqım komandiri Cəmil Əhmədov 1924-cü ildə Cəbrayıl rayonunun Cəbrayıl kəndində anadan olmuşdur. 1942-ci ildə könüllü olaraq cəbhəyə gedən Cəmil hərbi məktəbdə təhsil almış, kiçik leytenant rütbəsi ilə Şimali Qafqaz cəbhəsinə yola düşmüşdü.

Döyüşən ordu sıralarında Şimali Qafqazdan Polşaya, Varşavanın altına qədər gedən Cəmil Belarusun azad olunması döyüşlərində fəal iştirak etdi. “Qırmızı Ulduz” və “Aleksandr Nevski” ordenləri ilə təltif edildi.

1944-cü il iyunun 25-də C.Əhmədov taqımı ilə birlikdə polyak kəndi Malının yaxınlığında Remlya çayını birinci keçərək suyun içində döyüş mövqeyi tutdular. Taqım 10 saatlıq döyüşdə mövqeyi saxladı, sovet qoşun hissələrinin gəlməsinə qədər döyüş yerini tərk etmədilər. Cəmil Əhmədov 2 ay sonra – 1944-cü il sentyabrın 2-də Polşa ərazisində həlak oldu, Varşavada sovet döyüşçülərinə aid qəbiristanlıqda dəfn olundu.

C.Əhmədov SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 mart 1945-ci il tarixli fərmanı ilə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.103-105; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.104-105; .Babayev, N. Şair qəlbli qəhrəman: [Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov haqqında] / Nurəddin Babayev // Azərbaycan. – 1975. – № 1. – s. 84–90; Əhmədov, S. Sovet ittifaqı Qəhrəmanı Cəmil Əhmədov / Sabir Əhmədov – Bakı: Gənclik, 1975. – 32 s; Quliyeva, Y. Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədov / Yaqut Quliyeva // Azərbaycan veteranı. – 2020. – 18 mart. – s.7.

Əkbərov Qəzənfər Qulam oğlu
(1917-1944)

Müharibəyə qədər Naxçıvan MR-sı Naxçıvan rayonun Qoşadizə kənd məktəbində direktor işləyən Qəzənfər Əkbərov 1917-ci ildə Naxçıvan MSSR-in Cəhri kəndində anadan olmuşdu. Kənd orta məktəbini bitirdikdən sonra Q.Əkbərov C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Müəllimlər İnstitutunun tarix-filologiya fakültəsində təhsilini davam etdirdi. 1941-ci ildə institutu bitirən Qəzənfər dəfələrlə hərbi komissarlığa müraciət etdikdən sonra, nəhayət 1941-ci ilin noyabrında cəbhəyə getməyə nail oldu.

1941-ci ilin yazında Qəzənfərin topçular bölüyü Şimali Qafqaza göndərildi. 1943-cü ildə Kamensk-Podolsk altındakı döyüşdə Qəzənfər Əkbərovun dəstəsi xüsusi igidlik göstərdi və Q.Əkbərov "Qırmızı Ulduz" ordeninə və "İgidliyə görə" medalına layiq görüldü.

Minsk istiqamətində hərəkət edən ordu hissələri Volomin şəhəri rayonunda düşmənin 78-ci diviziyasını mühasirəyə aldı. Volomin şəhərinin qərbində mövqe tutan Q.Əkbərovun batareyası 1944-cü il avqustun 14-də

almanlarla ciddi döyüşə girdi, dəstə qəhrəmanlıq göstərərək düşmənin 4 tankını, 60-dan çox əsgər və zabitini məhv etdi. Bu döyüşdə 27 yaşlı azərbaycanlı gənc qəhrəmanlıqla həlak oldu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 26 oktyabr 1944-cü il tarixli fərmanı ilə Belarusun Volomin şəhəri ətrafında döyüşlərdə göstərdiyi misilsiz igidliyi görə Qəzənfər Qulam oğlu Əkbərova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.88-89; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Məmmədzadə Kamran, Sovet İttifaqı Qəhrəmanı Qəzənfər Əkbərov / K.Məmmədzadə. – Bakı: Gənclik, 1975, 39 s.

Ələkbərov Mikayıl Məmməd oğlu
(1924-1943)

Mikayıl Ələkbərov 1924-cü ildə Abşeron rayonunun Saray kəndində dünyaya göz açmışdı. 19 yaşında orduya çağırılan Mikayıl 7-ci ordunun 18-ci atıcı diviziyası tərkibində 1943-cü ilin aprelində kəşfiyyatçı kimi iştirak etdi, həmin ilin sentyabr ayının sonunda Dneprin keçilməsində qəhrəmanlıq göstərdi, düşmənin 14 hücumunun dəf edilməsində fərqləndi.

Cəsur döyüşçü tez-tez kəşfiyyata çıxır, komandanlığın tapşırıqlarını yerinə yetirir. Kəşfiyyatların birində o, 14 faşisti öldürmüşdü. 19 yaşlı Mikayıl Ələkbərov 1943-cü il oktyabrın 13-də Dnepropetrovski vilayətinin Şerbinovka kəndi uğrunda döyüşlərdə ağır yaralandı və 2 həftə sonra həlak oldu.

Dnepr uğrunda vuruşlarda göstərdiyi qəhrəmanlığa görə 1943-cü il oktyabrın 26-da SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə M.M.Ələkbərova ölümündə sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

M.Ələkbərov Ukraynanın Dnepropetrovsk vilayətinin Şerbinovka kəndində dəfn edilmişdir.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.98-99; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; Kazım, M. Sovet İttifaqı Qəhrəmanı Mikayıl Ələkbərov / Məmməd Kazım. - Bakı: Gənclik, 1975, 31 s; ASE, IV c. Bakı, 1980, s. 164.

Əliyev Məstan Astan oğlu
(1918-1945)

1918-ci ilin qanlı-qadalı günlərinin birində Tovuz rayonunun Əsrik Cırdaxan kənd sakini Astan kişinin kasıb daxmasında dünyaya təzə gəlmiş ilk uşaq çığırtısı eşidildi. Kiçik ailədə ümid çırağı yandı. Oğlanın adını Məstan qoydular.

1939-cu il noyabr ayının 13-də Tovuz Rayon Hərbi Komissarlığı tərəfindən orduya çağırılan M.Əliyev müharibə başlananda 47-ci Ordunun tərkibində verilən tapşırıqları layiqincə yerinə yetirmiş, çevikliyi və cəsurluğu ilə cəbhə dostlarının rəğbətini qazanmışdı.

1941-ci ilin iyununda Qərb cəbhəsində döyüşlərə başlayan M.Əliyev Rıjov altında döyüşlərdə igidlik göstərərək sərrast atəşlə 30-a yaxın düşmən əsgərini məhv etdi və döyüşdə yaralandı. Müalicədən sonra 1-ci Belarusiya cəbhəsində döyüşləri davam etdirən M.Əliyev yenidən Yelno şəhəri altındakı döyüşlərdə düşmənə ciddi itki verərək 27 alman əsgər və zabitini məhv etdi.

M.Əliyev 1944-cü il dekabrın 9-da "Döyüş xidmətlərinə görə" medalı ilə, daha sonra "Qırmızı Ulduz" və I dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olundu. 1945-ci il yanvarın 17-də igid döyüşçüyə "Şöhrət" ordeni təqdim edildi.

Oder çayında, Berlin istiqamətində döyüşlərdə 72 faşist əsgər və zabiti əsir götürən M.Əliyev şəxsən 20 nəfərə qədər faşisti məhv etdi, aprelin 23-də Berlin uğrunda döyüşlərin birində həlak oldu.

SSRİ Ali Sovet Rəyasət Heyətinin 31 may 1945-ci il tarixli fərmanı ilə Məstan Əliyevə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Məstan Əliyevə Sovet İttifaqı Qəhrəmanı adı verilməsi xəbərini eşidən Əsrik Cırdaxan kəndinin sakinləri ananın dərdinə şərik olmaq üçün qəhrəmanın evinə gəldilər. Məstanın qardaşı Həsən cəbhədən qayıtdıqdan sonra Məstanın anası təsəlli tapdı, Məstanın ətrini ondan aldı.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.91-94; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.98-99; Babayev, S. Sovet İttifaqı Qəhrəmanı Məstan Əliyev / Sadıq Babayev. – Bakı: Gənclik, 1975, 29 s.

Əliyev Şəmsulla Xeyrulla oğlu
(1915-1943)

Ali, orta ixtisas, texniki peşə və orta ümumtəhsil məktəblərinin müəllimləri ön cəbhədə qəhrəmanlıq nümunəsi göstərdilər. 1941-1945-ci illər sovet-alman müharibəsində qəhrəmanlıqları ilə fərqlənən müəllimlərdən Səməd Abdullayev, Qəzənfər Əkbərov, Şəmsulla Əliyev, Fariz Səfərov və Nikolay Şeverdyayev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Müharibə başlanan zaman Dağıstan Muxtar Respublikasının 110 mindən çox oğul və qızı düşmənlə mübarizəyə qalxdı. Onların sırasında müxtəlif millətlərin nümayəndələri – ləzgilər, avarlar, azərbaycanlılar və başqaları var idi. Belələrindən biri də Şəmsulla Əliyev idi.

Ş.Əliyev 1916-cı ildə Dərbənd şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra müəllimlik sənətini seçən gənc Şəmsulla şagirdlərə fizika fənnini öyrədirdi, müharibənin başlanması ilə gənc müəllim qələmini süngü ilə əvəz etdi.

1942-ci ilin sentyabrında Azərbaycan SSR Ali Soveti adına Bakı Ali Ümumqoşun Komandirləri məktəbini kiçik leytenant rütbəsi ilə bitirən Ş.Əliyev Qafqazın müdafiəsində iştirak etdi. Qafqaz cəbhəsi qoşunları sırasında 1942-ci ilin sentyabr ayının 2-də döyüşlərə başladı. Qafqaz uğrunda gedən döyüşlər zamanı Şəmsulla Əliyev 1943-cü il mayın 31-də "Qırmızı ulduz" ordeni ilə təltif olundu.

Kapitan Ş.Əliyevin komandir müavini olduğu 309-cu Atıcı Diviziyanın 1135-ci atıcı alayı 1943-cü ilin payızında Kerç yarımadasında mövqe tuturdu. Güclü müqavimət göstərməsinə baxmayaraq düşmən geri çəkildi və sovet döyüşçüləri Kerçin azad edilməsi uğrunda döyüşlərə başladılar. 1943-cü il noyabrın 11-də sovet qoşun hissələri Kerç yarımadasındakı Kirov və Volkov adına zavodları, Korenkovo kəndini azad edərkən kapitan Əliyev döyüşlərin birində misilsiz qəhrəmanlıq göstərdi. Şəmsulla Əliyevin batalyonu düşmənin 250 əsgər və zabitini, 4 pulemyotunu məhv etdi və döyüş sursatı anbarını ələ keçirdi. O, 1943-cü il noyabrın 19-da döyüşdə qəhrəmancasına həlak oldu.

Şəmsulla Əliyev "Qırmızı bayraq", iki I dərəcəli "Vətən müharibəsi", "Qırmızı Ulduz" ordenləri və medallarla təltif olunmuş, 16 may **1944-cü ildə ona Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir**.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.95-97; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, ta-

rix elmləri doktoru M.H.Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.100-101; Məmməd Kazım. Şəmsulla Əliyev / Kazımov Məmməd. – Bakı: Gənclik, 1975; Əmrahov, M.İ. Unutsan unudularsan / M.İ.Əmrahov. – Bakı: "Müəllim nəşriyyatı", 2002, s.22-23.

Əsədov Gəray Lətif oğlu
(1923-1944)

Gəray Əsədov 1923-cü ildə Beyləqan rayonunun Şahsevən kəndində anadan olmuşdur. 1942-ci ildə hərbi xidmətə çağırılan G.Əsədov 27-ci Ordunun tərkibində Kursk əməliyyatında, Ukrayna, Moldaviya və Rumıniyanın azad edilməsində iştirak etdi.

Azərbaycan övladlarının döyüş qəhrəmanlığı cəbhə komandanlıqları tərəfindən yüksək qiymətləndirildi. Şimali Qafqaz cəbhəsi komandanlığının və Hərbi Şurasının Azərbaycan K(b)P MK-ya göndərdiyi məktubda deyilirdi: "Azərbaycan əsgərləri düşmənlə vuruşarkən Azərbaycan xalqının qəhrəmanları olan məşhur sərkərdə Babək və Cavanşirin ləyaqətli övladı olduqlarını sübut etdilər. Bu qəhrəmanların adı və göstərdikləri igidlik Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq, aşıqlar onlar haqqında mahnı və dastan qoşacaqlar".

1944-cü ilin avqustunda Rumıniyanın Vlaxa yaşayış məntəqəsinin azad edilməsi döyüşlərində Gərayın dəstəsi 11 hitlerçini məhv etdi, onun ardınca Xuedin yaşayış məntəqəsi uğrunda döyüşlər başladı. Kənd uğrunda gedən vuruşmada Gəray Əsədov düşmən minomyotunu ələ keçirərək 24 faşist əsgər və zabitini sıradan çıxardı, döyüşdə göstərdiyi igidliyə görə "Qırmızı bayraq" ordeni ilə təltif olundu.

G.Əsədov Rumıniyanın Markita şəhəri uğrunda döyüşlərdə öz bədəni ilə düşmənin atəş nöqtəsini susdurdu. **1945-ci il martın 24-də Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü**.

G.Əsədov "Qırmızı bayraq" və "Qızıl Ulduz" ordenləri ilə təltif olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.100-102; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.102-103; Alıcanov, M. Gəray Əsədov / M.Alıcanov. – Bakı, 1975; Ağa-

zadə, A. Qəhrəmanın son məktubu: [Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədov haqqında] / A.Ağazadə // Azərbaycan məktəbi. – 1975. – № 3. – s. 45-49; Alıcanov, M. Bu mühüm və çətin tapşırıqdır. Sənə inanırıq…: haqqında eşitmişsiniz: [Gəray Lətif oğlu Əsədov haqqında] / Mayıl Alıcanov // Azərbaycan veteranı. – 2019. – 4 oktyabr. – s. 6-7.

Həkimov Mikayıl Kəbir oğlu
(1916-1986)

Odessa Hərbi dəniz bazasının Qara dəniz donanmasının 384-cü Əlahiddə alayının doldurucusu, matros Mikayıl Həkimov 1916-cı ildə Tatarıstan MSSR Dorocan rayonunun Böyük Selina kəndində kəndli ailəsində anadan olmuşdu. Kənd məktəbini bitirmiş, ailəsi ilə Bakıya gəlmiş, müxtəlif müəssisələrdə işləmişdir.

1942-ci ildə ordu sıralarına çağırılan M.Həkimov Batum və Novorossiysk şəhərlərinin sahil zonasının müdafiəsində, 4 və 3-cü Ukrayna Cəbhəsi Şimali Qafqaz qoşunlarının tərkibində "Kiçik torpağa" desant əməliyyatında, Qafqazın, Krımın və Ukraynanın azad edilməsində iştirak etmişdir. Taqanroq və Mariopolun azad edilməsi əməliyyatında fərqlənən Mikayıl düşmən topunu məhv etmiş, özü yaralanmasına baxmayaraq döyüşü davam etdirmiş, "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuşdu.

1944-cü ilin qışında faşist ordusu geri çəkilərkən Nikolayev şəhərinin buxtasını minalamaq və partlatmaq istəyirlər. Bunu bilən Sovet Ordu Komandanlığı həmin planın pozulması əmrini verdi. Bu əməliyyatı keçirmək üçün 67 nəfərlik dəstəyə Mikayıl Həkimov da daxil edildi. Desantçılar Cənubi Buğ çayının axınının əks istiqamətinə kiçik qayıqlarla 15 km məsafə qət etdilər. İki gün qızğın döyüşlər getdi. Mikayıl yaralandı. Hospitalda müalicə olunduqdan sonra o, yenidən doğma alayına qayıtdı. 1945-ci il aprelin 20-də desant əməliyyatında iştirak edən 67 nəfərin hamısına Sovet İttifaqı Qəhrəmanı adı verildi.

M.Həkimov müharibədən sonra doğma diyara qayıtdı, Kazan şəhərində yaşadı və işlədi, Nikolayev şəhərinin fəxri vətəndaşı seçildi. Sovet İttifaqı Qəhrəmanının qızıl ulduzu, "Lenin" ordeni, 2 dəfə birinci dərəcəli "Vətən müharibəsi" ordeni və medallarla təltif olundu.

Həkimov Mikayıl Kəbir oğlu 1986-cı ildə dünyasını dəyişmişdir.

Onun haqqında: Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.192-194; İsmayılov, İ.Z., Azər-

baycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov.– Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.27; http:// ru. wikipedia.org/w/ indexphp

Hüseynov Həbibulla Eynulla oğlu
(1910-1945)

Həbibulla Hüseynov Cənubi Azərbaycanın Ərdəbil şəhərində anadan olmuş 1912-ci ildə ailəsi ilə Bakıya köçmüşdü. Həbibulla 12 yaşında ikən Qubada muzdurluq etmiş, iki ildən sonra Bakıya qayıtmış, işləyə-işləyə orta məktəbdə oxumuşdu. 1928-ci ildə məktəbi bitirdikdən sonra Tiflisə hərbi məktəbə oxumağa göndərilən Həbibulla orada topçuluğun sirlərini öyrənmişdir.

1934-cü ildə hərbi məktəbi bitirən Həbibulla Hüseynov orduda xidmətə başladı. Müharibə başlayanda o, Qərbi Belarusun Zembro şəhərində hərbi xidmət keçirdi.

Həbibulla Hüseynov müharibə illərində özünü bacarıqlı komandir, mahir hərbi təşkilatçı kimi göstərdi. O, ailəsinə göndərdiyi məktubda yazırdı ki, onun topçuları bir ay ərzində düşmənin 57 təyyarəsini vurub salmış, mindən artıq əsgər və zabiti məhv etmişlər.

Müharibə dövründə H.Hüseynov əvvəlcə diviziona, sonra isə artilleriya alayına komandanlıq etməklə Qərbi Belarusiyada, Şimali Qafqazda, Stalinqrad ətrafında vuruşdu, Kubanın və Ukraynanın azad edilmələrində iştirak etdi. "Qırmızı Bayraq", "Qırmızı Ulduz", I dərəcəli "Vətən müharibəsi" ordenləri, "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu.

Qvardiya polkovniki H.Hüseynov 1945-ci ilin yanvar-aprelində keçirilən Şərqi Prussiya hərbi əməliyyatlarında 67-ci Zenit Artilleriyası Diviziyasının komandiri kimi iştirak etdi. Əməliyyat zamanı – aprelin 16-da polkovnik H.Hüseynov qəhrəmancasına həlak oldu.

H.Hüseynov 1945-ci il iyunun 29-da Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

H.Hüseynova Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ad verilməsi barədə komandanlığın təqdim etdiyi təltif vərəqəsində yazılmışdı: "Zemland" qruplaşmasının darmadağın edilməsi sahəsində 39-cu ordunun əməliyyatlar keçirdiyi dövrdə qvardiya polkovniki A.Hüseynovun komandanlıq etdiyi Baş Komandanlığın ehtiyat 67-ci Diviziyası ordunun tərkibində vuruşaraq, düşmənin atəş nöqtələrini sərrast atəşlə məhv etmiş və bununla da ordunun müvəffəqiyyətlə irəliləməsinə kömək etmişdir.

Qvardiya polkovniki H.Hüseynov öz müşahidə məntəqəsində və düz hədəfə vuran topların atəş mövqeyində olmaqla, diviziyanın atəşinə rəhbərlik etmiş, Vətən qarşısında qeyri-adi igidlik göstərmiş və ona hədsiz dərəcə-

də sadiqlik göstərməklə, diviziyanın bütün şəxsi heyətini qəhrəman kimi cəsarətli olmağa ruhlandırmışdır”.

“…27 yaşında zenit divizionuna rəhbərlik etmiş, 30 yaşında qvardiya diviziyasının komandiri olmuş, 35 yaşında düşmən mərmisinin qurbanı olan H.Hüseynov Litva SSR-in Kapsukas şəhər qəbiristanlığında dəfn olunmuşdur”.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.228-231; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.288-291; Borodetski, L. Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynov / Lev Borodetski. – Bakı: Gənclik, 1975. – 32 s.; İsmayılov, İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.110; Lev Borodetski. Sovet İttifaqı Qəhrəmanı Həbibulla Hüseynov / L.Borodetski. – Bakı: Gənclik, 1975, 31 s.

Hüseynzadə Mehdi Hənifə oğlu
(1918-1944)

Almaniyanın “Ştrans” əsirlər düşərgəsində saxlanılan **M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Seyidov, M.Qulubəyov** və başqalarının rəhbərliyi altında antifaşist təşkilatı yaradılmışdı. Hərbi əsirlər, hərbi hissələrdəki gizli antifaşist təşkilatlarının üzvləri qaçaraq partizanlara qoşulmuşlar. Belələrindən biri **Mehdi Hüseynzadə** idi.

Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. Atası Hənifə Hüseynov (1881-1922) Hümmət təşkilatının üzvü olub, Azərbaycanda Sovet rejiminin qurulması üçün çalışan fəal döyüşçülərdən idi. Daha sonra o, Azərbaycan milisinin rəisi olmuş, ölkə ərazisində banditizmə qarşı mübarizə aparmış, həyatının sonlarına yaxın Bakı Sovetinin inzibati şöbəsinin müdiri olmuşdur. Erkən yaşda atasını itirən Mehdi əvvəl anası, sonra isə bibisi tərəfindən böyüdülmüşdür.

Soldan sağa:
Mehdi Hüseynzadə, Səid Rüstəmov və Mürsəl Nəcəfov
1930-cu il

1925-ci ildə Mehdi yazıçı Süleyman Sani Axundovun direktoru olduğu 77 saylı natamam (7 illik) orta məktəbə (sonradan 19 saylı orta məktəb olmuşdur) daxil olur. Onun ilk müəllimi bəstəkar Səid Rüstəmov idi. 1932-ci ildə o, orta məktəbi bitirərək Bakı Rəssamlıq məktəbinə daxil olur. Burada o, Kazım Kazımzadə, Əsgər Abbasov, Əli Zeynalov, Mürsəl Nəcəfov ilə birlikdə oxuyur.

1936-cı ildə məktəbi bitirən Mehdinin diplom işi Qırmızı Ordu əsgərlərinin həyatından bəhs edirdi və o rəsmini "Qırmızı Ordu əsgərləri düşərgələrdə" adlandırmışdı. Məktəbi bitirdikdən sonra Mehdi Suraxanıda ibtidai məktəblərdən birinə müəllim kimi göndərilir, burada bir neçə ay işləyir. O, eyni zamanda Abbas Səhhət adına kitabxanada oxu zalının rəhbəri kimi də fəaliyyət göstərir. Mehdinin ən böyük arzusu İncəsənət Akademiyasına qəbul olunmaq idi və bu məqsədlə Leninqrada (Sankt-Peterburq – red.) gedir. Lakin Akademiyaya daxil ola bilmədiyindən Bakıya qayıdır və burada Məşədi Əzizbəyov adına kitabxanada işləyir. Bir ildən sonra o yenidən Leninqrada gedir, lakin bu dəfə İncəsənət Akademiyasına deyil, Leninqrad Xarici Dillər İnstitutunun Fransız dili fakültəsinə daxil olur. 1940-cı ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsinin ikinci kursuna köçürülür. Onun bu instituta keçməsinin səbəbi poeziyaya və ədəbiyyata olan sevgisindən irəli gəlirdi.

Mehdi **beş dildə – fransız, alman, ispan, italyan və rus dillərində** sərbəst danışırdı. O, bu dilləri Leninqrad Xarici Dillər İnstitutunda oxuyanda öyrənmişdi.

Müharibə başlanarkən Mehdi tələbə idi. Təhsilə ara verib kitabı döyüş silahı ilə əvəz etmək lazım gəldi. 1941-ci ildə faşist Almaniyası SSRİ-yə hücum edəndə ordu sıralarına çağırılan Mehdi 1942-ci ildə Tiflisdə piyada hərbi məktəbini leytenant rütbəsində bitirir həmin ilin avqustunda yenicə təşkil olunmuş 223-cü Azərbaycan atıcı diviziyasının 1041-ci alayına taqım komandiri göndərilir. O, bu diviziyanın

Mehdi Tbilisi hərbi məktəbində
1941-ci il

tərkibində Şimali Qafqazda Mozdok istiqamətində döyüşə girir. Mehdi 1942-ci ilin noyabr ayında Stalinqrad döyüşlərində iştirak edir. O, kiçik bacısı Hürriyyət xanım Əzizbəyovaya yazırdı: **"Mən sizə söz verirəm ki, son damla qanıma qədər vuruşacağam, sizi əmin edirəm ki, mən qəhrəmancasına döyüşəcəyəm, sizin başınızı ucaldacağam, ölsəm də qəhrəmancasına öləcəyəm! Mənim barəmdə eşidərsiniz, hələlik sağ olun. Bu mənim son məktubumdur!".**

Baxış Mehdiyev "223-cü Qırmızı bayraqlı Belqrad atıcı Diviziyası" kitabında yazır ki, 1942-ci il dekabrın 10-dan 223-cü Diviziya ağır döyüşlər apardı. 1942-ci ilin yayında Stalinqrad ətrafında döyüşlərdə iştirak edən M.Hüseynzadə həmin ilin avqust ayında Kaliç şəhəri yaxınlığındakı döyüşdə ağır yaralanır və əsir düşür.

M.Hüseynzadə Qafqaz uğrunda vuruşmuşdur və həyatının sonuna qədər 223-cü diviziyanın döyüşçüsü kimi qalmışdır. SSRİ Müdafiə Nazirliyinin Arxiv Sənədlərinə əsasən Mehdi Hüseynzadə 223-cü diviziyanın 1041-ci alayının atıcı taqım komandiri kimi 1942-ci il dekabrın 29-da alman işğalçıları ilə mübarizədə həlak olmuş sayılır. Baxış Mehdiyev yazır ki, SSRİ Müdafiə nazirliyindən əldə etdiyi sənəddə bildirilir ki, leytenant Mehdi Hənifə oğlu Hüseynzadə 1942-ci il dekabrın 9-da 223-cü diviziyanın 1041-ci atıcı alayının taqım komandiri vəzifəsində 29 dekabr 1942-ci tarixində həlak olduğu üçün 26 mart 1943-cü il tarixli 028 №-li əmrlə Silahlı Qüvvələrin şəxsi heyətinin siyahısından çıxarılmışdır.

Stalinqrad ətrafındakı döyüşdə ağır yaralanaraq faşistlərə əsir düşən **iyirmi dörd yaşlı** leytenant Hüseynzadə 1944-cü ilin əvvəlində bir qrup yoldaşları ilə İtaliyadakı düşərgədən qaçır və Yuqoslaviya Xalq Azadlıq Ordusunun Sloven Sahilyanı 9-cu korpusunda fəaliyyət göstərən partizanlara qoşulur Burada azərbaycanlılardan ibarət İvan Qradnik adına 3-cü Sloveniya xalq-azadlıq briqadası 4-cü batalyonunun rus rotası yaradılır. Rotanın komandiri Cavad Həkimli, komissarı Mehdi Hüseynzadə təyin edilir. Rota Aydovşçina şəhərindən şimal istiqamətində Angel dağı ətəyində yerləşən Otliça kəndində məskən salır. Sloveniya partizanı, hərbi tarixçi Stanko Petelinin 9-cu korpusdakı ən yaxşı diversantlardan biri adlandırdığı "Mixaylo" ləqəbli Mehdi keçmədən Adriatik dənizi sahilindəki Sloveniya kəndlərində məşhurlaşır.

Nə üçün Mehdi "Mixaylo" ləqəbini götürmüşdü? Tarixi faktlardan məlum olur ki, 1500-cü ilin ortalarında Yuqoslaviyada hakim istilaçılara qarşı mübarizə aparan 12 nəfər mərd komandir olub. Onlardan biri də hərbiçi ailəsindən çıxmış xalqının azadlığı uğrunda vuruşan Mixaylo Quşetiç Matiya (?-1574) idi. Heç şübhəsiz ki, Mehdi yerli əhalidən bu qəhrəman barədə məlumatlanmış, "Mixaylo" təxəllüsünü həmin igidin şərəfinə qəbul etmişdir. Kənd sakinləri bu qrupun partlatdığı faşist anbarları, hərbi sursat aparan eşelonlar, dişlərinə qədər silahlanmış hitlerçilər üzərinə bir dəstə igid

tərəfindən edilən cəsarətli hücumlar haqqında eşidib heyrətə gəlirdilər. Partizanlar təyyarə meydanlarından birində iki alman təyyarəsini məhv edir, Triyestdə çıxan bir faşist qəzetinin redaksiyasını və mətbəəsini mina ilə partladır, dəmir yollarını minalayır, alman avtomaşınlarını məhv edir, zabitləri əsir alırdılar. Mehdinin döyüş hesabında yüzlərlə öldürülmüş faşist vardır. 1944-cü il aprelin 2-də Mehdi Hüseynzadə Mirdaməd Seyidovla birgə Triyest şəhəri yaxınlığında yerləşən Opçine (sloven. Opçine) yaşayış məntəqəsindəki kinoteatr binasını kinoseans zamanı partlatmağı planlaşdırılar. Onlar kinoteatr zalına girərək cəldliklə kürsünün altına mina quraşdırıb binanı tərk edirlər. Partlayış nəticəsində 80 alman əsgəri ölür, 60 nəfər ağır, 200 nəfər isə yüngül yaralanır. Yaralananların 40 nəfəri hərbi hospitalda aldıqları yaralardan ölür. Aprelin 22-də Mixaylo ikinci böyük diversiyanı həyata keçirir. Alman əsgəri paltarında M.Hüseynzadə və Mirdaməd Seyidov Bia Qeqa küçəsində əsgər evi olan alman restoranının binasına girir, stol arxasında iki yer tutub stolun altında partlayıcı çantanı qoyur və talon almaq adı ilə zaldan çıxırlar. Alman restoranı havaya uçduqdan sonra hitlerçilər iki sutka ərzində dağıntıların altından ölüləri və yaralıları çıxarırlar. İtaliyan faşist qəzeti olan "İl Pikkolo"nun partlayış haqqında 23 apreldə dərc etdiyi məqalədə deyilirdi: "Dünən, şənbə günü kommunist elementləri Trestdəki alman əsgər kazarmalarına terrorçu sui-qəsdi törətdilər ki, bu da bir neçə alman əsgərinin və italyan vətəndaşının həyatına son qoydu". Partlayışı törətməkdə təqsirləndirilən və elə bu binada yerləşən bərbərxanadakı insanlar gestapoçular tərəfindən tutulur və edam edilir. Mixaylo Trestdə "İl Pikkolo" qəzetinin redaksiyasını və mətbəəsini partladır. Bir müddət keçəndən sonra Mehdi öz yoldaşı Əli Tağıyev və antifaşist Hans Frislə daha bir diversiya törədirlər, 24 vaqondan ibarət alman əmlak qatarının keçdiyi Postoyn dəmiryolu stansiyası yaxınlığındakı körpü partladılır.

1944-cü ilin əvvəllərində Yuqoslaviya Xalq Azadlıq Ordusu IX korpusunun qərargahı nəzdində Mehdi Hüseynzadənin başçılığı ilə Tağı Əliyev, Ənvər Məmmədov, Hans Frits və yerli Sloveniya partizanlarından ibarət xüsusi kəşfiyyat təxribat qrupu yaradıldı. Az müddətdə bu qrup Adriarik sahilləri sakinlərinin rəğbətini qazandı. Mehdu Hüseynzadə, Tağı Əliyev, Ənvər Məmmədov və Hans Frits gizli antifaşist təşkilatının üzvlərinin köməyi ilə xəritələr saxlanılan arxivin yerini müəyyənləşdirdilər və xəritələri ələ keçirdilər.

Partizan Mixaylo
1944-cü il

1944-cü ilin yay günlərindən birində, cəsur partizan faşistlərin Qorileya şəhəri kənarındakı benzin anbarlarına yaxınlaşır. Mehdi yavaş fəaliyyət göstərən mina ilə bu anbarı partladır. Üç həftədən sonra yaxınlıqdakı ikinci bir yanacaq anbarı da

yandırılır. Faşistlərin 200 ton benzindən əlləri çıxır, Qaritsa şəhərində faşist bankından partizan dəstəsinə bir neçə milyon pul gətirilir.

Silah dostları qeyri-adi rəşadətə, çevikliyə, zirəkliyə və böyük biliyə malik olan mərd azərbaycanlı partizanın həyatından çoxlu döyüş əhvalatlarını xatırlayarkən onun alman zabiti, yaxud əsgəri, italyan karabineri, yaxud kəndli libasını geyərək düşmən yuvasına girdiyini xatirələrində yazmışlar. Partizan dostları bildirirdilər ki, o, bir neçə dildə yaxşı danışır, istehkamçı işini bilir, avtomaşını çox yaxşı idarə edirdi. Lakin ən başlıcası o idi ki, bu qəhrəmanın sinəsində sovet Vətəninə məhəbbətlə və faşist işğalçılarına qarşı nifrətlə dolu qızğın və nəcib bir ürək döyünürdü. Qəhrəmanı tutmaq üçün olduqca böyük mükafat təyin olunmuşdu.

Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verir və onlara zərbələr endirirdilər. M.Hüseynzadə uzaq Adriatikdə döyüşərkən öz vətənini xatırlamaqdan yorulmurdu. Öz şerlərindən birində vətənini xüsusi istiqanlılıqla yad edirdi:

Kaş ki, mən bir sarı yarpaq olaydım,
Sabahın yelləri alaydı məni;
Aşaraq o qarlı, uca dağları,
Vətən torpağına salaydı məni...

Onun 1943-cü ildə vətəndən uzaqda yazdığı 1 bəndli şeir vətəninə olan məhəbbətini xarakterizə edir:

Süd verib qoynunda bəslədin məni,
Mən sənin gözündə qurbanam, Vətən!
Qoymaram incidə yad ellər səni,
Bil ki, etibarlı oğlunam, Vətən!

1944-cü ilin payızında Mehdinin başçılıq etdiyi bir qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilir. Ümumilikdə Mixaylo:

1. Opçinada böyük bir yüksək voltlu elektrik transformatorunu təkbaşına partlatmış;

2. Triyest şəhərindəki zabitlər restoranını dağıtmaq üçün heç bir qüvvə olmadan, alman zabiti libasında gedib restoranı partlatmış, buradakı zabitlərin çoxu məhv olmuş, qalanı isə yaralanmışdı. Bu əməliyyat almanları lərzəyə salmışdı. “Mixaylo” adı ilə Sloveniya əhalisi və alman əsgərləri arasında məşhur olan Mehdinin başı üçün 40 min lirə mükafat təyin olunmuşdu;

3. Cəsur "Mixaylo" Opçinadakı 270 nəfər tutan alman kinoteatrını partlatmışdı. Alman komandanlığı bu dəfə "Mixaylo"nun başı üçün 300 min lirə mükafat təyin etmişdi, lakin bu mükafat da heç kəsə qismət olmamışdı;

4. Triyest şəhərində faşist qəzeti "İl Pikkolo" redaksiyasını və mətbəəsi şəhərinin Viafortina küçəsində almanlar üçün təşkil olunmuş iki fahişəxana da Mehdinin əlləri ilə partladılmışdır. Bu dəfə 70-80 nəfər alman əsgər və zabiti burada həmişəlik qalmışdır;

6. Triyest şəhərində almanların hərbi qarajı 25 avtomaşınla bərabər Mehdinin əli ilə yandırılıb külə döndərilmişdir. Almanlar son vaxtlar hətta dükanlara getməyə qorxurdular. Nəhayət, "Mixaylo"nun başı üçün **400 min lirə** mükafat təyin olunmuşdu;

7. Mehdi Triyest şəhərində alman hərbi xəstəxanasını partlatmış, Qoritsiya şəhərində bir binada yerləşmiş hərbi alman topoqrafiya qrupunun bütün arxivini, xəritə və cihazlarını maşına yükləyib 4 yoldaşının köməkliyi ilə qaçırmışdır. Həmin sənədləri bir kəndə gətirib oradan isə 9-cu korpusun qərargahına təhvil vermişdir;

8. Qoritsiya şəhərində İtaliya katolik bankının sahibi Valeriano Brumatı öldürüb milyondan artıq pul aparmışdır;

1944-cü ilin sonlarında Mehdi yeni bir cəsarətli əməliyyatı yerinə yetirir. ...Faşistlərin kef çəkdikləri zabit meyxanası yanında dayanan maşından Hitler ordusu kapitanı libasında, əlində çamadan olan Hüseynzadə düşür. O, içib dəmlənən məclisi salamlayaraq gətirdiyi çamadanı divarın yanına qoyub stola yaxın oturur. Bir qədər keçdikdən sonra yalançı zabit restoranı tərk edir. Öz sloveniyalı yoldaşı ilə dağlara doğru gedən yolda Mehdi partlayış səsi eşidir. Bu Mixaylonun növbəti diversiyasının nəticəsi idi. Mehdi Hüseynzadə 1944-cü ilin noyabrın 2-də tapşırıqdan Çepovan yaşayış məntəqəsində yerləşən 9-cu korpusun qərargahına qayıdarkən Vitovlye kəndində həlak olur.

Onun həlak olması haqqında bir neçə fərziyyə var. Ən birinci versiya Mixaylonun gizləndiyi evin partizan oğlunun danışdıqlarına əsaslanır. O, məlumat verir ki, onların evini qəfildən almanlar mühasirəyə alır. Bu zaman Mehdi Hüseynzadənin əlində 2 limonka-qranat və 5 gilizli tapança var idi. Mixaylo onlarla döyüşə girdi və atışmağa başladı. Düşmən evə soxulanda Mixaylo onların dəstəsinə 2 qranat atdı. Yaranan qarışıqlıqdan istifadə edib arxa pəncərədən tullanıb qaçmağa başladı. Onu görən almanlar təqib etməyə başladılar. Mixaylo ayaqlarını geniş aralayıb tapançasını çıxardı və öz ürəyinə atəş açdı.

Sloveniya versiyasına görə 1944-cü ilin 1 noyabrında Mixaylo və 3 sloven diversantı – İvan Suliç, Adam Zorn və Yordan Qoryan 9-cu korpusun qərargahına gedərkən Vitovlye kəndində dayanırlar. Burada və Rençe kəndində partizanların konspirativ bazarları var idi. Onlar bundan almanların nəzarətində olan ərazilərə tapşırığa gedərkən istifadə edirdilər. Hadi-

sələrin iştirakçısı A.Zornun şahidliyinə görə 8 nəfər partizanın əvvəlcədən gəlib gizləndiyi pəyə gecə qəfildən almanlar tərəfindən mühasirəyə alınır. Mixaylo və sloveniyalı Dreykeç (əsl adı: Andrey Komel) mühasirədən çıxıb qaçmağa çalışırlar, amma avtomatdan açılan güllələrlə vurulurlar. A.Zornun versiyasına görə həmin gecə almanlar kənddə rekvizit aksiya keçirirlər. A.Zornun özü başqa partizanla birgə almanlar tərəfindən ələ keçirilir. Qalanları isə tapılmır.

Sovet Bazovitsk batalyonunun qərargah rəisi və Mixaylonun yaxın dostu Cavad Həkimlinin dediyinə görə almanlar onları mühasirəyə alan zaman Mixaylo qaçmağa cəhd göstərərkən yaralanır və əsir düşməmək üçün özünü vurur. C.Həkimli belə güman edir ki, partizanları yerli əhalidən biri satıb.

Mehdi Hüseynzadənin nəşi yerli əhali tərəfindən dəfn edilir, sonra 18-ci sloveniya zərbəçi Bazovitsk briqadasının 2-ci rus batalyonunun partizanları tərəfindən Çenovan kəndinin qəbiristanlığında dəfn olunur. Onun qəbri üstündə taxta piramida qoyulur və ona bərkidilən dəmir lövhənin üstündə yazılır: "Burada Mehdi Hüseynov (Mixaylo) dəfn olunmuşdur... 2 XI 1944-cü ildə Vipavedə qəhrəmancasına həlak olmuşdur".

Novo Qoritsa şəhərində M.Hüseynzadənin memorial muzeyi

Yuqoslaviya xalq azadlıq ordusunun 9-cu korpusunun 30-cu diviziyasının komandanlığının 9 noyabr 1944-cü il məlumatına əsasən, Mehdi Hüseynzadənin həlak olduğu ərəfədə, oktyabrın 30-dan 31-nə keçən gecə almanlar öz bölmələrini Tronovsk ovalığı ətəyində partizanların nəzarəti altında olan ərazilərə hücum etmək üçün planlı şəkildə yerləşdirirlər. Alman əməliyyatı 31 oktyabrda Qoritsa-Aydovşçina yolundan qabaqcıl dəstələrin Vitovlye və Şmihel kəndlərinə tökülməsi ilə başlanır. 31 oktyabrdan 1 noyabra keçən gecə 19-cu Sloveniya briqadasının patrulu Vitovlyedən Trnovo-Lokveyə gedən yolda alman hərbçilərinin olduğunu qeydə alır. Bu zaman Vitovlyenin özünə partizanlar tərəfindən göndərilmiş patrul Müqəddəs Boqoridisa kilsəsinin yanında almanlarla toqquşur. Noyabrın 1-2-də almanlar Trnovsk ovalığının ətəklərinə girmək üçün dəfələrlə cəhd edirlər. Trnovo kəndi istiqamətində döyüşlər 6 noyabra qədər davam edir.

Şəmistan Nəzirli "Əfsanəvi Mixaylo" kitabında yazır ki, noyabrın 2-də Mehdi növbəti döyüş əməliyyatını yerinə yetirməyə getdi. Dostları və köməkçiləri Adam Zoran, İvan Tsar, Boqdan Qoryan, Jara Dorçek də onun-

la birlikdə idilər. Partizanların qarşısına düşmənin iri silah anbarını partlatmaq vəzifəsi qoyulmuşdu. Onlar tapşırığı müvəffəqiyyətlə yerinə yetirib, əməliyyatdan razı halda korpus qərargahına qayıdırdılar. Gecə onları yaxşı tanıdıqları Vitovl kəndində yaxaladı. Aylı bir gecə idi. Heç gündüz də bəzən belə olmur. Məsləhət oldu ki, kənddə gecələsinlər. Partizanların çoxdankı dostu Aloiz Marinçiçin həyətində tayalıqda rahatlandılar. Gecə yarısı faşistlər hiss etdirmədən evi mühasirəyə alıb tayalığı atəşə tutdular. Güllə yağışının altında Mehdi və dostları cəldliklə həyətə sıçradılar və avtomatlardan cavab atəşi açdılar. Qızğın atışma başlandı. Hüseynzadənin iki ehtiyat qumbarası vardı. Hündür boylu alman zabiti güllə ataraq onun üzərinə atılanda qumbaraların birini tullamışdı. Bir vaxt Mehdi gördü ki, iki iri cüssəli alman Adam Zoranı yerə yıxıb. Qollarını burub hara isə aparmaq istəyirlər. Avtomatın diskində güllə qurtarmışdı, tapançasında isə cəmi 3 güllə qalırdı: ikisini Hüseynzadə bir faşist zabitinin cəmdəyinə sıxdı. Sonuncu gülləni Mehdi özü üçün saxlamağı qərarlaşdırmışdı. Qonşu evin tinində atəş bir anlığa dayanan kimi Mehdi ora cumdu. Elə bunu gözləyirmiş kimi avtomatın növbəti güllələri onun bədəninə dolmağa başladı. O dayana bilməyib yerə çökdüsə də avtomatı əlindən buraxmadı. **Vitovl** camaatı onu səhər tezdən tapdılar. O, böyür üstə, öz qanının içində uzanmışdı. Elə bil ayağa durub təzədən döyüşə atılmaq istəyirdi. Faşistlər onun bədənini güllə ilə deşik-deşik etmişdilər. Üç gündən sonra partizanlar faşistləri Vitovldan qovub çıxardılar. Mehdini yerli qəbiristanlıqda, kilsədən azca uzaqda hərbi şərafətlə dəfn etdilər. Dəfn mərasiminə ətraf kəndlərdən yüzlərlə adam yığışıb gəlmişdi. Bir neçə vida nitqi söyləndi, yüz avtomat və tüfəngdən yaylım atəşi açıldı. Məzarın üzərinə vurulan göstəricidə qəhrəmanın adı, familiyası, anadan olduğu il və yer yazılmışdı. Lakin partizanlar öz döyüş yoldaşlarının burada dəfn olunması ilə razılaşmır, hələ o vaxt Şempas kəndinin yerli hökuməti qarşısında Hüseynzadənin məzarını Çepovani adlanan yerə köçürmək barədə məsələ qaldırırlar. Bu kənd Novo Qoritsa şəhərinin yaxınlığında avtomobil magistralının kənarında yerləşdiyindən həmişə adamların gur olduğu bir məkan idi. Təəssüf ki, bu məsələ yalnız on altı ildən sonra həll olundu. Ləngimənin əsas səbəbi bu idi ki, Çepovanidə xatirə partizan qəbiristanlığının salınması barədə Lyublin heykəltəraşlarının əlində uzun müddət nə konsepsiya, nə də lazımi materiallar olmayıb. 1960-cı il iyul ayının əvvəllərində memorialın açılışı oldu. Bu dəfə də Çepovanidə iynə atsan yerə düşməzdi. Elə təkcə partizanlar beş yüz nəfərəcən idilər. Bu dəfə də vida nitqləri deyildi. Yaylım atəşlər açıldı. Xatirə qəbiristanlığı kəndin düz ortasında yerləşir. Hüseynzadənin məzarı sağ tərəfdə, başqa dostlarının məzarının yanındadır. Üzərində beşguşəli qırmızı ulduz obeliski ucalır. Qəbrin üstündəki dəmir lövhədə yazılmışdır: “Rahat yat, Azərbaycan xalqının qəhrəmanı, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır”.

Lakin M.Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətləndirilmədi. Müharibə qurtaran kimi Dövlət Təhlükəsizlik Komitəsi 1946-cı ildə olduqca təhlükəli hesab etdiyi bir "casus" haqqında material toplamağa başladı. "Casus"un axtarış işində onun 1943-1944-cü illərdə Almaniyanın Ştrans məntəqəsində yerləşən Azərbaycan Milli Legionunda təbliğat-təşviqat şöbəsində işlədiyi, legionları Hitler Almaniyasına vicdanla xidmətə çağırdığı bildirilirdi. "Casus" kimi axtarışda olan Mehdi Hüseynzadə idi.

Qeyd edək ki, 1944-cü ilin 2 aprelindən müharibənin sonuna qədər xalq azadlıq ordusunun və Sloveniya partizan dəstələrinin nəzdində sovet hərbi missiyasının qrupu fəaliyyət göstərirdi. Ona SSRİ Xalq Müdafiə Komissarlığının Baş Kəşfiyyat Agentliyinin kadr kəşfiyyatçısı missiya rəisinin köməkçisi, diversiya-kəşfiyyat fəaliyyəti mütəxəssisi polkovnik Nikolay Kirilloviç Patraxalçev rəhbərlik edirdi. 6 iyunda daha bir BKA-nın əməkdaşı İvan Petroviç Rıbaçenkov rabitəçi Leonidovla bir araya gəldi. Rıbaçenkov və Leonidov 9-cu korpusun qərargahında möhkəmləndirildi. Onların vəzifəsi sovet hərbi köməyi çərçivəsində yüklərin qəbulunu təşkil etmək, rəqib haqqında məlumatlar yığmaq və hərbi mövzular üzrə Sloveniya komandirlərinə məsləhət vermək.

Mehdi Hüseynzadənin qrupu 9-cu korpusun ayrıca diversiya bölməsi qismində fəaliyyət göstərirdi. Bu məlumatları Qorişka bölgəsindəki 9-cu diversiya-kəşfiyyat qrupunun rəhbəri ilə (sabotazno skupino) Mehdi Hüseynzadənin kəşfiyyat qrupu arasında konspirativ kuryer əlaqəsi yaratmaq tapşırılan Simon Viçiç də təsdiq edir. Viçiç qeyd edir ki, Mehdi Hüseynzadə "… əsl kəşfiyyatçı tipi idi. Heç zaman adını demirdi. O həmişə sadəcə Mixaylo idi. Heç kəs onun haradan gəldiyini bilmirdi. O ancaq „Çar" (Car) (İvan Suliç) ilə danışırdı. 30 oktyabr 1944-cü ildə Rençe (Renče) kəndindəki görüş zamanı M.Hüseynzadə və "Çar", sovet diversiya qrupu ilə "Çar"ın dəstəsinin birləşməsinin məqsədə-uyğunluğunu müzakirə etdilər. Bu məsələnin tam həlli üçün Sovet hərbi missiyasının razılığını və 9-cu korpus qərargahının sanksiyasını almaq tələb olunurdu.

Sloveniya xalq-azadlıq müharibəsi tədqiqatçısı Marian F.Kranç (Marijan F.Kranjc) Mehdi Hüseynzadənin qrupunun xidmətlərini analiz edərkən belə bir fərziyyə irəli sürür ki, Mehdi Hüseynzadə sovet kəşfiyyatının marağı və sovet hərbi missiyası əməkdaşlarının tapşırığı ilə işləyirdi. Mehdi Hüseynzadənin kəşfiyyatla əlaqəsi haqda tarixçi A.M.Sergienko da məlumat verirdi.

Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov yazırdı ki, dayısı əsir düşməyib. Kəşfiyyatçı kimi almanlar tərəfə atılıb. ...onun dostları danışırdılar ki, Mehdi almanlar tərəfə keçəndən sonra SSRİ ilə əlaqə saxlamayıb. Mehdi Hüseynzadə 162-ci "Türküstan" diviziyasına yazılıb. Onun bacarığını görən almanlar Mehdini Potsdama 3 aylıq hərbi məktəbə göndəriblər. Bu kursdan sonra yenidən "Türküstan" diviziyasına təbliğat-təş-

viqat işinə göndərilib. Başqa sözlə, əsil həqiqəti bilməyən **SSRİ DTK Mehdi Hüseynzadəni** "**Vətən xaini**" hesab edir. **Müharibə qurtarandan 9 il sonra – 1954-cü ildə Dövlət Təhlükəsizlik Nazirliyinin baş müvəkkili, bölmə rəisi V.Banserev** Mehdi ilə legionda və partizan hərəkatında iştirak edən şahidləri yenidən dindirir və onlar öz ifadələrində 1944-cü ildə Almaniya hökumətinin müttəfiqi İtaliyanın məğlubiyyətindən, bundan sonra tərkibində fəaliyyət göstərdikləri 162-ci "Türküstan" diviziyasının Adriatik dənizinin sahillərinə göndərilməsindən danışır, İtaliya ilə Yuqoslaviyanın sərhədində olarkən kəskin hava şəraitinə dözməyən Mehdinin xəstələnməsindən də söz açırlar. Mikayıl Qulubəyov xatirələrində bildirir ki, Mehdi burada dermatit xəstəliyinə tutulduğuna görə, 1943-cü ilin noyabr ayında Avstriyanın Qrats şəhər xəstəxanasında müalicə olundu. Xəstəxanadan qayıdandan sonra 1944-cü ilin əvvəlində **Mehdi, Cavad Həkimli və Əsəd Qurbanov** düşərgədən qaçıb İvan Qradnikov adına 3-cü zərbə briqadasına qoşuldular. Rotanın komandiri Cavad Həkimli, komissarı ilk zamanda Mehdi Hüseynzadə və Miryaqub Ağalarov idi. Mehdi Hüseynzadə haqqında olan axtarış işi 8 il çəkdi. Sonda işinin nəticəsi onun qəhrəman olduğunu üzə çıxardı. İtaliya Kommunist Partiyasının katibi Palmiro Tolyati, Yuqoslaviya Xalq Azadlıq Hərəkatının lideri və Kommunist Partiyasının katibi Broz Tito SSRİ hökumətinə Mehdinin şücaətləri əks olunmuş sənədlər təqdim etdilər. Bütün bunlardan sonra "**Casus"** axtarış əməliyyatı səmtini dəyişdi. Artıq axtarış işi "**Geroy**" adlandırılırdı. Mehdinin ölüm xəbəri 1954-cü ildə dəqiqləşdirildi.

1956-cı il mayın 31-də "Krasnaya Zvezda" qəzeti keçmiş partizan **Vasili Dmitriyeviç Sokolov**un xatirələrinə əsaslanaraq "Partizanın qəhrəmanlığı" adlı məqaləni dərc etdi. Bu məqalə bütövlükdə "Mixaylo" təxəllüsü ilə Yuqoslaviya və İtaliyada qəhrəmanlıq möcüzələri göstərmiş Mehdi Hüseynzadənin şücaətlərinə həsr olunmuşdu.

Qeyd edək ki, **yazıçı-jurnalist Vasili Dmitriyeviç Sokolov** Böyük Vətən müharibəsinin iştirakçısıdır. O, Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan və Avstriyanın faşist işğalçılarından azad olunması uğurundakı döyüşlərdə iştirak etmişdir. V.D.Sokolov Böyük Vətən müharibəsi cəbhələrində sovet döyüşçülərinin göstərdiyi qəhrəmanlığa həsr olunmuş bir sıra əsərlər yazmışdır. SSRİ Müdafiə Nazirliyinin hərbi nəşriyyatı onun 1956-cı ilin axırlarında "Qəhrəmanlar ölkəsində" adlı hekayələr məcmuəsini buraxmışdır. "Ələkeçməz partizan" hekayəsi də həmin məcmuədə dərc olunmuşdur. Hekayə Azərbaycan xalqının qəhrəman oğlu, faşistlərin arxasında aparılan partizan mübarizəsinin görkəmli iştirakçısı Mehdi Hənifə oğlu Hüseynzadəyə həsr olunub. Zabit Alekseyevin qabaq Dramaturq Yevgeni Stepanoviç Şevadzutski Krivoy-Roq şəhərində yaşayırdı. Onun əsərləri RSFSR və Ukraynanın bir sıra teatrlarında tamaşaya qoyulub.

Y.Şevadzutski də Böyük Vətən müharibəsinin iştirakçısıdır. Voronejdən Berlinədək döyüş yolu keçib. O, cəbhəyə getməzdən əvvəl Tbilisi Hərbi

Piyada Məktəbində Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə ilə bir qrupda oxuyub, həmyerlimizlə dostluq edib. Y.Şevadzutski M.Hüseynzadənin qəhrəmanlığından bəhs edən "Sonuncu məktub" adlı pyes yazıb. Pyesdən parçalar Ukrayna qəzetlərində "Biz beynəlmiləlçilərik" adı altında dərc edilib.

1956-cı ilin oktyabrında keçmiş partizan **Q.A.Jilyayev** 39 səhifəlik "Mehdi Hüseynzadə (Mixaylo) haqqında xatirələr"ini qələmə aldı və Azərbaycan SSR-in E.A. Tarix İnstitutuna verdi. İnstitut tərəfindən toplanmış materiallarda Mehdi Hüseynzadənin qəhrəmanlıqlarını təsdiqləyən "İgidlik nişanı" Yuqoslav medalı ilə təltif olunmuş sovet partizanlarının siyahısının fotosurəti, həmçinin Rus Zərbə briqadasının Yuqoslaviya ordusunun IX korpusunun qərargahına təqdim etdiyi hesabat da vardı. Bu qəhrəmanın İkinci dünya müharibəsi illərindəki şücaətləri haqqında böyük sayda materiallar əsasında **İmam Mustafayev** 1956-cı ilin noyabrında ilk dəfə məktubla Sov.İKP-nin MK-nə müraciət etdi. Sov. İKP-nin MK-nin göstərişi ilə Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi M.Hüseynzadənin Yuqoslaviya və İtaliya ərazisində alman-faşist işğalçılarına qarşı göstərdiyi şücaətlərini təsdiqləyən məxfi təhqiqat apardı. Müvafiq arayış 9 vərəqdə İmam Mustafayevə təqdim olundu. **F.Kopılov** Sov.İKP MK-ya yazırdı: "Yuqoslaviyadakı SSRİ səfirliyi Yuqoslav səlahiyyətli orqanlarına Hüseynzadənin Yuqoslav partizan birləşməsindəki fəaliyyətini əlavə olaraq yoxlamaq və sənədləşdirmək xahişi ilə müraciət etmişdir. Təhqiqat göstərdi ki, Azərbaycan incəsənət məktəbinin məzunu olmuş, sonralar isə Leninqrad Xarici Dillər institutunda və V.İ.Lenin adına APİ-də təhsil alan M.Hüseynzadə 1941-ci ildə Sovet Ordusu sıralarına çağırılmışdır. 1942-ci ildə Tbilisidə piyada məktəbini bitirmiş və elə həmin ildə də Stalinqrad döyüşlərində iştirak etmişdir. 1942-ci ilin avqustunda Kalaç şəhərciyi uğrunda döyüşdə ağır yaralanmış və əsir düşmüşdür. Ukraynada, Polşada, İtaliyada, Yuqoslaviyada hərbi əsirlər üçün düşərgələrdə olmuşdur. 1944-cü ildə İtaliyanın Udineze şəhərində onun rəhbərliyi altında keçirilmiş əməliyyat nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsgəri və zabiti azad edilmişdir. DTK-nın arayışı və yeni sənədlərə əsaslanaraq **İmam Mustafayev** 1957-ci ilin 15 yanvarında təkrarən Sov.İKP-nin MK-nə müraciət etdi. Nəhayət ki, onun cəhdləri uğurla yekunlaşdı. Yuqoslaviyadan əlavə sənədlər alındıqdan sonra **1957-ci ilin 11 aprelində Mehdi Hüseynzadəyə Sovet İttifaqı Qəhrəmanı adı verildi.** Respublika komsomolunun lideri Nazim Hacıyevin təşəbbüsü ilə yazıçılar İ.Qasımova və H.Seyidbəyliyə qəhrəman-partizana həsr olunmuş bədii əsər yazılması tapşırıldı. Onların "Uzaq sahillərdə" povesti oxucular arasında böyük uğur qazandı. 1958-ci ildə isə "Azərbaycanfilm" kinostudiyasında ekranlaşdırıldı.

Bakıda Mehdi Hüseynzadənin abidəsi

Bakının Abbasqulu ağa Bakıxanov küçəsinin yaxınlığındakı bağçada əlində qumbara sıxmış döyüşçü cəsarətlə irəli şığıyır. Çiynindəki plaş çadır tunc qırışlarda əbədi donmuşdur. Qartal qanadları gərilən igid, düşmən üzərinə növbəti hücum zamanı xalq rəssamı Fuad Əbdürrəhmanov tərəfindən məharətlə təsvir olunmuşdur. Xalqımızın əbədiyaşar qəhrəmanına Tokay Məmmədov və Rəhim Quliyev heykəllər həsr etmişlər, Lətif Feyzullayev, Cahangir Rüstəmov, Hüseyn Kərimov, Tağı Tağıyev, Cabbar Quliyevin və başqa rəssamlar cəsur partizan "Mixaylo"nun cəbhə həyatına dair portret əsərlər yaratmışlar. Təbii ki, bunlar yaradıcı ziyalıların qəhrəman Mehdi Hüseynzadənin xatirəsinə bəslədikləri dərin hörmət və məhəbbətin bariz nümunəsidir. 1973-cü il mayın 9-da Bakıdakı heykəlinin açılışında Heydər Əliyev demişdir: "Azərbaycan Pedaqoji İnstitutunun tələbəsi Mehdi Hüseynzadə hərarətli qəlbinin çağırışı ilə ölkəmizin müdafiəçilərinin sıralarına qoşuldu. Stalinqrad ətrafındakı vuruşmada ağır yaralanan Mehdi əsir edildi. Lakin nə tikanlı məftil, nə Hitler həbs düşərgəsinin azğın keşikçiləri cəsur döyüşçünün iradəsini qıra bilmədi. O, faşist zindanından qaçdı və Yuqoslaviya partizanları sırasında düşmənlə mübarizəni davam etdirdi. Doğma torpaqdan uzaqlarda, Adriatik dənizi sahillərində həmyerlimiz onlarla cəsarətli əməliyyatlar aparmış, kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmişdir. Mehdi Hüseynzadə yüzlərlə hitlerçini məhv etmiş, qatarları yoldan çıxarmış, körpüləri dağıtmış, avtomaşınları və təyyarələri partlatmışdır. Bütün bunlar faşist işğalçıları üzərində qələbəyə qəhrəman Mehdinin döyüş köməyi idi. Azərbaycanın qəhrəman oğlunun xatirəsini sovet adamları ilə bərabər Yuqoslaviya və İtaliya xalqlarının da yad etmələri bizi sevindirir. Qəhrəmanın məzarı doğma torpaqdan çox-çox uzaqlardadır. Lakin partizanın döyüş yoldaşları hər il, Mehdinin həlak olmasının ildönümü günündə onun məzarı üstünə gül-çiçək dəstələri qoyurlar. Onlar Mehdi Hüseynzadənin əziz xatirəsi qarşısında baş əyməklə bütün Azərbaycan xalqına ehtiramlarını bildirirlər. Yuqoslaviya-İtaliya müqavimət hərəkatı sıralarında vuruşarkən azərbaycanlı Mehdi Hüseynzadə özünü "Mixaylo" adlandırmışdır. Faşistləri vahiməyə salan bu mübariz ad altında Mehdi Hüseynzadə tarixə əbədi daxil olmuş, onunla çiyin-çiyinə vuruşmuş insanların qəlbində məskən salmışdır. Bu ad müasirlərinin və gələcək nəsillərin hafizəsindən heç vaxt silinməyəcəkdir".

Bakıda M.Hüseynzadənin adına küçə vardır. Bakı şəhərində A.A.Bakıxanov küçəsində onun şərəfinə abidə ucaldılmış, "Azərbaycanfilm" kinos-

tudiyası “Mixaylo”nun qəhrəmanlığından bəhs edən “Uzaq sahillərdə” filmi çəkilmişdir.

Şair **Süleyman Rüstəm** qəhrəmana məhəbbətini ifadə edərək yazmışdır:

Sən qoçaqlar içində qoçaqsan gözlərimdə,
Ürəyi alov dolu bir dağsan gözlərimdə…
Vətənimin balası, Bakının şöhrətisən!

Xalq şairi Nəbi Xəzri yazmışdı:

Dinlə ana torpaq, ey Vətən eşit,
Xoş xəbər yayılsın dost ellərinə!
Xəzər sahilində doğulan igid
Qayıtdı Xəzərin sahillərinə.
İllərin üstündən o qanad çaldı,
Bir ömrün ilqarı, əhdi qayıtdı.
Orda əfsanəvi “Mixaylo” qaldı,
Bura əfsanəvi Mehdi qayıtdı.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.21-24; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.284-287; Qasımov, İ.İtaliya mozaikası: [M.Hüseynzadənin dəfn olunduğu yerə səfər haqqında] / İmran Qasımov // Azərbaycan. – 1972. – №2. – s. 97-139; Dadaşov, Ə.Mixaylo ilə çiyin-çiyinə: [Məmməd Novruzovun M.Hüseynzadə haqqında xatirələri] / Əmrah Dadaşov // Ulduz. – 1975. – №5. – s. 31-34; İsmayılov İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılova – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s109; Mehdiyev B.M. 223-cü Qırmızı bayraqlı Belqrad atıcı diviziyası / B.M.Mehdiyev Bakı: Respublika Xatirə Kitabı Nəşriyyatı, 2000, s.111; Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası / Peter Analietti: tərc. F.Abdullayev, red.M.N.Qarayev. – Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 2018. - 351 s.

Piriyev Əlif Turxan oğlu
(1922-1986)

Əlif Piriyev Salyan qəzasının Neftçala dairəsinin Qoltuq kəndində balıqçı ailəsində anadan olmuş, 1941-ci ilin oktyabrında hərbi xidmətə çağırılmış, onun ilk döyüşü 1942-ci ilin yazında İzyum-Barvenkovo istiqamətində olmuşdur.

Ə.Piriyev üçün növbəti sınaq Qafqaz uğrunda döyüşlərdə oldu. O,

Mozdok, Nalçik, Rostov şəhərlərinin azad edilməsində igidlik göstərdi.

IV Ukrayna Cəbhəsinin 32-ci qvardiya atıcı diviziyasının 80-ci alayının bölmə komandiri olan serjant Əlif Piriyev Kursk döyüşlərində (1943-cü il iyul-avqust) və 1944-cü ilin mayında Sapun dağının azad edilməsində şəxsi qəhrəmanlıq göstərərək onun bölməsi düşmənin 3 atəş nöqtəsini məhv etdi, mayın 8-də Sapun dağının azad edilməsində yaralandı. Krımın faşistlərdən azad edilməsi uğrunda, xüsusən Sapun dağında göstərdiyi igidliyə görə Əlif Turxan oğlu Piriyevə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Ə.Piriyev 1953-cü ildə ordudan tərxis olundu, Bakıda işlədi, 1986-cı ildə dünyasını dəyişdi.

Onun haqqında:

Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.186-188; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.234-235; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.129-130.

Rəfiyev Nəcəfqulu Rəcəbalı oğlu
(1912-1970)

Nəcəfqulu Rəfiyev 1912-ci ildə Ordubad şəhərində anadan olmuşdur. N.Rəfiyev 1930-cu ildə Tiflis şəhərinə gedərək orada ipəkçilik kursuna daxil olmuş, kursu başa vurduqdan sonra yenidən Ordubada qayıdaraq baramatoxumu stansiyasında müfəttiş işləmişdi. 1931-ci ildə Bakıya gələn Nəcəfqulu əvvəlcə FZŞ məktəbində, sonra isə Bakı Dəmiryolu Texnikumunda oxumuşdu.

N.Rəfiyev 1935-ci ildə hərbi xidmətə çağırılmışdı. 1941-1945-ci illər müharibəsi başlananda o, kiçik leytenant rütbəsində, I Belarus Cəbhəsinin 3-cü Tank Ordusunda bölmə komandiri idi. 1941-ci ildə Poltava və Xarkov ətrafındakı vuruşmalarda N.Rəfiyev yoldaşları ilə düşmənə böyük tələfat verərək 6 topu, 50-dən artıq əsgəri məhv etdi. Həmin ilin sentyabrın 20-də Orçik çayı ilə Koloman çayı arasında Nəcəfqulunun tankı döyüşə birinci girdi. Bu döyüşdə N.Rəfiyevin dəstəsi düşmənin 16-ya qədər müxtəlif topunu, bir tankı və 40 əsgəri məhv edərək 3 nəfəri əsir götürdü.

N.Rəfiyev Orconikidze, Rostov, Makeyev, Belarusun Lutsk, Timkoviç və Baranoviçi şəhərlərinin azad edilməsində fəallıq göstərdi.

1943-cü ilin yay və payız hücumu zamanı Ukrayna Cəbhəsində döyüşən N.Rəfiyev Zaporejye vilayətinin Qulyaya-Ple rayonunda döyüşlərdə düşmənin 50-dən artıq tankını məhv etdi. Onun tankçılar bölməsi 1944-cü il iyun ayının 26-da Ptiç çayını keçərək geriyə çəkilən düşmənin yolunun kəsdi, Mogilyov vilayətinin Qorets rayonunun düşməndən azad edilməsində fədakarlıq göstərdi, düşmənin 1 tankı, 17 avtomatı ələ keçirildi, 15 hitlerçi əsir tutuldu.



Nəcəfqulu Rəfiyevin mükafata təqdim edilməsi

N.Rəfiyev 1944-cü il sentyabr ayının 26-da Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Müharibədən sonra xidmətini davam etdirən N.Rəfiyev mayor rütbəsinədək yüksəldi, 1956-cı ildə ordudan tərxis olundu və Bakıda əmək fəaliyyətinə başladı. Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunda adına küçə vardır.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.217-219; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov.– Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.130; Лариса Кучерова. Живая боль войны/Л.Кучерова.– Минск, 2020, с.279-287.

Sadıqov Yusif Mədət oğlu (1918-1971)

1918-ci ildə Tovuz rayonunun Ağdam kəndində anadan olmuşdur. 1934-cü ildə yeddiillik məktəbi bitirərək 1934-1938-ci illərdə Sabir adına kolxozda işləmişdi.

Y.Sadıqov 1938-ci ildə hərbi xidmətə çağırıldı. I Belarus Cəbhəsi qvardiya tank ordusunun artilleriya diviziyasında starşina rütbəsində top komandiri oldu. Onun topçular dəstəsi 1945-ci il yanvarın 16-da Pilitsa çayını keçərkən düşmənin atəş nöqtəsini, yanvarın 18-də Zdec rayonunda düşmənin əks-hücumunu dəf edərkən düşmənin bir tankını, 2 BTR-ni və bir qrup əsgərini məhv etdi.

Yusif Sadıqov Berlin şəhərinin alınması uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə 31 may 1945-ci ildə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. "Lenin" və "Qızıl Ulduz" (№ 7071) ordenləri ilə təltif edilmişdir. Müharibədən sonra Tovuz şəhərində "Netbaza"nın direktoru vəzifəsində çalışmışdır.

Yusif Sadıqov 1971-ci il iyunun 11-də vəfat etmiş, doğma kəndində dəfn edilmişdir. Tovuz şəhərində adına Məktəb (Bozalqanlı məktəbi) və küçə var. Büstü qoyulmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.191-193; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s.

Səfərov Fariz Məcid oğlu (1920-1964)

Fariz Səfərov 1920-ci ildə Azərbaycan SSR-in Ağdaş rayonunun Ləki qəsəbəsində anadan olmuşdur. Kənd məktəbini bitirən Fariz Bakıya gələrək rus dili müəllimləri hazırlayan kursda oxumuş, 1939-cu ildə ordu sıralarına çağırılmışdır. Sovet-alman müharibəsi başlayanda gənc əsgər F.Səfərov SSRİnin Qərb sərhədlərində xidmət edirdi.

F.Səfərov Ukrayna torpaqlarının azad edilməsi uğrunda döyüşlərdə əsgəri rəşadət göstərdi. Dnepr çayının keçilməsi uğrunda döyüşlər F.Səfərova şöhrət qazandırdı. F.Səfərovun cəsarətli əməliyyatı nəticəsində düşmən cəbhəsi yarıldı, döyüşdə Fariz şəxsən 34 faşist əsgərini məhv etdi, 2 düşmən topu sıradan çıxarıldı. Oktyabrın 15-də Zaporejyenin azad edilməsində F.Səfərovun pulemyotçular dəstəsi xüsusi rol oynadı. Dneprin sahillərində göstərdiyi qəhrəmanlığa görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1944-cü il 17 mart tarixli fərmanı ilə Fariz Məcid oğlu Səfərova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

F.Səfərov müharibədən sonra bir müddət ordu sıralarında qaldı, sonra Bakıya qayıtdı, BDU-da işlədi, 1964-cü ildə vəfat etdi.

F.Səfərov "Qırmızı Bayraq" ordeni, "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., 200-203; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R. E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.258-259; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.135.

Süleymanov İdris Həsən oğlu
(1915-1986)

İdris Süleymanov 1915-ci ildə Qasım İsmayılov rayonunun Goranboy kəndində (indiki Goranboy şəhəri) doğulmuşdur. 1936-1939-cu illərdə hərbi xidmətdə olmuş, kiçik leytenant rütbəsi ilə ehtiyata buraxılmışdır. 1941-ci il iyunun 17-də yenidən orduya səfərbər olunmuşdur.

İdris bir müddət ordunun arxa cəbhəsində ehtiyat hissələrində qalmış, 1941-ci il sentyabr ayının axırlarında onun olduğu hissə Qafqaz Cəbhəsinə yola düşmüşdü. Kiçik leytenant İ.Süleymanovun komandiri olduğu bölmə 1942-ci ilin noyabrında Şimali Qafqazda döyüşən 43-cü Atıcı briqadanın tərkibində Mozdok ətrafındakı döyüşlərdə fərqlənmiş, özü bir gün ərzində düşmənin 2 rabitəçisini, 2 pulemyotçusunu və 5 əsgərini məhv etmişdi.

Faşist işğalçılarına qarşı Mozdok rayonunda gedən döyüşdə komandanlığın tapşırığını nümunəvi yerinə yetirdiyinə və böyük igidlik göstərdiyinə görə İdris Həsən oğlu Süleymanov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 13 dekabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

İ.Süleymanovun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi rayon əməkçilərinin sevincinə səbəb oldu. Bu münasibətlə Azərbaycan SSR-in

Goranboy Rayon Partiya Komitəsində mitinq keçirilmişdi. Mitinqi açan rayon partiya komitəsinin katibi Nəcəf Abdullayev bütün həmyerlilərini təbrik etmişdir. Mitinqdə çıxış edən rayon əməkçiləri orduya daha çox kömək edəcəklərini bildirmişlər. Mitinq iştirakçıları Sovet İttifaqı Qəhrəmanı İ.Süleymanova təbrik məktubu qəbul etmişlər. Məktubda deyilirdi: "… Əzizimiz İdris! Biz də arxada sən cəbhədə olduğun kimi fədakarcasına işləyib sənin aldığın yüksək ada layiq olacağıq. Sənin qəhrəmanlığın, igidliyin, möhkəmliyin, əzmin, gücün, pəhləvan adın bizi əmək cəbhəsində yeni igidliklər üçün ruhlandırır.

Yaşasın Sovet İttifaqı Qəhrəmanı, igid oğlumuz İdris!."

İ.Süleymanov 1943-cü ildə hərbi xidmətdən tərxis olunmuşdur.

Süleymanov İdris Həsən oğlu 1986-cı ildə vəfat etmişdir.

Onun haqqında: Vəzirov X. İdris / X.Vəzirov. – Bakı: Azərbaycan LKGİ MK Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı, 1943, 15 s.; Ağayev Əkbər. Sovet İttifaqı Qəhrəmanı İdris Süleymanov / Ə.Ağayev. – Bakı: Azərnəşr, 1941, 14 s.; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.210-212; Azərbaycanın Qızıl ulduzları Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.274-275; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.135.

Şükürov Şirin Ağabala oğlu
(1910-1987)

Şirin Şükürov 1910-cu ildə Şirvan şəhəri yaxınlığındakı Köhnə Şahverdi kəndində doğulmuşdur.

1941-ci ildə hərbi xidmətə çağırılan Ş.Şükürov Tbilisidən çox da uzaqda olmayan ehtiyat atıcı alayında 3 ay hərbi hazırlıq kursunu keçdikdən sonra Krım Cəbhəsinə gəldi. Orada döyüşən hissələrin arxasında bir müddət ehtiyatda qaldıqdan sonra Cənubi Azərbaycana göndərildi.

1942-ci ildə faşistlər Qafqazı ələ keçirmək üçün əməliyyata başlayanda Ş.Şükürovun xidmət etdiyi hərbi hissə Cənubi Azərbaycandan Şimali Qafqazın müdafiəsinə göndərildi. 1942-ci ilin payızında Mozdok ətrafında gedən qanlı döyüşlər Ş.Şükürov üçün sınaq oldu. Qafqazın müdafiəsində qəhrəmancasına vuruşdu, ağır yaralandı və Bakıya hərbi hospitala göndərildi. Müalicədən sonra yenidən döyüşən orduya qayıtdı.

Müharibənin ən ağır günlərində Ş.Şükürov Rostov və Voronej şəhərlərinin azad edilməsi döyüşlərində fərqləndi. 1944-cü ildə Kerçin faşistlər-

dən azad edilməsində göstərdiyi şücaətə görə "İgidliyə görə" medalı ilə təltif olundu.

1944-cü ilin may-iyun aylarında Ş.Şükürovun xidmət etdiyi 1133-cü Atıcı alay I Belarus Cəbhəsinə göndərildi. Belarus əməliyyatı müvəffəqiyyətlə başa çatdıqdan sonra sovet qoşunları Polşa torpağına daxil oldu. Ş.Şükürovun xidmət etdiyi hərbi hissə Visla çayının sol sahilinin faşistlərdən azad edilməsində fərqləndi. Sovet hərbi hissələri 1945-ci il yanvarın 12-də Visla çayını keçdilər. Ş.Şükürov taqımı ilə birlikdə öndə irəlilədi. O, döyüşdə 14 faşisti məhv etdi.

Alman işğalçılarına qarşı mübarizə cəbhəsində komandanlığın döyüş tapşırıqlarını nümunəvi yerinə yetirdiyinə, igidlik və qəhrəmanlıq göstərdiyinə görə Şirin Ağabala oğlu Şükürov 1945-ci il fevralın 27-də SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Ş.Şükürovun xidmət etdiyi 1133-cü Atıcı alay 1945-ci il mayın 5-də döyüş yolunu Elbada başa vurdu.

Ş.Şükürov 1945-ci ilin noyabr ayında ordudan tərxis olundu. Ona Almaniyadakı sovet qoşunları qrupunun Baş komandanı, Sovet İttifaqı Marşalı G.K.Jukovun imzası ilə "Döyüş yoldaşımız Şükürov Şirin Ağabala oğluna" təşəkkür məktubu verildi.

Ş.Şükürov müharibədən sonra Şirvan şəhərində əmək fəaliyyətini davam etdirdi. Ailə həyatı qurdu.

Şükürov Şirin Ağabala oğlu 1987-ci ildə dünyasını dəyişmişdir.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.243-245; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.312-313; Qədirova, Elmira. Ş.Şükürov / Elmira Qədirova; [X.H.Vəzirov] Bakı: Azərnəşr, 1985. – 30 s. İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.140-141;

Verdiyev Əvəz Haşım oğlu
(1916-1945)

Əvəz Verdiyev 1916-cı ildə Bakının Bülbülə qəsəbəsində dünyaya gəlmişdir. Üç yaşında atasını itirdiyindən ailəsi Laçın rayonunun Quşçular kəndinə köçərək bir müddət orada yaşamışdı. 1936-cı ildə Bakıya

gələn Əvəz F.Dzerjinski adına zavodda işə başlamış, axşam məktəbində təhsilini davam etdirmişdi. 1938-ci ildə orduya çağırılan Əvəz 1939-1940-cı illərdə SSRİ-Finlandiya müharibəsində iştirak etmişdir.

1940-cı ildə hərbi xidməti başa vuran Ə.Verdiyev müharibə başlananda yenidən orduya səfərbər olundu. Qvardiya baş çavuşu Ə.Verdiyev 3-cü Tank Ordusunda avtomatlılar bölməsinin komandiri kimi Rostov döyüşlərində yaralandı. Uzunmüddətli müalicədən sonra yenidən cəbhəyə qayıtdı.

Ə.Verdiyev Lvov ətrafındakı döyüşlərdə, Xarkov və Orlov şəhərlərinin, Droqobıç, Nikolayev və Zoloçev rayonlarının azad edilməsində iştirak etdi. 1944-cü il iyulun 24-də Lvov vilayətinin Kulikov yaşayış məntəqəsinin azad edilməsində şəxsi qəhrəmanlıq göstərdi.

1944-cü il iyulun 14-də Birinci Ukrayna cəbhəsi qəti hücuma keçdi. Hücum edənlərin ilk dəstələrində D.A.Draqunskinin tank briqadası da vardı. Şiddətli döyüşlər başladı. Əvəz Verdiyev bu döyüşlərin ön sırasında idi. Qoşun Vislaya gedib çıxmalı idi. Əsgərlər dərələrdən, ensiz dağ cığırlarından, meşələrdən keçib Vislaya çatdılar. Əvəz beş döyüşçü ilə qayığa otuturaraq sürətlə axan Vislanı keçməyə başladı.

Ə.Verdiyevin komandiri olduğu avtomatlılar bölməsi 1944-cü il iyulun 31-dən avqustun 3-dək Visla çayını keçib düşmən qüvvələrini məhv edərkən qəhrəmanlıqla həlak oldu. Alman-faşist işğalçılarına qarşı vuruşmalarda qəhrəmanlıq və mərdlik göstərdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 23 sentyabr 1944-cü il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.73-75; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.68-71; Fəridə Babayeva. Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyev / Fəridə Babayeva. – Bakı: Gənclik, 1975, 31 s.; ASE, II c. Bakı, 1978, s.444.

Vəliyev Mirzə Dövlət oğlu (1923-1945)

M.Vəliyev batareyası ilə harada döyüşməsindən asılı olmayaraq yüksək vətənpərvərlik nümunəsi göstərdi, son döyüşü Macarıstan torpağında oldu, rəhbərlik etdiyi batareyanın bütün heyəti həlak oldu, özü isə ağır yaralandı. Sonuncu mərmisi ilə düşmənin zirehli avtomobilini məhv edən Mirzə qəhrəmancasına

həlak oldu. Döyüş qəhrəmanlığına görə Vəliyev Mirzə Dövlət oğlu SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 24 mart tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Mirzə Vəliyev "Şərəf" ordeni, III dərəcəli "Şöhrət" ordeni, "İgidliyə görə" və "Qafqazın müdafiəsinə görə" medalları ilə təltif edilmişdir.

Şimali Qafqazdan başlayaraq Ukrayna, Belarusiya, Rumıniya, Bolqarıstan və Macarıstandan keçərək şanlı döyüş yolu keçmiş, Qusar rayonunun Yuxarı Ləkər kəndində doğulan **Mirzə Vəliyev** 1941-ci ilin iyun ayında 18 yaşında könüllü olaraq cəbhəyə gedərək Cənub cəbhəsindəki döyüşlərdə iştirak etdi. Tezliklə top batareyasının komandiri təyin edildi, qvardiya baş serjantı rütbəsi ilə təltif olundu. Mirzə Vəliyev Şimali Qafqaz uğrunda, Ukraynanın azad edilməsində igidlik göstərdi.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.70-72; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.76-77; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.107; ASE, III c. Bakı, 1979, s.458;

Vəzirov Aslan Fərhad oğlu
(1910-1989)

Aslan Vəzirov 1910-cu il dekabrın 13-də Azərbaycan SSR-in Bərdə rayonunun Zümürxan kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. 2 yaşında atasını, sonra isə anasını itirmişdi. 4 nəfər onlardan böyüyü 9 yaşlı olan uşaqlar qohumlarının himayəsində qalmışdır. Aslanın dayısı Baba kişi tərbiyəyə götürmüş, kiçik oğlan təsərrüfat işlərində dayısına kömək etmişdi.

1919-cu ildə Aslanın qohumu Cəmil Vəzirov Bakıdan Zümürxana gəlir. Gənc oğlanın diribaşlığı, dərin ağlı onun diqqətini çəkir. Cəmil Vəzirov Aslanı Bakıya aparmaq istəsə də, Baba kişi əvvəl razılıq vermir, nəhayət, 1919-cu ilin avqustun sonlarında Aslan Bakıya gəlir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulması Cəmil Vəzirovun həyatında və ailəsində köklü dəyişikliklərə səbəb oldu. O, poçt və teleqraf naziri təyin edildi. Bu hadisə kiçik Aslanın həyatını dəyişdi. O, məktəbdə təhsil aldı, sərbəst vaxtlarında çoxlu kitab oxudu. Başqa həmyaşıdları kimi Aslanın da qəlbində hərbiçi olmaq arzusu baş qaldırdı. Bu

arzudan xəbər tutan C.Vəzirov Aslanı Cənubi Qafqaz Hərbi Hazırlıq Məktəbinə göndərdi.

Aslan Vəzirov 1922-ci ildə məktəbə kursant qəbul olundu və 6 il oxudu. 1924-cü ildə həmin məktəbə Həzi Aslanov da daxil oldu. 1928-ci ildə məktəbi bitirən Aslan Vəzirov Leninqrad Hərbi-Mühəndis Məktəbinə göndərildi. 1928-ci ilin axırından 1930-cu ilin əvvəlinə kimi Leninqrad, sonra isə Moskva hərbi mühəndis məktəblərində oxudu. 1930-cu ildə məktəbi bitirən gənc A.Vəzirov Bakıda dislokasiya olunan Stepin adına 2-ci Atıcı Diviziyanın 5-ci atıcı alayın sərəncamına göndərildi.

A.Vəzirov 1933-cü ildə gənc komandir Kiyev Xüsusi Dairəsinin Ovriç şəhərinə mina təmizləyən bölüyün komandir müavini vəzifəsinə göndərildi. Yenidən onun yolu H.Aslanovla kəsişdi. Tez-tez görüşdülər. Lakin həyat onların yolunu ayırdı.

1941-ci il iyunun əvvəllərində A.Vəzirov 18-ci Ordu Mühəndis Qoşunları rəisinin böyük köməkçisi təyin olundu. 1.418 gün faşistlərlə davam edən mübarizənin 1.413 gününü Aslan Vəzirov döyüş mövqeyində keçirdi. Bununla da onun döyüş tərcümeyi-halı formalaşdı.

A.F.Vəzirov müharibənin ilk günlərindən sonunadək döyüşən ordu sıralarında oldu. 1941-ci il noyabrın 5-də artıq ilk təltifini – "Qırmızı Bayraq" ordenini aldı.

1941-ci il. 18-ci Ordu Qərb cəbhəsi tərkibində qoşunların Dnestr, Buğ, Dnepr çaylarının keçilməsinə dair mühüm tapşırığı yerinə yetirdi. Cənub cəbhəsində xüsusi ordu qrupu gələcək mühəndis qoşunları qərargah rəisi A.Vəzirov Lisiçanska rayonunun Yuxarı Sol stansiyasında düşmənin müdafiəsinin yarılmasını təmin etdi. 1942-ci ildə 38-ci ayrıca komsomol mühəndis polku komandirinin müavini, sonra komandiri olan A.Vəzirov Kuban çayından qoşunların keçməsinə rəhbərlik etdi. Bu dövrdə alay düşmənə hücum istiqamətində mühasirə yaratdı. Qaytovski keçidinin müdafiəsini möhkəmləndirdi, Tuapse, Novorossiysk şəhərləri astanasında operativ müdafiə istehkamı qurdu.

X.Vəzirov bir müddət 64-cü Əlahiddə Mühəndis-minatəmizləyən briqadanın komandir müavini, Şimali Qafqaz Cəbhəsi 5-ci Dağ mina-mühəndis briqadasının komandiri oldu. O, Şimal Qrupu qoşunlarının Orconikidze, Nevinnomısk, Minvodı, Stavropol, Taman istiqamətində hücumunun təmin edilməsinə rəhbərlik etdi.

1943-1944-cü illər. A.Vəzirovun rəhbərlik etdiyi 3-cü Ukrayna Cəbhəsi tərkibindəki 51-ci mühəndis-istehkam briqadası Dneprodzerjinski şəhərinin azad edilməsində fərqləndi və briqadaya 51-ci Dneprodzerjinsk mühəndis-istehkam briqadası adı verildi. Briqadanın komandiri polkovnik A.Vəzirov Qırmızı Bayraqlı Mühəndis-minatəmizləyən 1-ci qvardiya briqada komandiri kimi 46-cı Ordunun hücum əməliyyatlarının yerinə ye-

tirilməsini təmin etdi. Briqadaya məharətlə rəhbərlik etdiyi üçün ona II dərəcəli "Boqdan Xmelnitski" ordeni verildi.

1944-1945-ci illər polkovnik A.Vəzirovun həyatında döyüş əməliyyatları ilə zəngindir. A.Vəzirov 1944-cü ilin may ayında 2-ci Belarus Cəbhəsində 1-ci Qvardiya Mühəndis-istehkam briqadasının komandiri təyin olundu. "Kutuzov" ordenli Moqilyov Qırmızı Bayraqlı mühəndis-minatəmizləyən 1-ci Qvardiya Briqada polkovniki A.Vəzirovun komandanlığı altında Pronya və Bijla çaylarında düşmənin mövqelərinin yarılmasında iştirak etdi.

1944-cü ilin mayında qvardiya polkovniki Aslan Fərhad oğlu Vəzirov 2-ci Belarus cəbhəsinin 1-ci Qvardiya mühəndis-hücum briqadasının komandiri təyin edilmiş, iyunun axırlarında isə Aslan Vəzirovun şanlı istehkamçıları Mogilyovun azad edilməsi uğrunda qəhrəmancasına vuruşmuşlar. Briqadanın bu döyüşlərdə göstərdiyi şücaətə və igidliyə görə ona "Mogilyov briqadası" adı verilmişdir. Mogilyov uğrunda mübarizədə düşmən 6 mindən çox əsgər və zabit itirdi, 3400-ə yaxın adam əsir götürüldü. Düşmən 70 tank və hücum silahı, 200-dən çox müxtəlif kalibrli minomyot, 316 pulemyot itirdi, 15 tank, 70 minomyot, 300 pulemyot, 6 min avtomat, 30 min mərmi, 1.200 avtomaşın, 218 at ələ keçirildi. A.Vəzirov "Qırmızı Bayraq" ordeni ilə təltif olundu.

A.Vəzirov Qraundets, Dansiq, Qdın şəhərlərində hücumda fəal iştirak etdi, Ferdinantştayn-Qrayfanxaqen sahəsində Oder çayından keçib, ərazini minadan təmizləyərək qoşunların hərəkətini təmin etdi. Aslan Vəzirovun qvardiyaçı istehkamçıları Polşa torpağında keçirilən əməliyyatlarda iştirak etdi. Polşa torpaqlarını alman-faşist işğalçılarından azad edərkən briqadaya bacarıqla rəhbərlik etdiyinə görə Polşa hökuməti A.Vəzirovu III dərəcəli "Qrünvald" ordeni, az sonra Neman, Visla, Oder çaylarını müvəffəqiyyətlə keçdiyinə görə medallarla təltif etdi.

A.Vəzirov müharibəni alman şəhəri Postoksda başa vurdu. Ali Baş Komandanlığın 18 №-li əmri ilə A.Vəzirovun rəhbərlik etdiyi birləşmiş şəxsi heyətə təşəkkür elan olundu. A.Vəzirov "Lenin" və "Qırmızı Ulduz" ordenləri, 4 "Qırmızı Bayraq", II dərəcəli "Kutuzov", II dərəcəli "Boqdan Xmelnitski" döyüş ordenləri və medalla təltif olundu.

A.Vəzirovun komandanlıq etdiyi briqadanın qəhrəman döyüşçülərindən 3 nəfər "Lenin", 55 nəfər "Qırmızı Bayraq", 61 nəfər I dərəcəli "Vətən müharibəsi", 213 nəfər II dərəcəli "Vətən müharibəsi", 1.203 nəfər "Qızıl Ulduz", 1 nəfər II dərəcəli "Kutuzov", 14 nəfər "Aleksandr Nevski" ordeni, 9 nəfər "Şöhrət" ordeninin 2-ci dərəcəsi, 202 nəfər "Şöhrət" ordeninin 3-cü dərəcəsi, 1.667 nəfər "İgidliyə görə" medalı, 662 nəfər "Döyüş xidmətlərinə görə" medalı, 102 nəfər "Moskvanın müdafiəsinə görə", 108 nəfər "Stalinqradın müdafiəsinə görə", 43 nəfər "Qafqazın müdafiəsinə görə", 864 nəfər "Almaniya üzərində qələbəyə görə" medalı ilə təltif olundu.

1945-ci il aprelin 20-də Oder çayının keçilməsi əməliyyatına bacarıqla rəhbərlik etdiyinə görə **1945-ci il iyunun 29-da SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülən A.Vəzirov** 1947-ci il aprelin 24-də xəstəliyinə görə ehtiyata buraxıldı. O, Litva SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif olundu, Kaunas Vilayət Sovetinin deputatı seçildi.

A.Vəzirov 1952-ci ildə Voronejə gedərək vilayətin Ovçular İttifaqına rəhbərlik etdi, nəhayət 1958-ci ildə Bakıya qayıtdı. 1960-cı ildə Azərbaycan SSR Ovçular İttifaqının I qurultayında onun sədri seçildi. 1979-cu ildə Azərbaycan SSR Ali Sovetinə deputat seçilən A.Vəzirov respublika Veteranlar Komitəsinin sədri işlədi, qəhrəman döyüşçü respublikanın ictimai-siyasi həyatında fəal iştirak etdi.

Aslan Vəzirov 1989-cu ildə dünyasını dəyişmişdir.

2009-cu il iyulun 1-də Mogilyovda Sovet İttifaqı Qəhrəmanı Aslan Vəzirovun xatirəsinə həsr edilmiş memorial kompleksin təntənəli açılış mərasimi olmuşdur. Memorial kompleksin yaradılmasının təşəbbüskarı və əsas təşkilatçısı Mogilyovdakı "Azəri" ictimai birliyi və onun sədri İlyas İlyasov olmuşdur. Aslan Vəzirovun büstünün müəllifi Belarus Rəssamlar İttifaqının üzvü, heykəltəraş Kamil Kamaldır.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.66-69; Azəri, S. İtməyən izlər: [oçerk] / S.Azəri // Azərbaycan. – 1968. – №2. – s. 115-121; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom). (Tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.72-75; Навечно в сердце народом. К 30-летию победы над фашистской Германией. Минск, 1975; Vəzirov, A. Oktyabr nailiyyətlərinin etibarlı keşikçiləri: [SSRİ Silahlı qüvvələrinin yaranmasının 60 illiyi münasibətilə] / Aslan Vəzirov / Kənd həyatı. – 1978. – №2. – s. 3-5; ASE, III c. Bakı, 1979, s.45; Абасов, М. Через всю войну / М.Абасов. – Баку, Азернешр, 1983, 82 с.; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.107.

Kazımov Səlahəddin Həsən oğlu (1920-1978)

Səlahəddin Kazımov 1920-ci il iyul ayının 20-də Zaqatala şəhərində anadan olmuşdu. 1941-ci ildə APİ-nin (indiki ADPU) riyaziyyat fakültəsini bitirən və həmin ildə hərbi xidmətə çağırılan S.Kazı-

mov Tbilisi Artilleriya Məktəbində oxumuş, taqım, batareya, diviziya komandiri olmuş, 13-cü Ordunun tərkibində 62-ci Artilleriya Alayında batalyon komandiri vəzifəsində döyüş əməliyyatlarına başlamışdı. Batareyaya məharətlə rəhbərlik edən Səlahəddin Kazımov 1943-cü il iyulun 26-da "Qızıl Bayraq" ordeni ilə təltif olunmuşdu.

Tezliklə baş leytenant rütbəsi alan S.Kazımov Desna, Dnepr və Pripyat çaylarının keçilməsi əməliyyatlarında iştirak etdi. Dnepr çayını müvəffəqiyyətlə keçdiklərinə, çayın qərb sahillərini tutmuş olduqları hücum meydanını möhkəmləndirdiklərinə, bu əməliyyat zamanı igidlik və qəhrəmanlıq göstərdiklərinə görə **SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 16 oktyabr tarixli fərmanı ilə** 201 sovet döyüşçüsünə, o cümlədən baş leytenant **Səlahəddin İsa oğlu Kazımova Sovet İttifaqı Qəhrəmanı adı verildi.**

S.Kazımovun batareyası Ukraynanın faşist işğalçılarından azad edilməsində igidlik göstərdi. Ukraynanın Novqorod-Volınski şəhərinin düşməndən azad edilməsi uğrunda döyüşlərdə 400 düşmən əsgər və zabiti məhv edildi, 20 əsgər və zabit əsir alındı, 12 avtomaşın qənimət götürüldü. Bundan sonra divizion komandiri olan S.Kazımov kapitan rütbəsi ilə döyüşləri davam etdirdi, Polşanın faşistlərdən təmizlənməsi əməliyyatlarında iştirak etdi, düşmənin 3 tankı, 6 motorlu topu yandırıldı, 20 avtomaşın ələ keçirildi. Diviziona rəhbərlikdə fərqləndiyinə görə S.Kazımov "Aleksandr Nevski" ordeni ilə təltif olundu.

S.Kazımov döyüş yolunu 1945-ci il mayın 7-də Praqada başa vurdu. Müharibədən sonra Qırmızı Bayraqlı Cənubi Qafqaz Hərbi Dairəsində bir sıra vəzifələrdə işlədi. 1956-cı ildən Azərbaycan SSR DİN sistemində işləyən qəhrəman general-mayor rütbəsinədək yüksəldi, 1970-ci ildən DİN müavini oldu. S.Kazımov 1978-ci ildə faciəli sürətdə qətlə yetirilmişdir.

S.Kazımov "Lenin", "Oktyabr inqilabı", "Qırmızı Bayraq", "Aleksandr Nevski", 2 „Qırmızı Ulduz" ordenləri və medallarla təltif olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.115-119; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.128-131; İsmayılov, İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.114; ASE, V c. 1981, s. 21.

Quliyev Abbas Şahbaz oğlu
(1914-1997)

Naxçıvan diyarından olan Sovet İttifaqı Qəhrəmanları Qəzənfər Əkbərov və Nəcəfqulu Rəfiyev, əfsanəvi qəhrəman Əkbər Ağayev, partizan dəstəsinin komandiri Əli Babayev, "Şöhrət" ordeninin tam üç dərəcəsi ilə təltif olunmuş Rəhim Rəhimov, general-mayor Akim Abbasov, polkovnik Nemət Kərimov, Mehdi Mahmudov, döyüşçü-şair İslam Səfərli kimi oğullar ilə fəxr edir. Diyarın qəhrəman oğullardan biri Abbas Quliyevdir.

Abbas Şahbaz oğlu Quliyev 1914-cü ildə Azərbaycan SSR-in Naxçıvan Muxtar Respublikasının Babək rayonunun Şəkərabad kəndində dünyaya göz açmışdı. Uşaqlığı I Dünya müharibəsi illərinə təsadüf etdi, Naxçıvan şəhər məktəbində təhsil aldı, beşillik təhsilini başa vurduqdan sonra Bakıya gələrək Kənd Təsərrüfatının Elektrikləşdirilməsi məktəbinə daxil olmuşdu. İki il təhsil aldıqdan sonra Sabir adına Pedaqoji Məktəbdə, eyni zamanda teatr texnikumunda təhsilini davam etdirdi.

A.Quliyev 1938-ci ildə Sabir adına Pedaqoji məktəbi müvəffəqiyyətlə bitirdi. 1941-ci ildə ordu sıralarına çağırılan Abbas Quliyev Cənubi Qafqaza Hərbi Dairəsinin 551-ci Artilleriya Alayında saxlanıldı. Onlar bir müddət Təbriz şəhərində saxlanıldıqdan sonra 1941-ci ilin iyulunda birbaşa cəbhəyə yola salındı.

A.Quliyev ilk döyüşə 1941-ci ilin iyulunda Bryansk cəbhəsi qoşunlarının tərkibində başladı. Abbasın vuruşduğu alay Belqorod yaxınlığında faşistlərlə üz-üzə dayandı. Döyüşdə yaralandı və Rostov şəhərindəki hərbi xəstəxanada müalicə olundu, 1941-ci il oktyabr ayının ortalarında Bryansk cəbhəsinə gəldi. Komandanlıq onu 62-ci Diviziyanın 62-ci Topçu Alayına komandir təyin etdi. O, vaxt düşmən şimalda Kalinin şəhərini tutmuş, cənubda isə Tula vilayətinə soxulmuşdu.

Abbas Quliyev Tula şəhəri uğrunda döyüşlərdə iştirak etdi. 1941-ci il dekabrın 6-da Cənub-qərb, Qərb və Kalinin cəbhə qoşunlarının qəti hücumu başlandı. Abbas Quliyevin iştirak etdiyi cəbhənin qoşunları Quderianın ordusunu ciddi məğlubiyyətə uğratdı. Düşmən Moskvadan geri atıldı. Ordunun hücumu nəticəsində Moskva və Tula vilayətləri, Kalinin, Oryol, Smolensk və Leninqrad vilayətlərinin bir çox rayonları düşməndən azad edildi, faşistlər 400 kilometr Qərbə doğru qovuldu.

Sovet qoşunlarının 1942-ci ilin qış hərbi əməliyyatları dövründə 11 mindən artıq yaşayış məntəqəsi, o cümlədən 60-dan artıq şəhər azad olundu.

Düşmənin seçmə ordusundan 50 diviziya təkcə Moskva ətrafında məğlub edildi.

A.Quliyev Ukrayna torpağı uğrunda döyüşlərdə fəal iştirak etdi. Abbas Quliyevin hərbi hissəsi Xarkovdan uzaqlarda döyüşürdü. Fevralın 23-dən 24-ə keçən gecə baş vermiş döyüşdə Abbas Quliyev və döyüş yoldaşları yaralandılar, Barnaul şəhərindəki 3707 №-li həbi xəstəxanada beş ay müalicə olunduqdan sonra 1942-ci il avqust ayında həkim komissiyasının qərarı ilə topçu komandiri kursuna oxumağa göndərildi. 1942-ci il avqust ayının axırlarında Abbas Quliyev Krasnoyarsk diyarının Açinsk şəhərindəki artilleriya məktəbinə gəldi və təhsilini başa vuraraq leytenant rütbəsi aldı. 1943-cü ildə yenidən cəbhəyə qayıdan A.Quliyev 5-ci Artilleriya Diviziyasının 279-cu Artilleriya Qardiya Alayının atıcı taqımına komandir təyin olundu.

Abbas Quliyevin topçu taqımı Belqorod-Kursk cəbhə xəttinin mühüm hissəsində dayandı. Dəfələrlə faşistlərlə qarşılaşdı. Onun komandiri olduğu batareya Poltava və Xarkov altında, Donbasda və Dneprdə döyüşlərdə fərqləndi.

1943-cü il iyulun 12-də sovet qoşunları Oryol və Belqorod istiqamətində hücuma keçdi. İyulun 16-da düşmənin Belqorod ətrafında hücumu dayandırıldı. Sovet qoşunlarının əks-zərbəsi nəticəsində iyulun 24-nə qədər düşmən əvvəlki mövqelərinə qaytarıldı. Avqustun 5-də Oryol və Belqorod, 23-də Xarkov şəhəri azad edildi. 1943-cü il avqustun 5-də Moskvada Oryol və Belqorod şəhərlərinin azad olunması şərəfinə 20 yaylım salam atəşi açıldı. Bu şənliklərdə Abbas Quliyev də iştirak etdi. Onun xidmət etdiyi 279-cu Topçular Alayına qvardiya alayı adı verildi.

1943-cü ilin sentyabrında Dnepr uğrunda döyüşlər başlandı. Abbasın topçuları sentyabrda Dneprə çatdı. Abbas Quliyevi və onun topçuları Dnepr uğrunda döyüşlərdə əsgəri rəşadət və mərdlik nümunələri göstərdilər. Yüzlərlə faşist əsgər və zabiti məhv edildi, çoxlu qənimət ələ keçirildi. Bu vuruşmada igidliyinə və döyüş rəşadətinə görə Abbas Quliyev 1943-cü il noyabrın 30-da ilk dəfə birinci dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundu.

Belarus əməliyyatı müharibə tarixində ən çətin əməliyyatlardan biridir. Belarusun azad edilməsi uğrunda döyüşlər 1944-cü il iyunun 23-dən başlayıb avqustun 29-dək davam etdi. Abbas Quliyev I Belarus Cəbhəsinin tərkibində Cənubi Jalobin, Şimali Roqaçev və Bobruysk istiqamətində düşməni təqib etdi. Onlar 1944-cü il iyulun 3-də 3-cü Belarus Cəbhəsi qoşunları ilə birləşərək Belarusun paytaxtını azad etdilər. Minskin şərqində düşmənin 3 diviziyası mühasirəyə alınaraq darmadağın edildi. 70 min əsgər və zabit məhv olundu, 35 min nəfər əsir götürüldü.

1-ci Belarus Cəbhəsinin döyüşçüləri iyunun 28-də Brest şəhəri və qalasını azad etdilər. Belarusiya əməliyyatı nəticəsində Belarus ərazisi ta-

mamilə, Litva ərazisinin bir hissəsi faşistlərdən təmizləndi. Qoşunlar Şərqi Prussiyaya, Visla çayına çatdılar.

Avqustun 19-dan 20-nə keçən gecə A.Qiliyevin batareyası qərargahın əmrinə əsasən çayı keçməyə başladı. Faşistlər A.Quliyevin batareyasını sıxışdırıb Vislaya tökməyə cəhd etdilər. Düşmənin 4 tankı, çoxlu hərbi texnikası və canlı qüvvəsi məhv edildi.

Qərbi Buğ çayının qərb sahilindəki döyüşdə A.Quliyevin topçu batareyası düşmənin iki səhra pulemyotunu, bir tankvuran topunu və bir taqıma qədər piyadasını məhv etdi. Döyüşdə fərqləndiyinə görə Abbas Quliyev ikinci ordenlə – "Aleksandr Nevski" ordeni ilə təltif olundu.

A.Quliyevin hissəsi növbəti dəfə faşistlərlə Polşa torpağında qarşılaşdı. Lyublin şəhəri uğrunda qanlı küçə döyüşlərində A.Quliyevin topçuları növbəti dəfə döyüş bacarığı və mərdlik göstərdilər. Şəhər faşistlərdən azad edildi. Lakin qoşunlar Vislanın qərb sahilini, xüsusən Maqnuşev istehkamını ələ keçirmək uğrunda mübarizədə düşmənin ciddi müqaviməti ilə üzləşdi. Nəhayət Maqnuşev istehkamı ələ keçirildi. Döyüşlərdə A.Quliyevin batareyası yenə fərqləndi. 1944-cü il avqustun 1-də düşmən Visla çayının qərb sahilindən sovet qoşunlarının hissələrini atəşə tutdu. A.Quliyev Vislanı keçmək və qərb sahilində mövqeləri möhkəmləndirmək tapşırığı aldı. Onun topçuları avqustun 2-də çayın qərb sahilinə çıxdı. Onların 16 topundan açılan atəşin müşayiəti ilə qoşunlar Vislanın qərb sahilinə keçdilər. Visla uğrunda mübarizədə, çətin və məsul əməliyyatın yerinə yetirilməsində şəxsi qəhrəmanlıq və cəsurluq göstərdiyinə görə topçu batareyasının komandiri Abbas Quliyev Sovet İttifaqı Qəhrəmanı adına təqdim olundu. 1945-ci il fevralın 21-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə 44 topçu Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Onların arasında Abbas Şahbaz oğlu Quliyevin də adı vardı.

A.Quliyevin komandir olduğu topçu batareyası müharibənin son mərhələsindəki döyüşlərdə də əsgəri şücaət göstərdilər. Şərqi Prussiyada aldığı yara A.Quliyevin cəbhəyə qayıtmasına imkan vermədi, Berlinin təslim olması xəbərini xəstəxanada eşitdi.

A.Quliyev 1945-ci il avqustun axırlarında II dərəcəli Vətən müharibəsi əlili və qvardiya kapitanı kimi ordudan tərxis olundu, həmin ilin sentyabrında doğma yurduna qayıtdı.

A.Quliyev 1945-1971-ci illərdə Naxçıvan Dövlət Dram Teatrının direktoru, Naxçıvan MSSR xalq maarif komissarının müavini vəzifəsində çalışdı, Muxtar Respublikanın Ali Soveti Rəyasət Heyətinin katibi vəzifəsində işlədiyi illərdə özünün təşkilatçılıq qabiliyyəti ilə seçildi, ikiillik Partiya məktəbini bitirdi. Naxçıvan Şəhər Zəhmətkeşlər Deputatları Soveti İcraiyyə Komitəsinin sədri vəzifəsində və digər vəzifələrdə işlədiyi zaman iş yoldaşlarının və yerli əhalinin rəğbətini qazandı.

A.Quliyev dəfələrlə Naxçıvan MSSR Ali Sovetinin, şəhər və rayon sovetlərinin deputatı seçilmiş, uzun illər Azərbaycan KP Naxçıvan Vilayət Partiya Komitəsinin üzvü olmuşdur. Onun sinəsini "Qırmızı bayraq", "Aleksandr Nevski", I dərəcəli "Vətən müharibəsi" ordenləri və medallar bəzəyirdi.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.79-82; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.82-83; ASE, III c. Bakı, 1979, s.265; Təhməzov, Z. Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyev / Ziyad Təhməzov. – Bakı: Azərnəşr, 1983, 40 s; Medal təqdim olundu: [Sovet İttifaqı Qəhrəmanı Abbas Quliyevə "1941-1945-ci illər Böyük Vətən müharibəsində faşist Almaniyası üzərində qələbənin 50 illiyi" yubileyi medalının təltif edilməsi haqqında] // Azərbaycan. – 1995. – 12 may.

Quliyev Adil Hüseyn oğlu
(1922-1993)

Adil Quliyev 1922-ci il noyabrın 22-də Bakı şəhərində doğulmuşdu. 1942-ci ildə 132 №-li orta məktəbi bitirmiş, Bakı təyyarə klubunda oxumuş, 1941-ci il mayın 1-də hərbi-hava məktəbində təhsil almağa göndərilmişdir. Təyyarəçiliyin sirlərini öyrənən Adil Quliyev 1943-cü il martın 14-də Şimal-Qərb Cəbhəsində Staraya Rus ətrafında sovet qoşunlarını havadan müdafiə etdi. 1943-cü ildə Adilin xidmət etdiyi diviziya qvardiya bayrağı, A.Quliyev isə düşmənlə döyüşlərdə göstərdiyi igidliyə görə "Qırımızı ulduz" ordeni ilə təltif olundu.

Bakı aeroklubunun yetirməsi, qvardiya polkovniki Adil Quliyev Stalinqrad Hərbi Təyyarəçilik Məktəbini bitirdi və 65-ci Qvardiya Qırıcı Təyyarəçilər Alayında döyüşlərdə iştirak etdi. Velikiy Lukidən Berlinə qədər döyüş yolu keçdi.

1943-cü ilin martın 14-də hava döyüşlərindən birində 4 "Messerşmidt" Adilin təyyarəsinə hücum etdi və onu yoldaşlarından ayırdı, döyüş düşmən ərazisində başlandı. Adilin təyyarəsi vurulsa da özünü itirməyərək paraşütlə tullandı və cəbhə xəttində yerə endi.

Oryol, Bryansk, Belarus, Baltikyanı ərazilərin və Şərqi Prussiyanın azad edilməsində göstərdiyi igidlik A.Quliyevin şöhrətini daha da artırdı.

Kursk altındakı vuruşmalarda A.Quliyev 51 dəfə döyüş uçuşu keçirdi, düşmənin 3 "Fokkevulf-109" təyyarəsini vurdu. 1943-cü ilin avqustun 2-də A.Quliyevn başçılıq etdiyi 4 "Yak-7" təyyarəsi düşmənin 8 təyyarəsi ilə qarşılaşdı. Düşmənin bir təyyarəsini A.Quliyev vurdu. İki gün sonra da bir alman təyyarəsi vuruldu. O, 1943-cü il oktyabrın 10-da "Qırmızı Bayraq" ordeni ilə təltif edildi. Ümumilikdə, cəsur təyyarəçi Adil Quliyev müharibədə 265 döyüş uçuşu, 64 hava döyüşü keçirdi, şəxsən 18 hərbi təyyarəni məhv etdi. Cəsur şahinə 1945-ci il fevralın 23-də SSRİ Ali Sovet Rəyasət Heyətinin fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Adil Quliyev təyyarə mexaniki starşina Arxipovla

Moskva 1990-cı il.
1-ci sıra. Soldan sağa: Sovet İttifaqı Qəhrəmanı Adil Quliyev
2-ci sıra. Akim Abbasov, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov

Müharibədən sonra ordu sıralarında qalan Adil Quliyev 1951-ci ildə Jukovski adına Qırmızı Bayraqlı Hərbi Hava Akademiyasını bitirdi, 1966-cı ildə ehtiyata buraxıldı. Dinc quruculuq illərində müxtəlif vəzifələrdə işləyən təyyarəçi SSRİ Ali Sovetinin deputatı seçildi.

A.Quliyev 3 "Qırmızı bayraq", "Aleksandr Nevski", I dərəcəli "Vətən müharibəsi" ordenləri və medallarla təltif olunmuşdur.

Adil Hüseyn oğlu Quliyev 1993-cü ildə dünyasını dəyişmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.

Onun haqqında: Talıbzadə, K. Sovet İttifaqı Qəhrəmanı, Stalinçi şahin Adil Quliyev / K.Talıbzadə // Azərbaycanın şanlı oğulları. – Kitab 3. – Bakı, 1945. – s. 16-21; Babayev, Ə. Adil Quliyev / Ə.Babayev // Azərbaycanın mərd oğulları. – Bakı, 1959. – s. 102-104; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.76-78; Bağırzadə, Ə. Vətən uğrunda döyüşlərdə / Ə.Bağırzadə // İnqilabi ənənələr və gənclik / Ə.Bağırzadə, İ.Məmmədov, C.Əlibəyov. – Bakı, 1966. – s. 97-99; Qarayev, Z. Səma bahadırı / Zaman Qarayev // Ədəbiyyat və incəsənət. – 1970. – 31 yanvar. – s. 4-5; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H. Abbasov, tarix elmləri

namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.84-87; ASE, III c. Bakı, 1979, s. 266; İsmayılov, İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.113.

Quliyev Mehdi Nadir oğlu
(1923-1976)

1923-cü ildə Azərbaycan SSR-in Gədəbəy rayonunun Ərkinaz kəndində anadan olan Mehdi Quliyev müharibəyə qədər Bakıdakı 13 №-li Fabrik-Zavod məktəbində təhsil aldı və təhsilini başa vurduqdan sonra inşaat işlərində işlədi. 1941-ci ildə orduya səfərbər olunan M.Quliyev Mozdoka göndərildi, 11-ci korpusun ikinci qvardiya diviziyasındakı 15-ci alayın döyüşçüsü oldu.

Mahir pulemyotçu və cəsur kəşfiyyatçı, qvardiya çavuşu M.Quliyev Kerç yarımadası uğrunda döyüşlərdə qəhrəmanlıq göstərdi. 1943-cü il mayın 27-də pulemyotçular dəstəsinin komandiri M.Quliyev 15-ci alayın tərkibində Krasnodar vilayətinin Krım rayonunun Qorişnıy kəndi ətrafında döyüşlərdə düşmənin 10-a yaxın əks-hücumunu dəf etdi, 150-dən çox əsgər və zabit, 2 dəzgah pulemyotu məhv edildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 17 noyabr tarixli fərmanı ilə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

M.Quliyev 1947-ci ildə ordudan tərxis olundu. 1949-cu ildə Ali Partiya Məktəbini bitirərək Azərbaycan K(b)P Bakı Komitəsində işlədi, 1952-ci ildən DİN-də əmək fəaliyyətini davam etdirən M.Quliyev polkovnik rütbəsinədək yüksəldi, 1968-1976-cı illərdə Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İdarədənkənar Mühafizə İdarəsinə başçılıq etdi.

Sovet İttifaqı Qəhrəmanı Mehdi Quliyev "Lenin" ordeni, II dərəcəli "Vətən müharibəsi", 2 "Qırmızı Ulduz" ordenləri, "Qızıl ulduz" medalı və digər medallarla təltif olunmuşdur.

M.Quliyev 1976-cı ildə dünyasını dəyişmiş, Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.83-85; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.88-89; Cəlil Rəfiyev. Mehdi Quliyev / C.Rəfiyev. – Bakı: Azərnəşr, 1985, 21 s.; ASE, III c. Bakı, 1979, s.268.

Məhərrəmov Məlik Məlik oğlu
(1920-2004)

Məlik Məhərrəmov 1920-ci il avqustun 29-da Zərdab rayonunun Bıçaqçı kəndində anadan olmuş, iki yaşında hər iki valideynini itirmiş, böyük qardaşı Məmmədəlinin himayəsində qalmışdır. 1936-cı ildə Bıçaqçı kəndində 7-ci sinfi əla qurtaran Məlik Bakı Xalq Təsərrüfatı Texnikumunun əyani şöbəsinə daxil olmuş, 1939-cu ildə texnikumu bitirmiş, hərbi xidmətə çağırılmışdır.

1941-ci ildə almanların hücumunun ilk həftəsində – iyunun 26-da alman təyyarələri Məlikin oxuduğu məktəbin hərbi-aviasiya şöbəsini bombardman edirlər. Onun xidmət etdiyi 70-ci atıcı diviziya şimal-qərb cəbhəsində döyüşlər keçirir.

M.Məhərrəmov 1941-ci il iyunun 7-də yaralanır. Başqa yaralılarla Novqorod şəhərinə gələn Məlik sonra Yaroslavl şəhərinə köçürülür, səhhəti yaxşılaşdıqdan sonra 19-cu ehtiyat xizək alayına, oradan birbaşa cəbhəyə göndərilir. 72-ci Diviziyanın tərkibində Leninqradın (indiki Sank-Peterburq) müdafiəsində və Oryol ətrafındakı döyüşlərdə iştirak edir. 3-cü dəfə 1942-ci il fevralın 2-də Volxova yaxınlığında yaralanan M.Məhərrəmov Qorki vilayətindəki Semyonova şəhər hospitalında müalicə olunur. Müalicədən sonra imtahan verərək leytenant rütbəsi alır və Ryazan vilayətinin Kommo hərbi məktəbinə göndərilir. 1941-ci ildən 1943-cü ilədək həmin məktəbdə işləyən Məlik Məhərrəmov pulemyotçu əsgərlər hazırlayır və 1943-cü ildə 3-cü dəfə cəbhəyə göndərilir, 1-ci Belarus Cəbhəsinin 61-ci Ordusunun 77-ci Qvardiya Atıcı Diviziyasında döyüşlərdə iştirak edir. 77-ci diviziya Qluxova, Men və Çerniqov şəhərlərini azad edir, şəhərin alınması uğrunda fəaliyyətinə və əməliyyata bacarıqla başçılıq etdiyinə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olunur.

M.Məhərrəmov Dneprin qumlu sahillərində döyüşlərdə igidlik göstərdi. Onun ən ağır döyüşü Dnepr çayının Nedançiçi adlı yerdəki məntəqəsində baş verdi. 23 yaşlı M.Məhərrəmov öz döyüşçüləri ilə əks-hücumu müvəffəqiyyətlə dəf etdiyinə və şəxsi igidlik nümunəsi göstərdiyinə görə ona və onun bölüyünün 18 nəfərinə 1944-cü il yanvarın 15-də Sovet İttifaqı Qəhrəmanı adı verildi.

1943-cü ildə döyüş ərazilərinin genişləndirilməsi uğrunda vuruşlarda ağır yaralanan M.Məhərrəmov Tula şəhər hospitalına göndərilir və hospitalda 1944-cü ilin yanvar aynın 19-dək qalır. Həmin ilin **fevralın 4-də Kremldə SSRİ Ali Sovetinin sədri M.Kalinin Sovet İttifaqı Qəhrəmanı nişanını və "Lenin" ordenini M.Məhərrəmova təqdim edir.** Tam sağalandan

sonra Ryazan pulemyot məktəbinə göndərilir və müharibənin sonunadək orada xidmət edir.

1944-cü ildə öz xahişi ilə 77-ci Çerniqov Atıcı Diviziyasına göndərilən M.Məhərrəmovun xidmət etdiyi diviziya həmin ilin iyununda Polşanın alman faşistlərindən təmizlənməsinə yol açan Xelm (Xolt) şəhərini azad edir. Döyüş yolunu Berlində başa vuran qəhrəman M.Məhərrəmov Belarus və Ukrayna uğrunda döyüşlərdə fərqlənir. O, Polşa torpaqlarının hitlerçilərdən təmizlənməsində fəal iştirak edir, Visla çayının keçilməsində göstərdiyi qəhrəmanlığa görə II dərəcəli "Kutuzov" ordeni ilə təltif olunur.

M.Məhərrəmov 1944-cü ilin dekabr ayının axırında 77-ci Diviziyanın 215-ci Atıcı Alayının batalyon komandiri təyin olunur. 1945-ci ilin yanvarın 15-də onun batalyonu hücuma keçərək faşistləri təqib etməyə başlayır, Polşanın Zvolenko, Rodol, Lodz şəhərlərinin azad edir, Poznanı tutub alman sərhədlərini keçərək Oder çayına yaxınlaşırlar.

1945-ci ilin əvvəllərində M.Məhərrəmovun sorağı alman torpaqlarından gəlirdi. Frankfurtun alınmasında, Oder çayı uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundu. Artıq Berlin uğrunda döyüşlər davam edirdi və M.Məhərrəmovun döyüş yolu başa çatmaq üzrə idi. M.Məhərrəmov müharibəni kapitan rütbəsində batalyon komandiri vəzifəsində başa çatdırdı. Hospitaldan çıxdıqdan sonra Zaqafqaziya Hərbi Dairəsinin sərəncamına göndərilirdi və 402-ci diviziyanın atıcı batalyonunun komandiri təyin olundu. M.Məhərrəmov 1946-cı ildə Xızı rayon Hərbi Komissarlığında işə başladı, 1950-ci ildə hərbi komissar oldu. 1951-ci ildə M.F.Frunze adına hərbi akademiyanın əsas fakültəsinə qəbul olundu.

Müharibədən sonra – 1954-cü ildə Frunze adına Akademiyanı bitirən M.Məhərrəmov alay qərargah rəisi vəzifəsində işlədi, 1966-cı ildən Respublika Hərbi Komissarlığı sistemində məsul vəzifələrdə çalışdı. 1961-1962-ci illərdə Sabirabad rayon hərbi komissarı işləyən qəhrəman M.Məhərrəmov 1962-ci ildə Kürdəmir rayonunda, 1963-cü ildə Bakının Nərimanov rayonunda hərbi komissar işlədi. 1966-1973-cü illərdə Azərbaycan Dövlət Universitetində hərbi kafedraya rəhbərlik etdi. 1973-cü ildə hərbi xidmətdən tərxis olundu.

M.Məhərrəmov "Qırmızı bayraq", "Qızıl Ulduz", III dərəcəli "Kutuzov", I dərəcəli "Vətən müharibəsi" ordenləri və medallarla təltif olunmuşdur.

Məlik Məhərrəmov 2004-cü ildə vəfat etmişdir.

Onun haqqında: Асланов, С.Р. Командир прославленный роты / С.Р.Асланов. – Баку, 1950; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.158-162; Azərbaycanın Qızıl ulduzları: (kitab – albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s.,

şəkilli, s.184-188; Rəcəbli, T. Qəhrəmanın Moskva görüşləri: [Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov və 77-ci diviziyanın keçmiş döyüşçülərinin Moskva görüşləri] / T.Rəcəbli // Bakı. – 1975. – 25 aprel. ASE, VI c. Bakı, 1982, s.537-538; 402-ci diviziyanın döyüş yolu. Bakı: Elm, 1998, 156 s.+82 s. (əlavə)

Məhərrəmov Məmməd Alı oğlu
(1919-1977)

Məmməd Məhərrəmov 1919-cu ildə Goranboy rayonunun Qarasuçu kəndində doğulmuşdur. İlk təhsilini kənd məktəbində alan Məmməd 1933-cü ildə Gəncəyə köçmüş, su kəməri tikintisində işləmiş, 1939-cu ildə hərbi xidmətə çağırılmış, hərbi işi dərindən öyrənməyə başlamışdı. M.Məhərrəmov 1939-cu ilin noyabrında başlayan Finlandiya ilə müharibədə döyüşlərdə iştirak etmişdir.

1941-ci ildə müharibə başlayanda M.Məhərrəmov ön cəbhədə idi. Cəbhə döyüşlərində 52-ci ordunun 254-cü atıcı diviziyasında bölmə komandiri kimi döyüşlərə başlamışdı.

Novqorod uğrunda gedən döyüşlər Məmməd Məhərrəmov üçün ciddi sınaq oldu. Onun xidmət etdiyi batalyon müdafiə xəttini qoruyurdu. Gərgin döyüşlərin sonunda onun dəstəsi 37 faşisti öldürdü, bir zabit və bir əsgər əsir alındı, bir neçə pulemyot ələ keçirildi. Həmin döyüşdə göstərdiyi məharət üçün Məmməd Məhərrəmov "İgidliyə görə" medalı ilə təltif olundu.

Növbəti qəhrəmanlıq Znikovo kəndi uğrunda döyüşlərdə təkrar olundu. Məmməd Məhərrəmov 20 döyüşçü ilə hitlerçilərə hücum etdi. Qısa müddətli döyüşdə 17 faşist öldürüldü, 27 düşmən əsgər və zabiti əsir alındı. Məmməd Məhərrəmov "Qırmız Ulduz" ordeni ilə təltif edildi.

Ukrayna torpaqları uğrunda döyüşlər M.Məhərrəmovun şöhrətini daha da artırdı. Baş serjant M.Məhərrəmovun dəstəsi 1943-cü il oktyabrın 2-də Kreşşatik adlı yerdə Dnepri birinci keçdi, 15 gün ərzində düşmən arxasında silah anbarını partlatdı, bir tankı, xeyli sursatı ələ keçirdi.

M.Məhərrəmovun rotası Çerkassı şəhərinin azad edilməsi uğrunda döyüşlərdə fərqləndi, burada düşmənin 3 tankı, iki motorlu topu, minomyot batareyası, 100-dən çox avtomat və pulemyot qənimət alındı. Bu döyüşlərdə göstərdiyi şəxsi igidliyə görə 1944-cü il fevralın 22-də M.Məhərrəmova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

M.Məhərrəmovun bölüyü düşmənin Korsun-Şevçenko qrupunun darmadağın olunması, Rumıniyanın Yassı və Buxarest, Çexoslovakiyanın Bratislava şəhərlərinin azad edilməsi əməliyyatlarında fəal iştirak etdi.

Qələbə bayramını Berlində qarşılayan M.Məhərrəmov 1945-ci ildə hərbi xidmətdən tərxis olundu. Dinc quruculuq işlərində iştirak edərək kənd soveti sədri, kolxoz idarə heyətinin sədri və digər vəzifələrdə işlədi.

M.Məhərrəmov 1977-ci ildə dünyasını dəyişmişdir.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.163-166; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.182-183; Tahir Qafarov. Sovet İttifaqı Qəhrəmanı Məməd Məhərrəmov / Qafarov Tahir. – Bakı: Azərnəşr 1985,14 s; ASE, VI c., Bakı, 1982, s.538.

Məmmədov Qafur Nəsir oğlu
(1922-1942)

Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri Məmmədov Qafur Nəsir oğlu idi.

Q.Məmmədov 1922-ci ildə Bakı şəhərində anadan olmuşdur. Müharibə başlayanda Bakıdakı "26 Bakı komissarı" adına mətbəədə mürəttib işləyirdi. Cəbhəyə səfərbər olunan gənc Qafur Qara dəniz donanmasının tərkibində Sevastopolun müdafiəsində iştirak etdi. 1942-ci ilin mayında Azərbaycan nümayəndə heyəti ilə görüş onu faşistlərlə mübarizəyə daha da ruhlandırdı. Sevastopolun müdafiəsində iştirak edən döyüşçülər Azərbaycan zəhmətkeşlərinə məktubunda bildirirdilər ki, "…Sevastopolu müdafiə etməklə, işğalçı almanfaşistlərin yolunu kəsərək, onları Qafqaza, bizim Günəşli Azərbaycana, şanlı Bakı şəhərinə, başqa şəhərlərimizə, kəndlərimizə soxulmağa qoymuruq. Bununla, biz öz ailələrimizi, ana və atalarımızı, arvad və uşaqlarımızı qaniçən vəhşilərdən qoyuruq".

Qafur Məmmədov Sevastopol uğrunda mərdliklə döyüşdü, 8 aylıq mühasirədən sonra Tuapseyə göndərildi. 1942-ci ilin oktyabr ayında faşist işğalçıları Mozdok və Novorossiyskiyə soxuldular. Düşmən Bakını ələ keçirmək planlarını reallaşdırmaq istəyirdi. Əsas döyüşlər Pşada kəndi uğrunda davam etdi. Dəniz piyadası Qafur Məmmədovun xidmət etdiyi rota düşmənin sayca üstün qüvvələrinə qarşı mətanətlə sinə gəlir, sovet döyüşçülərinin irəliləməsinə mane olmaq istəyirdilər. Gənc döyüşçü Q.Məmmədov yağış kimi yağan düşmən gülləsinə baxmayaraq sürünə-sürünə irəliləyir, atdığı qumbaralarla düşmən pulemyotunu susdururdu. Döyüşün qızğın

çağında alman avtomatçısının komandiri Z. Sinetskini nişan aldığını görən Q.Məmmədov cəld irəli atılır və sinəsi ilə komandiri faşist gülləsindən qoruyur. Azərbaycanlı balası öz sinəsi ilə komandirini ölümdən xilas edir. 1942-ci ilin oktyabr ayında faşist işğalçıları, cənubda sovet ordusunun müdafiə xəttini yararaq, Mozdok və Novorossiyskə soxuldular. Qara dəniz sahilindəki Pşada kəndi uğrunda şiddətli vuruşma getdi. Tuapse yaxınlığındakı Rşada kəndi uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa və komandirini xilas etdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 31 mart tarixli fərmanı ilə Qafur Nəsir oğlu Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Bu hadisə ilə əlaqədar "Kommunist" qəzetində dərc olunmuş məktubda Qafur Məmmədov gələcək nəsillərə yüksək vətənpərvərlik, mətanət, vətənə sədaqət nümunəsi kimi göstərilirdi.

Qafur Məmmədovun xidmət etdiyi hissənin komandiri və siyasi rəhbəri ağır itkidən kədərləndilər. Qəhrəmanın ailəsinə göndərilən məktubda bildirilirdi ki, "Öz döyüş dostu üçün canından keçən qızıl donanmaçı Qafur Nəsir oğlu Məmmədovun adını xalqımız iftixar hissi ilə çəkəcəklər. Azərbaycan xalqının şanlı oğlunun adı gələcək nəsillər üçün yüksək vətənpərvərlik, mətanət və qürur hissi ilə yad ediləcəkdir".

Azərbaycan xalqı qəhrəman oğlu Qafur Məmmədovun əziz xatirəsini böyük qürur və iftixar hissi ilə qəlbində yaşadır.

Onun haqqında: "Kommunist" qəzeti, 1943, 1 avqust; Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov. Bakı, 1943; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.138-141; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq,1975, 318 s., şəkilli, s.195-197; Zeynalov, R. Xalqımızın igid oğlu Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədov / Rizvan Zeynalov // Azərbaycan veteranı. – 2019. – 19 sentyabr. – s. 6.

Məmmədov Əmi Ağa oğlu
(1922-1944)

1922-ci ildə Bakı şəhərin Suraxanı rayonunun Suraxanı kəndində anadan olan **Əmi Məmmədov** 1942-ci ildə hərbi xidmətə çağırılmışdı. Hərbi səfərbərlikdən əvvəl "Suraxanı Neftçıxarma idarəsində" mədənlərində sürücü vəzifəsində işləyirdi.

Ə.Məmmədov Qara dənizin Qafqaz sahili, Krım və Ukrayna uğrunda gedən döyüşlərdə fəal iştirak etmişdi.

1944-cü il müharibə tarixində Sovet Silahlı Qüvvələrinin geniş əks-hücuma keçdiyi il kimi yadda qaldı. Moskva yaxınlığında, Kursk qövsündə, Oryol-Smolensk istiqamətində əks-hücum əməliyyatlarının başa çatdırılması, müxtəlif istiqamətlərdə alman qoşunlarının darmadağın edilməsi Qara dəniz sahilində mühüm strateji nöqtə olan Novorossiysk şəhərinin azad olunmasına şərait yaratdı.

1944-cü ilin qışında faşist ordusu geri çəkilərkən Nikolayev şəhərinin buxtasını minalamaq və partlatmağa cəhd etdi. Bunu bilən sovet ordusu komandanlığı həmin planın pozulması əmrini verdi. Desantçılar Cənubi Buq çayının axınının əks istiqamətində kiçik qayıqlarla 15 km. məsafə qət etdilər. İki gün qızğın döyüşlər getdi. Desantçılar dəstəsinin komandiri baş leytenant Konstantin Olşanski idi. Araşdırmalar nəticəsində məlum oldu ki, Sovet İttifaqı Qəhrəmanı adı verilmiş 67 nəfərdən ancaq 55 nəfəri Olşanskinin dəstəsindən olmuşdur. 12 nəfər döyüşçünün isə taleyi məlum deyildir. Sonralar aparılan tədqiqatlar dəqiqləşdirildi ki, desant dəstəsinin 55 nəfəri dəniz piyadasından, 10 nəfər istehkamçıdan və 2 nəfər radistdən ibarət olmuşdur. Onların arasında 4 nəfər bakılı – Əzizbəyov rayonundakı neft trestində nəqliyyat sexinin sürücüsü **Əmi Ağa oğlu Məmmədov**, "Paris Kommunası" adına zavodun dəmirçisi Pavel Osipov, Suraxanı neftçisi Nikolay Petruxin və Bakıdakı 4-cü Dəyirmanın yükvuranı Mikayil Həkimov da olmuşdu.

"Kommunist" qəzetinin xüsusi müxbiri X.Vəzirovun məktubunda yazırdı: "Qara dəniz çalxalanırdı… 67 nəfərdən ibarət Qara dəniz desant əməliyyatı belə bir gündə başladı. O gün bu dəstənin qarşısına çox məsul vəzifə qoyulmuşdu. Dəstə balıqçı qayıqlarında çox çətin bir səfərə çıxmalı idi. O, Buğ çayı ilə üzü yuxarı üzüb xəlvətcə Nikolayev şəhəri kənarına çıxmalı, burada düşmənin döyüş rabitəsini pozmalı, arxadan almanlara zərbə endirməli və şəhəri ələ keçirmək üçün hücum edən... ordu hissələrinə kömək etməli idi. Bu dəstənin üzvlərindən biri də Əmi Məmmədov idi.

Ə.Məmmədov 1942-ci ilə qədər, yəni donanmaya gələnə qədər Bakının Suraxanı rayonunda fəhləlik etmişdi. Artıq onun 22 yaşı vardı. Tankvuran tüfəngi ilə döyüşə getməyə hazırlaşırdı. Əmi Məmmədov bu səfərə qədər 2 düşmən tankını, 15 əsgərini, bir neçə atəş nöqtəsini məhv etmişdi".

Nəhayət, əməliyyat başlayır. Döyüşçülər balıqçı qayıqlarında Buğ çayında üzməyə, içəri dolan suyu təmizləyə-təmizləyə Nikolayev şəhərinə çatırlar. Dəstə mövqe tutur və döyüş başlayır. Desantçılar dörd mərtəbəli bir evə girib orada möhkəmlənirlər. 222 gün qeyri-bərabər döyüş davam edir. Dənizçilər burada düşmənin 18 həmləsini dəf edir, 700-ə qədər əsgər və zabiti məhv edirlər. Əmi Məmmədov tanklarla mübarizədə cəsurluq gös-

tərir, sərrast atəşlə düşmənin 2 tankını sıradan çıxarır. Almanlar ciddi tələfata uğradıqlarından sovet döyüşçülərinin müdafiə olunduqları evə zəhərləyici maddə buraxırlar. Huşunu itirən dənizçilər almanların əlinə keçir, almanlar həlak olmuş döyüşçülərin meyitlərini və desantçıları diri-diri yandırırlar. Əmi Məmmədov da onlarla birlikdə həlak olur.

Ə.Məmmədov Nikolayev şəhərində qardaşlıq qəbiristanlığında dəfn olunmuş, ona SSRİ Ali Sovet Rəyasət Heyətinin 20 aprel 1945-ci il tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Bakıda 101 saylı məktəbdə büstü qoyulmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.142-145; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.189-190; Məzahir Abbasov. Sovet İttifaqı Qəhrəmanı Əmi Məmmədov / Məzahir Abbasov. – Bakı: Gənclik, 1975, 54 s.; ASE, VI c, s.499; İsmayılov İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı. İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.125-126.

Məmmədov Xəlil Məhəmməd oğlu
(1916-1992)

İkinci dünya müharibəsində faşizm üzərində tarixi Qələbədən 75 ildən artıq vaxt keçmişdir. Böyük qanlar və itkilər hesabına qazanılan bu qələbə təbii ki, adi qələbə deyildi. Bu, dünyanın yüzlərlə xalqının, Yer kürəsinin milyonlarla insanının eyni arzularını və məqsədini birləşdirib onu bəşəri həmrəyliyə çevirən bir amal idi. Bu qələbə irqindən, dinindən, rəngindən, asılı olmayaraq neçə-neçə millət övladının babalarının bugünkü nəvələrə, gələcək nəsillərə yadigar qoyduğu əsl səadət qələbəsi idi. Bu qələbədə payı olanlardan biri də Xəlil Məmmədovdur.

Xəlil Məmmədov 1916-cı ildə Azərbaycanın dilbər guşəsi Şuşa şəhərində anadan olmuşdu. 1937-ci ildə Aşqabad şəhərində sənaye texnikumunu bitirdikdən sonra Türkmənistanın Balkan vilayətinin Kizil-Arvat (Türkməncə adı Serdar) şəhərində zavodda mühəndis işləmişdi. 1938-ci ildə hərbi xidmətə çağırılan Xəlil tank batalyonunun alay məktəbinə qəbul edilir. 1940-cı ilin yanvarında məktəbi vaxtından əvvəl qurtararaq siyasi rəhbər müavini rütbəsini alır, 126-cı əlahiddə tank batalyonunun komandiri vəzi-

fəsinə təyin edilir. 1941-ci ildə Sov.İKP sıralarına daxil olan X.Məmmədov FKQO komanda tərkibində təkmilləşmə kursunu bitirir.

X.Məmmədov Kerç yarımadasında gedən döyüşlərdə, Şimali Qafqaz, Ukrayna (Krım, Donbas, Zaporoejye) və Moldovanın azad edilməsi döyüşlərində fəal iştirak edir. Müharibə illərində sıravi tankçıdan tank batalyonu komandiri vəzifəsinədək yüksələrək şərəfli döyüş yolu keçir. 1942-ci il ərəfəsində X.Məmmədovun tank batalyonu dənizçilər dəstəsi ilə Feodesiya rayonuna çıxır, beləliklə, Kerç yarımadasının azad edilməsi əməliyyatı başlayır. Krım torpağında X.Məmmədov ilk dəfə yaralanır, ilk mükafatını – "Qızıl Ulduz" ordenini də orada alır.

Döyüş dostları arasında "gecə döyüşlərinin ustası", "qorxmaz Məmmədov" kimi tanınan Xəlil Məmmədov 1943-cü ilin yayında 2-ci Ukrayna cəbhəsi 23-cü Tank Korpusunun Qırmızı Bayraqlı 3-cü Çapli-Budapeşt Tank Briqadasının 1-ci tank alayına komandir təyin edilir. 1943-cü ilin sentyabrında o, Donbasın azad edilməsi döyüşlərində iştirak edir. Döyüş meydanında göstərdiyi qəhrəmanlıq və qorxmazlığına görə ikinci "Qızıl Ulduz" ordeni, sonralar Zaparojyenin azad edilməsinə görə "Aleksandr Nevski" ordeni ilə təltif olunur.

X.Məmmədovun tankçıları Ukraynanın sağ sahili uğrunda döyüşlərdə xüsusi fərqlənirlər. Şevçenko xutoru rayonunda mühasirəyə alınmış düşmən qruplaşmasının məhv edilməsinə görə batalyon komandiri X.Məmmədov "Qırmızı Bayraq" ordeni ilə təltif edilir.

X.Məmmədovun tankçıları Rumıniyanın azad edilməsi döyüşlərində iştirak edərək, 1944-cü ilin avqustunda Rumıniyanın Toqdu-Frumov şəhərinin azad edilməsindəki qələbədə mühüm rol oynadılar. Onun rəhbərlik etdiyi batalyon Siret çayını keçərək Roman şəhərinə daxil oldu, düşmənin xeyli əsgər və zabiti əsir götürüldü.

1944-cü il dekabrın sonunda X.Məmmədovun tankçıları Dunay çayını keçərək, digər bölmələrlə Macarıstanın paytaxtının mühasirəyə alınmasında və düşmən qruplaşmalarının ləğv edilməsində iştirak etdilər. Budapeşt azad edildi, Balaton gölü rayonunda düşmən darmadağın edildi. Macarıstandan faşistlərin qovulmasında X.Məmmədovun tankçıları bir gün ərzində 19 faşist "Pələng" tipli tankını və qırıcını, 150-dək düşmən əsgər və zabiti məhv etdi.

X.Məmmədovun təltif vərəqində yazılmışdı: "…yol. Məmmədov 1944-cü ilin 21 avqustundan sentyabrın 6-dək olan döyüşlərin gedişində alman işğalçılarının darmadağın edilməsində mərdlik, qəhrəmanlıq və igidlik göstərmişdir. 21 avqust 1944-cü ildə yol. Məmmədov şəhəri ələ keçirmək tapşırığı alır. O, cəsarətlə öz batalyonunu düşmənin güclü möhkəmləndirilmiş məntəqəsinə hücuma aparır.

Düşmənin güclü atəşi və çoxsaylı maneələrlə rastlaşanda Məmmədov öz batalyonunu düşmənin bizim tankları gözləmədiyi şəhərin cənub-qərbinə

yönəldir. Düşmənin ön sıralarını yaran Məmmədovun tankçıları sürətlə şəhərə hücum edir və şəhəri ələ keçirir. Güclü möhkəmləndirilmiş dayaq məntəqəsinin süqutu hərəkət edən hissələrin əməliyyatları genişləndirməsinə və hücumu davam etdirməsinə şərait yaradır. 1944-cü il avqustun 23-də Məmmədovun rəhbərliyi altında batalyon qarşıya qoyulmuş vəzifələrin icrasını davam etdirərək çaya çıxır. Düşmənin buradakı keçidi dağıdılır…15 günlük döyüşlərdə düşmənin 4 tankı, iki özüyeriyən topu, 64 artilleriya silahı, 191 avtomaşını, 108 pulemyotu və 1.375 faşist əsgər və zabiti məhv edilir. Əməliyyat gedişində hərbi yüklə dolu 3 eşelon, 350 avtomaşın və 4 minə yaxın faşist əsgər və zabiti əsir götürüldü.

X.Məmmədovun tərbiyə etdiyi döyüşçülər və komandirlərin 4 nəfərinə Sovet İttifaqı Qəhrəmanı adı verildi, müharibə dövründə düşmənə qarşı müvəffəqiyyətli hərbi əməliyyatlar keçirdiyi üçün Ali Baş Komandanlığının 12 dəfə təşəkkürünü aldılar".

Xəlil Məmmədov SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 mart 1945-ci il fərmanı ilə "Alman faşist işğalçılarına qarşı döyüşdə komandanlığın döyüş tapşırığını nümunəvi yerinə yetirdiyinə, mərdlik və qəhrəmanlıq göstərdiyinə görə "Lenin" ordeni və "Qızıl Ulduz" medalı (№4928) verilməklə **Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.**

X.Məmmədov 1945-ci ilin 9 mayını Çexoslovakiya torpağında qarşıladı. 1946-cı ildə hərbi xidmətdən buraxıldı, 1949-cu ildə Bakı Ali Partiya məktəbini bitirdi, məsul partiya işində, Azərbaycan SSR DİN müavini (1957-1960), nazir (1969-1965), Azərbaycan SSR Nazirlər Sovetində şöbə müdiri (1965-1967), Azərbaycan SSR Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri (1971-1974) vəzifələrində müvəffəqiyyətlə çalışdı, general-mayor rütbəsi ilə təltif olundu.

Xəlil Məmmədov 25-28-ci çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuş, "Qırmızı Bayraq", "Aleksandr Nevski", "Qırmızı Əmək Bayrağı", 2 "Qızıl Ulduz", "Şərəf nişanı" ordenləri və medallarla təltif olunmuşdur. Xəlil Məmməd oğlu Məmmədov 21 fevral 1989-cu ildə vəfat etmişdir.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.149-152; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H. Abbasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.204-205; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.125; Ганизаде, Ф. Живет среди нас человек / Ф.Ганизаде. – Баку, 1976; ASE, VI c. Bakı, 1982, s. 503.

Məmmədov İsrafil Məhərrəm oğlu
(1919-1946)

1941-1945-ci illər müharibəsi SSRİ xalqlarının tarixində ən böyük sınaq oldu. III Reyxin planında "ari olmayanların" yaşam tərzi üçün 2 variant planlaşdırılmışdı: ya almanlaşdırmaq, ya da tarix səhnəsindən yox olmaq. Buna görə də Sovet İttifaqında yaşayan xalqlar üçün bu müharibə Böyük Vətən müharibəsi idi. Bu müharibənin özünəməxsus çoxlu aspektləri vardı.

Azərbaycan SSR Böyük Vətən müharibəsində alman faşizmi üzərində qələbədə xüsusi rol oynadı. İlk Sovet İttifaqı Qəhrəmanı adını alan azərbaycanlı İsrafil Məmmədovun, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun, əfsanəvi partizan, "Mixaylo" ləqəbli Mehdi Hüseynzadənin, sinəsini düşmən pulemyotuna sipər edən Qafur Məmmədovun, Leninqradın müdafiəsi zamanı 17 ölümcül yara alsa da, təyyarəsini yerə endirən Hüseynbala Əliyevin, Fransada qəhrəmanlıq göstərən Əhmədiyyə Cəbrayılovun şücaətləri xalqımıza xas mərdlik və igidliyin tərənnümü idi.

İsrafil Məmmədov Şəmkir rayonunun Qapanlı kəndində anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra sənaye texnikumuna daxil olmuş, 1939-cu ildə ordu sıralarına çağırılmışdı. Pustınka kəndi yaxınlığındakı döyüşdən bir gün əvvəl kiçik leytenant rütbəsi ilə təltif olunmuşdu.

Novqorod yaxınlığındakı Pustinka kəndi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərən İsrafil Məmmədovun igidliyinə bütün ölkənin xalqları heyran qaldı. İ.Məmmədov özünün "PPD" avtomatı ilə 70 düşmən əsgərini və 3 zabitini məhv etdi, 20 nəfərlik dəstəsi ilə 2 batalyon alman avtomatçısına müqavimət göstərərək, 300-dən çox əsgər və zabiti öldürdü.

İ.Məmədovun igidliyindən söz açan «Правда» qəzeti yazırdı: "Almanlar toplardan və minaatanlardan şiddətli atəş açaraq hücum etdilər. Budur, onlar kəndin 100 metrliyinə gəlib çatdılar. Məsafə hey azalırdı – 80, sonra 50 metr.

– Atəş – deyə İsrafil Məmmədov qəzəblə əmr verdi.

İ.Məmmədovun əsgərləri öz avtomatları ilə düşməni biçib tökürdülər.

Atəş!

İkinci atəş gurladı.

Faşistləri məhv edin!

İ.Məmmədov haraylayırdı. Onun qara gözlərindən alov saçırdı. O, əla avtomatçı idi. Düşmən iki bölük əsgərini itirdi.

Döyüş 10 saat davam etdi. Avtomatların gülləsi qurtarmaq üzrə idi. İ.Məmmədov avtomatı kənara qoyub tüfəngi götürdü. Gülləyə qənaət etmək lazım idi. İndi snayper İ.Məmmədov düşmənə tək özü güllə atırdı. Yaralı avtomatçılar və radistlər ara vermədən tüfəngə güllə doldurur və İsrafilə verirdilər.

Onun hər sərrast atəşi bir faşisti öldürürdü … Sovet ölkəsi əsil qəhrəmanlar yetirir, onlarda qorxmazlıq, qəhrəmanlıq əzmi tərbiyə edir… Onun qəhrəmanlığı, şücaəti bütün ölkəyə yayılmışdır”.

«Красная звезда» qəzeti müharibə cəbhələrində döyüş dostluğuna həsr etdiyi baş məqalədə yazırdı: “Əgər siz bilmək istəsəniz cəbhə dostluğu, döyüşdə qarşılıqlı yardım nədir, onda Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədova və onun yoldaşlarına baxın”.

1941-ci il dekabr ayının 11-də Sovet İttifaqı Qəhrəmanı adı verilən İsrafil Məmmədovu şair belə tərənnüm edirdi:

O rus dastanlarında, kobzarlar nəğməsində
Sədəfli saz ustadı aşıqların səsində,
Çox tərənnüm edilmiş yenilməz qəhrəmandı
O, qartal balasıdır, böyük bir pəhlivandı!
Sən də Məmmədov kimi alıb silahı ələ
Doğma əziz Vətəni qoru mərdanəliklə!

İsrafil Məmmədovun Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsini Azərbaycan əməkçiləri sevinclə qarşıladı. Əməkçilər qəzet redaksiyalarına, qəhrəmanın özünə məktublar yazaraq fəxr etdiklərini, qələbə naminə cəbhəni hər cür sənaye və kənd təsərrüfatı məhsulları ilə təmin edəcəklərinə söz verir, müharibənin tezliklə başa çatdırılmasını arzulayırdılar.[2] Şamxor (indiki Şəmkir) rayonunun Qapanlı kənd sovetinin sədri Yunis Məmmədov, “Zərbəçi” kolxozunun sədri İldırım Hüseynov, kənd

təsərrüfatı qabaqcıllarından Nabat Ata qızı və Oruc Qasım oğlu, briqadirlərdən Əli Hüseynov, Zeynalov və başqalarının imzaladığı 23 dekabr 1941-ci il tarixli məktubda deyilirdi: "…Qorxmaz oğlumuz! Biz sənin igidliyinə daha layiqli cavab vermək üçün bütün qüvvələrimizi səfərbərliyə almışıq. Biz sənə namusla vəd edirik ki, 1942-ci il 1 yanvarınadək kolxozumuzun tarlalarında olan pambığı son qozasınadək yığacağıq. Bu günədək sənin doğma kolxozun ölkəyə 545 ton pambıq təhvil vermişdir. 450 hektarlıq sahədə payız şumu keçirilmişdir. Qızıl Ordu fondu üçün 200 hektar əkin əkilmişdir. Biz yeni təsərrüfat ilində ölkəmizə daha çox pambıq vermək məqsədilə 330 hektar sahədə pambıq əkəcəyik. İndi bu sahənin 250 hektarını şumlamış və gübrələmişik. Namus və qəhrəmanlıqla babalarımız Babəkin və Koroğlunun izi ilə gedən qorxmaz döyüşçüyə, sənə eşq olsun!".

SSRİ hökumətinin üzvü A.S.Şerbakov 1942-ci il yanvarın 21-də keçirilən iclasdakı məruzəsində İsrafil Məmmədovun adını panfilovçularla bir sırada çəkmiş, onu sovet pəhləvanı adlandırmışdı. "Pravda" qəzeti qəhrəmana həsr etdiyi məqaləsində bildirirdi ki, "Sovet ölkəsi əsil qəhrəmanlar yetirir, onlarda... qorxmazlıq, qəhrəmanlıq əzmi tərbiyə edir. Azərbaycan xalqı İsrafil Məmmədov kimi qəhrəmanı tərbiyə etmişdir. Onun qəhrəmanlığı və şücaəti bütün ölkəyə yayılmışdır".

Üzeyir Hacıbəyov, Mustafa Topçubaşov, Mirəsədulla Mirqasımov, Çimnaz Aslanova, Səməd Vurğun, Süleyman Rüstəm, Heydər Hüseynov, Mirvarid Dilbazi, S.Vəzirov, V.A.Tarnoqradski, B.P.Baykov, İ.Hidayətzadə, Mirzə İbrahimov, M.S.Ordubadi, Adil İsgəndərov, Məmməd Rahim, Mirzə Məmmədov, Mərziyə Davudova, Murtuza (Bülbül) Məmmədovun imzaladığı "Azərbaycan ziyalılarının məktubu"nda İsrafil Məmmədovun mərdlik və igidliyi, qəhrəmanlığı və döyüş məharəti, yüksək vətən məhəbbəti alqışlanır və faşistlərin tezliklə ölkədən qovulacağına əminlik bildirilirdi.

„Kirovabad Kommunisti" qəzetində Səməd Vurğunla İsrafil Məmmədovun şəkli

Səməd Vurğun ("Xalqımızın iftixarı"), Süleyman Rüstəm ("Qəhrəmanımsan"), Məmməd Rahim ("Vətən oğlu"), Rəsul Rza ("Yurdumun qəhrəmanı"), yazıçı Mir Cəlal ("Qəhrəmanın yolu") İsrafil Məmmədova şeir və hekayə həsr etmişlər.

27 yaşında dünyasını dəyişən İsrafil Məmmədovun ölümü ilə bağlı müxtəlif fikirlər səslənmişdir. Siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev onun ölümü ilə bağlı bildirmişdi ki: "Gənc yaşlarından söz götürməyən, davakar adam olan İsrafil Məmmədovu ailəsi tez-tez erməni məhəllələrində dava-dalaşdan sonra milis bölmələrindən yığışdırdılar. Onun ermənilər görməyə gözü yox idi. Bir neçə dəfə həbsə düşən İsrafil Gəncədə dava zamanı bir ermənini bıçaqlayıb öldürür. Qohumları İsrafildən qisas almaq üçün gecə ikən pusu qurub başına kərpiclə vururlar. Lakin ona bir şey olmur.

Bir müddət müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıdan İsrafil Məmmədov döyüşlərin birində boğazından yaralanır. Onun müalicə aldığı hospitalın həkimi erməni İsrafili vərəm xəstələri olan otaqda yatızdırır. Vərəm xəstəliyinə düşən İsrafil Məmmədov Azərbaycana geri qayıdır. M.C.Bağırovun vasitəsilə Yaltada müalicə alan qəhrəman dünyasını dəyişir. Məlum olur ki, onun ölümünə fitva Baqramyan tərəfindən verilmişdi. Erməni tibb bacısının vurduğu zəhərli iynə Qəhrəmanın ömrünə səbəb olmuşdur. Sonradan Baqramyanın göstərişi ilə, erməni tibb bacısı digər yerə işə təyin edilir".

İsrafilin ölüm xəbəri gələn kimi M.C.Bağırov cənazənin Azərbaycana gətirilməsi məqsədilə Yaltaya xüsusi təyyarə göndərir. Əvvəlcə belə qərarlaşdırılır ki, İsrafil Məmmədov Bakıda dəfn olunsun. Lakin Kirovabad zəhmətkeşlərinin müraciəti ilə onun nəşi doğma şəhərinə gətirilir və Gəncə parkında, indiki Xan bağında dəfn olunur. Dəfn mərasimində SSRİ-nin müxtəlif yerlərindən ictimaiyyət nümayəndələri, yüksək çinli zabitlər, respublika rəhbərliyi iştirak edir. Üstündən illər keçir, nəsillər dəyişir, lakin İsrafil Məmmədovun abidəsi dayanan yerdə elə onun özünü dəfn edildiyini əhali bilmir. Nəhayət, İ.Məmmədovun qohumlarının şəhər rəhbərliyinə müraciətindən sonra mərmər daşında yazılır: "İsrafil Məmmədov burada dəfn olunub".

Onun haqqında: Красная Звезда, 1941, 16 декабря; İsbax, A. Sovet İttifaqı Qəhrəmanı / A.İsbax, İ.Pavlovski // Kommunist. – 1941. –21 dekabr. – s. 3; Qəhrəman // Vətən uğrunda. – 1941. –№ 7-8. – s. 21-22; Sovet pəhləvanı (Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov haqqında) Bakı: Azərnəşr, 1942, 55 s.; Zelinski, K. Sovet İttifaqı Qəhrəmanı İsrafil Məmmədov / Korneli Zelinski // Vətən uğurunda. – 1942. – №1, -s. 12-18; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.16-20; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.198-201; Sovet İttifaqı Qəhrəmanı

// Ulduz. –1975. – №5. –s.13-14; ASE, VI c. Bakı, 1980, s.500; Derman, B. Sovet İttifaqı Qəhrəmanı İ.M.Məmmədova verilməsi / B.Derman // – 1841. –25 dekabr. – s.1; Düşməni daha amansızlıqla qırmalı // Kommunist. –1941. –17 dekabr. –s.3; İsrafil Məmmədov //Kommunist. –1941. –21 dekabr. –s.1; Qəhrəman komsomolçuya eşq olsun! Kommunist. –1941. –17 dekabr. S.3; Mehdi, H. Moskvanın qərarı / Hüseyn Mehdi // Ədəbiyyat qəzeti. –1941. –20 dekabr; Misilsiz igidlik // Kommunist. – 1941. – 17 dekabr. –s.3; Bağırzadə, Ə. Azərbaycan gəncləri Böyük Vətən müharibəsi illərində / Ə.Bağırzadə // Azərbaycan gəncləri. –1980. – 6 may.

Məmmədov Məmməd Cəbrayıl oğlu
(1920-1945)

Məmməd Məmmədov Qax rayonunun Baydarlı kəndində doğulmuş, 1940-cı ildə hərbi xidmətə çağırılmışdır.

I Ukrayna cəbhəsində 52-ci Ordunun 373-cü Atıcı Diviziyası tərkibində sanitar təlimatçısı olan baş serjant M.Məmmədov Qafqazdan Berlinədək döyüş yolu keçdi. 1945-ci ilin yanvar günlərində ordu ilə birlikdə döyüş yolunu davam etdirən M.Məmmədov yanvarın 22-də 4 yaralını, 23-də 16 yaralı əsgəri döyüş meydanından çıxardı. Yanvar ayının 24-də serjant Məmmədov tutduğu evlərdən birinə girdi. Əsgərlər içərisində yaralılar var idi. Məmməd faşistlərlə döyüşə başladı və döyüşdə yaralılar ona yardım göstərdilər. Onlar tüfəngləri doldurur, Məmməd isə faşistlərin həmlələrini dəf edirdi. Bu döyüşdə 40 hitlerçi məhv edildi.

M.Məmmədov Oder çayının keçilməsində ağır yaralandı, 16 döyüşçü və bölmə komandirini sudan çıxarmasına köməklik göstərdi və döyüşlər zamanı atışmada həlak oldu. 1945-ci il aprelin 10-da ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

Qax rayonunda onun adına küçə vardır.

Onun haqqında: Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli; İsmayılov, İ.Z., Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.121.

Mirzəyev Bəhyəddin Şahvələd oğlu
(1914-1987)

Bəhyəddin Mirzəyev 1914-cü ildə İsmayıllı rayonunun Sulut kəndində anadan olmuşdur. 1924-1929-cu illərdə orta məktəbdə oxumuş, 1930-cu ildə Bakıya gələrək fabrik-zavod məktəbinə daxil olmuş, 1932-ci ildə məktəbi bitirərək sürücü ixtisası almış, Göyçaya gedərək 1936-cı ilədək ixtisası üzrə işləmişdir.

1936-cı ildə ordu sıralarına çağırılan B.Mirzəyev 1938-ci ilədək Bakı Zenit Topçu Alay Məktəbində oxudu, 1939-cu ildə Tbilisi Hərbi Məktəbi bitirdi, 416-cı atıcı diviziyanın tərkibində Mozdokdan Berlinədək döyüş yolu keçdi, taqım, batareya, divizion komandiri kimi Şimali Qafqaz, Ukrayna və Moldovanın azad edilməsində iştirak etdi, Visla-Oder əməliyyatında rəşadət göstərdi.

Mayor Həşimov Həşim Əzim oğlunun "Kommunist" qəzetinə ünvanladığı 02 aprel 1945-ci il tarixli məktubunda bildirilirdi ki, almanlar Cənubi Qafqazı hədələyəndə Bəhyəddin Mirzəyev kiçik leytenant rütbəsində topçu alayında taqım komandiri idi. Onun batareyası Mozdok rayonunda düşmən tanklarını top atəşinə tutmuşdu. O, Mius çayına kimi almanların qovulmasında igidlik göstərmişdir.

B.Mirzəyev 1943-cü il aprelin 6-da bir neçə aylığa Yaroslav vilayətindəki Kostroma şəhərinə kursa göndərildi, kursu bitirdikdən sonra Melitopol ətrafında vuruşan diviziyaya qayıdaraq 4-cü batareyaya komandir təyin edildi. Melitopol əməliyyatında göstərdiyi igidliyə görə I dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif olundu, ona baş leytenant rütbəsi verildi. Dnepr çayı sahilində Bolşaya Belozorka rayonu ətrafındakı vuruşmalarda göstərdiyi şücaətə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olundu.

1943-cü ilin iyun ayında B.Mirzəyev Moskvaya 3 aylıq zabitlər kursuna göndərildi. Kursu bitirdikdən sonra 7-ci batalyona komandir təyin olundu. Döyüşlərdə təcrübə toplayan igid azərbaycanlı balası kapitan rütbəsinədək yüksəldi. Sovet qoşun hissələrinin Nikolayev şəhərində möhkəmlənməsində xüsusi xidmətləri olan B.Mirzəyev Odessanın alınmasında, Moldoviyada bir çox şəhərlərin azad edilməsində böyük rəşadət göstərdi. Dnestr çayının qərb sahillərində almanlarla döyüşdəki igidliyinə görə "Qırmızı Ulduz" və I dərəcəli "Vətən müharibəsi" ordenləri ilə təltif olunan

qəhrəman Visla çayının qərb sahilində almanları geri çəkilməyə məcbur etdi. Arxadan gələn piyadaçılar üçün yol açıldı.

Mirzəyev Oder çayı sahilində şiddətli döyüşlər keçirdi. Almanlar 30-a qədər təyyarə və 20-yə yaxın tankla əks-hücuma keçmişdilər. Mirzəyevin batareyası top komandirləri Qasım Qasımov, Mövsüm Qasımov, Rasim İbrahimov düşmənin bir alayının qüvvəsini məhv etdi, 4 tank yandırıldı. 1945-ci ilin fevral ayının əvvəllərində Oder sahilində vuruşmalarda Bəhyəddin düşmənin 6 tankını məhv etdi. Fevralın 7-də hücum zamanı yaralanan B.Mirzəyev bir neçə ay xəstəxanada müalicə olunduqdan sonra yenidən diviziyaya qayıtdı. Tezliklə ona kapitan rütbəsi verildi. **1945-ci il martın 24-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə B.Mirzəyevə Sovet İttifaqı Qəhrəmanı adı verildi.** 1945-ci il mayın 1-də Berlin uğrunda döyüşlərdə yaralanan B.Mirzəyev müalicədən sonra ordudan tərxis olundu.

B.Mirzəyev müharibədən sonra uzun illər Azərbaycan Həmkarlar İttifaqına rəhbərlik edib. Daha sonra Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin tabeliyində olan Hərbiləşdirilmiş Mühafizə İdarəsinin rəisi vəzifəsində çalışıb. "Qızıl Ulduz", I dərəcəli "Vətən müharibəsi" ordenləri və medallarla təltif olunmuşdur.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.167-169; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.206-207; ASE, VI c. Bakı, 1982, s.592; Qasımov, Ə. Bəhyəddin Mirzəyev / Əlfi Qasımov; red. X.H.Vəzirov. – Bakı: Azərnəşr, 1985, – 30 s.

Musayev Mərdan Məmməd oğlu
(1907-1982)

Mərdan Musayev 1907-ci ildə Tovuz rayonunun Əlimərdanlı kəndində doğulmuşdu. 1934-cü ildə Göyçay Kənd Təsərrüfatı Texnikumunun mexanika şöbəsinə daxil olan M.Musayev 1936-cı ildə məktəbi bitirmişdi. 1941-ci ildə hərbi xidmətinə çağırılan M.Musayev Mozdok ətrafındakı döyüşlərdə göstərdiyi şücaətə görə "Qırmızı Ulduz" ordeni ilə təltif olundu.

M.Musayev Dnepr çayı sahilinədək Lepetixa kəndi ətrafında döyüşdə fərqləndi. “Tank hissəsi motorlu topların köməyi ilə qəti hücum keçib, Lepetixa kəndinin arxa tərəfində mövqe tutdu. Avtomatçılar isə düşmənin bir neçə atəş nöqtəsini keçib, kəndin lap yaxınlığına çatdılar… Mərdan uçmuş bir xəndəyə düşdü. O, hücuma keçməyə fürsət gözləyirdi. Düşmən isə gülləni yağış kimi yağdırırdı. Lakin arxa tərəfdən tankların qəfil hücumu hitlerçiləri tamamilə çaşdırdı. Mərdan vaxtı itirmədən öz yoldaşları ilə birlikdə hücuma keçdi. Bu döyüşdə Mərdan Musayev faşistlərin iki snayperçisini və 6 pulemyotçusunu məhv etdi. Lepetixa kəndi uğrunda gedən gərgin vuruşmada göstərdiyi igidliyə görə Mərdan Musayev “Şərəf nişanı” ordeni ilə təltif edildi”.

Qvardiya baş serjantı M.Musayev III Ukrayna Cəbhəsində 28-ci Ordunun tərkibində motoatıcı batalyonda bölmə komandiri olarkən 1944-cü il martın 10-da Borislov şəhəri uğrunda döyüşlərdə cəsarətlə vuruşdu, Dnepr və İnqulev çaylarını keçərkən düşmən qüvvələrini məhv etdi, qoşunların hücumlarının uğurlu olmasına şərait yaratdı.

1944-cü il iyunun 3-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə M.Musayevə Sovet İttifaqı Qəhrəmanı adı verildi.

M.Musayev müharibədən sonra Tovuz rayonunda müxtəlif vəzifələrdə işləmiş, 1982-ci ildə dünyasını dəyişmişdir.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.180-182; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.214-215; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.122-123.

Mustafayev Bəkir Dursun oğlu
(1898-1970)

Bəkir Mustafayev Gürcüstanın Axaltsıx rayonunun Qlazar kəndində anadan olmuşdur. 1941-ci ilin avqustunda könüllü hərbi xidmətə getmiş, 1942-ci ilin martında Şimali Qafqazda döyüşən 56-cı Ordunun 164-cü Atıcı Alayının tərkibində Kursk vuruş-

masında iştirak etmişdir. 1943-cü ilin payızında sovet ordusunun qarşısına faşistləri Şimal Qafqazdan, Kubandan, Taman yarımadasından qovulması vəzifəsi qoyulanda həmin döyüşlərdə Bəkir Mustafayev fəal iştirak etdi. Noyabrın 3-ki döyüşdə düşmənin 9 əsgəri və silahı məhv edildi. 1944-cü il may ayının 16-da Kerç yarımadasında igidliyinə görə ona Sovet İttifaqı Qəhrəmanı adı verildi.

B.Mustafayev müharibədən sonra Səmərqənddə yaşamışdır. Səmərqənddə onun adına küçə vardır.

Onun haqqında: Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s., s.173-175; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.216-217; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.123.

Mustafayev Xıdır Həsən oğlu
(1905-1975)

Xıdır Mustafayev Qərbi Azərbaycanın Gözəldərə kəndində dünyaya gəlib. 1927-ci ildə hərbi xidmətə çağırılmışdır. 1929-cu ildə Bakı, 1934-cü ildə Tiflis və 1936-cı ildə Moskvada hərbi məktəbi bitirən X.Mustafayev taqım, alay komandiri olmuş, motorlu batalyon komandiri kimi 1942-ci ilin sentyabrından döyüş əməliyyatlarında iştirak etmişdir. Stalinqrad cəbhəsində onun komandirlik etdiyi 23 tankdan ibarət hissəsi düşmənin 48 tankdan ibarət hücumunun qarşısını almış, faşistlər döyüş meydanında 34 yanmış tank qoyaraq qaçmışlar. Döyüşlərdə fərqlənən X.Mustafayev "Qırmızı Ulduz" ordeni və həmin şəhərin müdafiəsinə görə medalla təltif olunmuşdur. 1943-cü il yanvarın 23-də döyüşlərin birində ağır yaralanmışdır.

Hərbi xəstəxanada müalicə olunan X.Mustafayev yenidən hərbi hissəyə qayıdır və 1943-cü ilin yayında Orlov ətrafında döyüşlərdə fəal iştirak edir. 1943-cü il avqustun 12-də 3-cü qvardiya tank ordusunun komandanlığı Mustafayevin başçılıq etdiyi tank hissəsinə Aptuşka çayını keçib mövqe tutmaq və əsas tank qüvvələrinə yol açmaq əmri verir… səhər tezdən hücum başlanır.

Avtomatçılar sovet tanklarının mühafizəsi altında qəflətən hücuma keçdiklərindən hitlerçilər öz tanklarını və toplarını döyüş meydanında qoyub geri çəkilirlər. X.Mustafayev bu əməliyyata bacarıqla rəhbərlik etdiyi və komandanlığın əmrini müvəffəqiyyətlə yerinə yetirdiyi üçün I dərəcəli "Vətən müharibəsi" ordeni və mayor rütbəsi ilə təltif edilir.

1943-cü il noyabrın 6-da Kiyev şəhərinin faşist işğalçılarından azad edilməsində qvardiya mayoru X.Mustafayevin də payı vardır. Noyabrın 5-dən 6-na keçən gecə ordu komandanı X.Mustafayevi yanına çağıraraq onu, Ukrayna Cəbhəsi 3-cü Qvardiya Tank Ordusunun zərbə batalyonuna komandir təyin edir. Batalyonun qarşısına Kiyevin 70 kilometrliyində yerləşən Fastovo şəhərini tutmaq, əsas ordu hissələri gələnədək onu əldə saxlamaq vəzifəsi qoyulur. X.Mustafayevin batalyonu 1943-cü il noyabrın 7-də Kiyev vilayətində Fastoş şəhərinin azad edilməsində düşmənin canlı qüvvəsini, 64 zenit topu, hərbi ləvazimatla yüklənmiş 16 eşelonu, 40 silah və ərzaq anbarını, 40 min tondan çox yanacağı, 5 işlək parovozu və texnikanı sıradan çıxarır, çoxlu sayda hərbi ləvazimat ələ keçirilir. I Ukrayna Cəbhəsi komandanlığının təqdimatına əsasən X.Mustafayevin tank batalyonunun şəxsi heyətinin 80 faizdən çox əsgər və zabiti orden və medallarla təltif olunur. Batalyon komandiri **mayor Xıdır Mustafayevə 1944-cü il yanvarın 10-da Sovet İttifaqı Qəhrəmanı adı verilir.**

X.Mustafayev cəbhənin digər sahələrində də igidliklə vuruşdu. Ukraynanın Çernyaxova, Jitomir, Rodomışl, Kaztin, Berdiçeva, Yermolintseva, Proskurovo, Çertkov, Tarnopol və s. şəhər və qəsəbələrin azad edilməsi döyüşlərində şöhrət qazandı.

1945-ci ildə Ali Zirehli Tank Qoşunları Məktəbini bitirən X.Mustafayev tank briqadası komandanının müavini, Bakının hərbi komendantı (1947-1949), tank alayının komandiri (1949-1951) oldu. 1952-ci ildə Moskvada Zirehli Tank Qoşunları Akademiyasını bitirdi. 1954-cü ildə istefaya çıxan X.Mustafayev müxtəlif partiya və sovet vəzifələrində çalışmışdır.

Fastov və Jitomir şəhərlərinin fəxri vətəndaşı olan X.Mustafayev "Lenin", „Qırmızı Bayraq", I dərəcəli "Vətən müharibəsi", iki "Qırmızı Ulduz" ordenləri və medallarla təltif olunmuşdur.

Xıdır Mustafayev 1975-ci ildə dünyasını dəyişmişdir.

Əsas işi: Tanklarla düşmən üzərinə. Bakı, 1962; Шли танкисты. Баку, 1965;

Onun haqqında: Əsgər, A. Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayev / A.Əsgər // Vətən yolunda. – 1944. –10 may; Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayev // Kommunist. –1944. –16 yanvar; Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1963, 245 s.,

s.176-179; Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) (tarix elmləri doktoru, professor Q.Ə.Mədətov, tarix elmləri doktoru M.H.Abasov, tarix elmləri namizədi R.E.Zeynalov və L.S.Borodetski tərəfindən hazırlanmışdır). Bakı: İşıq, 1975, 318 s., şəkilli, s.218-219; İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl Şərq mətbəəsi, 2000, 192 s., s.124; Якубовски, И.И. Земля в огне / И.И.Якубовски. – М., 1975; ACE, VII c. Bakı,1983 , c.106.

XI FƏSİL

"ŞÖHRƏT" ORDENİNİN KAVALERLƏRİ

"Şöhrət" ordeni İ.Stalinin təşəbbüsü ilə təsis olunmuşdur. Bu təklif onun tərəfindən "Qələbə" ordeninin layihəsi Xalq Müdafiə Komissarlığında müzakirəsi zamanı 20 iyun 1943-cü il tarixdə irəli sürülmüşdür. Ordenin eskizi üzərində 9 nəfər rəssam işləmiş, 26 layihə hazırlanmış, onlardan 4 layihə 1943-cü il oktyabrın 2-də İ.Stalinə təqdim olunmuşdur. "Kutuzov" ordeni, "Vətən müharibəsi partizanı" və SSRİ-nin bütün şəhərlərinin müdafiəsi medallarının layihəsinin müəllifi olan N.İ.Moskalevanın şəkli bəyənilmişdir. Fikirlərə görə, ordenin "Müqəddəs Georgi" və fərqlənmə ordeni olan "Georgiyev xaçı" kimi 4 dərəcəsinin olması nəzərdə tutulmuşdu. Əvvəlcə müəyyənləşdirilmişdi ki, orden Baqration adlandırılsın. Stalin ordenin lentini təsdiq edir, ancaq təklif edir ki, şöhrətsiz qələbə olmadığından sərkərdələr ordenində olduğu kimi orden 3 dərəcəyədək endirilsin və "Şöhrət" adlandırılsın. Beləliklə, təkmilləşdirilmiş şəkil Xalq Müdafiə Komissarlığına təqdim edilir və oktyabrın 23-də təsdiq olunur.

"Şöhrət" ordeni "Qələbə" ordeni ilə bir gündə təsis olunmuşdur. Ordenin bir sıra özünəməxsus fərqli xüsusiyyətləri vardır. Birincisi, bu yeganə ordendir ki, onunla ancaq əsgərlər və serjantlar, həmçinin aviasiyada olan kiçik leytenantlar təltif olunurlar; ikincisi, təltif ancaq aşağıdan-yəni III dərəcədən başlayır; üçüncüsü, "Şöhrət" ordeni SSRİ ordenləri içərisində yeganə ordendir ki, 1974-cü ildə yalnız şəxsi xidmətlərə görə verilmiş və heç bir hərbi hissə, müəssisə və təşkilat bu ordenlə təltif olunmamışdır; dördüncüsü, ordenin statusunda ordenə layiq görülənlərin rütbələrinin yüksəlməsi nəzərdə tutulmuşdur; beşincisi, ordenin lenti Rusiya imperiyası ordeni – "Müqəddəs Georgi" ordeninin təkrarıdır; altıncısı, ordenin lentinin rəngi və naxışı eyni olub inqilabdan əvvəlki təltif sisteminə uyğundur və SSRİ təltif sistemində istifadə olunmamışdır.

"Şöhrət" ordeninin **birinci dərəcəsi** qızıldan, ikinci və üçüncü dərəcələri gümüşdən hazırlanırdı.[1] "Şöhrət" ordeninin I dərəcəsi 950 əyarlı qızıldan hazırlanmışdır. I dərəcənin qızıl tərkibi 28,619±1,425 qram, ümumi çəkisi isə 30,414±1,5 qramdır.

---

[1] Царева, Т.Б. Полная энсиклопедия орденов и медалей Второй мировой войны. Ростоана Дону: Издательский дом «Владис», 2010, 480 с., с.60-64; Награды, ордена, медали России, СССР, мира / составитель: И.Е Гусев. Москва: Издательство АСТ, 2014, 256 с., с.179.

"Şöhrət" ordeninin 1-ci dərəcəsi

"Şöhrət" ordeninin 2-ci dərəcəsi

"Şöhrət" ordeninin 3-cü dərəcəsi

Şöhrət" ordeninin **II dərəcəsi** gümüşdən hazırlanmışdır. Kremlin Spassk qülləsinin təsviri qızıl suyuna çəkilmişdir. II dərəcənin gümüş tərkibi 20,302±1,222 qram, ümumi çəkisi isə 22,024±1,5 qramdır.

"Şöhrət" ordeninin **III dərəcəsi** gümüşdən hazırlanmışdır. Mərkəzi hissəsi qızıl suyuna çəkilməmişdir. III dərəcənin gümüş tərkibi 20,549±1,388 qram, ümumi çəkisi isə 22,260±1,6 qramdır.

İlk dəfə ordenin **III dərəcəsi** ilə 1943-cü noyabrın 13-də sovet qoşunlarının hərəkətinə mane olan düşmən təyyarəsini məhv edən baş serjant **Vasili Malışev** təltif edilmişdir. V.Malışev sonralar ordenin II dərəcəsinə də layiq görülmüşdür.

"Şöhrət" ordeninin **II dərəcəsi**nin ilk sahibi Qərb cəbhəsinin 10-cu ordusunun snayperləri, sıravi **Baranov S.İ. və Vlasov AQ**. təltif olmuşlar. Müharibənin sonuna yaxın Baranov və Vlasov ordenin I dərəcəsini də aldılar.

"Şöhrət" ordeninin **I dərəcəsi**nin təltif mərasimi 1944-cü ilin iyulunda keçirildi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 22 iyul 1944-cü il tarixli fərmanına əsasən taqım komandirinin köməkçisi, baş serjant **Şevçenko K.K.** və minatəmizləyən yefreytor **Pitenin M.T.** təltif olundular. Pitenin fərman imzalananadək həlak olmuşdu. Şevçenko isə müharibənin sonunadək cəbhədə oldu, serjantlar üçün az təsadüf olunan "Qırmızı Bayraq", "Vətən müharibəsi" və "Qızıl Ulduz" ordenlərinə layiq görüldü.

P.X. Dubindo

XX əsrin 80-ci illərinin əvvəllərində məlum oldu ki, Sovet İttifaqı Qəhrəmanı baş serjant N.İ. Kuznetsov da "Şöhrət" ordenin tam üç dərəcəsini almışdır. Beləliklə, **Sovet İttifaqı Qəhrəmanı olub "Şöhrət" ordeninin tam üç dərəcəsini alan cəmi 4 nəfərdir.**

Sovet İttifaqı Qəhrəmanları arasında cəmi dörd nəfər-qvardiya serjantı **A.V.Alyoşin**, təyyarəçi-hücumçu kiçik leytenant **Q.İ.Draçenko**, dəniz piyadaçısı, qvardiya starşinası **P.X.Dubinda** və artilleriyaçı baş serjant **Kuznetsov N.İ.** (ordenin I dərəcəsini 1980-ci ildə almışdır) "Şöhrət ordeni" nin tam üç dərəcəsi ilə təltif olunmuşlar.

Kəşfiyyatçı P.X.Dubindo döyüş yoluna Qara dəniz donanmasının "Çervona Ukraina" kreyserində başlamışdır. 1941-ci ilin noyabrında 8-ci xüsusi dəniz piyadası briqadasında Odessa və Sevastopol altında döyüşmüşdür. 1944-cü ilin martından quru qoşunlarında bölmə komandiri, sonra atıcı taqımın komandiri olmuşdur. Polyak kəndi Skorlupka uğurundakı döyüşlərdə fərqləndiyinə görə "Şöhrət" ordeninin III dərəcəsi, Varşava kənarında Mostuvka yaşayış məntəqəsi uğurundakı döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə "Şöhrət" ordeninin II dərəcəsi ilə təltif olunmuşdur.

R.X.Dubindo Polşanın Teşiken kəndi uğrunda döyüşlərdə düşmənin səngərinə birinci daxil olmuş, əlbəyaxa döyüşdə 4 hitlerçini məhv etmiş və bir zabiti əsir almışdır. Bu qəhrəmanlığına görə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunmuşdur. Taqıma bacarıqla rəhbərlik etdiyinə, 13 və 15 mart 1945-ci il tarixlərdəki döyüşdə cəsarət və qəhrəmanlıq göstərdiyinə görə qvardiya serjantı R.X.Dubindoya Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir. Ordudan tərxis olunduqdan sonra o Antraktidada balina ovlayan donanma gəmisi "Slava" da bosman işləmişdir.[1]

Qvardiya kiçik leytenantı İ.Q.Draçenko 140-cı qvardiya şturman aviasiya alayının təyyarəçisi olmuşdur. Müharibə dövründə hava kəşfiyyatı keçirərkən düşmənin dəmiryolu eşelonunu məhv etmiş, "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görülmüşdür. 100 müvəffəqiyyətli döyüş uçuşu edən və 14 hava döyüşündə iştirak edən İ.Q.Draçenko 1944-cü ildə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunmuşdur.[2]

İ.Q. Draçenko

Baş serjant A.V.Alyoşin 4-cü qvardiya süvari diviziyasının 175-ci qvardiya artilleriya-minomyot alayının top komandiri olmuşdur. Sovet-fin müharibəsində iştirak etmiş, müharibə illərində Moskvadan Qərbi Buğ çayına qədər döyüş yolu keçmişdir. Polşanın Mendcızets yaşayış məntəqəsi uğrunda 1944-cü ilin yazındakı döyüşdə "Şöhrət" ordeninin III dərəcəsi, Şərqi Pomeraniyanın Fanebuq və Nay yaşayış məntəqələri uğurundakı döyüşlərdə qəhrəmanlıq göstərdiyinə görə "Şöhrət" ordeninin II və I dərəcəsi ilə təltif olunmuşdur. A.V.Alyoşin 1945-ci il fevralın 5-də Diderlaqda döyüşdə düşmənin əks-hücumunun dəf edilməsində düşmənə ciddi tələfat verdiyinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.[3]

A.V.Alyoşin

---

[1] Великая Отечественная война, 1941-1945: Словарь – справочник. Н.К.Андроников, А.С.Голицан, М.М. Кирьян и др. Под общ. Ред. М.М.Кирьяна. Москва, 1985. – с.162

[2] Yenə orada, c.161.

[3] Yenə orada, c.28.

N.İ. Kuznetsov

263-cü atıcı diviziyanın 369-cu əlahiddə qırıcı tank əleyhinə top komandiri **Nikolay İvanoviç Kuznetsov** "Lenin" ordeni, "Qızıl Ulduz" medalı və "Şöhrət" ordeninin III və II dərəcəsi ilə təltif olunmuşdur. Keninqsberq altındakı döyüşdə artilleriyaçılar düşmənin bir neçə tank hücumunu dəf edərək 5 faşist tankını məhv edirlər. Döyüşdəki qəhrəmanlığa görə N.İ.Kuznetsov "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunur. Ancaq həmin vaxt mükafatı ala bilmir. Müharibə başa çatır. Qələbə paradının iştirakçısı olur. Ordudan tərxis olunduqdan sonra "Крайны Север" tikintisində, sonra Pestovsk meşə kombinatında işləyir. 1980-ci il martın 12-də SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə N.İ.Kuznetsov "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunur. Bu barədə «Красная звезда» qəzetinin 20 mart 1980-ci il tarixli sayında məlumat verilir.[1]

Sovet İttifaqı Qəhrəmanlarının 80 nəfəri "Şöhrət" ordenin II dərəcəsi, 647 nəfər isə III dərəcəsi ilə təltif edilmişlər.

"Şöhrət" ordeninin tam üç dərəcəsi ilə təltif olunanlar içərisində 4 nəfər qadın snayperçi **Pertova N.P**. (1 may 1945-ci ildə həlak olmuşdur), 16-cı Litva diviziyasının pulemyotçu **Stanilieve D.Y**., tibb bacısı, starşina **Nozdraçeva M.S**. və 99-cu əlahiddə hava ordusu qvardiya axtarış aviasiya alayının hava atıcısı-radisti **Curkina N.A**. vardır.

"Şöhrət" ordeninin tam üç dərəcəsini alanlardan **8 nəfər Sosialist Əməyi Qəhrəmanı** adı ilə təltif olunmuşdur. Onlar **Veliçko M.K., Litvinenko P.A., Martınenko A.A., Peller V.İ., Sultaşaribyanov X.A., Fedorov S.V., Xristenko V.T. və Yarovoy M.S.** olmuşlar.

Ordenin ilkin eskizi

1989-cu ilin məlumatına görə "Şöhrət" ordeninin III dərəcəsi ilə milyona yaxın, II dərəcəsi ilə 46.473 nəfər, I dərəcəsi ilə 2.620 nəfər təltif olunmuşdur.[2]

"Şöhrət" ordeni ilə eyni vaxtda təsis olunan ordenlərdən biri də SSRİ Ali Soveti Rəyasət Heyətinin 1943-cü il 8 noyabr tarixli Fərmanı ilə təsis olunmuş "**Qələbə**" **ordenidir**. SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 avqust 1944-cü il tarixli Fərmanı ilə "Qələbə" ordeninin nümunəsi və lentinin təsviri, həmçinin ordenin daşınması qaydası təsdiq edilmişdir.

---

[1]Великая Отечественная война, 1941-1945: Словарь – справочник. Н.К.Андроников, А.С.Голицан, М.М. Кирьян и др. Под общ. Ред. М.М.Кирьяна. Москва, 1985. – с.236 .

[2] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена Славы. www.savach–az.com, 509 с. – с.5

“Qələbə” ordeni ali hərbi ordendir. Bu ordenlə sovet ordusunun xeyrinə vəziyyəti dəyişən bir və ya bir neçə cəbhələrdə aparılan müvəffəqiyyətli əməliyyatlarda fərqlənən ali komanda heyəti təltif olunur.

“Qələbə” ordeni ilə təltif olunanlara xüsusi fərqlənmə nişanı verilir, memorial lövhəyə və “Qələbə” ordeni kavaleri siyahısına daxil edilir. “Orden” sinədən 12-14 sm yuxarıda, sol tərəfdə daşınır.

Ordenin layihəsini ilk dəfə “Vətənə sədaqətə görə” adı ilə sovet ordusu arxası idarəsi qərargahının zabiti N.S.Neelov təqdim etmişdir. Stalin layihəni bəyənməmiş və eskizin yaradılması davam etdirilmişdir. Ordenin çoxlu eskiz variantları içərisindən rəssam A.İ.Kuznetsovun eskizi bəyənilmişdir. A.Kuznetsov ilk vaxtlarda nişanın ortasında Leninin və Stalinin barelyefinin yerləşdirilməsini (bu Neelovun layihəsində də var idi) planlaşdırmış, sonra ordenin mərkəzində SSRİ-nin Dövlət Gerbi yerləşdirilmişdir. Son variantda ordenin mərkəzində Kremlin Spassk qülləsinin mərkəzində gerb təsviri yerləşdirilmişdir.



“Qələbə” ordeni

“Qələbə” ordeni SSRİ-nin ali hərbi təltifi olub Qələbənin brilyant simvoludur. Cəmi 20 orden hazırlanmışdır. “Qələbə” ordeni ilə 17 nəfər təltif olunmuşdur. Onlardan **11 orden** sovet sərkərdəsinə verilmişdir. Marşallar İ.V.Stalin, Georgi Jukov və Aleksandr Vasilyevski bu ordenə iki dəfə layiq görülmüşlər. **5 orden** xarici ölkələrin sərkərdələrinə verilmişdir. Onların içərisində Rumıniyanın kralı **I Mixail** istisnadır. O, qələbəyə səbəb olan əməliyyata rəhbərlik etməmiş, “Qələbə” ordeni Rumıniyanın nasist blokundan çıxması və Birləşmiş Millətlər İttifaqına 1944-cü ilin avqustunda daxil olmasına görə almışdır. 33 ildən sonra **16-cı kavaler İosif Broz Tito** olmuşdur.

17-ci “Qələbə” ordeninin kavaleri hüququ olmasa da, 1978-ci ildə L.İ.Brejnev almışdır. L.İ.Brejnevin təltif olunması onun marşal alması ilə eyni vaxta təsadüf etmiş və böyük səs-küyə səbəb olmuşdur. SSRİ Ali Sovetinin sədri Mixail Qorbaçov 1989-cu ildə L.İ.Brejnevin “Qələbə” ordeni ilə təltif olunmasını ordenin statusu ilə ziddiyyət təşkil etdiyindən təxirə salır. Bu səbəbdən də, Memorial lövhədə L.İ.Brejnevin adı yoxdur.

“Qələbə” ordenini alan şəxslərin adlarının yazıldığı Memorial lövhə

Ordenin **19 və 20-ci nüsxələri** Silahlı Qüvvələrin Mərkəzi Muzeyində saxlanılır. Ancaq kral I Mixailin ordeninin yeri məlum deyildir.

Kral I Mixail

Kral I Mixailin təltif olunduğu ordenin maraqlı tarixi vardır. Rusiya təltiflərinin tədqiqatçısı Sergey Şişkovun versiyasına görə kral I Mixailin ordeni dünyanı "gəzir" və I Mixail guya ordeni 1947-1948-ci illərdə emiqrasiya üçün vəsait lazım olduğundan 800 min dollara Con Rokfellerə satmışdır. Görünür kral gənclik dövründə bu təltifin tarixi-mədəni və şərəf qiymətini başa düşməmişdir. Şişkovun mülahizələrinə görə Rokfeller bir müddət keçdikdən sonra ordeni auksiona çıxarmış və adı məlum olmayan alıcıya 2 milyon dollara satmışdır. Yenə Şişkovun versiyasına görə ordenin hazırkı qiyməti 20 milyon dollar təşkil edə bilər.

Kral I Mixail ordenin yeganə sağ qalan (may 2013-cü il tarixə) kavaleridir. Ondan əvvəl isə ordenin daha bir sahibi Polşa marşalı Mixail Pol Jimerski idi və 1989-cu il oktyabrın 15-də vəfat etmişdir.

Kral I Mixail 2005-ci ildə Qələbənin 60 illiyində Moskvaya gəlmiş, Vladimir Putin onu "1941-1945-ci illər Böyük Vətən müharibəsinin 60 illiyi" yubiley medalı ilə təltif etmişdir. Moskvaya səfəri zamanı Kral I Mixaildə "Qələbə" ordeni yox idi.

"**Qələbə**" **ordeni ilə** A.İ.Antonov, L.A.Qovorov, İ.S.Konev, R.Y.Malinovski, K.K.Rokossovski, S.K.Timoşenko, F.İ.Tolbuxin təltif olunmuşlar.

Azərbaycan sərkərdələrindən heç kim "Qələbə" ordeni ilə təltif olunmamışdır.

1941-1945-ci illər müharibəsində "Şöhrət" ordeninin tam üç dərəcəsinə Azərbaycan SSR-dən 30 nəfər layiq görülmüşdür. Onların **15 nəfəri azərbaycanlıdır.**

"Şöhrət" ordeninin tam üç dərəcəsini alan azərbaycanlı döyüşçülər

1. **Aslanov Aslan Tərlan oğlu** 1920-ci ildə Quba rayonunda (Qonaqkənddə) doğulmuşdur. Moskva uğrunda döyüşlərdə müharibə həyatına başlayan Aslan Aslanov Smolensk-Belarusiya-Litva-Şərqi Prussiya ərazilərində gedən döyüşlərdə iştirak etmiş, müharibəni 1945-ci ilin avqustunda Yaponiyada döyüşlərlə başa vurmuşdu.

A.Aslanov Belarus uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə "Şöhrət" ordeninin III dərəcəsinə, Litva uğurundakı döyüşlərə görə ordenin II dərəcəsinə, Şərqi Prussiya uğrunda döyüşlərdə göstərdiyi qorxmazlıq və cəsarətə görə ordenin I dərəcəsinə layiq görülmüşdür.

2. **Aslanov Əmrah Qara oğlu** 1920-ci il iyunun 1-də Gürcüstanın Marneuli rayonunun Təzəkənd kəndində anadan olmuşdur. Müharibə başlanmasına təxminən bir ay qalmış – 1941-ci il mayın 11-də ordu sıralarına çağırılmışdır. Müharibənin əvvəlindən döyüşən orduda olan snayperçi Ə.Aslanov 1943-cü il avqustun 10-da Kaluqa vilayətinin Spas-Demenska rayonunda döyüşdə ilk dəfə yaralanmışdır.

1944-cü ilin fevral-mart aylarında Ə.Aslanov 33-cü Ordunun 129-cu Əlahiddə Moto-mühəndis batalyonunun tərkibində I Pribaltika Cəbhəsində döyüşlərdə iştirak edir. Döyüşlərin gedişində Kzyanı kəndi rayonunda döyüş tapşırığını yerinə yetirərkən Aslanov 85 tankəleyhinə mina müəyyənləşdirir. Snayperçinin döyüş xidmətləri yüksək qiymətləndirilərək 33-cü Ordu qoşunlarının 1944-cü il 29 mart tarixli 0119 №-li əmri ilə "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olunur.

1945-ci il yanvarın 27-də Şərqi Prussiyada Vartenberq şəhərinə alayın hücumunda baş mühafizədə yerləşən Aslanov yolun minalandığını müəyyənləşdirir. O, ləngimədən şəxsən minalaşdırmanı yoxlayır və 8 tank əleyhinə minanı zərərsizləşdirir. Şəxsi igidliyinə və yüksək peşəkarlığına görə II Belarus Cəbhəsi qoşunlarının 6 mart 1945-ci il tarixli 0222 №-li əmri ilə "Şöhrət" ordeninin II dərəcəsi ilə təltif olunur.

Müharibənin sona çatmasını başa düşən düşmən yenə də müqaviməti davam etdirirdi. 1945-ci il aprelin 27-də Qeqensdorf uğrunda döyüşlərdə snayper-kəşfiyyatçı Ə.Aslanov eskadronunun baş süvari kəşfiyyatçı dəstəsinin tərkibində fəaliyyət göstərirdi. 1945-ci il mayın 2-də tankın başında keşikdə olan Ə.Aslanov körpünün minalandığını müəyyən edir. Düşmənin aramsız atəşi altında cəsur mina təmizləyən körpünü minalardan təmizləyərək 6 mina çıxarır və arxadan gələn eskadronun maneəsiz və itkisiz irəliləməsinə şərait yaradır. Süvarilərlə birgə Ə.Aslanov Klayn-Valtersdorf kəndinə hücumda 14 hitlerçini əsir götürür. Həmin gün 28-ci qvardiya süvari alayı Elba çayına çıxır və Vittenberqin şimalında ingilis-amerikan qoşunlarını birincilər sırasında qarşılayır.

Cəbhədə işğalçılarla mübarizədəki qəhrəmanlığına görə Ə.Aslanov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 30 iyun tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunmuşdur.[1]

3. **Heydərov Muradəli Şahvələd oğlu** Zərdab rayonunun Məmmədqasımlı kəndində doğulmuşdur. Sıravi topçu olmuşdur. Qafqazdan Berlinədək döyüş yolu keçərək Terek və Don sahillərində döyüşən

[1] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена Славы. www.savach–az.com, 509 с., – с.8-11.

Ukrayna və Moldovanın azad olunmasında iştirak edən M.Heydərov Kustrin və Berlinə hücumda fərqləndiyinə görə "Şöhrət" ordeninin III və II dərəcələri ilə təltif olunmuşdur.

Qələbə gününü Berlində Brandenburq qapıları yanında qarşılayan M.Ş.Heydərov döyüş şücaətlərinə görə 9 orden və medallarla təltif edilmişdir. Cəsur döyüşçü "Şöhrət" ordeninin tam üç dərəcəsinin sahibidir.[1]

4. **Hüseynov Əli Nəcəf oğlu** Lerik rayonunun Dəstər kəndində doğulmuşdur. Kiçik çavuş, top komandiri olmuş, 7 dəfə yaralanmışdır. Onun Stalinqraddan başlanan döyüş yolu Çexoslovakiyada başa çatmışdır. 1945-ci il iyunun 24-də Moskvada keçirilən Qələbə rəsmi keçidinin iştirakçısı olmuşdur.[2]

Ə.Hüseynov müharibədən sonra doğma kəndinə qayıtmış, sıravi işlərdə çalışmış, kənd sovetinin katibi seçilmiş, tarlaçılıq briqadasına rəhbərlik etmişdir.

5. **Qədirov Kamil Əmirəhməd oğlu** 1923-cü il sentyabrın 1-də Bakıda doğulmuşdur. 1942-ci ilin əvvəlində orduya çağırılmış, həmin ilin aprelindən döyüşən orduda olmuşdur. Qərb, Cənub-Qərb, Don, Səhra, 1-ci, 2-ci, 3-cü Ukrayna cəbhələrində döyüşmüşdür. 58-ci Qvardiya Atıcı Krasnoqradski Diviziyasının 175-ci Qvardiya Atıcı Alayının 2-ci Atıcı Batalyonunda hesablayıcı dəzgahlı pulemyotuna komandirlik etmişdir.

K.Qədirov 1944-cü il mayın 25-də Varnitski meydanında göstərdiyi qəhrəmanlığa görə 58-ci Qvardiya Atıcı Diviziyasının 037 №-li əmri ilə "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olunmuşdur.

1944-cü ilin yayında I Ukrayna cəbhəsi tərkibində 58-ci Qvardiya Atıcı Diviziyası Polşa ərazisində döyüşlər aparır. 1944-cü il avqustun 9-da Kelets voyevodası Patsanuvski rayonu Pataya Qlina dəmiryol stansiyası ərazisində qvardiyaçılar hitlerçilərin kütləvi hücumunun qarşısını almağa məcbur olurlar. Düşmən 27 tankın dəstəklədiyi batalyona yaxın piyadalarla 75-ci qvardiya atıcı alayın mövqelərinə irəliləyir. Sol cinahda olan Kamil Qədirov pulemyot atəşi ilə 60-a yaxın düşmən əsgərini vurur. Döyüşün gedişində Kamil yaralansa da, döyüş meydanını tərk etmir. Müstəsna igidliyinə və mərdliyinə görə 5-ci qvardiya ordusunun 060 №-li əmri ilə "Şöhrət" ordeninin II dərəcəsinə layiq görülür.

1945-ci ilin yanvarın 20-də 175-ci qvardiya atıcı alayının fəxri "Vislin" adını almış bölməsi polyak şəhəri Lyublinin şimal-qərbində hücum döyüşü aparır. Döyüşün gedişində pulemyot taqımının komandiri sıradan

---

[1] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалерыордена Славы. www.savach-az.com, 509 с., – с.41-44

[2] Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.18-20.

çıxır. Qvardiya serjantı Kamil Qədirov dörd dəzgahlı pulemyotu olan taqımın komandirliyini öz üzərinə götürür. Döyüşdə pulemyot taqımı 50-dən yuxarı əsgər və zabiti öldürür, iki pulemyot nöqtəsini məhv edir. Döyüşçülər 32 hitlerçini əsir götürürlər. Bu döyüşdə Kamil ikinci dəfə yaralansa da, döyüş başa çatana kimi komandirliyini davam etdirir. Polşanın azad edilməsində göstərdiyi mərdlik və qəhrəmanlığa görə baş serjant Kamil Əmirəhməd oğlu Qədirov SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 27 iyun tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olundu.[1]

6. **Kərimov Əli Kərim oğlu** 1914-cü ildə Şamaxının Şıxlı kəndində anadan olmuşdur. 1941-ci ildə ordu sıralarına çağırılmış, 229-cu alayın snayperçisi kimi Stalinqrad, Xarkov və Odessanın azad edilməsində iştirak etmişdir. Moldova və Rumıniyada faşistlərə qarşı döyüşən Ə.Kərimov Buxarest, Vyana və Praqa uğrunda gedən döyüşlərdə igidlik göstərmiş, "Şöhrət" ordeninin III və II dərəcələrinə layiq görülmüşdü. Avtomatçılar bölməsinin komandiri olan starşina Əli Kərimov 44 faşisti məhv etmişdir. Ə.Kərimov "Şöhrət" ordeninin I dərəcəsini Kremldə, SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri M.İ.Kalinini də qəbul etmiş, 1945-ci il iyunun 24-də Moskvada keçirilən Qələbə rəsmi keçidinin iştirakçısı olmuşdur. "Qızıl Ulduz" ordeni və medallarla təltif edilmişdir.[2]

7. **Quliyev Vəli Alı oğlu** 1916-cı ildə Zəngilan rayonunun Qıraq Muşlan kəndində anadan olmuşdur. 1941-ci ildə orduya çağırılan Vəli 1942-ci ildə Buynaksk Piyada Məktəbini bitirmişdir.

V.Quliyev 1943-cü ilin yanvarından döyüşən orduda olmuş, həmin ilin dekabrın 15-də ilk dəfə yaralanmışdır. O, 1944-cü ilin iyunun sonunda I Pribaltika cəbhəsi qoşunları Vitebski hücum əməliyyatında 270-ci Atıcı Diviziyanın 973-cü Atıcı Alayının 1-ci pulemyot batalyonunda hesablayıcı dəzgahlı pulemyota komandirlik etmişdir.

1944-cü il iyunun ayının 26-da 973-cü atıcı alay Belarus SSR Vitebski vilayətinin Şumilov rayonunun Erşova kəndi rayonunda Qərbi Dvina çayında mövqe tutur. Düşmən qarşı tərəfdən minomyot və pulemyotlardan atəş açmağa başlayır. Çayın suyu mina və mərmilərin partlamasından qaynamağa başlayır. Quliyevin pulemyotu iki düşmən pulemyotunu susdurur. Uqruyumovun taqımı döyüşə atılır. Gərgin döyüşlərdə 30-dan artıq düşmən əsgəri məhv edilir. 1944-cü il iyulun 31-də 270-ci hissənin 034 №-li əmri ilə Vəli Quliyev "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olunur.

---

[1] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалерыордена Славы. www.savach–az.com, 509 с. – с.23.

[2] Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.5-9.

Təltifin səhərisi günü-avqustun 1-də V.Quliyev Latviya şəhəri Dauqavpisdən 55 km Şimal-Qərbdə yerləşən Mejisals yaşayış məntəqəsi uğrunda döyüşlərdə yenidən fərqlənir. Faşistlərlə əlbəyaxa döyüşə girən Vəli şəxsən 8 düşmən əsgərini məhv edir, iki pulemyot və iki tüfəngi ələ keçirir. Göstərdiyi igidliyə görə V.Quliyev 1944-cü il sentyabrın 30-da 6-cı Qvardiya Ordusu Qoşunları komandanının 235 №-li əmri ilə "Şöhrət" ordeninin II dərəcəsi ilə təltif olunur. Ona növbəti hərbi rütbə-starşina rütbəsi verilir.

1944-cü ilin oktyabr ayının 5-də I Pribaltika Cəbhəsi qoşunları 20 dəqiqəlik artilleriya hazırlığından və bomba zərbələrindən sonra Klayped istiqamətində hücuma keçirlər. Starşina Quliyev ilk hücum edənlər sırasında Vinta çayını keçərək düşmənin mövqelərinə hücum edir. Əlbəyaxa döyüş başlanır, o, düşmənin bir zabitini və 4 pulemyotçusunu öldürür. Döyüşün gedişində düşmənin müdafiəsi 2-4 km dərinliyində yarılır.

V.Quliyevin dəstəsi Litva şəhəri Şaulyaydan 45 km Şimal-Qərbdə yerləşən Sukonsa kəndi uğrunda döyüşlərdə hitlerçilərin kütləvi hücumunun qarşısını alır. Döyüşün gedişində Quliyev dəqiq nişan alaraq qumbara ilə düşmən zirehli maşınını vurur, avtomat atəşi ilə düşmən piyadasını məhv edir. Latviyanın azad edilməsi uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlığa və mərdliyə görə Vəli Quliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 mart 1945-ci il tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunur. [1]

8. **Məmmədov Minur İsa oğlu** 1924-cü il martın 12-də Gürcüstan SSR-in Adigey rayonunun Moxe kəndində doğulmuşdur. 1942-ci ilin sentyabrında ordu sıralarına çağırılan Minur dekabr ayında Voronej Cəbhəsində döyüşlərdə iştirak etmiş və ilk dəfə yaralanmışdır. Hərbi peşəsi pulemyotçu olan Minur 305-ci Belqorod Atıcı Diviziyasının 1004-cü Atıcı Alayında hesablayıcı dəzgahlı pulemyotun tərkibində döyüş yolunu davam etdirmiş və 1944-cü il aprelin 20-də "Qızıl Ulduz" ordeni ilə təltif olunmuşdur. 2 ay hospitalda müalicə olunan Minur Məmmədov yenidən orduya qayıtmış, bu dəfə 340-cı Sum-Kiyev Atıcı Diviziyasının 1144-cü atıcı alayının 3-cü pulemyot bölüyündə hesablayıcı dəzgahlı pulemyotun komandiri kimi döyüş yolunun davam etdirmiş, 340-cı diviziya 60-cı ordunun tərkibində I Ukrayna cəbhəsində Lvov-Sandomir hücum əməliyyatında iştirak etmişdir. Bu döyüşlərdə də Minur özünü dəqiq nişançı, qorxmaz döyüşçü kimi göstərmişdir. 1944-cü il iyulun 8-də 1144-cü alay üzrə 023/n №-li əmrlə "Döyüş xidmətlərinə görə" medalı və növbəti hərbi rütbə-kiçik serjant rütbəsi ilə təltif olunmuşdur.

---

[1] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена Славы. www.savach–az.com, 509 с., – с.28-30.

1944-cü ilin payızında 340-cı atıcı diviziya Karpat dağlarına yaxınlaşır, gərgin döyüşlər başlanır. Bu döyüşlərdə 1144-cü Alayın döyüşçüləri düşməni geri atırlar. Şərqi Karpatda Şlyaxertske kəndi rayonunda baş verən döyüşdə M.Məmmədov əlverişli mövqe seçərək yaxın məsafədən atəş açır və düşmən 20 əsgər itirərək geri çəkilir. M.Məmmədov şəxsi igidliyinə və səriştəli rəhbərliyinə görə 340-cı Diviziya üzrə 1944-cü il 6 oktyabr tarixli 062/n №-li əmrlə ikinci "Qırmızı Ulduz" ordeni ilə təltif olunur.

Karpatda döyüşlər davam edirdi. 1944-cü il oktyabrın 26-da 1144-cü alay polyak şəhəri Yaslo rayonunda yüksəkliyə yaxınlaşır. Yüksəklikdə mövqe tutan hitlerçilər piyadaların yolunu pulemyot atəşi ilə kəsirdilər. Həmin anda Minur Məmmədov həlledici hücumla döyüşçülərin önünə keçir və dəqiq nişanla 3 pulemyot nöqtəsini və 16 hitlerçini məhv edir. Beləliklə, qarşıya qoyulan döyüş tapşırığı müvəffəqiyyətlə yerinə yetirilir. 340-cı diviziya üzrə 12 noyabr 1944-cü il tarixli 071/n №-li əmrlə "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olunur.[1]

1945-ci ilin əvvəlindən 340-cı Atıcı Diviziya IV Ukrayna Cəbhəsi qoşunları tərkibində Polşa ərazisində döyüşlər aparırdı. Yanvarın 21-də Mesteçse yaşayış məntəqəsi uğrunda döyüşlərdə serjant Məmmədov pulemyot atəşi ilə döyüşçülərə yol açır, üç pulemyot nöqtəsini və bir dəzgahlı pulemyotu susdurur, 2 pulemyotçunu əsir götürür, 13 hitlerçi məhv edilir. Göstərdiyi igidliyə görə M.Məmmədov 38-ci ordu üzrə 8 mart 1945-ci il tarixli 18/n №-li əmrlə "Şöhrət" ordeninin II dərəcəsi ilə təltif olunur.

1945-ci ilin yanvarında Diviziyanın hissələri Belsko-Byalo polyak şəhərinə yaxınlaşır. Hitlerçilərin güclü müqavimətinə baxmayaraq onlar mühasirəyə alınırlar. Fevral ayının əvvəllərindən 12-dək olan dövrdə Məmmədovun bölmələri bir neçə dəfə düşmən hücumunu dəf etməli olurlar. Döyüşlərin birində Minur öz bölməsini hücuma qaldırır və verilən tapşırıq yerinə yetirilir. İşğalçılarla mübarizədə mərdlik və qəhrəmanlıq göstərdiyinə görə Minur İsa oğlu Məmmədov SSRİ Ali Soveti Rəyasət Heyətinin 15 may 1946-cı il tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunur.

9. **Mehdizadə Sultan Ağa oğlu** Bakıda anadan olmuşdur. Baş serjant, kəşfiyyatçı-snayperçi S.Mehdizadə ağır döyüş yolu keçmişdir. Müharibə illərində döyüş yolunu Stalinqraddan başlayıb Berlində başa vuran qəhrəman döyüşçü 4 dəfə yaralanmış, Kursk və Oryol şəhərlərinin, Ukrayna, Belarus və Polşanın azad edilməsindəki qəhrəmanlığına görə "Şöhrət" ordeninin III və II dərəcələrinə layiq görülmüşdür. Berlin uğrunda döyüşlərdə şəxsən 3 düşmən tankını, 5 faustpatronu məhv etmiş, 8 esesçini əsir almışdır. Berlin uğrunda döyüşlərdə göstərdiyi qəhrəmanlıq və cəsarətə

[1] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена Славы. www.savach-az.com, 509 с., с.33.

görə S.A.Mehdizadə SSRİ Ali Sovet Rəyasət Heyətinin 15 may 1945-ci il tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunmuşdur.[1]

10. Nemətov Ağahəsən Mamulu oğlu Astara rayonun Sarek kəndində dünyaya göz açmış, 1942-ci ildə könüllü sürətdə cəbhəyə yollanmış, atıcı qvardiya hissəsində qulluğa başlamışdır. O, əvvəlcə atıcı kimi döyüşlərdə iştirak etmiş, Donbas uğrunda döyüşlərdə yaralansa da, hissədən ayrılmamış, Sevastopola qədər irəliləmişdi. Krım döyüşlərindən sonra digər cəbhəyə göndərilən A.Nemətov Pribaltikada minatəmizləyən batalyonun tərkibində döyüşmüşdü. A.Nemətov Şaulyay və Qumbinin şəhəri astanasında faşist minalarını zərərsizləşdirmiş və "Şöhrət" ordeninin III və II dərəcəsi ilə təltif olunmuşdu.

Keninqsberq uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərən A.Nemətov SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 aprel 1945-ci il tarixli fərmanı ilə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olundu.

1947-ci ildə ordudan tərxis olunan A.Nemətov doğma kəndinə qayıtdı.[2]

11. **Novruzəliyev Qonaqbəy Mövlam oğlu** Quba rayonunun Nügədi kəndində dünyaya gəlmişdir. Döyüş yolunu Praqada başa vuran Qonaqbəy 2 dəfə ağır yaralanmış, əsir düşmüş, lakin qaçaraq partizan dəstəsinə qoşulmuş, iki il partizanlarla birgə döyüşmüşdür. Sovet ordusu ilə birləşən partizan dəstəsində Q.Novruzəliyev də vardı. "Şöhrət" ordeninin tam üç dərəcəsinə layiq görülmüşdür.[3]

12. **Rəhimov Rəhim Cəfər oğlu** Naxçıvanın Suet kəndində doğulmuşdur. Minomyot bölməsinin komandiri olmuşdur. Şimali Qafqazdan Şərqi Prussiyaya qədər döyüş yolu keçərək 2 dəfə yaralanmış, döyüş xidmətlərinə görə 4 orden, 6 medalla təltif olunmuşdur.

R.Rəhimov 252-ci Qvardiya Atıcı Alayında Don və Dneprdə, Belarusiya və Pribaltika uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmişdir. "Qırmızı Bayraq", "Qızıl Ulduz" ordenləri, "Şöhrət" ordeninin III və II dərəcəsini alan R.Rəhimov 1971-ci ildə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunmuşdur.[4]

---

[1] Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.31-34.

[2] ЦАМО РФ, Фонд №33, Опис №686046, Дело №26; Провалинский, М.Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.10-13.

[3] Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.50-52.

[4] Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку, 1975. – с.59-61.

13. **Hətəmov Rəhməd Məmməd oğlu** 1924-cü ildə Astara rayonunun Sənəcərədi kəndində doğulmuşdur. 1942-ci ildə orduya çağırılan Rəhməd 1943-cü ilin avqustundan döyüşən orduda olmuş, I Ukrayna, I Pribaltika və Leninqrad cəbhələrində döyüşmüşdür.



R.Hətəmov 1944-cü il sentyabrın 4-də "İgidliyə görə" medalı, həmin ilin noyabrın 6-da və 1945-ci il fevralın 16-da "Şöhrət" ordeninin III dərəcəsi ilə təltif olunur. 1945-ci ilin martında "Şöhrət" ordeninin II dərəcəsi ilə təltif olunan R.Hətəmova serjant rütbəsi verilir.

R.Hətəmova 65 kəşfiyyat reydində iştirak edərək düşmənin 46 əsgər və zabitini məhv etmiş, 4 nəfəri əsir tutmuş, 1945-ci il iyul ayının 10-da II dərəcəli "Vətən müharibəsi" ordeni ilə təltif edilmişdir.

R.Hətəmov ümumi qaydalara zidd olaraq "Şöhrət" ordeninin III dərəcəsi ilə iki dəfə təltif olunmuşdur. Bu səhv sonralar düzəldilmiş, 3 noyabr 1977-ci ildə "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif edilmişdir.

14. **Həşimov İslam Məhərrəm oğlu** 1919-cu ildə Kəlbəcər rayonunun Aşağıxaç kəndində dünyaya gəlmişdir. 1939-cu ildə Kəlbəcər Rayon Hərbi Komissarlığından ordu sıralarına xidmətə çağırılmış, 1941-ci il 22 iyunundan 3-cü Belorusiya Cəbhəsinin 3-cü Qvardiya Süvari Korpusunun 5-ci Qvardiya Süvari Diviziyasının 24-cü Qvardiya Süvari Alayının kəşfiyyat taqımının üzvü kimi döyüşən ordu sıralarında olmuşdur.[1] İ.Həşimov 1942-ci il noyabrın 10-da işğalçılarla döyüşdə ağır yaralanmış və 1943-cü ilin martında yenidən yüngül yara almışdır.

İ.Həşimov 1944-cü ilin yayından Q.İ.Kotovski adına "Lenin" ordenli Qırmızı Bayraqlı 5-ci süvari diviziyasının Qırmızı Bayraqlı "Suvorov" ordenli 24-cü süvari polkunun kəşfiyyatçı taqımında kəşfiyyatçı idi. Krasnoyarsk bölgəsinin dəmiryolu stansiyasında yaxınlaşan döyüş zamanı İ.Həşimov şəhərə birinci daxil olaraq avtomat atəşi ilə 3 alman əsgərini məhv etmiş iki nəfəri əsir götürmüşdür. Əsir almanlardan düşmənin harada olduğu barədə dəyərli məlumatlar toplanmışdı. 1944-cü il iyulun 13-də kəşfiyyat qrupunun üzvü, əsgər İ.Həşimova Qrodno şəhəri və şəhərə gedən yolun kəşfiyyatını aparmaq tapşırılır. Qrup verilən tapşırığı yerinə yetirir və düşmən haqqında məlumatlar toplanır. Qvardiya Süvari Diviziyasının 1944-cü il 24 iyul tarixli 014/n saylı əmri ilə İ.Həşimov "Şöhrət" ordeninin III dərəcəsinə layiq görülür.[2]

---

[1] Наградной лист в электронном банке документов «Подвиг народа» (архивные материалы ЦАМО. Ф. 33, оп. 690155).

[2] Наградной лист в электронном банке документов «Подвиг народа» (архивные материалы ЦАМО. Ф. 33, оп. 690155).

1945-ci il yanvarın 22-də İ.Həşimov Allenşteyn şəhəri (indiki Polşanın Olsztyn (Ольштын) şəhəri) ərazisində sağ cinahda düşmənin qüvvələrinin tərkibini müəyyənləşdirmək üçün kəşfiyyat aparmaq əmrini alır. Tapşırığı yerinə yetirərkən İ.Həşimov 20-yə yaxın əsgərin olduğu bir alman avtomobilini müəyyənləşdirir, gizli şəkildə yaxın məsafədən maşına yaxınlaşaraq qumbara atır 10 alman əsgəri öldürülür, iki nəfər əsir götürülür. Əsir götürülən alman əsgərlərindən alınan məlumatlar düşmən mövqelərini müəyyənləşdirməyə və düşmənə itki verməyə imkan verir. 24-cü süvari alayının komandiri, polkovnik-leytenant Tkalenko İ.Həşimovun fəaliyyəti yüksək qiymətləndirir. 1945-ci il fevralın 14-də 2-ci Belorusiya Cəbhəsi qoşunlarının komandanlığının 0124 saylı əmri ilə İ.Həşimov "Şöhrət" ordeninin II dərəcəsinə layiq görülür.[1] 1945-ci il aprelin 30-da Berlin hücum əməliyyatı zamanı 24-cü Qvardiya Süvari Alayının kəşfiyyat tağımı, onbaşı İslam Həşimov Rauschendorf (Nem) kəndi yaxınlığındakı əsas keşikçi patrulun bir hissəsi kimi keşik çəkərkən kəşfiyyatçılar pusqu quraraq döyüşə girir və bir taqım alman əsgərini məhv edirlər, dörd nəfər əsir götürülür. Döyüş tapşırığını yerinə yetirməyə davam edən İ.Həşimov və yoldaşları gizli şəkildə düşmənin mövqelərinə yaxınlaşaraq müdafiə xəttini araşdırırlar. Alınan məlumatlar sayəsində alayın əsas qüvvələri uğurlu hərəkət edə bilirlər. Döyüş tapşırıqlarının nümunəvi yerinə yetirilməsinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin 1945-ci il 29 iyun tarixli Fərmanı ilə İ.Həşimov "Şöhrət" ordeninin I dərəcəsi ilə təltif olunur.[2]

1945-ci ilin oktyabrında baş çavuş İslam Həşimov ordudan tərxis olunur və Azərbaycana qayıdır. Yevlax rayonunun 28 aprel (indiki işçi Aran kəndi) adına kənddə yaşayır.

İslam Həşimov I dərəcəli "Vətən müharibəsi" ordeni (6 aprel 1985) və medallarla təltif olunmuşdur.

15. Eldarov Süleyman Ələsgər oğlu Şəki şəhərində doğulmuşdur. Baş serjant, top komandiri olmuş, 7 dəfə yaralanmış, Stalinqraddan Çexoslovakiyayadək döyüş yolu keçmişdir.

S.Eldarov Oryol-Kursk ətrafındakı vuruşmalarda göstərdiyi şücaətə görə "Şöhrət" ordeninin III, Jitomir-Kiyev döyüşlərinə görə II, Ostrava ətrafında almanlar üzərində qəti qələbə çalmaqdakı igidliyinə görə "Şöhrət" ordeninin I dərəcəsinə layiq görülmüşdür.[3] O, 1945-ci ilin iyunun 24-də Moskvada keçirilən Qələbə rəsmi keçidinin iştirakçısı olmuşdur.[4]

---

[1] Yenə orada.

[2] Гусейнов, А.А. Азербайджан 1941-1945. Кавалеры ордена Славы. www.savach-az.com, 509 с., с.53-55; Наградной лист в электронном банке документов «Подвиг народа» (архивные материалы ЦАМО. Ф. 33. Оп. 690155).

XII FƏSİL

MÜHARİBƏ İLLƏRİNDƏ AZƏRBAYCAN SSR ƏRAZİSİNDƏ ANTİSOVET TƏZAHÜRLƏRİ

ÜİK(b)P üzv namizədləri və üzvləri və ÜİK(b)P və ÜİLKGİ sıralarından azad olununlar arasında antisovet təzahürləri

1941-1945-ci illər müharibəsi dövründə Bakı şəhəri və Azərbaycan rayonlarında XDİK orqanları 156 nəfər ÜİK(b)P üzvlüyünə namizəd və üzvlərini həbs etmişdi. Onlardan 87 nəfəri azərbaycanlı, 18 nəfəri erməni, 36 nəfəri rus, 14 nəfəri qeyri millətlərdəndir. 80 nəfər əks-inqilabi fəaliyyətinə görə, 7 nəfəri vəzifə cinayətinə, oğurluq, səfərbərlikdən yayınma, fərarilik və s. görə həbs olunmuşdu.[1] Bu həbslərin səbəbi, istintaq materiallarından göründüyü kimi, bir sıra şəxslər tərəfindən də antisovet təbliğatını aparmaları, alman faşistlərinin qalib gələcəkləri ilə bağlı aparılan təbliğatla bağlı idi. Lakin, bu sənədlərdə bu vətəndaşların nə üçün belə mövqe tutmalarının səbəbləri göstərilmirdi. Məsələnin maraqlı tərəfi odur ki, bütün SSRİ ərazisində, o cümlədən Azərbaycanda Sovet hakimiyyəti qurularkən 20-30-cu illərdə əhalinin müxtəlif təbəqələrinə münasibət məsələsində yeni qurulan hakimiyyət tərəfindən kütləvi cinayətlər törədilmişdi. Azərbaycan SSR yaradılarkən 90-cı illərin əvvəlində respublikada müxtəlif bəhanələrlə 48 min nəfər güllələnmişdi. 20-ci illərin sonu – 30-cu illərin I yarısında kənd təsərrüfatının kollektivləşdirilməsi zamanı həyata keçirilən sinfi düşmənləri məhv etmək və 1937-ci ildən başlayaraq tətbiq edilən kütləvi repressiya siyasətinin ağlasığmaz nəticələri milli mənsubiyyətindən asılı olmayaraq əhalinin müxtəlif təbəqələrinin alman faşizminin SSRİ-ə müharibə elan etməsindən sonra özünü büruzə verməyə başladı. İstintaq sənədlərinin elmi təhlili belə bir fikri söyləməyə əsas verir.

İstintaq materialı ilə "müəyyənləşdirilmişdir" ki, əks-inqilabi cinayətə görə həbs olunanlar əsasən düşmən əhval-ruhiyyəli adamlar olub, müxtəlif yollarla partiya sıralarına soxulmuşlar. Onlardan çoxunun qohumu repressiya olunmuş və ya sovet hökumətinə düşmən olan elementlərlə əlaqədədirlər. Bu kateqoriyadan olanlar antisovet fəaliyyəti ilə məşğul olaraq əks-inqilabi təşviqat aparmış, partiya və hökumətin həyata keçirdiyi tədbirləri şübhə altına almış, insanlarda həyəcan əhval-ruhiyyəsi yaratmaq məqsədilə yalan təxribatlar yaymış, əhali arasında faşizmi tərifləyərək terrorçu əhval-ruhiyyəsi və təslimçilik dünyagörüşü yaratmağa cəhd göstərmişlər.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 15.

Həbs olunanların bəzi hissəsi öz qohumları və yaxınlarını mühakimə edənlərdən narazı olaraq sovet hökuməti əleyhinə mübarizə aparanların tərəfinə keçmək istəmişdi. Partiya üzvlüyünə namizədlər və üzvləri arasında əks-inqilabi istiqamətdə antisovet məzmunlu vərəqlər yaymışdılar. Belələrinə 1905-ci il təvəllüdlü, partiya üzvü, "Azərenerji" də əmək üzrə mühəndis Koçetkov Vasiliy Timofeyeviçi, 1910-cu il təvəllüdlü, 1941-ci ildən partiya üzvü, AzTAQ-ın səyyar müxbiri Pervanov İvan İvanoviçi, 1906-cı ildə anadan olmuş, 1929-cu ildən partiya üzvü, "Başnefttikinti"də mühəndis-mexanik Veryukov Fyodr Andreyeviçi, 1905-ci il təvəllüdlü, 1933-cü ildən partiya sıralarında olan Perşev Aleksey Terentyeviçi göstərmək olar.[1]

Arxiv sənədlərindən aydın olur ki, 1941-ci ilin avqust ayından başlayaraq Bakı şəhərində və Azərbaycanın rayonlarında partiya və sovet təşkilatlarının rəhbərlərinin ünvanına sovet hakimiyyətini devirmək, ÜİK(b)P rəhbərləri ilə haqq-hesab çəkmək çağırışı ilə dolu poçtla anonim məktublar gəlməyə başlanmışdır. Bununla yanaşı müəlliflər poçt qutuları vasitəsilə əks-inqilabi məzmunlu vərəqələr yaymışlar. Axtarış zamanı müəyyən edilmişdi ki, bu sənədlərin müəllifi 1909-cu ildə anadan olmuş, partiya üzvü, "Azun" trestində taxıl anbarının müdiri olmuş Cəfər Ağacanoviç Novruzovdur. Sonralar həbs olunan C.Novruzov əks-inqilabi məzmunlu məktublar və vərəqələri özü yazdığını və yaydığını etiraf etmişdir. C.Novruzov bildirmişdi ki, onda əks-inqilabi əhval-ruhiyyə məsul rəhbər işdən çıxarılandan sonra yaranmışdı.[2] C.Novruzovdan yazdığı və yaydığı əks-inqilabi məzmunlu 15 məktub və 18 vərəqə dəlil kimi istintaqa verilmişdir.

"ÜİK(b)P üzvü və üzvlüyünə namizədlərin əhval-ruhiyyəsi haqqında" XDİK T.Yaqubovun 15 iyul 1942-ci il tarixli arayışında[3] bildirilirdi ki, son vaxtlar Azərbaycan SSR Neft Sənayesində və elektroenergetikada işləyən partiya üzvləri və üzvlüyə namizədlər sırasında qeyri-sağlam əhval-ruhiyyə qeydə alınmışdır. Belə adamlar sırasında 1912-ci il təvəllüdlü, "Krasin" adına DRES-də stansiyada turbin sexinin rəisi işləyən Rudakov Yakov Dmitriyeviç, 1904-cü ildə anadan olmuş, milliyyətcə erməni, Mərkəzi Elektrik Stansiyasının direktoru işləyən Baratov Şagen Aruşanoviç,[4] 1912-ci ildə anadan olmuş, azərbaycanlı, Azərbaycan K(b)P MK üzvü, "Qızıl Ulduz" DRES-nin ocaqçı sexinin keçmiş çilingəri İsmayılov Dadaş Fətulla oğlu,[5] "Qızıl Ulduz" DRES-nin turbin sexinin maşinist köməkçisi, 1909-cu il təvəllüdlü, milliyyətcə rus Kurkov Andrey Aleksandroviç,[6] 1911-ci il təvəllüdlü, ÜİK(b)P üzvlüyünə namizədi, "Qızıl Ulduz" DRES-nin turbin

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 5.
[2] Yenə orada, vərəq – 16.
[3] Yenə orada, vərəq – 5–10.
[4] Yenə orada, vərəq – 5.
[5] Yenə orada, vərəq – 6.
[6] Yenə orada, vərəq – 5.

sexinin maşinisti Davidyan Arşak Melkumoviç,[1] 1916-cı ildə anadan olmuş, azərbaycanlı, ÜİK(b)P üzvlüyünə namizəd, Stalin şəbəkə rayonunda növbətçi texnik Şahsuvarov Heydər Zeynal oğlu, "Kirovneft" trestinin quyuların əsaslı təmiri kontorunun böyük ustası, milliyyətcə ləzgi Zakircanov Zabrid Murtuzoviç[2] vardır.

ÜİK(b)P üzvü, 1901-ci ildə anadan olmuş, "Leninneft" trestinin qazıma kontorunda elektrik mantyoru, Klimanov Stepan Dmitriyeviç, ÜİK(b)P üzvü, 1911-ci il təvəllüdlü azərbaycanlı, "Stalinneft" trestində qaz kəməri müdiri Dadaşov Ağa Dadaş oğlu,[3] "Orconikidzeneft" trestinin mühəndisi, ÜİK(b)P üzvü Baxşıyev Məmməd Abdulla oğlu,[4] 1904-cü ildə anadan olmuş, ÜİK(b)P üzvü, "Stalin" adına zavodda sex ustası İşakov Yefim Arsenyeviç,[5] "Stalin" adına zavodun 3 №-li sexində quraşdırıcı briqadir, ÜİK(b)P üzvü İkonnikov Mixail Petroviç, "Andreyev" adına zavodda dülgər, 60 yaşlı Kayuçkin Matvey, həmin zavodun digər işçiləri, milliyyətcə erməni Akopyan Akop Aleksandroviç, 3 №-li sexin buxar təsərrüfatının briqadiri, milliyətcə rus Qavrilin Timofey Akimoviç antisovet təslimçilik təbliğatı aparmışlar.

ÜİK(b)P sıralarından xaric olunmuş Abdullayev Zülfüqar Həsən oğlu 1998-ci ildə anadan olmuşdur, "Azərnəşr"də tərcüməçi işləmiş, ətrafına müsavatçı elementləri toplayaraq qulluq yerində antisovet təbliğatı aparmış, təslimçilik baxışı ifadə etməklə faşist Almaniyası ilə müharibədə SSRİ-nin məhvinin qaçılmaz olduğunu söyləmişdir.

Z.Abdullayev antisovet iş metodlarından biri kimi antisovet məzmunlu anonim məktublar yazmış, əhalini sovet hökuməti ilə mübarizəyə səsləmişdir. Bu məktublarda Abdullayev ayrı-ayrı rəhbər işçiləri SSRİ-nin məğlubiyyətinin qaçılmaz olması ilə qorxutmuş, onları öz tərəfinə çəkməyə səy göstərmişdir. Z.Abdullayev 1941-ci ilin dekabr ayında ərəb əlifbası ilə Az. FAN-nın direktoru H.Hüseynova göndərdiyi anonim məktubda yazırdı: "Heydər! İrandan gəlmiş almanlar antifaşist işi aparanları aşkar etməklə məşğuldurlar. Şübhəsiz onlara sənin yazdığın antifaşist məqalələr məlum olacaq. Ehtiyatlı ol!".[6]

1942-ci ilin mart ayında Qızıl Orduya çağırış ərəfəsində Zülfüqar Abdullayev Səməd Vurğunun ünvanına ikinci məktub hazırlayır və poçtla göndərir. Məktubda şairi ziyalıların antifaşist mitinqində çıxışı ilə qorxudur. Məktubda yaralı qızıl əsgər kimi Bakıda hospitalda müalicə olunduğunu

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 5.
[2] Yenə orada, vərəq – 7.
[3] Yenə orada, vərəq – 8.
[4] Yenə orada.
[5] Yenə orada, vərəq – 9.
[6] Yenə orada, vərəq – 3.

bildirən Z.Abdullayev Fəhlə-Kəndli Qızıl Ordusu sıralarına böhtan ataraq faşist Almaniyasını və onun ordusunu tərif etmişdi.[1]

1942-ci il yanvarın 31-də 1907-ci il təvəllüdlü, kustar oğlu, orta təhsilli, 1926-cı ildə ÜİK(b)P üzvü, Azərbaycan SSR Ali Sovetinin deputatı, Bakı şəhərində təxliyə hospitalında komissar Nəsirov Qulam Abbasoviç həbs olunmuşdur. İstintaq göstərmişdi ki, Nəsirov ideya-siyasi münasibətdə əks-inqilabi yol tutmuş, son üç il ərzində özünün həmfikirləri ilə əks-inqilabi iş aparmış, sovet hökuməti və partiya rəhbərləri haqqında yalanlar uydurmuş, özünün həmfikirləri ilə görüşlərdə və söhbətlərdə sovet hökuməti və partiyanın tədbirlərini əks-inqilabi mövqedən müzakirə etmiş, MK-nın düzgün olmayan siyasəti nəticəsində kolxozçuların çörəksiz qaldığını, nəticədə aclıq baş verdiyini təsdiq etmişdir. Nəsirov sovet hakimiyyətinin dəyişdirilməsinin vacib olduğunu təbliğ etmişdir.[2]

ÜİK(b)P üzvü, Təbliğat evində məsləhətçi işləyən Axundov Ağabala Mahmud oğlu bir neçə il türkçü görüşləri səsləndirmiş, sovet hökuməti və partiya tədbirləri haqqında yalanlar iddia etmiş, **sovet hökumətinin Azərbaycana digər respublikalardan az diqqət yetirdiyini**, Sovet hökumətinin faşist Almaniyası ilə müharibədə məğlub olmasının qaçılmaz olduğunu söyləmişdir. A.M.Axundov ermənilərin Azərbaycanda hökmranlıq etməsi, erməni xalqının Azərbaycan xalqının düşməni olması haqqında fikirlər bildirmişdir. Axundov Türkiyənin iqtisadiyyatı və mədəniyyətini tərifləmiş və populyarlaşdırmışdı.

Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə 1942-ci il sentyabrın 23-də "Neftayırma trestində işləyən bəzi ÜİK(b)P üzvlərinin əhval-ruhiyyəsi haqqında" "tam məxfi" qriflə daxil olmuş arayışda[3] bildirilirdi ki, müharibə cəbhələrində vəziyyətin mürəkkəbləşməsi neft sənayesində çalışan bəzi partiya üzvlərinin əhval-ruhiyyəsində dəyişikliklərə səbəb olmuş, antisovet fikirlər səslənməyə başlamışdır. Bunlar iki qrupa-müsbət və mənfi qruplara ayrılır.

Faşist Almaniyasının SSRİ-yə qəfləti basqınından sonra müharibə başlananadək ÜİK(b)P və ÜİLKGİ sıralarından xaric olunanlar arasında antisovet təzahürləri qeydə alınmışdır. Partiya və komsomol sıralarından xaric olunmuş və müharibə dövrü həbs olunmuş 95 nəfərin istintaq materiallarından məlum olur ki, bu kateqoriyadan olan şəxslər partiya və sovet hökumətinə düşmən mövqedə dayanaraq fəal antisovet fəaliyyət aparmış, sovet hökumətini əks-inqilabi məğlubiyyətçilik təşviqatı yolu ilə dağıtmaq, antisovet ruhu formalaşdırmağa cəhd etmişlər. Bu xarakter olanlardan bir neçə nümunəyə nəzər salaq.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 3.
[2] Yenə orada, vərəq – 17.
[3] Yenə orada, vərəq – 354–358.

ÜİK (b) P sıralarından xaric olunmuş "Bakinskiy raboçiy" zavodunun keçmiş xarratı Gennadi Qriqoryeviç Apanoviç sistematik olaraq antisovet təşviqatı ilə məşğul olmuş, ətrafına siyasi cəhətdən yetkin olmayanları və partiya sıralarından xaric olanları toplamışdı. Dəflərlə özünün və keçmiş partiya üzvü Maksim Nikitinin mənzilində toplaşıb spirtli içki qəbul edərək partiya və hökumətin tədbirlərini antisovet ruhda müzakirə etmişlər.[1] Bu iş üzrə Apanoviç Gennadiy Qriqoryeviç, partiyadan xaric olub mənimsəməyə görə mühakimə edilən və həbs olunan vaxt "Bakinskiy raboçiy" zavodunda hərbiləşdirilmiş mühafizənin rəisi işləyən Pirkov İlya Petroviç, partiyadan xaric olunmuş, həbs anında Bakı şəhəri "L.Şmitd" adına mexaniki zavodda mühasib işləyən Purkov Pavel Petroviç, RSDFP-nin keçmiş üzvü, keçmiş bina sahibi, ali hüquq təhsilli, iki dəfə cinayət məsuliyyətinə cəlb olunmuş, müəyyən məşğuliyyəti olmayan və müntəzəm olaraq antisovet təşviqatı ilə məşğul olan 1880-ci il təvəllüdlü Kolesnikov İvan İvanoviç, 1894-cü il təvəllüdlü, ixtisasca jurnalist, 1917-ci ildən partiya üzvü olmuş və partiya sıralarından xaric edilmiş, 1933-cü ildə antisovet məzmunlu poema yaymaqda iştirak etdiyi üçün həbs olunmuş, müəyyən məşğuliyyəti olmayan Muran Konstantin Konstantinoviç, 1889-cu il təvəllüdlü, partiyadan xaric olunmuş, "Beriya" adına Ət Kombinatında ocaqçı işləyən Volçenkov Dmitriy Prokofyeviç, 1889-cu il təvəllüdlü, keçmiş neft kəməri sahibinin oğlu, Bakı İcraiyyə Komitəsinin memarlıq-planlaşdırma idarəsində layihəçi işləyən Kolesnikov Aleksandr Yakovleviç həbs olunmuşlar.

İ.İ.Kolesnikov öz mənzilində xüsusi toplantıda faşist Almaniyası ilə müharibədə SSRİ-nin məğlubiyyətinin qaçılmazlığını və sovet hakimiyyətinin məhvini təbliğ etmişdir.[2] Toplantıların birində Kolesnikov bildirmişdi ki, "Proletariat diktaturasının mövcud olduğu 20 ildən artıq dövr ərzində biz müxtəlif talon sistemli boş mağazalar və ac xalq gördük. Ona görə hesab edirəm ki, sovet hökuməti özünü doğrultmadı. Bolşevik partiyası ideyası çoxlu insanları əhatə etsə də, bütün kütlələri əhatə edən ümumi ideyaya çevrilmədi. Elə ideya tapmaq lazımdır ki, ümumi ideya olsun, belə ideya ancaq şəxsi maraq – xüsusi mülkiyyət ideyası ola bilər".[3]

Antisovet qrupunun ikinci iştirakçısı Muran cəbhədə vəziyyət haqqında söhbətdə demişdi: "Sovet cəbhəsi artıq pozulmuşdur. Sanitar qatarla Bakıya gələn qız mənə söyləmişdi ki, sovet cəbhəsində sərxoşluq və oğurluq baş alıb gedir. Qızıl əsgərlər almanlara tərəf qaçmaq üçün komandirlərin və komissarlarının arxaya çəkiləcəyi anı gözləyirlər".[4]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 19.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq – 19–20.
[4] Yenə orada, vərəq – 20.

Həmin qrupun üçüncü iştirakçısı cəbhədə vəziyyət və ordu sıralarında çağırışda və xətdə davranış mövzusunu müzakirə edərək demişdi: "Bilirsiniz almanlar nə üçün tez irəli getdilər, ona görə ki, sovet generalları özünü qoruyaraq öz orduları ilə Hitlerin tərəfinə keçdilər. Hətta ən yaxşı general Timoşenko belə Hitlerin tərəfinə keçmişdir. Leninqrad cəbhəsinin komandanı, öz ordusu ilə Hitlerin tərəfinə keçərək ordunu Leninqradın əksinə çevirmişdir, beləliklə Leninqrad hazırda almanların əlindədir.

Krım və Sevastopol almanların əlindədir. Bundan başqa almanlar Şimali Qafqazı tutmuşlar, tezliklə Bakıya gələcəklər. Bax indi fikirləşin, cəbhəni necə saxlayaq, özünü, ailəni və həyatını necə xilas edəsən. Almanların tərəfinə keçmək lazımdır, bunun üçün özünlə və digər qızıl əsgərlərdə əlaqə yaratmaq, əgər olmasa tək keçmək lazımdır".[1]

Kirov adına mexaniki zavodda xarrat işləyən, 1903-cü il təvəllüdlü Popkov Fyodr Qriqoryeviç antisovet ruhlu adam kimi tanınırdı. Onunla yaxınlıq edənlərin əksəriyyəti partiyadan xaric olub müntəzəm olaraq antisovet təslimçilik təşviqatı aparmış, ətrafdakılarda əks-inqilabi istiqamət formalaşdıraraq zavodda antisovet qrupu yaratmışdı.

Popkovun qrupuna aşağıdakı şəxslər daxil idi.

1. **Semyonin Konstantin Nikolayeviç** – 1910-cu ildə anadan olmuş, ÜİK(b)P-dən xaric olan, "Kirov" adına mexaniki zavodda malları ayırıb zay etməklə məşğuldur.

2. **Potapov İvan Petroviç** – 1912-ci il təvəllüdlü, komsomol sıralarından xaric olunub, Kirov adına zavodda nəzarətçi;

3. **Seroqlazov Afanasiya Mixayloviç** – 1906-cı il təvəllüdlü, partiya sıralarından xaric olunmuş, zavodda zay məhsul istehsal edəndir; Qrupa daha 8 nəfər də daxil edilmişdi. Həbs olunan Popkov etiraf etmişdi ki, antisovet təşviqatı aparmaqdan əlavə düşmən işi kimi əks-inqilabi məzmunlu sualları divarlara yapışdırmış, sovet hökuməti və partiya rəhbərləri əleyhinə çağırışlar etmişdir.

ÜİK(b)P sıralarından xaric olunan, "Paris Kommunası" adına zavodda çilingər işləyən Mixail Fyodroviç Finoqenov bir neçə il keçmiş tramvay parkındakı iş yoldaşları arasında müntəzəm olaraq, sonra isə zavodda antisovet trotskistçi istiqamətdə təşviqat aparmış, Sovet dövlətini və partiyanın tədbirlərini hörmətdən salmış, təslimçilik əhval-ruhiyyəsi və təxribatçı şayiələr yaymış, sovet hökuməti və partiya əleyhinə bir sıra əlyazma kitab yazmışdı. Kitablarının birində ikinci inqilabın vacibliyi haqqında trotskistçi nəzəriyyəni təbliğ etmiş, yazdığı kitabları gizli şəkildə siyasi cəhətdən yetkin olmayan bəzi fəhlələrə oxumaq üçün vermişdi.[2]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 20.
[2] Yenə orada, vərəq – 3.

Partiya və komsomol sıralarından xaric olunanlar təşviqatlarında terror əhval-ruhiyyəsi söyləyərək mülahizələrini əsaslandırmağa çalışmışlar. 1910-cu il təvəllüdlü, partiya sıralarından xaric olunmuş Azərbaycan SSR Səfərəliyev rayonu, Kəlair kənd məktəbinin müəllimi Əliyev Behbud Musa oğlu bildirmişdi ki, "…tezliklə almanlar Moskvanı alacaqlar. Mən birinci vəzifəm kimi kommunistləri və kolxozçuları cəzalandıracağam. Mən almanlara köməyə gedəcəyəm və öz kəndimiz Kəlairdə kommunistlərdən və bolşeviklərdən intiqam alacağam. Heç birisini bağışlamayacağam, hamısını uşaqları və arvadları ilə birlikdə güllələyəcəyəm.[1]

Sumqayıtdan kolxozçu, 1887-ci il təvəllüdlü, əks-inqilabi fəaliyyətinə görə partiyadan xaric olunmuş Rəhimov Ağaverdi Rəhim oğlu yazırdı: "Sovet dövləti artıq dağılmışdır. Sən bax, bu hakimiyyət bizim millətimizi necə nifrətlə təhqir edir, bütün gəncləri ölümə göndərir. Tezliklə bizim dostlarımız – almanlar bizi azad edəcəklər. İndi almanlar bizə yaxınlaşdıqca hazır olmağımız lazımdır. Ələ silah götürək və sovet hakimiyyətinə qarşı vuruşaq, kommunistləri cəzalandıraq. Mən qrup təşkil etmişəm ki, almanların yaxınlaşdığı vaxt əldə silah sovet hakimiyyəti əleyhinə çıxış edək".[2]

1890-cı ildə doğulmuş, partiya sıralarından xaric olunmuş "Orconikidzenneft" trestinin gömrük məntəqəsində təchizat üzrə texnik Afanasyev Kuzma İqnatoviç yazırdı ki: "o, şəxsən sovet hakimiyyətindən narazıdır… Almanların gəlişini salamlayır".

Hitlerə sevgisini ifadə edən Bardin İlya Petroviç 1898-ci ildə anadan olmuşdur. Partiya sıralarından xaric olunmuş B.İ.Petroviç "Leninneft" trestinin kommunal təsərrüfat kontorunda bağban işləyirdi. İ.P.Bardin iddia edirdi ki, "Hitlerdə heç bir qulçuluq yoxdur və ola da bilməz. Almaniya mədəni ölkədir,… qəzetə inanmayın. Əgər Hitlerin əhaliyə münasibəti pis olsa idi, işğal olunmuş ərazilərdə milyonlarla insan ona qarşı ayağa qalxardı. Hitleri milyon deyil, yüz milyonlar müdafiə edir, hamı onunladır. Bardin müraciətində yazırdı: "Biz ruslara, fəhlələrə və kəndlilərə toxunmayacağıq, biz kommunistləri və yəhudiləri öldürürük".[3]

1898-ci ildə İranın Sərab şəhərində anadan olmuş, partiya sıralarından xaric olunmuş, "Molotovneft" nəqliyyat kontorunun sürücüsü Əliyev Qüdrət Nəzərəli oğlu da almanların fəhlələrə toxunmadığını, kommunistləri və fəalları məhv etdiklərini bildirmiş və: "… almanlar nə vaxt gəldi, onda biz rahat olacağıq, mən buna tamamilə əminəm"[4] demişdi.

Sverçkov İvan Vasilyeviç faşist Almaniyasının Sovet İttifaqına basqını anından müntəzəm olaraq antisovet-təslimçilik təşviqatı ilə məşğul

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 3
[2] Yenə orada, vərəq – 3-4.
[3] Yenə orada, vərəq – 3-4.
[4] Yenə orada, vərəq – 4.

olmuşdu. 1890-cı il təvəllüdlü İ.V.Sverçkov "Leninneft"in mənzil-kommunal təsərrüfatında iş icraçısı işləyirdi. Partiyadan xaric olunmuşdu. O, faşist Almaniyasının texnikasını və gücünü tərifləyərək əks-inqilabi fikirlər ifadə edir, tezliklə sovet hakimiyyətinin süqut edəcəyini bildirir …Sovet İnformasiya Bürosunun məlumatlarını yalan adlandırır, Qırmızı Ordunun qələbəsi ilə əlaqədar həyəcan keçirir, faşist ordusunun məğlubiyyətindən kədərləndiyini ifadə edirdi.[1]

Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinə 14 noyabr 1942-ci il tarixdə daxil olmuş arayışda[2] bəzi ÜİK(b)P üzvlərinin əhval-ruhiyyəsi haqqında faktlar göstərilmişdir. Onların içərisində cəbhədəki vəziyyətə, Qırmızı Ordunun hücumlarına, qələbəyə münasibətə dair mənfi fikirlər narahatlıq doğurur. Məsələn, "Molotovneft" trestinin mühəndisi, 1898-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Baranov Platon Daniloviç, "1 May" adına zavodun mexaniki sexinin rəisi, 1912-ci ildə anadan olmuş, ÜİK(b)P üzvü İsmayılov Cəlil Cabbar oğlu,[3] "Molotovneft" trestinin baş mühəndisi, 1913-cü il təvəllüdlü ÜİK(b)P üzvü Quliyev Xəlil Məmmədhəsən oğlu,[4] "Andreyev" adına zavodun 2 №-li sexinin ocaqçısı, 1897-ci ildə anadan olmuş, ÜİK(b)P üzvü Qavrilin Timofey Akimoviç, "Oktyabr inqilabı" adına zavodun böyük nəzarətçisi, 1903-cü il təvəllüdlü, ÜİK(b)P üzvü Omedgenka Qiqoriy Nikolayeviç[5] söhbətlərində qəzetdə yazılanların doğru olmadığını, Stalinqradın almanlar tərəfindən alındığını bildirmişdilər.[6]

"Kirovneft" trestinin yeraltı təmir ustası, 1914-cü il təvəllüdlü, ÜİK(b)P üzvü Sadıqov Hüseyn Məlik oğlu orduya səfərbərliklə əlaqədar bəyan etmişdi: "…əgər məni orduya aparsalar heç bir xeyir verməyəcək, heç nə uğrunda vuruşmayacağam. Nəyə görə sovet hökumətini müdafiə etməliyəm. Ona görə ki, orduya gedəndən sonra ailəm ac qalmalıdır, mən hələlik axmaq deyiləm. Mən bilirəm ki, ailəm ac qalacaq, heç kim heç bir köməklik etməyəcək. Bundan başqa, Sovet İttifaqı Almaniya ilə döyüşmək gücündə deyil, almanları tutduqları ərazidən qovmaq mümkün olmayacaq".[7]

ÜİK(b) üzvlərinin toxunduqları məsələlərdən biri də, SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə yaradılan "Alman işğalçılarının və əlaltılarının cinayətləri və onların SSRİ vətəndaşlarına, kolxozlarına, ictimai təşkilatlarına, dövlət müəssisələri və idarələrinə vurduqları zərəri müəyyən edən və yoxlayan Fövqəladə Dövlət Komissiyası"nın işi ilə əlaqədar idi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 4.
[2] Yenə orada, vərəq – 459-464.
[3] Yenə orada, vərəq – 459.
[4] Yenə orada, vərəq – 459-460.
[5] Yenə orada, vərəq – 460.
[6] Yenə orada, vərəq – 461.
[7] Yenə orada, vərəq – 461.

Komissiyaya ayrı-ayrı yerlərdə alman işğalçılarının və onların əlaltılarının törətdikləri cinayətləri araşdırmaq və məlumat vermək tapşırılmışdı. Komissiyanın fəaliyyət istiqamətlərinə həmçinin vətəndaşlara dəyən ziyanın miqyasının müəyyənləşdirilməsi və müvafiq tədbirlərin görülməsinə dair tədbirlər hazırlamaq daxil idi.

Kiyev şəhərində alman-faşist işğalçılarının törətdikləri dağıntı və vəhşiliklər haqqında "Alman işğalçılarının və əlaltılarının cinayətləri və onların SSRİ vətəndaşlarına, kolxozlarına, ictimai təşkilatlarına, dövlət müəssisələri və idarələrinə vurduqları zərəri müəyyən edən və yoxlayan Fövqəladə Dövlət Komissiyası"nın xəbərində[1] bildirilirdi ki, alman işğalçıları Ukrayna torpaqlarına soxularkən, hər şeydən əvvəl, xalq varını və dinc əhalinin avadanlıqlarını talamağa başladılar. Hitlerin Ukraynadakı canişini dövlət komissarı **Erix Kox** yazmışdı: "Məsələ hər şeydən əvvəl, alman hərbi təsərrüfatının və alman komandanlığının Ukraynadakı çox böyük xammal mənbələrindən və yeyinti məhsullarından istifadə edə bilməsini təmin etməkdən ibarətdir ki, Almaniya və Avropa uzun müddət müharibə edə bilsin". Almanlar bu soyğunçu planlarını həyata keçirmək üçün Ukraynada quldarlıq-köləlik üsul-idarəsini yaratmaq istəyirdilər. Ukraynadakı alman arxa qoşunlarının komandanı hərbi hava qüvvələri generalı Kitsinqerin 1942-ci il 18 iyul tarixli 1571 (564) 42 nömrəli gizli təlimatında qeyd edilirdi: "Ukraynalı bizə yad olmuş və yaddır. Ukraynalılara inanıb onların mədəni varlığı ilə maraqlanmaq bizə zərər verər və Almaniyanın öz qüdrət və əzəməti sayəsində əldə etmiş olduğu əhəmiyyətli xassələri zəiflədər".[2]

Komissiyanın məlumatında bildirilirdi ki, Kiyevdə bir dəstə qanlı faşist qulduru fəaliyyət göstərirdi və bu quldur dəstəsinin başında **general-komissar Maquniya, şəhərin komendantı general Eberhardt, SS ali rəhbəri və poliseyfürer Halterman, polis asayişi generalı Şeer, baş şturmbanifürer Erlinger, SA ştat-komissarı-briqadenfürer Kvitsrau** dururdular. Onların rəhbərliyi ilə Kiyev şəhəri talan edilir, dağıdılır və əhalisi müntəzəm surətdə qırılır, bütün bunlarla yanaşı Ukrayna xalqını almanlaşdırmaq siyasəti yeridilirdi. Bir çox restoran və mağazaların divarlarına "Ancaq almanlar üçündür" sözləri yazılmış plakatlar asılırdı. Şəhər komendantı general-mayor Remerin 1942-ci il 6 avqust tarixli 184 №-li əmri ilə almanlara "yerliləri" (ukraynalıları – M.Ə.) stadion və restoranlara dəvət etmək qadağan olunurdu.

Alman işğalçıları Kiyev şəhərində sənaye müəssisələrinin avadanlıqlarını talan edib Almaniyaya göndərir, müəssisələrin bir hissəsini partladır və yandırırdılar. "Bolşevik" və "Qırmızı ekskavator" maşınqayırma və me-

---

[1] "Kommunist" qəzeti, 1944, 1 mart.
[2] Yenə orada.

tal emalı zavodları dağıdılmış, Kiyev-Darnisa dəmiryol ayrıcının bütün yol təsərrüfatı partladılmış, toxucu və əyirici fabriklər, Qorkiy adına Tikiş Fabriki, 1-ci, 4-cü, 8-ci ayaqqabı fabrikləri və başqaları dağıdılmış və yandırılmışdı.[1]

Faşistlər elektrik stansiyalarını və elektrik şəbəkələrini, tramvay və trolleybus parklarını, su kəmərlərini partladır, bununla da şəhərin əhalisini susuz, çörəksiz, yanacaqsız, işıqsız və nəqliyyatsız qoyurdular. Kiyevdə ağalıq etdikləri müddətdə almanlar təqribən bir milyon kvadrat metrlik sahəyə malik olan 940 dövlət idarəsi və ictimai binanı, o cümlədən Ukrayna SSR Ali Soveti binasını, mərkəzi poçtamtı, "Kontinental" mehmanxanasını, bir milyon kvadrat metrlikdən artıq yaşayış sahəsi olan 1.742 kommunal evi, təqribən 500.000 kvadrat metrlik yaşayış sahəsi olan 3.600 xüsusi evi dağıtmışdılar. Nəticədə Kiyevdə 200.000-dən artıq əhali evsiz-eşiksiz qalmışdı. 1942-ci il oktyabrın 6-da SS baş şturmbanifüreri Patsel belə bir sərəncam verir: "1942-ci il avqustun 12-də imperiya rəhbərlərinin verdiyi göstərişə əsasən qızıl, gümüş və başqa nəcib metalların hamısı və bütün qiymətli şeylər istisnasız olaraq müsadirə edilməli və baş qruppenfürer Pola göndərilməlidir". Əhalinin var-dövlətinin qarət edilməsi ilə kifayətlənmir, insanlar işləmək üçün Almaniyaya göndərilirdi. Ukraynanın dövlət komissarı Erix Kox yazmışdı ki, "Alman rəhbərlərinin səyi nəticəsində biz Almaniyada, birinci növbədə hərbi sənaye müəssisələrində işləmək üçün yüz minlərlə ukraynalını fəhlə kimi göndərə bilmişik".[2]

Fövqəladə Dövlət Komissiyasının məlumatında bildirilirdi ki, hitlerçilər Kiyevə soxulandan əvvəl 150 orta və ibtidai məktəb mövcud idi. İşğalçılar bu məktəblərdən 77-sini kazarmaya, 9-nu anbara və emalatxanaya, 2 məktəbi qoşun qərargahına, 8 məktəbi isə tövləyə çevirmişdilər. Almanlar Kiyevdən geri çəkilən zaman 140 məktəb dağıdıldı.

Kiyev kitabxanalarının kitab fondundan 4 milyondan artıq kitab oğurlanaraq Almaniyaya aparılmışdı. Kiyevdəki Qızıl Ordunun 1.000 nəfərlik dram teatr binası, teatr və konservatoriyaların binaları, 2.500 nəfərlik sirk binası, M.Qorki adına Gənc Tamaşaçılar Teatrının binası dağıdıldı. Doktor Vinter, onun müavini doktor Bensinq, doktor Rozkamf və rəssam Kleynin rəhbərliyi ilə şəhər muzeyləri dağıdıldı və onların qiymətli əşyaları Almaniyaya aparıldı. T.Q.Şevçenko adına Muzey, Sofiya kilsəsi talan olundu.

Fövqəladə Dövlət Komissiyasının məlumatlarına əsasən faşistlər kişiləri, qadınları, uşaqları, qocaları və xəstələri dəstə-dəstə öldürürdülər. 1941-ci il oktyabrın 14-də alman qarnizon həkimi Rikovski başda olmaqla bir dəstə nasist ruhi xəstələr müalicəxanasına soxularaq 300 xəstəni bir binaya salıb bir neçə gün ac və susuz saxlayır, sonra onları Krillov meşəsində güllələdilər. Almanlar Babi Yardakı qəbiristanlıqdan meyitləri çıxararaq

[1] "Kommunist" qəzeti, 1944, 1 mart.
[2] Yenə orada.

yandırmaq üçün Sırets düşərgəsindəki dustaqlara göndərirdilər. Bu işlərə SS zabiti **Topayde**, jandarma idarəsinin əməkdaşlarından **İohani Merkel** və **Foxt**, SS taqım komandiri **Revr** rəhbərlik edirdilər. Sədr N.S.Xruşşov, komissiya üzvləri – Ukrayna SSR Xalq Maarif Komissarı akademik P.Tıçina, Ukrayna SSR Sovet Yazıçıları İttifaqının katibi akademik M.Rılski və Ukrayna SSR Elmlər Akademiyasının əməkdaşı, biologiya elmləri namizədi D.Markovskidən ibarət Xüsusi Komissiya, tibb mütəxəssislərindən professor Y.İ.Pivovonski, Yu.R.Kramarenko və A.M.Zyukovun, məhkəmə təbabəti mütəxəssisi professor N.A.Şepelevskinin, habelə Fövqəladə Komissiyanın nümayəndəsi V.D.Şevtsovun iştirakı ilə müəyyən edilir ki, Kiyevdə 195 mindən artıq sovet vətəndaşı əzabla öldürülmüş və "qətl maşınları"nda zəhərlənmişdir.[1]

Komissiya müəyyənləşdirdi ki, Kiyev şəhərində törədilən dağıntılar, əhalinin ucdantutma öldürülməsi, dinc vətəndaşların və hərbi əsirlərin vəhşicəsinə incidilməsi və öldürülməsi işlərinə Almaniya hökumətinin və baş komandanlığın Ukraynadakı dövlət komissarı Erix Kox, dövlət komissarının müavini fon Vedellştat, "Cənub" Ordu dəstəsinin Baş Komandanı general-feldmarşal fon Manşteyn, hava qüvvələri generalı Kitsinger, SS qoşunları general-leytenantı Yutner, Kiyev vilayətinin baş general komissarı Maquniya, SS rəhbəri və poiseyfürer Qalterman, polis asayişi generalı Şeer, baş şturmbanifürer Erlinqer, SA briqadenfüreri Kvitsard, Kiyev şəhərinin komendantları general-mayor Birov və SS briqadası rəisi general-mayor Lernerin, digər zabitlər və hitlerçi işğal orqanları əməkdaşlarının göstərişləri ilə həyata keçirilirdi.

Alman-faşist işğalçıları Belarus SSR-in paytaxtı **Minsk** şəhərində törətdiyi cinayətlər xüsusi komissiya tərəfindən təhqiq edildi. Bu komissiyanın və Fövqəladə Dövlət Komissiyasının üzvü akademik N.N.Burdenkonun apardıqları təhqiqat nəticələri dəhşətli mənzərəni üzə çıxardı. Bu mənzərənin əsil səbəbkarı isə Hitler özüdür. 1941-ci il iyulun 17-də Hitlerin verdiyi əmrdə göstərilirdi ki, "alman əsgərlərinin sovet əhalisini talan etməyə və qırmağa ixtiyarı vardır". 257-ci alman atıcı Diviziyasının hərbi tribunalının əsir düşmüş sədri kapitan Rayhov Yuliusun dediyinə görə Hitlerin qeyd olunan əmrində "…komandirə tam icazə verilirdi ki, kənd və şəhərləri bütünlüklə yandırıb kor qoya bilər, əhalinin ərzaq və mal-qarası əlindən alına bilər, sovet vətəndaşlarını işlətmək üçün öz bildiyi kimi Almaniyaya qovub göndərə bilər".[2] Alman işğalçıları Minskdə həbs düşərgələri yaradırdılar. Şirokaya küçəsindəki Minsk həbs düşərgəsindən qaçıb canını qurtaran dustaq L.A.Moisieviç Komissiyaya bildirmişdi ki, yalnız 1943-cü il avqustun 21-dən 1944-cü il iyunun 30-dək alman cəlladları 10

[1] "Kommunist" qəzeti, 1944, 4 mart.
[2] Yenə orada.

minə qədər sovet adamını məhv etdilər. Adamları öldürmək üçün xüsusi avtomobillərdən istifadə olunur, maşınların hər birinə 70-80 nəfər doldurub onları motor qazı ilə boğurdular.

Almanlar yəhudilərə məxsus xüsusi həbs düşərgəsində 100 min nəfərədək yəhudi saxlayırdılar. Hitlerçilər öz cinayətlərini ört-basdır etmək üçün adamları böyük çalalarda basdırırdılar. Minsk şəhərinin 5 kilometr-liyində aşkar olunan 197 qəbirdə 80.000 sovet hərbi əsiri basdırılmışdı. Blaqoveşşina dərəsində 34 məzar çalası tapılmışdı. Müəyyənləşdirilmişdi ki, faşistlər burada 150 minə qədər adam qırmışlar. Petraşeviçi qəsəbəsi yaxınlığında, Uruçye dərəsində, Drozdı qəsəbəsi yaxınlığında, Minsk yəhudi və Kalvarisk qəbiristanında, Tuçinkada, mədəniyyət və istirahət parkında və başqa yerlərdə çoxlu məzar çalaları və xəndəklər tapılmışdır.

Almanlar Minskdə çoxlu ali məktəb və elmi-tədqiqat müəssisəsini, 47 məktəbi, 24 uşaq bağçasını, pionerlər sarayını, iki doğum evini, səhiyyə və maarif müəssisələrini dağıtdılar. Lenin adına Kitabxanadan 1 milyon 500 min, Elmlər Akademiyası Kitabxanasından 300 min kitab Almaniyaya aparıldı. Minskdə 23 böyük müəssisə, 4 mehmanxana partladıldı və yandırıldı, su kəməri, telefon-teleqraf şəbəkəsi yararsız hala salındı. Bu cinayətlərin icraçıları Minsk şəhərinin komendantı general-leytenant **Şperlinq**, SD (məxfi səhra polisi) rəisləri **Şlege** və **Ştraux**, SD rəisi müavini **Kayzer**, SS qoşunları rəisi **Qotberq**, Belarusun baş komissarları **Kube** və **Bekker**, habelə başqaları idilər.[1]

Alman işğalçıları 1941-ci il iyulun 30-da Lvov şəhərinə soxularkən Lvov vilayətini "Qalisiya mahalı" elan edib burada talan, işgəncə ilə məşğul oldular və dincə əhalini güllələməkdən və öldürməkdən ibarət olan "yeni qayda" qoydular.

Adamları müntəzəm surətdə qırmaq işinin başlıca təşkilatçısı Almaniya reyxs naziri **Himmlerin göstərişi ilə seçilən esesçilər vəzifəsinə Hitlerə And içməyə başlayırdılar. Andın mətni belə idi: "Sənə And içirəm, Adolf Hitler. Sədaqətli və cəsarətli olacağam. Ölənə qədər fədakar olacağam. Allah da mənə kömək edəcək"**.[2] **Almaniyanın məğlubiyyətini görən Himmler Qərb dövlətləri ilə danışıqlara girsə də, baş tutmamışdı. Bu barədə məlumatı radiodan eşidən Hitler "Siyasi vəsiyyət"ində "ölümüm ərəfəsində mən sabiq SS reyxsfüreri, daxili işlər naziri Henrix Himmleri partiyadan qovur və bütün vəzifələrdən azad edirəm" yazmışdı**.[3]

Almaniya məğlub olduqdan sonra Himmler ingilislər tərəfindən həbs olunmuşdu. O, zəhər içib özünü öldürmüşdü. Himmlerin cəsədi

---

[1] "Kommunist" qəzeti, 1944, 23 sentyabr.

[2] Нюнбергский процес.Сб. материалов в 7–ми томах. Т. 1. Москва, 1957. – с.224.

[3] Yenə orada, s.262.

yandırılmış, külü Lyunburq yaxınlığındakı meşəyə səpilmişdir.[1] Himmler yaratdığı ölüm düşərgələrinin işinə rəhbərlik etmək bu işin gedişini yoxlamaq məqsədilə tez-tez Lvova gəlirdi. Fövqəladə Dövlət Komissiyası müəyyən etmişdi ki, Lvov şəhəri və Lvov vilayətinin başqa rayonlarında hitlerçilər 700 min nəfərə qədər sovet vətəndaşını, habelə Almaniyanın həbs düşərgələrindən gətirilən Çexoslovakiya, Yuqoslaviya, Hollandiya, Böyük Britaniya və ABŞ vətəndaşlarını qırmışlar.[2] Təhqiqat nəticəsində müəyyən olundu ki, almanlar işğalın birinci ayında Lvovda 70 nəfərdən artıq görkəmli elm, texnika və incəsənət xadimini öldürmüş, Yanovski düşərgəsində 200 mindən artıq dinc əhali güllələnmişdi. Almanların Lvovda da əsas hədəfi yəhudilər olur. 1941-ci ilin sentyabr ayında Lvovda yəhudi məhəlləsi təşkil edilmişdi. Düşərgədə 136 min adam olmuşdu. Almanların "Yudenlaq" (yəhudi düşərgəsi) adlandırdığı düşərgə adamlar əli silahlı əsgərlərin müşayiəti ilə işləməyə aparılır və geri qaytarılırdılar. Adamlar ağır şəraitdə saxlanılır, ərzaq və digər zəruri şeylərlə təmin olunmurdular. 1941-ci il sentyabrın 7-dən 1943-cü ilin iyul ayının 6-dək düşərgədə 130 mindən artıq adam ölmüşdü. Almanların düşərgəsində əsir olan Loaf Kleman bildirmişdi ki: "…düşərgədə 12 min adam üçün bir su kranı vardı. Bu krandan gün ərzində 4-5 saat su götürməyə icazə verilirdi". Lvov şəhəri alman-faşist işğalçılarından azad olunarkən hitlerçilər minlərlə insanın cəsədini çalalara töküb yandırırdılar. Hər çalada 1200-1600 meyit olduğu təxmin edilirdi. Meyitlər yandırılarkən onların üzərindəki qızıl, qızıl diş qapağı, üzük və qol saatları seçilib yığılırdı. Şahidlərdən Veliçker, Xamaydes və başqaları bildirmişlər ki, 5 ay ərzində yandırılmış meyitlərdən 110 kiloqram qızıl seçilib yığılaraq Almaniyaya göndərilmişdi.[3]

Hitlerçilər Estoniya SSR-dən 10 mindən artıq sənət əsərini Almaniyaya apardılar. Estoniya SSR-in şəhərlərində 9.200 ev yandırırdı, Tallində 1885 ev uçuruldu. Tallin azad olunduqdan sonra 75 yerə mina qoyulduğu bəlli oldu, 100 min tondan artıq partlayıcı maddə aşkara çıxarıldı. Almanlar kəndlilərdən 107 min at, 31 min inək, 214 min donuz, 790 min ev quşunu zorla alıb Almaniyaya apardılar.[4]

Fövqəladə Dövlət Komissiyasının məlumatlarının müntəzəm dərc olunmasına baxmayaraq bəzi partiya üzvləri və namizədləri komissiyanın yaradılmasına mənfi münasibət bəsləyir və Qırmızı Ordunun qalib gələcəyinə inamsızlıq ifadə edirdilər. "Molotovneft" Trestinin 3-cü mədəninin müdir müavini, 1892-ci ildə anadan olmuş, ÜİK(b)P üzvü qəzetdə qərarı oxu-

---

[1] Залесский К.А. Кто есть кто во Второй мировой войне. Германия и союзники / К.А.Залесский. Москва, 2010. – с. 50.

[2] "Kommunist" qəzeti, 1944, 27 dekabr.

[3] Yenə orada.

[4] Yenə orada, 29 noyabr.

yaraq demişdi: "Belə komissiya kimə lazımdır, komissiya nəyi müəyyənləşdirəcək, nə üçün təşkil olunur. Biz almanlara qalib gəlməmişik ki, orada komissiya yaradaq".[1]

"Əzizbəyovneft" trestinin 5 №-li mədəninin mühəndisi, 1899-cu il təvəllüdlü, ÜİK(b)P üzvü Mayorov İvan Vladimiroviç, "Azneftkombinat" da teplovoz maşinistinin köməkçisi, ÜİK(b)P üzvü Qurenko Anastasiya Aleksandrovna, "Krasin" adına DRES-in turbin sexinin rəisi, 1920-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Rudakov Yakov Dmitriyeviç cəbhədə vəziyyətlə bağlı antisovet əhval-ruhiyyə nümayiş etdirm işlər.[2]

"Kaqanoviçneft" Trestinin 8-ci kompressor Stansiyasının rəisi, 1911-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Məlikov Nəsrulla İsa oğlu,[3] "Artyomneft" Trestinin 2-ci Mədəninin böyük operatoru, 1898-ci ildə anadan olmuş, ÜİK(b)P üzvü Kurkin Şakir Feyzullayeviç, "1 May" adına Mexaniki Zavodun dispetçeri, 1903-cü il təvəllüdlü, ÜİK (b) P üzvü Metelskiy İosif Rəfailoviç, "Kirovneft" Trestinin quyuların əsaslı təmiri Kontorunun böyük ustası, 1888-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Zakircanov Cəbrayıl, "Əzizbəyovneft"in ictimai iaşə işçisi Əzimov Əliqulu Qasım oğlu vəziyyətin getdikcə çətinləşdiyindən, təchizatın yarıtmaz olmasından şikayətlənmiş, Qırmızı Ordunun almanlar üzərində qələbəsinə ümidsizlik ifadə etmişlər. Əzimov Əliqulu Qasım oğlu demişdi: "Almanlar Bakıya yaxınlaşmışlar və az sonra burada olacaqlar, əlverişli məqamdan istifadə edərək Batum, İran və Qafqazı mühasirəyə alacaqlar. Almanlar və türklər bizə toxunmayacaqlar, biz onlara heç nə etməməliyik, onlar yalnız rəhbər işçiləri öldürəcəklər. Dinc əhaliyə göstərilən vəhşiliklər haqqında qəzetlərin yazdıqları doğru deyildir".[4]

"Aznefttəchizat"ın 15 №-li rayon anbarının rəhbəri, 1898-ci ildə anadan olmuş, ÜİK(b)P üzvü Xaçinyans Lazar Qriqoryeviç anbar fəhləsi Cəfərova və digərlərinə müraciət edərək "…nə verirlər və nə var yeyin, az qalıb tezliklə onları da tapmayacaqsınız" demişdi.

Azərbaycan Neft Sənayesi mühəndis-texniki işçilərinin antisovet düşüncələri

Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinə 29 sentyabr 1942-ci il tarixdə daxil olan (№1476) "Azərbaycan neft sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi haqqında" XDİK T.Yaquboun 20 sentyabr 1942-ci il tarixli arayışında [5] bildirilir ki, Azərbaycan Neft Sənayesinin mühəndis-texniki işçilərinin əsas kütləsinin

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 461-462.
[2] Yenə orada, vərəq – 464.
[3] Yenə orada, vərəq – 462.
[4] Yenə orada ,vərəq – 463.
[5] Yenə orada, vərəq – 365-372.

əhval-ruhiyyəsində yüksək vətənpərvərlik hissləri üstünlük təşkil edir, onların fikirlərində hitlerizm üzərində qələbəyə inam vardır.

"Azərbaycan Neft Sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi" barəsində XDİK-nın 1942-ci il 22 oktyabr tarixli arayışında[1] mühəndis-texniki işçilər tərəfindən söylənilmiş müsbət və mənfi fikirlər ümumiləşdirilir, hadisələrin insanlar, xüsusilə mühəndis-texniki işçilər arasında reaksiyası analiz olunur. Arayışda göstərilirdi ki, çoxsaylı müsbət fikirlərlə yanaşı neft sənayesi işçiləri arasında mənfi əhval-ruhiyyə müşahidə olunur, mühəndis-texniki işçilər qələbəyə inamsızlıq ifadə edirlər. Təbii ki, bu fikirlər fəhlələrin əhval-ruhiyyəsinə mənfi təsir etməklə yanaşı, həm də əmək məhsuldarlığının aşağı düşməsinə, keyfiyyətsiz məhsul istehsalına zəmin yaradırdı.

"Budyonnu" adına Zavodun 3-cü sexinin fəhləsi, 1882-ci il təvəllüdlü, bitərəf Ağamiryan Zaxar Atayeviç cəbhədə vəziyyət mövzusunda söhbətdə bildirmişdi ki: "Qızıl Ordu kolxozu müdafiə etmək istəmədiyindən döyüşmür, əgər kolxoz olmasaydı daha yaxşı döyüşər, öz mövqeyini möhkəm saxlayardı, çünki onlar vuruşur, ailələri isə evdə acdır. Çarizm vaxtında cəbhədə olan əsgərin ailəsi hər şeylə təmin olunurdu, indi əksinə mənzərə görürük, ona görə cəbhədə uğur əldə olunmur. Biz Rusiyaya kömək etməyəcəyik, çünki bolşeviklər heç kimi görmək istəmirlər".[2]

Yardımçı təsərrüfat Trestinin asfalt-beton Zavodunun çilingəri, 1890-cı il təvəllüdlü, bitərəf Heybət Ələsgərov almanların hücumuna münasibət bildirərək mövcud texnika və heç bir döyüş qabiliyyəti olmayan adamları orduya səfərbər etməklə müharibə aparmağın mümkün olmadığını ifadə etmişdi.[3]

Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə daxil olmuş **14 noyabr** 1942-ci il tarixli (№2094) arayışdakı fikirlər mənası və mahiyyətinə görə əvvəlkilərdən fərqlənir. Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik idarəsinin baş mayoru T.Yaqubovun imzaladığı arayışda[4] mənfi əhval-ruhiyyəni ifadə edən faktlar qeyd olunurdu. Məsələn, "Stalinneft" Trestinin 7-ci Kompressor Stansiyasının mexaniki, 1886-cı il təvəllüdlü, bitərəf Ximlev Mixail İvanoviç,[5] "Əzizbəyovneft" Trestinin işçisi, 1891-ci il təvəllüdlü, bitərəf İsmayılov Mirzəağa Məmməd oğlu hərbi mövzuda söhbətdə bildirmişdilər ki, "…almanlar Mahaçqalaya qədər çatmışlar, Qırmızı Ordu isə almanlara müqavimət göstərmək iqtidarında deyildir, artıq ordunun gücü azalmışdır, tezliklə almanları Bakıda görəcəyik. Onda hər şey keçmişdəki kimi olacaqdır. Hər bir kəndli torpaq və bağ alacaq, hər şey

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 420-426.
[2] Yenə orada, vərəq – 419.
[3] Yenə orada.
[4] Yenə orada, vərəq – 450-457.
[5] Yenə orada, vərəq – 452.

ucuz olacaq, aclıq və əzab qurtaracaq. Almanlar işğal etdikləri ərazinin əhalisi ilə çox yaxşı davranırlar, onların vəhşilikləri haqqında bizim qəzetlərimizin yazdıqları doğru deyildir".[1] Oxşar fikirləri "Əzizbəyovneft" Trestinin Kompressor Təsərrüfatı İdarəsinin elektrik montyoru, 1909-cu ildə anadan olmuş Alekseyev Mixail Petroviç, "Orconikidzeneft" Trestinin 8-ci mədəninin nasos çilingəri, 1902-ci il təvəllüdlü, bitərəf Şterman Natan Solomonoviç, "Molotovneft" trestinin ikinci mədəninin fəhləsi, 1893-cü il təvəllüdlü, bitərəf Fedosyev Stefan Timofeyeviç, "Orconikidzeneft" trestinin fəhləsi, Babayev Mikayıl Cəbrayıl oğlu, "Azərenerji"nin mühəndisi, 1910-cu ildə anadan olmuş Vanyuşin Konstantin İvanoviç, "Stalinneft" trestinin 1-ci mədəninin mexaniki, bitərəf Rıbakov Andrey Konstantinoviç və b. söyləmişlər.[2]

Fəhlə və mühəndis-texniki işçilərin bir qrupu müdafiə hüdudlarının tikintisində, müharibəyə hazırlıqda nöqsanlara yol verildiyini iddia edərək müharibəyə hazırlıqdan narazılıqlarını bildirirdilər. "Azərneftqaztikinti"nin rəisi Bandurkin Yevgeni Andreyeviç,[3] Orconikidze rayonunun şəhərətrafı təsərrüfatının briqadiri, 1891-ci il təvəllüdlü, bitərəf Əyyub Aslanov[4] 25 ildir sovet hökumətini müdafiə etmələrinə baxmayaraq ac və çılpaq qaldıqlarını bildirirdilər. "Siyəzənneft" trestinin işçisi, 1904-cü ildə anadan olmuş bitərəf Rındin Pyotr Nikolayeviç ancaq ukraynalıların vuruşduğunu, sibirlilərin isə aldandıqları üçün vuruşmadığını iddia edərək "Vətəndaş müharibəsində bütün sibirlilər bir nəfər kimi ayağa qalxdı və Kolçakı dağıtdılar, əvəzində nə aldılar. İndi onlar ac otururlar və gözləyirlər ki, kolxoz idarəsi gələcək məhsuldan onlara un, yaxud taxıl verəcək. Bizimkilər isə yazırlar ki, Almaniyada aclıqdır. Məncə Hitler axmaq deyil, o, 18 dövləti tutub və özünü hər şeylə təmin edib" demişdi.

"Kirovneft" trestinin hərbiləşdirilmiş mühafizəsinin döyüşçüsü, 1898-ci ildə anadan olmuş, bitərəf Besedin Maksim Fyodroviç hərbi mövzuda söhbətdə qəzet məlumatlarına inanmadığını vurğulamışdır.[5] Əzizbəyov rayonunun şəhərətrafı təsərrüfatının fəhləsi, 1880-ci ildə anadan olmuş Əliyev Fiti Zer oğlu da Qızıl Ordunun almanlarla vuruşmaq qabiliyyətində olmadığını, tezliklə Bakının və bütün Qafqazın almanlar tərəfindən tutulacağını iddia edirdi.[6]

Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik baş mayoru Yaqubovun 14 noyabr 1942-ci il tarixli arayışı ilə Həsənov, Yaqubov, Axundov,

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 452-453.
[2] Yenə orada, vərəq – 453-454.
[3] Yenə orada, vərəq – 455.
[4] Yenə orada, vərəq – 455-456.
[5] Yenə orada, vərəq – 456.
[6] Yenə orada, vərəq – 457.

Gindin, Vorobyov tanış olmuşlar. Arayışın sonunda bildirilirdi ki, antisovet fikirləri səsləndirilənlərə qarşı müvafiq operativ tədbirlər görülür.[1]

DMK sədri Stalinin Oktyabr inqilabının 25-ci ildönümü münasibətilə məruzəsi əhalinin əksəriyyəti tərəfində müsbət qarşılandı. Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya ünvanladığı arayışda[2] bildirilirdi ki, Azərbaycan Sənaye İnstitutunun professoru Yakovlev Fyodr İvanoviç, ADU-nun dosenti Qasımzadə Feyzulla Səməd oğlu, respublikanın əməkdar artisti Şarlaxov Viktor Petroviç, Xalq Yaradıcılıq Evinin direktor müavini Manaflı Ağa Səlim Cəfər oğlu Stalinin çıxışını böyük həyəcanla dinləmiş və çıxışda hərbi vəziyyətə aydın qiymət verildiyini, müasir vəziyyətin təhlil olunduğunu bildirmişlər.[3]

Azərbaycan Sənaye İnstitutunun dosenti bitərəf Orucəliyev Ədhəm Əli Cabbar oğlu, şair bitərəf Stroqonov Georgiy Mixayloviç, "Əzizbəyovneft" trestinin hüquq məsləhətçisi bitərəf Şampurin Nikolay İppolitoviç, Azərbaycan SSR Əməkdar pedaqoqu bitərəf Məmməd Ələkbərov, Xüsusi dənizçilik Məktəbinin hərbi rəhbəri bitərəf Mustafayev Ağa İsa Cəfər oğlu, Bakı şəhərindəki 173 №-li Məktəbin pedaqoqu bitərəf Hacıyeva Sitarə Hacıbala qızı, "Molotovneft" trestinin mühəndisi Məlikaslanov Didvəli Süleyman oğlu, "Azərneftkəşfiyyat" trestinin baş energetiki-mühəndis Səmədzadə Musa Qasım oğlu, S.M.Kirov adına Mexaniki Zavodun çilingəri Kravçenko Aleksandr Trofimoviç, "Orconikdzeneft" trestinin 4-cü mədəninin elektrik montyoru Lyapina Olqa Nikolayevna, "Dzerjinski" adına Mexaniki Zavodun 4-cü sexinin briqadiri Markuriy Zaxar Yefimoviç məruzənin dərin təhlillərə əsaslandığını, alman-faşistlərin üzərində qələbəyə səslədiyini bildirmişlər.[4]

Azərbaycan SSR Xalq Torpaq Komissarlığının Heyvandarlıq İdarəsinin aqronomu Ələsgər Qurbanov, Bakı şəhəri, Çaparidze rayonundakı 25 №-li Məktəbin müəllimi Abdullayev Hacı Bala oğlu, Bakı Tibb Məktəbinin müəllimi Əliyev Həsən Paşa oğlu, "Qızıl Ulduz" elektrik stansiyasının texniki normalaşdırıcısı Abdullayev Əli Hacı Əbdül oğlu və başqaları Stalinin məruzəsini bəyənir və yaxın vaxtlarda alman qoşunlarına ağır zərbə vurulacağına əminliklərini ifadə edirdilər.[5]

XDİK-nın arayışında mənfi fikirlərin söylənilməsinə dair xeyli fakt göstərilirdi. Arayışda qeyd olunur ki, "Azərbalıq təsərrüfatı" Stansiyasının elmi işçisi Borvenko Mixail Pavloviç, ADU-nun (indiki BDU-nun) baş müəllimi Nəsirzadə Mir Əbülhəsən oğlu, həmin universitetin dosenti Abdullayev Ağa Məmməd oğlu, 132 №-li Məktəbin pedaqoqu Həsənov

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 458.
[2] Yenə orada, vərəq – 435-440.
[3] Yenə orada, vərəq – 435.
[4] Yenə orada, vərəq – 443-446.
[5] Yenə orada, vərəq – 437.

İsmayıl, Sənaye İnstitutunun tələbəsi Fritş Qalina Vlatslanovna, "Stalinneft" Trestinin 1-ci mədəninin neft ustası-mühəndis Mülkunyans Yakov Petroviç, həmin trestin ayırma kontorunun çilingəri Baqarşak Kasparov, "Oktyabr inqilabı" adına Mexaniki Zavodun xarratı Vdovin Konstantin Romanoviç, "Stalinneft" Trestinin Qaz Kontorunun fəhləsi Kuznetsova Olqa Tixonovna, "Kaqanoviçneft" Trestinin 3-cü mədəninin neftayırma ustasının köməkçisi İsaverdiyev İosif Mkırtıçeviç və b. məruzədə səsləndirilənlərlə razı olmadıqlarını bildirmişlər.[1]

Şair Zaltsman Leonid Henrixoviç, Bakı şəhərindəki 2-ci Poliklinikanın həkimləri Mir Qiyas Axundov və Şubenko Aleksandr Vasilyeviç, Memarlıq Məktəbinin müəllimi Mirzəyev Bəhman Rustamoviç, Volodarski adına Mexaniki Zavodun mühəndisi Yefimov Konstantin Qriqoryeviç, "Çaparidze" adına neftayırma zavodun texniki şöbəsinin müdiri mühəndis Əhmədzadə və b. məruzədə söylənilənləri ciddi qəbul etmirdilər.[2]

Krasin adına Elektrik Stansiyasının növbətçi mühəndisi Xijnyuk Sergey Panteleyeviç həmin stansiyanın ocaq sexinin növbə rəisi, ÜİK(b)P üzvü Ufimski Konstantin Yakovleviç Stalinin məruzəsində qələbəyə inam eşitmədiyini,[3] "Kaqanoviçneft" Trestinin 3-cü Mədəninin neft ustası bitərəf Qafar Manaf oğlu məruzənin aldadıcı olduğunu, "Stalinneft" Trestinin Təmir-quraşdırma Kontorunun qaynaqçısı Jarov Mixail İvanoviç məruzənin ancaq danışıq olduğunu bildirirdilər.[4]

Qırmızı Ordunun Stalinqrad rayonunda müvəffəqiyyətli hücumu Bakı şəhər əhalisinin fəhlə və ziyalıları arasında böyük ruh yüksəkliyi yaratdı. "Qırmızı Ordunun Stalinqrad rayonunda müvəffəqiyyətli hücumu ilə əlaqədar Bakı şəhər əhalisinin əhval-ruhiyyəsi haqqında" Azərbaycan SSR XDİK T. Yaqubovun 25 və 29 noyabr tarixli arayışlarında ordunun müvəffəqiyyətli hücum xəbərinin insanlar arasında böyük rəğbət hissi oyatdığı, vətənpərvərlik ruhunu qaldırdığı bildirilirdi.

Hadisə ilə əlaqədar çoxsaylı müsbət fikirlər qeydə alınmışdır. ADUnun filologiya fakültəsinin dekan müavini, dosent Cəlal İbrahimov, həmin universitetin baş müəllimi Həsən Behbud oğlu Abdullayev, fizika-riyaziyyat fakültəsinin dosenti Bəhram Mirzəyev, dosent Zahid Xəlilov, Azərbaycan Tibb İnstitutunun professoru Şatov Dmitriy Alekseyeviç, Az.FAN-nın Kimya İnstitutunun laboratoriya rəhbəri Heydər Xəlil oğlu Əfəndiyev, Opera Teatrının solisti Ağa Baba Bünyadzadə, Bakı şəhərindəki 44 №-li Məktəbin müəllimi Səlim Cəfərov, Müəllimləri Təkmilləşdirmə İnstitutunun tədris hissə müdiri Məmməd Həmid oğlu Ələkbərov, Bakı şəhərindəki 132 №-li Məktəbin direktoru Yelizaveta Qolubkova, Radio

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 446-448.
[2] Yenə orada, vərəq – 438-439.
[3] Yenə orada, vərəq – 439.
[4] Yenə orada, vərəq – 440.

Verilişləri şəbəkəsi direktorluğunun radiotexniki Sadıx Nəcəf oğlu Aşurbəyov və b. sovet qoşunlarının uğurlu əməliyyatlarını bəyənir və almanfaşist işğalçılarının məğlub olacaqlarına inam ifadə edirdilər.[1] Az.FAN-nın Torpaqşünaslıq Bölməsinin rəhbəri, kimya elmləri doktoru, professor Smirnov-Loginov Vladimir Pavloviç, Az.FAN-nın Geologiya İnstitutunun professoru, geologiya elmləri doktoru Abramoviç Mixail Vladimiroviç, Botanika İnstitutunun direktoru, biologiya elmləri doktoru Qrossqeyim Aleksandr Alfonsofiç, Tarix İnstitutunun baş elmi işçisi Cəfərzadə İsaq Məmməd Rza oğlu, Sənaye İnstitutunun dosenti Ədhəm Orucəliyev, həmin institutun dosenti Vladimir Puzirevskiy, Müəllimlər İnstitutunun dosenti, tarix elmləri namizədi Əlisöhbət Sumbatzadə, Azərbaycan Tibb İnstitutunun professoru Şteyn Pyotr Samuyloviç, tibb elmləri doktoru, həkim-nevropatoloq Fuad Əfəndiyev, xalq maarif komissarlığının "Xalq maarifi muzeyi"nin elmi katibi İsayev Mixail İvanoviç, XMK məktəbdənkənar iş şöbəsinin müdiri Lətif Kərimli, Müəllimlər İnstitutunun müəllimi Cəfərov Səlim Əbdül Əşrəf oğlu, rabitə texnikumunun tədris hissə müdiri Mustafa Cəfərzadə, Molotov rayondakı 166 №-li Məktəbin müəllimi Yaqub Surxayzadə, "Kirovneft" Trestinin 1-ci Mədəninin müdir müavini-mühəndis Əsgərov Məmməd Hacı oğlu, həmin Trestin 1-ci Mədəninin operatoru Qurban Quliyev, Batayskdan təxliyə olunan Ostarov Fyodr Mixayloviç və b. vətənpərvərlik ruhlu fikirlər söyləyirdilər.[2]

Vətənpərvərlik hissi ilə dolu müsbət fikirlərlə yanaşı mənfi fikirlər də səslənirdi. "Stalinneft" Trestinin şəbəkə sahəsinin texniki Zeynalov Şahsuvar Heydər oğlu demişdi: "Mən inana bilmirəm ki, biz o qədər almanı darmadağın etdik. Bu əvvəlki məlumatlara oxşayır. Deyilirdi ki, Xarkov altında bizimkilər çoxlu alman diviziyalarını dağıtmışlar. Bütün bunlar xalqın əhval-ruhiyyəsini qaldırmaq üçündür. Sonra baxarıq". Sovet qoşunlarının qələbəsinə şübhə ilə yanaşanlar arasında "Bakinskiy raboçiy" qəzeti redaksiyasının sənaye şöbəsinin müdiri Rıbakov İlya Yakovleviç, Azərbaycan Tibb İnstitutunun müəllimi Rəcəb Ağayev, Bakı şəhərində orta məktəb müəllimi Teterevatnikov Qriqori Nikolayeviç, diş texniki Vnukov Leonid Karpoviç, "Kaqanoviçneft" Trestinin 3-cü mədəninin neft ustası Qafar Manaf oğlu, "Kirovneft" Trestinin mühasibi Yavrumov Daqrat Nikolayeviç, Bakıdakı Təxliyə Hospitalının sanitarkası Podyaçeva Sofiya Yakovlevna və b. vardı.[3]

Azərbaycan Dövlət Universitetin dosenti Məmməd Hacınski, Qızılburun Məktəbinin tədris hissə müdiri Xudadat Şirəlizadə, Siyasi Maarif İdarəsi metodkabinetinin təlimatçı-metodisti Böyükxanım Cəfərova, 3340 №-li Hospitalın həkimi Rəhimov Məmməd Əhəd oğlu, "Dmitrov" adına

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 477-480.
[2] Yenə orada, vərəq – 500-505.
[3] Yenə orada, vərəq – 483-484.

zavodun çəkicvuranı Afanasyev Afanes Aqayeviç, "Kaqanoviçneft" trestinin 3 №-li mədəninin yeraltı təmir ustası Ağabala Məmmədov və b. bu xəbərin xalqın ruhunun qaldırmağa, müttəfiqlərin etibarını möhkəmləndirməyə xidmət etdiyini bildirir, qələbənin müvəqqəti olduğunu iddia edirdilər.[1]

Az.FAN-nın elmi əməkdaşı Sultan Qəmbərovun, "Stalin" adına Zavodun mühəndisi bitərəf Gülməmmədov Xalit Usmanovçin, Bakı Pedaqoji Məktəbin pedaqoqu David Şaginyanın, Şamaxı rayonundakı "Dmitrov" adına zavodun qaraj müdiri Aram Şahnazarovun, "Stalinneft" Trestinin Kompressor Təsərrüfatının çilingəri Sıranov İvan Yakovleviçin, Qax rayonundakı qax-ingiloy kənd kolxozunun üzvü, bitərəf Bizin Bayraşvilinin və b. ifadələrində Stalinqrad altında və Mərkəz Cəbhədə əldə olunan müvəffəqiyyətin almanlar tərəfindən tələ olduğunu almanlar cəbhəni yararaq yazda yenidən hücuma keçəcəkləri bildirilirdi.[2]

XDİK-nın 30 dekabr 1942-ci il tarixli arayışında mühəndis-texniki işçilər arasında pessimist əhval-ruhiyyə haqqında xüsusi qeydlər vardır. Qeyd olunur ki, bir qrup mühəndis-texniki işçi antisovet fikirlər səsləndirərək, ordunun qələbələrinə şübhə ilə yanaşmış, insanlar arasında ruh düşkünlüyü yaratmağa cəhd etdilər. "Stalin" adına Zavodun baş mühəndisinin müavini, 1887-ci ildə anadan olmuş bitərəf Kramskiy Pavel Yevgenyeviç cəbhədə vəziyyətlə əlaqədar söhbətdə demişdi: "Bizim hissələr hücumda çox tez yorulur, heç nə əldə edə bilmirlər. Ancaq almanlar uzun müddət ərzində hücum edir və yorulmurlar, görünür onlar güclüdürlər".[3]

"Stalinneft" Trestinin baş geoloqu, 1904-cü il təvəllüdlü bitərəf Nalbadyan Kayşen Nikoviç hərbi mövzuda söhbətdə bildirmişdi ki: "…ingilislər həmlələri ilə uzaq Şimali Afrikaya getmirlər, öz küllərini söndürüb, Almaniyanı bombalamağa başlamış və Liviyanın müdafiəsinə keçmişlər. Müharibənin ağırlığı yenə bizim üzərimizə düşür".[4]

"Azneftkombinat"ın Geoloji Topoqrafiya Kontorunun böyük mühəndisi, 1889-cu il təvəllüdlü bitərəf Kuşenko Akeriy Timofeyeviç, "Azərneftlayihə" Trestinin böyük mühəndisi, 1876-cı il təvəllüdlü Şeyni Boris Moiseyeviç, "Əzizbəyovneft" Trestinin neftvurma üzrə mühəndisi, 1903-cü ildə anadan olmuş bitərəf Əliyev Hacıbala Cəmil oğlu Qırmızı Ordunun qələbəsinin müvəqqəti olduğunu, əldə olunan qələbələri qoyub saxlaya bilməyəcəklərini iddia edərək, almanların irəliləməsini əsaslandırmağa çalışırdılar.[5]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 505-507.
[2] Yenə orada, vərəq – 519-521.
[3] Yenə orada, vərəq – 525.
[4] Yenə orada, vərəq – 526.
[5] Yenə orada, vərəq – 527.

"Azneftlayihə" Trestinin böyük mühəndisi, 1909-cu il təvəllüdlü Adamova Raisa Sumbatovna, 7 №-li Zavodun sex rəisi, 1909-cu ildə anadan olmuş Mirzəyev Fərhad Tağı oğlu,[1] "Əzizbəyovneft" Trestinin 3-cü mədəninin mexaniki, 1900-cü il təvəllüdlü bitərəf Sukonkin Mixail Radionoviç ərzaq məhsullarının qıtlığından və bahalığından, tank və təyyarə Kolonlarının tikintisi üçün toplanmış vəsaitin xərclənməsi barədə məlumatların verilməməsindən narazılıqlarını bildirirdilər.[2]

"Qızıl Ulduz" DRES-nin ocaq sexinin "Krasin" adına DRES-in elektrik sexinin rəisi, 1910-cu il təvəllüdlü bitərəf Zamberman Mixail İsakoviç, "Əzizbəyovneft" Trestinin böyük mühəndisi, 1912-ci il təvəllüdlü bitərəf Pitrublis Leon Vladislavoviç, "Molotovneft" trestinin quyuların əsaslı təmiri kontorunun mühəndis-geoloqu, 1906-cı il təvəllüdlü bitərəf Laçınyan Suren Ayrapetoviç, "Əzizbəyovneft" Trestinin 1-ci mədəninin neft ustası, 1902-ci ildə anadan olmuş bitərəf Əliyev Əli Dadaş oğlu, "Kaqanoviçneft" Trestinin Qaz Təsərrüfatının mexaniki, 1897-ci il təvəllüdlü bitərəf Panov Anton Petroviç [3] güzəranın ağırlığından, aclıqdan, yeməkxanaların bərbad vəziyyətindən, ümumiyyətlə həyatın dözülməzliyindən şikayətlənirlər.[4]

Azərbaycan neft sənayesi fəhlələri arasında antisovet əhvali-ruhiyyəsinin yayılması

Azərbaycan K(b)P MK-nın xüsusi şöbəsinə 7 oktyabr 1942-ci il tarixdə qeydiyyatdan keçən (№1656) "Azərbaycan neft sənayesi fəhlələrinin əhval-ruhiyyəsi haqqında" Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik baş mayoru T. Yaqubovun 03 oktyabr 1942-ci il tarixli "tamamilə məxfi" qrifli arayışında bildirilirdi ki, Azərbaycanın Neft Sənayesi mühəndis-texniki işçiləri kimi fəhlələri arasında da vətənpərvərlik fikirlərinə dair məlumatlar daxil olur. "Kirovneft" Trestinin fəhləsi, 1890-cı il təvəllüdlü bitərəf Kirov rayonunun Masazır kəndindən olan Əbülfəz Babakişi oğlu, "Neftayırma" Trestinin 6 №-li Tikinti-quraşdırma Kontorunun fəhləsi, bitərəf, 1914-cü ildə anadan olmuş Porkşeyan Mixail Timofeyeviç, [5] "Stalinneft" Trestinin Kompressor Təsərrüfatının çilingəri, bitərəf, 1880-ci il təvəllüdlü Vanyuşin Yakov İvanoviç, [6] həmin trestin kompressor təsərrüfatının çilingəri, 1906-cı il təvəllüdlü, bitərəf Tolstov Dmitri Nikolayeviç, "Azneftmaş" Trestinin Kəşfiyyat Kontorunun işçisi, bitərəf Lijovskaya Yelena Aleksandrovna hərbi mövzuda söhbətdə almanların tezliklə məğlub olacaqlarına əminlik ifadə etmişlər.[7]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 528.
[2] Yenə orada, vərəq – 528.
[3] Yenə orada, vərəq – 530.
[4] Yenə orada, vərəq – 529.
[5] Yenə orada,vərəq – 376.
[6] Yenə orada, vərəq – 376.
[7] Yenə orada, vərəq – 377.

Bununla yanaşı neft sənayesi fəhlələri arasında da qeyri-sağlam əhval-ruhiyyəli antisovet fikirlərə rast gəlinir. "Azneftkombinat"ın Asfalt-Beton Zavodunun yardımçı müəssisəsinin çilingəri, bitərəf Xeybər Ələsgərov bildirmişdi ki, "… 1920-ci il deyil ki, fəhlələri aldatsınlar. İndi 1942-ci ildir. 1920-ci ildə bütün təşviqatçılar fəhlələri şüarlarla aldatdılar ki, guya burjuaziya istismar edir, sovet hakimiyyətində hər şey fəhlələrin olacaq. 20 ildən artıq vaxt keçdi, bütün bunlar yalan oldu və bizi qara çörəyə möhtac qoyublar. İndi bir adam tapa bilməzsən ki, sovet hakimiyyətinin tərəfdarı olsun. Onsuz da 2 aydan sonra sovet hakimiyyəti mövcud olmayacaqdır".

"Stalinneft" Trestinin Kompressor Təsərrüfatının çilingəri, 1893-cü il təvəllüdlü, bitərəf Şabanov Aleksey Timofeyeviç söhbətində "…Sovet hökuməti yalnız işdə özünü tərifləyir və əvvəllər də belə olub, bütün hakimiyyət özünü tərifləyib. Cəbhədən gələn yaralılara diqqət yetirin, onların hamısı bədbəxt adamlardır. İndi onlara müəyyən diqqət yetirirlər, müharibə qurtarsın, onlar tamamilə unudulacaqlar. Bu insanlar tamamilə yox olacaqlar"[1] demişdi.

"Kaqanoviçneft" Trestinin 1-ci Mədəninin açarçısı, 1908-ci il təvəllüdlü, bitərəf Nəsirov Mustafa Xusayinoviç mövcud durumu dəyərləndirərək aşağıdakıları bildirmişdi: "…Bütün xalq sovet hakimiyyətinin əleyhinədir və sonadək gözləməyəcək. Özünün mövcudluğu ərzində bu hakimiyyət insanlara azad nəfəs almaq imkanı vermədi. Xalq aclıq keçirdi, yalnız ayrı-ayrı şəxslər yaxşı yaşadı. Əgər Hitler hakimiyyətə gəlsə, bütün xalq şadlıq edəcək". Oxşar fikirlər "Kirovneft" Trestinin kommunal kontorunun xarratı, 1885-ci il təvəllüdlü, bitərəf Nəzərov Mirzəməmməd Cəlil oğlu, "Qırmızı Ulduz" DRES-nin suyabaxanı, 1891-ci il təvəllüdlü, bitərəf Klimanov Pavel İvanoviç, "Kirovneft" Trestinin fəhləsi, bitərəf Lavrina Anastasiya Andriyanovna, "Orconikidzeneft" Trestinin fəhləsi, 1892-ci il təvəllüdlü bitərəf Eyvaz xan Baba oğlu, "Kaqanoviçneft" Trestinin 4-cü mədəninin operatoru, 1901-ci il təvəllüdlü, bitərəf Popov İvan Varlamoviç,[2] "Əzizbəyovneft" Trestinin maliyyə şöbəsinin işçisi, 1905-ci il təvəllüdlü, bitərəf Qasımov Məmməd Ağa oğlu, "Qırmızı Ulduz" DRES-nin ocaqçısı, 1908-ci il təvəllüdlü, bitərəf Pavlenko Mixail Stepanoviç, "Leninneft" Trestinin 10-cu Mədəninin operatoru, 1885-ci il təvəllüdlü, bitərəf Nəzər Novruzbəy,[3] "Kaqanoviçneft" Trestinin 1-ci Mədəninin fəhləsi, 1890-cı il təvəllüdlü, bitərəf Basov İvan İvanoviç,[4] "Orconikidzeneft" Trestinin fəhləsi, 1891-ci ildə anadan olmuş, bitərəf Məhərrəmov Hüseyn Baba oğlu, "Andreyev" adına Zavodun 4 №-li Sexinin lehimləyicisi Şirşov İvan

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 378.
[2] Yenə orada, vərəq – 380.
[3] Yenə orada, vərəq – 381.
[4] Yenə orada, vərəq – 381-382.

Pavloviç, "Əzizbəyovneft" Trestinin mədən operatoru, 1920-ci il təvəllüdlü, bitərəf Hüseynov Kamil Ağahüseyn oğlu, "L.Şmitd" adına Zavodun çilingəri, bitərəf Vaniyev Vladimir Arutyunoviç, "Azneftkombinat" da Mədən Yolu İdarəsinin işçisi Yepkova Kseniya İvanovna da ifadə etmişlər.[1]

"Azneftkombinat"ın mədən yolu idarəsinin maşinisti, 1884-cü ildə anadan olmuş, bitərəf Semyonov Nikolay Vladirmiroviç söhbətində tezliklə kommunizmin dağıdılacağını, "Orconikidzeneft" Trestinin 1-ci Mədəninin elektrik montyoru, 1896-cı il təvəllüdlü, bitərəf Provotorov Aleksandr Nikolayeviç, "Kaqanoviçneft" trestinin 1-ci Mədəninin çilingəri, 1900-cü ildə anadan olmuş, bitərəf Maklaşov Aleksandr Semyonoviç "Hitlerin gəlişini gözlədiyini və çörəkdən doymaq istədiyini" bildirmişdi.[2]

Azərbaycan SSR XDİK T.Yaqubovun **03 oktyabr 1942-ci il** tarixli "tam məxfi" qrifli arayışında da Azərbaycan Neft Sənayesi fəhlələrinin antisovet əhval-ruhiyyəsinə toxunulmuşdur. Arayışda "Kaqanoviçneft" Trestinin 9-cu Kompessor Stansiyasının rəisi, 1913-cü il təvəllüdlü, bitərəf Braçuk Vasiliy Mifodyeviç,[3] "Andreyev" adına Zavodun baş laboratoriyasının mühəndisi, 1887-ci il təvəllüdlü, bitərəf Qoqoyan Artyom Aleksandroviç,[4] "Molotovneft" Trestinin Qaz Kontorunun mühəndisi, 1916-cı il təvəllüdlü Allahverdiyev Xan Əli Mahmud oğlu, "Leninneft" Trestinin 2-ci Mədəninin müdir köməkçisi, 1898-ci il təvəllüdlü, bitərəf Komarov Vladimir Alekseyeviç, "Stalinneft" Trestinin çəkib vurma üzrə mühəndisi, 1913-cü il təvəllüdlü, bitərəf Lənbəranski Bəhram İsmayıloviç, "Azneftmaş" Trestinin istehsalat şöbəsinin baş mühəndisi, 1899-cu il təvəllüdlü Gülmirsaryan Aşot Avetisoviç[5] tərəfindən alman ordusunun darmadağın ediləcəyinə inam ifadə olunurdu.[6]

Bununla belə, Frunze adına Zavodun 4-cü Sexinin mühəndisi, 1909-cu ildə anadan olmuş, bitərəf Zeynalov Zeynal Kərim oğlu, "Kaqanoviçneft" Trestinin Quyuların Əsaslı Təmiri Kontorunun qazıma ustası, 1912-ci il təvəllüdlü, bitərəf Vasili Qanaşilki, "Əzizbəyovneft" Trestinin neft ustası, 1907-ci il təvəllüdlü, bitərəf Cəfərov Əbdül Nurəli oğlu, "Kaqanoviçneft" Trestinin Qaz Kontorunun avadanlıq üzrə mühəndisi, 1904-cü ildə anadan olmuş, bitərəf Tulskiy Sergey İvanoviç, "L.Şmidt" adına Zavodun mexaniki təmir sexinin texnoloqu Maştanova Proskofya Sidorovna,[7] "Kirovneft" Trestinin yeraltı təmir ustası, 1914-cü il təvəllüdlü

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 383-384.
[2] Yenə orada, vərəq – 385.
[3] Yenə orada, vərəq – 386.
[4] Yenə orada, vərəq – 387.
[5] Yenə orada, vərəq – 387.
[6] Yenə orada, vərəq – 388.
[7] Yenə orada, vərəq – 389.

Sadıqov Hüseyn Məlik oğlu,[1] "Stalinneft" Trestinin Elektrik Quraşdırma Kontorunun mühəndisi, bitərəf Tarasov Vladimir Georgiyeviç, "Əzizbəyovneft" Trestinin 4-cü Mədəninin neftvurma üzrə mühəndisi Əliyev Hacıbala Əli oğlu[2] alman ordusunun güclü silahlandığını, onların təyyarə və tankla təchiz olunduğu halda sovet hökumətinin heç nəyi olmadığını bildirilərək müqavimətin mənasız olduğunu ifadə etmişlər.

1942-ci ilin ikinci yarısında cəbhədə vəziyyətin mürəkkəbləşməsi neft sənayesində işləyən fəhlələrin əhval-ruhiyyəsinə də təsir etdi. "L.Şmidt" adına Zavodun polad sexinin yığıcısı, 1909-cu il təvəllüdlü, bitərəf Larin Pyotr Vasilyeviç, həmin zavodun xarratı, 1903-cü ildə anadan olmuş bitərəf Kalinin Nikolay Yulyeviç qələbəyə inamların ifadə edərək almanların sonadək məhv ediləcəklərini, Qafqazda özlərinə qəbir qazacaqlarını, "Kaqanoviçneft" Trestinin elektrik quraşdırıcısı, 1902-ci il təvəllüdlü, bitərəf Bolşakov Pavel Aleksandroviç "…Sovet İttifaqının İngiltərə və ABŞ-la birlikdə faşizmi məhv edəcəyini və Almaniya üzərində qələbə çalınacağına inandıqlarını bildirərək faşizmin yer üzündən silinməsini, onun bütün bu müharibənin səbəbkarı və bütün bəşəriyyət üçün əzab-əziyyət" olduğunu[3] bildirirdilər. "Stalinneft" Trestinin Qaz Kontorunun mühəndisi, 1912-ci il təvəllüdlü, bitərəf Bağırov Əyyub Şükür oğlu, həmin trestin 4-cü Mədəninin texniki, 1894-cü il təvəllüdlü, bitərəf Parfenov Vladimir İvanoviç,[4] "Kirov" adına Zavodun dəmirçi sexinin rəisi, 1920-ci il təvəllüdlü, bitərəf Qusev Viktor Nikolayeviç, "Kirovneft"də mexanik Barxudarov Artyom Makaroviç, "Neftzavodtikinti" Trestində baş iş icraçısı Benkeriç Leonid Antonoviç, həmin trestin 6-cı tikinti-quraşdırma kontorunun istehsalat-texniki şöbəsinin rəisi, 1909-cu il təvəllüdlü, bitərəf Lompart David Abramoviç cəbhədəki vəziyyətlə əlaqədar müttəfiqlərin öhdəliklərinə əməl etməməsini, xüsusən ingilislərin müxtəlif bəhanələrlə vaxtı uzatmasını pisləmiş, sovet ordusunun qəlib gələcəyinə əminlik ifadə etmişlər.[5]

"Kirovneft" Trestinin fəhləsi, 1908-ci il təvəllüdlü, bitərəf Əliyev Laçın Əlimurad oğlu cəbhədə vəziyyət mövzusunda söhbətdə bildirmişdi ki, "Bizim qardaşlar ümumi düşmənə qarşı şir kimi dayanaraq onların texnika və canlı qüvvəsini məhv edirlər. Düşmən Stalinqradı tuta bilmədi".

"Biz almanları hər tərəfdən mühasirəyə almalıyıq, onların bizim ərazimizə daxil olmasına yol verməməliyik. Onları qudurmuş it kimi məhv etməliyik". Bu sözləri "Kirovneft" Trestinin Nəqliyyat Kontorunun sürücüsü, 1908-ci il təvəllüdlü, bitərəf Pivovarov Rəfail Moiseyeviç söyləmişdi. Oxşar fikirləri həmin trestin çilingəri, 1891-ci ildə anadan olmuş, bitərəf

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 388-389.
[2] Yenə orada, vərəq – 390.
[3] Yenə orada, vərəq – 360.
[4] Yenə orada, vərəq – 420.
[5] Yenə orada, vərəq – 420-421.

İvanin Tixon Antonoviç,[1] "Molotovneft" Trestinin Şəhərətrafı Təsərrüfatı İdarəsinin fəhləsi, 1895-ci il təvəllüdlü, bitərəf Mahmud Baxşəli oğlu, "1 May" adına mexaniki zavodun dəmirçisi Makeyev Moisey Semyonoviç, "Leninneft" Trestinin 3-cü mədəninin operatoru Qulam Rza İmam Baxış söylədilər.[2] Adları qeyd olunan fəhlələr hesab edirdilər ki, alman ordusu gücdən düşəcək, onların irəliləməsinin qarşısı alınacaq və sovet ordusu qüvvə toplayaraq alman faşistlərin texnikası və canlı qüvvəsinə sarsıdıcı zərbələr vuracaqlar.[3]

Azərbaycan K(b)P MK-nın Xüsusi Şöbəsinə daxil olmuş 14 noyabr 1942-ci il tarixli (№2094) arayışdakı fikirlər maraq doğurur. Azərbaycan SSR XDİK, dövlət təhlükəsizlik baş mayoru T.Yaqubovun imzaladığı arayışda[4] qeyd edilənlərin əksinə olaraq göstərilir ki, ötən dövr ərzində daxil olan məlumatlarda fəhlə və mühəndis-texniki işçilər arasında müsbət vətənpərvərlik fikirləri söyləyənlər çoxluq təşkil etməyə başlamışdır. Daxil olan məlumatların əksəriyyətində cəbhədə aparılan hərbi əməliyyatlardan razılıq hiss olunur. Məsələn, "Kirovneft" Trestinin yanğın komandanlığının sürücüsü, 1909-cu il təvəllüdlü, bitərəf Məmmədov Məmməd Tağı oğlu iş yoldaşları Polyanov, Rassolov və b. əhatəsində cəbhədə hərbi əməliyyatlara aid söhbətdə "Sovet xalqına qalib gələ biləcək qüvvənin olmadığını, faşistlərin darmadağın ediləcəyini və sovet torpaqlarının alman işğalçılarından azad olunacağını, Bakı neftini düşmənlərin heç vaxt görməməyini"[5] bildirmişdir.

"Stalinneft" Trestini Kompressor Təsərrüfatının çilingəri, 1900-cü ildə anadan olmuş Volkova Mariya Stepanovna, "Kirovneft" Trestinin yeraltı təmir ustası, 1905-ci il təvəllüdlü, bitərəf Mixail Salov, "Kaqanoviçneft" Trestinin 2-ci Mədəninin operatoru, 1887-ci il təvəllüdlü, bitərəf Mametov Fyodr Aleksandroviç, "Stalinneft" Trestinin 4-cü Mədəninin böyük geoloqu Torosyan Arşak Solomonoviç,[6] "Kaqanoviçneft" Trestinin Kompressor Təsərrüfatı İdarəsinin çilingəri, 1899-cu ildə anadan olmuş, bitərəf Quliyev Nəcəf Yaqub oğlu, "Molotovneft" Trestinin ictimai iaşə işçisi, 1892-ci ildə anadan olmuş Qorskaya Raisa Osipovna[7] cəbhədəki hərbi əməliyyatlar mövzusunda söhbətdə sovet əsgərlərinin döyüş qəhrəmanlığından bəhs edərək, sovet ordusuna qarşı 14 dövlətin vuruşmasına baxmayaraq tezliklə almanların məğlub olacağını söyləmişlər.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 413.
[2] Yenə orada, vərəq – 414.
[3] Yenə orada, vərəq – 414.
[4] Yenə orada, vərəq – 450-457.
[5] Yenə orada,vərəq – 450.
[6] Yenə orada, vərəq – 450-451.
[7] Yenə orada, vərəq – 451–452.

XDİK-nın 30 dekabr 1942-ci il tarixli arayışında göstərilir ki, 7 №-li Zavodun böyük layihəçisi, 1911-ci il təvəllüdlü, bitərəf Sultanov Fərid Məlik oğlu,[1] "Azərenerji"nin dispetçer köməkçisi Akimova Larisa Dmitriyevna,[2] "Orconikidzeneft" Trestinin 4-cü Mədəninin neft ustası, 1917-ci il təvəllüdlü, bitərəf Məmmədova Tac Həsənovna, həmin trestin quyuların əsaslı təmiri kontorunun böyük geoloqu Udalov Vyaçeslav Aleksandroviç, "Stalinneft" Trestinin 3-cü Mədəninin mühəndisi, 1904-cü il təvəllüdlü, bitərəf Lazarev Artyom Gerasimoviç, "Azneftkombinat"ın Geoloji Topoqrafiya Kontorunun xəritələr tərtibetmə işi üzrə mühəndisi Kirivobokov Andrey Kuzmiç, "Azneftzavodtikinti" Trestinin plan şöbəsinin rəisi, 1888-ci il təvəllüdlü, bitərəf Leviçek Ruvim Abramoviç, "Kirovneft" trestinin böyük mühəndisi, 1904-cü ildə anadan olmuş, bitərəf Stualo Lev Markoviç söhbətlərdə Qırmızı Ordu hissələrinin Stalinqrad istiqamətində irəliləməsini ruh yüksəkliyi ilə qarşılamış, daha böyük əmək məhsuldarlığı əldə etməklə orduya köməkliyin vacibliyini vurğulamışlar.[3]

Bütün bunlarla yanaşı, neft sənayesi fəhlələri arasında qətiyyətsizlik nümayiş etdirənlərə, qələbəyə inamsızlıqla yanaşanlara, əksər hallarda mövcud vəziyyətdən çıxış edərək məişət qayğılarını önə çəkənlərə, bu səbəbdə də mənfi fikirlərlə yüklənənlərə də rast gəlinirdi. Onlardan bəzilərinin fikirlərinin təhlili göstərir ki, **antisovet əhval-ruhiyyədə köklənmə heç də cəbhədə vəziyyətlə əlaqəli olmayıb, əsasən düşmən ünsürlərin təhriki və yayılan şayiələr əsasında olmuşdur**. "L.Şmitd" adına Zavodun elektrik ustası, bitərəf Kasmarçik Aleksandr Andreyeviç aşağıdakıları bildirmişdi: "… Qələbə ona görə almanların olacaq ki, Hitler bu müharibəyə 10 il hazırlaşmışdı, öz dövlətini ərzaq və silah-sursatla təmin etmiş, sonra müharibəyə başlamışdı. Bizim ölkə isə bir neçə ay döyüşməyi bacarmadı, artıq hamı aclıq keçirir. Biz ölkənin istiqrazına, tikinti və silahlanma üçün pul vermişik, pullar hara oldu?".[4]

"Qırmızı Ulduz" DRES-nin qaraj fəhləsi, 1893-cü il təvəllüdlü, bitərəf Akatov Aleksandr Nikolayeviç demişdi: "Sovet hökumətinin mövcud olduğu illərdə yaxşı heç nə görmədim və indi deyirlər ki, hər şey satılmışdır. Alman döyüşür, onun hər şeyi var, o güclüdür. Beləliklə, bir şeyi gözləmək lazımdır ki, bizi vursun, almanlar hər şeyi məhv edib bura gələndə biz hamımız həlak olacağıq". "Dzerjinski" adına Zavodun 2 №-li Sexinin çilingəri, 1903-cü ildə anadan olmuş bitərəf Çermenskiy İvan Alekseyeviç "…Hələlik ingilislər ikinci cəbhəni açmağa hazırlaşmırlar, almanlar nəinki Bakıda, həm də Moskvada olacaqlar. İngilislər ancaq vəd

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 522.
[2] Yenə orada, vərəq – 523.
[3] Yenə orada, vərəq – 524-525.
[4] Yenə orada, vərəq – 3

verə bilərlər, onlar döyüşməyəcəklər. Çörçel ancaq danışmaq və cəfəngiyatla məşğuldur" demişdi.

"Andreyev" adına Zavodun 4 №-li Sexinin briqadiri, bitərəf Qavrin Stepan Stepanoviç,[1] "Leninneft" Trestinin yeraltı təmir operatoru, 1909-cu ildə anadan olmuş, bitərəf Həsənov Məmməd Məmmədbağır oğlu, "Kaqanoviçneft" Trestinin Kompressor Təsərrüfatı İdarəsinin işçisi, 1902-ci il təvəllüdlü, bitərəf Vasilyev Vladimir Fyodroviç, "Azərnefttikinti" Trestinin 2 №-li tikinti kontorunun işçisi, ÜİK(b)P üzvü Avanesov Nerses Aleksandroviç, "Əzizbəyovneft" Trestinin Kompressor Stansiyasının maşinisti, bitərəf Kyazkov İlya Karpoviç,[2] "Azərneftkombinat"ın işçisi, 1909-cu il təvəllüdlü, bitərəf Quliyev Heydər Axund oğlu, "Stalinneft" Trestinin Kompressor Təsərrüfatının yağçısı, 1920-ci il təvəllüdlü Əliyev Məmmədəli Məmmədhəsən oğlu, "Əzizbəyovneft" trestinin 2 №-li mədəninin yağçısı, bitərəf Hüseynov Heydər Hüseyn oğlu, "Qırmızı Ulduz" DRES-nin çilingəri, 1905-ci il təvəllüdlü, bitərəf Nikolayenko Sergey Moiseyeviç,[3] "Stalinneft" Trestində peşə məktəbində usta, 1910-cu il təvəllüdlü, bitərəf Məmmədov Məmməd Nəbi oğlu, "Kaqanoviçneft" Trestinin Traktor Bazasının traktorçusu, 1912-ci ildə anadan olmuş, bitərəf Novitskiy İvan Franseviç söhbətlərində sovet ordusunun qələbəsinə inamsızlıq ifadə etmişlər.[4]

Azərbaycan SSR XDİK Yaqubovun Azərbaycan K(b)P MK-ya göndərdiyi 8 oktyabr 1942-ci il tarixli məktubundakı "Azərbaycan Neft Sənayesi fəhlələrinin əhval-ruhiyyəsi haqqında", "Azərbaycan Neft Sənayesi mühəndis-texniki işçilərinin əhval-ruhiyyəsi haqqında" və "Azərbaycan Neft Sənayesində işləyən bəzi ÜİK(b)P üzvlərinin əhval-ruhiyyəsi haqqında" arayışlarının təhlili göstərir ki, **antisovet əhval-ruhiyyədə olanların əksəriyyəti milliyyətcə rus**, **erməni və yəhudilərdir**. Burada diqqəti çəkən odur ki, adları qeyd olunan qeyri-azərbaycanlıların əksəriyyəti idarə, müəssisə və təşkilatlarda daha yüksək vəzifə tuturdular. Təbii ki, onlar sıravi fəhlələrdən daha yüksək əmək haqqı alır və qismən yaxşı yaşayırdılar. Sovet hökumətinin milli siyasətində Azərbaycan və azərbaycanlılara ikili münasibət neft sahəsində daha çox hiss olunurdu. Arayışlar tanışlıq üçün daha çox Azərbaycan SSR XKS-nin sədri T.Quliyevə göndərilir, Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinin müdiri Novikovanın imzaladığı məktubda həmin məktubların tanışlıqdan sonra Azərbaycan K(b)P MK-ya qaytarılması xahiş olunurdu.[5] Təəssüf ki, görülmüş tədbirlərin nəticələri haqqında əsaslı faktlar yoxdur.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 3
[2] Yenə orada, vərəq – 362.
[3] Yenə orada, vərəq – 363.
[4] Yenə orada, vərəq – 364.
[5] Yenə orada, vərəq – 358.

Bakının alman işğalçıları tərəfindən tutulması ətrafında mülahizələr və təxribatlar

1941-1945-ci illər müharibəsində cəbhənin neft və neft məhsulları ilə təmin edilməsində Azərbaycanın rolu məsələsi tarixçilərin, politoloq və filosofların, həmçinin iqtisadçıların tədqiqat obyekti olaraq qalır. **Bunun əsas səbəblərindən biri müharibə tarixinə dair ədəbiyyatda qələbədə Bakı neftinin əhəmiyyətinin lazımınca qiymətləndirilməməsidir.**

Müharibə dövrü statistik külliyyatlarının təhlilindən aydın olur ki, Hitler Almaniyası SSRİ-yə qarşı müharibəyə başlayanda neftin 87,1 faizini Bakı, Qroznı, Maykop, 6 faizini Volqa-Ural, 4,8 faizini Qazaxıstan və Orta Asiya, 2,1 faizini Uzaq Şərq verirdi. Qafqazda istehsal olunan 87,1% neftin 71,0%-ni Bakı verirdi.[1] 1941-ci ildə Bakıda 23,5 milyon ton neft çıxarıldı[2] ki, bu da Ümumittifaq hasilatının 71,2%-ni təşkil edirdi. 1942-ci ildə Azərbaycan neftçiləri qarşısında ölkəyə 18,2 milyon ton neft verilməsi vəzifəsi qoyulmuşdu.[3] Bakı mədənlərinin real vəziyyəti baxımından bu planın qeyri-obyektiv olmasına baxmayaraq, Azərbaycan neftçiləri 15,7 milyon ton neft, yaxud ölkədə hasil olunan 21, 9 milyon neftin 71,7%-ni verdi. 1943-cü ildə Azərbaycan neftçiləri 12,7 milyon ton, yaxud Ümumittifaq neftinin 71%-ni verdi.[4] Göründüyü kimi, Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq müharibənin ilk iki il yarımında cəbhəni lazımı miqdarda neft və neft məhsulları ilə təmin etdi. Sözsüz ki, Almaniya, Fransa və İngiltərə hökumətləri Bakı neftinin əhəmiyyətin dəyərləndirir və Bakı neftinin ələ keçirilməsi sahəsində öz planları vardı. Təbii ki, bütün bu planlardan SSRİ rəhbərliyinin xəbəri var idi və Qafqazın müdafiəsinə dair bir sıra tədbirlər görülürdü.

Müharibə illərində Azərbaycan ərazisi hərbi əməliyyat meydanı olmadı. Ancaq Bakı səması üzərində və respublikanın bir sıra rayonlarında, məsələn 1942-ci il mayın 4-də Bakı səmasında, sentyabrın 29-da Xudat da alman təyyarələri göründü, həmin il oktyabrın 2-də Xızı üzərində 2 alman təyyarəsi vuruldu. Bu baxımdan antisovet fikirlərdə Bakının taleyi müzakirə mövzusu olması bir tərəfdən doğru olsa da, digər tərəfdən məsələnin həssaslığından istifadə edən düşmən elementlər antisovet fikirlər formalaşdırmağa və yayılmasına cəhd edirdilər.

Antisovet fikirlərin və əhval-ruhiyyənin formalaşmasında cəbhədə baş verən hadisələr, sovet qoşunlarının cəbhənin müxtəlif istiqamətlərindəki

---

[1] Советская экономика в период Великой Отечественной войны 1941-1945 гг. Москва, 1979; Сиполс, В.Я. Тайны дипломатические: Канун Великой Отечественной войны / В.Я.Сиполс. – 1939-1941. Москва, 1997. – с.93.

[2] ARPİİSSA, Fond №1, siyahı №169, iş№110, vərəq – 2.

[3] ARDTA, Fond №1690, siyahı №10, iş№ 687, vərəq – 14.

[4] Yenə orada, iş№ 707, vərəq – 8.

əməliyyatlarının nəticələri, xüsusən Stalinqrad altında döyüşlərə qədər baş verən hadisələr mühüm rol oynayırdı. Cəbhə hadisələrindən əhali əsasən qəzet yazılarından və Sovet İnformasiya Bürosunun məlumatlarından xəbər tuturdu. Bu məlumatlarda hadisələr təfsilatı ilə izahı olunmadığından düşmən elementlər hadisələri müxtəlif məcralara yönəldir, ruh düşkünlüyü və passivlik yaratmaq üçün istifadə edirdilər. Cəbhədə vəziyyət əsasən 1942-ci ilin iyun ayının ortalarına qədər daha ağır idi və alman-faşist qoşunlarının müxtəlif istiqamətlərdə əldə etdiyi qələbələr düşmən elementlərinin fəallaşmasına zəmin yaradırdı. Bu baxımdan cəbhədəki vəziyyətə, xüsusən də Şimali Qafqazdakı hərbi duruma dair ayrı-ayrı ordu komandanlarının, ordu xüsusi şöbələrinin, siyasi hissə üzrə müavinlərinin Azərbaycan K(b)P MK-ya ünvanladığı məlumatlar mühüm əhəmiyyət kəsb edir. Bu cür məlumatlar məxfi qrif altında ARPİİSSA saxlanılır və tədqiqat prosesində onlardan istifadə olunmuşdur.

Zodelavanın Qroznıdan Bakıya Merkulova göndərdiyi **20 avqust 1942-ci il tarixli** məlumatında[1] bildirilirdi ki, avqustun 18-nə 44-cü və 9-cu ordunun cəbhə vəziyyətində dəyişiklik baş verməmiş, əvvəlki kimi bu orduların düşmənlə təması olmamışdır. 37-ci Ordunun kəşfiyyat dəstəsi Novo Pokrovski və Novo İvanovskini tutan düşmən tərəfindən sıxışdırılmış, 37-ci Ordu Qızılburun, Kiştet, Baksan rayonlarında artilleriya-minomyot atəşi ilə əsas hüdudları saxlayır. Bakının cənub-qərbində düşmənin 200 avtomatçısı tankların köməyi ilə müdafiəni yararaq güclənir və Krasnaya Polyana xutoru meşəsində möhkəmlənirlər. Bəhs olunan dövrdə, Sovet aviasiyası 224 təyyarə uçuşu etmiş, düşmən mövqelərinə 175 bomba atılmış, 25 avtomaşın, 50 nəfərədək faşist məhv edilmiş, 2 təyyarə vurulmuşdur. Sovet Ordusunun bir "Yak" təyyarəsi geri qayıtmamışdır. Orconikidze, Aladır, Beslan, Draq-Kox, Çikla, Axkunut, Kazbek rayonunda düşmən aviasiyasının uçuşu qeydə alınmışdır. Fəal hərəkət, bomba atəşi, atışma olmamışdır.

Məlumatda bildirilirdi ki, 1942-ci il avqustun 18-də əsir götürülmüş alman yefreytorunun ifadəsinə görə sahədə general Kleysterin 6-cı Ordu Korpusu fəaliyyət göstərir.[2] 6-cı Ordu Korpusuna 3-cü və 23-cü Tank Diviziyası, 16-cı Motodiviziya və 2 Atıcı Diviziya daxildir. 23-cü Tank Diviziyası 20 tankla may ayında Xarkov rayonundan Starıy Sokol, Voroşilovqrad, Novinnomisk, Minvod stansiyasına hərəkət edir. 6-cı Ordu Korpusunun qarşısına Qafqaza, 23-cü tank diviziyasına isə Bakı istiqamətində məntəqələrə yiyələnmək vəzifəsi qoyulmuşdur.[3]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 63-64.
[2] Yenə orada, vərəq – 63.
[3] Yenə orada, vərəq – 63.

1942-ci il avqustun 19-da saat 23-ə yaxın Şamxal stansiyası rayonunda 3 qatar toqquşmuş, nəticədə benzinlə dolu 4 sistern partlamış, 20 nəfərə yaxın adam həlak olmuş, xeyli sayda adam yaralanmışdır.[1]

Bəhs olunan dövrdə Orconikidze-Nalçik-Qroznı-Mahaçqala müdafiə hüdudlarının tikintisi davam edirdi. Orconikidzedə tank əleyhinə maneələrin, barrikada və qurğuların tikintisində avqustun 18-də plana görə 8.000 nəfər işləməli olduğu halda hərbi hissələrlə birlikdə 7.000 nəfərə yaxın adam işə çıxmışdır. Avqustun 16-da düşmən təyyarələrinin müdafiə zolaqlarını bombalaması və əhalinin təxliyə əhval-ruhiyyəsinin güclənməsi nəticəsində işə çıxma azalmışdı. Avqustun 19-da Orconikidze şəhərində barrikadalar istisna olmaqla 3.750 kubmetr torpaq çıxarılmış, sonrakı gün Orconikidzedə müdafiə hüdudlarının tikintisində 5.545 nəfər iştirak etmiş, 3.553 kub metr torpaq çıxarılmışdır. Nalçikdə 1.700 nəfər, Qroznıda 3.449 nəfər, Mahaçqalada 1.300 nəfər işləmişdir ki, bu işə çıxma planının 13 %-ni təşkil edirdi.[2]

Nalçikdən 8 kilometr aralıda atəş nöqtəsi qurğularının tikintisi başa çatmışdı. Qorznıda 6.661 metr tank əleyhinə mane, 75 atıcı səngər, 17.277 metr əlaqə gəzintisi, 12 ədəd TP və torpaq atəş nöqtəsi qazılmışdı. Tikintidə 3.490 nəfər iştirak etmişdir.

Mahaçqalada tikinti işinin gedişi qeyri-qənaətbəxş olmuşdur. Sutkalıq tapşırıq 60% yerinə yetirilmiş, işə çıxma 3, 7 faiz təşkil etmişdi. Plana görə 5.980 nəfər işə çıxmalı olduğu halda 822 nəfər işə çıxarmışdı.[3] Azərbaycan K(b)P MK-ya göndərilən məlumatlardan aydın olur ki, Qroznıda avtonəqliy yatda çatışmazlıq yaranmış, Mahaçqalada müdafiə tikintisində vəziyyət qeyri-qənaətbəxş olaraq qalmış, sutkalıq plan tapşırığı 52 % yerinə yetirilmiş, fəhlələrin işə çıxma planı 15,9 % təşkil etmişdi.[4] Avqust ayının 21-də Orconikidzedə 5.213 nəfər və 3 hərbi alay tikinti-müdafiə işlərində iştirak etmişdi. Qroznıda aparılan tikintidə fəhlə qüvvəsinin, traktorların və avtomaşınların çatmaması, minaların, detonatorların, naqillərin, partlayıcı maddələrin olmaması çətinliklər yaradırdı. Ümumilikdə hadisələrin təhlili, məlumatların araşdırılması göstərir ki, işi çətinləşdirən səbəblər sırasında əməyin pis təşkili, iş alətlərinin çatışmaması (lapatka, kürək, və s.) dayanır, bunun nəticəsində əhalinin əmək məhsuldarlığının sutkalıq tapşırığı 30-40% təşkil edirdi.

Avqustun 21-də də cəbhədəki vəziyyət sabit olmuş, düşmənin hərəkətində əsaslı dəyişiklik qeydə alınmamışdı. Zodelavanın avqustun 21-də Orconikidzedən Merkulova göndərdiyi məlumatda cəbhədə vəziyyətdə də-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 59.
[2] Yenə orada,vərəq – 56.
[3] Yenə orada, vərəq – 64.
[4] Yenə orada, vərəq – 59.

yişiklik olmadığı bildirilirsə də, düşmənlə toqquşma baş verdiyi xatırladılır[1] və bildirilirdi ki, Proxladnının cənub-qərbində düşmən aviasiyası və artilleriyanın dəstəyi ilə 2 batalyonadək qüvvə ilə Bakaqsk xutorunu ələ keçirmiş, Kotlyarevski stansiyasının Maysk kəndinə çıxmağa can atır. Saat 15-də Baksan at zavodu və quşçuluq sovxozu sahələrindən düşmənin əlahiddə avtomatçılar qrupu cənub istiqamətinə keçməyə cəhd etmiş, hüdudu tutan 37-ci ordunun hissələri ilə döyüşə girmişlər. Avqustun 18-də saat 4-ə olan məlumata görə düşmənin 2 alayı (avtomatçılar və alpinislər) Kluxur aşırımlarını tutaraq dolayın cənubuna çəkilib döyüş aparan 6-cı bölüyü sıxışdırmışlar. Avqustun 20-də saat 8-də 2 düşmən təyyarəsi Orconikidze şəhəri üzərində görünmüş, 44-cü Ordu Qərargahının məlumatına görə avqustun 20-də Dərbənd-Mahaçqala-Buynaksk rayonunda düşmənin desantı gözlənilir. Kabarda-Balkar XDİK-nın məlumatın görə hələ avqustun 12-də Donquz-Oqunbaşı dolayında bir alman zabiti və bir neçə əsgər öldürülmüş, bir zabit əsr alınmışdı.

Maysk kəndi rayonunda sovet tərəfinə keçmiş alman zabiti bildirmişdi ki, 23-cü və 3-cü tank diviziyası tərkibində rus dilini bilənlərdən və rus ağqvardiyaçılarından "**Brandenburq**" adı altında alman alayı yaradılmışdı. Onların hamısı Qırmızı Ordu forması geyinir, sovet silahları ilə silahlanır, sovet mülki maşınları ilə hərəkən edirlər. Alayın komanda heyəti vəsiqə və partiya bileti ilə təmin edilmişdir. Alayın əsas vəzifəsi maneəsiz sovet arxasına düşməklə keçidi ələ keçirməkdir.[2]

Məlumatların təhlili göstərir ki, düşmən qoşunlarının bəzi əraziləri ələ keçirməsindən istifadə edən quldur qruplar əhalinin mal-qarasını oğurlayırdılar. Mal-qaranın çıxarılmasına mane olan belə quldur qruplardan biri 1942-ci ilin avqust ayı ərzində Karaçayın dağlıq rayonunda aşkarlandı. Quldur qrupunu ləğv etmək üçün əməliyyat işçilərinin rəhbərliyi ilə XDİK qoşunundan 23 nəfər göndərildi.

Kabarda-Balkarın Ter rayonunda cəbhədən Qafqaz diviziyasından qaçmış 115 nəfərlik fərari qrupu mal-qaranın Gürcüstan ərazisinə keçirilməsinə mane olmuşdu. Kabarda Balkar XDİK müavininin rəhbərliyi altında onlara qarşı 46 nəfərdən ibarət əməliyyat qrupu göndərilmişdi.[3]

Cəbhədəki vəziyyət haqqında 1942-ci ilin sentyabr ayında da Azərbaycan K(b)P MK-ya məlumatlar daxil olurdu. Lukyanovun 10 sentyabr 1942-ci il tarixli Merkulova ünvanladığı məktubda[4] bildirilirdi ki, sentyabrın 9-da saat 18^{-30}-da Həştərxan şəhərinə 14 düşmən təyyarəsi uçuş etmişdi, 2 böyük neft bazası bombardmana məruz qalmışdır. Onlardan bi-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 58-59.
[2] Yenə orada, vərəq – 55.
[3] Yenə orada, vərəq – 58.
[4] Yenə orada, vərəq – 53–54 .

rində 200 min tondan yuxarı, digər neft bazasında 150 min ton neft, o cümlədən 72 min ton yağ vardı. Qısa vaxtda yanğın böyük sahəni əhatə etmiş, yanğını lokallaşdırmaq üçün imkan olmamışdı. Zavodun avadanlığının 2/3 hissəsi sıradan çıxmış, avadanlıqların bir hissəsi təxliyə olunmuş, yanğının ona bitişik qəsəbəyə yayılmaması məqsədilə yanğın komandası və hərbi hissə səfərbər olunmuşdur. Maddi itki çox böyük olmasa da, 20-30 nəfərə yaxın adam həlak olmuşdu. Lukyanov bildirirdi ki, həmin gün saat 20-yə yaxın Həştərxanın şimalında Boqdo stansiyası bombardmana məruz qalmışdı. Şimala istiqamət götürən benzin eşelonu yanır. İnsan itkisi 160 nəfərə çatır ki, onlardan 50 nəfəri həlak olmuşdu. Düşmən təyyarələrinin bombardmanı nəticəsində Həştərxanda ehtiyat neft qalmadı. Digər bazalarda qalan neft 200 min tona yaxın idi.[1] Məktubun sonunda digər bazaların da bombardmana məruz qalması təhlükəsi olduğu bildirilirdi.[2]

Sadalanan məlumatlar Azərbaycan K(b)P MK-ya daxil olur, fəhlə və qulluqçuların, xüsusilə də neft sənayesində çalışan işçilər məlumatlandırılmırdı. Nəticədə düşmən elementlər yaranmış məlumatsızlıqdan istifadə edir və Bakının tezliklə almanlar tərəfindən tutulacağı, neft quyularının partladılması, əhalinin təxliyəsi barədə antisovet mülahizələr səsləndirirdilər. Doğrudur, fəhlə və qulluqçuların bir hissəsi qələbə naminə fədakarcasına çalışır, orduya köməklik göstərilməsinin vacibliyini bildirərək qələbəyə inam ifadə edirdilər. XDİK Yaqubovun 20 sentyabr 1942-ci il tarixli arayışında bildirilirdi ki, müharibənin gedişində cəbhədə vəziyyətin mürəkkəbləşməsi ilə Bakının taleyi öz əksini neft sənayesində işləyən fəhlələrin əhval-ruhiyyəsində tapır. Fəhlələr özlərinin çoxsaylı vətənpərvərlik təklifləri ilə faşizm üzərində qələbəyə nail olunacağını ifadə edirdilər. Məsələn, "Çaparidze" adına zavodun salçısı 1911-ci il təvəllüdlü, bitərəf Nemçinov İvan Petroviç cəbhədə vəziyyətə toxunaraq demişdi: "…Almanlar Bakıyadək gəlməyəcəklər, Qafqaz cəbhəsi düşmənin hücumunu dayandıracaq. Mən əminəm ki, Qırmızı Ordu nəinki faşistləri dayandıracaq, həm də Hitlerin ac ordusunun meyitini qoyacaq".[3] Həmin zavodun işçisi, 1913-cü ildə anadan olmuş, bitərəf Makarova Yevgeniya Mixaylovna "…son vaxtlarda ordunun silah-sursatla güclü təchiz olunduğunu, insan ehtiyatlarının tükənməzliyini vurğulayaraq bildirmişdi ki, almanlar müvəqqəti müvəffəqiyyət qazanmışlar, şübhə etmirəm ki, bizim qələbəmizlə Bakı Hitlerin arzularında qalacaqdır".[4]

"Leninneft" Trestinin 8-ci Mədəninin mühəndisi, bitərəf Raytman Yakov Moiseyeviç Bakının verilməsinin qaçılmaz olduğunu, bu səbəbdən

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 53.
[2] Yenə orada, vərəq – 54.
[3] Yenə orada, vərəq – 359.
[4] Yenə orada.

də quyuların sıradan çıxarılması və ləğvinə hazırlaşmağın vacib olduğunu bildirmişdi.

"Stalin" adına Zavodun 2 №-li sexinin mühəndisi, 1887-ci il təvəllüdlü, bitərəf Kryanikov Anatoliy Semyonoviç cəbhənin Bakıya yaxınlaşması və əhalinin təxliyəsindən danışarkən "…Hara biz təxliyə olunaq, yolda itib-batmaqdansa burada həlak olmaq yaxşıdır. Bizim bir yolumuz var – Zakaspi ölkəsi, orada bir stəkan su 5 rubldur" demişdi.

"Stalin" adına Zavodun 2 №-li Sexinin mühəndisi, 1898-ci il təvəllüdlü, bitərəf Balacayev Əhməd Yusif oğlu bildirmişdi ki, bu cür itkilərlə müharibə uzun müddət davam edə bilməz. "Qırmızı Ulduz" DRES-nin texniki, 1918-ci təvəllüdlü, komsomolçu Xanlarova Mənzər Vasif qızı: "Almanlar artıq Bakının yaxınlığındadır, … onlar gündə 70 kilometr irəliləyirlər, ancaq mən heç yerə qaçmayacağam, burada qalacağam" demişdi.[1]

"Kaqanoviçneft" Trestinin Quyuların Əsaslı Təmiri Kontorunun direktoru, 1895-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Zaxarov Mirzə Rəsuloviç hərbi mövzuda söhbətdə antisovet nöqteyi-nəzərini bildirərək bildirmişdi: "Hitlerin gəlişini gözləyək, sovet hakimiyyətində bizə yaşamaq qismət olmadı. Hitlerin zamanında hər şey yaxşı olacaq, almanlar yaxşı adamlardır. Onların vaxtında hər şey bol və azadlıq olacaq…".

"Leninneft" Trestinin 2 №-li Süd Mətbəxinin müdiri, ÜİK(b)P üzvü Afanasyeva Mariya Artyomovna Bakını bombalamaq imkanlarından söz düşəndə demişdi: "Qoxmayın, Bakını bombalamayacaqlar…hamı yatacaq, səhər oyanacaq və başqa hökumət görəcək…Sənaye şəhərini almanlar bombalamazlar". "Əzizbəyovneft" Trestinin kompressor təsərrüfatının mexaniki emalatxanasının müdiri, 1912-ci ildə anadan olmuş Heybətov Baba Cavad oğlu aşağıdakı bəyanatı vermişdi: "…Danışırlar ki, biz qalib gələcəyik, bizdə silah, təyyarə və tank var. Ancaq hamı geri çəkilir və ac gəzirik, qələbə necə qazanılacaq. Biz bu saat müharibədəyik və ay yarımdan sonra almanlar Bakıda olacaqlar, yox əgər ingilislər mane olsalar, onda Türkiyə və Bolqarıstan qalxacaq və alman ordusuna kömək edəcək. Qəzetlər nə yazırlar inanmıram".

"Orconikidzeneft" Trestinin 7-ci Mədəninin briqadiri Talışxanov Mir Məmməd, "Stalinneft" Trestinin Boru Bazasının presləyicisi, 1894-cü il təvəllüdlü, bitərəf Konarkin İvan Yefimoviç, həmin bazanın fəhləsi, 1892-ci il təvəllüdlü, bitərəf Bercin Akim Spiridonoviç neft quyularının partladılmasının əleyhinə çıxmışlar.[2] Fəhlə Berezin İ.V.Konarkinin əhval-ruhiyyəsini dəstəkləyərək "…yaxşı olar almanlar qalib gəlsinlər. Almanlar bizim üçün yaxşı olacaq, belə həyat bizi bezdirmişdir" demişdi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 372.
[2] Yenə orada, vərəq – 379.

"Leninneft" Trestinin 10 №-li Mədəninin böyük operatoru, 1909-cu il təvəllüdlü, bitərəf Həsənov Məmməd Məmmədbəşir oğlu aşağıdakıları söyləmişdi: "Nə yazmırlar, nə demirlər, onsuz da Bakını almanlar alacaqlar, müharibə qurtaracaq və hər şey keçmişdəki kimi olacaq. Hitlerdə kolxoz olmayacaq, hər bir adam əvvəllər necə yaşayırdısa elə yaşayacaq".[1]

Molotov rayonu Şubanı Mədəninin müdiri, 1905-ci il təvəllüdlü, bitərəf Əliyev Əliağa Baba oğlu neft mədənlərində keçirilən tədbirlər haqqında söhbətdə söyləmişdi ki, "…Sovet hökuməti düzgün hərəkət etmir, almanlar onsuz da Bakını tutacaq və mədənlərin partladılmasına imkan verməyəcək".[2] "Əzizbəyovneft" Trestinin Baş geoloqunun müavini, 1905-ci ildə anadan olmuş, bitərəf Andrianov Sergey Leontiyeviç neftçilərin "İkinci Bakı" ya göndərilməsinə münasibət bildirərək demişdi ki, "…Əgər ora getsək, orada acından öləcəyik. Burada da həmçinin acıq. Almanların Bakıya daxil olması ilə bizdə hər şey çiçəklənəcək və daim işləməli olacağıq. Bizim qoşunlar Stalinqradı təslim etdilər, ancaq bu barədə məlumat vermirlər".[3]

"Andreyev" adına Zavodun quraşdırma sexinin rəisi, 1900-cü ildə anadan olmuş, bitərəf Salamov Vladimir Mixayloviç, "Kaqanoviçneft" Trestinin Qaz Kontorunun direktor müavini, 1905-ci ildə anadan olmuş, bitərəf Mənsurov Əbdül Xaliq oğlu cəbhədəki vəziyyət haqqında doğru məlumat verilmədiyini, qoşunların məğlubiyyətinin gizlədildiyini, tezliklə almanların Bakını tutacaqları barədə antisovet fikirlər söyləmişlər.[4]

"Kaqanoviçneft" Trestinin Quyuların əsaslı təmiri Kontoru müdirinin növbətçi köməkçisi, 1902-ci ildə anada olmuş, bitərəf Yar Əli Dövrəli demişdi:

"…Almanlar Bakını gələn ilin yazında tutmağı planlaşdırırlar və buna görə bu cəbhədə heç bir əməliyyat aparmırlar, hətta bəzi yerlərdə güzəştə gedirlər. Qışda onların bura gəlməsi mümkün deyil, burada aclıqdır, ərzaq tapılmır, ona görə də qışı Şimali Qafqazın varlı taxıl rayonlarında qalmağı qərara almışlar. Yazda yüksək templə hücuma keçəcək, Bakını tutacaqlar".[5]

"Stalinneft" Trestinin quyuların əsaslı təmiri şöbəsinin rəisi, 1901-ci il təvəllüdlü, bitərəf Hüseynov İnoyat Süleymanoviç bildirmişdi ki: "cəbhədə vəziyyət kəskin pisləşmişdir. Bizim hissələr sürətli geri çəkilir. Bir il bundan əvvəl döyüşlər Kaunas uğrunda gedirdi, indi Qafqazın ətəyində gedir. Türkiyə bizim əleyhimizə çıxış edir və əlverişli məqam gözləyirlər". Oxşar fikirləri "Əzizbəyovneft" Trestinin Nəqliyyat Kontorunun Plan Şöbəsinin rəisi, 1892-ci il təvəllüdlü, bitərəf Perespolov Pyotr

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq –379.
[2] Yenə orada, vərəq – 391.
[3] Yenə orada, vərəq – 392.
[4] Yenə orada, vərəq – 392-393.
[5] Yenə orada, vərəq – 526.

Georgiyeviç, Krasin adına DRES-in turbin sexinin rəisi, 1902-ci il təvəllüdlü, ÜİK(b)P üzvü Rudakov Yakov Dmitriyeviç,[1] "Stalin" adına Zavodun 6-cı Sexinin rəis müavini, 1912-ci il təvəllüdlü, bitərəf Kazımov Əhəd Habil oğlu,[2] "Əzizbəyovneft" Trestinin Baş Geoloqunun müavini, 1907-ci il təvəllüdlü, bitərəf Andriyanov Sergey Leontiyeviç səsləndirmişlər.[3]

Qeyd edilənləri yekunlaşdıraraq deyə bilərik ki, antisovet fikirli insanların ifşası sahəsində əməli tədbirlər həyata keçirilmiş, antisovet mülahizələr söyləyənlər barəsində inzibati tədbirlər görülmüşdü.

Sənayedə və kənd təsərrüfatında məsuliyyətsizlik, sosialist əmlakının oğurlanması və antisovet fikirlərin yayılması

Müharibənin başlaması sənaye və kənd təsərrüfatı müəssisələrinin işinin yenidən qurulmasını tələb etdi. Xüsusilə mühəndis-texniki işçilərin, fəhlələrin, kənd təsərrüfatında çalışan əhalinin orduya səfərbər olunması və cəbhənin sifarişlərinin yerinə yetirilməsində bir sıra çətinliklər yaratdı. Yaranmış vəziyyət isə məhsul istehsalının həcminə təsir göstərdi Respublikanın sənaye mərkəzlərindən olan Nuxa (Şəki – red.) rayonun ipəkçilik sənayesində vəziyyət ürəkaçan olmamışdır. Nuxa rayonundan ipəkçilik təcrübə və ipəkçilik üzrə elmi-tədqiqat laboratoriyası, ipək kombinatı və ya fabrik fəaliyyət göstərirdi.

İpək kombinatında (direktor Məmmədov) baramadöyən, toxucu və boyayıcı sexlər vardır. Sexlər hazır ipək parça və Moskva fabriki üçün xam ipək istehsal edirdi.

3 №-li fabrik (direktor Səfərov) 2 sexdən – baramadöyən və burucu sexindən ibarət idi. Nuxa rayon ipək sənayesinin xammal, fəhlə qüvvəsi və dəzgahlarla təmin olunmasına baxmayaraq ipək sənayesində ildən-ilə gerilik hiss olunur, dövlət planı yerinə yetirilmirdi.

Şəhər Partiya Komitəsinin bürosu dəfələrlə ipək sənayesinin işini müzakirə edərək gerilikdən çıxmaq üçün həll yollarını axtarsa da, sənayenin işində irəliləyiş müşahidə olunmurdu. 1943-cü ilin planına görə ipək kombinatı 1.393 min metr parça buraxmalı olduğu halda, yalnız 336 min metr parça buraxmışdır ki, bu planın 30,8 faizini təşkil edirdi. 2 №-li Fabrik xam ipək planına 78, 2 faiz, 3 №-li fabrik 94,9 faiz əməl etmişdir.

1943-cü il planının yerinə yetirilməməsinin səbəbi ipək kombinatının və fabriklərin işlə tam yüklənməməsi olmuş, nəticədə ipək kombinatının barama döymə sexi il ərzində 214.555 saat işləməmişdir ki, bu da 39,4 faiz təşkil edirdi. Toxucu sexi üzrə 338.415 saat (44,5%), 2 №-li baramadöyən fabriki üzrə işləməyən saatların miqdarı 946.020 saat (yaxud 36,8%),

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 370.
[2] Yenə orada, vərəq – 371.
[3] Yenə orada.

burucu sexi üzrə 3.429 saat (yaxud 36,8%) olmuşdu. İpək sənayesi rəhbərləri Əzizov (şəhər partiya komitəsinin sənaye üzrə katibi), Məmmədov, Süleymanov və Səfərov planın yerinə yetirilməməsinin səbəbini ipək kombinatının və fabriklərin lazımı sayda nəqliyyatla təmin edilməməsi ilə izah edirdilər. Nəqliyyat çatışmaması səbəbli Kirovabaddan (indiki Gəncə) kifayət qədər yanacaq alınmamışdır.[1]

Azərbaycan K(b)P MK katibi Qafarzadəyə ünvanlanan arayışdan məlum olur ki, 2 №-li baramadöyən fabrikin direktoru Süleymanov öz ətrafına qısa müddətdə qohumlarını toplayaraq dayısı Y.Məmmədovu nəqliyyat kontoruna, onun qohumu Zülqəddəni aşbaz (onun qardaşı Abdulla bəy və Umar bəyi Nuxa üsyanın iştirakçısı olmuşlar) təyin etmişdi.

Arayışda, həmçinin yol verilmiş nöqsanların səbəbləri açıqlanırdı. Göstərilirdi ki, partiya, komsomol və həmkarlar təşkilatlarının zəif işi nəticəsində fəhlələr və mühəndis-texniki işçilər istehsalat planlarının yerinə yetirilməsinə səfərbər olunmamışlar. 1943-cü ildə bütövlükdə kombinat üzrə (ilk partiya təşkilat katibi Məmmədovdur) cəmi 5 nəfər partiya sıralarına qəbul olunmuşdu.[2]

İpək Sənayesi İttifaqının (sədri Xəlilov) işi qeyri-qənaətbəxş olmuşdur. İttifaqın Rəyasət Heyətinin 17 üzvündən yalnız 6 nəfəri ipək sənayesi ilə əlaqəsi olan adamlar idi. Qalanlar ipək sənayesi ilə əlaqəsi olmayan təşkilatlardan seçilmişdilər. Araşdırmalardan məlum olmuşdur ki, Rəyasət heyətinə seçilmiş Həsən Rzayev 1 №-li Konserv Zavodunun anbar müdiri, Mürsəl Abdullayev "Kirov" adına kolxozun sədri, Həsən Quliyev Rayon Kommunal Təsərrüfatı şöbəsinin müdiridir. Təəccüblü orasıdır ki, adları qeyd olunanların Rəyasət Heyətinə yerlərdən namizədliyi göstərilmədən "seçilmişdilər".[3]

Sənaye kombinatının direktoru vəzifəsinə rayon prokurorunun əmisi oğlu Qəhrəmanov təyin edilmişdi. O, mühasiblə birlikdə ərzaq mallarını (un, düyü, yağ və s.) müntəzəm oğurlamışdılar. Onlar haqqında 1942-ci il avqust ayının 7-də iki dəfə cinayət işi açılsa da, prokuror Əhmədovun himayəsi ilə cəzasız qalmışdılar.[4]

Nuxa rayonu 1943-cü ildə yağ, ət, yumurta tədarükü üzrə dövlət planlarını yerinə yetirməmişdi. Rayon İcraiyyə Komitəsinin sədri Abdurahmanov, Respublika Xalq Tədarük Komissarlığının rayon şöbəsi üzrə səlahiyyətli nümayəndəsi M.Bağırov, Azərbaycan SSR XKS sədri T.Quliyev və SSRİ Tədarük Komissarlığının Azərbaycan SSR üzrə səlahiyyətli nümayəndəsi Rəhimlinin adına göndərilən 13 noyabr 1943-cü il tarixli teleqramda rayon üzrə dənli bitkilərə dair tədarük planlarının yerinə yetiril-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 1-2 .
[2] Yenə orada, vərəq – 2.
[3] Yenə orada.
[4] Yenə orada, vərəq – 3 .

diyi göstərilsə də, faktiki olaraq rayon dənli bitkilər üzrə dövlət tədarükü planını yerinə yetirməmişdir. Rayonda heyvandarlığın planlı inkişafı təmin edilməmişdir. İribuynuzlu mal-qaranın inkişafı üzrə plan 95,5 faiz, atçılığın inkişafı üzrə 78 faiz yerinə yetirilmişdir. Rayonun Oxut kəndindəki "Kommunizm" kolxozu heyvandarlığın inkişafı planına 85 faiz, "Qırmızı maldar" kolxozu 76,8 faiz, "Stalin" adına Baş Göynük kəndi 96 faiz əməl etmişdilər.[1]

Bunu aşağıdakı cədvəldən görmək olar.[2]

Cədvəl 12.1

Sıra № si	Növlər üzrə daxil olmuşdur	Plan	Yerinə yetirilmişdir	Yerinə yetirilmişdir (faizlə)
1	Taxıl (dövlət tədarükünə)	5812,00	4789,94	82,4
2	Çəltik (dövlət tədarükünə)	11844,00	10556,40	89,2
3	Taxıl (naturada ödəmə)	5.000	5427,00	111,1
4	Qızıl Ordu fonduna taxıl	1902.00	1996,48	105,0

Rayonda heyvandarlığın planlı inkişafı təmin edilməmişdir. İribuynuzlu mal-qaranın inkişafı üzrə plan 95,5 faiz, atçılığın inkişafı üzrə 78 faiz yerinə yetirilmişdir. Rayonun Oxut kəndindəki "Kommunizm" kolxozu heyvandarlığın inkişafı planına 85 faiz, "Qırmızı maldar" kolxozu 76,8 faiz, "Stalin" adına Baş Göynük kəndi 96 faiz əməl etmişdilər.[3]

1943-cü ildə rayon torpaq şöbəsinin (müdir Əlibalayev) yarıtmaz işləməsi səbəbli dənli bitkilərdən aşağı məhsuldarlıq əldə olunmuşdu. 1943-cü ilin planına görə hər hektardan 69 pud buğda alınması nəzərdə tutulsa da, 39 pud, yaxud 55% məhsul götürülmüşdü. Rayonun 59 kolxozdan cəmi 21-də əməkgününə məhsul bölünmüşdü. Baş Göynük kəndi "Lenin" adına, Kiçik Dəhnə kəndi "Telman" adına, Zunud kəndi "Kirov" adına, Aşağı Göynük kəndi "Paris Kommunası" adına kolxoz 1941-ci ildən kolxozçulara əmək gününə məhsul verməmişdi. Rayonda yaranmış vəziyyəti rayon təşkilatları dənli bitkilərdən aşağı məhsuldarlıqla əlaqələndirsələr də,[4] əslində bir sıra kolxozlar dövlət əmlakını dağıtmaqla məşğul olmuşlar.

Sevda Məmmədova Aşağı Göynük kəndi "Paris Kommunası" adına kolxozun sədri vəzifəsində 1941-ci ildən işləyirdi. Kolxozun 200 təsərrüfatı, 4 tarla briqadası və 40 iş öküzü vardır. Kolxozçuların hamısı əmək qabiliyyətli olmuşlar. Kolxoz təsərrüfat planlarını yerinə yetirmək imkanında olduğu halda, 1943-cü ildə səpin planına 65 faiz əməl etmişdir. Araşdırmalardan məlum olmuşdur ki, S.Məmmədova kənd təsərrüfatını bilmədi-

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 4.
[2] Yenə orada, vərəq – 3.
[3] Yenə orada, vərəq – 4.
[4] Yenə orada, vərəq – 6.

yindən kolxozda təsərrüfat işləri geriləməyə başlamış, kolxozçular təsərrüfat planlarının yerinə yetirilməsinə səfərbər olunmamışlar. Nəticədə Aşağı Göynük kəndi "Paris Kommunası" adına kolxoz 1943-cü ildə əməkgününə heç nə paylamamışdır. Ancaq S.Məmmədova kolxozdan 185 kiloqram buğda, 48 kiloqram arpa, 150 kiloqram çəltik, ferma müdiri Həsənov 230 kiloqram buğda, 116 kiloqram arpa və 243 kiloqram çəltik, kolxoz hesabdarı Abdulla Məmişov buğda, arpa, çəltik almışlar. Ancaq cəbhəçi ailəsi Bağdagül Əhmədova 140 əməkgünü qazanmasına baxmayaraq kolxozdan kömək kimi 7 kiloqram arpa, 253 əməkgünü qazanan Hürü Əhməd qızı 24 kiloqram buğda almış, 235 əməkgünü qazanan Nazlı Musa qızına heç nə verilməmişdir.

S.Məmmədova ətrafına oğruları və müftəxorları toplamışdı. Məsələn, ferma müdiri vəzifəsinə 1937-ci ildə həbs olunmuş, həbsdən sonra yenidən oğurluqla məşğul olduğu üçün təkrar 3 il azadlıqdan məhrum edilmiş, 1942-ci ildən Aşağı Göynükdə 40 nəfərlik oğrular qrupuna rəhbərlik edən Həsənov təyin edilmişdi. 1942-ci ildə Məmmədova kolxoz idarə heyətinin razılığı olmadan onu ferma müdiri təyin etmişdi. Həsənov işlədiyi müddətdə 185 baş iri və xırdabuynuzlu mal-qaranı israf etmişdir.[1]

Rayonda oğurluq və mənimsəmə kütləvi xarakter almışdır. Cinayətkar elementlər Rəhimli və Abdullayev tərəfindən müdafiə olunmuş, rayon prokuroru Əhmədov işinə məsuliyyətsiz yanaşaraq faktları ört-basdır etmişdir.[2]

Qudula kəndi "Füzuli" adına kolxozda 1943-cü ildə 125 arı təknəsi oğurlanmış, kolxozda arıçılıq ferması tamamilə məhv edilmiş, kolxoza 182.629 rubl həcmində ziyan vurulmuşdur. Bu iş üzrə kolxozçu Bəhram İsgəndərov rayon prokuroru Əhmədov tərəfindən qeyri-qanuni 7 il azadlıqdan məhrum edilmişdir. Məhkəmə istintaq zamanı aydın olmuşdu ki, əsas günahkar B.İsgəndərov deyil, Rəhimlinin qohumu, kolxozun arıçılıq üzrə aqronomu A.Ələkbərovdur. Cinayətkarı məsuliyyətə cəlb etmək əvəzinə şəhər partiya komitəsinin kadrlar şöbəsi A.Ələkbərovu işdən azad etmişdir. Günahkar olmadığı halda kolxozçu İsgəndərov prokuror Əhmədov tərəfindən günahkar hesab edilmiş, 1944-cü ildə Bakıda həbsxanada ölmüşdür.

1943-cü ilin noyabrında rayonun Kiş kəndində 12 kənd sakininin evində axtarış aparılır.[3] "Bağırov" adına kolxozun sədri İsgəndər Həmidovun evində 23 pud, natamam orta məktəbin direktoru Həmid Əfəndiyevin evində 83 pud, kənd sakini Yusif Eyvazovun evində 12 pud, Ceyran Abbasovanın evində 10 pud, Nuru Süleymanovun evində 8 pud çəltik aşkar olunur. Müəyyənləşdirilir ki, 125 pud çəltik müvəqqəti saxlanılmaq üçün

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 7.
[2] Yenə orada, vərəq – 10.
[3] Yenə orada. vərəq – 11.

Kiş kənd soveti sədri Seyid Rəsulova verilmişdir. Axtarış zamanı Rəsulovun mənzilindən 14 pud çəltik aşkar olunmuşdur.

Bu cür axtarış Baş Göynük kənd soveti sədri Məmmədov Hacı, kolxozçu Seyid Niqbarova və maliyyə nümayəndəsi Qara Əsgərovun mənzilində də aparılmış, onlarda 75 pud çəltik olduğu müəyyənləşdirilmişdir. Araşdırma zamanı məlum olmuşdur ki, oğurluq məhsulların əldə edilməsini rayon milis şöbəsinin əməkdaşları Nəcəfov, Xasayev, Hüseynov təşkil etmiş, rayon prokuroru Əhmədov onları müdafiə etmiş, oğurluq hallarını gizlətmişlər.[1]

Nuxa rayon Partiya Komitəsinin birinci katibi Rəhimli qulluq mövqeyindən sui-istifadə edərək intim əlaqədə olduğu rayon maliyyə şöbəsinin hesabdarı Firuzə Əliyevanın şəhər komsomol komitəsi katibi təyin edilməsinə nail olmuşdur.

F.Əliyeva komsomola rəhbərliyi dövründə özünü doğrultmamış, partiya sıralarından azad olunanda Rəhimli əvvəlcə etiraz etmiş, özünün və Əliyevanın nüfuzunu itirməmək üçün Firuzə Əliyevanı rayon əmanət kassasının müdiri təyin etmiş və Əliyeva burada da özünün doğrulmamışdır.[2]

Ə.Rəhimli, XDİK rayon şöbəsinin rəisi Abdullayev və rayon torpaq şöbəsinin müdiri Əlibalayev kolxozlara gedən zaman sərxoşluqla məşğul olmuşlar. 1943-cü ilin iyununda yaylağa gedəndə Çay Qaraqoyunlu kolxozunun fermasında onlar sərxoşluq etmiş, içki qəbul etdikdən sonra sərxoş halda Abdullayev tüfəngdən atəş açmışdır. 1943-cü ilin sentyabrında "Bağırov" adına kolxozun gələcək sədri Duman Cəfərovun mənzilində səhərədək sərxoşluqla məşğul olmuş, səhər sərxoş vəziyyətdə QAZ markalı maşınla gedən zaman qəza törətmişlər. Bunu Əlibalayev etiraf etmişdir.

Cəfərabad kənd sovetinin sədri Əhəmədiyə Əfəndiyevin mənzilində də onlar sərxoşluqla məşğul olunmuş, onların gəlişi şərəfinə qoyun kəsilmişdir. Əlibalayev bu hadisəni də inkar etməmişdir.

Azərbaycan K(b)P MK-nın kadrlar şöbəsinin təlimatçıları Cəfər Əliyev və Qritsenko arayış hazırlayaraq şəhər partiya komitəsinin katibi M. İsrafilova töhmət elan edilməsini, ona bir ay müddətində şəhər partiya komitəsinin kadrlar şöbəsinin işində köklü dəyişikliklər aparmasını və qeyd edilən çatışmazlıqların ləğv etməsini təklif etmişlər. Həmçinin XDİK rayon şöbəsinin rəisi Abdullayevin işdən azad olunması və onun partiya vəziyyətinin müzakirə edilməsi, rayon prokuroru Əhmədovun işdən azad edilməsi və partiya sıralarından xaric edilməklə məhkəmə məsuliyyətinə cəlb olunması, rayonda kənd təsərrüfatı işlərinin gedişini pozduğuna, heyvandarlığın inkişafına dair planı yerinə yetirmədiyinə, kolxozlara praktiki kömək göstərmədiyinə və cinayətkar elementləri müdafiə etdiyinə görə rayon

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 11-12.
[2] Yenə orada, vərəq – 12.

torpaq şöbəsinin müdiri Əlibalayevin işdən azad edilməsi, şəhər partiya komitəsinin təşkilat şöbəsinin müdiri Qriqoryevin ağ ciyər vərəmi olduğu üçün tutduğu vəzifədən azad olunması barədə xahişinin təmin edilməsi təklif olunmuşdur.[1]

Rayonun Baş Göynük kəndi Lenin-Stalin adına kolxozda yoxlama zamanı xeyli nöqsan aşkar olunmuşdur. Məlum olmuşdur ki, 2 kolxoz 1.100-dən artıq təsərrüfatı əhatə edir. Kolxoz üzvlərinin sayı 1941-ci ildə 1.543 nəfər, 1943-cü ildə 968 nəfər olmuşdur. Azalma 37 faiz təşkil etmişdir. 1943-1944-cü illər ərzində "Stalin" adına kolxozdan 67, "Lenin" adına kolxozdan 48 nəfər başqa kəndlərə köçmüşdür. Hər iki kolxoz müntəzəm olaraq payız və yaz əkini planını yerinə yetirməmiş, məhsul bölgüsü olmamışdır. Maldarlığın inkişafına cinayətkar yanaşılmışdır. 1943-cü ildə hər iki kolxozda 1.124 baş xırda və iribuynuzlu mal-qara itkisinə yol verilmişdi ki, bundan 201 başı oğurlanmışdır.[2]

Yoxlama nəticəsində aydınlaşmışdır ki, kənd sovet sədri Hacı Məmmədov rüşvət almaq yolu ilə oğruları kolxozda məsul işə təyin etmişdir. Məsələn, qardaşı sürgündə olan Salman Xibi oğlu, oğurluqla məşğul olan İsmayıl Topal oğlu, Zabitə Məmməd qızı, Zaqatala, Qax, Balakən rayonlarına alver və oğurluq məqsədilə köçüb getmiş adamlar elələrindəndir.

Azərbaycan K(b)P MK-nın təlimatçısı Səfər Əliyevin 20 mart 1944-cü il tarixli arayışında bildirilir ki, Hacı Məmmədovun əmələri dəfələrlə kolxoz sədri Mustafa və partiya təşkilat katibi İsgəndər tərəfindən rayon daxili işlər şöbəsinin rəisi Abdulla İsrafilova xəbər verilsə də, heç bir ölçü götürülməmişdir.[3]

Azərbaycan SSR-in digər rayonlarında və o cümlədən Bakı şəhərində sosialist əmlakının oğurlanması və alveri haqqında materiallarda ciddi faktlar vardır. Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinə XDİK müavini, dövlət təhlükəsizlik polkovniki Qriqoryanın 17 iyun 1944-cü il tarixli arayışında[4] bildirilirdi ki, Azərbaycan SSR XDİK orqanları 1944-cü il mart ayının 1-dən iyun ayının 1-dək olan dövrdə dövlət müəssisələrində, kolxoz və sovxozlarda qrup halında və tək-tək sosialist əmlakının dağıdılması və alveri ilə əlaqədar işlər aşkara çıxarmışdır.

Bakı şəhəri üzrə "Lenin" adına kombinatda bir qrup işçi usta Həbib Əli oğlunun rəhbərliyi və kombinatın direktoru Sarkisovun iştirakı ilə 1944-cü ilin fevral ayında müxtəlif manufakturalı 619 metr parça oğurlamışlar. Vaxtında görülmüş tədbirlər nəticəsində manufakturanın bir hissəsi gizlədildiyi elektrik yarımstansiyasından, parçanın qalan hissəsi və 58.620 rubl pul cinayətkarların mənzilindən tapılmışdı. İstintaq prosesində müəyyən olunmuşdu ki, kombinatın direktoru Sarkisov və iplik fabrikinin direktoru

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 27-28.
[2] Yenə orada, vərəq – 31.
[3] Yenə orada, vərəq – 32.
[4] Yenə orada, vərəq – 181-191.

Əlizadə istehsalat ehtiyacı üçün sex ustası Həbibə 1.500 metr bez buraxmışlar. Həbib öz həmfikirləri vasitəsilə 500 metr bezi 40.000 rubla satmışdır. Sarkisova veriləcək pula 25.000 rubl dəyərində sepli qızıl saat alınmış, 8.000 rubl şəxsən Əlizadəyə verilmiş, qalan pulla Sarkisov və Əlizadə içki məclisi düzəltmişlər.

1905-ci il təvəllüdlü, ÜİK(b)P üzvü, ordenli, kombinatın direktoru T.S.Sarkisov, 1908-ci ildə anadan olmuş, ÜİK (b)P üzvü, iplik fabrikinin direktoru, ordenli Məmmədəli Əlizadə, 1897-ci il təvəllüdlü Həbib Əli oğlu və 5 nəfər həmfikir iş üzrə istintaqa cəlb olunmuşlar.[1]

Bakı Kinostudiyasının işçiləri başda direktor müavini, 1910-cu ildə anadan olmuş, bitərəf Əliyev Həsən Hacı Əbdül Kərim oğlu və baş mühasib, 1902-ci il təvəllüdlü, bitərəf Novruzov Bəylər İsmayıloviç 8.000 rubl həcmində meşə materialını mənimsəmiş, 650 ədəd diki oğurlamağa cəhd edəndə xəbərdarlıq edilmişdir. 7 nəfər məhkəməyə verilmiş, əmlakları siyahıya alınmışdır.[2]

Bakı Ət Kombinatının və "Paris Kommunası" adına artelinin işçiləri artelin dəyirmanından taxıl məhsullarını oğurlamaqla məşğul olmuşlar. Cinayətkarlar 1.000 kiloqram un, 1.500 kiloqram xarici lobya və 500 kiloqram noxud oğurlamışlar. İş üzrə 1892-ci il təvəllüdlü, artelin idarə sədri A.M.Kalika, 1891-ci il təvəllüdlü, bitərəf, Bakı Ət Kombinatının təchizat rəisinin müavini V.M.Petrov və 5 nəfər başqaları cinayət məsuliyyətinə cəlb olunmuşlar. 3 nəfər həbs olunmadan məhkəməyə verilmişdi ki, onların arasında ilk partiya təşkilatı katibi Osipov da vardı.[3]

Dövlət əmlakını oğurlayanlar arasında ayrı-ayrı müəssisələrin, həmçinin mağazaların işçiləri çoxluq təşkil edirdi. Bunların sırasında "Canjuqazov" adına Ayaqqabı Fabrikinin təchizat müdiri M.Q.Kalpus həmin zavodun təchizat üzrə baş agenti T.A.Simonyan, Noraşen rayonunun Qara Həsənli kəndi "Kaqanoviç" adına sovxozdan 10 nəfər, o cümlədən keçmiş kolxoz sədri Həsənov Məmməd Rəhim oğlu, ferma müdiri Seyidov Mir Əhməd oğlu, Naxçıvan rayonunun Sus kəndi "26 komissar" adına kolxozun sədri Məmmədov Qənbər Niftalı oğlu, ferma müdiri Babayev Salman Əli oğlu və b. vardı.[4]

Təxribatçılıq hallarına kənd təsərrüfatında da yol verilirdi. Respublikanın rayonlarında mal-qaranın saxlanılması və onlara qulluq sahəsində müsbət irəliləyişlər olsa da, bir sıra rayonlarda kütləvi tələf olma halları davam etmiş, bu sahəyə cavabdeh olan partiya, sovet və təsərrüfat orqanları işə məsuliyyətsiz münasibət bəsləmişlər. Qeyd edək ki, bu sahədə istər Azərbaycan K(b)P MK, istərsə də Azərbaycan SSR XKS-də mütəmadi ola-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 181.
[2] Yenə orada, vərəq – 182.
[3] Yenə orada.
[4] Yenə orada, vərəq – 183-184.

raq məsələlər müzakirə olunmuş, müvafiq tədbirlər müəyyənləşdirilmişdir. Lakin həyata keçirilən tədbirlər heç də həmişə müsbət nəticə verməmişdir. Buna misal olaraq XDİK T.Yaqubovun 1942-ci il fevralın 24-də Azərbaycan K(b)P MK-ya ünvanladığı "Göyçay, Ağcabədi, Qazax, Lerik, Ucar və Dəstəfur rayonlarında heyvandarlığın vəziyyəti haqqında" arayışında ciddi faktların olduğu bildirilmişdir.[1] Təəccüblü haldır ki, mühüm dövlət orqanı olan XDİK mal-qaranın tələb olmasına yaranan şəraiti düşmən elementlərin təxribatçı hərəkəti kimi qiymətləndirmişdir.

Arayışda göstərilir ki, **Göyçay rayonundakı** Bığır kəndi "Stalin" adına kolxozda kolxoz sədri İsa Xəlilov və kənd sovetinin sədri Zaman Mehdiyevin günahı üzündən 50 kəl və 20 at qüvvədən düşmüşdür. Onlar kifayət qədər yem toplanması qayğısına qalmamış, 8.640 sentner əvəzinə 1.690 sentner yem toplamışlar. Mal-qaranı saxlamaq üçün 130 baş heyvanı yanvar ayında qonşu Şəkər kənd soveti aparmışdır. Ancaq ferma müdiri Həsən İsmayılovun günahı üzündən bütün mal-qara yemsiz və baxımsız qalmış, 12 gün ərzində 15 baş gücdən düşmüşdür. Qarabaqqal kəndi Molotov adına kolxozda olan yem kolxozçulara paylanmış, gücdən düşmüş kolxoz heyvanının sayı iki başa çatmışdır.[2]

Ağcabədi rayonunda 1942-ci ilin yanvar ayının 24-27-si tarixlərində aşağı xidmət və yem olmaması səbəbli Bağırov kənd soveti "Stalin" adına kolxozda 420 baş qoyun, "Qızıl Özbəkistan" kolxozunda 370 baş və qalan rayonlarda 1.000 başa yaxın qoyun əldən düşmüşdür.[3]

Qazax rayonundakı Dəmirçilər kəndi "Telman" adına kolxozda 1942-ci ilin yanvar ayında 60 baş iribuynuzlu, 25 baş xırda buynuzlu mal-qara və 5 at gücdən düşmüşdür. Bu kolxozda 1941-ci ildə yem toplanmamış və yoxlama zamanı cəmi 6 ton jmıx olduğu müəyyənləşdirilmişdir ki, bu 800 baş kolxoz heyvanının tələbinə cavab vermir.[4] Bütün bunlara cavabdeh antisovet əhval-ruhiyyəli, əks-inqilabi fəaliyyətə görə repressiya olunmuş ferma müdiri Bayram Novruz oğlu isə öz vəzifəsinə cinayətkar-səhlənkar münasibət bəsləyərək heyvanlara elementar xidmət göstərməmişdir. Həmin rayonun Daş-Salahlı kəndi "Lenin" adına kolxozda 1942-ci ilin yanvar ayında 40 baş iribuynuzlu mal-qara və 160 baş qoyun arıqlayaraq əldən düşmüşdür. "Kommintern" adına kolxozda yanvar ayının 1-dən 28-dək 36 at ölmüş, 100 baş toğlu və 100 başdan artıq iri və xırda buynuzlu mal-qara tələf olmuşdur.[5]

Lerik rayonunun Hoverin kənd sovetində 1.231 baş, Çayrud kənd sovetində 907 baş, Şipçadulan kənd sovetində 1.083 baş, Qışlaq kənd

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №293, vərəq – 302-305.
[2] Yenə orada, vərəq – 302.
[3] Yenə orada, vərəq – 303.
[4] Yenə orada, vərəq – 303.
[5] Yenə orada, vərəq – 304.

sovetində 1.084 baş heyvan çatışmamışdır. Anoloji hala **Ucar rayonunun** "Qırmızı Oktyabr" və **Dəstəfur rayonunda** da rast gəlinmişdir.[1]

Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS-nin bir sıra qərarları olmasına baxmayaraq **Şamxor** (indiki Şəmkir rayonu) Rayon Partiya Komitəsi kənd təsərrüfatı işlərinin təşkilində yol verilən nöqsanların aradan qaldırılması üçün əməli tədbirlər həyat keçirməmişdir.[2] 1942-ci il noyabrın 15-nə rayonda 9.375 tona qarşı 4.330 ton pambıq yığılmışdır ki, bu da planın 46,2 faizini təşkil edir. Payızlıq bitkilər səpini 61,7 faiz yerinə yetirilmiş, 16.000 ha səpin aparılması planına qarşı 9.875 ha səpilmişdir. Əsas kənd təsərrüfatı işlərinin geridə qalmasının səbəbi isə rayonda partiya-sovet orqanlarının pambıq yığımının, payızlıq səpinin və digər kənd təsərrüfatı işlərinin özbaşına buraxılması nəticəsində olmuşdur.

Rayonun Leninkənd kəndi "Komintern" və Şamxor qəsəbəsi "Klara Setkin" adına kolxozlarda daha ciddi vəziyyət yaranmışdı. Bu kolxozlar rayonun qabaqcıl-milyonçu kolxozları olsa da, rayon partiya komitəsinin katibi Aslanov və keçmiş rayon icraiyyə komitəsinin sədri Şabanovun cinayətkar-təsərrüfatsız münasibətinin nəticəsində kolxozlar iflas həddinə çatmışlar.

Almanların 1942-ci ilin oktyabrında daim yaşamaq üçün köçürülməsindən sonra Seyfəli kəndindən "Qırmızı əsgər" və Barum-Barsum kəndindən taxılçılıqla məşğul olan kolxozçular yerləşdirilmişlər. "Qırmızı əsgər" kolxozundan köçürülən kolxozçular üzümçülüyü bilmədiyindən aqrotexnik rəhbərlik olmamış, üzüm bağlarına düzgün olmayan aqrotexniki qulluq göstərilmişdir.[3] Suvarma, kultivasiya, süni tozlandırma keçirilməmiş, nəticədə bar verən üzümlüklər məhv olmuşdur. Bunun nəticəsində "Komintern" kolxozunda 402 hektar üzüm bağı 1942-ci ildə cəmi 1.019 ton üzüm vermişdir. "Klara Setkin" adına kolxozda 382 hektardan 1941-ci ildə 1.033 ton əvəzinə 867 ton üzüm yığılmışdır.

Son vaxtlar 400-dək təsərrüfatı olan keçmiş "Qırmızı əsgər" kolxozundan köçən kolxozçular özlərinin keçmiş yaşayış yerlərinə qayıtmağa başlamışlar. Bu ondan irəli gəlmişdir ki, düşmən elementlər şayiə yaymışlar ki, tezliklə faşistlər Azərbaycanı tutacaq və almanlar əvvəlki təsərrüfatlarına qaytarılacaq. Rayon partiya komitəsinin katibi Əsgərov lazımı ölçü götürməmiş, müvafiq izahat işi aparmamış, köçənlər arasında partiya-siyasi işin təşkilini təmin etməmişdir.[4]

Əsgərov partiya rəhbəri kimi rayonda özünü hörmətdən salmış, şəxsi həyətinin abadlığı ilə məşğul olmuş və almanların köçməsindən sonra qalan müxtəlif əşyaları mənimsəmişdir. Leninkəndin klub müdiri olan qardaşı

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 304
[2] Yenə orada, vərəq – 474-476.
[3] Yenə orada, vərəq – 474.
[4] Yenə orada, vərəq – 475.

Fəxrəddin Axundov vasitəsilə kənd soveti binasında olan almanlara məxsus pianino və digər əşyaları Kirovabada (indiki Gəncə) göndərmişdir.

Əsgərovun əxlaqi cəhətdən pozulması, pozğun həyat sürməsinə dair siqnallar da daxil olmuşdur. O, 1942-ci ilin may ayında xalq məhkəməsinin 16 yaşlı işçisi Abdullayeva ilə nikahsız əlaqədə olmuşdur. Bundan başqa Qırmızı Ordu sıralarında fərarilik etmiş qohumu, Gədəbəy rayonundan olan siyasi quldur Məşədi Mehralını 2 ay öz evinin çardağında saxlamışdır.[1]

XDİK-nın Azərbaycan K(b)P MK-ya göndərdiyi 9 noyabr 1942-ci il tarixli 2027 №-li arayışında **İmişli rayonunda** da kənd təsərrüfatı işlərində, xüsusilə pambıq və payızlıq bitkilərin toplanmasında yol verilən nöqsanlar faktlarla göstərilmiş, əhalinin bəzi təbəqələri arasında yayılan antisovet fikirlərə diqqət yönəldilmişdir.[2]

Arayışda bildirilir ki, 1942-ci il oktyabrın 30-dək rayon üzrə pambıq toplanması planı 27,4% yerinə yetirilmişdir. Payızlıq taxıl səpinində ciddi geriləmə vardır. 10.200 ha payızlıq bitkilər səpilməsi planlaşdırıldığı halda oktyabrın 30-na 4.777 ha-da səpin aparılıb ki, bu da planın 46,5% təşkil edir. Yuxarı orqanlara daxil olan siqnallarda bəzi kolxoz sədrlərinin iştirakı ilə MTS və torpaq orqanlarının işçilərinin respublika orqanlarını aldadaraq rayon üzrə kənd təsərrüfatı planının yerinə yetirilməsinə dair saxta rəqəmlərlə məlumat vermişlər. Məsələn, Cavadxanlı kəndi "Stalin" adına kolxozun sədri Hadizadə Hüsaməddin, traktor briqadiri Əmirov və sahə aqronomu-hərbi düşərgədən qayıtmış Murtuz İsmayılovla birgə traktor briqadasının işinin yerinə yetirilməsinə dair saxta akt tərtib etmişlər.

"Malenkov" adına kolxozda Mirili kəndinin sədri Səfər Usubov traktor briqadiri İsabala və sahə aqronomu İsmayılovla birlikdə akt tərtib edərək payızlıq səpin planını artıq yazmışlar. Bu cür hallara "Bağırov" adına kolxozda (Baciravan kəndi) da yol verilmişdir. Rayon partiya komitəsi bu barədə xəbər tutan kimi yoxlama göndərmiş, yoxlamanın gəlişindən xəbər tutan bəzi rəhbərlər saxta aktları ləğv etmişlər.[3]

Masallı rayonunda əhali arasında siyasi-tərbiyə, kütləvi-izahat işləri son dərəcə qeyri-qənaətbəxş olmuşdur. Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya ünvanladığı 01 fevral 1942-ci il tarixli arayışında[4] bildirilir ki, Azərbaycan K(b)P MK-nın təlimatçıları rayonun kolxoz və kəndlərində olmuş, yerlərdə ilk partiya təşkilatlarının işini öyrənmiş və yol verilmiş nöqsanların aradan qaldırılması üçün köməklik göstərmişlər. Aşkar olunmuşdur ki, rayon partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin keçmiş müdiri Ata Əhmədov təşviqatçı və təbliğatçıların siyahısını hazırlamaqla işini bitmiş hesab etmiş, rayon partiya komitəsi Əhmədo-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 476.
[2] Yenə orada, vərəq – 433-434.
[3] Yenə orada, vərəq – 434.
[4] Yenə orada, vərəq – 264-275.

vu partiya məsuliyyətinə cəlb etmək əvəzinə işdən azad etməklə kifayətlənmiş, rayonda digər bir məsul işə təyin etmişdir. Rayonda partiya-kütləvi işin pozulmasında ikinci katib Həmid Abdullayevin də günahı olmuşdur.

Ayrı-ayrı kolxozlarda kolxoz əmlakının dağıdılması və oğurlanması hallarına, planın yerinə yetirilməməsinə göz yumulmuşdur.[1]

Masallı rayonunda ordu sıralarına çağırış qeyri-qənaətbəxş keçmişdir. Müxtəlif səbəblərdən 192 nəfər müvəqqəti möhlət almış, 196 halda çağırışdan yayınma halı olmuşdur. Çağırışdan yayınanlar arasında rayonun və kolxozların məsul işçiləri də vardır. Məsələn, rayon Kommunal Təsərrüfatı şöbəsinin müdiri, ÜİK(b)P üzvlüyünə namizəd Ağayev Qiyas Cavad oğlu ordu sıralarına səfərbərliyi eşidən kimi özbaşına Lənkərana getmiş, 1942-ci il yanvarın 20-dək orada qalmışdır. Hərbi komissarlıq Ağayevi Masallı Rayon Hərbi Komissarlığına çağırışa dəvət etsə də, yalnız iki dəfə imza etdirildikdən sonra komissarlığa gəlmişdir.

Mionko kəndindən müəllim Talıbov İmamverdi Xudaverdi oğlu çağırışdan gizlənmişdir. Masallı kənd sovetinin keçmiş sədri, ÜİK(b)P üzvü Lətif Ağayev səfərbərlikdən yayınaraq Bakıya getmiş və gizlənmişdir. Bu şəxsin tutulması üçün tədbir görülmüşdür.[2]

Masallı Rayon Partiya Komitəsinin katibi Abdullayev kolxoz bazarının komendantı, ÜİK(b)P üzvü Bəbir Ələkbərovu "Rayon komitəsinin bürosunda həll edilməmiş məsələsi vardır" bəhanəsi ilə çağırışdan azad etmişdir. Yoxlama zamanı aydın olmuşdur ki, Bəbir Ələkbərovun büroda məsələsi müzakirə olunmamış, bu Abdullayev tərəfindən uydurulmuşdur. Yalnız partiya komitəsinin birinci katibi Əminovun təklifi ilə Ələkbərov səfərbər olunaraq orduya göndərilmişdir.

Analoji fakt Türkoba kənd partiya təşkilatçısı Mirzə Ağayev və Diqyə kənd kolxoz sədri Oruc Əliyevlə əlaqədar da baş vermişdir. Rayon partiya komitəsinin ikinci katibi Abdullayev və üçüncü katib Həsənov onun əvəz olunmamasını bəhanə gətirilərək səfərbərlikdən azad edilməsinə çalışmışlar.[3]

Astraxanbazar (indiki Cəlilabad) rayonunda "Qırmızı əsgər" (Mikayıllı kəndi), Fioletov adına (Pərdi kəndi), "Qırmızı Ordu" (Tatlar kəndi) kolxozlarında kolxozçulara avans olaraq 100-110 sentner taxıl verilsə də, dövlət planı ödənilməmişdir.

Bir sıra kolxozlarda cins toxumların dəyişdirilməsi işi pis təşkil olunmuş, rayon üzrə aqrotexniki qaydaların pozulması hallarına yol verilmişdir. Xüsusilə Şatur-Ləki kənd sovetinin "Stalin" adına, Astraxanbazar kənd

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 265.
[2] Yenə orada, vərəq – 266-267.
[3] Yenə orada, vərəq – 267.

sovetinin “Molotov” adına, Andreyevka kənd sovetinin “Bolşevik” kolxozlarında vəziyyət daha ağır olmuşdur.

Kolxozçular 1941-ci ilin məhsulundan demək olar ki, taxıl almamışlar. Onlar arasında İrana taxıl üçün keçmək istəyənlər olmuşdur. Məsələn, yanvarın 29-da Kürüren kənd sovetinin Yaqublu kəndinin 20 nəfər qadını saat 12-də Lək komendaturasının 43-cü sərhəd dəstəsinin 12 №-li qarovulxanasında olmuş və nümayişkaranə sürətdə ya çörək verilməsini, ya da İrana çörək almaq üçün buraxılmasını tələb etmişlər. İranda qohumları olan Əliyeva danışıq aparılan vaxt sərhədi keçmiş və İran ərazisində gizlənmişdir. Qalan qadınlar evlərinə qayıtmışlar. Hər bir fakt üzrə dövlət sərhəddini pozduğuna görə araşdırma aparılmışdır.[1]

Astara rayonunda da siyasi-tərbiyə işinin zəif təşkili və antisovet elementlərin düşmən fəaliyyəti nəticəsində bir sıra mənfi hadisələr baş vermişdir. 1941-ci il noyabrın əvvəllərində Tangerud kəndi “Beriya” adına kolxozun briqadiri, ÜİK(b)P üzvü Rəsulov Ələkbər Baxış oğlunun briqadir olduğu briqadanın 33 qadını ərlərinin və qohumlarının orduya getməsi ilə əlaqədar işə çıxmamış, gün ərzində ağlamış, Rəsulov özü bu prosesdə iştirak etmişdir. Rayon partiya komitəsi Rəsulovun davranışını müzakirə etmiş və ona töhmət vermişdir.

Astara rayonunun dağlıq hissəsinin Taradı kəndinin 15-20 nəfər kolxozçusu çörək olmamasını bəhanə edərək işə çıxmamışlar. Yoxlama zamanı məlum olmuşdur ki, çörəyin olmaması düşmən elementlərinin işidir. Taradı kolxozunun sədri işi pozduğu üçün əvvəllər Hamiştan kənd kolxozunun sədri vəzifəsindən çıxarılan Mirzəyev Dayan Əli oğlu, ÜİK(b)P üzvü, hesabdar, xalq düşməni Cəvziyev Meybalı razılaşaraq taxılın məhsuldarlığı və döyümün nəticəsi haqqında rayon torpaq şöbəsinə məhsuldarlığın aşağı olması səbəbindən taxılın çatışmadığını bildirərək həmin vaxt 1.000 dərz arpa və 70 dərz buğdanı gizlətmişlər.

Astara rayon hərbi dəniz ticarəti müvəkkili Əli Məmmədov, anbar müdiri Əliyev Qulam Mirzə oğlu və çörəkçi Rüstəm Hüseynov çörəyə talon sisteminin tətbiqini eşidən kimi 2 gün ərzində unu oğurlayaraq dostlarına və tanışlarına satmışlar. Rayon prokurorluğu iş üzrə istintaqı birtərəfli aparmış və əsas günahkar Əli Məmmədov məsuliyyətə cəlb olunmamışdır.

Rayonda çağırışçılar arasında siyasi-tərbiyə işi zəif aparılmışdı. Bu səbəbdən də, ayrı-ayrı şəxslər çağırış məntəqələrinə qorxa-qorxa gəlmiş, rayon Partiya Komitəsinin birinci katibi Nəcəfov baş verənlərə müşahidəçi qalmışdır.[2]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 267–268.
[2] Yenə orada,vərəq – 269-270.

Yardımlı rayonunun 26 Bakı komissarı kolxozunda 130 sentner kartof, 150 kiloqram yağ, 1.105 kiloqram pendir oğurlanmış, 43 baş iribuynuzlu və 141 baş xırda buynuzlu mal-qara kəsilmişdir.

Taxıl əldə etmək məqsədilə İranla dövlət sərhədini keçmək halları rayonda tez-tez baş vermişdir. 1941-ci il noyabrın 22-də İrandan taxıl almaq üçün sərhədi keçmək istəyərkən Arvan kənd sakini Həsənov Əbdül Həsən oğlu və Quştaq kənd sakini Əzizov Tərə Kərim oğlu, 1942-ci il yanvarın 17-də 15 kiloqram taxılla İrandan qayıdan Xacabəy kənd sakini Xəlilov Fərrux Məmməd oğlu saxlanılmışdır.[1]

Lənkəran rayonunda çay plantasiyalarının vəziyyəti son dərəcə ağır olmuşdur. Bəzi kolxozların rəhbərləri təsərrüfata cinayətkar münasibət bəsləmiş, çay plantasiyalarını məhv olmaq həddinə çatdırmışlar. Kərgəlan kənd kolxozunda 1936-1940-cı illərdə 44 hektar çay plantasiyası salınmışdır. Bunun ancaq 40 faizi saxlanılmışdır. Eyni vəziyyət Şəhlakuçə kənd kolxozunda müşahidə olunmuşdur.[2]

Ən ağır vəziyyət rayon ticarət şəbəkəsində olmuşdur. Belə ki, 1936-1937-ci illərdə ictimai iaşədə işlədiyi zaman 600 rubl əskiyi olan, 1940-1941-ci illərdə kommunal təsərrüfat şöbəsində 700 rubl mənimsəyən İbad Səlimov rayon kooperativlər ittifaqında anbar müdiri vəzifəsinə təyin olunmuşdur.

1939-1940-cı illərdə ictimai iaşədə 2.600 rubl israf edən Xəlil Əhmədov 1938-ci ildə ictimai iaşədə işlədiyi dövrdə 1.222 rubl israf edən Fərəcov Lənkəran rayon Hərbi Dəniz Ticarət sistemində işləyirdilər.[3]

Rayonda 15-30 yaşında olan və hərbi xidmətə çağırışdan yayınan 245 nəfər aşkar olunaraq rayon hərbi komissarlığına verilmişdir. Onlardan çağırışdan yayınan 30 nəfər, qeydiyyatdan keçməyən 150 nəfər, çağırışdan yayınan 17 nəfər Lerik rayon sakini həbs olunmuşdur.[4]

Puşkin rayonunun (indiki Biləsuvar rayonu) 30 kolxozunda 1940 və 1941-ci illərdə kolxozçular arasında taxıl bölünməmişdir. "Sosializm", "Bakinskiy raboçiy", "Krasnıy poqraniçnik" və b. kolxozlarda əməkgünlərinin hesaba alınması xaotik xarakter almışdır.[5]

Dağlıq Qarabağ Muxtar Vilayətinin Martuni rayonunun MTS-də cinayətkar qrup aşkar olunmuş, 6 nəfər məsuliyyətə cəlb edilmişdir. Onların sırasında MTS-in baş mühasibi M.B.Karapetyan, kolxoz sədri Oqanyan A.A.Martuni rayon Kənd İctimai İaşəsinin ticarət şöbəsinin keçmiş müdiri Mirzoyan və Martuni MTS-nin direktoru Mirzə Adamov da olmuşlar.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 271-272.
[2] Yenə orada, vərəq – 272.
[3] Yenə orada, vərəq – 273.
[4] Yenə orada, vərəq – 274.
[5] Yenə orada, vərəq – 274.

Hadrut rayonundakı Çizakuz kəndi "Qırmızı Ulduz" kolxozunun anbar müdiri A.A.Əmircanyan kolxozdan 288.575 rubl dəyərində 2.467 kiloqram buğda, 700 kiloqram taxıl çıxarı, 1.285 kiloqram arpa, 70 litr araq, 64 litr şərab oğurlamışdır.

Jdanov rayonunun (indiki Beyləqan) Şahsevən kəndi "Novıy mir" kolxozunda 4 nəfərlik qrup həbs olunmuşdur. Bunlar 1903-cü il təvəllüdlü, ÜİK(b)P üzvü R.V.Manukyan, 1895-ci il təvəllüdlü ÜİK(b)P üzvü A.P.Lalayan və b. idi. Onlar kolxoz dəyirmanından müntəzəm olaraq məhsul oğurlamaqda ittiham olunmuşlar.[1]

Azərbaycan SSR XDİK DQMV idarəsinin rəisi, dövlət təhlükəsizlik podpolkovniki Mosesovun respublika XDİK Yaqubova 28 iyun 1944-cü il tarixli məruzəsində[2] bildirilirdi ki, Hadrut rayonu Azıx kəndinin kolxoz hesabdarı, ÜİK(b)P üzvü Əsriyan haqqında vilayət, rayon və respublika təşkilatlarına kolxozçular tərəfindən ərizələr daxil olmaqdadır. Ərizələrin əsas ideyasını kolxozun taxılının və digər əmlaklarının dağıdılması təşkil edir.

Mosesov yazırdı ki, XDİK rayon şöbəsinin keçmiş rəisi, indi mənim müavinim olan Arzumanov Hadrut Rayon Partiya Komitəsinin birinci katibi Ambarsumyandan kolxozçuların şikayətlərinin kəsilməsi üçün Əsriyanın işdən azad olunması və ya heç olmasa rayon mərkəzinə keçirilməsini təklif etmişdi. Ambarsumyan lazımı reaksiya əvəzinə Əsriyana həmin kolxozda ilk partiya təşkilat katibi vəzifəsini həvalə etmişdi. Həmin gündən Əsriyan daha azad və qanunsuz olaraq özünün cinayətkar əməllərini davam etdirmiş, kolxoz sədrinin sərəncamlarını təkzib etmiş, əslində kənddə vahid hakimə çevrilmişdi. Rayon və vilayət təşkilatları bir neçə dəfə Azıx kəndinə komissiya göndərsə də, "komissiyalar heç nə aşkar edə bilməmiş və ya etməmişdir". Bundan Əsriyanın əlində fakt kimi istifadə etməyə başlamışdı.

Arxiv materialları göstərir ki, Əsriyan haqqında Azıx kənd sakinlərindən külli miqdarda ərizə daxil olmuşdur.[3] Vilayət partiya komitəsinin birinci katibi Qriqoryan kolxozçuların ərizədə göstərdiklərini yoxlamağa razılıq verir və Əsriyan tərəfindən mühasibatda saxtakarlıqlara yol verildiyi aydınlaşır. Kifayət qədər ittiham materialları olduğundan 1942-ci il avqustun 7-də müstəntiq İsaxanyan Əsriyanın həbs olunması məsələsini qaldırır və bu barədə Qriqoryana informasiya verilir. Qriqoryan verilən informasiyaya inamsızlıq göstərərək onunla birgə kəndə yenidən yoxlamaya getməyi təklif edir. Şahidlərin sorğusu zamanı Əsriyanı biabır edən faktlar təsdiq olunur. Ancaq Qriqoryan yenə də şahidlərin ifadələrinə inamsızlıq göstərir, nəhayət Əsriyanın həbs olunmasının vacibliyinə onun inandırmaq

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 186.
[2] Yenə orada, vərəq – 108-114.
[3] Yenə orada, vərəq – 109.

mümkün olur. Əsriyan həbs olunandan bir sutka sonra həkimin təklifi ilə Əsriyanı Hadrut xəstəxanasına yerləşdirirlər.

Materiallardan görünür ki, Əsriyanın həbsi ilə əlaqədar XDİK rayon şöbəsi ilə partiya təşkilatı arasında narazılıq yaranmışdır. Bu səbəbdən də, XDİK rayon şöbəsi istintaq işini davam etdirmək üçün xüsusi müstəntiqlər göndərilməsi məsələsi respublika XDİK qarşısında qaldırır.[1] Məsələnin ciddiləşdiyini hiss edən Hadrut Rayon Partiya Komitəsi Vilayət Rayon Komitəsi bürosunda Əsriyanın ittiham olunduğu işin vilayət prokurorluğuna verilməsi məsələsini irəli sürür. Lakin materiallar Bakıya göndərildiyindən bu hiylə baş tutmur.[2]

"Mal tədarükü"nün Ağdam şöbəsinin baza müdirinin işi ilə əlaqədar 11 kolxoz sədri ittiham olunmuşdur.

Göründüyü kimi, əslində oğruların və quldurların havadarları olmasa, onlar heç bir cinayət işlədə bilməzlər. Sadalanan faktlar isə DQMV partiya təşkilatının işində olan ciddi qüsurlardan və ikili standartlardan xəbər verir. Sadalanan faktlarda adları keçən şəxsləri milli mənsubiyyətə görə sıralasaq 99 faizini ermənilər təşkil edər.

Respublikanın digər müəssisələrində də sosialist əmlakının oğurlanması, israfçılığa yol verilməsi halları antisovet təzahürləri ilə müşayiət olunurdu. Azərbaycan SSR Prokuroru, II dərəcəli ədliyyə müşaviri X.Əfəndiyevin Azərbaycan K(b)P MK katibi M.C.Bağırova ünvanladığı 12 dekabr 1944-cü il tarixli 455 №-li məktubunda[3] bildirilirdi ki, prokurorluq tərəfindən Bakının bir sıra sənaye müəssisələrində aparılmış yoxlamalar nəticəsində SSRİ Ali Soveti Rəyasət Heyətinin 10 avqust 1940-cı il tarixli istehsalatda xırda oğurluqlarla mübarizə haqqında fərmanının yerinə yetirilməsi vəziyyəti ilə əlaqədar nöqsanlar aşkar olunmuşdur. X.Əfəndiyev bildirirdi ki, fərmanda həcmindən asılı olmayaraq müəssisə və təşkilatlarda kiçik oğurluq 1 il həbs cəzası ilə müəyyən olunur. Bununla belə, əksəriyyət hallarda müəssisələrin rəhbərləri fərmana əməl etməyərək istehsalatdakı kiçik oğurluq faktlarına dair materialları məhkəməyə göndərmir, inzibati tədbirlərlə kifayətlənilir və ya ümumiyyətlə cəzasız qoyurlar. Məsələn, Bakı şəhər Ayaqqabı Fabrikində xırda oğurluq edən 33 nəfərdən 10 nəfəri azad olunmuş, qalanları işdə saxlanılmışdı. Bakı tikiş fabrikində 1944-cü ilin iyul-noyabr aylarında 43 oğurluq hadisəsi qeydə alınmış, yalnız 18 halda məsələ inzibati qaydada həll olunmuşdu.[4]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 110.
[2] Yenə orada, vərəq – 111.
[4]Yenə orada, vərəq – 6.

Bakı şəhər Toxuculuq Kombinatında da vəziyyət qənaətbəxş olmamışdır. 1944-cü ilin 3-cü rübün oktyabr və noyabr aylarında kombinatda 762 oğurluq hadisəsi baş vermiş, 657 halda məsələ inzibati qaydada həll edilmiş, günahkarlar məhkəmə məsuliyyətindən kənarda qalmış, yalnız 105 nəfər haqqında materiallar məhkəməyə göndərilmişdir. Həmin kombinatda bez oğurlayan usta Kotelnikova və keyfiyyətsiz məhsul istehsal edən Anikina cəzasız qalmışlar.

"Taxıl tədarükü"nün Zığ bazasında yükçü Petrosyan 3 dəfə qarğıdalı və buğda, yükləyici Ayrapetova qarğıdalı oğurlayarkən saxlanılsa da, müvafiq akt tərtib edilməmiş, rəhbərlik Petrosyan və Ayrapetovaya xəbərdarlıqla kifayətlənmişdi. Materiallar göstərir ki, müəssisə rəhbərləri oğurluq edənlər haqqında materialları məhkəməyə göndərilməsini ləngidir, günahkarlar uzun müddət cəzasız qalır ki, bu da işçilərə mənfi təsir göstərir. Məsələn, Bakı Ət Kombinatının müdiriyyəti işçi Vasilyevanın 4,5 kiloqram sala oğurlaması haqqında materialı oğurluqdan 5 ay sonra, işçi Alekseyevanın günəbaxan yağını oğurlaması haqqında materialı 1 ay sonra məhkəməyə göndərmişdir. Kommunistlər və komsomolçuların da oğurluq etməsi halları müşahidə olunurdu. Ancaq bu hadisələrin heç də hamısı partiya və komsomol yığıncaqlarında vaxtında müzakirə edilmir, partiya və komsomol orqanları bu cür faktlara vaxtında reaksiya vermirdilər. İdarə və müəssisələrdə oğurluq hallarının baş verməsi dövlət əmlakının mühafizəsinin vəziyyətinin qeyri-qənaətbəxş olduğunu göstərir. Hətta mühafizə işçiləri də bəzən oğurluq hallarında iştirak edirdilər.

Bakı şəhər Karamel Fabrikində mühafizə ştatında 15 nəfər olsa da, faktiki olaraq 11 nəfər işə çıxırdı. Onlardan 10 nəfərinin fabrikdə şəxsi işi və əmək kitabçası olmadığından onların şəxsiyyətini müəyyənləşdirmək mümkün olmamışdı. Bakı şəhər Toxuculuq Kombinatında mühafizə ştatında 31 nəfər olsa da, faktiki 25 nəfər işə çıxmış, 25 nəfərin 5 nəfərindən hava hücumundan müdafiə sahəsində işdə istifadə olunmuşdur.

Bütün bunların nəticəsidir ki, bir sıra müəssisələrdə, o cümlədən Bakı şəhər Tikiş fabrikindən elektrik ustaları 386 hazır kostyum oğurlamışlar. "Canquzova" adına ayaqqabı fabrikində düyə dərisi sexinin fəhlələri Nazaryan və Avetisov oğurladıqları içlikləri sexdə gizlətmiş və gecə pəncərədən ataraq aparmaq istəmişlər. Təsadüfən küçədən keçən növbətçi atılmış 9 cüt içliyi və oğruları tutmuş, onlardan əlavə 21 cüt içlik alınmışdır.[1] Mühafizə kadrlarının seçilməsində nöqsanlara yol verildiyi üçün düşmən elementlər sistemə daxil ola bilmişlər. Bunun nəticəsidir ki, 1944-cü il oktyabrın 16-da "Mikoyan" adına fabrikin işçi qadınları Yarovskaya və İvanova mühafizəçi Kovalenko Yevdokiyanın iştirakı ilə 8 cüt içlik oğurlamışlar. 2 №-li Un-yarma Kombinatında noyabrın 15-dən hərbiləşdirilmiş

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 7.

mühafizə tətbiq olunsa da, oktyabrın 20-də Mityeşeva un, düyü və xəmir oğurlamışdır.[1] 1944-cü ilin II rübündə xırda oğurluqda ittiham olunan 243 nəfərdən 116 nəfərə, yaxud 49 faizinə həbs cəzası verilmiş, qalan ittiham olunanlar şərti islah işlərinə göndərilmişdi.

Qəbul olunmuş qaydalara görə istehsalatda kiçik oğurluq işlərinə birbaşa müəssisələrdə kabinet qaydasında qapalı məhkəmə prosesində baxılmalı və beləliklə kütlələrin tərbiyəsi kimi əsas vəzifəni yerinə yetirməli idilər. Materiallar göstərir ki, bu cür hallar çox təsadüfi hallarda tətbiq edilir, rayon prokuroru kiçik oğurluq işlərinə baxılmasında iştirak etmir və bununla da 1940-cı il 10 oktyabr fərmanının yerinə yetirilməsinə nəzarət zəifləyirdi.[2] Sadalanan faktlar onu göstərir ki, partiya, sovet və komsomol təşkilatları, idarə, müəssisə və təşkilat rəhbərləri işlərini tələb olunan səviyyədə qura bilmir, nəticədə oğurluq, rüşvətxorluq, dövlət əmlakını mənimsəmək halları baş verir, nəticədə antisovet təzahürlərinin yaranmasına, antisovet əhval-ruhiyyəsinin yayılmasına zəmin formalaşırdı.[3] Bütün bu baş verən hadisələrin əsas səbəbi isə Sovet hökumətinin müharibə illərində həyata keçirdiyi uğursuz sosial siyasətin nəticəsi idi.

Azərbaycan SSR Xalq Daxili İşlər Komissarı, dövlət təhlükəsizlik baş mayoru T.Yaqubovun 30 dekabr 1942-ci il tarixli arayışında "Azərbaycan kolxozçusu" tank kolonu tikintisi üçün vəsait toplanışında Jdanov (indiki Beyləqan rayonu) rayonunda qanunsuz əməllərə dair faktlar göstərilmişdir. Arayışda bildirilirdi ki, 1942-ci il dekabrın 26-da Jdanov Rayon Partiya Komitəsinin katibi Allahverdiyev rayon fəallarının "Azərbaycan kolxozçusu" tank kolonun tikintisinə vəsait toplanışına dair müşavirə çağırmış, müşavirədə rayonun rəhbər işçiləri, kolxoz, sovxoz, təşkilat və müəssisələrə təhkim olunmuş fəallar iştirak etmişlər. Allahverdiyev təhkim olunan nümayəndələrə 1942-ci ilin dekabr ayının əmək haqqının mütləq qaydada dekabrın 29-dan gec olmayaraq dövlət bankına köçürülməsini tapşırmış, hər bir təhkim olunan nümayəndəyə köçürüləcək aylıq əmək haqqı fondunun miqdarını bildirmişdir. Əslində bu faktın özü SSRİ dövlətinin ölkə daxilində yetirdiyi sosial siyasət nə qədər düz olmadığını təsdiq edir.

1942-ci il dekabrın 27-də rayonda vəsait toplanışı məsələlərinə dair daha bir yığıncaq keçirilmişdir. Yığıncaqda bildirilmişdir ki, kolxozlar üzrə bu tədbir tələb olunan səviyyədə keçmiş, ancaq sovxoz, müəssisə və təşkilatlarda hətta yığıncaq keçirilmədən qeyd olunan təşkilatların işçilərinin razılığı olmadan dekabr ayına dair əmək haqqı tamamilə dövlət bankının rayon şöbəsinə köçürülmüşdü. Bununla əlaqədar olaraq fəhlə və qulluqçular, xüsusilə təxliyə olunanlar tərəfindən kütləvi narazılıqlar qeydə alınmışdır.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 8.
[2] Yenə orada, vərəq – 8-9.
[3] Yenə orada, vərəq – 9.

Rayon xalq maarif şöbəsi demək olar ki, bütün məktəblərin müəllimlərinin əmək haqını köçürmüşdür. Jdanov Rayon Partiya Komitəsinin Təbliğat və Təşviqat şöbəsinin müdiri Quliyev bütün təşkilatlara əmək haqqı fondunun tam köçürülməsini tapşırmış, hətta tapşırığı yerinə yetirilməyənləri "xalq düşməni" hesab olunacağı ilə, rayon səhiyyə məntəqəsinin müdiri İşxanov aylıq əmək haqqını köçürmək arzusunda olmadığını bildirdikdə işdən azad olunacağı ilə hədələnmişdi.

Jdanov (indiki Beyləqan rayonu) Rayon Kənd İstehlak Cəmiyyətinin sədri Namazov istehlak cəmiyyəti işçilərinin razılığı olmadan son əmək haqqı olaraq 3.000 rubl köçürmüşdü.[1] Sadalananlar müəyyən mənada özbaşınalığa, cəzasızlıq şəraitinin formalaşmasına zəmin yaratmış, quldurluq, oğurluq və digər antisovet təzahürləri çoxaltmışdır.

Azərbaycan SSR-də quldurluqla mübarizə sahəsində müəyyən uğurlar əldə olunsa da, aparılan işlər bütövlükdə qənaətbəxş olmamışdır. 1942-ci il 1 iyul tarixə 25 quldur dəstədə 82 nəfərin olduğu müəyyənləşmişdir. Tək quldurluqla məşğul olanlar 11 nəfər, fərarilərin sayı 657 nəfər olmuşdur. Hesabat dövründə 7 dəstədə 22 nəfər, tək quldur kimi 4 nəfər və 132 fərari qeydə alınmış, aparılmış tədbirlər nəticəsində 8 quldur dəstəsində 30 iştirakçı, o cümlədən 3 tək quldur, 130 fərari, 2 gizlin hesabdan çıxarılmışdır. 1942-ci il iyul ayının 10-na olan məlumat görə 24 dəstədə 74 quldur, o cümlədən 12 tək quldur, 659 fərari qalmışdır.[2]

ÜİK(b)P MK və SSRİ XKS-nin "Kolxozçular üçün minimum məcburi əməkgününün artırılması" və "Kolxozlarda, sovxozlarda və MTS-də kənd təsərrüfatı işlərinə şəhər və kənd əhalisinin əməkqabiliyyətli əhalisinin səfərbər edilməsi qaydaları haqqında" qərarları ilə əlaqədar ziyalılar, fəhlə və kolxozçular, həmçinin şagirdlər arasında müşahidə olunan antisovet əhval-ruhiyyəsi haqqında Azərbaycan SSR XDİK T.Yaqubovun 05 may 1942-ci il tarixli arayışında[3] bildirilirdi ki, respublika əhalisinin əsas kütləsi ÜİK(b)P MK və SSRİ XKS-nin: "Kolxozçular üçün minimum məcburi əmək gününün artırılması" və "Kolxozlarda, sovxozlarda və MTS-lərdə kənd təsərrüfatı işlərinə şəhər və kənd əhalisinin əməkqabiliyyətli əhalisinin səfərbər edilməsi qaydaları haqqında" adlı qərarlarını böyük ruh yüksəkliyi ilə qarşılamışlar. Yerlərdə keçən toplantılarda fəhlələr, kolxozçular və ziyalılar bu qərarları bəyənmiş, qərarın hərbi dövrdə böyük iqtisadi, siyasi və müdafiə əhəmiyyəti kəsb etdiyini qeyd etmişlər. Göstərilən qərarların ümumxalq bəyənilməsi günlərdə əhalinin çoxsaylı müsbət fikirlərində əksini tapmışdır. Naxçıvan rayonu Zeynəddin kəndindən kolxozçu, bitərəf Qaragöz Cabbarova, Ağdaş rayonunun Şıxlı kənd sovetinin "Voroşilov"

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 222.
[2] Yenə orada, vərəq – 223.
[3] Yenə orada, vərəq – 339-342.

adına kolxozun üzvü, bitərəf Xanım Əliqızı, Culfa rayonu Dizə kəndindən kolxozçu, bitərəf Həmzə Cəfərov,[1] Lənkəran rayonu, Vilədi kəndindən kolxozçu Şahbəyim Əjdər qızı qərarların əmək məhsuldarlığının artırılmasına və cəbhənin ərzaq məhsulları ilə təminatına təkan verəcəyini qeyd etmişlər.

Partiya və hökumətin qeyd olunan qərarları ziyalılar, fəhlə və qulluqçular arasında da ruh yüksəkliyi yaratmış, qərarların müzakirəsində iştirak edənlər əhalini qərarlardan irəli gələn vəzifələrin yerinə yetirilməsinə səfərbər olmağa səsləmişlər. Kirovabad (indiki Gəncə) şəhərindəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (Azərbaycan Dövlət Aqrar Universiteti) dosenti, bitərəf Kara Murza, Bakı şəhəri, "Çaparidze" adına neftayırma zavodunun əmək şöbəsinin rəisi Levit İosif Lvoviç, Bakıdakı Sənaye İnstitutunun tələbəsi, bitərəf Boris Privalov, Naxçıvan rayonu, Şükürabad kənd məktəbinin müəlliməsi, komsomolçu Sara İsmayılova qərarların adamları daha yaxşı işləməyə səfərbər edəcəyinə, cəbhənin məhsullarla təmin edilməsinə təkan verəcəyinə, həmçinin əhalinin maddi şəraitinin yaxşılaşdırılmasına səbəb olacağına əminliklərini ifadə etmişlər.

Naxçıvan rayonu, Nehrəm kənd Məktəbinin 7-ci sinif şagirdi Qəhrəmanov Əli Abbas oğlunun uşaqlar arasında aprelin 22-də söylədiyi sözləri bütün məktəblilərin fikri hesab etmək olar. Şagird Ə.Qəhrəmanov demişdi: "Uşaqları məhv edən və incidən faşistlərin tezliklə darmadağın edilməsi üçün Qırmızı Orduya daha çox taxıl vermək üçün əvvəlcə kolxozda işləyəcəyəm".[2]

Xarakterik olan faktlardan biri də, əvvəllər əməkhaqqı üçün dəmiryol nəqliyyatında və digər müəssisələrdə işləməyə getmiş kolxozçuların öz kolxozlarına qayıtması olmuşdur. Kürdəmir rayonu Qarakodusalı və Qarabucaq kəndlərinin Qarabucaq dəmiryolu stansiyasında fəhlə işləyən 30 kişi və qadın, Şıxlı kəndinin "Stalin" adına kolxozun kolxozçuları və Atakişili kəndinin "Qırmızı Ordu" kolxozunda 15 kolxozçu qərarla tanış olduqdan sonra öz kolxozlarına qayıtmışlar.

Kirovabad (indiki Gəncə) rayonu, Jdanov adına kolxozda qərarın müzakirəsindən sonra aprelin 23-də əvvəllər müxtəlif bəhanələrlə çöl işlərindən yayınan 33 kolxozçu kənd təsərrüfatı işlərinə çıxdılar.

Bununla belə, respublikanın Kirovabad (indiki Gəncə), Noraşen, Göyçay, Əbrəgunis və digər yerlərində qərarlar ətrafında kütləvi izahat işləri aparılmamış, mənfi fikirlər səslənməsi əhalinin bəzi hissələrinin mühüm partiya və hökumət tədbirlərini başa düşmədiyini göstərirdi. Ayrı-ayrı partiya və sovet orqanları qərarların mahiyyətini əməkçilərə düzgün çatdırmaması səbəbli kolxozçular, fəhlələr və ziyalılar arasında mənfi fikirlər səslənmişdir.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 339.
[2] Yenə orada, vərəq – 340.

Bakı şəhərindəki 3 №-li məktəbin VII sinif şagirdi Mədinə Nəsirova uşaqlar arasında demişdi: "indi hər hansı təhsildən söhbət gedə bilməz, bizim hamımızı kolxoza işə səfərbər etmək istəyirlər. Biz hamımız orada xəstələnəcəyik. Keçən il şagirdlər öz paltarlarını satdı və kolxozdan qaçdılar". Bakı şəhərindəki 161 №-li məktəbin VI sinif şagirdi Dadaşova da aprelin 22-də oxşar fikirləri səsləndirmişdir.

Naxçıvan MTS-nin anbar müdiri Həşimov Həbib Kərbalayi Tağı oğlu hökumətin qərarlarını bəyənmədiyini, 14 yaşlı uşağı kənd təsərrüfatı işlərinə səfərbər etməyin doğru olmadığını və uşaqların kolxoz işinə heç bir xeyri olmayacağını, işi ləngidəcəyini bildirmişdi.[1]

Sadalananlar ayrı-ayrı kateqoriyadan olan adamların fikridir və kütləvi-izahat işlərinin lazımı səviyyədə təşkil olunmadığından xəbər verirdi. Bununla yanaşı antisovet fikirlər də qeydə alınmışdır.

Təhsil müəssisələrinin işində nöqsanlar və antisovet əhval-ruhiyyənin formalaşması

Quba rayonundan kolxozçu, bitərəf Quliyev Cəfər Qulu oğlu, Zaqatala rayon Hərbi Komissarlığının mehtəri Klenov Fyodr İvanoviç,[2] Bakı şəhərindəki restoranlardan birində anbardar işləyən, partiyadan xaric olunmuş Baqdasarov Muşeq Avanesoviç, "Stalin" adına Neftayırma Zavodunun yağlayıcısı, antisovet element, bitərəf Turovskaya Yekaterina Alekseyevna,[3] Ağdaş rayonunda iş icraçısı, bitərəf, Türkiyə vətəndaşı, Almaniyada təhsil almış Tair Kələntərov, texniki rəhbər Laçikova və təsərrüfat müdiri İqorko qəbul edilmiş qərarlardan narazılıq etmişdilər.[4]

Müharibənin başlanması ilə Azərbaycanın təhsil müəssisələri işini müharibə şəraitinə uyğun qurmağa başladı. Qarşıda duran ən mühüm vəzifə məktəblilərin təhsildən yayınmasına yol verməmək, valideynləri orduya səfərbər olunmuş və ya cəbhədə həlak olmuş hərbi qulluqçuların uşaqlarının nəzarətə götürülməsi, cəbhəçi uşaqlarını uşaq müəssisələrinə yerləşdirmək, məktəblilərin hərbi vətənpərvərlik tərbiyəsini gücləndirmək və s. idi.

Müharibənin birinci iki ilində təhsilin yenidən qurulması sahəsində xeyli iş görülməsinə baxmayaraq bəzi rayon və şəhər təhsil müəssisələri qeyd olunan vəzifələrin həyata keçirilməsində nöqsanlara yol verirdilər.

Azərbaycan SSR XDİK T.Yaqubovun 12 fevral 1942-ci il tarixli məxfi məktubunda Dəvəçi, Qusar, Jdanov (indiki Beyləqan), Göyçay, Naxçıvan MR-sı, Cəbrayıl, Balakən, Qutqaşen (indiki Qəbələ) və digər rayonlarda məktəblilərin təhsilinin təşkilində ciddi nöqsanlar olduğu

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 340.
[2] Yenə orada.
[3] Yenə orada.
[4] Yenə orada.

bildirilirdi.[1] Arayışda göstərilirdi ki, **Dəvəçi rayonunda** fəaliyyət göstərən 46 məktəbdən 7-si orta, 17-si natamam orta, 22-si ibtidai məktəbdir. Bu məktəblərin əksəriyyətinin əsaslı təmirə, bəzilərinin isə təkrar təmirə ehtiyacı vardır. Şıxlı, Çayqaraqaşlı, Qaraçaylı, Sarvan və digər məktəblərin binaları tədris ilində keyfiyyətsiz təmir olunduğundan məşğələlər üçün az yararlıdır. Yağış yağan kimi binanın üst örtüyü su buraxır, tavan dağılıb, pilləkənlər yararsız vəziyyətdədir. Rayonun məktəblərinin qışa hazırlığı qeyri-qənaətbəxş olduğundan əksəriyyət məktəblərdə şagirdlər soyuq siniflərdə dərs keçirdilər. Dəvəçi bazar orta məktəbində sinif otaqlarını qızdırmaq üçün odun olmadığından 3 gün məşğələlər olmamış, 500 şagird və 18 müəllim məktəbə gəlməmişlər. Dəvəçi məktəblərini dərslik və dərs vəsaitləri ilə təmin etməli olan qurumlar öhdəliklərini yerinə yetirmirdi. Nəticədə əsas dərsliklər-təbiətşünaslıq, ədəbiyyat və laboratoriya əyani vəsaitləri çatışmaması tədrisin keyfiyyətinə mənfi təsir göstərirdi.[2] Tədrisin keyfiyyətinin artırılmasında məktəb kitabxanaları əsas halqanı təşkil edir. Bu baxımdan məktəblilərə kömək üçün hər bir məktəbdə kitabxana olmalıdır. Ancaq rayonun əksəriyyət məktəblərində (Aşağı Gəndab, Şıxlı, Çöl-Quşçu və s.) kitabxana olmadığından kitablar bağlı şkaflarda saxlanılır. Müşahidələr göstərmişdi ki, ayrı-ayrı müəllimlər və XMŞ-nin rəhbər işçiləri tərəfindən şagirdlərlə kobud davranış hallarına yol verilir. Dəvəçi (indiki Şabran) Rayon Xalq Maarif Şöbəsinin müdiri Əli Cavadov, Düz-bilici orta məktəbinin direktoru, ÜİK(b)P üzvü, rayonda qərargah rəisi vəzifəsinə irəli çəkilən Həsən Süleymanov vəzifə səlahiyyətlərindən suiistifadə etmiş, müəllimə və rəhbər işçiyə yaraşmayan hərəkətlərə yol vermişlər.[3]

Sadalananların nəticəsidir ki, Dəvəçi (İndiki Şabran) rayonunda şagirdlər məktəbdən yayınmışlar. Dəvəçi-Bazar orta məktəbi 500 şagirdlə tədris ilinə başlasa da, ikinci rübün sonunda onlardan 379 nəfəri dərsə davam etmiş, 121 şagird məktəbdən yayınmışdı. Düz-bilici orta məktəbində tədris ilinin əvvəlinə 274 şagird olduğu halda ikinci rübün sonuna 226 şagird qalmış, 45 şagird yayınmışdır. Bu cür vəziyyət rayonun bütün məktəblərində müşahidə olunmuşdu. Təhlillər göstərir ki, Azərbaycan SSR XMK kadrlar şöbəsi pedaqoji kadrların seçilməsi ilə ciddi məşğul olmamış, nəticədə pedaqoji kollektivlərə düşmən elementlər daxil ola bilmişlər. Məsələn, Dəvəçi-Bazar orta məktəbinin tədris hissə müdiri Salahov Əbdül Əziz oğlunun qardaşı XDİK tərəfindən həbs olunmuşdu. Nohurlu kənd orta məktəbinin müəllimi Məmmədov Əbdül Salam Molla Şəmsəddin oğlu keçmiş din xadiminin ailəsindəndir. Qorqan məktəbinin müəllimi Orucov

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 280-287.
[2] Yenə orada, vərəq – 280.
[3] Yenə orada, vərəq – 281.

Pulat Heyicə oğlu qolçomaq oğludur və XDİK tərəfindən aradan götürülmüşdür. Sivan kəndində müəllim işləyən Əfəndiyev Cəfər Paşa Mirzəcan oğlu xalq düşməni Musabəyovun qohumudur.[1] Bu faktlar SSRİ dövlətinin həyata keçirdiyi siyasətin nə qədər yanlış və cinayət xarakteri daşıdığını bir daha təsdiq edir. Vətəndaşları sinfi, dini və siyasi mənsubiyyətinə görə bölərək onlara yanaşma siyasəti son nəticədə ölkə daxilində siyasi və sosial-iqtisadi narazılığın yaranmasına gətirib çıxarmışdı.

Naxçıvan MSSR məktəblərinin işində ciddi nöqsanlar müşahidə olunurdu. Leninabad Orta Məktəbinin hərbi rəhbəri – müəllim Əliyev Süleyman Məmməd Həsən oğlu 10-cu sinif şagirdi ilə evlənmiş və onu məktəbə buraxmamışdır. Nəticədə sinfin digər qız şagirdləri məktəbə gəlməmiş və nəticədə sinif bağlanmışdır. Təzəkənd Orta Məktəbinin müəllimi Abuzərli Məmmədəli antisovet əhval-ruhiyyəli olub tədris proqramına əməl etməmiş, müəllimlər arasında intriqa yaratmış, Dövlət Müdafiə Fonduna vəsait toplanışında antisovet hərəkətlər nümayiş etdirmişdir.

Naxçıvan MR-ın bir sıra məktəbləri 1941-1942-ci tədris ilinə hazırlıqla əlaqədar təmir olunmamış məktəblər qızdırılmırdı. Leninabad orta məktəbində şagirdlərin məktəbdən yayınma göstəricisi 30, Təzəkənd məktəbində 35, Raxmanin məktəbində 25 faiz təşkil edirdi.[2]

İmişli rayonunun Rəsullu, Muğanlı, Təklə və b. kənd məktəblərində yayınma halları yüksələn xətlə artırdı. Murğuzallı və Cavadxanlı kənd sovetlərində birinci yarımildə 337 şagird məktəbdən yayınmışdı. Rayonun 10 məktəbi bağlanmış, yayınan uşaqların sayı 1.000 nəfərə çatmışdı. Qeyd edilən kənd sovetlərində ayrı-ayrı valideynlər uşaqlarını məktəbə buraxmaq istəməmişlər.[3]

Dəstəfur və Göyçay rayonlarında şagirdlərin məşğələlərə davamiyyəti aşağı düşmüşdür. Göyçay rayonunun Qarabaqqal kənd məktəbində 273 şagirddən 171 nəfəri, Bığır kəndində 356 nəfərdən 114 nəfəri məktəbə davam etmişdi. Kənd sovetləri yaranmış vəziyyətlə əlaqədar heç bir əsaslı tədbir görməmişdilər.[4]

Cəbrayıl rayonunun Maşanlı, Qumlax, Mehdili, Xudayarlı, Cəbrayıl və digər məktəbləri təmir olunmayıb, qızdırılmır, pəncərələrə şüşə əvəzinə yazı taxtası asılmışdır. Nəticədə 587 şagird məktəbdən yayınmışdı.[5]

Qusar rayonunda Aşağı Lağır orta məktəbinin X sinfi bağlanmış, Dahercalı məktəbinin IX-X siniflərinin bağlanması və 2 ay ərzində dərs keçirilməməsi səbəbi məktəblilər dərsdən yayınmışlar. Analoji vəziyyət Jdanov, İsmayıllı, Qutqaşen və digər rayonlarda da müşahidə olunmuşdur.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 282-283.
[2] Yenə orada, vərəq – 284.
[3] Yenə orada, vərəq – 285-286.
[4] Yenə orada, vərəq – 286.
[5] Yenə orada, vərəq – 287.

Partiya təşkilatlarının rəhbər işçiləri yaranmış vəziyyəti yanacağın olmaması, səfərbərliklə əlaqədar uşaqların ailələrinə kömək etməsi ilə əlaqələndirmişlər.[1]

Yaranmış vəziyyətlə və XDİK T.Yaqubovun arayışı əsasında Azərbaycan K(b)P MK katibi Əziz Əliyevin təklifi ilə Xalq Maarif Komissarlığı Dəvəçi, İmişli, Dəstəfur, Göyçay, Cəbrayıl, Qusar, Jdanov, İsmayıllı, Qutqaşen və Naxçıvan MSSR məktəblərinin işini yaxşılaşdırmaq və məktəblilərin məktəbdən yayınmasına yol verməmək məqsədilə müvafiq tədbirlər qəbul etmişdi. Azərbaycan K(b)P MK katibi Əziz Əliyevin 17 fevral 1942-ci il tarixli arayışından aydın olur ki, Dəvəçi rayon Kooperativlər İttifaqı şəbəkəsində dərsliklərin alınması faktının yoxlanılması və müvafiq tədbirlər görülməsi barədə "Azərittifaq"a göstəriş verilmişdi. Nuxa, Ağdam, Ağdaş, Akstafa, Astara, Astraxanbazar, Balakən, Göyçay, ümumilikdə 23 rayon və Naxçıvan Vilayət Partiya təşkilatına məktəblərin vəziyyətini, binaların hazırlığını, istiliyin olmasını, tədris əyani vəsaitləri və kadrlarla təminatı, məktəblərdə tədrisin keyfiyyətini yoxlamaq və müəllimlərin işində aşkar olunmuş nöqsanların təcili aradan qaldırılması üçün konkret tədbirlər görmək tapşırılmışdı.[2]

1942-ci il dekabrın 16-da Azərbaycan SSR Xalq Maarif Komissarının müavini T.Q.Manvelyan Ə.Əliyevə məlumat verir ki, onun tapşırığı ilə XMK məktəblərin işində olan çatışmazlıqları aşkar etmək, nöqsanların aradan qaldırılması və məktəblərin işini yaxşılaşdırmaq üçün tədbirlər müəyyənləşdirmək məqsədilə göstərilən rayonlara öz işçilərini göndərmişdir.[3]

"Azərittifaq"ın Rəyasət Heyətinin sədri də 16 dekabr 1942-ci il tarixli məktubu ilə Dəvəçi rayonundakı faktları yoxlamaq üçün Dəvəçi Rayon Kooperativlər İttifaqının sədri Babayevə göstəriş verildiyini, həmçinin Ticarət İdarəsinin əmtəəşünası Lazarevin Dəvəçi rayonuna ezam olunduğunu bildirirdi.[4]

Səhiyyə müəssisələrində və ali məktəblərin professor-müəllim heyəti arasında sovet qoşunlarının qələbələrini qiymətləndirən fikirlərə rast gəlinirdi. Qazax şəhərinin stomatoloqu Roxlina Yelena Yakovlevna dekabrın 13-də demişdi: "Bu yaramazlarla belə lazımdır, onlar sovet mədəniyyətini məhv edirlər, uşaqları öldürürlər. Rusiya kimi belə mədəni ölkəni özlərinin koloniyasına çevirmək istəyirlər. Həqiqətən bizim hökumətin başındakılar ağıllı adamlardır. Hitlerin qüvvələri azalır, biz də isə artır. Rusiya heç vaxt məğlub olmayacaq, şübhə yoxdur, qələbə bizimlə olacaqdır". Eyni fikirləri Azərbaycan Dövlət Teatrının artisti, bitərəf Hacıyev Dağıstanlı İsmayıl

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 287.
[2] Yenə orada, vərəq – 276-277.
[3] Yenə orada, vərəq – 288.
[4] Yenə orada, vərəq – 289.

Yusif oğlu, "Stalinneft" Trestinin mühəndisi Lazarev Artyom Gerasimoviç, "Orconikidzeneft" Trestinin quyuların əsaslı təmiri Kontorunun böyük mühəndisi Udalov Vyaçeslav Aleksandroviç, "Azneftkombinat"ın geoloji topoqrafiya kontorunun texniki Larsev Aleksandr İvanoviç, Qazax rayonunda orta məktəb müəllimi, bitərəf Cəvahir Əminova, Nuxa (Şəki) Pedaqoji Məktəbinin müəllimi Şövkət Cəbrayılov səsləndirmişlər.[1]

Tibb İnstitutunun professoru, bitərəf Ozerevskiy Dmitri Sergeyeviç dekabrın 20-də bildirmişdi ki, "Qafqaz xalqları almanlar yaxınlaşdıqca möhkəm əmin olurlar ki, faşistlər azadlıqsevər xalqı qul etməyə çalışırlar. Bu Hitler qaniçənlərinə nifrətin möhkəmlənməsində yaxşıdır və sözsüz almanlar Qafqazda öz qəbirlərini tapacaqlar". Tibb İnstitutunun professoru, bitərəf Könül Balakişiyeva dekabrın 17-də demişdi: "Stalinqrad ətrafında alman ordusunun ən yaxşı diviziyaları darmadağın edildi, qalan ordu elə ağır şəraitə düşdü ki, uzun müddət güclü Qızıl Orduya qarşı dayana bilməyəcək. Stalinqradlıların mərdliyi insanlıq tarixinə daxil olacaqdır".

Sənaye İnstitutunun professoru, bitərəf Elyaşkeviç Zinovyev Borisoviç dekabrın 19-da bəyan etmişdi: "Bizim komandanlıq öz qarşısına alman qoşunlarının Stalinqrad qruplaşmasını mühasirəyə almaq, sonra Rostovda cəbhəni yarmaq vəzifəsini qoydu. Birinci vəzifə alman ordularının mühasirəyə alınması ilə şərəflə yerinə yetirildi. Tezliklə Qızıl Ordunun Rostovdan cəbhənin yarmasının şahidi olacağıq".[2] Sənaye İnstitutunun dosenti, bitərəf İsrayıl Qarayev dekabrın 21-də "Qırmızı Ordu komandanlığı Donun orta axarı rayonunda hücumu müvəffəqiyyətlə inkişaf etdirərək Rostova doğru irəliləyir, faşist qoşunları isə Qafqazdan geri çəkilirlər, ancaq onların hamısı özlərinə qəbir tapacaqlar" demişdi.[3]

ADU-nun dosent Maqsud Cavadov dekabrın 22-də demişdi: "Son günlərin ən yaxşı yeniliyi bizim qoşunların almanları bir başa dağıtmalarıdır. Döyüşçülərimiz düşmənin müqavimətini qıraraq onlar əsir götürdülər, texnikalarını sıradan çıxararaq irəli getdilər. Öz sevincimi bütün təxliyə olunanlara verirəm, indi yalnız bu halda düşmən Qızıl Ordunun gücünü görəcəkdir".

Sənaye İnstitutunun tələbəsi Kuzmina Valentina, "Azərenerji"nin dispetçer köməkçisi Akimova Larisa Dmitriyevna, Tərtər rayonu Rabitə Şöbəsinin əməkdaşı Tumasova Zoya və Məmmədova Kubra, Ordubad rayon maliyyə şöbəsinin inspektoru Pənah Şəfiyev, Azərbaycan OSOAVİAXİM-in baş mühasibi Levinson İzrael İosifoviç, Bakı şəhər Tramvayı Parkının konduktoru Popova Yelena Pavlovna, "Kirovneft" Trestinin 3-cü Mədəninin operatoru Məmmədov Ağa Məlik oğlu, yenə

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 593.
[2] Yenə orada, vərəq – 592.
[3] Yenə orada.

həmin trestin Nəqliyyat Kontorunun çilingəri Muradov Əliağa Pəncəli oğlu,[1] "Desyatiletka" artelinin dəmirçisi İmran İbrahimov, Göyçay MTS-in traktorçusu Sultanov Nuh Sultan oğlu, Ordubad rayonundakı Gənzə kənd kolxozunun üzvü İbrahimov Qasım Kəlbalayı oğlu, Göyçay rayonundakı Leninkənd kənd kolxozunun üzvü Zəkəriyyə Həsənov, Qutqaşen (indiki Qəbələ) rayonunun Qutqaşen kənd sakini Saleh Hacıyev və b. Qırmızı Ordu hücumlarından, qoşunların müvəffəqiyyətlərindən, faşist ordusunun sıralarının pozulmasından sevindiklərini, sovet xalqının qələbəsinə əmin olduqlarını ifadə etmişlər.

İnsanlar sovet qoşunlarının qələbəsini qohumları, cəbhədə döyüşən əsgərlərlə bölüşürdülər. Apalaqçiyev R.A. qohumu Afanasyevə yazırdı ki, bu gün radio şad xəbər verdi. Bizim qoşunlar orta Don rayonunda almanların cəbhəsini yarmışdır. Görünür Qırmızı Ordu bir-birinin ardınca zərbələr endirir, qərbdə və cənubda düşmən öz qoşunlarını harada yerləşdirmək haqqında fikirləşir ki, bizim zərbələrdən yayınsın.[2] Əminə Babayeva əri Hüseyn Babayevə yazırdı ki, Hitler vəhşiləri ilə hesablaşmaq vaxtı çatmışdır. Bu hücum ilə (Stalinqrad altında döyüş nəzərdə tutulur – M.Ə.) Qırmızı Ordu bir daha göstərdi ki, bizim qoşunlarımız ağır döyüşdə düşmənə məhvedici zərbələr vurmağı bacarır. Vətən qarşısında borcumuzu yerinə yetiririk. Sovet torpaqlarını faşist işğalçılarından təmizləməliyik.[3]

Sadalanan müsbət fikirlərlə yanaşı mənfi fikirlər də rast gəlinir.

XDİK-nın Azərbaycan K(b)P MK-ya göndərdiyi 25 dekabr 1942-ci il tarixli arayışında[4] bildirilirdi ki, Qırmızı Ordunun Stalinqrad rayonunda, orta Donbasda və Mərkəz cəbhədə hücumlarının güclənməsi ilə bağlı respublikanın ziyalıları, fəhlə və qulluqçuları və kolxozçularından çoxsaylı vətənpərvərlik fikirləri daxil olmuşdur.

ADU-nun dosenti Aleksandr Muradov, Müəllimlər İnstitutunun dosenti İlyas Hacıyev, Sənaye İnstitutunun assistenti Frenqel Adolf Markoviç, Nizami adına İnstitutun elmi əməkdaşı Ağa Əli İbrahimov, Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının həkimi Axundov Cəfər, Qax rayonundan baytar həkim İvanova Nadejda, Bakı şəhər Okolesnikova adına Pedaqoji Texnikumdan Şahbazov Hacı Ağa Abbas oğlu, Xüsusi Dənizçilik Məktəbindən pedaqoqu Abdulşahmarov Yakov Aleksandroviç söhbətlərində Qırmızı Ordu hücumlarının müvəqqəti xarakter daşıdığını, son nəticədə almanların qələbə qazanacağını, rusların hərbi işi bilməməsi səbəbli böyük itkilər verildiyini ifadə etmişlər.[5]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 594.
[2] Yenə orada, vərəq – 595.
[3] Yenə orada, vərəq – 596.
[4] Yenə orada, vərəq – 592-600.
[5] Yenə orada, vərəq – 597.

Bakı bədii məktəbin pedaqoqu Zeynalov Əli Zeynalabdin oğlu dekabrın 20-də bildirmişdi:

"...Sovet ordusunun hücumu mütləq pozulacaq. Göbbels demişdi ki, onlar Rostovu, Krasnodarı və Stalinqradı alacaqlar. Və **aldılar. Hitler Qara dənizdən Tbilisiyə və Bakıya hücuma hazırlaşır**".[1]

Azərbaycan SSR-in ali tədris müəssisələrində antisovet əhval-ruhiyyəsinə dair faktlar aşkara çıxarılmışdı. Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK katibi Əziz Əliyevə ünvanladığı 02 avqust 1942-ci il tarixli arayışında[2] qeyd edilir ki, Azərbaycan SSR XDİK-nın sərəncamında olan materiallar **Azərbaycan Dövlət Universitetində** tədris-pedaqoji, həmçinin siyasi-tərbiyə işi istiqamətində işlərin vəziyyətinin qənaətbəxş olmadığını göstərir. Arayışda bildirilir ki, 1941-1942-ci tədris ilində tələbələrin dərsə davamiyyəti kəskin surətdə aşağı düşmüş, əmək intizamı zəifləmiş, tədrisin keyfiyyəti pisləşmişdir. ADU-nun rektoru Şamil Əliyev və tədris hissəsi üzrə prorektor Arişkin İvan Tixonoviç universitetə rəhbərlik etmək əvəzinə öz aralarında intriqa ilə məşğul olduqlarından ayrı-ayrı fakültələrin işi üzərində nəzarət unudulmuşdur. Universitetin partiya, komsomol və ictimai təşkilatları zəif işləyirlər. Azərbaycan SSR Xalq Maarif Komissarı U.Məmmədov universitetə rəhbərliyi lazımı səviyyədə təşkil etməmişdir. XMK kadr hazırlığı idarəsinin rəis müavini A.S.Loginov universitetin işinə praktik köməklik əvəzinə özünün qulluq vəziyyətini yaxşılaşdırmaq üçün ADU-da 0,5 oklad, Qadın Müəllimlər İnstitutunda və XMK tam oklad ştatlı işçi hesab olunur. Universitetin filoloji fakültəsində 500 nəfər tələbə var, müxtəlif millətlərdən olan professor-müəllim heyətində qarşılıqlı yoldaşlıq münasibətləri yoxdur.[3]

Professor Mikayıl Rəfili, ədəbiyyat müəllimi Əli Sultanlı, riyaziyyatçı dosent Əşrəf Hüseynov və başqaları öz ətrafında müəllimlər qrupu formalaşdıraraq rəhbərliyi və partiya təşkilatını öz təsir dairəsinə salmağa cəhd edir, azərbaycanlı olmayan dekan və kafedra müdirlərini azərbaycanlılarla əvəz etmək istəyirlər. Belə bir faktın olması onu göstərir ki, SSRİ hökumətinin yeritdiyi milli siyasət, kadrların seçim məsələsi düzgün deyildi.

Müəllimlərin digər hissəsi-ruslar: prof. Yelpatevski Vladimir Sergeyeviç, Rıbinskiy Vladimir Petroviç, Udinsev Vsevolod, dosent əvəzi Qervald Aleksey Konstantinoviç və başqaları prof. Baqria Aleksandr Vasilyeviç ətrafında qruplaşaraq rektor Ş.Əliyev və prorektor Arişkin arasındakı gərgin münasibətdən istifadə edərək[4] sonuncu, həmçinin XMK kadr hazırlığı idarəsinin rəis müavini Loginovun himayəsi ilə (hansı ki, Loginov

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 597

[2] Yenə orada, vərəq – 191-196.

[3] Yenə orada, vərəq – 191.

[4] Yenə orada, vərəq – 192.

da faktiki bu qrupa daxil olmuşdu) öz mövqelərini möhkəmləndirməyə can atır, azərbaycanlı müəllimləri nüfuzdan salmaq siyasəti aparırdılar. Gizli mübarizə və iki qrup arasında yaranmış milli qarşıdurma nəticəsində universitet qarşısında müharibə gedən bir şəraitində duran mühüm vəzifə diqqətdən yayınmışdı.

Azərbaycan Dövlət Universitetində yaranmış mənfi mənəvi iqlim professor-müəllim heyəti arasında Sovet hakimiyyəti əleyhinə yad və düşmən əhval-ruhiyyənin güclənməsinə təsir edirdi. Belə ki, ADU-nun 355 nəfərdən ibarət professor-müəllim heyətinin 70 nəfəri bu və ya digər materiallarla ali məktəbi nüfuzdan salır, bəzi müəllimlərin fikirləri mənfi əhval-ruhiyyənin yaranmasına və antisovet fikirlərin formalaşmasına zəmin yaradırdı. Belə bir əhval-ruhiyyənin yaranması da təsadüfi deyildi.

Əliyev Yaqub Fərəc oğlu 1911-ci il təvəllüdlü, Ordubad şəhər sakini, ÜİK(b)P üzvü, ADU-nun dosenti, filologiya elmlər namizədi, antisovet-millətçi və təhrikçi əhval-ruhiyyədə olan şəxs kimi tanınır. O, millətçi və faşizm yönümlü fikirlər söyləyir, xalq düşmənləri Trotski və Buxarinin ideyalarını populyarlaşdırır, kolxoz quruluşundan və sovet hakimiyyəti həqiqətlərindən narazıdır. O, Sovet İnformasiya Bürosunun materiallarının həqiqiliyini inkar edir və Almaniya ilə müharibədə sovet hökumətinin məğlubiyyətinin qaçılmaz olduğunu iddia edirmiş. Y.Əliyevin ətrafında antisovet əhval-ruhiyyəli şəxslərin də toplaşdığı qeyd olunur.[1]

Məmməd Hüseyn Abbas Qulu oğlu Təhmasib – 1907-ci ildə anadan olmuş, Naxçıvan sakini, bitərəf, filologiya elmləri namizədi, ADU-da müəllim vəzifəsindədir. M.H.Təhmasib tacir-mülkədar ailəsindən çıxmışdı, müntəzəm olaraq əks-inqilabi, təxribatçı şayiələr yayır, Sovet hökuməti və partiya rəhbərləri haqqında yalanlar uydurur, SSRİ dövlətinin sülhsevər siyasətini aqressivlik kimi yazır, SSRİ-nin Almaniya ilə müharibədə qələbəsinə inanmır, Sovet İnformasiya Bürosunun məlumatlarını yalanlayırdı.[2]

Əliyev Cabbar Qafar oğlu – 1899-cu il təvəllüdlü, Bakıda doğulmuş, bitərəf, ADU-nun dosenti vəzifəsində çalışmışdır. Məhkum olunmuş A.V.Razutovun ifadəsinə görə C.Q.Əliyev əks-inqilabi eser təşkilatına cəlb olunmaq üçün işləmişdir. S.M.Vəzirovun birbaşa ifadəsinə görə antisovet-millətçi qrupun iştirakçısıdır. Antisovet təslimçilik və böhtançı görüşlər yayır, Sovet İnformasiya Bürosunun məlumatlarına inanmayaraq İngiltərə və ABŞ-ın Sovet İttifaqına köməyini inkar edir və SSRİ-nin süqutunun tezliklə qaçılmaz olduğunu bildirirdi.

Baqriy Aleksandr Vasilyeviç – 1891-ci il təvəllüdlü, bitərəf, ADU-nun professorudur. A.V.Baqriy məmur oğludur. 1937-ci ildən pantürkist mərkəzinin üzvü, məhkum olunmuş Bəkir Çobanzadə, Əziz Qubaydullin və

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 192

[2] Yenə orada, vərəq – 193.

Hənəfi Zeynallının, həmçinin trotskiçi B.M.Tixomirovun ifadəsinə görə Bakı şəhərindəki rus professorları arasında Ukrayna əks-inqilabi millətçi və burjua-demokratik qrupun rəhbəridir. Düşmən elmi kadrların hazırlanmasında şübhəli şəxs kimi tanınırmış.

Əliyev Hadı Bədəl oğlu – 1910-cu ildə anadan olmuş, Bakıda doğulmuşdur, bitərəfdir, ADU-da dosentidir. Məhkum olunmuş A.V.Razutovun ifadəsinə görə Xalq Təsərrüfatı İnstitutunda eser qrupunun iştirakçısıdır. S.M.Vəzirovun bir başa ifadəsinə görə H.B.Əliyev 1937-ci ildən institutda antisovet qruplara cəlbetmə işi ilə məşğul olan millətçi qrupun iştirakçısıdır. N.L.Xalfinin ifadəsinə görə H.B.Əliyev 1937-ci ildən türk-kəşfiyyatçısı, əks-inqilabçı, millətçi əhval-ruhiyyəli, cəlb etməyə hazır şəxs kimi Camal Ruhinin verdiyi siyahıya onu daxil etmişdir. Hadi Əliyev də əks-inqilabi millətçi və təslimçi əhval-ruhiyyə nümayiş etdirir, ÜİK(b)P, həmçinin sovet həqiqətləri haqqında yalan uydurur, faşist ordusunu tərifləyir və Sovet İnformasiya Bürosunun məlumatlarına inamsızlıq ifadə edir.[1]

Yelpatevski Vladimir Sergeyeviç – 1907-ci il təvəllüdlü, Moskvada doğulmuşdur. Biologiya elmləri doktoru, ADU-nun professoru vəzifəsində çalışır. Keçmiş böyük mülkədar V.S.Yelpatevski Almaniya və İtaliyada ezamiyyətdə olmuş, 1931-ci ildə keçmiş Dövlət Siyasi İdarəsi tərəfindən həbs olunmuşdur. Dövlət Siyasi İdarəsi tərəfindən məhkum olunmuş Hənəfi Zeynallı, Çobanzadə Bəkir və Əziz Qubaydullinin 1937-ci ildə ifadəsinə görə keçmiş xalqçı və əksinqilabi İşkov-Baqriya qrupun üzvü olduğu qeyd olunur.

Şeyxzamanov İlyas Əli oğlu – 1917-ci il təvəllüdlü, bitərəf, Gəncədə doğulmuşdur, ADU-nun baş müəllimidir. O, Gəncədə məşhur Şeyxzamanovlar ailəsindən çıxmışdır. 1918-ci ildə Türkiyədə olmuşdur. Xaricdə Nağı, İsgəndər və Əsgər Şeyxzamanovlar adlı qohumları vardır. Antisovet-türkçü əhval-ruhiyyəli şəxsdir.

Rəfili Mikayıl Hacı Həsən oğlu – 1906-cı il təvəllüdlü, bitərəf, filologiya elmlər namizədi, ADU-da professor əvəzidir. M.H.Rəfili Gəncənin varlı ailəsindən çıxmışdır. "Müsavat" dövründə Gəncə "İziç" "Müsavat" idman cəmiyyətinin fəal iştirakçılarından olmuşdur. 1927-1930-cu illərdə fəal Müsavat kadrları qrupunda fəaliyyət göstərmişdir. Məhkum olunmuşların birbaşa və dolayısı ilə ifadələrində burjua-millətçi və pantürkist təşkilatında Əli Nəzmi, Hənəfi Zeynallı, Əziz Qubaydullin, Bəkir Çobanzadə və başqaları kimi əks-inqilabi təşkilatın iştirakçısı olmuşdur. Universitetdə zəif partiya-komsomol və ictimai kütləvi işin nəticəsidir ki, müəllim heyətində düşmən elementlər özlərinin əks-inqilabi fəaliyyətlərini fəallaşdırmışlar.[2]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 193-194.
[2] Yenə orada, vərəq – 194.

1941-1942-ci illərdə ADU-nun müəllimlərindən dosent Ağasəf Fətəlizadə, Mədət İsgəndərov, Əkrəm Cəfərov və müəllim Rövşən Əfəndiyev həbs olunaraq əks-inqilabi fəaliyyətlərinə görə məhkum edildilər. Azərbaycan SSR XDİK T.Yaqubovun ADU haqqında Azərbaycan K(b)P MK katibi Əziz Əliyevə ünvanladığı 02 avqust 1942-ci il tarixli arayışda qeyd olunurdu ki, adları sadalanan şəxslər uzun illər ADU-da özlərinə sığınacaq tapmış, elmi kadrların hazırlığı məsələlərini öz ideologiyalarına müvafiq olaraq praktiki cəhətdən maskalamış, müəllim və tələbələr arasında antisovet və millətçi əhval-ruhiyyə təbliğ etmiş, əks-inqilabi təslimçilik görüşləri söyləmiş, ÜİK(b)P və Sovet hökumətinin tədbirlərini tənqid edərək türkofil təbliğat aparmışlar.

1942-ci il iyulun əvvəlində həbs olunmuş filologiya fakültəsinin II kurs tələbəsi **Rzayev Məmmədhüseyn Həbib oğlu** özünü günahkar hesab edərək qeyri-leqal Türkiyəyə yönələn antisovet-millətçi gənclər birləşməsinin fəal üzvlərindən olduğunu, sovet hökumətinə qarşı əks-inqilabi təslimçilik və millətçi təbliğat apardığını, əks-inqilabi vərəqələr nəşr edərək yaydığını və gənclər birləşməsinə yeni şəxslər cəlb etdiyini etiraf etmişdir. 1942-ci il iyulun 8-dəki istintaqda demişdir:

"…Bizim birləşməmiz antisovet toplantısı idi, orada ÜİK(b)P və Sovet hökumətinin milli məsələyə dair siyasətini tənqid edir, iddia edirdik ki, azərbaycanlılar rusların işğalı altındadır. Biz Türkiyədəki həyatı tərifləyir, sovet hökumətinin məğlubiyyətinin qaçılmaz olduğunu deyirdik. Bu toplantıda təşkilatımıza ayrı-ayrı şəxslərin namizədliyi məsələsini müzakirə edirdik".[1]

1942-ci ilin əvvəlində əks-inqilabi fəaliyyətinə görə həbs olunan, bitərəf, Tarix fakültəsinin II kurs tələbəsi **Məmmədov Məmmədəli Ağabala** oğlu 1942-ci il iyulun 10-dakı ifadəsində yazmışdı ki, "Azərbaycan müstəqil Respublika olmalıdır. Azərbaycanı heç kimdən asılı olmayan dövlət quruluşlu demokratik respublika kimi fikirləşir, Demokratik Azərbaycan Respublikasının yaranması imkanını SSRİ-nin məğlubiyyətində görürəm".[2]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 195.
[2] Yenə orada, vərəq – 196.

XIII FƏSİL

MİLLİ HƏRBİ HİSSƏLƏRİN TƏŞKİLİ VƏ ƏHALİNİN MÜDAFİƏ SƏNAYESİNƏ CƏLBİ SAHƏSİNDƏ NÖQSANLAR VƏ ANTİSOVET MÜLAHİZƏLƏRİN FORMALAŞMASI

Müharibə illərində orduya səfərbərlikdən yayınma və hərbi hissələrdən fərariliyin səbəbləri və antisovet əhvali-rühiyyəsinin formalaşması

1941-1945-ci illər müharibəsi dövründə Antisovet təzahürlərindən biri də hərbi çağırışdan yayınma, fərarilik olmuşdur. "Azərbaycan SSR-də fərariliyin vəziyyəti haqqında" Azərbaycan SSR XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-a təqdim etdiyi 9 iyul 1942-ci il tarixli arayışında göstərilir ki, müharibənin başlanmasından – 22 iyun 1941-ci ildən 1 iyul 1942-ci ilədək Azərbaycan SSR XDİK Qırmızı Ordunun müxtəlif hərbi hissələrindən çağırışa qədər Azərbaycan SSR ərazisində yaşayan və fərarilik edən 4.005 nəfər qeydə almışdı. Onlardan 3.348 nəfəri saxlanılmış, 657 nəfər axtarışda olmuşdur.[1] Milli tərkibinə görə fərarilər aşağıdakı cədvəldəki kimi olmuşdur.[2]

Cədvəl 13.1

Milli tərkib	cəmi	O n l a r d a n	
		saxlanılmışdır	axtarışdadır
Azərbaycanlı	3.323	2.949	374
Erməni	226	173	53
Rus	278	120	158
Gürcü	85	48	37
Digər millətlər	93	58	35
Yekun	**4.005**	**3.348**	**657**

4.005 fəraridən Cənubi Qafqaz ərazisində olanlar 1.870 nəfər olmuşdur. 824 nəfər Azərbaycan SSR ərazisində yerləşən hərbi hissələrdən fərarilik etmişdir.

Hissələr üzrə fərarilik aşağıdakı cədvəldə verilmişdir.[3]

Cədvəl 13.2.

Hərbi hissələrin adı	Cəmi	O n l a r d a n	
		saxlanılmışdır	axtarışdadır
77 dağ atıcı batalyonu	153	98	55

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 142-152.
[2] Yenə orada, vərəq – 142.
[3] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 143.

151-ci atıcı diviziyası	127	74	53
223-cü atıcı diviziyası	173	129	44
402-ci atıcı diviziyası	154	118	36
404-cü atıcı diviziyası	67	38	29
416-cı atıcı diviziyası	43	18	25
Digər hərbi hissələr	107	59	-
Yekun	**824**	**534**	**290**

Saxlanılmış fərarilərin aylıq qaçışı aşağıdakı kimi olmuşdur.

Cədvəl 13.3.[1]

Aylar	**Ay üzrə fərari hesaba alınmışdır**	**Ay ərzində saxlanılmışdır**	**Ayın sonuna axtarışda olmuşdur**
İyul 1941	25	18	7
Avqust 1941	93	75	18
Sentyabr 1941	183	125	58
Oktyabr 1941	469	274	195
Noyabr 1941	489	348	141
Dekabr 1941	617	395	222
Yanvar 1942	1.182	732	450
Fevral 1942	336	299	37
Mart 1942	622	184	438
Aprel 1942	820	293	527
May 1942	828	200	628
İyun 1942	1.062	405	657
Yekun	**6.726**	**3.348**	**3.378**

1942-ci il iyulun 1-nə Azərbaycan SSR rayonları üzrə fərariliyin vəziyyətinə dair cədvəl.

Cədvəl 13. 4.[2]

S №	**Rayonlar**	**Axtarışda hesab olunur**	**Onlardan**	
			Saxlanılmışdır	**Qalmışdır**
1	Əli Bayramlı	18	14	4
2	Astafa	39	38	1
3	Ağdam	138	119	19
4	Ağcabədi	105	82	23
5	Abrakun	8	8	-
6	Ağdaş	103	86	17
7	Astara	12	10	2

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 143-144.
[2] Yenə orada, vərəq – 153-155.

8	Astraxanbazar	39	29	10
9	Balakən	59	53	6
10	Bərdə	66	63	3
11	Vartaşen	32	29	3
12	Göyçay	42	37	5
13	Hadrut	11	11	-
14	Dəvəçi	72	67	5
15	Cəbrayıl	18	18	-
16	Culfa	4	4	-
17	Dəstəfur	40	31	9
18	Yevlax	53	32	21
19	Jdanov	7	7	-
20	Zaqatala	32	25	7
21	Zəngilan	19	15	4
22	Zərdab	21	5	16
23	İsmayllı	37	29	8
24	İmişli	19	9	-
25	Qax	13	13	-
26	Kürdəmir	107	89	18
27	Qazax	52	43	9
28	Qubadlı	15	13	2
29	Qasım İsmayılov	69	57	12
30	Qonaqkənd	74	64	10
31	Qaryagin	87	79	8
32	Kirovabad	103	80	23
33	Qutqaşen	146	134	12
34	Qusar	107	99	8
35	Gədəbəy	164	146	18
36	Qazı Məmməd	11	9	2
37	Kəlbəcər	52	42	10
38	Quba	165	140	25
39	Lerik	12	11	1
40	Laçın	91	85	6
41	Lənkəran	47	44	3
42	Masallı	40	32	8
43	Mardakert	42	36	6
44	Martuni	27	25	2
45	Nevtçala	3	3	-
46	Noraşen	69	64	5
47	Naxçıvan	33	26	7
48	Nuxa	158	124	34
49	Ordubad	14	12	2
50	Puşkin	14	14	-
51	Səfər Əliyev	17	14	3

52	Salyan	30	27	3
53	Siyəzən	5	-	-
54	Sabirabad	131	111	20
55	Stepanakert	33	28	5
56	Samux	12	11	1
57	Tərtər	52	8	14
58	Tovuz	137	122	15
59	Ucar	60	52	8
60	Xaçmaz	66	56	10
61	Xanlar	72	52	20
62	Xilli	10	6	4
63	Şaumyan	29	26	3
64	Şahbuz	18	17	1
65	Şamaxı	84	73	11
66	Şamxor	154	132	22
67	Yardımlı	7	7	-
68	Xızı	20	17	3
69	Bakı və rayonları	347	208	139
70	Şuşa	21	20	1
	Yekun	**3.938**	**3.184**	**717**

Saxlanılan 3.348 fəraridən başqa, səfərbərliyə qədər, həmçinin müharibənin başlanmasının əvvəlində aşkarlanan və saxlanılan 387 fərari çağırışaqədər Azərbaycan SSR-də yaşayanlar olmuşdur. 3.348 fəraridən 1.390 nəfəri axtarış tələbində olmuş, qalan 1.958 nəfər yerli XDİK orqanları tərəfindən aşkar edilmiş və saxlanılmışdı. Bu onu göstərir ki, hərbi hissələrin komandanlıqları fərarilik edənlər barəsində vaxtında müvafiq orqanlara və yaşayış yerinə məlumat verməmişlər.

Fərariliyin səbəbləri sırasında orduya səfərbərliyə qədər müvafiq tədbirlərin düzgün seçilməməsi və tələsikliyə yol verilməsi ön cərgədə dayanır. Qızıl Ordu sıralarına çağırışla məşğul olan komissiyalara səfərbər olunanların seçilməsi və filtirdən keçirilməsi yaxşı təşkil olunmadığından düşmən elementlər hərbi hissələrə düşmüş və əks-təbliğat aparmışlar.[1]

Fərariliyə təhrik etmədə düşmən elementlər böyük yer tuturdu. Onlar hissələrdə aparılan yarıtmaz işdən istifadə edərək milli məsələni qızışdırırdılar. Komandirlərin zəif tələbkarlığı, hissələrdə daxili qaydalara əməl olunmaması, normal məişət şəraitinin yaradılmaması da fərariliyə təkan verirdi. Hərbi hissələrin xüsusi şöbələrinin agentura-əməliyyat işlərini zəif təşkil etməsi, nəticədə təxribat işlərinin vaxtında aşkar olunmaması hissələrdən qrup halında qaçışa səbəb olurdu.[2]

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 144-145.
[2] Yenə orada, vərəq – 147.

Fərarilik edənlər arasında keçmişdə valideynləri və qohumları repressiya olunanlar, hər hansı səbəbdən həbs edilənlər üstünlük təşkil edirdi. Məsələn, 1910-cu ildə Ağdaş rayonunun Qarazatlı kəndində doğulmuş, qolçomaq oğlu **Mustafayev Hidayət Xəlil oğlunun** qardaşı Yunus Xəlil oğlu və digər qohumları əks-inqilabi fəaliyyətə görə repressiya olunmuşdu. Ermənistan SSR Kirovakan şəhərində dislokasiya olunan 61-ci atıcı diviziyanın 3-cü alayından fərarilik etmişdir.

Qurbanov Qubad İbad oğlu 1905-ci ildə anadan olmuşdur. Ağdaş rayonunun Ağcayazı kənd sakinidir, bəy oğludur. Keçmişdə mal oğurluğu üstündə ittiham olunmuş, 5 il azadlıqdan məhrum edilmişdi. 1942-ci ilin may ayında Qubada dislokasiya olunan 223-cü atıcı diviziyadan fərarilik etmişdi.

İlyasov Davud Ağakişi oğlu 1907-ci il təvəllüdlüdür, Laçın rayonunun Uzundərə kənd sakinidir, qolçomaq ailəsindən çıxmışdır. Bəzi qohumları, o cümlədən dayısı Molla Zülfüqar XDİK orqanları tərəfindən əks-inqilabi fəaliyyət üstündə repressiya olunmuşdur. 1942-ci ilin aprel ayında Qırmızı Ordu sıralarından fərarilik etmiş, fərarilərdən 5 nəfərlik quldur dəstəsi yaratmışdı. Laçın və Kəlbəcər rayonlarında əməliyyat aparmışdır.

Ağakişiyev Nurəddin Xana oğlu 1907-ci ildə anadan olmuşdur, Zaqatala rayonunun Çökəkoba kənd sakinidir. Qolçomaq oğludur. Ölüm üstündə ittiham olunmuş, 10 il azadlıqdan məhrum edilmişdi. 1942-ci ilin fevralında orduya çağırılıb fərarilik edərək Zaqatala rayonunda quldur qruplarında fəaliyyət göstərmişdir.[1]

Naxçıvan MSSR-də dislokasiya olunan 402-ci atıcı Diviziyanın 960-cı artilleriya alayından fərari, 1912-ci il təvəllüdlü, Qubadlı rayonunun Klaç kənd sakini Zeynalov Həsən Həbib oğlu demişdi: "…Mən və mənim yoldaşım Rəhimov Bağırı fərariliyə sövq edən səbəb aşağıdakılar olmuşdur: 1942-ci ilin mart ayına kimi bizi yaxşı yedirirdilər, 50 qram çörək, günorta yeməyi və çay verirdilər. Komandanlığın döyüşçülərə münasibəti yaxşı idi. Mart ayında bizim hissə Naxçıvan MSSR-də yenidən dislokasiya olundu və eyni vaxtda artilleriya diviziyasının komandanlığını dəyişdilər, bundan sonra anbarda ərzağın bol olmasına baxmayaraq bizi pis yedirməyə başladılar. Bizim batareyanın komandiri kiçik leytenant Şabanovun münasibəti dözülməz olmağa başladı. Hər gün kiçik nöqsanlara görə bizi vurur və senzurasız sözlərlə təhqir edirdi. Şəksiz, fərarilik etmək birdən-birə başımıza gəlmədi. Mənim əhval-ruhiyyəmə kiçik komandir İlyas Səfiyevin təşviqatı güclü təsir etdi. 1942-ci ili aprelində İmişli rayonundan qısamüddətli ezamiyyədən qayıdandan sonra Səfiyev dedi ki, "Azərbaycanda bütün kişiləri cəbhəyə göndərmişlər, indi qadınları səfərbər edirlər. Kolxozçulardan heyvanları, ev əşyalarını alır və hərbi hissələrə verir, uşaqlar kənddə ac və nəzarətsiz qalırlar. Səfiyev mənə və başqalarına mənfi əhval-ruhiyyəli

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 145-146.

ordudan fərarilik etməyi məsləhət gördü, nəticədə martın 5-də biz 12 nəfər döyüşçü hissədən özbaşına qaçdıq”.[1]

1913-cü ildə anadan olmuş, Nuxa (Şəki) rayonunun Babaratma kənd sakini, Qusarda yerləşən 1039-cu atıcı alaydan fərarilik etmiş Abdullayev Yusif Rəsul oğlu bildirmişdi: “…Qoridə 106-cı atıcı alayda qulluq edən vaxt döyüşçü Asılov Yunis məni bütün günü dilə tuturdu ki, onunla qaçım, mən həmişə ona rəd cavabı verirdim. Fevral ayında 106-cı atıcı alaydan azərbaycanlıları 1039-cu alaya keçirdilər. Burada bizimlə çox kobud davranır, təhqir edir, ərzaq normasını oğurlayırdılar. Bir dəfə çörək alanda çəkdim və müəyyənləşdirdim ki, 600 qram əvəzinə mənə 400 qram vermişlər. Bizim bölüyün starşinası Kərimov, döyüşçülər Səmədov, Məhərrəmov, Salamov və b. məni vurdular. Bölüyün siyasi hissə rəhbəri Nağıyevə şikayət etdim. O, cavab verdi: böyük yoldaşlar vura bilərlər, ancaq şikayət etmək olmaz. Starşina Kərimov tez-tez öz həmkəndlisi, əsgər Quliyev Səfər Qulu oğlu vasitəsi ilə bizim normadan oğurlayaraq çörək, sabun, kişmiş və b. ərzaqları satırdı. Bundan sonra mən və bölüyün bir neçə döyüşçüsü Asılovun danışıqlarına uyaraq qrup halında qaçdıq”.[2]

1942-ci il may ayının 21-də Xaçmaz rayonunun Çarxı stansiyasında dislokasiya olunan 47-ci əlahiddə mühəndis batalyonundan dəstə halında fərarilik baş verir. Qaçanlar özləri ilə 5 tüfəng, patron və mərmi götürürlər. 3 saatlıq atışmadan sonra Qonaqkənd rayonunda Azərbaycan SSR XDİK əməliyyat qrupu fərariləri saxlayır və silahsızlaşdırır.[3] İstintaqla müəyyən olunur ki, qrupun qaçmasının təşkilatçısı Əliyev Göyüş Cəfər oğludur. 1906-cı ildə Tərtər rayonunun Evoğlu kənd sakini olan G.Əliyevin bir qardaşı Əliyev İsmayıl Cəfər oğlu əks-inqilabi fəaliyyət üstündə XDİK tərəfindən repressiya olunmuş, ikinci qardaşı Əliyev Əli Cəfər oğlu 1941-ci ildə Cənubi Qafqaz Hərbi Tribunalı tərəfindən fərariliyə görə güllələnməyə məhkum edilmişdir. Qrupun üzvləri dindirilmə zamanı göstərmişlər ki, Əliyev Göyüş bir neçə gün ərzində onları fərariliyə sövq etmişdir. Onlardan biri Məmməd İbrahimovdan “nə üçün düşmən təşviqatına uydun?” sualına cavabda demişdi: Voloqda, “…Xahiş edirəm mənə inanın…mən orduya böhtan atmıram. Mən Göyüş Əliyevin dilə tutmasına inandım və fərarilik etdim, buna səbəb isə hissədə bölük komandiri leytenant **Lapataşvil**i və digər rəhbər şəxslərin yaratdığı dözülməz şəraitin olmasıdır. 600 qram əvəzinə bizə 300-350 qram çörək, günorta yeməyi əvəzinə hansısa yağsız bulanıq bir şey verirdilər. Yalnız alay komandiri hissəyə gələndə yaxşı nahar və tam çörək norması verilirdi. Bununla yanaşı biz eşitmişdik ki, bizim alayın digər bölüklərində döyüşçüləri yaxşı yedirirlər”.[4]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 147-148.
[2] Yenə orada, vərəq – 148.
[3] Yenə orada.
[4] Yenə orada, vərəq – 148-149.

1942-ci il iyunun 3-də Qubada dislokasiya olunan 223-cü atıcı Diviziyada alay məktəbindən kiçik komandirlərin buraxılışından sonra bu məktəbi qurtaran bölük baş çavuşu Əhmədov Məcid Sarı oğlu və taqım komandirinin müavininin köməkçisi Abbasov Abbas Abuzər oğlu ilə 6 komandir qrup halında qaçır. Onlardan biri Kazım Mustafayev atışma zamanı öldürülür[1]. İstintaq müəyyənləşdirir ki, qrupun iştirakçısı, fərari, Gəncə şəhər sakini Əliyev Cəlal Fərzalı oğlu alay məktəbində təşviqatçı vəzifəsini yerinə yetirərkən vəziyyətdən istifadə edərək təslimçilik xarakterli antisovet təşviqatı aparmış, dinləyiciləri fərarilik etməyə dilə tutmuşdur. Araşdırma zamanı aydınlaşmışdı ki, qrupun başçısı Əhmədov Məcid "Bayram uşağı" adlanan qolçomaq nəslindən çıxmış, onun bir neçə qohumu XDİK tərəfindən repressiya olunmuş, onlardan biri məşhur siyasi quldur başçısı Məmməd Qasım Samuxovski Türkiyəyə emiqrasiya etmişdir.

223-cü atıcı Diviziyanın 1-ci tank əleyhinə batareyasının keçmiş döyüşçüsü, Xaçmaz rayonunun Ağasıqıroba kənd sakini Ağababayev Abbas Əli Bəşir oğlu fərarilik üstündə məsuliyyət cəlb olunanda göstərmişdi ki, o və qrupun digər döyüşçüləri starşina Ələkbərov tərəfindən uzun müddət ərzində qaçmağa hazırlaşdırılmış, qaçışın bir neçə variantı düşünülmüşdür[2]. İyulun 4-də gecə Ələkbərov 4 hazırlanmış döyüşçü və Ağababyevlə birgə qaçmışlar. Ələkbərov özü ilə yarımavtomat tüfəngini götürmüşdü. Qaçanların hamısı saxlanılmışdır. **Göstərilən faktlar deməyə əsas verir ki, hərbi hissələrin komandirləri və xüsusi adamlar bu cür biabırçı faktlara qarşı lazımı iş aparmamışlar, döyüşçülərə münasibət, qidalanma, digər millətlərə qarşı ayrı-seçkiliyə dair çoxsaylı məlumatlar xüsusi şöbələrə, hərbi hissə komandirlərinə daxil olsa da, nə onlar, nə də hərbi prokurorluq orqanları əməli iş görməmişlər**. Araşdırmalar göstərir ki, xüsusi şöbə və hərbi hissə komandirləri bəzi hallarda hərbi qulluqçuları fərari elan edir, ancaq həqiqətdə onlar fərari olmamışlar. Belə hallar fərariliklə mübarizəni çətinləşdirir, əksinə Sədaqətli döyüşçülərin günahlandırılması, xüsusən vətən qarşısında onların ifşa olunması həm ön, həm də arxa cəbhədə inamsızlıq yaradırdı.

Fərariliyə qarşı müharibə zamanı aparılan mübarizənin yekunları göstərdi ki, hissə komandanlıqları, o cümlədən Cənubi Qafqaz Cəbhəsi ərazisində dislokasiya olunmuş müvafiq "Smerş" əks-kəşfiyyat aparatı tez-tez fərarilik edən hərbi qulluqçular haqqında bildiriş göndərməmişlər. 1944-cü ilin may ayında respublika üzrə 243 nəfər saxlanılmışdı ki, onlardan 189 nəfəri, yaxud 77 faizi axtarış tələbi olmayanlardır. İyun ayında 215 nəfər saxlanılmış, onlardan 163 nəfəri, yaxud 75 faizi, iyul ayında 212 nəfər saxlanılmış, onlardan 156 nəfəri, yaxud 73 faizini axtarış tələb olmayanlar təş-

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 149-150.
[2] Yenə orada, vərəq – 150.

kil edirdi. Başqa sözlə, buradan yalnız ordudan fərarilik edən 25 faiz hərbi qulluqçu üçün hərbi hissə axtarış sifarişi verdiyi məlum olur.[1]

"Ordudan fərarilik etmiş hərbi qulluqçuların axtarışının təşkilində nöqsanlar haqqında" XDİK-nın Azərbaycan K(b)P MK-ya göndərdiyi 21 avqust 1944-cü il tarixli arayışında[2] bildirilirdi ki, 1943-cü ilin fevralında Yardımlı rayonundan olan Həsənov Rəşid Cəbrayıl oğlu hissədən fərarilik edir. Həmin ilin iyul ayında o, tutulmuş və Hərbi Tribunalın qərarı ilə cərimə hissəsinə göndərilmiş, orada zəif nəzarətin nəticəsində 21 noyabr 1943-cü ildə o, ikinci dəfə fərarilik etmişdir. Tezliklə tutulan R.Həsənov 1944-cü ilin fevralında respublika hərbi komissarlığından yolda üçüncü dəfə qaçır, fevralın 23-də yenə tutulur və Hərbi Tribunalın hökmü ilə 10 il azadlıqdan məhrum edilərək cəbhəyə göndərilir, yolda 4-cü dəfə qaçır. 1944-cü ilin iyul ayında yenidən tutulan R.Həsənov üçüncü dəfə hərbi tribunalda məhkəməyə verilir. Maraqlıdır ki, R.Həsənov 4 dəfə fərarilik etməsinə baxmayaraq bir dəfə də olsa ona axtarış tələbi verilməmişdi.[3]

1942-ci ilin oktyabrında 683 №-li atıcı Alaydan Qusar rayonundan olan Şərifov Mirzəbala Ağabala oğlu fərarilik edir. 1944-cü ilin iyun ayında öz qardaşı ilə birlikdə Qusar rayonuna Dağıstan ərazisindən kolxozçuların ev əşyalarını və mal-qarasını oğurlayıb gətirir və iyunda saxlanılır.

1944-cü ilin mayında Ağstafa rayonu ərazisində dislokasiya olunmuş avtoparkdan 2 döyüşçü fərarilik edir. Mayın 10-da onlar Yevlax rayonunun Cırdax meşəsində görünür və "Qırmızı Oktyabr" kolxozunun ferma müdiri Səfiyevə hissədən oğurlanmış "PPŞ" avtomatı satmağa cəhd edirlər. Səfiyev saxlanılsa da, digəri gizlənməyə müvəffəq olur. 1941-ci ilin oktyabrında 708-ci atıcı Alaydan Bahadır Xəlilov fərarilik edir. O, Gəncə şəhərindən 15 min rubla saxta sənəd əldə edərək 1944-cü ilin mayından Gəncə şəhərindəki Toxucu Kombinatında pambıq sexində rəis işləyir.

1944-cü ilin martında Tbilisi şəhərindəki 372 №-li Təxliyə Hospitalında müalicə olunan xəstə Sisiyan Yeqiş Əmirxanoviç sağalaraq buraxılır və hissəyə göndəriş verilir. Y.Ə.Sisiyan yolda fərarilik edir, 6 aylıq saxta arayış əldə edir və 1944-cü il mayın 26-dək Xanlar rayonunun Çaykənd kəndində yaşayır. 1944-cü ilin mayında Xanlar rayonunda əməliyyat aparılarkən fərari qrupunun üzvlərindən olan Əsgərov Yunis Ağakişi oğlu 1944-cü ilin mayında həbs olunur və Gürcüstanın Avçalı şəhərindəki cərimə hissəsinə göndərilir. Y.Əsgərov özünün həmkəndlisi Yusibov Mustafa Mehralı oğlu ilə iyunun 22-də ikinci dəfə fərarilik edir və hər ikisi iyulun 12-də hüquq mühafizə orqanları tərəfindən saxlanılırlar.

1943-cü ilin iyulunda XDİK Qazax rayon şöbəsi Ələsgər Bənnayevi saxlayır və cərimə batalyonuna göndərilir. Cəbhəyə gedən yolda Bənnayev

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №140, vərəq – 76.
[2] Yenə orada, vərəq – 76-78.
[3] Yenə orada, vərəq – 76-77.

ikinci dəfə fərarilik edir və saxta sənədlə Cənubi Qafqaz dəmiryolunda işə düzəlir. Bənnayev 1944-cü il iyulun 6-da həbs olunur.[1]

Nuxa (Şəki – red.) rayonunun Biləcik kənd sakini Məmmədov Məmməd Əli oğlu 1943-cü ilin martında ordudan fərarilik edərək kəndinə gəlir. Dayısı Kərimov Məmmədəlinin ov tüfəngi ilə silahlanaraq qarətlə məşğul olur. 1944-cü ilin mayında Kərimov Məmmədəli Qax rayonunda qarət zamanı öldürülür, fərari Məmmədov Məmmədəli Nuxa (Şəki – red.) milis işçiləri tərəfindən yaralı halda saxlanılır.

1942-ci ilin 20 avqustunadək Azərbaycan SSR rayonlarından, həmçinin Bakı və onun rayonlarından olan 5.055 nəfər fərarilik etmişdir. Onlardan 4.133 nəfəri saxlanılmışdır. 1942-ci ilin avqust ayının 20-nə olan məlumata görə Hərbi Tribunal Azərbaycan SSR-in 186 nəfər vətəndaşına vətən xaini kimi hökm çıxarmışdır.[2]

1944-cü il oktyabr-noyabr ayları ərzində XDİK-nın Tovuz rayon şöbəsi ordudan fərarilik etmiş, müxtəlif təxliyə hospitalları adından xəstəlik haqqında sənədlərlə təchiz olunmuş və bu sənədlər əsasında Tovuz rayon Həkim Komissiyasından hərbi xidmətə yararsız olması haqqında şəhadətnamə almış bir neçə nəfər həbs olunur. Müəyyən edilir ki, böyük pul müqabilində (15-20 min rubl) indiki Gəncə Tədarük Kontorunda müdir müavini işləmiş Əliyev Salman Hacı Əhməd oğlu vasitəsilə almışlar. Saxta sənədlər satan 12 nəfər müəyyənləşdirilmişdi. Müəyyən edilmişdi ki, 1915-ci il təvəllüdlü, ÜİK(b)P üzvü, Tovuz rayonunun Aşağı Əyyublu kənd məktəbinin müəllimi Əliyev Əli Molla Hüseyn oğlu, 1926-cı il təvəllüdlü, bitərəf, Şəmkir rayonu, Düyərli kəndində məktəb müəllimi Əliyev Teymur Əli oğlu və 1918-ci il təvəllüdlü, ÜİK(b)P üzvü, Tovuz rayonunda mühasib işləyən Abbasov Əli Abbas oğlu saxta fərarilik sənədləri satmışlar. Tovuz rayonunda fabrik üsulu ilə hazırlanmış saxta sənədlərlə təchiz olunmuş 37 nəfər aşkar olunmuşdur. Onlardan 11 nəfəri rayonun Aşağı Ayıblı kəndindəndir. Digər rayonlarda Şəmkir, Gədəbəy, Gəncə 10 nəfər fərari həbs olunmuşdur. Ümumilikdə iş üzrə 15 nəfər həbs edilmişdir.[3]

Əhalinin müdafiə hüdudlarının tikintisinə səfərbərliyi sahəsində düşmən fəaliyyəti

Cənubi Qafqazın müdafiə olunması planı hələ dinc quruculuq illərindən mövcud idi. Türkiyənin İrandan Bakıya hücum etməsi ehtimalına qarşı atıcı diviziyası və tank briqadası ilə möhkəmləndirilmiş 15-ci süvari korpus saxlanırdı. 1941-ci ilin axırlarına yaxın almanlar Rostovu tutandan və Qafqaza soxulmaq üçün göstərdikləri ilk cəhddən sonra Cənubi Qafqazı nəinki təkcə Türkiyə istiqamətindən, həm də Şimal tərəfdən müdafiə etmək zərurəti meydana çıxdığından plan əsaslı sürətdə dəyişdi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №140, vərəq – 77.
[2] Yenə orada, vərəq – 139.
[3] Yenə orada, vərəq – 11.

Dövlət Müdafiə Komitəsi Mahaçqala-Dərbənd və Bakı rayonlarında yerli əhali arasından hər gün 90 min nəfərin müdafiə xətti tikintisinə səfərbərliyə alınması haqqında sentyabrın 16-da xüsusi qərar qəbul etdi. Bundan sonra Qafqazın müdafiəsi işi daha da sürətləndi. Cəbhənin respublika sərhədlərinə yaxınlaşması ilə əlaqədar olaraq Cənubi Qafqaz Cəbhəsi Hərbi Şurası Bakı ətrafında müdafiə mövqelərinin yaradılması haqqında qərar çıxardı. Qərara əsasən 1941-ci ilin sentyabrında Şimal istiqamətində 10 müdafiə tikintisi təşkil edildi. Tikinti üçün 160 yük maşını, 300 qaynaq aparatı, 55 traktor, 18 ekskovator, 8 səyyar elektrik stansiyası, 7 müxtəlif kompressor, 25.000 bel, külüng və başqa alətlər ayrıldı.[1]

Əhali tankların keçməsinə maneçilik üçün müdafiə xətti tikintisinə cəlb edildi. Qısa müddətdə 16.841 maneə yaradıldı, 100 km-ə yaxın dərin xəndəklər qazıldı. Müdafiə tikintilərində 16.721 kişi, 23.906 qadın iştirak etdi.[2]

Azərbaycan SSR XDİK-nın müavini, dövlət təhlükəsizlik baş xidmətinin mayoru Yemelyanovun Azərbaycan K(b)P MK-ya ünvanladığı "Müdafiə hüdudlarının (zonalarının) tikintisi vəziyyəti haqqında" 26 oktyabr 1942-ci il tarixli arayışından[3] məlum olur ki, XDİK-nın topladığı materiallara əsasən Bakı şəhəri ətrafında müdafiə tikintilərinin hüdudları plansız, lazımı texniki nəzarət olmadan özbaşına davam edir və yaranmış vəziyyət həyəcan doğurur. Hərbi hissələrin nümayəndələri, tikintinin rəhbərləri və sahə rəisləri texniki sənədlərsiz işlədiyindən lazımı sayda müdafiə nöqtələrinin tikintisi müəyyən olunmuş müddətdə başa çatdırılmır. Milliyyətcə erməni olan Gevorkovun sahə rəisi olduğu Nasosnu (indiki Hacı Zeynalabdin Tağıyev qəsəbəsi – red.) stansiyasındakı birinci qurğuda kobud nöqsanlar aşkarlanmışdı. Ordu tərəfindən nümayəndə, eyni zamanda tikintinin 41 №-li və 57 №-li nöqtəsinin rəhbəri, hərbi texnik Kirsanov qeyd olunan nöqtədə tikintinin düzgün aparılmadığını və tezliklə düzəldilməsi üçün tədbirlər görülməli olduğunu təsdiqləmişdi.

Eyni nöqsanlara Hacı Zeynalabdin Tağıyev qəsəbəsi (Nasosnu) və Sumqayıt şəhərindəki tikinti hüdudlarında da yol verilirdi. 1942-ci il oktyabrın 6-da axşam iş icraçısı Kotelnikov 1 №-li sahədə nöqtənin düzgün qoyulmadığını bildirmişdi. Aydınlaşdırılmışdı ki, planda və torpaqda nöqtəni müəyyənləşdirən ordunun hərbi-səhra tikinti idarəsinin nümayəndəsi Antonovun işi şübhəli olmuş, onun hərəkətlərində sovet hökumətinə və ölkənin müdafiəsinə dair kobud antisovet uydurmalar vardır. Hərbi idarələrin bəzi nümayəndələri nəinki özləri işləmir, həm də özlərinin ləyaqətsiz hərəkətləri ilə ətrafdakılara təsir edirlər.[4]

---

[1] Azərbaycan tarixi ,7 cilddə, 7-ci cild. Bakı, 2003. – s.16.
[2] ARPİİSSA, Fond №1, siyahı №280, iş №5, vərəq – 116.
[3] Yenə orada, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq –237-239.
[4] Yenə orada, vərəq – 237.

Soyuqların düşməsi və yağışlı havanın başlanması ilə kütləvi dizenteriya xəstəliyinin artması, qidalanmanın pis təşkili və mənzil-məişət şəraitinin ağırlığı ölüm halları ilə müşahidə olunurdu. Sentyabr ayında kəskin dizenteriya xəstəliyi nəticəsində Lenin düşərgəsində fəhlələr Mameroviç və Şəmsəddinov, Sanqaçal rayonunda V.D.Silvanov ölmüşlər.[1] Cəngi kəndindəki 3 №-li Düşərgənin 5-ci şöbəsində 4-cü taqımın 5-ci bölüyünün işçisi Qlemştadt Samuil Qriqoryeviç vaxtında kömək göstərilməməsi səbəbli yolda keçinmiş, Brazyutkina Ralina və Hüsenyov ağır vəziyyətə düşmüşlər. Bakı şəhəri Çaparidze rayonunun sakinlərinin işlədiyi Sanqaçal rayonundakı xüsusi tikintidə iş şəraitinin ağırlığı və tibbi yardımın düzgün təşkil olunmaması səbəbindən xəstəlik halları kəskin artmışdı.

Düşərgənin komissarı Hacıyev fəhlələrə qarşı özünün kobud aparır, su və yemək vaxtında gətirilmirdi. Bu səbəbdən də, fəhlələr arasında antisovet mülahizələr yaranırdı. Dövlət tikintisinin işçisi, Xamanurdiyev demişdi: "**Bu katorqadan pisdir, onlar (kimlər-sovet rəhbərləri nəzərdə tutulur – M.Ə.) fəhlələr arasında narazılıq yaratmaq məqsədilə bunu edirlər. Xüsusi tikintidə hər gün olan Azərbaycan K(b)P MK-nın ayrı-ayrı katibləri bu özbaşınalığı müşahidə etsələr də, tədbir görmürlər**". Müşavirələrin birində Oktyabr Rayon İcraiyyə Komitəsinin sədri Hüseynov iş şəraitinin ağırlığı haqqında səslənən ədalətli iradla əlaqədar: "Sizin uşaqlar və qocalar mənim nəyimə lazımdır. Mənim sizi güllələməyə başladığımı gözləyin, indi hərbi vaxtdır və mən sizinlə hesablaşacağam" demişdi.[2]

1944-cü ilin iyul ayında Bakı şəhərində əhalinin müdafiə sənayesinə səfərbərliyi ilə əlaqədar düşmən fəaliyyəti ilə məşğul olan qrup həbs olunur. İstintaq materialları ilə müəyyənləşir ki, Bakı şəhər İcraiyyə Komitəsi, bəzi rayon icraiyyə komitələri və İctimai Təminat Xalq Komissarlığı rəhbər işçilərinin sayıqlığını itirməsi nəticəsində düşmən elementlər Bakı şəhər Fəhlə Qüvvəsinin Qeydiyyatı və Bölgüsü Bürosu aparatında, Azərbaycan SSR İctimai Təminat Xalq Komissarlığı sistemində, Həkim Əmək Ekspert (bundan sonra HƏEK) Komissiyası və Bakı şəhər İcraiyyə Komitəsi ictimai təminat aparatında yuva qurmuş, 1943-1944-cü illər ərzində pul müqabilində saxta sənədlərlə yüzlərlə şəxs səfərbərlikdən azad edilmiş, "əlillik" dərəcəsi alan şəxslər hər ay dövlətdən yardım almışlar.[3] Sənədlərin təhlili göstərir ki, bəzi hallarda sağlam və əmək qabiliyyətli vətəndaşlar cinayət yolu ilə səfərbərlikdən azad edilir, onların yerinə əmək qabiliyyəti olmayan şəxslər və çoxuşaqlı cəbhəçi ailəsi səfərbər olunurdu.

İstintaq zamanı aydın olur ki, adları sadalanan təşkilatlarda qeydiyyat və hesabatda xaos hökm sürür, dövlət möhürü, ştampı, blanklar və digər sənədlərin saxlanılmasına cinayətkarcasına məsuliyyətsizlik göstərilir. Bəzi

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 38.
[2] Yenə orada, vərəq – 239.
[3] Yenə orada, vərəq – 67.

rayon icraiyyə komitələrinin, İctimai Təminat Xalq Komissarları tərəfindən qeyd edilən aparatların işinə rəhbərlik qeyri-qənaətbəxşdir.

Arxiv sənədlərinin araşdırılması göstərdi ki, 1944-cü ilin avqust ayınadək İctimai Təminat Xalq Komissarlığı HƏEK-ə Bakı Şəhər İcraiyyə Komitəsindən rəhbərlik edənlərin qohumlarının əksəriyyəti əks-inqilabi fəaliyyətdə ittiham olunan[1] keçmiş Qarabağ bəyinin oğlu Qalabəyov Zavid Aşurbəy oğlu istintaqda bildirmişdi ki, Bakı Şəhər İcraiyyə Komitəsində qulluqda olarkən düşmən əhval-ruhiyyəli qruplarla əlaqədə olmuş, HƏEK-nın həkimi Dadaşovu əlillik haqqında saxta sənədlər verməyə məcbur etmişdir.

Z.Qalabəyovla birgə qrupun həbs olunan 18 nəfər üzvü arasında Azərbaycan SSR XKS yanında əhalinin qeydiyyatı və səfərbərliyi müttəfiqi, bitərəf Smirnova Nina Nikolayevna da vardı. N.Smirnova cinayət etdiyini və günahkar olduğunu istintaqda etiraf edərək bildirmişdi ki, „o, şüurlu surətdə qeyri-qanuni olaraq böyük pul mükafatı müqabilində qadınları səfərbərlikdən azad edirdi".[2] Araşdırmalar zamanı məlum oldu ki, 1943-1944-cü illər ərzində qrupun tərkibinə həm mərkəzi, həm də rayon həkim Əmək Ekspert Komissiyası cəlb olunmuş, qrupun cinayətkar fəaliyyəti genişlənmişdi.

1944-cü ilin fevralında həbs olunan N.Q.Voroşilova 5.000 rubl, E.M.Maskina 1.500 rubl, Anastasiya Markina 3.000 rubl, Olqa Pobednaya qızıl saat müqabilində səfərbərlikdən azad olunmuşlar. N.Voroşilovanın sözlərinə görə Bakıda saxta sənəd verən cinayətkar qrup fəaliyyət göstərirdi. Həbs olunan F.D.Kazimirov təsdiq etmişdir ki, o şəxsən Smirnovanın anası Kaplanovaya 2-ci qrup əlillik üçün 20 min rubl vermişdir.[3]

Adları qeyd olunanlardan başqa Bakı Şəhər İcraiyyə Komitəsi İctimai Təminat Şöbəsinin Mərkəzi Həkim-Ekspert Komissiyasının sədri Dadaşov Həsənəli Abbas oğlu, N.Smironovanın anası, evdar qadın Kaplanova Qalina Pavlovna, Kaplanovanın qızı, Azərbaycan Dövlət Estrada-Balet artisti Lidiya Nikolayevna Volobuyeva, Bakı Şəhər İcraiyyə Komitəsi Mərkəzi HƏEK-nın katibi Zinaida Mixaylova Leksutova, Mərkəzi Həkim-Əmək Ekspert Komissiyasının qeydiyyat müdiri Nikolay Vartanoviç Stepanyan, Bakı şəhəri Volodarski adına Fabrikin kadrlar şöbəsinin rəisi Həbib Həmid oğlu Axundov, məşğuliyyəti məlum olmayan Baqrat Nikolayeviç Xaçiyan, Bakıda keçmiş bina sahibi Qəzənfər Kəlbəcəfər Qulu oğlu Əliyev, HƏEK keçmiş təsərrüfat müdiri Əlimuxtar Mövsüm oğlu Cəfərov məsuliyyətə cəlb olunmuş, cinayətkar qrup daha 37 iştirakçısının həbs olunması nəzərdə tutulmuşdu.[4]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 68.
[2] Yenə orada, vərəq – 69.
[3] Yenə orada, vərəq – 70.
[4] Yenə orada, vərəq – 70-71.

Həbs olunan HƏEK-nın katibi Z.M.Leksutova və HƏEK təsərrüfat müdiri Əlimuxtar Cəfərov istintaqda boyunlarına almışlar ki, 1943-1944-cü illər ərzində onlar əlbir olaraq 25 nəfərə əlillik dərəcəsi haqqında saxta sənəd vermiş, bunun müqabilində ümumilikdə 30.000 rubl almışlar. Mərkəzi HƏEK-nın sədri, həbs olunmuş N.A.Dadaşov boynuna almışdır ki, onun özü böyük pul müqabilində çoxlu sayda şəxslərə əmək qabiliyyəti olmamaq dərəcəsi vermişdir. Qrupun həbs olunmuş digər iştirakçısı, Bakıda keçmiş bina sahibi Qəzənfər Əliyev təsdiq etmişdir ki, ictimai təminat orqanları əlillik haqqında saxta sənədlər almış şəxslərə dövlət təqaüdü vermişdir.

Sağlam və əmək qabiliyyətli əhalinin saxta yolla səfərbərlikdən azad olunması hallarına yol verilirdi. Həbs olunan Volodarski adına fabrikin kadrlar şöbəsinin rəisi H.Axundov göstərmişdi ki, "…Oktyabr Rayon İcraiyyə Komitəsi əri əlil və 2 yaşlı uşaqları olan vətəndaş Beqlyarovanı fabrikə göndərmişdir. Bir neçə gün ərzində Beqlyarova rayon İcraiyyə Komitəsinə onun səfərbər olunmasını yoxlamaq xahişi ilə müraciət etsə də, icraiyyə komitəsi onu eşitmək istəməmiş, yalnız rayon prokurorunun köməkçisi Osipovun işə müdaxiləsi nəticəsində onu sakit buraxmışdılar.

…Şəhər icraiyyə komitəsi cəbhəçi Venyaminovun kiçik yaşlı uşaqları olan arvadını səfərbər etmişdir. Onun səfərbərliyinin düzgün olmadığını göstərmək cəhdi nəticə vermişdir. Uşaqları evdə bağlı qapı arxasında saxlaya bilməyən Venyaminova onları fabrikə gətirmiş və XKS müraciət etmişdir, bundan sonra səfərbərlikdən azad edilmişdi".[1]

Göstərilən səbəblərdən 1944-cü ilin birinci yarısında respublika üzrə 6.530 nəfər plana qarşı sənayeyə 4.305 nəfər, kənd təsərrüfatı mövsümü işinə 77.500 nəfər əvəzinə 39.376 adam səfərbər olunmuşdu.

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 71-72.

XIV FƏSİL

İKİNCİ CƏBHƏNİN AÇILIŞI ƏTRAFINDA ANTİSOVET MÜLAHİZƏLƏR

1942-ci il Sovet qoşunlarının hərbi əməliyyatları ilə zəngin oldu. Moskva altında uğursuzluğa düçar olan alman-faşistlər Stalinqrad istiqamətində hücumlarını davam etdirsələr də, ilin ikinci yarısında Stalinqrad istiqamətində mövqelərini qoruyub saxlaya bilmədilər. Cəbhədəki vəziyyət müharibənin gedişində əsaslı dönüşün yaradılmasını tələb edirdi. Bunun üçün **ikinci cəbhənin açılması** yenidən gündəmə gəldi. Lakin müttəfiqlər tərəfindən ikinci cəbhənin açılmasının ləngidilməsi, sovet-alman cəbhəsində böyük miqdarda insan itkisi arxa cəbhədə müəyyən fikir ayrılıqlarına zəmin yaratdı. Bu dövrdə ən çox müzakirə olunan məsələ cəbhədə vəziyyət və ikinci cəbhənin açılması ətrafında olmuşdur.

"Kaqanoviçneft" Trestinin baş mühəndisinin köməkçisi, 1890-cı il təvəllüdlü, bitərəf Kolomentskiy Konstantin Andreyeviç bildirmişdi: "…İkinci cəbhənin açılışı tamamilə həll olunmuşdur, bunu biz İngiltərə və Amerika rəhbərlərinin çıxışından görürük. Onlar rus xalqının və onun rəhbərinin şəxsində həqiqi müttəfiqini görür, sülh və ədalət uğrunda mübarizəyə sonadək hazırdırlar".[1]



İkinci cəbhənin açılması. 1944-cü il 6 iyun

"Qırmızı Ulduz" DRES-də elektrik sexinin ustası, 1900-cü il təvəllüdlü, bitərəf Trişin Pavel Nikolayeviç fəhlələrin ərzaq məhsulları ilə təchizatı mövzusunda söhbətdə demişdi: "Müharibənin sonunadək döyüşmək üçün bizi kifayət qədər təmin edirlər. 1919-cu ildə bundan da pis idi, biz qalib çıxdıq".[2]

"Azərneftlayihə" Trestinin mühəndisi, 1904-cü il təvəllüdlü, bitərəf Lupov Konstantin Nikolayeviç aşağıdakıları söyləmişdi: "…Son vaxtlarda Almaniya 6 dəfə sülh təklifi ilə İngiltərəyə və Amerikaya müraciət etmişdir. Hərbi əməliyyatlar onlar üçün bir başa sərfəli olsa da, razılaşmamışlar. Bu

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 365.
[2] Yenə orada, vərəq – 366.

faşizmlə ciddi hesablaşmada müttəfiqlərin qərarlılığını göstərir. Sovet qoşunlarının sonuncu müvəffəqiyyətsizliyinə baxmayaraq ordumuz möhkəmdir və nüfuzunu qoruyub saxlayır. Bizim xalqımız Stalinə sadiqdir, başqa necə ola bilər. 1941-ci ilin dekabrında bizim qoşunlar əks-hücuma keçəndə o, ön xətdə olmuş və döyüşçüləri həvəsləndirmişdir". Eyni fikirləri "Krasin" adına DRES-in mühəndisi, 1892-ci il təvəllüdlü, bitərəf Alaxverdov Aleksandr Pavloviç də səsləndirərək müttəfiqlərlə əlaqədar mövzuda söhbətdə müttəfiqlərin fəaliyyətindən narazılıq etmiş, sovet qoşunlarının almanlarla sonadək vuruşduqlarına əmin olduğunu bildirmişdi. İkinci cəbhənin açılmasını ciddi məsələ hesab edən A.P.Alaxverdov bu əməliyyatın məxfi saxlanmasına tərəfdar olduğunu ifadə edərək, düşmənin hücumunun cənubda dayandırılmasını, ordunun neftlə təmin edilməsinin əsas vəzifə olduğunu vurğulamışdır.

Oxşar fikirləri "Azərnefttəchizat" Trestinin mühəndisi, 1911-ci il təvəllüdlü, bitərəf Bluşteyn Mira Yefimovna və 1897-ci il təvəllüdlü, bitərəf, "Azərlayihə" Trestinin mühəndisi, Fadayev Aleksandr İosifoviç cəbhədə vəziyyət müzakirə olunan zaman söyləmişlər.[1]

Yuxarıda söylənilən müsbət fikirlərlə yanaşı mühəndis-texniki işçilərin əhval-ruhiyyəsində **düşkünlük və passivlik müşahidə olunmuşdur**. Mühəndis-texniki işçilər **ikinci cəbhənin açılmasına** münasibətdə vahid fikirdə olmamış, cəbhənin açılacağına inamsızlıq ifadə etmişlər. Məsələn, "Neftzavod" Trestinin plan şöbəsinin rəis müavini, 1903-cü il təvəllüdlü, bitərəf Lenskiy Mixail Yevgenyeviç, həmin trestin mühəndisi, 1898-ci ildə anadan olmuş, bitərəf Leviçev Ruvim Abramoviç bildirmişlər ki, ikinci cəbhənin açılmasını gözləmək mənasızdır. Bizim müttəfiqlərin məqsədi tamamilə aydındır, onlar çalışırlar ki, bizim ölkəmiz zəifləsin. Aydındır ki, bizim müstəqilliyimizin məsələsi həll olunur.[2]

"Azərnefttəchizat" Trestinin böyük mühəndisi, 1882-ci il təvəllüdlü Kornev Noy Abramoviç Stalinlə Çörçil arasındakı danışıqlara toxunaraq bildirmişdi:

"…Şəxsən bu mənim üçün növbəti savadsız yazılmış kağızdır. Burada Böyük Pyotrun sözlərini xatırlatmaq yerinə düşər: Vaxtı itirmək ölüm kimidir. Mən ingilislərin və amerikalıların köməyinə inanmıram. Yeganə ümid-bizim gücümüzdür. Son vaxtlarda Qızıl Ordu böyük ərazini güzəştə getdi və onlara ciddi müqavimət göstərmədi".[3]

"Azərneftlayihə" Trestinin baş layihəçisi, 1910-cu il təvəllüdlü, ÜİK(b)P üzvü Melnikov Leon Arsentyeviç demişdi: "İkinci cəbhə yalana

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq, – 365-367.
[2] Yenə orada, vərəq – 391.
[3] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 367.

çevrildi və indi o heç nəyə kömək etməyəcək. Bütün danışıqlar boş vaxt itirməkdir. İndi daha xeyirlisi texnika və silahla kömək vacibdir".[1]

"Kaqanoviçneft" Trestinin mühəndisi, 1905-ci il təvəllüdlü, bitərəf Mənsurov Əbdül Xaliq oğlu söyləmişdi ki, yalnız möcüzə bizi almanlardan xilas edə bilər, ancaq möcüzə xüsusən təyyarə və tanklarla müharibə aparıldıqda nadir hallarda baş verir.[2] "Bizim hökumət almanlarla müharibəyə qədər kobud səhvlər buraxdı, zorla kolxoz yaratdı. Bu ona gətirib çıxardı ki, indi həm ordu, həm də xalq acdır. İndi heç kim, xüsusən aclıqdan ölənlər sovet hakimiyyəti uğrunda ölmək istəmir. Bizimkilər cəbhədən qaçır və müqavimət göstərmirlər, zənnimcə bundan sonra almanların hücumunun qarşısını almaq çətin olacaq". Bu sözləri "Oktyabr inqilabı" adına zavodun mühəndisi, 1903-cü il təvəllüdlü, ÜİK (b)P üzvü Omelçenko Qriqori Nikolayeviç bildirmişdi. Buna oxşar fikirlər Andreyev adına zavodun mühəndisi, 1971-ci təvəllüdlü, bitərəf Sarkisov Konstantin Martınoviç cəbhədəki hadisələrə toxunarkən söyləmiş və demişdi: "…Bizim rəhbərlərdə düşməni ləngitməyə və darmadağın etməyə əminlik yoxdur…İkinci cəbhəni açmaq yolu ilə İngiltərə və Amerika tərəfindən kömək haqında danışmaq yersizdir, bu yol danışıqlar olaraq qalacaqdır".[3]

Cəbhədəki vəziyyət mövzusundakı söhbətlərdə "Kaşqanoviçneft" Trestinin kompressor təsərrüfatının rəisi Cavaxiya David İvanoviç, "Leninneft" trestinin 13-cü mədəninin böyük geoloqu, 1909-cu il təvəllüdlü Şıxıyev İrza Şirinoviç, Çaparidze adına zavodun 2 №-li sexinin böyük mühəndisi, 1902-ci il təvəllüdlü, ÜİK(b)P üzvü, Salmin İvan Mixayloviç, "Stalinneft" Trestinin 1-ci Mədəninin mexaniki, 1887-ci il təvəllüdlü, bitərəf Rıbakov Andrey Konstantinoviç müqavimətin əhəmiyyətsiz olmasını, insanların aclıqdan əziyyət çəkməsini irəli sürərək məğlubiyyətin qaçılmaz olduğunu ifadə etmişlər.[4]

"Azneftkombiat"ın Mədən Yolları İdarəsinin istehsalat sexinin şöbə rəisi, 1902-ci il təvəllüdlü, bitərəf Panasyan Mesrop Georgiyeviç söhbətdə **ikinci cəbhənin açılması** məsələsinə toxunaraq demişdi ki, "ikinci cəbhə haqqında çox danışırlar. İctimai rəyi bu yüksəkliyə qaldırmaq nəyə lazımdır. İkinci cəbhə haqqında danışıqlara üstünlük nə verəcək, bu boş işdir-məsələ belədir".[5]

Krasin adına DRES-in elektrik sexinin rəis müavini, 1909-cu ildə anadan olmuş, bitərəf Kijayev Pyotr Dmitriyeviç aşağıdakıları söyləmişdir: "Əslində…Stalinin amerikan müxbirinin sualına cavabı bir başa amerikan və ingilis xalqlarına bu ölkələrin hökumətlərinin başı üstündən müraciətdir. Görünür, yoldaş Stalinin İngiltərə və Amerika rəhbərləri ilə ikinci cəbhə

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq, – 354.
[2] Yenə orada, vərəq – 367-368.
[3] Yenə orada, vərəq – 368.
[4] Yenə orada, vərəq – 368-369.
[5] Yenə orada, vərəq – 422.

məsələsini razılaşdırması mümkün olmayacaq. Türkiyə tərəfindən də qorxu vardır. Onlar qoşunlarını bizim sərhədlərimizdə cəmləşdirirlər. Bu hərəkət onu göstərir ki, SSRİ ilə İngiltərə arasında birlik yoxdur, parçalanma hiss olunur". "Kirovneft" Trestinin hasilat şöbəsinin böyük mühəndisi, 1904-cü il təvəllüdlü, bitərəf Stukalo Lev Markoviç bildirmişdi ki, "Sovet hökuməti çox güclü deyil ki, faşizmə qalib gəlsin, müttəfiqlərin köməyi də kifayət qədər deyil. Bu Stalinin cavabından görünür":[1] "Heç bir ikinci cəbhə olmayacaq, əgər İngiltərə və Amerika ikinci cəbhəni açsalar, təkcə Almaniya üçün deyil, həm də Sovet İttifaqına qarşı olacaq. Onların məqsədi uzun müddətli müharibə ilə nəinki SSRİ-nin, həm də Almaniyanın qüvvələrini tükətməkdir. Bu onlar üçün sərfəlidir, onlar buna nail olacaqlar". Bu sözləri "Azneftkombinat"ın böyük mühəndisi, 1882-ci il təvəllüdlü Şahnazarov Dmitri İosifoviç səsləndirmişdi.[2] Həmin kombinatın plan şöbəsinin mühəndisi, 1882-ci il təvəllüdlü Konev Noy Abramoviç söhbətdə bildirmişdi ki, son vaxtlarda bizim vəziyyətimiz pisləşmişdir və görünür daha gərgin olacaq. Almanlar artıq Volqanı yarmışlar, bu o deməkdir ki, Volqada məqsədlərinə nail olacaqlar. Qırmızı Ordu lazımı müqavimət göstərmir, …mən müttəfiqlərin köməyinə inanmıram, onlar həmişə dövlət hakimiyyətinə qarşı vuruşmuşlar və ola bilməz ki, kommunizmə öz münasibətlərini belə tez dəyişsinlər.

"Kirovneft" Trestinin 2 №-li mədəninin texniki, 1916-cı ildə anadan olmuş, bitərəf Sultanov İdris Hacıməmməd oğlu, "Proletarskiy molot" zavodunun baş ustası, bitərəf Xarin Vasiliy Lavrentiyeviç, "Kaqanoviçneft" trestinin kompressor təsərrüfatının mexaniki, 1895-ci il təvəllüdlü Anin Sergey Petroviç, Stalin adına Zavodun Texniki Təlim şöbəsinin rəisi, 1900-cü il təvəllüdlü, bitərəf Markov Vasiliy Pavloviç,[3] həmin zavodun baş mühəndisinin müavini, 1880-ci ildə anadan olmuş, bitərəf Krımskiy Pavel Yevgenyeviç, "Kaqanoviçneft" Trestinin 3-cü mədəninin mexaniki, 1897-ci il təvəllüdlü Kərimov İbrahim, "Molotovneft" Trestinin neftvurma üzrə mühəndisi, 1892-ci ildə anadan olmuş Orucov Məhərrəm Atakişi oğlu[4] vəziyyətin ağırlığından, müttəfiqlərin kömək etməyəcəklərindən, çörəyin qiymətinin qalxmasından, təxliyə olunanların incidilməsindən söhbət açmışlar.

Məktublarda da antisovet fikirlər, mənəvi əhval-ruhiyyəyə dair faktlar üstünlük təşkil edir. "Əzizbəyovneft" Trestinin fəhləsi, 1920-ci il təvəllüdlü, Hüseynov Kamil Ağa Hüseyn oğlu hərbi mövzuda söhbətdə bildirmişdi ki, „almanlar hər gün Bakı üzərindən uçular, ancaq bizimkilər onlara heç nə edə bilmirlər. Bu vaxta qədər bir alman təyyarəsi vurulmayıb. Almanlar Stalinqradı çoxdan tutmuşlar, Qafqaz mühasirədədir. Azərbaycana alman-

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq, – 423.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq – 424.
[4] Yenə orada, vərəq – 425.

ların gəlməsi ilə hökumət başında müsəlmanlar olacaq və onda insanlar azad yaşayacaqlar”.[1]

Müttəfiqlər-ingilislər və amerikanların köməyindən bəhs edən “Azərnefttəchizat” Trestinin Mədən dəmiryolu idarəsinin qatar tərtibçisi Besteyev Vladimir İvanoviç müttəfiqlər tərəfindən heç bir köməyin daxil olmamasından şikayətlənərək sovetlər əleyhinə hazırda 16 dövlət döyüşdüyünə diqqət çəkmiş və sonrakı müqavimətin ümidsizliyini ifadə etmişdir.[2] Stalinin amerikan müxbirinin suallarına cavabına toxunan “Orconikidzeneft” Trestinin fəhləsi, 1890-cı il təvəllüdlü, bitərəf Babayev Mikayıl Cəbrayıl oğlu bildirmişdi ki, “…Çar hökuməti dövründə Rusiya az qala bütün Almaniyanı fəth edəydi. Keçmiş müharibələr tarixində elə bir hadisə yoxdur ki, Rusiya məğlub olsun, ancaq indi hər şeydən görünür ki, Almaniya qalib çıxacaq və müharibəni uduzacağıq. Sovet hökuməti Almaniyaya qalib gələcəyimizi bildirsə də, ancaq işdə bunun əksini görürük. Belə danışıqlara indi heç kim inanmır”.[3]

“Kaqanoviçneft” Trestinin Qaz Kontorunun çilingəri, 1892-ci il təvəllüdlü, bitərəf İskanov Məhəmmədcan Şarafatdinoviç, “Əzizbəyovneft” trestinin daxili ehtiyatların səfərbərliyi kontorunun fəhləsi, 1885-ci il təvəllüdlü, bitərəf Kostin İvan İvanoviç,[4] “Orconikidzeneft” Trestinin 1 №-li mədəninin baş operatoru, 1913-cü il təvəllüdlü, bitərəf Astafyev Vasiliy İvanoviç,[5] “Kaqanoviçneft” Trestinin 1 №-li Kompressor Stansiyasının yağlayıcısı, 1900-cü il təvəllüdlü, bitərəf Solovyova Nadejda Fyodrovna, həmin trestin nəqliyyat kontorunun sürücüsü, 1897-ci il təvəllüdlü, bitərəf Peskov Vladimir İllarionoviç, “Orconikidzeneft” Trestinin 6-cı mədəninin növbətçi elektrik ustası 1902-ci il təvəllüdlü, bitərəf Mkırtıçyan Araş Qriqoryeviç söhbətlərində sovet ordusunun uğursuzluğundan, fəhlələrin aclıqdan əziyyət çəkməsindən şikayətlənmiş, partiya və dövlət rəhbərlərini konkret tədbirlər görməməkdə günahlandırmışlar.[6]

Beləliklə, ikinci cəbhənin açılması ətrafında söhbətlərdə antisovet fikirlərin səsləndirilməsi əslində düşmən elementlərin təhrikçi fəaliyyətinin nəticəsi idi. Çünki bu fikirləri səsləndirənlər yüksək dövlət vəzifəsi tutanlar deyil, əsasən mühəndis-texniki işçilər və fəhlələr idi.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 415.
[2] Yenə orada, vərəq – 416.
[3] Yenə orada, vərəq – 417.
[4] Yenə orada.
[5] Yenə orada.
[6] Yenə orada, vərəq – 417-418.

XV FƏSİL

SOVETLƏR İTTİFAQINDA YAŞAYAN MİLLƏTLƏRİN VƏ XALQLARIN DEPORTASİYASI VƏ ANTİSOVET ƏHVAL-RUHİYYƏSİNİN GÜCLƏNMƏSİ

1941-1945-ci illər müharibə dövrünün ağrılı-acılı hadisələrindən biri SSRİ-də yaşayan xalqların, xüsusilə türkdilli xalqların RSFSR, Qazaxıstan və Mərkəzi Asiya respublikaları ərazilərinə deportasiyasıdır. Müharibə dövründə və müharibədən sonra deportasiya ilə əlaqədar sənədlərin "tamamilə məxfi" qrif ilə saxlanılması problemin araşdırılmasına imkan verməsə də, arxiv materiallarının təhlili göstərir ki, SSRİ-də həyata keçirilən amansız repressiya siyasətinə baxmayaraq bu siyasətə qarşı açıq və gizli formada mövcud rejimə qarşı çıxışlar olmuşdur. Bu cür proses müharibənin gedişi prosesində də davam etmişdi.

Müharibə dövründə „Qulaq asmayanlara, etibarsız hesab edilənlərə", hətta ayrı-ayrı xalqlara "cəza" tətbiq edilməsi DMK-nin, SSRİ Ali Soveti Rəyasət Heyətinin, ÜİK(b)P MK-nin qərarı, XKS, yaxud digər dövlət orqanının göstərişi ilə həyata keçirilirdi. Təəccüblü odur ki, bu cür qərar, göstəriş, yaxud sərəncam əhali öz yerlərindən çıxarıldıqdan sonra elan edilir və həyata keçirilən deportasiya üçün etibarsızlıq, banda formalaşdırılmasında iştirak, rejimə qarşı çıxış və s. kimi kompleks səbəblərlə əsaslandırılırdı. 1941-1945-ci illər müharibəsi ərəfəsində artıq RSFSR-in Şərq rayonlarına, Qazaxıstana və Orta Asiya respublikalarına 35 min polyak, 10 mindən çox alman, 172 min koreyalı, 6 min İran vətəndaşı köçürülmüşdü.[1] Ümumiyyətlə, köçürülənlərin sayı 200 min nəfərdən çox idi. Almaniyanın SSRİ-yə basqınından sonra ölkənin iqtisadi vəziyyətində yaranan çətinliklər, arxa cəbhədə şəraitin ağırlaşması, düşmən elementlərin rejim əleyhinə çıxışlarının artması və digər məsələlər xalqların deportasiyası üçün imkan yaratdı. Deportasiya olunan xalqlar öz mülkündən məhrum edildi. Onların yeni iqlimə adaptasiyası, işlə təmin edilməsi, təhsil almaları böyük problemlər doğurdu. Ərzaq qıtlığı, tibbi xidmətin olmaması, sanitar gigiyenik normalara əməl edilməməsi məskunlar arasında xəstəliyin yaranması və yüksək ölüm halları ilə müşayiət olundu.

Faşist Almaniyanın SSRİ-yə hücumunu ölkənin digər xalqları kimi, burada yaşayan almanların hiddətlə qarşılamasına baxmayaraq deportasiyaya ilk məruz qalan almanlar oldu. 1939-cu ilin əvvəlinə olan məlumata

---

[1] Война и общество. 1941-1945 в двух книгах. (Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, кн. 2, 2004, – с. 307.

görə SSRİ-də 1.427.222 alman yaşayırdı.[1] 1941-ci ilin yayında Volqaboyu və digər ərazilərdə kompakt yaşayan alman gənclərinin döyüşən orduya çağırışdan imtina etməsindən sonra vəziyyət ağırlaşdı. SSRİ rəhbərliyi xalqların deportasiyasını öz sərhədlərinin təhlükəsizliyi məqsədilə edildiyini bildirərək bu prosesi sərhədyanı hüdudlarının "etibarsız xalqlardan" təmizlənməsi kimi həyata keçirirdi. B sıradan da, almanlarla bağlı "**Almanlar etibarsız xalqdır və buna görə də kolxozda fiziki işdən savayı başqa işlərə onları təyin etməkdən söhbət belə gedə bilməz**" tezisi əsas götürüldü. 1941-ci ilin iyununda L.Beriya və V.Molotovun Volqaboyu ərazilərə səfərindən sonra alman mənşəli əhalinin köçürülməsi barədə XKS və ÜİK(b)P MK müvafiq qərarı qəbul edildi. 26 avqust 1941-ci ildə SSRİ XKS və ÜK(b)P MK-nin 2056-933 №-li "Volqaboyu, Saratov və Stalinqrad vilayətində yaşayan almanların Respublikadan köçürülməsi haqqında" qərarı, 1941-ci il avqust ayının 28-də SSRİ Ali Soveti Rəyasət Heyətinin 21-160 №-li fərmanı proses qanuniləşdirdi.[2] Sentyabr ayının 3-də XDİK komissarı L.P.Beriyanın müavini İ.A.Şerovun rəhbərliyi ilə Volqaboyu, Tambov, Yaroslav və Voronej vilayətlərindən minlərlə alman uzaq yaşayış yerlərinə deportasiya edildi.[3] 1941-ci ilin sentyabr-noyabr aylarında 441.713 nəfər Alma-Ata, Akmola, Aktuba, Şərqi Qazaxıstan, Cambul, Qaraqanda, Qızıl-Ordu, Kustanay, Şimali Qazaxıstan, Semipalatinsk, Cənubi Qazaxıstan vilayətinə köçürüldü. Bütövlükdə müharibə illərində 1,4 milyon (1.427. 222 nəfər – 298 930 nəfəri şəhər əhalisi, 1.128 302 nəfər kəndli) nəfər almandan 92,7 min nəfəri Qazaxıstana deportasiya edildi.[4] Köçürülmələr nəticəsində 400 min-ə yaxın adam həyatını itirdi.[5]

Almanların deportasiya prosesi müharibə dövründə, hətta ağır döyüşlərin getdiyi dövrdə də davam etdi. 1942-1945-ci illərdə xüsusi əmrlə alman millətindən olan 33.516 nəfər hərbi qulluqçu – 1.609 nəfəri zabit, 4.922 nəfəri çavuş, 27.724 nəfəri sıravi əsgər ordudan tərxis olundu və əksəriyyəti işçi kolonlarına və batalyonlarına göndərildi.

Şimali Qafqaz ərazisindən alman millətindən olan 198.097 vətəndaş köçürüldü. Onların 6.180 nəfəri Alma-Ata vilayətinə gətirildi. Tezliklə bu vilayətdə onların sayı 9 minə yüksəldi. Şərqi Qazaxıstan vilayətində 22.195

---

[1] Боффа Дж. История Советского государства. Международное отношения. Дж. Боффа. Москва, 1990. – с.309.

[2] Бургарт Л.А. Немецкое население в восточном Казахстане в 1941-1956 гг / Л.А. Бургарт. – Уст-Каменогорск, 2001. – 376 с.

[3] Иосиф Сталин – Лаврентию Берии: "Их надо депортироват…". Москва, 1992. – с.40.

[4] Начальный период Великой Отечественной войны и депортация российских немцев: взглядь и оценки через 70 лет / Материалы 3–й международной научно–практической конференции. Саратов, 26-28 августа 2011 г. Москва, 2011. – с.105.

[5] Бургарт, Л.А. Немецкое население в восточном Казахстане в 1941-1956 гг. / Л.А. Бургарт – Уст-Каменогорск, 2001. – с.6.

alman yaşayırdı. XDİK-nin arxiv sənədlərinə əsasən 1941-1942-ci ilin birinci yarısında "Dövlət tapşırığına" əsasən şərqə 856.340 nəfər (onlardan 560.112 nəfəri yaşlı idi) gətirildi. Ümumiyyətlə, Novosibirsk və Omsk vilayətlərinə, Krasnoyarsk diyarına və Qazaxıstan SSR-də 786.279 alman məcburi əsaslarla yerləşdirildi.

1939-cu il siyahıya alınmasına görə **Azərbaycan SSR-də 23.133 nəfər alman yaşayırdı.** SSRİ DMK 8 oktyabr 1941-ci il tarixdə "Gürcüstan, Azərbaycan və Ermənistan SSR-dən almanların köçürülməsi haqqında" 744 ss №-li qərar qəbul etdi. Qərarda Gürcüstan SSR-dən **23.580 nəfər**, Azərbaycan SSR-dən **22.741 nəfər**, Ermənistan SSR-dən **212 nəfər alman** əhalisinin köçürülməsi nəzərdə tutulurdu. Köçürülmə 1941-ci il oktyabrın 15-dən 30-dək başa çatdırılmalı idi. Azərbaycan SSR-dən deportasiya olunan alman əhalisi də qruplarla Qazaxıstan SSR-in Akmolin, Qaraqanda, Kustanay, Pavlodar və Şimali-Qazaxıstan vilayətlərinə köçürüldü.

1943-cü ildə RSFSR-in Stavropol diyarında və Q**araçay Muxtar Vilayətində** vəziyyət gərginləşdi. SSRİ Ali Soveti Rəyasət Heyətinin 12 oktyabr 1942-ci il və SSRİ XKS-nin 14 oktyabr 1942-ci il tarixli qərarına əsasən qaraçaylılar Qazaxıstan və Qırğızıstan SSR ərazilərinə köçürüldü.[1]

Qaraçaylılardan sonra **kalmıklar** növbəti hədəf oldu. SSRİ Ali Soveti Rəyasət Heyətinin 27 dekabr 1943-cü il tarixli fərmanı və SSRİ XKS-nin 28 dekabr 1943-cü il tarixli qərarı ilə **Kalmıkiya Muxtar Vilayəti** ləğv edildi, kalmıklar Altay və Krasnoyarski diyarlarına, Omsk və Novosibirski vilayətlərinə sürgün edildilər. 1944-cü ilin birinci kvartalında deportasiya olunan 81.294 kalmıkın 4.205 nəfəri, 1945-ci ilin birinci kvartalında deportasiya olunan 80.905 nəfərdən 1.288 nəfəri, 1946-cı ilin birinci kvartalında deportasiya olunan 79.487 nəfərdən 566 nəfəri dünyasını dəyişdi.

1940-cı ilin I yarısında **Çeçen-İnquş respublikasında** 731,7 min nəfər yaşayırdı. Onların 387,8 mini çeçen (52,8%), 72 mini inquş (12,0%), 205,8 mini rus (27,8%), 57 mini isə (7,4%) qeyri millətlərdən idi. Kalmıkiyada olduğu kimi, Çeçen-İnquş respublikasında da "terrorçu qruplar, bandalar tapıldı" və 1944-cü il yanvarın 31-də DMK çeçenlərin və inquşların Qazaxıstan və Qırğızıstan SSR-ə deportasiyası haqqında qərar çıxarıldı. SSR Ali Soveti Rəyasət Heyətinin 7 mart 1944-cü il tarixli fərmanı ilə Çeçen-İnquş MSSR ləğv edildi. Çeçen-İnquşetiyadan 478.479 çeçen və inquş Qazaxıstan və Qırğızıstan ərazilərinə sürgün edildi. Onların içərisində Dağıstandan MSSR-dən olan çeçenlər də var idi. Köçürülənlərin 91.500 nəfəri inquş idi.

Şimali Qafqazdan köçürülən xalqların içərisində Kabarda-Balkar MSSR-dən olan **balkarlar** da vardı. DMK-nin 5 mart 1944-cü il tarixli

---

[1] Əmrahov, M.İ., Əsədov, N.N. İkinci dünya müharibəsinin yekunları və dərsləri / M.İ.Əmrahov, N.N.Əsədov. – Bakı, 2006. – s.43.

qərarına görə 25 min balkar Qazaxıstana, 15 min isə Qırğızıstana köçürülməli idi. Beriya 11 mart 1944-cü il tarixli Stalinə məruzəsində 37.103 nəfər balkarın köçürüldüyünü bildirdi. Hökumətin köçürülmə siyasətində əsas yerlərdən birini **Krım** tuturdu Krım MSSR müstəqil vilayət kimi 1921-ci il dekabrın 18-də RSFSR-in tərkibinə daxil olmuşdu. **1930-cu illərin** sonunda burada **1.126.429 nəfər** yaşayırdı. 1940-cı ildə **Krım Sovet Sosialist Respublikasının** təqribən **1.126.800 nəfər** əhalisi var idi ki, bunun da **218.000** nəfəri və ya **19.4 faizi tatarlardan** ibarət idi. 1941-ci ildə Nasist Almaniyası Şərqi Avropanı işğal etdi və nəticədə SSRİ-nin qərb hissəsi də işğala məruz qaldı. Tatarlar ilkin olaraq almanlara Stalin rejimindən xilas olmaq üçün xilaskar kimi baxırdılar və onlar Birinci Dünya müharibəsi ərzində almanlardan müsbət rəftar görmüşdülər. Rumınlar və almanların Krım yarımadasını ələ keçirməsindən sonra Qırmızı Orduda xidmət edən və əsir düşmüş Krım tatarlarının əksəriyyəti əsir düşərgələrinə göndərildi. Nasistlər əvvəlcə bütün Asiya mənşəli əsirlərin öldürülməsini planlaşdırsa da, sonradan Qırmızı Ordunun alman işğalçılarına ciddi təzyiq göstərməsi nasistləri bu siyasətlərini dəyişdirməyə vadar etdi. 1942-ci ilin başlanğıcında almanlar Sovet müharibə əsirlərindən özləri üçün dəstək orduları yaratmağa başladı.

Dobrucalı tatar milliyyətçisi **Fazil Ülküsal** və **Mustafa Edige Kırımal** Krım tatarlarının alman əsirliyindən azad edilməsində böyük rol oynadı və həmin azad edilmiş tatar müharibə əsirlərindən Vermaxt üçün Krımın müstəqilliyinə dəstək vermək məqsədilə hərbi birləşmənin, legionun yaradılmasına nail oldu. Bu legionun tərkibində səkkiz batalyon formalaşdırıldı. 1941-ci ilin noyabrından etibarən alman hakimiyyəti tatarlara müxtəlif şəhərlərdə Müsəlman Komitələrinin yaradılmasına icazə verdi və simvolik olaraq bəzi yerli hakimiyyətləri tanıdı. Lakin, onlara heç bir siyasi güc verilmədi. Bəzi Krım tatarları isə polis batalyonları və özünümüdafiə briqadaları təşkil edərək öz kəndlərini hücumlardan və Sovet partizanlardan qorumağa başladılar. Alman və Krım tatarlarının sübutlarına əsasən almanlar hər birində 15.000 və 20.000 nəfər Krım tatarlarından ibarət olan özünümüdafiə batalyonları formalaşdırırdı. Müharibənin sonlarına doğru özünümüdafiə batalyonları artıq öz tərkibinə müsəlmanları da cəlb etməyə başladı. 1944-cü ilin yayında Krımdan Rumıniyaya təxliyə edilən tatar birləşmələrindən olan **800** keçmiş hərbçi tatarlardan ibarət **SS Vaffen Dağ Briqadasına** qatıldı. Bu briqada Harun əl-Rəşidin legionlarına inteqrasiya olunana qədər Macarıstanda döyüşdü. Buna baxmayaraq, heç də bütün tatarlar nasistlərə qoşulmadı. Məsələn, Krım tatarı olan **Əhməd Özənbaşlı** işğalçılara qarşı çıxış etdi və Sovet müqavimət hərəkatı ilə əlaqə saxlayaraq bir sıra strateji və siyasi cəhətdən dəyərli məlumatları onlara ötürdü. Başqa Krım tatarları isə Sovet partizanlarının tərəfində döyüşlərdə iştirak edirdi. Bundan əlavə, İkinci dünya müharibəsi ərzində 25.033 Krım tatarı Qırmızı Ordunun tərkibində döyüşlərdə iştirak etmişdir ki, bu da tatar kəndlərini partizanlardan

qorumaq məqsədilə təşkil olunmuş özünümüdafiə qüvvələrinə qatılanların sayından daha çox idi.

Krımın almanlar tərəfindən işğal olunması nəticəsində 130.000 insan həlak olmuşdur. İşğal zamanı almanlar 70-dən çox kəndi dağıtmışdır ki, bu da Krım tatarlarının yaşayış məskənlərinin 25 faizini təşkil edirdi. İşğaldan sonra minlərlə Krım tatarı alman zavodlarında zorla işlədilməyə məcbur edilmişdir. Nasistlər Krım tatarları da daxil olmaqla bəzi millətləri "özlərindən aşağı irqin nümayəndəsi" hesab edirdi. Bütün bunlarla yanaşı müharibə illərində Krımda sovet totalitarizminə qarşı hərəkat da güclənmişdi. Krım tatarlarından olan vətənsevərlər müharibədən sovetlər əleyhinə istifadə etmək istəyirdilər. Simferopolda toplanan müsəlman qurultayında Bilal Aksanov başda olmaqla Krım hökuməti təşkil edilmişdi. Krım tatarlarından Qızıl Ordu partizanlarına, partiya və sovet işçilərinə qarşı dəstələr yaradılırdı. Krım tatarlarından hər birində 200-300 nəfər olmaqla 10 antisovet batalyon formalaşdırılmışdı. Belələrindən biri Simferopolda yaradılan Krım müsəlman komitəsi idi. Onun başında ticarətçi D.Abdulrəşidov dururdu. Komitənin əsas məqsədi müstəqil tatar milli kolonları yaratmaq idi.

Krım respublikasından cəbhəyə 40 minədək adam səfərbər olunmuşdu. Yarımadanın sakinləri partizan hərəkatında fəal iştirak edirdi. **1943-1944-cü illərdə artıq Krımda 11.700 nəfəri birləşdirən 33 partizan dəstəsi fəaliyyət göstərirdi.** 1941-1944-cü illərdə Krım partizanları düşmənin 29 min əsgər və zabitini məhv etmiş, 4.000 nəfər əsir alınmış, 38 parovoz, 947 vaqon, 2 zirehli qatar, 13 tank, 211 top, 2.000-ə yaxın avtomobil sıradan çıxarılmışdı. Nurməmməd Əzimov, Hacı Əliyev, Saleh Əsgərov, Əli Məmmədov, Hacı Hüseynov və başqaları düşmənə qarşı mübarizədə mərdliklə vuruşmuşlar. Müharibə ərzindəki xidmətlərinə görə **səkkiz nəfər Krım tatarı Sovet İttifaqı Qəhrəmanı** adına layiq görülmüşdür. Bütün bunlara əlavə olaraq onu da qeyd etmək lazımdır ki, Volqa tatarları Krım tatarlarına nisbətən daha çox işğalçılara qoşulmuş, 35.000-40.000 könüllü Nasist Almaniyası tərəfində döyüşmüş, lakin heç bir kollektiv cəza tədbirinə məruz qalmamışdı.

Taqım komandiri Qabil Cabbarov, yüksək əsgəri məharəti ilə fərqlənən İslam Rəcəbov, Krım vilayətinin Kuybışev rayonunda əsir düşərgələrində yaradılan antifaşist təşkilatının üzvləri Məmməd Əliyev, Sahib Hacıyev, Hüseyn Rzayev və başqaları Krımın azadlığı uğrunda döyüşmüş, döyüşlərdə göstərdikləri igidliklərinə görə M.N.Quliyevə və B.D.Mustafayevə Sovet İttifaqı Qəhrəmanı adı verilmişdir.

Bütün bunlara baxmayaraq yaranmış vəziyyət 1942-ci il noyabrın 18-də çağırılan ÜİK(b)P Krım Vilayət Komitəsinin büro iclasında müzakirə olundu. 1944-cü il aprel ayının 13-də SSRİ XDİK və DTK "Krım Muxtar SSR ərazisinin antisovet elementlərdən təmizlənməsi tədbirləri haqqında" birgə qərar qəbul etdi. Respublika 7 əməliyyat zonasına bölündü, qayda-

qanunu saxlamaq üçün 20 min əsgər ayrıldı. Aprelin 10-dan ayın sonunadək müsəlman komitəsinin 49 üzvü həbs olundu, aprel-may aylarında 5 mindən artıq antisovet element müəyyənləşdirildi. 6.100 vahid döyüş silahı, 337 pulemyot, 250 avtomat, 5.395 tüfəng və s. aşkar edilib götürüldü.

Krım tatarları sürgün yollarında

1944-cü ilin mayında heç bir zərurət olmadan Krım türklərinin öz tarixi torpaqlarından sürgün edilməsi Türkiyə ilə münasibətlərin pisləşməsi fonunda baş verdi və sovetlərin Qara dəniz boyunca sərhədlərini türk əhalisindən təmizlənməsi xarakteri daşıdı. Krım türklərinin deportasiya edilməsi haqqında əməliyyatın keçirilməsinə razılıq **1944-cü il aprel ayının 2-də verildi. Bu məsələ ilə bağlı 10 may 1944-cü ildə Xalq Daxili İşlər Komissarı L.Beriya Dövlət Müdafiə Komitəsinin sədri İ.Stalinin adına üç səhifəlik məruzə göndərdi.** Məruzədə deyilirdi: "Daxili İşlər və Dövlət Təhlükəsizliyi Komissarlıqları düşmən agenturasını, vətən xainlərini, alman-faşist işğalçıları ilə əlbir olanları və digər antisovet ünsürləri aydınlaşdırmaq və aradan götürmək üçün Krımda əməliyyat tədbirləri həyata keçirib. May ayının 7-nə olan vəziyyətə görə 5.381 nəfər belə şəxs həbs edilib. Əhalidən qeyri-qanuni saxlanan 5.995 tüfəng, 337 pulemyot, 250 avtomat, 31 minomyot, böyük həcmdə qumbara və patrondan ibarət silahlar yığılıb. Qızıl Ordu sıralarından 1944-cü ilə qədər 20 mindən artıq tatar fərarilik edərək almanların xidmətinə keçmişdir". Daha sonra L.Beriya yazırdı ki, "alman faşist işğalçıları ağqvardiyaçı-müsəlman mühacirlərin köməyi ilə "**Tatar Milli Komitəsi**" **adlanan təşkilatın kəşfiyyat şəbəkəsini yaradıblar.** "Tatar Milli Komitəsi" alman polisi ilə birlikdə 50 min sovet vətəndaşının Almaniyaya zorla aparılmasında, alman ordusu üçün əhali içərisində vəsait toplanılmasında, yerli qeyri-tatar əhalinin sıxışdırılması istiqamətində geniş miqyaslı xəyanətkarlıq işlərində fəal iştirak etmişdir. Krım tatarlarının Sovet xalqına qarşı satğınçılıq hərəkətlərini əsas götürərək və bundan sonra Krım tatarlarının Sovet İttifaqının sərhəd rayonlarında yaşamalarının arzuolunmazlığından çıxış edərək **SSRİ Xalq Daxili İşlər Komissarlığı bütün tatarların Krım ərazisindən sürgün edilməsi haqqında Dövlət Müdafiə Komitəsinin qərarını baxılmaq üçün Sizə göndərir**".

L.Beriya Krım tatarlarının xüsusi sürgün olunanlar kimi həm kənd təsərrüfatında-kolxozlarda və sovxozlarda, həm də sənayedə və tikintidə istifadə etmək üçün Özbəkistan SSR-in rayonlarında yerləşdirilməsini məqsədəuyğun hesab edirdi. **Tatarların Özbəkistan SSR-də yerləşdirilməsi məsələsi Özbəkistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin katibi Yusupovla razılaşdırılmışdı. L.Beriya bildirirdi ki,**

Krımda 140-160 min tatar əhalisi yaşayır. Sürgün əməliyyatı 20-21 mayda başlayacaq və 1 iyunda başa çatdırılacaq.

L.Beriyanın müraciətindən bir gün sonra Krım türklərinin deportasiya edilməsi haqda İ.Stalinin imzası ilə Dövlət Müdafiə Komitəsinin qərarı qəbul edildi. Krım türklərinin sürgün edilməsi əməliyyatı müəyyən edilmiş vaxtdan əvvəl başa çatdırıldı. Artıq may ayının 20-də Daxili İşlər Komissarının müavini İ.Serov və Dövlət Təhlükəsizliyi Komissarının birinci müavini B.Kobulov Krım türklərinin sürgün edilməsi üzrə tədbirlərin başa çatdırıldığı haqqında L.Beriyaya məruzə etdilər**. İyul ayının 4-də L.Beriya Krım əməliyyatının başa çatması haqqında İ.Stalinə hesabat göndərdi**. Orada göstərilirdi ki, **Krımdan bütövlükdə 225.009 adam sürgün edilmişdir, bunun 183.155 nəfəri tatar, 12.422 nəfəri bolqar, 15040 nəfəri yunan, qalanları isə digər xalqların nümayəndələridir.** Dövlət Müdafiə Komitəsinin **21 may 1944-cü il qərarına uyğun olaraq tatarların 151.604 nəfərinin Özbəkistan SSR-in vilayətlərinə, 31.551 nəfərinin isə Rusiya Federasiyasının vilayətlərinə sürgün olunduğu bildirilirdi.**

Türklərin Krımdan sürgün edilməsi başa çatdırıldıqdan sonra UİK(b)P MK-nın Siyasi Bürosu **30 iyun 1945-ci ildə Krım Muxtar Sovet Sosialist Respublikasının Rusiya Federasiyası tərkibində Krım vilayətinə çevrilməsi** haqda qərar qəbul etdi, qərar mətbuatda dərc olunmadı.

Krım tatarlarının deportasiyasının yekununa ÜİK(b)P Krım Vilayət Komitəsinin bürosunda baxıldı. Büronun **14 oktyabr 1944-cü tarixli iclas protokolunda qeyd edilirdi ki, 1944-cü ilin mayına kimi 191.111 nəfər tatar köçürülmüş**, məhsul yığımına **33.349 nəfər bolqar, yunan və erməni** gətirilmişdir. Əmlakın mühafizəsinə və kənd təsərrüfatı işlərinin görülməsi üçün şəhər və rayonlardan 15 min adam səfərbər edilmişdir.[1]

1944-cü ilin aprelində Qırmızı Ordunun Krım yarımadası istiqamətində hücumu nəticəsində almanlar və onların müttəfiqləri buranı tərk etməyə məcbur oldu. 60 və 70-ci illərdə öz siyahı alınmasını aparan Krım Tatarları Milli Hərəkatının verdiyi rəqəmlər əsasən 423.100 Krım tatarı (89.2%-i qadın, uşaq və ahıl qocalar) Krım yarımadasından deportasiya edilmişdi. Bu, Sovet idarəsi tərəfindən aparılan siyahı alınmaların tamamilə səhv olduğu mənasına gəlir.

Azərbaycanlılar da köçürülmə əməliyyatına məruz qaldılar. Doğrudur, bu respublika ərazisində baş vermədi. Amma yaranmış şəraitdən məharətlə istifadə etməyi bacaran Mikoyan azərbaycanlıların türk olduğunu, Almaniyada mövcud olan Azərbaycan legionlarının gələcəkdə SSRİ-yə qarış istifadə olunmasının istisna olmadığını, SSRİ-nin cənub sərhədlərində türklərin yerləşməsi və müharibənin gedişində Bakı nefti üçün türklər tərəfindən

[1]Бугай, Н.Ф. Депортация народов Крыма: Документы. Факты. Комментарии / Н.Ф. Бугай. – Москва, 2002. – с.17.

təhlükə yaranacağına Stalini inandırmağa cəhd etdi və nəticədə azərbaycanlıların deportasiyası məsələsi Siyasi büronun müzakirəsinə çıxarıldı. Beriyadan başqa Siyasi Büronun bütün üzvləri deportasiyaya razılıq verdilər. Beriya belə hesab edir ki, "bu iş" Bağırovun razılığı olmadan həll oluna bilməz. İclasdan sonra Beriya Bağırova zəng edərək bəzi tədbirlərin görülməsini məsləhət görür. Həmin dövrdə Azərbaycan SSR Xalq Torpaq Komissarı olmuş Cəfər Cəfərov xatirələrində yazır ki, M.C.Bağırov onu yanına çağırır. O kabinetə daxil olduqda respublika rəhbərliyinin böyük əksəriyyətinin orada olduğunu görür. M.C.Bağırov ona bir neçə günə azərbaycanlı komsomol təşkilat rəhbərlərinin kütləvi sürətdə müharibəyə getmək istəməsi haqqında Stalinə teleqram təşkil etməyi tapşırır. Beləliklə, Bağırovun qətiyyəti sayəsində Stalin azərbaycanlıların deportasiyasından imtina etmişdi. Təəssüf ki, bu barədə əlimizdə yazılı rəsmi sənəd yoxdur. Fikrimizcə, Bağırovun bu qəbildən olan tədbirləri azərbaycanlıların deportasiyasının qarşısını almağa yönəlmişdi. İ.Zeynalovun yazdığı kimi, hər bir halda 1943-1944-cü illərdə iki dəfə Azərbaycanın bütünlüklə köçürülməsi barədə Siyasi Büronun müdhiş qərarını və bu qərarın layihəsini şəxsi nüfuzu ilə M.C.Bağırovun ləğv etdirməsi unudulmamalıdır.[1]

Bununla belə 1944-cü ilin martın sonunda Tbilisidən 608 ailə – 3240 kürd və məhsəti-türkü çıxarıldı. Onların deportasiyası məsələsi Gürcüstan K(b)P MK və Gürcüstan SSR XKS ilə razılaşdırılaraq 1944-cü il noyabr ayının 15-də 3 eşelonda 26.591 nəfər ölkənin Şərqinə göndərildi. 10 gün müddətində Gürcüstanın cənub rayonlarından 91.095 nəfər çıxarıldı. 1945-ci il yanvarın 31-də Tbilisidən sonuncu eşelon yola salındı. Onun içərisində Özbəkistan SSR-ə köçürülən 695 ailə, onların arasında 8.694 nəfər kürd də var idi.

Müharibə illərində digər xalqların nümayəndələri – qaraçılar, lazlar və başqaları da köçürülmə siyasətinin qurbanı oldular. Ümumiyyətlə, müharibə illərində 61 xalq və millət deportasiyaya məruz qaldı.

SSRİ Xalq Daxili İşlər Komissarlığının Xüsusi Köçürülənlər Şöbəsinin 1946-cı ilin oktyabrına hazırladığı ümumi arayışda göstərilir ki, "xüsusi köçürülənlər düşərgəsində ümumilikdə 2.463.940 nəfər vardır. Onlardan 655.674 nəfəri kişi, 829.940 nəfəri qadın, 979.182 nəfəri 16 yaşına qədər olanlardır. Köçürülənlər Qazaxıstan SSR-də (890.698 nəfər), Özbəkistan SSR-də (179.992 nəfər), Kemerova (128.423 nəfər), Qırğızıstan SSR-də 120.858 nəfər), Molotov (115.436 nəfər), Sverdlov (113.476 nəfər), Krasnoyarsk (112.316 nəfər), Altay (35.381 nəfər), Novosibirsk (92. 068 nəfər), Tomsk (8.276 nəfər), Tümen (566.111 nəfər), Çelyabinsk (51.865

[1] Zeynalov, İbrahim,. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – s.248.

nəfər) və Omsk vilayətlərində (44.767 nəfər) yerləşdirilmişdi. Köçürülənlərin milli tərkibi aşağıdakı kimi idi.[1]

Cədvəl 15.1.

Milli tərkib	cəmi	O cümlədən			Qeyd
		kişi	qadın	16 yaşınadək olanlar	
Çeçen və inquşlar	400.478	97.441	110.818	191.919	
Qaraçaylılar	60.139	10.595	16.860	32.557	
Balkarlar	32.817	6147	10.284	16.386	
Kalmıklar	81.673	199.506	24143	32997	
Krım tatarları, balkarlar və yunanlar	193.959	43.135	68.343	82.481	
Almanlar	774.178	122.336	296.014	355.822	
Türklər, kürdlər	84.402	16.353	73277	44772	
vlasovçular	95386				

Ümumiyyətlə, 1917-ci ildən 1947-ci ilədək Sovetlər İttifaqında 62 milyondan çox insan məhv edilmişdir.

Təbii ki, baş verən deportasiyalar millətlərin gözü qarşısında baş verir və əhalinin ümum narazılığına səbəb olurdu. Yaranmış narazılıqlardan istifadə edən düşmən elementlər müəssisə və təşkilatlarda sovet hökuməti əleyhinə təşviqatı genişləndirir, antisovet mülahizələrin artmasına nail olurdular.

"Kirovneft" Trestinin mənzil-tikinti kontorunun kəsicisi, 1900-cü il təvəllüdlü, ÜİK (b) P üzvü **İsmayılov Cəfər Abdulla oğlu** demişdi:

"…Sovet hökuməti əvvəlcə kazakları sürgün etdi, sonra osetin və ləzgiləri sürgün etməyə başladı. Bildirdilər ki, onlar etibarsızdır, sovet hökumətini satırlar. Kazaklar və dağlılar sovet hökumətinə qarşı deyildi, məlum olmayan səbəbdən sovet hökuməti onlara etibar etmirdi. Görünür, onların sovet hökumətinə qarşı üsyana qalxmasının də səbəbi etibarsızlıq olmuşdur. İndi buynuz bizə tərəf – "keçmiş İran satqınlarını"na çevrilib".[2]

"Əzibəyovneft" Trestinin 4-cü trestinin mədən ustası, 1901-ci il təvəllüdlü ÜİK(b)P üzvü Ələkbərov Əli Abbas oğlu bildirmişdi ki, "Tezliklə müharibə qurtaracaq, soruşacaqlar ki, xalqı niyə qırdınız (məhv etdiniz). Çünki o vaxt bizim silahımız yox idi, kərpiclə düşməni saxlamazlar. Yaxşı olardı ki, almanlar hamını keçmiş illərə götürsünlər. Mən özümü axmaq hesab edirəm ki, sovet pasportu aldım, əgər bilsəydim ki, iş belə pis olacaq, İrana gedərdim. Hitler bütün kommunistləri məhv edəcək".[3]

---

[1] Московские новости //1990, № 41.
[2] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 355.
[3] Yenə orada, vərəq – 356.

“Krasin” adına DRES-nin xüsusi şöbəsinin rəisi, 1897-ci il təvəllüdlü Parseqyan Armenaq Avetisoviç Sovet dövlətinin fəaliyyətini kölgə altına alaraq bildirmişdi ki, “Bizim hökumət müharibəyə hazırlaşmaq əvəzinə, dekadalara aludə oldu və nəticə göz qabağındadır. “Düşmənə öz ərazisində üç qat zərbə vuracağıq” deyə qışqırırlar, düşmən isə öz ərazimizdə bizi vurur.

Yaxşı olardı ki, bizə kapitalist əhatəsi haqqında danışmaqdansa, ölkəni hücuma hazırlayaydılar”.

Yuxarıda köçürülmə səbəbi kimi qeyd edilənləri təhlil edərkən belə qənaətə gəlirik ki, bu “səbəblər” xalqları və millətləri öz dədə-baba yurdlarından köçürmək üçün əsas vermirdi. Bütün bunlar xalqlara tətbiq edilən ədalətsiz güc tədbirləri idi. Bu cür “cəzalandırmaya” mülki əhali, həmçinin bütövlükdə xalqlar məruz qalmışlar.

Sovet hökuməti deportasiya ilə böyük bir ərazidə xalqları bir-birinə qarşı qoyur, repressiya edilmiş ərazilərdə itirilmiş işçi qüvvəsinin yerini doldurmağa çalışırdı. Sonralar məlum oldu ki, deportasiya nəticələrindən milli münaqişələrdə istifadə olundu.

Xalqların deportasiyası insan hüquqlarına, SSRİ Konstitusiyasına zidd idi. Xüsusilə muxtar respublikaların və vilayətlərin ləğvi bu işin “zirvəsi” oldu. Yuxarıda köçürülmə səbəbləri kimi qeyd edilənləri təhlil edərkən belə qənaətə gəlirik ki, bu “səbəblər” xalqları və millətləri öz doğma yurdlarından köçürməyə əsas vermirdi. Bütün bunlar xalqlara tətbiq edilən ədalətsiz güc tədbirləri idi. Təbii ki, istər köçürülən, istərsə də deportasiyadan canını qurtaran xalqlar bu hadisələri yaddan çıxarmadılar.

Deportasiya tarixin uzun müddət xalqdan gizlədilmiş qaranlıq səhifələridir. Bu səhifəni təhlil etdikcə aydın olur ki, əsassız deportasiyalar, millətlərə münasibətdə ikili yanaşmalar xalqların və millətlərin SSRİ adlı dövlətə inamını azaltdı, vətənpərvərlik tərbiyəsinə ciddi ziyan vurdu, XX əsrin sonlarında “super” SSRİ-nin dağılmasına və müstəqil dövlətlərin yaranması ilə nəticələndi.

XVI FƏSİL

AZƏRBAYCAN SSR-də ANTİSOVET TƏŞKİLATLAR VƏ QRUPLAR

Antisovet təxribatları

Arxiv sənədlərinin tədqiqi göstərir ki, düşmən təkcə arxa cəbhədə antisovet təbliğatı aparmaqla kifayətlənmir, müxtəlif adlar altında casuslarını arxa cəbhəyə göndərir, diversiya aktları törətmək üçün zəmin yaratmağa, hərbi əhəmiyyətli obyektlərin yerini və fəaliyyət istiqamətlərini öyrənməyə cəhd göstərirdi. XDİK-nın məlumatlarının birində 1942-ci ilin aprel ayında cəbhəyə yaxın bölgələrdən olan Dəvəçiyə "Sergey" adlı alman kəşfiyyatçısının atılması haqqında məlumat verilmişdi[1].

Məlumatda bildirilirdi ki, 1942-ci il aprel ayının 20-də ÜİK(b)P üzvü olan Gəncə deposunun maşinistləri İlyin və Moroz parovozla SSRİ-nin mərkəzi hissəsindən xidməti vaqonda gələrkən Rostov rayonunda Cənubi Qafqaz istiqamətinə getmək istəyən Sergey adında bir nəfəri öz vaqonlarına götürürlər. Yol boyu **Sergey** maşinist İlyin və Morozu antisovet təslimçilik ruhunda dilə tutur, yayda almanların Cənubi Qafqazı tutmasının qaçılmaz olduğunu sübut etməyə cəhd edir. İlyin və Moroz bildirmişlər ki, Sergeydə fotoaparat olmuş və yodda nə isə yazırmış. O, maşinistlərlə söhbətdə Gəncə şəhərinin sənayesi, aerodromların sayı, parovoz parkları, hərbçilər və hərbi yüklər, eşelonların marşrutları haqqında maraqlanmışdı. Sergeyin bildirdiyinə görə o, köhnə ordunun polkovniki, müharibəyə qədər Voroşilovqrad Un Dəyirmanının direktoru olmuşdur. Tank əleyhinə hissənin kapitanı olan və xəstəliyinə görə ordudan tərxis edilmiş Sergey guya təqaüddədir. Söhbət əsnasında Sergey maşinist İlyin və Moroza özünün talonunu verərək Gəncədə onlarla görüşəcəklərini bildirmişdi.

Maşinistlər Dərbənd-Dəvəçi istiqamətində yolda yuxuya gedərkən Sergey gizlənmiş, onun yoxluğu Dəvəçi stansiyasında müəyyənləşmişdi. Aydınlaşdırılmışdı ki, Sergey adlanan şəxs alman kəşfiyyatçısı olmuş, düşmənçilik işi üçün atılmışdır. Axtarış üçün heç bir məlumat daxil olmadığından onun axtarışı və üzə çıxarılması məqsədilə Bakı və Azərbaycan SSR-in dövlət və partiya orqanlarına, XDİK, eyni zamanda Dağıstan MSSR XDİK-na göstəriş verilmişdi. XDİK Gəncə şəhər şöbəsinə – Nəzərliyə təklif edilmişdir ki, Sergey adlanan şəxsin maşinist İlyin və Morozla görüşməsini diqqətdə saxlasın və müvafiq tədbirlər görsün. Tovuz rayonunun İbrahim-Hacılı kəndində antisovet təxribatçılıq təzahürləri haqqında məlumatlar daxil olurdu. Azərbaycan SSR XDİK, dövlət təhlükəsizik baş mayoru

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 157-158.

T.Yaqubovun Azərbaycan K(b)P MK katibi M.C.Bağırova ünvanladığı 7 aprel 1942-ci il tarixli məktubunda bildirilirdi ki, 1942-ci ilin fevral ayının sonunda Tovuz rayonunun İbrahim-Hacılı kənd sakini 14 yaşlı Abdıyev Məsim Əkbər oğlu əhali arasında müqəddəs adam hesab edilməsi xəbərini yayırdı. Bu səbəbdən də kəndin inanclı adamları, əsasən qadınlar Məsim Abdıyevin evinə gələrək ordu sıralarında olan qohumlarının və yaxınlarının taleyini öyrənmək istəyirlər. Hətta bəzi kolxozçular "müqəddəsdən" onların qohumlarının cəbhədə öldürülməsi və ya yaralanması barədə "cavab" almışlar. Nəticədə kolxozçular arasında düşkün əhval-ruhiyyə yaranmış, kənd təsərrüfatı işlərinin yerinə yetirilməsinə mənfi təsir etmişdi.

XDİK Tovuz Rayon Şöbəsi tərəfindən həbs olunan Abdıyev Məsim Əkbər oğlu bildirdi ki, o, 1895-ci il təvəllüdlü əmisi oğlu Abdıyev Avdı Zeynal olunun qazanc məqsədilə özünü "müqəddəs" elan etmiş, kolxozçuları aldadaraq və onlardan pul almışdı. Şahidlərdən İbrahim-Hacılı kənd müəllimi, ÜİK(b)P üzvlüyünə namizəd Məmmədov Bünyad Məmməd oğlu, "8 Mart" adına kolxozun kolxozçusu Əsəd Orucov və b. bildirmişdilər ki, 1942-ci il fevral ayının 25-də özünü "müqəddəs" elan edən M.Abdıyev əmisinin təhriki ilə 100 nəfərdən çox kolxozçunu mənzilinə yığaraq molla Pənah Avdıyevlə əks-inqilabi təslimçi təbliğat aparırlar. Abdıyevin izahatından məlum oldu ki, əmisi oğlu da Abdıyev Abdı Zeynal oğlu antisovet təbliğatı aparırdı. Abdıyev Abdı Zeynal oğlu həbs olunmuş, Molla Pənahla əlaqədar istintaq işi davam etdirilmişdir.[1]

Köçüb gedən şəxslər haqqında təxliyə hospitalları şöbəsinin 2-ci bölməsinin baş əməliyyat müvəkkili, dövlət təhlükəsizlik orqanının leytenantı Çuraşovun Azərbaycan K(b)P MK-ya ünvanladığı 21 sentyabr 1942-ci il tarixli arayışında təxribatla məşğul olan bir neçə şəxs haqqında məlumat verilirdi. Onlardan biri 1895-ci il təvəllüdlü, Ermənistan SSR Zəngəzur rayonunun Balax kənd sakini, milliyyətcə erməni, ÜİK(b)P üzvü, Stalin adına Zavodun 2-ci sexinin 202 №-li qurğusunun briqadiri, vətəndaş müharibəsi dövründə daşınaq ordusunda sıravi xidmətə səfərbər olunan **Oqanov Leon Arutyunoviçdir.**

1888-ci ildə anadan olmuş, Saratov vilayəti Aşkar rayonu Zemlyanoy xutor sakini, milliyyətcə rus, ÜİK(b)P üzvü, Stalin adına Zavodun 2 №-li sexinin baş yük operatoru antisemit **Mordvinov Mixail Vasilyeviç** sovet əhval-ruhiyyədə köklənərək şovinizm nümayiş etdirmişdir. Antisemitdir. 1941-ci ildə ilk partiya təşkilatı qeyri-təvazökarlığına və intriqa yaratdığına görə XDİK və partiyadan xaric olunan Mordvinov 1938-ci ildə yanacaq çəkilməsində qəza törətmişdi. Milləyyətcə rus **Vyaxirev Fyodr Filippoviç** 1878-ci ildə anadan olmuşdur, Tbilisi sakinidir. 1929-cu ildən "Qızıl Ulduz" DRES-də işləyən F.F.Vyaxirev yanacaq təsərrüfatının texniki olmuşdur.

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 185.

Adları qeyd olunanlar Oqanovun rəhbərliyi altında antisovet təbliğatı aparmışlar.[1]

Bakı şəhər Komendant İdarəsi yanında Əlahiddə avtomatçılar taqımının serjantı **Nenaxov Yakov Petroviçin** həbsi haqqında da məlumat maraq doğurur. 1918-ci il təvəllüdlü Y.P.Nenaxov Voronej vilayətinin Qryaznen rayonunun Sredne-Lukovski kənd sakini, kəndlidir. Milliyyətcə rus olan Nenaxov 4-cü sinif təhsili almış, ailəli olmuşdur. 1939-cu ildən ordu sıralarında olan Y.P.Nenaxov bitərəf idi.

Bakı şəhər Komendantı İdarəsinin Əlahiddə avtomatçılar taqımının şəxsi heyətini tərkibi yoxlanılarkən müəyyənləşmişdir ki, əsgər Nenaxov alman əsirliyində olmuş və şübhəli vəziyyətdə sovet qoşunları tərəfinə keçmiş, bu faktın komendantlıqdan və yoldaşlarından gizlətmişdir[2]. Sadalananlara əsasən Y.Nenaxov istintaqa cəlb olunmuşdur, ancaq əsir olduğunu qəti surətdə inkar etmişdir. Araşdırmalardan məlum olur ki, Nenaxov 1941-ci ilin noyabrında "Novıy Trud" xutoru rayonunda, guya hissələri ilə alman qoşunları əhatəsinə düşür və almanlar tərəfindən əsir götürülür. Nenaxovun sözlərinə görə o, əsir alındıqdan sonra Stalin vilayətindəki "Krakulstroy" hərbi əsirlər düşərgəsinə göndərilir, 1942-ci il martın əvvəlində Stalino şəhərinə atılır. Burada Nenaxov almanlar tərəfindən xüsusi qrupa seçilir, Stalino vilayətindəki "Zöqes"ə atılır. 1942-ci il may ayının 1-də Y.Nenaxov yenidən Stalinoya qayıdır, Mariupol şəhərinə göndərilir, hərbi əsirlər düşərgəsində saxlanılır. Mariupol şəhərindən seçilmiş qrupun tərkibində Y.Nenaxov, guya onun üçün məlum olmayan səbəbdən cəbhə xəttinə yaxın mövqeyə atılır. Kuropatkin şəhərinə gələn Y.Nenaxov və onun yoldaşları 1943-cü ilin yanvarında, guya keşikçilərin nəzarətindən qaçır və sovet ordusu hissələri gələnədək – 1943-cü il yanvar ayının 23-dək Moskva stanitsasında yaşayır, bundan sonra orduya çağırılır. Bakı Köçürülmə Məntəqəsində, 3677 №-li təxliyə hospitalında müalicədən sonra 1944-cü il yanvarın 3-də avtomatçılar taqımına düşür.[3]

1944-cü il iyulun 14-də Bakı şəhər Komendantı İdarəsinə 1941-ci il iyunun 12-də Bakı şəhər hərbi komissarlığında saxlanılmış **Səlimov Hüseyn Yaqub oğlu** gətirilir. H.Y.Səlimov 1917-ci il təvəllüdlü, Bakı sakini, milliyyətcə azərbaycanlıdır. İctimai vəziyyətinə görə kəndli, bitərəf, 5-ci sinif təhsilli, subaydır. 1940-cı ilin iyunundan ordu sıralarında olan H.Səlimov istintaqda orduda xidmətinə dair çaşdırıcı və bir-birinə zidd fikirlər söyləyir, ondan saxta sənədlər aşkar olunur. İstintaqın gedişində müəyyənləşir ki, Səlmovun atası Səlimov Yaqub İran vətəndaşı olmuş, 1936-cı ildə Bakıdan İrana getmiş, Səlimov Hüseyn isə anası ilə birgə Bakıya

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 221.
[2] Yenə orada, vərəq – 116.
[3] Yenə orada, Fond №1, siyahı №29, saxlama vahidi №149, vərəq – 117.

göndərilmişdi. 1940-cı ilin iyulunda Səlimov ordu sıralarına qulluğa çağırılır və 63-cü Dağ-atıcı alayında xidmət edir. 1941-ci ilin mayında siyasi motivlərlə 63-cü Dağ-atıcı alayından kənar edilən H.Y.Səlimov 1943-cü il iyulun ortalarınadək fəhlə batalyonunda quluq edir. 1943-cü ilin iyulunda orduya yaralı hesab edilən Səlimov Proxladnı şəhərindəki 106-cı ehtiyat atıcı alaya göndərilir və sentyabrın sonunda 106-cı ehtiyat alayın tərkibində 1-ci tank ordusundan çıxarılır. Səlimov bu orduda 1944-cü ilin mayınadək xidmət etmişdir.

Səlimov 25 may 1941-ci ildə hospitala göndərilir. O xidmətdən azad olmaq üçün saxta sənəd əldə edir, Bakıya gəlir və saxlanılır.[1]

Bakı qarnizonunun "Smerş" əks-kəşfiyyat şöbəsinin Azərbaycan K(b)P MK-nın Xüsusi şöbəsinə 6 iyul 1942-ci il tarixli məktubunda göstərilir ki, 1916-cı il təvəllüdlü, Azərbaycan SSR-in Bakı şəhərində doğulmuş və Bakıda yaşayan, bitərəf, orta tibb təhsilli, hərbi feldşer, hərbi rütbəli, 1941-ci ilin sentyabrından sovet ordusu sıralarında olan **Salayeva Fəridə Fərəc qızı** həbs olunmuşdu. Sorğuda F.Salayeva bildirmişdi ki, 1941-ci ilin sentyabrında Bakı şəhəri Oktyabr rayonu Hərbi Komissarlığı tərəfindən orduya səfərbər olunaraq Kutaisidəki 388-ci atıcı diviziyada xidmət etmiş, oradan cəbhəyə göndərilmişdi.

F.Salayeva Sevastopolda ordu hospitalında işləmiş və orada almanlara əsir düşmüş, əsirlərlə bərabər F.Salayevanı almanlar Baxçasaraya göndərmişlər. 1942-ci ilin avqustun 8-dək Baxçasarayda qalan F.Salayeva Slavyut düşərgəsinə atılır və 1942-ci il noyabr ayının 14-dək Slavyut düşərgəsində qalan Salayevanın dediklərinə görə əsirləri eşelona mindirərkən qaçmış, 1943-cü ilin yanvarında Jmerinkaya gələrək və Vladimir küçəsi, ev 31-də İ.İ.Molçanova adlı birisinin evində yaşamış, onun köməkliyi ilə dəmiryolu xəstəxanasında müalicə alaraq, sağaldıqdan sonra 1943-cü ilin martın 8-dək Molçanova ilə birlikdə yaşamışdır.[2]

F.Salayeva ifadəsində bildirir ki, Jmerinkadan Kotovsk şəhərinə gəlir və orada rumın jandarması tərəfindən saxlanılır, 3 gün istintaqda qaldıqdan sonra Tiraspoldakı 5 №-li düşərgəyə göndərilir. Həmin düşərgədə 1944-cü ilin martın 18-dək saxlanılır. Salayeva guya bu düşərgədən də "qaçmağa müvəffəq olur", cəbhə xəttinə gəlir və 5-ci ordu "**Smerş**" əks-kəşfiyyat şöbəsi tərəfindən saxlanılır. F.Salayeva 1944-cü il mayın 14-də azad olunur və digərləri ilə birlikdə Tuapse donanma ekipajına göndərilir. Lakin Tuapsedə onu qəbul etməyərək Odessa vilayətindəki Antonovka kəndində

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 129.

[2] Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 6 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 29, ед.хр. №140, лист –125.

yerləşən göndərilmə məntəqəsinə geri qaytarılır, ancaq "yolda Bakıda yaşayan qohumlarını görmək qərarına gəlir" və Bakıya gəldikdən dərhal sonra yenidən saxlanılır.[1] 1944-cü il iyunun 19-da 1921-ci il təvəllüdlü, Azərbaycan SSR Salyan rayon sakini, orta təhsilli, bitərəf, 1940-cı ildən orduda olan **Zeynalov Hacı Ağa Rüstəm oğlu** şübhəli şəxs qismində saxlanılır. Aparılmış araşdırmalardan aydın olur ki, H.A.Zeynalov sıravi əsgər kimi 1940-cı ilin iyunundan Kaunasda dislokasiya olunmuş 176-cı qısa lüləli top artilleriya alayında xidmət etmişdir. Kaunasda hospitalda müalicə olunan vaxt-iyunun 27-də H.Zeynalov almanlar tərəfindən əsir götürülmüş və Litvada Kayşadu şəhərində düşərgədə saxlanılmış, sonra Almaniyaya göndərilmişdir. H.Zeynalov Almaniyada 4,5 ay – 1941-ci ilin noyabrından 1942-ci ilin aprelinədək qalır, sonra Radom düşərgəsinə keçirilir. H.Zeynalovun ifadəsinə görə, 1942-ci ilin iyulunda "qaçmağa müvəffəq olmuş", ancaq alman jandarması tərəfindən tutulmuş və Karşafa altında yerləşən düşərgəyə göndərilmişdir. 20 gün düşərgədə qalan H.Zeynalov guya ikinci dəfə qaçmış, Varşava şəhərinə gəlmiş, oradan Ukraynaya getmişdir.[2] 1942-ci il dekabrın sonunda Zeynalov Zaporejyedə "Spartak" kinoteatrının nəzarətçisi işləyən Jora adlı birisi ilə tanış olur, onun vasitəsi ilə Menyaylonun evində son vaxtlaradək yaşayır. Menyaylonun evində yaşadığı dövrdə alman polisi tərəfindən həbs olunur, Yekaterinanın işə qarışması ilə azad olunur. Zeynalov Menyaylo ilə Zinaidze Leonid familiyası ilə tanınılır. Ərazisi Sovet ordusu tərəfindən azad olunduqdan sonra Zeynalov-Zinaidze döyüşlərdə iştirak edir, Krivoy Roq altında 1944-cü il dekabrın 3-də yaralanır, ezamiyyə alaraq Salyana gedərkən Bakıda saxlanılır. H.Zeynalovun ifadələrinin təhlili göstərir ki, o aldadıcı ifadələr verir və bir-birinə zidd fikirlər söyləyir. Onun əsir götürülməsi, „qaçması", Almaniya, Polşa və Ukraynadakı hərəkətləri ciddi şübhə doğurur.[3]

1944-cü il iyunun 13-də Mahaçqaladakı göndərilmə məntəqəsində 1628 №-li Təxliyə Hospitalından daxil olmuş 1908-ci il təvəllüdlü, Poltava vilayəti, Qradej rayonu Jovnina kəndində yaşayan, kəndli, milliyyətcə ukrain, 2-ci sinif təhsilli, 1941-ci ilin iyulundan orduda olan sıravi **Vasilenko Mixail Semyonoviç** saxlanılır və Poltava vilayətini almanlar işğal etdiyi dövrdə Jovnin kəndində almanlarda polisdə xidmət etdiyi üçün həbs olunur.

Kimdir Vasilenko? M.S.Vasilenko Sovet ordu hissələri daxil olanadək kolxozda işləmiş, sonra orduya səfərbər olunmuş, 2-ci Ukrayna cəbhəsi 69-

---

[1] Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП (б) Азербайджана М.Д.Багирова от 6 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 29, ед.хр. №140, лист – 126.

[2] Yenə orada, лист –121.

[3] Yenə orada, лист –122.

cu əlahiddə cərimə taboruna göndərilmişdir. Bu bölüyün tərkibində Vasilenko 1943-cü il dekabrın 17-dək, onun sözlərinə görə döyüşdə iştirak etmişdir. 1944-cü il yanvarın 11-də yaralanmış, müalicə üçün 1628 №-li Təxliyə Hospitalına göndərilmiş və saxlanılanadək orada olmuşdur.[1]

Sorğuda Vasilenkonun ifadəsindən məlum olur ki, o, almanlar tərəfindən ələ keçirilənədək xəstəliyi ilə əlaqədar hospitalda müalicə olunur, hospitalı tərk edəndə Yovnin kəndinə yollanır. Kəndin starostası Vasilenkonu polisdə işləməyə göndərir, 5 ay xidmət edir, guya xəstəliyinə görə xidmətdən azad olunur. **Bakı** şəhər qarnizonunun "**Smerş**" əks-kəşfiyyat şöbəsi tərəfindən yoxlama nəticəsində şübhəli bilinən hərbi qulluqçular – 1917-ci il təvəllüdlü, Krasnodar ölkəsi Qulkevir rayonu Maykop stansiyası sakini, milliyyətcə **rus**, bitərəf, orta təhsilli, evli, öz sözlərinə görə mühakimə olunmayan, 1940-cı ildən orduda olan baş leytenant **Qubarev Aleksey Fyodroviç**, 1923-cü il təvəllüdlü, Bakı sakini, milliyyətcə **erməni**, ÜİK(b)P üzvlüyünə namizəd, 9-cu sinif təhsilli, öz sözlərinə görə mühakimə olunmayan, 1941-ci ildən Sovet ordusunda olan baş leytenant **Oqanesov İvan Aramoviç**, 1922-ci il təvəllüdlü, Tbilisi şəhər sakini, milliyyətcə **erməni**, bitərəf, 8-ci sinif təhsilli, öz sözlərinə görə mühakimə olunmayan, 1941-ci ildən Sovet ordusu sıralarında olan sıravi **Luçyan Aşot Mixayloviç** həbs olunurlar.

Bakı şəhər qarnizonunun "**Smerş**" əks-kəşfiyyat şöbəsinin rəisi **Mxitarov-Mraçnı**nın M.C.Bağırova göndərdiyi 6 iyul 1944-cü il tarixli 03423 №-li xüsusi məlumatında bildirilir ki, Qubarev 83-cü Qırmızı bayraqlı Novosibirsk Əlahiddə Dəniz briqadasında (Əlahiddə Primorsk ordusu) 16-cı əlahiddə atıcı alayı Qərargahının rəis köməkçisi vəzifəsində, sonra həmin briqadanın 613-cü hücumçu alayında qərargah rəisi vəzifəsini müvəqqəti icra edir.[2] Qubarev 1944-cü il aprelin 12-dən mayın 28-dək 4546 №-li hərbi hospitalda müalicədə olduğu dövrdə Oqanyan və Luçyanla tanış olur, hospitalın komandanlığı ilə razılaşaraq birlikdə Simforopolda dislokasiya olunan 83-cü briqadaya göndərilir. Qubarevin sözlərinə görə, iyunun 1-də Simforopola gələndə artıq 83-cü briqada orada olmadığından Karasu-Bazara göndərilir. Sonrakı istintaqda Qubarev saxta sənədə malik olduğunu və sənədi Karasu-Bazardan "Jora" adlı tanımadığı adamın köməyi ilə 2-ci dəniz piyadası briqadası möhürü və ştampı olan təmiz blanklar əldə etdiyini boynuna alır.[3] Oqanyan və Luçyan da özlərinə Bakı və Tbilisiyə

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №140, vərəq – 119-120.

[2] Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 6 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 29, ед.хр. № 140, лист –123.

[3] Yenə orada, vərəq –124.

saxta ezamiyyə yazaraq, qrup şəklində Tbilisiyə getmək istəsələr də, həbs olunurlar. Yoxlama zamanı məlum olur ki, J.Qubarev alman kəşfiyyatının agenti kimi axtarışdadır. Qubarevdən axtarış zamanı hərbi möhürlü gizli sənədlər, alman qəzetlərindən kəsiklər, marka, bloknot aşkar olunur.[1]

Bakı şəhər Qarnizonunun "SMERŞ" əks-kəşfiyyat şöbəsinin 07 iyul 1944-cü il tarixli 03520 №-li xüsusi məlumatında şübhəli şəxs qismində saxlanılan **Şepak Potap Korneyeviç** haqqında məlumat verilir.

Kimdir Potap Korneviç Şepak? O, 1905-ci ildə anadan olmuş, Poltava vilayəti İrkleyev rayonu Krutki kənd sakinidir. Milliyyətcə ukraindir, kəndlidir, 2-ci sinfi bitirib. 1943-cü ildən Qızı Ordu sıralarında olduğu məlumdur. P.K.Şepakın həbs edilməsi "Nikoladze" ləqəbli casusdan daxil olan məlumat əsasında həyata keçirilmişdi. Məlumatda bildirilirdi ki, Bakı Yolasalma Məntəqəsində Şepak Potap Korneviç familiyalı hərbi qulluqçu 1943-cü ilin martında Almaniyanın Breslavl şəhərində alman cəza dəstəsində olan casus kimi tanınır. Şepak tutulan zaman yolda bildirir ki, o 1943-cü ilin noyabrında ordu sıralarına çağırılmış, 1944-cü ilin fevralınadək qulluq etmiş, yaralandığına görə ordudan çıxarılmış, müalicədən sonra Bakı Yolasalma Məntəqəsinə gəlmişdir. Daha sonra Şepak ifadə vermişdir ki, almanların Krutki kəndini işğal etdikləri dövrdə o, həmin kənddə yaşamış və heç yerə getməmişdir.[2]

P.Şepakın sözlərinə görə 1942-ci ilin fevralında Almaniyaya göndərilində guya bir dəfə Fastova stansiyasında eşelondan qaçmağa müvəffəq olur, Krutki kəndinə gəlir, orada əvvəlcə almanlardan gizlənir, sonra həmin kənddə işləyir. Bununla da Şepak Almaniyada olmasını inkar edir. 1944-cü il iyunun 30-da "Nikoladze" adlı casusun ifadəsi əsasında Şepak vətən xaini kimi həbs olunmuş və istintaqa cəlb edilir.[3]

Anitisovet təşkilatlar və qruplar

Müharibə illərində ölkənin gəncləri arasında bir sıra ziyalılar tərəfindən azadfikirlilik artırılmağa başlanılmışdı. Müharibənin ilk illərində Daxili İşlər Nazirliyi ilk antisovet təşkilatını aşkar etmişdi. Bu təşkilatın üzvləri İsgəndərli Süleyman Əli Abbas oğlu, Tağıyev Ələsgər Səttar oğlu, Mustafayev Çingiz Seyfulla oğlu, Rzayev Məmmədhüseyn Həbib oğlu, Ağayev Hüseynağa Mirqasım oğlu, Məmmədov Ağa Ələsgər Rza oğlu, Rzayev Saleh Əbdülhüseyn oğlu, Mehdiyev Zaman Zeynal oğlu 1942-ci il sentyabr ayının

---

[1] Спецсообщение начальника отдела контрразведки «Смерш» Народного Комиссариата Обороны Бакгарнизона майора Мхитарова-Мрачного на имя секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова от 6 июля 1944 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №140, лист –124.

[2] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №149, vərəq – 101.

[3] Yenə orada, vərəq – 102.

18-də həbs edilmişdilər. "İldırım" adlı təşkilatın üzvləri olan bu gənclər "antisovet fəaliyyətdə" təqsirləndirilərək müstəntiq milliyyətcə erməni Aruşanov və onun "həmfikirləri" tərəfindən istintaq aparırdılar. Gənclərin həbs olunmasına dair arayışda göstərilirdi ki, onlar Türkiyəyə meylli olaraq Azərbaycanı SSR-i SSRİ-dən ayrılmağı qarşılarına məqsəd qoymuş, əksinqilabı vərəqələr yaymağa hazırlaşmışlar.

Məhkəmə İsgəndərov (İsgəndərli) Süleyman Əli Abbas oğlu, Tağıyev Ələsgər Səttar oğlu və Rzayev Məmmədhüseyn Həbib oğlunun güllələnməsi, Mustafayev Çingiz Seyfulla oğlu, Ağayev Hüseynağa Mirhaşım oğlu, Məmmədov Ağa Ələsgər Rza oğlu, Rzayev Saleh Əbdülhüseyn oğlu və Mehdiyev Zaman Zeynal oğlunun 10 il müddətinə azadlıqdan məhrum edilməsi haqqında hökm çıxarmışdı.[1]

1959-cu il oktyabrın 11-də Cənubi Qafqaz Hərbi Dairəsinin prokuroru 4438 saylı işə yenidən baxır və iş üzrə qərar çıxarmışdı. Qərarda adları yuxarıda qeyd olunan gənclərin istintaqının düzgün aparılmadığı və onların əsassız ittiham olunduğu göstərilmişdi. 1959-cu il dekabrın 1-də SSRİ Baş Hərbi prokuroru iş haqqında etiraz yazaraq göstərir ki, İsgəndərov, Tağıyev və başqalarının ittihamı özlərinin etirafı üzərində qurulmuş, digər sübutlar əldə olunmamışdır.

1960-cı il yanvarın 5-də Cənubi Qafqaz Hərbi Dairəsinin hərbi tribunalı 227 №-li qərarı ilə müəyyən edir ki, ittihamlar gənclərin etirafı əsasında qurulmuş, müttəhimlərin ifadələri obyektiv materiallarla təsdiq edilməmişdi. Tribunal SSRİ Ali Soveti Rəyasət Heyətinin 14 avqust 1954-cü il tarixli fərmanını əsas tutaraq 1942-ci il 31 oktyabr tarixli hökmü ləğv etmişdi.[2] Göründüyü kimi, Azərbaycan xalqının cəlladı olan Aruşanov və başqaları, "sapı özümüzdən olanlar" səkkiz gəncin həyatını saxta ittihamlarla məhv etmişdilər. Bununla iş bitmir. DTK yeni "antisovet təşkilatlar" axtarışını davam etdirir və belə təşkilatlardan biri 4 ildən sonra „aşkara çıxarılır". Hadisə belə baş verir. 1944-cü ilin may ayında Azərbaycan Yazıçılar İttifaqının sədri şair Səməd Vurğunun adına "Dönməzlər" imzası ilə məktub daxil olur. Məktubun müəllifləri S.Vurğuna böyük ehtiramlarını bildirməklə bərabər, Azərbaycan xalqının milli hüquqlarından istifadə edə bilməməsindən, təhsil almaq istəyən uşaqların imkanlarının olmamasından, ali məktəblərdə tədris edilən elmi kitabların dilimizə tərcümə edilməməsindən, cəbhədə ruslarla birlikdə çalışan azərbaycanlıların milli dövlət dilinə malik olmamalarından, ədəbiyyatımızın süniləşdirilməsindən və çərçivəyə salınmasından narahatlıqlarını ifadə edir, Azərbaycan xalqının istiqlaliyyəti uğrunda sona qədər mübarizə edəcəklərinə and içdiklərini bildirirlər. Məktubun sonunda böyük şairdən xahiş edirlər ki, onların fikirləri ilə razılaşsa

[1] Ziya Bünyadov. Qırmızı terror / Bünyadov Ziya. – Bakı, 1993. – s.282-303.
[2] Yenə orada, s.302-304.

Azərbaycanın şərəfinə "Vətən ulduzları" adlı bir şeir yazsın. Təbii ki, S.Vurğun bu məktubu üzə çıxara bilməzdi.

"Dönməzlər"in 11 may 1944-cü il tarixli məktubu 1948-ci ilin sentyabrında DTK-nin əməkdaşlarının əlinə keçir. Ekspertlər müəyyən edirlər ki, məktubu Azərbaycan Dövlət Pedaqoji İnstitutunun aspirantı İsmixan Məmməd oğlu Rəhimov yazmışdı.[1] Beləliklə, 1948-ci il sentyabr ayının 26-da İ.Rəhimov həbs olunur. İstintaq nəticəsində özlərinə "İldırım" adını götürmüş təşkilatın daha bir neçə üzvü həbs edilir. Nəhayət, Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) aspirantı İsmixan Məmməd oğlu Rəhimov, Azərbaycan Dövlət Universitetinin (indiki BDU) aspirantları Gülhüseyn Hüseyn oğlu Abdullayev, Azər Abdulxalıq oğlu Ələsgərov, Azərbaycan Dövlət Universitetinin Şərq fakültəsinin V kurs tələbəsi Hacı Həbib oğlu Zeynalov, Azərbaycan Sənaye İnstitutunun V kurs tələbəsi Kamal Əlibaxış oğlu Əliyev, Azərbaycan Sənaye İnstitutunun (indiki Bakı Neft və mühəndislər Universiteti) tələbəsi Aydın Məcid oğlu Vahidov, Azərbaycan Pedaqoji İnstitutunun aspirantı Musa Mirməmməd oğlu Abdullayev, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Bakı İqtisad Universiteti) tələbəsi Kamil Əbdülbağı oğlu Rzayevin istintaqı başa çatır və İttihamnamə tərtib olunur. **1949-cu il martın 21-22-də** Muradovun sədrliyi, prokuror Ramazanov, vəkillər Hacıyev, Davidov və Həsənovun iştirakı ilə məhkəmə iclası keçirilir. Prokuror Ramazanov 5 il seçki hüquqları alınmaq və əmlakları 100% müsadirə olunmaqla İsmixan Rəhimov, Gülhüseyn Abdullayev və Hacı Zeynalova **25 il**, Kamal Əliyev, Aydın Vahidov, Azər Ələsgərov və Musa Abdullayevə **10 il** azadlıqdan məhrum etmə cəzası tələb edir. Məhkəmədə prokuror Ramazanovun istəyi təmin olunur.[2] Belə bir qərarın qəbul edilməsi sovet rejiminin tələblərindən irəli gəlirdi.

1953-cü il martın 27-də SSRİ Ali Soveti Rəyasət Heyətinin "Amnistiya haqqında" fərmanı dərc olunur. 1955-ci ilin əvvəllərində məhkumların qohumları şikayət ərizələri yazaraq onların əfv olunmalarını xahiş edirlər. 1955-ci il fevralın 14-də işi araşdıran Azərbaycan SSR-in xüsusi işlər üzrə prokurorunun müavini müttəhimlərin düzgün ittiham olunmaları barədə qərar çıxarır, lakin qərarda qeyd edilməsi "İldırım" adlı təşkilatın üzvləri heç bir praktiki iş aparmadıqları üçün onların gəncliyi nəzərə alınaraq İ.Rəhimov, G.Abdullayev və H.Zeynalovun məhkumluğunun müddəti **25 ildən 10 ilə**, K.Əliyev, A.Vahidov, A.Ələsgərov, M.Abdullayev və K.Rzayevin cəzaları isə 5 ilə endirilir. 1955-ci ilin may ayında onlar həbs yerlərindən azad edilir və üzərlərindən məhkumluq götürüldü.

1956-cı il iyulun 22-də SSRİ Ali Məhkəməsinin Cinayət işləri üzrə Məhkəmə Kollegiyası İsmixan Rəhimov, Gülhüseyn Abdullayev, Hacı Zey-

---

[1] Ziya Bünyadov. Qırmızı terror. Bünyadov Ziya. – Bakı, 1993, s.309.
[2] Yenə orada, s.319.

nalov, Azər Ələsgərov, Musa Abdullayev, Kamal Əliyev və Kamil Rzayevin işlərində cinayət tərkibi olmadığı üçün Azərbaycan SSR Ali Məhkəməsinin 1949-cu il 21-22 mart tarixli hökmünü və 1955-ci il 9 aprel tarixli qərarını ləğv edir, iş xətm olunmuşdur. [1]

Azərbaycan SSR XDİK-nın 17 fevral 1942-ci il tarixli 35701 №-li qeydlərində bildirilirdi ki, Bakı şəhərinin tələbə gənclər arasında antisovet fikirlərə dair siqnallar daxil olmaqdadır. Düşmən elementlər gənclər arasında işi fəallaşdırır, şəhər məktəblərində şagirdlərin kommunist tərbiyəsində nöqsanlar müşahidə edildi. Ayrı-ayrı komsomol təşkilatlarının zəif işinin nəticəsində gənclərdə inamsızlıq fikirləri səslənir, antisovet təslimçilik, faşistyönümlü əhval-ruhiyyə formalaşdırmağa cəhd olunur, əks-inqilabi qruplar yaranmağa başlamışdı. Bakı şəhərindəki 174 №-li məktəbin yuxarı sinif şagirdləri Qalina Fritş, Abram Amasyan və başqaları məktəbin ictimai-siyasi həyatından uzaqlaşaraq evlərində antisovet yönümlü tarixi-ədəbi dərnək təşkil edərək digər yuxarı sinif şagirdlərini dərnəyə cəlb etmişdi.

Texniki peşə məktəblərində şagirdlər arasında intizamın zəiflədiyi, şagirdlərin oğurluq və digər cinayətlərlə məşğul olduğu, bəzi tələbələrin pozuculuq işləri apardığı, narkotik maddələr əldə etdiyinə dair faktlar müəyyənləşdirilir. Araşdırma nəticəsində müəyyən olunur ki, Bakı şəhərinin Oktyabr rayonundakı (indiki Yasamal rayonu) 4 №-li peşə məktəbindən 48 şagird məktəbdən yayınmışdı. Şagirdlərin 12 nəfəri Gəncə, 20 nəfəri Xanlar (indiki Göygöl) rayonundan gələnlər, 18 nəfəri Bakıda yaşayanlar idi.[2] 4 №-li peşə məktəbinin siyasi rəhbər köməkçisi Əliyev məktəbdə partiya və komsomol üzvləri ilə işin təşkilinə məsul olmasına baxmayaraq ustalardan Sadıxova, Quliyeva, Mehdiyeva, Məmmədova, Abdullayeva, tərbiyəçilərdən Rəcəbova, Əliyeva və Abdurahmanovadan ibarət millətçi qrup yaratmışdı.

Aparılmış tədbirlər nəticəsində tələbələr və şagirdlər arasında antisovet fikirlər yayan, qruplar yaradanlar aşkara çıxarılmışdı. Bu qrupun üzvləri keçmişdə mülkədar və Almaniya ilə qohumluq əlaqələri olanlar, həmçinin qohumları əks-inqilabi fəaliyyət üstündə repressiya olunanların uşaqları, əsasən pedaqoji institutun keçmiş alman tələbələri idi. Bu qrupun tərkibində olan Şilinq Valter Qotloboviç, Reynqardt Valter Qotloboviç, Onqemax Viktor Reynqoldoviç və başqalarına pedaqoji institutun keçmiş tələbəsi Kox Yevgeni rəhbərlik edir, tələbələr arasında faşist təşviqatı aparır, təxribatçı və köçkün əhval-ruhiyyə yaradır, əks-inqilabi vərəqələr, sovet hökuməti və partiya rəhbərləri haqqında uydurmalar yayırdılar. Qeyd olunanların hamısı həbs olunaraq mühakimə edilmişdilər.[3]

---

[1] Ziya Bünyadov. Qırmızı terror / Bünyadov Ziya. – Bakı, 1993, s.323-324.
[2] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 291.
[3] Yenə orada, vərəq – 293.

Komsomol təşkilatı sıralarına daxil olanlar içərisində antisovet təslimçilik və faşistlərin xeyrinə fikirlər söyləyən düşmən elementlərin olduğu müəyyənləşmişdi. Türkiyədə qohumları olan Azərbaycan Sənaye İnstitutunun neft mədənləri fakültəsinin IV kurs tələbəsi Gülbala Məmmədov: "Əgər almanlar Tbilisiyə qədər gəlsələr hamının görməsi üçün əlimi yuxarı qaldıracağam"[1] demişdi.

Azərbaycan Sənaye İnstitutunun (indiki Bakı Neft və Mühəndislər Universiteti) mexanika fakültəsinin IV kurs tələbəsi İsmayıl Xanbutayev, ADU-nun hüquq fakültəsinin tələbəsi Rəfael Osipov, ADU-nun (indiki BDU) tarix fakültəsinin III kurs tələbəsi Roykova Qalina Pavlovna, ADU-nun tələbəsi Leyvikova Sara Davidovna təslimçilik əhval-ruhiyyəsi yayır, partiya və hökumət rəhbərləri haqqında əks-inqilabi fikirlər səsləndirirdilər.[2]

SSRİ Ali Soveti Rəyasət Heyətinin subaylardan və övladsızlardan vergi tutulması haqqında fərmanı dərc olunduqdan sonra ADU-nun filologiya fakültəsinin IV kurs tələbəsi İraida Şpanova, Azərbaycan Sənaye İnstitutunun Neft Mədənləri fakültəsinin V kurs tələbəsi, qohumu Almaniyada və Türkiyədə olan Mir Səlim Məmmədzadə, yenə həmin institutun tələbəsi Nuriyev David Piri oğlu həyatdan bezdiklərini, orduya aparılmamaq üçün qəsdən əllərini zədələdiklərini bildirmişdilər.[3]

ADU-nu bitirən və radist kursunda oxuyan Şulqa Viktor Andreyeviç demişdi: "…mövcud quruluşu dəyişmək lazımdır …qəzetlərin yazdıqları hamısı yalandır, onlar həqiqəti yazmağa qorxurlar və cəbhədəki vəziyyəti xalqdan gizlədirlər. Bax, tezliklə almanlar gələcək, Bakını tutacaq və onda yeni həyat başlayacaq. İndidən çevrilişdən sonrakı ticarətə başlamaq lazımdır, biz sahibkar olacağıq və hökumətə tabe olmayacağıq". Sonda Şulqa bəyan etmişdi: "Radist kursunu bitirdikdən sonra mən çalışacağam ki, cəbhəyə getməyim, əgər getsəm və məni döyüşə göndərmək istəsələr, arxaya çəkilib əsir düşəcəm". Oxşar fikirləri Sənaye İnstitutunun Neft Mədənləri fakültəsinin tələbəsi Əsgərov Seyfəl Cəlal oğlu da səsləndirirdi.[4] ADU-nun filologiya fakültəsinin 1-ci kurs tələbəsi K.Spridonova yad adamların təsiri altında təhsilini yarımçıq qoyaraq tələbələrin antisovet qruplara cəlb edilməsinə səfərbər olunmuşdu.

Digər 5 nəfərlik millətçi qrupa Azərbaycan Pedaqoji İnstitutun (indiki ADPU) 5 tələbəsi – Əliheydər Rüstəmov, Hüseyn Məmmədov və b. daxil idi. Onlar azərbaycanlı tələbələr arasında türkçülük təşviqatı apararaq Almaniya və Türkiyə ilə ittifaqın vacibliyini və SSRİ-nin məğlubiyyətinin qaçılmaz olduğunu təbliğ edir, tələbələri Azərbaycanın azadlığı uğrunda Sovet

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 289.
[2] Yenə orada, vərəq – 290.
[3] Yenə orada.
[4] Yenə orada, vərəq – 291.

hökumətinə qarşı mübarizə çağırırdılar. Adları qeyd olunanlar və onların həmfikirləri həbs olunaraq mühakimə olunmuşdular.

Arxiv sənədləri təsdiq edir ki, 1942-ci ilin əvvəllərində Bakıda 1941-ci ilin iyulunda rəsmiləşdirilmiş yəhudi gənclərdən ibarət antisovet millətçi qrup aşkar edilmişdi. Qrupa 1917-ci il təvəllüdlü, Bakı şəhər sakini, yəhudi, məşğuliyyəti olmayan Sander Asir Semyonoviç, 1916-cı il təvəllüdlü, Bakı şəhər sakini, milliyyətçi yəhudi, bitərəf, müəyyən məşğuliyyəti olmayan Patner Noy İsaakoviç,[1] 1924-cü il təvəllüdlü, Tbilisi şəhər sakini, yəhudi, Ümumittifaq Lenin Kommunist Gənclər İttifaqının üzvü (bundan sonra ÜİLKGİ) Azərbaycan Dövlət Musiqi Məktəbinin tələbəsi Konstantinovski Yakov Abramoviç,[2] 1923-cü il təvəllüdlü, Bakı şəhər sakini, yəhudi, bitərəf, 9-cu sinif təhsilli, həbs olunan vaxt Aviasiya Texnikumunun tələbəsi Vitels Teodor Qriqoryeviç, 1923-cü il təvəllüdlü, Bakı şəhər sakini, atası çex, anası yəhudi, bitərəf, həbs olunan vaxt Aviasiya Texnikumunun tələbəsi Knol Boris Vyaçeslavoviç[3] daxil idilər. Qrupun hazırlanmış fəaliyyət Nizamnaməsi olmuşdur. Qrup düşmən əhval-ruhiyyəli şəxslərin təşkilata cəlb olunması işini aparır, müntəzəm olaraq toplantılar keçirir, yeni qəbul olunmuşların ərizələri araşdırılaraq əks-inqilabi yönümdə müzakirələr aparılır, partiya və sovet hökumətinin daxili və xarici siyasətinə dair millətçi fikirlər səsləndirilirdi. Bundan əlavə qrup iştirakçıları toplantılarında əks-inqilabi şerlər yazmaq və oxumaqla məşğul olurdular. Həbs olunanlardan biri – **Sander Asir Semyonoviç** demişdi: "Bizim hamımızı antisovet görüşlərimiz və sovet quruluşuna qarşı inamsızlığımız birləşdirirdi…Biz hamımız SSRİ-nin məğlubiyyətinə əminik, əgər SSRİ qalib gəlsə, biz özümüz üçün heç bir perspektiv görmürük, hesab edirik ki, Sovet İttifaqında gənclərin həyatı ümidsiz, darıxdırıcı olub söz və mətbuat azadlığı yoxdur. Fikrimizcə, ideal siyasi quruluş yalnız Amerika və İngiltərədədir…Belə hesab edirik ki, Qafqazda vəziyyəti dəyişən anda… mütləq yeni hakimiyyətin xeyrinə çıxış edən güclü qrupa çevrilməliyik".[4]

Digər ittiham olunan **Konstantinovski Yakov Avramoviç** dindirmədə bildirmişdi ki, o, sovet hakimiyyəti əleyhinə hər hansı üsyan və ya açıq çıxışın qrupun iflası ilə nəticələnə biləcəyinə əmin olduğundan vəziyyətdən çıxış yolu kimi gözləməyi, kütləni təşviqat və təbliğatla öz ideyalarına müəyyən anadək hazırlamağı və Sovet hökuməti əleyhinə hər hansı əks-inqilabi təşkilatın fəal hərəkəti başlayanda onlarla birləşməyi doğru yol hesab edir.[5] Əks-inqilabi mövqeli qrupun iştirakçıları istintaqda iddia etmişlər ki, "…yəhudi xalqının bütün dünyada mühüm vəzifələrə namizədliyə

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 293.
[2] Yenə orada, vərəq – 293-294.
[3] Yenə orada, vərəq – 294.
[4] Yenə orada.
[5] Yenə orada.

haqqı var, yalnız Amerikada yəhudilər özlərinin maddi və mənəvi şəraitini təmin edə bilirlər. SSRİ-də yəhudilər müəyyən çərçivədə qalmışlar … Birobidcanda yəhudilər üçün yaradılmış şərait çox ağırdır”.[1]

Azərbaycan SSR XDİK dövlət təhlükəsizlik xidməti baş mayoru T.Yaqubovn 22 fevral 1942-ci il tarixli arayışında 9 nəfərin həbs olunduğu bildirilir. Həbs olunanlar – Pankratov Sergey Petroviç, Koşkaryev Aleksandr Andreyeviç, Muryanov Markel İvanoviç, Qaşetskiy Stanislav Stanislavoviç, Qurenkov Semyon Artyomoviç, Kovalenko Pavel Vasilyeviç, Morozov İvan Yevdokimoviç, Kalaşnikov Konstantin Nikolayeviç və Luşnikov Nikolay İlyiç “Azneftzavod” Trestinin nəzarət-ölçü Emalatxanasının işçiləridir.[2]

Adları qeyd olunanlardan ibarət antisovet qrup 1940-cı ilin əvvəlində radio həvəskarları dərnəyi adı altında formalaşmışdı. Qrupun üzvləri nəzarət-ölçü cihazları emalatxanasının həyətində və ya binasında yeni radiotexnikanı öyrənmək adı altında məşğələlər keçirir, radio aparatları ilə əlaqədar məsələləri araşdırmaq əvəzinə, Sovet hökumətinin və ÜİK(b)P keçirdiyi tədbirləri müzakirə edərək antisovet ruhda tənqid edirdilər. Faşist Almaniyasının SSRİ-yə hücumu ilə əlaqədar toplantılarda antisovet istiqamətləri müzakirə edərək cəbhədə vəziyyət haqqında Sovet İnformasiya Bürosunun məlumatı tənqid olunur, iştirakçılar təslimçilik ruhda fikirlər səsləndirirdilər.[3]

İttiham olunun Pankratov qrupun təşkili və formalaşması haqqında 1941-ci il dekabrın 5-dəki dindirilmədə demişdi: “1939-cu il mayın ortalarında Koşkaryev “Radio həvəskarları” adlı qrup təşkil etdi. Qrupa Koşkaryev Aleksandr Andreyeviç, Muryanov Markel İvanoviç, Qaşetski Stanislav Stanislavoviç, Qurenkov Semyon Artyomoviç, Kovalenko Pavel Vasilyeviç, Morozov İvan Yevdokimoviç, Kalaşnikov Konstantin Nikolayeviç və Luşnikov Nikolay İlyiç, o cümlədən mən daxil oldum. Koşkaryev qrup üzvləri qarşısında çıxış edərək dərnəyin qarşısında radiotexnikanı öyrənmək vəzifəsi durduğunu bildirdi. Bir müddətdən sonra mən əmin oldum ki, bizim qrup radiotexnikanı öyrənmək məsələsini təqib etmir, iştirakçılar müntəzəm toplaşaraq öz aralarında əksinqilabi təşviqat aparırlar…Mən başa düşdüm ki, “Radio dərnəyi” adı altında faktiki olaraq antisovet fəaliyyətlə məşğul oluruq”.[4]

Qrupun təşkilatçısı Koşkaryev demişdi: “Təxminən 1939-cu ilin ortalarında mən və Pankratov radio həvəskarı olduğumuzdan radiosu olan şəxslərlə görüşməyə, radiotexnika məsələlərini araşdırmağa, radioqəbul-

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 294-295.
[2] Yenə orada, vərəq – 307-308.
[3] Yenə orada, vərəq – 308.
[4] Yenə orada, vərəq – 309.

edicilərin yeni sxemlərini seçməyə və müzakirə etməyə başladıq. Sonralar bizə radioqəbulediciləri olan Muryanov, Kovalenko, İsmayılov, Pantin, Qaşetski və Frank qoşuldular. Biz hətta rəsmi radio dərnəyi yaratmağa çalışsaq da müvafiq razılıq ala bilmədiyimizdən qeyri-rəsmi radio dərnəyi yarandı. Dərnəkdə radio mövzusu ilə başlayan söhbət getdikcə zəiflədi və siyasi məcraya yönəldi, qrupun iştirakçıları antisovet görüşləri ifadə etməyə başladı. Sonra bizim qrupa radio həvəskarı olmayan şəxslər, məsələn, Luşnikov, Qurçenko, Morozov və b. daxil oldu".

İttiham olunan Muryanov dindirmədə antisovet qrupa necə daxil olması ilə əlaqədar bildirmişdi: "1940-cı ilin yayında iş yoldaşlarım Koşkaryev və Pankratov məni radio həvəskarları dərnəyində çıxış etməyə dəvət etdilər, onlar mənə dedilər ki, biz radiotexnikanı öyrənəcəyik və radio aparatlarını təkmilləşdirəcəyik. Mən radio həvəskarları dərnəyində çıxış etməyə razılaşdım…biz dərnəyi təşkil edəndə radiotexnikanı öyrənməyi qarşımıza məqsəd qoysaq da, əslində antisovet təşviqatı ilə məşğul olur və sovet hökumətinin siyasətini tənqid edən vərəqələr yayırdıq". Bu məsələ ilə əlaqədar ittiham olunan Qurçenko etiraf edirdi ki, antisovet qrupu iştirakçılarının böyük əksəriyyəti radio həvəskarları olsa da, Pankratov, Koşkaryev və b. bundan istifadə etdilər. Əvvəlcə adamlar toplaşaraq radio məsələlərini müzakirə etdi, rəsmi dərnək yaratmaq istədi, hətta bu barədə rəsmi elan asıldı", lakin müzakirə hədəfi partiya və hökumətin tədbirləri oldu.[1]

Qrupun üzvlərinin tərcümeyi-halı maraqlıdır. Dərnəyin təşkilatçısı milliyyətcə rus A.A.Koşkaryev 1892-ci il təvəllüdlüdür. Həştərxan sakinidir. Kəndli ailəsindən çıxan Koşkaryev həbs olunanadək mühakimə olunmamışdır. 1920-1921-ci illərdə Qırmızı Orduya geyim vasitələri toplanışı ilə əlaqədar rayon partiya təşkilatının qərarına etiraz etdiyi üçün ÜİK(b)P sıralarından xaric olunmuşdur. 1923-cü ildə Montin adına Zavodun keçmiş mexaniki Ajotkin və "Azneft"in rəisi A.Serebrovskinin (hər ikisi xalq düşməni kimi həbs olunub) tövsiyəsi ilə Fransanın Lion şəhərinə neftayıran qurğunun modeli ilə sərgiyə göndərilmişdi. Marseldə Koşkaryev Mirzəbəyov (tam olmayan məlumata görə Mirzəbəyov Bakıda kəşfiyyatçı olmuşdur) adlı birisi ilə tanış olmuşdur.[2]

S.P.Pankratov 1912-ci ildə anadan olub, Bakı şəhər sakinidir. Milliyyətcə rusdur. Qayınatası Şakuum Adolf Yakovleviç 1939-cu ildə əks-inqilabi cinayətə görə Azərbaycan SSR XDİK orqanları tərəfindən həbs olunsa da, azadlığa buraxılmış, 1941-ci ildə milliyyətcə alman olduğu üçün Bakıdan köçürülmüşdür. Pankratov "Azərneftzavod" da layihəçi texnik işləmişdir.

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 310.
[2] Yenə orada, vərəq – 306.

Muryanov Markel İvanoviç 1910-cu il təvəllüdlüdür. Qorki ölkəsi Lukyanov rayonu Bolşoe Polyana kənd sakini, milliyyətcə rusdur. O, 1938-ci ildə soyuq silah-xəncər saxladığı üçün 14 ay müddətinə məhkum edilmiş, bir il sonra üzvlük haqqını ödəməklə bərpa olunması təklif ilə razılaşmadığı üçün 1939-cu ildə ÜİK(b)P sıralarından xaric olunmuşdur. Həbs olunan vaxt nəzarət-ölçü cihazları emalatxanasının mexaniki yığma sexində usta işləmişdir.[1]

Qaşetski Stanislav Stanislavoviç 1895-ci ildə anadan olmuşdur. Qərbi Ukraynanın Kalinski quberniyasının Zamostye qəzasının Dolsk kənd sakinidir. Milliyyətcə polyakdır. Kəndli ailəsindən çıxmışdır. 1935-ci ildə məişət zəminində ÜİK(b)P sıralarından xaric olunan S.S.Qaşetski 1936-cı ildə "TOZ" sistemli tapançanı gizli saxladığı üçün istintaqa cəlb olunmuş, sonra bəraət almışdır. Həbs olunan zaman "Azərbalıq" gəmi təmiri zavodunda xarrat işləyirdi. 1941-ci ilədək nəzarət-ölçü cihazları emalatxanasında sex ustası işləmişdir.

Qurenko Semyon Artyomoviç 1892-ci il təvəllüdlüdür. Saratov vilayətinin Soqlaxovka kənd sakinidir. Bakıya 1924-cü ildə gəlmişdir. Milliyyətcə rus olan S.A.Qurenko kəndli ailəsində çıxmışdır. Aliment işi üzrə mühakimə olunmuşdur. 1935-ci ildə partiya nizamnaməsini kobud surətdə pozaraq 28 ay üzvlük haqqını ödəmədiyinə görə ÜİK(b)P sıralarından xaric olunmuşdur. İstehsalat baxımından xidməti vəzifəsinə səhlənkar münasibət bəsləyən işçi kimi xarakterizə olunurdu. Həbs olunan zaman nəzarət-ölçü cihazları emalatxanasında çilingər işləyirdi.

Kovalenko Pavel Vasilyeviç 1910-cu ildə anadan olmuşdur. Saratov vilayətinin Samoylovski rayonunun Yalovat kənd sakinidir. Bakıya 1929-cu ildə gəlmişdir. Kəndli-qolçomaqdır.

Morozov İvan Yevdokimoviç 1889-cu il təvəllüdlüdür. Qorkovski vilayətinin Ardat rayonunun Kruqlova kənd sakinidir, rusdur, fəhlə ailəsindəndir, mühakimə olunmamışdır. İ.Y.Morozovun bacısının əri Kruqlov terrorist kimi XDİK orqanları tərəfindən həbs olunmuşdur. Həbs olunan zaman nəzarət-ölçü cihazları emalatxanasında laboratoriya avadanlıqları sexinin rəisi idi.[2]

Kalaşnikov Konstantin Nikolayeviç 1891-ci ildə keçmiş Astraxan quberniyasının Vladimirov kənd sakinidir. Milliyyətcə rusdur. Fəhlə ailəsindən çıxmışdır. Aliment işi üzrə mühakimə olunub. Bitərəf K.N.Kalaşnikov həbs olunan zaman nəzarət-ölçü cihazları emalatxanasında çilingər idi.

Luşnikov Nikolay İlyiç 1889-cu ildə Saratov vilayətinin Xvalin rayonunun Kolubyanko kənd sakinidir. Milliyyətcə rusdur, fəhlə ailəsindən

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 306-307.
[2] Yenə orada, vərəq – 307.

çıxmışdır, bitərəfdir, mühakimə olunmamışdır. İstehsalatda yarasız məhsul buraxan işçi kimi xarakterizə edilirdi. Həbsə qədər nəzarət-ölçü cihazları emalatxanasında qaynaqçı olmuşdur.[1]

Mühakimə olunan Pankratov, Muryanov, Qurenko, Qaşetski, Kalaşnikov və b. istintaqda bildirmişdilər ki, onların bəzilərində antisovet ruhunun yaranmasının əsas səbəblərindən biri ÜİK(b)P sıralarından xaric olunmaları, yaxın qohumlarının həbs edilməsi, həmçinin cinayət və mülki işlərə görə məsuliyyət cəlb edilmələri olmuşdur. Sonrakı illərdə qeyri-sağlam əhval-ruhiyyə yavaş-yavaş inkişaf etmiş, antisovet əqidəli adamları ətraflarına cəlb etmişlər.

Mühakimə olunanlar öz ifadələrində digər iştirakçılar haqqında da məlumat verirdilər. Belələrindən biri 1912-ci ildə anadan olmuş, milliyyətcə yəhudi, Bakı şəhər sakini, bitərəf, qulluqçu ailəsində doğulmuş, istehsalatda mənfi xarakterizə olunan, nəzarət-ölçü cihazları emalatxanasında xromlaşdırma üzrə briqadir Nayxoviç Rəfail Flippoviç idi. R.F.Nayxoviçin xalası böyük sahibkar idi və uzun müddət Xarbində yaşamışdır. Müəyyənləşdirilmişdi ki, alman kəşfiyyatçıları Derbus Aleksandr Nerixoviç və Şironla əlaqədə olan Nayxoviç Andreyev adına zavodda müdafiə qərargahı üçün ultraqısadalğalı radioötürmə stansiyası hazırlayırdı. Debus Şirondan öyrənmişdi ki, bu qurğudan təyyarələrlə bombalama zamanı atəşin müəyyənləşdirilməsi üçün istifadə oluna bilər. Pankratovun ifadəsində də Nayxoviçin həqiqətən ultraqısadalğalı radioötürmə stansiyası hazırlamaqla məşğul olduğu qeyd olunurdu.[2] İştirakçılardan biri – 1914-cü il təvəllüdlü, Mineralnı Vodı şəhər sakini, milliyyətcə rus, il ərzində üzvlük haqqını ödəmədiyi üçün komsomol sıralarından azad olunan və sonra bərpa edilən, atası və qayınatası XDİK-dan çıxarılan, əks-inqilabi fəaliyyətə görə Uzaq Şərqdə düşərgədəki cəzadan qaytarılmış, istehsalat sahəsində mənfi işçi kimi xarakterizə olunan Korobko Nikolay Qriqoryeviç idi.

İştirakçı skamyasında 1888-ci il təvəllüdlü, Penza vilayətinin sakini, milliyyətcə rus, nəzarət-ölçü cihazları emalatxanasında suvaqçı olan Belsov Timofey Semyoniviç,[3] bitərəf, nəzarət-ölçü cihazları emalatxanasının keçmiş baş mühəndisi İsmayılov İsmayıl Məmməd oğlu, nəzarət-ölçü cihazları emalatxanasının keçmiş böyük mühəndisi Şmirev Nikolay Froloviç, nəzarət-ölçü cihazları emalatxanasında montyor, Qırmızı Ordu sıralarında olan Qusev Vasiliy Timofeyeviç, bitərəf, nəzarət-ölçü cihazları emalatxanasında çilingər Çernışev Semyon Timofeyeviç, ÜİK(b)P sıralarından xaric olunmuş, çilingər, saat mexanizmi emalatxanasının keçmiş ustası Pavelin İvan İvanoviç, bitərəf, priometr sexinin keçmiş briqadiri, Qırmızı Ordu sıraların-

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 308.
[2] Yenə orada, vərəq – 311.
[3] Yenə orada, vərəq – 312.

da olan Şlyaxovski İqnat Timofeyeviç, komsomolçu, nəzarət-ölçü emalatxanasının sexində böyük laborant, Qırmızı Ordu sıralarında olan Baranov Georgiy Mixayloviç, bitərəf, nəzarət-ölçü cihazları emalatxanasının keçmiş baş mühasibi Pantin Nikolay Vasilyeviç[1] də vardı.

"Azərneftzavod" Tresti rəhbərliyinin emalatxanaya rəhbərliyi məsələsinə dair emalatxana işçilərinin ifadələri maraq doğurur. İşçilərdən Tonnuus, Şmire və b. trestin rəhbərini və onun müavinini görmədiklərini bildirirdilər. Trest rəhbərinin müavini Ağayev hətta sifarişləri başqa şəxslər vasitəsilə verirdi.[2] Sənədlərin təhlili və ittiham olunanların ifadələri göstərir ki, trestdə, o cümlədən emalatxanada əmək intizamı çox aşağı səviyyədə olmuşdur. Texniki şöbənin layihəçisi S.P.Pankratov müharibə vaxtı istehsalat tələbi ilə quraşdırma işləri üzrə texnik təyin olunsa da, işi yerinə yetirməkdən imtina edərək "həbsdə oturaram, quraşdırmada işləmərəm" demişdi. Təəssüf ki, Pankratov haqqında heç bir tədbir görülməmişdir. Emalatxanada əmək intizamının aşağı olmasını komsomol təşkilatçısı və partiya üzvü Mustafayevin ifadələri də təsdiq edir. 1941-ci ilin noyabr ayında keçirilən komsomol yığıncağında Yeremeyeva bildirmişdir ki, komsomolçular arasında heç bir intizam yoxdur. İş vaxtı onlar dəhlizdə gəzir, müəyyənləşdirilmiş planı yerinə yetirmirlər.[3] Partiya Komitəsi katibi vəzifəsini icra edən Obuxov 1942-ci il yanvarın 28-də işə sərxoş vəziyyətdə çıxmış və istehsalatda qalmaqal salmışdır. Partiya təşkilatı Obuxovun məsələsini müzakirə etmək əvəzinə partiya komitəsinin katibi vəzifəsindən azad edərək töhmət vermiş, lakin Obuxov yenə də partiya komitəsinin katibi vəzifəsini icra etmişdir.[4]

İstintaqın gedişi, ittiham olunanların ifadələri göstərir ki, kollektivdə siyasi-tərbiyə işi aşağı səviyyədə qurulmuş, istər trest, istərsə də trestin yerləşdiyi Bakı şəhəri keçmiş Şaumyan Rayon Partiya Komitəsi tərəfindən emalatxanaya rəhbərlik lazımi səviyyədə olmamışdır. Müharibə şəraitində nəzarət-ölçü cihazları emalatxanasının hazırladığı qurğuların və detalların, xüsusilə neftayırma zavodları üçün böyük əhəmiyyətə malik olması baxımından bu istehsalat sahəsinin diqqətdən kənarda qalması müəmmalıdır. İlk növbədə məsələnin iqtisadi və hərbi əhəmiyyəti ilə yanaşı siyasi əhəmiyyəti də diqqət mərkəzində saxlanılmalı idi.

Anti-Azərbaycan mülahizələr

XDİK Yaqubov 24 iyun 1942-ci il tarixli arayışında[5] Azərbaycan K(b)P MK-ya bildirirdi ki, ayrı-ayrı millətlərə məxsus neft sənayesi işçiləri içərisində əks-inqilabi millətçilik mülahizələrinə rast gəlinirdi. Arayışla tanışlıq göstərir

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 312.
[2] Yenə orada, vərəq – 313.
[3] Yenə orada, vərəq – 314.
[4] Yenə orada, vərəq – 315.
[5] Yenə orada, vərəq – 201-205.

ki, mülahizələrin kökündə millətlərarası münaqişə yaratmaq, onları qarşı-qarşıya qoymaq, xüsusilə azərbaycanlılara qarşı nifrət formalaşdırmaq dayanır. Əslində bu mülahizələrin zəminində SSRİ-nin rəhbər partiya, sovet və təsərrüfat rəhbərlərinin anti-Azərbaycan milli siyasəti dayanırdı.

"Kaqanoviçneft" Trestinin mühəndisi, 1890-cı ildə anadan olmuş, bitərəf, **milliyyətcə rus** Koloninskiy Konstantin Andreyeviç demişdi: "Türkiyə Almaniya tərəfindən SSRİ-yə qarşı müharibəyə cəlb olunacaq. Türklərlə müharibə olarsa azərbaycanlılar bu cəbhəyə heç cürə getməyəcəklər, yox… əgər onları türk cəbhəsinə buraxsalar türklərlə birləşəcəklər. Azərbaycanlılar tərəfindən vətənə xəyanət çoxlarına məlumdur, türklərlə münasibətləri kəskinləşdirmək SSRİ üçün son dərəcə faydasız və arzu edilən deyil".

1887-ci il təvəllüdlü, bitərəf, "Azneftkombinat"ın böyük mühəndisi Babayev Əli Heydər oğlu bildirmişdi: "…Almanlarda belə prinsip var, hansı respublikanı tutmayıblar orda ruslar saxlanılır. Bu prinsip mənim xoşuma gəlir. Almanlar Azərbaycana gələn kimi ruslar o saat köçürüləcəklər. Bəsdir, Azərbaycan xalqını istismar etdilər".[1]

Milliyyətcə **erməni,** bitərəf "Başnefttəchizat"da rəis işləyən Məlik-Babaxanov Georgiy İosifoviç bildirmişdi ki, "**…Bakıda əsasən azərbaycanlılardan Azərbaycan diviziyaları formalaşdırılmışdı. Bu çox qorxuludur, keçmişdə azərbaycanlıların silahlandırılması bir daha göstərdi ki, buna yol vermək olmaz. Azərbaycanlıları Urala qovmaq lazımdır və orada diviziya, … yaratmaq lazımdır**".[2]

L.Şmitd adına Zavodun dəmirçi sexinin mexaniki, 1890-cı il təvəllüdü, bitərəf, **milliyyətcə rus** İsayev Mixail İvanoviç demişdi ki, "**qəzetlərdə tez-tez Azərbaycan xalqı və Qızıl Ordu sıralarında olan azərbaycanlı döyüşçüləri tərifləyirlər, ancaq yazdıqları kimi deyil. Həqiqətdə cəbhədə azərbaycanlılar böyük hissələrlə əsir düşürlər. Artıq onlara etibar etmək olmaz, onları döyüşə buraxmaq olmaz və hamısını geri qaytarmaq lazımdır**".

"Kaqanoviçneft" Trestinin 3-cü mədəninin müdiri, bitərəf, 1898-ci il təvəllüdlü, ali təhsilli Dadaşov Məlik Məmməd oğlu mədən işçiləri ilə söhbətdə həmvətənlərinə mehriban olmağı, cəbhədə rusların azərbaycanlıları məhv etdiyini bildirərək onlara qulaq asmamağı tövsiyə etmişdi.

"Qızıl Ulduz" DRES-nin çilingəri, 1913-cü il təvəllüdlü, rus, bitərəf Qraçev Nikolay Filippoviç Qarayev Aleksey Nikolayeviçlə söhbətdə cəbhədəki vəziyyətə toxunaraq "sovet qoşunlarının geri çəkilməsində azərbay-

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 201.
[2] Yenə orada, vərəq – 202.

canlılar və yəhudiləri günahlandırmış və onların hamısının ordudan tərxis edilməsini təklif etmişdi”.[1]

“Qafqaz elektrik quraşdırma” Mexaniki Emalatxanasının xarratı, 1907-ci il təvəllüdlü, **milliyyətcə rus** Koçerrin Nikolay Leontiyeviç Kerc cəbhəsində sovet qoşunlarının məğlubiyyətinin səbəbkarının azərbaycanlılar olduğunu iddia etmiş və bildirmişdi ki, “...Kerç cəbhəsində bizimkilər ona görə uduzdular ki, orada əksəriyyəti azərbaycanlılardan təşkil olunmuş Qafqaz ordusu vardı, ancaq azərbaycanlılar vuruşmaq istəmirlər. Onlar ancaq alver etmək qabiliyyətinə malikdir, küçədə qəhrəmandırlar”.[2]

“K.Marks” adına UES işçisi, 1903-cü il təvəllüdlü, bitərəf, **milliyyətcə rus** Potapova Yevgeniya Viktorovna, “L.Şmidt” adına Zavodun texniki, **rus,** bitərəf Belenko Semyon Fyoroviç azərbaycanlılar, ermənilər və gürcülərin döyüşmək istəmədiyi üçün əksəriyyət hallarda əsir düşəcəklərini iddia etmişdi”.[3]

“Andreyev” adına Zavodun yağçısı, 1900-cü il təvəllüdlü, **milliyyətcə rus** Xitrin Pelageya Moiseyevna azərbaycanlıları və yəhudiləri satqın adlandırmışdı.[4]

Qızıl Ordunun hücumundan söz açan “Əzizbəyovneft” Trestinin mühəndisi Prokofyev Fyodr Qriqoryeviç 1942-ci il dekabrın 18-də demişdi: „Qırmızı ordunun bu hücumundan bir şey çıxmayacaq. Bizimkilər keçən il də hücum etmişdilər, ancaq heç nə olmadı. Bu il də elə olacaq. Qırmızı Ordunun silahı yoxdur, nə ilə vuruşacaq, beləliklə almanlar qalib gələcək, onlar bizdən qüvvətlidirlər. Sovet hökumətindən yaxşı heç nə gözləmək olmaz, pislik isə hər addımdadır. Budur, çörək normasını artırmaq əvəzinə, əksinə etdilər, xalqı acından ölməyə vadar edilir”.[5]

F.Q.Prokofyevin fikirlərinə oxşarı “Azərlayihə”nin tikinti texniki Əsgərov Məmməd Ağa Rəsul oğlu, ADU-nun tələbəsi Poskova Qalina Pavlovna, mülki donanmanın kapitanı Qafarov Rzaqulu Hacı Qafar oğlu, “Orconikidzeneft” Trestinin elektrik quraşdırma kontorunun sex ustası Rıbalkin Prokofiy Nikolayeviç, “Əzizbəyovneft” Trestinin Mexaniki Emalatxanasının dəmirçisi Xayrov Murğuz da səsləndirmişlər.[6]

“Molotovneft” Trestinin açarçısı Feodesyev Stepan Timofeyeviç dekabrın 16-da demişdir: “Qələbə haqqında danışmaq tezdir. Bu haqda o zaman danışmaq olar ki, Sovet İttifaqının rəhbəri başqası olsun, bizim rəhbərlər iş apara bilmirlər. Əgər Hitler qalib gəlsə, biz də ac qalmarıq, necə

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 203.
[2] Yenə orada, vərəq – 203.
[3] Yenə orada, vərəq – 204.
[4] Yenə orada, vərəq – 204-205.
[5] Yenə orada, vərəq – 597-598.
[6] Yenə orada, vərəq – 598.

ki, indi aclıq keçiririk. 800 qram çörək verilirdi, indi 700 qram etdilər, sonra 600 qram edəcəklər, beləliklə hər gün hər şey pisliyə doğru gedir".

Qeyd olunanlar deməyə əsas verir ki, müharibənin qızğın cağında belə Azərbaycanın, xüsusilə Bakının sənaye müəssisələrində işləyən fəhlə və qulluqçular sovet hökuməti və ÜİK(b)P Azərbaycan SSR-ə münasibətdə milli siyasətindən narazı olmuş, yaranmış təşkilatlarda və qruplarda antisovet təbliğatı və təşviqatı aparılmışdır. Təbii ki, müharibə illərində və müharibədən sonra antisovet təşkilatların və qrupların iştirakçılarına qarşı sərt cəza tədbirlərinin görülməsi və İ.V.Stalinin vəfatından sonra verilən amnistiya haqqında qərar Azərbaycanda milli-azadlıq ideyalarının qüvvətlənməsinə təkan verdi. XX əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin süquta uğraması ilə Azərbaycan müstəqilliyini bərpa etdi.

Azərbaycana qarşı erməni təxribatları və anti-Azərbaycan məzmunlu əsərlərin yayılması

1941-ci ildə böyük Azərbaycan şair Nizami Gəncəvinin anadan olmasının 800 illiyi münasibətilə hazırlıqlar aparılmağa başlandı. Əslində, yubileyə hazırlıqla əlaqədar Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə 1939-cu il mayın 3-də Nizami Gəncəvinin yubileyi ilə əlaqədar Yubiley Komitəsi yaradılmışdı. Komissiyaya Teymur Yaqubov (sədr), N.K.Allahverdiyev, Səməd Vurğun, Rəsul Rza (Rzayev) (sədr müavinləri), Mikayıl Rəfili (məsul katib), Çimnaz Aslanova, P.Q.Antokolski, N.N.Aseyev, A.A.Avanesov, Şəmsəddin Abbasov, M.C.Bağırov, Y.E.Bertels, Ə.Z.Bağırzadə, M.Vəkilov, Ü.Hacıbəyov, Heydər Hüseynov, S.Ə.Dadaşov, Məmməd Arif Dadaşzadə, M.İ.Jasmen, Mirzə İbrahimov, M.V.Kamski, N.S.Karapetyan, Teymur Quliyev, V.A.Luqovskoy, Mirzə Məmmədov, P.B.Mosesov, Həsənağa Mustafayev, İ.A.Orbeli, Süleyman Rüstəm, Əhəd Yaqubov (üzvlər) daxil idilər.[1] Yubileyə hazırlıqla əlaqədar tarixçilər, filosoflar, mədəniyyət xadimləri Nizami irsini araşdırmağa başladılar. 1940-cı ildə dahi Nizaminin yubileyi ilə əlaqədar mühacirətdə Məhəmməd Əmin Rəsulzadə, sovet alimləri və şairləri Y.E.Bertels, A.Y.Krımski, A.A.Ramaskeviç, İ.Y.Kraçkovski, A.L.Xetaqurov, Y.N.Marr, L.İ.Çaykin, M.M.Dyakonov, N.Boldırev, A.O.Makovelski, P.Q.Antokolski, N.S.Tixonov, Azərbaycanda Mikayıl Rəfili, Həmid Araslı, Əbdülkərim Əlizadə və başqaları Nizaminin həyat və yaradıcılığının tədqiqi, əsərlərinin rus dilinə filoloji tərcüməsi, rus və Avropa oxucuları üçün tükənməz fikir və poetik obrazların zənginliyinin aşkar

[1] В СНК СССР. – Бакинский рабочий, 1939, 4 мая, с.2, №100 (5807).

edilməsi sahəsində misilsiz işlər gördülər.[1] 1941-ci ildə Nizaminin yubiley tədbirlərinin keçirilməsi ilə əlaqədar olaraq, Azərbaycan Abidələrinin Mühafizəsinin Mərkəzi İdarəsi və Azərbaycan SSR Elmlər Akademiyası heykəltəraş-antropoloq, SSRİ Elmlər Akademiyasının N.Y.Marr adına Maddi-Mədəniyyət Tarixi İnstitutunun elmi əməkdaşı M.M.Gerasimova dahi şairin simasının (portretinin) bərpası təklifi ilə müraciət etdi. M.M.Gerasimov məsələnin aktuallığını nəzərə alaraq, Yubiley Komitəsinə Nizaminin kəllə sümüyü üzrə bərpanın bir neçə yoxlama-sınaq nümunələrini göndərdi. Lakin naməlum səbəblər üzündən Nizaminin obrazı bərpa edilmədi. Dahi şairin portretinin bərpası məqsədilə rəssamlar arasında müsabiqə elan edildi, qaliblər üçün I və II dərəcəli mükafatlar müəyyənləşdirildi. Ancaq 1941-ci ildə şairin 800 illik yubileyi ərəfəsində müsabiqəyə yekun vuran Komissiya bərpa variantlarından heç birini I mükafata layiq hesab etmədi, **ikinci mükafat rəssam Qəzənfər Xalıqovun çəkdiyi portretə verildi**. Sonralar bu portret əsasında məşhur heykəltəraş, SSRİ İncəsənət Akademiyasının həqiqi üzvü Fuad Əbdürrəhmanov şairin heykəlini hazırladı. Bu gün dünyanın bir çox yerlərində ucalan möhtəşəm N.Gəncəvi heykəllərinin müəllifi də Fuad Əbdürrəhmanovdur.

Hazırlıqlar çərçivəsində bir sıra əsərlər işıq üzü görürdü. Belələrindən biri erməni müəlliflərindən olan Marietta Şaginyanın "**Nizami Gəncəvi**" əsəridir. Əsərin əlyazması Azərbaycan K(b)P MK-a göndərilmiş və əlyazmaya Tarix İnstitutunun direktoru İsmayıl Hüseynov rəy hazırlamışdı. 15 fevral 1941-ci il tarixli rəydən məlum olur ki, M.Şaginyan əsərində Şərqin orta əsrlər tarixindən, xüsusən Xilafət və Səlcuq dövlətinin tarixindən faktlar verməklə Nizami yaradıcılığını milli Azərbaycan təzahürü kimi deyil, Şərq, ümummüsəlman təzahürü kimi təqdim etməyə cəhd etmişdir. 15 fevral 1941-ci il tarixli 11 bənddən ibarət rəydən məlum olur ki, M.Şaginyan Nizami yaradıcılığını milli Azərbaycan təzahürü kimi deyil, Şərq, ümummüsəlman təzahürü kimi təqdim etməyə cəhd etmiş,[2] ana dilinin milli xüsusiyyətləri, milli-psixoloji xarakter arxa plana keçirilmişdi. Bu səbəbdən də, Nizaminin milli mənsubiyyəti haqqında mülahizələr tamamlanmamışdı və s. Bir sözlə, M.Şaginyan Nizami Gəncəvini azərbaycanlı saymamışdır. Bu fakt erməni xislətinin parlaq ifadəsi və Moskvanın Azərbaycana qarşı milli siyasətindəki nöqsanlardan biri hesab olunmalıdır. Çünki Moskvada Nizami Gəncəvinin Azərbaycan şairi olduğunu yaxşı bilirdilər və Bertels, M.Rəfili, H.Araslı bu barədə dəfələrlə yazmışdılar.

---

[1] Рустам, А. Большой вклад русских ученых и писателей в низамиведение. – Выдающиеся русские ученые и писатели о Низами Гянджеви / А.Рустам. – Баку, 1981. – s.18.

[2] Qurban, T. Düşmənlərindən güclü şəxsiyyət (Mir Cəfər Bağırov haqqında məqalələr toplusu) / T.Qurban. – Bakı, 2012. – s.187-192.

M.Şaginyanın əsəri İ.Hüseynovun rəyi ilə birlikdə geri qaytarıldı, Dövlət Bədii Ədəbiyyat Nəşriyyatı direktoru vəzifəsini icra edən P.Çakinin sözlərinə görə müəllif əsər üzərində yenidən işlədi və əlyazma 1941-ci il aprelin 7-də yenidən Azərbaycan K(b)P MK-ya göndərildi. Ancaq məlum olduğu kimi müharibənin başlanması ilə yubiley tədbirlərinə ara verilsə də, 1941-ci il oktyabrın 17-də Leninqraddakı Ermitajda Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr olunmuş təntənəli mərasim keçirildi. Mərasim üçün xüsusi dəvətnamə hazırlandı. Sovet alim və şairləri əsgər şinellərində səngərləri tərk edərək Nizami Gəncəvi yaradıcılığının əhəmiyyətindən ilhamla danışdılar, tərcümələrini oxudular.[1] Təntənəli iclasda Elmlər Akademiyasının sədri, Ermitajın, institutların, universitetlərin işçiləri, Rəssamlıq Akademiyasının, Sovet Yazıçılar Birliyinin, Rusiya Dövlət Muzeyinin, ictimai təşkilatların nümayəndələri, aktyorlar, Şərq poeziyasını sevənlər iştirak edirdilər. İclası Ermitajın direktoru akademik İ.A.Orbeli açdı. Baş elmi işçi A.N.Boldırevin "Nizami və onun dövrü" mövzusu üzrə məruzəsi dinlənildi. Yazıçılar adından şair N.S.Tixonov çıxış etdi.

1941-ci il noyabrın 1-də Nizaminin 800 illiyi Gəncədə də qeyd olundu. Yubiley tədbirinə qonaqlar da dəvət olunmuşdu. Qonaqlar və tədbir iştirakçıları Nizami Gəncəvinin qəbrini ziyarət etdilər. Yığıncağı SSRİ EA Azərbaycan filialının sədr müavini Heydər Hüseynov açdı. Tarix İnstitutunun direktoru İsmayıl Hüseynovun "Şairin vətəni", Nizami adına Ədəbiyyat və Dil İnstitutunun direktoru M.A.Dadaşzadənin "Nizami böyük şair və vətənpərvərdir", Səməd Vurğunun "Nizami və dünya mədəniyyəti", M.Rəfilinin "Nizami rus xalqının qəhrəmanlığı haqqında" mövzusunda məruzələri dinlənildi.[2] Yubiley tədbirində dəfələrlə qeyd edildi ki, N.Gəncəvinin yaradıcılığı həm də XI-XII əsrlər Azərbaycan tarixini əks etdirir.

Xatırladaq ki, təxirə salınmış yubileyin keçirilməsinə müharibədən sonra yenidən hazırlıqlara başladılar. 1946-cı il iyunun 27-də Azərbaycan K(b)P MK bürosu "Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinin hazırlanması və keçirilməsi haqqında" qərar qəbul etdi. Qərara görə 800 illik yubileyi 1941-ci ildə tamam olan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yubileyinin 1947-ci ilin sentyabrında keçirilməsi nəzərdə tutulurdu. Bu vaxt M.Şaginyan Yerevanda və Moskvada "Sovet Zaqafqaziyası" (1946) adlı kitab çap etdirdi. M.Şaginyanın "Sovet Zaqafqaziyası" kitabı Azərbaycan rəhbərliyi tərəfindən birmənalı qarşılanmadı.

---

[1] Мамедов, А. Извинения хуже, чем вина // Азербайджанские известия. – 2005, 15 sentyabr. – s.3.

[2] Рустам, А. Большой вклад русских ученых и писателей в низамиведение. – Выдающиеся русские ученые и писатели о Низами Гянджеви / А.Рустам. – Баку, 1981. – s.199.

Azərbaycan K(b)P MK-nin birinci katibi M.C.Bağırov ÜİK(b)P MK katibi A.A.Jdanova göndərdiyi məktubunda M.Şaginyanın kitabını "...Zaqafqaziya xalqlarına böhtan" adlandırdı.[1] Məktubdan sonra M.Şaginyanın kitabı yığışdırıldı və ondan izahat tələb olundu. 1946-cı il iyunun 22-də Azərbaycan K(b)P MK Bürosunun qərarı qəbul olunan Yubiley Komitəsinin 30 nəfər tərkibindən M.Şaginyan və onun havadarlarının adları çıxarıldı.[2] Yubiley tədbirlərində iştirak etmək üçün Bakıya gəlmiş M.Şaginyan M.C.Bağırovun göstərişi ilə geriyə qaytarıldı.[3] Bu hadisəni Moskvada yuva salmış ermənirus qruplaşması unutmadı. Dindaşlarına göstərilən "hörmətsizlik" M.C.Bağırovun məhkəmə iclaslarından birində səsləndirildi. Prokuror Rudenkonun "...o, nə üçün yazıçını təhqir etmiş və qəbul etməmişdir" sualına M.C.Bağırov cavab verərək bildirir ki, "O mənimlə görüşmək istəmiş, ancaq o Qarabağ və Naxçıvan torpaqlarını öz əsərlərində xüsusi torpaqları kimi vermiş, buna görə də mən qəbul etmədim və qovdum".[4] 1953-cü ildə M.C.Bağırovun vəzifədən uzaqlaşdırılmasından sonra Şaginyan nəşrinə imkan verilməyən "Nizami Gəncəvi" əlyazmasını ixtisar edərək "**Nizami haqqında etüdlər**" adı ilə 1955-ci ildə Yerevanda çap etdirdi. Nizaminin vətən sevgisini, milli ideologiyanın sütunlarını təşkil edən **Azərbaycançılıq, ədalətlilik, dünyəvilik** kimi ümumbəşəri dəyərləri başa düşməyən və 1941-ci ildə **Nizamini** "**azərbaycanlı**" **saymayan Şaginyan** sonrakı illərdə səhvini düzəltsə də, azərbaycanlılara münasibətdə daşnak xislətini dəyişmədi.[5]

ARPİİSSA-də 1941-1945-ci illərdə SSRİ-nin milli siyasətində Azərbaycanın tarixinə dair materiallar üzərində işləyərkən SSRİ EA üzrə bir sərəncam diqqətimi cəlb etdi. Sərəncamın mətnini olduğu kimi oxucuların nəzərinə çatdırıram.

Sərəncam № 503
4 oktyabr 1943-cü il. Moskva şəhəri

SSRİ EA AF-nın istehsalatdan ayrılmadan doktorantı Mosesov Petros Baqdasaroviç 01 oktyabr 1943-cü ildən 06 aprel 1944-cü il müddətinədək SSRİ EA Böyük Vətən Müharibəsi komissiyası üzrə əsas doktorantı keçirilsin. "Azərbaycanda 1917-1920-ci illərdə vətəndaş müharibəsi" mövzusu üzrə doktorant P.B.Mosesova SSRİ EA müxbir üzvü İ.İ.Mints elmi məsləhətçi təsdiq edilsin.

---

[1] Qurban, T. Düşmənlərindən güclü şəxsiyyət (Mir Cəfər Bağırov haqqında məqalələr toplusu) / T.Qurban. – Bakı, 2012. – 246-246.

[2] Qurban, T. Həqiqət olduğu kimi / T.Qurban. – Bakı, 2008. – s.71.

[3] Əsil iblislər / Düşmənlərindən güclü şəxsiyyət (Mir Cəfər Bağırov haqqında məqalələr toplusu) / T.Qurban. – Bakı, 2012. – 88.

[4] Мамедов, А. Извинения хуже, чем вина // Азербайджанские известия. – 2005, 15 sentyabr. – c.3.

[5] Qurban, T. Düşmənlərindən güclü şəxsiyyət (Mir Cəfər Bağırov haqqında məqalələr toplusu) / T.Qurban. – Bakı, 2012. – 197.

Əsas: SSRİ EA AF-nın 11 sentyabr 1943-cü il tarixli məktubu və Böyük Vətən müharibəsi komissiyası sədrinin müavini İ.İ.Mintsin 24 sentyabr 1943-cü il tarixli 129/6 №-li təqdimatı

SSRİ EA-nın vitse-prezidenti Baykov A.A.
SSRİ EA akademik katibi N.Q.Bruyeviç[1]

Sərəncamla əlaqədar araşdırmalardan məlum oldu ki, SSRİ EA-nın müxbir üzvləri İ.İ.Mints və A.M.Pankratova Azərbaycan K(b)P MK katibi M.C.Bağırova 11 fevral 1944-cü il tarixli (№1517 ob) məktub göndərərək bildirmişlər ki, SSRİ EA doktorantı P.B Mosesov tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)" mövzusunda dissertasiyasını başa çatdırmışdır. Mosesovun monoqrafiyası Azərbaycanda vətəndaş müharibəsinə həsr olunan ilk elmi işdir. P.Mosesovun bu işə qədər ayrı-ayrı məqalələri olmuş, bəziləri elmi dövriyyədən çıxmış, bəziləri Azərbaycanda vətəndaş müharibəsinin ayrı-ayrı məsələlərinə həsr olunmuşdur. Beləliklə, Mosesovun doktorluq dissertasiyası böyük elmi maraq kəsb edir və böyük siyasi əhəmiyyətə malikdir. Müəllif Azərbaycanın dövlət arxivlərində və mərkəzi arxivlərdə olan və əvvəllər dərc olunmayan materialları tədqiqata cəlb etmişdir. Mosesov ümumilikdə ölkədə, həmçinin Qafqazda baş verən hadisələrin fonunda Azərbaycanda vətəndaş müharibəsi tarixini vermişdir. Azərbaycanda vətəndaş müharibəsinin tarixinə dair ilk iş olmasını nəzərə alaraq Sizdən xahiş edirik ki, ona baxıb fikir və mülahizələrinizi bildirəsiniz".

Məktubda bildirilirdi ki, Mosesovun doktorantura müddəti aprelin 1-də başa çatır, dissertasiyanın müdafiəsi 1944-cü il martın ortalarına nəzərdə tutulur. Rəsmi opponent kimi SSRİ EA müxbir üzvləri İ.İ.Mints, A.M.Pankratova və tarix elmləri doktoru, professor İ.M.Razqon çıxış edirlər. Məktubun sonunda bildirilirdi ki, P.Mosesovun doktorluq dissertasiyası bəzi yenidən işləmələrlə gələcəkdə nəşr olunaraq tarix elminə böyük xeyir gətirəcəkdir.[2]Vətəndaş müharibəsi Baş redaksiyası katibliyinin də M.C.Bağırova ünvanlanmış 11 fevral 1944-cü il tarixli 1517/OV №-li məktubunda da P.Mosesovun monoqrafiyasının böyük elmi maraq və siyasi əhəmiyyət daşıdığı qeyd olunmaqla başa çatması bildirilirdi.[3]

P.Mosesov dissertasiyanın tezislərində bildirirdi ki, dissertasiyanın mənbə bazasını Lenin və Stalinin əsərləri, Azərbaycan SSR MDA (MDTA), MEL İnstitutunun Bakı filialının Şaumyan adına Partiya Tarixi İnstitutunun materialları, "SSRİ vətəndaş müharibəsi tarixi" Baş redaksiyası katibliyinin materialları, XI cildin (Moskva) sənədləri, qəzet-jurnal məqalələri və müx-

---

[2]ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №197, vərəq – 32.
[2] Yenə orada, vərəq – 30.
[3] Yenə orada, vərəq – 44.

təlif istiqamətli bir başa mövzuya aid həmin dövrdə Azərbaycanda və digər yerlədə nəşr olunan ədəbi mənbələr təşkil edir.

Mosesovun işi 14 fəsildən ibarətdir. Birinci fəsil Azərbaycanın Birinci dünya müharibəsi və Rusiyada 1917-ci il Fevral-burjua demokratik inqilabı dövrünə həsr edilmişdir. İkinci və üçüncü fəsillər Azərbaycanda Böyük Oktyabr Sosialist inqilabına hazırlıq və keçirilməsi, Bakıda sovet hakimiyyətinin elan olunması və Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizəyə həsr olunub.

4 və 5-ci fəsillərdə Bakıda sovet hakimiyyətinin qələbəsi, Bakı kommunasının yaranması və XKS təşkili, Bakı XKS-nin fəaliyyəti, Cənubi Qafqaz xalqlarının və Bakı proletariatının alman-türk işğalçılarına qarşı mübarizəsinə kütlələrin səfərbər olunması, 6-cı fəsildə Bakıda sovet hakimiyyətinin müvəqqəti yıxılması və 26 Bakı komissarlarının məhvi, 7-12-ci fəsillərdə Müsavatın hökmranlığı dövrü və Azərbaycan zəhmətkeşlərinin bolşeviklərin rəhbərliyi altında müsavatçılara və xarici müdaxiləçilərə qarşı mübarizəsi araşdırılmışdır.

Dissertasiyada Muğanda sovet hakimiyyətinə (8-ci fəsil), fəhlə konfransının (9-cu fəsil), Azərbaycan bolşeviklərinin gizli işinə və xalqın silahlı üsyana hazırlığına (10-cu fəsil) ayrıca fəsillər həsr edilmişdir.

Dissertasiyanın son iki fəsli –13-cü və 14-cü fəsillərində 1920-ci il aprelin 28-də Azərbaycanda Böyük Oktyabr sosialist inqilabının qələbəsindən və sovet hakimiyyətinin ilk addımlarından bəhs olunur. Dissertasiyanın sonunda Bakıda və Azərbaycanda 1917-1920-ci illərində baş verən mühüm hadisələrinin xronologiyası verilmişdir.[1]

Doktorant P.B.Mosesovun "1917-1920-ci illərdə Azərbaycanda vətəndaş müharibəsi" mövzusunda doktorluq dissertasiyasına qısa rəydə SSRİ EA müxbir üzvü İ.İ.Mints yazırdı ki, P.Mosesovun "1917-1920-ci illərdə Azərbaycanda vətəndaş müharibəsi" mövzusunda doktorluq dissertasiyası 30 çap vərəqi həcmindədir və böyük monoqrafik iş təsiri bağışlayır. Doktorant ilk dəfə Azərbaycanda vətəndaş müharibəsi tarixini yazmışdır. Burçalovun 26 Bakı komissarlarına həsr olunmuş əsərini və əvvəllər dərc olunmuş ayrıca məqalələri nəzərə almasaq indiyədək tarixi ədəbiyyatda heç bir müəllif bu mövzunu işləməmişdir.

İ.İ.Mints yazır ki, müəllif Azərbaycanın mərkəzi arxivlərində işləmiş, Azərbaycanda sovet hakimiyyəti uğrunda mübarizənin həqiqi mənzərəsini bərpa etmək üçün 1917-1920-ci illər dövrü mətbuatından geniş istifadə etmişdir. Müəllif tərəfindən aparılmış işin qiyməti sözsüz ona tarix elmləri doktoru elmi dərəcəsi vermək üçün müzakirəyə haqq verir. İş nəşrə hazırlanarkən bəzi yenidən işlənmə tələb edir ki, bu ümumilikdə işin əhəmiyyətinə

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №197, vərəq – 35-36.

xələl gətirmir. Mosesovun dissertasiyası haqqında geniş rəy Elmi Şuraya əlavə təqdim olunacaqdır. Qısa rəyi katib Z.P.Peçenkova təsdiq etmişdir.[1]

Professor Pankratovanın rəyində bildirilir ki, Mosesovun işi həcminə görə sanballı və yerinə yetirilməsinə görə ciddi monoqrafiyadır, müəllif Azərbaycanın siyasi tarixinin ən mühüm dövrlərindən birini açmağa nail olmuşdur. P.B.Mosesovun dissertasiya işi haqqında professor **İ.Razqonın** rəyində bildirilirdi ki, Mosesov Azərbaycan zəhmətkeşlərinin sovet hakimiyyəti uğrunda mübarizəsinin həqiqi vəziyyətini yaratmışdır. Rəydə əsər xeyli tərifənir və Pankratovanın rəyindən fərqli olaraq İ.Razqon göstərir ki, işdə 1917-ci ildə Qafqaz cəbhəsinin rolu zəif göstərilib. Çünki Qafqaz cəbhəsinin bolşevikləşməsi Cənubi Qafqazın, o cümlədən Azərbaycanın, bolşevikləşməsinə böyük təsir etmişdir.

Rəydə Bakıdakı əsgər və zabit deputatları sovetlərinin fəaliyyəti haqqında çox az qeyd edilməklə Azərbaycanın Bakı nümayəndələrinin sovetlərin 1-ci və 2-ci qurultayında, partiya müşavirələrində iştirakının açılması vacib hesab olunur. Razqon yazır ki, neft sənayesinin vəziyyəti və neftçilərin sahibkarlarla mübarizəsi, Bakı neft müəssisələrinə fəhlə nəzarətinin elementləri göstərilməyib. Bakıda Sovet hakimiyyəti uğrunda mübarizədə rus əsgərlərinin rolunu daha sanballı faktlarla göstərmək olardı.

Rəyçinin fikrincə, Azərbaycan zəhmətkeşlərinin mübarizəsinin geniş mənzərəsi yaradılmamışdır. Nəhayət, rəyçi fəsillərin yerləşdirilməsi haqqında məsləhətlər verir və hesab edir ki, 11-ci fəsil VII fəsildən sonra, X fəsil XII fəsildən sonra verilsə daha doğru olardı. Təbii ki, Razqon da öz həmkarları kimi göstərilən nöqsanların işin əhəmiyyətini azaltmadığını bildirir və işin həcminin 20 çap vərəqinədək azaldılmasını məqsədəuyğun hesab edir.[2]

Göründüyü kimi, rəyçilər milliyyətcə erməni olan P.Mosesovun işinə həm də dindaşları kimi yanaşmış, tərifər yağdırmışlar. Ancaq P.Mosesovun dissertasiyası ilə tanışlıqdan aydın olur ki, Mints, Pankratova və Razqonun rəyləri işin məzmununa uyğun deyil və onun haqqında düzgün olmayan təsəvvür yaradılmasına cəhd göstərilmişdir. P.Mosesovun işi nəinki Azərbaycanda 1917-1920-ci illər "Vətəndaş müharibəsi" dövrü haqqında dərin elmi tədqiqatdır, əksinə işdə Azərbaycan xalqının sovet hakimiyyətinə olan münasibətinin həqiqi tarixi təhrif olunmuşdur. Müəllif Rusiyada baş verən inqilablar ərəfəsində Azərbaycanın iqtisadi və sosial-siyasi vəziyyətinin ümumi cizgilərini verə bilmədiyindən Cənubi Qafqazda bu inqilabın ilkin şərtlərini düzgün işıqlandırmamışdır.[3]

---

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №197, vərəq – 42.

[2] Yenə orada, vərəq – 49-51.

[3] Рецензия на работу П.Б.Мосесова «Гражданская война в Азербайджане (1917-1920)» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №197, лист – 5.

Dissertasiyanın mahiyyətini anlamaq üçün arxiv materiallarına müraciət etmək daha doğru olardı. Xatırladaq ki, ARPİİSSA-də P.B.Mosesovun "Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)" mövzusunda doktorluq dissertasiyası (dissertasiya 593 makina səhifəsi həcmindədir), S.Şaumyan adına Partiya Tarixi İnstitutunun (indiki ARPİİSSA) elmi hissə üzrə müavini Petrosyan, tarix elmləri namizədləri İsmayıl Hüsyenov və Zülfəli İbrahimovun yazdığı 5 aprel 1944-cü il tarixli rəy saxlanılır.[1]

Rəydə göstərilir ki, iş Azərbaycan tarixinin mühüm bir dövrünə- Şimali Azərbaycanda, proletar inqilabına hazırlıq və keçirilməsi, vətəndaş müharibəsi dövrünə həsr edilmişdir. "Azərbaycanda vətəndaş müharibəsi" mövzusunda işində qarşısına Şimali Azərbaycanda 1917-1920-ci illərdə „sovet hakimiyyəti uğurunda mübarizə" prosesini faktiki materiallarla sübut etmək istəsə də,[2] qarşıya qoyulan məqsədə çatmamışdır. İşdə bağışlanılmayan tələsikliklər hiss olunur. Qəzet materialları elm cəhətdən təhlil edilməyib. Nəticədə toplanmış qəzet materialları bir-biri ilə əlaqələndirilmədiyindən əsər qəzet materiallarından ibarət hadisələrin xronikası xarakteri daşıyan kataloq təsirini bağışlayır. Onlarla səhifələr müxtəlif hadisələrə və çıxışları həsr olunmuş materiallarda ibarət olub heç bir hadisə elmi yanaşma hiss edilmir. Müəllif sadəcə qəzet materiallarından çıxarış gətirərək, izahat və təhlil etmədən öz işində yerləşdirmişdir. Beləliklə, müəllif dövrü mətbuatdan və arxivdən əldə etdiyi materiallardan tarixi mövzuda işin yazılması üçün səmərəsiz və səriştəsiz istifadə etmişdir. Müəllif Azərbaycanın XX əsr tarixini, o cümlədən 1917-1920-ci illər tarixini çox pis bildiyindən materialları başdansovdu müəyyənləşdirmişdir. İşdə proletariatın, burjuaziyanın və mülkədarların siyasi orqanlarının yaranması, funksiyası və ləğvi açıqca dolaşıq salınmış, məsələlər bir-biri ilə qarışdırılmışdır.[3] Müəllif düşmən sənədlərinin şərhsiz və analizsiz iqtibas manevrlərində əziyyət çəkdiyindən, yaxud da bilərəkdən işdə düşmən ideyalarının (ən böyük düşmən daşnaklardır – M.Ə.) təbliğinə yol vermişdir. Buna görə də, hər hansı düşmən sənədlərinə müəllifin özünün münasibətini müəyyənləşdirmək çətindir. İşdə 1917-1920-ci illər Azərbaycan tarixində bir sıra hadisələr işıqlandırılmamış qalmışdır.

P.Mosesovun dissertasiyasının birinci bölməsinin (s.9-49) kifayət qədər həcmli olmasına baxmayaraq 1917-ci il Fevral burjua inqilabı ərəfəsində Şimali Azərbaycanın iqtisadi və sosial-siyasi vəziyyətinin ümumi xüsusiyyətlərinin həqiqi mənzərəsi açılmır. Başqa sözlə, Fevral burjua-demokratik

---

[1] Рецензия на работу П.Б.Мосесова «Гражданская война в Азербайджане (1917-1920)» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №197, лист – 8-29.

[2] Yenə orada, vərəq – 8.

[3] Yenə orada, vərəq – 8-9.

inqilabının ilkin şərtləri işdə əks olunmamışdır.[1] Müəllif Azərbaycanda Fevral inqilabına qədərki və Oktyabr çevrilişindən sonrakı dövrdə milli hərəkat haqqında sual qoymur. Müəllifi milli burjua və mülkədarlar maraqlandırmadığından işdə onların vəziyyəti və siyasi görüşləri açıqlamır. Beləliklə, proletar mübarizəsi məsələsi açıq qalır. Müəllif, həmçinin Cənubi Qafqazda azərbaycanlı-erməni məsələsini düzgün başa düşmür və yaxud bilərəkdən işıqlandırmır.

P.Mosesov Şimali Azərbaycanda proletar inqilabına hazırlıq və keçirilməsində Azərbaycan kəndlisi ilə ittifaq yaranması prosesini göstərmir, lakin Şimali Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin fəhlə-kəndli ittifaqı olmadan həyata keçirilməsini anlamaq yanlış arqumentdir.[2]

Mosesovun işində azərbaycanlı fəhlə və kəndlilər digər millətlərdən olan fəhlə və kəndlilərlə müqayisədə geridə qalmış formada təqdim olunur və bu fikir dissertasiyada qırmızı xətlə keçir. İşdə erməni burjuaziyası və onların "Daşnaksutyun" partiyasında əksinqilabı rolu məqsədyönlü şəkildə kiçildilir. Təhlil göstərir ki, P.Mosesov Azərbaycanın zəhmətkeş kəndlilərinin hakim sinfə və xarici imperialistlərə qarşı bəhs olunan dövrdə mübarizəsini, vətəndaş müharibəsinin öz istismarçılarına və xarici müdaxiləçilərə qarşı azadlıq mübarizəsi olduğunu başa düşməmişdir.[3] Müəllifin Andraniki "yaxşı tanımasına" baxmayaraq sovet hakimiyyəti tərəfdarı kimi göstərməsi erməni xislətinin "təntənəsi" hesab oluna bilər. P.Mosesovun daşnaklara sətiraltı haqq qazandırması da təəccüb doğurmur. Bizə elə gəlir ki, Mosesov "Daşnaksutyun" partiyasının roluna Leninin verdiyi qiyməti bilsə də, 238-ci səhifədə Leninin sözünü xislətinə uyğun "erməni kimi" vermişdir.[4]

P.Mosesovun işində proletar inqilabı dövründə Azərbaycan fəhlə və kəndlilərinin ittifaqı kimi mühüm məsələ "unudulub". Müəllif bilərəkdən 1918-ci ildə Bakı fəhlə və kəndlilərinin ittifaqını həyata keçirmək mümkün olmadığını göstərmir, 1918-ci ilin birinci yarısında Gəncə, Qazax və digər qəzalarda baş verən Azərbaycan kəndlisinin üsyanını işıqlandırmır. Bu baxımdan rəyçilərin P.Mosesovun Cənubi Qafqaz şəraitində, xüsusilə mürəkkəb və vacib olan milli məsələdə həqiqəti dolaşdırdığına diqqət yetirməməsi təəccüb doğurur.

Mosesov Cənubi Qafqazda milli münaqişələrin kökünü, azərbaycanlı-erməni münasibətlərini düzgün işıqlandırmadığından Cənubi Qafqaz xalq kütlələrini boğan və xarici imperialist kökənli olan burjua-millətçi əks-

---

[1] Рецензия на работу П.Б.Мосесова «Гражданская война в Азербайджане (1917-1920)» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №197, vərəq – 9.

[2] Yenə orada, vərəq – 10.

[3] Yenə orada, vərəq 11.

[4] Yenə orada, vərəq – 19.

inqilabçı partiyaların, xüsusilə "Daşnaksutyun" partiyasının, həmçinin eser və menşeviklərin mahiyyətini tam aça bilməmişdir. Mart günlərində Bakı Sovetinə qarşı qiyam hazırlayan müsavatçılardan ağız dolusu danışan Mosesov ənənəvi erməni xislətinə sadiq qalaraq Bakıdakı daşnakların erməni "Milli Şurası"nın fəaliyyətindən bir cümlə yazmır, hansı ki, mart döyüşlərində onlara kömək edənləri, hətta birlikdə Bakı sovetinə qarşı çıxış edəcəkləri ilə müsavatçıları ruhlandırırdılar. Müəllif Bakının alman-türk qoşunlarına qarşı qəhrəman müdafiəsi günlərində Avetisovun və digər daşnak başçılarının satqınlığından söz açmır. P.Mosesovun işində 1918-ci ildə ingilislərin Bakıya dəvəti məsələsi haqqında "Daşnaksutyun" partiyasının rolu müəmmalı qalmışdır.

Xarici müdaxiləçilərin hərbi müdaxiləsi işdə zəif verilib. Müdaxiləçilərin Azərbaycanda müstəmləkəçilik siyasəti yeritmək metodu göstərilməyib. Azərbaycan fəhlə və kəndlilərinin müdaxiləçilərə qarşı silahlı mübarizəsindən sükutla keçilib.[1]

Bir sözlə, dissertasiyada Azərbaycan xalqının XX əsr tarixi ciddi təhrif olunub, Azərbaycan xalqının inqilabi hərəkatda roluna və yerinə yalançı baxış formalaşdırılıb. "Azərbaycan fəhlə və kəndliləri Bakı mədən fəhlələridir və əsas hissəsini azərbaycanlılar təşkil edir" kimi ifadələrlə dolayısı ilə P.Mosesov vətəndaş müharibəsində Azərbaycan xalqının iştirakını inkar edib. "Azərbaycanda vətəndaş müharibəsi (1917-1920-ci illər)" adlı R.Mosesovun işi Azərbaycanda fəhlə və kəndlilərin inqilabi hərəkat tarixini kobud təhrif edən iş kimi qəbul olunmazdır.

Azərbaycan tarixini təhrif edən kitablardan biri də **Ter-Qriqoryanın** "**IX əsrdə Artsaxın ərəb işğalçılarına qarşı mübarizəsi**" kitabıdır**.** Azərbaycan K(b)P MK-nın 1942-ci il 7 aprel tarixli qərarında bildirilirdi ki, qədim Azərbaycanın bir hissəsi olan Artsax əhalisi bütün Azərbaycan xalqı ilə birlikdə ərəb işğalına qarşı çıxmışdır.

Azərbaycan K(b)P MK-nın Bürosunun 1942-ci il 7 aprel tarixli iclasında (protokol №229) qeyd edilirdi ki, T.İ.Qriqoryanın "IX əsrdə Artsaxın ərəb işğalçılarına qarşı mübarizəsi" adlı kitabçasında Cənubi Qafqaz xalqlarının tarixinin öyrənilməsi məsələlərində bir sıra əhəmiyyətli nöqsanlar və tarixi təhriflər var və oxucuları çaşdırmağa yönəlmişdir. Kitabçada Azərbaycan xalqının ərəb işğalçılarına qarşı ümumi mübarizəsi fonunda qədim Azərbaycan vilayətlərindən olan Arsaxın əhalisinin işğalçılara qarşı mübarizəsi bu dövrdə Cənubi Qafqazda məskunlaşmış digər xalqların ümumi azadlıq mübarizəsindən ayrı göstərilmişdir. Kitabçanın müəllifi

[1] Рецензия на работу П.Б.Мосесова «Гражданская война в Азербайджане (1917-1920)» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №197, лист – 6.

tarixi faktları təhrif edərək, Azərbaycan xalq qəhrəmanı Babəki xaincəsinə ələ vermiş Səhl ibn Sumbatı xilafət işğalçılarına qarşı mübariz kimi qələmə vermişdi. Bu səbəbdən də, Azərbaycan K(b)P MK-nın Bürosu qərarına əsasən kitabça Cənubi Qafqaz xalqlarının tarixinə dair zərərli hesab olundu, çoxlu sayda nöqsanlara və tarixi təhriflərə yol verildiyinə görə müsadirə edilməsi məqsədəuyğun hesab edildi. Bir sıra kobud səhvlərdən ibarət kitabın nəşrə hazırlanmasına məsuliyyətsiz yanaşdığına görə institutun direktoru İ.Hüseynova töhmət elan edildi və ona bu faktdan lazımi nəticələr çıxarılması tövsiyə olundu.[1]

Məktublarda, ərizə və şikayətlərdə antisovet mülahizələr

Müharibənin ilk günlərindən cəbhəçi ailələrinə qayğı diqqət mərkəzinə alındı. Azərbaycan zəhmətkeşləri müharibənin birinci günündən orduya və əsgər ailələrinə hərtərəfli yardım etməyə başladı. İlk növbədə hərbi qulluqçu ailələrinin işə düzəlməsinə diqqət artırıldı. Hərbi qulluqçu ailələrinin işə düzəlməsi ilə onların maddi yaşayış vəziyyəti yaxşılaşdı, qadınlar Vətəni müdafiə etməyə getmiş ərlərini, qardaşlarını və oğullarını istehsalatda əvəz etməyə başladı. Doğrudur, 1942-ci ilin əvvəllərinə qədər bu sahədə müəyyən nöqsanlar hiss olunsa da, ÜİK(b)P və Sovet hökumətinin əsgər ailələrinə köməklik göstərilməsi haqqında qərarından sonra cəbhəçi ailələrinə diqqət artırıldı. Azərbaycan K(b)P MK həmin qərarı yerinə yetirərək 1943-cü ildə və 1944-cü ilin birinci rübündə dövlət tərəfindən 255 milyon manat ayırdı. Bundan əlavə əsgər ailələrinə 3.580 ton ərzaq məhsulları, 10.500 döyüşçü ailəsinə mənzil verildi. Respublikanın kənd yerlərində döyüşçü ailələrinə 3.500 baş mal-qara təhkim edildi. 1944-cü ilin 3 ayı ərzində döyüşçü ailələrinə 7 ton taxıl buraxıldı, 150 uşağa pulsuz paltar, 350 ailəyə ev verildi.

Müharibənin başlanmasından 1943-cü ilin noyabr aynadək Azərbaycan SSR-də 201.081 ailəyə 28.997 sentner sement, 29.986 ailəyə 3.060.058 rubl pul yardımı verildi, 29.896 ailə odunla təchiz edildi, 249.836 sentner heyvan üçün yem, 10.371 cüt ayaqqabı, 95.088 adama paltar verildi, cəbhəçi ailəsindən 84.269 adam, o cümlədən 23.299 şagird müxtəlif ixtisaslara işə düzəldi, 81.776 nəfər cəbhəçi uşağı, uşaq müəssisələrinə yerləşdirilmişdi. Hesabat dövründə mənzil şəraiti dözülməz olan 9.933 ailə mənzillə təmin edilmiş, 24.177 ailənin mənzili təmir olunmuş, 144.204.059 rubl dövlət yardımı verilmişdi.[2]

İctimaiyyətin köməyi ilə müharibə dövründə (1942-ci ilin əvvəlinə) əsgər və hərbi qulluqçuların 187.135 nəfər uşağı müxtəlif uşaq müəssisələ-

[1] ARPİİSSA, Fond №1, siyahı №29, saxlama vahidi №197, vərəq – 85.
[2] Yenə orada, vərəq – 53.

rində yerləşdirildi. Onlardan 6159 nəfər uşaq evlərində dövlət hesabına yaşayır və tərbiyə alırdı.[1] Müharibə dövründə əsgər ailələrinə 4.262.35 manat miqdarında birdəfəlik yardım, 430 milyon manat dövlət yardımı və təqaüd verildi. Respublikada yardımçı təsərrüfat üçün əsgər ailələrinə 11.170 hektar torpaq sahəsi, ehtiyacı olan əsgər ailələrinə 2.673 baş sağmal heyvan, 301.820 sentner yem verildi.

Müharibənin çətinlikləri ilə əlaqədar insanlara, xüsusilə cəbhəçi ailələrinə qayğının azalması, hərbi qulluqçu ailələrinə köməkliyin zəifləməsi, ərzaq məhsulları tədarükündə çətinliklər, mənzil-məişət və rabitə sahəsində yaranmış ağır vəziyyət insanların şikayət məktublarının artması ilə nəticələndi. Müxtəlif orqanlara ünvanlanmış məktublar hərbi senzurada seçilir, təhlil olunur və ümumiləşdirilərək tədbir görülməsi məqsədilə müvafiq orqanlara hesabat şəklində göndərilirdi.

1942-ci il noyabr ayının 16-dək hərbi senzura şöbəsində 326.140 məktub oxunmuş, 18.807 məktubda mənfi fikirlər qeyd edilmişdir. Onlarda ifadə olunan fikirlər və məktubların sayı aşağıdakı kimi olmuşdur:

1) ərzaqların bahalığı və çətinliklər haqqında;	– **6.269**
2) vergilərə dair şikayətlər	– **263**
3) əmək haqqından tutulmalardan şikayətlər	– **92**
4) mənzil şəraitinin pis olması haqqında	– **786**
5) yanacaq tədarükünə dair	– **1.113**
6) xəstəlik haqqında	– **416**
7) təxliyə olunanlardan şikayətlər	– **553**
8) hərbi qulluqçu ailələrinin şikayətləri	– **1.113**
9) düşmən aviasiyasının uçuşu haqqında	– **328**
10) ruh düşkünlüyü və çaxnaşma haqqında	– **157**
11) şovinist əhval-ruhiyyə haqqında	– **17**
12) fərarilik haqqında	– **289**
13) kolxozlarda və kənd təsərrüfatı işlərində vəziyyətə dair	– **493**
14) hərbi xidmətdən yayınma	– **75**
15) bombardman haqqında	– **324**
16) Müəssisələrin təxliyəsi haqqında	– **504**
17) xüsusi işlərə səfərbərlik haqqında	– **428**
18) həbs haqqında	– **1.217**
19) müxtəlif	– **1.402**
20) “A” üzrə göndərilmişdir	– **759**.[2]

[1] “Kommunist” qəzeti, 1944, 23 fevral.
[2] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 531.

Ərizələrin təhlilindən aydın olur ki, əksər vətəndaşlar həyata keçirilən tədbirləri bəyənir və sovet ordusunun qələbəsinə inanırlar. Bakı şəhəri, Mərkəzi teleqrafdan Kuznetsovanın 25 noyabr 1942-ci il tarixli, Bakı şəhəri, Vidadi küçəsi, mənzil 187-dən Ovanesyanın 25 noyabr 1942-ci il tarixli, Zabrat qəsəbəsi, Vorovski küçəsi 3, mənzil 15-dən Sidorovun 26 noyabr 1942-ci il tarixli, Gəncə şəhərindən Sazurskayanın 26 noyabr 1942-ci il tarixli məktublarında Sovet qoşunlarının Stalinqrad cəbhəsində böyük qələbəsi alqışlanır, bu qələbənin onların əmək məhsuldarlığının yüksəldilməsinə təkan verdiyi, yeni qələbələr naminə hərbi sifarişləri vaxtından əvvəl və keyfiyyətlə yerinə yetirmək üçün öhdəliklər götürdükləri bildirilirdi.[1]

Bakı şəhəri, Qırmızı Əsgər küçəsi, ev 2/15, mənzil 11-də yaşayan A.Y.Yakobson Moskva-Arbat, Mal.Moqilyevski küçəsi, döngə 4, mənzil 1-də yaşayan İ.B.Forerə göndərdiyi, Bakı, 2-ci Popereçnaya 5-də yaşayan Vasili Kiselyovun Saratov vilayəti, Malaya Uzen kəndi, 1 May kolxozunda İ.Y.Çistikinə göndərdiyi, Qazax rayonu, Şıxlı kəndindən Məhərrəmovun Leninqrad, 87 rabitə qutusu 784-cü dəstədə M.A.Məhərrəmova göndərdiyi məktubda sovet qoşunlarının Stalinqrad altında qələbəsini alqışlanır və tezliklə alman-faşistlərin ölkəmizdən qovulacağına əminlikləri ifadə olunurdu.[2]

Bir neçə məktubda ərzaqların bahalığı və çətinliklərdən söhbət açılırdı. Bakı şəhəri, Balaxanı, 2-ci mədən korpusu, 932, mənzil l2-dən Zaytseva A.İ. 17 noyabr 1941-ci il tarixli məktubunda, Ordubad rayonundan Bağırov hərbi xidmətdə olan yaxınlarına[3] məktubunda vəziyyətin ağırlığından, çörəyin baha olmasından və qışa hazırlıqdan narazılıqlarını bildirirdilər.

Vergilərin ağırlığından, mənzil şəraitinin pis olmasından, yanacaq çatışmazlığından, xəstəlik və ölüm hallarının artması haqqında da şikayət məktubları vardır. Qeyd edək ki, şikayət edənlər içərisində ruslar və ermənilər çoxluq təşkil edirlər. Məsələn, Hadrutun Edilli kəndindən Ayrapetova Buynaksk şəhərinə (poçt qutusu №54) 2 noyabr 1942-ci il tarixli məktubunda yazır ki, 40 kiloqram yağ, 40 kiloqram buğda tədarük edib versəm də, ondan əlavə 150 ədəd yumurta tələb edirlər. Yumurtanın 10 ədədi 40 rubldur və tapmaq çətindir. Xahiş edirəm məni vergidən azad etsinlər.[4]

Qazax rayonunun Daş Salahlı kəndindən Orucov K. O.Orucova 24 noyabr 1942-ci il tarixli məktubunda vergilərin həcmindən şikayətlənir.[5]

Bakının Sabunçu qəsəbəsində Kooperativ küçəsi 56, mənzil 15-də yaşayan Qolina 26 noyabr 1942-ci il tarixdə A.Q.Qorinə yazdığı məktubunda, Suraxanı qəsəbəsi, 1-ci mədən № 30, mənzil 66-da yaşayan F.A.Bonda-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 531.
[2] Yenə orada, vərəq – 544.
[3] Yenə orada, vərəq – 532.
[4] Yenə orada, vərəq – 545-546.
[5] Yenə orada.

renko 24 noyabr 1942-ci il tarixli, Bayıl qəsəbəsi Frunze küçəsi 2/3, Kaşan stansiyasından N.İ.Kozlov 27 noyabr 1942-ci il tarixli məktubunda T.T.Korovkinə mənzil şəraitinin qeyri-qənaətbəxş olmasından narazılıq edirdilər. Qorin mənzilindən su dammasından, Trişinskaya mənzil şəraitinin çox pis olduğundan, rayon partiya komitəsinə müraciət etdiyindən və rədd cavabı aldığından yazır və əslində açıq səma altında yaşadığını bildirirdi.[1]

Yanacağın çatışmaması, xəstəlik, təxliyə məsələləri, hərbi qulluqçu ailələrinə kömək məsələsinə aid məktublar da vardır. Bakının Sovetski qəsəbəsi, korpus 136, mənzil 7-dən Mişuk (376, PPS 008-ə) yazırdı ki, onu işdən ixtisara salmışlar, nə hərbi komissarlıq, nə də rayonun birinci katibi onun şikayətini dinləmir və bir də şikayət edərsə xüsusi işə göndəriləcəyi ilə hədələyirlər. Mişukun ərizəsi araşdırılmaq üçün Azərbaycan SSR XDİK göndərilmişdi.[2]

Məktubların içərisində düşmən aviasiyasının uçuşuna dair məktublar vardır. Bəzi məktublarda antisovet əhval-ruhiyyəsi hiss olunur. Puşkin rayonu, Puşkino stansiyasından Rubişkov Q. məktubunda yazırdı ki, kolxozda traktorçu işləyir, ancaq kolxozda heç nə yoxdur, azərbaycanlılar ruslara istehza edirlər, briqadada ruslara 250 qram süd, özlərininkinə 600 qram verilir.[3]

Arxiv sənədlərinə əsasən 1942-ci il 16 noyabr – 1 dekabr tarixlərdə hərbi senzura şöbəsində 482.092 məktub oxunmuş, onlarda qeyd olunan mənfi fikirlər ümumiləşdirilmişdir. Mülki əhalidən göndərilən bir məktub əks-inqilabçı məzmunda olmuş, 10.255 məktubda məhsulların bahalığı və çətinliklər, 146 məktubda vergilərin ağırlığı, 211 məktubda əmək haqqından tutulmalar, 411 məktubda mənzil şəraitinin pisliyi, 367 məktubda yanacaq çatışmazlığından şikayət olunmuş, 405 məktubda ruh düşkünlüyü və çaxnaşma haqqında, 87 məktubda şovinist mülahizələr qeydə alınmışdı.[4]

Məktublar içərisində məhsulların bahalığı, ərzaq məhsullarından çətinlik çəkmələri, hərbi qulluqçu ailələrinin təminatının ağırlığına dair şikayətlər üstünlük təşkil edir. Bu cür fikirlərə Bakının Balaxanı şosesi, 33-cü kvartal, 28-ci mənzildə yaşayan V.N.Borisovanın Moskva vilayəti, Puşkin rayonu, Yaroslavl dəmiryolu, Aşukinski stansiyasına (rabitə yeşiyi №149) N.N.Borisova, Bakıdan 11-ci Naqornaya 33-dən V.Ayrapetovanın Bakıdakı 437 №-li hissədə Akop Ayrapetova, Bakının Vorovski qəsəbəsindən, b/r korpus 1, mənzil 3-dən Yevlaxdakı 431 №-li hissədə V.İ.Şurikina, Şamaxının Mədrəsə kəndindən Muradovun Bakı 5, Sverdlovsk 25-də Muradova

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 533.
[2] Yenə orada, vərəq – 535.
[3] Yenə orada, vərəq – 536.
[4] Yenə orada, vərəq – 543.

məktublarında yaşayışın çətinliyi, çörəyin çatışmaması, çörəyin və kartofun qiymətinin 40 rubla yüksəldiyi qeyd olunur.[1]

Təxliyə olunanların şikayətləri maraq doğurur. Onlar əsasən işsizlikdən, bahalıqdan və onlara göstərilən münasibətlərdən şikayətlənirlər. Belə məktubların sayı 1942-ci ilin 15 günündə (16 noyabr – 1 dekabr 1942-ci il) 464 ədəd olmuşdur. Gəncə şəhəri, Əzizbəyov küçəsi 19-dan Borisova Orconikidze ölkəsinin Kizlyar dairəsinin Şelkovski rayonunun Saratova küçəsi 23-də yaşayan anası Borisovaya 19 noyabr 1942-ci il tarixdə yazırdı: "Xalq o qədər də yaxşı deyildir, çörəyi 30 rubla alıram, ümumiyyətlə mənim üçün necə ağır olduğunu ifadə edə bilmirəm. Düz iki aydır ki, işsizəm, qeydiyyata alınmamışam. Əgər uzun müddət işləməsəm hər heyi satıb çılpaq qalacağam. Ana, burada təxliyə olunanları görməyə gözləri yoxdur, hamısı nifrət edir. Əgər Şelkovskidə təxliyə olunun varsa onlara yazığın gəlsin, nə bədbəxt adamlardır, həmişə çılpaq gəzirlər".[2] Eyni fikirlər Gəncə Fəhlə qəsəbəsi ev №1, mənzil 56-dan Krisbergin Kuybışev vilayəti Utarsk rayonu, Domaşka kəndinə yazdığı məktubda ifadə olunurdu. Krisberg yazır: "Burada insanlar pisdir, buradakıların əksəriyyəti millətçidir, qalanları isə günahına görə bura atılanlardır. Bizdə yataqxanada çox mədəniyyətsiz adamlar yaşayır, daima ana söyüşü ilə təhqir edirlər… Ərzaq bazarda bahadır. Ət 250, kartof 23, alma 25-30 rubldur. Mən bazardan heç nə almıram, yalnız çörək norması alıram. Satmağa heç nə yoxdur, sonra nə olacaq bilmirəm. İqlim çox pisdir, biz hamımız xəstələnmişik".[3]

Hərbçilərin yazdığı məktublarda bir sıra məsələlərə toxunulmuşdur. Ümumilikdə bəhs olunan dövrdə 83.519 məktub işlənmişdir ki, onlardan 113 məktub hərbi əməliyyatların gedişinə, 44 məktub silah və sursatla təchizata, 276 məktub geyimə, 591 məktub qidalanmaya və s. aiddir. 32 məktub hərbi hissələrin dislokasiya yeri haqqındadır.[4]

Vətəndaşlardan gələn məktublarda xarakterinə görə şikayətlər və məktubların sayı aşağıdakı kimi olmuşdur.

1. Kolxoz və sovxozlarda işlərin qaydasında olmamasından şikayətlər – **77**
2. Hərbi qulluqçu ailələrinin şikayəti – **440**
3. Material-məişət şəraitindən şikayətlər – **2.754**
4. Ərzaq məhsullarından çətinlik haqqında şikayətlər – **2.254**
5. Vergilərdən şikayətlər – **91**
6. Əhali arasında epidemik xəstəliklər haqqında məlumatlar – **56**
7. Mənzil şəraitinin ağırlığından şikayətlər – **58**

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 545.
[2] Yenə orada, vərəq – 546.
[3] Yenə orada, vərəq – 546-547.
[4] Yenə orada, vərəq – 551.

8. Rabitə orqanlarının işindən şikayət – **08**
9. Müxtəlif –**728**

Hərbçilərdən daxil olan məktublarda şikayətlər məzmununa görə aşağıdakı kimi olmuşdur:

1. Hərbi qulluqçu ailələrinin şikayətlərinə reaksiya haqqında – **9**
2. Qidalanmadan şikayətlər – **3**
3. Tibbi sanitar batalyonların və hospitalların qeyri-qənaətbəxş işindən şikayət – **1**
4. İntizamdan şikayət – **2**
5. Müxtəlif – **3** [1]

Azərbaycan SSR XDİK müavini, dövlət təhlükəsizlik xidməti polkovniki Krımovun və XDİK "YV" bölməsinin rəis müavini, dövlət təhlükəsizlik xidməti leytenantı Parijenin hərbi senzuranın aylıq hesabatından aydın olur ki, 1944-cü il may ayının 1-dən 28-dək olan dövr ərzində bütövlükdə 552.108 məktub işlənmişdir ki, onlardan 6.484-də mənfi faktlar, məlumatlar və antisovet əhval-ruhiyyə üstünlük təşkil etmişdir. Astraxanbazar (indiki Cəlilabad rayonu) rayonunun Novo-Qorlovka kənd sovetindən A.A.Məmmədovanın 7 may 1944-cü il tarixli İ.P.Məmmədovaya, Tərtər rayonunun Böyük Sarov kəndindən A.Baxşiyanın O.A.Arutyunova 4 may 1944-cü il tarixli, Astraxanbazar rayonu Privolnı kəndindən Riva Xanukayevanın 13 may 1944-cü il tarixli A.Q.Xanukayevə məktublarında kolxoz və sovxozlarda işlərin yaxşı getmədiyindən, taxılın mənimsənilməsindən, az məhsul aldıqlarından, mövcud mal-qaranın yemsiz qalmasından şikayət olunur.

Tərtər rayonunun Böyük Sarov kəndindən Baxşiyan Arşalyus dayısı Osip Arutyunova yazır ki, kolxoz sədri Şmavon dayı, kənd sovet sədri Qalust dayı, ferma müdiri Karapetlə birlikdə məhsulu mənimsəyirlər. Kəndlilərin əksəriyyəti acdır, çörək yoxdur. Kolxozun mal-qarası yemsiz qalmışdır.[2]

Rabitə orqanlarından olan şikayətlərin əsasını göndərilən pulların vaxtında alınmaması, poçt rəislərinin biganə münasibəti təşkil edir.[3]

Hərbi qulluqçu ailələri əmək haqqının vaxtında verilməməsindən, çörək normasının düzgün müəyyənləşdirilməməsindən narazılıq edirlər. Astara rayonunun Maşxan kəndindən İsayev atası A.İsayevə (PP446/73) yazır ki, "hazırda biz dözülməz şəraitdəyik. Rayon rəhbərliyi tərəfindən heç bir kömək göstərilmir. Anam ağır xəstədir, yəni ölüm ayağındadır, mən isə işləmirəm. Burada bütün hərbi qulluqçuların ailələrinə kömək göstərilir, un

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 151.
[2] Yenə orada, vərəq – 152.
[3] Yenə orada, vərəq – 152-153.

verilir. Amma bizə heç bir köməklik edilmir. Sən bizim rayona ərizə yaz ki, hazırda ordu sıralarındasan, ailən 5 nəfərdən ibarətdir və onlar dəhşətli vəziyyətdə yaşayırlar. Onlar rayon rəhbərliyi tərəfindən heç bir köməklik ala bilmirlər. Buna görə mənim ailəmə kömək göstərilsin".[1] Eyni xarakterli fikirlər maddi-məişət şəraitinə aid ərizələrdə əks olunmuşdur. Bakı şəhəri, 1-ci Sverdlovskaya 84-dən Anna Əzizova 15 may 1944-cü il tarixdə İsmayıl Əzizova (PP 43001), Kirovabad (indiki Gəncə) dəmiryolu, №24, mənzil 3-dən A.İ.Livanova 12 may tarixli məktubunda B.M.Livanova (PP 33136 "E") maddi durumlarının ağırlığından, ərzaq çatışmazlığından şikayətlənirlər.[2] Ərizələrin bir hissəsində mənfi əhval-ruhiyyə, hospitalların işindəki nöqsanlar, intizamın zəifliyi, ərizə və şikayətlərə, xüsusən hərbi-qulluqçuların ailələrinin şikayətlərinə baxılmasında süründürməçiliyə yol verilməsi və s. şikayətlər üstünlük təşkil edir.[3] Daxil olan ərizə və şikayətlərin bir hissəsi hospitalların işindən narazılığı ifadə edir. XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya ünvanladığı 13 dekabr 1942-ci il tarixli arayışında Şaumyan adına xəstəxanada yerləşən 3688 №-li təxliyə hospitalının işindən bəhs olunur. Arayışda bildirilirdi ki, hospitala rəis və hərbi komissarlıq tərəfindən lazımı rəhbərlik olmadığından xidməti personal və xəstələr arasında intim münasibətlər qeydə alınmışdı.

Hospitallarda oğurluq hallarına dair faktlar qeyd alınmışdır. 1289 №-li hospitalda N.İ.Markova hospital ağlarını oğurlamış, 3683 №-li hospitalın sanitarkası Həsənova hospital əmlakının oğurlanmasında şübhəli bilinmiş, mənzilində axtarış aparılarkən 6 döşək ağı tapılmış və Həsənova həbs olunmuşdur.[4] 1493 №-li Xankəndi hospitalının rəisi milliyyətcə erməni Kasparov yaralı xəstələrə hissiz və bürokratik münasibət bəsləmişdir. 1942-ci il noyabrın 23-də saat 12-də hospitala 30 nəfərdən ibarət yaralılar qrupu daxil olmuşdur. Bundan xəbər tutan Kasparov qəbulu təşkil etmək əvəzinə onları növbətçi tibb bacısının himayəsinə qoyaraq evə getmiş[5] və səhərə qədər qayıtmamışdır. 1553 №-li hospitalın cərrahı, keçmiş zabit İ.F.Polyakovun işinə səhlənkar yanaşma nəticəsində xəstə Lobov "Kirşner" aparatı ilə qıçından müalicə zamanı yıxılmış, aldığı ciddi zərbədən ölmüşdür.[6]

Bəzi hospitallarda xəstələr və xidmət heyəti arasında antisovet meylləri qeydə alınmışdır. 1544 №-li hospitalda müalicə olunan yaralı xəstə Qularyan Veno Arşakoviç faşistlərin xeyrinə təşviqat aparmışdır. Hospitalın işçisi Berta Malinski ilə söhbətdə Qularyan demişdi: "…Sovet qəzetləri

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 153-154.
[2] Yenə orada, vərəq – 154.
[3] Yenə orada, vərəq – 157-158.
[4] Yenə orada, vərəq – 176.
[5] Yenə orada, vərəq – 177.
[6] Yenə orada, vərəq – 330.

doğru yazmır, bu qəzet məlumatlarına inanmayın, xalqda almanlara nifrət yaratmaq üçündür. Mən almanlarda əsir olmuşam. Onlar heç kimi güllələmirlər, əksinə almanların hakimiyyəti altında adamlar çox yaxşı yaşayırlar. Krım cəbhəsində mənim qıçım donmuşdu və əsirlikdə mənə çox gözəl qulluq etdilər. Alman əsgərləri yaxşı geyinir, şokoladla qidalanırlar. Almanlara qarşı müharibə məqsədsizdir, qələbə almanların olacaq".[1] V.A.Qularyanın işi üzrə istintaq başlamışdır. Yaxud, 1543 №-li böyük hospitalın rəisi Tumanyan Ruben Arkadyeviçin hərəkətlərinə diqqət yetirək. R.A.Tumanyan keçmiş daşnak, gəmi sahibi, 1918-ci il mart qırğınının fəal iştirakçısının oğludur. XDİK tərəfindən repressiya olunan doğma qardaşı xaricdədir. Keçmiş daşnak ordusunun zabiti olan iki qardaşı var. Ətrafında faşistlər üçün təşviqat aparır. O demişdi: "Hitler dahi adamdır. O, ağıllı siyasət aparır. Hər səhər yataqdan qalxan kimi mən düşünürəm: Almaniya bu gecə kimi uddu".[2] Tumanyan haqqında müvafiq iş başlanılmışdı. 5026 №-li Şuşa hospitalında müalicə olunan yaralı Cavadov demişdi: "Mənim əlimin yaralanmasının səbəbkarı öyrədilməmiş insanları cəbhəyə göndərən sovet hökumətidir. Almanlar çox güclüdürlər, onlarda hər şey mexanikləşdirilib. Hitler onu bütün əleyhdarları vurmayanadək yaşayacaq. Ruslar cəbhədə irəliyə azərbaycanlıları və ermənləri göndərir, sonra arxadan özləri gəlir, o vaxt hücum edirlər ki, o vaxt ermənləri və azərbaycanlıları vura bilirlər".[3] Həmin hospitalda müalicə olunan yaralı Kasparov demişdi: "Almanlar tutduqları ərazilərdə əhaliyə və əsir əsgərlərə çox yaxşı münasibət bəsləyirlər. Yalnız kommunistlərlə pis davranırlar. Alman əsgərləri yaxşı geyinir və yaxşı qidalanırlar. Alman aviasiyası güclüdür və bizimkilər onlarla heç nə edə bilmirlər".[4] Kasparovun sözlərinə bənzər ifadələri 5026 №-li Şuşa hospitalında müalicə olunan yaralı Petrosyan 1942-ci il noyabrın 10-da demişdi: "Alman əsgəri yaxşı qidalanır. Mən özüm görmüşəm ki, alman əsgərinin çantasında çörək, kolbasa, yağ və b. ərzaqlar vardı. Qızıl Ordu döyüşçüləri həmişə acdır. Ümumiyyətlə, bu müharibədə sovet hökuməti məğlub olacaq, ona görə ki, o gücsüzdür və nahaq yerə müqavimət göstərir, bununla bütün gənclər məhv olur".[5] 5026 №-li hospitalda olan Nikolay Tevosyan 1942-ci il noyabrın 7-də Hospital əməkdaşlarının iştirakında demişdi: "Görünür bu müharibə uzun çəkəcək və Almaniyanın xeyrinə qurtaracaq. Dünən radio ilə rəhbər çıxış etdi, xalqı Avropada ikinci cəbhənin açılacağı ilə sakitləşdirdi. İkinci cəbhəni biz görməyəcəyik və sovet hökuməti

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 331.
[2] Yenə orada.
[3] Yenə orada, vərəq – 179.
[4] Yenə orada, vərəq – 179.
[5] Yenə orada, vərəq – 180.

qalib gəlməyəcək. Almanlar Sovet İttifaqının böyük ərazisini tutmuşlar, bir sözlə Qırmızı Ordunun qələbəsi haqqında deməyə heç nə yoxdur".[1]

"Azərbaycan SSR-dəki təxliyə hospitallarının vəziyyəti haqqında" XDİK T.Yaqubovun Azərbaycan K(b)P MK-ya göndərdiyi 01 aprel 1942-ci il tarixli məlumatında bildirilirdi ki, təxliyə hospitallarının işində olan ciddi qüsurlardan biri əsasən cərrahların çatışmazlığıdır. Hospitallarda 10 aparıcı və 30 ümumi cərrah çatışmır. Bəzi hospitallarda cərrahlar qismində həkim terapevtlərdən istifadə olunur. Sənədlərdən aydın olur ki, Azərbaycan Xalq Səhiyyə Komissarlığı hospitalları vacib sayda tibbi personajla təmin etməmişdir. Bəzi hospitallarda həkim-cərrah ümumiyyətlə olmamışdır. Mövcud cərrahların düzgün yerləşdirilməməsi və onlardan səmərəli istifadə olunması haqqında faktlar vardır. Məsələn, Əzizbəyov rayonunda yerləşən 3677 №-li hospitalda işləyən cərrah Babayev bütün imkanları olan və yaxın ərazidə yerləşən hospitallardan və digər müalicə müəssisələrindən cərrah köməyi almaq imkanı olan 5030 №-li hospitala keçirilmişdi.[2]

Məşhur cərrah professor Mirəsədulla Mirqasımovdan birbaşa təyinatda istifadə olunmur, hospitallara məsləhətçi kimi göndərilir, yalnız onda onun xidmətlərindən istifadə mümkün olur. Bir sıra hospitallarda həkim-terapevtlər olmamışdır. Bu onunla izah olunur ki, səhiyyə komissarlıqları hospitalları ixtisaslı cərrahlarla təmin etmək əvəzinə onların tərkibini həkim terapevtlərlə "tamamlayır". Həkimlərin işə səhlənkar münasibəti nəticəsində 1942-ci ilin mart yayında 82 yaralı döyüşçü ölmüşdür.[3] Təxliyə hospitallarında fizioterapevtik aparatlar və qeyri alətlər çatışmırdı. 3340 №-li böyük hospitalda fizioterapevtik kabinet olmamış, cərrahiyyə otağı təchiz edilməmişdir. Pinset çatışmadığından həkimlər və tibbi personalı yaralıların sarğılarını çirkli əllərlə dəyişirlər. Dərman vasitələrinin düzgün bölünməməsinə dair şikayətlər daxil olurdu. Streptosid, kofein, salisil, sulfidin-sulfazol, vişnevski mazı, naşatır spirti, kodein, sabol, bişmut və b. çatışmırdı.

1548 №-li Yoluxucu Xəstəliklər Hospitalında sabol, bişmut çatışmadığı halda 5030 №-li hospitalda bu dərmanlar istifadəsiz qalmışdır. 1544 №-li, 3683 №-li və digər hospitallarda sarğı materialları, xüsusən tənzif, bint, pambıq çatışmadığı halda, 5029 №-li Cərrahi Hospitalda artıqlaması ilə saxlanılırdı.[4]

Yaralı döyüşçülərin qidalanmasında uyğunsuzluqlara yol verilirdi. 3679, 1491, 145, 2473 №-li Hospitallarda 1942-ci il fevralın ikinci yarısı və martın birinci yarısında ərzaqların bazadan çatdırılmaması hallarına yol verilmişdi. Ayrı-ayrı hospitallarda, məsələn 300 çarpayılıq 5029 №-li hospi-

---

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 180.
[2] Yenə orada, vərəq – 327.
[3] Yenə orada, vərəq – 328-329.
[4] Yenə orada, vərəq –328-329.

talın mətbəxi olmadığından qidalar 3686 №-li hospitalda hazırlanır, vedrələrdə və termoslarda 500 metr məsafədən tədarük olunurdu. Eyni vəziyyət 3688, 360 №-li və b. hospitallarda da müşahidə edilirdi. Yeməklərin yaxın məsafədəki mülki xəstəxanalarda hazırlanması nəticəsində yeməklər xəstələrə müəyyən edilmiş müddətdən 3-4 saat sonra verilirdi.

Ərzaqların saxlanılmasında nöqsanlara yol verilir, bəzi yeməklər xarab olmuş məhsullardan hazırlanırdı. 3683 №-li hospitalda 1942-ci ilin mart ayının 18-də yemək hazırlanarkən xarab olmuş tomatdan istifadə olunmuşdur. 2473 №-li Hospitalda 1942-ci il martın 30-da 107 kiloqram yağın yararsız hala düşdüyü müəyyənləşdirilmişdir.[1] Hospitallarda xəstələr üçün nəzərdə tutulmuş ərzağın oğurlanması və dağıdılması müşahidə olunurdu. 3679 №-li hospitalda rəis Canjutova yaralı xəstələrin qidalanması üçün nəzərdə tutulmuş kartofu mənimsəmişdir. Bakıdakı 3685, 2473, 1289 №-li, Gəncə şəhərində 1550 №-li hospitallarda əmlakının oğurlanması, xəstələr üçün nəzərdə tutulmuş ərzaq məhsullardan və tibb ləvazimatlardan təyinatı üzrə istifadə olunmaması hallarına rast gəlinmişdi.[2] Bəzi hospitallarda siyasi-tərbiyə işinin vəziyyəti qənaətbəxş olmamışdır. Gəncədə 1550 №-li Hospitalın rəisi, III ranq hərbi-həkim Bədəlyan, hospital komissarı Polonski, tibb bacısı Baqiyan, Akopova, Suri və b. sərxoşluqla məşğul olmuşlar.[3] 5030 №-li hospitalda müalicə olunan E.E.Stepanenko, 5027 №-li hospitalda müalicə olunan Çerenisko, 3686 №-li hospitalda müalicə alan A.M.Mironov, Stepanakertdəki 1493 №-li hospitalda müalicə olunan Kizilev, 3678 №-li hospitalda müalicə olunan A.İ.Kisinyov, Gəncədəki 1554 №-li hospitalda müalicə olunan Fyodr İvanov antisovet təbliğatı ilə məşğul olmuşlar.[4]

Ayrı-ayrı hospitallarda antisovet elementlər və sosial cəhətdən yad adamlar toplaşmışlar. 1491 №-li hospitalda rəis Kubra Fərəcova şəxsi təminatı məqsədilə yaralı xəstələr üçün hamilərin gətirdiyi hədiyyələrin oğurlanması ilə məşğul olduğu üçün Azərbaycan K(b)P MK-nın qərarı ilə ÜİK (b) sıralarından xaric olunmuşdur.[5]

Bir sıra hospitallarda yaralı xəstələr arasında antisovet meylli adamlara rast gəlinmiş, onlar faşistlər xeyrinə təşviqat aparmış, faşist Almaniyasının qüvvələrini tərif edən fikirlər səsləndirmişlər. Bu cür antisovet fikirləri hətta hospital işçiləri də səsləndirmişlər. 2472 №-li Xankəndi təxliyə hospitalının tibb bacısı Knarik Çilingəryan əməkdaşlarla söhbətində demişdi: "…Mən hesab edirəm ki, sovet hakimiyyətinin almanlara sonadək müqaviməti məqsədsizdir, almanlar Cənubi Qafqaza qədər gəlmişlər və tezliklə

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq –328-329.
[2] Yenə orada, vərəq – 187.
[3] Yenə orada, vərəq – 187-188.
[4] Yenə orada, vərəq – 188-189.
[5] Yenə orada, vərəq – 330.

tutacaqlar. Sovet hökuməti bu müharibədə qalib ola bilməz".[1] 2472 №-li Xankəndi Hospitalındakı antisovet qrup ləğv olunmuşdur. İş üzrə 1920-ci il təvəllüdlü, azərbaycanlı, bitərəf İbrahimov Xəlil İsa oğlu, 1916-cı il təvəllüdlü, azərbaycanlı, bitərəf Məmmədov Avaz Şahbul oğlu, 1913-cü il təvəllüdlü, ləzgi, bitərəf, İznolov Cahsib, 1914-cü il təvəllüdlü, erməni, bitərəf, Baqdasarov Samson Başiroviç həbs olunmuşlar.[2]

[1] ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq – 181.
[2] Yenə orada, vərəq – 182.

XVII FƏSİL

SSRİ RƏHBƏRLİYİNİN ANTİTÜRK VƏ ANTİ-AZƏRBAYCAN PLANLARINDA ERMƏNİ AMİLİ

Yaxın keçmişin dərsləri

Müharibə tarixindən söz düşəndə öncə Birinci dünya müharibəsi, 1915-ci il hadisələri və ermənilərin yaşadıqları dövlətə, suyunu içdiyi, çörəyini yediyi xalqa xəyanəti yada düşür. Azərbaycanın ağır günlərində, xüsusilə eksterimal vəziyyətlərdə Bakıda nasistlərin köməyinə "Daşnaksutyun" gəlir. Burada təəccüblənməli bir şey yoxdur, çünki xüsusilə XX əsrdə onlar müxtəlif vaxtlarda Azərbaycan milli dövlətçiliyinin əleyhinə olan qüvvələri dəstəkləmiş, yaranmış vəziyyət onları narahat etməmiş, əksinə Azərbaycan əleyhinə olan qüvvələrə müxtəlif yollarla köməklik etmişlər.[1]

Ermənilər azərbaycanlıları məhv etmək məqsədilə quldur dəstələrindən istifadə edirdilər. Belə dəstələrə korpus komandiri general T.Nazaryan, onun müavini Dro Kanayan rəhbərlik edirdilər.

Bu soyqırımların törədilməsinin təşkilatçısı ABŞ və Qərbi Avropa və ölkələrinin sovet Qriqoryan Rusiyasının maliyyə yardımı ilə "Daşnaksutyun" partiyası, ilhamvericisi Erməni kilsəsi olmuşdur.

1941-ci İldə müharibə başlayanda ermənilər məkrli planlarını həyata keçirmək üçün fürsət yarandığını fikirləşdilər. Onlar "gələcək gün üçün" 1919-cu ildə daşnak hökumətinin başçısı olmuş Xatisyanı tapıb Hitlerə təqdim etdilər və ermənilər almanların sadiq dostu, ədalət uğrunda mübarizə aparan xalq olduqlarını bildirdilər.

Kim idi Xatisayan?

Xatisov Aleksandr İvanoviç erməni məmuru ailəsində dünyaya gəlmiş,[2] 1891-ci ildə Tiflis gimnaziyasını bitirmiş, Moskva və Xarkov universitetlərinin tibb fakültələrində oxumuş, 1897-ci ildə universiteti bitirərək həkim ixtisası almışdır. 1898-ci ildə təhsilini davam etdirmək üçün xaricə gedən Xatisyan İtaliya, Fransa və Almaniyada yaşayır, Paris və Berlində bir neçə kitab və kitabçaları nəşr etdirir.

A.Xatisov 1900-cü ildə Tiflisə qayıdır, 1905-ci il inqilabında iştirak edir, "Daşnaksutyun" partiyasına üzv olur. 1914-cü il müharibəsinin əvvəlində

[1]Султанов Чапай Али оглы. Выстояли бы СССР и Европа против фашизма, в случае потери Бакинской нефти?: к 60 – летию победы / Ч. Султанов. Баку, 2005. – с.182.
[2] http://wikipedia/orq|wiki

Rusiyada daşnaklara amnistiya elan olunduğu üçün Xatisov Qafqaz ordusunun baş komandanı Vorontsov-Daşkovun, Tiflisin erməni yepiskovu Ter-Movsesyan və həkim Akop Zavriev erməni könülü drujinalarını təşkili məsələləri üzrə məsləhətçi olurlar. Xatisov bu işlərə daşnak kadrlarını cəlb edir, erməni qaçqınlarına köməklik göstərir.

A.Xatisyan fevral burjua inqilabından sonra rəsmən "Daşnaksutyun" partiyasına daxil olur, 1917-ci ilin oktyabrınadək Erməni Milli Bürosuna rəhbərlik edir. 1917-ci ilin mart-aprelində erməni siyasi partiyalarının müşavirəsinə sədrlik edir. 1917-ci ilin iyununda Tiflisdə keçirilən Cənubi Qafqaz kəndlilərinin qurultayında, 1917-ci ilin sentyabr-oktyabr aylarında çağırılan Erməni Milli Müşavirəsində (Şərq ermənilərinin qurultayında) və Erməni Milli Şurasının yaradılmasında iştirak edir. 1918-ci ilin aprelində Zaqafqaziya Demokratik Federativ Respublikası yarananda maliyyə və ərzaq naziri, həmçinin Zaqafqaziya Seymi hökumətinin himayə etmə naziri olur. O, 1919-cu ilin oktyabrında Ermənistan Respublikasının xarici işlər naziri, 1919-cu ilin avqustundan 1920-ci ilin may ayına kimi Ermənistan Respublikasının Baş Naziri olmuşdur.

A.Xatisyan mühacirətdə Parisdə yaşayır, erməni və rus ictimai təşkilatlarının işində, 1923-cü ildə Lozanna konfransında iştirak edir, Millətlər Cəmiyyətində erməni xalqının maraqlarını təmsil edir. A.Xatisyan mason təşkilatı "Şimal ulduzu" (1924-1931), "Azad Rusiya" (1931-1937) şöbələrinin üzvü olmuşdur. Hitler qoşunları Fransanı işğal edəndə Portuqaliyaya gedən Xatisyan Portda yaşayır. 1944-cü ildə almanlarla əməkdaşlıq etməsi barədə donos əsasında yerli hakimiyyət orqanları tərəfindən həbs olunsa da, "sübutlar yetərli olmadığından" sərbəst buraxılır.

Daşnak hökuməti dağıldıqdan sonra gizlənən Xatisyan 1942-ci ildə Hitlerin xidmətinə daxil olur. 1942-ci ilin martında keçmiş erməni Baş Naziri A.Xatisov Berlində Almaniyanın reyxs naziri German Gerinqin qəbuluna çağırılır və onunla Ermənistanın gələcəyi haqqında danışıqlar aparılır. Berlindəki danışıqlarda "Daşnaksutyun" partiyasının lideri Artaşes Abeqyan, daşnak hökumətinin keçmiş Baş Naziri, partiyanın xarici bürosunun üzvü Aleksandr Xatisyan, daşnak hökumətinin keçmiş üzvü David Davidxanyan və Artaşes Gülxandanyan da iştirak edirdi. Danışıqların yekununa əsasən Dro alman kəşfiyyatına xidmətə girir, İran və Qafqaza casus atmaq məqsədilə mühacirlərdən və hərbi əsirlərdən döyüş kəşfiyyat qrupu hazırlamaq vəzifəsini öhdəsinə götürdü. Almanlar, həmçinin onun üzərinə alman komandanlığına kömək üçün Qırmızı Orduya qarşı döyüşmək üçün könüllü erməni legionların formalaşdırmaq vəzifəsini də qoydular.

D.Davidxanyan, A.Abeqyan və digər danışıq iştirakçıları Berlində qalaraq alman hökuməti yanında "Erməni Milli Komitəsi"nin təşkili üçün hazırlıq işlərinin aparılmasına başladılar. "Erməni milli komitəsi" gələcək "Müstəqil Ermənistan"ın idarə formasını həll etməli idilər. Bunun ardınca

“Daşnaksutyun” Partiyasının Paris Mərkəzi, həmçinin bir sıra daşnak liderləri də Berlinə gəldilər. Onların arasında keçmiş daşnak hökumətinin naziri Araratyan da vardı. Bununla əlaqədar almanlar digər mühacir ermənilərində fəallaşması haqqında tədbirlər görürlər.

Uzun illər Ermənistanda müxtəlif rəhbər vəzifələrdə işləmiş mərhum T.Musayev yazır ki, “Hitler onu (Xatisyanı – M.Ə.) Qafqaza-Rostov vilayətində ermənilərin çoxluq təşkil etdiyi Armavir şəhərinə göndərir ki, ermənilər səfərbər edib Sovet dövlətinin məğlub olmasına yaxından kömək etsin, Qafqazı Hitler zəbt edən kimi Cənubi Qafqaz üzrə qubernator olub Cənubi Qafqazda qalıb… azərbaycanlıların kökünü kəsə bilsin”.[1] Daşnak hökuməti başçısı olmuş Xatisyanın Rostov vilayətinin ən çox erməni yaşayan Armavir şəhərinə gətirilib orada yerləşdirilməsi və onun planları barədə 1942-ci il iyul-avqust aylarında “Pravda” qəzeti nömrələrinin bitirəndə karikatura verilmişdi. Karikaturada Hitler A.Xatisyanı maşa ilə zibil vedrəsindən çıxarıb ona vədlər verir”.[2] Faşistlərin qulbeçələri olan Dro Kanayan II Dünya Müharibəsi zamanı Qareqin Njde ilə birlikdə, faşistlərin tərəfində döyüşür və erməni hərbi birləşmələrinin təşkilində fəal iştirak edirlər. 1942-ci ilin dekabrında general Dro və erməni yazıçısı Garo Gevorkyan, Henrix Himmlerin qəbulunda olur və ona pastor Lepsiusun “**Erməni** xalqının ölümcül yürüşü” kitabını təqdim edirlər. Himmlerin və general Dronun çağırışı ilə 30 minə qədər erməni alman ordusuna qatılır və döyüşlərdə iştirak edir. Müharibənin sonuna yaxın Qareqin Njde İ.Stalinə ünvanladığı məktubda general Dro barədə bu sözləri yazır: “Mən vətən xaini Dronun Ermənistana yönəlmiş planlarını mümkünsüz etdim”.

İkinci dünya müharibəsi illərində Dro alman ordusunda (Vermaxtda) ermənilərdən təşkil olunan 812-ci taborun rəhbəri təyin edilir. Almanlar Krım və Şimali Qafqazın işğal etmək istəyəndə Qafqaz cəbhəsində vuruşan Dro günahkar elan edilsə də, sonradan bağışlanılır. Bundan sonra Beyrutda ticarət işlərinə başlayır, lakin xəstələndiyi üçün ticarət işini dayandırmağa məcbur olan Dro ABŞ-a aparılır, 1956-cı ildə Bostonda dünyasını dəyişir. Dronun məzarı 2000-ci ildə ABŞ-dan Ermənistana gətirilmişdir.

Dro Kanayanın məsləkdaşı və azərbaycanlıların düşməni olan **Qaregin Njde (əsil adı Qaregin Yeğişe Ter-Harutyunyan)** 1886-cı il yanvar ayının 1-də Naxçıvanda dünyaya gəlmiş, Azərbaycan torpağının nemətləri ilə böyümüşdür. Naxçıvanda rus məktəbini bitirən Qaregin Tiflis Rusiya gimnaziyasında təhsilini davam etdirmiş, 17 yaşında Erməni Liberal Hərəkatına qatılmış, qısa bir müddətdən sonra təhsilini davam etdirmək üçün Sankt-Peterburqa getmişdir. İki il hüquq fakültəsində oxuduqdan sonra

[1] Musayev, Talıb. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) / T.Musayev. – Bakı, 2008. – s.214-215.
[2] Yenə orada.

şəhərdən ayrılaraq Osmanlı imperiyası və Rusiyaya qarşı olan Erməni Beynəlxalq hərəkatına daxil olmaq üçün Qafqaza geri dönmüşdür. 1906-cı ildə Bolqarıstana gedən Njde, 1907-ci ildə şəhərdə əsgəri hazırlığını tamamlamışdır. 1908-ci ildə "Daşnaksutyun"a daxil olan Qaragin Njde Yeprem Xan və Mustafa Sebastianla bərabər inqilabda iştirak edir. 1909-cu ildə Qafqaza geri dönəndə Njde ruslar tərəfində tutulur və 3 il həbsdə yatır. 1912-ci ildə general Andranik Ozanyan ilə bərabər Trakiya və Makedoniyanın azadlığı üçün Balkan vuruşlarında Osmanlı imperiyasına qarşı Bolqar ordusunun Makedon-Adriyanapol Könüllü dəstələri adı altında Erməni taboru yaradır.

Bolqarıstanda erməni milli komitəsinə Njde rəhbərlik edirdi. Buxarestdə analoji faşist "Rafi" təşkilatı yaradılmışdı. Bu təşkilat ermənilərdən olan antisovet kadrları işə cəlb edirdi. "Rafi"nin bir sıra üzvləri SSRİ-nin işğal olunmuş ərazilərindən alman kəşfiyyat orqanlarının işində fəal iştirak edirdilər.

İkinci Balkan savaşında yaralanan Njde Bolqarıstan "Cəsarət xaçı" ilə mükafatlandırmışdır.[1] Birinci Dünya Müharibəsi başlamamışdan əvvəl Rusiya hökuməti tərəfindən elan edilən əfvdən sonra Njde Osmanlı imperiyasına qarşı vuruşmaq üçün çar Rusiyası ordusu tərəfindən könüllü erməni dəstələri hazırlamaq məqsədilə Qafqaza göndərilir. Müharibənin ilk vaxtlarında –1915-ci ildə Erməni dəstələrinin komandiri Dro Kanayanın köməkçisi olur. 1916-cı ildə Xüsusi Erməni-Yezidi Əsgəri Birliyinə komandanlıq edir. Rus ordusunun geri çəkilməsindən sonra Njde Alajay döyüşündə Gümrüyə geri doğru geri çəkilən Erməni könüllüləri üçün dəstə saxlayır. Osmanlı ordu dəstələri Gümrüyə çatdıqdan sonra Q.Njdenin rəhbərliyindəki erməni qüvvələri Cənubi Qafqaza keçirlər.

XX əsrin 30-cu illərinin sonunda dünya iqtisadi böhranının şiddətlənməsi və A.Hitlerin Almaniyada hakimiyyətə gəlişi ilə erməni liderləri onlara iş birliyi quraraq SSRİ-yə qarşı faşistlərlə əməkdaşlığa üstünlük verdilər. Ermənilərin faşist Almaniyası ilə əməkdaşlıqda SSRİ-yə düşmən münasibət bəsləyən yəhudilər və qaraçılarla yanaşı SSRİ-ni sevməyən və Türkiyəyə düşmən münasibət bəsləyən ermənilər də Hitlerin sadiq quluna çevrilmək üçün dəridən-qabıqdan çıxırdılar. Bundan istifadə edən gestaponun şefi Henrix Müller qondarma Krauze adıyla Bakıya gələrək "Daşnaksutyun" partiyasının üzvlərini "beşinci kolona" cəlb edir. SS qruppenfürerü H.Millerin "…Bakıya gəlişindən sonra erməni milli təşkilatı "Daşnaksutyun"un agentləri məlumatları Almaniyaya ötürməyə başlayırlar.

[1] http://wikipedia/orq|wiki|drashamat_kanayan_note/Chalabian2010–1

Əslində ermənilərin Türkiyəyə olan düşmən münasibəti faşistlərin ermənilərlə əlaqə yaratmasının əsas səbəbi idi. Faşist Almaniyasının siyasi əlaqələndiricisi Alfred Rozenberqin etiraf etdiyi ki, Almaniyanın siyasi məqsədi Cənubi Qafqazda, həmçinin onun cənub qonşularında hərbi və siyasi arenada hakimiyyətə yiyələnmək idi. Rozenberqin işğal olunacaq ərazilərə dair tərtib etdiyi xəritə Türkiyəni də əhatə edirdi. Ermənilərin türklərə olan nifrətindən istifadə edən Reyxin rəsmi nümayəndəsi ermənilərə açıq müraciət edərək onların gestapo ilə birgə hərəkət etməsi üçün ermənilərin imkanları barədə dəqiq məlumatlar vermələrini, sonra öz arzularını bildirməyi tələb etmişdilər. Ermənilər faşistlərin işğal etdikləri ərazilərdə işğalçı rejimin saxlanılması və daxili qaydaların möhkəmləndirilməsində istifadə olunurdular. Erməni yazıçısı Eduard Abramyan etiraf edirdi ki, erməni məsələsi Hitler Almaniyası üçün də həmişə xarici siyasətlərini reallaşdırmaq vasitəsi olmuşdur. Buna görə də, Reyx ermənilərlə əlaqəyə dair Almaniyada olan erməni mühacirlərlə yığıncaqlar keçirir, onlardan SSRİ-yə və Türkiyəyə qarşı istifadə etməyə planlaşdırırdılar. Berlin ermənilərə SSRİ-yə qarşı müqəddəs müharibəyə hazırlaşmağı tövsiyə etmişdi. Ermənilərlə razılaşmaya görə Türkiyəyə hücum üçün ermənilər Almaniya üçün 100 minlik qoşun toplamalı idi. Bütün bu məsələlər detalları ilə erməni-alman razılaşmasında – "Gertrud" planında əksini tapmışdı[1]. "**Gertrud**" planına görə Türkiyəyə hücum üçün Ermənistan və Gürcüstan Almaniya üçün 100 minlik ordu toplamalı idi. Plana görə Ermənistana Şərqi Anadolu və Kilikiya, Gürcüstana isə Trabzon, İtaliya, Bolqariya və Yunanıstana isə İzmir ərazisi vəd olunmuşdu.[2] Ermənləri almanlar tərəfinə cəlb etmək, onları Hitlerə xidmət etməyə çağırmaq məqsədilə Almaniyada "Haystan" qəzeti nəşr olunurdu. Qəzetin bütün redaksiya heyəti ermənilərdən təşkil olunmuşdu. Qəzeti Almaniyadan maliyyələşdirildi və III Reyxin təbliğat naziri Göbbesin birbaşa nəzarətində idi. Türkiyəyə qarşı almanlara planlarını həyata keçirmək üçün daşnaklar 1943-cü ilin ortalarında daşnak könüllülərinin komandiri, Birinci dünya müharibəsinin iştirakçısı, hazırda abidəsi "İrəvanı bəzəyən" general Qaregin Njdenin rəhbərliyi altında yaradılmışdı. Njde "Tsexakron" təşkilatının əsasını qoymuş və onun köməyi ilə gənc ermənilərin SS faşist təşkilatının və digər elit faşist təşkilatlarının üzvləri olmasına şərait yaradılmışdı. Almaniyada və işğal olunmuş Fransada yaşayan xeyli ermənilər Vermaxtın 10-cu ordusuna daxil olmuşdular. A.Rozenberqin strateji planına əsasən Almaniyanın himayəsi altında "Ermənistan Baş Komissarlığı" yaradılmalı idi. Reyx erməni daşnaklarının sədaqət və xidmətləri müqabilində Qarabağın, Naxçıvanın və Axalkələkin bir hissəsinin ermənilərə verilməsini vəd etmişdilər. Bundan başqa Qarabağdan olan ermənilər SSRİ-yə qarşı üsyan qaldırmalı, bu əraziyə Al-

[1] Буланова, О. Армянская помощь фашистской Германии // Эхо. – 2017, 20 май. – с.3
[2] Fərrux Həsənov, Gülnarə Zeynalova. http://vzglyad.az/news/62240/

maniya ermənilərindən qanunsuz hərbi birləşmələr və xüsusi təhsil almış dəstələr göndərilməli idi.[1]

Bu səbəbdən də, Reyxin nümayəndələri ermənilərə açıq müraciət ünvanlanaraq birgə hərəkət üçün imkanları haqqında dəqiq məlumat verməyi, sonra arzularını bildirməyi tələb etmişlər.[2]

1943-cü ildə "Erməni Milli Komitəsi"nə seçkilər keçirilir. Onun tərkibinə A.Abeqyan, D.Davidxanyan, Gülxandanyan, Njde və başqaları daxil olurlar. Şərq nazirliyinin Qafqaz bölməsində xüsusi erməni alt seksiyası yaradılır. Ancaq "Erməni Milli Komitəsi"nin əsas fəaliyyəti Almaniyanın kəşfiyyat orqanları ilə SSR əleyhinə yönəlmişdi. Bu məqsədlə Dronun təşəbbüsü ilə Erməni kəşfiyyat komandası "Dromedar" yaradıldı və alman kəşfiyyat orqanına "Abverqrup-101" adı ilə daxil oldu. Onun tərkibində 94 nəfər vardı ki, onun 32 nəfəri alman, qalanları müxtəlif millətlərdən olan almanlara əsir düşən və almanlar tərəfinə könüllü keçən mühacir keçmiş Qırmızı Ordu hərbi qulluqçuları idi.

"Dromedar"ın əsas vəzifəsi Sovet arxa cəbhəsinə göndərmək üçün agent hazırlamaq idi. "Dromedar"çılar, hücum edən alman hissələrini ardınca 1941-ci ilin avqustundan 1943-cü ilin yanvarınadək Ukrayna, Krım və RSFSR-də dislokasiya olundular. Şimali Qafqazda "Dromedar"ın xüsusi nümayəndəsi vardı, müxtəlif şəhərlərdəki yerli ermənilərlə agentura şəbəkəsini genişləndirir, partizanların, partiya və sovet fəallarının aşkar edilməsi, antisovet vərəqələr buraxılması, faşist radio verilişlərinin təşkili, hərbi əsirlərə yardım adı ilə yerli erməni kilsələrinə pul toplanmaqla məşğul olurdu. "Dromedar" Simferopolda hərbi əsirlərdən və yerli erməni əhalisindən agenturaya cəlb etmək üçün fəal iş aparır, daha fəallarını Varşavaya "Vali" alman kəşfiyyat məktəbinə oxumağa göndərirdi. 1943-cü ildə alman ordusunu geri çəkilməsi ilə əlaqədar "Dromedar" Ukraynanın Vinnitsa şəhərindən 20 km-də aralıda dislokasiya olunur. "Dromedar"ın erməni əsirlərindən olan agentləri sovet arxasına təxribatçı casus, terrorçu paraşütçülər atır. Müxtəlif vaxtlarda "Dromedar" sovet arxasına 85 kəşfiyyatçı atmışdır. Bunlardan 35 nəfəri saxlanılmışdır.

A.Hitlerə sədaqətlə qulluq edən daşnakların siyahısında Artaşes Abeqyan, Vaçaq Artaşesoviç Abeqyan, Akop Petroviç Aziyan, Vaqan Tetevosoviç Ayrapetyan, Qayk Asatryan, Tiqran Baqdasaryan, Suren Bekzadyan, Nikolay Ambarsumoviç Qevorkyan, Aleksandr Xatisyan, Aram Konstantinoviç Mirimanyan, Alfred Muradyan, Aleksiy Sarkisyan, Vartan Mixayloviç Sarkisyan, Misak Akopoviç Torlakyan[3] və onlarca "yan"ların adları vardır.

---

[1] Абрамян, Э. Кавказцы в Абвере / Э.Абрамян. – Москва, 2006. – с. 48, 52, 136.
[2] Там же, с.45.
[3]Fərrux Həsənov, Gülnarə Zeynalova. http://vzglyad.az/news/62240/

Erməni tarixçilərinə görə Vermaxtda formalaşdırılan erməni legionu erməni xalqının nümayəndələrindən təşkil edilmiş və Ermənistanın SSRİ-dən müstəqil dövlətçilik rəmzi olmuşdur. Erməni legionunu tərkibinə 12 batalyon və müxtəlif yarımbölmələr daxil idi.

Məlumdur ki, faşist Almaniyası SSRİ-yə hücum edəndə qarşısına SSRİ-nin çoxmilli tərkibini dağıtmaq, parçalamaqla milli azlıqların hökumətlərini yaratmaqla hərbi birləşmələr yaratmaq istəyirdi. Bunun üçün onları Almaniyanın tərəfinə çəkmək məqsədilə Milli Azadlıq Komitələri yaradır, bu komitələrin işinə mühacirətdə yaşayan müstəqil dövlətlərin keçmiş liderlərini və sərkərdələrini cəlb edirdi. Hitlerin 1941-ci ilin noyabrında Türküstan legionu yaratmağa razılıq verməsindən sonra şərq xalqlarından hərbi birləşmələr yaradılması işi fəallaşdı. 1941-ci il dekabrın 22-də silahlı qüvvələrin Ali Komandanlığı şərq xalqlarından 4 legion yaradılması barədə əmr verdi, onların arasında erməni legionu da var idi. Legionların yaradılması haqqında dəqiq göstəriş 1942-ci il fevralı 8-dəki əmrdən sonra oldu.

Erməni legionunun mərkəzi Pulava şəhərində (Polşa) yerləşirdi. Müharibənin əvvəlində erməni legionuna qondarma "Erməni soyqırımın"dan sonra Fransa və Almaniyada yaşayan mühacirlər gəlmişdi. 1942-ci ilin sonunda Polşada cəbhəyə 2 erməni alayı – 808-ci və 809-cu alay yola salınmışdı. 1943-cü ilin əvvəlində onların ardınca 810-cu, 812-ci və 816-cı, 1943-cü ilin ikinci yarısından isə 814-cü, 815-ci və 816-cı alayı gəldilər. Bu dövrdə cəbhəyə ümumi sayı 20 min olan erməni göndərilmişdi.[1]

Tədris düşərgəsinin yeni mərkəzi Poltava vilayətində yaradılmışdı. Erməni legionları Loxvitsdə yerləşirdi. 1943-cü ilin mayına qədər Ukraynada erməni legionlarından 3 səhra erməni alayı – 1/125-ci, 1/198-ci və II/9-cu alayı formalaşdırmaq mümkün olmuşdu.

Səhra batalyonlarından başqa, müharibə dövründə erməni hərbi əsirlərindən alman ordusuna xidmət edən, ancaq döyüş əməliyyatlarında birbaşa iştirak etməyən 72 tikinti, dəmiryolu, nəqliyyat və digər köməkçi yarımbölmələr formalaşdırılmışdı. Bütün bunlar SSRİ-nin Almaniyadakı səfiri, ixtisasca çekist, uzun müddət DİXK-da (Xarici şöbə) kəşfiyyata rəhbərlik etmiş milliyyətcə erməni Vladimir Dekanozovun gözü qarşısında baş verirdi. Səfirliyin ikinci katibi Beriyanın müavini Boqdan Kabulovun doğma qardaşı Amayak Kabulov idi. Müharibə ərəfəsində onların fəaliyyəti bu günədək tapmaca kimi problem olaraq qalır. Samuel Uimsə görə 100 mindən artıq erməni Üçüncü Reyxin dəstələri tərkibində iştirak etmişdi.

İlk vaxtlar Polşa ərazisində hərbi əsirlərin daxil olduğu Zaerjijdə hazırlıq düşərgəsi yaradılır, Erməni legionu isə Pulavada dislokasiya olun-

---

[1] Султанов Чапай Али оглы. Выстояли бы СССР и Европа против фашизма, в случае потери Бакинской нефти?: к 60–летию победы /Ч.Султанов. Баку, 2005. – с.185.

muşdu. Şəxsi heyət üzrə rəis, təlim və erməni legionundan istifadə üzrə kapitan Kuçer təyin edilmişdi. O, sonralar birinci erməni legionuna başçılıq etmişdi. 1941-ci ilin iyulundan 1943-cü ilin sonunadək 8 alay formalaşdırıldı. Erməni legionlarının formalaşdırılması və təlimindən başqa zabitlər məktəbi açılmışdı ki, orada gələcəyin zabitləri oxuyurdu. Belə məktəblərdən biri Polşanın Legionova şəhərciyində yerləşirdi. 1942-ci ilin mayından legion hissələrinin formalaşdırılması Ukrayna ərazisində genişləndirildi. Tədris mərkəzi və tədris düşərgəsi Loxvitsdə yaradılmışdı. Mayor Enqxolm rəis təyin edilmişdi. 1942-ci ilin sentyabrından 1943-cü ilin fevralınadək üç batalyon formalaşdırılmışdı. Legionerlər fiziki və xüsusi hərbi ixtisas hazırlığı keçirdilər. Adətən məşğələlərin müddəti gündə 7-9 saat olmaqla 4 ayadək davam edirdi. Vəziyyətdən asılı olaraq sürətləndirilə də bilirdi. Hərbi proqrama fiziki hazırlıq-sıra məşğələləri, alman ordusunun nizamnaməsinin mənimsənilməsi, rus və alman silahlarının öyrənilməsi, taktiki hazırlıq daxil idi. Hazırlıqla keçmiş hərbi əsirlərdən olan və iki həftəlik hazırlıq kursu keçmiş bölmə və taqım komandirləri məşğul olurdu. Sıra təlimini hazırlığına alay komandirləri rəhbərlik edirdilər. Ümumi hərbi hazırlıqdan sonra hərbi ixtisaslar üzrə dar ixtisaslara hazırlıq keçirilirdi. Erməni legionlarının komandirləri almanlardan təyin edilirdi. Hər bir alay komandirinin yanında müşavir-alman feldfebeli olurdu. II Dünya Müharibəsi başa çatdıqdan sonra faşistlərlə əməkdaşlıq edən erməni legionerləri, o cümlədən "Dromedar" üzvləri SSRİ-yə verildi, bəziləri Qərbdə qalmağa müvəffəq oldu. Eyni zamanda legionlar arasında təbliğat işi aparılırdı. Təbliğat işin əsasını Slovakiya və Xorvatiya timsalında Ermənistanın müstəqilliyinin vədi dayanırdı. Bəzi məlumatlara görə, alman Reyxində xidmət edən ermənilərin sayı 27 min nəfər olmuşdur, onlardan 3.000 nəfəri SS və alman "Abver" kəşfiyyatında xidmət etmişdir.

Qeyd edildiyi kimi, erməni legionlarının mərkəzi Pulave şəhərində yerləşirdi. Erməni hərbi birləşmələrinin düşərgəsinin komendantı vəzifəsinə Tiflisdən olan erməni qadının oğlu oberşturmanfürer Valdemar Frentsel təyin edilmişdir.

Fevralın sonunda general Dro (Drastamat Kanayan) Berlinə gəlir, yerli nüfuzlu ermənilər SS reyxsfüreri H.Himmlerin qəbuluna düşməyi təşkil edirlər. Onunla birlikdə yazıçı Qaro Qevorkyan və Vyanadan olan tələbə tərcüməçi kimi qəbulda olurlar. Danışıqlar saat yarım davam edir. Söhbətin gedişində "Almaniyanın qələbəsindən sonra nə olacaq?" – deyə Himmler soruşur: Türklər əldə silah Ermənistana irəliləyəcəklər? Yox. Və zəmanət üçün erməni legionunun yaradılması xidmət edir, bu birləşmələr mən düşünürəm ki, əlbəttə bizim köməyimizlə öz vətənlərini qoruya bilərlər. Söhbətin sonunda Dro erməni hərbi düşərgəsinə, gələcək legionerlərin hazırlandığı düşərgəyə baş çəkməyi arzu edir. Erməni hərbi əsirlərinin arasına düşən Dro özünün nitqi ilə düşərgədə olanların erməni legionu

sıralarına daxil olmağa inandıra bilir. O, digər düşərgədə olan ermənilərlə əlaqə yaradaraq legiona daxil olmağa çağırış edir.

General Dronun fəaliyyəti qısa zamanda öz nəticəsini göstərir. İlk aydan 3 düşərgədən 250-dən çox könüllü ermənilərlə birləşmək arzusunda olduğunu bildirir, sonra onların sayı 1500, daha 2500-ə çatır. Dro hərbi əsirlər arasında ilk daşnak partiyasının özəyini yaradır. Bu partiyaya Sovet hökumətinə inamının itirmiş Ermənistandan olan ermənilər, hətta rus dilini bilməyən ermənilər daxil olurlar. Legionların yaradılmasının ilk vaxtlarında legionlar sırasına Almaniyada, işğal olunmuş Polşada, Fansada və digər ölkələrdə yaşayan ermənilər daxil olurlar. Almaniyadan olan legioner ermənilər arasında Vermaxtın erməni zabitləri, həmçinin SS zabitləri, məsələn, Vaffen-ştandartenfürer SS Vartan Sarkisyan, kapitan Misak Torlakyan, qruppenfürer Razmik Nazaryan və başqaları vardı.

Qaregin Njde Berlində 20-30 nəfərdən ibarət olan və Ermənistana atılaraq antisovet əhval-ruhiyyəsi təbliğatı və Almaniyanın himayəsi altında "Böyük Ermənistan" dövləti yaradılması təbliğatı aparan təxribat qrupunun yaradılası üzərində işləyirdi. Almaniyada Njdeyə Almaniyanın Moskvadakı keçmiş səfiri, köhnə tanışı qraf Şulenberqə köməklik edirdi.

Bir müddət sonra Berlinə "Paykar" nəşriyyatının əsasının qoyan, Bakıda Ermənistanın Fövqəladə və Səlahiyyətli səfirinin oğlu, gənc Suren Bekzaryan gəlir. Onun məqsədi reyxdə yeni "Osank" ("Axın") nəşriyyatını yaratmaq idi. Bu nəşriyyat Odessadan Rostova qədər işğal olunmuş ərazidə ermənilər üçün ideya hazırlığı mərkəzi olmalı idi. Bu cür mərkəzlər Sevastopolda və Erməni Milli Komitəsinin qərargahlarının aktiv fəaliyyət göstərdiyi digər işğal olunmuş şəhərlərdə də formalaşdırılmışdı. Təbliğat işində Almaniyadan olan erməni Alfred Muradyan daha çox fərqlənirdi. Onu "Erməni legionunun himayədarı" adlandırırdılar. O, "Armenekan" ("Aykakan") hərəkatının əsasını qoymuşdu.

Ermənistan Respublikasının keçmiş Baş Naziri Aleksandr Xatisyan da Almaniyaya gəlmişdi. O, Şulenberqlə görüşlərində bir neçə dəfə gələcək Ermənistanın statusu məsələsini qaldırmış, fürerlə görüşmək üçün razılıq almağı ondan xahiş etmişdi. Ancaq fürer "tam qələbəyədək sovet dövlətlərinin statusu barədə heç bir danışıq" olmayacağını Şulenberq bildirmişdi.

1943-cü ilin sonunda Göbbelsin idarəsi erməni legionları üçün erməni və alman dillərində həftəlik dərc edir. Onun redaktoru **Levon Şantın oğlu Viqen Şant** idi. Həmin idarədə alman, fransız, rus və erməni dilində radio verilişləri aparılırdı və verilişlərdə çoxlu erməni işləyirdi.

Berlində, Marseldə və Simferopolda erməni əhalisi üçün erməni dilində qəzetlər, "Azad Hayastan" ("Azad Ermənistan") və "Hayrenik" ("Vətən") həftəliyi nəşr olunurdu.

Legionların komandiri qeyd edildiyi kimi, ştandartenfürer **Vartan Sarkisyan** idi. O, Qırmızı Ordu mayoru hərbi rütbəsində əsir düşmüş, "özünün hərbi qabiliyyətinə görə" generala qədər yüksəlmişdi. Reyxdə erməni legionlarının rəsmi nümayəndəsi Ermənistan Respublikasının xarici işlər nazirinin oğlu **Armik Calayan** idi. Onun anası alman qadını idi və alman Baş Komandanlığı ilə əhəmiyyətli əlaqələri vardı. Hərbi attaşe Almaniya vətəndaşı, sənayeçi milyoner **zondenfürer Alfred Muradyan**, mətbuat attaşesi Arutyun Baqdasaryan idi.

Erməni legioneri

Bütün Şərq legionlarından fərqli olaraq yalnız erməni legionu milli tərkibdə idi.

Vermaxtın xidmətində olan erməni batalyonlarının fəaliyyətini təhlil edərək belə nəticəyə gəlmək olar ki, batalyonlardakı ermənilərin sayı 3000 nəfəri aşmamışdır. Bu legionların təşkili və ilhamvericisi 1918-1920-ci illərdə mövcud olmuş qondarma Ermənistan Respublikasının mühacirətdə yaşayan hökumət üzvləri, onların qohumları, yaxınları və "Daşnaksutyun" partiyasının üzvləri olmuşlar. Bu birləşmələrin təşkilatçıları və üzvlərinin əsas ideyası "**öz hərəkətləri ilə Ermənistanı və ermənilər Türkiyənin Ermənistana hücumlarından qorumaq**" olmuşdur. Legionların və onların komandirlərinin hamısı hərbi əsirlər olmuşlar. Bütün hallarda batalyonlar SSRİ ərazisində döyüşlər aparanda, tezliklə onlar etibarsızlıq və şübhəliklə əlaqədar və ya əsgərlərin müttəfiqlər tərəfinə keçməsi səbəbli yenidən formalaşdırılmışdır. Faşist Almaniyasının SSRİ-yə müvəffəqiyyətli hücumunu ermənilər, daşnaklara simpatiyası olan mühacirlər Ermənistanın kommunistlərdən azad olunması üçün bir şans və "Böyük Ermənistan" yaratmaq kimi qiymətləndirmişlər.

Ermənilərin Türkiyə Cümhuriyyətindən və Azərbaycan SSR-dən ərazi iddiaları

Müharibənin ilk illərində Türkiyə Cümhuriyyəti ilə Hitler Almaniyası arasında münasibətlər yaxşı idi. İtaliyanın Almaniyaya yaxınlaşması bu münasibətlərə mənfi təsir göstərdi. İkinci dünya müharibəsinin sonuna yaxın SSRİ-nin Türkiyə Cümhuriyyəti ilə münasibətləri həddindən artıq kəskinləşdi. 1945-ci il martın 19-da SSRİ hökuməti 17 dekabr 1925-ci ildə imzalanan və sonradan müddəti dəfələrlə uzadılan iki ölkə arasında dostluq və neytrallıq haqqında müqaviləni birtərəfli qaydada denonsasiya etdi. Türklərə və azərbaycanlılara qarşı düşmənçilik hissi bəsləyən ermənilər özlərinə mövqe qazanmaq, məkrli planlarını həyata keçirmək üçün üzdə özlərini dost kimi göstərsələr də, yaranmış vəziyyətdən istifadə etməyə Mərkəzin əli ilə həyata keçirməyə can atdılar. SSRİ-nin antitürk və antiAzərbaycan milli siyasətindən qaynaqlanan ermənilər ərazi iddialarına başladılar.

SSRİ-nin Türkiyədən qopartmaq istədiyi əraziləri məskunlaşdırmaq problemi ortaya çıxanda Sovet rəhbərliyi problemi xaricdə yaşayan Türkiyə əsilli ermənilərin hesabına həll etmək niyyətindən yararlanmaq istədi. Həm də, qarşıdan bütün ermənilərin katolikosunu seçmək kampaniyası gəlirdi. 1945-ci il aprelin 3-də bütün ermənilərin katolikosunun seçkiləri ərəfəsində Eçmiədzin kilsəsinin arxiyepiskopu Gevorq VI Çörəkçyan mövcud problemlərin həlli ilə bağlı İ. Stalinə məktubla müraciət etdi. İ. Stalin bu məqamdan istifadə edərək, arxiyepiskop Gevorq VI Çörəkçyanı Moskvaya çağırdı. Aprelin 19-da Gevorq VI Çörəkçyan SSRİ Nazirlər Sovetinin nəzdindəki Dini İşlər Şurasının sədri Polyanskinin müşayiəti ilə Stalinlə görüşdü. Görüşdə G.Çörəkçyan əvvəllər Eçmiədzin kilsəsinə məxsus olmuş torpaqların qaytarılmasını irəli sürdü. Lakin həmin torpaqlar artıq kolxozlara məxsus olduğundan və qaytarılması böyük narazılıqlar yarada biləcəyindən ehtiyat edən Stalin torpaq tələbindən başqa arxiyepiskopun bütün xahişlərinin yerinə yetiriləcəyini söylədi. Görüşün sonunda Stalin bildirir ki: "Tezliklə müharibə qurtaracaq. Bizim hökumət 1920-ci ildə Ermənistanın Türkiyəyə verilmiş qərb quberniyalarını geri qaytarmaq istəyir. Aydındır ki, həmin torpaqlarda ermənilər yaşamalıdırlar. Arzu olunandır ki, onlar Türkiyədən qaçmış və hazırda xaricə səpələnmiş ermənilər olsunlar. Ona görə də, təqribən 100 min ermənininin immiqrasiyasını təşkil etmək lazımdır. Tezliklə bu barədə hökumətin qərarı olacaq. Siz də öz növbəsində bu işdə bizə kömək etməlisiniz". Bunları eşidən Gevorq sevincini gizlədə bilmir. O, bu məsələnin həllində hər cür köməklik ediləcəyini vəd edir və eyni zamanda bildirir ki, Ermənistanda iqtisadi vəziyyət ağırdır və xaricdən gələcək bu qədər ermənini mənzil və ərzaqla təmin etmək mümkün olmayacaq. Stalin cavab verir: "Eybi yoxdur, biz hər şeyi edərik, təki repatriantlar sıxıntı çəkməsinlər". "Hər şeyi edərik" dedikdə isə Stalin xaricdən köçürülüb gətiriləcək ermənilərin mənzil problemlərinin azərbaycanlıların Ermənistandan deportasiya edilməsi yolu ilə həll edilməsini nəzərdə tuturdu. Məhz bu görüşdən sonra ermənilərin xaricdən Ermənistana köçürülməsinə ciddi hazırlıq görülməyə başlandı.



Копия

AzVision.az

СОВЕТ НАРОДНЫХ КОМИССАРОВ СССР
ПОСТАНОВЛЕНИЕ № 2947

от 21 ноября 1945 г. Москва, Кремль.

О мероприятиях по возвращению армян из-за границы в Советскую Армению.

AzVision.az

В ознаменование 25-летия установления советской власти в Армении, Совет Народных Комиссаров Союза ССР ПОСТАНОВЛЯЕТ:

1. Принимая во внимание обращение армян, проживающих за рубежом, о разрешении вернуться им на родину в Советскую Армению и ходатайство руководящих органов Армянской ССР разрешить Совету Народных Комиссаров Армянской ССР организовать возвращение армян, проживающих в зарубежных странах, изъявивших на это желание.

AzVision.az

2. Принять предложение правительства Армянской ССР о создании при Совете Народных Комиссаров Армянской ССР Комитета по приему и устройству армян-иммигрантов.

3. Поручить Совету Народных Комиссаров Армянской ССР обеспечить индивидуальное жилищное строительство армян, возвращающихся на родину, государственным кредитом в размере 50% стоимости жилого дома.

4. Освободить от взимания таможенной пошлины гражданам-армян, возвращающихся из-за границы в СССР, за принадлежащее им имущество, перевозимое на новое местожительство.

Председатель Совета
Народных Комиссаров Союза ССР И.Сталин.

AzVision.az

За Управляющего Делами Совета
Народных Комиссаров СССР И.Смиртюков.

Верно: Казарян

125
6

Baş verən hadisələrdən yaralanmaq istəyən Ermənistan Kommunist Partiyasının 1-ci katibi Q.Arutyunov 1945-ci il mayın 15-də məktubla İ.Stalinə müraciət edərək xaricdə yaşayan ermənilərin Sovet Ermənistanına qaytarılmasını xahiş

etdi. İyunun 22-də arxiyepiskop Gevorq VI Çörəkçyan bütün ermənilərin katolikosu seçildi. Katolikosun seçilməsi münasibətilə müxtəlif ölkələrdən Eçmiədzinə gələn din xadimləri fürsətdən istifadə edərək Sovet hökumətinə Qars və Ərdahanın Ermənistana birləşdirilməsi məsələsini həll olunması barədə müraciət etdilər. Berlin (Podstam) konfransında dövlət başçılarının iyulun 22-də və 23-də keçirilən görüşlərində Stalin və Molotov SSRİ-nin Türkiyəyə qarşı ərazi iddiasını qaldırdılar. Molotov dövlət başçılarına xəritədə Qars, Artvin və Ərdahanı göstərərək, həmin ərazilərin 1921-ci ildə Ermənistan və Gürcüstandan qoparıldığını bildirdi. ÜİK(b) P MK-nın Siyasi Bürosu 1945-ci ilin noyabr ayının 21-də Q.Arutyunovun müraciətlərini müzakirə edərək "Ermənilərin xaricdən Sovet Ermənistanına qayıtmaları ilə əlaqədar tədbirlər haqqında" qərar qəbul etdi.

Qərarda xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR-ə qayıtmasına icazə verilir və bununla bağlı SSRİ XKS-nin qərar layihəsi təsdiq olunurdu. Siyasi Büronun qərarından dərhal sonra SSRİ XKS qərar qəbul edir. Onun ardınca bütün ermənilərin katolikosu VI Gevorq SSRİ, ABŞ və Böyük Britaniyanın dövlət başçılarına Türkiyə tərəfindən zorla alınmış ərazilərin Sovet Ermənistanına birləşdirilməsi tələbi ilə müraciət edir. Bu qərara və katolikos Gevorq VI Çörəkçyanla İ.Stalin arasında olan razılaşmaya əsasən, Eçmiədzin kilsəsi xaricdəki erməni din xadimlərinə, partiyalara, xeyriyyə təşkilatlarına, erməni diasporunun tanınmış nümayəndələrinə ermənilərin repatriasiyasını təşkil etmək barədə müraciətlər göndərdi. Həmin ilin payızında Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi üzrə xüsusi Komitə yaradıldı və ermənilərin köçürülməsi nəzərdə tutulan ölkələrə respublika hökuməti öz nümayəndələrini göndərdi.

Qars və Ərdahanın Ermənistana birləşdiriləcəyinə əmin olan Gürcüstan SSR və Ermənistan SSR rəhbərliyi Cənubi Azərbaycanın Sovet Azərbaycanına birləşmə ehtimalının güclənməsi fonunda Türkiyəyə qarşı ərazi tələblərinin gündən-günə real xarakter almasından yararlanmaq istəyərək ərazi qopartmaq həvəsinə düşdülər. 1945-ci il noyabr ayının 28-də Ermənistanın sovetləşməsinin 25 illiyinə həsr olunmuş geniş iclasda İ.Stalinə məktub göndərilməsi qərara alındı. Məktubun əsas ideyasını erməni-azərbaycanlı münasibətləri, yeni ərazilərin əldə edilməsi və s. təşkil edirdi. İclasda çıxış edən yazıçı Hraç Koçaryan


151-сн

Проект
СЕКРЕТНО

ПОСОЛЬСТВАМ СССР в США, ФРАНЦИИ и ТУРЦИИ,
МИССИЯМ СССР в ЕГИПТЕ и ИРАКЕ.

В связи с постановлением СНК СССР от 21 ноября 1945 года о возвращении зарубежных армян в Советскую Армению из Посольств, Миссий, и Консульств СССР поступает запрос относительно практических мер по организации переселения армян на родину.

Ставим Вас в известность, что в текущем году Правительство Армянской ССР намечает организацию переезда первых партий армян из Болгарии, Румынии, Греции, Сирии, Ливана и частично из Ирана. Что касается остальных зарубежных стран, где также имеются армянские колонии в частности США, Франции, Египта, Турции и Ирака, то из этих стран в текущем году не намечается массовое возвращение армян и лишь может стать вопрос о переезде отдельных лиц и небольших групп по специальному определению Комитета при СНК Армянской ССР по приему и устройству зарубежных армян. Исходя из этого, задача наших Посольств, Миссий Консульств в США, Франции, Египте, Турции и Ираке, в вопросе о переселении армян должна сводиться в настоящее время к следующему: а) проведению подготовительной работы по составлению списков армян, желающих переехать в Советскую Армению. Для проведения этой работы следует использовать местные армянские прогрессивные организации. б) определение контингента наиболее нуждающихся армян, которые подлежат переселению в первую очередь, в) поддержка инициативы армянских прогрессивных организаций и благотворительных обществ в сборе средств в фонд содействия переселению зарубежных армян на родину.

По этим вопросам Комитет при СНК Армянской ССР по приему и устройству зарубежных армян обратился с письмом к руководителям зарубежных армянских прогрессивных организаций и благотворительных обществ. Вам следует оказать этим организациям нужное содействие в их деятельности.

ЗАМЕСТИТЕЛЬ НАРОДНОГО КОМИССАРА
ИНОСТРАННЫХ ДЕЛ /В.Лекаонов/.

AzVision.az

İ.Stalinə təbrik teleqramını oxudu. Teleqramda Naxçıvan haqqında da qeydlər vardı. Bundan istifadə edən ermənilər Stalinə məktub yazaraq Naxçıvan diyarının Ermənistan SSR tərkibinə verilməsi məsələsini yada saldılar.[1]

Müharibənin başa çatması ilə əsirlərin repatriasiyasının gündəmə gəlməsindən istifadə edən Ermənistan SSR rəhbəri Q.Arutyunov 1945-ci ilin payızında xaricdə yaşayan ermənilərin Ermənistana köçüb gəlmələrinin həll edilməsi məqsədilə 1945-ci ilin noyabr ayının ilk günlərində ikinci dəfə İ.Stalin və G.Malenkova müraciət etdi. Q.Arutyunov yazırdı: "Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-nin tərkibinə daxil edilib. Bu vilayətin əhalisi əsasən ermənilərdən ibarətdir. 153 min əhalinin 137 mini ermənidir. Dağlıq Qarabağın kənd təsərrüfatı Ermənistanın dağlıq hissəsi ilə eynilik təşkil edir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olması onun inkişafını və təsərrüfatlara rəhbərliyini yaxşılaşdırardı. Əhaliyə ana dilində mədəni-kütləvi və siyasi xidmət göstərilməsi işinə Ermənistan respublika orqanları tərəfindən rəhbərliyi gücləndirərdi. Dağlıq Qarabağ vilayətinin Ermənistan SSR-in tərkibinə daxil olması yerli kadrların ana dilində öz təhsillərini Ermənistanın ali məktəblərində davam etdirməsinə imkan verərdi. Digər tərəfdən Ermənistan SSR Dağlıq Qarabağdan əlavə kadrlar ala bilərdi. Bunu və Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan K(b)P Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin Qarabağ vilayəti kimi Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılmasını ÜİK(b)P MK və İttifaq hökuməti qarşısında irəli sürür.[2] Bu məsələ müsbət həll olunarsa, Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti sovet hakimiyyəti qurulması ərəfəsində dağıdılmış Qarabağın keçmiş vilayət mərkəzi Şuşa şəhərinin bərpa olunması təklifi ilə İttifaq hökumətinə müraciət edəcəkdir".[3] Q.Arutyunovun məktubu tanış olmaq üçün 1945-ci ilin noyabr ayının 28-də M.C.Bağırova göndərilir. M.S.Bağırovun tapşırığı ilə materiallar toplanır[4] və 1945-ci ilin dekabr ayının 10-da Ermənistan və Gürcüstanın Azərbaycana qarşı irəli sürdükləri ərazi iddiaları ilə bağlı fikir və mülahizələr ÜİK(b)P MK-nın katibi G.Malenkova göndərilir. Azərbaycan tərəfinin cavab məktubunda bildirilirdi: "Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi qədim zamanlardan, mərkəzi 1747-ci ildə Qarabağlı Pənah xan tərəfindən qala

---

[1] Musayev, Talıb. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) / T.Musayev. – Bakı, 2008. – s.162-163.

[2] На имя Багирова, за подписью Багирова (Сборник архивных документов. Составитель Теюб Гурбан. Редактор А.Балаев). Баку, 2016. – с.208.

[3] Arutyunovun İ.Stalinə 28 noyabr 1945-ci il tarixli məktubu // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №69, iş №249/I hissə, vərəq – 7.

[4] ARPİİSSA, f.1, s.169, i.249/II hissə, vərəq – 1-60.

kimi tikdirilmiş Pənahabad şəhəri olan Qarabağ xanlığının tərkibində olmuşdur.

1826-cı ildə Qarabağ çar Rusiyası tərəfindən birləşdirilmişdir. Sonralar indiki Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi Yelizavetpol quberniyasının Şuşa, Cavanşir, Qaryagin və Qubadlı qəzalarının tərkibində olmuşdur.

1918-1920-ci illərdə müsavatçıların Azərbaycanda və daşnakların Ermənistanda ağalığı dövründə müsavat hökuməti tərəfindən mərkəzi Şuşa (keçmiş Pənahabad) şəhəri olan general-qubernatorluq təşkil etmişdir.

Müsavatçılar və daşnaklar tərəfindən təşkil olunmuş millətlərarası qırğının nəticəsində, Azərbaycanın və Ermənistanın bir çox şəhərləri kimi Şuşa da dağıdılmış və xarabalığa çevrilmişdir.

1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrlərdə bütün Qarabağın təsərrüfat-siyasi həyatına rəhbərlik vahid Vilayət İnqilab Komitəsi tərəfindən həyata keçirilirdi.

1923-cü ildə Qarabağın əsasən ermənilərin məskunlaşdıqları dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qaldırıldı. Lakin, bu ərazinin Ermənistan SSR ilə ümumi sərhədlərinin olmaması və Ermənistandan yalnız azərbaycanlıların yaşadığı Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrılması səbəbindən, partiya orqanlarının göstərişi əsasında Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il tarixli dekreti ilə mərkəzi Xankəndi, indiki Stepanakert adlanan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazi cəhətdən heç vaxt Ermənistan SSR-ə bitişik olmamışdır və hazırda da bitişik deyildir.

Azərbaycanda Sovet hakimiyyəti illərində Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı sahəsində böyük işlər görülmüşdür. Bu inkişafın ən parlaq nümunələrindən biri DQMV-nin hazırkı mərkəzi Stepanakert şəhərinin başlı-başına buraxılmış və dağıdılmış bir kənddən, Azərbaycanın ən gözəl, abad və mədəni şəhərlərindən birinə çevrilməsidir.

Azərbaycan SSR-in bütün ali təhsil məktəbləri və texnikumları tələbələrinin 20,5%-ni, əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən olan ermənilər təşkil edir.

Respublikanın partiya, sovet, təsərrüfat rəhbərləri – Azərbaycan K(b)P MK-nın katibləri, müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və s. arasında Dağlıq Qarabağdan olan yoldaşlar da az deyildir.

Bununla belə, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə qatılmasına etiraz etmirik, lakin, Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olmasına baxmayaraq, hazırda da əsasən azərbaycanlıların yaşadığı Şuşa rayonunun Ermənistan SSR-ə verilməsinə razı deyilik.

Şuşa şəhəri bina edildiyi gündən Qarabağın inzibati-siyasi və mədəni mərkəzi olmaqla yanaşı, həm də Azərbaycan xalqının öz müstəqilliyi uğrunda İran işğalçıları ilə apardığı mübarizədə müstəsna rol oynamışdır.

Ən qaniçən fatehlərdən biri, Zaqafqaziya xalqlarının cəlladı Ağa Məhəmməd şah Qacar məhz Şuşada öldürülmüşdür.

Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti bu şəhərdə formalaşmışdır. İbrahim xan, Vaqif, Natavan və digər bu kimi görkəmli siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.

Eyni zamanda ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı zəruri hesab edirik ki, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil edilməsi məsələsinə baxılarkən, Ermənistan SSR-in Azərbaycan respublikasına bitişik olan və əsasən azərbaycanlıların yaşadığı Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır. Bu rayonların mədəni və iqtisadi cəhətdən son dərəcə geridə qalmasını nəzərə almaqla, bunların Azərbaycana verilməsi əhalinin maddi-məişət şəraitini və ona mədəni-siyasi xidmət işini yaxşılaşdırmağa imkan yaradardı...”.[1]

Məktubdan aydın olur ki, M.C.Bağırov Ermənistan SSR-nin əsasən azərbaycanlılar yaşayan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-ə birləşdirilməsi şərti ilə Şuşa istisna olmaqla DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsinə etiraz etmədiyini bildirdi.[2]

Məktub məsələsinə toxunan və hadisələrin şahidi olan Talıb Musayev yazır ki, Azərbaycan tərəfindən yazılan cavabda əsaslandırılırdı ki, “…Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. …bir halda ermənilər mədəniyyət ədəbiyyat məsələsini irəli sürürlər, əgər MK məsləhət bilirsə, Şuşa şəhəri istisna olmaq şərti ilə Dağlıq Qarabağın Ermənistana birləşməsinə razılıq vermək olar, o şərtlə ki, əvvəllər Azərbaycan torpağı olmuş, indi də əksəriyyəti azərbaycanlılar yaşayan, dil və mədəniyyətindən daha çox məhrum olan, Azərbaycanla bilavasitə sərhəddə yerləşən Basarkeçər, Vedibasar, Qafan rayonları da Azərbaycan tərkibinə verilsin”.[3]

Ermənistan K(b)P MK-nın birinci katibi Q.Arutyunovun məktubuna münasibət bildirən prof.İ.Zeynalov yazır ki, ermənilərin bu məkrli, yalanlarla dolu, uydurma məktubunda verilən faktların da saxtalaşdırılması açıq aydın görünür. Ermənistan rəhbərinin imzaladığı bu vəsatət məktubunda ...bildirilir ki, “Dağlıq Qarabağ Vilayəti Ermənistana bitişikdir və onun iqtisadiyyatı erməni iqtisadiyyatına uyğundur”. Fakt ondan ibarətdir ki,

---

[1] Письмо М.Дж.Багирова на имя Г.Маленкова от 10 декабря 1945 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №169, дело №№249 / ч.1, листы –11-12.

[2] Yenə orada.

[3] Musayev, Talıb. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) / T. Musayev. – Bakı, 2008. – s.163-164.

Azərbaycanın gözəl regionu Qarabağ və onun dağlıq hissəsi heç vaxt Ermənistanın olmayıb, həm də indiki Ermənistan SSR ərazisində heç vaxt belə bir qurum olmayıb. Onlar unutmuşlar ki, ermənilər bu əraziyə gətiriliblər, onlar gəlmə əhalidir.[1] Məktubda qaldırılan erməni dili, yerli kadrların Ermənistanın ali məktəblərində öz təhsilini ana dilində davam etdirmələrinə imkan yaradılması və s. ifadələrin də heç bir əsas yoxdur. Ermənilər SSR-nin ali məktəblərində erməni dilində təhsil alırdılar? Yaxud onlara Ermənistan ali məktəblərində təhsil almalarına kim qadağa qoymuşdu?

Moskvadan güclü dəstək alan Gürcüstan SSR rəhbərliyi də Türkiyəyə qarşı ərazi iddiaları ilə eyni vaxtda Azərbaycan SSR-dən ərazi tələbləri ilə Sovet rəhbərliyinə müraciət etdilər. Gürcüstan K(b)P MK-nın birinci katibi K.Çarkviani İ.Stalinə məktub göndərərək Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarında burada gürcü əhalisinin çoxluq təşkil etdiyini bildirdi və həmin ərazilərin Gürcüstan SSR-ə birləşdirilməsi məsələsini qaldırdı.[2]

Əslində Gürcüstan SSR rəhbərliyi bu işə 1944-cü ildən hazırlıq görməyə başlamışdı. 1944-cü ildə işləmək adı ilə Azərbaycan SSR-in Qax rayonuna göndərilən gürcü müəllimlər rayonun Gürcüstan SSR birləşdirilməsi təbliğatı aparırdılar. Sonralar Balakən və Zaqatalaya da işləmək adı ilə gürcü dili müəllimləri göndərilmiş və məktəblər açılmışdı.

Gürcüstan SSR rəhbərliyinin ərazi iddialarına da cavab verildi və bildirildi ki, ... ÜİK(b)P MK-dan yuxarıda göstərilənlərdən əlavə aşağıdakı məsələlərə baxılmasını xahiş edirik:

Gürcüstanlı yoldaşlar Azərbaycan SSR-in Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR-in tərkibinə daxil edilməsi məsələsini qoyurlar.

Göstərilən rayonlarda əhalinin ümumi sayı 79.000 nəfər olduğu halda cəmi 9.000 gürcü-ingiloyun yaşamasına baxmayaraq, biz bu məsələyə baxılmasına etiraz etmirik, lakin, bu məsələ ilə bir zamanda, Gürcüstan SSR-in demək olar yalnız azərbaycanlıların yaşadığı və bilavasitə Azərbaycan SSR-ə bitişik olan Borçalı rayonunun Azərbaycan SSR-in tərkibinə daxil edilməsi məsələsinə də baxılmalıdır.

Və nəhayət, biz Dağıstan SSR-in keçmişdə Azərbaycanın bir hissəsi kimi Bakı quberniyası tərkibinə daxil olan və hazırda Azərbaycan SSR-ə bitişik olan Dərbənd və Qasımkənd rayonları ərazilərinin Azərbaycan SSR-i tərkibinə qatılması məsələsini nəzərdən keçirmənizi xahiş edirik. Bu rayonların əhalisi əsasən azərbaycanlılardan ibarətdir, özü də maldarlıqla məşğul olan bu əhalinin yarıdan çoxu ilin 9 ayını Azərbaycan ərazisində keçirir.

---

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20–50–ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – 220.

[2] ARPİİSSA, Fond №1, s.169, i.249/I hissə, v – 11.

Qaldırılmış bütün məsələlər üzrə təkliflərin hazırlanması üçün tərkibinə marağı olan hər bir respublikadan nümayəndələr daxil edilməklə ÜİK(b)P MK komissiyasının yaradılmasını məqsədəuyğun hesab edirik.

Azərbaycan K (b) P MK katibi – M.C.Bağırov
10 dekabr 1945-ci il
№ 330, Bakı şəhəri.[1]

Fikrimizcə ermənilərin "vətənə dönüş"ü haqqında qərarı qəbul etməkdə İ.Stalinin başlıca məqsədi Türkiyəyə qarşı ərazi tələbləri ilə bağlı qətiyyətli mövqeyini qərb müttəfiqlərinə və bütün dünyaya nümayiş etdirmək idi. Lakin Türkiyədən iddia olunan torpaqları almaq mümkün olmadıqda, Moskvanın təlimatı ilə Azərbaycan və Ermənistan respublikalarının birinci şəxslərinin erməni repatriantlarının yaşayış evləri və həyətyanı sahələrlə təmin etmək üçün 130 min azərbaycanlının Ermənistandan Azərbaycana köçürülməsi barədə İ.Stalinə müraciəti təşkil olundu. Digər tərəfdən bütün bunlar Cənubi Azərbaycanda milli hərəkatın başlanması, bunun son nəticədə Şimali və Cənubi Azərbaycanın birləşməsinə gətirib çıxaracağı, bu halda SSRİ-nin tərkibində Azərbaycan SSR-nin ərazilərinin xeyli genişlənəcəyinə Sovet rəhbərliyinin yuxarı eşelonunda yaranmış inamla bağlı idi.[2] Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi işləmiş Mirhəsən Seyidov xatirələrində yazır ki: "1945-ci ilin payız günlərinin birində M.C.Bağırov Stalinin qəbulunda ÜİK(b)P MK Siyasi Bürosunun iki üzvü – erməni Anastas Mikoyan və gürcü Lavrenti Beriya ilə rastlaşır. Onların hər ikisi bildirirlər ki, Cənubi Azərbaycan haqqında məsələ artıq həll edilib və tezliklə Azərbaycan SSR-nin ərazisi əhəmiyyətli dərəcədə artacaq. Ola bilsin zarafat kimi, ola bilsin ki, yox, onlar ümidvar olduqlarını bildiriblər ki, indi M.C.Bağırov səxavətli olacaq, Dağlıq Qarabağın Ermənistana, respublikanın şimalında bir sıra rayonların (Balakən, Zaqatala və digərləri) Gürcüstana qatılmasına razılıq verəcək. M.C.Bağırov cavab verib ki, hələ bu haqda düşünməyin vaxtı deyildir".[3]

Göründüyü kimi, Azərbaycan partiya təşkilatının fəaliyyətinin əsasını Azərbaycanı birləşdirmək dayanırdı. Təbii ki, bu sahədə M.C.Bağırovu İ.Stalinlə olan şəxsi münasibətləri mühüm rola malik idi. İki rəhbərin münasibətlərindən və Azərbaycanın cənubu ilə şimalının birləşdirilməsi planından xəbərdar olan erməni-gürcü qruplaşmaları

---

[1] Письмо М.Дж.Багирова на имя Г.Маленкова от 10 декабря 1945 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №169, дело №249 / ч.1, листы –11-12.

[2] Исмаилов, Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. / Э.Исмаилов. – Баку, 2003. – с.293.

[3] М.Г.Сеидов. Общественно-политическая обстановка в Азербайджане в 1940-е – начале 1950-х годов. Рукопись книги, с.27.

yenidən Azərbaycandan torpaq qoparmaq həvəsinə düşmüş, istədiklərinə nail ola bilməyəcəklərini yəqin etdikdən sonra Cənubi Azərbaycanda baş verən hadisələrin istiqamətini dəyişmək, alovlanan milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ-nin üzünü Türkiyə istiqamətinə çevirməyə cəhd edən erməni rəhbərlər "Böyük Ermənistan" yaradılmasını həyata keçirməyi fürsət gözləyirdilər.

SSRİ-İran münasibətləri və ərazi məsələləri

1941-ci il iyun ayının 22-də Almaniyanın SSRİ-yə qəfləti basqınından sonra Zaqafqaziyada dislokasiya olunmuş 17-ci ordu İran sərhədlərinə doğru hərəkət etdi. 1921-ci il Sovet-İran müqaviləsinə əsasən sovet rəhbərliyi ölkənin təhlükəsizliyini nəzərə alaraq bəyanat verdi. 1941-ci ilin iyun-iyul aylarında Zaqafqaziya cəbhəsinin 44-cü və 47-ci orduları artıq Cənubi Azərbaycan sərhədlərində dayanmışdı. İngiltərə də İran körfəzi tərəfdən, Ərəbistan sahillərində yerləşən müstəmləkələrindən öz qoşunlarını İran ərazisinə göndərdi. Sovet və ingilis qoşunları şimaldan və cənubdan İrana daxil oldu.[1] DMK-nin qərarına əsasən Cənubi Azərbaycan sərhədləri boyunca dayanmış Sovet orduları 1941-ci il avqust ayının 25-də gecə saat 2-dən 7-yə qədər hərbi əməliyyat keçirdilər.[2] Avqust ayının 25-də Sovet ordusu müxtəlif istiqamətlərdən 40-50 km. İranın içərilərinə doğru irəlilədi. Cənubi Azərbaycan sərhədlərində dayanmış Sovet qoşunlarının avqustun 25-də, gecə saat 2-də İran ərazisində saatyarımlıq əməliyyatı nəticəsində İran ordusu ön cəbhədə duruş gətirə bilmədi. Avqustun 25-dən 28-dək hərbi nazir Naxçıvaninin, Baş Qərargah rəisi Zərqamın ev dustağı olmasına əmr verilsə də, iş işdən keçmişdi. 1941-ci il sentyabrın 13-də (Şəhrivərin 4-də) baş nazir Əli Mənsur və xarici işlər naziri Müzəffər Ələm istefa ərizəsini şaha təqdim etdilər. Sentyabrın 14-də Məhəmmədəli Firuği baş nazir, Əli Söhili xarici işlər naziri təyin edildi. Elə həmin gün Rza şah M.Firuğinin evinə gələrək, oğlu Məhəmmədrzanın xeyrinə şahlıqdan əl çəkmək niyyətini bildirdi. M.Firuği Rza şaha Tehranı tezliklə tərk etməyi məsləhət gördü. Rza şah əvvəlcə arvadlarını (Tacəlməlik və İsmət Dövlət Şahi xanım), 10 övladını, gəlinini, nəvəsini və iki kürəkənini saray naziri Mahmud Cəm vasitəsilə İsfahana yola saldı. Bir neçə gündən sonra Rza şah özü də bir neçə nəfər mühafizəçi ilə İsfahana yollandı. İngiltərənin İsfahandakı "konsulluğunun məsləhəti" ilə şah 1941-ci il sentyabrın 27-də onun üçün təhlükəsiz olan Afrikanın Moris adasına göndərildi və 1944-cü ilin payızına qədər burada yaşadı və orada

[1] İsmayılov, İ.Z. Azərbaycan-İran əlaqələri XX əsrdə / İ.Z.İsmayılov. – Bakı, 2006. – s.45.

[2] Директива Военного Совета Закавказского фронта о вхождении советской армии в Иран от 23 августа 1941 г. // Центральный архив Министерства обороны Российской Федерации, Фонд №209, опись №1093, дело №27, листы – 251-252.

dünyasını dəyişdi.[1] Rza şah İranı böyük sərvət sahibi kimi tərk etmişdi. Məclis deputatı Möid Əhmədi İran məclisindəki çıxışında bildirmişdi ki, şah 20 il müddətində müntəzəm olaraq xarici banklara o vaxtkı pul vahidi ilə hər il 60 milyon tümən (25 milyon dollar) pul köçürmüşdür. Rza şah 2.167 kəndə sahib idi. Beləliklə, sentyabrın 28-də 22 yaşlı Məhəmmədrza XII Məclisdə ölkənin şahı elan olundu, bununla birlikdə Məclis müttəfiq qoşunlarının Tehrana buraxılması, İrandakı bütün alman təbəələrinin ölkədən çıxarılması, İranın quru, su və hava yollarının müttəfiqlərin sərəncamına verilməsinə razılıq verdi. Bununla da, Almaniyanın SSRİ-yə hücumu ərəfəsində və müharibənin ilk illərində Güney Azərbaycan siyasi və sosial-iqtisadi ziddiyyətlərin çoxaldığı qaynar nöqtələrdən birinə çevrildi. Azərbaycan türkləri mövcud rejimə qarşı mübarizənin yetişdiyini anladılar. İran ərazilərində 1941-ci il avqustun 25-dən başlayaraq yerləşdirilmiş 45-ci, 46-cı və 52-ci sovet ordularının tərkibində Azərbaycanın 77-ci, 396-cı və 402-ci milli diviziyaları da vardı. Sovet orduları avqust ayının 26-da Təbriz və Ərdəbilə, avqustun 30-da Zəncana, avqustun 31-də isə Qəzvinə daxil oldular.[2] Qısa müddətdə Cənubi Azərbaycan, Gilan, Mazandaran və orasan sovet ordusu tərəfindən tutuldu. Eyni zamanda hərbi əməliyyatlara başlayan Britaniya 12 hind diviziyası ilə Kermanşah, Abadan, Xorrəmabad, Məcidi-Süleymaniyyə, Hörmüz, Bəndər Deylim xəttinə çıxdı. Avqust ayının 27-də Əli Mənsur hökuməti istefa verdi. Ölkədə bütün siyasi məhbusların azad edilməsi barədə amnistiya elan olundu. Qısamüddətli hərbi əməliyyatlar zamanı İran tərəfindən 106 nəfər həlak oldu, 320 nəfər əsir götürüldü. Döyüşlərdə sovet ordusu 6 nəfər itirdi, 18 nəfər yaralandı, 9 nəfər Araz çayını keçərkən suda boğuldu.[3]

SSRİ ilə İran arasındakı münasibətlərdə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin birinci katibi olmuş M.C.Bağırovun rolu, onun Cənubi Azərbaycanla bağlı məsələlərə müdaxilə etməsi ayrı-ayrı müəlliflər, həmçinin jurnalistlər tərəfindən birmənalı qiymətləndirilməmişdir. Əksəriyyət müəlliflər, o cümlədən C.Həsənli, T.Qurban, A.Məmmədov M.C.Bağırovun müharibə illərində Təbrizlə Moskva arasında əlaqələndirici rol oynadığını yazırlar. Araşdırmalar göstərir ki, M.C.Bağırovun fəaliyyətinin əsasını Azərbaycanı birləşdirmək dayanırdı. Təbii ki, bu sahədə Stalinlə olan şəxsi münasibətləri mühüm rola malik idi. İki rəhbərin münasibətlərindən və Azərbaycanın cənubu ilə şimalının birləşdirilməsi planından xəbərdar olan erməni-gürcü qruplaşmaları yenidən Azərbaycandan torpaq qoparmaq həvəsinə düşmüşdülər. Məqsədlərinə nail ola bilməyəcəklərini yəqin etdikdən

[1] Rəhimli, Ə.(Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s.19-20.
[2] Azərbaycan tarixi: [7 cilddə] / – Bakı. c 7: (iyun 1941-2002-ci il). – 2003. – s.91.
[3] Azərbaycan 1941-1945-ci illər müharibəsində // Məqalələr toplusu, – Bakı, 2008. – s.76.

sonra Cənubi Azərbaycanda baş verən hadisələrin istiqamətini dəyişmək, alovlanan milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ-nin üzünü Türkiyə istiqamətinə çevirməyə cəhd edən erməni rəhbərlər "Böyük Ermənistan" yaradılmasını həyata keçirməyə fürsət gözləyirdilər. T.Qurban yazır ki, "Mikoyanın və onun daşnak dəstəsinin xülyaları M.Bağırova məlum idi. Respublikanın rəhbəri belə hesab edirdi ki, iki Azərbaycanın birləşdirilməsi Stalinin imkanları xaricində deyildir. Bu baş versə, Ermənistan böyük dövlət yaratmaq iddialarından həmişəlik əl çəkməyə məcbur olacaqdır".[1]

Arxiv sənədlərinə əsaslanan C.Həsənli kitabında M.C.Bağırovun qeyri-rəsmi olaraq Təbrizə gedib-gəlməsindən bəhs edir. T.Qurban da arxiv sənədləri içərisində, M.C.Bağırovun Naxçıvanda olması, bir neçə saatlığa Təbriz şəhərinə getməsi, orada uşaqlarla ünsiyyət saxlamağa cəhd etməsi barədə sənədə rast gəldiyini bildirir. Araşdırmalar göstərir ki, Cənubi Azərbaycandakı hadisələr böyük dövlətlərin, xüsusilə ABŞ və Böyük Britaniyanın diqqət mərkəzində olmuşdur. Arxiv sənədlərində İranda Azərbaycan diplomatik korpusunda işləyəcək adamların adları qeyd olunmuşdu. Sənədə görə Tehrandakı səfirlikdə müşavir vəzifəsində Ə.Yaqubov, 1-ci müşavir vəzifəsində Quba raykomu Orucov Məmməd Tağı oğlu, 3-cü müşavir vəzifəsində Haşımov Cəbrayıl İsrafiloviçin işləməsi müəyyənləşdirilmişdi. Mərkəzi konsulluq Təbriz şəhərində yerləşməli idi. Burada Vitse konsul vəzifəsinə Azərbaycan K(b)P MK-nın təbliğat şöbəsindən Süleyman Rəhimov Katib vəzifəsinə Mirzə Məmmədov məsləhət bilinirdi. Vitse-konsulluqda (Maku) Vitse-konsul vəzifəsinə Mustafayev Mustafa Seyid Əhməd oğlu, Katib – vəzifəsinə Seyidzadə təyin edilirdi.[2] Azərbaycan rəhbərliyi bilirdi ki, İranda baş verən prosesləri xüsusi xidmət orqanları izləyəcək və bu işdə ona ancaq L.P.Beriya kömək edə bilər. Bu səbəbdən də Azərbaycan rəhbərliyi həm Təbrizdəki xüsusi xidmət orqanlarının əməkdaşları ilə əlaqə saxlayır, həm də hadisələrin inkişafı haqqında mərkəzi orqanlara məlumatlar verirdi.

Hər iki Azərbaycanın birləşmək ehtimalı ermənilər təşvişə salmışdı. Məlumdur ki, 1945-ci il aprelin 25-dən iyulun 26-dək keçirilmiş San-Fransisko konfransının gedişində Amerikada yaradılmış „Ermənistan ermənilərinin Milli Şurası" konfrans iştirakçıları olan ABŞ, SSRİ, Britaniya və Çin nümayəndələrinə Bəyannamə göndərərək "erməni məsələsi"ni həllində köməklik tələb etdilər. Bəyannamədə ermənilər Türkiyənin şərq vilayətlərinin Ermənistan SSR-ə birləşdirilməsini xahiş edir və bunu xaricdəki

[1] Teyyub, Q. Düşmənlərindən güclü şəxsiyyət / Q.Teyyub. – Bakı, 2006. – s.75; Гасанлы, Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва, 2006. – с.24.

[2] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.118.

ermənilərin öz doğma vətənlərinə qayıtması ilə əlaqələndirirdilər.[1] Bunu Təbrizdə yaşayan ermənilərin Amerikada yaşayan ermənilərin bəyannaməsi ilə əlaqədar arayışlarından da görmək olar.[2] Azərbaycan SSR Təhlükəsizlik komissarı polkovnik Kərimov 1945-ci il 29 may tarixli arayışında yazırdı ki, "Sovet Ermənistanı" qəzeti San-Fransisko konfransında ABŞ-da yaşayan ermənilərin Təbrizdə ermənilərin bəyannaməsini və müəyyən çıxarışlarla SİTA-nın məlumatını və məlumata əks-səda olan Derenik Dəmirçiyanın məqaləsini çap etmişdir. San-Fransisko konfransında edilmiş müraciətdən sonra Eçmiəzzin milli kilsə yığıncağı Stalinə ünvanlanmış teleqramlar göndərdi, müxtəlif məqalələr çap olundu. Arxiyepiskop Məlik-Tanqiyan mühacirətin baş tutmasına əminliyini bildirmişdi.[3] Daşnak liderlərindən Hayk Əcəmyan, "Hnçaq" partiyasının keçmiş üzvü Levon Çuxasızyan bildirirdi ki, San-Fransisko konfransına təqdim edilən bəyannamə, Eçmiəzzin yığıncağının Moskvaya müraciəti, Yerevan qəzetlərindəki Drenik Dəmirçiyanın və Metxazyanın məqalələri bir zəncirin həlqələridir. Keçmiş tacir, S.Qaraxanyan, mühəndis, Xalq Partiyasının üzvü Avetis Oqasanyan, İran gömrüyünün məsul işçisi, keçmiş daşnak Baqdasar Şahgəldiyan, Xalq Partiyasının üzvü keçmiş hınçakçı Levon Çuxasizyan, ixtisasca müəllim olan və mühasib işləyən keçmiş daşnak Arakel Ter-Tovmasyan və b. düşünürdülər ki, Moskva onların arzularını həyata keçirəcək. Moskvanın ingilissayağı siyasət yeritdiyini vurğulayan Budaqyan, bankının mühasibi Armenak Muradxanyan əminliklə bildirmişlər ki, Amerikada yaşayan ermənilərin bəyannaməsi Moskvanın razılıq əlaməti hesab olunmalıdır.[4] Sadalanan faktlar SSRİ-nin Azərbaycana qarşı milli siyasətindəki ikili münasibəti üzə çıxarır, Azərbaycanın birləşdirilməsi məsələsində tərəddüd etdiyini göstərir. İran ermənləri isə yeni yaradılan Azərbaycan Demokrat Partiyasının ideyalarından yararlanmaq istəyirdilər. Bu baxımdan onların partiyaya münasibəti birmənalı deyildi. "Ramkavar" partiyasının üzvü Torqosyan, iri sərvət sahibi Budaqyan hesab edirdilər ki, Demokrat Partiyasının Azərbaycanın muxtariyyəti məsələsini qoymasından yararlanmaq üçün hər cür yardım göstərməlidirlər. İngilis bankının direktor müavini Ter-Ovanesyan isə "ermənilərin Demokrat Partiyasına qoşulmasını səhv, bu partiyaya Azərbaycan ermənləri adından göndərilmiş təbrik məktubunu siyasi nöq-

---

[1] Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) / C.Həsənli. – Bakı, 2015. – s.168.

[2] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.118.

[3] Həsənli, C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945) / Cəmil Həsənli. – Bakı, 1998. – s.169-170; Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.118;

[4] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.123-124.

teyi-nəzərdən təhlükəli addım hesab edir, ...gələcəkdə Demokrat Partiyasının özü də "Gənc türklər" kimi ermənilər üçün dəhşətli qılınca və onları təqib edən qüvvəyə çevrilməsindən" ehtiyat edirdi.

Azərbaycan K(b)P MK ərazi məsələsinə çevik reaksiya verdi. M.C.Bağırovun Bakı hərbi dairəsinin komendantı ordu generalı İ.İ.Maslennikov və L.P.Beriyaya yazdığı 1945-ci il 2 oktyabr tarixli məktubdan məlum olur ki, Türkiyə ərazisinin Sovet Ermənistanına birləşdirilməsini məqsədəuyğun saymır və bildirirdi ki, İraqdakı neft yataqlarına Cənubi Azərbaycan və İran Kürdüstanı vasitəsilə Mosula çıxmağın daha əlverişli olması fikirləri ermənilərin Türkiyə torpaqlarına olan iddialarının qarşısını ala bilər.[1] 1945-ci ilin iyun ayının sonlarında Cənubi Azərbaycanın sərhədlərinin müəyyənləşdirilməsi ilə bağlı sənədlər hazırlanıb Moskvaya göndərildi. Cənubi Azərbaycan əhalisini farslardan ayrı millət kimi qəbul edən Sovet rəhbərliyinin iki mühüm qərarından sonra Təbrizdə İran hakimiyyətinə qarşı etiraz dalğası yüksəlməyə başladı. 1945-ci il iyulun 6-da İranda separatçı hərəkatın təşkili üzrə tədbirlər barədə MK-nın Siyasi Bürosu gizli qərar qəbul etdi. Qərarda İranın tərkibində Azərbaycan əyalətlərinə geniş hüquqlu milli muxtariyyət verilməsi üzrə hazırlıq işlərinə başlanması məqsədəuyğun sayılırdı. Bakıda hazırlanan plana görə, Cənubi Azərbaycanda separatçı hərəkatın inkişafı Azərbaycana geniş milli muxtariyyət verilməsi uğrunda mübarizəyə söykənməli idi. Mərhum professor Eldar İsmayılov qeyd edirdi ki, Cənubi Azərbaycanda milli hərəkatın başlanması, bunun son nəticədə Şimali və Cənubi Azərbaycanın birləşməsinə gətirib çıxaracağı, bu halda SSRİ-nin tərkibində Azərbaycan SSR-in ərazilərinin xeyli genişlənəcəyinə Sovet rəhbərliyinin yuxarı eşelonunda yaranmış inam ermənilər və gürcüləri Kremlin anti-Azərbaycan qüvvələri tərəfindən ərazi iddialarına şirnikləndirdi.[2]

Araşdırmalar və təhlillər göstərir ki, Stalinin İrana dair xüsusi planları olmuşdur. Onun Türkiyəyə və Cənubi Azərbaycana münasibətdə yeritdiyi siyasətdə Şimali Azərbaycan deyil, SSRİ-nin cənub sərhədlərinin təhlükəsizliyi düşündürür, Şimali İranda neft konsessiyasının əldə edilməsi ölkənin cənub rayonlarının təhlükəsizliyinin mühüm təminatı kimi qiymətləndirilirdi. V.Molotov xatırlayırdı: „Müharibədən sonra Stalinin bağına SSRİ-nin yeni sərhədlərinin xəritəsini gətirdilər. O xəritəni divara vurdu və "Baxaq, nə alınıb" dedi. O, xəritəyə yaxınlaşaraq Şimalda bizdə hər şey qaydasındadır. Finlandiya bizim qarşımızda çox günahkardır və onun sərhədləri Leninqraddan uzaqlaşdırıldı, Pribaltika – bu əzəli rus torpağıdır – yenə də bizimdir, belorus bizimdir, indi də bütünlüklə, ukraynalılar,

[1] Yenə orada, s.128.

[2] Исмаилов, Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. / Э.Исмаилов. – Баку, 2003. – с.293.

moldovalılar həmçinin birlikdə. Beləliklə, qərbdə bizdə normaldır. O, şərq sərhədlərində necə. Baxaq necə, yaxşı – Port Artur bizim!" O, qəlyanı Çinə çevirdi. "Çin. Monqolustan – hər şey qaydasındadır". Ancaq burda sərhəd məni heç qane etmir – dedi. Stalin Cənubi Qafqazı göstərdi. Dardanel. Bizim türk torpaqlarına...iddiamız var". Aydın idi ki, Stalinin beynində Cənub cinahında dünya "şahmat lövhəsi"ndə o yeni şahmat gedişi hazırlayırdı. O zaman onun 11 milyon ordusu var idi. [1]

Xatırlamadan aydın olur ki, Stalin Türkiyəni zəiflətmək yolu ilə boğazları ələ keçirmək istəyirdi. Onun dekabrın 24-də Böyük Britaniyanın xarici işlər naziri E.Bevinlə görüşündə Türkiyənin Bosfor və Dardanel boğazlarına sahibliyinə etiraz etməsi və Türkiyə qarşı iddiaları səsləndirməsində guya Türkiyənin şərq vilayətlərinin tarixi Ermənistan və Gürcüstan torpaqları olduğunu bildirməsi, bu vaxt artıq ermənilər tərəfindən "Türkiyə Ermənistanı" adlı xəritə buraxılması, Qars və Ərdahan vilayətlərinin erməni torpaqları, Trabzon və Qara dəniz sahillərinin Gürcüstan torpaqları kimi göstərilməsi Gürcüstan SSR xarici işlər naziri Q.İ.Kiknadzenin L.P.Beriyaya "Türkiyə ərazisində Gürcüstan torpaqları haqqında" məktub-məruzəsində "Türkiyə ərazisindən 17.760 kv.km Gürcüstan SSR-ə, 13.900 kv.km Ermənistan SSR-ə məxsusdur" yazması siyasi manevr idi. Göründüyü kimi, irəli sürülən iddiaların heç biri İrandan və Türkiyədən torpaq qoparılmasına əsas vermirdi. Bu prosesləri əvvəlcədən görərək Stalin Yaxın Şərqin SSRİnin təsir dairəsinə cəlb olunması üçün yollar axtarırdı. Yəqin ki, bundan istifadə edən Mikoyan və Beriya Türkiyəyə qarşı ərazi iddialarını ortaya atmaqla İranın şimalındakı Mosulun zəngin neft yataqlarına yaxınlaşmaq istəyirdilər. Əsas məsələ Böyük Azərbaycan dövlətinin yaranmasına gedən yolun bağlanması idi. Bu sahədə isə erməni-gürcü qruplaşmasının "fəaliyyəti öz bəhrəsini" verdi. Yuxarıda qeyd olunduğu kimi, Stalin müttəfiqlərlə görüşdən sonra qoşunların İrandan çıxarılmasına məcbur olduğunu anladı. Doğrudur, hadisələri qiymətləndirərkən Stalinə də haqq qazandırmaq olar. Fikrimizcə, ortaq bir neft şirkəti yaratmaq naminə Azərbaycan xalqının birləşmək tarixi şansını məhv etmək bağışlanılmazdır. Bakıda neft kifayət qədər vardır və onun istehsalını daha da artırmaq mümkün idi.

Azərbaycana münasibətdə kürdlər azərbaycanlılara qarşı təhrik edilirdi. Bu səbəbdən də Kürdüstanın Azərbaycandan ayrılması məsələsi qoyulurdu.[2] 1946-cı il aprelin 4-də Tehranda SSRİ ilə İran arasında birgə Sovet-İran neft şirkətinin yaradılması haqqında saziş imzalandı və müqavilə bağlandı. Müqavilə İran Məclisi tərəfindən 7 ay ərzində təsdiq edilməli idi.

---

[1] Султанов, Чапай Али оглы. Политические и экономические этюды по Южному Кавказу: хроника с 1850 по 2010 гг. / Ч.А.Султанов. – Баку, 2010. – с.21.

[2] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.166.

Müqavilə imzalandıqdan sonra S.C.Pişəvəriyə Tehran hökumətinə qarşı çıxış etməmək göstərişi verildi. Lakin Kremlə gələn məlumatlarda Pişəvərinin bu göstərişi yerinə yetirmədiyi bildirilirdi. Sovet qoşunlarının isə İrandan çıxarılması başa çatmaq üzrə idi. Azərbaycan rəhbərliyi Cənubi Azərbaycanda və Şimali Kürdüstanda baş verən hadisələri Moskvanın nəzarətində saxlamaq üçün xüsusi xidmət orqanlarının köməyi ilə İran Kürdüstanının lideri Qazi Məhəmmədin ABŞ konsulu vəzifəsinin müvəqqəti icra edən ilə söhbətinin yazısını tapıb məktub şəklində Stalinə göndərirlər. Söhbəti təhlil edən Adıgözəl Məmmədov belə düşünür ki, məktub sovet qoşunlarının İrandan çıxarılmasının nəticələrini əks etdirir.[1] M.C.Bağırov və İ.İ.Maslennikovun Stalinə göndərdiyi 13 may 1946-cı il tarixli məktub da maraqlıdır. Məktubda yazılırdı: "Bizim qarnizonlarımızın yerləşdiyi bütün Azərbaycan şəhərlərində Qızıl Ordu hissələrinin yola salınması təntənələri ümumxalq nümayişinə çevrilmişdir. İran Azərbaycanının Ərdəbil, Marağa, Rezaiyyə, Xoy və Zəncan kimi iri şəhərlərində hələ Qızıl Ordunun çıxması ərəfəsində mağazalar, idarələr və şəxsi evlər ucdantutma xalçalar, Sovet və İran bayraqları, Stalin yoldaşın, sovet rəhbərlərinin, Qızıl Ordu qəhrəmanları və sərkərdələrinin portretləri ilə bəzənmişdi. İranın SSRİ ilə mədəni əlaqələr cəmiyyətinin yerli şöbələrində əhalinin bütün təbəqələrinin iştirakı ilə Qızıl Ordunun getməsinə həsr olunmuş təntənəli yığıncaqlar keçirilirdi. Bu yığıncaqlarda fəhlələrin, həmkarlar ittifaqları və demokratik təşkilatların, ziyalıların və tacirlərin nümayəndələri coşqun nitqlər söyləyir, əhalini Qızıl Orduya minnətdarlığını bildirir, ünvan və hədiyyələr verirdilər. Bizim Təbriz şəhərindəki hissələrimizin 100 min nəfərdən artıq adamın iştirak etdiyi yolasalma mərasimi xüsusilə möhtəşəm və təsirli keçdi".[2] Məktubdan hiss olunur ki, M.C.Bağırov Stalinin atdığı addıma qarşı çıxır və Azərbaycan xalqının İran hökuməti ilə təkbətək qalmasından narazılığını bildirir. Cənubi Azərbaycanda baş verən hadisələrə münasibət, Azərbaycanın cənubu ilə şimalının birləşmə ehtimalının güclənməsi fonunda Türkiyəyə qarşı ərazi tələblərinin gündən-günə real xarakter alması Gürcüstan və Ermənistan rəhbərliyinin ərazi iddialarına olan həvəsini artırdı. Ermənilər ərazi iddiası Azərbaycanın şimal əraziləri və Türkiyə ilə məhdudlaşmırdı. Onlar həm də İranla bağlı, xüsusi ilə Cənubi Azərbaycanla bağlı iddialar irəli sürürdülər. İranda baş verən ictimai-siyasi proseslər ermənilər də hərəkətə gətirmişdi. Cənubi Azərbaycanda Milli Hökumətin qurulmasından sonra Mahabbala kürd muxtariyyətinin elan edilməsi, onlara burada muxtariyyət almaq üçün həvəsləndirilmişdi. M.C.Bağırovun Stalinə 15 avqust 1946-cı il tarixli məktubundan məlum olur ki, azər-

---

[1] Yenə orada, s.157-159.

[2] Гасанлы, Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва, 2006. – с.347.

baycanlılar ermənilərin Sovet Ermənistanına köçməsindən sonra boşaldılacaq kəndlərin Bərzan tayfasından olan İran kürdlərinə verilməsi məsələsini qaldırmışlar və Azərbaycan rəhbərliyi bu məsələnin Qazi Məhəmmədlə razılaşdırılmasını tövsiyə etmişdir. Urmiyada yaşayan ermənilər muxtariyyət planını irəli sürməklə Cənubi Azərbaycanda torpaq ələ keçirmək istəyirdilər. Azərbaycan SSR XXİK-nın müavini A.S.Əlizadənin M.C.Bağırova məlumatından aydın olur ki, Ermənistan hökuməti İrandakı ermənilərin hamısını deyil, bir hissəsini köçürülməsini nəzərdə tuturdu. Ermənistan SSR XXİK Karapetyan A.S.Əlizadə ilə söhbətlərinin birində bildirmişdi ki, Urmiya ətrafında bir erməni kəndi var və onun adı qədim erməni dilindədir. Ermənistan hökuməti İranın cənubunda yaşayan ermənilərin köçürülməsini planlaşdırır. Göründüyü kimi, Şimali Kürdüstan rayonunda yaranmış gərgin vəziyyətdən istifadə edən ermənilər müxtəlif yollarla Stalini fikrindən yayındırmağa səy göstərmişlər.

Məlumdur ki, 1946-cı ilin sonunda regionda geosiyasi vəziyyət Azərbaycanın hər iki rəhbərinin arzu etmədiyi səmtdə dəyişməyə başladı. Dekabrın 20-də Cənubi Azərbaycanda şah rejimi bərpa olundu. Bakıya mühacirət etməyə məcbur olmuş S.C.Pişəvəri, S.Padeqan, R.Qazi M.C.Bağırovun ətrafına toplaşıb tədbir görməsini xahiş edirlər. A.Məmmədov yazır ki, M.C.Bağırov onların yanında Stalinə zəng vuraraq baş verən hadisələr haqqında məlumat vermiş, köməklik göstərilməsini xahiş edirlər. Stalin isə "Beş milyon azərbaycanlıya görə mən üçüncü dünya müharibəsinə başlaya bilmərəm" cavabını vermişdi.[1] Azərbaycana olan münasibətdən xoflanan Kremlin daşnak qrupu və rus şovinistləri M.C.Bağırov haqqında Kremlə məktublar təşkil edirdilər. N.K.Baybakov "Stalindən Yeltsinədək" kitabında yazır ki, Stalin məktubda M.C.Bağırova qarşı qaldırılan iddiaları təftiş etmək və buradakı faktları yoxlayaraq, ona məlumat verməyi Nəzarəti Komitəsinin sədri Mexlisə tapşırdı. Nəticədə Partiya Nəzarəti Komitəsi yoxlama briqadası Bakı şəhərinə gəldi.

Yarımfəsli yekunlaşdıraraq nəticə kimi deyə bilərik ki, SSRİ rəhbərliyi SSRİ-İran münasibətlərində və ərazi məsələlərində rus-erməni-gürcü qruplaşmasının fəaliyyətinə rəvac verdi, Azərbaycan torpaqlarının birləşdirilməsi imkanları ikinci plana keçdi, əvəzində Türkiyəni zəiflətmək və ərazi qopartmaq ön plana çəkildi. Hər halda Azərbaycan SSR-in müharibə illərində faşizm üzərində qələbədə rolunu yaxşı bilən SSRİ rəhbərləri milli münasibətlər zəminində dini amili əsas götürdü, qeyri-slavyan xalqlarına, xüsusilə azərbaycanlılara qarşı ədalətsiz davrandılar.

---

[1] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.175–176; İbrahim Zeynalov. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində /Zeynalov İbrahim. – Bakı, 2018. – s.217.

Sovet-İran mədəni əlaqələrində Azərbaycanın rolu

1939-cu ildə Qərbi Ukrayna və Qərb Belarusiyanın SSRİ-yə birləşdirilməsi sovetlərin Cənubi Azərbaycana marağının artmasını stimullaşdırdı. Stalin başa düşürdü ki, İranın İngiltərənin təsir dairəsinə düşməsi SSRİ-ni Mosul, Kərkük və Ərəbistan kimi neft ehtiyatları ilə zəngin olan yerlərdən uzaqlaşdıra bilərdi. Ona görə də regiondakı etnik qruplarla iş gündəmə gəldi. İran kürdlərinin hüquqlarının tapdalanması haqqında fikirlər səsləndirilməyə başlandı. Sovet hökuməti 1939-cu ilin payızından başlayaraq Cənubi Azərbaycana dair hərbi, siyasi, iqtisadi və strateji məlumatlar toplamağa başladı. 1940-cı ilə Qızıl Ordu 5-ci idarəsinin "İran Azərbaycanının hərbi-coğrafi xəritəsi"ni hazırlaması, 1941-ci ili yanvarında Moskvada 216 səhifəlik "Cənubi Azərbaycana dair texniki-iqtisadi xülasə"də[1] buna xidmət edirdi. Nəhayət, Almaniyanın SSRİ-yə hücumundan az əvvəl Bakıda hərbçi adı ilə Cənubi Azərbaycana göndəriləcək 3.816 nəfər mülki şəxs müəyyənləşdirildi və 52 briqada formalaşdırıldı. Cənubi Azərbaycana göndəriləcək nümayəndələrin siyahısına partiya, sovet və sovet, təhlükəsizlik, milis, prokurorluq və 90 nəfəri Ədliyyə orqanlarında işləyənlər, həmçinin nəşriyyat və mətbuat orqanlarının işçiləri daxil edilmişdi. Səfərbər edilənlər arasında 245 dəmiryolçu, 42 neftçi-geoloq və s. var idi. Lakin Azərbaycan rəhbərliyi L.Beriya və XXİK-nın müavini V.N.Dekanazovun yardımı ilə Stalində İran azərbaycanlılarına əsaslanmamaq barədə fikir yaratmağa nail oldu. 1941-ci il sentyabrın 9-da birgünlük Moskvaya gələn Azərbaycan rəhbəri Azərbaycan K(b)P MK-nın üçüncü katibi Əziz Əliyevin Cənubi Azərbaycan göndəriləcək partiya qrupunun rəhbəri təyin olunmasına nail oldu.

Cənubi Azərbaycana gedəcək alt qrupa təbliğat üzrə Süleyman Rəhimov, inzibati-təsərrüfat işləri üzrə Mehbalı Əmiraslanov, xüsusi əməliyyatlar üzrə Ağasəlim Atakişiyev, sanitar-tibb işləri üzrə Mustafa Quliyev, Azərbaycan dilində buraxılan "Vətən yolunda" adlı qəzetə redaktor Mirzə İbrahimov daxil oldular. Əziz Əliyev Hərbi Şuranın qərarı və Zaqafqaziya ordusu komandanı general-leytenant D.Kozlovun əmri ilə sentyabrın 16-da Təbrizə daxil olan 47-ci ordunun Hərbi Şurasının üzvü təyin edildi. Çox keçmədi ki, SSRİ-nin İranda səfiri rus-daşnak xislətli A.Smirnovla Əziz Əliyev arasında fikir ayrılıqları yarandı. Əziz Əliyevin sovet qarnizonunun rəhbərliyinə məktub yazaraq yerli əhalidən, yəni azərbaycanlılardan silahların yığılmasını dayandırmağı tələb etməsi fikir ayrılıqlarını daha da gücləndirdi. A.Smirnov Moskvaya məktub yazaraq Ə.Əliyevi millətçi kimi xarakterizə etdi. M.C.Bağırov yenidən Dekanazovla əlaqə saxlayaraq Ə.Əliyevi müdafiə etməyə başladı.

Qeyd olunduğu kimi, Ə.Əliyevin İrandakı fəaliyyəti barəsində iki məsələ tədqiqatçıları düşündürür. Birinci məsələ İrandakı 9 min nəfərlik

[1] Гасанов, Г. Иранский дневник (1944-1946) /Г.Гасанов. – Баку, 2007. – с.16-17.

kürd ordusunun sovetlərə olan münasibətinin dəyişdirilməsi haqqındadır. Bu məsələlərə Əziz Əliyev özü aydınlıq gətirmişdi. T.Musayev xatirələrində yazır ki, 1948-ci ilin dekabr ayının ortalarında Moskvada Ə.Əliyevlə[1] görüşdə yuxarıda qeyd etdiyimiz məsələlərə aydınlıq gətirilməsi xahiş etmişdir. Ə.Əliyev isə məsələlərə münasibətini belə bildirdi: "...müharibə başlayandan az sonra böyük bir miqdarda sovet ordusu İranda yerləşdirildi. İranda isə almanların təsiri güclü idi. Bizim ordu daxilində yerli camaat arasında işi aparmaq üçün ora göndərilirdi. Mənim rəhbərliyimlə də bir dəstə adam ora getdik. İlk növbədə 9 min nəfərlik kürd qoşunlarının bizə olan mənfi münasibətlərini dəyişdirmək lazım idi. Bu məsələ isə mənə həvalə edilmişdi. Mən aparılası işləri təmin etməklə bərabər öyrəndim ki, kürd qoşun başçısının kiçik qardaşının toyu olacaq. Mən toyun vaxtı, yeri, toyu olacaq oğlan və gəlin, onların kişi, qadın və qohumları, qohumluq, yaş dərəcələri və s. barədə müfəssəl məlumat topladım, kürd adət-ənənələrinə uyğun olaraq onlara hansı hədiyyələr veriləcəyini, bu hədiyyələrin toyun hansı yerində, məqamında təqdim ediləcəyini müəyyənləşdirdim. Qeyd etdiyim bütün şərtləri çox dəqiq və vaxtında yerinə yetirdim... Biz əsas məqsədimizə çatdıq. Kürd qoşunu zərərsizləşdirildi".

Əziz Əliyev qrupu ilk gündən erməni təxribatı ilə rastlaşdı, qənd ticarətinə nəzarət edən erməni taciri Budaqyanın təxribatının qarşısını aldı. Yerli tayfalar arasında izahat işi genişləndirildi. Nəticədə, 1941-ci ilin noyabrında Bakıda olan şahsevənlər M.C.Bağırovla görüş zamanı onların əhalisinin yarıya qədərinin Sovet Azərbaycanında yaşadığını və Sovet Azərbaycanına birləşmək istədiklərini bildirdilər. Mətbuatda Azərbaycanla bağlı gedən yazılar Azərbaycan K(b)P MK tərəfindən izlənilir, təhlil olunur və Cənubi Azərbaycandakı qrupa bildirilirdi. Cənubi Azərbaycanda görülən işlərlə bağlı M.C.Bağırov Stalinə də geniş hesabat hazırlamışdı. Hesabatda yer alan müəyyən məsələləri müzakirə etmək üçün İrandakı sovet siyasi, hərbi, diplomatik orqanlarının nümayəndələri və Cənubdakı missiyanın başçısı Əziz Əliyev Bakıya dəvət edilmişdi. M.C.Bağırov öz hesabatında Stalindən xahiş edirdi ki, Təbrizdə uşaq evi açmağa icazə verilsin və təklif edirdi ki, bu uşaq evlərində dərslər Azərbaycan dilində keçilsin. Hesabatda İrandakı Sovet ordusunun komandanı Novikov və hərbi komissar Yarkovun fəaliyyəti tənqid olunur və bildirilirdi ki, adları qeyd olunanlar Əziz Əliyev qrupu əleyhinə Moskvaya gizli məlumatlar verirlər. Bununla belə, Novikov və Yarkovun İrandan geri çağırılmasına nail olunsa da Əziz Əliyev missiyasını xilas etmək mümkün olmadı.

1942-ci ilin yazında İranda və Cənubi Azərbaycanda vəziyyət dəyişməyə başladı. Azərbaycan SSR-dən göndərilmiş siyasi işçiləri Cənubi

[1] Musayev, T. Ermənilər və faciələrimiz (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) / T.Musayev. – Bakı, 2008. – s.208-209.

Azərbaycandan uzaqlaşdırmaq məqsədilə sovet xüsusi xidmət orqanları 1942-ci ilin ilk günlərində baş verən "Sərtibzadə qiyamından" istifadə etdilər. Keçmişdə Komintern nümayəndələri ilə əlaqədə olan Sərtibzadə indi alman xidmət orqanları ilə əməkdaşlıq edirdi. Şimal Azərbaycandan köçən Ağayev və Rəsulovla birlikdə sərhəd rayonları Qaradağ və Culfada sovet hakimiyyəti qurmaq məqsədilə partizan dəstələri formalaşdırmışdı. Partizanlar tərəfindən tutulan rayonlarda hakimiyyət orqanları buraxılır, yerli özünüidarə orqanları yaradılırdı.[1] Lakin 1942-ci ilin əvvəllərində Əziz Əliyev və onun qrupunun nümayəndələrinin əksəriyyəti geri çağırıldı. 1942-ci ilin ortalarına İran Azərbaycanında Bakı missiyasından cəmi 62 nəfər qaldı.[2] Ancaq həmin ilin payızında Sovet rəhbərləri cənubdan Sovet Azərbaycanı siyasi işçilərini geri çağırmaqda səhvə yol verdiklərini başa düşdülər. Milli siyasətdəki dəyişikliklərdən biri ÜİK(b)P MK Siyasi Bürosunun 6 mart 1944-cü il tarixli qərarı oldu. 1944-cü ilin əvvəllərində Azərbaycan SSR rəhbərliyinin təklifi ilə Moskva Cənubi Azərbaycan məsələsinə yenidən qayıtdı. Mart ayının 6-da SSRİ Xalq Komissarları Soveti "Cənubi Azərbaycan əhalisinə iqtisadi və mədəni yardımın gücləndirilməsi tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda göstərilirdi: "1. Cənubi Azərbaycanın və Qırmızı Ordunun yerləşdiyi şəhərlərin əhalisinin böyük əksəriyyətinin azərbaycanlılardan ibarət olduğunu nəzərə alaraq, yerli əhali ilə əlaqələri gücləndirmək üçün sovet siyasi işçilərinin və digər hərbi müəssisələrin tərkibinə azərbaycanlıların daxil edilməsi məqsədəuyğun sayılsın; 2. Yuxarıdakı mülahizələrə uyğun olaraq, hərbi hissələrdə həftədə üç dəfədən az olmayaraq Azərbaycan dilində ordu qəzeti nəşr edilsin və mülki əhaliyə çatdırılsın; 3. Təbrizdə, Ərdəbildə və Cənubi Azərbaycanın digər şəhərlərində sovet ticarət müvəkkillərinin nümayəndələrinin azərbaycanlılarla əvəz edilməsi məqsədəuyğun sayılsın. Bu dəyişikliklər tədricən Cənubdakı maliyyə və digər idarələrin nümayəndələrinə də tətbiq edilsin. Məsələn, Təbrizdəki Sovet Bankı və s.; 4. Bizim İrandakı diplomatik orqanlarda-konsul, vitse-konsul və konsulluğun katibi vəzifələrində azərbaycanlı işçilərimizin olması məqsədəuyğun sayılsın. Xüsusilə, Təbrizdə və Makuda bunun daha çox vacib olduğu qeyd edilsin; 5. Tehrandakı Sovet səfirliyi və ticarət nümayəndəliyində 1-2 nəfər azərbaycanlı işçimizin olması məqsədəuyğun sayılsın; 6. Müxtəlif siyasi və bədii ədəbiyyat, o cümlədən, Cənubi Azərbaycan yazıçı və şairlərinin əsərlərinin nəşri və əhali arasında yayılması məqsədilə Təbriz şəhərində yaxşı avadanlıqla təchiz edilmiş "Təbriz" adlı mətbəə yaradılsın. Mətbəəyə yerli əhalidən sifarişlər qəbul etmək hüququ verilsin; 7. 1944-cü ilin may-iyun aylarında Azərbaycan Dövlət Dram

[1] Гасанлы, Дж. СССР–Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва, 2006. – с.39-40.
[2] Yenə orada, s.43.

Teatrının Təbrizə və bir konsert briqadasının Cənubi Azərbaycan şəhərlərinə qastrol səfərləri təşkil edilsin; 8. Təbrizdə Azərbaycan dilində təhsil verən on illik orta məktəb təşkil edilsin. Fars dili və ədəbiyyatı orada bir fənn kimi keçilsin, təhsil pulsuz olsun. Pedaqoji kollektiv Sovet Azərbaycanı müəllimlərindən komplektləşdirilsin; 9. Qeyd edilən məktəbdə kitabxana, oxu zalı açılsın, oradan təkcə şagirdlərin deyil, yerli əhalinin də istifadəsinə icazə verilsin; 10. Torpağın becərilməsi və bağçılıq sahəsində kəndlilərə əməli kömək göstərmək məqsədilə Təbriz ətrafında nümunəvi aqrotexniki stansiya yaradılsın; 11. İşsizlərin heç olmasa kiçik bir hissəsinə iş vermək məqsədilə Təbrizdə corab trikotaj fabriki yaradılsın".[1]

Qərara uyğun olaraq Azərbaycan K(b)P MK Bürosu martın 20-də qərar qəbul etdi və əməli addımlar atıldı. M.C.Bağırov Stalinə məktubundan aydın olur ki, 1944-cü il mayın 25-də Bakıda keçirilmiş Zaqafqaziya ruhaniləri və mömin müsəlmanların qurultayında bütün müsəlmanlara antifaşist müraciəti qəbul olunmuş, müraciət Azərbaycan və fars dillərində 5.000 nüsxə artırılaraq İranda əhali arasında yayılmışdır. Bundan sonra Şeyxülislam Əlizadənin başçılığı ilə Zaqafqaziya Müsəlmanlarının Dini İdarəsi Cənubi Azərbaycanın din xadimləri ilə şəxsi əlaqələr qurdu. İrana göndərilən heyət formalaşdırıldıqdan sonra Həsən Məmməd oğlu Həsənov heyətə rəhbər təyin olundu və o, Təbrizdəki Sovet konsulluğunun vitse-konsulu vəzifəsinə təsdiq edildi. H.Həsənov və ideologiya üzrə Azərbaycan K(b)P MK katibi Qəzənfər Məmmədov görülən işlərə dair plan təqdim etdilər. Fəaliyyəti dayandırılmış "Vətən yolunda" qəzetin nəşri və digər çap işləri Təbriz mətbəəsinin maddi-texniki bazasının möhkəmləndirilməsini tələb edirdi. Bu məqsədlə "Təbriz" mətbəəsi üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, 2 taxta kiosk, hazır kitablar, mebel, 2 ədəd makina, yağlı rəng, 15 ədəd dəmir soba və s. göndərildi. Cənubi Azərbaycana göndərilən poliqrafiya avadanlığının, ədəbiyyat və digər zəruri vəsaitlərin ümumi dəyəri 652.210 manat idi.[2] "Vətən yolunda" qəzetinin nəşrinin ikinci mərhələsi 1944-cü ilin aprelin 10-dan başladı. Bu mərhələ 1946-cı il may ayının 1-dək davam etdi.

1941-1946-cı illərdə "Vətən yolunda" qəzetinin 406 nömrəsi çap olunmuşdur. Mirzə İbrahimov, Əlihəsən Şahgəldiyev, Rza Quliyev "Vətən yolunda" qəzetinin baş redaktoru olmuş, şairlərdən Süleyman Rüstəm,

---

[1] Постановление СНК СССР «Об усилении экономической и культурной помощи населению Южного Азербайджана» от 6 марта 1944 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, №84, листы – 1-3.

[2] Докладные записки, переписка, тематические планы работ газеты «Ветен йолунда», издающейся в Иране, «Друг Ирана» (на рус. и азерб языке) (нач:3 мая-окон: 4 ноября 1944 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №30, ед.хр. №375, лист – 4.

Osman Sarıvəlli, Məmməd Rahim, yazıçılardan Süleyman Rəhimov, Əvəz Sadıq, Ənvər Məmmədxanlı, Qılman Musayev (İlkin), Seyfəddin Abbasov (Dağlı), Cabbar Məcnunbəyov, jurnalist və incəsənət xadimlərindən İsrafil Nəzərov (məsul katib), Mehdixan Vəkilov, Əsgər Ağayev, Qulam Məmmədli, Həmid Yolçuyev, Cəfər Xəndan (baş redaktorun müavini), Rəhim və Məmmədağa Sultanov qardaşları, rəssamlardan İsmayıl Axundov, Kazım Kazımzadə, Salam Salamzadə və başqaları qəzetin hazırlanmasında iştirak etmiş və redaksiyada çalışmışlar. Qəzet Cənubi Azərbaycanın bütün şəhərlərində və bir çox kənd rayonlarında kifayət qədər uğurla yayılırdı. Qəzet səhifələrində Cənubi Azərbaycan şairlərində M.Biriya, M.Etimad, Ə.Fitrət, Aşıq Hüseyn (Cavan), B.Azəroğlu, Ə.Tudə, Y.Şeyda, M.Hiknam, F.Məhzun, H.Billuri, Ə.Nişani, Sahir, Quluxan Borçalı, T.Milanı, M.Hilal Nasiri, M.Gülgünün şeirləri, M.Əbbasi, M.Sefvət, A.Fərivər, S.Səbahi, M.Vilayi, M.Qövsi (Fərzanə) və başqalarının əsərləri nəşr olunurdu. Təbriz ziyalılarından başqa qəzetin işində Tehran, Miyanə, Ərdəbil, Mərənd, Şahpur və s. kimi digər şəhərlərdən olan 30 azərbaycanlı müxbir də iştirak edirdi.[1] 1945-ci ilin avqust ayında "Azərbaycan" jurnalının ilk sayının çapdan çıxması Təbrizdə işləyən Azərbaycan nümayəndə heyətinin böyük uğuru idi. Jurnalın ilk sayında Səməd Vurğun, Mirzə İbrahimov, Cəfər Cabbarlı, Məlikülşüarə Bahar, Məhəmməd Biriya, Balaş Azəroğlu, Əli Fitrət, Yəhya Şeyda, Mir Mehdi Çavuşi, Mirvarid Dilbazi, Mədinə Ələkbərzadə (Gülgün), Nigar Rəfibəyli, Süleyman Rüstəm, Əliağa Vahid, İlyas Əfəndiyev, Rəsul Rza və Əvəz Sadığın əsərlərindən nümunələr vardı. Heydər Hüseynovun "Azərbaycanda elmi fikrin inkişaf tarixindən" adlı məqaləsi çap olunmuşdu.

Təbrizdə sovet xəstəxananın açılması xəbəri Ermənistan rəhbərliyinin narahatlığına səbəb oldu. Hətta Suren Məlik-İsrailyan baş həkim təyin olundu. H.Həsənovun Təbriz xəstəxanasına lazım olan səhiyyə kollektivinin sənədlərinin Bakıda təsdiq edilməsi barədə S.Məlik-İsrailyana xəbərdarlığı onları məyus etdi. 1944-cü ilin sentyabr ayının 3-də Təbrizdəki sovet xəstəxanasının açılışı oldu. Açılış mərasimində Təbrizdəki Sovet konsulluğunun əməkdaşları və Tehrandan gəlmiş sovet xəstəxanasının baş həkimi Boryan iştirak etmiş, Xəstəxananın Təbriz, Rəşt, Qəzvin və Məşhəd şəhərlərində filialları yaradılmışdı.[2]

Qarşıda duran vəzifələrdən biri də, Təbrizdə Azərbaycan dilində məktəb açılması idi. 1944-cü il iyunun 24-də SSRİ Xalq Komissarları Sovetinin Təbrizdə Azərbaycan dilində orta məktəb açılması haqqında 13421 saylı qərarından sonra məktəbin 36 nəfər müəllim və inzibatı-təsərrüfat işçilərindən ibarət ştat cədvəli təsdiq edildi. 1944-cü ilin avqust ayının 18-də Cəbrayıl Ələsgərov məktəbə direktor təyin olundu. Sentyabrın 20-nə qədər

[1] İsmayılov, İ.Z. Azərbaycan-İran əlaqələri XX əsrdə / İ.Z.İsmayılov. – Bakı, 2006. – s.51.
[2] Yenə orada.

məktəbdə oxumaq üçün 812 şagird ərizə verdi. Şagirdlərin 595 nəfəri azərbaycanlı, 64 nəfəri erməni, 11 nəfəri rus, qalanları isə digər millətlərin uşaqları idi.[1]

Təbrizdəki Azərbaycan dilində fəaliyyətə başlamış orta məktəbin 1945/1946-cı dərs ilinə hazırlığı ilə bağlı Azərbaycan SSR Xarici İşlər Xalq Komissarı Mahmud Əliyev, XKS sədrinin müavini N.Allahverdiyev, Maarif Xalq Komissarı M.İbrahimov, Azərbaycan K(b)P MK-nın ali təhsil və məktəblər şöbəsinin müdiri Musa Əliyev birgə tədbirlər planı hazırladılar. Təbrizdəki orta məktəbin direktoru Cəbrayıl Ələsgərovun bir sıra məsələlərin həll edilməsi və məktəbin növbəti tədris ilinə hazırlığı ilə əlaqədar 1945-ci ilin yayında Azərbaycan K(b)P MK-ya müraciətindən dərhal sonra M.Yaqubov, S.Yemelyanov, M.Əliyev və Rəsul Rzaya tapşırıqlar verildi.

Təbrizdən gələn tələbələrin kiril əlifbası və rus dilini öyrənmək üçün Azərbaycan Dövlət Universitetinin nəzdində bir illik hazırlıq kurslarının açılması, Bakıda oxumaq istəyən 39 nəfər Cənubi azərbaycanlı gəncin Azərbaycan ali məktəblərinə qəbul edilməsi nəzərdə tutuldu. Bu işə rəhbərlik Azərbaycan K(b)P MK katibi Soltan Qafarzadə, Xarici İşlər Xalq Komissarı Mahmud Əliyev, Xalq Komissarları Soveti Sədrinin müavini Əzizağa Əzizbəyov, Maarif Xalq Komissarı Mirzə İbrahimov, Dövlət Təhlükəsizliyi Xalq Komissarı Stepan Yemelyanov və Azərbaycan K(b)P MK-nın ali təhsil və məktəblər şöbəsinin müdiri Musa Əliyevə tapşırıldı.

İran-Azərbaycan mədəni əlaqələrində Azərbaycanın mədəniyyət və incəsənət xadimləri fəal iştirak edirdilər. İrana qastrol səfərinə gəlmiş ilk sovet incəsənət kollektivlərindən biri Opera və Balet Teatrı oldu. Teatr 1941-ci il oktyabrın 12-də Təbrizdə çıxışlarına başladı. Teatrın direktoru Abbas Zamanov idi. Təbrizin "Mir-o Xorşid" teatrının səhnəsində oynanılan Ü.Hacıbəyovun "Koroğlu", "Leyli və Məcnun", "Əsli və Kərəm" operaları tamaşaçılar tərəfindən rəğbətlə qarşılanmışdı. Tamaşaların müvəffəqiyyətlə keçməsində rejissor İsmayıl Hidayətzadə, dirijor Niyazi və balet ansamblının rəhbəri Qəmər Almaszadə böyük əmək sərf etmişdilər. Tamaşaçılar Ələvsət Sadıqovun ifasında Məcnun və Kərəm rollarını, Həqiqət Rzayevanın Leylisini və Əslisini maraqla qarşılamışlar. Ü.Hacıbəyovun "Arşın mal alan" və Müslüm Maqomayevin "Şah İsmayıl" operalarından bəhs edən "Bakinskiy raboçiy" qəzeti artistlərdən Zülfüqar Sarıyev, Əli Zülalov, İsmayıl Eloğlunun çıxışlarının müvəffəqiyyətlə qarşılandığını yazırdı. Əsgər rolunda çıxış edən Bülbül Məmmədov, Gülçöhrə rolunun ifaçısı Sona Mustafayevanın çıxışları Təbriz tamaşaçılarının marağına səbəb olmuşdur. Şimali Azərbaycandan gəlmiş artistlər tamaşalar verməklə kifayətlənməmiş, əhali qarşısında konsertlər vermiş, məktəblilər və şəhər əhalisi ilə görüşlər keçirmişlər. Bülbül, Ağababa Bünyadzadə, Şirzad Hüseynov, Həqiqət

[1] Гасанов, Г. Иранский дневник (1944-1946) / Г.Гасанов. – Баку, 2007. – с.151.

Rzayeva, Yavər Kələntərli, Səltənət Quliyeva və Ələvsət Sadıqovun çıxışları, Qəmər Almaszadənin rəqs qrupunun ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdı. Xüsusilə, 1941-ci il oktyabrın 26-da SSRİ xalq artisti Şövkət Məmmədovanın təbrizlilər qarşısında çıxışı rezonans doğurmuşdur. Həyata keçirilən tədbirlər Cənubi Azərbaycan ilə mədəni əlaqələri genişləndirmək üçün Azərbaycan mədəni əlaqə cəmiyyətinin yaradılmasını gündəmə gətirdi və bu məqsədlə Malenkova müraciət olundu. 1944-cü ilin noyabrın 27-də Azərbaycan-İran Mədəni Əlaqə Cəmiyyəti yaradıldı və Səməd Vurğun cəmiyyətin sədri vəzifəsinə təsdiq edildi.[1]

Cənubi Azərbaycanda siyasi işi və mədəni-kütləvi tədbirləri genişləndirmək üçün Azərbaycanı K(b)P MK-da bir sıra qərarlar qəbul edildi. Mədəni tədbirləri və təbliğat işlərini gücləndirmək üçün M.Şərifli, S.Salamzadə, H.Sadıxlı da Təbriz mədəniyyət evinə işləməyə göndərildilər. Təbrizdəki Sovet Mədəniyyət evinin işi Azərbaycan K(b)P MK-nın diqqət mərkəzində idi. Mədəniyyət evinin direktoru Əhəd Bağırzadə, əməkdaşları memar Həsən Məcidov, ədəbiyyatşünas Cəfər Cəfərov, tarixçi Məmməd Şərifli, rəssamlar Əmir Hacıyev və Kazım Kazımzadə, bəstəkarlar Cahangir Cahangirov və Hacı Xanməmmədov, rejissor İsmayıl Əfəndiyev və b. Azərbaycan mədəniyyətinin təbliği sahəsində səmərəli fəaliyyət göstərirdilər. Təbriz ziyalılarının ədəbiyyatşünas Məmməd Arif Dadaşzadə, şair Rəsul Rza və Mirzə İbrahimovla görüşləri canlı və maraqlı keçmişdi. Azərbaycan SSR-in 25 illik yubiley tədbirləri ilə bağlı İrandan və Cənubi Azərbaycandan böyük bir nümayəndəlik Bakıya dəvət edilmişdi. Onların arasında Məhəmməd Biriya, Seyid Cəfər Pişəvəri, Balaş Azəroğlu, doktor Orəngi, Məhəmməd Rəsuli, Hacı Ələkbər Sədəqyani, Səid Nəfisi, Məliküşüara Bəhar, Hacı Məhəmməd Naxçıvani, Hüseynqulu Kitabi, Mahmud Turabi, Əli Fitrət, Ə.Dibaian, T.Milani, Hüseyn Həriri, İ.Bəzərqan, İsmayıl Dibac, Quluxan Borçalı, Hüseyn Cövdət, Hüseyn Qolqolabi, Əhməd Təbatəbai, doktor Mürtəzəvi, Samii, Məşquti, Məclis üzvləri Mehdi Ədl, Sədr Qazi və digərləri var idi.[2] Həyata keçirilən tədbirlər öz bəhrəsini verirdi. Artıq 1945-ci ilin əvvəllərində Cənubi Azərbaycanda fəaliyyət göstərən Sovet Azərbaycanından olan işçilərinin sayı 1000 nəfərə çatırdı. "Vətən yolunda" qəzetinin tirajı 10 mini keçmişdi. Qısa müddətdə 368 min tirajla 32 adda kitab Ərəb əlifbası ilə nəşr edilmişdi. Cənubi Azərbaycanla əlaqələrin yaxşılaşdırılmasında qarşılıqlı görüşlər böyük fayda verirdi. Cənubi Azərbaycana göndərilən 44 nəfərdən ibarət konsert qrupu Tehran, Təbriz, Pəhləvi, Rəşt, Ərdəbil, Qəzvin, Maku, Şahpur və Rezaiyyə şəhərlərində, sovet qoşunları qarnizonlarında çıxışlar etmişdilər. İran əhalisi arasında Bakıdan Azərbay-

[1] Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – s.95.
[2] Vəkilov, C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər / C.M.Vəkilov. – Bakı, 1991. – s.62.

can və fars dillərində yayımlanan radio verilişləri, xüsusilə də Azərbaycan musiqisindən ibarət konsert böyük populyarlıq qazanmışdı. Cənubi Azərbaycanla əlaqələrin yaxşılaşdırılmasında 1945-ci il noyabrın 19-da yaradılan "Sovet Azərbaycanı dostları" cəmiyyəti əhəmiyyətli rol oynadı. Cəmiyyət 1943-cü ildə Təbrizdə fəaliyyətə başlayan "Sovet İttifaqının dostları" cəmiyyəti işinin davam etdirməyə başladı. Cənubi Azərbaycanla əlaqələr mədəni tədbirlərlə məhdudlaşmırdı. Bir sıra müəssisələrin filiallarının yaradılmasına dair planlar nəzərdə tutulmuşdu. 1945-ci il iyun ayının 10-da SSRİ Xalq Komissarları Sovetinin sədri İ.Stalinin "İranın Şimalında Sovet sənaye müəssisələri təşkil edilməsi haqqında" gizli qərarı bu sahədə mühüm rol oynadı. Qərarda Təbrizdə və Cənubi Azərbaycanın digər şəhərlərində Şimali Azərbaycanın sənaye müəssisələrinin filiallarının yaradılması qeyd olunurdu. Bakı Karamel və ayaqqabı fabriklərinin Təbrizdə, Nuxa (Şəki) İpək kombinatının Rəştdə filialının açılması nəzərdə tutulurdu. Qərara görə, açılması nəzərdə tutulan müəssisələrin mühəndis-texniki işçilər, ixtisaslı fəhlə kadrları, istehsalat rəhbərləri ilə təmin edilməsi SSRİ və Azərbaycan SSR-in müvafiq komissarlıqlarına tapşırılırdı.[1]

Cənubi Azərbaycanla əlaqələrin yaxşılaşdırılmasında əldə olunan uğurlara baxmayaraq, SSRİ rəhbərliyinin Cənubi Azərbaycanda həyata keçirilən tədbirlərə münasibəti birmənalı olmamışdır. Andrey Smirnovun türk dilində çıxan və nəşri səbirsizliklə gözlənilən "Vətən yolunda" qəzetinin bağlanması xahişi sadəcə bir mətbuat orqanının bağlanması anlamına gəlməməlidir. Nəzərə alınsa ki, qəzet redaksiyasında Mirzə İbrahimov, Süleyman Rüstəm, İsrafil Nəzərov, Osman Sarıvəlli, Mehdixan Vəkilov, Qılman Musayev, Şəmsi Bədəlbəyli və digərləri kimi Azərbaycan ziyalıları işləyirdi, onların geri çağırılması Cənubi Azərbaycanda aparılan ideoloji işdə boşluq yaradırdı. "Vətən yolunda" qəzetinin bağlanmasından sonra Təbrizdə "Azərbaycanın səsi" adlı mətbuat orqanının açılması nəzərdə tutulurdu. Dövrə dair materialların təhlili deməyə əsas verir ki, Şimali Azərbaycandan olan siyasi işçilərin fəaliyyətinin məhdudlaşdırılması və tədricən onların Cənubdan çıxarılması ideyası Sovet rəhbərliyinin milli siyasətində Azərbaycana ikili münasibətindən irəli gəlirdi. Sovet səfiri Smirnovun Əziz Əliyev qrupu əleyhinə hesabatlar və teleqramlar göndərməsi Xarici İşlər Xalq Komissarlığının gizli tapşırığı əsasında baş verirdi. Digər tərəfdən hadisələrin gedişi, Cənubi Azərbaycandakı proseslərin milli müstəviyə keçməsi Stalini də narahat etməyə başlamışdı.

[1] Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) / C.Həsənli. – Bakı, 2015. – s.343.

Cənubi Azərbaycanda baş verən hadisələrə SSRİ rəhbərliyinin ikili münasibəti

İkinci dünya müharibəsi ərəfəsində Rza şah rejiminin Hitler Almaniyası ilə hərtərəfli yaxınlığı, İran ərazisində və dövlət aparatında almanpərəst qüvvələrin kök salması ölkəni müharibəyə cəlb edən mühüm amillərdən biri idi. Rza xan özünü şah elan etdiyi gündən (25 dekabr 1925-ci il) Almaniya ilə yaxınlığa meyl etdi. Bunun əsas səbəblərindən biri də, Almaniyada "ali irq" nəzəriyyəsinin tədricən əməli işə çevrilməsi idi. Çünki Rza şah hakimiyyətə gəldiyi ilk gündən farsların "Ariya" adlı irqə məxsus olduğunu dövlət siyasətinin tərkib hissəsinə daxil etmişdi. Bu məfkurədə farsların ali irqə – "Ariya" irqinə mənsubluğu və bu irqin alman irqi ilə qohumluğunun sübuta yetirilməsi təsadüfi deyildi. Bu həm də almanların İranda müxtəlif sahələrdə üstün mövqeyi ilə bağlı idi və bu proses müttəfiqlər tərəfindən diqqətlə izlənirdi. Digər tərəfdən, İkinci dünya müharibəsi ərəfəsində və müharibənin ilk illərində İranda istehsal olunan pambığın və quru meyvənin demək olar ki, hamısı Almaniya və Yaponiyaya ixrac edilirdi. İran bazarında və sənaye müəssisələrindəki məhsulların yarıdan çoxu Almaniyadan gətirilirdi. Rza şah hakimiyyətinin ilk illərində İran Məclisinin rəisi Daniş Möhtəşəmini (Möhtəşəməlsəltənə) Almaniyaya rəsmi səfərə göndərmiş, Möhtəşəmi Hitlerlə görüşmüş, İran-Almaniya münasibətlərində yaxınlıq yaranmışdır. Bu səbəbdən də, müharibə başlayanda İran dövlət ölkənin bitərəfliyi haqqında bəyanat yaymışdır (13 şəhrivər 1318-ci il – 4 sentyabr 1939-cu il). Bununla yanaşı, İran SSRİ ilə 1925-ci ildə müqavilə bağlamışdı. Təbii ki, müharibənin başlanması ilə İranın bitərəfliyini elan etməsinə SSRİ inanmadı. Digər tərəfdən isə İran gizli olaraq müharibəyə hazırlaşırdı. Almaniya İrana bildirmişdi ki, "əgər İran uzaq başı ikicə ay İranın müttəfiqlər qarşısında, ilk növbədə ruslar qarşısında duruş gətirə bilməsi ilə hər şeyin sonra İranın xeyrinə qurtaracaqdır" – deməsi Rza şahı inandırmışdı. İran hökuməti "ruslar qarşısında duruş gətirə bilmək məqsədilə" İngiltərə və Fransa ilə əlaqələr yaratmış, ekspertlərin iştirakı ilə hərbi manevrlər keçirməyə başlamışdı. Ancaq ekspertlər İran ordusunun çox zəif olduğu, hətta "2 dəqiqə belə müqavimət göstərə bilməməsi" haqqında rəy vermişlər. İranda çoxlu sayda Alman kəşfiyyatçısı fəaliyyət göstərirdi. Sovet kəşfiyyatı İranda almanların 5.000 nəfərdən çox hərbi ekspertinin və casusunun olduğundan xəbərdar idi.[1] SSRİ-də İran haqqında, xüsusilə Güney Azərbaycan haqqında külli miqdarda material toplanmışdı. 1941-ci ilin yanvarında Moskvada 216 səhifədən ibarət "Güney Azərbaycan texniki-iqtisadi icmalı" hazırlanmışdı. Arxiv sənədlərinin təhlili göstərir ki, Sovet Azərbaycanının rəhbərliyi Güney Azərbaycanın Şimali Azərbaycanla birləşdirilməsinə strateji əhəmiyyətli ərazidən daha çox "Türkmənçaydan parçalanmış ərazinin birləşdiril-

[1] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 17.

məsi kimi baxır", bu prosesdə SSRİ-nin mühüm rol oynayacağına inanırdı. Çünki Qərbi Ukrayna və Qərbi Belarusiyanın ələ keçirilməsindən sonra Cənubi Azərbaycanın da birləşdirilməsi məsələsi səslənməyə başlamışdır və İrana yeridilən sovet qoşunları daxilində Şimali Azərbaycandan hərbçi adı ilə göndəriləcək 3.816 mülki şəxsin səfərbər edilməsi bu inamı bir az da artırmışdı.[1] Şimali Azərbaycan tərəfindən Moskvaya təqdim olunmuş arayışda isə bütövlükdə Cənubi Azərbaycanda, o cümlədən Təbrizdə erməni nüfuzunun şişirdildiyi üçün İran ərazisinin şimal hissəsinin sovet qoşunları tərəfindən tutulacağı təqdirdə Güney Azərbaycanda fəaliyyət üstünlüyü Azərbaycan SSR rəhbərliyinə həvalə olunmuşdur.

Güney Azərbaycanda milli-demokratik fikrin formalaşmasında milli və demokratik mətbuat böyük rol oynamışdır. 1941-ci ilin oktyabrından 1945-ci ilin sonlarınadək Azərbaycanda 4 il müddətində 21 adda qəzet nəşr edilmişdir. Sovet ordusu üçün çıxan "Vətən yolunda" (Təbriz), "Qızıl əsgər" (Urmiya), "Azərbaycan", "Sitarə-ye Azərbaycan", "Xavəre-no", "Yumruq" və digər qəzetlərin səhifələrində yerli müəlliflərlə yanaşı Mirzə İbrahimov, Cəfər Xəndan, Qılman Musayev, Əvəz Sadıq, Süleyman Rüstəm və b. çıxış edirdilər.[2] 1943-cü ilin əvvəlində Cənubi Azərbaycanda "Demokratiya Ocağı" adlı təşkilat fəaliyyətə başlayır. Bu təşkilatın yaradıcıları Xəlil Azərbadqan, C.Əxkəri, M.Hilal Nasiri, N.Rizvan, H.Ruhi və b. olmuşlar.[3] Təşkilatın əsas hədəfi İran Konstitusiyasında əks olunmuş demokratik azadlıqların əməli olaraq həyata keçirilməsi, Azərbaycan əyalət əncümənlərinin bərpası və Azərbaycanın iqtisadi və mədəni inkişafına dövlətin diqqətinin artırılması idi. Qeyd olunan təşkilatlarla yanaşı İranda pozuculuq fəaliyyəti ilə məşğul olan təşkilatlar da vardı. Bu sahədə Tehranda irticaçı dairələrin təşəbbüsü ilə 1942-ci ildə yaradılmış "İrane bidar" ("Ayrılmış İran") və Təbrizdə yaradılmış "Hizb Tude Azərbaycan" təşkilatları daha fəal idilər. Bu təşkilatların casusları Azərbaycandakı siyasi təşkilat və cəmiyyətlərin içərisinə soxulur, onları daxildən parçalamağa cəhd göstərirdilər. "İrane bidar" ("Ayrılmış İran") təşkilatının "Fəryad" qəzeti yalan şayiələr yaymaqla məşğul olurdu. "Azərbaycan Cəmiyyəti", "Azərbaycan Zəhmətkeşlər Təşkilatı", "Demokratiya Ocağı" və digər milli ruhlu və rejimə qarşı mübarizə aparan təşkilatların fəaliyyətinə imkan verilmirdi.

Cənubi Azərbaycanda fəaliyyət göstərən mütərəqqi siyasi partiya və cəmiyyətlər Azərbaycan Demokratik Firqəsi yarananadək kütlələrin oyanmasında, ictimai və siyasi məsələlərə cəlb olunmasında səmərəli fəaliyyət göstərdilər. Müttəfiq qoşunlarının İrana daxil olmasından sonra İranda Şərq

---

[1] Həsənli, Cəmil. Güney Azərbaycanda Sovet-Amerika və İngiltərə qarşıdurması 1941-1946/ C.Həsənli. – Bakı, 2001. – s.99.

[2] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 28.

[3] Yenə orada, s.29

və Qərb tərəfdarları olan partiyalar yarandı. Sovet tərəfini müdafiə edən təşkilatlardan birincisi 1941-ci il sentyabrın 19-da yaradılmış İran Xalq Partiyası (Hizbe Tudeye İran) idi. Partiyanın yaranmasında "53-lər" və "Qəsre-Qacar" zindanından azad olmuş siyasi xadimlər önəmli rol oynamışdılar. Onların sırasında Süleyman Mirzə İsgəndəri, doktor Firidun Kəşavərz, Əli Əmirxizi və b. vardı. S.C.Pişəvəri, Tağı Şahin, Salamulla Cavid, Sadıq Padiqan, M.Çeşmazər, Mirzəli Şəbüstəri, Mirrəhim Vilai, Qüdrət Şəms və digər azərbaycanlı siyasi xadimlər ilk dövrlərində İXP-nın yaradılmasında və onun fəaliyyətinin fəal iştirak etmişdilər.[1]

Az müddət içərisində İXP-nın Azərbaycan təşkilatı nüfuzlu mərkəzlərdən birinə çevrildi. Partiyanın Təbriz təşkilatı daha mübariz idi. Bundan əndişələnən və Azərbaycandakı milli-azadlıq hərəkatını ləkələmək üçün xaricdən göstərişlər alan Sərtibzadənin adamları pozuculuq fəaliyyəti aparmaq üçün təşkilata üzv oldular. Sərtibzadə 1942-ci ilin əvvəlində "Partizan təşkilatı" adı altında Cənubi Azərbaycanın bir neçə bölgəsində (Qaradağ, Mərənd, Culfa və s.) dövlət əleyhinə silahlı qiyam törətmək niyyətində oldu.[2]

XIV çağırış Məclis seçkilərinə kampaniya Təbrizdə demokratik qüvvələrin üstünlüyü ilə keçdi. S.C.Pişəvəri Təbrizdə 16 min səs topladı. 1944-cü ilin fevralında işə başlayan XIV çağırış Məclisdə Təbriz əhalisi tərəfindən seçilmiş Pişəvərinin deputat mandatı müxtəlif bəhanələrlə rədd edildi. Bu proses Azərbaycanda milli oyanışa güclü təsir etdi. İran hakimiyyətinin Azərbaycana münasibəti və fars şovinizminin fəallaşması hərəkatı bir az da sürətləndirdi. 1941-1945-ci illərdə İranda qeyri-fars xalqların, o cümlədən Azərbaycan türklərinin rejim əleyhinə mübarizəsində milli kimlik və dil məsələləri önəmli yer tuturdu. Bu ərazidə yaşayan xalqlar ana dilində məktəb, mətbuat olmasını tələb edir, milli dillərin hakim təbəqə tərəfindən qəsdən və bilərəkdən sıxışdırılması ilə barışa bilmirdilər. Bununla yanaşı, "xarici məsləhətə qulaq asmaq" Güney Azərbaycan rəhbərliyinin ən böyük səhvlərindən biri idi. S.C.Pişəvəri və onun silahdaşları anladılar ki, hərəkatın müvəffəqiyyət qazanması üçün yeni tipli və demokratik məfkurəli bir siyasi təşkilata ehtiyac vardır. Bu düşüncə Azərbaycan Demokratik Firqəsinin yaranmasını sürətləndirdi. Yemlyanovun M.C.Bağırova verdiyi məlumatdan aydın olur ki, Cənubi Azərbaycanında gedən proseslər diqqətlə izlənilir, orada demokratik qüvvələrin birləşdirilməsi məqsədilə fəal siyasi iş aparılırdı. Bu məqsədə Azərbaycan Demokrat Partiyasının yaradılması üçün bir sıra nüfuzlu şəxslər Bakıya çağırıldı və yeni yaradılan partiyaya rəhbərlik S.C.Pişəvəriyə tapşırıldı.

---

[1] Yenə orada, – s. 35.

[2] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015, – s. 37.

Tarixi şəraitin yetişdiyini düşünən milli qüvvələr 1945-ci il sentyabrın 3-də (12 şəhrivər 1324-cü il) Azərbaycan Demokratik Firqəsinin yarandığını və "Azərbaycan Demokratik Firqəsinin müraciətnaməsi" adlı sənədi bəyan etdilər. 1945-ci ilin iyul ayında Cənubi Azərbaycan haqqında qəbul olunmuş gizli qərara əməli xarakter vermək üçün M.C.Bağırov Moskvadan qayıtdıqdan dərhal sonra İXPMK-nin üzvü, İran Məclisinin deputatı Əbdülsəməd Kambəxş, İXP-nın Təbriz Əyalət Komitəsinin sədri Sadıq Padeqan, yazıçı və publisist Hacı Mirzə Əli Şəbustəri və "Ajir" qəzetinin redaktoru Seyid Cəfər Pişəvərini gizli şəkildə Bakıya dəvət olundu. 1945-ci ilin avqust ayında Bakıda aparılan müzakirələr zamanı qərara alındı ki, yeni yaradılacaq ADP-na müvəqqəti olaraq, Pişəvəri rəhbərlik etsin və müvəqqəti olaraq İran Azərbaycanı demokratik hərəkatının mərkəzi Bakıya köçürülsün.[1]

1945-ci il oktyabrın 2-dən 4-dək Təbrizdə 23 həlledici və 4 məşvərətçi səs hüququna malik nümayəndənin iştirakı ilə Azərbaycan Demokrat Partiyasının birinci (təsis) qurultayı keçirildi. Qurultay partiyanın proqram və nizamnaməsini müzakirə etdi və partiyanın rəhbər orqanlarını seçdi. Partiyanın proqramında Milli Bankın, gənclərin və qadınlar təşkilatlarının yaradılması, kargüzarlığın Azərbaycan dilində aparılması zəruriliyi haqqında maddələr əksini tapdı.[2]

1945-ci il noyabr ayının ikinci yarısında xalq yığıncağı vasitəsilə Azərbaycan Milli Konqresinə 67 nümayəndə seçildi. Azərbaycan Milli Konqresi noyabrın 20-də Şiri-Xurşid teatrında öz işinə başladı Milli Konqres iştirakçıları tərəfindən Müəssislər Məclisi elan olundu, Milli heyət təsis edildi. Qurultayda 41 nəfərdən ibarət Mərkəzi komitə və 12 nəfərdən ibarət təftiş komissiyası seçildi. Mərkəzi Komitənin (Plenum) tərkibindən Rəyasət Heyəti (büro) seçildi. Rəyasət Heyətinə Pişəvəri Seyid Cəfər (sədr), Rəfii Nizam Dövlə (müavin), Padeqan Sadiq (müavin) Şəbüstəri Hacı Mirzə Əli, Salamulla Cavid, Zərifi Həsən, Maşınçı Əli, Fərşçi Qulam Hüseyn, Səfər Ədib üzv, Birənq Həsən və Cövdət Həsən Rəyasət Heyəti (büro) üzvlüyünə namizəd seçildilər.[3] Nəhayət, 1945-ci ilin dekabr ayının 12-də (İran təqvimi ilə 1324-cü ilin Azər ayının 21-də) səhər saat 10-da Təbrizin "Didibani" kinoteatrının binasında Azərbaycan Milli Məclisinin ilk sessiyası açıldı. Dekabr ayının 12-də keçirilən axşam iclasında Azərbaycan milli hökuməti təşkil edildi. Pişəvərinin təqdimatı üzrə hökumət kabineti aşağıdakı tərkibdə təşkil edildi: Seyid Cəfər Pişəvəri – Baş nazir, Salamulla Cavid – Daxili

---

[1] Гасанлы, Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва, 2006. – с. 321.

[2] Çeşmazər, M.M. Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyəti / M.Çeşmazər. – Bakı, 1986. – s.66.

[3] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – 320 s.135-136.

İşlər naziri, Qulamrza İlhami – Maliyyə naziri, Rza Rəsuli –İqtisadiyyat və ticarət naziri, Cəfər Kavian – Xalq orduları naziri, Həsən Orəngi – Səhiyyə naziri, Mirzə Rəbi Kəbiri – Poçt və teleqraf naziri, Yusif Əzima – Ədliyyə naziri, Cavid Məhtaş – Kənd təsərrüfatı naziri, Məhəmməd Biriya – Maarif naziri. Qeyd olunun tərkib Məclis tərəfindən təsdiqləndikdən sonra Zeynalabdin Qiyami Ali Məhkəmənin rəisi, Firudun İbrahimi isə Baş prokuror təyin olunmuşlar.[1] Beləliklə, dekabr ayının 12-də milli hökumət fəaliyyətə başladı və az müddət ərzində, dekabrın 20-də bütün Azərbaycan əraziləri ADP-nin nəzarətinə keçdi. Bununla da 1945-ci ilin sentyabr ayında Sovet İttifaqının siyasi dəstəyi və Azərbaycan SSR-in yaxından iştirakı ilə genişlənən milli-azadlıq hərəkatının birinci mərhələsi uğurla başa çatdı. 21 Azər hərəkatı təkcə Azərbaycan xalqının milli mübarizəsi deyildi. Bu hərəkat eyni zamanda bütün İranda baş verən ziddiyyətlərin məhsulu olub, İranda inqilabi mübarizəyə təkan verməklə bərabər, Yaxın və Orta Şərq xalqlarının mübarizəsinə təsir göstərmişdir.

S.C.Pişəvəri 1941-1945-ci illərdə Cənubi Azərbaycanda demokratik hərəkatın liderlərindən və Azərbaycan xalqının hüquqlarının müdafiəçilərindən biri idi. Onun rəhbərlik etdiyi Milli hökumət 1946-cı il yanvarın 6-da "Dil haqqında" qərar verdi. Azərbaycan dili Azərbaycanda dövlət dili elan olundu.[2] Mədəniyyət sahəsində də bir sıra tədbirlər həyata keçirildi. Ümumilikdə, həyata keçirilən tədbirlər İranın ərazi bütövlüyünə zidd deyildi. Milli Hökumətin təşkilindən sonrakı bir həftə ərzində fədai dəstələri Qaradağ mahalı, Ərdəbil, Xalxal, Kəleybər və Miandab rayon və şəhərləri ətraf kəndləri ilə birlikdə şahpərəst qüvvələrdən azad etdilər. "Aparılan əməliyyatlar zamanı İran ordusunun 5.983 nəfər əsgər və zabiti tərksilah edilmiş, onlardan 4 top, 1.000 mərmi, 205 pulemyot, 3.577 tüfəng, 22 tapança, 6 tank, 2 minomyot, 300 mina, 470 min patron alınmışdır. Təkcə Rizaiyyə və Ərdəbil jandarm polklarında 2.800 nəfərə yaxın jandarm tərksilah edilmiş, onlara məxsus 565 tüfəng, 31 min patron fədailər tərəfindən müsadirə edilmişdir".[3] S.C.Pişəvərinin rəhbərliyi ilə təşkil edilən Milli Hökumət bir il yaşadı və 1946-cı il dekabrın 12-də süqut etdi. Dekabrın 20-də Cənubi Azərbaycanda şah rejimi bərpa olundu. Bakıya mühacirət etməyə məcbur olmuş S.C.Pişəvəri, S.Padeqan, R.Qazi M.C.Bağırovun ətrafına toplaşıb tədbir görməsini xahiş etdilər. Adıgözəl Məmmədov yazır ki, M.C.Bağırov onların yanında Stalinə zəng vuraraq baş verən hadisələr haqqında məlumat verdi, köməklik göstərilməsini xahiş etdi. Lakin SSRİ rəhbərliyi İranın şimalındakı neft-qaz yataqlarının ələ keçirmək niyyətində

[1] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 78-79.

[2] Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. –s.98.

[3] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 79.

olduğundan Cənubi Azərbaycan Milli hökumətinin taleyi Stalini narahat etmirdi. Müharibədən sonra da Stalin öz fikirlərini reallaşdıra bilmədi, amerikanlar və ingilislər Stalini qoşunları İrandan çıxarmağa məcbur etdilər. Azərbaycan K(b)P MK-nın birinci katibi İrandan qoşunların çıxarılmamasına təkid etsə də, Stalini qərarından döndərə bilmədi.

Cənubi Azərbaycandakı milli-demokratik hərəkata SSRİ-nin yardımı və istiqamətləndirilməsi məsələsində bir fakt nəzərdən qaçırılmamalıdır ki, istər 21 Azər, istərsə də ondan əvvəlki hadisələrdə sovetlər tərəfindən göstərilən köməkliyin əsas vasitəçisi və iştirakçısı Şimali Azərbaycanı, onun sovet ordusu sıralarında İrana gəlmiş ziyalıları – Əziz Əliyev, Mirzə İbrahimov, Əvəz Sadıq, Cəfər Xəndan, Süleyman Rüstəm, Qulam Məmmədli, Qılman İlkin (Musayev) və b) olmuşlar. Adları sadalanan ziyalılar sovetlər birliyinin sıravi vətəndaşları idilər və qardaşlarını çətin gündə darda qoymağa mənəvi haqları yox idi. Bir nüans da qeyd edilməlidir ki, Cənubdakı hərəkatı istiqamətləndirən Azərbaycan ziyalılarının özləri də Stalin-Mikoyan qrupunun hazırladığı gizli xəyanətdən və planlardan xəbərsiz idilər. Məsələyə aydınlıq gətirən Mir Həsən Seyidov yazır ki, gecə saat 2-də Stalinin köməkçisi Poskrebşev zəng çaldı: "Haradadır Bağırov. Bir saatdır mən onu tapa bilmirəm. Xahiş edirəm, onu tapın, qoy təcili Stalinə zəng vursun" – deyərək telefonun dəstəyini asdı. Mən həmin dəqiqə Zuğulbaya zəng edib Bağırovla birləşdim, olanlar haqqında ona danışdım və xahiş etdim ki, təcili şəhərə gəlsin. Yarım saatdan sonra onun maşını birinci qapı qarşısında idi. O xeyli həyəcanlanmışdı. Bağırov dəstəyi qaldırdı və xahiş etdi ki, Kremlin kommutatoru ilə birləşdirsinlər. Bir saniyə sonra Stalin cavab verdi və giriş sözsüz dedi: "Biz İrandan qoşunları çıxarmağa məcburuq. Siz təkliflərinizi hazırlayın və verin, bununla əlaqədar nə etmək lazımdır". Bağırov yalvarıcı səslə Stalindən xahiş etdi ki, "bunu etməsin, indi-indi işlər orada yaxşı gedir, bizim bütün işimiz puça çıxar, bu hərəkat məhv olar. Bu xalqın tarixində böyük işdir". Ancaq Stalin öz dediyində təkid etdi. Bağırov daha 2 dəfə təkidlə xahiş etdi ki, qoşunları İrandan çıxarmasın. 20 dəqiqədən çox davam edən bu dialoqdan sonra Stalin dedi: "Bu əmrdir, onu yerinə yetirmək lazımdır. Biz yeni müharibə başlaya bilmərik".[1] Baş verənləri təhlil edən Stalin ordunun İrandan çıxarılmasına sərəncam verdi. Bakı hərbi dairəsinin komandanı İ.Maslennikov və 4-cü ordunun komandanı Luçinskinin adına və surəti Bağırova göndərilən 2167/68 №-li şifroqramda deyilirdi: "...1. 4-cü ordunun qoşunlarının, müəssisə və anbarlarının Bakı Hərbi Dairəsi ərazisində daim dislokasiya yeri tutması üçün İrandan çıxarılmasına başlayın; 2. Qoşunların çıxarılmasına martın 24-dən başlamaq və bu ilin 9 aprel – 10 may tarixdən gec olmayaraq, tam sona çat-

[1] Султанов, Чапай Али оглы. Политические и экономические этюды по Южному Кавказу: хроника с 1850 по 2010 гг. / Ч.Султанов. – Баку, 2010. – с.147.

dırmaq lazımdır; Kərəc qarnizonu bu gün 24 mart saat 20-dən gec olmayaraq çıxarılmalıdır; 68-ci Sari diviziyası qarnizonunu sonradan dənizlə daşımaq üçün Bəndərşah rayonunda toplayın. Diviziyanın avtonəqliyyatını Rəştdən keçməklə öz hərəkəti ilə göndərin; Qəzvindən 5 aprel tarixindən gec olmayaraq, çıxmaq lazımdır; I qvardiya mexanikləşdirilmiş diviziyası (Russiyanov) ən axırda çıxmalıdır; 3. Qoşunların çıxarılmasını mütəşəkkil şəkildə, sakit, səs-küysüz və xüsusi tələsik olmadan həyata keçirin; Komandirlər və siyasi orqanlar çıxıb gedən sovet qoşunlarının yerli əhali tərəfindən yola salınmasını təşkil etsinlər; Mövcud ərzaq ehtiyatlarının bir hissəsi yerli əhaliyə paylanılsın; Qoşunların çıxarılma planı və qaydasını bu ilin 25 mart tarixidə Baş Qərargaha çatdırın; Qoşunların çıxarılmasının gedişi haqqında hər gün 24.00-da məruzə edin; Dənizdə daşınma sifarişini martın 26-dək Baş Qərargaha təqdim edin".[1]

Hadisələrin gedişi Azərbaycan rəhbərliyini narahat etdiyindən İran Azərbaycanın Demokrat Partiyasının işi, Təbriz radiosunun verilişləri və qəzetlərin materialları daim izlənilirdi. SSRİ-nin konsulluğu tərəfindən Stalinə daxil olan materiallarda Pişəvərinin çıxış və bəyanatlarında mənfi ifadələr olduğu bildirilirdi və nəticədə Pişəvəriyə xəbərdarlıq edilməsi və ifadələrinə görə izahat verməsi tələb olundu. Təbii ki, Pişəvəri haqqında mənfi fikirlərin formalaşmasında SSRİ-nin İrandakı konsulluğunun işçilərinin fars dilini bilməməsi və erməni amili əsas rol oynayırdı. Digər tərəfdən, ABŞ və İngiltərənin İran Azərbaycanında apardığı təxribat xarakterli əməllər, Məclisə seçkilər ərəfəsində irticaçı qrup və təşkilatların dəstəklənməsi "öz səmərəsini vermişdir". Bu səbəbdən də, məlumatları toplayan Azərbaycan rəhbərliyi Stalinə göndərdiyi məlumatlarda Pişəvərinin bəyanatlarında mərkəzi hökumətin ünvanına kəskin ifadələr işlədilmədiyini bildirirdi. Bu barədə M.C.Bağırov İ.Maslennikova da məktub göndərərək S.C.Pişəvəriyə qarşı bu cür münasibətin məntiqə sığışmadığını əsaslandırmışdı. M.C.Bağırov Stalinlə Milli hökumət, Cənubi Azərbaycanda neftin olması, dini məsələlər, əlifba problemi barədə fikir mübadiləsi apardığını, onun arqumentlərinin Stalini qane etdiyini Üzeyir Hacıbəyova da danışmışdı. Təbii ki, baş verən hadisələr, SSRİ-nin Cənubi Azərbaycandakı milli hərəkata münasibətinin dəyişməsi İranın mürtəce dairələri tərəfindən də izlənilirdi. Tehran hökuməti Milli hökumətlə danışıqlar aparsa da, gözdən pərdə asmaq üçün Milli hökumətin ardıcıl, güzəştli mövqeyindən çəkinərək 1945-ci ilin iyunun 3-də Azərbaycan Demokratik qüvvələri ilə müqavilə bağladı və buradakı demokratik dəyişiklikləri İranın daxilində yerli özünüidarə hüququnda tanındı. Azərbaycan valisinin Azərbaycan Əyalət əncüməninin təklifi üzrə İran hökuməti tərəfindən təyin edilməsi üçün razılığa gəlindi. Lakin sonralar

[1] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.170-173.

məlum oldu ki, bütün bunlar vaxt qazanmağa, demokratik hərəkatı boğmağa hazırlıq idi.

İran irticası Milli hökuməti boğmaq üçün 1946-cı ilin payızında hazırladığı planları reallaşdırmağa başladı. İran hökuməti ilə ABŞ arasındakı müqaviləyə əsasən silah alındı. 1946-cı il iyulun 29-da Kavaş İran Demokratik Partiyasının yarandığı elan edildi. İrticaçı qüvvələr birləşərək terrora başladılar. Oktyabrın ortalarından başlayaraq İran hökuməti muxtariyyətin ləğv edilməyəcəyi təqdirində fars əyalətinə də muxtariyyət verilməsini tələb edən və ölkənin cənubunda yaşayan qaşqay tayfalarının etiraz çıxışlarına arxalanaraq Cənubi Azərbaycana hücuma keçdi. Noyabrın 22-də hökumət qoşunları Cənubi Azərbaycana daxil oldu. 50 minlik qoşun, 55 tank, 50 təyyarə, 174 top, 3 minə qədər ağır pulemyot və digər silahlarla silahlanmış qoşun hücuma keçdi. Hərbi əməliyyatlara Pəhləvi və ABŞ-ın İrandakı hərbi komissiyası rəhbərlik edirdi. Azərbaycan istiqlalçılarının isə 18 min qoşunu var idi. Dekabrın 13-də qoşun Təbrizə daxil oldu. Terror başlandı. İdarəetmə orqanları dağıdıldı. Qısa müddətdə 25-30 min nəfər öldü, minlərlə adam zindana salındı. 300 min adam sürgün olundu.[1] Milli hökumətin pis silahlanması, hökumət rəhbərliyində fikir ayrılıqlarının olması, əyalət əncümənlərində və ostanlarda şah qoşunlarına müqavimət göstərilməməsi və bu işdə Azərbaycan Demokrat Partiyasının qətiyyətsizliyi, rəhbərliyin ölkəni tərk etməsi və digər səbəblər hərəkatın məğlubiyyətinə səbəb oldu.

S.C.Pişəvərinin mövqeyinə gəldikdə isə birmənalı şəkildə bildirilməlidir ki, o, "məsləhət və görüşləri" qəbul etsə də, öz düşüncələri ilə hərəkət etmiş, bu sovet rəhbərliyinə bəlli olduqdan sonra təzyiq və təqiblərə məruz qalmışdır. Bunu iranlı müəlliflər də kitab və məqalələrində etiraf etmişlər. Bir sözlə, Güney Azərbaycandakı sovet faktoru həlledici yox, təsiredici olmuşdur. Amma 1941-1946-cı illər Güney Azərbaycandakı xalq hərəkatında, xüsusilə "21 Azər" inqilabında və Milli Hökumətin fəaliyyətində sovet faktoru ilə əlaqəli olaylar və həqiqətlər də inkar olunmamalıdır. Cənubi Azərbaycanda baş vermiş xalq hərəkatı qüsursuz və əyintilərdən xali deyildir. Bu qüsur və xətalar dövrün tarixi şəraiti, zaman, məkan və digər amillərlə bağlı idi. Lakin heç bir qüsur və ya xəta hərəkatın milli zəmində olmaması anlamına gəlməməli və hərəkatın xəlqiliyinə kölgə salmamalıdır.

S.C.Pişəvəri Qəvaməsəltənə hökuməti ilə danışıqlar aparmağın mənasız olduğunu bildirirdi. Bu onu göstərir ki, Azərbaycan Milli Hökumətinin rəhbərləri ilə sovet emissarları arasında İran hökumətinə münasibətdə fikir ayrılığı olmuş, sovetləri isə Azərbaycanın birləşməsi deyil, neft maraqlandırmışdır. Moskva Azərbaycan Milli Hökumətinə təsir və təzyiqi təkcə İranda olan səfirlik, konsuluq və xüsusi komissarları ilə deyil, Bakı vasitəsi ilə də aparırdı. 1946-cı ilin martında S.C.Pişəvəriyə göndərdiyi ismarıcda

[1] Əmrahov, M.İ. İkinci dünya müharibəsi 1939-1945 / M.İ.Əmrahov. – Bakı, 2010. – s.41.

Tehran qarşısında möhkəm dayanmağı tələb edən M.C.Bağırov aprelin əvvəllərində Pişəvəriyə İran hökuməti nümayəndələri ilə bir masa arxasında oturmağı, Qəvaməssəltənə ilə "dil tapmağı" tələb edirdi.[1] S.C.Pişəvəri bunların oyun olduğunu başa düşürdü və bilirdi ki, Stalin verdiyi vədin üstündə dayanmayacaqdır. Ə.Rəhimli Həmid Mollazadənin 1944-cü ildə Tehranda nəşr olunan "Sər be mehr" kitabından iqtibas gətirərək xatırladır ki, S.C.Pişəvəri Culfada M.C.Bağırovla görüşündə bildirmişdi ki, "onlar (ruslar) meymun xislətlidirlər, lazım gəldikdə öz balasını da ayağı altına salır. Onlar bizi meydanda tək qoyub gedə də bilərlər".[2] S.C.Pişəvərinin fikirlərinin doğruluğu Stalinin ona ünvanladığı 8 may 1946-cı il tarixli məktubda əksini tapmışdır. İ.Stalin Azərbaycan Demokrat Firqəsinin lideri Seyid Cəfər Pişəvəriyə şəxsi məktubunda yazırdı:

"**Pişəvəri yoldaşa**.

Mənə elə gəlir ki, Siz İran daxilində, həm də beynəlxalq nöqteyinəzərdən yaranmış vəziyyəti düzgün qiymətləndirmirsiniz.

Birincisi, *Siz hazırda Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq istəyirsiniz. Lakin indiki şərait belə bir proqramın həyata keçirilməsi imkanını istisna edir. Lenin praktiki tələblər kimi, qeyd edirəm, praktiki tələblər kimi əsas inqilabi tələbləri yalnız xarici düşmənlə uğursuz müharibənin dərinləşdirildiyi ölkə daxilində, güclü inqilabi böhranın olduğu bir şəraitdə irəli sürmüşdü. 1905-ci ildə Yaponiya ilə uğursuz müharibə zamanı belə olmuşdu. 1917-ci ildə Almaniya ilə uğursuz müharibə zamanı belə olmuşdu. Siz indiki halda Lenini təqlid etmək istəyirsiniz. Bu çox yaxşı və tərifə layiqdir. Ancaq İranda vəziyyət hazırda tamamilə başqadır. İranda hazırda dərin inqilabi böhran yoxdur. İranda fəhlələr azsaylıdır, onlar pis təşkil olunmuşlar. İran kəndliləri hələlik ciddi fəallıq göstərmirlər. İran hazırda xarici düşmənlə müharibə aparmır. Belə bir müharibədə məğlubiyyət isə İranın irticaçı dairələrini zəiflədə bilərdi. Deməli, İranda belə bir şərait yoxdur ki, Leninin 1905-1917-ci illərdəki taktikasını yürütməyə imkan versin.*

İkincisi, *əlbəttə, Siz Sovet qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi tələbləri uğrunda mübarizə işində uğur qazanmağa ümid ola bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, sovet qoşunlarının İranda olması Avropa və Asiyada bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. İngilislər və amerikalılar bizə deyirlər ki, əgər Sovet qoşunları İranda qala bilirsə, onda nəyə görə ingilis qoşunları Misir, Suriya, İndoneziya və*

---

[1] Bax:Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) / C.Həsənli. – Bakı: Yazıçı, – 2015. – s.407-457.

[2] Rəhimli, Ə. (Bije). 21Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 126.

Yunanıstanda, həmçinin Amerika qoşunları Çin, İslandiya və Danimarkada qalmasın. Buna görə də biz İran və Çindən qoşunları çıxarmaq qərarına gəlmişik ki, ingilislərin və amerikalıların əlindən bu silahı qoparıb alaq, müstəmləkələrdə azadlıq hərəkatını genişləndirmək və bununla da öz xilaskarlıq siyasətimizi daha əsaslı və faydalı edək. Siz bir inqilabçı kimi, əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik.

Üçüncüsü, *deyilənləri nəzərə alaraq, İrandakı vəziyyətlə bağlı aşağıdakı nəticələrə gəlmək olar: İranda inqilabi böhran yoxdur, İranda xarici düşmənlərlə müharibə vəziyyəti yoxdur, deməli, irticanı zəiflədə və böhranı kəskinləşdirə bilən müharibədə uğursuzluq da yoxdur. Nə qədər ki, sovet qoşunları İranda yerləşib, Siz Azərbaycanda mübarizəni genişləndirmək və daha irəli gedən tələblərə geniş demokratik hərəkatı təşkil etmək imkanına maliksiniz. Ancaq bizim qoşunlar getməlidirlər və İrandan çıxıb getdilər. Biz artıq İranda nəyə malikik? Biz İranda Qəvam hökumətinin İranın daha irticaçı ünsürlərini təmsil edən anqlofil dairələrlə münaqişəsinə malikik. Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, o, indi özünümüdafiə mənafeyinə və öz hökumətinin müdafiəsi naminə bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktikamız necə olmalıdır ? Mən fikirləşirəm ki, Qəvamdan güzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, anqlofilləri təcrid etmək və bununla da İranın daha da demokratikləşməsi üçün müəyyən bazis yaratmalıyıq. Bizim sizə bütün məsləhətlərimiz məhz belə bir vəziyyətdən irəli gəlir. Əlbəttə, başqa taktika da qəbul etmək olar: hər şeyə tüpürmək, Qəvamla əlaqələri kəsmək və bununla da anqlofil irticaçıların qələbəsini təmin etmək olar. Amma bu, taktika deyil, axmaqlıq olardı. Bu, mahiyyətcə Azərbaycan xalqının işinə və İran demokratiyasına xəyanət olardı.*

Dördüncüsü, *bizə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bu bizdə təəccüb doğurur. Əslində isə nə baş vermişdir? Biz burada hər bir inqilabçıya məlum olan adi inqilabi fənd tətbiq etmişik. İrandakı şərait kimi belə bir vəziyyətdə özümüz üçün hərəkatın məlum minimum tələbini əldə etməyi təmin etməkdən ötrü hərəkatı irəli qaçırmaq, minimum tələblərdən irəli getmək və hökumət üçün təhlükə yaratmaq, hökumət tərəfindən ediləcək güzəştlər üçün imkan yaratmaq lazımdır. Daha irəli qaçmadan, Siz İranın indiki vəziyyətində hazırda Qəvam hökumətinin getməyə vadar olduğu tələblərə nail olmaq imkanına malik ola bilməzdiniz. İnqilabi hərəkatların qanunu belədir. Sizin üçün hər hansı bir rüsvayçılıqdan söz ola bilməz. Çox qəribədir ki, əgər Siz fikirləşirsiniz ki, biz Sizin rüsvayçılığınıza yol verə bildik. Əksinə, əgər Siz özünüzü ağıllı aparsanız və bizim mənəvi köməyimiz sayəsində əsasən Azərbaycanın indiki faktiki vəziyyətinin leqallaşdırdığı tələblərə nail olsanız,*

o vaxt Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi azərbaycanlılar da, İran da xeyir-dua verər.

İ.Stalin
8 may 1946-cı il".[1]

Məktubdan aydın olur ki, Stalin Pişəvərini həm İran daxilində, həm də beynəlxalq aləmdə vəziyyəti düzgün qiymətləndirməməkdə ittiham edir, "Azərbaycanın bütün inqilabi tələblərinə nail olmaq" istəyini ona günah sayır, onu İranda dərin inqilabi böhranın olmamasına, fəhlələrin sayca azlığına, kəndlilərin qeyri-fəal olduğuna və beynəlxalq vəziyyətin İranın xeyrinə olmamasına inandırmağa çalışır.

Stalinin məktubundakı bir məqam diqqəti cəlb edir. Stalin yazır: "Bzə məlum olduğuna görə, Siz demişsiniz ki, biz əvvəlcə Sizi göylərə qaldırmışıq, sonra isə uçuruma yuvarlamışıq və Sizi rüsvay etmişik" ... "Sizin üçün hər hansı rüsvayçılıqdan söz ola bilməz...Əgər Siz özünüzü ağıllı aparsanız...bizim mənəvi köməkliyimiz sayəsində...Sizə Orta Şərqdə mütərəqqi demokratik hərəkatın pioneri kimi, azərbaycanlılar da, İran da xeyir dua verər".[2] Şair Əli Tüdə S.C.Pişəvəri haqqında xatirələrində yazır ki, M.C.Bağırov Pişəvəri ilə görüşdə ona "Bizə yaxşı arxalana bilmədiyinizə görə hakimiyyəti əldən verdiniz" – deyə etiraf edir. Pişəvəri isə "Biz İran xalqına arxalanmalıydıq. Bu xalqların içərisində şah səltənətinin barışmaz düşməni olan farslar da, kürdlər də, türkmənlər də, giləklər də, talışlar da, ərəblər də, aysorlar da var idi. Biz sizdən kömək gözləmirdik, siz bizim işimizə qarışmasaydınız" – cavabını verir.

Araşdırmalar və Pişəvəri ilə bir vaxtlarda işləmiş və ya əlaqə saxlamış şəxslərin xatirələrindən məlum olur ki, sovet kəşfiyyatı S.C.Pişəvərini nəzarətdə saxlayır, evdə və iş yerində danışıqları gizli qeydə alınırdı. 1946-cı il aprelin 4-də Tehranda SSRİ il İran arasında birgə Sovet-İran neft şirkətinin yaradılması haqqında saziş imzalandı və müqavilə bağlandı. Müqavilə imzalandıqdan sonra S.C.Pişəvəriyə bildirdilər ki, o daha Tehran hökumətinə qarşı çıxış etməsin. Lakin Kremlə gələn məlumatlarda Pişəvərinin bu göstərişi yerinə yetirmədiyi bildirilirdi. Sovet qoşunlarının isə İrandan çıxarılması başa çatmaq üzrə idi. Azərbaycan rəhbərliyi Cənubi Azərbaycanda və Şimali Kürdüstanda baş verən hadisələri Moskvanın nəzarətində saxlamaq üçün xüsusi xidmət orqanlarının köməyi ilə İran Kürdüstanının lideri

[1] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s. 192-194.

[2] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli–demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s.194.

Qazi Məhəmmədin ABŞ konsulu vəzifəsinin müvəqqəti icra edən ilə söhbətinin yazısını tapıb məktub şəklində Stalinə göndərirlər.[1]

Nəhayət 1946-cı il dekabrın 11-də (20 Azər 1325-ci il) S.C.Pişəvəri axşam Təbrizdəki Sovet nümayəndələrinin təzyiqi və nəzarəti ilə Təbrizi tərk etməyə məcbur edildi, rus silahlı qüvvələri vasitəsilə Bakıya aparıldı. Ə.Rəhimli H.Cahanşahlının xatirələrindən nümunə gətirərək yazır ki, "Pişəvəri firqə rəhbərliyini M.Beriyaya verdikdən sonra onu Təbrizdəki sovet konsulluğunun nümayəndəsi KQB polkovniki Quliyev konsulluğa çağırdı. Burada olan söhbətdə Pişəvəri çox hirsli vəziyyətdə sözlərini Sovet nümayəndəsinə dedi. Quliyev Pişəvərinin görüş üçün təcili Culfaya dəvət olunduğunu bildirdi. Axşam saat 8-də (20 Azər) Gözəlov şəhər kənarında, Təbriz-Culfa yolu üzərində Pişəvərini gözləyəcəyini ona bildirdi. Pişəvəri əvvəl Culfaya, sonra isə Naxçıvana aparıldı".[2] Onda sual ortaya çıxır. Doğrudanmı, S.C.Pişəvəri Sovet hökuməti üçün təhlükə törədirdi. Əlbəttə yox, bizə belə gəlir ki, Azərbaycanın birləşməsini istəməyən rus-daşnak qruplaşması Stalini bu fikrindən döndərməyə nail oldu. Nəticədə Pişəvəri Azərbaycana gətirildi və ermənilərin əli ilə dünyasını dəyişdi. T.Qurban hadisəni belə izah edir: "1947-ci ilin yay günlərində Mir Cəfər Pişəvəri Gəncədə idi. O vaxtlar Kirovabad neft kəşfiyyatı trestinin rəisi işləyən Nəzər Heydərovun qonağı idi. Tək deyildi. Qonaqlar arasında DTN katibliyinin rəisi, SSRİ-nin Təbrizdəki konsulunun müavini işlədiyi illərdən Pişəvərinin tanıdığı Nuru Quliyev, general Qulam Yəhya da vardı. Məclis gecədən keçənədək davam etdi. Əslən Şəkidən olan Nuru Quliyev birdən qonaqlara belə bir təklif etdi: gəlin buradan elə bu saat Şəkiyə yollanaq, səhəri orada açaq. Bu təkliflə məclisdəkilərin hamısı razılaşdı. Pişəvəri də qonaq kimi etiraz etmədi. Qonaqlar general Qulam Yəhyanın "Hudzon" markalı avtomaşınında yay gecəsinin sakitliyində Şəkiyə tərəf irəliləməkdə idilər. "Hudzon"un sürücüsü Karnik Melixyan idi.

Karnik Melixyanın mənşəyi DTN yaxşı məlum idi. Atası İranda "Daşnaksutyun" partiyasının lideri imiş. Arvadı vaxtilə Britaniyanın İrandakı səfirliyində işləmiş Karnik Mexliyanın adına Azərbaycan SSR DTN-nin şöbəsində şəxsi vərəqə açılıbmış".[3] Səfərin gedişi və Pişəvərinin taleyi M.C.Bağırovun məhkəməsinin gedişində 1944-1949-cu illərdə respublika DTN Yevlax rayon şöbəsinin müdiri vəzifəsində işləmiş Lətif Salayevin şahid ifadələrində üzə çıxmışdı.[4]

---

[1] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.157-159.

[2] Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol.Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s.162.

[3] Teyyub, Q. Düşmənlərindən güclü şəxsiyyət / Q.Teyyub. – Bakı, 2006. – s.56-57.

[4] Гасанлы, Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва, 2006. – с.482.

K.Mexliyan Gəncə-Yevlax yolunun 14 kilometrliyində maşını qəzaya uğradır. Axtarış zamanı ondan 10.000 manat pul və "Valter" tapançası tapılır. Sürücü hiyləyə əl ataraq qəzanın törədilməsində günahı olmadığını, guya maşını gecə vaxtı sürdüyündən onu yuxu tutduğunu söyləyir. Qəza nəticəsində maşının sükanı iki hissəyə parçalansa da, Mexliyan heç yara almamış, onun yanında əyləşən Pişəvərinin isə qabırğası əzilmiş, ayağı sınmış, başından yaralanmışdı. 1947-ci il iyul ayının 11-də Pişəvəri Yevlax rayon Xəstəxanasına gətirilir. G.C.Pişəvəri həkimlərdən xahiş edir ki, Bakıdan həkim-cərrah olan qardaşını gətirsinlər. Lakin əvəzində Stepanakertdən cərrah Əsriyan gəlir. Yalnız ertəsi gün, iyulun 12-də Bakıdan həkimlər gəlir, artıq "Əsriyanın fədakarlığı sahəsində" Pişəvəri cərrahiyyə əməliyyatından sağ çıxmamışdı. Tarix elmləri doktoru Şövkət Tağıyeva "Əbədi dərs" məqaləsində yazırdı ki, "...Pişəvərinin dikbaşlığından incik və narazı olan ruslar...onu öldürməyi qərara aldılar, qəzadan sonra xəstəxanada iynə vurub öldürdülər". Moskva növbəti dəfə milli siyasətdə Azərbaycana olan münasibətinə qətllə cavab verdi. Qətl ermənilərin əli ilə törədildi.

Azərbaycanla bağladığı müqaviləni ayaqlar alına atan Məhəmmədrza şah, Qəvaməssəltənə güruhu Azərbaycandakı demokratik hərəkatı qan içində boğmaqla kifayətlənmədi. Hərəkatın süqutundan sonra 25 mindən çox insan məhv edildi-güllələndi, dar ağacına çəkildi, işgəncələrlə qətlə yetirildi.[1] Təbriz universitetinin, filarmoniyanın, milli teatrın, kitabxana və klubların qapısı qıfıllandı. Ana dilində tədris yenidən yasaq edildi, Azərbaycan dilindəki dərsliklərə, kitablara od vurulub yandırıldı. Səttar xanın, Bağır xanın heykəlləri dağıdıldı, onların adı küçə, xiyaban, elm və mədəniyyət ocaqlarından silindi. Azərbaycanlılara göz dağı verib onları həmişəlik mübarizədən çəkindirmək üçün say-seçmə oğulları: Firidun İbrahimi, M.Kəbiri, M.Azadvətən, Ə.Əzimi, Ə.Fitrət, Q.Sübhi, Q.Cavidan, M.Ələm, Ə.Qəhrəmani, R.Yekani, Vəli Gənceyemehr və digər xadimlər, fədai başçıları, azadlıq mücahidləri faciəli şəkildə qətlə yetirildilər.[2] "Azərbaycanda muxtariyyət uğrunda hərəkatda heç bir pis şey yoxdur və gərək tanınsın" – deyən Stalin sözünün üstündə durmadı.[3] Ortaq bir neft şirkəti yaratmaq naminə Azərbaycan xalqının birləşmək tarixi şansını məhv etmək bağışlanılmazdı. Neft Bakıda kifayət qədər vardır və onun istehsalını daha da artırmaq mümkün idi.

---

[1] Tağıyeva, Ş. Güney Azərbaycan (Məlumat kitabı) / Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. – Bakı, 2000. – s.239-246.

[2] Rəhimli, Ə. (Bije). 21Azərə gedən yol.Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı, 2015. – s.170.

[3] Həsənov, H. Cənubi Azərbaycanda milli demokratik hərəkat (1941-1946-cı illər) / H.Həsənov. – Bakı, 2004. – s. 182.

XVIII FƏSİL

LİDERLƏRİN SİYASİ PORTRETİ

Müharibə illərində hərbi qüvvələrə rəhbərlikdə **Stalin və Hitler** əsas yeri tuturdular. Hər ikisinin hərbi təhsili yox idi. Onlar silahlı mübarizədə böyük təcrübə toplamışdılar. Heyrətamiz yaddaşları, böyük iş qabiliyyətləri var idi. Dəmir intizamın tərəfdarı olub ona ciddi əməl edirdilər, təşəbbüskar idilər. Bu səbəbdən də, onlar vəziyyəti yaxşı başa düşür və qiymətləndirirdilər.

Adolf Hitler

Hitler Adolf (Şiklqruber) (1889-1945) Almaniyanın nasist partiyasının və dövlətinin başçısı, 1889-cu ildə Avstriya ilə sərhəddə yerləşən Lintse şəhərində anadan olan Adolf Hitler 16 yaşında məktəbi tərk edərək 1907-1908-ci illərdə Vyanadakı Təsviri İncəsənət Akademiyasına daxil olmağa cəhd etsə də, uğursuzluğa düçar olmuşdu. Bir müddət – 5 il tənha yaşayan Hitler 1913-cü ildə Avstriya ordusunda xidmətdən boyun qaçırmaq üçün Münhenə getmiş, 1914-cü ildə "həddən artıq zəif olduğuna görə" orduya yararsız hesab edilsə də, 1914-cü ildə Almaniya Rusiya ilə müharibəyə başlayanda könüllü orduya yazılır, piyada alayında xidmət edir, igidliyinə görə iki dəfə birinci dərəcəli "Dəmir xaç"la təltif edilir.

Hitler 1918-ci ildə Bavariya Sovet Qırmızı ordusunun tərkibində olan ikinci korpusda yefreytor rütbəsi alır. Millətçi və antisemit "nəzəriyyə"-lərinin qatı tərəfdarı olması ilə fərqlənir. 1919-cu ilin payızında A.Dreksler-in təşkil etdiyi "Alman fəhlə partiyasına" (sonradan "Alman nasional-sosialist fəhlə ittifaqı") daxil olur, 1920-ci ildən "Alman nasional-sosialist fəhlə partiyası"nın liderinə çevrilir. 1923-cü ildə "pivəxana qiyamı" adlandırılan dövlət çevrilişi cəhdinə görə həbs olunan Hitler həbsxanada tanış olduğu Rudolf Gesslə birlikdə "Mein kampf" ("Mənim mübarizəm") kitabını yazır.

Orduda ideoloji kurs keçən Hitler alman tarixi və nəzəriyyəsi ilə maraqlanır, mühazirələr dinləyir, Versal müqaviləsinin əleyhinə çıxış edir, itirilmiş müstəmləkələrin qaytarılmasını, Avstriya ilə Almaniyanın birləşdirilməsi yönündə təbliğat aparır. Yəhudilərə maliyyə kapitalının agentləri kimi baxan Hitler Fransa və İngiltərəni əsas düşmən hesab edirdi.

Nasizm ilham mənbəyini "**Thule Cəmiyyəti**"ndən almışdı. R.Eppersona görə Birinci Dünya müharibəsi A.Hitlerin bu gizli cəmiyyətə daxil olduğu ildə – 1919-cu ildə başlayır. Sonralar onu Almaniya hökumətinin

rəhbərliyinə irəliləməsinə səbəb olan təhrif olunmuş baxışları bu cəmiyyətdə formalaşır. "Thule Cəmiyyəti"ndə Semit xalqların etiqad etdikləri Aya əks qoyularaq… arilərin müqəddəs rəmzi qismində günəş birinci rol oynayırdı… Açıq saç rəngli və göy gözlü Arilərin özünə də bəşər övladının bəyaz tərəfini ehtiva etdiyinə əmin olan Fürer, qara saçlı və dərisinin rəngi tünd olan Yəhudi xalqının timsalında bəşər övladının qaranlıq tərəfini görürdü… Hitler maddi dünyanın natəmiz elementlərini qırmağı öz üzərinə götürdü.[1] Günəşə və nura sitayişlə yanaşı, "Thule Cəmiyyəti" İblisə etiqadı da praktika edirdi: "Thule Cəmiyyəti"nin daxili dairəsi yalnız Qara Magiya ilə məşğul olan satanistlərdən ibarət idi. Cəmiyyətin tərkibində bir çox varlı və nüfuzlu burjua nümayəndələri ilə yanaşı məhkəmə hakimləri, polis məmurları, vəkillər, hüquqşünaslar, professor və müəllimlər, cərrahlar, həkimlər, alimlər var idi. Nasist partiyasının bünövrəsini də "Thule Cəmiyyəti"nin üzvləri təşkil edirdi. Alman Fəhlə Partiyasının ilk 40 üzvü də həmin cəmiyyətdən çıxmışdı.

Nasist partiyasının və "Thule Cəmiyyəti"nin əsasını qoyanlardan biri **Dietrich Eskart** idi. Eskart inamlı satanist, incə sənətlərin və Qara Magiya ayinlərinin bilicisi idi. Belə hesab edirlər ki, Hitlerə satanistlər kultunun sirlərini Eskart açıqlamışdı. Eskart ölüm ayağında demişdi: "Hitlerin ardınca gedin. O oynayacaq, lakin yalnız mənim musiqim altında! Mən onu "Gizli Təlimə" ithaf etdim, görünmə mərkəzlərini ona açdım və ona Qüvvələrlə ünsiyyət vasitələri verdim. Mənim barəmdə hüzn saxlamayın: mən tarixə istənilən almandan daha çox təsir göstərmişəm".[2]

Analitiklər hesab edirlər ki, Hitlerin qüvvəsinin başqa mənbələri də olmuşdur. Məsələn, psixoanalitik Valter Langer "The Mind of Adolf Hitler" ("Adolf Hitlerin ağlı") kitabında yazır: "Hitlerin nəsil şəcərəsinin tədqiq olunmasında böyük qarmaqarışıqlıq var. Adolfun atası Aloiz Hitler Mariya Anna Şikliqruberin qeyri-qanuni oğlu idi. Belə hesab etmək qəbul olunub ki, Aloizin atası İohann Georq Hiedler idi…".

Aloiz 40 yaşınadək familiyasını dəyişməmiş, anasının familiyasını daşımış və qanunla tanınmamışdır. Aloizin atasının İohann Georq Hiedler olduğuna şübhə ilə yanaşanlar vardır. Lakin Avstriya kanslerinin göstərişinə uyğun olaraq araşdırmadan məlum olmuşdur ki, Mariya Anna Şikliqruber Vyanada yaşayarkən hamilə qalmışdır. Həmin dövrdə o baron Rotşildin evində xidmətçi işləmiş, hamilə olduğunu bilən kimi o evə, Spitala göndərilmiş və Aloiz burada dünyaya gəlmişdir.[3]

---

[1] Jean Micel Angebert, The Occult and the Third Reich, New York: Macmillan Publishig Co., İnc, 1974, p.4.

[2] Epperson, Ralf . Gözə görünməz əl / R. Epperson. – Bakı, 2014. – s.398-399.

[3] Walter C. Langer, The Mind of Adolf Hitler, New-York, London: Basic Books, İnc., pp.100-102.

A.Hitlerin babasının yəhudi olması haqqında fikirlər vardır. Yəhudi babası ilə onu şantaj edəcəklərindən narahat olan Hitler şəxsi hüquqşünası Hans Franka valideynlərinin şəcərəsinin araşdırılmasını tapşırır. Frank araşdırmanın nəticəsi olaraq Fürerə məlumat verir ki, onun nənəsi Qratsda, yəhudi ailəsində xidmətçi işləyərkən hamilə qalıb. Təbii ki, Hitler buna inanmış və onun şəxsiyyəti və dövlət siyasətinin formalaşmasında bu inam böyük rol oynamışdır. Ehtimal olunur ki, Hitler yəhudi əsilli olduğunu və Rotşildlərin Avropa hökumətlərini yaratmaq və məhv etmək cəhətdən çox böyük hakimiyyətini dərk edərək, ailəsi ilə əlaqələrini bərpa etmişdir.

Hitlerin anatomik-tibbi baxımdan müəyyən qüsurları olmuşdur. Kasıb dəmiryolçu ailəsində dünyaya göz açan Hitler uşaqlıq illərində çimərliyə getdikdə çılpaq olmaqdan çəkinərmiş. Hitler hakimiyyətə gəldikdən uzun müddət sonra ondan evlənməməyinin səbəbini soruşduqda "Mənim həyatım xalqıma məxsusdur" demişdi. Sözün həqiqi mənasında isə o qadınları oynatmağı sevirdi, lakin fiziki əlaqədə olmaqdan çəkinərdi.[1]

"…A.Hitler intim həyatına 36 yaşında olarkən başlayır. Onun ilk seçimi 16 yaşlı **Mariya Rayter** olur. Ancaq 1928-ci ilin yayında Mariya intihar etməyə cəhd edir. Hitlerin ikinci qadını **Xelena Xarfştanql** olur. Hitlerin intim həyatında əsas yeri onun əmisi nəvəsi **Qeli Raubel** tutur. Hitler bu qadını çox qısqanır və onu ciddi nəzarət altında saxlayır. Hitlerin özünəməxsus sevgisi bu gənc qadını həyatdan getməyə vadar edir. Qeli Raubel ölümünün sirri özünün yaxınlarına açıqlamalarından aydın olur. O yazırdı: " Mənim əmim qorxuncdur. Siz təsəvvür edə bilməzsiniz ki, o hansı şeyləri etməyi mənə məcbur edir".[2]

Qeli Raubeldən sonra Hitlerin həyatında çox qadınlar olmuşdur. Onlardan biri aktrisa **Renata Müller**dir. O, öz xatirələrində yazırdı ki, "Hitler yataqdan çox qorxurdu. O, qadının ayaqlarına düşərək onu tapdalamağı, vurmağı və qeyri-senzur sözlərlə söyməyi xahiş edirdi. Hitler bu an ekstaz vəziyyətinə gəlirdi. Sonra o, heç bir şey olmamış kimi ayrılırdı".[3]

A.Hitlerin həyatında əsas qadın **Yeva Braun** olmuşdur. Onlar 1929-cu ildə tanış olanda aralarındakı yaş fərqi 23 il təşkil edirdi. Yeva Braunun Fürerin sevimli əfsanəvi "komandos" Otto Skorçeniyə yazdığı etirafda Hitlerin şıltaqlıqlarından söz açılırdı: "Hitler yaxşı at çapmağımı bildiyindən məni lüt soyunduraraq və öz belinə mindirərək onu at kimi qovmağımı əmr edirdi".

Anatomik-tibbi qüsurundan irəli gələn bu cür alçaldığı hərəkətləri gözəl əyləncə hesab edən Hitlerin gənc yaşlarında psixologiyasında baş

---

[1] Məmmədov, A., M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.19.

[2] Yenə orada.

[3] Yenə orada, s.19.

vermiş dəyişikliklər təkcə özünü deyil, həm də müttəfiqlərini fəlakətlərlə üz-üzə qoydu.

Tarixçilər yazırlar ki, **Stalin və Hitler** "**əkiz qardaşdırlar**". **SSRİ və Üçüncü Reyx iki şeytandır**.

SSRİ-yə hücum etməmişdən əvvəl Almaniya İtaliya ilə birlikdə 12 Avropa ölkəsini işğal etdi və özündən asılı hala saldı. Praktiki olaraq Avropa Almaniyaya müharibə aparmaqda kömək etdi. Almaniyanın işğal etdiyi ölkələrdən əldə etdiyi silah 200 diviziyanı formalaşdırmağa kifayət idi. Fransa işğal edildikdən sonra almanlar 5000 tank və zirehli transportyor, 3000 təyyarə, 500 parovoz götürdü. Mərkəzi Avropada əhəmiyyətinə görə ikinci yerdə olan çex zavodu "Şkoda" 1938-ci ilin avqustundan 1939-cu ilin sentyabrınadək ingilis zavodlarının həmin dövrdə buraxdığı qədər məhsul istehsal etdi. Bu silahdan Hitler 1944-cü ilin sonunadək istifadə etdi. Almaniyanın əlaltılarının, hətta neytral dövlətlərin Almaniyaya göndərdiyi ət, taxıl, filiz və başqa məhsullar öz bəhrəsini verdi. 1941-ci ilin yayında 900 min avropalı almanlarla birlikdə SSRİ-yə qarşı çıxış etdi. Müharibədə bu rəqəm 2 milyona yüksəldi.[1] SSRİ-nin götürdüyü əsirlər arasında çexlər, polyaklar, fransızlar, belçikalılar, lüksemburqlular, hətta bitərəf isveçlilər də vardı. Nəhayət, Avropa ölkələri Almaniyaya daim yüksələn fəhlə qüvvəsi çatışmazlığında kömək etdilər.

Məlumdur ki, Hitler II Dünya müharibəsinə, daha doğrusu Almaniyaya birləşdirdi. 1936-cı ildən Avstriya Ralf Epperson hesab edir ki, Hitler Avstriyaya iki səbəbdən yola düşmüşdü. Müəllif yazır: "…Hitlerin onun Rotşildlərin nəslindən olduğunu bilən Dolfusu susdurmaq və özünün əsilnəcabəti ilə əlaqəli sənədləri yox etmək istəmişdi".[2] Müharibənin gedişini araşdırarkən maraqlı hadisələrlə qarşılaşırıq. Təbii ki, istər hərbçilər, istərsə də tarixçilər məsələləri izah edərkən müxtəlif fərziyyələr irəli sürmüş, qələbələri və uğursuzluqları hərbi hazırlıq, qohumların yerləşdiyi ərazilər, strateji məqsədlər, bəzən də müəmmalar ilə əlaqələndirmişlər. Lakin son illərin ədəbiyyatının təhlili bəzi məsələlərin mahiyyətini açmağa köməklik göstərir.

Faşist Almaniyasının maliyyə mənbələri haqqında dolaşan fikirlərə nəzər salaq. Politoloqlar hesab edirlər ki, Hitler hərbi iqtisadiyyat, xüsusilə benzinlə bağlı Rokfellerlərdən asılı idi. Siyasi elmlər doktoru, Rusiya "Geosiyasi Problemlər Akademiyası"nın həqiqi üzvü V.Pavlenko yazır ki, 1930-cu ildə nasistlərin maliyyələşdirilməsi məqsədilə yaradılan "Bazel Beynəlxalq Hesablaşmalar Bankı" və "Statdart Oyl" kompaniyası A.Hitlerə maliyyə köməkliyi göstərmişdir. Həm də Hitleri hakimiyyətə gətirən alman-

---

[1] Мединский, В.Р. Война. Мифы СССР. 1939-1945. Второе издание / В.Р. Мединский В.Р. – Москва, 2014. – с.68.

[2] Epperson, Ralf . Gözəgörünməz əl / R.Epperson. – Bakı, 2014. – s.401.

lar-Rokfeller qardaşlarının xala və ya bibi oğulları Allen və Con Foster Dalles qardaşları ABŞ-da idilər. Onların hamısına nasist hökumətinin casusu statusuna malik üçbaşlı Amerika-Britaniya-Almaniya sprutu – "Şröder Bankı"na, həmçinin onunla bağlı firmalara rəhbərlik edirdilər. ABŞ prezidenti F.Ruzvelt də Rokfellerlərin adamı olduğu üçün hadisələr əksəriyyətin fərqinə varmadığı məcrada davam etmişdi.[1] Yaxud, tarixçiləri müəmmalar qarşısında qoyan suala toxunaq. Nə üçün almanlar Böyük Britaniyanın darmadağın etmədilər. Xatırladaq ki, 1940-cı ilin mayında almanlar Fransaya hücum etdilər və Fransa-Britaniya hərbi qruplaşmaları darmadağın edildi, fransızlar davam gətirməyərək, yaxud da saziş bağlamağa məcbur edildilər. İngilislər isə Dunkerdə sıxılmış vəziyyətdə qaldılar. Elə sual da buradan yaranır: niyə almanlar rəqibləri ingilislərin darmadağın edilməsini başa çatdırmadılar. Hətta ingilislər Britaniya adalarına hərbi sursat daşıyanda almanlar onların nəqliyyatını bombardman etmədilər. Zənnimizcə, bunun əsas səbəblərindən birini cəsarəti ilə daim öyünən U.Çörçillin F.Ruzveltlə qohumluğunda və hər ikisinin Rokfellerlərlə qohumluğunda və ya hakimiyyətə gətirilməsində axtarmaq daha doğru olardı. Təbii ki, burada neft amili, xüsusilə Avrasiya neft aktivlərinin Rotşildlərin əlindən alınaraq Rokfellerlərin nəzarəti altına düşməsi dayanırdı. Almaniyanın Britaniya üzərinə diş qıcamasının səbəblərindən biri və əsaslısı da budur. Belə olmasaydı F.Ruzvelt Britaniyanın ABŞ-dakı səfiri lord Qalifaksa: "Səudiyyə Ərəbistanını – Amerika, İranı – Böyük Britaniya, İraq və Kuveyti isə birlikdə" sağacağıq – sözlərini yazdırmazdı.

Qeyd edək ki, SSRİ-yə təkcə F.Ruzvelt kömək etmədi. Bu sahədə Çörçill də öz töhfəsini verdi. Çörçill "…1944-cü ildə Stalinin Uzaq Şərqdə və Aralıq dənizi hövzəsində Britaniya maraqlarını dəstəkləməsi müqabilində Sovetlərin Polşada hökmranlığına" razılaşdı.[2] "Dəmir pərdə"nin müəllifi Çörçill etiraf etmişdi: "Mən Stalinə dedim: "Gəlin məsələlərimizi həll edək: buna münasibətiniz necədir ki, Rumıniyada siz 90%-lik üstünlüyə malik olursunuz, biz isə-elə həmin 90%-i Yunanıstanda və yalnız 50% Yuqoslaviyada. Mən bir vərəq parçasının yarısında yazdım:

Rumıniya: Rusiya 90%, qalan hamı 10%
Yunanıstan: Böyük Britaniya 90%, Rusiya 10%
Yuqoslaviya: 50% – 50%-ə
Macarıstan: 50% – 50%-ə
Bolqarıstan: Rusiya 75%, qalan hamı 25%

[1] Pavlenko, Vladimir. Rotşildlərin və Rokfellerlərin "Böyük oyunu" – işıqda və kölgədə / V.Pavlenko. – Bakı, 2012 – s.9-10.
[2] Epperson, Ralf . Gözəgörünməz əl / R.Epperson. – Bakı, 2014. – s.439.

İ.Stalin karandaşı əlinə götürdü, kağızın üzərində böyük quş işarəsi qoydu və geri qaytardı. Bütün qərar həmin bu kağız parçasını doldurmaqdan çox vaxt aparmadı”.[1]

1944-cü ilin oktyabrında Sovet qoşunları Qərbi Avropaya irəlilədikcə Almaniyanın dinc əhalisi kütləvi surətdə Qərbə qaçmağa başladı. Onların sayı təxminən 4-5 milyona çatırdı. Almanların yaşadıqları iri anklavlar müharibədən əvvəlki Polşa, Macarıstan, Rumıniya və Yuqoslaviyanın ərazilərində qaldı. Almanların doğma yurdlarından köçürülməsi xüsusi qəddarlıqla müşayiət olunurdu. İki milyondan artıq alman deportasiyalara dözə bilməyib öldü.

Hitlerdə yəhudilərə qarşı mənfi münasibətin formalaşmasının səbəbləri xüsusi maraq kəsb edən məsələlərdəndir. İlk növbədə onun mütaliəsi onu buna sövq etmişdi. **Bavariya şairi Ditrix Ekhart, Baltika almanı Maks Erin von Şöyner – Rixterin və Alfred Rozenberqin** bu məsələdə təsiri böyük olmuşdu. Maks Erin von Şöyner-Rixter və Alfred Rozenberq onda “rus bolşevik yəhudiçiliyi” fikrini yaratmışdılar.[2] Hitler özü də “Mənim mübarizəm” əsərində onun nasional-sosialist fikirlərinin formalaşmasında Şöynerin və sosialist-xristian Lünterin təsiri olduğunu etiraf etmişdi.[3] Nəhayət, A.Hitler sonda hamının hamıya qarşı mübarizəsi fikrinə gəlir. A.Hitler yazırdı: “Mübarizə ideyası həyatın özü qədər qədimdir. Bu mübarizədə ən güclü və ən cəsur adamlar ən zəiflər üzərində qələbə çalırlar. Mübarizə hər şeyin yaradanıdır”. Bu mübarizənin sonunu A.Hitler Rusiya torpaqlarının tutulmasında və yəhudilərin Rusiyanı idarə etməsinə son qoymaqda görürdü ki, bu da Rusiyanın bir dövlət kimi axırı olacaqdı”. Hitlerin fikirləri ilə tanış olanlar onu təqdir edirdilər. **Alfred Rozenberq** Hitlerin dəmir iradəsinə, yaradıcı gücünə yüksək qiymət verirdi. **İozef Göbells** “Mənim mübarizəm” kitabını oxuduqdan sonra soruşmuşdu: “**Kimdir bu adam? Yarımallah! Xristos həqiqəti, yaxud ancaq Müqəddəs İohann?”.** Elə bu səbəbdən də, gündəliyində 1926-cı il 19 aprel tarixli qeydində yazmışdı: “Hitler, mən Sizi sevirəm”.[4] **Baldur fon Şirak** xatırlayırdı ki, o, 1925-ci ildə Hitlerin səsini eşidib heyrətə gəlmiş və inanmışdı ki, Almaniyanı məhz Hitler xilas edəcəkdir. Hitlerin ətrafında öz ideyaları ilə ona yaxın olan adamlar – **German Gerinq, Henrix Himmler, İozef Göbbels, Martinq Borman, İoahim Ribbentrop** toplaşmışdı.

---

[1] Epperson, Ralf . Gözəgörünməz əl / R.Epperson. – Bakı, 2014. – s.439-440.
[2] Лопухов, Б.Р. История фашистского режима в Италии /Б.Р.Лопухов. – Москва, 1970. – с.37.
[3] Yenə orada, s.16.
[4] Yenə orada, – s.52

German Gerinq

German Gerinq A.Hitler partiyasının ikinci şəxsi olub, həm də Hitlerin varisi idi. İlk dəfə 1922-ci ildə Hitlerlə tanış olmuşdu. SA-nın rəhbəri təyin olunan Gerinqlə A.Hitlerin yaxın münasibətləri 1945-ci ilə kimi davam etmişdir. 1928-ci ildə Rexstaqa deputat seçilən Gerinq Hitler hakimiyyətə gəldiyi günün səhəri – yanvarın 31-də Prussiya DİN-də fövqəladə komissar, 1934-cü ildə Prusiyanın nazir-prezidenti təyin edildi. 1937-ci ilin iyununda Gerinqin rəhbərliyi ilə nəhəng dövlət konserni yaradıldı. 1940-cı ilin iyulun 19-da Hitler Gerinqə reyxsmarşal rütbəsi verdi. G.Gerinq 1946-cı ildə Nürenberq prosesində asılmaqla ölümə məhkum edildikdən sonra zəhər içərək özünü öldürdü.[1]

Henrix Himmler

Henrix Himmler – 1900-cü ildə anadan olmuşdu. SS reyxsfüreri Himmler A.Hitlerin ən yaxın adamlarından idi. Himmleri tanıyanlar onunla ehtiyatlı davranmağı məsləhət görürdülər. Onun baxışlarında daha çox qəddarlıq hiss olunurdu.[2] 1925-ci ilin martında Münhendə Hitlerlə görüşən H.Himmler 1929-cu ildə SS qrupuna başçılıq edir. Himmlerin əsas uğurları Hitlerin hakimiyyətə gəlişindən sonra başlayır. O, 1931-ci il iyunun 17-də SS reyxsfüreri və alman polisinin rəisi təyin olunur. Onun bu vəzifəsi DİN vəzifəsinə bərabər tutulurdu. Amma onun idarəsi birbaşa Hitlerə tabe olduğundan səlahiyyətləri daha çox idi. Bununla yanaşı, Təhlükəsizlik İdarəsi (rəhbəri Heydrix, sonradan Kalfenbrunner), onun yeddi bölməsi – Gestapo (rəhbəri Henrix Müller), PSXA-nın IV bölməsi (rəhbəri Şellenberq) və b. ona tabe idi.

Himmlerin göstərişi ilə seçilən esesçilər Hitlerə And içməyə başladılar. Andın mətni belə idi: "**Sənə And içirəm, Adolf Hitler. Sədaqətli və cəsarətli olacağam. Ölənə qədər fədakar olacağam. Allah da mənə kömək edəcək**".[3]

Almaniyanın məğlubiyyətini görən H.Himmler Qərb dövlətləri ilə danışıqlara girsə də, danışıqlar baş tutmur. Bu barədə məlumatı radiodan eşidən A.Hitler "Siyasi vəsiyyət"ində "ölümüm ərəfəsində mən sabiq SS reyxsfüreri, daxili işlər naziri Henrix Himmleri partiyadan qovur və bütün

---

[1] Нюренбергский процесс. Т.1. Москва, 1987. – с.166
[2] Yenə orada, s.173.
[3] Yenə orada, – s.24.

vəzifələrdən azad edirəm” yazmışdı.[1] Almaniya məğlub olduqdan sonra Himmler ingilislər tərəfindən həbs olunmuş, o, zəhər içərək özünü öldürmüşdür.

İozef Göbbels – nasist rəhbərliyinə daxil olan beş liderdən biridir. O, 1897-ci il oktyabrın 29-da anadan olmuşdu. Anadan qüsurlu doğulmuşdu. Ayağının biri o birindən qısa idi. Bonn Universitetində filologiya, almanizm və tarixi öyrənən İ.Göbbels təhsil illərində Bonn-Münhen, Freyburq-Qeydelburq universitetlərində oxumuş və fəlsəfə doktoru adını almışdı.


İozef Göbbels

1926-cı ilin noyabrında Göbbels Berlinin qauleyteri təyin olunur. Maarif və Təbliğat naziri olduğu dövrdə çox sayda ziyalıları məhv edir, yaxud ölkədən qovur. Tanınmış ziyalılar – yazıçılar, dirijorlar, bəstəkarlar – Bertold Brext, Bexer, Bruno Frank, Raul Xindemit, Piskator, Reynxard, Kandinsk və b. mühacirət edirlər.

İ.Göbbelsin diktatorluğu o həddə çatır ki, yoxsul və yetim uşaqlar haqqında, Hötenin mason olması, Ştrausun nənəsinin yəhudi olması, korrupsiya haqqında və s. yazmaq qadağan olunur. Onun rəhbərliyi ilə xristian bayramları yeniləri ilə əvəz edilir.

Hitlerin sadiq dostu Göbbels son ana kimi Adolf Hitleri tərk etməyərək, bunkerdə qalmışdır. Ömrünü faciəli başa vuran Göbbels əvvəl altı uşağını, sonra arvadını və özünü zəhərləmişdir.

Hitler komandasının liderlərində biri olan **Rudolf** Hess 1894-cü ildə anadan olmuşdur. İxtisasca təyyarəçi olan Hess 1914-cü ildə könüllü olaraq orduya getmişdir. 1923-cü il çevrilişindən sonra Avstriyaya qaçan Hess, sonradan könüllü olaraq qayıtmış, Hitlerin olduğu Landsberq həbsxanasında həbsdə olmuşdur. Hitlerə müraciət olunan “mənim fürerim” (mənim rəhbərim) müraciətini Hess formalaşdırmışdır. Hitlerin hakimiyyətə gəlişindən sonra portfelsiz nazir olan Hess 1938-ci ildə Nazirlər Sovetinə daxil olan 6 nəfərdən biri olmuş, 1939-cu ilin avqustunda Müdafiə Nazirliyi Sovetinin tərkibinə daxil edilmişdir. Hitler Hessi Gerinqdən sonra ikinci varis təyin etmişdi.

Rudolf Hess

Almaniya məğlub olandan sonra Hess Nürenberq prosesində mühakimə olundu. O, isterik və psixopatik diaqnozu ilə Şpandau həbsxanasına salındı və 93 yaşına qədər həbsxanada qaldı. Sonda intihar etdi.

Beşliyin sonuncusu **Ulrix Fredrix Vill İoahim Ribbentropdur.**

---

[1] Нюренбергский процесс. Т.1. Москва, 1987. – с.262.

Ribbentrop 1893-cü il aprelin 30-da anadan olmuşdur. Atası hərbçi olduğundan bir müddət İsveç, Fransa, İngiltərə və Kanadada yaşadıqdan sonra Almaniyaya qayıdır, Hitlerlə 1932-ci ilin avqustunda tanış olur. 1936-cı il avqustun 11-də Almaniyanın İngiltərəyə səfiri təyin olunan Ribbentrop İngiltərədə iki il səfir işlədikdən sonra A.Hitlerin Avstriya və Çexoslovakiyanı tutmaq planına etiraz edən Fon Neyratın yerinə təyin olunur.

1939-cu il sovet-alman müqaviləsini Ribbentrop imzalamışdı. A.Hitlerin ölümündən sonra İ.Ribbentrop Frensburqda hökumət qurmuş Denislə əlaqələr qurmağa cəhd etsə də, baş tutmamışdı. 1945-ci il iyunun 14-də Ribbentrop Hamburqda təsadüfən bir ingilis partulu tərəfindən həbs olunmuşdur. Nürenberq tribunalı ona asılmaqla ölüm cəzası kəsmişdir.

Ulrix Fredrix Vill İoahim

Beləliklə, Hitlerin ən yaxın 5 silahdaşının taleyi faciəli şəkildə sona çatmışdır.

1933-cü il yanvarın 30-da prezident P.Hindenburq nasist partiyasının lideri A.Hitlerə yeni alman hökumətinin formalaşdırılması tapşırığını verir. Nasizm rəsmi olaraq Almaniyada hakimiyyətə gəlir. Hitler baş nazir (reyxs kansler) olur. Hitlerin koalisyon hökumətinə Gerinq (Şərqi Prussyianın reyxskomissarı) və Frik (DİN), yunkerlərdən və hərbi-sənaye oliqarxiyasından – Blomberq (hərbi nazir) və fon Papen (vitse-kansler) daxil olurlar.

Bir sıra tədqiqatçılar (Bezımenski L.A.,[1] Bolf Dc və Kert N və b.) belə hesab edirlər ki, hakimiyyət uğrunda mübarizədə nasistlərin müvəffəqiyyət əldə etməsinin səbəblərindən biri də, Almaniya KP-nın alman sosial-demokratlar ilə əməkdaşlıqdan imtina etmələri, SSRİ və Komintern rəhbərliyinin müəyyənləşdirdikləri ilə razılaşaraq onları "sosial faşizm" elan etməsi olmuşdur. Fransız tarixçisi N.Bert yazır ki, "…1933-cü ilin sonunadək alman nasional sosializmin çiçəklənməsinə Komintern və Sovet rəhbərliyinin göz yumması…beynəlxalq münasibətlərin inkişafında pozitiv fakta çevirdi, aparıcı kapitalist dövlətlərinin arasında qarşıdurmanı kəs-

Alman alimi Berlində "ari irqinə" mənsubluğunu təyin etmək üçün qızın kəlləsinin və üzünün proporsional olmasını ölçür. 1933-cü ilə aid foto

[1] Безыменский, Л.А. Германские генералы с Гитлером и без него / Л.А. Безыменский. – Москва, 1964. – с.107-110.

kinləşdirdi”.[1] Hitlerçilik yalnız bir nasist partiyasının sərhədləri daxilində fəaliyyət göstərmirdi. Nasistlər hesab edirdilər ki, onların dünyagörüşü alman yüksək ideyalarının qanuni davamıdır. Belə ideyaların yaradıcıları sırasında Hegel, Nitsşe, Heder, Vaqner, Qrim qardaşları əhəmiyyətli yer tuturdular.[2] Nasional-sosialist ideyalarının formalaşmasına xarici ölkələrdə mövcud olan nəzəriyyələr də təsir göstərirdi. Bu sırada C.A.Qobinonun, de Yyaricanın və b. adları özünə yer almışdı. Nasional-sosialistlər arasında irqlərə münasibətdə də müxtəlif yanaşmalar vardı. İrqi əlamətlər içərisində daha çox kəllənin formasına, saçın rənginə, gözə, burunun quruluşuna və digər əlamətlərə diqqət verilir, yüksək irqə ilk növbədə almanlar, aşağı irqə isə əsasən yəhudilər və slavyanlar daxil edilirdilər.[3]

İrqi nəzəriyyələrin əsas müddəalarını rəhbər tutan fürerin fikrincə insanlıq 3 irqə bölünməlidir: **mədəniyyət baniləri, mədəniyyət daşıyıcıları və mədəniyyət dağıdıcıları.**

A.Hitlerin fikrincə ali irqə mənsub olanlar (almanlar – M.Ə.) mədəniyyət baniləri və mədəniyyət yaradıcıları hesab edilirlər. Yəhudi irqi isə sonuncuya-mədəniyyət dağıdıcılarına aiddirlər. O, “Mənim mübarizəm” kitabında yazırdı ki, mədəniyyətin zəifləməsinin yeganə səbəbi qan qarışığıdır. Nasistlər hesab edirdilər ki, aşağı irqə mənsub olanlar – slavyanlar kölə halına salınmalı, yəhudilər və qaraçılar məhv edilməlidirlər. Bu ideyadan çıxış edən nasistlər həyati genişliyə malik olmalıdırlar. Bu səbəbdən də, Sovet İttifaqı ilə müharibəyə başlayıb Urala qədər əraziləri ələ keçirmək vacibdir. Beləliklə, Hitler hakimiyyətə gəlməzdən əvvəl nasist ideyaları ilə silahlanmış bir proqrama malik idi. Hakimiyyətin ilk günlərindən Hitler siyasi rəqiblərinə qarşı mübarizəyə başladı. Buna haqq qazandırmaq məqsədilə 1933-cü il fevralın 27-də Reyxstaqın yandırılması təşkil olundu. Yanğının törədilməsində kommunistlər günahkar hesab edilərək mühakimə olundular. Fevralın 28-də fövqəladə fərmanla Veymar Konstitusiyasının müəyyən etdiyi bütün azadlıqlar ləğv edildi. Nasist partiyasından başqa bütün partiyaların fəaliyyəti qadağan olundu. Gizli polis-gestapo yaradıldı. Nəhayət, 1934-cü ilin avqustunda prezident Hindenburqun vəfatından sonra bütün hakimiyyət Hitlerin əlində cəmləşdi. Gerinq, Himmler, Göbbels, Ley, Şirax əsas dövlət vəzifələrinə təyin edildilər. Hitlerin partiyadaxili düşmənləri Q.Strasser, Q.fon Kar, general fon Sleyxer və fon Breq[4] sıradan çıxarıldılar.

Bundan sonra ordunun daxili “təmizlənməsi” aparıldı. 1938-ci ilin yanvarında “seks qalmaqalı” adı altında hərbi nazir, feldmarşal V.fon. Blomberq və Quru Qoşunları Baş Komandanı, general V.fon. Fritç ehtiyata

---

[1] Верт, Н. История Советского государства / Н. Верт. – Москва, 1998 . – с.178.
[2] Галкин, А.А. Германский фашизм / А.А. Галкин. – Москва, 1970. – с .273.
[3] Yaqublu, N. Azərbaycan legionerləri / N.Yaqublu. – Bakı, 2005. – s.51.
[4] Безыменский, Л.А. Германские генералы с Гитлером и без него / Л.А. Безыменский. – Москва, 1964. – с.62-63.

buraxıldılar. Müharibə ərəfəsində A.Hitler özünü alman ordularının (Vermaxtın) baş komandanı təyin etməklə hərbi nazir vəzifəsini birləşdirdi. **Vermaxtın birləşdirilmiş komandanlığına rəhbər Keytel təyin edildi.**

Feldmarşal, hərbi cani Keytel Vilhelm (1882-1946) İkinci dünya müharibəsi boyu Almaniya Silahlı qüvvələrinin Ali Baş Komandanlıq Qərargahının rəisi olmuşdur. 1941-ci ildə Hitleri SSRİ-yə hücum etmək fikrindən daşındırmağa çalışsa da, nəticə əldə edə bilməmiş, istefa haqqında Hitlerə müraciət etmişdir. Lakin onun təşəbbüsləri etirazla qarşılanmış, Hitlerə tabe olmuş, fürerin bütün tapşırıqlarının həyata keçirilməsinin təşəbbüskarı olmuşdur.

V.Keytel 1938-1945-ci illərdə Vermaxtda Baş Komandanlığın rəisi

Keytel SSRİ ərazisindən olan hərbi əsirlərin və mülki əhalinin məhv edilməsi haqqında Direktiv hazırlamış, Qızıl Ordunun bütün siyasi işçilərinin tamamilə və danışıqsız fiziki məhvi haqqında "komissarlar haqqında" əmr vermişdir. Oğulları müharibədə həlak olmuşdur. Edamdan əvvəl Keytel "Mən öz oğullarımla Almaniya uğrunda gedirəm" demişdi. Onun Edamdan əvvəl Keytel həbsə qədər özünü öldürmədiyindən təəssüflənmişdi. Alman feldmarşalını it kimi asmışlar.[1]

Hitler partiyanın parçalanmasına son qoydu. İqtisadiyyata rəhbərlik faşist diktaturasının əlində cəmləşdi. Təsərrüfat işlərini idarə etmək üçün Baş Şura yaradıldı. Həyata keçirilmiş tədbirlər nəticəsində Almaniya 1935-ci ildə böhrandan çıxdı. Yeni dövlət rejiminin dayağını Himmlerin başçılıq etdiyi SS sistemi təşkil edirdi. SS-lər dövlət daxilində dövlətə, onların hərbi hissələri isə Üçüncü Reyxin ordusuna çevrildi. Ölkədə zorakılıq adi hal aldı. Yüz minlərlə alman, o cümlədən alimlər, şairlər və yazıçılar, bəstəkarlar ölkədən mühacirət etdilər.[2]

A.Hitlerin hakimiyyəti illərində antisemitizm dövlət siyasətinə çevrildi. 1935-ci ildə yəhudiləri "alman vətəndaşlığından məhrum edən" və onların dövlət orqanlarında hər hansı vəzifə tutmalarını qadağan edən bir sıra qanunlar verildi.[3]1939-cu ildə onları xüsusi ayrılmış evlərə və məhəllələrə – gettolara köçürdülər. Noyabr ayının 9-dan 10-na keçən gecə yəhudi qırğını təşkil edildi. Ümumiyyətlə, İkinci dünya müharibəsi illərində 6 milyon yəhudi nasistlərin qırğın siyasətinin qurbanı oldu.

---

[1] Дьяконов, Ю.А., Бушуева, Т.А. Фашистский меч ковался в СССР. Красный армия и рейхсвер: тайные сотрудничества 1922-1933. Неизвестные документы / Ю.А.Дьяконов, Ю.А., Бушуева. – Москва, 1992. – с.50.

[2] Yaqublu, N. Azərbaycan legionerləri / N.Yaqublu. – Bakı, 2005. – c.75.

[3] Siyasi tarix. II hissə. Bakı, 1998. – s.159.

Alman vermaxtının Qərbdə, sonra isə Şərqdə hərbi əməliyyatlarda qazandığı müvəffəqiyyətlər Hitlerdə özünə güvənmə xəstəliyi törətdi. O ətrafındakıları az eşidir, daha çox özünün şəxsi qərarlarını irəli sürür, komandirlərin işinə qarışır, bəzi hallarda isə əməliyyatlara rəhbərliyi öz üzərinə götürürdü. Fürer xüsusi ilə qoşunların geri çəkilməsinə dözmür, hərbi uğursuzluqlara səbirsiz yanaşırdı. Bu səbəbdən də, geri çəkilmə haqqında təkliflərə verilən "yox" cavabları ağır nəticələrə səbəb olurdu.

A.Hitlerin hərəkətləri, müharibənin gedişində yol verdiyi səhvlər ətrafındakıları narahat edirdi. Hətta ona sui-qəsd planları hazırlanırdı. Stalinqrad altında və Kurskdakı məğlubiyyətdən sonra müxalifət qruplarında narazılıq baş qaldırmışdı. Leypsiqin keçmiş oberburqomistri K.Qredler və Quru Qoşunları Birləşmiş Komandanlığının Baş Ştabının keçmiş rəisi, general O.İ.Bek dövlət çevrilişi etməyə cəhd etdilər. Onlar Hitleri hakimiyyətdən uzaqlaşdırmaq və onu nasist rəhbərliyində olan (məsələn: variantlardan biri G.Gerinq idi) daha perspektivlisini onun yerinə təyin etməyi planlaşdırmışdılar.[1]

Sui-qəsdçilər arasında daha radikal qruplar var idi. Bunlar vətənpərvərlik ruhunda olan cəbhəçi – zabit, ehtiyatda olan ordu ştabının rəisi, polkovnik Klans Şeen fon Ştauffenberqin ətrafında toplaşmışdılar. Ştaunffenberqin qrupunun məqsədi Almaniyanın dövlət aparatını yeniləşdirmək, onu nasistlərdən azad etmək, təkcə Qərb dövlətləri ilə deyil, həm də SSRİ-yə qarşı müharibəni dayandırmaq, Almaniyanı müharibədən əvvəlki sərhədlərinə qaytarmaq idi.

Sui-qəsdçilər ilk addım olaraq Hitleri fiziki cəhətdən aradan götürmək istədilər. İki dəfə müvəffəqiyyətsizlikdən sonra K.Ştauffenberq 20 iyul 1944-cü ildə şəxsən Hitlerə sui-qəsd təşkil etdi. Ştabın iclasının keçirildiyi yerə bomba qoydu. Ancaq məqsədinə nail ola bilmədi. Hitler yüngül yaralandı. Hərbi qiyam yatırıldı. Onun iştirakçıları, o cümlədən qiyamçılarla əlaqəsi olan yüksək rütbəli generallar – admiral F.V.Kanaris, "B" ordu qrupunun komandanı, marşal E.Rommel və b. güllələndilər, yaxud intihar etdilər.[2]

Qerdler-Bek-Ştauffenberqer qrupu zərərsizləşdirildikdən sonra vermaxtın yüksək çinlilərinin ABŞ və Böyük Britaniya ilə separat sülh bağlamaq təşəbbüsü sona yetdi.

A.Hitlerin vəsiyyətinə görə hakimiyyət yeni alman hökumətinə verildi. Qros-admiral Denis prezident, Göbbels kansler, Martin Borman partiya üzrə nazir təyin edildi. Feldmarşal Gernerə Ali Hərbi Komandanlıq həvalə edildi. Generallar Yodl və Krebs Almaniya Silahlı Qüvvələrinin Birləşmiş

---

[1] Балашов, А.И., Рудаков, Г.П. История Великой Отечественной войны / Г.П. Балашов, А.И., Рудаков. – СПб., 2005 – с.319-320.

[2] Yenə orada, s.319-320.

Komandanı və Quru Qoşunları Birləşmiş Komandanlığının ştab rəisləri təyin olundular.

Hitlerin tələblərini danışıqsız yerinə yetirən Keytel və İodl vəziyyətdən çıxış yolu axtarmağa başladılar.

Hitler tərəfindən reyxsprezident təyin olunan qross-admiral **K.Denis** nəinki esesçilərin fanatı, hətta AHSDP-nin üzvü olmamışdı. Denis Almaniyanı hakimiyyət üçün məsuliyyəti öz üzərinə götürəndə Hitler artıq sağ deyildi. Hələlik Şərq cəbhəsində müharibə kəsilməmişdi. 1945-ci il mayın 1-də 22-00-da alman radiosunda çıxışında Denis bolşeviklərin Almaniyanı məhv etməsinə yol verməyəcəyini, silahlı mübarizənin davam edəcəyini bildirmişdi. Hələlik bu məqsədə nail olmağa amerikanlar və ingilislər maneçilik törədirlər, biz onlara qarşı müdafiə döyüşlərini davam etdirməyə məcburuq”.[1]

Hitlerin vəsiyyəti əsasında təşkil olunmuş yeni alman hökuməti müharibənin perspektivsizliyini anlayan Göbbels 1945-ci il may ayının 2-də intihar etdi.

İkinci dünya Müharibəsi başa çatdı. Müharibədə SSRİ qalib oldu. Rumıniyanın keçmiş Xarici İşlər Naziri şahzadə Michel Sturdzanın “The Suicide of Europe” (“Avropanın intiharı”) kitabında yazdığı kimi, qalib Sovet Rusiyasının timsalında Beynəlxalq Kommunizm.[2] Stalin “dostlarını” üstələdi, onlardan bir sıra əraziləri qopara bildi, nəticədə ABŞ və Avropa dövlətləri 50 il kommunizmin yeni dalğası ilə mübarizə aparmalı oldular.

Müharibədə nasist Almaniyası, faşist İtaliyası və onların müttəfiqləri məğlub oldular. Dünya iki qütbə-sosializm və kapitalizm cəbhələrinə ayrıldı. Müharibədən çox zəif çıxmış, maddi və mənəvi sərvətləri dağıdılmış SSRİ qardaş yardımı altında müttəfiq respublikalarının, o cümlədən türk respublikalarının təbii sərvətləri hesabına Cənubi-Şərqi Avropa və Asiya ölkələrinə hərtərəfli yardım etdi, onların qərbin nüfuz dairəsinə çevrilməsinə imkan vermədi. SSRİ QİYŞ-nın üzvü kimi öz hərbi bazalarını bu ölkələrdə yerləşdirdi, həmin ölkələrin neftə, çuquna, dəmir filizinə, meşə materiallarına olan ehtiyacı türk respublikalarının hesabına ödənildi.

İkinci dünya müharibəsi dünya sivilizasiyasını qoruyub inkişaf etdirmək üçün çox mühüm dərslər verdi. Müharibə göstərdi ki, dünya xalqları bəşəriyyətə böyük fəlakətlər gətirən müharibələrin mahiyyətini dərk etməli, yeni dünya müharibəsinə yol verilməməlidir. İlk növbədə regional müharibələrin baş verməsinin qarşısı alınmalıdır. Müharibənin qarşısını almağın ən mühüm şərtlərindən biri silahlanmaya son qoymaq, kütləvi qırğın silahlarını məhv etmək və yenilərinin yaradılmasının qadağan edilməsinə nail ol-

---

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014. – с.278.

[2] Prinse Michel Sturdza, The Suicide of Evrope, Boston, Los Angeles: Western İslands, 1968, p.68.

maqdır. Heç də belə başa düşülməməlidir ki, müharibə qurtardı, hər şey yoluna düşdü. Qətiyyətlə demək olar ki, bu gün də dünya hadisələrini Rotşildlər və Rokfellərlərin davamçıları istiqamətləndirirlər. ABŞ Prezidenti B.Obama, Fransa Prezidenti F.Oland, Almaniya kansleri A.Merkel və digərləri onların əlləri üstündə hakimiyyətə gətirmişlər və bir mərkəzdən idarə olunurdular. Diqqətlə araşdırsaq, Obamanı çıxmaq şərtilə onların qohumluqları da vardır. Qros-admiral Denis Nürenberq tribunalının hökmü ilə Şpandau həbsxanasında 10 il 10 gün oturdu. Azadlığa çıxan kimi "10 il 10 gün" adlı broşürasını nəşr etdirdi.[1]

Stalin-İosif Vissarionoviç Cuqaşvili (1879 - 1953) 1879-cu il dekabrın 21-də Qoridə pinəçi ailəsində anadan olmuşdur. Qori ruhani məktəbini bitirən Stalin 1919-1922-ci illərdə ÜİK(b)MK Siyasi Bürosunun, 1925-1943-cü illərdə Kominternin İcraiyyə Komitəsinin, 1917-ci ildən ÜİR MİK-nin, 1922-ci ildən SSRİ MİK-nın üzvü 1952-1953-cü illərdə Sov.İKP MK Rəyasət Heyətinin üzvü olmuşdur. SSRİ Ali Sovetinin deputatı olan Stalin "Qələbə" ordeni, 3 dəfə "Lenin" ordeni, 3 dəfə "Qırmızı Bayraq" ordeni, 1-ci dərəcəli "Suvorov" ordeni, həmçinin medallarla təltif edilmişdi. Sovet İttifaqı Qəhrəmanı (1945), Sosialist Əməyi Qəhrəmanı (1939), Sovet İttifaqı Marşalı (1943), Sovet İttifaqı Generalissimusu (1945) idi.[2]

Stalin-İosif Vissarionoviç Cuqaşvili

1941-1945-ci illər müharibəsi dövründə İ.Stalin güclü təbliğat və dərin siyasi rejim gücünə SSR-də yaşayan xalqların "birliyini" yarada bildi. Ancaq bu "birliyin" içərisində rus millətçiliyi üstünlük təşkil edirdi. Rus olmayan başqa xalqlar qismən neytrallaşdırılırdı. Müharibənin əvvəllərində almanlar SSRİ-nin Şərq rayonlarına deportasiya olundular. SSRİ-nin cənubunda olan etnik qruplar – kalmıklar, çeçenlər, inquşlar, qaraçaylılar, Krım tatarları 1943-cü ilin sentyabr – 1944-cü ilin birinci yarısında şəxsən Stalinin göstərişi ilə muxtar dövlət qurumlarından məhrum edilərək Qazaxıstan və Sibirin az əhalisi olan rayonlarına sürgün edildilər.

İ.Stalinin ideoloji təkamülündən biri də dinlər arasında (xüsusən kilsə) kompromisin yaradılması oldu. Sovet İttifaqındakı digər dinlərə, o cümlədən İslam dininə münasibətdə qismən dəyişikliklər baş verdi. 1943-cü ilin

---

[1] Мединский, В.Р. Война. Мифы СССР.1939-1945. Второе издание / В.Р. Мединский В.Р. – Москва, 2014. – с.598.

[2] Великая Отечественная война,1941-1945: Словарь-справочник. (Н.Г.Андроников, А.С.Балицан, М.М.Кирьян, и др.). Москва, 1985. – с.410-411; Azərbaycan Sovet Ensiklopediyası 1-10-cu cildlər. Bakı, 1976-1988, IX cild. – s.20-21.

oktyabrında Daşkənddə başda müfti olmaqda Sovet İttifaqı Müsəlmanlarının Mərkəzi İdarəsi yaradıldı.[1]

Stalini özü kimi tərcümeyi-halı da qeyri-adidir. Cuqaşvili heç bir tarixi şəxsiyyətə bənzəməyən bir ömür yaşamışdır. Stalin qeyri-adi xarakterinə, qabiliyyətinə görə heç kimə bənzəmirdi. Daima lider olmağa çalışırdı, nəzəri fikirləri çox güclü idi.[2]

Stalin Bakıda fəhlə həmkarlar təşkilatının rəhbəri olub. Özü etiraf etmişdir ki, 1907-1910-cu illərdə neft fəhlələri arasında apardığı inqilabi iş onu praktiki mübariz kimi möhkəmləndirmiş və yerli inqilab rəhbərlərindən biri kimi yetişmişdi.[3]

Stalin çox mürəkkəb, qeyri-adi xüsusiyyətlərə malik idi. Dmitri Volkoqonov "Zəfər və faciə" kitabında yazır ki, möhkəm əqidəsi, təbii zəkası, hiyləgərliyi, sehrbazlığı, ilə seçilirdi.[4]

Stalin Hitlerdən fərqli olaraq gözəl natiq və savadlı hökmdar idi. II Dünya müharibəsi illərində ABŞ-ın dövlət katibi olmuş Kordel Hell qeyd edirdi ki, Stalin heyrətamiz şəxsiyyətdir. O, elə bir bənzərsiz liderdir ki, Çörçill və Ruzvetlə birlikdə çiyinlərində yaxın beş yüz il ərzində heç kəsin bilmədiyi bir məsuliyyət daşıyırdılar.[5]

Müharibə illərində kəndlə müvəqqəti sosial konsensus əldə edildi. Məlumdur ki, Sovet hakimiyyətinin "yetirməsi" olan kolxoz quruluşuna rəğbət kənd əhalisi içərisində o qədər də "hörmət qazanmamışdı". Kənd təsərrüfatı məhsulları aşağı qiymətdə olduğu üçün kolxozlara kompensasiyalar verilməsi, şəxsi təsərrüfatlardan əldə olunan məhsulların bazara çıxarılmasına şərait yaradılması, ərzaq məhsulları ilə təminatda talon sisteminin tətbiqi kənd əhalisinin fəallığını qismən artırdı. Nəticədə cəbhə kənd təsərrüfatı məhsulları ilə təmin edildi.[6]

Müharibə tarixinə dair SSRİ-də nəşr olunmuş ədəbiyyatda yazılırdı ki, 1941-ci il iyunun 22-də Hitler qoşunlarının SSRİ-yə hücumu İ.Stalin üçün gözlənilməz oldu. Almaniyanın hücumu Kreml kabinetinin üzvlərini heyrətləndirdi, onları şok vəziyyətinə gətirdi. Hadisələrin belə sürətli inkişafına və hətta iyunun 21-də sərhədboyu vilayətlərdən almanların sərhəd naqillərini kəsməsi, tank səslərinin eşidilməsinə dair Moskvaya göndərilən şifroqramlara Stalin inanmır, bunların təxribat xarakteri daşıdığını düşünürdü.

---

[1] Балашов, А.И., Рудаков, Г.П. История Великой Отечественной войны / Г.П.Балашов, А.И., Рудаков. – СПб., 2005. – с.377-378.

[2] Bax: Иосиф Сталин в объятиях семьи. Москва, 2005

[3] L.Beladi, T.Kraus. Stalin. Bakı, 2013. – s.33-37.

[4] Dmitri Vilkoqonov. Zəfər və faciə. Bakı, 1989. – s.72-73.

[5] И.в.Сталин. Цитаты (состав: Т.И.Догузев, Х.Алборов, В.Санакоев), Владикавказ, 2007. – с.115-117.

[6] Верт, Н. История Советского государства / Н. Верт. – Москва, 1998. – с.321.

Tarixi ədəbiyyatda İ.Stalinin təxribatlara uymamaq haqqında fikirləri, hadisələri təxribat adlandırması terminlərinə tez-tez rast gəlinir. Təxribat sözünü həmçinin Gukovun xatirələrində, hətta Stalinin əmrlərində oxuyuruq. Bu söz təsadüfi ortaya çıxmamışdı. **Müdafiə Naziri S.Timoşenko** Qərb cəbhəsi komandanı Pavlova xəbərdarlıq edərək "**bu gün səhər, ola bilsin nəsə xoş olmayan baş versin, baxın, heç bir təxribata getməyin"** – deməsi təsadüfən olmamışdı. İ.Stalin, Timoşenko, Jukov dəqiq bilirdilər ki, 1941-ci il iyunun 22-də – bazar günü hücum təxribat hərəkətləri ilə başlaya bilər. Bilirdilər, çünki onların özü bu hücuma və təxribata hazırlaşmışdılar.

A.Hitlerin gizli planı İ.Stalinin masasının üstündə yox idi, ancaq alman qoşunlarının yenidən dislokasiya olunması Sovet kəşfiyyatı tərəfindən izlənilir və Stalinə məruzə edilirdi. 1941-ci il mayın 31-dəki növbəti "xüsusi məlumatda" hərbi kəşfiyyat İ.Stalinə məruzə etmişdi ki, Sovet İttifaqının sərhədlərində almanlar 94 piyada, 14 tank və 13 motorlaşdırılmış diviziya cəmləşdirmişlər. Doğrudur, piyada diviziyaların sayında səhv vardı. Faktiki olaraq 22 iyuna almanların 3 Ordu qrupunun ("Şimal", "Mərkəz" və "Cənub") tərkibində 84 piyada diviziya vardı.[1]

İ.Stalin başa düşürdü ki, Hitler son anda onu üstələyə bilər. Ona gərə də S.Timoşenko və G.Jukovla məsələni müzakirə edərək əvvəlcədən SSRİ Silahlı Qüvvələrinə səfərbərlik haqqında Fərman hazırlamışdı. İ.Stalin ağıllı idi və başa düşürdü ki, Fərman hələ məsələnin həlli demək deyildi. İki ildə aparılan təbliğat, faşizmin mahiyyətinə dair materialların nəşri və s. ümumi hazırlığın bir hissəsi idi. Digər tərəfdən, təxribat hazırlığı öz nəticələrini verməli idi. Bunun üçün ən yaxşı gün şənbə və baza günləri seçilmişdi. Əhali isə 22 iyunda baş verən gözlənilməz hücumu pislədilər, mitinqlər keçirildi, hərbi komissarlıqlara "ərizə axını başladı".

1941-ci il iyunun 22-də bazar günü səhərə yaxın ilk bombardmanlar baş verdi. Stalinin hadisəyə reaksiyasına psixoloji cəhətdən yanaşsaq o, çox pis vəziyyətə düşür, danışa bilmir. Zənnimizcə, burada təəccüblü heç nə yox idi. Təxribatı özü sifariş vermişdi, real nəticə isə gözlənildiyindən ağır oldu.

Sovet radiosu bazar günü musiqisi səsləndirdiyi bir vaxtda bütün dünya radiostansiyaları A.Hitler və İ.Ribbertropun bəyanatlarını oxuyurdu. 22 iyun bazar günü Sovet diplomatları çimərlikdə istirahət etdiyindən müharibə elan olunması haqqında notanı təqdim etmək üçün İtaliya Xarici İşlər Naziri günortayadək Sovet tərəfini tapmağa nail olmamışdı.[2]

Birləşmiş Krallığın səlahiyyətlisi Boqqaley 22 iyun saat 12-dək Molotovla görüşməyə nail ola bilmədi. Nazirin müavini A.Vışinski özünü yüksək tutaraq Böyük Britaniyanın Sovet İttifaqına hər hansı köməyinə dair

---

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014. – с.62.

[2] Yenə orada, – с.5.

məsələnin müzakirəsinə dair rəhbər göstərişin olmadığını bildirərək görüşdən imtina etdi.

Faktlar isə tamamilə başqa mənzərə yaradır. 1941-ci ilin mayiyununda SSRİ Silahlı Qüvvələri gizli strateji genişləndirilmə vəziyyətində idi. Ehtiyatda olanların səfərbərliyi, strateji yenidən qruplaşma və qoşunların cəmləşdirilməsi, qrupların operativ genişləndirilməsi ciddi rejimdə həyata keçirilirdi. Qərb vilayətlərinin qoşunları sərhəddə gecə aparılır, gündüzlər meşədə gizlədilirdi. Daxili vilayətlərin birləşmələri Qərbə göndərilirdi. Hətta Birliklərin komandanları hadisələrdən məlumatsız idilər. Ehtiyatda olanların çağırışı "təlim toplanışı" adı atında aparılırdı. SSRİ hökuməti ən son saata qədər Almaniyaya qoşunların sərhəddə cəmləşdirilməsi barədə heç bir iddia təqdim etməmişdi. Bundan başqa, SSRİ rəhbərliyinin rəsmi carçısı SİTA iyunun 14-də SSRİ ilə Almaniya arasında müharibə gözlənilmədiyi, tərəflərin hücum etməmək haqqında Paktın şərtlərinə ciddi əməl etmələri barədə sakitləşdirici bəyanat yaymışdı. Yaxınlaşan müharibə haqqında şayiələrin SSRİ və Almaniyaya qarşı düşmən qüvvələrin təbliğatı olduğu bildirilirdi.[1] Başqa sözlə, 1941-ci ilin iyununda Sovet İttifaqı genişmiqyaslı hərbi əməliyyatlara hazırlığı gizli üsullarla, mümkün dərəcədə ehtiyatla aparırdı.

Sadalananlardan bir sual ortaya çıxır. Hitler Almaniyasının hücumunun SSRİ üçün (Stalin üçün – M.Ə.) gözlənilməz olması və SSRİ-nin genişmiqyaslı hücuma hazırlığı faktlarını birləşdirsək daxili qarşıdurma yaranarmı? Əgər İ.Stalin alman qoşunlarının hücumunu gözləmirdisə, onda nə üçün minlərlə qoşun eşelonlarla sərhəddə göndərilirdi. Sərhədyanı vilayətlərin bazaları əsasında cəbhənin idarəsi nə üçün genişləndirilirdi? Artıq iyunun 19-da Almaniyanın hücumundan 2 gün əvvəl Moskvanın əmrinə görə səhra komanda məntəqələrində hərəkət başlamışdı. Deməli, Kreml sadalanan faktları xalqdan, o cümlədən yüksək çinli komandanlardan gizlədir, insanları soyuqqanlı olmağa vadar edirdi.

Məlumdur ki, 1939-cu ilin avqustunda SSRİ Almaniya ilə hücum etmək haqqında, 1941-ci ilin aprelində isə Yaponiya ilə bitərəf qalmaq barədə müqavilə imzaladı. Lakin bu müqavilələrə baxmayaraq, hər bir iştirakçı ölkə onların müvəqqəti xarakter daşıdığını başa düşürdü. R.Zorge alman səfirliyində ona olan sarsılmaz inamdan istifadə edərək Almaniyanın Sovet İttifaqına hücumunun tarixinin dəqiq göstərildiyi teleqram göndərmişdi: "Almaniya qoşunları Sovet İttifaqına 1941-ci il iyunun 22-də hücum edəcək". R.Zorgenin göndərdiyi həmin məlumatı yalan hesab edən İ.Stalin bu informasiyanı qulaqardına vurdu. Nəticədə alman qoşunlarının gözlənilməz hücumu sovet ordusunun ilkin mərhələdə darmadağın edilməsi ilə başa

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014. – с.6.

çatdı. Müharibənin başlaması barədə belə dəqiq məlumata baxmayaraq İ.Stalin R.Zorgeni nasistlərin xeyrinə ikili casusluqda ittiham edirdi.

Kim idi Rixard Zorge?

Rixard Zorge

Rixard Zorge 1895-ci il oktyabrın 4-də Bakının Sabunçu kəndində anadan olub. Onun atası milliyyətcə alman olan Adolf Zorge 1885-ci ildə Bakıya gələrək neft texniki vəzifəsində çalışıb. Rixard Zorgenin atası Adolf Zorge Karl Marks və Fridrix Engelsin silahdaşı olan Fridrix Zorgenin qardaşı oğlu idi. Onun anasının milliyyətcə rus olması da gələcək fəaliyyətində müəyyən rol oynayıb.

R.Zorge 13 yaşında, yəni 1898-ci ildə ailəsi ilə birlikdə Almaniyaya qayıdıb. O, 1914-cü ildə alman ordusuna çağırılıb və həmin vaxtdan 1918-ci ilə kimi bu ordunun tərkibində vuruşub. 1916-cı ildə Birinci Dünya müharibəsi cəbhələrinin birində yaralanaraq arxa cəbhəyə göndərilib. Hospitalda müalicə olunarkən sol sosialistlərlə tanış olaraq onların təsiri altına düşüb.

R.Zorge 1917-1919-cu illərdə Müstəqil Sosial-Demokrat, 1919-cu ildən etibarən Alman Kommunist Partiyasının üzvü olub. O, 1919-cu ildə Hamburq Universitetini bitirərək bir müddət pedaqogika və jurnalistika sahəsində də fəaliyyət göstərib.

1920-1923-cü illərdə Almaniyanın Axen, Vuppertal və Remşeyd şəhərlərində kommunist ideologiyasının təbliğinə rəhbərlik edən Zorge həm də Zolingen şəhərində partiya qəzetinin redaktoru olub. Almaniyada 20-ci illərin əvvəllərində daxili vəziyyət dəyişdiyindən və nasional-sosializmin getdikcə daha da güclənməsindən narahatçılıq hissi keçirən R.Zorge SSRİ-yə gələrək müxtəlif sovet idarələrində çalışıb. Bu illər ərzində beynəlxalq münasibətlərə dair bir sıra əsərlər yazıb. 1925-ci ildə R.Zorge Sovet İttifaqı Kommunist Bolşeviklər Partiyasının üzvü seçilib. 1930-1940-cı illərdə isə R.Zorge SSRİ-nin xeyrinə Almaniya və Yaponiyada casusluq edərək həmin ölkələr haqqındakı məlumatları Moskvaya göndərməklə məşğul olub.

Almaniyada hakimiyyətə keçmiş nasional-sosialistlərin əleyhdarı olmuş R.Zorge, nəyə görə 1939-cu ilin avqustun 23-dən 1941-ci ilin iyunun 22-nə kimi faşist Almaniyası ilə SSRİ-nin dostluq əlaqələrinə normal yanaşıb? Onun bu məsələlər haqqında necə düşünməsi haqqında elmi ədəbiyyatda heç bir məlumat olmasa da, müəyyən mülahizələr irəli sürmək mümkündür.

R.Zorge sovet casus şəbəkəsində fəaliyyətə başladıqdan sonra SSRİ-nin məqsədlərinin həyata keçirilməsinə xidmət edib. Hətta onun ürəyində hansı məsələ barəsində fərqli münasibəti olsaydı belə, bunu açıqlamağa o

zamankı rejim imkan verməzdi. Çünki əks təqdirdə onu da SSRİ-yə mühacirət etmiş alman kommunistlərinin aqibəti gözləyə bilərdi.

R.Zorge bir kəşfiyyatçı kimi çox böyük istedada malik idi. O, 1939-cu il sovet-alman müqavilələrinə inanan SSRİ rəhbərliyinə 1941-ci ilin yayında SSRİ sərhədlərinə toplanan alman diviziyalarının sayı, onların hücumunun vaxtı və hərbi əməliyyatların sxemi barədə dəqiq məlumatlar çatdırmışdı. Lakin Stalin bu məlumatlara inanmayaraq, bunu sovet-alman dostluğuna xələl gətirmək üçün düşmənlərin uydurduğu dezinformasiya hesab edilib.

Faşist Almaniyası SSRİ üzərinə hücuma keçdiyi dövrdə Uzaq Şərqdə militarist Yaponiyanın da hücum təhlükəsi var idi. Yaponiya Uzaq Şərqdə iddia etdiyi əraziləri işğal etmək üçün məqam gözləyirdi. Buna görə də Sovet qoşunlarının bir hissəsi bu təhlükəyə qarşı Uzaq Şərqdə mövqe tutmuşdu. Belə bir dövrdə Yaponiyadan kəşfiyyat məlumatları əldə etmək üçün R.Zorge həmin ölkəyə göndərilir. O, burada müxtəlif ad altında jurnalist kimi fəaliyyət göstərir.

1941-ci ilin oktyabrında Yapon polisi R.Zorgeni həbsə alır və uzun müddət onun ingilis casusu olduğu zənn edilir. Lakin sonradan onun SSRİ-yə işləməsi aşkarlanır və buna görə o, 1943-cü ilin sentyabrında ölümə məhkum olunur. Bir ildən sonra isə R.Zorge edam olunur. Ölümündən 20 il sonra, yəni **1964-cü il noyabrın 5-də ona Sovet İttifaqı Qəhrəmanı adı verilir.**[1]

Qeyd olunan faktları XXI əsrin əvvəllərində Viktor Suvorov cavablandırmışdı. Onun "Ledokol" ("Buzqıran")[2] kitabında açıq qeyd olunur ki, İ.Stalin müharibəyə hazırlaşırdı. Sovet hakimiyyətinin ilk illərindən həyata keçirilən kollektivləşdirmə, sənayeləşdirmə müharibəyə hazırlığa hesablanmışdı. Yaranmış şəraitdən istifadə edən İ.Stalin 1939-cu ilin avqustunda A.Hitleri müdafiə etmək (dəstəkləmək) barədə sonuncu qərarını qəbul etdi. İ.Stalin qərb dövlətlərinə – İngiltərə, Fransa və onların müttəfiqlərinə qarşı müharibəyə başlamaqda Hitlerə kömək etdi ki, başlanmış sürətli müharibə Avropanı dağıtsın, İ.Stalinin ordusu zəfər yürüşü ilə Avropaya daxil ola bilsin. 1939-cu il noyabrın 28-də fransız "Qavaş" agentliyi tərəfindən nəşr olunan "Stalinin 1939-cu il 19 avqust məruzəsi"ndə[3] plan haqqında məlumat əldə etmək olar. **Planda Avropaya hücum nəzərdə tutulurdu.**

1939-cu ilin payızında Avropaya hücumun konkret müddətini müəyyənləşdirmək mümkün olmur. Çünki müharibə yenicə başlanmışdı, mübarizə edən tərəflər hələlik gücdən düşməmişdilər. Bu planda Almaniya Stalinə zəif münaqişə tərəfi kimi görünür. Stalin Almaniyaya müxtəlif siyasi,

---

[1] 525-ciqəzet.-2009.-15may.-s.4.https://ru.wikipedia.org/wiki/%D0%97%D0%BE% D1% 80% D0% B3% D0% B5, %D0%A0%D0%B8%D1%85%D0%B0%D1%80%D0%B4

[2] Суворов, В. Ледокол / В.Сувроров. – Москва, 2000.

[3] Новый мир, 1994, №12.

psixoloji və iqtisadi kömək göstərir ki, müharibə onun darmadağın edilməsinə səbəb olmasın. Bununla əlaqədar bir mühüm anı qeyd etmək vacibdir. 1939-cu il avqustun 23-də Stalin Ribbentropla söhbətində bildirmişdi ki, "Biz özümüzə imkan verməməliyik ki, Almaniya uduzsun. 1939-cu il oktyabrın 18-də Ribbentrop çıxışında istifadə etməyi nəzərdə tutan mətni razılaşdırılmaq üçün Moskvaya göndərmişdi

İ.Stalinin antiqərb siyasətinin istiqaməti bir sözlə məhdudlaşmırdı. Bəllidir ki, Sovet ordusu Polşaya daxil oldu və ölkənin yarıdan çox ərazisini işğal etdi. Bu vəziyyət SSRİ ilə Böyük Britaniyanı müharibə həddinə çatdırdı. Sonra qərb demokratiyasının ənənəvi müttəfiqi Finlandiya ilə müharibə başladı. Diqqəti cəlb edən bir sənədə nəzər salaq. Rusiya Federasiyası Dövlət Arxivində saxlanılan sənəddən məlum olur ki, 1940-cı il martın 5-də SSRİ XDİK-nın Dövlət Təhlükəsizliyi Baş idarəsinin Xüsusi şöbəsinin rəis müavini, dövlət təhlükəsizliyi xidməti mayoru Osetrov Xalq Müdafiə Komissarı Voroşilova ünvanladığı qeydlərində yazırdı ki, martın 31-də Sibir hərbi dairəsinin 2-ci dərəcəli komandanı Kalinin Dairə Qırmızı Ordu evində beynəlxalq vəziyyət haqqında məruzə etmişdir. Kalinin məruzəsində 1940-cı ilin yazında müharibənin qaçılmaz olduğunu və bir tərəfdə SSRİ, digər tərəfdə isə Almaniya, Yaponiya və İtaliyanın dayanacağını, İngiltərə, Fransa və onun müttəfiqləri ilə müharibənin gərgin xarakter daşıyacağını bildirmişdir.[1] Osetrov bildirirdi ki, komandirlərin çoxu Kalininin çıxışını səhv hesab edirlər. Əslində isə 1940-cı il martın 5-də Osetrov özü, SSRİ-nin kimə qarış vuruşacağını müəyyənləşdirə bilməsə də, Voroşilovu məlumatlandırmaq qərarına gəlmişdi. "İngilis-fransız blokuna qarşı müharibənin qaçılmaz olduğunu" məruzəsində açıq bəyan edən Kalinin 1940-cı il iyunun 4-də general-leytenant rütbəsi aldı və öz dairəsinə komandanlığı davam etdirdi. Fikrimizcə, ordu dairəsində İngiltərə və onun müttəfiqlərinə qarşı müharibə haqqında təsadüfən danışılmamışdı. Aviasiya tarixçilərindən bəziləri (A.Stepanov və b.) 30-40-cı illər hüdudunda Sovet HHQ-nin antiingilis istiqamətində inkişafına diqqət çəkmişlər. Bir ton bomba yükü ilə 3.300 km uçan DB-3F bombardmançılarının istehsalı və aviasiya hissələrinin silahlandırılması davam edirdi. 1939-cu ilin yanvarında İ.Stalin konstruktorlar qarşısında 5000 km uçan bombardmançıların yaradılması vəzifələrini qoymuşdu. 1940-cı ildə silah və döyüş texnikası üçün ayrılmış 25 milyard rubldan 5,8 milyardı HDD Xalq Komissarlığına ayrılmışdı. Müharibənin başlanmasında dəniz dövlət Böyük Britaniya HDD-da 58, Almaniyanın 57, İtaliyanın 68, Yaponiyanın 63 sualtı qayığı, 1941-ci il iyun ayına SSRİ 267 sualtı qayığına malik idi. Qara dəniz HHD komandanlığının Qara dəniz HHQ əməliyyat planına olan qeydlərində (1940-cı il martın 27-dən tez olmayaraq) oxuyuruq: "Ehtimal olunan (mümkün – M.Ə.) düşmən: İngiltərə, Fransa, Rumı-

[1] ГАРФ, Фонд №1, опис №19, дело №70, лист – 18-19.

niya, Türkiyə. HHQ-nin vəzifələri: Mərmərə dənizi, Bosfor boğazı sularındakı gəmilərə zərbə vurmaq və Bosforda mina maneəsi qoymaq”.[1] Qara dəniz HHQ komandanının Baş Dəniz Qərargahının Qara dəniz donanması aviasiyasının 1940-1941-ci illərin hadisələrinin aşağıdakı inkişafı nəzərdə tutulurdu: “…Aviasiyanın hərbi fəaliyyət teatrında vəzifələri:

1. Qara dəniz. Kostansa, İzmail, Varna…güclü bomba zərbələri endirmək.

2. Egey dənizi: Soloniki, Smirna…

3. Aralıq dənizi: Aleksandriya, Hayfa, Suveyş kanalı, Malta, Brindihi adaları… Suveyş kanalına müntəzəm zərbələrlə İngiltərəni və Aralıq dənizi dövlətlərini bu kommunikasiyalardan normal istifadə etməsindən məhrum etmək”.[2]

İ.Stalin ikinci planını işləməyə başladı. Bu Almaniya ilə müharibə planı idi. Dünya müharibəsinin gedişində baş verən dəyişikliklər Stalinin Avropaya hücuma hazırlığını təxirə saldı. 1941-ci ilin baharında Stalin başa düşdü ki, növbəti ildə zərbə vura bilməyəcək, Qırmızı Ordu 1941-ci ilin sentyabrından sonra hücum edə bilər. Bu planın mahiyyəti haqqında 2 cildlik “Россия – XX век. Документы. 1941 год” (Rusiya – XX əsr. Sənədlər. 1941-ci il) kitabında xeyli sənəd toplanmışdır. Bunların içərisində SSRİ Xalq Müdafiə Komissarının və Qızıl Ordu Baş Qərargah rəisinin ÜİK(b)P MK-ya, İ.V.Stalin və V.M.Molotova “SSRİ Silahlı Qüvvələrinin Qərbdə və Şərqdə əsas strateji genişlənməsi haqqında məruzə qeydləri”ndə, “SSRİ Silahlı Qüvvələrinin Qərbdə və Şərqdə genişləndirilməsinin dəqiq strateji planı”na dair məruzə qeydləri diqqəti cəlb edir.

F.Şulenburq Almaniyanın SSRİ-də səfiri

1941-ci ilin 6 apreli İkinci dünya Müharibəsi tarixində anlaşılmaz (müəmmalı) günlərindən biri oldu. Hadisələrin xronologiyasını izləyək. Martın 26-dan 27-nə keçən gecə Belqradda hərbi çevriliş baş verdi. General Simonoviçin yeni hökuməti alman iddiasını rədd edərək kömək üçün Sovet İttifaqına müraciət etdi. Almaniyanın Moskvadakı səlahiyyətli səfiri F.Şulenberq Yuqoslaviya ilə müqavilə bağlamaq üçün vaxtın uğursuz seçildiyini və arzu edilməz təəssürat yarada biləcəyini V.Molotovun nəzərinə çatdırmasına baxmayaraq aprelin 3-də (çevrilişdən bir həftə sonra) Yuqoslaviya nümayəndələri Moskva ilə, Stalinin özü ilə dostluq və əməkdaşlıq haqqında müqavilə bağlamaq

[1] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014. – с.18.

[2] Российский Государственный Архив Военно-Морского Флота (РГА ВМФ), Фонд №Р-1877, опис №1, дело №195, лист – 1.

üçün danışıqlara başladı. 1941-ci il aprelin 6-da gecə 2-30-da Sovet-Yuqoslaviya müqaviləsi imzalandı. Müqavilənin imzalanmasından bir neçə saat sonra alman təyyarələri Belqradı bombaladı, alman qoşunları Yuqoslaviya ərazisinə soxuldular. Sovet İttifaqı özünün yeni dostuna kömək edə bilmədi. Aprelin 6-da, Moskva vaxtilə təxminən saat 16-da V.Molotov F.Şulenburqu qəbul etdi və Vermaxtın Yuqoslaviyaya soxulması haqqında rəsmi məlumatı dinləyərək melonxolik tərzdə: "Son dərəcə üzücüdür, bütün gücə baxmayaraq müharibənin genişlənməsi qaçılmaz oldu" – deyərək iradını bildirdi.[1]

1941-ci il aprelin 13-də dünya əhəmiyyətli hadisə baş verdi. Moskva-da SSRİ-Yaponiya arasında bitərəflilik haqqında Pakt imzalandı.[2]

Ölkə daxilində də dəyişikliklər baş verirdi. 1941-ci il mayın 5-də İ.Stalin SSRİ XKS sədri təyin olundu. Bu təyinata bütün ölkələr diqqət ayırsa da, sovet vətəndaşları təyinatı "hamılıqla bəyəndi" və ağıllı qərar hesab etdilər. Baş verən dəyişikliklər Avropa dövlətləri tərəfindən diqqətlə izlənilirdi. Sonralar, 1941-ci ilin payızında S.Krepps öz məruzəsində Xarici İşlər Naziri E.İdenə yazırdı ki, "…SSRİ-də xüsusi məqsədli işlər baş verir. 1 May paradından sonra İ.Stalinin baş nazir postuna təyinatı haqqında Fərman dərc olundu, şübhəsiz bu böyük siyasi əhəmiyyətli aktdır. Hamı təsdiq edir ki, bu addımla hansısa vacib məqsəd gizlədilir, ancaq heç kim əminliklə bilmir ki, bu nə deməkdir…".[3]

Hadisələri diqqətlə təhlil etsək görərik ki, 1941-ci il mayın 5-dək İ.Stalin SSRİ Ali Sovetinin deputatlarından biri idi, ancaq tam mütləq hakimiyyət əldə etdi. Həmçinin, 5 maya qədər V.Molotov əslində nominal olaraq SSRİ XKS-nin sədri idi və hər bir addım, hər bir qərar Stalinlə razılaşdırılırdı. Çünki Stalin ölkəni tək idarə edirdi, o yeganə diktator idi. 1941-ci ilin may ayının əvvəlinə nə dəyişdi?

1941-ci il mayın 24-də Stalinin kabinetində bir neçə saat çəkən müşavirə keçirildi. Müşavirədə:

– SSRİ XKS sədrinin müavini, xarici işlər naziri V.Molotov;

– SSRİ Xalq Müdafiə Komissarı S.Timoşenko;

– Baş Qərargah rəisi G.Jukov;

– Qırmızı Ordu Qərargahının Operativ idarəsinin rəisi N.Vatutin;

– Qırmızı Ordu HHQ Baş İdarəsinin rəisi Siqaçev;

– 5 qərb sərhədyanı vilayətlərin qoşunlarının komandanı, Hərbi Şuraların üzvləri və həmin vilayətlərin HH komandanları – iştirak edirdilər. Diqqət çəkən odur ki, SSRİ XKS yanında Müdafiə Komitəsinin sədri K.Voroşilov, Müdafiə Komissarının müavinləri, marşallar – S.Budyonnı,

---

[1] СССР-Германия: 1939-1945 гг. Сборник документов. Вильнюс, 1989, т.2. – с.156.

[2] Yenə orada, s.157.

[3] Http://svr.qov.ru/material/privaltical.htm

Q.Kulik, Şapoşnikov, ordu generalı Merestkov, Qırmızı Ordu Siyasi Təbliğat Baş İdarəsinin rəisi Zaporojets, HDD Xalq Komissarı N.Kuznetsov, Xalq Daxili İşlər Komissarı L.Beriya, ÜİK(b)P MK katibləri A.Jdanov və G.Malenkov müşavirəyə dəvət olunmamışdılar.

Müşavirədə müzakirə olunan məsələlər indiyədək məlum deyildir. Nə Sovet, nə də Rusiya Federasiyası tarixşünaslığında bu müşavirə haqqında danışılmır. İ.Stalinin ölümünə qədər yaşamış müşavirə iştirakçıları da öz memuarlarında müşavirə haqqında heç nə yazmamışlar. XXI əsrin əvvəllərində açılan 1941-ci ilin mayında keçirilən ÜİK(b)MK Siyasi Bürosunun iclaslarının protokollarının Xüsusi Qovluğunda[1] da heç bir işarəyə rast gəlinmir. Yalnız marşal A.M.Vasilyevski öz məqalələrində xatırladır ki, faşist Almaniyasının hücumundan bir neçə həftə əvvəl dairə operativ planına dair bütün sənədlər Baş Qərargah komandanlığına və müvafiq dairələrin qərargahlarına verilmişdi.[2]

Müşavirənin tərkibi onun müzakirə etdiyi məsələlərin hərbi əhəmiyyətli olduğunu göstərir. Müzakirədə marşallar, yüksək vəzifə tutan şəxslər deyil, ancaq dairələrdən general-leytenantlar iştirak edirdi. Fikrimizcə, müşavirədə İ.Stalin Almaniyaya qarşı müharibə planını gələcək cəbhə komandanlarının nəzərinə çatdırmışdır. Hücum vaxtı isə 1941-ci il iyulun ortaları – avqustun sonunu nəzərdə tutulurdu.[3] Bu İ.Stalinin 3 №-li planı idi.

Müharibəyə hazırlıqla əlaqədar digər faktlar da vardır. Məsələn, 1941-ci il mayın 30-da 45 günlük "təlim toplanışına" çağırılan 147-ci Atıcı Diviziyanın Tibbi-sanitar alayının hərb həkiminə bildirilmişdi ki, yaxın vaxtlarda Almaniya ilə müharibə gözlənildiyindən tərxis olunma olmayacaq. 200-cü Atıcı Diviziyanın 661-ci alayın komandirinin adyutantı kapitan Kraska bildirmişdi ki, hələ 1941-ci ilin mayında zabitlər arasında belə fikir gəzirdi ki, müharibə iyulun 1-dən sonra başlayacaq.[4] 44-cü atıcı diviziyanın 25-ci alayının komandiri mayor Koçkovun sözlərinə görə …ruslar Almaniyaya 2-3 həftədən sonra hücum edəcəklər (təxminən 22 iyundan sonra – M.Ə.). Digər bir fakt. 1941-ci il iyunun 17-də ÜİK(b)P MK Siyasi Bürosu orta siyasi tərkibin kompleksləşdirilməsi üçün orduya 3700 siyasi işçi çağırılması haqqında qərar qəbul etmişdir. Çağırış 1941-ci il iyulun 1-dən avqustun 1-dək keçirilməli idi.[5]

Müharibəyə hazırlıqda SSRİ-nin 1939-cu ilədək Almaniya ilə hərbi-texniki əməkdaşlığı böyük rol oynadı.

---

[1] РГАСПИ, Фонд №17, опис №162, лист –34-35.

[2] Солонин, М. Запретная правда о Великой Отечественной. Нет блага на войне! / М.Солонин. – Москва, 2014. – с.35-36.

[3] Yenə orada.

[4] Yenə orada, s.42.

[5] Yenə orada, s.44.

Xatırlatma:

SSRİ-nin Almaniya ilə hərbi-texniki əməkdaşlığı çox ciddi olmuşdur. 1932-ci ildə Almaniyanın maşınqayırma sənayesi məhsullarının 1/3 SSRİ-yə göndərilirdi. Xarkov traktor zavodunda istehsal olunan tırtıllı dartıcı (yedəkçi) "Kommunar" alman artilleriya "Qanomar" dartıcısı idi. Traktorun formasını almanlar vermişdi.

"İ-7" təyyarəsi FKQO-nun sifarişi ilə konstruktor Ernest Xeynkel tərəfindən hazırlanmış qırıcı HD-37-dir. "S" sualtı qayıq seriyası ("средняя" – orta sözündədir, xalq arasında «Сталинец» adlanır) əvvəlcə açıq "N" literi daşıyırdı-layihə almanlarındır. Beləliklə, Hitlerin zamanında Almaniyadan gələn xammal siyahısını artırmaq olar.

SSRİ Almaniyadan kredit götürmüş, onlardan maşınlar və dəzgahlar almış, əvəzini xammalla ödəmişdir. Nəticədə SSRİ-nin müasir sənayesi yaranmışdır ki, müharibədə Almaniyanın məğlubiyyətinə kömək etdi.

SSRİ Almaniyadan sonuncu 200 milyon marka krediti 1939-cu ildə, "Molotov Ribbentrop Paktı" ərəfəsində götürmüşdü. Nəzərə alsaq ki, Almaniyanın qızıl ehtiyatı 500 milyon marka idi, onda kreditin həcmi və əhəmiyyəti haqqında fikirləşməyə dəyər. Fikrimizcə, hücum etməmək haqqında müqavilə SSRİ-dən çox Almaniyaya lazım idi. F.Forstmayer və X.Folkman «Германский рейх и Вторая мировая война» kitabında yazırlar ki, "Sovet İttifaqı Almaniyanı ticarət partnyoru kimi görürdü". 1940-cı ilin sonunda SSRİ Almaniyaya taxıl göndərilməsini 10 % artırmağa razılaşmışdı. Özündə çətinlik hiss etməsinə baxmayaraq Almaniya SSRİ-yə alüminium və kobalt göndərilməsini yüksəltməli idi.

Müharibə vaxtı almanlar Lipetskinin güclü bombalamadılar. Ancaq qonşu Yelets ağır bombardmana məruz qaldı. Gerinqin təyyarəçiləri Lipetskiyə toxunmadılar. Çünki onlardan çoxu Lipetsk təyyarəçilik məktəbini bitirmişdilər. Aviasiya Reyxsmarşalı da həmin məktəbdə oxumuşdur.

Lipetski aviasiya məktəbi almanlar tərəfindən onların vəsaiti ilə yaradılmışdır. Təyyarəçilərin hamısı alman vasitəçiləri tərəfindən Argentina üçün alınmış, ancaq Lipetskidə almanlar görünmüşlər. Alman kursantlar Lipetskə turist adı ilə şəxsi firmanın əməkdaşı kimi gəlmiş, 1925-1933-cü illərdə məktəbi alman təlimatçılarının rəhbərliyi ilə 360 təyyarəçi, həmçinin 45 sovet aviamexaniki bitirmişdir.

"Komsomolskaya pravda" yazmışdı ki, Gerinqin burada sevgilisi olmuşdur. DTK arxivindən Lipetskili Nadejda Qoryaçevanın Gerinqə yazdığı məktub tapılmışdır. Bu qız yerli stansiya baxıcısının qızı olmuşdur. Bir sözlə, şayiə gəzmişdir ki, vermaxt üçün kadrlar 30-cu illərdə SSRİ-də hazırlanmışdır[1]. Başqa sözlə, almanlar alman pulu ilə həm özləri, həm də

[1] Дьяконов, Ю.А., Бушуева, Т.А. Фашистский меч ковался в СССР. Красная армия и рейхсвер: тайные сотрудничества 1922-1933. Неизвестные документы / Ю.А.Дьяконов, Ю.А.Бушуева. – Москва, 1992. – с.47.

SSRİ üçün təyyarəçilər hazırlamışlar. Hitler hakimiyyətə gəldikdən sonra məktəb işini dayandırmış, ancaq bütün avadanlıqlar SSRİ-yə qalmışdı.

Kazan Tank Məktəbi reyxsver üçün 30 tankçı və Fəhlə Kəndli Qırmızı Ordusu (FKQO) tank hissələri üçün 65 nəfər rəis heyəti hazırlamışdı. Alman kursantları içərisində Quderianın da adı çəkilir. O, Kazanda təftişçi kimi olmuşdur. Hitlerçi hərbi sərkərdələr SSRİ-yə manevrlərin müşahidəçiləri kimi ezam edilirdilər. Quderian da Kazan şəhərinə 4-10 günlüyə gəlmişdi. Saratov vilayətinin Volsko rayonunda olan "Tomka" kimyəvi obyektində də eyni vəziyyət olsa da, vəzifə başqa idi. Burada təlim yox, elmi-tədqiqat aparılırdı. Y.A.Dyakonov və T.S.Buşuyevanın[1] kitabında qeyd edilir ki, 1931-ci ildə Moskvada gələcək İkinci dünya müharibəsi sərkərdələri Model, Qorn, Kruze, Fayqe, Brauxiç, Keytel, Manşteyn, Kreçmer və başqaları əlavə hazırlıq keçmişlər.

İ.Pıxalov «Великая оболганная война» (Москва, 2008) kitabında yazır ki, polkovnik Brauxiç və podpolkovnik Keytel 4 gün Belorusiya hərbi dairəsində olmuşdu.[2] Ümumilikdə, SSRİ-də 200 təyyarəçi, 30 tankçı alman hazırlanmışdır. Nə qədər kimyəvi məhsul və bu sahə üzrə mütəxəssis hazırlandığı bizə məlum deyil. Bəhs olunan dövrdə Almaniyanın özündə də gizli yay məktəbləri fəaliyyət göstərmiş və 200-dək hərbi təyyarəçi hazırlanmışdır. Versal müqaviləsinin qadağalarına baxmayaraq Almaniya müasir silahlara müvəffəqiyyətlə yiyələnmişdir. Birinci Dünya müharibənin sonunda Almaniyada artıq 2700-dən artıq döyüş təyyarəsi, 70 tank vardı.

SSRİ-də birinci tank 1920-ci ildə meydana çıxmışdır. Birinci mülki «Борец за свободу тов. Ленин» tankı Nijni Novqorodun «Красная Сормова» zavodunda buraxılmışdır.

Kadr mübadiləsi qarşılıqlı olmuşdur. Uboreviç, Eydman, Yakir, Dıbenko və digər 156 qırmızı komandir hərbi idarə xətti ilə Almaniyaya getmiş, alman kəşfiyyatı onları ələ almışdır. Deməli onların sonralar repressiyaya məruz qalmasında Almaniyada olması mühüm rol oynamışdır.

Bir sözlə, Almaniya beynəlxalq öhdəlikləri pozaraq gizli surətdə sovet Rusiyasının mərkəzlərində hərbi texnikanı yaratmış, sovet tərəfi Versal müqaviləsini imzalamadığından heç bir öhdəliyi pozmamış, yalnız alman biliyindən və təcrübəsindən məccani faydalanmışdır.

İstər Hitler, istərsə də Stalin çalışırdı ki, onların yaratdığı rejim mədəniyyət və incəsənət xadimləri, ziyalılar tərəfindən müdafiə olunsun. Məsələn, Göbbels 1933-cü ilin mayında teatr direktorlarının toplantısında bil-

---

[1] Дьяконов, Ю.А., Бушуева, Т.А. Фашистский меч ковался в СССР. Красная армия и рейхсвер: тайные сотрудничества 1922-1933. Неизвестные документы / Ю.А.Дьяконов, Ю.А.Бушуева. – Москва, 1992. – с.47.

[2] Пыхалов, И. Великая оболганная война / И.Пыхалов. – Москва, 2008.

dirmişdir ki, mədəni həyatın bütün hadisələri düşünülmüş siyasi-ideoloji təbliğatla əlaqəli olmalıdır.[1]

Sovetlərdə də eyni prinsip başlıca istiqamət idi. Ədəbiyyat və incəsənət dövlətin siyasətinin ifadəçisinə çevrilmişdi. Stalin "sosializm realizmi" prinsipini dəstəkləyərək öz hakimiyyətini möhkəmləndirmək üçün ondan bəhrələnirdi.

Məlumdur ki, İ.Stalin repressiyası səbəbli xaricə mühacirət etmiş yazıçılar və jurnalistlər Sovet Rusiyasının siyasəti, xüsusən Stalinin siyasəti ilə barışmaq istəmir, Almaniyanın SSRİ-yə müdaxiləsini açıq şəkildə dəstəkləyirdilər. Müharibədə hər cür hadisə baş verir: könüllü əsir düşənlər də olur, düşmənlərlə əməkdaşlıq edənlərə də rast gəlinir. Düşmənin işğal etdiyi ərazilərdə qalmış əhalinin bəzi hissəsi sadəcə yaşamaq üçün hitlerçilərlə əməkdaşlıq etdilər. Əsir düşənlərin bir hissəsi antisovet legionlarında döyüşdülər (əslində məcbur edildilər, ya ölüm, ya da gələcəyə ümid verən döyüş- hər ikisinin sonunda ölüm dayanırdı). Ancaq 1920-1930-cu illərin repressiyalarından xarici ölkələrə qaçan bəzi adamlar, o cümlədən A.İ.Denikin, mühacirlər S.V.Raxmaninov, İ.A.Bunin, F.İ.Solyarin və b. yüksək vətənpərvərlik göstərdilər.

İşğal olunmuş ərazidə yaşayan əhalinin vəziyyəti, alman faşistlərinin fəaliyyəti haqqında xeyli elmi iş yazılıb. Təbii ki, işğal ərazilərində insanların həyatı çətin və mürəkkəb idi. Ərzaq qıtlığı, alman təbliğatı öz rolunu oynasa da, əhalinin böyük əksəriyyəti dişini sıx tutaraq bütün alçalmalara dözdü, qələbəyə inamını itirmədi. Xalq müharibəsi hamını birləşdirdi. Bu müharibədə qələbə üçün əsas şərtlərdəndir. Qeyd edək ki, formasından və mövcud vəziyyətdən asılı olmayaraq xalq satqını sevməmiş və bu gün də sevmir.

İlk olaraq C.Merejkovski (1865-1941) radio ilə çıxış edərək vermaxtı müdafiə etdi. P.N.Krasnovun (1869-1947) «От двуглавого орла к красному знамени (1920-1921)» əsəri[2] böyük populyarlıq qazandı. General Krasnov müharibə başlanan kimi qələmini kazak xəncəri ilə əvəz etdi, kazak hərbi birləşməsi formalaşdırdı və Qırmızı Orduya qarşı hərbi əməliyyatlarda iştirak etdi. Lakin müharibənin sonunda ataman əsir düşdü, məhkəməyə verildi və Lefertova həbsxanasına göndərildi.[3]

1929-cu ildə Sovet İttifaqından sürgün olunan L.D.Trotski (1879-1940) stalinizmi, şəxsən Stalini ifşa etməyə başlamışdı. Stalin Trotskinin mövqeyini qəbul etmirdi və onun hərəkətlərindən qorxuya düşərək Beriyaya onu aradan qaldırmaq haqqında göstəriş verdi. XDİK agenti Naum Eytin-

---

[1] Алан Булок. Сталин и Гитлер. Т.1. Смоленск, 1998. – с.577.

[2] Краснов, Петр Николаевич (1869-1947). От двуглавого орла к красному знамени, 1894-1921: роман в 4-х томах / П.Н.Краснов. – Изд. 2-е, пересм. и испр. авт. – Берлин: Изд-во О.Л.Дьяковой, 1922.

[3] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004. – с. 285.

qonun Meksikada keçirdiyi əməliyyatda ağır yaralanan Trotski, nəhayət İspaniya inqilab ordusunun keçmiş leytenantı **Ramon Merkardu** tərəfindən alpinist baltası ilə öldürüldü.[1]

Yuxarıda qeyd olunduğu kimi, bütün ideoloji vasitələrin, o cümlədən nəşr olunan əsərlərin üzərində ciddi nəzarət var idi. Bu sahədə hər hansı "səhv addım" çox ciddi qarşılanır və cəzalandırılırdı. A.Tolstoyun İvan Qroznı haqqında dialogiyasının taleyi də elələrindəndir. Doğrudur, əsər tamaşaya qoyuldu və bununla xalqa bildirilirdi ki, pyes haqqında Stalinin heç bir iradı yoxdur. Əslində isə, Stalinin söhbətindən Tolstoy nəticə çıxarmamışdı.

Əsərlə tanışlıq göstərir ki, Stalini narahat edən bir çox məsələlər pyesdə yer almışdı. "Fəhlə-kəndli qrafı" yolverilməz müzakirələrə imkan yaratmışdır.[2] Tolstoyun qeyd kitabçasındakı aşağıdakı sətirlər Stalinin narahatlığına aydınlıq gətirə bilər. A.Tolstoy yazmışdı:

"Müharibənin sonu artıq hiss olunur. Rusiya necə olacaq? On il biz şəhərləri və təsərrüfatı bərpa edəcəyik. Sülhdən sonra Yeni İqtisadi Siyasət olacaq, lakin bu əvvəlinciyə bənzəməyəcək. Bu siyasətin mahiyyəti kolxoz quruculuğunu, dövlətin iri ticarət və istehsal vasitələri üzərində ağalığı saxlamaqdır. Şəxsi təşəbbüs üçün imkan yaradılmayacaq, halbuki bizim qanunvericiliklə və quruluşumuzla ziddiyyət təşkil etmir. Ancaq formaca bu alqışları sevən aparat və yeni dövlət məmurlarından ibarətdir. Öz həyatını qurban verənlər qalib gələcəklər. Müharibədən qayıtdıqdan sonra xalq heç nədən qorxmayacaq, tələbkar və təşəbbüskar olacaq. Sənətlər parlayacaq, bütün artellər öz məhsullarını satmaq uğrunda mübarizə aparacaqlar. Keyfiyyət kəskin qalxacaq. Bizim rubl dünya valyutasına çevriləcək. Ola bilsin ki, bütün dünyada vahid valyuta olacaq. Müharibəyə qədərki Rusiyanın hasarları söküləcək. Rusiya öz artımı və bütün cəhətləri ilə diqqəti cəlb edəcək və çiçəklənəcəkdir".[3]

Göründüyü kimi, A.Tolstoy müharibədən sonrakı vəziyyəti görür və yeniliyə inanırdı. Stalin isə hesab edirdi ki, müharibədən sonra ölkədə qayda-qanun yaratmağın yeganə yolu qorxu olmalıdır. Bunu sonrakı hadisələr təsdiq etdi.

A.Tolstoyun taleyi faciəli oldu. İ.Stalin SSRİ Yazıçılar Birliyinin sədri A.Fadayevi yanına çağıraraq A.Tolstoyun və İ.Erenburqun xarici cəsurlar elan edilməsini tələb etdi. Stalinin nifrəti haqqında məlumat A.Tolstoya çatandan az sonra o "xəstələndi" və 1945-ci il fevralın 23-də qələbəni görmədən vəfat etdi. Pyesin taleyi faciəli finalla yekunlaşdı. 1944-cü ilin oktyabrındakı ciddi tənqiddən sonra tamaşa yeniləşdirilmiş variantda 1945-ci il

---

[1] Алан Булок. Сталин и Гитлер. Т.1. Смоленск, 1998. – с.285.

[2] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, кн.1, 2004. – с.150.

[3] Yenə orada.

martın 3-də, yazıçının ölümündən bir neçə gün sonra Moskvada Kiçik Teatrda oynanıldı. Bununla da, Stalin xalqa göstərmək istədi ki, tamaşanın A.Tolstoyun ölümü ilə heç bir əlaqəsi yoxdur və yazıçı həqiqətən "xəstəlikdən" ölmüşdür. Bir müddət keçdikdən sonra – MXAT-da dialogiyanın ikinci hissəsinin tamaşaya qoyulmasına icazə verildi. Tamaşada baş rol Xmelyevə tapşırıldı. Ancaq tamaşaçılara onu səhnədə görmək qismət olmadı. O, 1945-ci il noyabrın 1-də məşq zamanı İ.Qroznunun paltarında 44 yaşında səhnədə keçindi.[1]

İ.Stalin və A.Hitler aldadıcı, populist şüarlara üstünlük verirdilər. Əslində isə ölkədə və rəhbərlikdə təmizlik aparır, kütləvi qırğınlar törədirdilər. Bu prosesdə İ.Stalin "sinfi mübarizəyə", Hitler isə "irqi təmizləməyə" üstünlük verirdi. Maskalanmış siyasətin nəticəsi idi ki, İ.Stalin "**ata**", "**rəhbər**" obrazında təbliğ olunur, Hitlerə isə "**fürer**", "bizim ideologiyamız – Adolf Hitler" deyirdilər.

Müharibə dövründə mənəvi həyata olan təsir, nəzarət sistemi qismən yumşaldıldı. Müharibəyə qədər susmağa məcbur olan yazıçılar, şairlər, bəstəkarlar öz əsərlərini çap etdirməyə başladılar. Bu əsərlərin başlıca süjetini vətənpərvərlik istiqaməti təşkil edirdi. Bütün bunlar isə müvəqqəti tədbirlər olub totalitar rejimin mahiyyətini dəyişdirmədi. Baş verənlər müvəqqəti, müharibənin doğurduğu çətinliklər ilə əlaqədar idi. Yenə də hakimiyyət Kommunist Partiyasının inhisarında idi. Kollektivləşdirmə sistemi əvvəlki kimi siyasi kurs olaraq qalırdı. Milyonlarla insan QULAQ-da saxlanılırdı. Kütləvi təqib davam edirdi. Cərimə batalyonları təşkil olunurdu. Bütün bunlara baxmayaraq, hətta QULAQ-da belə vətənpərvərlik ruhu hökm sürürdü, mühakimə olunanlar cəbhəyə göndərilmələrini xahiş edir, Vətən uğrunda ölməyə hazır olduqlarını bildirirdilər.[2]

İ.Stalinlə işləyən hərbi sərkərdələr, hətta xarici ölkələrin hökumət başçıları onun haqqında ən yaxşı sözlər söyləmişlər. A.M.Vasilyevski yazırdı ki, "…Stalində təəccüb ediləcək güclü yaddaş vardı. Bu səbəbdən də ona daimi arayışlar lazım olmurdu. Cəbhədəki vəziyyəti, hərbi sərkərdələrin müsbət və çatışmayan cəhətlərini yaxşı bilirdi. Onda böyük təşkilatçılıq bacarığı var idi. O özü çox işləyirdi və ətrafdakıları da işləməyə məcbur edirdi".[3] G.K.Jukov yazır ki, Stalin iclası girişsiz açar, sakit, məsələnin mahiyyətindən danışardı. Lakonik idi, fikrini aydın ifadə edərdi. Əgər Stalin iclasa hazır qərarla gəlmişdisə, onda mübahisə qalxmazdı.[4]

N.S.Xruşov xatirələrində yazır ki, "Mən Moskva şəhər partiya komitəsində işlədiyim zaman Stalinlə çox tez-tez ünsiyyətdə olurdum. Onu din-

---

[1] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004, кн. 2. – s.151.

[2] Бофф, Дж. История Советского Союза. Т.2 / Дж Бофф. – 1990. – с.161.

[3] Yenə orada, с. 486-490, 192.

[4] Жуков, Г.К. Воспоминания и размышления /Г.К.Жуков. – Москва, 1969, с.188-191.

ləyir, hətta ondan bu və ya digər məsələlər üzrə lazımi göstərişlər alırdım və sözün birbaşa mənasında Stalinə məftun idim. Mən bütünlüklə Stalinin cazibə qüvvəsinin və sehrinin əsiri olmuşdum".[1]

ABŞ Moskvadakı səfiri Averell Harriman Stalini qiymətləndirərkən deyib: "Bəli Stalin cani idi. Amma zəkası, hakimiyyəti, hiyləgərliyi və ən azından müharibə illərində sərgiləndiyi insani həssaslığı ilə Fraklin Ruzveltdən daha təchizatlı, Çörçildən daha həqiqi və bəzi aspektlərdən yanaşdıqda ən təsirli müharibə lideri idi.[2]

U.Çörçill Stalinin şəxsiyyətinin böyüklüyü haqqında deyirdi: "Stalin Yalta konfransı keçirilən zaman zala girərkən, biz hamımız sanki komanda verilmiş kimi ayağa durduq və maraqlısı da o idi ki, biz fərəqət vəziyyətində dayanmışdıq...".[3] Çörçill deyirdi: "Rusiyanın ən böyük xoşbəxtliyi ondadır ki, tarixin ağır sınaq illərində ona dahi və yenilməz sərkərdə Stalin rəhbərlik etmişdir.

O, bizim yaşadığımız sərt dövrümüzə tamamilə uyğun olan görkəmli, məşhur şəxsiyyət idi. Stalin olduqca mürəkkəb şəxsiyyət idi. O, nəhəng bir imperiya yaradıb özünə tabe etmişdir. O, bizi açıq şəkildə imperialist adlandırır və imperialistlərə qarşı da vuruşmağa məcbur edir, düşmənini öz düşmənlərinin əli ilə məhv edirdi".[4]

İ.Stalinin yanında yemək zamanı hətta çox adam olduqda belə ofisiantlar xidmət etmirdilər. Onlar lazım olan bütün şeyləri yemək otağına gətirər və çıxıb gedərdilər. Stolun üstünə əvvəlcədən qaşıq, çəngəl, bıçaq, çörək, konyak, araq, turş şərab, ədviyyat, duz, göyərti, tərəvəz və göbələk qoyulurdu. Bir qayda olaraq kolbasa, vetçina və digər qəlyanaltı verilmirdi. Stalinin konservdən xoşu gəlmirdi.

Böyük qablarda duru xörək, bir qədər aralıda başqa stolun üstünə qoyulurdu. Orada xeyli təmiz boşqab olardı. İ.Stalin qazanlara yaxınlaşar, qapaqlarını qaldırar və ora baxaraq heç kəsə müraciət etmədən ucadan deyərdi: – Aha, sup… Bu da balıq şorbası…Bu da borş…Borş tökək. – Özü xörəyi boşqaba tökər, sonra stola apararDı.[5]

Araşdırmalara görə Stalinin milli məsələyə dair siyasətində yanlışlıqlar olduğu və deformasiyaya uğraması, milli məsələyə ikili münasibəti nəticəsində milli respublikalarda millətlərarası münasibətlərin düzgün tənzim edilmirdi.[6] Stalin hesab edirdi ki, "Ruslar və ukrainlər, başkirlər və belaruslar, gürcülər və azərbaycanlılar, ermənilər və dağıstanlılar, tatarlar və

---

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – s.47.

[2] http://etatist.com/xeber/13124-stalin-atatrk-haqqında-n-deyib.html http://etatist.com/xeber/13124-stalin-atatrk-haqqında-n-deyib.html,http://modern.az/articles /49349/1/

[4] Stalin. Yalan və gerçəklik.http://kommunist.biz/stalin-yalan ve gerşeklik/

[5] Ştemenko, S.M. Baş ştab müharibə illərində / S.M.Ştemenko. – Bakı, 1973. – s.267-268.

[6] Sovet İttifaqı Kommunist Partiyasının tarixi. – Bakı, 1964. – 863 s.

qırğızlar, özbəklər və türkmənlər-onların hamısı proletariat diktaturasının möhkəmləndirilməsində maraqlıdırlar...”.[1] Bu səbəbdən də, sosialist cəmiyyətində sinfi mübarizənin kəskinləşməsi ilə eyni vaxtda “yerli” və “burjua” millətçiliyinə qarşı repressiya güclənirdi. Dmitri Volkoqonov yazır ki, “Stalin 1937-1939-cu illərdə yüksək komanda tərkibinin 3 dəfədən çoxunu məhv etdi. General rütbəsinin 1940-cı ildə verilməsinə baxmayaraq, müharibədə ölənlər, yaradan həlak olanlar, itkin düşənlər və b. birlikdə 600-dək general itirildi. Bütünlükdə orduda komanda və siyasi tərkibdən 43 min adam repressiya olundu”.[2]

Stalinin müharibə dövründəki fəaliyyətində ikilik özünü göstərmişdi. İlk dövrlərdə tələsik qərarlar faciələrə gətirib çıxarmışdı. Hərbi təhsili olmadığı üçün hərbi mütəxəssislərin və ətrafdakıların fikirlərinə şübhə ilə yanaşar, hər hansı bir qərarın qəbul edilməsində uzun müddət tərəddüd edərdi.

Müharibənin üçüncü ilində Stalinin rəhbərlik stili qismən dəyişmişdi. Müharibənin ilk illərinin acı təcrübəsi ona tabeliyində olanlara qulaq asmağı öyrətdi. Ancaq totalitar rejimin təşkilatçısı olan “ellər atası”nda tabeliyindəkilərin hərəkətlərinə şübhə ilə yanaşma ömrünün sonunadək qaldı.

İ.Stalin terrora, A.Hitler təbliğata üstünlük verirdi. Hər ikisinin də arxasında partiya dayanırdı. Hər iki ölkədə həmkarlar və gənclər təşkilatları minlərlə insanı öz ətrafında birləşdirmişdi və onlar bu insan kütləsindən məqsədyönlü istifadə etməyi bacarırdılar.

1926-cı ildə Baldur fon Şrakın rəhbərliyi ilə yaradılan “Hitler Yunqend” ə (Hitler gənclər ittifaqı) 1936-cı ildə 10 yaşından 18 yaşına qədər olan bütün gənclər məcburi qəbul edilmişdilər.[3] Sovetlərdə komsomol sıralarında 1936-cı ildə 4 milyon nəfər var idi. Artıq 1939-cu ildə onların sayı 9 milyon nəfərə çatmışdı. M.Ə.Rəsulzadənin dediyi kimi, komsomol sovet hökumətinin tələsi idi.

Müharibə tarixinə dair kitablarda, xatirələr və memuarlarda hədəf **İ.Stalindir**. Stalin cinayətkar, terrorçu, qeyri-demokrat kimi təqdim edilir, bəzən Hitlerlə eyniləşdirilir. Onda qərb həmkarlarımızdan sual olunur, Daladye və Çemberlen nə ilə Stalindən fərqlənirdilər? Onlar ələ keçirmək istədikləri ölkələrdə insanlar süd gölündə üzəcəkdilər? Yaxud, Ruzvelt, Çörçil, V.Stalin və Hitlerin məğlubiyyətinə nə üçün çalışırdılar? Birinci qrup işğal etdikləri ölkələrin sərvətlərinə yiyələnmək istəmirdimi? ABŞ və İngiltərə Avropada öz mövqelərini qorumaq və artırmaq uğrunda çalışmırdı? Amma bir həqiqət danılmazdır, İ.Stalin həm hərbi, həm də siyasi cəhətdən müttəfiqlərinə qalib gəldi.

---

[1] Сталинские депортации. 1928-1953: / Под общ. ред. акад. А.Н.Яковлева / – Москва, 2005. – с. 49.

[2] Там же, – с. 279.

[3] Алан Булок. Сталин и Гитлер. Т.1.Смоленск, 1998. – с.74.

Bir qrup tarixçilər yazırlar ki, **İ.Stalin əslində müttəfiqləri və Hitler üzərində 1939-cu ildə qələbə çalmışdı**. 1939-cu ildə başlanan hücum etməmək haqqında müqavilə Hitlerin və Qərbin məğlubiyyətinin xəbərdaredici zəngi idi. İngiltərə və Fransanın, o cümlədən ABŞ-ın "Münhen sövdələşməsi"nə və "anşlüsə" yaşıl eynəkdən baxmasının nəticəsi oldu. Medinski yazır ki, "…Rusiya imperiyasının sərhədlərinin bərpası təkcə Kremlin sağ bolşevik elitasının maraqlarının ödənilməsinə hesablanmamışdı. Bu geosiyasi maraqlardan irəli gəlib bütün rus xalqının maraqları naminə edilmişdi".[1]

Təhlillər göstərir ki, İ.Stalin usta menecer idi. O qərarları təkbaşına qəbul etsə də, əvvəlcə ətrafındakıları səbir və təmkinlə dinləyir (bunu bütün rəhbər heyət, hətta müxalifətdə olanlar təsdiq edir), təhlil edir, nəticə çıxarırdı. Doğrudur, qeyri-hüquqi dövləti effektiv idarə etmək asan idi, ancaq təkbaşına qəbul edilmiş qərarlar öz müsbət nəticəsini verirdi. Məsələn, 227 №-li «**Ни шагу назад**» əmri öz nəticəsini vermədimi? Yaxud, əsgərlərdən tutmuş ordu komandanlarına qədər nəzarət olmasaydı, müharibənin taleyi necə olacaqdı, bax bu sual hamını düşündürməlidir. Ona görə də, nəzarət bütün pillələrdə təşkil olunurdu. Məsələn, müharibənin əvvəlindən – 1941-ci ilin iyunundan oktyabrın 10-dək XDİK Xüsusi şöbəsi və XDİK mübarizə dəstəsi 657.364 nəfər öz hissəsini qoyan və cəbhədən qaçan hərbi qulluqçuları saxladı. Onlardan Xüsusi şöbə 25.878 nəfəri həbs etdi, qalan 632.486 nəfərdən hissə formalaşdırıldı və yenidən cəbhəyə göndərildi. Xüsusi şöbənin həbs etdiklərindən 1505 nəfəri casus, 3-8 nəfəri təxribatçı, 2621 nəfəri satqın, 2643 nəfəri qorxaq və çaxnaşma salan, 8772 nəfəri dezertir, 3987 nəfəri təxribat şayiələri yayan, 4371 nəfəri başqaları idi. Xüsusi şöbənin qərarı və Hərbi Tribunalın hökmü ilə 10.201 nəfər, onlardan 3321 nəfəri sıra qarşısında güllələndi.[2] Bu baxımdan ingilis tarixçisi D.Xoskinq "Sovet İttifaqının tarixi" kitabında doğru qeyd edir ki, hitlerçi insana nifrət, təcavüzkar rejim ancaq qərarsız, rəhmsiz rejimə qalib gələ bilərdi. Sovet siyasi sistemi müharibə dövrünün tələblərinə yaxşı uyğunlaşdırılmışdı.[3]

Müharibə tarixində "**Molotov-Ribbentrop Paktı**" haqqında fikirlər daim mübahisə mövzusu olmuşdur. Pakt haqqında müxtəlif fərziyyələr irəli sürülmüşdür. Fikrimizcə, bu paktın mahiyyətini ən yaxşı İ.**Stalin** və **A.Hitler** bilirdi. Ən vacibi isə bu Pakt reallığın nəticəsi hesab olunmalıdır. Tərəflərdən biri – SSRİ-nin timsalında İ.Stalin gələcək müharibəyə hazırlaşmaq və vaxt qazanmağa can atır, digər tərəf isə – Hitler ərazi ələ keçirmək

---

[1] Мединский, В.Р. Война. Мифы СССР.1939-1945. Второе издание / В.Р.Мединский. – Москва, 2014. – с.667.

[2] Yenə orada, c.210.

[3] Хоскинг, Джеффери. История Советского Союза.1917-1991 / Д.Хоскинг. – Москва, 1994. – с.285.

məqsədilə təcavüzkar vasitələrlə əlaqəyə girir. Əslində Paktı müharibədən sonrakı Avropanın siması, Versal razılaşmasından imtina kimi qəbul etmək daha doğru olar.

Zənnimizcə, "Molotov-Ribbentrop Paktı" SSRİ-ni Qərbin tələsinə düşməkdən xilas olmasına xidmət edərək böyük və ənənəvi geosiyasi vəzifələri həll etməyə imkan verdi. Bunlara aşağıdakıları daxil etmək doğru olar:

– Kutuzovun türklər üzərində qələbəsindən sonra 1812-ci il Buxarest sülhü nəticəsində Rusiyanın tərkibinə daxil edilmiş, Vətəndaş müharibəsindən sonra itirilmiş Baltikyanı ərazilərini qaytarılması;

– I Pyotrun uzun və qanlı Şimal müharibəsi ilə əldə etdiyi Şimali Bukovinanı və Bessarabiyanı Rusiyaya birləşdirilməsi;

"Molotov-Ribbentrop Paktı"na gəldikdə onun xarakteri açılmalıdır.

Qeyd edilənlərdən aydındır ki, hər iki rejim XX əsrin 20-30-cu illərdə əməkdaşlıq etdi. Faşist rejiminin lideri Hitler, Sovet rejiminin başçısı İ.Stalin idi. Stalinin rejimi repressiv, Hitlerin rejimi insanlığa zidd rasizm ideologiyası üzərində qurulmuşdu. Bura Faşist rejiminin özündən razılığını, Sovet rejiminin isə inqilabdan sonrakı fəthlərini, aşağıdan-yuxarı fəhləkəndli diktaturası olduğunu əlavə etsək oxşarlıq və fərqlər aydınlaşar. Bunlar bir-birindən fərqli rejimlər olsalar da, hər ikisi insanlıq (bəşəriyyət) üçün düşmən rejimlər idi. Rejimlərin sosial kökləri fərqli olsa da, həyata keçirilmə metodları oxşardır. İ.Stalin və A.Hitler bir-birinə oxşayırdı. Əslində SSRİ və Almaniya ideologiyalaşdırılmış dövlətlər kimi bir-birini xatırladırdı. Faşistlər özlərini sosialist kimi göstərirdi, onların demokratiyasında ünvanına söyüş qoyulmuş Qərb demokratiyası, burjua eqoizmi yet tuturdu. Sovet rəhbərliyi özünü hər dəqiqə sosialist ideyalarının vahid təfsirçisi kimi təqdim edirdi. Professor V.Medinski qeyd edir ki, Hitler partiya və dövlət strukturunun birləşdirilməsini Lenindən öyrənmişdi.[1] Hakimiyyətdə antidemokratizm, polis sistemi, repressiya –"siyasi hökmranlığın əsas atributlarını" Hitler **bolşeviklərin Füreri Lenindən** götürmüşdü. Əgər Leninin "Nə etməli?" əsərinə nəzər salsaq ASDP qurumları və təşkilatlarının əsaslarını müəyyənləşdirmək olar. Təbii ki, bunlar vasitə, məqsəd isə dünya ağalığına yiyələnmək idi.

Hitler Stalinə çox hörmətlə yanaşır, onu Çörçill və Ruzveltdən yüksək qiymətləndirirdi. Raymond Karte yazır: "Hitler deyirdi ki, bizim günlərdə üç dövlət adamı var: Mussolini, Stalin və mən".... Mussolini nisbətən zəifdir, belə ki o, kral evinin mürtəce müxalifləri və

[1] Мединский, В.Р. Война. Мифы СССР.1939-1945. Второе издание / В.Р. Мединский. – Москва, 2014. – с.670.

kilsə ilə bacara bilmədi. Yalnız Stalin və mən öz qərarlarımızın tam sahibiyik və gələcəyə baxa bilirik".[1]

Bəziləri müqaviləni SSRİ üçün rüsvayçı razılaşma hesab edir və İ.Stalini günahlandırır, bir qrup isə Hitlerin Avropaya xəyanət etdiyini irəli sürürlər. Hər halda müqaviləyə gedən yol aydın idi və bu yol Avropadan keçirdi. Daha doğrusu müqaviləni Avropa özü yaratdı. Uzunmüddətli əməkdaşlıq Avropanın bölünməsinə dair ilk protokolların imzalanması yeni bölgüyə təkan verdi. "**Münhen müqaviləsi**" **ilə Çexoslovakiya,** "**Molotov-Ribbentrop Paktı" ilə Polşa-Baltika ölkələri bölündü**.

Müharibə başlayandan sonra İ.Stalinin xalq qarşısında çıxış etməməsi tarixçilərin, sosioloq və politoloqların mübahisə mövzusu oldu və bu gün də müxtəlif mülahizələr söylənilir. Məlumdur ki, U.Çörçill, xüsusi ilə F.Ruzvelt xalqa radio vasitəsi ilə müraciət edirdilər. Tarixçi İ.Pıxalov yazır ki, Stalin xalq qarşısında çıxış etməyi sevmirdi. Müharibəyə qədərki dövrdə ildə 1-2 dəfə çıxış etmişdi.[2] Açıq efirdə radio ilə çıxışı neçə illərdi ki, müşahidə olunmurdu.

Müharibə başlayanda İ.Stalinin çıxış etməməsi bir mənalı qiymətləndirilmir. Birincisi, Stalinin müraciəti xalq kütlələri arasında səs-küy yaradardı, 2-si müharibə başlasa da, xalqa söyləmək üçün əsaslı fikir hazırlanmalı idi, 3-sü, V.Molotov ölkənin ikinci rəhbər şəxslərindən biri idi, təbii ki, V.Molotovun çıxışı üzərində İ.Stalin işləmişdi. Kominternin İcraiyyə Komitəsinin baş katibi, milliyyətcə bolqar Georgi Dmitrov gündəliyindəki 22 iyun 1941-ci il tarixli qeydində yazmışdı: "Stalinin kabinetində Molotov, Voroşilov, Kaqanoviç, Malenkov vardı. İ.Stalində və digərlərində təəssüblü sakitlik, ciddilik və əminlik vardı. Molotovun radioda edəcəyi hökumət bəyanatı redaktə olunurdu. Ordu və donanmada hərbi vəziyyət və səfərbərlik haqqında tədbirlər verilirdi. ÜİK(b)P MK və Qərargah üçün yeraltı iş yeri hazırlanırdı".[3]

1941-1945-ci illər müharibəsində SSRİ-nin **xərcləri 2 trilyon 569 milyard rubl** oldu. 1941-ci il iyunun 22-dən sonra vətəndaşlara əmanət kitabçalarından ayda 200 rubldan artıq çıxarmaq qadağan edildi. Yeni vergilər müəyyənləşdirildi, ssuda verilməsi dayandırıldı. Spirtli içkilər, tütün və parfumeriyanın qiyməti artırıldı. Dövlət istiqrazlarından uduşların alınması dayandırıldı, eyni vaxtda bütün fəhlə və qulluqçuların alması üçün 7 milyard həcmində istiqrazlar buraxıldı. Məzuniyyətlər qadağan olundu. İstifadə edilməmiş məzuniyyətlərə görə kompensasiyalar əmək kitabçalarına daxil edildi və müharibənin sonunadək alınması qadağan olundu. "Hər şey

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016. – s.195.

[2] Пыхалов, И. Великая оболганная война / И.Пыхалов. – Москва, 2008.

[3] Димитров и Банак, Дневник Георгия Димитрова, 1933-1949 гг., Нью-Хейвен: издательство Йельского университета, 2003.

cəbhə üçün, hər şey qələbə üçün" şüarı bütün sahələrdə tətbiq olundu. 1943-cü ildə Stalin maliyyə xalq komissarı A.Zverevə müharibədən sonrakı pul islahatını hazırlamağı tapşırdı. Bu sahədə iş çox ciddi şəkildə aparılırdı. İşin mahiyyətini iki adam – Stalin və Zverev bilirdi. Arsen Zverev İ.Stalinin irəli çəkdiyi və inandığı kadrlardan idi. O, 1937-ci ildə Moskvanın rayonlarının birində birinci katib işləmişdi, onun professional maliyyə təhsili vardı. A.Zverev əvvəlcə Xalq Maliyyə Komissarının müavini, 3 ay sonra komissar olmuşdur. Zverev çox ciddi qənaət rejimi ilə 1944 və 1945-ci illərdə defisitsiz büdcəyə nail oldu və emissiyalardan tam imtina etdi. Əhalinin əlində 74 milyard rubla yaxın pul toplandı ki, bu müharibəyə qədərkindən 4 dəfə çox idi. Köhnə pulların yeniləri ilə əvəz edilməsinə 1947-ci il dekabrın 16-dan başlandı və bir həftə davam etdi.

İ.Stalinlə birgə işləyənlər və tarixçilər yazılar ki, Stalin kitab həvəskarı idi. O, gündə 500 səhifə kitab oxuyurdu. İ.Stalinin kitabxanasında 20 minə yaxın kitab, o cümlədən Herodot, Ksenofont, Vinoqradov, Velyaminov və b., Karamzinin 12 cildlik «История государства Российского», Solovyovun 6 cildlik «Истории России с древнейших времен», академик Випперин «Очерки истории Римской империи» (1908), «Древняя Европа и Восток» əsərləri vardı.[1] "ÜİK(b)P tarixinin qısa kursu" İ.Stalini redaktorluğu ilə 43 milyon tirajla nəşr olunmuşdur. «**Петр Первый**» tarixi romanının Aleksey Tolstoy İ.Stalinin sifarişi ilə yazmışdı.[2]

ÜİK(b)P MK Siyasi Bürosu üzvlərinin uşaqları müharibə cəbhələrində döyüşdülər. Araşdırmalara əsasən deyə bilərik ki, müharibə dövründə xalqla elita arasında ayrılıq olmadı. Stalinin oğlu Yakov, Mikoyanın və Xruşşovun uşaqları, keçmiş müdafiə naziri Frunzenin oğlu müharibədə həlak oldular. Tarix kitablarında N.S.Xruşşovun oğlu Leonid Xruşşov haqqında inanılmaz yazılara rast gəlinir. Yazılardan birində göstərilir ki, təyyarəçi Leonid Xruşşovun təyyarəsi vurulanda əsir alınır, digər bir yazıda göstərilir ki, guya özü könüllü əsir düşür. O, hitlerçilərlə əməkdaşlıq edir, radio ilə əsgərləri əsir düşməyə çağırır. Sonra sovet kəşfiyyatı tərəfindən aşkarlanır, hərbi tribunala verilir və güllələnir.

N.Xruşşovun İ.Stalindən oğlunun öldürülməsinə imkan verməməsinin xahiş etməsi haqqında da fikirlər vardır. Yazılır ki, Stalin Xruşşova: "Sizdən ata və MK üzvü kimi öz oğullarını itirmiş başqa atalara nə deyim?" – deyə sual edir. Xruşşov cavab vermir. Təyyarəçi L.Xruşşovun taleyi Siyasi Büronun iclasında xüsusi baxılır və qərar qüvvədə saxlanılır.

N.Xruşşov oğluna görə G.Jukovu cəzalandırdı. Medinski yazır ki, onda olan məlumata görə N.Xruşşov MK-nın Birinci katibi olandan sonra

---

[1] Илизаров Б.С. Сталин. Штрихи к портрету на фоне его библиотеки и архива // Новая и новейшая история, 2000, №3.

[2] Мединский, В.Р. Война. Мифы СССР.1939-1945. Второе издание / В.Р.Мединский. – Москва, 2014. – с.278.

müdafiə naziri G.Jukovdan tələb edir ki, təyyarəçi Leonid Xruşşova Sovet İttifaqı Qəhrəmanı adı verilməsi haqqında təqdimat versin. Ancaq G.Jukov qəti etiraz edir və "satqını döyüş mükafatlarına, həm də Qəhrəman kimi yüksək mükafata təqdim edə bilmərəm" deyir və təltif vərəqini əzişdirərək Xruşşova tərəf atır.[1] Siyasi Büro üzvü N.Şvernikin qızı müharibə illərində Hərbi Hospitalda işləmişdi. Siyasi Büro üzvü, MK katibi A.A.Andreyev uzaq məsafəli bombardmançıda bort mühəndisi olub. "Forki-2" də Voroşilov və Mikoyan yarışırdı. Voroşilovun ailəsində yetim Timur Frunze tərbiyə olunurdu. Qırıcı təyyarəçi 1942-ci ildə 18 yaşında həlak olmuşdur. Voroşilovun övladı olmadığından müharibədə onun qohumu həlak olub.

İ.Stalinin oğlu Yakov haqqında çox yazılmışdır. Deyirlər ki, 22 iyun 1941-ci ildə Stalin ona: "get və döyüş" – demiş, həmin ilin iyulunda Yakov əsir düşmüşdür. Almanlar Stalinqradda əsir düşmüş feldmarşal Paulsla Yakovu dəyişmək təklif etsələr də, Stalin "əsgər" feldmarşala dəyişmərəm" – cavabını vermişdi.

Həqiqətdə Yakovun əsir olub-olmaması haqqında əlimizdə rəsmi sənəd yoxdur. Bəlkə də, 1941-ci il iyulun 16-da döyüşdə öldürülmüşdür. Düşərgədən qaçarkən həlak olması haqqında da məlumatlar vardır.

İ.Stalinin ikinci oğlu Vasili haqqında da əfsanələr dolaşır. Qolovanov yazır ki, Vasili özünü mənəvi cəhətdən pis, mənfi keyfiyyətləri ilə göstərirdi. Hər hansı qorxu hiss olunduqda Qolovanovun yanına gəlir və xahiş edirdi ki, atasına zəng etsin, atası onu eşidirdi. "Mən Vasili üçün xahiş etdim ki, ona ciddi cəza verilməsin. İ.Stalin cavab verdi: Yoldaş Qolovanov, mən öz oğlumu yaxşı tanıyıram və sənə tövsiyə edirəm ki, özgə ailənin işinə qarışmayasan" – və dəstəyi asdı.

İ.Stalinin oğulluğa götürdüyü Artyom 1921-ci ildə aerovaqonun sınağı zamanı həlak olmuş bolşevik Artyomun oğlu idi. Artyomun uşaqlığı Stalinin yanında keçmiş və rəsmi oğulluğa götürülmüşdü. Artyom da cəbhədə olmuş, bir neçə dəfə yaralanmış, general rütbəsinədək yüksəlmişdi.

Qeyd olunanlardan aydın olur ki, Stalin şəxsiyyətinin ziddiyyətli və müəmmalı olması haqqında fikirlər müxtəlifdir. Çörçill demişkən "Sezar və Napoleon kimi Stalinin də şəxsiyyəti və sirri dünyanı həmişə məşğul edəcək". Stalin özü də ziddiyyətli insan olduğunu "gələcəkdə onun haqqında mübahisəli, qalmaqallı söhbətlərin yaranacağını bildirirdi. 1943-cü ildə Stalin qeydlərinin birində yazırdı: "Mən bilirəm ki, ölümümdən sonra mənim məzarıma çoxlu sayda zibil atacaqlar, amma tarixin küləyi amansızcasına onları dağıdacaq".

İ.Stalin 1953-cü il martın 5-də vəfat etdi. Onun dəfn günü matəm mitinqində çıxış edən V.M.Molotov Stalinin müharibə illərindəki fəaliyyə-

---

[1] Соловев, Б.Г., Суходеев, В.В. Полководец Сталин / Б.Г.Соловев, В.В.Суходеев. – Москва, 2003; Мединский, В.Р. Война. Мифы СССР. 1939-1945. Второе издание / В.Р.Мединский. – Москва, 2014. – с.252.

tini belə xarakterizə etdi: "…İ.Stalin Qırmızı Ordu qüvvələrinin yaradılmasına və təşkil edilməsinə, vətəndaş müharibəsi illərində ən mühüm cəbhələrdə onun şanlı döyüş əməliyyatına bilavasitə rəhbərlik etmişdir. İ.Stalin Böyük Vətən müharibəsi illərində Ali Baş Komandan olmaq etibarilə ölkəmizi faşizm üzərində qələbəyə çatdırdı ki, bu qələbə də Avropa və Asiyada vəziyyəti kökündən dəyişdirdi…".[1]

Rokosovski İ.Stalin haqqında danışarkən demişdi: "Məktəbi axıra qədər oxuyub qurtarmamış bu keşiş bizə yalnız mane olurdu. Biz onu aldadırdıq: o, hansı məntiqsiz sərəncam verirdisə, biz "bəli", "bəli" deyirdik, amma öz bildiklərimiz kimi hərəkət edirdik".[2] Fikrimizcə burada xatırlatmaq yerinə düşər ki, Rokosovski və digərlərinin özbaşına döyüş əməliyyatlarındakı qələbə böyük qan və itkilər hesabına başa gəldi, 3-5 milyon nəfər əsir düşdü.

M.Ə.Rəsulzadə isə onu belə xarakterizə etmişdi: "Dövrünün tarixini yazanlar tarixin bu ən böyük müstəbidi haqqında cürbəcür hökmlər verəcək, onun ilahiləşdirilmiş şəxsiyyətini müxtəlif mövqelərdən təhlil edəcəklər. Fəqət biz onu bir küll olaraq nəşr etmək niyyətində deyilik. Ən qorxunc rus çarlarına nəsib olmayan bir məharətlə 30 ilə yaxın bir müddətdə Sovet imperatorluğundakı 200 milyon insanın müqəddəratına hökm edən, yer kürəsinin üçdə birini nəzarəti altına almış, bütün dinləri inkar edən, kommunist dininin bir peyğəmbəri sayılan, totalitarlar totalitar bir rejimin ən böyük nümayəndəsi Stalini, onun necə bir demaqoq, bir diplomat, bir diktator və necə bir terrorist, bir ixtilalçı, bir marşal, bir generalissimus, fironlara, neyronlara, çingizlərə rəhmət oxutduran bir tiran, bir qızıl çar olduğunu azad millətlər cəmiyyətində bilməyən bir kimsə yoxdur".[3]

Stalinin ölümü sovetlər ölkəsində yaşayan demək olar ki hamını sarsıtdı. Xalq onun ölümünü göz yaşları ilə qarşıladı. Stalinin şəklini belə görməyən sakinlər onun üçün yas saxladılar. Bəlkə bu da Stalinin dediyi kimi taleyin küləyi idi. Onun cəsədi Lenin mavzoleyinə qoyuldu, müəyyən zamandan sonra cəsəd oradan çıxarıldı. Bu Stalinin dediyi ona atılan zibil idimi? Amma bir məsələ indi keçmiş sovetlər birliyində yaşayanları düşündürür, Stalin haqlı idi, yoxsa Qərb dünyası. Fikrimizcə, Stalin XX əsrdə yetişən dahi insanlardan biri idi, onun adının Stalin olmasının heç bir mənası yoxdur.

İ.Stalin müharibə illərində F.Ruzveltlə ancaq konfranslarda görüşmüşdür. Hər iki ad tarixdə iki böyük dövlətin rəhbərləri olmaqla yanaşı, ümumi

---

[1] Molotov, V.M. İosif Vissarionoviç Stalinin dəfn günü matəm mitinqində nitq / V.M.Molotov. – Bakı, 1953. – s.10-11.

[2] Ç.Sultanov. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (rus dilindən tərcüm.) / Ç.Sultanov – Bakı, 2016. – s.525.

[3] M.Ə.Rəsulzadə. Bir türk millətçisinin Stalinlə ixtilaf xatirələri. Bakı, 1911, s.205.

düşmənə qarşı mübarizədə bir-birini başa düşən, siyasi proseslərin sonunu digərlərindən daha yaxşı anlayan fiqurlar kimi qalmışdır.

Ruzvelt Franklin Delano

ABŞ-ın görkəmli dövlət və siyasi xadimi **Ruzvelt Franklin Delano (1882-1945**) zəngin aristokrat ailəsində anadan olmuşdur. Harvard (1904) və Kolumbiya (1907) universitetlərini bitirmiş, 1913-1920-ci illərdə ABŞ Hərbi Dəniz Nazirinin müavini işləmişdir. 1921-ci ildə dənizdə çimərkən polimelit xəstəliyinə tutularaq ömürlük şikəst olmuş, yerimək qabiliyyətini itirmişdir. 1932-ci ildə prezident seçilən Ruzvelt 4 dəfə (1932, 1936, 1940 və 1944) bu vəzifəni tutmuşdur. O, kapitalizmin yeni inkişaf mərhələsinə daxil olmasında çox mühüm əhəmiyyəti olan "Yeni xətt" siyasətinin yaradıcısıdır. İkinci dünya müharibəsi dövründə antihitler koalisiyasının yaradılmasının təşəbbüskarlarından biridir**.**

F.Ruzvelt üçün İ.Stalin *dövləti dirçəldən, mühüm qərarlar qəbul edən Sovet dövlətinin daxili və xarici siyasətinin vahid lideri idi.* U.Bull ilə 1943-cü ildəki məşhur müsahibəsində Ruzvelt Stalini "…**sadə Qafqaz banditi**" kimi görmək istəməmişdi. Bu insanın miqyasını, dövlət sistemi yaratdığını müharibənin ilk mərhələsində gördü. Vaşinqtonda ABŞ-ın ordu kəşfiyyatı Moskvadan məlumat verirdi ki, 1942-ci ilin əvvəlində belə hesab edirdilər ki, əgər Stalin yaşasa, müttəfiqlər ona kömək etsələr SSRİ yaşayacaqdır.

İ.Stalin üçün E.Ruzvelt *daxili islahatların, faşizmlə mübarizədə, beynəlxalq əməkdaşlıqda siyasətin realist təminatçısı idi.* İ.Stalin 1933-1934-cü illərdə U.Dyurant və Q.Uelsə müsahibələrində Ruzvelti "**müasir kapitalist dünyasının ən böyük kapitanlarının fiquru**" adlandırmışdı.[1] Yalta konfransı zamanı Ruzveltin sağlığına tost qaldıran İ.Stalin demişdi ki: "Ruzveltin… ciddi müdaxilə təhlükəsinə məruz qalan ölkənin milli maraqlarda daha geniş baxışları vardı, baxmayaraq ki, onun ölkəsini birbaşa təhlükə hədələmir. O, Hitlerə qarşı bütün dünyanı səfərbər edilməsinin baş təşəbbüskarıdır".

İ.Stalin üçün F.Ruzvelt özünün böyük strategiyasını – ümumi düşməni darmadağın etmək, qələbənin bəhrəsini möhkəmləndirmək, SSRİ-nin Avropada və Uzaq Şərqdə təsirini genişləndirmək üçün vasitə idi. F.Ruzvelt üçün İ.Stalin çətin, lakin ciddi partnyor idi. O, 1942-ci ilin iyulunda U.Çörçillə yazırdı ki, İ.Stalinə son dərəcə diqqətlə müraciət etmək lazımdır. Müttəfiqimizin şəxsiyyətini, onun çətin bir daxili şəraitdə olmasını yadda saxlamaq

[1] Война и обшество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004 кн.1, с.401.

lazımdır. Ölkəsinə düşmənin hücum etdiyini görən insandan şənlik gözləmək olmaz.[1] Təbiidir ki, müharibə illərində İ.Stalinin F.Ruzvelt və U.Çörçillə yazışmaları olmuşdu. İlk dəfə 1957-ci ildə nəşr olunan bu yazışmalar onların səciyyələndirmək üçün mühüm mənbə hesab olunur. Qeyd edək ki, dərc olunmuş sənədlər, yazışmaların mətnləri görülmüş işlərin yekun məhsuludur, onun kadr arxası texnologiyası bəlli deyildir. Tarixçiləri, diplomatları bu gün də düşündürən problem – Stalin və Ruzveltin bir başa rolu tam aydınlaşmamışdır. Yazışmaların "mətbəxi" öyrənilməmiş qalmaqdadır. İlk növbədə bu yazışmaların mənşəyi, onun ilk təşəbbüsçüsü, onun arxasındakı reallıqlar aydınlaşdırılmalıdır. Sənədlərlə tanışlıq göstərir ki, formal yazışmanı İ.Stalin başladı və özünün 4 avqust 1939-cü il tarixli məktubunda heç bir izahat vermədən F.Ruzveltdən Finlandiyaya təsir göstərməsini xahiş etdi.[2]

İ.Stalin arxivinin sənədləri təsdiq edir ki, üç böyük dövlət başçılarının yazışmaları hərb illərinin xarici siyasət məsələlərinə mühüm təsir göstərdi. İ.Stalinin məktubları onun özünün və birinci müavinin – Molotovun yaradıcılığının məhsuludur. V.Molotov özü də təsdiq edirdi ki, çox maraqlı yazışmaları oldu və çoxlarını biz ikilikdə yazdıq. Arxiv materialları və tədqiqatçılar şahidlik edirlər ki, müəlliflər kollektivi arasında sadə bölgü məsuliyyəti vardı. V.Molotov "yuxarının" göstərişi ilə məktubların layihəsini hazırlayır, Stalin isə özünün göy qələmi ilə düzəlişlər edər və təsdiqləyərək "İ.Stalin", yaxud "UTV. St", imzasını qoyardı. Düzəlişlər nə qədər az olsa da V.Molotov çalışırdı ki, "rəhbər"in fikrini və göstərişini yerinə yetirsin. Stalin çox ciddi redaktor idi və heç bir layihəni demək olar ki, düzəlişsiz qoymazdı.[3]

ABŞ tərəfində də yazışmaların hazırlanması prosesi Kremldəki kimi idi. Fərq onda idi ki, Amerika tərəfində layihəni çox sayda adam hazırlayırdı və onların tərkibi yazışmanın problematikasından asılı olaraq dəyişirdi. 1941-1943-cü illərdə dövlət katibinin birinci müavini S.Uelss və Q.Hopkins bu məsələlərdə kordinator rolunu oynayırdı. 1942-ci ilin sentyabrında Ruzvelt xüsusi olaraq U.Çörçill və İ.Stalinlə olan yazışmaların Q.Qopkinsə göstərilməsi haqqında göstəriş verdi.[4]

1945-ci ilin fevralında, hələ müharibənin davam etdiyi vaxt Yaltada keçirilən konfransda ağır xəstə olmasına baxmayaraq İ.Stalinlə görüşdü. İ.Stalinin arzularının həyata keçməsinə şərait yaratdı. Rusiya Avropa ölkələ-

---

[1] Война и обшество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004 кн.1, с.403.

[2] Переписка Председателя Совета Министров СССР с президентами США и Великобритании во время Великой Отечественной войны. Т.1. Москва, 1989, док №1, с.407.

[3] Yenə orada.

[4] Война и обшество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004, кн.1. – с.404.

rindən başqa Sarı dənizdə Port-Arturu, Dayren limanını, Kuril adalarını, Kənar Monqolustanı və Saxalin adasının cənub hissəsini aldı. F.Ruzvelt yaradılacaq Birləşmiş Baş Asambleyasında üç – Belarusiya, Sovet İttifaqı və Ukraynaya səs hüququ verdi. Nəticədə ABŞ-ın bir səsinə qarşı SSRİ üç səs qazandı. Təbii ki, Ruzveltin bu hərəkəti birmənalı qarşılanmadı. Səfir Villiam C.Bullitt bildirir ki, Birləşmiş Ştatların heç bir prezidenti indiyədək bu sənəd qədər lazımsız, rüsvayçı və ləyaqətsiz heç nə imzalamadı. Ruzvelt özü də sonralar bu hadisəni izah edə bilməmiş: "Mən bilirəm ki, bunu etməməli idim. Lakin onlar üstümə tökülüşəndə elə yorğun idim ki…" demişdi.

F.Ruzvelt 1945-ci il aprelin 12-də vəfat etdi. Onun ölümü haqqında Moskvadakı ABŞ səfirliyində aprelin 12-dən 13-ə keçən gecə bildilər. Xalq Komissarı Molotovun köməkçisi M.Potrubaç gündəliyində yazır ki, saat 2^{50}-də A.Harriman zəng edərək xahiş etdi ki, Xalq Komissarı Molotova məlumat verilsin ki, Moskva vaxtilə saat 23-ə az qalmış ABŞ prezidenti vəfat etmişdi. Harriman, həmçinin bildirmişdi ki, bu gün gündüz, mümkündürsə tez o, cənab Stalin və cənab Molotovla görüşmək istəyir.[1] Potrubaçın şəhadətinə görə səfir özündə deyildi. 5 dəqiqə keçmiş o yenidən zəng edərək komissarla bu gecə görüşmək istədiyini bildirir. $3:^{05}$-də Potrubaç Harrimana zəng edərək bildirir ki, əgər onun üçün əlverişlidirsə, bu saat gəlsin.

A.Harrimanı V.Molotov, sonra isə İ.Stalin qəbul edir. Prezidentin ölümü ilə əlaqədar suallara cavab verən səfir İ.Stalini əmin edir ki, "Prezident Ruzvelt vəfat etdi, lakin onun işi mütləq davam etdiriləcək…". Stalin isə cavab verir ki, "biz bütün gücümüzlə Prezident Trümenə kömək göstərəcəyik" – cavabını verir.[2] Harrimanın xahişinə əsasən İ.Stalin V.Molotovun San-Fransiskoya – BMT təsis konfransına göndərilməməsi məsələsinə baxır.

İ.Stalin F.Ruzveltin ölümündən çox təsirlənir. Bu hal onun prezidentin dul qadını Elenoraya göndərdiyi baş sağlığında hiss olunur. Teleqramda İ.Stalin F.Ruzveltin dünyadakı rolunu yüksəklərə qaldırır, onu ümumi düşmənə qarşı mübarizədə dostu və məsləkdaşı, böyük təşkilatçı, azadlıqsevər xalqların böyük müdafiəçisi adlandırır. Aprelin 13-də "İzvestiya" qəzetində Ruzveltin ölümü haqqında məlumat verilir. Dərc olunmuş nekroloqda Ruzveltin siyasi fəaliyyəti işıqlandırılır, "Yeni kursu" müəllifi, okeanın o tayındakı demokratiyanın böyük rəhbəri kimi qiymətləndirilirdi. Qəzetin həmin nömrəsində, həmçinin Stalinin Trümenə məktubu dərc olundu.[3] "Pravda" qəzetində də **"Sülhün və təhlükəsizliyin qoruyucusu**" başlıqlı böyük məqalə dərc edildi.[4]

---

[1] Война и обшество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004, кн.1. – с.417.

[2] Yenə orada, – s.418.

[3] Газ. «Известия», 13 апрел.

[4] Газ. «Правда», 1945, 15 апрел.

SSRİ XKS-nin qərarına görə Moskvadakı dövlət müəssisələrinə təklif olundu ki, öz binalarında matəm bayraqları assınlar. Bu əlbəttə, burjua liderinin ölümü ilə əlaqədar olaraq faktiki matəm elan edilməsi olub, Sovet təcrübəsində yeganə hadisə idi. Sözsüz ki, bu qərarın arxasında İ.Stalin dururdu.

F.Ruzveltin ölümündən sonra sovet-Amerika münasibətlərində yeni dövr başlandı.

"Soyuq müharibə" siyasətinin ilhamçılarından biri, Böyük Britaniyanın dövlət, siyasi və hərbi xadimi, Mühafizəkarlar partiyasının liderlərindən biri olan **Çörçill Uinston Leonard Spenser** (**1874–1965**) 1924-1929-cu illərdə maliyyə naziri, 1939-cu ilin sentyabrında hərbi nazir, 1940-1945-ci illərdə Baş Nazir olmuşdur. Ədəbi əsərlərinə görə Nobel mükafatına layiq görülmüşdür.[1]

Çörçill Uinston Leonard Spenser

U.Çörçill və İ.Stalinin tamamilə ayrı-ayrı ictimai quruluşları təmsil etmələrinə baxmayaraq onlar arasında nə isə ümumi şeylər var idi. Hər şeydən əvvəl hər ikisi sərbəstlikləri və enerjili olmaları, məqsədyönlüyü və qərarlılığı, öz məqsədlərinə çatmaq vasitələrində bir-birindən fərqlənirdilər. Çörçillin tərcümeyi-halını yazan akademik V.O.Truxanovski qeyd edir ki, Çörçill düzgün nəticə çıxarmaq, hər hansı tərəfi əks hərəkətlərə təhrik etmək bacarığı ilə seçilirdi.[2] Çörçilli yaxşı tanıyan səfir İ.M.Mayski onu təkcə avtoritar deyil, tez-tez göz yaşları ilə danışan[3] emosional xarakterli şəxs kimi qeyd edirdi.

İ.Stalinlə U.Çörçill ilk dəfə 1942-ci ilin yayında görüşmüşlər. Hər ikisinin 60 yaşı olmasına baxmayaraq "universitet bitirməmişlər". Çörçill 1908-ci ildə, Stalin 1917-ci ildə nazir postuna yiyələnmişdi. Baş Nazir vəzifəsini isə demək olar ki, eyni vaxtda – U.Çörçill 1940-cı ilin mayında, İ.Stalin isə 1941-ci ilin mayında tutmuşlar. Fərq onda idi ki, Çörçill Baş nazir postuna mühafizəkarlar partiyası tərəfindən irəli sürülmüşdü. Stalin isə diktator olaraq bütün partiyaya, hökumətə, DMK, XMK, bir sözlə bütün hakimiyyətə yiyələnmişdi. Hələ 1922-ci ildə Kommunist Partiyasının Baş katibi olarkən, V.İ.Leninin sözləri ilə desək "hədsiz hakimiyyət cəmləşdirmişdir ki, bütün müxalifətin sonuna çıxsın".

İkinci dünya Müharibəsinin başlanması ilə əlaqədar U.Çörçill Çemberlenin dəvəti ilə Britaniya hökumətində hərbi dəniz naziri vəzifəsini tutur.

---

[1] Məmmədov, İsaq, Məmmədov, Çingiz. Siyasi tarix. XX əsr / İ.Məmmədov, Ç.Məmmədov. – Bakı, 2003. – s.161-162.

[2] Трухановски, Б.Г. Уинстон Черчилль. Политическая биография /Б.Г.Трухановски. – М., 1982. – с.5.

[3] Майски, И.М. Кто помогает Гитлеру (Из воспоминаний Советского посла) /И.М. Майски. Кн. 2. Москва, 1962. – с.333.

Nazir olan vaxt özünü sakit aparır, Baş nazirin komandasına qarşı olmağa can atmır. 1939-cu ilin payızında 2 dəfə Londonda İ.M.Mayski ilə görüşür.

1940-cı il may ayının 10-da Hitler ordusu Fransaya hücum edir. Bununla "Qəribə müharibə"yə son qoyulur. Çemberlen istefaya çıxır, Çörçill Baş nazir olur. 1942-ci il avqust ayının 12-də Çörçill Moskvaya gəlir. Elə həmin gün axşam Stalinlə onun birinci, bir müddət kəskin xarakter daşıyan görüşü olur. Siyasətçilər və tarixçilər U.Çörçillin taktikasını belə izah edirlər ki, o, əvvəlcə, ən pisləri və xoşagəlməyənləri deyərdi. Bu baxımdan onun İkinci Cəbhə haqqında fikirləri də maraqlıdır. U.Çörçillin təşəbbüsü ilə ikinci cəbhə haqqında məsələ gündəmə gələndə çoxlu dəlillər gətirərək onun mümkün olmadığını sübut etmək istəyirdi. Onu ABŞ prezidentinin nümayəndəsi Harriman də dəstəkləyir. Stalinə məlumat verərək U.Çörçill bildirir ki, Böyük Britaniya və ABŞ 1943-cü ildə böyük əməliyyata hazırlaşırlar. İkinci cəbhə yeganə cəbhə deyildir və s. O, gizli saxlanmaq şərti ilə fransız Afrikası sahillərinin tutulması, başqa sözlə, "**Fakel**" əməliyyatına hazırlıq haqqında məlumat verir. İ.Stalin planlaşdırılmış əməliyyatı alqışlayır, ancaq Avropada ikinci cəbhənin açılmasının təxirə salınması ilə razılaşmır və baş nazirə deyir ki: "… almanlardan qorxmaq lazım deyil".[1] Bu sözlər U.Çörçilli əsəbiləşdirir. Üzü qızarır. Stalinin tərcüməçi V.M.Pavlov xatırlayır ki, görüşün atmosferi fövqəladə dərəcədə ciddiləşmişdi. Ancaq hər iki lider dözümlülük nümayiş etdirdilər. Səhərisi gün – avqustun 13-də İ.Stalin U.Çörçillə memorandum göndərir və orada SSRİ-nin 1942-ci ildə İkinci cəbhənin Avropadan açılması haqqında mövqeyi şərh olunur. İ.Stalin amerikalıların və ingilislərin rus cəbhəsini ikinci dərəcəli cəbhə hesab etməsini pisləyib birinci dərəcəli cəbhə olduğunu xatırladaraq bildirir ki, sovet-alman cəbhəsində düşmənin 280 diviziyası (ondan 25 tank) cəmləşmişdi ki, böyük hissəsi Bakıya və Stalinqrada can atır. Hər gün rus ordusu 10 min adam itirir. U.Çörçillin xahişi ilə Stalin Qafqazın, Qara dənizin cənub rayonlarının və Xəzər dənizinin müdafiəsi planını şərh edir, sovet ordusunun yerləşməsini relyef xəritəsində göstərir. Söhbətdə İ.Stalin ABŞ və Böyük Britaniya tərəfindən vəd olunmuş material təchizatının qalıq məbləğlər prinsipi ilə həyata keçirildiyini bildirir. Britaniya Baş naziri bu iradı qəbul etmir. U.Çörçillin dediyi kimi, onlar o nöqtəyə çatdılar ki, dövlət rəhbərləri danışıqları apara bilmədilər.[2] Bu gərgin vəziyyəti ev sahibi tutur. Qonağı axşam Kremldəki mənzilində yeməyə dəvət edir. Dəvətə cavab verən U.Çörçill rus əsgərinin qələbəsinə işarə edərək qeyd edir ki, o, "İ.Stalinlə yoldaşlıq münasibəti yaratmaq istəyir".

İ.Stalinin tərcüməçisi V.M.Pavlov qeyd edir ki, İ.Stalin irəliləyərək yol göstərdi. Tezliklə qonaqlar yemək otağına daxil oldular. Stol 4 nəfər

---

[1] Советское-английские отношения в Великой Отечественной войны 1941-1945 гг. Т.1. Москва, с. 265-271.

[2] Уткин, А. Черчилл: (к третьей мировой войне) /А.Уткин. – Москва, 1975. – с.448.

üçün hazırlanmışdı. Hansı səbəbdənsə U.Çörçill öz qızı Saredən danışmağa başladı, dedi ki, onun saçları sarıdır. İ.Stalin qeyd etdi ki, onun qızı Svetlana da sarısaçdır. …Onu çağırdılar. İ.Stalin Svetlananı U.Çörçillə təqdim etdi, o isə qıza kiçik hədiyyə bağışladı. Beləliklə, övladlar haqqında danışıqlar gərginliyi aradan qaldırdı. Söhbət davam edir. V.Molotov yaxınlaşır. Söhbətin mövzusu müxtəlif idi. İ.Stalinin U.Çörçillə söhbəti gecə saat 2-dək davam edir. Gündüzdəki görüşdə olan gərginlik aradan götürülür. Artıq danışıqlar siyasətçilərin deyil, keçmiş xeyirxah dostların söhbəti idi".[1]

U.Çörçillin Moskvaya səfəri, İ.Stalinlə şəxsi görüşləri böyük əhəmiyyət kəsb edirdi. İ.Stalin qeyd edirdi ki, onlar bir-birini daha yaxşı öyrəndilər, bir – birini başa düşdülər.

İ.Stalinlə U.Çörçillin ikinci görüşü Tehran konfransında oldu. Tehran konfransında bir sıra mühüm məsələlər razılaşdırıldı. Noyabrın 29-da U.Çörçill Stalinə təntənəli şəraitdə Böyük Britaniyanın kralı VI Georqun hədiyəsi olan qılıncı bağışladı.[2] S.M.Ştemenko hadisəni belə xatırlayır: "Noyabrın 30-da İ.Stalin və Ruzvelt Tehranda U.Çörçillin ad gününü qeyd etdilər. İ.Stalin Britaniya baş nazirinin sevdiyi məşhur estrada müğənnisi V.Kozini Moskvadan dəvət etmişdi. Bu sürpriz idi. Tehran konfransından 3 həftə sonra Çörçill İ.Stalinə ad günü münasibətilə göndərdiyi təbrik teleqramında Stalini "mənim dostum" adlandırırdı. İ.Stalin qarşılıqlı cavab vermir.

1944-cü ilin yazında Sovet qoşunları Sağsahil Ukraynasını azad etdi. Martın 26-da Rumıniyanın dövlət sərhədlərinə, iyulun sonunda Polşanın sərhədinə çıxdı. İyulun 21-də Lyublində Polşa Milli Azadlıq komitəsi yaradıldı, sovet hökuməti bu təşkilatla diplomatik münasibət yaratdı. U.Çerçilli narahat edən məsələ baş verdi. Londondakı mühacir hökuməti əvəzinə Polşa torpağında Polşa hökuməti yarandı. 1944-cü ilin iyun ayında, nəhayət ikinci cəbhə açılanda müttəfiqlər Yaponiya məsələsi barəsində SSRİ-nin qərarına təsir göstərməyə cəhd etdilər. Onlar SSRİ-yə Uzaq Şərqdəki müharibəyə tez qoşulmasını təklif etdilər. Moskvada Amerika nümayəndə heyətinin başçısı general-mayor D.Dinə A.Vasilyevski, U.Çörçillin eyni məzmunlu sorğusuna İ.Stalin də bildirdi ki, sovet hökumətinin qərarı dəyişməmişdir. 1944-cü ilin oktyabrın ortalarında U.Çörçill və İdenlə danışıqlar zamanı İ.Stalin öz mövqeyini bir daha ifadə etdi. U.Çörçillin Moskva görüşünü Ştemenko belə xatırlayır: "U.Çörçillə İ.Stalin üzbəüz kürsülərdə oturmuşdular: biri yoğun siqar, o biri həmişəki kimi trubka çəkirdi…

U.Çörçill və İden ilə danışıqlar əvvəlcə hərbiçilərin iştirakı olmadan gedirdi. Uzaq Şərqin üzərinə gəlib çıxanda A.İ.Antonov və F.İ.Şevçenkonu

---

[1] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004, кн.1. – с.434-435.

[2] Yenə orada, – c.438.

dəvət etdilər… Sovet hökuməti özünün Yaponiyaya qarşı müharibəyə başlamaq öhdəliyini təsdiq etdi”.[1]

İ.Stalinlə U.Çörçillin sonrakı görüşü 3 aydan sonra Yaltada oldu. Konfransın atmosferini Sovet İttifaqının hərbi nailiyyətləri müəyyən edirdi. Stalinin təklifi ilə Tehranda olduğu kimi, 1945-ci il yanvarın 4-də başlayan Yalta konfransına F.Ruzvelt sədrlik edirdi. Əvvəldən hazırlanmış gündəlik yox idi. Ancaq hərbi razılaşmalar, Almaniyanın darmadağın edilməsi məsələləri diqqət mərkəzində idi.

Konfransın müzakirəsində beynəlxalq təhlükəsizlik təşkilatının-gələcək BMT-nin təsisinə geniş yer ayrıldı. F.Ruzveltin təklifi ilə görüş iştirakçıları Avropanın azad edilməsinə dair Bəyanat qəbul etdilər.

Yenə də Polşa məsələsi ciddi müzakirəyə səbəb oldu. Doğrudur, görüşdə U.Çörçill açıq qarşıdurmaya getməsə də, fikir ayrılıqları var idi. U.Çörçill Polşa ilə əlaqədar “bu Böyük Britaniyanın şərəf işidir” sözlərinə Stalin cavab verərək dedi ki, Polşa məsələsi ruslar üçün nəinki şərəf məsələsi, həm də təhlükəsizlik məsələsidir. Şərəf işidir ona görə ki, rusların Polşa qarşısında keçmişdə çoxlu günahları olmuşdur. Sovet hökuməti bu günahları yumağa çalışır. Təhlükəsizlik məsələsidir ona görə ki, bütün tarix boyu Rusiyaya hücum edən düşmənlər üçün Polşa dəhliz olmuşdur, düşmənlər oradan keçmişdir. İ.Stalin qeyd etdi ki, son 30 ildə almanlar iki dəfə Polşadan keçərək bizim ölkəmizə hücum etmişlər.[2]

İ.M.Mayski öz gündəliyində yazır ki, birdən İ.Stalin ayağa qalxdı, halbuki əvvəl oturan yerdə çıxış edirdi – qeyri adi qızğınlıqla çıxışına davam etdi: “Bax buna görə Sovet İttifaqı güclü, azad, müstəqil Polşa yaradılmasında maraqlıdır”. Polşa məsələsindən bəhs edən İ.Stalin bildirdi ki, yeniləşdirilmiş Polşa hökumətini Krım konfransında yaratmaq mümkün deyildir. O, ancaq polyakların iştirakı və razılığı ilə yaradıla bilər. Bununla əlaqədar hətta zarafat etdi: “Çoxları … İ.Stalini diktator, qeyri-demokrat sayırlar, ancaq onda lazımi qədər demokratik hislər vardır ki, …Polyaklarsız o, Polşa hökuməti yaratmağa cəhd edilməsinə razılıq vermədi”.[3] Krım konfransının gedişində İ.Stalinin şərəfinə təşkil olunmuş qəbulda U.Çörçill İ.Stalinin sağlığına söylədiyi tostda demişdi ki: “Böyük insanla dostluq və yaxın münasibətlərdəyik”.[4]

---

[1] Ştemenko, S.M. Baş ştab müharibə illərində / S.M. Ştemenko. – Bakı, 1973. – s.333.

[2] Война и общество. 1941-1945 в двух книгах. Отв. ред. Г.Н.Севостьянов. Инс-т российской истории. Москва, 2004. – с.443.

[3] Советский Союз на международных конференциях периода Великой Отечественной войны 1941-1945 гг. Сборник документов. М-во иностр. Дел СССР. Москва, 1984. т.4, Крымская конференция руководителей трех союзных держав – СССР, США Великобританиии (февраля 1945 гг.), с. 110.

[4] Семиряга, М.И. Тайны сталинской дипломатии.1939-1941. Т.6. / М.И.Семиряга. – Москва, 1992. – с.520-521.

İ.Stalin də U.Çörçillin şərəfinə tostda onu yüksək qiymətləndirərək "Dünyanın cəsur dövlət xadimi, yüz ildə bir dəfə doğulan insan kimi xarakterizə etmişdi. Beləliklə, hər iki lideri qısa xarakterizə edərək deyə bilərik ki, U.Çörçill Qərb dünyasının maraqlarını müdafiə etsə də, Stalinə o qədər də inanmır, onun simasında siyasi rəqibini görürdü.

İ.Stalinə görə U.Çörçill kapitalizm dünyasının sadiq liderlərindən biri idi. O, bu müharibədə Böyük Britaniyanın, kapitalizm dünyasının maraqlarını güdür, müharibənin nəticələrindən maksimum istifadə etməyə səy göstərən, emosional bir şəxsiyyət idi. **İngiltərənin "İndependent" qəzetinin baş köşə yazarı yazır ki, U.Çörçillə Hitler arasında fərq bundan ibarət idi ki, U.Çörçill quldur idi, Hitler isə daha böyük quldur idi**.[1]



Mir Cəfər Bağırov

Azərbaycan xalqının XX əsr tarixində yer tutan tarixi şəxsiyyətlərdən biri də **Mir Cəfər Abbas oğlu Bağırovdur**. Mir Cəfər Abbas oğlu Bağırov 1896-cı il sentyabrın 17-də Bakı quberniyasının Quba şəhərində anadan olmuşdur. İlk təhsilini molla-xanada alan Mir Cəfər 1907-ci ildə Quba şəhərindəki ibtidai məktəbə daxil olmuşdur. Məktəbi müvəffəqiyyətlə bitirən Mir Cəfər təhsilini Quba Ali ibtidai məktəbində davam etdirmiş, 1913-cü ildə məktəbi bitirib, Petrovsk 2 illik pedaqoji kursuna (rus dili müəllimliyi) daxil olmuşdur. 1915-ci ildə M.Bağırov əmək fəaliyyətinə gənc müəllim kimi Xudat stansiyasındakı kənd məktəbində başlamış M.C.Bağırov 1915–1917-ci illərdə M.Bağırov Nəcəfkənd, Quba şəhər məktəblərində müəllimlik etmişdir. M.C.Bağırov inqilabi fəaliyyətə 1917-ci il Fevral İnqilabı dövründə başlamış, Qubada əsgər və kəndli deputatları sovetinin yaradılması, fəhlə və kəndli ittifaqının möhkəmlənməsi kimi bir sıra işlərdə iştirak etmişdir. 1918-ci ilin mart-may aylarından gizli fəaliyyətə keçən M.C.Bağırov Bakıya gəlmiş, 1918-ci ildə Bakıda sovet hakimiyyəti yıxıldıqdan sonra Həştərxana getmişdir. Mir Cəfər Bağırov Həştərxanda işləyərkən Mariya adlı qızla ailə qurmuş və bu nikahdan 1919-cu ildə Cahangir (Vladimir) adlı oğulları anadan olmuşdur. 1926-cı ildə Mariya vəfat etmiş, M.Bağırov 1930-cu ildə Yevgeniya Mixaylovna ilə ailə qurmuş və bu nikahdan 1932-ci il avqustun 9-da ikinci oğlu Cen dünyaya gəlmişdir. Mircəfər Bağırov böyük oğlu Cahangir (Vladimir) aviasiya məktəbində təhsil almış, İkinci dünya müharibəsində pilot kimi iştirak etmiş və həlak olmuşdur. Digər oğlu Cen Bağırov Bakıda 10-cu sinfə qədər 6 saylı məktəbdə oxumuş, sonra Tiflisdə hərbi məktəbdə, 1951-ci ildə

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016 . – s.182.

Moskvada Jukov adına Aviasiya Akademiyasında oxumuş, 1953-cü ildən təhsilini Kənd Təsərrüfatı İnstitutunda davam etdirmişdir.[1]

M.C.Bağırov 1918-1920-ci illərdə Həştərxanda dəmir polkun partiya kollektivinin katibi, Birinci müsəlman polkunun hərbi komissarı, XI Ordunun Hərbi İnqilab Şurasının tapşırıqlarını yerinə yetirən işçi, xüsusi təyinatlı dəstənin hərbi komissarı, Qafqazda sovet hakimiyyəti qurulması üzrə Qafqaz bürosunun əməkdaşı, Qafqaz korpusu hərbi inqilabi şurasının müvəkkili vəzifələrində çalışmışdır.[2] Buradakı fəaliyyətinə görə 1920-ci ilin əvvəllərində RSFSR MİK tərəfindən "Qırmızı bayraq" ordeni ilə mükafatlandırılmışdır. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra M.Bağırov Azərbaycan Müvəqqəti İnqilab Komitəsi tərəfindən Dağlıq Qarabağa göndərilir. O, Dağlıq Qarabağ vilayət İnqilab Komitəsi sədrinin müavini və XI ordunun Hərbi İnqilab Şurasının müvəkkili kimi fəaliyyət göstərmiş və burada Azərbaycan ordusu hissələrinin tərkibində, Qarabağ üsyanının yatırılması prosesində iştirak etmişdir. 1920-1921-ci illərdə XI ordunun Hərbi İnqilabi Şurasının sərəncamında olan M.Bağırov II briqadanın komandiri, I atıcı diviziyanın hərbi tribunalının, XI ordu Hərbi Tribunalının Səyyar Sessiyasının sədri, Azərbaycan diviziyasının hərbi komissarı vəzifələrində çalışmış, 1921-ci il aprelin 2-də AzFK sədri təyin edilmiş, Azərbaycan SSR Xalq Komissarları Sovetinin tərkibinə seçilmişdir. O, bu vəzifədə 1927-ci ilin sentyabrın ortalarına kimi çalışmışdır. M.Bağırov eyni zamanda bu illərdə AzFK sədri olmaqla yanaşı, Azərbaycan Xalq Daxili İşlər Komissarı və Azərbaycan SSR XKS sədrinin müavini vəzifələrini də daşımışdır.

1927-1928-ci illərdə Tiflis şəhərinə göndərilən M.Bağırov orada Cənubi Qafqaz Su Təsərrüfatı İdarəsinin, 1928-1929-cu illərdə isə Cənubi Qafqaz Kənd Təsərrüfatı İdarəsinin sədri vəzifəsində çalışmışdır. M.C.Bağırov 1929-cu ilin sentyabrında Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri təyin edilmiş və 1930-cu ilin sentyabrına kimi bu vəzifədə işləmiş, ÜİK(b)P MK qərarı ilə 1930-cu ilin sentyabrında Moskvaya ÜİK(b)P MK yanında marksizm-leninizm kursunda oxumağa göndərilmiş, 1932-ci ilin fevralında kursu müvəffəqiyyətlə bitirərək ÜİK(b)P MK aparatında məsul təlimatçı təyin edilmişdir.

M.C.Bağırov 1933-1953-cü illərdə Azərbaycan Kommunist Partiyası MK və BK-nın birinci katibi vəzifəsini daşımışdır. Vəzifədə olduğu müddətdə Bakı Elektrik maşınqayırma zavodu, Bakı Soyuducu kombinatı, Bakı biskvit fabriki, Qaradağ sement zavodu, Gəncə toxuculuq kombinatı, yağpiy zavodu, Sumqayıt istilik elektrik stansiyası, Boru prokat zavodu və Sintetik kauçuk zavodu məhsul istehsalına başlamış, Lökbatan, Neft Daşları, Zığ kimi neft yataqları kəşf olunmuş, Sumqayıt, Mingəçevir, Əli Bayram-

[1] https://az.wikipedia.org/wiki/Mirc%C9%99f%C9%99r_Ba%C4%9F%C4%B1rov
[2] Yenə orada.

lı, Daşkəsən kimi yeni sənaye məntəqələri salınmışdır. Bakıda tikilib istifadəyə verilməsi Bağırovun dövrünə təsadüf edir. Mircəfər Bağırovun respublikaya rəhbərliyi illərində Azərbaycan Elmlər Akademiyası və onun bir sıra institutları o cümlədən, Azərbaycan Politexnik İnstitutu istifadəyə verilmişdir.

ARPİİSSA-də araşdırılan dövrə dair biri-birindən fərqli məzmunda, fərqli hadisələrdən bəhs edən xeyli sənəd saxlanılır. Dövrün xronoloji çərçivəsindən aydındır ki, əsas hadisələrin önündə M.C.Bağırov dayanır, təbii ki, bütün hadisələrin səbəb və nəticələri onun adı ilə bağlıdır. Amma diqqəti cəlb edən sənədlərdən biri M.C.Bağırovun tərcümeyi-halı ilə bağlıdır. ARPİİSSA saxlanılan M.C.Bağırovun 1923-cü il yanvarın 29-da yazdığı tərcümeyi-halında imza yoxdur.[1] Yaxud, sonrakı illərdə yazılan sənədlərdə anadan olduğu il müxtəlif göstərilmişdir. Düşünürük ki, bu sənədlərə "əl gəzdirilmiş", imperiyanın tələblərinə uyğun "dəyişdirilmiş" və ya "yenilənmişdir". Ziddiyyət təkcə tərcümeyi-halda deyildir, şəxsi vərəqələr, partiya qeydiyyat kitabçası, anketlər və s. də dəyişdirilmişdir. Belə nəticə çıxarmaq olar ki, qəbul olunmuş qərarlara dair sənədlər həqiqəti əks etdirmir. Sovet imperiyası digərləri kimi M.C.Bağırovun da həyat yoluna kölgə salmışdır.

M.C.Bağırovun vəzifədən uzaqlaşdırılmasından 60 ildən artıq vaxt keçir. Ötən 60 ildə onun haqqında çox yazılıb, hadisələr şişirdilib, bütün günahlar onun üzərinə yüklənib. Yazılanlar və yazdırılanların saxtalığı, qarayaxma kampaniyası olduğu aşkar olunur. Lakin nəyin necə yazılmasından asılı olmayaraq bir həqiqət ortaya çıxır: insanların manqutlaşdırılmasına səy göstərilmişdir. Hər halda heç bir qüvvə 30-50-ci illəri geri qaytara bilməz. Bu tariximizin bir parçasıdır, bu parçada M.C.Bağırov olmuşdur və illər ötdükcə müxtəlif fikirlər səslənəcəkdir. İnsanlar başa düşməlidirlər ki, M.C.Bağırov olmasaydı zaman başqa bir Bağırov yetişdirməli idi. Bağırov soyadı şərtidir, keçicidir. Çünki hər faktdan yararlanan moskvalı ermənilər kadr siyasətindən sui-istifadə edir, milli kadrları ləkələyirdilər. Mir Cəfər Bağırov isə "Moskva kadrlarını incitməkdən çəkindiyindən" ətrafını beynəlmiləlləşdirməyə çalışırdı. Ermənilər Mir Cəfər Bağırovun etibarından sui-istifadə edərək azərbaycanlıların irəli çəkilməsinə mane olur, siyasi diskriminasiya aparır və imkan daxilində məhv etdirirdilər. Moskva özünəməxsus balans yaratmaqla beynəlmiləlçilik ənənələrinə sadiqliyini nümayiş etdirir, əslində isə qeyri-ruslar, xüsusilə azərbaycanlılar daim sıxışdırılır və təqib olunurdular. Bu səbəbdən də, müharibə ərəfəsi Azərbaycan xalqının yaddaşında repressiyası ilə yadda qalmışdır. 1937-ci ildə "əksinqilabçı millətçi-burjua" təşkilatının üzvü kimi 22 xalq komissarı, 49 rayon partiya komitəsi katibi, 29 rayon icraiyyə komitəsi sədri, 207 sovet və həmkarlar təşkilatının işçiləri, 57 zavod və mədən direktoru repressiyaya məruz qal-

[1] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı, 2013. – s.16.

mışdır.[1] Repressiyaya məruz qalan 400-ə yaxın məsul vəzifəli şəxs arasında MK katibləri, müxtəlif vaxtlarda Azərbaycan SSR-də və ZSFSR-də yüksək partiya və hökumət vəzifələri tutmuş şəxslər var idi. Göründüyü kimi, 1920-1930-cu illərdə terror SSRİ-nin dövlət siyasətinin tərkib hissəsi olmuşdur. Azərbaycan SSR XDİK yanında xüsusi üçlük 1937-ci ildə siyasi cinayət üzrə 2.846 nəfəri azadlıqdan məhrum etmiş, 2.215 nəfər güllələnmişdir. Yalnız antisovet təbliğatı və təşviqatına görə 1.108 nəfərə güllələnmə kəsilmişdir. 1937-ci ildə xüsusi üçlük 10 min adamın işinə baxmışdır. Motileviçin sədrliyi ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar Sessiyası yalnız 1938-ci il iyunun 4-də 99 nəfəri mühakimə etmişdir. Ümumilikdə, iki sessiya 623 nəfəri mühakimə etmiş, onlardan əksəriyyəti güllələnmişdir. 1936-1937-ci illərdə Azərbaycan K(b)P MK bürosunun hər iclasında onlarla, bəzən də yüzlərlə adam partiya sıralarından xaric olunmuşdur. Azərbaycan K(b)P MK bürosunun 1937-ci il 5 noyabr tarixli iclasında 279 nəfər partiya sıralarından uzaqlaşdırılmışdır.

1937-1938-ci illər repressiyaları zamanı Azərbaycan xalqının millimənəvi sərvətlərinə, mədəniyyətinə, adət və ənənələrinə güclü zərbə vuruldu. Repressiyaların təşkilinin kökündə qeyri-azərbaycanlılar, xüsusilə ermənilər dayanırdı.[2] İstintaq-əməliyyat aparatının əsasını ermənilər təşkil edirdi. Məsələn, Göyçay rayonunda Vartanyan, Nuxada Markaryan, Qaryagində Vartanyan, Şahbuzda Qriqoryan, Balakəndə Sərkisyan, Astarada Avanesov, Lerikdə Xaçaturov, Ağcabədidə Sərkisov, Zəngilanda Zaproryan, Markaryan, Kaçiçyan, Cəbrayılda Avanesov, Djiqaryan, Astranxanbazarda Avakyan, İsrailyan, Puşkində Zəkiyan, Yardımlıda Sevoinyan, Samuxda Petrosyan, Masallıda Aşot Avanesyan, Fizulidə Saakov, Şaxanyan, Vartanov, Qazaxda Qriqoryan, Naxçıvanda Baqdasarov, İsrailyan, İonesyan, Evoyan, Ağacanov, Seyranov, Akopov, Paqgosov, Bakıda Avanesov, Arutyunov istintaq-əməliyyat qrupunun rəhbəri olmuşlar. Respublikanın 51 rayonundan 31-də XDİK rayon şöbəsinin rəhbəri erməni idi. Oxşar vəziyyət XDİK aparatının yüksək eşelonunda da vardı. Adamyan 11-ci ordu xüsusi şöbəsinin baş müstəntiqi, İsxanyan XDİK Baş Siyasi İdarəsinin serjantı X.Q.Qriqoryan XDİK mühüm məsələlər şöbəsinin rəisi, Vartanov XDİK OBXSS rəisi, Qriqoryan DTK Qazax rayon rəhbəri, Markaryan XDİK müavini, Mirzoyan XDİK müavini, Pçelyan Bayıl həbsxanasının rəisi, Gevorkov Naxçıvan həbsxanasının rəisi, Xaçaturov XDİK həbsxana xəstəxanasının rəisi Q.S.Aslanyan XDİK arxivinin rəisi, N.A.Gevorkov Bakı İstintaq həbsxanası xəstəxanasının baş həkimi, Q.S.Ba-

[1] Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – s.385.

[2] Əmrahov, M.İ., İbrahimova, X.H. İkinci dünya müharibəsi ərəfəsində Azərbaycan SSR–də ictimai–siyasi, iqtisadi və sosial həyat / M.İ.Əmrahov, X.H.İbrahimova // Sivilizasiya. Elmi-nəzəri jurnal, Bakı: – 2017, № 2, – cild 6, – s.174.

bakevyan Gəncə qarışıq istintaq həbsxanası xəstəxanasının baş həkimi idi. XDİK-da işləyən Mirzoyan, Qalstyan, Qriqoryan, Avanesyan, Markaryan, Oqanesyan, Mustafyev, Şer, Borşev, Borisov, Klemençiç, Durlyanin, Sokin qardaşları, Platonov və b. ağır işgəncələr verərək müttəhimlərə istədiklərini yazdırır və onları günahlandırırdılar. Tarixçi İbrahim Zeynalov yazır ki, "M.C.Bağırovun əlaltıları olanlar – Azərbaycan xüsusi xidmət orqanlarının rəhbərləri Firinovski Mixail Petroviç (1930-cu il 30 avqust – 1933-cü il aprel), Aqriba Aleksey Sergeyeviç, (1933-1934-cü il mart), Sumbatov – Toporidze Yuveli Davidoviç (1934-cü il mart – 1938-ci il yanvar), Pavel Kaminski Mixail (Yakov) Qriqoyeviç (1938-ci il yanvar-noyabr), Yemelyanov Stepan Federeoviç (1953-cü il avqust – 1956-cı il aprel), Quskov Anatoli Mixayloviç (1953-cü il avqust – 1956-cı il aprel), Kopilov Fyoder İvanoviç (1956-cı il sentyabr – 1959-cu il avqust), Kardaşov Aleksandr Vasilyeviç (1959-cu il oktyabr – 1963-cü il oktyabr), Sviqun Semyon Kuzmiç (1963-cü il oktyabr – 1967-ci il) heç biri azərbaycanlı deyildi. Bunların əli ilə Azərbaycanın milli kadr potensialına böyük zərbələr vurulmuşdur.[1]

Ümumittifaq səviyyəsində yeni cəmiyyət quruluşunun əsasını təşkil edən sinfi mübarizə Stalin təxəyyülünün məhsulu idi. SSRİ-nin tərkibində olan respublikalardan biri kimi Azərbaycanda bu proseslərin getməsi təbii hal idi. Ancaq yerli xüsusiyyətlər, milli mentalitetdəki çatışmazlıqlar, maddi sərvətlərdən daha çox faydalanmaq həvəsi respublikada sinfi mübarizə pərdəsi altında daha çox qisasalma uğrunda mübarizəyə çevrilmişdi. Nəşr olunan kitablarda belə təsəvvür formalaşdırılmışdır ki, Azərbaycan rəhbərliyi Moskvanın bütün göstərişlərini qeyd-şərtsiz yerinə yetirmişdir. Bu heç də belə deyildir. Sübut üçün M.C.Bağırovun məhkəmə prosesində açıqlanan və vaxtilə ÜİK(b)P MK katibi A.A.Jdanovun Stalinin təkidi ilə Azərbaycan K(b)P MK-ya göndərdiyi məktuba nəzər salaq. Məktubda M.Bağırov əks-inqilabçı düşmənlərin, sosializm əleyhdarlarının tapıb ifşa edilməsində qətiyyətsizlik göstərdiyinə görə günahlandırılırdı. Çünki Moskvaya, şəxsən Stalinə göndərilən məktublardan Bağırov xəbərdar idi və agentura bu barədə mərkəzi məlumatlandırırdı.

M.C.Bağırovun hakimiyyətə gəlişində L.Beriya mühüm rol oynasa da, son sözü Stalin demişdi. Azərbaycan K(b)P MK-nın keçmiş katibi Mir Həsən Seyidov bu münasibətlə yazır ki, Bağırov özü deyirdi ki, onun namizədliyi siyasi büroda müzakirə olunanda bəzi büro üzvləri bunun əleyhinə olmasa da, azərbaycanlılardan digər kadrın namizədliyini göstərməmişlər, görünür onlar buraya Mərkəzdən kadr göndərmək istəyirdilər. Stalin isə öz sözünün üstündə inad edərək demişdi: "...Azərbaycana mütləq azərbay-

[1]Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində /İ.Zeynalov. – Bakı, 2018. – s.179.

canlını göndərmək lazımdır”.[1] Bu onu göstərir ki, Bağırov Stalinin təkidi ilə hakimiyyətə gəlmişdi və onun ürəyincə idi. M.C.Bağırov Stalinin tələb etdiyi kriteriyalara cavab verir, onun bütün tələblərini yerinə yetirirdi. Bağırovun tələbkarlığı, tabeliyindəkilərə qarşı ciddi davranışı nəticəsində inzibati-amirlik sistemi şəraitində respublikada vacib xalq təsərrüfatı vəzifələrinin yerinə yetirilməsi təmin edilirdi. İldən-ilə neft və neft məhsulları istehsalı artırdı. Müharibə illərinin bütün çətinlikləri dəf olunaraq cəbhə yanacaqla təmin olunurdu. Bir sözlə, M.C.Bağırovun idarəetmə üsulu Stalini qane edirdi, o, Stalinin gözündə yaxşı icraçı idi. Yaranmış şəraitdən istifadə edən Azərbaycan rəhbəri nəinki, təkcə xalq təsərrüfatı problemlərini həll edir, qısa müddətdə siyasi intriqalara, respublikanın bir qrup rəhbər işçisinin Moskvaya şikayətlərinə son qoyurdu. Mərkəzi Komitə aparatının rəhbər tərkibi, Mərkəzi Komitə katibləri nəinki M.C.Bağırova hörmət edirdi, hətta qorxurdular. Çoxları onunla şəxsi əlaqə yaratmağa çalışırdı.

Kadrların sadiqliyi sistem üçün vacib şərtlərdən idi. Stalin çalışırdı ki, nomenklatura tərkibi dövrü olaraq yeniləndirilsin. Bu elə həyata keçirilirdi ki, müxalifətin hər hansı forması, hətta potensialı olanlar belə narazı qalmasınlar. Buna görə də nomenklatura tərkibinə daxil olanlar daimi təşviş içində yaşayır, mövcud vəziyyətini itirməkdən qorxurdular. Bu bəzən fiziki cəhətdən aradan götürülməyə qədər yüksələ bilirdi. Stalin hesab edirdi ki, nomenklatura fəaliyyətində mənfi istiqamətə doğru dəyişiklik Ümumittifaq səviyyəsində olarsa, bu onun fiziki məhvinə gətirib çıxarar, nəticədə ətrafı potensial müxalifətə çevrilə bilərdi. Bu səbəbdən də, Stalin kadrlara şübhəli yanaşırdı. O, nomenklatura üzvlərinin sadiqliyini diqqətdə saxlayır, ən kiçik səhv hərəkət faciə ilə nəticələnirdi. Bu xarakterik xüsusiyyət totalitar sistemdə idarəetmə prinsiplərində hakim mövqe tutur, xüsusilə müttəfiq respublikalarda milli kadrlar nəzarətdə saxlanılır, hər hansı səhv millətçilik kimi qiymətləndirilirdi.

Kadrların sıradan çıxarılmasında əsas rolu ermənilər oynayır, Mərkəzi hakimiyyət isə baş verənlərə biganə yanaşırdı. Bu baxımdan “Ekspress” qəzetinin 2005-ci il 8 sentyabr tarixli sayında Teyyub Qurbanın “Dahi bəstəkar necə xilas oldu” başlıqlı məqaləsi maraq doğurur. Məqalədə ermənilərin Ü.Hacıbəyovu hədəfə alması, onun yaxın dostlarının həbs edilməsi və bu işdə ermənilərin fəallığı faktlarla göstərilmişdir. Şair Qılman İlkin yazır ki, Azərbaycanın müxtəlif idarələrinə, o cümlədən musiqi aləminə soxulmuş ermənilər Azərbaycan ziyalılarını, xüsusilə Ü.Hacıbəyovu aradan götürmək istəyirdilər. Azərbaycan Dövlət Filarmoniyasının Həmkarlar İttifaqı Komitəsinin sədri Akopyan Ü.Hacıbəyovun rəhbərlik etdiyi Dövlət xor kollektivinə yad ünsürlər soxulduğu barədə məktub yazaraq Ü.Hacıbəyovu

[1]Сеидов, М.Г. Общественно–политическая обстановка в Азербайджане в 1940-е – начале 1950-х годов. Рукопись книги. – 27 с., с.15.

gözdən salmaq məqsədi güdmüşdür.[1] Qılman İlkin yazırdı: "Bir gün Təbrizin küçələrinə vurulmuş reklam vərəqələrində oxuduq ki, sabahdan ekranlarda "Arşın mal alan" filmi göstəriləcək. Lakin ertəsi gün kinoteatra gəlib titrləri oxuyanda gözlərimizə inanmadıq. Titrlərdə "Arşın mal alan"ın erməni rəvayəti olduğu bildirilirdi".[2] Ermənilər Səməd Vurğuna qısqanclıqla yanaşırdılar. Səməd Vurğun 1942-ci ildə Sovet İttifaqının himninin mətninin yazılmasında iştirak edir, onun yazdığı mətn yüksək qiymətə layiq görülür və bəstəkar Aleksandrova verilir. Mətn A.Adalis tərəfindən rus dilinə tərcümə olunur, lakin ermənilərin "əməli fəaliyyəti"nin nəticəsi olaraq Dövlət Komissiyasına çatdırılmır. Nəticədə Mixalkov və Registanın yazdıqları mətn qəbul olunur.[3]

Müharibə illərində Zaqafqaziya respublikalarının milli diviziya-larının təşkilinin böyük siyasi və hərbi əhəmiyyəti vardı. Müharibənin ilk illərində bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar təşkil olundu. Bu diviziyaların milli tərkibi çoxmillətli idi. Müharibə başlayandan sonra dövrün hərbi texnikası ilə tanış olmayan, təcrübəsiz və hərbi təhsili olmayan tələsik toplanmış milli diviziyaların şəxsi heyətinin xeyli hissəsi xidmətə yararsız olmaqla yanaşı, həm də əsgərlərin böyük hissəsi rus dilini bilmirdi. Bu səbəbdən də zabit korpusu əsasən slavyan xalqlarının nümayəndələrindən formalaşdırılırdı. Rus dilini bilmədiklərindən əsgərlər silahlarla davranış qaydalarını da pis mənimsəyirdilər. 392-ci atıcı diviziyanın Siyasi İdarəsinin rəisi Bubkovun Qori şəhərindən M.C.Bağırova ünvanladığı 1941-ci il 18 noyabr tarixli məxfi məktubda bildirilirdi: "...əsgərlərin əksəriyyəti rus dilini bilmirlər... partiya-siyasi işin zəif aparılması səbəbindən diviziyamızda fərarilik, xidmətdən yayınma və digər hallar baş verməkdədir... xahiş edirəm ki, Azərbaycan dilini bilən...bir neçə kommunist təbliğatçılar göndərəsiniz".[4] Bu məsələyə toxunan tarixçi İ.Zeynalov yazır: "Azərbaycanlıların əksəriyyəti rus dilini bilmədikləri üçün döyüş zamanı verilən əmrləri yerinə yetirməyə çətinlik çəkirdilər. Nəticədə nizamnaməni pozduqları üçün komandirlər onları tribunala verirdilər. Bəzi generallar isə əmri yerinə yetirməyən azərbaycanlıları yerindəcə güllə-

---

[1] Teyyub, Qurban. Dahi bəstəkar necə xilas oldu // Ekspress. – 2005, 8 sentyabr. – s.10.

[2] Teyyub, Q. Düşmənlərindən güclü şəxsiyyət / Q.Teyyub. – Bakı, 2006. – s.15-16.

[3] Письмо Самеда Вургуна на имя М.Д.Багирова о его участии в создании поэтического текста гимна Советского Союза. Окончательные проекты текста гимна Азербайджанской ССР, переставленные авторами – Самедом Вургуном, Сулейманом Рустамом, Нигяр Рафибейли, Мирвари Дильбази, Расулом Рзой, Мир Мехти Сеидзаде, Ахмедом Джамилем, на обсуждение комиссии: (начато: 03.021943 г.– окончено:13.04.1944г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 28, ед.хр. № 189, листы – 1-33.

[4] Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı: Zərdabi LTD MMC, – 2013. – 320 s. 93-94.

ləyirdilər. Həmun vaxt bu xəbər Zaqafqaziya Hərbi Şurasının üzvü olan M.C.Bağırova çatdırılır və o, dərhal azərbaycanlılara qarşı zorakılıq hallarının baş verdiyi cəbhənin cənub bölgəsinə gedir. Azərbaycanlı döyüş-çülər Bağırova komandir Yevgeni Xruşşovun özbaşınalıqlarından və rus dilini bilməyən azərbaycanlıların "dizertir" adı ilə güllələnməsindən şika-yətlənirlər. Bağırov Yevgeni Xruşşovu çağıraraq onu sorğu-suala tutur. Komandir azərbaycanlıların verilən əmrləri yerinə yetirmədikləri üçün güllələndiklərini bildirir. Bağırov ona deyir ki, axı onlar rus dilini bilmirlər. Xruşşovun cavabı belə olur: "…Bu heyvanlara rus dilini mən öyrətməli deyiləm". Bağırov bu sözləri eşidərkən həmişə üstündə gəzdirdiyi "Mauzer" tapançasını çıxarıb Y.Xruşşovun alnından vurur". Bundan sonra, Bağırov birbaşa Moskvaya – Stalinin yanına gedir. Zaqafqaziya Cəbhəsi Hərbi Şura-nın üzvü kimi Bağırov atdığı addımı Stalinə əsaslandırır".[1] Bu hadisədən az sonra 1942-ci il iyulun 14-də Azərbaycan K(b)P MK döyüşçülərə rus dilinin öyrədilməsi haqqında qərar qəbul edir.[2]

Arxiv sənədləri təsdiq edir ki, cəbhə bölgələrində, hərbi hissələrdə və döyüş yerlərində azərbaycanlı əsgərlərə qarşı kobud münasibət, yanaş-malarda nifrət müşahidə olunurdu. N.Yaqublu yazır ki, belə münasibətlər, şübhəsiz ki, döyüşçülərə mənfi təsir göstərir, onlar təhqir olunurdular. Odur ki, döyüşçülər arasında beynəlmiləl tərbiyə işinin yüksəldilməsi ciddi prob-lem olaraq qalırdı. Əsgərlərə olduqca pis qayğı və xidmət göstərilir, yorğan-döşək çatışmır, hamama aparılmır, yaralılara tibbi xidmət göstərilmirdi.[3] Azərbaycanlı əsgərlərin çoxluq təşkil etdiyi hissələrdə rəhbər heyətdə olan ermənilər "intiqam" almağı unutmur, onları incidirdilər. Azərbaycan K(b)P MK nümayəndələri Babayev və Qasımovun Azərbaycan K(b)P MK-nın katibi Məmmədova göndərdiyi 9 noyabr 1941-ci il tarixli məktubda 276-cı alayın 3-cü bölüyünün partiya komitəsinin katibi T.Danielyanın döyüşçülərə nöqsanlarını izah etmək əvəzinə, onları senzuradan kənar sözlərlə söyüb təhqir etdiyi bildirilirdi. Eyni mənzərə ilə 75-ci alaydan Azərbaycan K(b)P MK-nın təşviqat briqadasının üzvü S.M.Aydınbəyovun 27 noyabr 1941-ci il tarixli məktubunda da rastlaşırıq.[4]

Arxiv sənədləri göstərir ki, Respublika partiya təşkilatı və respublika hökuməti, şəxsən M.C.Bağırov təkcə yerlərdə deyil, ordu hissələrində də kütləvi-siyasi işin qüvvətləndirilməsini diqqət mərkəzində saxlayırdı.

---

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – s. 204.

[2] Постановление ЦК КП (б) Азербайджана "Об изучении русского языка бойцами всеобуча" 14 июля 1942 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №103, дело №75, лист – 12.

[3] Yaqublu, N. Azərbaycan legionerləri /Yaqublu N. – Bakı, 2005. – s.105.

[4] Yenə orada.

Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS-nin 24 sentyabr 1941-ci il tarixdə "Partiya-siyasi işçilərin Qızıl Ordu sıralarına səfərbər edilməsi haqqında",[1] 10 oktyabr 1941-ci il tarixdə "Azərbaycanlı qızıl ordu döyüşçüləri arasında partiya-siyasi işinin qüvvətləndirilməsi tədbirləri haqqında",[2] 13 noyabr 1941-ci il tarixdə "Respublikada formalaşdırılmış hərbi hissələrdə siyasi-tərbiyə işinin gücləndirilməsi tədbirləri haqqında",[3] 14 avqust 1943-cü il tarixli "Azərbaycanlı döyüşçülər arasında siyasi-tərbiyə işinin daha da gücləndirilməsi və onlarla Azərbaycan zəhmətkeşlərinin əlaqələrinin yaxşılaşdırılması tədbirləri haqqında" [4] qərarları kütləvi-siyasi işin yaxşılaşdırılmasına yönəlmişdir. 1941-ci ilin dekabrında Azərbaycan K(b)P MK-nın təbliğat və təşviqat işi üzrə katibi Həsən Seyidovun rəhbərliyi ilə 7 nəfər rəhbər işçi, 3 yazıçı və şair, operanın 16 artistindən ibarət qrup Krım cəbhəsinə getmişdi. Krım cəbhəsinə ikinci gediş 1942-ci il fevralın 17-də təşkil edilmişdi. 1942-ci ilin may ayında Azərbaycan K(b)P MK Sevastopola-Primorski ordu qrupuna göndərdiyi nümayəndə heyətinə Xalq Maarif Komissarı Mirzə Məmmədov rəhbərlik etmişdi. 1942-ci ilin oktyabrında Azərbaycan K(b)P MK partiya siyasi işçilərdən ibarət bir qrupu Qara dəniz siyasi idarəsinin Zaqafqaziya cəbhəsinin azərbaycanlı döyüşçüləri arasında kütləvi-siyasi iş aparmaq üçün, həmin ilin noyabr ayında isə Azərbaycanın məsul partiya və sovet işçiləri döyüşçülərlə görüşmək üçün Zaqafqaziya Cəbhəsinin hərbi hissələrinə göndərmişdi. Qafqaz uğrunda gedən gərgin döyüşlərdə -1942-ci ilin payızında S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, H.Mehdi, Z.Xəlil, Məmməd Əkbər, Ə.Məmmədxanlı döyüşçülərlə birgə idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət cənub cəbhəsində – Sevastopol və Kerç müdafiəçilərinin yanında olmuşlar.[5]

---

[1] Постановление ЦК КП(б) Азербайджана «О мобилизации партийно–политических работников в ряды Красной Армии» 24 сентября 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №40, листы –7-8.

[2] Постановление ЦК КП(б) Азербайджана «О мероприятиях по усилению партийно–политической работы среди красноармейцев-азербайджанцев» от 10 октября 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №103, дело №49, листы – 160-162.

[3] Yenə orada, лист – 7.

[4] Постановление ЦК КП(б) Азербайджана «О мероприятиях по дальнейшему усилению политико-воспитательной работы среди бойцов-азербайджанцев и усилению связи с ними трудящихся Азербайджана» 14 августа 1943 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №129, дело №35, листы – 11-12.

[5] Əmrahov, M.İ. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində / M.Əmrahov. – Bakı, 2004. –s. 81.

Yaxud, azərbaycanlıların deportasiya edilməsi məsələsinə nəzər yetirək. Yaranmış şəraitdən məharətlə istifadə etməyi bacaran Mikoyan azərbaycanlıların türk olduğunu, Almaniyada mövcud olan Azərbaycan legionlarının gələcəkdə SSRİ-yə qarış istifadə olunmasının istisna olmadığını, SSRİ-nin cənub sərhədlərində türklərin yerləşməsi və müharibənin gedişində Bakı nefti üçün türklər tərəfindən təhlükə yaranacağına Stalini inandırmağa cəhd etdi və nəticədə azərbaycanlıların deportasiyası məsələsi Siyasi büronun müzakirəsinə çıxarıldı. Beriyadan başqa Siyasi Büronun bütün üzvləri deportasiyaya razılıq verdilər. Beriya belə hesab edir ki, "bu iş" Bağırovun razılığı olmadan həll oluna bilməz. İclasdan sonra Beriya Bağırova zəng edərək bəzi tədbirlərin görülməsini məsləhət görür. Həmin dövrdə Azərbaycan SSR Xalq Torpaq Komissarı olmuş Cəfər Cəfərov xatirələrində yazır ki, M.C.Bağırov onu yanına çağırır. O kabinetə daxil olduqda respublika rəhbərliyinin böyük əksəriyyətinin orada olduğunu görür. M.C.Bağırov ona bir neçə günə azərbaycanlı komsomol təşkilat rəhbərlərinin kütləvi sürətdə müharibəyə getmək istəməsi haqqında Stalinə teleqram təşkil etməyi tapşırır. Beləliklə, Bağırovun qətiyyəti sayəsində Stalin azərbaycanlıların deportasiyasından imtina etmişdi. Təəssüf ki, bu barədə əlimizdə yazılı rəsmi sənəd yoxdur. Fikrimizcə, Bağırovun bu qəbildən olan tədbirləri azərbaycanlıların deportasiyasının qarşısını almağa yönəlmişdi. İ.Zeynalovun yazdığı kimi, hər bir halda 1943-1944-cü illərdə iki dəfə Azərbaycanın bütünlüklə köçürülməsi barədə Siyasi Büronun müdhiş qərarını və bu qərarın layihəsini şəxsi nüfuzu ilə M.C.Bağırovun ləğv etdirməsi unudulmamalıdır.[1]

ARPİİSSA-də Azərbaycanda neft istehsalı sahəsində yaranmış çətinliklərlə bağlı DMK sədri İ.Stalinə ünvanlanmış məktubların surətləri saxlanılır. Bu məktublar müharibə illərində M.C.Bağırovun cəbhənin neft və neft məhsulları ilə təmin edilməsinə necə qayğı ilə yanaşdığına şahidlik edir. ARPİİSSA-də Azərbaycanda neft istehsalı sahəsində yaranmış çətinliklərlə bağlı DMK sədri İ.Stalinə ünvanlanmış məktubların surətləri saxlanılır. Məhz onun sayəsində bir sıra qərarlar qəbul olunmuşdur.

SSRİ ilə İran arasındakı münasibətlərdə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin birinci katibi olmuş M.C.Bağırovun rolu, onun Cənubi Azərbaycanla bağlı məsələlərə müdaxilə etməsinə dair araşdırmalar göstərir ki, M.C.Bağırovun fəaliyyətinin əsasını Azərbaycanı birləşdirmək dayanırdı. Təbii ki, bu sahədə Stalinlə olan şəxsi münasibətləri mühüm rola malik idi. İki rəhbərin münasibətlərindən və Azərbaycanın cənubu ilə şimalının birləşdirilməsi planından xəbərdar olan erməni-gürcü qruplaşmaları yenidən Azərbaycandan torpaq qoparmaq həvəsinə düşmüşdülər. Məqsədlərinə nail

[1] Zeynalov, İbrahim. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində / İ.Zeynalov. – Bakı, 2018. – s. 248.

ola bilməyəcəklərini yəqin etdikdən sonra Cənubi Azərbaycanda baş verən hadisələrin istiqamətini dəyişmək, alovlanan milli-azadlıq hərəkatını boğmaq üçün SSRİ-nin üzünü Türkiyə istiqamətinə çevirməyə cəhd edən erməni rəhbərlər "Böyük Ermənistan" yaradılmasını həyata keçirməyə fürsət gözləyirdilər.

Arxiv sənədlərində İranda Azərbaycan diplomatik korpusunda işləyəcək adamların adları qeyd olunmuşdu. Sənədə görə Tehrandakı səfirlikdə müşavir vəzifəsində Ə.Yaqubov, 1-ci müşavir vəzifəsində Quba raykomu Orucov Məmməd Tağı oğlu, 3-cü müşavir vəzifəsində Haşımov Cəbrayıl İsrafiloviçin işləməsi müəyyənləşdirilmişdir. Mərkəzi konsulluq Təbriz şəhərində yerləşməli idi. Burada Vitse konsul vəzifəsinə Azərbaycan K(b)P MK-nın təbliğat şöbəsindən Süleyman Rəhimov Katib vəzifəsinə Mirzə Məmmədov məsləhət bilinirdi. Vitse – konsulluqda (Maku) Vitse-konsul vəzifəsinə Mustafayev Mustafa Seyid Əhməd oğlu, Katib – vəzifəsinə Seyidzadə təyin edilirdi. Sovet-İran mədəni əlaqələrində 1941-ci ili yanvarında Moskvada 216 səhifəlik "Cənubi Azərbaycana dair texniki-iqtisadi xülasə" də buna xidmət edirdi. Nəhayət, Almaniyanın SSRİ-yə hücumundan az əvvəl Bakıda hərbçi adı ilə Cənubi Azərbaycana göndəriləcək 3.816 nəfər mülki şəxs müəyyənləşdirildi və 52 briqada formalaşdırıldı. Cənubi Azərbaycana göndəriləcək nümayəndələrin siyahısına partiya, sovet və sovet, təhlükəsizlik, milis, prokurorluq və 90 nəfəri ədliyyə orqanlarında işləyənlər, həmçinin nəşriyyat və mətbuat orqanlarının işçiləri daxil edilmişdi. Səfərbər edilənlər arasında 245 dəmiryolçu, 42 neftçi-geoloq və s. var idi.[1] M.C.Bağırovun gündəlik nəzarəti nəticəsində "Vətən yolunda" adlı qəzet nəşrə başladı, "Təbriz" mətbəəsi üçün ərəb və kiril əlifbası ilə işləyən mətbəə maşını, 30 ton kağız, 2 taxta kiosk, hazır kitablar, mebel, 2 ədəd makina, yağlı rəng, 15 ədəd dəmir soba və s. göndərildi. Təbrizdə sovet xəstəxananın, Azərbaycan dilində məktəbin açılması, Cənubi Azərbaycanda siyasi işi və mədəni-kütləvi tədbirləri genişləndirmək üçün Azərbaycanı K(b)P MK-da bir sıra qərarlar qəbul edilməsi, Cənubi Azərbaycanla əlaqələrin yaxşılaşdırılmasında 1945-ci il noyabrın 19-da yaradılan "Sovet Azərbaycanı dostları" cəmiyyəti yaradılması böyük uğur idi.

M.C.Bağırov 1955-ci ildə həbsə alınıb, istintaqa cəlb olunmuş, Bakıda 12-26 aprel 1956-cı il tarixdə keçirilmiş məhkəmədə məhkəmənin hökmü ilə ən ağır cəzaya – güllələnməyə məhkum edilmiş və rəsmi məlumata görə hökm yerinə yetirilmişdir. Mir Cəfər Bağırovun məhkəməsi indiki "Şəhriyar" klubunda keçirilmişdir. Bağırovun 1956-cı ildə keçirilən 15 günlük

[1] İrana xarici ezamiyyətə göndəriləcək rəhbər vəzifəlilərin, partiya, dövlət təhlükəsizliyi, daxili işlər orqanları və digər işçilərin ehtiyat siyahısı. 1941 // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №89, iş №33, vərəq – 1-269.

məhkəməsində 40 nəfər şahid dindirilmiş, onlardan 28 nəfər azərbaycanlı, 12 nəfər isə başqa millətlərin nümayəndələri olmuşdur. Nürnberqdə SSRİ-nin nümayəndəsi olmuş prokuror Rudenko onun məhkəməsini aparmışdır. M.Bağırovun bağışlanmaq haqqında sovet rəhbərliyinə müraciətləri rədd edilmişdir. Lakin Sov.İKP MK siyasi bürosu iclaslarının sənədlərindən aydın olur ki, beynəlxalq vəziyyət mürəkkəb olduğundan Mikoyanın təklifi ilə bu qərarın icrası iki il dayandırılmışdır. Bununla belə, Azərbaycana güllələnmə haqqında qərarın qüvvədə qaldığı bildirilmişdir. İttiham "Bağırovun və onunla əlbir olanların" 1936-1938-ci illərin repressiyalarında birbaşa iştirakını, günahsız insanların təqib olunmasını, istintaq işlərinə müdaxilə etməsini, öz siyasi rəqiblərini dövlətin repressiya aparatının vasitəsi ilə məhv etməsi faktlarını sübuta yetirmişdir.


Бағыров билдирди ки, о, Азәрбајчанда өзүнә гаршы терроручулуг актлары һазырландығына һеч вахт инанмајыб. Лакин Бағыров бу чүр чинајәт ишләринин сахталашдырылмасы барәдә башгаларына шәхси сорағчам вердијини данырды. О е'лан етди ки, һәмин ишләрин сахталашдырылмасы дикәр мүттәһимләрин «алчаг» дүшмәнчилик фәалијјәтидир».

Бағыров е'тираф едирди ки, мүттәһимләр күнаһсыз адамларын, о чүмләдән партија — совет фәалларынын чинајәт иши үзрә чохлу сахталашдырмалара јол вериблər. Лакин Бағыров һәмин чинајәткар һәрәкәтләрин шәхсән онун сорағчамы үзрә һәјата кечирилдијини даныр, өзүнү бу ишдә сәһлənкарлыға көрә күнаһландырырды. Бу барәдә Бағыров к ө с т ә р и р д и:

«О илләрдә Азәрбајчан ХДИК органлары тәрәфиндән һәбс олунмуш партија—совет фәалларынын сајынын бу тәдәр чох өлмәси мәнә инди ајдын олур. О вахтдар мән буну о гәдәр дә һисс етмир, буна нәзарәт етмир. ХДИК-ин ишини јохламырдым. Бу да көкүндән сәһв вә јолверилмәздир. Анчаг бу, мәнә белә олуб. Мәним бу сәһлənкарлығым чидди тәнбеһә вә чәзаја лајигдир».


Бағыров һәм дә г е ј д и р д и ки:

«Мәним әсас сәһвим одур ки, Беријаја вә онунла бағлы олан вә онун дүшмән мөвгејини мүдафиә едән, органларда биркә иш үзрә онунла узун илләр бөјү әлагәдә олан Сумбатов, Боршев, Григорјан, Маркарјана вә б. көз јуммушам, онларын ич үзүнү танымамышам.

Мән онлара инанараг ХДИК органларыны онлара е'тибар етмишәм. Бу ишдә халгын гаршысында күнаһларым о гәдәр бөјүкдүр ки, мәни күлләләмәк аздыр, асмаг аздыр, мәни шаггаламаг, парча-парча еләмәк лазымдыр».

Mir Cəfər Bağırovun istintaq materiallarından çıxarış


Илкин истинтагда РСФСР ЧМ-нин 58—1 «б», 58—8 вә 58—11-чи маддәләринә әсасән тутулмуш чинајәтләрдә мүтәссир билинәрәк дindирилән Бағыров Мир Чафар Аббасович, бирәсиндә ирали сүрүлән иттиһама һеч бир дәлил-сүбут кәтирмәдән е'тираф етмәк јолунда ајрыларында чинајәт фактларынын бојнуна алмаға мәчбур олмушдур. Бағыров е'тираф етди ки, Берија илә сых әлагәдә олуб, онун һагтында кәскин данышан адамлара шәхсән өзү диван тутуб.

Бағыров д е ј и р д и:

«Мәним ән бөјүк сәһвим нәфсә олунмуш халг дүшмәни Берија илә бағлы сајаск сајмағымдыр там итирмәјим олуб.

Бу сәһвим, Берија һагтында мәнә мә'лум олмасынын вә олуб кечмәләрин ишығында назар саланда партија вә Совет һөкүмәтинә мүнасибәтдә чинајәт һәдәфинә чатыр. Мән Берија илә достлуг етмишәм, онун јарамазлығынын вә әчлафлығынын шаһиди ола-ола ону мүдафиә етмишәм».


Беријанын шәхси архивиндән тапылмыш, онун мүсабат әкскәшфијјатындакы хидмәтини сүбут едән, Бағыров васитәсилә әлдә олунмуш вә она көндәрилмиш сәнәдләри Мир Чафәрә көстәрәндә о д е д и:

«Һәмин сәнәдләри мәнә көстәрдиләр. Мән онлары Беријаја көндәрмишәмсә, демәли, бу дөгрудан да белədир. Анчаг бунун һаны шәрантдә баш вердији јадымда дејил.

Бу мәним чинајәтә бәрабәр бағышланмаз сәһвимдир».


Бағыровун мүтәссир олмасы мүттәһимләрдән Сумбатов — Топурдзе, Атакишијев, Григорјан, Маркарјан, Боршев, Јемелјановун, шаһидләрдән Манучаров, Гасымов, Оручов, Олизанов, Богдасаров, Мелешкин, Мәгәјев, Агајев, Ибраһимов, Нуријев, Зајкин, Әлијев, Кротков, Иванишвили, Можнов, Севојан, Нәсиров, Новрузов, Левонјан, Капустин, Рәһманов, Саварјан, Гасарјан, Јекәзаров, Абдуллабәјов, Ләзарев, Абрамова, Иноземтсева, Пашин, Әлијев вә бир чох башгаларынын ифадәләри, елчә дә ишә әлаә олунан бир сыра сәнәдләрин әсли илә сүбут олунур.

ИТТИҺАМ ФОРМУЛАСЫ

Истинтат мүәјјән едиб ки, мүттәһим Бағыров халг дүшмәни Беријанын ән јахын әлаәтләриндән бири олмагла хајанәткар планларын һәјата кечирилмәсиндә мүттәһим Сумбатов — Топурдзенин, Атакишијев, Григорјанын, Маркарјанын, Боршевин, Јемелјановун чинајәткар фәалијјәтә тәшвиг етмишдир. Беријанын көмәкләри илә Азәрбајчан ССР-дә бир сыра мәсәлә вәзифәләри чатан Бағыров өз әлаәтләринин Азәрбајчан ССР ФК—БСИ—ХДИК—ДТН органларында мәс'ул

Mir Cəfər Bağırovun istintaq materiallarından çıxarış


вәзифәләрә тә'јин олунмасына наил олмушдур. Өз вәзифәләриндән дүшмәнчилик мәгсәди илә истифадә едән Бағыров, Атакишијев, Григорјан, Маркарјан, Боршев, Јемелјанов бир сыра ағыр дөвләт чинајәтләри төрәтмишләр.

1. Бағыров Беријанын мүсабат әкскәшфијјатындакы фәалијјәтиндән хәбердар ола-ола, она чинајәткар кечмишини кизләтмәји һәр чүр көмәк етмиш, бу јолда ону нәфсә едәчәк адамлары арадан көтүрмәкдән, мәнә етмиздән, сәнәдләри архивләрдән огурламагдан белә чәкинмәмишдир.

2. Мүттәһимләр Бағыров, Атакишијев, Григорјан, Маркарјан, Боршев вә Јемелјанов күнаһсыз адамлары ганунсуз һәбс етмиш, онлары дөвләт чинајәтләри төрәтмәкдә, Бағырова гаршы терроручулуг акты һазырламагда күнаһландырмышлар.

3. Дејмək, физики ишкәнчәләр вермәк јолу илә дустаглардан өзләринә сәрфәли јаланы ифадәләр алмагла, чинајәт ишләрини сахталашдырмыш, күнаһсыз инсанлара диван тутмагда онлардан истифадә етмишләр.

4. ССРИ ХДИК-ин хүсуси јығынчағындан вә Азәрбајчан ССР ХДИК-ин хүсуси «чәлләјиј»ләри өз чинајәткар мәгсәдләри үчүн истифадә едән Бағыров, Атакишијев, Маркарјан, Боршев, Григорјан вә Јемелјанов инсанлара күнаһсыз инсанларын өлүмүнүмәсини вә ја узун мүддәтә азадлыгдан мәһрум едилмәсини нail олмушлар.

Д е ј и л ә л ə р ə ə с а с л а н а р а г:

1. Азәрбајчан ССР Губа шәһәр сакини, 1896-чы илдә анадан олмуш БАҒЫРОВ МИР ҺӘФӘР АББАС ОҒЛУ, РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

2. Бакы шәһәр сакини, 1903-чү илдә анадан олмуш АТАКИШИЛЕВ АҒАСӘЛИМ ИБРАҺИМ ОҒЛУ, РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

3. Ермәнистан ССР Гафан рајону Севакар кәнд сакини, 1902-чи илдә анадан олмуш ГРИГОРЈАН ХОРЕН ИВАНОВИЧ; РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

4. Азәрбајчан ССР Шуша шәһәр сакини, 1890-чы илдә анадан олмуш МАРКАРЈАН РУБЕН АМДАРСУМОВИЧ, РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

5. Азәрбајчан ССР Гәзах рајон сакини, 1901-чи илдә анадан олмуш БОРШЕВ ТИМОФЕЈ МИХАЈЛОВИЧ, РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

6. Тәчрүбәтдә МСХС-ин Ермәнистан ССР-дә Тәнгилләр Комитәсинин сакини, 1902-чи илдә анадан олмуш ЈЕМЕЛЈАНОВ СТЕПАН ФЕДОРОВИЧ, РСФСР ЧМ-нин 58—1 «б»; 58—8; 58—11 маддәләрилә;

М ү т ә һ и м л ә р

Иттиһамнамә 2 мәрт 1956-чы илдә Москва шәһәрində тәртиб олунуб.

ССРИ БАШ ПРОКУРОРУ

Бөјүк әдлијә мүшавирәчиси

Р. РУДЕНКО.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra nəşr olunan əsərlərlə tanışlıq, istər SSRİ dövründə işıq üzü görən əsərlərin, istərsə də yeni nəşrlərin müqayisəsi göstərir ki, müəlliflər müxtəlif dövrlərdə yazdığı əsərlərdə bir-birinə zidd fikirlər səsləndirmişlər. Bu fikirlərdə M.C.Bağırov haqqında müsbət və mənfi fikirlər də vardır. Ancaq tarix olaraq qalır. Hər bir nəsil öz baxış bucağından və dövrün ideoloji təsirlərində hadisələrə qiymət verəcəkdir. Bunda təəccüblü heç nə yoxdur.

30 ilə yaxın zaman kəsiyi bizi sovetlər dönəmindən ayırsa da, əslində hadisələrin içində 4 nəsil bir-biri ilə qarşı-qarşıya dayanmışdır. Birinci nəsil XX əsrin 20-30-cu illərində dünyaya gəlmiş və hər iki mərhələnin şahidi olanlardır. İkinci nəsil XX əsrin 40-50-ci illərinin övladlarıdır. Onlar ömürlərini başa vurmaqdadırlar. Üçüncü nəsil XX əsrin 70-80-cı illərində dünyaya gəlib və müstəqillik dövrünə qədəm qoyanda müharibə fəlakətləri ilə üz-üzə qalmışlar. Qəhrəmanlıq göstərmək həvəsi onları ölümlə qarşı-qarşıya qoymuşdur. Dördüncü, sonuncu nəsil ötən əsrin 90-cı illərində həyata göz açanlardır və indi onların 25-30 yaşları vardır. Bu nəsil, həm də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin şahidi olmuşlar. Müharibə illərinin materialları göstərir ki, M.C.Bağırov Azərbaycanlılar ərazi iddiaları edən Ermənistan və Gürcüstan rəhbərlərinə, həmçinin onların Moskva havadarlarına qarşı barışmaz mövqe tutmuş, rus-erməni-gürcü qruplaşmasının arzularını puç etmişdir.

XIX FƏSİL

MÜHARİBƏNİN DƏRSLƏRİ

II Dünya müharibəsinin öz miqyasına, gərginliyinə və silahlı mübarizənin nəhəngliyinə, habelə iştirakçı dövlətlərin sayına görə bəşəriyyət tarixində misli-bərabəri yoxdur. Hərb tarixçilərinin yazdığı kimi, əgər I Dünya müharibəsində hərbi əməliyyatlar 14 ölkənin ərazisində aparılırdısa, II Dünya müharibəsində silahlı münaqişə artıq 40 ölkənin ərazisinə yayılmışdı. Bu müharibədə 61 dövlət iştirak edirdi. Həmin dövlətlərdə 1 milyard 700 milyon nəfər insan yaşayırdı ki, bu da Yer kürəsində yaşayan əhalinin 75 faizini təşkil edirdi. Əgər I Dünya müharibəsində 70 milyon nəfər səfərbərliyə alınmışdısa, II Dünya müharibəsində bu rəqəm 110 milyon olmuşdu. II Dünya müharibəsində həlak olanların sayı 50 milyon nəfər təşkil edir. Bu müharibə ölkələrin mülki əhalisi üçün də son dərəcə amansız oldu. Əgər I Dünya müharibəsində ümumi itkinin 95 faizini hərbçilər, 5 faizini isə mülki şəxslər təşkil edirdisə, II Dünya müharibəsində bu rəqəmlər müvafiq olaraq 33 faiz və 67 faiz idi. II Dünya müharibəsi zamanı SSRİ, Almaniya, Böyük Britaniya, Fransa və İtaliyanın insan itkiləri aşağıdakı cədvəl kimi olmuşdur.[1]

Cədvəl 19.1.

Ölkələr	Hərbçilər	Mülki şəxslər	Cəmi
SSRİ	12. 000 000	17. 000. 000	29. 000. 000
Almaniya	3. 250 000	6 .440. 000	9. 690. 000
Fransa	245. 000	350. 000	595. 000
İtaliya	380. 000	153. 000	533. 000
Böyük Britaniya	403. 000	92. 700	495. 000
ABŞ	407. 000	6 .000	413. 000

Sovet İttifaqının 72 min şəhər və kəndi dağıdılmış, 32 min sənaye müəssisəsi məhv edilmiş, 65 min km dəmiryol xətti sıradan çıxarılmışdı. Sovet İttifaqının qərbində yerləşən ən başlıca sənaye rayonları (sənaye müəssisələrinin əksəriyyəti də məhz SSRİ-nin Avropa hissəsində yerləşirdi) demək olar ki, iki dəfə dağıntıya məruz qalmışdı. Belə ki, Qırmızı Ordunun şərqə geri çəkilən hissələri 1941-1942-ci illərdə həmin müəssisələri Stalinin əmrinə əsasən partlatmışdı. 1943-cü ildən sonra isə sovet ordusunun təzyiqi altında geriyə çəkilməyə məcbur qalan alman orduları Hitlerin əmri ilə onları xarabalığa çevirmişdi. 1700 şəhər və qəsəbə viran qoyulmuş, 35

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə.Behbudov. – Bakı, 2016. – c.7.

milyon insan evsiz-eşiksiz qalmışdı. Müharibədən dərhal sonra, yəni 1945-ci ilin sentyabrında ölkəyə dəymiş zərərlə bağlı hesablama aparıldı. Məlum oldu ki, zərərin məbləği 679 milyard rubl təşkil edir. Bu da SSRİ-nin 1940-cı il üzrə milli gəlirlərindən 5,5 dəfə artıq idi.

Cəbhə və orduya, donanma və aviasiyaya rəhbərlikdə, cəbhə və ordu əməliyyatlarının hazırlanmasında və həyata keçirilməsində Sovet İttifaqı Marşalları S.S.Biryuzov, A.M.Vasilyevski, L.A.Qovorov, A.A.Qreçko, G.K.Jukov, İ.S.Konev, R.Y.Malinovski, K.A.Meretskov, K.S.Moskalenko, K.K.Rokossovski, S.K.Timoşenko, F.İ.Tolbuxin, V.İ.Çuykov, donanma admiralları S.Q.Qorşkov, İ.S.İsakov, baş artilleriya marşalı N.N.Voronov, baş zirehli tank qoşunları marşalı P.A.Rotmistrov, baş aviasiya marşalları K.A.Verşinin, A.A.Novikov, ordu generalları P.İ.Batov, N.F.Vatutin, A.V.Qorbatov, İ.D.Çernyaxovski, artilleriya marşalı V.İ.Kazakov, zirehli tank qoşunları marşalları S.A.Katukov, P.S.Rıbalko, aviasiya marşalları S.A.Krasovski, S.İ.Rudenko, V.A.Sudets, general-polkovniklər V.İ.Kuznetsov, tank qoşunları general-polkovniki A.Q.Kravçenko, admiral F.S.Oktyabrski, vitse-admiral N.Q.Kuznetsov və b. özlərini əsil sərkərdə kimi göstərdilər. Ali Baş Komandan İ.V.Stalin 1945-ci ildə Sovet İttifaqının Generalissimusu adına layiq görüldü.

Bir sıra hərbi qulluqçular qəhrəman adını müharibədən sonra aldılar. 1978-ci ildə bu ada SSRİ Müdafiə naziri D.F.Ustinov layiq görüldü. **Həmyerlimiz "Mixaylo" ləqəbli partizan Mehdi Hüseynzadə 1957-ci ildə, Həzi Aslanov isə ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə 1991-ci ildə** təltif olunmuşdur.

Siyasi işçilər də bu yüksək ada layiq bilinmişlər. Onların arasından cəbhə, donanma, ordu siyasi şöbəsi işçilərindən 7 nəfər bu şərəfə nail olmuşdur.

Qəhrəmanlar arasında Quru Qoşunları üstünlük təşkil edir - 8.447 nəfər. Onlardan 411 nəfəri "Qızıl Ulduz" medalını müharibəyədək almışdılar.

Sovet İttifaqı Qəhrəmanı adını ilk alan atıcı diviziya döyüşçüləri polkovnik V.A.Trubaçov, mayorlar D.İ.Kuznetsov və Q.V.Mikley, kapitan F.A.Batalov, leytenant A.P.Dubinets, Qızıl Orduçu A.İ.Zaxodskiy oldu. Ümumilikdə, atıcı qoşunların döyüşçülərindən 5.500 nəfər müharibə illərində Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Artilleriyaçılar müharibə illərində əsil ustalıq, hərbi döyüş nümunəsi göstərdilər. Silahlı Qüvvələrin 1.800-dən artıq artilleriyaçısı yüksək hərbi adla təltif olundular.

Müharibə illərində **tank qoşunları** Quru Qoşunlarının zərbə qüvvəsini təşkil etdi. 1.300-dən artıq cəsur tankçı, o cümlədən 16 nəfər ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq bilindi. Zirehli tank və mexanikləşdirilmiş qoşunlarından tank qoşunları general-mayoru V.Semençenko,

baş serjant A.M.Borisov və kiçik serjant A.M.Qryaznov ilk olaraq Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər.

Süvariçilər qələbəyə öz töhfələrini verdilər. Onlar arasında general-mayor L.M.Dovator və mayor B.A.Krotov ilk olaraq qəhrəman adını aldılar. Ümumilikdə, 300 nəfər süvariçi qəhrəman ulduzu ilə təltif olundu.

Müharibə illərində **mühəndis qoşunları** ordunun hücum və müdafiə əməliyyatlarının kompleks şəkildə həyata keçirilməsini əksər hallarda təmin etdilər. Onların 600 nəfəri "Qızıl Ulduz" medalını, 288 nəfər "Şöhrət" ordeninin tam üç dərəcəsini aldı. Qəhrəmanlar içərisində mühəndis qoşunları general-leytenantı İ.P.Qalitskiy və mühəndis qoşunları general-polkovniki A.İ.Proşlyakov da vardı.

Rabitəni ordunun əsəb sistemi adlandırırlar. Rabitəçilər ən çətin şəraitdə hücum və müdafiə əməliyyatlarında qoşunlararası rabitəni təmin edə bildilər. 200 rabitəçi, o cümlədən leytenant A.V.Rıcikov, rabitə batalyonu komandiri, kapitan Q.Y.Yamuşev, rabitə taqımının komandiri, leytenant M.D.Kolosov, bölmə komandiri, kiçik serjant N.T.Vorobyov və V.F.Kaydaş, qvardiya serjantı V.Kostin, telefonçular P.V.Kostyuçek, İ.İ.Osinniy və b. Sovet İttifaqı Qəhrəmanı oldular.

Tibb işçiləri minlərlə döyüşçünü yenidən həyata qaytardılar. Müharibə illərində 150 döyüşçü-sərhədçi "Qızıl Ulduz" medalını aldı.

Aviasiya müharibə tarixinə qızıl səhifələr yazdı. 2.332 döyüşçü aviator (bu ümumi sayın 20,3% təşkil edir) qəhrəman ulduzuna layiq görüldü. Qəhrəman adı alanlar hücumçu aviasiyada üstünlük təşkil edir – 800 nəfər. Qırıcı təyyarəçilər arasında bu ada 810 nəfər, bombardmançılar arasında 279 nəfər layiq görüldü. Qəhrəmanlar arasında 100 nəfər kəşfiyyatçı aviasiyaçı, 17 nəfər hərbi-nəqliyyat və xüsusi təyinatlı aviator vardır.

Qəhrəmanlar arasında **Hərbi Hava Qüvvələrinin** hava ordusu komandanı K.A.Verşinin, S.K.Qoryunov, S.A.Krasovskiy, N.F.Panivin, F.P.Polinin, S.İ.Rudenko, V.A.Sudets, aviasiya korpusu komandiri M.Q.Maçin, B.A.Sidnev, A.V.Utin, aviadiviziya komandiri L.İ.Qoreqlyad, Q.V.Zimin, F.P.Kotlyar və b. vardır.

Sovet Hərbi Dəniz Donanmasının qələbədə xüsusi payı vardır. Ümumilikdə, 538 nəfər, müharibə dövründə isə 513 nəfər yüksək hərbi rütbəyə layiq görüldü. Qara dəniz donanmasından 204 nəfər "Qızıl Ulduz" medalını aldı. Qara dənizçilər Odessa, Sevastopol, Kerç, Novorossiyskini qəhrəmanlıqla müdafiə etdilər.

Qırmızı Bayraqlı **Baltik donanmasının 137 nəfər üzvü** Sovet İttifaqı Qəhrəmanının "Qızıl Ulduz" medalı ilə təltif olundu. Qəhrəman baltikçilər Liepayu, Tallin uğrunda döyüşlərdə, Leninqrad, Xanko yarımadası müdafiəsində iştirak etdilər. Yüksək ad alanlar içərisində torpeda katerləri dəstəsinin komandiri, kapitan-leytenant B.P.Uşer, sualtı qayıq komandiri, 3-cü

ranq kapitan S.N.Boqorad, V.K.Konavalov, S.P.Lsin, baltik təyyarəçisi, kapitan A.K.Antonenko, leytenant P.A.Brinko və b. vardı.

Yaponiyaya qarşı döyüşdə fərqlənən **44 nəfər Sakit okean dənizçisi**, o cümlədən Sakit okean donanmasının komandanı, admiral İ.S.Yumaşev, SSRİ Hərbi Dəniz Donanması Xalq Komissarı N.Q.Kuznetsov və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Qələbəyə hərbi donanmanın dənizçiləri də öz töhfələrini verdilər. 42 nəfər, o cümlədən 1-ci dərəcəli starşina A.P.Paşkov, donanmaçı N.A.Baranov, V.Y.Kirillov, katerlər dəstəsinin şturmanı, leytenant B.P.Buvin və b. layiq görüldülər.

Keçmiş Sovetlər birliyində **4 d ə f ə** Sovet İttifaqı Qəhrəmanı adını Sovet İttifaqı Marşalı G.Q.Jukov almışdır.

Jukov Georgi Konstantinoviç

Jukov Georgi Konstantinoviç (2.01.1896-18.06.1974) Kaluqa vilayətinin Strelkovka kəndində doğulmuşdur. O, 1918-ci ildən orduda xidmətə başlamış, 1918-1920-ci illər Vətəndaş müharibəsinin iştirakçısı olmuşdur. Q.K.Jukov Xalxin-Qol rayonunda yapon təcavüzkarlarının darmadağın edilməsinə rəhbərlik etmişdir.

G.K.Jukov 1941-ci yanvarın 12-də Baş Ştabın rəisi təyin olunmuş, 1941-1945-ci illərin sovet-alman müharibəsi illərində SSRİ Xalq Müdafiə Komissarının müavini və Baş Qərargah rəisi işləmiş, müharibə illərində bir sıra cəbhələrin komandanı olmuşdur.

1942-ci ildən SSRİ Xalq Müdafiə Komissarının birinci müavini və Ali Baş Komandanın müavini işləyən G.K.Jukov bir sıra əməliyyat planlarının işlənib hazırlanmasında iştirak etmiş, 1944-cü ildə I Ukrayna cəbhəsi qoşunlarının, 1944-1945-ci illərdə I Belarusiya cəbhəsi qoşunlarının komandanı olmuş, Visla, Oder və Berlin əməliyyatlarının keçirilməsinə rəhbərlik etmişdir.

Müharibədən sonra G.K.Jukov Almaniyada sovet qoşunlarının baş komandanı, sovet inzibati orqanlarının başçısı olmuşdur. 1946-cı ildə SSRİ Quru Qoşunları Baş Komandanı, 1946-1953-cü illərdə silahlı Qüvvələr nazirinin müavini, Odessa və Ural hərbi dairələri qoşunlarının komandanı, 1955-1957-ci illərdə SSRİ Müdafiə naziri olmuş, 1958-ci ildə istefaya çıxmışdı. O, 1943-cü ildə Sovet İttifaqı Marşalı, 1939, 1944, 1945-ci illərdə Sovet İttifaqı Qəhrəmanı, 1969-cu ildə Monqolustan Xalq Respublikası Qəhrəmanı adına layiq görülmüşdür.

G.K.Jukov SSRİ Ali Sovetinin deputatı seçilmiş, 6 dəfə "Lenin" ordeni, "Oktyabr inqilabı" ordeni, 2 dəfə "Qələbə" ordeni, 3 dəfə "Qırmızı Bayraq" ordeni, 2 dəfə birinci dərəcəli "Suvorov" ordeni, həmçinin Fəxri silah, 20 xarici orden və medallarla təltif edilmişdir. Moskvada, Kreml yanında dəfn olunmuşdur. Xatirələri çap edilmişdir.

Həyat G.K.Jukov üçün rəvan olmayıb. Onun ən yaxın 6 silahdaşı onun əleyhinə çıxış etməyə başladılar. Onların içərisində G.Jukovun güllələnmədən xilas etdiyi Konev xüsusilə fərqlənmişdi. Rokossovski yazırdı ki, Jukov yalnız siyasət yürüdürdü...təkəbbürlü, məğrur və şöhrətpərəst olduğunu etiraf etdi. Stalin müharibədən sonra Jukov haqqında demişdi: "Marşal Jukov təvazökarlıqdan tamamilə uzaq hərəkətlər edərək və şəxsi ambisiya hissinə qapılaraq hesab edirdi ki, onun xidmətləri lazımi səviyyədə qiymətləndirilməyib. O, həmçinin tabeliyində olanlarla söhbətlər zamanı Böyük Vətən müharibəsi ilə bağlı olan bütün əsas əməliyyatların, hətta onun heç bir əlaqəsinin olmadığı əməliyyatların belə işlənib hazırlanmasını və onların həyata keçirilməsini öz adına yazırdı".[1]

Sadalananlar həyatın görünməyən tərəfləridir. Ən əsası odur ki, İ.Stalin və G.K.Jukovun strategiyası nəticəsində cəbhələrdə insanlar qan selində boğuldular.

Brejnev Leonid İliç

Sovet İttifaqı Qəhrəmanları sırasında Sov. İKP MK-nın Baş katibi olmuş L.İ.Brejnev də vardır.[2]

4 dəfə Sovet İttifaqı Qəhrəmanı (1966, 1976, 1978, 1981), Sosialist Əməyi Qəhrəmanı (1961) Brejnev Leonid İliç (1906-1982) müharibə illərində Cənub cəbhəsi siyasi idarəsi rəisinin müavini, 18 A siyasi şöbəsinin rəisi, 4-cü Ukrayna cəbhəsi siyasi idarəsinin rəisi olmuşdur. Qafqaz, Priçernomoriye, Krım və Ukraynada gedən döyüşlərdə, habelə Çexoslovakiya, Polşa və Macarıstan xalqlarının azad olunmasında iştirak etmişdir.

L.İ.Brejnev müharibədən sonra – 1945-1946-cı illərdə Prikarpat Hərbi Dairəsi siyasi idarəsinin rəisi,[3] 1946-1947-ci illərdə Zaporojest, 1947-1950-ci illərdə Ukrayna KP Dnepropetrovsk Vilayət Komitəsinin I katibi, 1950-1952-ci illərdə Moldaviya KP MK-nın I katibi, 1953-1954-cü illərdə HDD və sovet ordusu Siyasi İdarəsinin rəisi, 1960-1964-cü illərdə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri, 1964-1966-cı illərdə Sov. İKP MK-nın I katibi, Sov. İKP MK-nın RSFSR üzrə Büro sədri, 1960-1982-ci illərdə Sov. İKP MK-nın Baş katibi, eyni zamanda 1977-1982-ci illərdə SSRİ Ali Soveti

---

[1] Sultanov, Çapay. Bakı nefti dünya şahmat taxtasında: 1939-1945-ci illər: [rus dilindən tərcümə] / Ç.Sultanov; tərc. ed. Ə. Behbudov. – Bakı, 2016 . – s.524.

[2] Великая Отечественная война, 1941-1945: Словарь – справочник. Н.К.Андроников, А.С.Голицан, М.М.Кирьян и др. Под. общ. Ред. М.М.Кирьяна. – Москва: Политиздат, 1985, с.272; ASE, IV cild, s.273;

[3] ASE, II cild: Balzam – Qaydar. Bakı, 1976. – s. 320-321.

Rəyasət Heyətinin sədri, 1964-1982-ci illərdə Müdafiə Şurasının sədri olmuşdur.

L.İ.Brejnev SSRİ Ali Sovetinə 3-10 çağırış deputatı seçilmişdir. 1979-cu ildə Lenin mükafatına layiq görülmüşdür.[1]

L.İ.Brejnev 1982-ci ilin noyabrında vəfat etmişdir. Əsərləri çap edilmişdir.

Sovet İttifaqı Qəhrəmanının "Qızıl Ulduz" medalını **3 dəfə** qvardiya podpolkovniki A.İ. Pokrışkin və İ.M. Kojedub almışdır.

Sovet hərb sərkərdəsi, 3 dəfə Sovet İttifaqı Qəhrəmanı (24.05. 1943; 28.08. 1943; 19.08.1944) **Pokrışkin Aleksandr İvanoviç** 1913-cü il fevral ayının 21-də (martın 6-da) Novonikolayevskdə fəhlə ailəsində anadan olmuşdur. 1932-ci ildə orduda xidmətə başlayan A.İ. Pokrışkin 1933-cü ildə aviatexnik məktəbini, 1939-cu ildə təyyarəçilik məktəbini, 1948-ci ildə M.V.Frunze adına Hərbi Akademiyanı, 1957-ci ildə Baş Ştab Hərbi Akademiyasını bitirmişdir.

A.İ.Pokrışkin 1941-ci ildən eskadrilya komandiri müavini və komandiri, 9-cu qvardiya qırıcı aviasiya diviziyasının 16-cı qvardiya qırıcı aviasiya polkunun komandir köməkçisi və komandiri, diviziya komandanı olmuşdur.

A.İ.Pokrışkin I, II, IV Ukrayna cəbhəsinin Şimal və Cənubi Qafqaz döyüşlərində iştirak etmişdir. 600 döyüş uçuşu keçirmiş, şəxsən düşmənin 59 təyyarəsini məhv etmişdir. Döyüş yoldaşları Pokrışkini müharibə illərində «Истребителем №1» adlandırırdılar. A.İ.Pokrışkin Kuban üzərində hava döyüşlərində fərqlənmiş, özünü hava döyüşlərinin yenilikçisi kimi göstərmişdir.

Pokrışkin Aleksandr İvanoviç

Müharibədən sonra məsul vəzifələrdə işləyən A.İ.Pokrışkin 1968-1972-ci illərdə HHM qoşunlarının baş komandanın müavini, 1971-ci ilin yanvar ayından OADKYC MK-nın sədri olmuşdur. SSRİ Ali Sovetinə 2-9 çağırış deputat seçilmişdir.

A.İ.Pokrışkin 4 dəfə "Lenin", "Suvorov", 2 "Qızıl Ulduz" ordenləri, 4 xarici orden və medallarla təltif olunmuşdur.[2]

Sovet təyyarəçisi, aviasiya general-polkovniki (20.04.1970), 3 dəfə Sovet İttifaqı Qəhrəmanı (04.02. 1944; 19.08. 1944; 18.08.1945) **Kojedub İvan Nikifiroviç** 1920-ci il iyunun 8-də Sum vilayətinin (indiki Şostkin

---

[1] ASE, II cild: Balzam – Qaydar. Bakı, 1976. – c. 61-62; Денисова Н.Н., Карпович М.Д. Герой Советскго Союза А.И.Покрышкин / Н.Н.Денисова, М.Д.Карпович. Москва, 1948; ASE, VII c. Bakı, 1983. – s.570.

[2] Большая Советская Энциклопедия. Т.3. Москва, 1975. – с. 170-171.

rayonu) Obraceyenko kəndində kəndli ailəsində anadan olmuşdur. 1940-cı ildə kimya-texnologiya texnikumunu bitirmişdir. 1941-ci ilin fevralında ordu sıralarında xidmətə başlayan İ.N.Kojedub 1941-ci ildə Çuquyev hərbi aviasiya təyyarəçilər məktəbini bitirmişdir. 1941-1942-ci ildə Hərbi Aviasiya pilotlar məktəbində təlimatçı-pilot işləmişdir. Müharibə dövründə – 1943-cü ilin martında Voronej, Səhra, II Ukrayna, I Belorusiya cəbhələrində böyük təyyarəçi, manqa, aviasiya eskadrilya komandiri, qırıcı aviasiya polku komandirinin müavini olmuşdur. İ.N.Kojedub 330 döyüş uçuşu, 120 hava döyüşü keçirmiş, şəxsən düşmənin 62 təyyarəsini məhv etmişdir.

Kojedub İvan Nikifiroviç

İ.N.Kojedub müharibədən sonra – 1949-cu ildə Hərbi Hava Akademiyasını, 1956-cı ildə Baş Ştab Akademiyasını bitirmişdir. 1964-cü ildə Moskva hərbi dairəsinin aviasiya komandirinin müavini olmuşdur. 1971-ci ildə HHQ-də rəhbər işdə işləmişdir.

İ.N.Kojedub SSRİ Ali Sovetinə 2-5-ci çağırış deputat seçilmişdir. "Lenin" ordeni, 7 "Qırmızı bayraq", "Aleksandr Nevski", 2 "Qırmızı Ulduz" ordenləri və medallarla təltif olunmuşdur.

İ.N.Kojedub «Служу Родине» (1949) və «Верность отчизне» (1967) və b. əsərlərin müəllifidir.[1]

İki dəfə Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif olunanlardan bir neçəsinin həyat yoluna nəzər salaq.

İki dəfə Sovet İttifaqı Qəhrəmanı ailəsində Azərbaycan xalqının igid oğlu tank qoşunları qvardiya mayoru, general-mayor (1944) rütbəsinə yüksələn, iki dəfə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş **Aslanov Həzi Əhəd oğlu (22.01.1910 – 24.01.1945)** da vardır.[2] H.Aslanov 1910-cu ildə Lənkəranda anadan olmuşdu. O, 1924-1930-cu illərdə Bakı və Leninqradda (indiki Sankt-Peterburq – red.) hərbi məktəblərdə oxumuş, Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq və şəxsi igidliyinə görə podpolkovnik rütbəsi almışdır. H.Aslanovun 55-ci ələhiddə tank polku Stalinqrad vuruşmasında feldmarşal Manşteynin ordusunun darmadağın edilməsində yüksək hərbi məharət göstərmiş, Stalinqrad ətrafında döyüşlərdə H.Aslanovun 55-ci xüsusi tank alayı xüsusi döyüş nümayiş etdirmişdi. H.Ə.Aslanovun 1942-ci il noyabrın 19-da Barmank Tsak gölü rayonunda hücuma keçən tank alayı bir neçə saat ərzində düşmənin 4

Həzi Aslanov

[1] Большая Советская Энциклопедия. Т.3. Москва, 1975, – s. 383.

[2] H.Aslanov haqqında monoqrafiyanın "Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları" fəslində ətraflı məlumat verilmişdir.

tankını, 5 minomyot batareyasını, bir ağır topunu, 3 piyada rotasını sıradan çıxarmış və 700 hitlerçini əsir almışdı. Manşteynin qoşunları ilə döyüşdə düşmənin 45 tankı, 9 minomyot batareyası, 14 tank əleyhinə və 12 səhra silahı, 50 avtomobil sıradan çıxarılmışdı. Bu vuruşmadakı döyüş nəticələrinə görə o, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.[1]

H.Aslanovun polku Rostov və Taqanroq şəhərlərinin azad edilməsində, Kursk vuruşmasında fəal iştirak etmiş, onun 35-ci qvardiya tank briqadası Belarusiya və Pribaltika respublikalarının azad edilməsində xüsusi ilə fərqlənmişdi. Stalinqraddan Baltik sahillərinə qədər döyüş yolu keçən igid azərbaycanlı sərkərdə Mitava şəhəri yaxınlığında qətlə yetirilmişdir. H.Aslanov 3 "Qırmızı Bayraq" ordeni, 2-ci dərəcəli "Suvorov", "Aleksandr Nevski" ordeni, 1-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 2 "Qırmızı Ulduz" ordeni və medallarla təltif olunan H.Aslanovun adına Bakıda Zabitlər evi fəaliyyət göstərir. Onun adına küçə, meydan, məktəb və Lənkəranda ev muzeyi vardır.[2]

Müharibədən sonrakı illərdə hərbçilər – Sovet İttifaqı Marşalları R.Y.Malinovski (22.XI.1958), S.K.Timoşenko (18.II.1965), K.E.Voroşilov (2.II. 1968), M.N.Zaxarov (22.IX.1971), A.A.Qreçko (16.X.1973), K.S.Moskalenko (21.II.1978), K.K.Rokossovski, 1982-ci ildə donanma admiralı S.Q.Qorşkov 2-ci "**Qızıl Ulduz**" **medalı** ilə təltif olundular.

91 nəfər qadın Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onlardan 86 nəfəri bu yüksək adı 1941-1945-ci illərdə almışdır.

İlk olaraq bu ada 1942-ci il fevralın 16-da partizan Z.A.Kosmedemyanskaya, martın 6-da gizli təşkilatın üzvü E.İ.Çaykina, aprelin 8-də Leninqrad kəşfiyyatçısı, partizan A.V.Petrova, iyunun 20-də 514-cü atıcı polkun sanitar təlimatçısı, baş serjant M.K.Bayda layiq görülmüşlər.

1943-cü ildə **14**, 1944-cü ildə **17**, 1945-ci ildə **24**, 1946-cı ildə **7,** 1948-ci ildə **1**, 1957-ci ildə **1**, 1958-ci ildə **3**, 1960-cı ildə **1**, 1965-ci ildə **14**, 1982-ci ildə **1** qadın bu yüksək adı almışlar.

Atıcı qoşunlar içərisində **25** qadın, o cümlədən batalyon komsomol təşkilatçısı, qvardiya kiçik leytenantı M.S.Batrakova, pulemyotçu, baş serjant Manşuk Mametova və Nina Onilova, snayper, kiçik serjant T.Kostırina, yefreytor A.M.Moldaqulova və b. Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər.

30 təyyarəçi qadın-bombardmançı şturman və aviasiya şturmanı, Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Onlar arasında qvardiya leytenantı P.E.Aronova və V.L.Belik, qvardiya baş leytenantı Q.İ.Junkovskaya və E.B. Pasko, kapitan M.P.Çeçneva, M.M.Raskova və b. olmuşdur.

---

[1] Mədətov Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945. Bakı, 1965. – c.22.

[2] Azərbaycan Sovet Ensiklopediyası 1-10-cu cildlər. Bakı, 1976-1988. – I cild. Bakı, s. 437.

Sanitar işçisi, serjant M.S. Boroviçenko, atıcı bölüyün sanitar təlimatçısı, qızılorduçu V.O.Qnarovskaya və tibb xidməti starşinası, K.S.Konstantinova, alayın sanitar bölüyünün tibb bacısı, tibb xidməti leytenantı F.A.Puşina, sanitar taqımının sanitar təlimatçısı, serjant Z.A.Samsonova və b. Sovet İttifaqı Qəhrəmanı adını almışlar. Qəhrəman qadınlar içərisində **27 partizan qadın** da vardır.

Xarici ölkələrin vətəndaşları da Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Bunların sırasında Bolqarıstan, Polşa, Yuqoslaviya, Çexoslovakiya, Macarıstan, Rumıniya və digər ölkələrin döyüşçüləri vardır.

Sovet İttifaqı Qəhrəmanları sırasında Çexoslovakiya vətəndaşı Otakaç Yaroş, Antonin Soxor, Ştefan Vayda, Yan Nalepka, Lyudivi-Svoboda, polyak kapitan V.K.Vısotski, avtomatçı qadın Kcivon və b. vardı.

Müharibə tarixçiləri fransız qırıcı aviasiya polku "Normandiya-Neman" təyyarəçilərinin döyüş yolundan çox yazmışlar. Stalinqrad altındakı döyüşdə Sovet İttifaqı Qəhrəmanı ulduzu ilə 35-ci qvardiya atıcı diviziyasının pulemyot bölüyünün komandiri, qvardiya kapitanı İspan inqilabçısı **Dolores İbarrurinin oğlu Ruben İbarruri** də var.

"Qızıl Ulduz" medalını süvarilər içərisində "Smert faşizmu" partizan dəstəsində döyüşən alman **Frits Şmengel** almışdır.

Müharibə tarixində çox nadir hallarda rast gəlinən hadisələrdən biri də bəzən bir rayondan, hətta bir kənddən bir neçə döyüşçü-hərbçinin yüksək ada layiq görülməsidir. Sözün həqiqi mənasında həmin yerin adamlarının onlarla fəxr etməyə haqları vardır. Bir neçə nümunəyə nəzər salaq.

Altay ölkəsindən 232 nəfər "Qızıl Ulduz" medalını almışdır. Kostromadan 160, İvanovdan 143, Kaluqadan 125 qəhrəman vardır. Perm vilayətindən 70, İrkutskdan və Amur vilayətindən 67 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Kiyev vilayətinin 157 sakini, o cümlədən 2 nəfəri iki dəfə bu adı almışlar.

Azərbaycan SSR-in Ağdaş rayonundan iki nəfər – Səməd Abdullayev və Fariz Səfərov yüksək ada layiq görülmüşlər.

Elə qəhrəmanlar vardır ki, onları nəinki keçmiş sovetlər birliyində, hətta xarici ölkələrdə də tanıyırlar. Tatar şairi Musa Cəlil, qəhrəman partizan **Mehdi Hüseynzadə (Mixaylo**) belələrindəndir.

K.E.Voroşilov adına SSRİ Silahlı Qüvvələri Baş Ştab Hərbi Akademiyası məzunlarından 2 nəfər 3 dəfə, 39 nəfər 2 dəfə, həmçinin 362 nəfər bir dəfə, M.V.Frunze adına Akademiyanın buraxılışından 1 nəfər 4 dəfə, 2 nəfər 3 dəfə, 27 nəfər 2 dəfə, 646 nəfər bir dəfə Sovet İttifaqı Qəhrəmanı yüksək hərbi rütbəsinə layiq görülmüşdür.

Hərbi məktəblərin məzunları arasında da qəhrəmanlar çox olmuşdur. Məsələn, Orenburq, Tambov və Eysk ali aviasiya məktəbləri müvafiq olaraq 236, 183, 150 Sovet İttifaqı Qəhrəmanı yetirmişdir.

V.İ.Lenin adına Ulyanovsk qvardiya tank məktəbini bitirənlər arasında 74 nəfər, SSRİ Ali Soveti adına Moskva Ali Ümumqoşun komandirləri məktəbindən 60 nəfər bu yüksək ada layiq görülmüşlər.

Döyüş tapşırığını yerinə yetirmək üçün döyüşçülər bilərəkdən canlarından keçmiş və qəhrəman adına layiq görülmüşlər. Belələrinin sayı **132 nəfərdir**. Müharibə başlayandan onların sayı hər il artmışdır. 1941-ci ildə 3, 1942-ci ildə 10, 1943-cü ildə 30, 1944-cü ildə 55 nəfər bu adla təltif olunmuşlar. 1945-ci ildə sovet alman cəbhəsində 28 nəfər, Uzaq Şərq cəbhəsi hərbi əməliyyatlarında 6 nəfər bu qəhrəmanlığı təkrar etmişdir.

100 nəfərdən artıq adam öz bədənləri ilə atəş nöqtəsinin mağazalını örtərək dəstənin irəliləməsinə şərait yaratmışdır. Onların arasında kapitan M.Q.Kalinkin, leytenant X.C.Moldaqaliyev, A.R.Şemiqon və A.Matrosov, kiçik serjant V.İ.Levyakov və b. olmuşdur. **Azərbaycanın igid oğlu Gəray Əsədov da belələrindəndir.**

85 təyyarəçi hava taranı ilə faşist təyyarəsini məhv edərək Sovet İttifaqı Qəhrəmanı adını almışdır.

Bu gün Azərbaycanda elə bir ailə tapılmaz ki, oradan ən azı bir nəfər İkinci dünya müharibəsində, onun ayrılmaz mərhələsi olan sovet-alman müharibəsində iştirak etməsin. Baba və nənələrimizin müharibə illərindəki vəziyyətə dair xatirələri hamımızın qəlbini kövrəltmiş, cəbhədən qayıtmış babalarımızın döyüş hünərini dinlədikcə qürur hissi keçirmişik. 1941-1945-ci illərin sovet-alman müharibəsinin sonu olan 1945-ci ilin qələbə yaylım atəşindən 75 ildən artıq zaman keçsə də, sayları yamanca azalmış veteranlarımızın şəxsində biz də o çətin günləri daim xatırlayırıq.

NƏTİCƏ

Müharibə 1945-ci il sentyabrın 2-də Yaponiyanın təslim olması ilə başa çatdı. Əsgərlər ordudan tərxis olunmağa başladılar. 30 milyona yaxın sovet vətəndaşına qələbəni görmək nəsib olmadı. Sovet əsgərlərini təkcə düşmən deyil, özümüzünkülər də öldürdülər. Dmitri Volkoqonovun hesablamalarına görə cəbhələrin və orduların hərbi tribunalları tərəfindən 157.593 nəfər güllələnməyə məhkum edilmişdir. Təbii ki, onların içərisində yüksək hərbi titula layiq görülənlər də var idi.

Müharibənin əvvəlində Qırmızı Ordunun katastrofik məğlubiyyətinin əsas səbəblərini aşağıdakı kimi qruplaşdırsaq ədaləti unutmamış olarıq.

1. SSRİ rəhbərliyi faşist Almaniyasının hücuma başlayacağı tarix münasibətilə əlaqədar siyasi hesablamalarında səhvə yol vermişdi. Bu əslində İ.Stalinin ətrafına inamsızlığından irəli gəlmişdir. Stalinin və onun yaxın ətrafının Almaniyanın Sovet İttifaqına qarşı müharibəyə hazırlığı xəbərdarlığını təkzib etməsi, müharibə təhlükəsi adı altında sərhədyanı dairələrdə döyüş hazırlığı vəziyyətinin yüksəldilməsinə dair hər hansı tədbirlərinin qadağan edilməsi ağır nəticələrə səbəb oldu. Stalinin müharibənin labüdlüyünə inananda artıq gec idi, qoşunlara müvafiq tədbirlərin qəbul edilməsi barədə direktiv göndərilməsi gecikmiş tədbir oldu.

2. Müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə dair hərbi doktrina işlənib hazırlanmamışdı. Mövcud doktrinaya əsasən Sovet İttifaqına qarşı təcavüz olduğu halda düşmən ordusunu sərhəddə saxlamaq, sonra hücum əməliyyatları gedişində öz ərazilərində darmadağın edilməsi nəzərdə tutulurdu. Bu cür doktrinanın hər şeydən əvvəl iki çatışmayan cəhəti vardı**: birincisi**, Qırmızı Ordunun döyüş hazırlığında əhəmiyyətli üstünlük olsa da, müdafiədə uğursuzluq üstünlük təşkil edirdi. **İkincisi**, bu doktrinaya əsasən qərb sərhədlərinə sovet qoşunlarının böyük birləşmələri dislokasiya olunmuşdu. Qəfil zərbə vurmaq üçün cəbhənin ayrı-ayrı sahələrində motorlaşdırılmış hissələr cəmləşdirildiyi üçün faşist qoşunları müdafiəni yardılar və sovet qoşunlarının böyük birləşmələrini mühasirəyə aldılar. Xaos, ayrı-ayrı yarımbölmələr arasında əlaqədə nöqsanlar, əlaqələndirmənin olmaması ilk mərhələdə Qırmızı Orduda böyük itkilərə səbəb oldu.

3. Kütləvi repressiyalar nəticəsində Qırmızı Ordunun döyüş qabiliyyəti əhəmiyyətli dərəcədə zəifləmişdi. 1937-1938-ci illərdə 40 mindən artıq komandir və siyasi işçi, həmçinin 1800 general, 5 marşaldan 3-ü repressiya olunmuşdu. Həmin vəzifələrə müvafiq təhsili və təcrübəsi olmayan hərbi qulluqçular irəli çəkilmişdi. Repressiya istintaqları qoşunlarda qorxu atmosferi, özünəinamsızlıq yaratmış, təşəbbüskarlıq zəifləmiş, hərbi qulluqçularda şablona təzim, öz vəzifələrinin köhnə sxemlərlə yerinə yetirilməsi şəraitini formalaşdırmışdı.

4. Sovet İttifaqında Silahlı qüvvələrin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi başa çatdırılmamışdı. Yeni silahların hazırlanması, onların texniki-taktiki imkanları xaricilərin dövlətlərin analoqlarını üstələsə də, sənayedə tətbiqi çox ləng irəliləyirdi.

5. Sovet hərbi komandanlığının səhvlərindən biri də böyük mobil motomexanikləşdirilmiş bölmələrin yenidən formalaşdırılması idi. Bir sözlə, alman ordusu tərkibində zirehli "kulakların" çoxluğu, onlara sovet qoşunlarını müdafiəsini yarmağa, arxa cəbhənin dağıdılmasına, böyük Qırmızı Ordu qruplaşmalarının mühasirəyə alınması və məhvinə imkan verirdi.

6. Alman təxribatçı qrupları sovet qoşunlarına böyük zərər vurur, kommunikasiyalararası əlaqələr pozulur, qoşunlar arasında çaxnaşma yaradırdı.

7. Sovet komandanlığının köhnə müdafiə xətlərinin sökülməsinə dair qərarı uzaqgörən deyildi. Bu səbəbdən də yeni müdafiə kəmərinin yaradılmasına vaxt çatmırdı.

II Dünya müharibəsi tarixin ən kəskin ideoloji, elmi, məlumat və psixoloji mübarizənin ön tərəfi olaraq qalır. Bununla belə qələbənin 75-ci ildönümünün qeyd edilməsi ərəfəsində SSRİ-nin faşizmin məğlub edilməsindəki rolunu azaltmaq cəhdləri hiss olundu. Tarixi yenidən şərh etmək cəhdləri yalnız qaliblər tərəfindən deyil, həm də məğlub olanlar tərəfindən, həmçinin keçmiş müttəfiqlər tərəfindən, eləcə də bir sıra keçmiş Sovet respublikaları, ilk növbədə Ermənistan Respublikası tərəfindən təbliğ olunmağa başladı.

Rusların elmi, jurnalist və yazı icmasının bir hissəsi də tarixin yenidən yazılması prosesinə daxil edilmişdi. Bəziləri V.Suvorovun "Buzqıran"ını müdafiə edir, guya almanlar hərbi sənət sayəsində deyil, milyonlarla cəsəd hesabına məğlub edən Sovet hərbi liderlərini damğaladılar. Digərləri "Münhen siyasəti"nin yaradıcılarının günahı ilə parıldadıqlarına görə riyakar bir "obyektivlik" nümayiş etdirdilər. 1930-1940-cı illərdə SSRİ xarici siyasətinin hədəfləri, Sovet hökumətinin sülhü qorumağa yönəlmiş səyləri, təcavüzkarların kollektiv şəkildə məhv edilməsini səhv hesab olundu.

Ən paradoksal hal ondan ibarət idi ki, II Dünya müharibəsi və 1941-1945-ci illər müharibəsi tarixini saxtalaşdıranlar Üçüncü Reyxin təbliğat aparatın mədh edir, Şərqə bir kampaniya hazırlayan Hitlerə bəraət qazandırmağa cəhd edirdilər. Hitlerin təbliğat maşınının dərinliklərindəki "Sovet təhlükəsi", "Sovet ekspansionizmi", SSRİ-nin Şərqi və Cənub-Şərqi Avropa üzərində nəzarət yaratmaq istəyi, "Barbarossa" planının "qoruyucu" mahiyyəti barədə miflər dərc edilir, Sovet sisteminin kiçik xalqlara "düşmənçiliyi" haqqında, Alman Reyxinin Şərqdəki "azadlıq missiyası" haqqında və s. məlumatlar sürətlə yayılırdı. "Ostvorshung" institutları yalnız əvvəllər Hitlerin təbliğatında çalışmış alman hərbçilərini, tarixçiləri, hüquqşünasları, politoloqları deyil, eyni zamanda işğalçı qüvvələrlə əməkdaşlıq edən Şərqi Avropa ölkələrinin elitalarının nümayəndələrini də bu təbliğata cəlb etmiş-

dilər. Bu məsələlər Mərkəzi Avropa, Şərqi və Cənub-Şərqi Avropa ölkələrindəki Hitlerin keçmiş müttəfiqləri tərəfindən də müasir dövrdə də müzakirə mərkəzinə gətirilmişdi. Tarixi saxtalaşdıranlar İkinci dünya müharibəsi tarixini yenidən şərh etməyə cəhd göstərir, sovet ordusunun azadlıq missiyasını şübhə altına alaraq, öz ölkələrinin Milli Sosializm cinayətlərində iştirakını azaltmaq və onu bir qurban kimi təqdim etmək istəyirdilər.

Bədii ədəbiyyatda, filmlərdə, mediada, siyasətçilərin açıqlamalarında almanlar özlərini Stalinqraddakı məğlubiyyətin qurbanı, Sovet ordusunun hücumundan qaçan uğursuz qaçqınlar, işğalçı hakimiyyət siyasətinin, məcburi köçürülmənin qurbanları kimi təqdim edirdilər. Bu səbəbdən də, II Dünya müharibəsi tarixindəki səbəb-nəticə əlaqələrinin bərpa edilməsi və unutdurulmasının qarşısının alınması, müharibə həqiqətlərini və müharibədəki qələbədə SSRİ xalqlarının rolu arxiv sənədləri əsasında yenidən kompleks araşdırılmalıdır.

Müasir saxtalaşdırıcıların fikir arsenalında mühüm yeri ABŞ xarici siyasətinin məqsədlərinə xidmət edən Amerika tarixşünaslığı tutur. ABŞ Sovet İttifaqının II Dünya müharibəsindəki həlledici rolunu inkar edən və Qələbənin "əsas memarı" olaraq ABŞ-ın hərbi töhfəsini tərifləyən yalan bir konsepsiya tərəfdarları müharibədən sonrakı dünyada lider rolunu təsdiq etməyə çalışırlar. Artıq müharibə illərində və müharibədən dərhal sonra Amerika tarixçiləri Sovet-Alman cəbhəsindəki hadisələri müharibənin ümumi gedişatına təsiri məsələsinə toxunmadan nəzərdən keçirirlər. Eyni zamanda, Amerika-İngilis qoşunlarının müxtəlif əməliyyat teatrlarında (Şimali Afrikada, İtaliyada, Fransada) apardıqları hərbi əməliyyatların nəticələri hər şəkildə şişirdilir. II Dünya müharibəsi nəticələrinin rədd edilməsi və onlara yenidən baxılması arzusu, müharibədən sonra SSRİ-nin Avropa və Asiyada mövqelərinin möhkəmlənməsinin əsasən ABŞ-ın hərbi-strateji səhvlərindən qaynaqlandığı, müharibə zamanı öz üzərlərinə götürdükləri beynəlxalq öhdəliklərin mahiyyəti, Sovet İttifaqına göstərdikləri yardımı şişirtməklə Sovet Ordusunun Şərqi və Cənub-Şərqi Avropa ölkələrindəki missiyasını gözdən salmağa çalışırlar.

Rusiya tarixçilərinin əsərlərində müharibədə rus xalqının rolu əhali sayını nəzərə almadan şişirdilir, II Dünya müharibəsi və Böyük Vətən müharibəsi tarixini saxtalaşdıran qüvvələrin avanqardı olaraq önə çıxarılır. Nəticədə real tariximiz saxtalaşdırılır. Tarixi, mədəni və mənəvi cəhətdən bir-birinə bağlı olan və 1941-1945-ci illər müharibəsində faşizmə qalib gələn keçmiş SSRİ xalqlarını birləşdirmək meyilləri hiss olunur. Halbuki, müharibə illərində sovetlər birliyində yaşayan bütün xalqların nümayəndələri çiyin-çiyinə verərək qəhrəmanlıq nümunələri göstərdilər. Faşizm üzərində qələbə bütün SSRİ xalqlarının, həmçinin Avropanın mütərəqqi xalqlarının birgə səyi nəticəsində qazanılmışdır. Bunun üçün aşağıdakı cədvələ nəzər salmaq kifayətdir.

Sıra № si	Millətlər	say	Sıra № si	Millətlər	say
1	rus	8112	32	buryat	
2	ukrain	2072	33	dunqan	5
3	belarus	311	34	ləzgi	4
4	tatar	161	35	alman	4
5	yəhudi	108	36	fransız	4
6	qazax	96	37	çeçen	4
7	gürcü	91	38	yakut	3
8	erməni	90	39	altay	3
9	özbək	69	40	bolqar	2
10	mordvin	61	41	yunan	2
11	çuvaş	44	42	karaçay	2
12	**azərbaycanlı**	**43**	43	kumık	2
13	başkir	39	44	lak	2
14	osetin	32	45	xakas	2
15	mari	18	46	çərkəz	2
16	türkmən	18	47	fin	2
17	litov	15	48	assuriyalı	2
18	tacik	14	49	balkar	1
19	latış	13	50	veps	1
20	qırğız	12	51	dargin	1
21	komi	10	52	ispan	1
22	udmurt	10	53	korey	1
23	karel	9	54	kumandin	1
24	polyak	9	55	kürd	1
25	eston	9	56	moldovan	1
26	kalmık	8	57	noqay	1
27	kabardin	7	58	nanay	1
28	adıgey	7	59	svan	1
29	çex	6	60	tuvin	1
30	abxaz	5	61	evenk	1
31	avar	5			

Cədvəldəki rəqəmlərin böyüklüyü hansı millətlərin üstünlüyü nəticəsi kimi deyil, əhali sayına görə müqayisə edilməli, həmin millətlərin nümayəndələrinin Mərkəzi hakimiyyətdə necə təmsil olunması da nəzərdən qaçırılmamalıdır.

1941-ci ildə Azərbaycan SSR-in əhalisi 3,4 milyon nəfər idi. Müharibə başlayanda respublikada hərbi səfərbərlik ümumxalq hərəkatına çevrildi. Minlərlə oğlan və qız hərbi komissarlıqlara ərizə ilə müraciət edərək cəbhəyə getdilər. Müharibənin başlanğıcında təqribən 40 min adam könüllü

surətdə əsgər köynəyi geyindi, təqribən 200 min adam xalq qoşununa yazıldı. Müharibənin birinci ilində Azərbaycan K(b)P 40 min kommunisti cəbhəyə göndərdi. Ümumiyyətlə, müharibə illərində Azərbaycandan ordu sıralarına **698.237 nəfər kişi, 11 min 266 nəfər qadın** səfərbər olundu, 350 mindən artıq döyüşçüdən "**qara kağız**" alındı. Hərbi hissələr üçün 15 min tibb işçisi və sanitar drujinaçısı, 750 rabitəçi, 3 min sürücü hazırlandı. Azərbaycan SSR ərazisində 87 batalyon, 1123 özünümüdafiə dəstəsi, 77-ci, 223-cü, 271-ci, 396-cı, 402-ci, 416-cı atıcı diviziyalar formalaşdırıldı.

Mənəvi səfərbərlikdə qarşıda duran əsas vəzifələrdən biri xalqlar arasında dostluğun möhkəmlənməsi, adamların vətənpərvərlik və beynəlmiləlçilik ruhunda tərbiyəsi idi. Azərbaycan K(b)P MK və Azərbaycan SSR XKS-nin "Partiya siyasi işçilərin Qızıl Ordu sıralarına səfərbər edilməsi haqqında" 24 sentyabr 1941-ci il tarixli, "Azərbaycanlı qızıl ordu döyüşçüləri arasında partiya-siyasi işin qüvvətləndirilməsi tədbirləri haqqında" 10 oktyabr 1941-ci il tarixli, "Respublikada formalaşdırılmış hərbi hissələrdə siyasi tərbiyə işini genişləndirmək tədbirləri haqqında" 13 noyabr 1941-ci il tarixli qərarları mənəvi və hərbi səfərbərliyə təkan verdi.

Brest qalasının müdafiəsi əfsanələrə bənzər qəhrəmanlıq nümunələri ilə 1941-1945-ci illər müharibəsi tarixinə daxil oldu. Qalanın müdafiəsində Azərbaycanın 44 gənci iştirak etdi. İ.Səfərov, A.İmanov, M.Məmmədov, M.İbrahimov, H.Haqverdiyev, M.Qədirov, Ə.Əliyev, D.Abdullayev və başqaları xüsusi mərdlik göstərərək qəhrəmanlıqla həlak oldu.

Leninqradın alman-faşist işğalçılarından 900 günlük müdafiəsi müharibə tarixinin parlaq səhifələrindən birini təşkil etdi. Leninqrad uğrunda döyüşlərin qəhrəmanlarından biri Hüseyn Əliyev oldu. Hüseyn Balaəmi oğlu Əliyev ölümündən sonra "Lenin" ordeni ilə təltif edilmişdir.

Leninqradın müdafiəsində azərbaycanlı döyüşçülər – Bakı aeroklubunun yetişdirmələri Hüseyn Bağırov, Yevgeni Sıqanqov, Asəf Səmədov, Aleksandr Şitov, snayperçi Məmmədəli Abbasov, qvardiya baş leytenantı Volodya Bağırov, "Lenin" ordeni ilə təltif edilmiş İlyas İsmayılov, Məhərrəm Bayramov, Ələkbər Nadirov, sualtı qayıqçı 2-ci ranq kapitan M.İ.Hacıyev və başqaları iştirak etdilər.

Vermaxt Leninqrad uğrunda döyüşlərlə bərabər Moskva altında da xeyli qüvvə cəmləşdirmişdi. Moskvanın tutulması planının şərti kod adı "Tayfun" idi. Moskvanı müdafiə edən Bakı Hava Hücumundan müdafiə qüvvələrinin zenit artilleriya alayının döyüşçüləri düşmənin 40 təyyarəsini vurdu, 104 düşmən təyyarəsi zədələndi. Moskvaya yeni hərbi hissələr, silahlar, döyüş sursatları, ərzaq göndərilməyə başlandı. Bu sahədə Bakı xüsusilə fərqləndi. DMK-nin 1941-ci il noyabr tarixli tapşırığına əsasən Bakıda "PPŞ" (Пулемет-пистолет Шпагина) hazırlayan zavod yaradıldı. Burada məşhur "Katyuşa" minomyotu üçün milyona yaxın mərmi hazırlandı.

Azərbaycanlı döyüşçülər **Moskva uğrunda** döyüşlərdə igidlik göstərdilər. Belələrinin önündə **Həzi Aslanov və İsrafil Məmmədov** dayanırdı. Zenit batareyasının komandiri leytenant Məmmədrəsul Paşayev Moskvanın səmasını qoruyurdu. Moskvanın müdafiəsində pulemyotçu İdris Vəliyev, zenitçi serjant Seyfəli Əlibalayev, həkim və tibb bacıları Aliyə Rüstəmbəyova, S.Qarayeva və b. iştirak etdilər. Bakıda təyyarəçilik kursunda təhsil almış Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova mərdlik nümunələri göstərdilər.

1942-ci il iyunun 22-də **Sevastopolda** ilk düşmən təyyarələri göründü, Sevastopol altında gərgin döyüşlər başladı. Sevastopol müdafiəçilərinin içərisində starşina Xankişiyev, qvardiya yefreytoru Həsən Həsənov, Nurəli Mirzəyev, Hacıyev, Kərimov, İbrahimov, top nişançısı Fəzli Əhmədov, batalyonun kəşfiyyatçısı Aslan Vəliyev, top nişançısı Denis Baxışov, doldurucu İsmayıl Məmmədov da var idi. Alfa Şirazi, hərbi həkim Sara İbrahimova, tibb bacıları Pakizə Manafova, Ə.Həsənova, B.Mircavadova, R.Əhmədova, Ş.Əsgərova, R.Gözəlova və onlarla başqaları yüzlərlə yaralını ölümün pəncəsindən aldılar.

Stalinqrad vuruşması 6,5 ay (1942-ci ilin 17 iyulundan – 1943-cü ilin fevralın 2-dək) davam etdi. Döyüş əməliyyatları 100 min kv. km. ərazidə baş verdi, cəbhə xəttinin uzunluğu 400-800 km.-ə çatırdı. Stalinqrad döyüşlərində Azərbaycan əsgərləri mərdlik və qəhrəmanlıq nümunələri göstərdilər.

Moskva ətrafındakı vuruşmalarda göstərdiyi hərbi təşkilatçılıq və şəxsi igidliyinə görə podpolkovnik rütbəsi almış **Həzi Aslanovun 55-ci əlahiddə tank alayı** Stalinqrad vuruşmasında feldmarşal Manşteynin ordusunun darmadağın edilməsində yüksək hərbi məharət göstərdi, xüsusi döyüş nümayiş etdirdi.

Stalinqrad vuruşmasında Azərbaycan xalqının mərd oğulları-təyyarəçilər Nuru Əliyev və Tacəddin Əfəndiyev, minomyotçu Şamil Hüseynov, topçu Xeyrulla Şahgəldiyev və başqaları döyüşlərdə qəhrəmanlıq göstərdilər. Stalinqrad vuruşmasında A.Axundov, A.Abbasov, M.Qəribov, M.İsrafilzadə, A.Əliyev, B.Ələsgərov, Ə.Kərimov, B.Muxtarov, A.Mustafayev, Ə.Həmidov, Ə.Hüseynov, M.Cəfərov və başqaları igidliklə döyüşdülər. Top nişançıları F.Əhmədov və Baxışov, top sürücüsü Şahvəliyev, kəşfiyyatçı A.Vəliyev, doldurucu İ.Məmmədov, snayperçi Balaoğlan Abbasov və b. Stalinqrad uğrunda vuruşmalarda qəhrəmancasına həlak oldular. Düşmən tanklarına qarşı vuruşmalarda Kürdəmir rayonundan olan əsgər Maqadim Mərdan oğlu Məmmədov, Bakıdan leytenant Yusif Qurban oğlu Zeynalov, Astara rayonundan Müsaid Hüseyn oğlu Rəhimov, Kürdəmir rayonunun I Qaraqaşlı kəndindən olan əsgər Rəsul Qalib oğlu Salmanov, Laçın rayonundan leytenant Hüseyn Nadir oğlu Yusifov, Naxçıvan şəhərindən baş serjant Tahir Məmmədov, Bakıdan leytenant Bilal Rəsulov və leytenant

Ələkbər Hacı oğlu Hacıyev igidlik göstərdilər. Zaqatala rayonundan olan rabitəçi leytenant Mustafa Əliabbas oğlu Mustafayev, D.Dünyamalıyev və L.Həşimov "İgidliyə görə" medalı ilə təltif olundular.

Azərbaycan qadınları kişilərlə çiyin-çiyinə döyüşdülər. Həlimə Rzayeva, Zərifə Camalbəyova, ana və qız Bəyim və Səlimə Əlizadələr, Böyükxanım Bağırova Stalinqrad döyüşlərində iştirak etdilər.

Stalinqrad əməliyyatı 1942-ci il noyabrın 19-dan 1943-cü il fevral ayının 2-nə qədər davam etdi. «Кольцо» adlanan bu əməliyyat fevralın 2-də düşmənin tam darmadağın edilməsi ilə nəticələndi. Cəbhənin qoşunları 131 min adam, o cümlədən 2,5 mindən çox zabit və başda feldmarşal Pauls olmaqla 24 generalı əsir aldılar. Əsirlərin 1 nəfəri general-polkovnik, 1 nəfəri general-leytenant, 2 nəfəri polkovnik-leytenant, 4 nəfəri kapitan, 1.444 nəfəri oder-leytenant, 182 nəfəri leytenant idi. 16.500 nəfərdən artıq azərbaycanlı döyüşçü "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif olundu. Stalinqradın müdafiəsinə görə 112 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Təltif olunanlar arasında Azərbaycan xalqının qəhrəman oğlu **Həzi Aslanov** da vardı. Həzi Aslanova SSRİ Ali Soveti Rəyasət Heyətinin 1942-ci il 22 dekabr tarixli fərmanı ilə Sovet İttifaqı Qəhrəmanı fəxri adı, SSRİ Xalq Komissarları Sovetinin 1944-cü il 13 mart tarixli qərarı ilə general-mayor əsgəri rütbəsi verildi. Onun ikinci dəfə Sovet İttifaqı Qəhrəmanı adı 1991-ci ildə bərpa olundu. Stalinqraddan Baltik sahillərinə qədər döyüş yolu keçən Həzi Aslanov 1945-ci il yanvarın 24-də Mitava şəhəri yaxınlığında qətlə yetirildi.

Qafqaz döyüşlərində digər xalqlar və millətlərdən yaranan diviziyalar fəal iştirak etdi. Onların arasında Azərbaycanın 77, 223, 402 və 416-cı, 242, 392, 394 və 414-cü qırıcı atıcı və dağ-atıcı diviziyaları da vardı.

Qafqaz uğrunda döyüşlərdə yüksək döyüş məharəti göstərən azərbaycanlı əsgərlərdən biri **Qafur Nəsir oğlu Məmmədov** idi. İsrafil Məmmədov, Ədilə Babayeva, Humay Əlibəyli, Böyükxanım Bağırova, Roza İbadovanın döyüş yolu Şimali Qafqazdan başladı, Donbas, Çerkass, Voroşilovqrad şəhərlərinin, Ukraynanın yüzlərlə kəndinin alınması döyüşlərində iştirak etdilər.

Novorossiysk uğrunda döyüşlərdə azərbaycanlı oğullar – Oruc Ağayev, Xanbaba Muradov, Hüseynağa Sadıqov, Novruz Aslanov, Qaçay Bəhramov, Davud Qasımov (Bakı), Səkinə Məmmədova, Süleyman Eldarov Nuxa (indiki Şəki), İsmayıl Ağamirzəyev (Ağdam), Çoban Haqverdiyev (Ağstafa), Oruc Əsgərov Jdanov (indiki Beyləqan) və başqaları əsgəri rəşadət göstərdilər.

Novorossiysk,Tuapse, Taman uğrunda vuruşmalarda cəsur qızlardan Dürrə Məmmədova, Səfiyyə Rüstəmbəyova, Səkinə Məmmədova, Adilə Məmmədova, Lyudmila Kərimova, Suzanna Salmanova, Naibə Həşimova, Suğra Paşayeva, Səkinə Əliyeva, Sara İbrahimova və başqaları mərdlik

nümunələri nümayiş etdirdilər. Novorossiyskinin müdafiəçiləri döyüş dostları Dürrə Məmmədovanı daim xatırlayırlar.

18-ci ordunun tərkibində 33 millətin nümayəndələri, o cümlədən 1000 nəfərə qədər azərbaycanlı var idi. Ağamehdi Babayev, Tofiq Abbasov, Ağahüseyn Əliyev, Hacağa Əliyev, Hüseyn Babayev, Əliağa Cəfərov, Sadıq Sadıqzadə (Bakı), Fərman Nərimanov (Ağdam), Bəylər Xanlarov (Ağcabədi), Rəsul Muradov (Quba), Əli Məhərrəmov, Həsənxan İsmayılov (Qubadlı), İsmayıl Tağıyev (Lənkəran), Xalıq Qurbanov (Masallı), İman Abışov (Neftçala), Sofiyaxanım Rüstəmbəyova (Sumqayıt), İbrahim Həsənov (İliç – indiki Babək rayonu), Məmməd Zeynalov (Ordubad), Novruz Xudiyev (Cəbrayıl) və başqaları Kiçik torpaqda döyüşdülər.

Krımın azad edilməsində Azərbaycanda təşkil olunmuş 77-ci və 227-ci atıcı diviziyalar iştirak etdilər. Krım uğrunda vuruşmalarda Ə.Piriyev, Ş.Əliyev (Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər –M.Ə.), Ə.Qurbanov, M.Dadaşov, Ə.Ağamirov, M.Məmmədov, Abdul Rəsul oğlu Xəlilov, Bala Ağa oğlu Qasımov, rota komandiri, yazıçı Əbülhəsən Ələkbərov, Kamal Məmmədov, siyasi rəhbər Əsgərov, komandir Səlimov, siyasi işçi Şirinov və b. mərdliklə vuruşdular. Krım uğrunda döyüşlərdə Z.Manafova yaralı döyüşçülərə tibbi yardım göstərdi.

Sovet İttifaqı Qəhrəmanı adını almış Səlahəddin Kazımov, pulemyotçu İbrahim Sultanov, döyüşçü Məmməd Məmmədov, təyyarəçi İbrahimov, 2 dəfə "Qızıl Ulduz" və "Qızıl Bayraq" ordenləri ilə təltif edilmiş kapitan Baxış Mehdiyev, "Qızıl Ulduz" ordeni ilə təltif edilmiş Əliş Manafov və Əli Əliyev, topçulardan Həsən Mirzəyev, Xanmirzə Hüseynov, İsfəndiyar Əliyev, topçu İsfəndiyar Əliyev, serjant Həsənalı Məmmədov, kəşfiyyat manqasının komandiri Çərkəz Qurbanov Ukrayna torpaqlarının faşistlərdən təmizlənməsində iştirak etdilər, Belarusiyanın azad edilməsi əməliyyatlarında Q.Əkbərov və N.Rəfiyev Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldülər. Mogilyov şəhəri və Mogilyov vilayəti uğrunda döyüşlərdə 63 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Onların arasında 1-ci qvardiya hücumçu mühəndis-minatəmizləyən briqadanın komandiri, qvardiya polkovniki azərbaycanlı A.F.Vəzirov və b. vardı. Minsk şəhərinin azad edilməsində H.Aslanovun qvardiya tank briqadasının döyüş fəaliyyəti Ali Baş Komandanlığın əmrində qeyd edilmişdi.

1945-ci il yanvar ayının 13-dən aprel ayının 25-dək çətin göl-bataqlıq ərazidə 2-ci və 3-cü Belarusiya və 1-ci Pribaltika cəbhəsi qoşunları Qırmızı Bayraqlı Baltik donanması ilə birgə Şərqi Rumıniya əməliyyatı keçirdi. Şərqi Prussiyada döyüşən azərbaycanlı əsgər Əliqulu Əmirov, Ələsgər Qasımov qəhrəmanlıq nümunələri nümayiş etdirdilər.

1945-ci ilin mart ayında Berlinə hücumu davam etdirmək üçün şərait yarandı. Mayın 1-də axşam 301-ci diviziyanın alayları 148-ci və 230-cu diviziyalarla qarşılıqlı əlaqədə faşist Reyxi başçılarının son sığınacağı olan

baş komandanlıq qərargahını – İmperiya Dəftərxanasının binasını və bunkerini ələ keçirmək uğrunda döyüşə başladılar. 9-cu atıcı korpusun siyasi şöbəsinin təlimatçısı mayor Anna Vladimirovna Nikulina qələbə bayrağını İmperiya Dəftərxanasının binasına sancdı. Aprelin 30-da 3 dəfə Reyxstaqa hücum edildi. Reyxstaqı alan diviziyanın serjantları M.A.Yeorov və M.V.Kantariya bayrağı Rexstaqa sancdılar. Mayın 1-də müxbirlər binanın üzərində onlarla bayraq saymışlar. Hansının birinci sancıldığı bu günədək mübahisəlidir. SİTA-nın müxbiri Yevgeni Xaldeyin məşhur 2 may 1945-ci il tarixli "Qələbə bayrağı Reyxtaqda" fotoşəkilində bayrağın sancılmasında dağıstanlı Abdulkərim İsmayılov, kiyevli Aleksey Kovalyov və Minskidən olan Aleksey Qoriçekin də iştirak etdiyi göstərilir.

Müharibə illərində 6.200 partizan dəstəsi və gizli qrup fəaliyyət göstərmişdir. Krasnodonda fəaliyyət göstərən "Gənc qvardiya"nın üzvlərindən biri Əli Dadaşov idi.

8-ci Azərbaycan partizan dəstəsinin üzvləri 1943-cü ilin əvvəlində Krımın Kuybışev rayonunda hərbi düşərgədə saxlanılan 800 hərbi əsir arasında olan zabit Əliyev Məmməd Kərim oğlu, Hacıyev Sahib Cəbrayıl oğlu, Rzayev Hüseyn Məmməd oğlu düşərgədə hərbi əsirlərdən gizli təşkilat yaratmışdılar. 1943-cü il sentyabrın 18-də Məmməd Əliyev və Mahmud Həsənov «Красный партизан» dəstəsi təşkil etdilər. 1943-cü il noyabrın 7-də dəstə Cənubi Krımda 8-ci Azərbaycan partizan dəstəsi adı ilə 7-ci partizan briqadasına daxil oldu. Dəstənin komandiri Məmməd Əliyev, komissarı Əbdülkərim Əşirov, qərargah rəisi Sahib Hacıyev idi. Ümumilikdə, 8-ci Azərbaycan partizan dəstəsi 7 ay ərzində düşmən arxasında 32 döyüş əməliyyatı keçirmişdi. 1.225 nəfər düşmən əsgər və zabit məhv olunmuş, 451 nəfər əsir götürülmüşdür. Partizanların əməliyyatı nəticəsində 9.700 metr rabitə xətti sıradan çıxarılmış, 7 top, 11 minomyot, 12 pulemyot, 500 vahid digər atıcı silah və 11.000 patron ələ keçirilmişdir.

Çexoslovakiya ərazisində fəaliyyət göstərən **partizan dəstəsinin** tərkibində 500 nəfər azərbaycanlı döyüşçü olmuşdur. Əsir düşərgəsindən qaçıb müqavimət hərəkatına qoşulan Ə.Baxışov və Ə.Əlimərdanov döyüşlərdə xüsusi ilə fərqlənmişlər. Uritski adına partizan dəstəsinin komandiri Hümmət Namazov, onun döyüş dostları R.Əsgərov, Ə.Məhərrəmov, S.Bağırov, Q.İmanov, M.Tağıyev, T.Quliyev, M.Daşdəmirov, Ş.Vəliyev, M.Bayramov və başqaları qəhrəmanlıqla vuruşmuşlar.

Almaniyanın "Ştrans" düşərgəsində saxlanılan M.Hüseynzadə, S.İsmayılov, R.Ağazadə, M.Seyidov, M.Qulubəyov və başqaları hərbi əsirlər arasında iş aparırdılar. Nəticədə hərbi hissələrdəki gizli antifaşist təşkilatlarının üzvləri qaçaraq partizanlara qoşulmuşdular. Belələrindən biri də Mehdi Hənifə oğlu Hüseynzadə idi.

Mehdi Hüseynzadə (Mixaylo) Ukrayna, Polşa, İtaliya və Yuqoslaviyada hərbi əsir düşərgələrində olan sovet əsirlərinin qaçmasına köməklik

etmiş, yoldaşları ilə birlikdə Yuqoslaviya partizanlarına qoşulmuşdur. Faşist zabiti forması geyərək tez-tez almanların qərargahında olan Mehdi düşmən ordularının hərəkətlərinə dair kəşfiyyat materialları toplayır, qoşunların hərəkət planlarını öyrənərək partizanlara xəbər verir və onlara zərbələr endirirdilər. Opiçina kinoteatrı partladılarkən 80 nəfər faşist məhv olmuşdur.

1944-cü ilin payızında Mehdinin başçılıq etdiyi bir qrup partizanın Udine şəhərindəki faşist həbsxanasına hücumu nəticəsində 700 hərbi əsir, o cümlədən 147 sovet əsiri azad edilmişdir. M.Hüseynzadə 1944-cü il noyabr ayının 2-də düşmənlə qeyri-bərabər döyüşdə indiki Sloveniyanın Vitovle kəndində həlak olmuş, noyabrın 16-da onun cəsədi yenidən Çepovani kəndində dəfn edilmişdir. Çepovani kəndindəki qəhrəmanın başdaşı üzərində həkk olunmuşdur: **"Rahat yat, Azərbaycan xalqının qəhrəman oğlu, əzizimiz Mehdi. Azadlıq naminə göstərdiyin ölməz rəşadət dostlarının qəlbində daim yaşayacaqdır**". Lakin Mehdi Hüseynzadənin qəhrəmanlığı sovet rəhbərliyi tərəfindən vaxtında qiymətləndirilmədi. Əfsanəvi Mixaylo SSRİ Ali Soveti Rəyasət Heyətinin 1957-ci il 11 aprel tarixli fərmanı ilə ölümündən 13 il sonra Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü.

Azərbaycanlı döyüşçülər Fransada müqavimət hərəkatında iştirak etdilər. Fransanın cənubunda, Rodez rayonunda ilk Azərbaycan alayı formalaşmışdı. 1942-ci ilin yayında Polşanın Edlin şəhərində azərbaycanlı hərbi əsirlərdən gizli antifaşist təşkilatı yaradılmışdı. Təşkilatın üzvləri Hadı Qiyasbəyov, İsmayıl Heydərov, Hüseynrza Məmmədov, Feyzulla Qurbanov, Xələf Hacıyev və başqaları Fransa şəhərlərinin faşistlərdən azad edilməsində iştirak etmişdilər.

Fransa müqavimət hərəkatının iştirakçılarından biri, müharibə illərində əsir düşməsinə baxmayaraq döyüş dostlarının köməyi ilə əsirlikdən qaçaraq fransız partizanlarına qoşulan "Xarqo" ləqəbli döyüşçü Ə.Cəbrayılov, İtaliya müqavimət hərəkatında iştirak etmiş Nəsir Abdullayev, Məmməd Bağırov, Həmzə Əsgərov, Əli Babayev, Şahbaba Məcidov, Tahir İsayev, Həsən Kamalov və başqaları faşistlərə qarşı cəsarətlə vuruşmuşdular.

Müharibənin ilk illərində Ali Baş Komandan İ.Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən bütün müttəfiq respublikalarda olduğu kimi, Azərbaycanda da milli diviziyalar təşkil olundu. Bu diviziyaların əsas heyətini azərbaycanlılar təşkil edirdi. **77, 223, 271, 306, 402 və 416-cı milli diviziyalar** müxtəlif orduların tərkibində döyüş əməliyyatlarında iştirak etdilər.

1944-cü il aprel ayının 13-də Simferopol uğrunda döyüşdə fərqləndiyi üçün Ali Baş Komandanlıq tərəfindən **77-ci diviziyaya** mayın 24-də fəxri "Simferopol" adı verildi, diviziyanın 613 əsgər və zabiti döyüş mükafatları ilə təltif olundu. Onların arasında Həsən Quliyev, Əli Qarayev, Əmir Quliyev, Xudu Mehdiyev, Abdul Rəcəbov, Həsən Abbasov, Əbil Seyidov, Yəhya Bağırov və başqaları vardı. Qafqaz uğrunda vuruşmalarda 60 əsgər

və zabitə, o cümlədən azərbaycanlı İdris Süleymanov və Qafur Məmmədova Sovet İttifaqı Qəhrəmanı adı verildi. Təqribən 600 döyüşçü "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olundu.

1941-1945-ci illərdə 77-ci diviziyanın döyüşçülərindən 11 nəfər "Lenin", 2 nəfər "Qızıl Ulduz", 68 nəfər "Qırmızı Bayraq", 15 nəfər "Suvorov" və "Aleksandr Nevski", 1 nəfər "Boqdan Xmelnitski", 101 nəfər I dərəcəli, 238 nəfər II dərəcəli "Vətən müharibəsi", 1.149 nəfər "Qırmızı Ulduz", 30 nəfər 2-ci dərəcəli "Şöhrət", 412 nəfər 3-cü dərəcəli "Şöhrət" ordeni, 208 nəfər "İgidliyə görə", 1.131 nəfər "Döyüş xidmətlərinə görə" medalı ilə təltif olunmuşdur. Döyüşçülərdən 8 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.

Ali Baş Komandanlığın 1941-ci il 18 oktyabr tarixli əmri ilə 46-cı ordunun Gürcüstan SSR-dən gəlmiş 168-ci ehtiyat alayı əsasında yaradılan 223-cü diviziyaya təcrübəli rəislər komandanlıq etmişlər. Diviziyanın komandiri polkovnik V.S.Romanov, hərbi komissarı alay komissarı M.A.Əliyev, qərargah rəisi podpolkovnik N.Q.Preobrajenski idi. Diviziyanın qərargahı Bakı şəhərində yerləşirdi.

1941-ci il dekabrın 23-də **223-cü diviziya** Bakı neft yataqlarını müdafiə üçün şəhərin hüdudlarından kənarda hazırlanan müdafiə xəttində yerləşdirildi. 1942-ci il fevralın 22-də diviziya komandirliyini Vladimir Pavloviç Züvanov (Heybət Atamoğlan oğlu Heybətov) qəbul etdi.

223-cü Azərbaycan atıcı diviziyasına Belqradın alınmasındakı döyüş rəşadətinə görə "Belqrad" diviziyası fəxri adı verildi. Diviziya döyüşçülərindən 20 nəfər azərbaycanlı döyüşçü, o cümlədən A.Vəzirov, M.Vəliyev, A.Quliyev, M.Abdullayev, B.Mirzəyev, M.Cəbiyev və X.Məmmədov Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. Bakıdan Praqaya qədər 6 dövlətin – Rumıniya, Bolqarıstan, Yuqoslaviya, Macarıstan, Avstriya və Çexosolvakiyanın ərazisindən keçən 223-cü diviziyanın döyüş yolu 5.000 kilometrə bərabərdir. 30 aylıq döyüşlər zamanı diviziya sahəsi 10.000 kvadrat kilometr olan 400-dən çox yaşayış məntəqəsinin, 19 şəhərin, o cümlədən Mozdok, Georgiyevski, Dneprodzerjinsk, Benderı, Kotovskoye, Konstansa, Şumin, Rqotino, Bor, Yaqodino, Belqrad, Kralyevo, Budapeşt, Komarom, Vyana, Florisdorf, Qllabrun və digər şəhərlərin azad olunmasında iştirak etdi. 223-cü diviziya döyüş yolunda irili-xırdalı 50-dən artıq çaydan, o cümlədən 4 dəfə Dunaydan keçdi. Alman faşistləri ilə döyüşlərdə 223-cü diviziyanın döyüşçüləri 45 mindən çox alman əsgərini məhv etdi, 43.800 nəfər əsgər və zabit əsir alındı, düşmənin 28 təyyarəsi, 113 tank və döyüş maşını, 549 səhra topu, 311 minaatan qurğusu, 1.152 pulemyotu, 25 mindən çox avtomaşını sıradan çıxarıldı, 28 təyyarə, 113 tank və zirehli maşın, 549 səhra topu, 311 minaatan, 1.152 pulemyot, 200-dən artın avtomaşın, 25 minə qədər tüfəng və avtomat, 219 parovoz, 7.400 vaqon, 1.350 at, 70 anbar və böyük miqdarda döyüş sursatını ələ keçirdi.

402-ci Azərbaycan milli atıcı diviziyası 1941-ci ilin oktyabr ayınadək İranda (Cənubi Azərbaycanda) dislokasiya olunmuşdu. 1941-ci ilin oktyabr ayının əvvəllərində vətənə qayıdan diviziya Naxçıvan-Culfa-Bakı-Qudermes marşrutu ilə müharibə zonasına yola salındı. Diviziyada azərbaycanlılar 55%, ermənilər 18,6%, ruslar 12 faiz, ukraynalılar 3,6%, gürcülər 3,2 faiz, digər millətlərdən olanlar 1,7 faiz təşkil edirdi. Şəxsi heyətin 45 faizi təlim görməmişdi. 1943-1944-cü illərdə 402-ci diviziyadan digər milli diviziyaların tərkibini tamamlamaq və möhkəmləndirmək, döyüşçü və komandirlər hazırlamaq üçün əsas ehtiyat baza kimi istifadə olundu. Diviziya 1943-cü ildə 2.200 nəfər, 1944-cü ildə 1.500 nəfər yeni çağırışçını qəbul edərək döyüşə hazırladı.

Qırmızı bayraqlı və II dərəcəli "Suvorov" ordenli **416-cı diviziya** 1942-ci ilin mart-sentyabr aylarında yaradılmış milli diviziyadır. Müxtəlif vaxtlarda S.P.Starojilov, V.T.Maslov, T.A.Əliyarbəyov, D.M.Sızranov, H.M.Zeynalov, P.M.Ryabov, R.Ə.Məcidov və b. diviziyanın komandanları, qərargah rəisi və siyasi rəhbəri olmuşlar. Diviziyanın tərkibindəki döyüşçülərin 11.050 nəfəri azərbaycanlı, 291 nəfəri rus, 225 nəfəri erməni, 110 nəfəri gürcü, 99 nəfəri ukrain, 72 nəfəri tatar, 28 nəfəri yəhudi, 23 nəfəri belarus idi. 1942-ci ilin iyun ayında diviziya Qafqazda döyüşən 44-cü ordunun tərkibinə daxil edilmişdi. Diviziya döyüşə-döyüşə 17 tank, 297 ədəd müxtəlif tipli top, 189 minomyot, 325 pulemyot, 1.067 yüngül pulemyot, 12.135 ədəd tüfəng, 18.990 avtomat, 818 avtomaşın, 164.873 mərmi, 38 zirehli maşın, 540 vaqon, 240 parovoz və s. texnikanı hərbi qənimət kimi ələ keçirdi.

Müharibə dövründə alman-faşist işğalçılarına qarşı fədakarlıqla vuruşduqlarına görə diviziyanın 152 döyüşçü qadınından 45 nəfər "Qızıl Ulduz" ordeni, 42 nəfər "İgidliyə görə", "Döyüş xidmətlərinə görə" medalları ilə təltif olundu. 17 qadın zabit rütbəsi aldı. Reyxstaq divarlarına avtoqraf yazanlar sırasında Böyükxanım Mircavadova və Rəhimə Babayeva da vardı. Rəhimə Babayeva "Döyüş xidmətlərinə görə", Qafqazın, Berlinin, Almaniyanın alınmasına görə medalları ilə təltif olunmuşdu.

Berlin əməliyyatında iştirak edən 416-cı diviziya 1945-ci il aprelin 20-də Klosserdorfu tutub Reyxstaq istiqamətində hücumu davam etdirdi. 1945-ci il mayın 2-də diviziyanın bölmələri Brandenburq darvazasına qələbə bayrağı sancdılar.

1942-ci il aprelin 20-dən 1945-ci ilin mayın 2-dək Qafqaz dağlarından Berlinədək döyüş yolu keçən 416-cı diviziya 1942-ci il sentyabrın 30-dan 1945-ci ilin mayın 2-dək olan dövrdə düşmənin 22.996 nəfər əsgər və zabitini məhv etdi, 5.474 nəfəri əsir aldı, onlarla tank və zirehli maşın, 195 top, 31 minomyot, 210 ağır və 842 yüngül pulemyot, 4.997 tüfəng, 683 avtomaşın, 21 zirehli maşın, 800 atəş nöqtəsi və 68 müxtəlif ərzaq, sursat və ləvazimat sıradan çıxarıldı.

1943-cü il avqustun 30-da Taqanroq şəhərinin azad edilməsində göstərdiyi əsgəri igidliyə görə "Taqanroq" diviziyası fəxri adı verilən diviziya "Qırmızı Bayraq" ordeninə layiq görüldü. 416-cı diviziyanın döyüşçülərindən 8 nəfər Sovet İttifaqı Qəhrəmanı adı aldı, 11 nəfər "Lenin", 358 nəfər "Qırmızı Əmək Bayrağı", 3 nəfər 2-ci dərəcəli "Kutuzov", 47 nəfər "Aleksandr Nevski", 540 nəfər 1-ci dərəcəli "Vətən müharibəsi", 1.756 nəfər 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni, 5.205 nəfər "Qızıl Ulduz" nişanı, 5.666 nəfər isə "İgidliyə görə" və "Hərbi xidmətlərinə görə" medalı ilə təltif olundu. Ümumiyyətlə, diviziyanın təşkil olunduğu gündən Qələbə gününədək 14.369 nəfər müxtəlif orden və medallarla təltif edilmişdir.

Faşizmə qarşı mübarizədə 121 nəfər Azərbaycan SSR vətəndaşı (onlardan 43 nəfəri azərbaycanlıdır) Sovet İttifaqı Qəhrəmanı adına, Həzi Aslanov bu ada iki dəfə (1942 və 1991) layiq görüldü, 30 nəfər (onlardan 15 nəfəri azərbaycanlıdır) "Şöhrət" ordeninin tam üç dərəcəsinin kavaleri oldu. Azərbaycan övladlarının qəhrəmanlığından bəhs edən keçmiş Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnev 1970-ci ildə Azərbaycan SSR-nin 50 illiyi münasibətilə keçirilən təntənəli iclasda demişdir: "Azərbaycandan olan on minlərlə döyüşçü hitlerçi işğalçılarla vuruşmalarda rəşadət və qəhrəmanlıq göstərdiklərinə görə SSRİ-nin orden və medalları ilə təltif olunmuş. ...Sovet İttifaqı Qəhrəmanları Həzi Aslanovun, Mehdi Hüseynzadənin ...İsrafil Məmmədovun, Qafur Məmmədovun, ...Gəray Əsədovun və çox-çox başqa azərbaycanlıların şanlı hünərləri xalqımızın yaxşı yadındadır".

Müharibənin ilk günlərindən Bakıdan cəbhəyə neft məhsulları, silah, döyüş sursatı, hərbi ləvazimat və ərzaq daşınmağa, məşhur "Katyuşa" reaktiv mərmiləri hazırlanmağa başlandı. "ЯК-3" qırıcı təyyarələri, tanklar və ağır silahlar istehsal olundu.

1941-1945-ci illərdə Bakıda 63 yeni neft və kimya sənayesi müəssisəsi tikilib işə salındı. 100 növ yeni kimya məhsulu, o cümlədən 36 növ sürtkü yağı, 26 növ yanacaq və partlayıcı vasitə, 9 növ müxtəlif markalı aviasiya benzini, 8 növ müxtəlif markalı dizel yanacağı istehsal edildi. 1942-ci ilin sonlarında Bakıda 130 növ silah, sursat, başqa hərbi ləvazimat, tibb preparatları və onlar üçün xammal, kalsium-xlorid, natrium-xlorid, yodlu kalium, ağ streptosid, cərrah ipək sapı, tənzif, pambıq, şpris istehsal olunurdu.

Ümumilikdə, 1941-1945-ci illərdə SSRİ-də 110,6 milyon ton neft çıxarıldı. Onun 75,2 milyon tonu, yaxud 68%-i Bakıda istehsal olundu. İkinci dünya müharibəsi dövründə (1939-1945-ci illər) SSRİ-də 172 milyon ton neft çıxarıldı ki, ondan 118,9 milyon tonunu, yaxud 69%-ni Bakı verdi.

Bakıda qısa müddətdə "UTİ-4" B təyyarəsi bazasında 15 B döyüş variantı "UTİ-4" tipində yığıldı. 1942-ci ilin yanvarına Bakı zavodu 20 "UTİ-4" maşını buraxdı, fevralda buraxılış 2 dəfə artdı. Bir müddət sonra

Bakıda "ЯК" qırıcıları yığılmağa başladı. Müxtəlif tipli 782 təyyarə təmir olunaraq cəbhəyə göndərildi.

SSRİ tərkibində olmasına baxmayaraq, neftlə zəngin ölkə kimi Azərbaycan SSR vuruşan ölkələrin planlarında xüsusi yer tuturdu. 1938-ci ilin məlumatına görə, bütövlükdə, SSRİ-də 29 milyon 450 min ton neft istehsal edilirdi ki, bunun da 21 milyon 500 min tonu Azərbaycan SSR-in payına düşürdü. 1939-cu ildə bu rəqəm bir qədər də artaraq 21 milyon 630 min tona, 1941-ci ildə isə 23,4 milyon tona çatmışdı. II Dünya müharibəsinin başlanması yanacağa olan ehtiyacı kəskin şəkildə artırdığından, bir sıra məqamlarda Bakı neftinə qələbəni müəyyən edən başlıca strateji amil kimi baxırdılar.

1941-ci ilin yazında Bakı neft mədənlərinin istismarının təşkil olunması məqsədilə almanlar xüsusi idarə – "**Vestfalen qərargahı**"nı yaratdılar. 1941-ci il iyulun 16-da keçirilən yığıncaqda qeyd olundu ki, "Bakı vilayəti" "alman konsessiyası olmalıdır". "**Felmi"** planına uyğun olaraq Bakının ələ keçirilməsi tarixi **25 sentyabr 1942-ci il müəyyənləşdirildi.** 1942-ci ildə faşist Almaniyasının Bakını ələ keçirtmək cəhdləri bu planların tərkib hissəsi idi. Müharibə ədəbiyyatının təhlili, döyüş əməliyyatlarına dair xəritələr və sərkərdələrin hesabatları belə qənaətə gəlməyə əsas verir ki, Hitler Almaniyası təkcə müharibənin ilk yarımilində deyil, həmçinin müharibənin gedişi prosesində də Bakı məsələsini "yaddan çıxarmamışdı".

Bakı nefti Fransa və İngiltərənin hərbi-strateji planlarında xüsusi yer tuturdu. Hitler Almaniyası Parisi ələ keçirən zaman – 1940-cı ilin iyun ayında kiçik La Şarite şəhər vağzalında alman yefreytoru Parisdən aparılan gizli fransız arxivini, o cümlədən ingilis-fransız danışıqlarının yazısını ələ keçirmişdi. Fransız qərargahının gizli sənədlərindən məlum olmuşdu ki, Fransa və İngiltərənin planında Qafqazın və Bakının neft sənayesinin ələ keçirilməsi əsas yerlərdən birini tuturdu.

Belə bir fikir də hökm sürürdü ki, guya Stalinqrad vuruşmasında Sovet Ordusu məğlubiyyətindən sonra türklər Bakını işğal edəcəklər. "Böyük qısqac" («Большие клещи») əməliyyatına görə almanlar Bakını tutduqdan sonra İranın və Yaxın Şərqin neft yataqlarını türklərsiz sahib olmağı planlaşdırırdı. Ancaq bir şeyi unutmaq olmaz ki, əgər türklər Bakını tutsaydılar, döyüşlərin gedişində neft hasilatının ritmi pozular, neftin emalı və daşınmasında ləngimələr baş verərdi. Yox, əgər Türkiyə Stalinqrad döyüşünün getdiyi vaxtda, 1942-ci ildə hərbi əməliyyatlara başlasaydı, bir sıra Avropa dövlətlərinin müharibədən çıxması SSRİ üçün əhəmiyyətsiz olardı. Fikrimizcə, bu Azərbaycan SSR-ə, Bakı neftinə olan siyasi qısqanclıqla bağlı idi. Təbii ki, bütün planlardan SSRİ rəhbərliyinin xəbəri var idi. **Başqa sözlə, Bakı həm müttəfiqlərin, həm də Stalinin hədəfində idi** və Qafqazın müdafiəsinə dair bir sıra tədbirlər görülürdü.

2019-cu il oktyabrın 11-də Aşqabadda, MDB dövlət başçılarının sammiti zamanı Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyev** Azərbaycanın Böyük Vətən müharibəsində Qələbəyə verdiyi töhfədən, Hitlerin Bakını almağa necə can atmasından və Ermənistanda faşist Qaregin Njdeyə heykəl qoyulmasından danışarkən bildirib ki, "Ən dağıdıcı və qanlı müharibənin cəbhələrində, habelə arxa cəbhədə bizim xalqlarımız qəhrəmanlıq və mərdlik göstəriblər, bu da sonrakı nəsillər üçün nümunədir. Azərbaycan faşizm üzərində qələbəyə layiqli töhfə verib. Azərbaycanın 600 mindən çox oğul və qızı Böyük Vətən müharibəsinin cəbhələrində döyüşüblər. Onların yarısı öz canlarını bizim ümumi qələbəmiz naminə qurban verib". Prezident çıxışında onu da xatırladıb ki, Azərbaycan o vaxt bütün ölkəni yanacaqla təmin edirdi. Cəbhənin ehtiyacları üçün zəruri olan neftin 70 faizdən çoxu, benzinin 80 faizi, motor yağlarının 90 faizi Azərbaycanın payına düşürdü. "Bunlarsız sovet ordusu düşmənə qalib gələ bilməzdi". Azərbaycan Respublikasının Prezidenti hərbi kinoxronikanın məşhur kadrlarını – Hitlerə tort gətirilməsini də xatırladıb. Tortun üstündə dənizi xatırladan çökək var, orada alman dilində "Xəzər dənizi" yazılıb. Həmin çökəkdə maye qara şokolad və "Bakı" adı var. Hitler qaşıqla şokoladı götürür və tortun üstünə tökür, sonra xaç şəklində şokoladı götürüb onu "Bakı" yazılan yerə sancır. "Bu da faşistlərin Azərbaycanın neft yataqlarını ələ keçirmək planını göstərir, habelə bildiyimiz kimi onların Şimali Qafqazın neft yataqlarını tutmaq planları da olub". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüş iştirakçılarının yaddaşını təzələyərək bildirib ki, əgər faşistlər Bakını ələ keçirsəydi sovet ordusu yanacaqsız qalardı. Bakı isə havaya uçardı. Çünki sovet hökuməti bu fövqəladə halda bütün neft yataqlarını minalatdırmışdı ki, düşmənə qismət olmasın.

Azərbaycan Respublikasının Prezidenti vurğulayıb ki, Azərbaycanda müharibədə həlak olanlara heykəllər qoyurlar və müharibə veteranlarına böyük qayğı göstərilir. II Dünya müharibəsi hadisələri haqqında ədəbiyyatın həcmi böyüməkdə davam edir. Təəssüf ki, bu dövrü səhv təsvir edən çox sayda nəşrlərə nəzarət yoxdur. Xüsusilə maliyyə əldə etmək üçün jurnallar heç bir fakta söykənməyən materialları dərc etməkdə davam edirlər. Məqalələrdə xalqlar "bolşevik vəhşiliyinin" qurbanları kimi göstərilir, əldə olunan uğurlar inkar edilir, SSRİ-nin qələbəsində Azərbaycan xalqının rolu zərərli ideyalarla "zənginləşdirilir, məqsədyönlü şəkildə "ruslaşdırma" tezisi altında regional əməkdaşlığa zərər vura biləcək təbliğat aparılır. Hətta Sovetlər Birliyinin tərkibində olan keçmiş müttəfiq respublikalarda müharibə canilərinə heykəllər qoyulmasına başlanılıb. Belə respublikalardan biri Ermənistandır. Ermənistanda 2016-cı il mayın 28-də Hitlerin əlaltısı, hərbi cani, sovet məhkəməsi tərəfindən məhkum olunmuş Qaregin Njdenin heykəlinin açılışı **Ermənistanın faşizmə sevgisinin** sübutdur. Njdenin başçılığı ilə erməni SS-çilər partizanlara qarşı əməliyyatlar keçirib, yəhudiləri

və qaraçıları məhv ediblər. 809-cu erməni piyada batalyonu Ukraynada və Polşada o qədər fəallıq göstərib ki, Vermaxtın Ukraynadakı komandanı Gitsinger və Şərq hissələrinin komandanı general-mayor İgen bu batalyonu tərifləyib. Erməni SS batalyonunun tərkibinə daxil olan "Dromedar" zonder komandası Şimali Qafqaz cəbhəsi qoşunlarının arxasında kəşfiyyat-təxribat tədbirləri həyata keçirmiş, fürsət düşdükcə "untermenş"ləri məhv etmişdir. Bir sözlə, Qaregin Njdenin hitlerçi hakimiyyətlə münasibətləri Banderanın və Şuxeviçin münasibətlərindən daha yaxın olub.

Bununla belə qeyd olunanları təfərrüatları ilə bilən Rusiya Federasiyası dövlət təhlükəsizlik orqanlarının susması gizli mətləblərdən xəbər verir. Ancaq Ermənistan Prezidenti S.Sarkisyan, indiki Baş Nazir Nikol Paşinyan Avropa ölkələri ilə ittifaq yaratmaq istəyəndə bu ittifaqın Rusiya Federasiyası hakim dairələrinin regionda apardığı siyasətə zidd olduğu aydınlaşan kimi Qaregin Njdeyə abidə qoyulmasının cinayət olduğu, Ermənistan adlanan qondarma faşist rejiminin ermənilərin anti-Rusiya siyasəti yeritdiyi tənqid olunmağa başladı. Bu ikili yanaşmadır. Rusiya Federasiyasının rəhbərliyinə yaxşı məlumdur ki, qədim Azərbaycan torpaqları olan İrəvan, Göyçə, Zəngəzur, Zəngibasar, Qarakilsə, Üçkilsə, Gümrü, Kəvər və s. ərazilər Kremlin keçmiş rəhbərliyi ilə yerli azərbaycanlılardan təmizlənmişdir.

Müharibə illərində Azərbaycan qələbəyə təkcə nefti ilə köməklik göstərmədi. 1941-ci ilin sonunda Azərbaycanda 130 adda silah, sursat, hərb mərmi və əşya istehsal olunurdu. 1941-ci ilin noyabrın 8-nə kimi 35 min qutu yandırıcı butulka, 14 min patron ehtiyatı hazırlandı, istehsal gücü sutkada 10 min butulkaya çatdırıldı.

1942-1944-cü illərdə cəbhəyə 11 milyon vahid döyüş sursatı göndərildi. 1942-ci ilin iyulunda Bakıda rekord müddətdə xalq arasında "Katyuşa" kimi məşhur olan qvardiya minomyotu istehsal edən yeni 160 №-li zavod yaradıldı.

Kimya sənayesi öz işini müharibə tələblərinə uyğun qurdu. Xalq istehlakı malları istehsalı hərbi şəraitə uyğunlaşdırıldı. Yerli sənaye və sənaye kooperativlərinin işçiləri hərbi-təsərrüfat məhsulları buraxılışına qoşuldular.

Azərbaycan ölkənin dəmiryol və su nəqliyyatının mühüm qovşaq nöqtələrindən idi. 1941-ci ilin oktyabr ayından ilin sonuna kimi Bakı dəmiryolu şəbəkəsinə Rostov, Xarkov, Odessa, Taqanroq, Novorossiysk və digər şəhərlərin 450-dən artıq müəssisələrindən köçürülən yüklər daxil oldu.

Bakıya yüklərin yeni dəstəsi 1941-ci il oktyabrın 1-də bağlanmış üçtərəfli sazişlə, habelə ABŞ-ın "Lend-liz" kredit və icarə haqqında qanununun noyabrda SSRİ-yə şamil edilməsi ilə bağlı daxil olmağa başladı.

Xəzər dəniz nəqliyyatı Azərbaycan nəqliyyat sistemində əhəmiyyətli yer tuturdu. Xəzər dəniz nəqliyyatını iki idarə – quru yükün daşınması ilə

məşğul olan Xəzər Gəmiçiliyi İdarəsi (Kaspflot) və Neft daşıyan Xəzər Neft Gəmiçiliyi İdarəsi (Kasptanker) təmsil edirdi.

Müharibənin başlanması ilə qarşıda duran təxirəsalınmaz vəzifələrdən biri cəbhəyə səfərbər olunanların əvəz edilməsi idi. 1941-1944-cü illərdə neft və pambıq respublikası, qabaqcıl əkinçilik və heyvandarlıq ölkəsi, bolluq diyarı olan Azərbaycan əməkçilərindən 12.560 nəfər SSRİ orden və medalları ilə təltif olundu.

Azərbaycan xalqı faşizm üzərində qələbə naminə öz şəxsi vəsaitini əsirgəmədi. Əhalidən respublikanın müdafiə fonduna nağd şəkildə 31.756 min rubl köçürüldü ki, onun 16.456 min rublu Bakı əhalisi tərəfindən ödənildi. 30.765 min rubl dəyərində dövlət istiqrazının 13.268 min rublu Bakı zəhmətkeşləri tərəfindən alındı. Müdafiə fonduna 14.872 qram qızıl, (ondan 5.152 qramını Bakı əhalisi verdi), 985.943 qram gümüş (ondan 187.076 qramını Bakı zəhmətkeşləri verdi) və s. təhvil verildi.

Respublika əhalisi cəbhəyə 14 min yarımkürk, 66 min ədəd gödəkcə, 33 min cütdən yuxarı keçə ayaqqabı, 468 min cüt yun corab, 338 min cüt yun əlcək, 102 min ağ dəsti, 43 min qulaqlı və qulaqsız papaq, ümumilikdə 1941-1943-cü illərdə Azərbaycan SSR-dən ordu döyüşçüləri üçün ümumi dəyəri 40 milyon rubl olan 350 min fərdi bağlama göndərildi.

Müharibə elm, maarif, ədəbiyyat və incəsənət qarşısında yeni vəzifələr qoydu. Məktəb şəbəkəsinin qorunub saxlanılması, müharibə şəraitində kənd yerlərində ibtidai icbari, şəhərlərdə 7 illik icbari təhsilinin həyata keçirilməsi və genişləndirilməsi qarşıda duran mühüm məsələlərdən idi. Əsas problemlərdən biri istehsalata könüllü gedən yuxarı sinif şagirdlərinin təhsilinin təşkili, cəbhəyə kömək uğrunda ümumxalq hərəkatında məktəblilərin və müəllimlərin iştirakının təmin olunması, valideyn himayəsindən məhrum olan, valideynlərini itirmiş uşaqların uşaq evlərində yerləşdirilməsi idi.

Müharibə respublikanın xalq maarifi orqanlarının işində bir sıra çətinliklər yaratdı. Bir sıra məktəb binalarının hospitalların və hərbi-tədris məntəqələrinin sərəncamına verilməsi nəticəsində çoxnövbəli məşğələlər təşkil olundu.

Müharibə illərində rus dillinin tədrisinə diqqət artırıldı. İstehsalatda işləyən gənclərin təhsili yaddan çıxmadı. Axşam kəndli-gənclər məktəblərinin şəbəkəsi genişləndi. Texniki peşə təhsili şəbəkəsi müharibə illərində ixtisaslı kadr hazırlığı sahəsində səmərəli fəaliyyət göstərdi. Məktəblilərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlər diqqət mərkəzində saxlanıldı.

Müharibə illərində pedaqoji kadrların hazırlanması davam etdirildi. Müəllim hazırlığını yaxşılaşdırmaq, müharibə ilə əlaqədar əmələ gəlmiş ehtiyacı ödəmək üçün 1941/1942-ci tədris ilində V.İ.Lenin adına APİ və Qiyabi Pedaqoji İnstitut S.M.Kirov adına ADU ilə birləşdirildi. Müəllim

kadrları hazırlanmasında Azərbaycan Dövlət Pedaqoji İnstitutunun xüsusi xidmətləri oldu.

Azərbaycan elmi öz işini müharibə şəraitinə uyğun qurdu. SSRİ EA Azərbaycan filialı, onun elmi-tədqiqat institutları, ali məktəblər, ümumiyyətlə respublikanın bütün elmi potensialı orduya xidmət məqsədlərinə tabe edildi.

Kimyaçı alimlərimizin (Y.Q.Məmmədəliyev, V.S.Qutırya, Ə.M.Quliyev, A.Kudinov və b.) neft emalı sənayesinin yüksək ixtisaslı mütəxəssisləri (R.H.İsmayılova, M.A.Qorelik, V.S.Əliyev, A.A.Learkin və b.) ilə birgə əməkdaşlığı sayəsində alınmış və sənaye miqyasında istehsalına başlanmış yüksək oktanlı benzin, habelə sürtgü yağları növləri, M.F.Nağıyev, H.X.Əfəndiyev, İ.Ə.Orucova, Ş.A.Məmmədov, M.M.Mövsümzadənin kimya elmi və neft emalı prosesinin müxtəlif problemlərinə dair səmərəli tədqiqatları, geoloqlarımız (Ş.A.Əzizbəyov, M.Ə.Qaşqay, Ə.D.Sultanov, fiziklərimiz (X.İ.Əmirxanov), riyaziyyatçılarımız (İ.Q.Yesman), bioloqlarımız (A.A.Qrossheym), kənd təsərrüfatı sahəsində çalışan alim və mütəxəssislərimiz (F.Ə.Məlikov, A.Ağabəyli, C.M.Hüseynov, İ.D.Mustafayev), həkimlərimiz (M.A.Topçubaşov, M.A.Mirqasımov, V.A.Tornoqradski, F.Ə.Əfəndiyev, İ.S.Kenzburq, C.İ.Abdullayev) və b. kəşf, ixtira, təklif və üsulları ilə bilavasitə döyüşən orduya, onun müxtəlif təyinatlı tələblərinin yerinə yetirilməsinə, hərbi qaydada qurulan çox sahəli xalq təsərrüfatına – sənayenin, kənd təsərrüfatının, nəqliyyatın, rabitənin, səhiyyənin müharibə şəraitində fəaliyyətinə sanballı kömək göstərdilər.

Müharibə illərində fəal iştirakına, cəbhəni və xalq təsərrüfatının vacib məhsullarla təmin edilməsində fəaliyyətinə görə **Y.Məmmədəliyev, X.Qutırya** "**Lenin**" **ordeni ilə təltif olundular**. Kimyaçı alimlərdən Y.Məmmədəliyev, X.Qutırya, M.Kardin, L.Solovyov, A.Markin Dövlət Mükafatına layiq görüldülər. Onlarla kimyaçı mühəndis və fəhlə orden və medallarla təltif olundu.

1945-ci ilin martında Azərbaycan SSR Elmlər Akademiyasının təsisi Azərbaycan elminin qələbəsi idi.

1941-ci ildə respublikada 66 hərbi hospital yaradıldı. Naxçıvan, Şuşa, Nuxa (Şəki), Hacıkənd, Mərdəkan və Buzovnada yerləşən sanatoriyalar, respublikadakı istirahət evləri hərbi hospitallara çevrildi. Hərbi hospitallar Azərbaycan Dövlət Universiteti, Elmlər Akademiyası, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU), Şaumyan adına mədəniyyət evi, Konservatoriya, Birinci poliklinikada yerləşirdi.

Müharibə illərində respublikada donor hərəkatı genişləndi. 1941-1945-ci illər ərzində yaralı döyüşçülər üçün cəbhəyə 41.609 litr qan göndərildi, 7.229 litr qanı əvəz edən preparatlar hazırlandı. Müharibə dövründə respublikanın 149.170 vətəndaşı donorçu oldu.

1942-ci ilin yanvarında tibb elmləri doktoru, professor Əziz Əliyevin sədrliyi ilə "Yaralı Döyüşçülərə və Xəstələrə Kömək Komitəsi" yaradıldı.

Müharibənin ilk günlərindən səfərbərliklə əlaqədar keçirilən mitinq və yığıncaqlarda alovlu nitqlərlə çıxış edən yazıçılar faşizmin mahiyyətini başa salır, onların törətdikləri vəhşilikləri göstərərək xalqı mübarizəyə çağırırdılar. Qafqaz uğrunda gedən gərgin döyüşlərdə – 1942-ci ilin payızında S.Vurğun, S.Rüstəm, M.Rahim, R.Rza, H.Mehdi, Z.Xəlil, Məmməd Əkbər, Ə.Məmmədxanlı döyüşçülərlə birgə idilər. M.Rahim, S.Rüstəm, O.Sarıvəlli, Z.Xəlil, T.Əyyubov və başqaları uzun müddət cənub cəbhəsində - Sevastopol və Kerç müdafiəçilərinin yanında oldular.

Müharibə illərində bəstəkarlar və musiqi ifaçılarının adamları amansız mübarizəyə səsləyən və vətənpərvərlik mövzusunda yazılan əsərləri arxa və ön cəbhənin yaxın dostuna çevrildi. Ü.Hacıbəyovun Nizaminin mətninə yazdığı və qələbəyə həsr etdiyi "Sənsiz ", "Sevgili canan", Ə.Bədəlbəylinin B.Zeydmanla birgə yazdığı "Xalqın qəzəbi", Niyazinin "Xosrov və Şirin" operası, "Döyüşdə" simfonik əsərləri, S.Rüstəmovun "Cəbhə eşqi" əsəri, "Cəbhəyə", "İrəli", "Qəzəl", "Qəhrəmanlar marşı" mahnıları, Ağabacı Rzayevanın "Cəngi", "Vətən nəğməsi", "Dilbərim", "Gözlərin" mahnıları müharibə dövrünün əsərləridir.

Müharibə illərində Moskva konservatoriyasının tələbələri Qara Qarayev və Cövdət Hacıyevin bəslədiyi "Vətən operası" (libretto müəllifi İ.Hidayətzadə) 1946-cı ildə Dövlət Mükafatına layiq görüldü.

Rəssamlarımız müharibə qəhrəmanlarının "portret qalereyası"nı yaratdılar. Bu qalereyanın eksponatları içərisində Kamal Qasımov, İsrafil Məmmədov, İdris Süleymanov, Hüseyn Əliyev, Məzahir Abasov, Novruz Aslanov, Əjdər Maniyev kimi müharibə qəhrəmanlarının surətləri fəxri yerləri tutur.

Müharibə illərində rəssamlardan F.Əbdürəhmanov, K.Kazımzadə, P.Topçubaşova və Ə.Hacıyev Azərbaycan SSR "əməkdar incəsənət xadimi" adına layiq görüldü, F.Əbdürrəhmanov, N.Fətullayev, L.Kərimova ordenlərlə, 40-dan artıq rəssam medal və fəxri fərmanla təltif olundular.

Respublikamızın kino işçiləri tez-tez döyüş mövqelərində olur, əsgərlərin cəbhə həyatını lentə köçürürdülər. 1942-ci ildə Krım cəbhəsinə yola düşən Zaqafqaziya kino işçilərinin tərkibində Azərbaycandan kinooperatorlar V.Yeremeyev, M.Mustafayev, operator köməkçilərindən K.Həsənov və A.Ələkbərov və b. vardır.

Müharibə illərində yaradılmış kino-oçerklər içərisində A.Həsənovun "Vətən uğrunda", kinooperator M.Mustafayev və rejissor A.Quliyevin "Qayğı", rejissor İ.Əfəndiyevin və operator S.Bədəlovun "Məktuba cavab" lentləri, rejissor A.Dadaşov, operatorlar V.Yeremeyev və L.Koreskinin Stavropolun azad olunmasında Azərbaycan xalqının köməyindən bəhs edən "Qardaşlıq köməyi" kino-oçerki uğurlu yaradıcılıq işi idi.

Azərbaycan incəsənətinin mühüm sahələrindən olan Azərbaycan teatrları müharibə illərində səmərəli və məqsədyönlü fəaliyyət göstərdilər.

Müharibə illərində M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrında Mirzağa Əliyev, Mərziyə Davudova, Sidqi Ruhulla, Kazım Ziya, Ələsgər Ələkbərov, Fatma Qədri, Mustafa Mərdanov, Əli Qurbanov kimi təcrübəli və peşəkar sənət ustaları ilə yanaşı Hökümə Qurbanova, İsmayıl Dağıstanlı, İsmayıl Osmanlı, Barat Şəkinskaya, Möhsün Sənani, Süleyman Tağızadə, Əjdər Sultanov, Leyla Bədirbəyli, Məcid Şamxalov kimi gənclərdən ibarət yaradıcılıq qüvvəsi çalışırdı.

İkinci dünya müharibəsində alman-faşizmi üzərində qazanılmış qələbənin həqiqi yaradıcısı və qəhrəmanı xalqdır. Bəzi dövlət başçıları unutmuşlar ki, faşizm üzərində Qələbə həm də Sovet İttifaqı tərkibində yaşamış xalqların birgə mənəvi sərvətidir. Bu xalqların içərisində **Azərbaycan xalqı** şərəfli yerlərdən birini tutur. Cəbhədə göstərdikləri cəsurluğa görə 176 mindən çox Azərbaycan əsgəri orden və medallarla təltif olunmuş, 121 nəfər keçmiş SSRİ dövlətinin ən ali hərbi mükafatı olan Sovet İttifaqı Qəhrəmanı kimi yüksək ada layiq görülmüş, 30 əsgər "Şöhrət" ordeninin üç dərəcəsinin tam kavaleri olmuş, Fransa, İtaliya və digər dövlətlərin orden və medallarını almışlar. Azərbaycan övladları ön cəbhədə qəhrəmanlıq göstərmiş, arxa cəbhə əməkçiləri ön cəbhəni ərzaq məhsulları, yanacaq və digər məhsullarla, silah və sursatla təmin etmişdir. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, "*...İkinci dünya müharibəsi əyani şəkildə bir daha təsdiq etdi ki, Azərbaycan xalqı ən ağır sınaqlardan üzüağ çıxmağa, misilsiz şücaət və rəşadət nümunələri göstərməyə qadir olan çox dözümlü və qəhrəman xalqdır. Faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyə gedən yol olmuşdur. Azərbaycan yüksək inkişaf yolu ilə getdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu*".

Faşizm üzərində qələbəyə mühüm töhfələr vermiş Azərbaycan xalqı SSRİ-nin süqutu ərəfəsində erməni faşizmi ilə üz-üzə qaldı. Ermənistan Respublikası xarici havadarlarının köməyi ilə Azərbaycan torpaqlarının 20 faizini işğal etdi. 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində münaqişənin həlli məqsədilə yaradılmış ATƏT-in Minsk qrupu əməli fəaliyyət göstərmədilər.

Son 30 ildə Azərbaycan xalqı münaqişənin sülh yolu ilə beynəlxalq hüquq çərçivəsində həllinə sadiqliyini göstərdi. BMT-də Ermənistanın əleyhinə bir neçə qərarın qəbul edilməsinə baxmayaraq Ermənistan isə əksinə ABŞ və bəzi qərb dövlətlərinin dəstəyi ilə münaqişəni "konservləşdirməklə" məşğul oldu. Azərbaycanın bütün sahələrdə güclənməsinə baxmayaraq Qərb və rus diplomatiyasının gücü ilə formalaşdırılmış status-kvonu Azərbaycana qəbul etdirmək üçün təsis edilmiş ATƏT-in Minsk qrupu 28 il

ərzində "**məkik diplomatiyası**" yolu ilə problemin hərbi yolla həllinə imkan vermədi. Hətta BMT Təhlükəsizlik Şurası və Baş Məclisinin qəbul etdiyi 5 qətnamə, habelə AŞPA və ATƏT-in özünün qəbul etdiyi qətnamə və qərarların da kağız üzərində qalmasına səbəb oldu. Azərbaycanın yeraltı və yerüstü sərvətləri talan edildi və dünyanın müxtəlif yerlərindən ermənilərin Dağlıq Qarabağa və onun ətraf rayonlarına köçürülüb məskunlaşdırılmasına başlanıldı.

1988-1994-cü illər arasındakı Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və bölgənin ətrafındakı işğal olunmuş 7 rayon işğal dövründə çiçəklənən bir diyardan "boz zonaya" çevirildi. Azərbaycan Ordusu Ermənistanın işğal etdiyi torpaqların böyük bir hissəsini cəmi 44 gün ərzində işğaldan azad edərək Ermənistan Silahlı Qüvvələrinin "məğlubedilməzliyi haqqında mifi" darmadağın etdi. Ermənistanın keçmiş rəhbərliyi 2016-cı il aprel döyüşlərindən olduqca ciddi "dərs aldı", yəni müharibə baş verəcəyi təqdirdə Azərbaycanın nəyə qadir olacağını dərk etdi, lakin siyasətdə naşı olan və Sorosun dəstəyi ilə "asanlıqla" hakimiyyəti ələ keçirən N.Paşinyan Dağlıq Qarabağ münaqişəsini nizamlamaq yox, yeni əraziləri işğal etmək yolu ilə status-kvonu əbədi etməyi qərarlaşdırdı. Bu səbəbdən də N.Paşinyan hökuməti İkinci Qarabağ müharibəsinin əsas təşəbbüskarı və səbəbkarıdır.

2020-ci ilin sentyabrında əks-hücum əməliyyatları ilə başlanan və xalqımızın qan yaddaşında əbədi yaşayacaq 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu Ermənistana uzun illər rəhbərlik etmiş cinayətkarlar Köçəryan-Sarkisyan ordusunu məhv etdi. Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa və Şuşadan bir gün sonra 70-dən çox kənd, bütövlükdə 300-dən çox yaşayış məntəqəsi işğaldan azad edildi. Təkcə Şuşanın işğaldan azad edilməsi Azərbaycan xalqının gücünü, Ordunun peşəkarlığını, hərbçilərin cəsarətini və qəhrəmanlığının bariz nümunəsidir. Azərbaycanın Qələbəsi eyni zamanda erməni miflərinin sonu demək oldu.

Noyabrın 10-a qədər davam edən döyüşlər Ermənistan Respublikasının kapitulyasiyası ilə başa çatdı. Noyabrın 10-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş Naziri N.Paşinyan hərbi əməliyyatların dayandırılması haqqında 9 bənddən ibarət Bəyanatı imzaladılar. **Noyabrın 8-i – Şuşanın işğaldan azad edildiyi gün, noyabrın 10-u isə Vətən müharibəsinin başa çatdığı gün kimi Azərbaycan tarixinə düşdü.**

Vətən müharibəsində qələbə xalqımızın milli birliyi və həmrəyliyi nəticəsində qazanıldı. Arxa cəbhədə olanlar həmrəylik göstərərək ön cəbhədə vuruşanlara əllərindən gələn köməyi əsirgəmədilər, hər cür maddi və mənəvi dəstək göstərdilər, ölkədə fəaliyyət göstərən müxtəlif siyasi partiyalar siyasi baxışlarını bir kənara qoyaraq milli birlik nümayiş etdirdilər.

ЗАКЛЮЧЕНИЕ

Война закончилась капитуляцией Японии 2 сентября 1945 года. Солдаты начали увольняться из армии. Около 30 миллионов советских граждан не увидели победы. Советские солдаты были убиты не только фашистами, но и своими согражданами. По подсчетам Дмитрия Волкогонова, 157 593 человека были приговорены к расстрелу военными трибуналами фронтов и армий. Конечно, некоторым из них были присвоены высокие воинские звания.

Если мы сгруппируем основные причины катастрофического поражения Красной Армии в начале войны, то это выглядит следующим образом:

1. Руководство СССР ошиблось в своих политических расчетах относительно даты нападения нацистской Германии. Фактически, это было связано с недоверием Сталинак своему окружению. Отказ Сталина и его окружения предупредить советский народ о готовности Германии к войне против Советского Союза вызывает много споров. Были запрещены любые меры по усилению и обеспечению безопасности советской границы в приграничных районах. Сталин слишком поздно поверил в неизбежность войны и отправка войск на границу было запоздалое решение.

2. Военная доктрина об усилении обороноспособности не была разработана. Согласно существующей доктрине, в случае агрессии против Советского Союза предполагалось удержать армию противника на границе, а затем рассредоточить ее по своей территории в ходе наступательных операций. Такая доктрина имела два основных недостатка: во-первых, хотя Красная Армия имела значительное преимущество в боевой подготовке, в ней преобладали неудачи в обороне. Во-вторых, согласно этой доктрине, крупные части советских войск были переброшены к западным границам. По мере сосредоточения моторизованных частей на разных участках фронта для нанесения внезапного удара, фашистские войска прорвали оборону и осадили крупные части советских войск. Хаос, недостатки в связи между отдельными подразделениями, несогласованность действий привели в первую очередь к большим потерям Красной Армии.

3. В результате массовых репрессий боеспособность Красной Армии была значительно ослаблена. С 1937 по 1938 год репрессированы более 40 000 командиров и политруков, в том числе 1 800 генералов и трое из пяти маршалов. На эти должности были выдвинуты неопытные и малообразованные военнослужащие. Там, где проходили

следствия по репрессивным, была атмосфера всеобщей подозрительности, доносительства, страха.

4. Укрепление боеспособности Вооруженных Сил Советского Союза не было завершено. Хотя разработка нового оружия и его технические и тактические возможности превосходили зарубежные аналоги, их применение в промышленности шло очень медленно.

5. Одной из ошибок советского военного командования была реорганизация крупных мобильных механизированных частей. Словом, большое количество бронированных «кулаков» в немецкой армии позволяло прорвать оборону советских войск, разрушить тыл, осадить и уничтожить крупные группировки Красной Армии.

6. Немецкие диверсионные группы нанесли большой урон советским войскам, нарушили связь, вызвали панику в войсках.

7. Решение советского командования демонтировать старые линии обороны не было дальновидным. По этой причине некогда было создавать новый защитный пояс.

История Второй мировой войны остается в авангарде острейшей идеологической, научной, информационной и психологической борьбы. Однако накануне 75-летия Победы чувствовались усилия фальсификаторов в адрес настоящих виновников, попытки уменьшить роль СССР в разгроме фашизма. Попытки переосмыслить историю предпринимали не только победители, но и проигравшие, бывшие союзники, а также ряд бывших советских республик, в первую очередь Республика Армения.

Часть российского научного, журналистского и писательского сообщества также была включена в процесс переписывания истории. Некоторые защищают роман В.Суворова “Ледокол”, клеймят советских военачальников, которые, как говорят, победили немцев невоенным искусством, а засыпав их миллионами трупов. Они демонстрируют лицемерную “объективность”. Цели советской внешней политики в 1930-е и 1940-е годы, усилия советского правительства по поддержанию мира, пытаются искажать коллективное уничтожение агрессоров.

Самое парадоксальное, что те, кто фальсифицируют историю Второй Мировой войны и войны 1941-1945 годов, хвалят пропагандистский аппарат Третьего Рейха, и это чувствуется как оправдание Гитлера, готовящего кампанию на Востоке. В недрах гитлеровской пропагандистской машины публикуются мифы о «советской угрозе», «советском экспансионизме», стремлении СССР получить контроль над Восточной и Юго-Восточной Европой и «защитном» характере плана Барбаросса о «враждебности». Германского рейха на Востоке и так далее. К институтам “Ostvorshung” присоединились не только

немецкие солдаты, историки, юристы и политологи, ранее работавшие на гитлеровскую пропаганду, но и представители элит восточноевропейских стран, сотрудничавшие с оккупационными силами. Примечательно, что эти вопросы были вынесены в центр современного обсуждения бывшими союзниками Гитлера из Центральной, Восточной и Юго-Восточной Европы. Это связано с переосмыслением истории Второй Мировой войны, попыткой подорвать освободительную миссию военных, желанием уменьшить участие своей страны в преступлениях национал-социализма и представить ее жертвой.

В художественной литературе, фильмах, СМИ и заявлениях политиков немцы видят себя жертвами поражения под Сталинградом, неудачными беженцами, спасающимися от нападения Советской армии, жертвами политики оккупации и жертвами принудительного переселения. По этой причине восстановление причинно-следственной связи в истории Второй Мировой войны и предотвращение забвения, реалии войны и роль народов СССР в победе в войне должны быть пересмотрены на основе архивных документов.

Важное место в арсенале идей современных фальсификаторов занимает американская историография, служащая целям внешней политики США. Сторонники ложной концепции, отрицающей решающую роль Советского Союза во Второй мировой войне и восхваляющей вклад вооруженных сил США как «главного архитектора» Победы, пытаются отстоять свою ведущую роль в послевоенном мире. Уже во время войны и сразу после нее американские историки исследуют события на советско-германском фронте, не касаясь общего хода войны. При этом результаты боевых действий американо-британских войск на различных театрах военных действий (Северная Африка, Италия, Франция) всячески преувеличены. Стремление отвергнуть и пересмотреть результаты Второй Мировой войны, укрепление позиций СССР в Европе и Азии после войны было вызвано в основном военно-стратегическими ошибками США, характером международных обязательств, взятых на себя во время войны, и действиями Советской Армии усиленная помощь Советскому Союзу. Они пытаются подорвать миссию спасения в Восточной и Юго-Восточной Европе.

В работах российских историков роль русского народа в войне преувеличивается без учета населения и выделяется как авангард сил, фальсифицирующих историю Второй мировой войны и Великой Отечественной войны. В результате наша общая история фальсифицируется. Наблюдается также тенденция к объединению народов бывшего СССР, которые исторически, культурно и духовно взаимосвязаны и победили фашизм в войне 1941-1945 годов. Однако во время войны представители всех народов, проживавших в Советском Союзе, стояли

плечом к плечу и демонстрировали примеры героизма. Победа над фашизмом была достигнута в результате совместных усилий всех народов СССР, а также прогрессивных народов Европы. Достаточно взглянуть на таблицу ниже. Их количество было следующим. Размер цифр в таблице не должен быть результатом доминирования какой-либо нации, а должен сравниваться с точки зрения численности населения, и не следует упускать из виду то, как представители этих наций представлены в центральном правительстве

Порядковый номер	**Национальности**	**Численность**	**Порядковый номер**	**Национальности**	**Численность**
1	русские	8112	32	буряты	
2	украинцы	2072	33	дунганы	5
3	белорусы	311	34	лезгины	4
4	татары	161	35	немцы	4
5	евреи	108	36	французы	4
6	казахи	96	37	чеченцы	4
7	грузины	91	38	якуты	3
8	армяне	90	39	алтайцы	3
9	узбеки	69	40	болгары	2
10	мордва	61	41	греки	2
11	чуваши	44	42	карачаевцы	2
12	азербайджанцы	**43**	43	кумыки	2
13	башкиры	39	44	лаки	2
14	осетины	32	45	хакасы	2
15	мари	18	46	черкесы	2
16	туркмены	18	47	финны	2
17	литовцы	15	48	ассирийцы	2
18	таджики	14	49	балкары	1
19	латыши	13	50	вепсы	1
20	киргизы	12	51	даргины	1
21	коми	10	52	испанцы	1
22	удмурты	10	53	корейцы	1
23	карелы	9	54	кумандины	1
24	поляки	9	55	курды	1
25	эстонцы	9	56	молдаване	1
26	калмыки	8	57	ногайцы	1
27	кабардинцы	7	58	нанайцы	1
28	адыгеи	7	59	сваны	1
29	чехи	6	60	тувинцы	1
30	абхазцы	5	61	эвенки	1
31	авары	5			

Некоторые главы государств забыли, что победа над фашизмом - это также общее духовное богатство народов Советского Союза. Истинным творцом и героем победы над нацистской Германией во Второй Мировой войне является народ. Среди этих народов азербайджанский народ занимает одно из славных мест. За отвагу на фронте более 176 тысяч воинов Азербайджана награждены орденами и медалями, 121 удостоены звания Героя Советского Союза, высшей военной награды бывшего СССР, 30 воинов награждены тремя степенями ордена Славы. Он был полным кавалером и получал ордена и медали из Франции, Италии и других стран. Сыновья Азербайджана проявили героизм на фронте, а труженики тыла обеспечивали фронт продовольствием, горючим, оружием и боеприпасами. Как сказал общенациональный лидер Гейдар Алиев: «… Вторая Мировая война еще раз подтвердила, что азербайджанский народ – очень толерантный и героический народ, способный преодолевать самые тяжелые испытания, проявляя беспримерное мужество и отвагу. Путь нашего народа после победы над фашизмом был путем к будущей национальной свободе и независимости Азербайджана. Азербайджан прошел большой путь развития и накопил большой экономический и интеллектуальный потенциал. На этой основе он обрел независимость и занял свое место в мировом сообществе».

Задолго до начала войны 1941-1945 годов, на XVIII съезде КПСС 10-21 марта 1939 года был принят Третий пятилетний план (1938-1942 гг.) развития народного хозяйства СССР с целью усиления военной промышленности СССР

Реализация третьего пятилетнего плана потребовала повышения ответственности на производстве, в том числе в военной промышленности. По этой причине на оборону страны были выделены большие деньги. В первой пятилетке было выделено 4,9 миллиарда рублей или 5,4 процента бюджета, во второй пятилетке – 47 миллиардов рублей или 12,6 процента всего бюджета, а в первые три месяца третьей пятилетки, план 26,4 процента бюджета. В 1939 году на оборону было выделено 34,5 миллиарда рублей, в 1940 году – 56,9 миллиарда рублей, в 1941 году – 83 миллиарда рублей, или 43,4 процента всего бюджета.

В третьей пятилетке общий объем промышленности в Азербайджанской ССР увеличился. По сравнению с 1937 годом в 1940 году валовая продукция составляла 21 процент, в том числе добыча нефти 4 процента, добыча газа 25 процентов, производство электроэнергии 32 процента, производство стали 32 процента, общий объем машиностроительной и металлообрабатывающей промышленности 98 процентов, производство цемента 14 процентов. Производство хлопка увели-

чилось на 22 процента, шелка на 19 процентов, обуви на 49 процентов, кондитерских изделий на 31 процент и консервов на 100 процентов.

По данным 1940 года, сельское население Азербайджанской ССР составляло 63 процента. Более половины занятого населения составляли колхозники. В начале 1930-х годов Азербайджан был отсталой аграрной страной и постепенно превращался в индустриальную республику. С 1922 по 1940 год промышленное производство увеличилось в 24 раза. Построены и введены в эксплуатацию десятки промышленных объектов. Однако в результате политики двойственного подхода Центра в отношении Азербайджана развитие промышленности было односторонним. Основное внимание было уделено развитию некоторых областей энергетики, пищевой и легкой промышленности. Промышленные объекты располагались в нескольких городах. Несмотря на изменения в социальной структуре, Азербайджан оставался сельской страной. Количество крестьян в этом составе было невелико по сравнению с количеством горожан, интеллигенции и рабочих.

Одной из важных особенностей того периода были меры по привлечению населения к сельскохозяйственной деятельности, особенно к хлопководству, табаку и виноградарству.

Накануне вторжения нацистской Германии в СССР Азербайджанская ССР играла важную роль военной и материальной базы, и поэтому под влиянием турецких и иранских факторов отношение руководства СССР к Азербайджану изменилось.

Канун войны был отмечен репрессиями против азербайджанского народа. В 1937 г. в составе “контрреволюционной националистически-буржуазной” организации были репрессированы 22 наркома, 49 секретарей райкомов, 29 председателей райисполкомов, 207 советских и профсоюзных рабочих, 57 директоров заводов и горных заводов. Среди почти 400 репрессированных чиновников в разное время были секретари ЦК и высокопоставленные партийные и государственные деятели Азербайджанской ССР и СССР. Как видно, терроризм был неотъемлемой частью государственной политики СССР в 1920-1930-е годы. В 1937 году специальная тройка при НКВД Азербайджанской ССР приговорила к лишению свободы за политические преступления 2846 человек, а 2215 человек были расстреляны. Только за антисоветскую пропаганду расстреляно 1108 человек. В 1937 году специальная троица рассмотрела дела 10 тысяч человек. Только 4 июня 1938 года выездное заседание Военной коллегии Верховного Суда СССР под председательством Мотилевича вынесло приговоры 99 человек. Всего за два заседания были осуждены 623 человека, большинство из которых были расстреляны.

Во время репрессий 1937-1938 годов национальным и духовным ценностям, культуре, обычаям и традициям азербайджанского народа был нанесен серьезный ущерб. Организацию репрессий осуществляли не азербайджанцы, в большинстве своем армяне. Армяне составили основу следственно-оперативного аппарата. В 31 из 51 районов республики главой районного отделения КДИК были армяне.

Похожая ситуация сложилась в высших эшелонах штаба CDIC. Адамян, главный следователь Особого управления 11-й армии, сержант Главного политического управления НКВД Исханян, начальник Управления особых дел НКВД Григорян, Вартанов НКВД, начальник ОБХСС Григорян, начальник КГБ Казахского района Маркарян, НКВД заместитель начальника, Мирзоян НКВД Заместитель начальника, Пчелян Баил начальник Нахчыванской тюрьмы, начальник Хачатуровской тюремной больницы, начальник Асланянского тюремного архива, Геворков Н.А. Главный врач Бакинской Следственной Тюремной Больницы Бабакевян Г.С. Он был главным врачом Гянджинской Смешанной Следственной Тюремной Больницы. Мирзоян, Галстян, Григорян, Аванесян, Маркарян, Оганесян, Мустафьев, Шер, Борщев, Борисов, Клеменчич, Дурлянин, братья Сокиные, Платонов и другие работали в НКВД. Они пытали обвиняемых и записывали то, что хотели .

В тоталитарном государстве СССР не имело значения, кто был у власти. Защита империи всегда была главной целью, и были созданы условия для прихода диктатора, который будет служить новому режиму и защищать империю. Хотя Сталин был лидером страны, он служил российскому империализму. Поэтому меры, принятые в период, когда Азербайджан входил в состав Советской империи, особенно накануне войны, разграбление богатств является логическим следствием. Армяно-грузинская группировка, собравшаяся в центральном правительстве, по наущению русских шовинистов проводила двойную политику, используя богатство и человеческие ресурсы Азербайджана в коварных целях.

В 1941 году население Азербайджанской ССР составляло 3,3 миллиона человек. Когда началась война, военная мобилизация в республике стала общенациональным движением. Тысячи юношей и девушек обратились в военные комиссариаты и ушли на фронт. В начале войны около 40 тысяч человек вызвались носить военную форму, а около 200 тысяч записались в Народную армию. В первый год войны Коммунистическая партия Азербайджана отправила на фронт 40 тысяч коммунистов. В целом за годы войны из Азербайджана в армию было мобилизовано 698 237 мужчин и 11 266 женщин, а «черную бумагу» получили более 350 тысяч солдат. Подготовлено 15 тысяч медицинских работников и фельдшеров, 750 офицеров связи, 3

тысячи водителей. На территории Азербайджанской ССР было сформировано 87 батальонов, 1123 отряда самообороны, 77-я, 223-я, 271-я, 396-я, 402-я, 416-я стрелковые дивизии.

Одной из главных задач духовной мобилизации было укрепление дружбы между народами, воспитание людей в духе патриотизма и интернационализма. «О мобилизации партийных политработников в ряды Красной Армии» ЦК Компартии Азербайджана и Совета Министров Азербайджанской ССР «О мобилизации партийных политработников в ряды Красной Армии» Постановление от 10 октября 1941 г. «О мерах по расширению работы политического просвещения в сформированных в республике воинских частях» от 13 ноября 1941 г. дало толчок моральной и военной мобилизации.

Оборона Брестской крепости вошла в историю войны 1941-1945 годов как легендарный героизм. В обороне крепости приняли участие 44 молодых человека из Азербайджана. Проявив особое мужество и героизм, погибли И.Сафаров, А.Иманов, М.Мамедов, М.Ибрагимов, Х.Хагвердиев, М.Гадиров, А.Алиев, Д.Абдуллаев и другие.

900-дневная оборона Ленинграда от немецко-фашистских захватчиков стала одной из самых ярких страниц в истории войны. Одним из героев сражений за Ленинград был Гусейн Алиев. Посмертно Гусейн Балаами оглы Алиев был награжден орденом Ленина. Азербайджанские бойцы в обороне Ленинграда – выпускники Бакинского аэроклуба Гусейн Багиров, Евгений Сыгангов, Асаф Самедов, Александр Шитов, снайпер Мамедали Аббасов, старший лейтенант гвардии Володя Багиров, награжденные орденом Ленина, Ильяр Исмаилов, Ильяс Исмаилов, Алекпер Надиров, капитан 2 ранга одной из подводных лодок М.И. Гаджиев и другие.

Наряду с боями за Ленинград вермахт сосредоточил под Москвой значительные силы. Обычное кодовое название плана захвата Москвы было «Тайфун». Бойцы зенитно-артиллерийского полка Бакинских войск ПВО, обороняя Москву, сбили 40 самолетов противника и повредили 104 самолета противника. В Москву стали отправляться новые воинские части, оружие, боеприпасы и продовольствие. Баку особо выделялся в этой области. Распоряжением Госкомимущества от ноября 1941 года в Баку был создан завод по производству «ППШ» (пистолет-пулемет Шпагина). Здесь было произведено около миллиона снарядов для знаменитого миномета «Катюша».

Мужество азербайджанских бойцов проявилось в боях за Москву. Возглавляли бойцов Ази Асланов и Исрафил Мамедов. Командир зенитной батареи лейтенант Мамедрасул Пашаев охранял небо Москвы. В обороне Москвы принимали участие пулеметчик Идрис Валиев, зенитный сержант Сейфали Алибалаев, врачи и медсестры Алия Рус-

тамбаева, С.Гараева и другие. Образцы храбрости проявили Лейла Алескер гызы Мамедбекова и Зулейха Сеидмамедова, которые учились на курсах авиации в Баку.

22 июня 1942 года в Севастополе появились первые самолеты противника, и под Севастополем начались ожесточенные бои. Среди защитников Севастополя были сержант Ханкишиев, гвардии ефрейтор Гасан Гасанов, Нурали Мирзаев, Гаджиев, Каримов, Ибрагимов, артиллерист Фазли Ахмедов, батальонный разведчик Аслан Валиев, артиллерист Денис Бахишов, штурмовик Исмаил Мамедов, Альфа Ширази, военный врач Сара Ибрагимова, медсестры Пакиза Манафова, А.Гасанова, Б.Мирджавадова, Р.Ахмедова, Ш.Аскерова, Р.Гезалова и десятки других были убиты.

Сталинградская битва длилась 6,5 месяцев (с 17 июля 1942 г. по 2 февраля 1943 г.). Боевые действия проходили на территории 100 тыс. кв.км., протяженность линии фронта достигала 400-800 км. В боях под Сталинградом азербайджанские солдаты показали образцы мужества и героизма.

55-й специальный танковый полк под командованием Ази Асланова, получившего звание подполковника за военную организацию и личную храбрость в боях под Москвой, проявил большое военное мастерство, разгромив армию фельдмаршала Манштейна в Сталинградской битве.

В Сталинградской битве отважные сыны азербайджанского народа – лётчики Нуру Алиев и Таджеддин Эфендиев, миномет Шамиль Гусейнов, артиллерист Хейрулла Шахгельдиев и другие проявили героизм в больших боях. А.Ахундов, А.Аббасов, М.Гарибов, М.Исрафилзаде, А.Алиев, Б.Алескеров, А.Керимов, Б.Мух в Сталинградской битве Таров, А.Мустафаев, А.Гамидов, А.Гусейнов, М.Джафаров и другие храбро сражались. Артиллеристы Ф.Ахмадов и Бахишов, артиллерист Шахвалиев, разведчик А.Валиев, наполнитель И.Мамедов, снайпер Балаоглан Аббасов и другие. Они героически погибли в боях за Сталинград. Солдат Магадим Мардан оглы Мамедов из Кюрдамирского района, лейтенант Юсиф Гурбан оглы Зейналов из Баку, Мусаид Гусейн оглы Рагимов из Астаринского района, солдат Расул Галиб оглу Салманов из села Гарагашлы Кюрдамирского района, лейтенант Таир Мамедов из города Нахчыван, из Лачина Гусейин Надир оглу Юсифов против танков противника проявили мужество. Лейтенант Билал Расулов и лейтенант Алекпер Гаджи оглу Гаджиев из Баку, лейтенант Мустафа Алиаббас оглы Мустафаев, Д.Дуньямалиев и Л.Гашимов из Загатальского района награждены медалью «За отвагу».

Азербайджанские женщины сражались плечом к плечу с мужчинами. Халима Рзаева, Зарифа Джамалбекова, мать и дочь Баим и

Салима Ализаде, Беюкханум Багирова приняли участие в Сталинградской битве.

Сталинградская операция длилась с 19 ноября 1942 года по 2 февраля 1943 года. В результате так называемой операции «Кольцо» 2 февраля противник был полностью разгромлен. Войска фронта захватили 131 тысячу человек, в том числе более 2,5 тысячи офицеров и 24 генерала, в том числе фельдмаршала Павла. Среди пленных 1 генерал-полковник, 1 генерал-лейтенант, 2 подполковника, 4 капитана, 1444 обер-лейтенанта, 182 лейтенанта. Более 16 500 азербайджанских солдат награждены медалью «За оборону Сталинграда». За оборону Сталинграда 112 человек были удостоены звания Героя Советского Союза. Среди награжденных был Ази Асланов, героический сын азербайджанского народа. Указом Президиума Верховного Совета СССР от 22 декабря 1942 года Гази Асланова удостоена почетного звания Героя Советского Союза в звании генерал-майора. Его второе звание – Герой Советского Союза – было восстановлено в 1991 году. Ази Асланов, воевавший от Сталинграда до побережья Балтийского моря, погиб 24 января 1945 года в районе города Митава.

Дивизии других народов и наций принимали активное участие в кавказских войнах. В их числе 77-я, 223-я, 402-я и 416-я, 242-я, 392-я, 394-я и 414-я истребительные и горнострелковые дивизии Азербайджана.

Гафур Насир оглы Мамедов был одним из азербайджанских солдат, проявивших высокие боевые навыки в боях за Кавказ. Исрафил Мамедов, Адила Бабаева, Хумай Алибейли, Беюкханум Багирова, Роза Ибадова начинали свою военную карьеру на Северном Кавказе, в городах Донбасс, Черкассы, Ворошиловград и принимали участие в боях за освобождение сотен украинских сел.

Сыновья Азербайджана в боях за Новороссийск – Орудж Агаев, Ханбаба Мурадов, Гусейнага Садыгов, Новруз Асланов, Гачай Бахрамов, Давуд Гасымов (Баку), Сакина Мамедова, Сулейман Эльдаров (Нуханыне Шеки), Исмаил Агамирзаев (Агстафа), Орудж Аскеров (Ждановныне Бейлаган) и другие проявили воинскую доблесть.

Дурра Мамедова, Сафия Рустамбекова, Сакина Мамедова, Адила Мамедова, Людмила Каримова, Сюзанна были в числе отважных девушек в боях за Новороссийск, Кабардинку, Туапсе и Тамань. Примеры Салманова, Наиба Хашимова, Сугра Али Пашаева, Сакина Ибраева, Сара Ибраева и др. мужества. Защитники Новороссийска всегда помнят своего военного друга Дурру Мамедову.

В состав 18-й армии входили представители 33 наций, в том числе около 1000 азербайджанцев. Агамехди Бабаев, Тофик Аббасов, Агагусейн Алиев, Гаджага Алиев, Гусейн Бабаев, Алиага Джафаров,

Садыг Садыгзаде (Баку), Фарман Нариманов (Агдам), Байлар Ханларов (Агджабади), Расул Мурадов (Губадлы), Али Махарманов (Губадлы), Али Махармов Губадлы), Исмаил Тагиев (Ленкорань), Халиг Гурбанов (Масаллы), Иман Абишов (Нефтчала), София ханум Рустамбейкова, Ибрагим Гасанов (Ильич-ныне Бабекский район), Мамед Зейналов (Ордубад), Новруз Худ. (Джабраил) и другие воевали на Малой Земле.

В освобождении Крыма принимали участие организованные в Азербайджане 77-я и 227-я стрелковые дивизии. В боях за Крым храбро сражались А.Пириев, Ш.Алиев (присвоено звание Героя Советского Союза – М.А), А.Гурбанов, М.Дадашов, А.Агамиров, М.Мамедов, А.Халилов, Б.Гасымов, командир роты, писатель А.Алекперов, К.Мамедов, политический лидер Аскеров, командир Салимов, политработник Ширинов и другие. Во время боев за Крым З. Манафова оказывала медицинскую помощь раненым солдатам.

Сыновям Азербайджана были присвоены звания Героев Советского Союза: Салахаддин Кязымов, пулеметчик Ибрагим Султанов, боец Мамед Мамедов, летчик Ибрагимов, капитан Бахиш Мехтиев, дважды награжденный орденами «Золотая звезда» и «Золотой флаг». В очищении украинских земель от фашистов приняли участие Алиш Манафов и Али Алиев, Гасан Мирзоев, Ханмирза Гусейнов, Исфандияр Алиев, артиллерист Исфандияр Алиев, сержант Гасанали Мамедов, командир разведки Манга Черкез Гурбанов. Рафиев был удостоен звания Героя Советского Союза в операциях за освобождение Белоруссии. В боях за город Могилев и Могилевскую область 63 человека были удостоены звания Героя Советского Союза. Среди них командир 1-й гвардейской ударной инженерно-саперной бригады азербайджанский полковник гвардии А.Ф.Везиров и другие. Боевые действия гвардейской танковой бригады Х. Асланова при освобождении Минска зафиксированы приказом Верховного Главнокомандования.

С 13 января по 25 апреля 1945 года войска 2-го и 3-го Белорусского и 1-го Прибалтийского фронтов вместе с Краснознаменным Балтийским флотом вошли в Восточную Румынию. Воевавшие в Восточной Пруссии азербайджанские солдаты Алигули Амиров и Алескер Гасымов продемонстрировали героические подвиги.

В марте 1945 года были созданы условия для продолжения наступления на Берлин. Вечером 1 мая полки 301-й дивизии вместе со 148-й и 230-й дивизиями начали бой за захват штаб-квартиры Имперской канцелярии, последнего пристанища лидеров нацистского рейха. Инструктор политотдела 9-го стрелкового корпуса майор Анна Владимировна Никулина водрузила флаг Победы в здании Императорской канцелярии. 30 апреля Рейхстаг подвергся трехкратному

нападению. Сержанты дивизии М.А.Егоров и М.В.Кантария водрузили флаг над Рейхстагом.. 1 мая журналисты насчитали на здании несколько десятков флагов. Кто первым водрузил флаг, до сих пор остается спорным. На знаменитой фотографии корреспондента ТАСС Евгения Халдея «Флаг Победы в Рейхстаге» от 2 мая 1945 года запечатлены Абдулкарим Исмаилов из Дагестана, Алексей Ковалев из Киева и Алексей Горичев из Минска.

Во время войны насчитывалось 6200 партизанских отрядов и секретных групп. Али Дадашов был одним из бойцов «Молодой гвардии» в Краснодоне. Среди 800 военнопленных, заключенных в военный лагерь в Куйбышевском районе Крыма членами 8-го азербайджанского партизанского отряда офицером Алиевым Мамедом Кярим оглу, Гаджиевым Сахибом Джабраил оглу, Рзаевым Гусейном Маммед оглу была создана тайная организация среди заключенных. 18 сентября 1943 года Мамед Алиев и Махмуд Гасанов сформировали Красный партизанский отряд. 7 ноября 1943 года отряд вошел в состав 7-й партизанской бригады под названием 8-й азербайджанский партизанский отряд на юге Крыма. Командиром отряда был Мамед Алиев, комиссаром Абдулкарим Аширов, начальником штаба Сахиб Гаджиев. Всего за 7 месяцев 8-й азербайджанский партизанский отряд провел 32 боевые операции в тылу врага. 1225 солдат и офицеров противника были убиты, 451 взят в плен. В результате партизанской операции было разрушено 9700 метров коммуникаций, изъято 7 пушек, 11 минометов, 12 пулеметов, 500 единиц другого огнестрельного оружия и 11000 патронов.

Действующий в Чехословакии партизанский отряд насчитывал 500 азербайджанских бойцов. Особо отличились в боях А.Бахишов и А.Алимарданов, сбежавшие из концлагеря и присоединившиеся к движению сопротивления. Героически сражались командир партизанского отряда им. Урицкого Хуммат Намазов, боевые соратники Р.Аскеров, А.Магеррамов, С.Багиров, Г.Иманов, М.Тагиев, Т.Гулиев, М.Дашдамиров, Ш.Валиев, М.Байрамов и другие.

Среди военнопленных были М.Гусейнзаде, Дж.Хакимли, С.Исмайлов, Р.Агазаде, М.Сеидов, М.Гулубеев и другие, задержанные в немецком лагере «Штранс». В результате члены тайных антифашистских организаций в воинских частях бежали и присоединились к партизанам. Одним из них был Мехди Ханифа оглы Гусейнзаде.

Мехди Гусейнзаде (Михайло) помогает советским военнопленным в концлагерях на Украине, в Польше, Италии и Югославии бежать и вместе со своими товарищами присоединяется к югославским партизанам. В униформе нацистского офицера Мехди Гусейнзаде, часто находясь в немецком штабе, собирал информацию о действиях

вражеских армий, изучал планы войск, сообщал партизанам и успешно наносились удары по вражеским войскам. Восемьдесят нацистов были убиты при взрыве кинотеатра «Опичина».

Осенью 1944 года группа партизан во главе с Мехди Гусейнзаде напала на нацистскую тюрьму в Удине, освободив 700 военнопленных, в том числе 147 советских военнопленных. М.Гусейнзаде погиб 2 ноября 1944 года в неравном бою с противником в селе Витовле на территории современной Словении. 16 ноября его тело перезахоронили в селе Чеповани. На надгробии героя в селе Чеповани выгравировано: «Покойся с миром, отважный сын азербайджанского народа, дорогой наш Мехди. Твоя бессмертная храбрость во имя свободы всегда будет жить в сердцах друзей». Однако героизм Мехди Гусейнзаде не был вовремя оценен советским руководством. Указом Президиума Верховного Совета СССР от 11 апреля 1957 года Мехди Гусейнзаде был удостоен звания Героя Советского Союза, через 13 лет после смерти.

Азербайджанские бойцы принимали участие в движении Сопротивления во Франции. Первый азербайджанский полк был сформирован в районе Родез на юге Франции. Летом 1942 года в польском Эдлине была создана секретная антифашистская организация азербайджанских военнопленных. Члены организации Хади Гиясбеков, Исмаил Гейдаров, Гусейнрза Мамедов, Фейзулла Гурбанов, Халаф Гаджиев и другие принимали участие в освобождении французских городов от фашистов.

Один из участников французского движения Сопротивления, А.Джабраилов по кличке «Харго», несмотря на то, что попал в плен во время войны, с помощью соратников бежал из плена и присоединился к французским партизанам. Участник итальянского движения Сопротивления Насир Абдуллаев, Мамед Багиров Хамза Аскеров, Али Бабаев, Шахбаба Маджидов, Тахир Исаев, Гасан Камалов и другие храбро сражались с нацистами.

В первые годы войны приказом Главкома Сталина от 18 октября 1941 года в Азербайджане, как и во всех союзных республиках, были организованы национальные подразделения. Основной состав этих подразделений составляли азербайджанцы. 77-я, 223-я, 271-я, 306-я, 402-я и 416-я национальные дивизии участвовали в боевых действиях в составе различных армий.

13 апреля 1944 года за особые заслуги в боях за Симферополь 77-ой дивизии Верховным Главнокомандующим было присвоено почетное звание «Симферополь». 24 мая 613 солдат и офицеров дивизии были награждены орденами. Среди них были Гасан Гулиев, Али Гараев, Амир Гулиев, Худу Мехтиев, Абдул Раджабов, Гасан Аббасов,

Абиль Сеидов, Яхья Багиров и другие. В боях за Кавказ 60 солдат и офицеров (Идрис Сулейманов, Гафур Мамедов и др.) были удостоены звания Героев Советского Союза. Около 600 бойцов были награждены медалью «За оборону Кавказа».

В 1941-1945 гг. Бойцы 77 дивизии были награждены: – 11 человек орденом «Ленина», 2 – «Золотая Звезда», 68 – «Красного Знамени», 15 – «Суворов» и «Александр Невский», 1 – «Богдан Хмельницкий», 101-I степени, 238 человек II степени «Отечественная война» 1149 человек «Красная Звезда», 30 человек ордена «Слава» 2 степени, 412 человек ордена «Слава» 3 степени, 208 человек «За мужество», 1131 человек награждены медалью «За воинскую службу». Восемь бойцов удостоены звания Героя Советского Союза.

223-я дивизия, сформированная на базе 168-го резервного полка 46-й армии Грузинской ССР приказом Главнокомандования от 18 октября 1941 года, возглавлялась опытными командирами. Командиром дивизии был полковник В.С.Романов, военным комиссаром - М.А.Алиев, начальником штаба был подполковник Н.К. Преображенский. Штаб дивизии находился в Баку. 23 декабря 1941 года он был размещен в 223-й дивизии на подготовленной за городом оборонительной полосе для защиты бакинских нефтепромыслов. 22 февраля 1942 года командование дивизией принял Владимир Павлович Зуванов (Эйбат Атамоглан оглу Гейбатов). За храбрость при взятии Белграда 223-я азербайджанская стрелковая дивизия была удостоена почетного звания «Белградская». 20 азербайджанских бойцов дивизии, в том числе А.Вазиров, М.Валиев, А.Гулиев, М.Абдуллаев, Б.Мирзаев, М.Джабиев и Х.Мамедова удостоены звания Героя Советского Союза. От Баку до Праги боевой путь 223-й дивизии, который проходит по территории шести государств – Румынии, Болгарии, Югославии, Венгрии, Австрии и Чехословакии, составляет 5000 километров. В ходе 30-месячных боев дивизия освободила более 400 населенных пунктов площадью 10 тысяч квадратных километров, 19 городов, в том числе Моздок, Георгиевск, Днепродзержинск, Бендеры, Котовское, Констанцу, Шумин, Рготино, Бор, Ягодино, Белград, Кралево, Будапешт, Комаром, участвовала в освобождении Вены, Флорисдорфа, Гллабрунна и других городов. 223-я дивизия четыре раза форсировала более 50 рек, больших и малых, на Дунае. В боях с фашистами 223-я дивизия уничтожила более 45 000 немецких солдат, взяла в плен 43 800 солдат и офицеров, 28 самолетов противника, 113 танков и боевых машин, 549 полевой артиллерии, 311 минометов, 1152 пулемета и 25000 артиллерийских орудий. Было уничтожено 113 танков и бронемашин, 549 полевых пушек, 311 минометов, 1152 пулемета. Более 200 автомобилей, около 25000 винтовок и автоматов, 219 локомотивов,

7400 вагонов, 1350 лошадиных сил, 70 складов и большое количество боеприпасов изъято.

402-я Азербайджанская Национальная Стрелковая Дивизия до октября 1941 года дислоцировалась в Иране (Южный Азербайджан). Вернувшись на родину в начале октября 1941 года, дивизия была отправлена в зону боевых действий по маршруту Нахчыван-Джульфа-Баку-Гудермес. В дивизии азербайджанцы составили 55%, армяне 18,6%, русские 12%, украинцы 3,6%, грузины 3,2% и люди других национальностей 1,7%. 45% личного состава были необразованными. В 1943-1944 годах 402-я дивизия использовалась как основная резервная база для комплектования и усиления других национальных дивизий, а также для подготовки бойцов и командиров. В 1943 году дивизия подготовила 2200 новобранцев, а в 1944 году – 1500 человек.

Краснознаменная и ордена Суворова 2-й степени 416-ая дивизия-национальная дивизия, созданная в марте-сентябре 1942 года. В разное время С.П.Старожилов, В.Т.Маслов, Т.А.Алиярбеков, Д.М.Изранов, Х.М.Зейналов, П.М.Рябов, Р.А.Меджидов и другие были командирами дивизий, начальником штаба и политкомандиром. Из бойцов дивизии 11 050 были азербайджанцами, 291 русскими, 225 армянами, 110 грузинами, 99 украинцами, 72 татарами, 28 евреями и 23 белорусами. В июне 1942 года дивизия вошла в состав 44-й армии, воевавшей на Кавказе. В дивизии 17 танков, 297 артиллерийских орудий, 189 минометов, 325 пулеметов, 1067 ручных пулеметов, 12 135 винтовок, 18 990 автоматов, 818 машин, 164873 снаряда, 38 бронемашин, 540 вагонов, 240 локомотивов и т.д. изъяли оборудование как военную добычу.

За самоотверженную борьбу с немецко-фашистскими оккупантами из 152 бойцов дивизии 45 награждены орденом «Золотая Звезда», 42 – орденами Мужества и «За воинскую службу». 17 женщин получили звание офицера. Беюкханум Мирджавадова и Рахима Аслан гызы Бабаева были среди тех, кто оставил автографы на стенах Рейхстага. Рахима Бабаева награждена медалями «За воинскую службу» за взятие Кавказа, Берлина и Германии.

416-я дивизия, участвовавшая в операции «Берлин», 20 апреля 1945 года захватила Клоссердорф и продолжила наступление в направлении Рейхстага. 2 мая 1945 года части дивизии водрузили флаг победы у Бранденбургских ворот.

С 20 апреля 1942 г. по 2 мая 1945 г. 416-я дивизия, прошедшая боевой путь от Кавказских гор до Берлина, за период с 30 сентября 1942 г. по 2 мая 1945 г. уничтожила 22 996 солдат и офицеров противника. Уничтожено 5474 человека, десятки танков и бронетехники, 195 пушек, 31 миномет, 210 тяжелых и 842 ручных пулемета, 4997 вин-

товок, 683 машины, 21 бронетранспортер, 800 огневых точек и 68 различных продуктов питания, боеприпасов были уничтожены.

30 августа 1943 года Таганрогская дивизия за отвагу при освобождении Таганрога была награждена орденом Красного Знамени. Восемь бойцов 416-й дивизии были удостоены звания Героев Советского Союза, 11 – орденом Ленина, 358 – орденом Трудового Красного Знамени, 3 – орденом Кутузова 2-го ранга, 47 – орденом Александра Невского, 540 – орденом «Отечественная война» 1-й степени, 1 756 – орденом «Отечественная война» II степени, 5 205 – значком «Золотая Звезда», 5 666 – орденом «За отвагу» и медалью «За воинскую службу». Всего со дня формирования дивизии до Дня Победы награждены различными орденами и медалями 14 369 человек.

В борьбе с фашизмом 121 гражданин Азербайджанской ССР (из них 43 азербайджанца) был удостоен звания Героя Советского Союза, Ази Асланов был дважды удостоен этого звания (1942 и 1991 годы), 30 человек (из них 15 человек азербайджанцы) были кавалерами трех орденов Ордена Славы. Говоря о героизме сынов Азербайджана, бывший Генеральный секретарь ЦК Коммунистической партии Советского Союза Л.И. Брежнев на торжественном собрании по случаю 50-летия Азербайджанской ССР в 1970 году сказал: «Тысячи бойцов из Азербайджана героически сражались против гитлеровской оккупации и были награждены, орденами и медалями СССР ....Народ хорошо помнит славные подвиги Героев Советского Союза Ази Асланова, Мехди Гусейнзаде, Исрафила Мамедова, Гафур Мамедова, Герай Асадова и многих других азербайджанцев».

Как только началась война, рабочие промышленных предприятий Азербайджанской ССР были мобилизованы в армию. На смену им пришли молодые люди без производственного опыта. Только на промышленных предприятиях Баку было трудоустроено около 70 тысяч молодых людей.

С первых дней войны из Баку на фронт возили нефтепродукты, оружие, боеприпасы и продовольствие, изготавливали знаменитые ракеты «Катюша». Выпускались истребители Як-3, танки и тяжелое вооружение.

В 1941-1945 годах в Баку было построено и сдано в эксплуатацию 63 новых нефтяных и химических предприятия. Произведено 100 наименований новой химической продукции, в том числе 36 наименований смазочных материалов, 26 наименований топлива и взрывчатых веществ, 9 наименований авиационного бензина, 8 наименований дизельного топлива различных марок. В конце 1942 года в Баку было произведено 130 видов оружия, боеприпасов, другой военной техники, предметов медицинского назначения и их сырья, хлорида

кальция, хлорида натрия, йодида калия, белого стрептоцида, шелковой нити, марли, хлопка, шприцов.

Всего в СССР в 1941-1945 гг. было добыто 110,6 млн. т. нефти. 75,2 млн. т., или 68 процентов, было произведено в Баку. Во время Второй мировой войны (1939-1945) СССР добыл 172 миллиона тонн нефти, из которых 118,9 миллиона тонн, или 69%, было поставлено из Баку.

В короткие сроки на базе самолета УТИ-4Б в Баку собрано 15 боевых вариантов Б типа УТИ-4. К январю 1942 года Бакинский завод выпустил 20 УТИ-4, а в феврале производство увеличилось вдвое. Спустя время истребители Як начали собирать в Баку. Отремонтировано и отправлено на фронт 782 различных типа самолетов.

Несмотря на то, что Азербайджанская ССР входила в состав СССР, как богатая нефтью страна, она занимала особое место в планах воюющих стран. По данным на 1938 год, в СССР было добыто 29.450 000 тонн нефти, из которых 21.500.000 тонн пришлось на долю Азербайджанской ССР. В 1939 году этот показатель увеличился и достиг 21,63 миллиона тонн, а в 1941 году – до 23,4 миллиона тонн. Поскольку начало Второй Мировой войны резко увеличило спрос на топливо, в какой-то момент Бакинская нефть рассматривалась как ключевой стратегический фактор, определяющий победу.

Весной 1941 года немцы создали специальный отдел – штаб Вестфалии – для организации эксплуатации Бакинских нефтяных месторождений. На собрании 16 июля 1941 года было заявлено, что «Бакинский район» должен быть «немецкой концессией». По плану «Фельми» датой взятия Баку было назначено 25 сентября 1942 года. Попытки нацистской Германии захватить Баку в 1942 году были частью этих планов.

Поскольку нацистская Германия высоко ценила роль Бакинской нефти в войне, план Вермахта заключался в захвате Кавказа и нефтяных регионов. Анализ военной литературы, карт боевых действий и донесений командиров свидетельствует о том, что гитлеровская Германия не забывала о Баку не только в первой половине войны, но и в ходе войны.

Бакинская нефть занимала особое место в военно-стратегических планах Франции и Великобритании. Когда гитлеровская Германия захватила Париж в июне 1940 года, на маленькой железнодорожной станции в Ла-Шарите немецкий капрал захватил секретный французский архив из Парижа, в том числе запись англо-французских переговоров. Из секретных документов французского штаба было понятно, что захват нефтяной промышленности Кавказа и Баку был одним из главных направлений в планах Франции и Великобритании.

Бытовало мнение, что если Советская Армия потерпит поражение в Сталинградской битве, Турция захватит Баку. После оккупации Баку в ходе операции «Большие клещи» немцы планировали захватить нефтяные месторождения Ирана и Ближнего Востока без турок. Однако не следует забывать, что если турки захватили бы Баку, ритм добычи нефти был бы нарушен во время боевых действий, могли бы возникнуть задержки в переработке и транспортировке нефти. А если бы Турция начала военные действия в 1942 году, во время Сталинградской битвы, выход ряда европейских стран из войны был бы для СССР незначительным. На наш взгляд, это было связано с политической завистью к Азербайджанской ССР и Бакинской нефти. Конечно, руководство СССР было в курсе всех планов. Иными словами, Баку был целью как союзников, так и Сталина, и были приняты ряд мер для защиты Кавказа.

В ходе саммита СНГ в Ашхабаде 11 октября 2019 года Президент Азербайджанской Республики Ильхам Алиев рассказал о вкладе Азербайджана в Победу в войне 1941-1945 годов, желании Гитлера захватить Баку и возведении в Армении памятника фашисту Гарегину Нжде. ... «На фронтах самой разрушительной и кровопролитной войны, а также в тылу наши народы проявили героизм и мужество, что является примером для будущих поколений. Азербайджан внес достойный вклад в победу над фашизмом. Более 600 тысяч сыновей и дочерей Азербайджана сражались на фронтах войны 1941-1945годов. Половина из них отдали свои жизни ради нашей общей победы». В своем выступлении президент также напомнил, что в то время Азербайджан снабжал топливом всю страну. На долю Азербайджана приходилось более 70 процентов нефти, 80 процентов бензина и 90 процентов моторных масел, необходимых для нужд фронта. «Без них Советская армия не смогла бы победить врага». Президент Азербайджанской Республики напомнил и о знаменитых кадрах военных новостей – Гитлеру принесли торт. На торте есть морская впадина, которая на немецком языке читается как «Каспийское море». В этой впадине есть жидкий темный шоколад и название «Баку». Гитлер берет ложкой шоколад и выливает его на торт, затем берет шоколад в виде креста и вонзает его в то место, где написано «Баку» Как мы знаем, у них также были планы захватить нефтяные месторождения Северного Кавказа. Освежая память участников встречи, Президент Азербайджанской Республики Ильхам Алиев сказал, что если бы нацисты захватили Баку, у Советской армии закончилось бы топливо. А Баку взлетел бы в воздух, так как в этой чрезвычайной ситуации Советское правительство заминировало все месторождения нефти, дабы они не достались противнику.

Президент Азербайджанской Республики подчеркнул, что в Азербайджане возводятся памятники погибшим на войне и большое внимание уделяется ветеранам войны. Объем литературы о событиях Великой Отечественной войны продолжает расти. К сожалению, нет контроля над многими публикациями, которые неверно истолковывают этот период. Журналы продолжают публиковать необоснованные материалы, особенно с целью получения финансовой выгоды. В статьях народы изображаются жертвами «большевистской дикости», отрицаются успехи, недооценивается роль азербайджанского народа в победе СССР и целенаправленно под тезисом «русификации» ведется пропаганда, подрывающая региональное сотрудничество. Даже в бывших советских республиках установлены памятники военным преступникам. Одна из таких республик – Армения. Открытие 28 мая 2016 года в Армении памятника Гарегину Нжде, ставленнику Гитлера, военному преступнику, осужденному советским судом, является доказательством любви Армении к фашизму. Армянские батальоны СС под руководством Нжде проводили операции против партизан, уничтожая евреев и цыган. 809-й армянский пехотный батальон был настолько активен в Украине и Польше, что Гицингер, командующий вермахтом на Украине, и генерал-майор Иген, командующий Восточной дивизией, высоко оценили его. Командир зонда “Дромедар”, входивший в состав армянского батальона СС, проводил разведывательно-диверсионные операции в тылу войск Северо-Кавказского фронта, в кратчайшие сроки уничтожая «зрелище». Короче говоря, отношения Гарегина Нжде с гитлеровским правительством были более тесными, чем у Бандеры и Шухевича.

Однако молчание органов государственной безопасности Российской Федерации, которым известны подробности вышеизложенного, раскрывает тайну. Однако, когда президент Республики Армения Серж Саргсян и нынешний премьер-министр Никол Пашинян стремились заключить союз с европейскими странами, стало ясно, что этот союз противоречит политике, проводимой правящими кругами Российской Федерации в регионе. Такой двойственный подход лишний раз доказывает, что политика соседней Российской Федерации в регионе, помимо недопущения урегулирования конфликта, также не заинтересована в обеспечении территориальной целостности Азербайджанской Республики. Руководству Российской Федерации хорошо известно, что Ереван, Гейча, Зангезур, Зангибасар, Гаракилса, Учкилса, Гюмри, Кавар и другие это древние азербайджанские земли, которые были очищены Кремлем от местных азербайджанцев.

В годы войны Азербайджан помогал победить не только нефтью. В конце 1941 года в Азербайджане было произведено 130 видов ору-

жия и боеприпасов. К 8 ноября 1941 года было складировано 35 000 ящиков бутылок с зажигательной смесью и 14.000 патронов, в результате чего производственная мощность достигла 10.000 бутылок в день. В 1942-1944 годах на фронт было отправлено 11 миллионов единиц боеприпасов. В июле 1942 года в Баку в рекордно короткие сроки был открыт новый завод №160 по производству гвардейских минометов, в народе известный как «Катюша». Химическая промышленность была организована в соответствии с требованиями войны. Производство товаров народного потребления было адаптировано к военным условиям. Работники местных производств и промышленных кооперативов включились в производство военно-сельскохозяйственной продукции.

Азербайджан был одним из важных узлов железнодорожного и водного транспорта страны. С октября 1941 года до конца года в сеть Бакинских железных дорог входили грузы, перевозившиеся с более чем 450 предприятий Ростова, Харькова, Одессы, Таганрога, Новороссийска и других городов. В Баку начала поступать новая партия в соответствии с трехсторонним соглашением, подписанным 1 октября 1941 года, а также применением в ноябре Закона США об аренде земли в СССР.

Каспийский морской транспорт играл важную роль в транспортной системе Азербайджана. Каспийский морской транспорт был представлен двумя департаментами – Каспийским морским пароходством (Каспфлот), занимающимся перевозками сухих грузов, и Каспийским нефтяным пароходством (Касптанкер), перевозящим нефть.

Одной из самых актуальных задач перед началом войны была замена ушедших на фронт. В 1941-1944 годах 12.560 рабочих нефтяной и хлопковой республики, страны передового сельского хозяйства и животноводства, страны изобилия были награждены орденами и медалями СССР.

Азербайджанский народ не пожалел средств для победы над фашизмом. В фонд обороны республики от населения было перечислено наличными денежными средствами 31.756.000 рублей, из которых 16.456.000 рублей перечислено населением Баку. 13.268.000 рублей государственных облигаций на сумму 30.765.000 рублей выкупили Бакинские рабочие. 14.872 грамма золота (из которых 5.152 грамма были подарены бакинцами), 985.943 грамма серебра (из них 187.076 граммов были подарены Бакинскими рабочими) и т. д .

Трудящиеся республики отправили на фронт 14 тысяч полушубков, 66 тысяч курток, более 33 тысяч пар войлочных туфель, 468 тысяч пар шерстяных носков, 338 тысяч пар шерстяных перчаток, 102 тысячи белых комплектов, всего 43 тысячи с шапками и без них. В 1941-1943

годах из Азербайджанской ССР в армию было отправлено 350 тысяч индивидуальных посылок на сумму 40 миллионов рублей.

Война поставила новые задачи перед наукой, образованием, литературой и искусством. Сохранение школьной сети, внедрение и расширение начального обязательного образования в сельской местности и 7-летнего обязательного образования в городских районах во время войны были важными вопросами. Одной из основных проблем являлось воспитание старшеклассников, идущих на работу добровольно, организация участия школьников и учителей в общенациональном движении в помощь фронтовикам, помещение детей – сирот, лишенных родительской опеки, в детские дома.

Война создала ряд трудностей в работе органов народного образования республики. В результате передачи ряда школьных зданий больницам и военным учебным центрам в них были организованы различные тренинги.

Во время войны большое внимание уделялось преподаванию русского языка. Не было забыто воспитание молодежи, работающей на производстве. Была расширена сеть вечерних крестьянских и молодёжных школ. Сеть профессионально-технического образования была эффективна в области подготовки квалифицированных кадров в годы войны. В центре внимания была работа, проводимая в области военно-патриотического воспитания школьников.

В годы войны продолжалась подготовка педагогических кадров. В целях повышения квалификации учителей и обеспечения нужд войны в 1941/1942 учебном году АПИ (ныне АГПУ) и Заочный Педагогический Институт были объединены с АГУ (ныне БГУ). Подготовкой учителей занимались специальные службы Азербайджанского Государственного Педагогического Института.

Азербайджанская наука организовала свою работу в соответствии с условиями войны. Азербайджанский филиал Академии наук СССР, его научно-исследовательские институты, университеты и в целом весь научный потенциал республики были подчинены целям военной службы.

Наши ученые – химики Ю.Г.Мамедалиев, В.С.Гутиря, А.М.Гулиев, А.Кудинов и др. высококвалифицированные специалисты нефтеперерабатывающей отрасли Р.Х.Исмайлова, М.А.Горелик, В.С.Алиев, А.А.Леаркин получили высокооктановый бензин, а также смазочные масла и запустили добычу в промышленных масштабах. М.А.Гашгай, А.Д.Султанов, физики (Х.И.Амирханов), наши математики И.Г.Есман, наши биологи (А.А.Гроссехайм). Ученые и специалисты, работающие в области сельского хозяйства. Наши ученые (Ф.А.Маликов, А.Агабейли, С.М.Гусейнов, И.Д.Мусафаев), наши врачи (М.А.Топчубашов,

М.А.Мир-Гасымов, В.А.Торнокрадский, Ф.А.Эфендиев, И.С.Кензбург, С.И.Абдуллаев) и др. Открытие, изобретение, однокомпонентное волокно и методы би В армию, непосредственно сражающуюся, для выполнения ее различных требований, в многогранную национальную экономику, созданную военными – промышленность, сельское хозяйство. Они оказали значительную помощь экономике, транспорту, связи и здравоохранению в военное время.

Ю.Мамедалиев и Х.Гутир были награждены орденом Ленина за активное участие в годы войны и деятельность по обеспечению фронта и народного хозяйства важной продукцией. Химики Ю.Мамедалиев, Х.Гутиря, М.Кардин, Л.Соловьев, А.Маркин удостоены Государственной премии. Десятки инженеров и рабочих-химиков награждены орденами и медалями. Создание в марте 1945 года Академии Наук Азербайджанской ССР стало победой азербайджанской науки.

В 1941 году в республике было создано 66 военных госпиталей. Санатории и дома отдыха в Нахчыване, Шуше, Нухе (Шеки), Гаджиканде, Мардакяне и Бузовне были преобразованы в военные госпитали. Военные госпитали размещались в Азербайджанском Государственном Университете, Академии Наук Азербайджана, Азербайджанском Государственном Педагогическом Институте им. В.И.Ленина (ныне АДПУ), Доме культуры им. Шаумяна и Консерватории.

В годы войны донорское движение в республике расширилось. За 1941-1945 гг. На фронт было отправлено 41 609 литров крови для раненых солдат и приготовлено 7 229 литров кровезаменителей. Во время войны донорами стали 149 170 граждан республики.

В январе 1942 года был создан Комитет помощи раненым солдатам и больным под председательством доктора медицинских наук, профессора Азиза Алиева.

С первых дней войны писатели, произносившие пламенные речи на мобилизационных митингах и митингах, разъясняли сущность фашизма, указывали на совершаемые ими зверства и призывали народ к борьбе. В ожесточенных боях за Кавказ – осенью 1942 года с С.Вургуном, С.Рустамом, М.Рахимом, Р.Рза, Х.Мехди, З.Халилом, Мамедом Акбаром, А.Мамедханлы были вместе с бойцами. М.Рахим, С.Рустам, О.Саривалли, З.Халил, Т.Аюбов и другие длительное время находились на южном фронте вместе с защитниками Севастополя и Керчи.

В годы войны произведения композиторов и музыкантов, призывающих к беспощадной борьбе и писавших на тему патриотизма, стали близкими друзьями тыла и фронта. «Сенсиз», «Севгили канан», «Гнев» А.Бадалбейли народа в соавторстве с Б.Зейдманом, опера Ниязи «Хосров и Ширин», Симфонические произведения «В бою», произведение С.Рустамова «Любовь к фронту», песни «На фронт», «Впе-

ред», «Газель», «Гимн героев», песни Агабаджи Рзаевой «Джанги», «Ватан нагмеси», «Дильберим», «Гозлерин» – произведения военного периода.

«Ватан-опера» (либретто И.Хидаджатзаде) в постановке Гара Гараева и Джовдата Гаджиева, студентов Московской консерватории во время войны, была удостоена Государственной премии в 1946 году.

Наши художники создали «портретную галерею» героев войны. Среди экспонатов этой галереи – копии таких героев войны, как Камал Гасымов, Исрафил Мамедов, Идрис Сулейманов, Гусейн Алиев, Мазахир Аббасов, Новруз Асланов, Аждар Маниев.

В годы войны артисты Ф.Абдурахманов, К.Казимзаде, П.Топчубашова и А.Гаджиев были удостоены звания «Заслуженный деятель искусств Азербайджанской ССР», Ф.Абдурахманов, Н.Фатуллаев, Л.Каримова награждены орденами, более 40 художников награждены медалями и почетными грамотами.

Кинематографисты нашей республики часто бывали на боевых позициях и снимали быт солдат на фронте. Среди закавказских кинематографистов, выехавших на Крымский фронт в 1942 году, были азербайджанские кинематографисты В.Еремеев, М.Мустафаев, операторы К.Гасанов, А.Алекперов и другие.

Среди фильмов-очерков, созданных в годы войны: «За Родину» А.Гасанова, «Забота» режиссера М.Мустафаева и режиссера А.Гулиева, фильм-очерк «Братская помощь» режиссора И.Эфендиева и оператора С.Бадалова. режиссора А.Дадашова, кинооператоров В.Еремеева и Л.Корески о помощи азербайджанского народа в освобождении Ставрополя были успешной творческой работой.

Азербайджанские театры, одно из важнейших направлений азербайджанского искусства, в годы войны функционировали эффективно и целенаправленно.

В годы войны в Азербайджанском государственном драматическом театре имени М.Азизбекова вместе с опытными и профессиональными артистами, такими как Мирзаага Алиев, Марзия Давудова, Сидги Рухулла, Казим Зия, Алескер Алекперов, Фатьма Гадри, Мустафа Марданов, Али Гурбанов работали также и молодые специалисты такие как Хокума Гурбанова, Исмаил Дагестанлы, Исмаил Османлы, Барат Шакинская, Мохсун Санани, Сулейман Тагизаде, Аждар Султанов, Лейла Бадирбейли, Маджид Шамхалов.

Истинным творцом и героем победы над немецким фашизмом во Второй мировой войне является народ. Среди этих народов азербайджанский народ занимает одно из славных мест.

Накануне распада СССР народ Азербайджана, внесший важный вклад в победу над фашизмом, столкнулся с армянским фашизмом. С

помощью зарубежных покровителей Республики Армения оккупировала 20 процентов земель Азербайджана. Группа ОБСЕ, созданная для урегулирования армяно-азербайджанского Нагорно-Карабахского конфликта, длившегося более 30 лет, не действовала. Исходя из деятельности Российской Федерации как сопредседателя Минской группы, можно сказать, что правящие круги России являются творцами конфликта и до сих пор не хотят влиять на урегулирование. Правящие круги Российской Федерации, которые когда-то знали армян, которые вели фашистскую пропаганду против СССР и вступили в союз с нацистской Германией для разгрома СССР, не возвысили свой голос, когда был установлен памятник фашистскому предателю Гарегину Нжде в центре Еревана. Установка памятника Гарегину Нжде показала, что расизм и фашизм являются государственной политикой Армении.

За последние 30 лет народ Азербайджана продемонстрировал свою приверженность мирному урегулированию конфликта в рамках международного права. Несмотря на несколько антиармянских резолюций в ООН, Армения при поддержке США, России и Франции «законсервировала» конфликт. Минская группа ОБСЕ, созданная для того, чтобы навязать Азербайджану принятие статус-кво, созданного политикой Армении, на протяжении 28 лет не смогла решить проблему с помощью «челночной дипломатии». Даже пять резолюций, принятых Советом Безопасности ООН и Генеральной Ассамблеей, а также резолюции и решения, принятые ПАСЕ и самой ОБСЕ, остались на бумаге. Подземные и наземные ресурсы Азербайджана были разграблены, и армяне из разных уголков мира начали переселяться в Нагорный Карабах и его окрестности. В период с 1988 по 1994 год оккупированный Нагорно-Карабахский регион Азербайджана и семь прилегающих к нему районов на 26 лет превратились из процветающей страны в «серую зону». Освободив большую ее часть от оккупации всего за 44 дня, Азербайджан разрушил «миф о непобедимости» вооруженных сил Армении. Бывшее руководство Армении извлекло очень серьезный «урок» из боевых действий в апреле 2016 года, то есть осознало, на что способен Азербайджан в случае войны, но Н.Пашинян, новичок в политике, который «легко» заполучил власть в свои руки, при поддержке Сороса Пашинян решил не урегулировать Нагорно-Карабахский конфликт, а сохранить статус-кво за счет оккупации новых территорий. По этой причине правительство Н.Пашиняна является главным инициатором и причиной Второй карабахской войны.

В 44-дневной Отечественной войне, которая началась в сентябре 2020 года с контрнаступления и навсегда останется в памяти нашего народа, азербайджанская армия уничтожила армию военных преступников Кочаряна и Саргсяна которые много лет руководили Армением.

Через день после Физули, Гадрута, Джебраила, Зангилана, Губадлы, Шуши от оккупации были освобождены более 70 деревень и более 300 населенных пунктов. Одно только освобождение г. Шуши является ярким примером силы азербайджанского народа, профессионализма армии, мужества и героизма военных. Победа Азербайджана также положила конец армянским мифам. Бои, продолжавшиеся до 10 ноября, закончились капитуляцией Республики Армения.

Бои, идущие вплоть до 10 ноября, завершились безоговорочной капитуляцией Армении. 10 ноября Президенты России Владимир Путин, Президент Азербайджанской Республики Ильхам Алиев и Премьер – министр Республики Армения Никол Пашинян подписали Декларацию из девяти пунктов о прекращении боевых действий.

8 ноября – день освобождения Шуши и 10 ноября – день окончания Великой Отечественной войны вошли в историю Азербайджана.

ƏLAVƏLƏR

İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN ƏSAS HADİSƏLƏRİNİN XRONOLOGİYASI

1939-cu il

1 sentyabr – Almaniyanın Polşaya hücumu. İkinci dünya müharibəsinin başlanması.

3 sentyabr – İngiltərə, Fransa, Avstraliya, Yeni Zelandiya və Hindistanın Almaniyaya müharibə elan etməsi.

5 sentyabr – ABŞ hökumətinin müharibədə bitərəf olması haqqında Bəyanatı.

6 sentyabr – Cənubi Afrika İttifaqının Almaniyaya müharibə elan etməsi.

10 sentyabr – Kanadanın Almaniyaya müharibə elan etməsi.

15 sentyabr – SSRİ, MXR və Yaponiya arasında Xalxin – Qol çayı rayonunda hərbi əməliyyatların kəsilməsi haqqında razılaşmanın imzalanması.

1-2 noyabr – SSRİ Ali Sovetinin I sessiyasının Qərbi Ukrayna və Qərbi Belarusiyanın SSRİ tərkibinə daxil etməsi və onların Ukrayna SSR və Belarusiya SSR-lə birləşdirilməsi.

4 noyabr – ABŞ konqresinin müharibə edən ölkələrə silah və hərbi materiallar verilməsi barədə bitərəflilik haqqında qanuna dəyişikliyi qəbul etməsi.

1940-cı il

9 aprel – Alman qoşunlarının Danimarka və Norveçə soxulması.

10 may – Vermaxtın Fransa, Belçika və Hollandiyaya daxil olması.

27 may – 4 iyun – Dünker altında ingilis-fransız qoşunlarının təxliyəsi.

10 iyun – Alman-faşist qoşunları tərəfindən Norveçin işğalının başa çatması.

22 iyun – Fransanın təslim olması. Almaniya və Fransa arasında Kompüyendə barışıq imzalanması.

28-30 iyun – Bessarabiyanın və Şimali Bukovinanın Sovet İttifaqına birləşdirilməsi.

21-22 iyul – Latviya, Litva və Estoniyada Sovet hakimiyyətinin bərpası. Latviya, Litva və Estoniya Sovet Sosialist Respublikalarının yaranması.

2 avqust – Moldaviya Sovet Sosialist Respublikasının yaranması.

5 dekabr – Çin Xalq Azadlıq Ordusunun yapon işğalçılarına qarşı mübarizəsi (“Yüz polkun döyüşü”).

22 sentyabr – Finlandiyanın SSRİ-yə qarşı təcavüzdə iştirakı haqqında Almaniya-Finlandiya hərbi razılaşması.

23 sentyabr – Yapon qoşunlarının Hindçinə müdaxiləsi. Hindçin xalqlarının yapon işğalçılarına qarşı mübarizəsinin başlanması.

27 sentyabr – Berlində Almaniya, İtaliya və Yaponiya arasında "Üçlər paktı"nın imzalanması.

28 oktyabr – Faşist İtaliyası silahlı qüvvələrinin Yunanıstana müdaxiləsi.

20-24 noyabr – Macarıstan, Rumıniya və Slovakiya hökumətlərinin "Üçlər paktı"na qoşulması.

9 dekabr 1940-cı – 10 fevral 1941-ci il – İngilis qoşunlarının Şimali Afrikaya hücumu.

18 dekabr – Hitlerin SSRİ-yə qarşı ("Barbarossa" planı) müharibə haqqında 21 №-i Direktivin imzalaması.

1941-ci il

15 yanvar – 18 may – İngilis qoşunlarının Şərqi Afrikaya hücumu

1 mart – Bolqarıstanın "Üçlər paktı"na qoşulması.

11 mart – ABŞ konqresində "Lend-liz" haqqında qanunun qəbul edilməsi.

5 aprel – "Dostluq və hücum etməmək haqqında" sovet-Yaponiya müqaviləsinin imzalanması.

13 aprel – SSRİ və Yaponiya arasında bitərəflilik haqqında paktın bağlanması.

6-29 aprel – Almaniya və İtaliya qoşunlarının Yuqoslaviyanı işğal etməsi

20 may-iyun – Alman-faşist qoşunlarının Krit adasını tutması.

22 iyun – Almaniyanın SSRİ-yə hücumu – faşist İtaliyasının SSRİ-yə müharibə elan etməsi.

– SSRİ Ali Soveti Rəyasət Heyətinin "Hərbi mükəlləfiyyətlilərin səfərbərliyi haqqında", "SSRİ-nin ayrı-ayrı yerlərində hərbi vəziyyət elan olunması haqqında", "Hərbi vəziyyət haqqında" fərmanları.

– Fransa, Yuqoslaviya və Bolqarıstan KP MK-nın Sovet İttifaqının faşizmə qarşı mübarizəni müdafiə etməsi barədə öz ölkələrinin xalqlarına müraciəti.

– Hitler Almaniyasına qarşı müharibədə Sovet İttifaqını müdafiə etmək haqqında ingilis hökumətinin Bəyanatı.

22 iyun – 20 iyul – Brest qalasının qəhrəman müdafiəsi.

23 iyun – "SSRİ Silahlı Qüvvələrinin Ali Baş Komandanlığı Qərargahının (10 iyuldan-Ali Baş Komandanlıq; 8 avqustda "Ali Baş Komandanlıq Qərargahı") yaradılması haqqında" SSRİ XKS və ÜİK (b)P MK-nın qərarı.

24 iyun – ABŞ-ın müharibədə SSRİ-ni müdafiə etmək haqqında Bəyanatı.

30 iyun – Dövlət Müdafiə Komitəsinin (DMK) yaradılması.

3 iyul – DMK-nin sədri Stalinin xalqa müraciəti.

10 iyul – 10 sentyabr – Smolensk döyüşü.

10 iyul 1941 – 13 yanvar 1944 – Leninqradın qəhrəmancasına müdafiəsi.

11 iyul – 19 sentyabr – Kiyevin qəhrəmancasına müdafiəsi.

12 iyul – SSRİ və İngiltərə hökuməti arasında faşist Almaniyasına qarşı birgə hərəkət haqqında razılaşmanın imzalanması.

18 iyul – Arxa cəbhədə alman qoşunları ilə mübarizənin təşkili haqqında ÜİK(b)P MK-nın qərarı.

14 avqust – Atlantika xartiyasının imzalanması.

24 sentyabr – SSRİ-nin Atlantika xartiyasına qoşulması.

28 sentyabr – 01 oktyabr – SSRİ, İngiltərə və ABŞ nümayəndələrinin Moskva konfransı.

07 noyabr – ABŞ-ın "Lend-liz" haqqında qanunun Sovet İttifaqına şamil edilməsi barədə qərarı.

05 dekabr-Sovet qoşunlarının Moskva altında əks-hücuma keçməsi

07 dekabr – ABŞ-ın müharibəyə qoşulması

1942-ci il

07 yanvar – Vaşinqtonda faşist blokuna qarşı müharibə haqqında 26 dövlətin Bəyannaməsinin imzalanması.

04-06 iyun – Sakit okeanın Miduey adası yaxınlığında ABŞ donanmasının yaponlara qarşı döyüşləri. Əsaslı dönüşün ilk addımları.

17 iyul – 02 fevral 1943 – Stalinqrad döyüşü.

17 iyul – 02 fevral 1943 – Stalinqrad döyüşü.

25 iyul – 9 oktyabr 1943 – Qafqaz uğrunda döyüş.

23 avqust – Zaqafqaziya xalqlarının Tbilisidə antifaşist mitinqinin keçirilməsi.

23 oktyabr – 04 yanvar – Əl-Ələmeyn döyüşü.

12-15 noyabr – ABŞ və Yaponiya donanması arasında Quadakanal adasında döyüş.

14 dekabr – Efiopiyanın Almaniya, İtaliya və Yaponiyaya müharibə elan etməsi.

1943-cü il

12-18 yanvar – Sovet qoşunlarının Leninqradın mühasirəsini yarması

14-24 – yanvar – ABŞ və İngiltərə hökumət başçılarının Kasablanka (Mərakeş) konfransı.

17 mart – 13 may – İngilis-amerikan silahlı qüvvələrinin Tunis hücum əməliyyatı. Şimali Afrikada hərbi əməliyyatların başa çatması.

07 aprel – Boliviyanın Almaniya, İtaliya və Yaponiyaya müharibə elan etməsi.

12-25 may – ABŞ və İngiltərə dövlət başçılarının Vaşinqton konfransı

05 iyul – 5 avqust – Kursk döyüşü.

iyul 1942 – oktyabr 1943 – Qafqaz uğrunda döyüşlər.

14-24 avqust – ABŞ və İngiltərə dövlət başçılarının birinci Kvebek konfransı.

22 avqust – Braziliyanın Almaniya və İtaliyaya müharibə elan etməsi

25 avqust – 23 dekabr – Dnepr uğrunda döyüşlər.

03 sentyabr – ABŞ və İngiltərənin İtaliya ilə barışıq imzalaması

08 sentyabr – İtaliyanın təslim olması.

09 sentyabr – SSRİ Ali Soveti Rəyasət Heyətinin Zaqafqaziyada hərbi vəziyyət elan olunması haqqında fərmanı.

16 sentyabr – Albaniyada milli-azadlıq cəbhəsinin yaradılması.

03 oktyabr – İtaliyanın danışıqsız təslim aktını imzalaması.

13 oktyabr – İtaliyanın Almaniyaya müharibə elan etməsi.

19-30 oktyabr – SSRİ, ABŞ və İngiltərə xarici işlər nazirlərinin Moskva konfransı.

28 noyabr – 01 dekabr – ABŞ, İngiltərə və SSRİ dövlət başçılarının Tehran konfransı.

03-07 dekabr – ABŞ və İngiltərə rəhbərlərinin ikinci Qahirə konfransı.

1944-cü il

Yanvar 1944-1945-ci il sentyabr – İkinci dünya müharibəsinin son mərhələsi.

24 aprel – 77-ci Azərbaycan milli atıcı diviziyasına "Simferopol" fəxri adının verilməsi və 2-ci dərəcəli "Suvorov" ordeni ilə təltif edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı.

1 may – "Qafqazın müdafiəsi uğrunda" medalının təsis edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı.

18 may – Krım tatarlarının sürgün edilməsi.

06 iyun – Avropada ikinci cəbhənin açılması.

03 iyul – Minskin azad edilməsi.

01 avqust – 02 oktyabr – Varşavada üsyan.

28 sentyabr – Vaşinqton yaxınlığında Dumbarton-Oks malikanəsində sülh və təhlükəsizliyi qorumaq məqsədilə beynəlxalq təşkilatın (BMT) yaradılmasına dair konfrans.

23 avqust – Rumıniyada antifaşist silahlı üsyanı.

29 avqust – 27 oktyabr – Slovak Milli üsyanı.

03-07 sentyabr – Antverpendə silahlı üsyan.

11-16 sentyabr – ABŞ və İngiltərə hökumət başçılarının ikinci Kvebek konfransı.

15 sentyabr – Sovet qoşunlarının Sofiyaya daxil olması.

16 dekabr – Alman-faşist qoşunlarının Ardendən əks-hücuma keçməsi.

1945-ci il

12 yanvar – Sovet qoşunlarının bütün cəbhə boyu hücuma keçməsi.

23 yanvar – Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi.

04-11 fevral – SSRİ, ABŞ və İngiltərə hökumət başçılarının Krım (Yalta) konfransı.

31 mart – Azərbaycan SSR Elmlər Akademiyası həqiqi üzvlərinin ümumi iclasında akademik M.Mirqasımovun prezident seçilməsi.

16 aprel – 02 may – Berlin əməliyyatı.

25 aprel – 26 iyun – San-Fransisko konfransı. BMT Nizamnaməsinin qəbul edilməsi.

30 aprel – Hitlerin intihar etməsi.

02 may – Berlinin alınması.

08 may – Almaniyanın danışıqsız təslim olması barədə aktın imzalaması.

9 may – Qələbə günü.

16 iyul – ABŞ-da atom bombasının ilk dəfə sınaqdan keçirilməsi.

17 iyul – 02 avqust – SSRİ, ABŞ və İngiltərə hökumət başçılarının Potsdam konfransı.

06 avqust – ABŞ tərəfindən Yaponiyanın Xirosima şəhərinə atom bombasının atılması.

08 avqust – SSRİ-nin Yaponiyaya müharibə elan etməsi.

09 avqust – ABŞ-ın Yaponiyanın Naqasaki şəhərinə atom bombası atması.

02 sentyabr – Yaponiyanın danışıqsız təslim olma haqqında aktı imzalaması.

03 sentyabr – Təbrizdə Azərbaycan Demokratik Firqəsinin yaradılması.

24 oktyabr – BMT Nizamnaməsinin qüvvəyə minməsi.

12 dekabr – Güney Azərbaycanda Milli hökumətin yaradılması ("21 Azər" hərəkatı).

Vermaxtın 1939-1941-ci il kampaniyalarının p l a n l a r ı

1936-1945-ci illərdəki əməliyyatların kod adları

Acbse (Ox) – İtaliyanın işğal olunması planı, 1943-cü il.

Alaricb ("Alarix") – "Achce" planının ən ilkin versiyası.

Alpenveilcbec (“Alp bənövşəsi”) – Albaniyanın ələ keçirilməsi planı.
Anton – “Atilla” planının ikinci kod adı, 1942-ci il.
Atilla – Fransanın tam işğal edilməsi planı, 1942-ci il.
Barbarossa – SSRİ-yə qarşı müharibə planı (ilkin adı Oldenburq, Barbarossadan əvvəlki adı Fritz (“Frits”) –1940-cı il.
Blau – (“Göy”) – Şərq cəbhəsində 1942-ci ilin yay kampaniyası planı.
Blanfucbs – (“Göy tülkü”) – Finlandiyanın hərbi əməliyyatlar planı.
Blucber – (“Blyuxer”) – Krımdan Qafqaza hücum planı, 1942-ci il.
Braunsebveiq – (“Braynşveyq”) – Cənub orduları qrupunun Qafqaza hücum planı,1942-ci il
Edelveiss (“Edelveys”) – Bakının ələ keçirilməsi planı, 1942-ci il.
Felix (“Feliks”) – Gibraltarın ələ keçirilməsi planı, 1940-1941-ci illər.
Fenerzauber – (“Seb(h)rli od”) “Nordlicht” planının ilkin versiyası.
Fritz – (“Frits”) – SSRİ-yə qarşı müharibə planı (sonda “Barbarossa” adlandırıldı), 1940-cı il.
Grun (“Yaşıl”) – Çexoslovakiyanın işğal edilməsi planı, 1939-cu il.
Hartmut (“Hartmut”) – Danimarka və Norveçə müdaxilə planı, 1939-cu il.
Himmler (“Himmler”) – Qleyviçdə sərhəd toqquşması, 1939-cu il.
İlona (“İlona”) – İspaniya və Portuqaliyaya hücum planı.
İzabella (“İzabella”) – İlona planının ən ilkin versiyası, 1941-ci il.
Jolka (“Volka”) – İsveçin işğal olunması planı.
Kriembild (“Krimbild”) – Kubandan geri çəkilmə planı.
Veys (“Weiss-ağ”) – Polşaya hücum planı –1939-cu il.
Gelb (“Gelb-sarı”) – Qərbdə hücum planı – 1940-cı il.
Zeeleve (“Seeleve-Dəniz şir”i) – İngiltərəyə müdaxilə – 1940-cı il.
Marita – Balkan kampaniyası, 1941-ci il.
Marita (“Marita”) – Yuqoslaviya və Yunanıstana hücum planı, 1941-ci il.
Merkur (“Merkuri”) – Kit adasını ələ keçirmə planı, 1941-ci il.
Nordlicbt (“Şimal dünyası”) – Leninqradın ələ keçirilməsi planı, 1942-ci il.
Otto (“Otto”) – Avstriyanın III Reyxə birləşdirilməsi, (“anşlüz”).
Taifun (“Tayfun”) – Moskvanın işğal planı, 1941-ci il.
Zitadella (“Bürc”) – Kursk qövsündə hücum planı, 1943-cü il.

MƏNBƏ: C.Sultanov. Bakı nefti dünya Şahmat taxtasında. 1939-1945-ci illər (Rus dilindən tərcümə) / Çapay Sultanov – Bakı: TEAS Press Nəşriyyat evi, 2016, 564 s., – s.213-214.

Azərbaycan 1941-1945-ci illər müharibəsində əsas hadisələrin Xronologiyası

1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində

Qələbənin 50 illiyinə həsr edilmiş təntənəli gecədə Ümummilli lider Heydər Əliyevin nitqi

Hörmətli veteranlar, Böyük Vətən müharibəsinin qəhrəmanları! Sizi İkinci dünya və 1941-1945-ci illər müharibəsində Hitler faşizmi üzərində qələbə çalınmasının 50 illik yubileyi münasibətilə təbrik edirəm, hamınıza cansağlığı, uzun ömür, səadət və bütün işlərinizdə uğurlar arzulayıram!

İkinci dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə olmuşdur. Bu müharibə milyonlarla insanın həlak olmasına, şəhərlərin və ölkələrin dağıdılmasına gətirib çıxarmışdır. İkinci Dünya müharibəsində, 1941-1945-ci illər Böyük Vətən müharibəsində Hitler faşizmi üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının, xalqımızın, respublikamızın vətəndaşlarının böyük rolu olmuşdur. Məhz buna görə bu günlər qələbənin 50 illik yubileyini böyük iftixar hissi ilə qeyd edir və onu xalqımız üçün, müstəqil Azərbaycan dövləti üçün böyük bayram hesab edirik.

Müharibənin ilk günlərindən Azərbaycan xalqı, respublikamızın vətəndaşları da Hitler faşizminə qarşı döyüşlərə başladılar. Müharibənin ilk günlərində 40 min nəfərdən artıq Azərbaycan vətəndaşı könüllü olaraq cəbhəyə getməyə yazıldı. Həmin dövrdə 180 min adam xalq ordusuna yazılmışdır. 1941-1945-ci illərdə və ondan da qabaq Azərbaycanın oğul və qızları döyüşlərdə vuruşmuş, böyük rəşadət və qəhrəmanlıqlar göstərmişlər. Həmin illərdə Azərbaycan Respublikasından 700 min nəfərə qədər adam cəbhəyə getmişdir. Onlardan 300 min nəfəri həlak olmuşdur. Azərbaycanlılar, bizim respublikadan cəbhəyə gedənlər igidliklə vuruşmuş, alman faşizminə qarşı müharibənin son gününə qədər amansız və cəsarətli mübarizə aparmış, qəhrəmanlıq nümunələri göstərərək qələbənin əldə olunmasına öz paylarını vermişlər.

Respublikamızın on minlərlə vətəndaşı, azərbaycanlılar döyüşlərdə fərqləndiklərinə, qəhrəmanlıq göstərdiklərinə görə yüksək orden və medallarla təltif edilmişlər. Azərbaycandan cəbhəyə getmiş, döyüşlərdə qəhrəmanlıq göstərmiş 130 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Vətəndaşlarımızın bir qismi müharibədən əlil və şikəst qayıtmış, sonralar bunun nəticəsində də həyatdan getmişdir. Bu gün bizim aramızda müharibənin ağrılarını və dərdlərini öz üzərlərində daşıyanlar da çoxdur. Bir sözlə, Hitler faşizminə qarşı müharibədə Azərbaycan xalqı, respublikamızın vətəndaşları qəhrəmanlıq, şücaət göstərmiş və tariximizə çox dəyərli səhifə yazmışlar.

Müharibənin uğurla aparılmasında və düşmən üzərində qələbə çalınmasında Azərbaycan Respublikasının xidmətləri arxa cəbhədə görülmüş işlərlə də bağlıdır. Müharibənin ilk günlərindən Azərbaycan Respublikasının bütün şəhər və kəndlərində, hər bir iş yerində insanlar qələbə naminə gecə və gündüz çalışmışlar.

Bu qələbənin çalınmasında Azərbaycanın xüsusi rolu bir də ondan ibarətdir ki, Azərbaycan Respublikasının nefti o vaxtlar həmin müharibənin uğurla aparılması üçün ən mühüm amillərdən biri olmuşdur. Həmin dövrdə Sovetlər İttifaqında çıxarılan neftin 70 faizi Azərbaycanda hasil edilirdi. Bu qədər neft Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində istehsal olunurdu. Şübhəsiz, nəticə çıxarmaq çətin deyil ki, əgər Azərbaycan nefti olmasaydı, motorlar müharibəsi, texnika müharibəsi o qədər uğurlu və müvəffəqiyyətli ola bilməzdi. Azərbaycan neftçiləri gecə-gündüz neftin çıxarılması, emal olunması və çətin yollarla cəbhəyə göndərilməsi ilə məşğul idilər. Onların hər biri bu yolda canlarını qoyaraq faşizm üzərində qələbə çalınmasında səy göstərirdi. O vaxtlar Azərbaycan alimləri tərəfindən yüksək keyfiyyətli benzin, kerosin və başqa neft məhsulları ixtira olunaraq respublikamızda istehsal edilirdi. Azərbaycan Respublikasının sənaye müəssisələri, xüsusən maşınqayırma zavodları silah və sursat istehsalı ilə məşğul idi. Müharibə dövründə Azərbaycanda 130 növ silah və sursat istehsal olunaraq cəbhəyə göndərilirdi.

Beləliklə, Azərbaycan Respublikasının vətəndaşları, canlılar bu qələbənin çalınması üçün həm bilavasitə döyüşlərdə, həm də arxa cəbhədə çox işlər görmüş, böyük fədakarlıq nümayiş etdirmişlər.

Azərbaycanda 416-cı Taqanroq, 223-cü Belqrad, 77-ci Simferopol diviziyaları təşkil olunmuşdur. Şəxsi heyətinin əksəriyyəti azərbaycanlılar olan bu diviziyalar Azərbaycandan, Qafqaz dağlarından döyüşə-döyüşə Berlinə qədər gedib çıxmış və qələbənin əldə olunmasına öz paylarını vermişlər.

Mən böyük məmnuniyyət hissi ilə deyə bilərəm ki, 416-cı Taqanroq diviziyasının qəhrəmanlığını əbədiləşdirmək üçün Rostov vilayətində bu diviziyanın döyüş şücaətinə böyük abidə ucaldılmışdır. Bu abidəni Rusiya torpağında məhz Azərbaycan Respublikası, xalqımız yüksəltmişdir.

Krımda, Sapun dağında 77-ci Simferopol diviziyasının qəhrəmanlığını əbədiləşdirmək üçün böyük abidə qoyulmuşdur. Bunu da Azərbaycan Respublikası etmişdir.

Böyük Vətən müharibəsində qəhrəmanlıq göstərib həlak olmuş adamlara Azərbaycan Respublikasının hər yerində abidələr ucaldılmış, xatirə lövhələri vurulmuşdur. Onlar daim bizim qəlbimizdədir.

Biz bu gün qələbə bayramının 50 illiyini respublikamızın həyatında fəal işlər görmüş və indi bizimlə birlikdə olan insanlarla qeyd edirik. Mən çox sevinc hissi keçirirəm ki, bizim bu Respublika sarayının salonunda

sinələrində orden və medallar, qəhrəmanlıq nişanları olan veteranlar toplaşıblar. Yarım əsr bundan öncə qələbə çalıb, daha 50 il yaşayıb və bu gün qələbənin 50 illiyini bayram etmək böyük xoşbəxtlikdir. Bu xoşbəxtlik sizə nəsib olubdur. Mən bu münasibətlə sizi xüsusi təbrik edirəm. Bu müharibə haqqında çox danışmaq olar. Ancaq bu gün buna ehtiyac yoxdur. Çünki buraya toplaşanların əksəriyyəti həmin müharibəni görmüş adamlardır. Gənclərimiz isə kitablardan və filmlərdən həmin müharibənin nə qədər dəhşətli olduğunu, digər tərəfdən, insanların qəhrəmanlıq zirvəsinə yüksəldiyini bilirlər. Bu müharibədə insanlar qəhrəmanlıq və rəşadət göstərməklə yanaşı, bir-biri ilə daha sıx yaxınlaşıb dost olmuşlar.

Həmin müharibədə müxtəlif millətlərin nümayəndələri iştirak etmişlər. O vaxt Sovet İttifaqının tərkibində olan respublikaların, xalqların, millətlərin hamısının nümayəndələri bu müharibədə iştirak etmiş və bu insanlar cəbhədə, döyüş meydanlarında, səngərlərdə bir-biri ilə daha da yaxınlaşmış, dost olmuşlar. Bu dostluq bizim bu günümüz və gələcəyimiz üçün çox lazımdır.

Qələbənin əldə olunmasında dünya xalqlarının, mütərəqqi qüvvələrin əvəzsiz rolu vardır. 1941-1945-ci illər Böyük Vətən müharibəsində qələbədə rus xalqının rolu yüksək qiymətə layiqdir. Rusiya Federasiyası xalqlarının, keçmiş Sovet İttifaqında yaşayan xalqların hər birinin bu müharibədə Hitler faşizmi üzərində qələbə çalınmasında fəaliyyəti və rolu var. Ona görə də bu gün burada, müstəqil Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində, qələbənin 50 illiyini qeyd edərkən mən xalqımız adından, buraya toplaşmış veteranlarımızın adından keçmiş Sovet İttifaqının bütün respublikalarının xalqlarına, rus xalqına Azərbaycan xalqının salamını, təbriklərini göndərirəm və onların hər birinə uğurlar arzulayıram.

İkinci dünya müharibəsində Hitler faşizmi üzərində qələbə faşizm əleyhinə qalxmış bütün dünya xalqlarının, dövlətlərinin ümumi və birgə səyi nəticəsində əldə olunmuşdur. Məlumdur ki, o vaxtlar əsas qüvvə "Böyük koalisiya" – Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Fransa idi. Onların birgə fəaliyyəti və faşizm əleyhinə koalisiyası bu qələbənin qazanılmasında xüsusi yer tutur.

Avropa ölkələrinin müqavimət hərəkatları, faşizm əleyhinə qalxmış insanlar, siyasi qüvvələr, döyüşçülər fədakarlıq göstərmiş, özlərini qurban verərək faşizmin qarşısını almış və onun məhv olmasına öz paylarını vermişlər. Ona görə də bu gün qələbənin 50 illiyini qeyd edərkən bütün dünya xalqlarına Azərbaycan xalqının səmimi salam və təbriklərini çatdırıram. Xüsusən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya və Fransa xalqlarına Azərbaycan xalqı adından salamlar və təbriklər göndərirəm.

İkinci dünya müharibəsinin, Böyük Vətən müharibəsinin qurtarmasından 50 il keçibdir. Bu 50 il Azərbaycan xalqının tarixində böyük və görkəmli yer tutur. Ötən 50 ildə onun müəyyən, indi bizim üçün ümumi olma-

yan cəhətləri ilə yanaşı, Azərbaycan xalqının həyatında böyük dəyişikliklər əmələ gəlmişdir.

Ümumiyyətlə, bu dövrdə dünyada bir çox dəyişikliklər olmuş, böyük proseslər getmişdir. Azərbaycan xalqı bu 50 ildə böyük, şərəfli yol keçmişdir. Həmin illərdə, Azərbaycan Respublikasının böyük iqtisadi, elmi, mədəni potensialı, geniş təhsil sistemi yaranmış və bu gün respublikamız ötən 50 il ərzində əldə etdiyi nailiyyətlərin əsasında yaşayır və irəli gedir. Əgər bu gün desək səhv etmərik ki, faşizm üzərində qələbədən sonra xalqımızın keçdiyi yol Azərbaycanın gələcək milli azadlığına, müstəqilliyinə gedən yol olmuşdur. Böyük iftixar hissi ilə qeyd edə bilərəm ki, Azərbaycan xalqı öz milli azadlığına nail olub, dövlət müstəqilliyini əldə edib və Azərbaycan Respublikası müstəqil dövlət kimi dünya birliyində layiqli yerini tutubdur.

Əziz veteranlar, Azərbaycan Respublikasının müstəqilliyinin əldə olunmasında sizin böyük xidmətləriniz var. Faşizmin qarşısı məhz sizin qəhrəmanlığınızın nəticəsində alındı. Məhz sizin fədakar əməyiniz sayəsində 50 il ərzində Azərbaycan yüksək inkişaf yolu keçdi və böyük iqtisadi, intellektual potensial topladı. Bunların əsasında Azərbaycan öz müstəqilliyini əldə etdi və dünya birliyində öz yerini tutdu.

Ona görə də, əziz veteranlar, əziz həmvətənlər, bacılar və qardaşlar, sizə dövlətimiz adından və şəxsən öz adımdan hörmət və təşəkkürümü bildirirəm!

Təəssüflər olsun ki, Azərbaycanın başına son illər böyük bəlalar gəlmiş, respublikamız, xalqımız Ermənistan tərəfindən təcavüzə məruz qalmışdır. Yeddi ildir ki, müharibə gedir. Bu müharibədə də bizim böyük itkilərimiz olmuş və o, Azərbaycan xalqına böyük faciələr gətirmişdir. Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal olunmuş, bir milyondan çox vətəndaşımız qaçqın düşmüşdür.

Eyni zamanda onu da demək lazımdır ki, Azərbaycanın igid oğulları Vətənin, ərazimizin müdafiəsində veteranlarının təcrübəsindən istifadə edərək qəhrəmanlıq nümunələri göstərmiş, həlak olmuş, canlarını qurban vermiş, şəhid olmuş, torpağımızı qorumuşlar.

Bu bayram günündə mən İkinci dünya müharibəsində alman faşizmi üzərində qələbənin əldə edilməsi naminə həlak olmuş insanların hamısının ruhu qarşısında baş əyirəm. Azərbaycan Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü qoruyaraq həlak olmuş qəhrəman döyüşçülərimizin ruhu qarşısında baş əyirəm.

Respublikamızın düşdüyü indiki vəziyyət, Ermənistan tərəfindən ölkəmizə qarşı edilən hərbi təcavüz bizi dəvət edir ki, Böyük Vətən müharibəsinin, veteranlarımızın təcrübəsindən torpaqlarımızı, respublikamızın müstəqilliyini qorumaq, ordumuzu möhkəmləndirmək üçün səmərəli istifadə edək. Ona görə də belə hesab edirəm ki, Böyük Vətən müharibəsi

veteranlarının gənc nəslə tövsiyələrinin, onlar arasında apardıqları işin müstəqil Azərbaycan dövlətinin qurulmasında, torpaqlarımızın qorunmasında, müdafiə olunmasında əvəzsiz rolu vardır. Əmin olduğumu bildirmək istəyirəm ki, veteranlarımız bu gün də sıradadırlar, Azərbaycan Respublikasının ərazi bütövlüyünü qorumaq üçün fədakarcasına çalışmağa hazırdırlar. Mən veteranların indiyədək gördükləri işləri yüksək qiymətləndirirəm və qarşıdakı işlərdə onlara böyük uğurlar arzulayıram.

Azərbaycan xalqı sülhsevər xalqdır. Hitler faşizminə qarşı müharibədə xalqımız sülhsevər xalq kimi sülhü, əmin-amanlığı qorumaq, bəşəriyyəti faşizmdən xilas etmək üçün döyüşə qalxmışdı. Azərbaycan xalqı bu gün də yalnız və yalnız öz ərazisini, torpaqlarını, Vətənini, dövlətinin müstəqilliyini qorumaq naminə döyüşür, vuruşur.

Biz müharibə istəmirik. Biz müharibə tərəfdarı deyilik. Biz heç kəsin torpaqlarına göz dikməmişik. Ancaq öz torpaqlarımızı da heç kəsə verməyəcəyik.

Biz Ermənistanla Azərbaycan arasında gedən müharibədə on bir ay bundan əvvəl atəşin kəsilməsi haqqında məhz sülhsevər prinsiplər əsasında saziş əldə etmişik. Biz ötən müddətdə atəşkəs rejiminə riayət edirik. Sizin qarşınızda bu gün bir daha deyirəm ki, Azərbaycan dövləti Böyük Sülh Müqaviləsi imzalananadək bu atəşkəsə riayət edəcəkdir. Biz Ermənistanla Azərbaycan arasındakı müharibəyə son qoymaq, bu münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Biz bu yolu seçmişik və bu yolla da gedəcəyik.

MDB Parlamentlərarası Məclisinin böyük nümayəndə heyəti bu gün Azərbaycana gəlibdir. Onlar bizi ziyarət ediblər. Görüşlər keçirmişik, danışıqlar aparmışıq. Qələbənin 50 illiyi bayramını onlar bu gün burada bizimlə birlikdə qeyd edirlər. Bu salondadırlar. Mən onları salamlayıram. Azərbaycan xalqı adından, sizin adınızdan bu qələbə münasibətilə onları təbrik edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, onların fəaliyyəti bölgədə sülhün, əmin-amanlığın bərpa olunmasına yönəldiləcəkdir və onlar da Azərbaycanın bu sülh məramlı siyasətinin uğurla sona çatmasına çalışacaqlar. Biz atəşkəs rejiminə riayət edəcəyik. Biz sülh istəyirik. Ancaq sülh yalnız və yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, ölkəmizin dövlət sərhədlərinin, müstəqilliyinin və suverenliyinin toxunulmazlığı şərtləri əsasında ola bilər. Biz bu şərtlər əsasında danışıqlar aparırıq və aparacağıq. Güman edirəm ki, bütün dövlətlər, bu işə qoşulmuş bütün beynəlxalq təşkilatlar da bu məsələlərə daim ədalətlə yanaşacaq, respublikamızın vəziyyətini anlayacaqlar, biləcəklər ki, biz məhz bu prinsiplər əsasında regionumuzda uzunmüddətli sülhün təmin olunmasına çalışacağıq.

Mən bu gün bir qrup veterana qələbənin 50 illiyi münasibətilə təsis olunmuş medallar təqdim etdim. Bu medalları alarkən onların hamısı eyni sözlər dedilər: gün o gün olsun ki biz yeni bır qələbəni qeyd edək və onu bayram edək. Mən də belə fikirdəyəm.

Gün o gün olsun ki, Azərbaycan torpaqları işğalçılardan azad olsun!

Gün o gün olsun ki, işğal olunmuş torpaqlardan qaçqın düşmüş Azərbaycan vətəndaşları öz evlərinə, yurdlarına obalarına qayıtsınlar!

Gün o gün olsun ki, Azərbaycanın ərazi bütövlüyü tamamilə, əbədi olaraq təmin edilsin! Bir daha qeyd edirəm, biz bunların hamısına sülh yolu ilə nail olmaq istəyirik. Mən əminəm ki, biz buna nail olacağıq. Əminəm ki, o gün gəlib çatacaq. Əminəm ki, biz belə bir bayramı qeyd edəcəyik.

Əziz veteranlar!

Əziz bacılar, qardaşlar!

Sizin hamınızı bir daha səmimi-qəlbdən təbrik edirəm. Hər birinizi, müharibə veteranlarmı qucaqlayıram, öpürəm, sizə öz hörmət və ehtiramımı bildirirəm. Hamınıza cansağlığı, xoşbəxtlik, uzun ömür arzulayıram. Sağ olun.

Respublika sarayı,
5 may 1995-ci il

MƏNBƏ: Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva H.Manafova, X.Abbasova; elmi red. K.Tahirov; red. M.Cəfərova. – Kitab 1: (Azərbaycan dilində). – Bakı, 2020. – 640 s., s.5-12.

1941-ci il

22 iyun – Almaniyanın SSRİ-ya qarşı müharibə elan etməsi;

23 iyun – SSRİ Ali Soveti Rəyasət Heyətinin "Leninqrad, Baltikyanı xüsusi, Qərb xüsusi, Kiyev xüsusi, Odessa, Xarkov, Oryol, Moskva, Arxangelsk, Ural, Sibir, Volqaətrafı, Şimali Qafqaz və Zaqafqaziya Hərbi dairələri üzrə hərbi vəzifəlilərin səfərbərliyi haqqında" fərmanı. SSRİ Konstitusiyasının 49-cu maddəsinə əsasən səfərbərlik elan edilməsi;

– Müharibənin ilk günlərindən Azərbaycanda səfərbərlik elan edilməsi, arxa cəbhədə müxtəlif formada hərbi hazırlıq təlimlərinin təşkili;

– Könüllü cəbhəyə yollanmaq üçün 40 min nəfərdən çox vətəndaşın ərizə ilə müraciət etməsi;

– Respublika ərazisində taborun yaradılması;

– Azərbaycanlı döyüşçülərin ilk dəfə düşmənə qarşı müdafiəyə iyul ayının 22-də Brest qalasının müdafiəsinə başlaması;

– **İyul ayından** Azərbaycanın, xüsusilə Bakının müdafiəsi məqsədilə 551 km uzunluğunda səngərlərin qazılmasına başlanılması;

– **Avqust ayında** yerlərdə təşkil edilmiş 87 döyüş batalyonlarının tərkibində 186.704 könüllünün hərbi təlim keçməsi;

– 77-ci dağatıcı diviziyası (1938-ci ildə ləğv edilmiş digər ümumi qoşun hərbi hissəsinə qatılmışdır), bərpa edilmiş, avqust-sentyabr aylarında Cənubi Azərbaycanda yerləşdirilmişdir;

– **Avqust ayında** 396-cı milli atıcı diviziya təşkil olunmuş və Cənubi Azərbaycanda yerləşdirilmişdir;

– **Avqust ayında** 402-ci Azərbaycan atıcı diviziyası yaradılmışdır;

– Bakıda Zenit Artilleriya Məktəbi açılmışdır;

– **Sentyabr a**yında Berlinə bomba zərbəsi endirilməsi məqsədilə təşkil edilən uçuşların iştirakçılarından biri, Goranboy rayonunda anadan olmuş **Ağasəf Məmmədhüseyn oğlu Səmədov** "Qırmızı bayraq" ordeni ilə təltif edilmişdir;

– Oktyabr ayında 223-cü diviziya yaradılmış və Quba-Qusar-Dəvəçi zonasında yerləşdirilmişdir;

– Moskvanın müdafiəsinə göndərilmiş Bakı zenit artilleriyası alayı qəhrəmancasına döyüşərək, düşmənin 40-a qədər təyyarəsini məhv etmiş və geri qayıtmışdır;

– Baş serjant İsrafil Məhərrəm oğlu Məmmədov cəbhədə göstərdiyi misilsiz şücaətlərə görə dekabr ayının 11-də "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüş və bu yüksək adı alan ilk azərbaycanlı kimi tarixə düşmüşdür;

– Bakıda 75-ci dəniz atıcı briqadası təşkil edilmişdir;

1941-1942-ci illər

– Azərbaycanlı komandir və döyüşçülərdən Moskva uğrunda döyüşlərdə tank hissəsi komandiri Həzi Aslanov, polkovnik Yaqub Quliyev, kapitan Muxtar Süleymanov, baş leytenant Müseyib Allahverdiyev, leytenan-zeniyçik Məmmədrəsul Paşayev, təyyarə hissəsində xidmət edən Pərviz Tağızadə, pulemyotçu İdris Vəliyev, tibb bacısı Aliyə Rüstəmbəyova, snayper Ziba Qəniyeva və digərləri öz rəşadətli döyüşləri ilə xüsusilə seçilmişlər. Bütövlükdə Azərbaycan vətəndaş-larından "**Moskvanın müdafiəsinə görə**" medalı ilə **1000 nəfərdən çox** döyüşçü təltif edilmişdir;

1942-ci il

– **Fevral ayında** Ucar-Göyçay-Ağdam-Şəmkir-Ələt zonasında 416-cı atıcı diviziya təşkil edilmişdir;

– Bakıdan 800 nəfər könüllü gənc Stalinqradın müdafiəsinə göndərilmişdir;

– Hərbi təyyarəçilər Nuru Əliyev və kapitan Züleyxa Seyidməmmədova, pulemyotçu Əbdül Rəcəbov, leytenant Abdulla Axundov, snayper

Baloğlan Abbasov və digərləri Stalinqrad uğrunda döyüşlərdə fəal iştirak etmişlər;

– Fransanın Rodez şəhərində mübarizə aparan əfsanəvi qəhrəman **Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov** Donbasda faşist ordusuna qarşı döyüşlərin birində ağır yaralanaraq əsir düşmüş, əsirlikdən qaçaraq Fransa müqavimət hərəkatı iştirakçılarına qoşulmuş, 3 il ərzində orada mübarizə aparmışdır;

– Oktyabr ayının 18-də azərbaycanlı döyüşçü, rabitəçi-matros Qafur Məmmədov faşist ordusu hissələrinin hücumlarını dəf edərkən təkbaşına düşmənin 13 avtomatçısını və bir minomyot heyətini məhv etmiş, komandirini düşmən atəşindən müdafiə edərkən qəhrəmancasına həlak olmuşdur;

– Bakıda təşkil edilmiş dəniz atıcı briqadasında Kaspi filotiliyasının hərbi gəmiləri şimala yükdaşıyan 1200 gəmini 216 dəfə hava hücumlarından müdafiə etmiş və düşmənin 6 bombaatan təyyarəsini vurmuşdur;

– Dekabr ayının 16-da podpolkovnik Həzi Aslanovun komandiri olduğu 55-ci tank alayı xüsusi döyüş şücaətləri nümayiş etdirmiş, düşmənin 70 tankının hücumunu dəf edərək 6 gün aramsız davam edən döyüşdən sonra əks-hücuma keçmişdir;

– Dekabr ayının 20-də 4-cü atlı korpusunun komandirinin müavini Yaqub Quliyev Stalinqrad ətrafında keçirilən böyük hücum əməliyyatında iştirak edərək həlak olmuş, ölümündən sonra "Lenin" ordeni ilə təltif edilmişdir;

– Dekabr ayının 22-də cəbhə komandanlığının döyüş tapşırığını nümunəvi surətdə yerinə yetirdiyinə, bu işdə qəhrəmanlıq və şücaət göstərdiyinə, ona tabe olan hissələrə bacarıqla və mətanətlə komandanlıq etdiyinə görə SSRİ Ali Soveti Rəyasət Heyətinin Fərmanı ilə Həzi Əhəd oğlu Aslanova "Sovet İttifaqı Qəhrəmanı" fəxri adı verilmişdir;

–1500 nəfərdən çox Azərbaycan vətəndaşı "Stalinqradın müdafiəsinə görə" medalı ilə təltif edilmişdir;

– Kaspi dənizi donanması 1 milyon 255 min ton yük daşımışdır;

1943-cü il

– Şimali Qafqazın düşməndən azad edilməsi məqsədilə yanvar ayında başlamış hərbi əməliyyatlarda 77-ci Azərbaycan diviziyası da fəal iştirak etmiş, Mozdok şəhəri düşməndən azad edilmişdir. Diviziya Donbasın düşməndən azad edilməsi əməliyyatlarında 44-cü ordunun tərkibində vuruşmuş, Dneprin sol sahillərində və Cənubi Ukraynada uğurlu əməliyyatlar aparmışdır.

– **Mart ayının 31-də** qəhrəman döyüşçü Qafur Məmmədov "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdür;

– **Aprel ayının 11-də** 77-ci il diviziya Sevastopolun azad edilməsində ən təhlükəli mövqelərdən birində yerləşdirilmiş, 10 günlük döyüşlərdən son-

ra Sapun-Qora düşməndən azad edilmişdir. Sapun dağının ən yüksək zirvələrindən birinə Qırmızı bayrağı serjant Abduləziz Qurbanov sancmışdır. Sevastopolun azad edilməsindəki döyüşlərdə fəal iştiraka görə 77-ci diviziya "II dərəcəli Suvorov Ordeni" ilə təltif edilmişdir. Bütövlükdə Krımın düşməndən azad edilməsində göstərilən qəhrəmanlıqlara görə diviziyanın 3140 əsgər və zabiti orden və medallarla təltif edilmiş, diviziyaya isə "Sevastopol diviziyası" adı verilmişdir;

Avqust ayının 17-də 416-cı diviziya Taqanroq istiqamətində başlanmış hücumlarda iştirak etmiş, avqustun 30-da 28-ci ordunun tərkibində Taqanroq şəhərinin düşməndən azad edilməsində böyük qəhrəmanlıq göstərərək "Taqanroq diviziyası" fəxri adını almışdır;

1944-cü il

– **Yanvar ayında** bütün respublikada yaralı əsgər və komandirlərin müalicəsinə qayğı və rəhbərlik üçün Xüsusi yardım komitəsi yaradılmış, komitəyə dövlət xadimi, professor Əziz Əliyev sədr təyin edilmişdir;

– **Mart ayının 13-də** "Qızıl Ordunun zabitlər heyətinə və generallarına əsgəri adların verilməsi haqqında" SSRİ Xalq Komissarları Sovetinin qərarına əsasən polkovnik Həzi Aslanova Tank qoşunları qvardiya general-mayoru hərbi rütbəsi verilmişdir;

– **Aprel ayının 9-da** 416-cı diviziya Odessa şəhərinin düşməndən azad edilməsində fəal iştirakına görə "II dərəcəli Suvorov Ordeni" ilə təltif edilmişdir;

– **Aprel ayının 14-də** – SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı ilə Zaqafqaziya Müsəlmanlarının Ruhani İdarəsi təşkil olunmuşdur.

– **İyul ayının 4-də** 3-cü Belarus cəbhəsinin komandiri İ.D.Çernyaxovski Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun İkinci dəfə "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülməsi haqqında təqdimat vermişdir;

– **Avqust ayının 17-də** fransız və azərbaycanlı partizanlar Rodez şəhərini faşistlərdən azad etmişlər;

– İtaliyanın Adriatik sahillərində, İtaliya və Yuqoslaviya partizanları ilə birlikdə faşizmə qarşı mübarizə aparan, "Mixaylo" adı ilə tanınan əfsanəvi Mehdi Hüseynzadə Udin şəhərində faşist həbsxanasından 700 hərbi əsiri (o cümlədən Sovet əsgər və zabitini) azad etmiş, görünməmiş qəhrəmanlıqlar nümayiş etdirmiş, noyabr ayının 2-də (bəzi mənbələrdə 16 noyabr) düşmənlə son döyüşdə sonuncu gülləsini özünə sıxaraq həlak olmuşdur. Partizanlar tərəfindən Sloveniyanın Çepovan kəndində dəfn edilmişdir;

– **77-ci Azərbaycan Milli Diviziyası** Pribaltikanın azad edilməsində fəal iştirak etmişdir. Təyyarəçi kapitan Adil Quliyev səmada düşmənlə keçirdiyi 54 döyüşdə faşistlərin 18 təyyarəsini məhv etmişdir;

1945-ci il

– **Yanvar ayının 14-də** Ziya Bünyadovun bölüyü Pilitsa çayını keçərək, körpünü müdafiə etmiş və Sovet ordu hissələrinin körpünü keçərək hücumun genişləndirməsini təmin etmişdir. Bu döyüşdə bölük 100 nəfərdən çox düşməni məhv etmiş, 45 nəfəri əsir götürmüş, 5 minaatan və 3 top qənimət götürülmüşdür;

– **Yanvar ayının 24-də** görkəmli hərbi sərkərdə, qvardiya general-mayor Həzi Aslanov Latviya SSR-in Priyekule yaxınlığında (Liepay rayonu) qəhrəmancasına həlak olmuş, Bakıda (keçmiş Dağüstü parkda) dəfn edilmişdir:

– **Fevral ayının 23-də** təyyarəçi kapitan Adil Quliyev "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdür;

– **Fevral ayının 27-də** kapitan Ziya Bünyadov "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdür;

– **Mart ayının 24-də** Rumıniyanın Markita şəhəri uğrunda döyüşdə misilsiz qəhrəmanlıq göstərmiş, öz bədəni ilə düşmənin güclü atəş nöqtəsini susduraraq əməliyyatın uğurlu olmasını təmin etmiş qvardiya serjantı Gəray Əsədov "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdür;

– **May ayının 1-də** Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə baş leytenant **Vahab Osmanov** sancmış, **ayın 2-də** Branderburq qapıları üstünə Qələbə bayrağını sancanlardan biri leytenant **A.Məcidov** və onun döyüşçüləri olmuşlar;

– **May ayının 31-də** Berlin ətrafında döyüşlərdə iştirak etmiş starşina Məstan Əliyev "Sovet İttifaqı Qəhrəmanı" fəxri adına layiq görülmüşdür;

MƏNBƏ: Azərbaycan 1941-1945-ci illər Böyük Vətən müharibəsində: biblioqrafiya / Tərt. ed.: M.Vəliyeva H.Manafova, X.Abbasova; elmi red. K.Tahirov; red. M.Cəfərova. – Kitab 1: (Azərbaycan dilində). – Bakı, 2020. – 640 s., s.13-19.

S Ə N Ə D L Ə R

Об основах развертывания вооруженных сил Советского Союза № 103202/ов. 18 сентября 1940 г.

Соображения Генерального штаба Красной Армии по плану стратегического развертывания Вооруженных Сил Советского Союза на случай войны с Германией и ее союзниками. [не ранее 15 мая 1941 г.]

Директива командующему войсками ЗапОВО № 503859/сс/ов. [не позднее 20 мая 1941 г.]

Директива командующему войсками ПрибОВО ПрибОВО№ 503920/сс/ов. [не позднее 30 мая 1941 г.]

Директива командующему войсками КОВО № 503862/сс/ов. [не позднее 20 мая 1941 г.]

Директива Военного Совета ЗапОВО командующему 3 Армии № 002140/сс/ов. 14 мая 1941 г.

О нарушениях границы СССР с ноября 1940 г. по 10 июня 1941 г. № 1996/6. 12 июня 1941 г.

О назначении срока нападения на Советский Союз. 10 июня 1941 г.

Докладная записка заместителя наркома внутренних дел о разрешении эвакуировать семьи начальствующего состава Шакяйского пограничного отряда. 20 июня 1941 г.

Приказ об усилении охраны границы б/н. 20 июня 1941 г.

Директива Военного Совета КОВО № А1-00211. 11 июня 1941 г.

Директива Военному Совету КОВО № 504205. 13 июня 1941 г.

Приказ комиссара обороны Союза ССР Л/г 0042. 19 июня 1941 г.

Об организации фронтов и назначениях командного состава. 21 июня 1941 г.

Приказ 12-му механизированному корпусу № 0033. 18 июня 1941 г.

Директива ЗапОВО командующим войсками 3-й, 4-й и 10-й армий.

Директива № 1. 22 июня 1941 г.

Директива № 2 Военным советам ЛВО, ПрибОВО, ЗапОВО, КОВО, ОдВО. 22 июня 1941 г.

Из протокола допроса арестованного Д.Г. Павлова от 7 июля 1941 г.

Директива штаба Прибалтийского Особого Военного Округа. 18 июня 1941 г.

Выписка из приказа штаба Прибалтийского особого военного округа. 19 июня 1941 г.

Телеграмма № 217 в авиадивизии ЗапОВО. 21 июня 1941 г.

Донесение командующего краснознаменным Балтийским флотом командующим Ленинградским и Прибалтийским особыми военными округами, начальнику погранвойск. 20 июня 1941 г.

Беседа В.М. Молотова с послом В. Шуленбургом. 21 июня 1941 г.

Директива командующему войсками ЗапОВО. 13 июня 1941 г.

Директива Военным советам фронтов № 3. 22 июня 1941 г.

Вопросы, рассылаемые «комиссией генерала Покровского» командирам РККА

Протокол закрытого судебного заседания военной коллегии Верховного суда Союза ССР от 22 июля 1941 г.

Записка начальника Генштаба И. В. Сталину и В. М. Молотову № 103313/сс/ов. [не ранее 5 октября 1940 г.]

Распоряжение штабам Прибалтийского особого военного округа командующим войсками 8, 11 и 27-й армий. 21 июня 1941 г.

Приказ командующего войсками 6-й армии командирам 4-го механизированного корпуса, 8-й танковой дивизии и 81 мотострелковой дивизии. 20 июня 1941 г.

Записка военного совета КОВО №А1-00209. [не позднее 12 апреля 1941 г/

MƏNBƏ:**“Красная Армия и подготовка…” с последним изменениями здесь: https: //yadi. sk/d/2Z7mw88NJgthew:c.149-151.**

Договор о ненападении между Германией и Советским Союзом

23 августа 1939 г.

Правительство СССР и Правительство Германии, руководимые желанием укрепления дела мира между СССР и Германией и исходя из основных положений договора о нейтралитете, заключенного между СССР и Германией в апреле 1926 года, пришли к следующему соглашению:

Статья I. Обе Договаривающиеся Стороны обязуются воздерживаться от всякого насилия, от всякого агрессивного действия и всякого нападения в отношении друг друга, как отдельно, так и совместно с другими державами.

Статья II. В случае если одна из Договаривающихся Сторон окажется объектом военных действий со стороны третьей державы, другая Договаривающаяся Сторона не будет поддерживать ни в какой форме эту державу.

Статья III. Правительства обеих Договаривающихся Сторон останутся в будущем в контакте друг с другом для консультации, чтобы информировать друг друга о вопросах, затрагивающих их общие интересы.

Статья IV. Ни одна из Договаривающихся Сторон не будет участвовать в какой-нибудь группировке держав, которая прямо или косвенно направлена против другой стороны.

Статья V. В случае возникновения споров или конфликтов между Договаривающимися Сторонами по вопросам того или иного рода, обе стороны будут разрешать эти споры или конфликты исключительно мирным путем в порядке дружественного обмена мнениями или в нужных случаях путем создания комиссий по урегулированию конфликта.

Статья VI. Настоящий договор заключается сроком на десять лет, с тем что, поскольку одна из Договаривающихся Сторон не денонсирует его за год до истечения срока, срок действия договора будет считаться автоматически продленным на следующие пять лет.

Статья VII. Настоящий договор подлежит ратификированию в возможно короткий срок. Обмен ратификационными грамотами должен произойти в Берлине. Договор вступает в силу немедленно после его подписания.

Составлен в двух оригиналах, на немецком и русском языках, в Москве 23 августа 1939 года.

В. Молотов

И. Риббентроп

Договор ратифицирован: Верховным Советом СССР и рейхстагом Германии 31 августа 1939 г. Обмен ратификационными грамотами произведен 24 сентября 1939 г. в Берлине.

MƏNBƏ: АВП РФ, ф. За – Германия, д. 243. Известия. 1939. 24 августа.

Опубликовано: Год кризиса 1938-1939. Документы и материалы. В 2-х томах. – М.: Политиздат, 1990. – Документ № 602, с.483

Секретный дополнительный протокол к Договору о ненападении между Германией и Советским Союзом [23 августа 1939 г.]

СЕКРЕТНЫЙ ДОПОЛНИТЕЛЬНЫЙ ПРОТОКОЛ

При подписании договора о ненападении между Германией и Союзом Советских Социалистических Республик нижеподписавшиеся уполномоченные обоих сторон обсудили в строго конфиденциальном порядке вопрос о разграничении сфер обоюдных интересов в Восточной Европе. Это обсуждение привело к нижеследующему результату:

В случае территориально-политического переустройства областей, входящих в состав Прибалтийских государств (Финляндия, Эстония, Латвия, Литва), северная граница Литвы одновременно является границей сфер интересов Германии и СССР. При этом интересы Литвы по отношению Виленской области признаются обоими сторонами.

В случае территориально-политического переустройства областей, входящих в состав Польского Государства, граница сфер интересов Германии и СССР будет приблизительно проходить по линии рек Нарева, Вислы и Сана.

Вопрос, является ли в обоюдных интересах желательным сохранение независимого Польского Государства и каковы будут границы этого государства, может быть окончательно выяснен только в течение дальнейшего политического развития.

Во всяком случае, оба Правительства будут решать этот вопрос в порядке дружественного обоюдного согласия.

Касательно юго-востока Европы с советской стороны подчеркивается интерес СССР к Бессарабии. С германской стороны заявляется о ее полной политической незаинтересованности в этих областях. 4. Этот протокол будет сохраняться обоими сторонами в строгом секрете.

Москва, 23 августа 1939 года.

В. Молотов

И. Риббентроп

MƏNBƏ: К.В.Скворцов. Рождение пакта Молотова-Риббентропа (Эпоха. События. Люди). М., 2019, с.484

CƏDVƏLLƏR

Cədvəl 1
1928-1940-cı illərdə SSRİ-nin iqtisadi inkişaf tempi (1928 – 100%)

	1932	**1937**	**1940**
Milli gəlir	180	390	510
Sənayedə ümum məhsul buraxılışı	200	440	650
Sənayedə əmək məhsuldarlığı	140	260	340
Kənd təsərrüfatında ümum məhsul	90	110	110

Cədvəl 2
1929-1937-ci illərdə bir sıra Avropa ölkələrində sənaye məhsullarının inkişafı (1929-cu il – 100%)

	1930	**1934**	**1937**	**1937-ci ildə dünya sənaye məhsulunda pay**
Almaniya	72	83	116	11, 4
Fransa	89	78	83	4, 5
Böyük Britaniya	84	99	124	9, 4
SSRİ	161	238	424	14, 1

Cədvəl 3
1941-ci ilin birinci yarısında Almaniyada və SSRİ-də hərbi məhsulların istehsalı

	Almaniya	**SSRİ**
Avtomat	120. 891	3110
Silah	9809	7913
Tank və özüyeriyən maşınlar	1621	1848
Təyyarələr	5470	5958
Minomyotlar	7876	10. 480

Cədvəl 4
1941-ci ilin ortalarında Almaniyanın hərbi-iqtisadi potensialının göstəriciləri

	Almaniya (Avstriya ilə birlikdə)	**Almaniyanın Avropa müttəfiqləri**	**Almaniyanın işğal etdiyi ölkələr**	**Cəmi**
Elektrik enerjisi (mly. kv. s)	52	15	43	110
Daş kömür (mln. t)	185	2	161	348
Dəmir filizi (mln. t)	3,4	0,5	22,4	26,3
Neft (mln. t)	0,5	8,7	0,8	10

Polad (mln. t)	20	3,2	20,4	43, 6
Alüminium (min. t)	131	23	64	218

Cədvəl 5

1940 -1944-cü illərdə SSRİ-də və Almaniyada bəzi sənaye məhsulları istehsalının əsas göstəriciləri

Məhsul	**SSRİ**	**Almaniya**	**Almaniyaya görə SSRİ-nin istehsal səviyyəsi**
Elektrik enerjisi (mly. kv. s)	195, 9	352, 7	55%
Daş kömür, mln. ton	607, 4	2924	21%
Polad, mln. Ton	63, 7	162, 6	39%

Cədvəl 6

1939-1941-ci illərdə Yaponiyada hərbi texnika və silah istehsalı

Silah növlərinin adı	**1939**	**1940**	**1941**	**Qeyd**
Top (ədəd)	1732	2723	2096	
Təyyarələr (əd.)	3303	3462	6174	
Tanklar (əd.)	562	1023	1024	
Hərbi gəmilər (ədədlə)	23	27	48	

Cədvəl 7

1941-1945-ci illərdə Almaniya və onun avropalı müttəfiqlərinin quru qoşunlarının döyüş cəbhəsində yerləşməsinə dair

Cəbhələr	**22 iyun 1941- ci il**	**Aprel 1942- ci il**	**Noy. 1942- ci il**	**Aprel 1943- cü il**	**Yan. 1944- cü il**	**İyun 1944- cü il**	**Yanvar 1945- ci il**
Sovet – alman	90	19	66	33	45	239, 5	195, 5
Digər cəbhələr	9	1	2, 5	4, 5	1	5	107

Cədvəl 8

1940-1944-cü illərdə SSRİ-də və Almaniyada əsas növlər üzrə sənaye məhsulları istehsalı

Məhsullar	**SSRİ**	**Almaniya (İşğal olunmuş, birləşdirilmiş ərazilərdən və ölkələrdən gətirilmə və ixracla birlikdə)**	**Nisbət**
Elektrik enerjisi (mly.kvt.s)	195, 0	352, 7	1:1, 8
Kömür (mil.t)	607, 4	2924, 0	1:4, 8
polad (mil.t)	63, 7	132, 6	1:2, 6

Cədvəl 9

1941-1945-ci illər sovet-alman (Böyük Vətən) müharibəsində SSRİ silahlı qüvvələrindəki itkilərinin strukturu

İtkinin növü	Cəmi (min nəfərlə)	O cümlədən		
		FK QO və HD Donanmasında	SQ və XD İ K orqanlarında	XDİK daxili qoşunlarında
Təxliyə mərhələsində öldürülmüş və yaralanmışdı.	5226, 8	5187, 2	18, 9	20, 7
Hospitallarda yaradan ölmüşdü.	1102, 8	1100, 3	–	2, 5
Döyüş itkisinin yekunu	**6329, 6**	**6287, 5**	**18, 9**	**23, 2**
Hadisələr nəticəsində ölmüş, təsadüf nəticəsinda güllələnmiş, xəstəlikdən ölmüşdür.	555, 5	541, 9	7, 1	6, 5
Döyüşsüz itkinin yekunu	555, 5	541, 9	7, 1	6, 5
Xəbərsiz itkin düşmüşdür, əsir götürülmüşdür.	3396, 4	3305, 6	22, 8	68
Müharibənin ilk ayına olan qeyri-dəqiq itkilər: ölmüşdür, cəbhə dən və ordudan daxil olmayan məlumatlara əsasən döyüş əməliyyatlarında itkin düşmüşdü	1162, 6	1150	12, 6	–

Yekun	**4 559**	**4 455, 6**	**35, 4**	**68**
Böyük Vətən müharibəsinin gedişində itirilmişdi, **cəmi**	11444,1	11285	61,4	97,7
Faktiki geri qayıtmayan ların sayı	**8668, 4**	**8509, 3**	**61, 4**	**97, 7**

Cədvəl 10
1941-ci il 22 iyundan 1945-ci il sentyabrın 2-dək əsir kimi götürülmüşdür. [1]

Millətlər	**Ümumi say**
Almanlar	2,389560 milyon nəfər
Macarlar Rumınlar	513,767 min nəfər 187,370 min nəfər

Cədvəl 11
Şərq cəbhəsində Almaniya və müttəfiqlərinin itkiləri[2]

Avstriyalılar	156,682 min nəfər
Çexlər və slovaklar	69,977 min nəfər
Polyaklar	60,280 min nəfər
İtalyanlar	48,957 min nəfər
Fransızlar	23,136 min nəfər
Yuqoslavlar (əsasən xorvatlar)	21,822 min nəfər
Hollandlar	4,729 min nəfər
Belçikalılar	2,010 min nəfər
Lüksemburqlular	652 nəfər
danimarkalılar	457 nəfər
İspanlar	452 nəfər
Norveçlilər	101 nəfər
İsveçlər	72 nəfər

[1] Военно–исторический журнал. 1990. – № 9. – С.39-47; ЦХИДК, ф.1п, оп. 32-6, д.2, л.8-9.
[2] К.В.Скворцов. Красная Армия и подготовка к немецкому иторжению (факты, о которых иы не знали). М., 2019, с.138 https://yadi.sk/d/2Z7mw88NJgthew

ARXİV SƏNƏDLƏRİ

(Azərbaycan K(b)P MK-nın qərarları, cəbhə kimandanları, milli diviziyalar ilə yazışmalar)

13

СПРАВКА

О письмах на фронт и семьям бойцов отправленных по инициативе Отдела пропаганды и агитации ЦК КП(б) Азербайджана. Органа отечественной войны.

I.Крымский фронт	-	365 писем
2.Кавказский фронт	-	800 писем
3.Южный фронт	-	960 писем
4.Дальне-восточный фронт	-	60 писем
Всего		2185 писем

Полученных из действующей Армии для отправки семьям:

I.Из Приморской армии	-	329 писем
2.Дальне-Восточного фронта	-	150 писем
3.Из 58 и 44 Армий	--	222 письма
Итого		70I письмо

I.Помимо этого, ряд патриотических писем были отправлены фронтовикам со стороны многих райкомов партии Азербайджана, как, например: Ханларский РК с января мес.1942 года послал 500 индивидуальных и 30 коллективных писем.

2.Кроме того, ко дню XXV годовщины Великой Октябрьской Социалистической революции делегацией трудящихся Азербайджана было отправлено 25 коллективных приветственных писем 44 Армии и 79 писем в 58 Армию.

3.В период пребывания делегации Азербайджана на фронтах было установлено,что некоторые бойцы и командиры (19 чел из 58 Армии, I8 чел.из Дальне-Восточного фронта,5I чел. из 60 СД) в течение долгого времени не получали писем от своих родных.Список этих товарищей, с указанием адресов, был представлен в ЦК КП(б) Азербайджана для принятия мер.

4. ЦК КП(б) Азербайджана обратился к секретарям райкомов партии с предложением связаться с семьями указанных бойцов и сообщить им об этом.

(см.на обороте)

§ 5. О посылке делегаций Азербайджанской ССР и подарков на Южный и Крымский фронты.

В связи с XXIУ годовщиной РККА, командировать вместе с подарками от трудящихся Азербайджана делегации в составе следующих товарищей:

На Южный фронт.

I. Гасанова Г. - секретарь БК КП(б) Азербайджана
2. Мурадова Баба Кафар - буровой мастер треста "Орджоникидзенефть".
3. Исаева А. - нач. Политуправления Наркомсовхозов.
4. Бахшияна А. - Зав. оргтделом Нагорно-Карабахского обкома КП(б) Азерб.
5. Гутыря В. - зам. директора АзНИИ
6. Гасанова А. - зам. зав. отделом пропаганды и агитации Нахобкома КП(б) Азерб.
7. Эюбова Талет - поэт.

и концертную бригаду в следующем составе:

I. Кулам Абдул Касум оглы - тарист Азгосфилармонии
2. Саркисов Сергей - кеманчист -"-
3. Аветисов Григорий - бубнист -"-
4. Алекперова Шевкет - певица
5. Шихлинская Изет - танцовщица Азгосфилармонии

65

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП (б) Аз.

№ 209 прот. 11 пункт от 1943 г. секретарь Бюро ЦК КП (б) Аз.

О мероприятиях по дальнейшему усилению политико-воспитательной работы среди бойцов-азербайджанцев и усилению связей с ними трудящихся Азербайджана.
(Телеграмма нач.ГлавПУРККА тов.Щербакова от 11.VII-43г.).

В целях дальнейшего укрепления связи азербайджанского народа с бойцами и командирами Красной Армии - азербайджанцами и усиления среди них политико-воспитательной работы, в дополнение к проводимым мероприятиям Бюро ЦК КП(б) Азербайджана ПОСТАНОВЛЯЕТ:

1.Для организации редактирования к относительно крупным фронтовым газетам и в ГлавПУРККА статей на азербайджанском языке руководящих работников, знатных стахановцев - бакинцев, колхозников и выдающихся представителей интеллигенции, а также хроникального материала об участии Азербайджана в великой отечественной войне Советского Союза, - создать редакционную группу в составе т.т.:

Мамедова Г.	Гандзиев А.М.
Рагимова С.	Гусейнова Гейдара
Самед Вургуна	Кулиева Рза

Поручить редакционной группе в 2-х дневный срок разработать и представить на утверждение Бюро ЦК КП(б)Азербайджана тематический план статей и материалов, направляемых в ГлавПУРККА.

2.Предложить редакциям республиканских газет "Коммунист"(на азерб.яз.), "Бакинский Рабочий" и "Коммунисте"(на арм.яз.) три раза в месяц выпускать специальные номера газет для бойцов-азербайджанцев со статьями руководящих партийных, советских работников, представителей интеллигенции, знатных рабочих и колхозников республики и фронтовиков.

3.Поручить АзОМН"у(т.т.Гусейнов Г.Гусейнов И.) организовать выпуск для бойцов-азербайджанцев агитаторов и пропагандистов войсковых частей серии популярных брошюр на темы: "О сталинской дружбе народов", "О великом русском народе", "О героическом прошлом азербайджанского народа", " Об исторической дружбе азербайджанского народа с великим русским народом", "О великих полководцах азербайджанского народа".

4.Обязать Институт истории партии им.Ст.Шаумяна выпустить серию брошюр и сборник на темы: "Участие азербайджанского народа в борьбе против немецко-фашистских

(см.сл.стр.)

захватчиков", "Героические сыны азербайджанского народа на фронтах великой отечественной войны", "О героических подвигах трудящихся Азербайджана в тылу".

5.Предложить Союзу Советских Писателей Азерб.ССР (т.Самед Вургун) организовать выпуск серии небольших сборников произведений лучших поэтов и писателей Азербайджана и отрывков из народного эпоса.

6.Предложить Управлению по делам искусств при СНК Азерб.ССР(т.Искендеров А.) и Оргбюро Союза композиторов Азербайджана (т.У.Гаджибеков) издать для бойцов-азербайджанцев массовым тиражом боевые песни и марши лучших композиторов и поэтов республики,отражая в них героические подвиги славных сынов азербайджанского народа - бойцов фронта и тыла,проявивших себя в исторические дни великой отечественной войны.

7.Обязать отделы пропаганды и агитации ЦК и БК КП(б)Азербайджана (т.т.Мамедов Г.,Гиндин) и редакторов республиканских газет "Коммунист"(на азерб.яз.),"Бакинский Рабочий","Коммунист"(на арм.яз.) в декадный срок выделить ряд ведущих предприятий и колхозов, а также наметить выдающихся людей республики для установления постоянной связи с отдельными войсковыми частями и героями отечественной войны.

8.Придавая огромное значение радиотрансляции для фронта о жизни республики,о боевых делах рабочих, колхозников и интеллигенции по оказанию ими помощи Красной Армии в ее героической борьбе с немецко-фашистскими захватчиками, предложить Азрадиокомитету(т.Шарифов Г.) и Баккиностудии(т.Расул-Рза) один раз в полтора-два месяца организовать запись на тонфильм выступлений руководящих работников республики,передовых представителей интеллигенции,знатных людей нефти и сельского хозяйства, а также лучших музыкальных номеров и своевременно посылать во Всесоюзный Радиокомитет для трансляции из Москвы по всем участкам фронта.

9.Поручить Наркомпросу Азерб.ССР(т.Ибрагимов М.), ЦК ЛКСМ Азербайджана(т.т.Бабаев,Сейд-Заде) и Союзу начальных и средних школ(т.Керимов Г.) организовать среди учащихся и населения сбор художественной литературы на азербайджанском языке для отправки в войсковые части.

10.Обязать Азернешр(т.Султанова А.) организовать выпуск для азербайджанских войсковых частей серии плакатов и лозунгов на военно-политические темы, художественных открыток с портретами героев отечественной войны, а также конвертов и почтовой бумаги со специальными надписями.

(см.сл.стр.)

11.Поручить обкомам,горкомам и райкомам КП(б)Азербайджана широко практиковать организацию и посылку коллективных писем и обращений отдельных групп рабочих, колхозников и интеллигенции своего района к бойцам и постоянно оказывать помощь семьям бойцов,командиров и политработников в написании и отправке на фронт патриотических писем.

12.О принятых и проводимых мероприятиях по телеграмме нач.ГлавПУРККА тов.Щербакова послать ему телеграфный ответ.

-.-.-.-

зб.

69 ~~11~~

цов-азербайджанцев со статьями руководящих партийных, советских работников, представителей интеллигенции, знатных рабочих и колхозников республики и фронтовиков.

3. Поручить АзТАН"у (т.т. Гусейнов Г., Гусейнов И.) организовать выпуск для бойцов-азербайджанцев агитаторов и пропагандистов войсковых частей серию популярных брошюр на темы: "О сталинской дружбе народов", "О великом русском народе", "О героическом прошлом азербайджанского народа", "Об исторической дружбе азербайджанского народа с великим русским народом", "О великих полководцах азербайджанского народа".

4. Обязать Институт истории партии им. Ст. Шаумяна выпустить серию брошюр и сборник на темы: "Участие азербайджанского народа в борьбе против немецко-фашистских захватчиков", "Героические сыны азербайджанского народа на фронтах великой отечественной войны", "О героических подвигах трудящихся Азербайджана в тылу".

5. Предложить Союзу Советских Писателей Азербайджанской ССР (т. Самед Вургун) организовать выпуск серии небольших сборников произведений лучших поэтов и писателей Азербайджана и отрывков из народного эпоса, предназначенных для бойцов-азербайджанцев.

6. Предложить Управлению по делам искусств при СНК Азербайджанской ССР (т. Искандеров А.) и Оргбюро Союза композиторов Азербайджана (т. У. Гаджибеков) издать для бойцов-азербайджанцев массовым тиражом боевые песни и марши лучших композиторов и поэтов республики, отражая в них героические подвиги славных сынов азербайджанского наро-

да – бойцов фронта и тыла, проявивших себя в исторические дни великой отечественной войны.

7.Обязать отделы пропаганды и агитации ЦК и БК КП(б)Азербайджана(т.т.Мамедов Г.,Гиндин) и редакторов республиканских газет "Коммунист"(на азерб.яз.),"Бакинский Рабочий","Коммунист"(на арм.яз.) в декадный срок выделить ряд ведущих предприятий и колхозов, а также наметить выдающихся людей республики для установления постоянной связи с отдельными войсковыми частями и героями отечественной войны.

8.Придавая огромное значение радиотрансляции для фронта о жизни республики, о боевых делах рабочих,колхозников и интеллигенции по оказанию ими помощи Красной Армии в ее героической борьбе с немецко-фашистскими захватчиками, предложить Азрадиокомитету(т. Шарифов Г.) и Баккиностудии (т.Расул-Рза) один раз в полтора-два месяца организовать запись на том-фильм выступлений руководящих работников республики, передовых представителей интеллигенции, знатных людей нефти и сельского хозяйства, а также лучших музыкальных номеров и своевременно посылать во Всесоюзный Радиокомитет для трансляции из Москвы по всем участкам фронта.

9.Поручить Наркомпросу Азербайджанской ССР(т.Ибрагимов),ЦК ЛКСМ Азербайджана(т.т.Бабаев,Сеид-Заде) и Союзу начальных и средних школ (т.Керимов Г.) организовать среди учащихся и населения сбор художественной литературы на азербайджанском языке для отправки в ~~азербайджанские~~ войсковые части.

2966

ТЕМАТИЧЕСКИЙ ПЛАН

статей руководящих партийных, советских и комсомольских работников Азербайджанской ССР для фронтовых газет на август-сентябрь 1943 г.

Заголовок статьи	Автор	Срок сдачи	Примечание
2	3	4	5
Успехи Красной Армии вдохновляют трудящихся Азербайджана на новые трудовые подвиги	Кулиев Т. Пред.СНК АзССР	30/VIII-	
Немцы - заклятые враги азербайджанского народа	Мамедов Г. Секр:ЦК КП(б)Азерб. по пропаганде	5/IX-	
Сталинская дружба народов	Кулиав Р. Ред.газ."Коммунист Казиев М. ст.науч.сотруд.института им.Шаумяна	5/IX-	
Третий военный урожай	Джафаров Наркомзем АзССР	5/IX-	
Как мы помогаем семьям фронтовиков	Аллахвердиев Н. Зам.пред.СНК АзССР	28/VIII-	
Научная мысль азербайджанской интеллигенции-на службу фронту	Гусейнов Г. Зам.Пред.АзФАН	24/VIII-	
"Телли саз"	Тахмасиб Д. ст.науч.сотруд.института языка и литературы АзФАН	5/IX-	
Трудовой героизм молодежи Азербайджана	Бабаев М. Секр.ЦК ЛКСМ Аз.	28/VIII-	
Женщины Азербайджана в дни великой отечественной войны	Асланова Ч. зам.пред.сов.нац. Верх.совета СССР	5/IX-	

297

2	3	4	5
Историческая дружба азербайджанского народа с великим русским народом	Дадаш Заде М.А. Зам.Наркомпроса Ибрагимов З. ст.научн. сотрудн. ин-та им.Шаумяна	10/X-	
Баку - могучий арсенал красной Армии	Гинзбин А. секр.БК КП(б)Азерб.	10/IX-	
Подготовка резервов для Красной Армии	Измайлов А.А. Военком АзССР	25/VIII-	
Нефть - фронту	Якубов А. Секр.ЦК КП(б)Азерб. Безиров С. Нач.Азнефтекомбината	10/IX-	
Переписка фронта и тыла	Письман Г. Ред.газ."Бак.Рабоч."	10/IX-	
Фронтовик у земляков	Гурвич Е. Отв.рук.АзТАГ Назаров	10/IX-	
Дети фронтовиков окружены всенародной заботой	Саид-Заде Секр.ЦК ЛКСМ Аз.	10/IX-	
Азербайджанское искусство в дни войны	Искендеров А. Нач.Упр.по делам Искусств	10/IX-	
Писатели Азербайджана - фронту	Бургун С.	8/IX-	
Пенсионеры вернулись к станкам	Керимова З. Наркомсобес АзССР Кирсанов Пред.ЦК Союза Нефтяников	10/IX-	
Большевики Азербайджана в борьбе за укрепление колхозов и зажиточность колхозников	Гасанов Г. Секр.ЦК КП(б)Аз.	15/IX-	
Славный сын азербайджанского народа Гусейн Аждаров.	Саркисов А. зам. ред.газ."Бак. Рабочий" Аббасов Ш.	15/IX-	

298/13

2	3	4	5
Госпиталях каждое	Кафар-Заде С.	20/IX-	
В семье воина	Расул Газ	20/IX-	
Забота о раненых бойцах	Топчибашев	20/IX-	
Мать фронтовика	Дюрова Г.	20/IX-	
	Прап.Азербайдж-комитета	15/IX-	
Животноводство Азербайджана не под"ема	Шихзадова Г.	20/IX-	
Выдающийся государственный деятель и полководец Азербайджана - Сотени-хан Кубинский	Шукюр Заде	20/IX-	

ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП (б) Аз.

ПЛ № 333 пункт 3 индекс от 31/I 1944 г. заседания Бюро ЦК КП (б) Аз.

20

Об издании книги "Азербайджан в Великой отечественной войне".

(т.Мамедов Г.)

1.В целях обобщения и популяризаций имеющихся материалов об участии азербайджанского народа в великой отечественной войне считать необходимым издание книги "Азербайджан в великой отечественной войне" об"емом 10-12 печатных листов с тиражем 10 тысяч экземпляров на азербайджанском языке и 5 тысяч экземпляров на русском языке.

2.Утвердить примерную схему книги по следующим разделам:

1)Введение.
2)Азербайджанский народ стал на защиту родины.
3)Все для фронта! Все для победы!
4)Тыл неприступная крепость.
5)Народ - воин.
6)Всенародная забота о Красной Армии.

3.Составителями книги утвердить следующих товарищей:

По 1 разделу - Г.Гусейнова, М.Казиева;
" II " - Мехти Гусейна, Д.Гликштейна;
" III " - Э.Шукюр Заде, Гик, Иванищева, В.Ахундова, Д.Кореневa, Акпера Агаева, Е.Гурвич, Мамеда Арифа Дадаш Заде, Пашаева Мир Джалал;
" IУ " - Д.Межлумбекова, С.Минаева;
" У " - Ш.Абасова, А.Саркисова;
" У1 " - Ю.Азим Заде и П.Валуева.

Срок представления материалов установить к 1.II-1944г.

4.Редакторами и консультантами книги утвердить следующих товарищей:

По I разделу - Мамедова Г., М.Ибрагимова;
По II " - Кулиева Т., Чеплакова П.
По III " - Гасанова Г., Ислам Заде И., Антелепяна Г., Мехтиева Э., Джафарова С., Рагимова С. и Самед Вургуна.
По IУ " - Якубова Т., Гиндина А.
По У " - Кафар-Заде С., Измайлова А.Г.
По У1 " - Азизбекова А., Смелова А.

5.Художественное оформление книги поручить т.т.И.Ахундову (ответственный), Г.Халыгову, Власову и Р.Топчибашевой.

6.Ответственность за организацию работ по выпуску книги возложить на отдел отечественной войны института им.Ст.Шаумяна (т.Казиев М.)

Milli diviziyaların döyüş yoluna dair arxiv sənədləri



46

С П Р А В К А

об оказании помощи 77-й Стрелковой Дивизии

Отделом пропаганды и агитации ЦК КП(б)Азербайджана подготовлено и передано майору Кази Заде для 77-й Стрелковой дивизии следующее:

1. Полковых библиотек
полковая библиотечка состоит из 91 названия книг по 500 экз. в каждой-политической, художественной и военно-учебной литературы. В том числе книга тов. Сталина "О великой отечественной войне Советского Союза" - 1300 экз. - 5 комплект.

2. Конвертов	-	10.000 шт.
3. Почтовой бумаги	-	10.000 лист.
4. Секретов - писем	-	5.000 шт.
5. Тетрадей	-	1.500 шт.
6. Блок-нотов	-	500 шт.
7. Бумаги	-	25 кгр.
8. Бумаги для лозунгов	-	10 кгр.
9. Портретов членов политбюро	-	290 шт.
10. Карандашей	-	200 шт.
11. Копировальной бумаги	-	1.500 лист.
12. Блок-нотов для комсостава	-	25 шт.
13. Папок для комсостава	-	50 шт.
14. Т а р ы	-	16 шт.
15. К е м а н ч а	-	3 шт.
16. Мандалина	-	1 шт.
17. Бубны	-	10 шт.
18. Нарды	-	13 компл.
19. Шахматы	-	3 "
20. Шашки	-	20 "
21. Домино	-	50 "
22. Струны	-	2 катуш.
23. Сухие краски	-	4 кгр.
24. Цветных карандашей д/комсостава	-	10 шт.
25. Театральные костюмы и реквизиты	-	

117

Всего отпущено на сумму 14.655 рублей

/УШ-43 г.

105

2492
26 XII

СОВ.СЕКРЕТНО
только лично

ЧЛЕНУ ВОЕННОГО СОВЕТА ЗАКФРОНТА

ТОВ. БАГИРОВУ.

ДОКЛАДНАЯ ЗАПИСКА

О состоянии 77 Стрелковой Дивизии.

С момента передислокации 77 СД с гор. Дербент в район станции Чир-Юрт части заняли рубеж обороны, расположились в поле и уклонились к боевым и разместились:

Штаб дивизии, 135 отдельная рота связи, отдельная хим. рота, разведрота, ЗП, ВТ, политотдел - колх. им. "Тельмана" /10км. от ст. Чир-Юрт./

105 Стрелковый Полк . . . . . .сел. Верхний Чир-Юрт.
276 -"- . . . . . .с.Султан-Янги-Юрт.
324 -"- . . . . . .с.Стальский.
289 Арт. полк. . . . . ст.Чир-Юрт.
197 отд.истр. противотанк.дивизион. -с.Пушановка.
Учебный батальон,дившкола. . . . . .р-н.Махач-Калинского мясокомбината.
ДОП, Авторота,73 медсанбат,ППС,ПХП,клуб- ст. Чир-Юрт.
Отдельный пул. батальон - восточнее с. Султан-Янги-Юрт.

По состоянию на 21 декабря 1942г. дивизия насчитывает в себя 7966 человек из коих начсостава - 964 чел., мл. начсостава-755 чел.,и рядового - 6257 человек.

Получено указание Упрафсрма Зак. фронта об укомплектовании дивизии формировалось с расчета 11000 чел. поэтому в настоящее время на месте разрабатываются мероприятия по сокращению штатов низовых подразделений.

Как видно из приведенных цифр некомплект в дивизии отсроится за счет отсутствия мл. начальствующего и мл. командного состава. Практически в подразделениях этот некомплект выражается в том, что мл. ком состав почти отсутствует, а в имеющееся количество 755 чел. входит санитарные и ветеринарные фельдшера, старшие писаря, старшины, оружейные мастера и т.д.

некомплект мл. командного состава приводит к тому , что все управление, малообученным личным составом, неосвоившим порядка в РККА, а тем более боевого, личным составом ложится на средний комсостав, который в силу незнания азербайджанского языка в большое количество людей которых ему приходится обучать не осваивают их в следствии чего военный порядок полностью не соблюдается и зачастую боевая учеба в течении дня проходит впустую, не давая положительных результатов.

Следует указать, что из наличного количества начсостава в дивизии - 964 человека,русские,украинцы и белоруссы составляют 639 чел., а азербайджанцев только 160 человек, в то время когда рядовой состав-

108 26

азербайджанцев и автотранспорте.

Мы просим ВАС тов.БАГИРОВ в самое ближайшее время направить в дивизию недостающее количество политработников азербайджанцев, выделить автотранспорт в котором в настоящее время особенно ощущается потребность.

Разрешите еще раз поблагодарить ВАС и ВАШЕМ лице партийных и беспартийных большевиков Азербайджана за заботу о Красной Армии выполняющей историческую задачу Отечественной освободительной войны от немецко-фашистских захватчиков и пожелать ВАМ плодотворной работы в тылу во имя наших общих целях освобождения Родины от иноземных захватчиков.

Да здравствует наша славная Советская Родина !

Да здравствует великая партия ЛЕНИНА-СТАЛИНА !

Да здравствует наш отец, наш мудрый полководец тов.СТАЛИН !

КОМАНДИР 77 СД
ПОДПОЛКОВНИК /ТАТАРЧЕВСКИЙ/

/ЗАМ.КОМАНДИРА ДИВИЗИИ ПО ПОЛИТЧАСТИ
СТАРШИЙ БАТАЛЬОННЫЙ КОМИССАР /УЛЬЯНОВ/

НАЧАЛЬНИК ПОЛИТОТДЕЛА ДИВИЗИИ
БАТАЛЬОННЫЙ КОМИССАР/ДЖАВАДОВ/

Эй пролетарлар, бирлешиңлар!
Пролетарии всех стран, соединяйтесь!

39.

ӘН МӘХФИ
СТРОГО СЕКРЕТНО 72

ҮМУМ ИТТИФАГ КОММУНИСТ (БОЛШЕВИКЛӘР) ПАРТИЯСЫ
ВСЕСОЮЗНАЯ КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ (БОЛЬШЕВИКОВ)
АЗӘРБАЙЧАН КП (б) МӘРКӘЗИ КОМИТЕТИ
ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП(б) АЗЕРБАЙДЖАНА

№ БЦ-205/б. 14.февраля 1942 ил г.

ОСОБАЯ ПАПКА.

Командующему ЗакВО генералу Армии т.Тюленеву
т.т. Алиеву А.,Мамедову Г.,Заманову,Гаджиеву Ю.,Ислам Заде,
Рагимову С.,Азизбекову,Ибрагимову М.
Нахобком КП(б)Азерб. т.Наджафову.
Кубинский РК КП(б)Азерб. т.Алиеву.

Азерб.К(б)П МК Бюросу ичласынын №-лы 194 ил тарихли протоколундан чыхарыш
Выписка из протокола № 205 заседания Бюро ЦК КП(б) Азербайджана от 13.II. 1942г.

Подлежит возврату в течение 3-х дней
в протокольную часть ЦК КП(б)Азерб.

О мероприятиях по ускорению работ по переформированию 402 и 223 СД в национальные дивизии.

I.Прикрепить в помощь Командованию дивизии на весь период, пока они находятся в пределах Закавказского округа,следующих руководящих работников республики:

К 402 СД - т.т. Ислам Заде (Зам.пред.СНК АзССР)
Алиева А. (Секретарь ЦК КП(б)Аз.)
Наджафова Г.(Секретарь Нахобкома КП(б)Аз.)
Рагимова С.(Зам.зав.отд.пропаг.)
и агит.ЦК КП(б)Аз.
Сулеймана Рустама (поэт)
Ибрагимова М.(Управление по делам)
искусств при СНК АзССР.

К 223 СД - т.т. Азизбекова (Зам.пред.СНК АзССР)
Мамедова Г.(Секретарь ЦК КП(б)Аз.)
Заманова (Секретарь ЦК КП(б)Аз.)
Гаджиева Ю.(Секретарь БК КП(б)Аз.)
Алиева (Секретарь Кубинского РК КП(б)Аз

2.Обязать прикрепленных товарищей оказывать повседневную помощь Командованию дивизий по всем вопросам переформирования,

(см.на об.)

Правила о порядке хранения см. на обороте

-46-

ЭН МӘХФИ
СТРОГО СЕКРЕТНО

ҮМУМ ИТТИФАГ КОММУНИСТ (БОЛШЕВИКЛӘР) ПАРТИЯСЫ
ВСЕСОЮЗНАЯ КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ (БОЛЬШЕВИКОВ)

29

АЗӘРБАЙЧАН КП (б) МӘРКӘЗИ КОМИТЕТИ
ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП(б) АЗЕРБАЙДЖАНА

№ БЦ-217/2.

8 марта 1942 ил г.

т.Мамедову Г.
Секретарю Дивичинского РК КП(б)Азерб. т.Мехтиеву
" Хачмасского РК КП(б)Азерб. т.Пичугину
" Кусарского РК КП(б)Азерб. т.Агаларову

Бюро К(б)П МК Бюросу иҹласынын №-ли 194 ил тарихли протоколундан чыхарыш
Выписка из протокола № 217 заседания Бюро ЦК КП(б) Азербайджана от 7.III- 1942 г.

ОСОБАЯ ПАПКА

Подлежит возврату в течение 3-х дней в протокольную часть ЦК КП(б)Азерб.

О прикреплении к 223 СД дополнительной группы руководящих работников.
(т.Мамедов Г.)

Прикрепить в помощь Командованию 223 СД на весь период войны, пока СД находится в пределах Закавказского округа, дополнительно (см. решение Бюро ЦК КП(б)Азербайджана от 13.II-1942 года) следующих руководящих работников:

1) Мехтиева А.К. - секретаря Дивичинского РК КП(б)Азерб.
2) Пичугина С.И. - II секретаря Хачмасского РК КП(б)Азерб.
3) Агаларова М.К. - секретаря Кусарского РК КП(б)Азерб.
4) Векилова-Самед Вургун - поэта - отв.секретаря президиума Союза Советских писателей АзССР.

Секретарь ЦК КП(б)
Азербайджана (М.Д.Багиров)

Правила о порядке хранения см. на обороте

Пролетарии всех стран соединяйтесь!

54.

Всесоюзная коммунистическая партия (большевиков)
Центральный Комитет КП(б) Азербайджана

Строго секретно

36

№ 229/I-БЦ

7 апреля 1942 года

Команд.ЗакВО генералу армии т.Тюленеву.
1.т.Мамедову Г., Заманову, Гаджиеву, Азизбекову.
Секр.Кубинского РК КП(б) Азерб. тов.Алиеву.
" Хачмасского " " тов.Айдинбекову.
" Дивичинского " " тов.Мехтиеву
" Кусарского " " тов.Агаларову

Выписка из протокола № 229 заседания бюро ЦК КП(б) Азерб. от 3 апреля 1942 года.

Докладная записка командира 223 СД полковника Зюванова, Военкома полкового комиссара Адиева и нач.политотдела батальонного комиссара Алиева А. о состоянии политико-воспитательной работы и боевой учебы личного состава дивизии

I. Поручить прикрепленным ЦК КП(б) Азерб. к 223 СД т.т.Мамедову Г., Заманову, Азизбекову, Гаджиеву Б., Самед Вургуну, Алиеву (секретарь Кубинского РК), Айдинбекову (секр.Хачмасского РК), Мехтиеву (секретарь Дивичинского РК) и Агаларову (секретарь Кусарского РК), не ограничиваясь проведенной работой, усилить помощь командованию 223 СД в деле укрепления воинской дисциплины, образцовой постановки политиковоспитательной работы и боевой учебы личного состава дивизии.

2. Просить командующего ЗакВО генерала армии т.Тюленева:

а) дать указание штабу и политуправлению ЗакВО о быстрейшей присылке в дивизию недостающего командно-начальствующего состава:

б) предложить Управлению Формирования в соответствии с приказом НКО отбракованных лошадей как из 223 СД, так и из других дивизий, сформированных и укомплектованных в АзССР передать народному хозяйству Азербайджанской ССР и не отправлять их за пределы республики.

Секретарь ЦК КП(б)
Азербайджана (Чеплаков)

Бütün ölkələrin proletarlары, birləşin!
Пролетарии всех стран, соединяйтесь!

85

68

ƏN MƏXFI
СТРОГО СЕКРЕТНО

ÜMUM İTTİFAQ KOMMUNİST (BOLŞEVİKLƏR) PARTİYASI
ВСЕСОЮЗНАЯ КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ (БОЛЬШЕВИКОВ)

AZƏRBAYCAN KP (b) MƏRKƏZİ KOMİTETİ
ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП(б) АЗЕРБАЙДЖАНА

№ БП-238/5.

11 июня 1942 г.

Азərбайджан КП МК Бюросу имласынын ____ №-ли ____ 194 ил тарихли протоколундан чыхарыш
Выписка из протокола № 238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4.VI 1942 г.

ОСОБАЯ ПАПКА.
Подлежит возврату в течение 3-х дней в протокольную часть ЦК КП(б)Азерб.

О командировании на длительный срок группы ответственных работников в помощь командованию СД, расположенных на территории Азербайджанской ССР.

В дополнение к проводимым мероприятиям в помощь командованию дивизий, расположенных на территории Азербайджанской ССР, для усиления агитационно-пропагандистской работы, интернационального воспитания бойцов и командиров и налаживания культурно-просветительной работы командировать сроком на 2-3 месяца следующих товарищей:

В 223 СД

1. Самед Вургуна Векилова - поэт, отв. секретарь президиума ССП.
2. Али-Заде Насиб - лектор Отд. пропаганды ЦК КП(б) Азерб
3. Алиева Сейфулла - инструктор Отд. кадров ЦК КП(б) Аз.

В 416 СД

1. Расул Заде - поэт,
2. Алиева Мамед Али - инструктор отд. кадров ЦК КП(б) Аз.
3. Кязимова Абдул- лектор отдела пропаганды ЦК КП(б) Аз.

(см. на обороте)

Правила о порядке хранения см. на обороте

В 402 СД

1. Али Велиева - писатель.

2. Садыхова Эмина - инструктор отд. пропаганды и агитации ЦК КП(б) Азерб.

3. Керимова М. - инструктор отд. кадров ЦК КП(б) Азербайджана.

Поручить т.т. Рагимову С., Самед Вургуну, Расул- и Али Велиеву подобрать в командируемые группы, кро указанных лиц, еще по 2 чел. поэтов-писателей.-

Секретарь ЦК КП(б) Азербайджана (М.Д.Баг

зб.

Порядок пользования секретными документами ЦК КП(б) Азербайджана

Товарищ, получающий конспиративные документы, не может ни передавать, ни знаком ними кого бы то ни было, если нет на то специальной оговорки ЦК КП(б) Азербайджана.

Копировка указанных документов и делание с них выписок категорически воспрещается.

Отметки и дата ознакомления делаются на каждом документе лично товарищем, кот документ адресован, и за его личной подписью.

Выписки и отдельные распоряжения ЦК КП(б) Азербайджана надлежит хранить в ос личных делах и ни в коем случае не допускается приложение их к советскому и профессио ному делопроизводству.

19

ЭН МӘХФИ
СТРОГО СЕКРЕТНО

УМУМ ИТТИФАГ КОММУНИСТ (БОЛШЕВИКЛӘР) ПАРТИЯСЫ
ВСЕСОЮЗНАЯ КОММУНИСТИЧЕСКАЯ ПАРТИЯ (БОЛЬШЕВИКОВ)
АЗӘРБАЙЧАН КП (б) МӘРКӘЗИ КОМИТЕТИ
ЦЕНТРАЛЬНЫЙ КОМИТЕТ КП(б) АЗЕРБАЙДЖАНА

183

№ _____ Особая папка.-

10 сентября 1942 г.

Азерб.К(б)П МК Бюросу ичласынын ____ №-ли ____ 194 ил тарихли протоколундан чыхарыш
Выписка из протокола № 250 заседания Бюро ЦК КП(б) Азербайджана от 31.VIII- 1942 г.

ТЕЛЕГРАММА т.т.МАСЛЕННИКОВА,ГУБКИНА и ФОМИНЫХ
Г 782 от 30.VIII-1942 года.

Согласно просьбе т.Масленникова об оказании помощи в деле усиления политико-воспитательной работы среди бойцов 223 СД и укрепления политаппарата в ротах и батальонах:

1. Послать в 223 СД бригаду ЦК КП(б)Азербайджана в следующем составе:

1. Гезалова А.Х. - член ЦК КП(б)Азерб.
2. Шахгельдиева А.Г. - зав.отд.пропаганды и агитации БК КП(б)Азербайджана
3. Шахбазова Э.Н. - зав.военным отделом БК КП(б)Азерб.
4. Сулейман Рустама - инструктор отдела пропаганды и агитации БК КП(б)Азерб.
5. Мамедова Абдулла - зам.зав.отделом кадров ЦК КП(б)Аз
6. Багирова Ильяса - лектор отдела пропаганды ЦК КП(б) Азербайджана.

Предложить указанным товарищам не позднее 31.VIII-42г. вылететь в дивизию на самолете.

2. Поручить секретарям ЦК КП(б)Азербайджана т.т.Чеплакову и Кафар-Заде в 2-х дневный срок отобрать 20 чел.из числа политработников-азербайджанцев, находящихся в гор.Баку и числящихся в резерве Политуправления Закфронта, а также из числа партийно-политических работников республики и откомандировать их в распоряжение тов.Масленникова для назначения на должность политруков рот и комиссаров батальонов.

Отправку мобилизованных товарищей возложить на тов. Кафар-Заде и военкома республики тов.Исмайлова.

Секретарь ЦК КП(б) Азербайджана (М.Д.Багиров)

Правила о порядке хранения см. на обороте

Верно:

Hospitalların işinə dair arxiv sənədləri



Т. Алиеву Аруру

СОВЕРШЕННО СЕКРЕТНО.

187

С П Р А В К А.

О некоторых неполадках и недостатках в работе госпиталей.

Несмотря на принятия мер по улучшению качества лечения и питания бойцов, в ряде госпиталей отдельные ненормальности, недостатки, как в области лечения, так и питания больных продолжают иметь место:

Медсестры эвакогоспиталя № 3685 ГОРЯЧЕВА и ГОРДЕЕВА, неёная историю болезни лежавшего без сознания бойца ПАЛАШНИКОВА, сделали ему комфорный клол после чего дали ему из общего котла завтрак, не имея на это распоряжения врача.

После принятия пищи ПАЛАШНИКОВ умер.-

(По делу ГОРЯЧЕВОЙ и ГОРДЕЕВОЙ ведется расследование Прокуратурой Аз.ССР.)-

У бойца МУСАЕВА, лежавшего в госпитале № 3685, после ампутации обеих ног, открылось кровотечение, в связи с чем требовалась немедленная помощь. Однако из-за отсутствия дежурной сестры НИКУЛИНОЙ, которая в то время находилась в кино, тяжело больной МУСАЕВ лежал в палате один до прихода ночной смены, истекая кровью. Благодаря вмешательства врача ЗАКИЕВА, МУСАЕВУ было сделано вливание крови и этим спасли его жизнь.

(На НИКУЛИНУ наложено административное взыскание.)-

Начальник эвакогоспиталя № 1550 в гор.Кировабаде-БАДАЛЯН, выписывая за счет больных остро-дефицитные медикаменты- сульфидин, стрептоцид, реализовывал их на сторону, оставляя нуждающихся больных без этих медикаментов.

(О БАДАЛЯНЕ поставлен в известность секретарь Горкома КП(б) Аз. гор. Кировабада)

Аналогичные факты имеют место и в эвакогоспитале № 3690 в гор. Кировабаде.

Помимо изложенного в некоторых госпиталях были зафиксированы факты хищения и самоснабжения продуктами, предназначенными для раненых больных, так:

Начальник продснабжения эвакогоспиталя № 2473-МАРТИРОСОВ, во время доставки к себе домой взятых им из госпиталя-сливочное масло, макарон, муки, и крупы был пойман с поличным и отдан под суд.-

(По делу расхищения в эвакогоспитале № 2473 ведется расследование).-

188

АКОПОВОЙ, СУПРУН и другими устроили кутеж и напившись до потери сознания творили безобразия.-

(О слабой постановке политико-воспитательной работы в эвакогоспиталях № № 296 и 1550 информирован секретарь Горкома КП(б) Аз. гор. Кировабада.)

Комиссары госпиталей с ранеными больными работают еще слабо,им не раз"ясняют действительное положение,их не подготавливают и вместо того,что бы они возвращаясь домой или в часть были бы живыми агитаторами за поддержку фронта,наоборот,некоторые из них-раненых больных,возвращаются с отрицательными настроениями. Об этом свидетельствуют следующие выдержки из писем раненых больных:

Раненый боец БИБЕНКО С.М.,лежавший на излечении в эвакогоспитале во дворце культуры им. "ЛЕНИНА", в одном из своих писем товарищу писал:

"...Ты знаешь сколько я выполнил заданий,за что имею благодарность,ну я и дал жару этим немцам, недаром я представлен к награде.

Товарищ КОРОШКО,ведь тебя и меня можно считать трупами,а мы еще живем,но только так жить,как я живу, не желаю никому.Я об"ясняю тебе свою болезнь: у меня болит сердце,крутят ноги,чувствую сильную усталость и головокружение, а пища здесь грубая,жиров нет,не кушать не могу,а кушаю еще хуже, а последнее время у меня пухнет живот,вот я лежу и думаю, что с того,что я партизан-орденоносец,нет, теперь меня не ценят. И вот я обращаюсь теперь к тебе,помоги мне и для поддержки моего здоровья,если только ты мне веришь,вышли рублей 200-. Твои деньги за мной не пропадут. Писал я в Краснодар к жене,но ответа не получаю и сам не знаю что с ними...-

Другой раненый боец находившийся на излечении в госпитале № 1491- ПРОВОРЧУК А.Г. в своем письме знакомой в гор. Кисловодск пишет:

"...Нахожусь в Баку,лежу на боку и крайне нуждаюсь в Кисловодском воздухе. Кисловодские условия не сравнить с бакинскими.Здесь жуть и отвращение. Я хочу только одного-вырваться отсюда хоть куда нибудь в кишлаг.

Питание плохое и тяжелый воздух.Настроение жуткое,хотелось бы бежать,да в кольсонах задержат. Тяжело на душе из-за местных условий. У меня настолько настроение плохое,что не только не хочется писать,но даже и жить не хочется..."

О ФАКТАХ АНТИСОВЕТСКИХ ПРОЯВЛЕНИЙ.

Помимо ненормальностей в работе госпиталей выявлены факты антисоветских проявлений,как среди раненых больных, так и обслуживающего персонала.

Особый Отдел
Вх. № 2524
Отв. 30 XII 1942 г.

ГОСПИТАЛЬ

СОВ.СЕКРЕТНО.

СПРАВКА

О СОСТОЯНИИ РАБОТЫ ЭВАКОГОСПИТАЛЯ № 3688 НАХОДЯЩЕГОСЯ при БОЛЬНИЦЕ имени ШАУМЯНА.

В госпитале отсутствует должное руководство в работе со стороны начальника и Военкома, в результате как среди обслуживающего персонала, так и больных замечены случаи интимных отношений между работниками госпиталя, а также больных с обслуживающим персоналом, например:

1. Зам.Нач.по политчасти ЮВТИЦКИЙ имеет интимную связь с бухгалтером МУРАДОВОЙ Ниной.
2. Ординатор корпуса № 4 - врач ВЛАСТОПУЛО Ольга забеременела от больного.
3. Врач корпуса № 2- АБДУЛЛАЕВА Вера просиживает в палате № 7 целые вечера и дни около ходячего больного - Капитана ШИРИНОВА М.
4. Медсестра корпуса № 2 - МЕШАНКИНА А. увела больного к себе домой ночевать, за что решили ее снять с работы. Об этом даже написал в политдонесении Зам.Нач.по политчасти, но она все-же продолжает работать.

Об этих фактах по всему госпиталю идут нездоровые разговоры, которые безусловно действуют на молодых медсестер и санитарок, тем более когда руководящие работники госпиталя сами нарушают эту дисциплину.

В связи с этим в госпитале плохой уход за больными. Примером могут служить следующие факты:

Имеющиеся матрацы на кроватях более года ни разу не перебивались, морская трава в них залежалась, превратилась в труху и комья. Под больным получается комок вроде булыжника или же голая сетка кровати.

В связи с чем раненные больные неоднократно жалуются, ругают хозяек и говорят:

Известный профессор МИР-КАСУМОВ не использовывается по прямому назначению, а посылается в госпитали в качестве консультанта, тогда, как он сам предлагает свои услуги.

Ряд серьезных, по об'ему, госпиталей не обеспечен и врачами-терапевтами.

Это об'ясняется тем, что Наркомздрав Азерб.ССР вместо обеспечения госпиталей специалистами хирургами "пополняет" их состав за счет врачей терапевтов, оголяя терапевтические госпитали, так например:

Опытные врачи-терапевты ШТИВЕЛЬ, ОСИПЯН, ЛЕЙБЗОН и другие выполняют обязанности хирургов, а крупнейшие терапевтические госпитали за № № 3029, 3684, 1289 и другие совершенно лишены врачей-терапевтов.

Помимо изложенного выше в лечебной деятельности некоторых госпиталей выявлены и другие вопиющие факты преступно-халатного отношения к лечению раненых больных, а именно:

В эвакогоспитале № 1546 врач ОСТРОВСКАЯ, без учета состояния больного раненого красноармейца ФЕДОРОВА, последнему назначила восемь кислородных подушек, после чего больной погиб, тогда как о слабом состоянии этого больного, врач ОСТРОВСКАЯ своевременно была предупреждена.

В госпитале № 3681 находился на излечении раненый младший лейтенант БОРИСЕНКО Николай - по поводу огнестрельного ранения (внутрисуставный перелом костей). Болезнь приняла форму серьезного осложнения, что своевременно не было выявлено лечащими врачами и в результате неправильного лечения, раненый вскоре скончался. И только после смерти, при вскрытии трупа было обнаружено, что больной в процессе лечения, не был консультирован с другими опытными врачами.

У находящегося на излечении в эвакогоспитале № 1543 раненого красноармейца ЛОБОВА Петра имелся огнестрельный перелом шейки левого бедра, при наличии гнойной раны. При лечении больного посредством аппарата "Киршнера" из-за преступно-халатного отношения медперсонала, аппаратура эта сорвалась и упала, причинив больному серьезную травму (удар) в результате чего больной умер.

329

С эвакогоспиталя № 3678 был транспортирован раненый боец ВИНОКУР с диагнозом - опухоль мозга. В результате небрежной транспортировки больной вскоре умер.

Аналогичные факты преступного отношения к раненым больным имеют место и в других госпиталях.

В результате такой постановки лечебного дела, за март месяц 1942 года смертность среди раненых бойцов составила 82 случая.

НЕДОСТАТОК ФИЗИОТЕРАПЕВТИЧЕСКОЙ АППАРАТУРЫ И ПРОЧЕГО ИНСТРУМЕНТАРИЯ.

В ряде госпиталей ощущается острый недостаток физиотерапевтической аппаратуры и прочего инструментария, о чем говорят следующие факты:

В крупнейшем госпитале № 3340 нет физиотерапевтического кабинета, не оборудована операционная комната, тогда как 50 % больных в этом госпитале - это обмороженные, требующие физиотерапевтического лечения.

Из за отсутствия пинцетов врачи и остальной медперсонал снимают повязки с раненых грязными руками.

Имеются жалобы и на неправильное распределение медикаментов:

Не хватает таких первоочередных медикаментов, как стрептоциды, коффеин, салицил, сульфидин-сульфазол, мазь Вишневского, нашатырный спирт, кодеин, салол, антигангренозная сыворотка и т.д.

В инфекционном госпитале № 1548 отсутствуют такие необходимые медикаменты, как: салол, бисмут и т.д., тогда как в госпитале № 5030 (не инфекционный) эти лекарства имеются в изобилии и без использования, в связи с отсутствием надобности в них.

В госпиталях № № 1544, 3683 и др. не хватает перевязочного материала, главным образом, марли, бинтов и ваты, тогда как таковые имеются в избытке в хирургическом госпитале № 5029.

Почти все госпитали недостаточно обеспечены нательным бельем и халатами. Вместо положенных трех смен нательного белья имеются лишь две смены. В результате этого, а также неналаженности стирки, раненые больные бессменно ходят в грязном белье на протяжении 20 и более дней, что особенно замечается в госпиталях № № 1491, 1545, 5030 и др.

О НЕПОЛАДКАХ В ПИТАНИИ БОЛЬНЫХ.

В деле организации питания раненых больных также имеется ряд существенных недочетов, а именно:

В некоторых госпиталях имеются факты срыва снабжения из-за отсутствия транспорта. В госпиталях за № № 3679, 1491, 3686, 1545, 2473 во второй половине февраля и в первой половине марта мес.с/года были случаи несвоевременной доставки продуктов из баз.

В отдельных госпиталях отсутствуют кухни и приходится пищу приготавливать на кухнях ближайших госпиталей, например: госпиталь № 5029 на 300 коек не имеет своей кухни и пищу приготавливает в госпитале № 3686, доставляя таковую в ведрах и термосах на расстоянии 500 мтр.

Аналогичное положение существует и в госпиталях за № № 3688, 3680 и других. Мало того, для этих госпиталей пища готовится в близрасположенных гражданских больницах, в результате чего пища больным подается на 3-4 часа позже установленного времени.

Имеются факты безобразного хранения продуктов, в результате чего пища иногда готовится из испорченных продуктов, так например:

хранения

В госпитале № 3683 18-го марта 1942 года в приготовленной пище был использован испорченный томат.

Эта испорченная пища не была роздана раненым больным после нашего вмешательства.

В госпитале № 2473, 30-го марта 1942 года, вследствие плохого хранения продуктов, пришло в негодность 107 кгр. мяса.

330

В конце февраля с/года в госпитале № 3679 сгнило 350 кгр. картофеля, который подлежал уничтожению, согласно составленному акту.

Помимо того, в госпиталях были обнаружены и факты хищения и разбазаривания продуктов и пр.предметов, предназначенных для раненых больных:

В госпиталях № № 3679 и 1491 зафиксированы факты присвоения подарков, приносимых шефами для раненых больных, причем эти подарки на учет не брались и этим создавалась благоприятная почва для их присвоения.

Имеются факты, говорящие о том, что:

Начальник госпиталя № 3679 ДЖАНЖУТОВА присвоила картофель, предназначенный для питания раненых больных.

Факты хищений и присвоений зафиксированы и по другим госпиталям.

Аппараты отдельных госпиталей засорены социально чуждым и антисоветским элементом, так например:

Начальникгоспиталя № 1491 - ФАРАДЖЕВА Кюбра занималась самоснабжением и расхищением подарков, приносимых шефами раненым больным. К работе относилась халатно, в результате чего труп умершего красноармейца оставался в мертвецкой госпиталя на протяжении 24-х дней.

ФАРАДЖЕВА решением РК КП(б) Азерб.исключена из партии.

Начальник госпиталя № 3686 - БАХШАЛИЕВ Джангир, сын бывшего торговца, настроен пораженчески и высказывает свои антисоветские взгляды.

Начальник госпиталя № 3681 - ГАСАНБЕКОВА, дочь бывшего торговца. Муж ее арестован органами НКВД за к-р деятельность и осужден.

Начальник госпиталя № 2472 АШУМЛЫ Ашум - из помещичьей семьи, исключен из ВКП(б) за связь с врагами народа. К работе относится преступно-халатно и держит госпиталь в антисанитарном состоянии.

Хирург госпиталя № 1553 ПОЛЯКОВ И.Ф. - бывший белый офицер, к работе относится преступно-халатно, в результате чего, при лечении ноги боль-

ному ЛОБОВУ аппаратом "Киршнера", последний сорвался и упал, причинив больному раненому ЛОБОВУ серьезный удар, от которого больной умер.

Начальник отделения госпиталя № 1543 ТЕР-АКОПОВА София Артемовна, имеет брата бывшего офицера дашнакской армии, эмигрировавшего в 1924 году во Францию, преступно халатно относится к своей работе; госпиталь держит в антисанитарном состоянии. Кроме того, ТЕР-АКОПОВА в прошлом была тесно связана с разоблаченными врагами народа: АГРБА, АМАТУНИ, ВАЙНШТЕЙНОМ и другими.

Начальник снабжения госпиталя № 3680 - САФАРОВ Михаил Иванович, бывший белый офицер, преступно-халатно относится к работе. Зафиксированы факты несвоевременной доставки им продуктов для раненых больных, занимается самоснабжением.

ОБ АНТИСОВЕТСКИХ ПРОЯВЛЕНИЯХ СРЕДИ БОЛЬНЫХ И ОБСЛУЖИВАЮЩЕГО ПЕРСОНАЛА.

В результате засоренности обслуживающего персонала госпиталей и наличия среди раненых больных, находившихся в окружении и в плену у немцев, нами за последний период выявлен ряд антисоветских проявлений.

Этим антисоветским проявлениям создает благоприятную почву и наличие в ряде госпиталей серьезных дефектов, о чем говорилось выше. Из характерных антисоветских проявлений приводим следующие факты:

ЗЕМЛЯК Михаил Григорьевич - 1903 года рождения, уроженец гор.Харькова, Интендант 2 ранга, с высшим образованием, раненый больной, находящийся на излечении в госпитале № 1543, распространяет к-р провокационные слухи, восхваляет фашизм, возводя клевету на Красную Армию. ЗЕМЛЯК 15/II-1942 г., обращаясь к лечащему врачу, сказал:

"...Доктор, просвечивать не надо, все равно наша армия не победит немцев... Никогда не видел такую гнусную армию, как Красная Армия. Человек (указывая на себя) 7 месяцев находился на фронте и ему не дают отпуска..."

(Из показаний свид.ДАВИДСОНА от 16 марта 1942 года).

ЗЕМЛЯК М.Г. восхвалял немцев и в присутствии других лиц, а именно: 11 марта с/года он говорил:

331

"Немцы, по прибытии в Киев, созвали митинг, на котором об'явили о свободном выезде лиц, желающих покинуть Киев. Немцы из киевлян никого не репрессировали..."
(Из показ.свид.НУРМАМЕДОВА и СЕРВЕТНИКА от 16/III-1942 г.).

По делу ЗЕМЛЯКА М.Г. проведено расследование и оформляем его арест.

Находящийся на излечении в госпитале № 3688 раненый больной ТКАЧЕВ, 17/III-1942 года, в присутствии второго раненого больного САВОЧКИНА, заявил:

"О ходе войны в газетах пишут неправду. На самом деле положение на фронтах другое. Когда наши заходят в село, вскоре из домов открывается стрельба. Стреляют женщины-колхозницы и при входе в дома они кричат на наших, что: "Вот опять пришли грабители"... Многие женщины уходят с немцами, оставляя своих мужей и детей. Наши командиры лейтенанты в бой не вступают. Они напиваются пьяными и сидят в домах, а на нас-рядовых выезжают. Были факты, когда люди, бросая вооружение: пушки и автоматы-уходили к немцам. Немцы над пленными вовсе не издеваются..."

Эти к-р фашистские разговоры ТКАЧЕВА разделял беседовавший с ним САВОЧКИН.

В отношении ТКАЧЕВА и САВОЧКИНА нами принимаются необходимые мероприятия.

ЗЕЛЕНСКИЙ Иван Федорович - 1915 года рождения, уроженец станицы Макеевка УССР, беспартийный, раненый красноармеец, находящийся на излечении в госпитале № 1544, в марте месяце 1942 года, неоднократно, среди раненых больных и обслуживающего персонала госпиталя заявлял:

"Вы говорите, что затруднения с продуктами связаны с войной. А вы не знаете, что на Украине и до войны был голод? А дальше будет еще хуже. Правители всех стран умны, а Советское правительство плетется в хвосте. В СССР нет свободы слова, а газеты неправду пишут о том, что немцы, якобы, издеваются над мирным населением..."

ЗЕЛЕНСКИЙ нами арестован.

РАХУБА Алексей платонович - 1914 года рождения, уроженец гор.Николаев УССР, беспартийный, ране-

ный красноармеец, находящийся на излечении в госпитале № 1549, побывавший в плену у немцев, в разговорах со знакомыми по госпиталю, систематически восхваляет немцев, клеветнически утверждая о том, что, якобы, немцы над пленными не издеваются и что их кормят хорошо.

По делу РАХУБА проведено расследование и оформляется его арест.

Раненый больной МИЛЮТИН Тимофей (госпиталь № 1492), побывавший в плену у немцев, 12 марта с/года в своем окружении говорил:

"Трудящимся СССР жилось и живется очень плохо. Я занимал должность начальника Штаба части и, попав в плен, лично убедился, как немцы хорошо обращаются с населением оккупированных территорий..."

По делу МИЛЮТИНА Т. ведется следствие.

ГУЛАРЬЯН Бено Аршакович - раненый больной, находящийся на излечении в госпитале № 1544, ведет профашистскую агитацию. В беседе с работницей госпиталя МАЛИНСКОЙ Бертой, ГУЛАРЯН заявил:

"Советские газеты пишут неправду, чтобы у народа вызвать ненависть к немцам, но не верьте этим газетным сообщениям. Я сам находился в плену у немцев. Они никого не расстреливают и наоборот, под немецкой властью очень хорошо живется всем. На крымском фронте у меня ноги были обморожены и в плену за мной уход был прекрасный. Немецкие солдаты хорошо одеты, питаются шоколадом. Война против немцев бесцельна, победа будет за нами".

По делу ГУЛАРЬЯНА Б.А. следствие продолжается.

САЕНКО Василий Иванович - 1915 года рождения, уроженец Черниговской области, раненый больной, находящийся на излечении в госпитале № 5027, 27 марта 1942 года своим собеседникам заявил:

"Под городом Орлом, наше командование переоделось в гражданскую одежду и бежало в неизвестном направлении, а мы рядовые бойцы стали сдаваться в плен. В плену у немцев я не видел никаких издевательств над пленными. Наоборот, издевались у нас... питания никакого не было, голодали..."

В отношении САЕНКО В.И. нами принимаются соответ-

332

ствующие меры.

ДЕНИСОВ Дмитрий Игнатьевич - 1917 года рождения, уроженец Курской области, Лейтенант РККА, находящийся на излечении в госпитале № 1332, 18-го марта 1942 года, в своем окружении говорил:

"Будучи в немецком окружении, я своими глазами видел как немцы хорошо относятся к украинскому народу. Вот теперь там украинцы строят хорошую, зажиточную жизнь. Немцы одеты хорошо, они все стройные, упитанные, на руках имеют золотые часы и коль ца..."

ДЕНИСОВ имеет при себе часы с золотой цепочкой, ручку автомат и крест немецкого происхождения.

Мероприятия в отношении ДЕНИСОВА направлены на вскрытие его вражеской деятельности в пользу немцев.

ПИЦАК Федор Григорьевич - раненый больной, находящийся на излечении в госпитале № 5027, при себе хранил нелегально фашистскую печатную листовку и давал ее читать остальным раненым больным, высказывая свои контрреволюционные пораженческие настроения.

Принятыми нами мерами указанная листовка из'ята и оформляется арест ПИЦАКА Ф.Г.

ГРИЦУНОВ Федор Титович - лейтенант РККА, раненый, находящийся на излечении в госпитале №1491 также хранил при себе печатную фашистскую листовку с призывом - переходить на сторону немцев, давая ее читать остальным раненым больным.

ГРИЦУНОВ Ф.Т. нами арестован.

Среди раненых больных имеются отдельные бойцы, которые свои пораженческие настроения пытаются передавать своим родным и знакомым, путем посылки писем. Одним из характерных, но единичных фактов является нижеприведенная выдержка из письма раненого больного АСРОПИНИ И.В., адресованного одному из своих родственников в Краснодаре:

"... При высадке десанта на берег, мы опять подверглись бомбардировке. При этом все разбежались как мыши и залегли в окопы. 16-го января 1942 г. мы пошли в атаку и из 2-х наших рот вернулось только 25 человек... остальные погибли..."

(Выдержка из его письма).

Факты антисоветских проявлений имеют место и среди обслуживающего персонала госпиталей:

ТУМАНЯН Рубен Аркадьевич - начальник крупнейшего госпиталя № 1543, сын бывшего крупного помещика и судовладельца-дашнака, принимавшего активное участие в межнациональной резне в 1918 году, имеющий заграницей родного брата-эмигранта, бывшего офицера дашнакской армии и двух братьев, репрессированных органами НКВД, в своем окружении ведет профашистскую агитацию, заявляя:

"Гитлер гениальный человек. Он ведет умную политику. Каждое утро, вставая с постели, я думаю: кого поглотила за эту ночь Германия?"

В отношении ТУМАНЯНА проводим соответствующую работу.

МАТЮХОВ Иван - начальник снабжения Управления Местных Эвакопунктов, своим собеседникам заявил, что:

"Красная Армия слаба и она уже разбита. Мощная немецкая армия забрала такую огромную территорию, что вряд ли Красная Армия отобьет ее обратно..."

По делу МАТЮХОВА проводим необходимые мероприятия.

ЗУБАРЕВ Иван Максимович - охранник госпиталя № 1545, с высшим образованием (окончил Комвуз) 12 марта 1942 года, в пути следования пригородного поезда Мардакяны-Сураханы, клеветнически утверждал, что:

"...Троцкий, Зиновьев и Каменев стояли за рабочих и крестьян, а теперь руководители сидят на нашей шее... Войну с Германией вести бесцельно и все равно немцы победят..."

Работу в отношении ЗУБАРЕВА И.М. продолжаем.

НАРКОМ ВНУТРЕННИХ ДЕЛ АЗЕРБ.ССР
СТ.МАЙОР ГОС.БЕЗОПАСНОСТИ (ЯКУБОВ)

"12" апреля 1942 г.

гор.Баку.

СОВЕРШЕННО СЕКРЕТНО.

Особый Сектор ЦК ВКП(б) АзССР
№ 4744
13.II 1942 г.

327

С П Р А В К А

О состоянии эвакогоспиталей в Азербайджанской ССР,

по данным на I/IV-1942 г.

ОБЩЕЕ СОСТОЯНИЕ ГОСПИТАЛЕЙ.

В настоящее время, как в работе госпиталей, так и Наркомздрава Азерб.ССР по обслуживанию этих госпиталей, выявлен ряд серьезных недочетов.

Эти недочеты отрицательно отражающиеся на качестве и сроках лечения раненых, а также на политико-моральном состоянии бойцов, в основном сводятся к следующему:

НЕХВАТКА ВРАЧЕЙ И МЕДИКАМЕНТОВ:

Одним из серьезных дефектов в лечебной деятельности эвакуационных госпиталей является недостаток врачей, особенно хирургов. В настоящее время по всем госпиталям не хватает ведущих хирургов - 10 человек и рядовых - 30 чел. Этим и об'ясняется то положение, что в ряде госпиталей в качестве хирургов зачастую использовываются врачи терапевты.

Наркомздрав Азербайджанской ССР не обеспечил госпитали необходимым количеством медицинского персонала, ряд госпиталей вовсе не имеет врачей-хирургов, имеются факты, говорящие и о неправильной расстановке и использовании имеющихся хирургов, о чем свидетельствуют нижеприведенные два из характерных фактов:

Хирург БАБАЕВА недавно переведена из госпиталя № 3677, расположенного в Азизбековском районе и имеющего, в смысле об'ема и контингента больных с серьезными ранениями, важное значение на менее важный участок - в госпиталь № 5030, расположенный в городе, где имеются все возможности, в смысле своевременного получения хирургической помощи от близко расположенных госпиталей и других лечучреждений.



Фонд № 1
Опись № 28
Дело № 205/122
Коробка № 319

С П Р А В К И

О РАБОТЕ КАСПТАНКЕРА и КАСПФЛОТА.

1943 г.

на 7 листах

СЕКРЕТАРЮ ЦК КП/б/ АЗЕРБАЙДЖАНА

товарищу БАГИРОВУ М.Д.

О перевозке нефтепродуктов по Касптанкеру за 1940,1941,1943 г.г.

Флотом Касптанкера вывезено нефтепродуктов по всем направлениям:

в 1940 г.....13960 тысяч тонн
в 1941 г.....13333 " "
в 1943 г. .....12603 " /ориентировочно/

Перевозки на 1943 год приняты:

За 10 месяцев вывоз составил ..... 10703 тыс.тонн.
в ноябре полагаем вывезти ..... 1100 " "
в декабре " " ..... 800 ". "

Таким образом,перевозки за 1943 год ниже перевозок 1940 года / перевозки за 1940 год являются максимальными/- на 1257 и ниже перевозок 1941 года на 730 тыс. тонн.

В решающем Астраханском направлении вывезено:

в 1940 г. .....7487 тысяч тонн.
в 1941 г. .....7697 " "
в 1943 г. .....7309 " "

Однако,если учесть,что:

а/ В 1940 г. навигация на Астрахань была открыта 3-го апреля, а закрыта 20-го декабря,флот на Астрахань в навигационный период работал в течении 262-х дней;

б/ В 1941 году навигация на Астрахань была открыта 2-го марта,а закрыта 23-го ноября,навигационный период составил 267 дней;

в/ В 1943 году навигация открыта 30-го апреля и принято в расчет возможность закрытия навигации 25-го ноября,навигационный

период составляет 237 дней. При этом надо учесть, что в 1943 году навигация открылась при самых неблагоприятных для работы флота Рейдтанкера условиях когда первые 15 дней после открытия навигации занимались в основном стягиванием баржевого флота Рейдтанкера, зимовавшего в портах Баку, Красноводск, форт Шевченко и Гурьев.

Таким образом, плотность работы флота Каспитанкера в 1943 году выше чем в 1940 и 1941 г.г., т.к. на один день навигации падает перевозок:

в 1940 г. ..... 28600 тонн
в 1941 г..... 28800 "
и в 1943 г..... 30800 "

Уменьшение общего вывоза нефтепродуктов в 1943 году по отношению к 1940 и 1941 г.г. идет за счет перевозок на Махач-Кала, куда вывезено:

в 1940 г..... 4865 тысяч тонн
в 1941 г..... 3977 " "
в 1943 г..... 3208 " "

Таким образом, перевозки в 1943 году на Махач-Кала ниже 1940 года на 1657 тысяч тонн и ниже чем в 1941 году на 769 тыс. тонн.

В практике максимальный вывоз падает на период июль-октябрь. Перевозки за этот период составили:

Всего:	в том числе на Астрахань:
в 1940 г. ..... 5743 тыс. тонн	3944 тыс. тонн
в 1941 г. ..... 5420 " "	3919 " "
в 1943 г. ..... 5748 " "	4153 " "

Из приведенных данных видно, что общие перевозки за этот период больше против 1940 года на 5 тысяч тонн и против 1941 г. на 328 тыс. тонн. Причем в решающем Астраханском направлении увеличение составляет против 1940 г. - на 209 тыс. тонн
" 1941 г. - на 234 " "

Характерно отметить, что за указанный период плотность работы флота в 1943 году выше 1940 г. - на 2,5 %
и " 1941 г. - на 12 %

потому, что исходя из фактических данных за указанные годы на 1000 тоннаже-суток перевозок падает:

в 1940 г..... 275 тонн
в 1941 г..... 252 "
в 1943 г..... 282 "

В связи с тем, что перевозки нефтепродуктов в 1942 г. составили только 8276,5 тыс. тонн, данные по этому году мной не приводят

НАЧАЛЬНИК КАСПТАНКЕРА- /М.Д.РАГИМОВ/.

" 13 " ноября 1943 г.

г.Баку.

3

ПЕРЕВОЗКИ ГРУЗОВ ПО КВАРТАЛЬНО и в ГОДОВОМ РАЗРЕЗЕ за 1942 год.

Вид перевозок:	I-й квартал			II-й квартал			III-й квартал			IV-й квартал			Всего за 1942 год		
	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%
Всего перевез. тыс. тн.	425,0	216,6	51,0	355,0	206,4	58,1	335,0	234,1	70,0	342,0	331,7	97,0	1377,0	988,8	71,7
В том числе импорт...	-	36,4	-	-	31,7	-	-	42,2	-	-	72,0	-	288,0	182,3	63,3
Кроме того вода.....	85,0	72,2	85,0	75,0	75,0	100,0	25,0	56,9	228,1	48,0	67,5	145,5	223,0	271,6	121,5
ВСЕГО перевозок в тыс. тонн....	510,0	288,8	57,4	430,0	281,4	65,4	360,0	291,0	81,0	390,0	399,2	105,0	1600,0	1260,4	78,8
ВСЕГО тонно-миль в мил.	131,5	64,6	49,2	109,9	70,4	64,2	99,4	69,4	69,9	77,0	84,1	109,2	431,3	288,5	67,0
ВСЕГО перевезено пассажиров в тысячах	85,0	122,4	144,0	100,0	97,3	97,3	112,0	185,7	165,8	66,7	34,5	51,7	368,7	439,9	121,0
ВСЕГО пассажиро-миль в мил.....	17,8	26,1	146,6	20,6	24,5	118,9	28,1	44,6	158,7	17,3	7,6	43,9	83,8	102,8	122,6

ПРИМЕЧАНИЕ: Помимо перевезенных физических тонн, указанных в таблице, отвлекавшимся тоннажем перевезено специальных грузов 103,4 тыс. тонн и сделано тонно-миль 18,3 мил. С учетом указанных перевозок общие перевозки составят: 1363,8 тыс. тонн, или 85,3% к плану и сделано тонно-миль 306,8 мил., или 71,3% к плану.

НАЧАЛЬНИК КАСПФЛОТА: Макаренко /П.МАКАРЕНКО/.

НАЧАЛЬНИК ПЛАНОВОГО ОТДЕЛА КАСПФЛОТА: /ПАПЕР/.

ПЕРЕВОЗКИ ГРУЗОВ ПО КВАРТАЛЬНО и в ГОДОВОМ РАЗРЕЗЕ за 1942 год.

Вид перевозок:	I-й квартал			II-й квартал			III-й квартал			IV-й квартал			Всего за 1942 год		
	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%
Всего перевез. тыс. тн.	425,0	216,6	51,0	355,0	206,4	58,1	335,0	234,1	70,0	342,0	331,7	97,0	1377,0	988,8	71,7
В том числе импорт...	=	36,4	=	=	31,7	=	=	42,2	=	=	72,0	=	288,0	182,3	63,3
Кроме того вода.....	85,0	72,2	85,0	75,0	75,0	100,0	25,0	56,9	228,1	48,0	67,5	145,5	223,0	271,6	121,5
ВСЕГО перевозок в тыс. тонн....	510,0	288,8	57,4	430,0	281,4	65,4	360,0	291,0	81,0	390,0	399,2	105,0	1600,0	1260,4	78,8
ВСЕГО тонно-миль в мил.	131,5	64,6	49,2	109,9	70,4	64,2	99,4	69,4	69,9	77,0	84,1	109,2	431,3	288,5	67,0
ВСЕГО перевезено пассажиров в тысячах	85,0	122,4	144,0	100,0	97,3	97,3	112,0	185,7	165,8	66,7	34,5	51,7	363,7	439,9	121,0
ВСЕГО пассажиро-миль в мил.....	17,8	26,1	146,6	20,6	24,5	118,9	28,1	44,6	158,7	17,3	7,6	43,9	83,8	102,8	122,6

ПРИМЕЧАНИЕ: Помимо перевезенных физических тонн, указанных в таблице, отдельными тоннажем перевезено специальных грузов 183,4 тыс. тонн и сделано тонно-миль 18,3 мил.. С учетом указанных перевозок общие перевозки составят 1783,8 тыс. тонн, или 85,3% к плану и сделано тонно-миль 306,8 мил., или 71,3% к плану.

НАЧАЛЬНИК КАСПФЛОТА: Макаренко /П.МАКАРЕНКО/.

НАЧАЛЬНИК ПЛАНОВОГО ОТДЕЛА КАСПФЛОТА: /ПАПЕР/.

4

ВЫПОЛНЕНИЕ ГОДОВОГО ПЛАНА ПЕРЕВОЗОК ПО КВАРТАЛНО
и за 10-ть месяцев 1943 года.

Виды перевозок:	I квартал			II квартал			III квартал			Октябрь м-ц			ВСЕГО за 10 м-цев		
	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%	План	выпол.	%
Всего перевозок в тысяч тонн:	490,0	335,8	68,6	364,0	336,9	92,5	386,0	409,3	105,8	152,0	161,1	106,0	1480,0	1242,8	84,0
В том числе импорт	180,0	96,1	53,4	165,0	149,3	90,7	255,0	233,6	91,6	95,0	100,9	106,2	655,0	579,5	88,5
Кроме того вода...	50,0	71,1	142,1	60,0	67,3	112,1	54,0	74,7	138,1	-	26,3	-	265,0	239,4	90,3
ВСЕГО пере ревезено тонн в тысячах	540,0	406,7	75,3	424,0	404,2	95,4	440,0	484,0	109,8	178,3	187,4	105,2	1745,0	1482,2	84,9
ВСЕГО тонно миль миллион...	105,0	81,7	78,0	114,4	100,0	87,5	120,5	119,7	99,4	43,7	46,9	107,0	450,4	348,3	77,3
ВСЕГО пассаж.в тыс.	150,0	85,0	56,7	120,0	105,6	88,2	100,0	77,3	77,3	26,7	29,2	96,4	415,0	297,1	71,6
Пассажиро-миль в миллионах...	30,0	16,3	54,2	26,6	26,0	97,4	24,0	17,4	72,5	6,3	7,7	122,1	101,5	67,4	66,2

Остается перевезти до конца года:

1/ Сухогрузов - 239,9 тыс.тн.
2/ Вода - 25,6 " "

ВСЕГО ..... 264,7 тыс.тн.

тонно-миль... 103,3 мил.

НАЧАЛНИК КАСПЭЛОТА: Мандзенко — /П.МАКАРЕНКО/.

НАЧАЛНИК ПЛАНОВОГО ОТДЕЛА КАСПЭЛОТА: /Папер/.

Azərbaycan tarixinin saxtalaşdirilmasına dair arxiv sənədləri
(P.B.Mosesovun işi)


Рецензия на работу
П.Б. Мосесова „Гражданская
Война в Азербайджане" (1917-1920)

Начато 11 февраля 1944 г.
Окон. 18 сентября 1944 г.
На 51 листах

Фонд № 1
Опись № 29
Дело № 197
Единица № 97

Гражданской
Войны

30

ИГВ

Коминтерна,9

№ 1517/06

Секретарю ЦК КП/б/ Азербайджана
тов.БАГИРОВУ М.Д.

вопрос:

Дорогой товарищ !

Докторант Академии Наук СССР П.Б.МОСЕСОВ закончил свою диссертацию на соискание ученой степени доктора исторических наук: "Гражданская война в Азербайджане" /1917-1920 гг./.

Монография тов.Мосесова является первой научной работой, посвященной гражданской войне в Азербайджане. До работы тов.Мосесова были лишь отдельные статьи, частью устаревые или из"ятые из научного обихода, и некоторые работы, посвященные лишь отдельным вопросам гражданской войны в Азербайджане. Таким образом, докторская диссертация тов.Мосесова приобретает огромный научный интерес и большую политическую значимость. Автор привлек новый,ранее не опубликованный материал центральных архивов и государственного архива Азербайджана, института им.Шаумяна и материалы печати. Заслуга тов.Мосесова заключается в том, что он дал историю гражданской войны в Азербайджане на фоне общих событий, имевших место в стране в целом, и на Кавказе в частности.

Исходя из того, что это - первая работа по гражданской войне в Азербайджане, мы Вас очень просим просмотреть ее и высказать свои соображения.

Срок докторантуры тов.Мосесова кончается I апреля, а защита диссертации назначена на середину марта 1944 года. Официальными оппонентами выступают: члены корреспонденты Академии Наук СССР И.И.МИНЦ и А.М.ПАНКРАТОВА и доктор исторических наук профессор М.М.РАЗГОН.

Мы уверены, что докторская диссертация тов.Мосесова при некоторой переработке, будучи опубликована, принесет большую пользу исторической науке.

Член-корреспондент АН СССР: /И.И.МИНЦ/

Член-корреспондент АН СССР: /А.М.ПАНКРАТОВА/

пр.

1
32

Из РАСПОРЯЖЕНИЯ № 503

по АКАДЕМИИ НАУК СССР г. Москва

4 октября 1943 года.

§ 1.

Перевести докторанта без отрыва от основной работы Азербайджанского Филиала Академии Наук СССР МОСЕСОВА Петроса Багдасаровича в основную докторантуру Комиссии по истории Великой Отечественной войны Академии Наук СССР с 1 октября 1943 года сроком до 1 апреля 1944 года....

Утвердить члена-корреспондента Академии Наук СССР И. И. МИНЦ научным консультантом по теме докторанта П. В. МОСЕСОВА: "Гражданская война в Азербайджане в 1917-1920гг"

ОСНОВАНИЕ: Представление Зам. Председателя Комиссии по истории Великой Отечественной войны члена-корреспондента АН СССР И. И. Минц от 24.IX-1943 г. № 129/06 и отношение Азербайджанского филиала Академии Наук СССР от 11.IX-1943г

П.П. Вице-Президент Академии Наук СССР
Академик (БАЙКОВ А.А.)

АКАДЕМИК -секретарь Академии Наук
СССР ~~Академик~~ (Н.Г. БРУЕВИЧ)

Верно:
Инст. искусств. Ин-ту "СОВ... ГУВ... Нефти ТМБИ Академии СССР им. Абдуллаева" Ин-ТТ АН СССР

2
33

Утвержден
Научным консультантом
" " Октябрь 1943г.
Москва.

П л а н - с о д е р ж а н и е

(докторской диссертации на тему " Гражданская война в Азербайджане 1917-1920 г.г. ").

От автора - докторанта

Введение

Азербайджан-бывшая колониальная окраина

Глава 1.- Азербайджан в период мировой войны и февральской революции 1917 г. в России.

Баку и Азербайджан в период подготовки и проведения Великой Октябрьской Социалистической Революции
(апрель 1917 - март 1918 г.)

Глава П. Борьба за перерастание буржуазно-демократической революции в революцию социалистическую в Азербайджане.

Глава Ш. Провозглашение Советской власти в Баку и борьба за Советскую власть в Азербайджане.

Победа советской власти в Баку (март-июль 1918 г.)

Глава 1У.- Бакинская коммуна.

Глава У.- Бакинский Совнарком-организатор борьбы бакинского пролетариата и народов Закавказья против Германо-турецких оккупантов.

Глава У1.- Временное падение Советской власти в Баку. Гибель 26 Бакинских комиссаров.

Период господства мусавата (Сентябрь 1918- Апрель 192(

Глава- УП - Переезд мусаватского правительства в Баку и его деятельность.

Глава УШ.- Советская власть на Мугани (апрель-июль 1919г.)

Глава 1Х.- Рабочая конференция-" Рабочий Парламент" при мусавате.

3
34

Глава X.- Подпольная работа большевиков Азербайджана при мусавате. Подготовка вооруженного восстания народа.

Глава XI.- Мусават- правительство " наибольшего зла" для народа.

Глава XII.- Мусават и Деникин. Попытка создания нового блока Закавказской реакции для борьбы против Советской России.

Азербайджан социалистический (Апрель 1920-Май 1921г

Глава XIII. - Победа Октябрьской Социалистической революции в Азербайджане.

Глава XIУ.- Первые шаги Советского Азербайджана.

Заключение

ПРИЛОЖЕНИЯ: 1. Даты важнейших событий
2. Библиография
3. Список иллюстраций.-

Об"ем работы определен в 20-25 печатных листов.

П. Моисеев (МОИСЕЕВ П.В.)

№ 2084
18-6-44 г

СЕКРЕТАРЮ ЦК ВКП(б)

товарищу МАЛЕНКОВУ.

Считаю необходимым информировать Вас об одном факте небрежного и недопустимого для видных работников идеологического фронта, отношения и рецензированию научно-исторической работы.

В феврале 1944 года в ЦК КП(б) Азербайджана поступила диссертация докторанта Академии наук СССР П.Б. Мосесова на тему :" Гражданская война в Азербайджане "(1917-1920гг.), представленная на соискание ученой степени доктора исторических наук. К работе тов. Мосесова были приложены отзывы членов-корреспондентов Академии Наук т.т. И.И. Минца и А.М. Панкратовой и доктора исторических наук профессора И.М. Разгон. Эти отзывы рекомендовали работу тов. Мосесова, как вполне отвечающую требованиям, пред"явленным к докторской диссертации, и представляющую большой научно-исторический интерес. Товарищи Минц и Панкратова в своем письме ЦК КП(б) Азербайджана отмечают, что " докторская диссертация т. Мосесова приобретает огромный научный интерес и большую политическую значимость ... Заслуга тов. Мосесова заключается в том, что он дал историю гражданской войны в Азербайджане на фоне общих событий, имевших место в стране в целом и на Кавказе в частности".

В рецензии профессора Панкратовой говорится, что у тов. Мосесова " получилась весьма солидная по размерам и серьезная по выполнению монография, в которой автору удалось показать один из важнейших периодов политической истории Азербайджана". По словам проф. Разгона, т. Мосесов " воссоздал подлинную картину борьбы трудящихся Азербайджана за власть Советов ".

Однако, при тщательном ознакомлении с диссертацией тов. Мосесова выяснилось, что рецензии т.т. Минца, Панкратовой и Разгона далеко не соответствуют содержанию работы и создают неправильное представление о ней.

Работа тов. Мосесова не только не является глубоким научным исследованием вопроса о гражданской войне в Азербайджане в период 1917-1920гг., но и искажает подлинную историю борьбы азербайджанского народа за Советскую власть. Автор не дает, хотя бы в общих чертах, действительной картины экономического и социально-политического положения Азербайджана накануне февральской буржуазно-демократической революции и Великой Октябрьской Социалистической революции,

РЕЦЕНЗИЯ НА РАБОТУ П.Б.МОСЕСОВА

"ГРАЖДАНСКАЯ ВОЙНА В АЗЕРБАЙДЖАНЕ"(1917-1920 г.г.)

(Докторская диссертация)

(593 машинописных страницы)

Рецензируемая работа посвящена одному из важнейших периодов истории Азербайджана - периоду подготовки и проведения пролетарской революции в Азербайджане и гражданской войны.Работа состоит из введения и 5 разделов с заключением и приложениями.

За годы советской власти в Азербайджане было написано немало книг,брошюр и статей на тему о борьбе за советскую власть и о гражданской войне в Азербайджане. Большинство этих книг,брошюр и статей было посвящено отдельным вопросам и периодам истории пролетарской революции и гражданской войны в Азербайджане.Авторы этих работ уделяли свое внимание главным образом,событиям,разыгравшимся в период 1917-1918 г.г. в Баку,часто забывая весь остальной Азербайджан,не привлекали к этим работам материалов по революционному движению вне Баку,абсолютно затуманивали вопросы крестьянского и национально-освободительного движения. Больше того,за исключением 2-3 работ,все означенные труды содержали грубые фактические, идеологические и политические ошибки,а порой прямую вражескую пропаганду и клевету на трудящихся Азербайджана,на большевистскую организацию. Поэтому эти так называемые "труды" давно выбыли из обихода.В настоящее время новейшими трудами, посвященными вопросам борьбы за пролетарскую революцию и гражданской войны в Азербайджане являются труды Бурджалова: "26 бакинских комиссаров", "Из истории борьбы за Великую пролетарскую революцию в Азербайджане",которые охватывают период до осени 1918 года.

Безусловно,сейчас чувствуется отсутствие большого научного труда,посвященного всему периоду борьбы за социалистическую революцию в Азербайджане. Тема работы тов.Мосесова с этой точки зрения представляет интерес,поскольку она хронологически охватывает весь означенный период.

Автор рецензируемой работы "Гражданская война в Азербайджане" поставил перед собой целью показать на фактическом материале весь процесс борьбы за победу советской власти в Азербайджане в период 1917-1920 гг. Автору удалось собрать, правда далеко не полный,материал,главным образом из периодической печати,некоторое количество документов из архивных хранилищ Баку и отчасти Москвы.Это является положительным моментом в работе тов.Мосесова.Особенно надо отметить некоторые документы предоставленные автору редакцией "Истории гражданской войны в СССР",среди которых имеются тезисы доклада тов.Микояна "К кавказскому вопросу" на имя ЦК ВКП(б)

Однако, вопреки своему желанию, тов. Моссесов в своей книге далеко не достиг поставленной цели. В работе, прежде всего, явно бросается в глаза непростительная спешка при написании работы. Газетные материалы совершенно не обработаны и научно не анализированы, в результате чего получается сбор газетных сообщений, часто не связанных друг с другом. Поэтому книга носит характер хроники событий в основном по газетным материалам, при чем в довольно неряшливом виде. Десятки страниц состоят из этих газетных сообщений, посвященных разным событиям и явлениям и ни одно событие или явление не находит своего научного разрешения. Автор просто приводит выдержки из газетных сообщений и, не комментируя, не анализируя их, помещает в своей работе. Таким образом, автор обнаруживает неуменье пользоваться материалами периодической печати и архивов для написания работы на историческую тему.

Автор обнаруживает поверхностное, очень плохое знание истории Азербайджана XX века, в частности 1917-1920 г.г. В работе явно запутаны даты возникновения, функционирования и ликвидации политических органов пролетариата, буржуазии, помещиков. Вследствие плохого знания предмета, вопросы экономического и социально-политического положения Азербайджана, как накануне так и после Февральской революции 1917 года показаны неправильно.

Автор страдает манерой цитирования вражеских документов без комментарий и анализа, тем самым фактически допускает пропаганду вражеских идей в своей работе. Поэтому порой трудно понять отношение самого автора к тем или другим вражеским документам.

Автор работы оставляет неосвещенным ряд важнейших событий и явлений в истории Азербайджана 1917-1920 г.г., имевших прямое отношение к вопросу гражданской войны в Азербайджане. Без показа означенных событий вообще невозможна правильная научная разработка истории гражданской войны в Азербайджане.

Первый раздел работы (стр.9-49), несмотря на довольно достаточный его об"ем, не дает хотя бы в общих чертах действительной картины экономического и социально-политического положения Азербайджана накануне Февральской революции 1917 года. Таким образом, предпосылки Февральской буржуазно-демократической революции, тем более Великой Октябрьской революции в Азербайджане, не находят в работе своего отражения. Отсюда неправильное понимание автором ряда важнейших явлений, связанных с этими предпосылками в процессе подготовки и проведения Великой Октябрьской революции в Азербайджане.

Работа тов. Моссесова содержит множество политических и методологических ошибок и недочетов, искажающих действительный ход исторических событий в Азербайджане в рассматриваемый период. Эти ошибки порождают новые ошибки в области рабочего, крестьянского, национального и государственного вопросов.

Одним из существеннейших недостатков рецензируемой книги является неправильный показ автором процесса перера-

центральной России и, якобы, для такого показа истории Азербайджана он приводит много цитат из высказываний основоположников марксизма-ленинизма. Но эти высказывания он абсолютно не связывает со всеми специфическими условиями, присущими Азербайджану, а конкретный ход революции в Азербайджане он дает совершенно не связанно с событиями в Центральной России.

Одним из самых больших недостатков работы т.Мосесова является неправильное его представление об азербайджанской действительности, явно неправильный показ места и роли рабочих и крестьян-азербайджанцев в общем революционном развитии своей страны. По всей книге красной нитью проводится мысль о том, что рабочие и крестьяне-азербайджанцы все время отставали от рабочих и крестьян других национальностей, как до, так и после Октябрьской революции. Тем самым автор сводит на-нет ту самую громадную партийно-революционную работу, которую вели азербайджанские большевики под непосредственным руководством товарища Сталина в течение всего XX века в Азербайджане и особенно среди азербайджанцев. Таким образом, настоящая работа представляет собою историю гражданской войны в Азербайджане без участия в ней азербайджанского народа.

Автор совершенно запутался в очень сложном в Закавказье национальном вопросе, которым так долго и серьезно пришлось заниматься большевистской партии в Азербайджане и Закавказье.

Автор совершенно не ставит вопроса о национальном движении в Азербайджане в период до Февральской революции, между Февральской и Октябрьской революцией и после Октябрьской революции.

Автор абсолютно не интересовался национальной буржуазией и помещиками, не показав их положение и политические взгляды. Таким образом, остался открытым вопрос о том, - против кого велась пролетарская борьба. Автор не мог дать ленинско-сталинского анализа национального вопроса в Азербайджане и Закавказье.

Автор неправильно понял и осветил азербайджано-армянские отношения в Закавказье. Во-первых, он намного снизил контрреволюционную роль армянской буржуазии и помещиков и их партии Дашнакцутюн; во-вторых, он не сумел полностью вскрыть националистическое контрреволюционное нутро партий Мусават, Дашнакцутюн и меньшевиков.

Тов.Мосесов не ставит вопроса о союзе рабочих и крестьян в подготовке и проведении пролетарской революции в Азербайджане. В работе не показывается процесс установления союза рабочего класса Баку с азербайджанским крестьянством без которого невозможно было понять осуществление победы советской власти в Азербайджане. Автор не показывает, почем не удалось осуществить союз бакинских рабочих с крестьянам

11

Азербайджане в период советской власти в Баку в 1918 году, что явилось основной причиной временного поражения советской власти в Баку. Он также не показывает осуществление этого союза в годы господства мусаватистов в Азербайджане. Именно в силу осуществления этого союза большевистской организацией была обеспечена окончательная победа советской власти во всем Азербайджане в 1920 году.

Здесь же необходимо указать на отсутствие какого-либо серьезного материала в работе о крестьянском движении в Азербайджане в рассматриваемый период. Тов.Мосесов не только не разработал ход и характер крестьянского движения в Азербайджане в период перерастания буржуазно-демократической революции в социалистическую, но он даже оставил в тени такие крупные вооруженные схватки крестьян с помещиками, которые имели место в первой половине 1918 года, во всем 1919 году и, особенно, накануне апрельского переворота в 1920 году.

Одним из важнейших недостатков в этой работе является изложение истории гражданской войны без описания военных действий. Автор не собрал имеющийся большой фактический материал для всестороннего показа военных действий, как в период советской власти в Баку в 1918 г., так и в период установления советской власти во всем Азербайджане в 1920 году.

В работе гражданская война в Азербайджане прерывается с момента свержения мусаватского правительства, а все остальные события по установлению советской власти во всем Азербайджане даны вне гражданской войны и без показа военных действий.

Тов.Мосесов не понял, что борьба трудящихся масс Азербайджана против господствующих классов и иностранных империалистов в этот период приобрела форму гражданской войны против своих угнетателей и освободительной войны против иностранных интервентов.

В работе тов.Мосесова интервенция иностранных империалистов дана слабо, абсолютно не показаны методы колониальной политики интервентов в Азербайджане, вызвавшие жгучую ненависть в народе к интервентам и их мусаватско-дашнакско-меньшевистским лакеям. За то автор выставляет интервентов, как примирителей национальных и социальных противоречий.

Тов.Мосесов не дает хотя бы беглым очерком организующую и руководящую роль большевиков в борьбе трудящихся Азербайджана против внутренней и внешней контрреволюции, не связывает отдельные партийные конференции, резолюции, решения с конкретными событиями в стране, не показывает внутрипартийную борьбу большевиков против национал-уклонистов, оппортунистов и всякого рода врагов партии.

Работа тов.Мосесова содержит множество ошибок и недочетов, на каждом из которых нет возможности остановиться в настоящей рецензии, поэтому в рецензии обращено внимание на важнейшие из недочетов и ошибок. Ниже мы приводим примеры, подтверждающие все вышесказанное.

12

Автор высказывания царского наместника Воронцова-Дашкова, небезызвестного мусаватиста Хан-Хойского, махрового меньшевика Чхеидзе цитирует по Ленину, не желая позаботиться найти оригинал Всеподданнейшего отчета наместника царю, стенографический отчеты Государственной Думы и т.д.

Или, например, автор на стр.35-36 своей работы решил цитировать выдержку из письма Воронцова-Дашкова на имя Николая II, в связи с уходом первого с поста наместника. Содержание этого письма сводится к тому, что Воронцов делится общими своими суждениями о ведении войны и т.д. Спрашивается - зачем понадобилось автору привести из письма Воронцова длинную цитату, занимающую целую страницу, которая никакого прямого отношения, как к теме работы так и к разделу 1-му не имеет.

То же самое надо сказать относительно решения Тифлисской Городской Думы в связи с свержением царя Николая II (стр.42). Кстати, вызывает недоумение то, что т.Мосесов, поместив в своей работе обращение Особого Закавказского Комитета к населению, оставил его без всякий комментарий (стр.47). Спрашивается - зачем нужно было привести этот документ.

Автор не ставит перед собою вопросов и не отвечает на них. Вместе с тем, целых 20-30 страниц работы представляют собою лишь сбор материалов. Например, на 20-ти страницах (с.с. 60-80) говорится о 8-ми часовом рабочем днем, о крестьянском с"езде, с"езде моряков, наступлении русских войск на фронтах, о колдоговоре, о присоединении промысловых районов к городу, о продовольственном вопросе, о поездке Шаумяна в Москву, о партийной конференции РСДРП в Баку, об июльских событиях в Петрограде, о с"езде рыбаков и т.д. Причем, все эти разрозненные материалы и сообщения не имеют между собой никакой связи, не отвечают ни на какие вопросы и вообще каждый в отдельности не находит своего научного разрешения в тексте.

Автор цитирует неудачное место из выступления тов.Джапаридзе о том, что большевики были вынуждены взять власть в Баку в свои руки и т.д. (стр.127)

На стр.157 автор, приводя телеграмму азербайджанского капиталиста Тагиева (кстати, автор неправильно пишет имя Тагиева) на имя Закавказского Сейма (у автора - Закавказское правительство), в которой говорится, что мусульмане гор.Баку не проявляют никакой враждебности к армянам и т.д. Этой телеграммой Тагиев хотел как бы замести следы преступления мусаватистов в дни мартовских боев и спасти их от народного гнева, а тов.Мосесов, не поняв сущности этого письма, истолковывает его, как подтверждение своих положений о том, что мартовские события представляли собой классовую борьбу. Это не только неуменье пользоваться материалом, но и искажение вопроса о роли Тагиева и подобных тузов бакинской промышленности в деле организации сил контрреволюции и ведения войны против советской власти. Таких примеров из книги можно привести десятки.

Эти примеры говорят о том, что тов.Мосесов, как историк, не умеет владеть материалом, использовать этот материал для освещения тех или иных вопросов.

Ниже мы приводим примеры, говорящие о том, что т. Мосесов плохо знает историю Азербайджана, в том числе период с 1917 по 1920 год.

На стр.6-й автор пишет: "В течение этого времени (автор имеет ввиду период с апреля 1917 г. до марта 1918г.) в Азербайджане происходила борьба за перерастание буржуазно-демократической революции в социалистическую, провозглашение советской власти в ноябре 1917 года и борьба за советскую власть в Баку и в Азербайджане в связи с усилением реакции и контрреволюции, в Азербайджане - в лице мусаватистов, дашнаков и меньшевиков, и в Закавказье - в лице меньшевистского "социалистического" правительства Грузии и Временного правительства (Озаком) на Кавказе". Автор явно путает дату возникновения и ликвидации буржуазных органов власти, ибо известно, что Особый Закавказский Комитет (Озаком) был ликвидирован вскоре после совершения Октябрьской социалистической революции и никак не мог существовать до марта 1918 года. Известно также, что до марта 1918 года так называемого меньшевистского социалистического правительства в Грузии вовсе не было (если автор имеет ввиду грузинское правительство, созданное в конце мая 1918 г.), а существовал Закавказский Комиссариат и позже (с февраля 1918г.) - Закавказский Сейм, которые никак не могли быть социалистическими ни в кавычках, ни без кавычек. Такая путаница с меньшевистским правительством в Закавказье, о Закавказским Комиссариатом имеется и на стр.стр.103, 104, 110 и других рецензируемой работы.

На стр.13-й говорится о том, что наместничество на Кавказе было учреждено при Екатерине II (умерла в 1796 г.) и что оно было восстановлено в 1905 году. Во-первых, выходит, что Кавказ составлял часть России со времен Екатерины II, Во-вторых, автору, очевидно, неизвестно, что еще в сороковых годах XIX века Главнокомандующий Воронцов имели также полномочия наместника царя.

На стр.15-й автор пишет, что 19 февраля 1861 года было отменено крепостное право в России, а на Кавказе местными властями не было проведено в жизнь. Здесь явное незнание этого вопроса и путаница. Во-первых, формально реформа была проведена и в Закавказье. Она была проведена в Грузии в 1864 году, в Азербайджане в 1870 г. и в Закательском округе в 1880 г. Во-вторых, мнение автора о том, что крестьянская реформа на Кавказе "ни в какой степени не была проведена в жизнь", явно противоречит ленинской оценке реформы 1861 года.

На стр.15-й говорится: "Реформа на Кавказе имела цель привести в систему неограниченное до сих пор господство крупного барщинного хозяйства над мелкими производителями, т.е. трудовым крестьянством". Эта фраза взята без кавычек из законопроекта о ликвидации крепостнических отношений на Кавказе, представленного фракцией социал-демократов, трудовиков и примыкающих к ним в Государственную Думу. Причем, автор, выдавая этот текст как свой, исказил содержание его, а именно: в законопроекте говорится -

14

"неорганизованное др этой поры господство крупного барщинного хозяйства", а тов.Мосесов пишет: "неограниченное до этой поры господство крупного барщинного хозяйства". Этот текст в редакции автора получает бессмысленность, ибо ничего не означает приведение в систему неограниченного господства крупного барщинного хозяйства .

Автор, очевидно, не знает точной даты создания Комитета Революционной Обороны гор.Баку и пишет на стр.147 - "В первой половине марта 1918 года было опубликовано возвание Комитета Революционной Обороны гор.Баку". Выходит, что Комитет был образован в первой половине марта 1918 года, в то время как известно, что Комитет Революционной Обороны был образован в ночь на 19-е марта 1918 г.

На стр.113 говорится, что меньшевики формировали национальные войсковые части из мусаватистов и дашнаков. Подобное утверждение является, безусловно, плодом незнания истории, ибо никак не могли национальные войсковые части меньшевиков состоять из мусаватистов и дашнаков, ибо мусаватисты, дашнаки и меньшевики формировали свои отдельные национальные части для закрепления власти национальной буржуазии и помещиков.

На стр.184 говорится, что после октябрьского вооруженного восстания в Азербайджане и Закавказье продолжала царствовать диктатура Временного правительства. Там же говорится, что национальные советы Закавказья были образованы после октября 1917 года. Все это, конечно, не соответствует действительности, ибо Особый Закавказский Комитет был ликвидирован в начале ноября 1917 г., а национальные советы существовали задолго до совершения Октябрьской социалистической революции.

На стр.186 высказывания Ст.Шаумяна о членах Особого Закавказского Комитета автором приписаны членам Закавказского Комиссариата.

На стр.261 автор утверждает, что турки взяли в плен 8.000 англичан. Но известно, что при взятии Баку турками англичан в городе было не более 1000 человек, при чем, все они были эвакуированы.

На стр.432 автор утверждает, что в 1919 году Баку превратился в арену мировой борьбы двух политических и империалистических сил. Известно, что в 1919 г. ни о каких двух империалистических силах, боровшихся между собой из-за Баку, или превращении Баку в арену мировой борьбы двух империалистических сил не могло быть и речи, так как одна империалистическая сила к 1919 году уже вышла из строя и в 1919 г. хозяином положения была единственная империалистическая сила - сила Антанты.

На стр.441 и дальше автор перечисляет фамилии главарей мусаватского режима в Азербайджане. В отношении Усубекова Насифбека (автор ошибочно пишет Насир-бек) говорится, что он был основоположником партии Мусават, возникшей в 1912 году.

Müharibə illərində Azərbaycanda antisovet mülahizələrə dair arxiv sənədləri

Т. Багирову

СПРАВКА

О настроениях инженерно технических работников нефтяной, энергетической, другой промышленности.

Весь период отечественной войны с фашистской Германией характеризуется весьма яркими фактами активного участия инженерно-технических работников промышленности в деле помощи фронту. В своих бесчисленных патриотических высказываниях инженеры промышленности выражают волю к победе над гитлеризмом не считаясь ни с какими трудностями и лишениями вызванными войной. Выражение патриотических чувств продолжается с неослабной силой и по сей день.

Зам. Нач. Отдела технического снабжения Управления электросетями ПОПОВ Павел Иванович - со средним образованием инженер-практик, б/парт., в беседе с окружающими его лицами по вопросу некоторого затруднения в продовольствии заявил:

"...Я сейчас получаю 600 грамм хлеба. Мне его хватает на один раз, но я согласен получать еще меньше лишь-бы фронт был обеспечен всем необходимым для того, что бы скорей разбить и уничтожить Гитлера. Я думаю у нас в СССР мало найдется таких людей, которые не будут со мной согласны".

МАМЕДАЛИЕВ Юсуф Гейдарович - Научный сотрудник АзНИИ по образованию инженер-химик, б/парт., внесший ряд ценных предложений оборонного значения и практически их осуществивший, в беседе с сослуживцем сказал:

"...Я безгранично рад успехам Красной ар-

мии, я твердо убежден в неминуемом разгроме Гитлера и его озверелой банды."

Научный сотрудник Кировабадского сельхозяйственного ин ститута -ГУСЕЙНОВ НАДИР, б.парт., во время отправки на фронт мобилизованных, среди которых был его брат, обращаясь к брату и его товарищам сказал:

"...Будьте стойкими и смелыми. Если нужно буде не пожалейте своей жизни за нашего СТАЛИНА, за родину, за великий русский народ."

ГАЗАРБЕКОВ Григорий Александрович- инженер конторы бурения треста Сталиннефть", б.парт., в беседе со своим сос луживцем о разногласии среди командования фашистских войск говорил:

"...Устранение генералов в Германии говорит о шатком положении правителей в Германии... Если Гитлер решился на устранение своих вид ных генералов, которые создали ему славу, то это сделано не ради успокоения общественно го мнения, а вследствие разногласий проводи мой Гитлером зверской политики."

КАШКАЙ Мир Али- доктор геолого-минералогических наук АзФАН"а, б.парт., по вопросу заключения договора с Англией сказал:

"...Заключение договора между СССР и Англией, и его последующая ратификация являются важ- нейшим политическим мудрым мероприятием на- шего Советского правительства и Товарища СТАЛИНА. Я не сомневаюсь в реальности догово ра и ненавистный враг скоро это почувствует.

КАСПАРОВ Артем Галустович- инженер геолог треста "Лениннефть", б.парт., в разговоре с сослуживцами заявил:

"...Сейчас нам инженерам, как никогда нужно работать больше, как можно лучше, не хныкать, а думать только о помощи фронту. Других забо у честного Советского инженера сейчас не должно быть..."

ШЕЙХОВ Исмаил Али Оглы- б.парт., научный сотрудник

На лицо неизбежное поражение не только Германии, но и всех остальных держав оси"

АГУШЕВ Николай Филиппович - Техник конструктор з-да имени Сталина, б/парт., в беседе со своими товарищами по работе говорил:

"...Незачем нам считаться с тем, сдаются или не сдаются фашистские солдаты в плен Нужно их всех одинаково уничтожить. Немцы своими зверствами в оккупированных районах нашей страны, заслужили такое возмездие..."

Наряду с положительными высказываниями, со стороны неустойчивого и антисоветского элемента имеет место распространения разного рода провокационных слухов и клеветнических измышлений по адресу Красной армии, высказывания пессимистических настроений и неверие в нашу победу, восхваление Гитлера и его грабь армии, высказывания пораженческих настроений и др. антисоветских взглядов. В особенности участились случаи проявлений недовольства и антисоветских настроений по вопросу питания.

САРКИСОВ Константин Мартынович - Ст. инженер цеха № 4 з-да им. Андреева, б/парт. служивший в прошлом у Нобеля, в беседе с сослуживцами по вопросу питания заявил:

"...Я не ожидал, что мы так скоро можем очутиться без продуктов питания. Наши руководители правительства говорили и убеждали нас, что продуктами питания мы обеспечены, а на самом деле не так. В настоящее время есть люди, которые обеспечены питанием и вот они -то нас подгоняют и спрашивают выполнение плана.."

МАЛУНЦЕВ Александр Моисеевич - Гл. инженер того-же завода, член ВКП(б), имеющий антисоветские настроения и факты подозрительные на вредительство, в беседе о выполнении плана Комитета

Обороны по авиабензинам, говорил:

"...План очень тяжелый, выполнить-не его можно, но если меня так плохо будут кормить, то навряд-ли будет выполнен план. Круглые сутки я бываю на заводе, а в столовой за сутки меня кормят один раз. Дома в семье также плохи с питанием. Так что не знаю думать о заводской работе или о питании..., а в столовой кормят бурдой. Несмотря на такое плохое питание от нас требуют выполнения плана. Разве выполнишь его.."

ГОРЕЛИК Семен Аронович - Заместитель гл. инженера з-да им. Андреева, член ВКП(б), допускает аналогичные высказывания, говоря:

"...Это не обеды. а...которым нас кормят без зазрения совести.
Рабочие завода очень недовольны, что их кормят одним супом с лапшой. Я очень часто слышу недовольство рабочих и эти нехорошие разговоры со стороны рабочих могут привести к большому политическому скандалу..."

КУЗНЕЦОВ К.Л. - Дежурный инженер нефтеперегонного з-да им. Буденного-член ВКП(б) при разговоре об условии Отечественной войны заявил:

"...Николай 10 лет воевал и мы жили хорошо всего было в достатке, и никаких налогов ничего не знали, а сейчас всего на всего воюем несколько месяцев, а уже ничего нет. Люди все обессилели и отощали. Как с них требовать работу..."

ТАНИФА Джавар - буровой мастер Треста "Кагановичнефть" б/парт., быв. мусаватский жандарм резко антисоветски настроенный, говорил:

"...Настал голод, кушать нечего, кооператизы пустуют, никаких продуктов нельзя достать...
...Денег нехватает, больше половины оклада высчитывают за разные налоги...Все рабочие и служащие плачут от этих вычетов"

II ЮДИН Григорий Михайлович - Мастер подземного ремонта 2-го промысла Треста "Артемнефть", исключенный из ВКПб, по вопросу питания заявлял:

"...Дошли до того, что работаешь день и ночь, а кушать нечего, скоро и получать нечего будет, будем только расписываться в расчетных книжках. Ведь война идет лишь потому, что члены парт спасают свои шкуры. Они все сейчас живут хорошо, работают на ответственных должностях, а Гитлера боятся потому, что если придут немцы, то их будут вешать. Нам все равно работать. Немцы нас не тронут.."

IV МАКРУШИН Никифор Юрьевич - Мастер треста " Азизбеков нефть" - член ВКП(б) по вопросу работы заявил:

"...Как можно требовать качество работы от рабочих, когда они голодные. Рабочие разутые и раздетые, они настолько озлоблены, что я боюсь с ними разговаривать и требовать качество работы..."

III МЯГКОВ Семен Кондратьевич - Нач. станции промысловых железных дорог, со средним образованием, инженер-практик, б/парт. в присутствии сослуживцев высказывая недовольство существующим положением заявил:

"...Доведут нас до такого состояния, что возьмем закроем станцию, переведем стрелки и уйдем. Вот так поступали рабочие в старое время..."

III МУСАЕВ Алихан - буровой мастер треста "Орджоникидзе нефть", в прошлом мусаватский жандарм говорил:

"...Остается мало времени. Гитлер освободитель народа. Он придет освободит нас от такой жизни. От Советской власти останется одно лишь воспоминание. Власть у нас в Азербайджане перейдет в руки турок и мусульманского правительства".-

МАРДАНОВ Мардан Гашимович-Начальник Планово Технического Управления Наркомместпрома,по образованию инженер механик,б/парт.,в беседе о последних событиях на фронте заявлял:

"...Настоящая война приведет к уничтожению человечества и при том лучшей молодой его части.Справиться с немцами располагающими мощной передовой техникой всей Европы и завербовавшими на свою сторону таких союзников,как Япония,очень и очень трудно.Придет время,Япония ударит нам в тыл и вынудит нас распылить силы наши в нескольких направлениях..."

ДЕМБО Д.О.- Инженер Госплана АзССР-б/парт.,настроен антисоветски,в беседе о последних событий на Харьковском направлении,говорил:

"...Ясно ,что мы там ничего не добились.И понесли тяжелые потери..."

КОРОЛЕНКО Михаил Михайлович-Управляющий Трестом Бакводопровода № 2,член ВКП(б),по тому-же вопросу боев на Харьковском направлении сообщил:

"...Наши потери большие хотя об этом и не пишется в газетах,т.к. о раненных ничего не сказано.Даже опубликуемые данные о наших потерях являются большими,тем более, что особого эффекта этого наступления не принесло...Я убежден,что наши наступления имели целью- захвата Харькова,но когда этот момент не удался,то командование вынуждено было для завуалирования своней неудачи опубликовать это сообщение..."

МАГЕРРАМОВ Ибрагим Хадьфа Кули Оглы- Ловильный мастер Треста " Ленинненфть",член ВКП(б),по вопросу боев в Харьковском направлении -выразился так:

"...Народ гибнет,голодает,в течении нескольких дней в Харьковском направлении погибло более 70 тыс.чел.Это-же целый город,да еще какие люди погибли,отборные,молодые.Что думает народ.Неужели не видит этих ужасов.Уж лучше с одного раза восстать и свергнуть все со своих плечь,чем так погибать".

МЕЛЬНИК Николай Григорьевич-Инженер Треста"Орджоникидзенефть" б/парт.,по вопросу событий на Керченском полуострове говорил:

"...Тяжелая трагедия разыгралась в Керчи. Это результат без талантности нашего командования.Кто будет отвечать за гибель столь ких людей. Нас ожидает не веселая будущность Нашу армию погубит не столько немецкое оружие которое лучше и больше нашего,а погубит голод,который уже дошел до нашей армии..."

БАХШИЕВ Мамед- инженер треста"Орджоникидзенефть" член ВКП(б) заявил:

"...Дела наши на фронтах плохие.На Харьковском направлении мы остановились,а на Изюм Барвенковском нас жмут.Надеется на открытие второго фронта нечего,так как англичан японцы скоро прикончат в Индии,а потом,после того,как немцы разгромят нас,то бросят на Англию и кончат с ней совсем..."

МАКСИМОВ Михаил Иванович- механик 1-го цеха завода АзСК,по специальн.инженер-практик б/парт,по вопросу зверского обращения фашистов с нашими военно-пленными говорил:

"...Я жду не дождусь переворота Советской власти.У немцев жить очень хорошо и когда немцы придут к нам,то наша жизнь наладится на старый лад,и тогда только народ спасет свою жизнь.Если-же останется Советская власть,то мы пропали.Пусть идет скорей немец..."

За последнее время, также имело место высказываний различного порядка по вопросу взаимоотношений Советского Союза с Англией и с Америкой и заключение с ними договоров.

ЯКОБСОН Исаак Яковлевич-Начальник Отдела техники безопасности управления промысловых дорог Азнефтекомбината

РАФАРОВА Ольга Моисеевна-Зав.тех.Отделом Центральной газовой конторы треста Аз.ГАЗ-по образованию техник-строитель,б/парт.,сказала:

"К чему эти ложные договора.Германия с нами тоже заключала в свое время договор и тут-же на нас напала.Напрасная надежда Ничего хорошего это все равно не даст..."

ГОРЕЛИК Семен Аронович- Гл.инженер з-да им.Андреева член ВКП(б) о заключении договора и поездки т.МОЛОТОВА в Англию в беседе с сослуживцами сделал следующее заявление

"...Теперь видимо нам придется воевать с Японией тоже,чтобы отвлечь внимание японцев и оттянуть часть сил,тем самым дать возможность Англии и США сосредоточить силу для открытия второго фронта.

ЛИСТЕНГАРТЕН Евгений Моисеевич - Инженер Треста Азнефтепроект,б/парт.по вопросу взаимоотношений с союзниками сказал следующее:

"...Америка и Англия в союзе с нами лишь по необходимости.Ждать от них открытия второго фронта нечего,так как они заинтересованы в том,чтобы Советский Союз ослаб до крайности и тогда они решат судьбу Европы..."

Весь антисоветский элемент проходящий по указанным материялам находится под нашим наблюдением,а в отношении резко враждебных,принимаются оперативные меры.

НАРКОМ ВНУТРЕННИХ ДЕЛ АЗЕРБ.ССР
СТАРШИЙ МАЙОР ГОСБЕЗОПАСНОСТИ:
(ЯКУБОВ)

"24" Июня 1942 г.

TÖVSİYƏ OLUNAN ÜMUMİ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. Abasov.M.H. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə cəbhəyə yardımı qüvvətləndirmək uğrunda mübarizədə / M.H.Abasov. – Bakı: Azərnəşr, – 1960. – 60 s.
2. Abasov, M.H. Sovet İttifaqı Qəhrəmanı Əmi Məmmədov / M.H.Abasov. – Bakı: Gənclik, – 1975. – 54 s.
3. Abdullayev, S.Q. 1941-1945-ci illər müharibəsində Azərbaycanda hərbi-müdafiə və hərbi təşkilatı iş: / tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı: – 2000. –181 s.
4. Ağayev, Ə. Xalqa ilham verən publisistika // Ədəbiyyat. – 1942, 4 aprel, – s.3
5. Axundov, Ə. Azərbaycanlılar doğma Qafqaz uğrunda vuruşmalarda / Ə.Axundov. – Bakı: Azərnəşr, – 1943. – 24 s.
6. Arutyunovun İ.Stalinə 28 noyabr 1945-ci il tarixli məktubu // ARPİİSSA, Fond №1, siyahı №27, saxlama vahidi №160, vərəq –328-329. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №169, iş №249/I hissə, vərəq – 7.
7. Asim, Q. İttifaqı Qəhrəmanı Nəcəfqulu Rəcəbəli oğlu Rəfiyev // Kommunist. – 1944, 18 noyabr, – s.1.
8. Asim, Q. Əvəz Verdiyev // Kommunist. – 1944, 22 noyabr, – s.1.
9. Aydın, Kazımzadə. Bizim “Azərbaycanfilm” (1923-2003) / A.Kazımzadə. – Bakı: Mütərcim, – 2004. – 476 s.
10. Aydın, Kazımzadə. Azərbaycan kinosu və müharibə / A.Kazımzadə. – Bakı: Nağıl evi, – 2005. – 196 s.
11. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə] / Baş red. C.B.Quliyev. – Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, – c.3: Qayıbov – Eldarov. –1979. – 604 s.
12. Azərbaycan Sovet Ensiklopediyası: [10 cilddə] / Baş red. C.B.Quliyev. – Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası, – c.4: Eldəgəz – İtabira. –1980. – 608 s.
13. Azərbaycanın və Dağıstanın böyük oğlu (Görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 100 illiyinə həsr olunmuş təntənəli Yubiley gecəsi materialları / Komissiya sədri Elçin Əfəndiyev – Azərbaycan Respublikasının Baş nazirinin müavini) // – Bakı: Göytürk, – 1998. – 250 s.
14. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Arxivi, Fond № 64, siyahı №2, b.7, vərəq – 8.
15. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Arxivi, Fond № 67, siyahı №2, b.7, vərəq – 62.

16. Azərbaycan Respublikası Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin Arxivi, Fond № 72, siyahı №2, b.8, vərəq – 15.
17. Azərbaycan tarixi: [7 cilddə] / – Bakı: Elm, – c 7: (iyun 1941-2002-ci il). – 2003. – 676 s.
18. Azərbaycanın Qızıl ulduzları: (kitab-albom) / tərtib edənlər: Q.Ə.Mədətov, M.H.Abasov, R.E.Zeynalov [və b.] / – Bakı: İşıq, – 1975. – 318 s.
19. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları / – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1963. – 245 s.
20. Azərbaycanın mərd oğulları / tərt. edən Ə.Fətəliyev. Red. Y.Ağayev // Məqalələr məcmuəsi, – Bakı: Uşaqgəncnəşr, – 1959. – 129 s.
21. Azərbaycan 1941-1945-ci illər müharibəsində // Məqalələr toplusu, – Bakı: Elm, 2008. – 224 s.
22. Azərbaycan İkinci dünya müharibəsi illərində: faktlar, rəqəmlər və reallıqlar.https://banker.az/az%C9%rbaycan-ikinci-dünya-müharib%C9%99si-ill/C8%rind%C9%faktla-r%C9%99r%C9%99ml%99r-v%C9%99-realıqlar/
23. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları / tərt. edəni və redaktoru Q.Ə.Mədətov // Məqalələr məcmuəsi, – Bakı: Azərnəşr, – 1963. – 247 s.
24. Azərbaycanın şanlı oğulları / Buraxılışa məsul: S.Rəhimov, S.Məmmədov. Redaktorlar S.Rəhimov., İ.Hüseynov // – Bakı: Azərnəşr, – 1942-1945: – I kitab, – 1942, – 100 s.; – II kitab, – 1944, – 156 s.; – III kitab, – 1945, – 160 s.
25. Azərbaycan xalqının azərbaycanlı döyüşçülərə məktubu / – Bakı: Azərnəşr, –1943. – 26 s.
26. Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin fərmanları və Azərbaycan SSR hökumətinin qərarlarının xronoloji külliyyatı (1936-1945) / – Bakı: Azərnəşr, – c.2. – 1961. – 396 s.
27. Azərbaycan SSR xalq təsərrüfatı Böyük Vətən müharibəsi illərində / – Bakı: Elm, – 1985. – 188 s.
28. Bakı nefti qələbənin açarı: şərəfli keçmiş, işıqlı gələcək: 1941-1945 / layih. rəhb. Z.Səmədzadə; layihə üzərində işləyib Z.Səmədzadə [və b.].- Bakı: Neoprint, 2015. – 451 s.
29. Bağırzadə, Ə. Azərbaycan ziyalıları müharibə illərində / Ə.Bağırzadə. – Bakı: Azərnəşr, – 1970. – 442 s.
30. Bağırzadə, Ə. Qəhrəman gənclik / Ə.Bağırzadə. – Bakı: Gənclik, – 1970. – 150 s.
31. Mir Cəfər Bağırovun məhkəməsi /– Bakı: Yazıçı, – 1993. – 118 s.
32. Bokov, F.E. Azərbaycan övladlarının ölməz igidliyi / F.Bokov. – Bakı: Azərnəşr, – 1971. – 217 s.
33. Brejnev, L.İ. Sovet Azərbaycanının 50 illiyi. 1970-ci il oktyabrın 2-də Bakı şəhərində təntənəli iclasda nitqi // Kommunist. – 1970, 3 oktyabr. – s.1-2
34. Bünyadov, Z. Qırmızı terror / Z.Bünyadov. – Bakı: Azərnəşr, – 1993. – 331 s.

35. Çeşmazər, M.M. Azərbaycan Demokratik Respublikasının yaranması və fəaliyyəti / M.Çeşmazər. – Bakı: Elm, – 1986. – 160 s.
36. Erix, Fayql. İpək yolu üzərində Odlar yurdu – Azərbaycan tarixi / F.Erix. – Bakı: AzərTac, – 2009. –183 s.
37. Əhmədov, V. M.C.Pişəvəri: həyatı, mühiti və yaradıcılığı / V.Əhmədov. – Bakı: Göytürk, – 1998. – 195 s.
38. Əliyev, H.Ə. Azərbaycan xalqının döyüş və əmək hünəri əbədi yaşayacaqdır // Azərbaycan. – 1995, 6 may. – s.1.
39. Əliyev, Əziz . Böyük ömrün anları // Ə.Əliyev. – Bakı: Nurlan, – 2008. – 167 s.
40. Əlizadə, H. Azərbaycan radiosu Böyük Vətən müharibəsi illərində // – Bakı: S.M.Kirov adına ADU-nun Elmi Əsərləri, Jurnalistika seriyası, – 1975. № 11, – s.75-82.
41. Əlizadə, N.Ə. Azərbaycan dəmiryol nəqliyyatı Böyük Vətən müharibəsi illərində (1941-1945-ci illər): /Tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı: 1997. – 134 s.
42. Əmrahov, M.İ. Azərbaycan mədəniyyəti İkinci dünya müharibəsi illərində / M.İ.Əmrahov. – Bakı: Elm, – 2004. – 336 s.
43. Əmrahov, M.İ. İkinci dünya müharibəsi 1939-1945 / M.İ.Əmrahov. – Bakı: Mütərcim, 2010. – 552 s.
44. Əmrahov, M.İ. Azərbaycan tarixi (1939-1945-ci illər) / M.İ.Əmrahov. – Dərslik. – Bakı: ADPU, – 2018. – 440 s.
45. Əmrahov, M.İ. 402-ci Azərbaycan milli atıcı diviziyasının təşkili və döyüş yolu / M.İ.Əmrahov, X.H.İbrahimova // Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, – Bakı: – 2016. №3, – s.142-147.
46. Əmrahov, M.İ., Azərbaycanda antisovet əhval-ruhiyyəsi və təxribatlar (1941-1945-ci illər) /M.İ.Əmrahov, X.H.İbrahimova // Sivilizasiya. Elmi-nəzəri jurnal, Bakı: – 2016. № 4, – cild 5, – s.69-74.
47. Əmrahov, M.İ. İkinci dünya müharibəsi ərəfəsində Azərbaycan SSR-də ictimai-siyasi, iqtisadi və sosial həyat / M.İ.Əmrahov, X.H.İbrahimova // Sivilizasiya. Elmi-nəzəri jurnal, Bakı: – 2017. № 2, – cild 6, – s.173-180.
48. Əmrahov M.İ. İkinci dünya müharibəsi illərində ermənilərin Azərbaycan tarixini təhrif etmək cəhdləri / M.İ.Əmrahov, X.H.İbrahimova // Geostrategiya. Aylıq ictimai-siyasi, elmi-populyar jurnal, – Bakı: Yanvar-fevral – 2019. №01(49), – s.14-17.
49. Əmirov, H.T. Müseyib Bağırov / H.T.Əmirov. – Bakı: Azərnəşr, – 1985. – 32 s.
50. Əsgər Ramazan oğlu Qasımov (223-cü atıcı diviziyanın siyasi şöbəsinin rəis müavini). Bir diviziyanın mübariz işi və adamları // Kommunist. – 1944, 9 yanvar, – s.2-3.

51. Fərzəliyev, Q. Sənədli filmlərimizdə və qrafika sənətimizdə faşizmin ifşası // – Bakı: Mədəni-maarif işi, – 1975. №2, – s.8-9.
52. Güney Azərbaycan / Ş.Tağıyeva, S.Bayramzadə // – Bakı: Orxan, – 2000. – 516 s.
53. Heydərov, S. Azərbaycan Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə / S.Heydərov. – Bakı: Azərnəşr, – 1952. – 96 s.
54. Heydərov, S. Sovet İttifaqı Kommunist Partiyası Böyük Vətən müharibəsi dövründə qələbəmizin ilhamçısı və təşkilatçısı olmuşdur // – Bakı: Azərbaycan məktəbi, – 1957. №7, – s.62-72.
55. Heydərov, S. Sovet İttifaqı Kommunist Partiyası sovet xalqının Böyük Vətən müharibəsindəki tarixi qələbəsinin ilhamçısı və təşkilatçısıdır // – Bakı: Təbliğatçı, – 1955. №5, – s.23-29.
56. Heydərov, S. Xalqlar birliyinin qələbəsi / S.Heydərov. – Bakı: Azərnəşr, – 1966. – 157 s.
57. Həsənli, C. Güney Azərbaycan: Tehran-Bakı-Moskva arasında (1939-1945) / Cəmil Həsənli. – Bakı: Diplomat, 1998. – 324 s.
58. Həsənli, Cəmil. Güney Azərbaycanda Sovet-Amerika və İngiltərə qarşıdurması 1941-1946 / C.Həsənli. – Bakı: Azərbaycan, – 2001. – 576 s.
59. Həsənli, C. SSRİ-Türkiyə: Soyuq müharibənin sınaq meydanı / C.Həsənli. – Bakı: Adiloğlu, – 2005. – 544 s.
60. Həsənli, C. İkinci dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945) / C.Həsənli. – Bakı: Yazıçı, – 2015. – 540 s.
61. Həsənov, H. Cənubi Azərbaycanda milli demokratik hərəkat (1941-1946-cı illər) / H.Həsənov. – Bakı: Elm, – 2004. – 203 s.
62. Hüseynov, İ. Slavyan xalqlarının vahid dövləti / İ.Hüseynov. – Bakı: SSRİ EA Azərbaycan filialının nəşriyyatı, – 1941. –30 s.
63. Hüseyn, G. Bakı dəniz limanı 1941-1945-ci illər müharibəsi dövründə: tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya: 5503.02 / Günay Hüseyn; AMEA A.A.Bakıxanov adına Tarix İn-tu. – Bakı, 2017. – 165 s.
64. İbrahimova, X.H. Bakı nefti uğrunda mübarizə və Bakının alman işğalçıları tərəfindən tutulması ehtimalı ətrafında mülahizələr və təxribatlar / X.H.İbrahimova, M.İ.Əmrahov // Sivilizasiya. Elmi-nəzəri jurnal, Bakı: – 2016. №3, – cild 5. – s.103-112.
65. İbrahim Zeynalov. Totalitar Sovet Cəmiyyəti: Tarixin ibrət dərsləri – Azərbaycan SSR XX əsrin 20-50-ci illərində /Zeynalov İbrahim. - Bakı: "Ləman nəşriyyat poliqrafiya" MMC, 2018, 720 s.
66. İrana xarici ezamiyyətə göndəriləcək rəhbər vəzifəlilərin, partiya, dövlət təhlükəsizliyi, daxili işlər orqanları və digər işçilərin ehtiyat siyahısı. 1941 // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı № 89, iş №33, vərəq – 1-269.

67. İrana ezam olunmuş işçilərin siyahısı haqqında Ə.Əliyevin S.Qafarzadəyə 1941-ci il 15 oktyabr tarixli məlumatı // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №179, iş №7, vərəq – 33-87.
68. İlqar Niftəliyev. Azərbaycanın İkinci dünya müharibəsində iştirakının bəzi məsələlərinə yeni baxış.1905.az./azərbaycanın-ikinci-dünya-müharibəsində-iştirakının – bəzi-məsələlərinə yeni baxış.
69. İsgəndərov, A. Şeyxülislamlığın tarixi / A.İsgəndərov, A.Mövlayi. – Bakı: Elm və təhsil, – 2016. – 447 s.
70. İsmayılov, V.C. Cənubi Azərbaycanda milli-demokratik hərəkatların məğlubiyyətində böyük dövlətlərin rolu (XX əsrin I yarısı): / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası) /. – Bakı, 2006. – 156 s.
71. İsmayılov, İ.Z. Azərbaycanlıların İkinci dünya müharibəsində iştirakı / İ.Z.İsmayılov. – Bakı: Qızıl-Şərq mətbəəsi, – 2000. – 192 s.
72. İsmayılov, İ.Z. Azərbaycan-İran əlaqələri XX əsrdə / İ.Z.İsmayılov. – Bakı: Azərbaycan DNA-nın nəşri, – 2006. – 96 s.
73. Kərimov, K.C. Azərbaycan incəsənəti / K.C.Kərimov, R.S.Əfəndiyev, N.İ.Rzayev [və b.] // – Bakı: İşıq, – 1992. – 344 s.
74. Qafarov, T.B. Məmməd Məhərrəmov / T.B.Qaffarov. – Bakı: Azərnəşr, – 1985. – 16 s.
75. Qasımov, Ə. Bir diviziyanın mübariz işi və adamları / Ə.Qasımov. – Bakı: Azərnəşr, – 1944. – 40 s.
76. Qazıyev, M. Sovet İttifaqı Qəhrəmanı, kiçik leytenant İdris Süleymanov /Azərbaycanın şanlı oğulları: [3 kitab] / M.Qazıyev. – Bakı: Azərnəşr, – II kitab. – 1944. – s.10-16.
77. Qazıyev, M. Hərbi həkim İbrahim Sultanov / Azərbaycanın şanlı oğulları: [3 kitab] / M.Qazıyev. – Bakı: Azərnəşr, – II kitab. – 1944. – s.89-100.
78. Qızıl Ordu aqitatorunun bloknotu / Məsul red. N.Brıçev, red. və tərcümə X.Vəzirov // Qızıl Ordu Baş Siyasi İdarəsi. – Bakı: SSRİ Xalq Müdafiə Komissarlığının Hərbi nəşriyyatı, – 1945. № 5, – 33 s.
79. Qurbanlı, Ə.S. Azərbaycanlıların Ermənistan SSR-dən deportasiyası tarixindən (1947-1953-cü illər) / Ə.S. Qurbanlı. – Bakı: Turxan NRB, – 2018. – 168 s.
80. Mais, Ə. İkinci dünya müharibəsi tarixinin oçerkləri / M.Əmrah. – Bakı: ADPU nəşriyyatı, 2015. – 394 s.
81. Mehdiyev, B.M. 223-cü Qırmızı bayraqlı Belqrad atıcı diviziyası /B.M. Mehdiyev. – Bakı: Respublika Xatirə Kitabı Nəşriyyatı, 2000. – 274 s.
82. Mədətov, Q.Ə. Azərbaycan Böyük Vətən müharibəsi illərində. 1941-1945 / Q.Ə.Mədətov. – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatı, 1965. – 504 s.

83. Məktublar 1941-1945-ci illər müharibəsinin canlı tarixidir. (Məktublar və sənədlər toplusu) / – Bakı: Elm, – 2009. – 327 s.
84. Məmmədov, A. Baş tutmamış çevriliş / A.Məmmədov. – Bakı: El-AL Lırnçe, – 2003. – 271 s.
85. Məmmədov, A. M.C.Bağırov. Unudulmuş səhifələr / A.Məmmədov. – Bakı: MBM, – 2010. – 275 s.
86. Məmmədov, A. M.C.Bağırov – Tam məxfi sənədlər / A.Məmmədov. – Bakı: Zərdabi LTD MMC, – 2013. – 320 s.
87. Mikayıl, Rəfili. Sovet İttifaqı Qəhrəmanı Xıdır Mustafayev // Kommunist. – 1944, 2 yanvar, – s.3.
88. Mirzəyeva, B.M. Azərbaycanın Böyük Vətən müharibəsində iştirakı tarixinin tarixşünaslığı: / Tarix üzrə fəlsəfə doktoru dissertasiyası / – Bakı, 1995. – 148 s.
89. Musayev, T. Ermənilər və faciələrimiz. (XX əsrdə ermənilər tərəfindən xalqımızın başına gətirilmiş faciələr) / T.Musayev. – Bakı: Nurlar-Poliqrafiya Mərkəzi, – 2008. – 320 s.
90. Musayev, M. Azərbaycanlı deputatlar SSRİ parlamentində (1938-1991)/ – M.Musayev. – Bakı: Ağrıdağ, – 2000. – 175 s.
91. Musayev, M. Parlament və kəndlilər 100 ildə (1905-2005) / M.Musayev. – Bakı: Nurlar, – 2008. – 272 s.
92. Nazim, R.İ. Neft və cahan savaşı / R.İ.Nazim. – Bakı: Mütərcim, – 2005. – 316 s.
93. Nəbiyev, B. Süngüyə çevrilmiş qələm / B.Nəbiyev. – Bakı: Azərnəşr, – 1970. – 215 s.
94. Nəbiyev, B. Kamalın təntənəsi / B.Nəbiyev. – Bakı: Yazıçı, – 1981. – 408 s.
95. Nəzirli, Ş. Azərbaycan generalları / Ş.Nəzirli. – Bakı: Gənclik, – 1991. – 208 s.
96. Orucov, Q. Azərbaycan Qafqaz döyüşlərində / Q. Orucov. – Bakı: Azərnəşr, 1980. – 160 s.
97. Rəfiyev, C.P. Mehdi Quliyev / C.P.Rəfiyev. – Bakı: Azərnəşr, – 1985. – 21 s.
98. Rəhimli, Ə. Güney Azərbaycanda milli-demokratik hərəkat / Ə.Rəhimli. – Bakı: Meqa, – 2003. – 207 s.
99. Rəhimli, Ə. Mübarizə burulğanında keçən ömür. S.C.Pişəvəri / Ə. Rəhimli. – Bakı: Nurlan, – 2009. –393 s.
100. Rəhimli, Ə. (Bije). 21 Azərə gedən yol. Güney Azərbaycanda milli-demokratik hərəkat (1941-1946-cı illər) / Ə.(Bije) Rəhimli. – Bakı: Araz, – 2015. – 240 s.
101. Paşayev, F. Azərbaycan diviziyaları Böyük Vətən müharibəsi cəbhələrində / F.Paşayev. – Bakı: Elm, – 1975. – 28 s.

102. Piriyeva, A. Böyük Vətən müharibəsi dövründə Azərbaycan xalqının cəbhə ilə arxanın birliyi uğrunda mübarizəsi: tarix elmləri namizədi elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya: 07.02.00 / Afaq Piriyeva; N.Tusi adına Azərb. Dövlət Pedaqoji İns-tu. – Bakı, 1991. – 151 s.
103. Pişəvəri, M.C. Seçilmiş əsərləri /Toplayan, tərtib və tərcümə edənlər: Ə.Əminzadə, T.Musəvi və H.Ciddi. Red-ru Əmirəli Lahrudi. – Bakı: Azərnəşr, 1984. – 430 s.
104. Pişəvəri, S.C. İran Azərbaycanında demokratik hərəkat tarixi. – Bakı: 1947. – c.I-II.
105. Pişəvəri, S.C. Xatirələr (1941-1945) / S.C.Pişəvəri. – Bakı: Azərbaycan Demokrat Firqəsinin nəşri, – 2005. – 394 s.
106. Siyasi tarix / – Bakı: Azərbaycan Ensiklopediyası, – II hissə. – 1998. – 420 s.
107. Sovet İttifaqı Kommunist Partiyasının tarixi. – Bakı: Azərnəşr, – 1964. – 863 s.
108. Sovet xalqının böyük rəşadəti (1941-1945-ci illərin Böyük Vətən müharibəsində Sovet İttifaqının qələbəsinin 30 illiyi münasibətilə). – Bakı: Kommunist nəşriyyatı, – 1975. – 23 s.
109. Sultanov, Ç. Bakı nefti dünya şahmat taxtasında. 1939-1945-ci illər (rus dilindən tərcümə) / Ç.Sultanov. – Bakı: TEAS Press Nəşriyyat Evi, – 2016. – 564 s.
110. Tağıyeva, Ş. Güney Azərbaycan (Məlumat kitabı) / Ş.Tağıyeva, Ə.Rəhimli, S.Bayramzadə. – Bakı: – Orxan, – 2000. – 516 s.
111. Talıblı, T. Əziz Əliyev-dövrü, həyatı, şəxsiyyəti / T.Talıblı. – Bakı: Göytürk, 1997. – 285 s.
112. Teyyub, Q. Düşmənlərindən güclü şəxsiyyət / Q.Teyyub. – Bakı: Şirvannəşr, 2006. – 600 s.
113. Teyyub, Qurban. Marietta Şaginyanın əlyazmasına Mir Cəfər Bağırovun münasibəti və... // Nəbz. – 2001. – 03 noyabr – 09 noyabr. – s.11.
114. Teyyub, Qurban. "Arsak sıvığı" statusa malikdir // Nəbz. – 2002, 9-15 fevral. – s.11.
115. Teyyub, Qurban. Dahi bəstəkar necə xilas oldu // Ekspress. – 2005, 8 sentyabr. – s.10.
116. Təbriz şəhərində Azərbaycan dilində məktəb açılması haqqında SSRİ XKS-nin 24 iyun 1944-cü il tarixli qərarı // Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivi, Fond №1, siyahı №89, iş № 79, vərəq-7.
117. Vəkilov, C.M. Azərbaycan Respublikası və İran: 40-cı illər / C.M.Vəkilov. – Bakı: Gənclik nəşriyyatı, – 1991. – 135 s.
118. Vətən yolunda // Azərbaycan Sovet Yazıçılar İttifaqının bədii ədəbiyyat, incəsənət və ictimai-siyasi jurnalı. – Bakı, –1946, 21 yanvar.

119. Volkoqonov, Dmitri. Zəfər və faciə / D.Volkoqonov. – Bakı: Karvan, 1998.
120. Yaqublu, N. Azərbaycan legionerləri /Yaqublu N. – Bakı: Çıraq, 2005. – 336 s.
121. Yaqubov, Ə.Ə. Azərbaycan alimləri Böyük Vətən müharibəsi illərində / Ə.Ə. Yaqubov. – Bakı: SSRİ EA Azərbaycan filialının nəşri, – 1942. – 34 s.
122. Zeynalov, E.F. Ağaşirin Cəfərov / E.F.Zeynalov. – Bakı: Azərnəşr, – 1985. – 12 s.
123. Zeynalov, R.Ə. Qafqaz dağlarının ətəklərindən Berlinədək: hərbi-tarixi oçerk / R.Ə. Zeynalov, L.S.Bopodetski. – Bakı: Azərnəşr, – 1965. – 205 s.

Türk dilində

124. Kamuran, Gürün. Türkiye-Sovyet İlişkileri (1920-1953). – Ankara, Atatürk Kultur Dil ve Tarih Yüksək Kurumu Türk Tarih yayınları, – 1991. – 326 s. 157.
125. Türkiye Böyük Millet Meclisi Tutanak Dergisi, – Cilt 9, – Birleşim 101, – 18 Temmuz 1951. – s.204-205.
126. Yakıncağ Turkiye Tarihi 1908-1980 / Hazırlayan: Sina Akşin, Gemil Koçak, Hikmet Özdemir, Korkut Boratay, Selahettin Hilav, Murat Katoğlu, Ayüla Ödekan. – İstanbul: Kulebek Matbaaçılık, – c.1, – 2004. – 633 s.
127. Hasanlı, C. Soğuk Savaşın ilk çatışması: İran Azərbaycanı / C.Hasanlı –İstanbul, – Bağlam, – 2005. – 580 s.

Rus dilində

128. Абасов, М. Баку в годы Великой Отечественной войны / М.Абасов. – Баку: Азербайджанское Государственное Издательство, – 1967. – 264 с.
129. Абасов, М. Бакинская партийная организация в годы Великой Отечественной войны / М.Абасов. – Баку: Азернешр, – 1990. – 356 с.
130. Амирасланов, К.Ш. Современная миграция населения в Азербайджанской ССР и ее влияние на формирование трудовых ресурсов: / Автореф. диссертации доктора философии по истории / – Баку, 1975. – 21 с.
131. Аннагиев, А.А. Профессиональное образование рабочих в Азербайджане /А.Аннагиев. – Москва: Профтехиздат, – 1960. – 64 с.

132. Арагунов Я. Героические свершения азербайджанских нефтяников в годы Великой Отечественной войны / Я.Арагунов. – Баку: Азернешр, – 1982. – 107 с.
133. Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2-х томах]. – Баку: Азнернешр, – т.1. – 1976. – 628 с.
134. Азербайджанская ССР в период Великой Отечественной войны (1941-1945 гг.): Сборник документов и материалов [в 2-х томах]. – Баку: Азнернешр, – т.2. – 1977. – 376 с.
135. Азербайджан в годы второй мировой войны: [Каталог выставки, посвященной 70-летию Победы над фашизмом]. – Баку: АтполитгрАФ, – 2015. – 120 с.
136. Байбаков, Н.К. От Сталина до Ельцина / Н.К.Байбаков. – Москва: Газ Оил пресс, – 1998. – 352 с.
137. Баку в цифрах: (Стат. сб.) /– Баку: Изд-во Коммунист, – 1967. 99 с.
138. Бакинский округ противовоздушной обороны: Исторический очерк: 1920-1974 гг. / – Баку: Азербайджанское Государственное Издательство, – 1974. – 363 с.
139. Балашов, А.И, Рудаков, Г.П. История Великой Отечественной войны / А.И.Балашов, Г.П.Рудаков. – СПб.: Питер, – 2005. – 464 с.
140. Беляева, В.А. Трудовой героизм рабочих Азербайджана в годы Великой Отечественной войны (1941-1945 гг.) / В.А.Беляева. – Баку: Азнефтиздат, –1957. – 186 с.
141. Великая Отечественная война Советского Союза (1941-1945 гг.): (о подвигах азербайджанцев) / – Москва: Воениздат, – 1965, 621 с.
142. Война и общество 1941-1945: [в 2-х книгах] / Отв. ред. Г. Н.Севастьянов. Инс-т российской истории. – Москва: Наука, – кн.1. – 2004. – 480 с.
143. Война и общество 1941-1945: [в 2-х книгах] / Отв. ред. Г.Н.Севастьянов. Институт Российской истории. – Москва: Наука, – кн.2. – 2004. – 411 с.
144. Вознесенский, Н.А. Военная экономика СССР в период Отечественой войны / Н.А. Вознесенский. – Москва: Госполитиздат, – 1948. – 192 с.
145. Вторая Мировая война: Итоги и уроки / – Москва: Воениздат, – 1985. – 447 с., 28 л., ил., 8 л. цв. карт.
146. Выписка из протокола №245 заседания Бюро ЦК КП(б) Азербайджана от 16 июня 1942 г. «О мероприятиях по оказанию помощи командованию Дальневосточного фронта по усилению политико-воспитательной работы среди бойцов-азербайджанцев, находящихся в частях Дальневосточного фронта» // Архив Политических Документов Управления Делами Президента Азер-

байджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы - 35-37.
147. Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О командировании на длительный срок группы ответственных работников в помощь командованию СД, расположенных на территории Азербайджанской ССР» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы – 85-86.
148. Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О мероприятиях по ускорению работ по переформированию 402-й и 223-й стрелковых дивизий в национальные дивизии») // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. № 335, листы – 39-40.
149. Выписка из протокола №217 заседания Бюро ЦК КП(б) Азербайджана от 7 марта 1942 г. «О прикреплении к 223-й стрелковой дивизии дополнительной группы руководящих работников» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 46-47.
150. Выписка из протокола №235 заседания Бюро ЦК КП(б) Азербайджана от 21 мая 1942 г. «О работе прикрепленных ЦК КП (б) Азербайджана к Азербайджанским дивизиям» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 73-75.
151. Выписка из протокола № 331 заседания Бюро ЦК КП(б) Азербайджана от 4 июня 1942 г. «О мероприятиях по улучшению работы районных, поселковых и сельских Советов депутатов трудящихся» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 28, ед.хр. № 23, листы – 123-128.
152. Выписка из протокола №238 заседания Бюро ЦК КП(б) Азербайджана от 30 июня 1943 г. «Письмо политработников тт. Раджабова, Кулиева, Касымзаде, Юсубова от 30 июня 1943 гг. 223-й дивизии и ответ на их письмо» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №335, листы – 231-235; 240-242.
153. Выписка из протокола №250 заседания Бюро ЦК КП(б) Азербайджана от 31 августа 1942 года; телеграмма Масленникова,

Губкина и Фоминых №782 от 30 августа 1942 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №92, листы – 92; 183; 222; 225.
154. Гаджиев, Адиль-Герей. Азиз Мамед Керимович Алиев, первый секретарь Дагестанского областного комитета ВКП(б) в годы Великой Отечественной войны и послевоенного развития (общественно-политические взгляды). Учебное пособие для студентов Международной Академии Востока / А.Г.Гаджиев. – Махачкала: Новый день, – 2001. – 104 с.
155. Гасанов, Г. Иранский дневник (1944-1946) / Г.Гасанов. – Баку: Элм, – 2007.– 546 с.
156. Гасанлы, Дж. СССР-Иран: Азербайджанский кризис и начало холодной войны (1941-1946 гг.) / Дж.Гасанлы. – Москва: Герои Отечества, – 2006. – 560 с.
157. Гасанлы, Дж. Советская политика в Иранском Азербайджане, 1941-1946. Первый кризис холодной войны // – Москва: Вертикали истории, – 2003, № 5. – с.153-156.
158. Герои Советского Союза сыны Азербайджана / – Баку: Азернешр, –1965.– 340 с.
159. Гречко, А.А. Битва за Кавказ / А.А.Гречко. – Москва: Воениздат, – 1967. – 424 с.
160. Гречко, А.А. Годы войны. 1941-1943 гг. / А.А.Гречко. – Москва: Военное Издательство, – 1976. – 363 с.
161. Дело Узеира Гаджибекова // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №122, ед.хр. №162, листы – 1-6.
162. Директива Военного Совета Закавказского фронта о вхождении советской армии в Иран от 23 августа 1941 г. // Центральный архив Министерства обороны Российской Федерации, Фонд №209, опись №1093, дело №27, листы – 251-252.
163. Докладные записки, переписка, тематические планы работ газеты «Ветен йолунда», издающейся в Иране, «Друг Ирана» (на рус. и азерб языке) (нач:3 мая-окон: 4 ноября 1944 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №30, ед.хр. №375, листы – 1-77.
164. Докладная записка председателя Президиума Союза Советских Писателей Азербайджана Самеда Вургуна на имя Секретаря ЦК КП(б) Азербайджана М.Д.Багирова // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №30, ед.хр. №278, листы – 30-66.

165. Дробязко, С.И. Вторая Мировая война 1939-1945. Русская освободительная армия / С.И.Дробязко. – Москва: АСТ, – 1998. – 45 с.
166. Дробязко, С.И. Вторая Мировая война 1939-1945. Восточные легионы и казачьи части в Вермахте / С.И.Дробязко. – Москва: АСТ, – 1999. – 46 с.
167. Достижения Советского Азербайджана за 40 лет в цифрах: (Стат. сб.) / – Баку: Азербайджанское Государственное Издательство, – 1960. – 259 с.
168. Заявление Гаджибекова // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №122, ед.хр. №161, листы – 10-11.
169. Закавказский Фронт // Архив Министерства Обороны СССР, Фонд №1, опись №999, дело № 30, листы – 25-31.
170. Залесский, К.А. Кто есть кто во Второй мировой войне. Германия и союзники / К.А.Залесский. – Москва: Вече, – 2010. – 464 с.
171. Исмаилов, Э. Власть и народ. Послевоенный сталинизм в Азербайджане 1945-1953 гг. / Э.Исмаилов. – Баку: Адилоглы, – 2003. – 344 с.
172. История второй мировой войны: 1939-1945: [в 12 томах] / – Москва: Воениздат, – т.4. – 1975. – 535 с.
173. История Великой Отечественной войны Советского Союза (1941-1945 гг.): [в 6 томах] / – Москва: Воениздат, – 1960-1966. – 5-ci cild
174. Коммунистическая партия Советского Союза в резолюциях и решениях съездов, конференций и пленумов ЦК: [в 12 томах] / – Москва: Политиздат, 1977, – т.12, – 606 с.
175. Кравченко, Г.С. Военная экономика СССР в 1941-1945 гг. /Г.С. Кравченко. – Москва: Военное Издательство Министерства Обороны СССР, – 1963. – 400 с.
176. Левшин, Б.В. Советская наука в годы Великой Отечественной войны / Б.В. Левшин. – Москва: Наука, – 1983. – 382 с.
177. Мадатов, Г.А. Азербайджан в Великой Отечественной войне / Г.А.Мадатов. – Баку: Элм, – 1975. – 406 с.
178. Мамедов, К.В. Население Азербайджанской ССР за 60 лет / К.В. Мамедов. – Баку: Азернешр, – 1982. – 112 с.
179. Мамедов Рамин. Азербайджанцы сражались за родину / Р.Мамедов. – Баку: Ширваннешр, – 2005. – 160 с.
180. Материалы по 77 СД (начало: 30.10.1941 – окончено: 13.09.1945 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, дело № 339, листы – 3-109.

181. Мединский, В.Р. Война. Мифы СССР. 1939-1945. Второе издание / В.Р.Мединский. – Москва: ОЛМА Медиа групп, – 2014. – 704 с.
182. Мухин, М. Топливо Победы: Азербайджан в годы Великой Отечественной войны (1941-1945 гг.) / М.Мухин. – Москва: Художественная литература, – 2018. – 248 с.
183. Мурадалиева, Э. Кровь земная - нефть Азербайджана и история: [в 2 книгах] / – Баку: Мутарджим, – кн.1. – 2005. – 256 с.
184. Народное хозяйство Азербайджанской ССР к 60-летию образования СССР. (Юбилейный статистический ежегодник). – Баку: Азернешр, – 1982 – 352 с.
185. Народное хозяйство Азербайджанской ССР. (Статистический сборник). – Баку: Госстатиздат, – 1957. – 525 с.
186. На имя Багирова, за подписью Багирова (Сборник архивных документов) / Составитель Теюб Гурбан. Редактор А.Балаев / – Баку: ОЛ пркт, – 2016. – 392 с.
187. Новрузов, Т.А.Трудовые подвиги колхозного крестьянства Азербайджана в годы Великой Отечественной войны (1941-1945 гг.) / Т.А.Новрузов. – Баку: Изд-во АН Азерб ССР, – 1963. – 102 с.
188. Оришев, А.Б. Иранский узел. Схватка разведок. 1936-1945 гг. /А.Б. Оришев. – Москва: Вече, – 2009. – 395 с.
189. Органы государственной безопасности СССР в Великой Отечественной войне. Сборник документов: [в 5 томах]. - Накануне. (ноябрь 1938 г. декабрь 1940 г.) / – Москва: А/О Книга и бизнес, – т.1, kн.1. – 1995. – 470 с.
190. Очерки истории рабочего класса Азербайджанской ССР: [в 3 томах] /– Баку: Азернешр, – т.1. – 1974. – 303 с.
191. Переписка по вопросам оборонного строительства 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №26, ед.хр. №319, листы – 1-69.
192. Переписка с частями Дальневосточного фронта (1942-1943 гг.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №282, листы –1-97.
193. Письмо М.Дж.Багирова к А.Алиеву, М.Амирасланову, М.Ибрагимову, Агаронову от 10 ноября 1941 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №282, лист – 90.
194. Письмо М.Дж.Багирова на имя И.Сталина от 20 декабря 1941 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, дело №282, лист – 31.

195. Письмо М.Дж.Багирова на имя Г.Маленкова от 10 декабря 1945 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №169, дело №№249/ч.1, листы –11-12.
196. Письмо секретарь ЦК КП(б) Азербайджана М.Дж.Багирова на имя Л.П.Берия и Закфронта “О состоянии 223-й стрелковой дивизии” от 12 сентября 1942-года (№685) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №27, ед.хр. №91, листы – 1-14.
197. Письмо Самеда Вургуна на имя М.Д.Багирова о его участии в создании поэтического текста гимна Советского Союза. Окончательные проекты текста гимна Азербайджанской ССР, приставленные авторами – Самедом Вургуном, Сулейманом Рустамом, Нигяр Рафибейли, Мирвари Дильбази, Расулом Рзой, Мир Мехти Сеид-заде, Ахмедом Джамилем, на обсуждение комиссии: (начато: 03.021943 г. – окончено: 13.04.1944 г.) // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №28, ед.хр. №189, листы – 1-33.
198. Письмо К.Арквиани на имя И.Сталина от 24 ноября 1945 г. // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики Фонд №1, опись №169, дело №249/ I часть, лист – 11.
199. Полвека назад: Великая Отечественная война (Цифры и факты) / – Москва: Просвещения, – 1995. – 112 с.
200. Политбюро ЦК РК(б)-ВКП (Б) – повестки дня заседаний. [в 3 томах]. – Москва: РОССПЭН, т.3. – 1940-1952. – 2001. – 1200 с.
201. Постановление СНК СССР «Об усилении экономической и культурной помощи населению Южного Азербайджана» от 6 марта 1944 года // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №89, №84, листы – 1-3.
202. Провалинский, М. Кавалеры солдатского ордена / М.Провалинский. – Баку: Азернешр, – 1975. – 68 с.
203. Проект письма на имя Сталина М.Дж.Багирова и Постановление ГКО «О развитии Азербайджанской нефтяной промышленности в 1944-45 гг.» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №28, ед.хр. №198, листы – 1-59.
204. Проект письма на имя Сталина М.Дж.Багирова и постановление ГКО «Об увеличении добычи нефти в Азербайджанской нефтяной промышленности в 1944-45 гг.» // Архив Политических До-

кументов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись №29, ед.хр. №223, листы – 1-35.
205. Промышленность Азербайджана за 40 лет (1920-1960 гг.) / – Баку: Азнефтиздат, – 1960. – 135 с.
206. 77-я Симферопольская: Краткая история. (Сост. Багиров Н.Т., Джавадов И.А., Зейналов Р.Э. и др.). – Баку: Азернешр, – 1974. – 161 с.
207. Соколов, А.К. Советское нефтяное хозяйство. 1921-1945: / А.К. Соколов. – Москва: Издательский Центр Института Российской Истории РАН, – 2013. – 281 с.
208. Солонин, М.С. Запретная правда о Великой Отечественной. Нет блага на войне! («Грязное белье» в Кремле) // М.С.Солонин. – Москва: Яуза-пресс, – 2014. – 288 с.
209. Справка «О культмассовой работе и художественном обслуживании населения и советских войск в Южном Азербайджане, переписка о работе и кадрах газет «Ветен йолунда», «Друг Ирана», о высылке литературы, посылке художественных бригад и по другим вопросам» // Архив Политических Документов Управления Делами Президента Азербайджанской Республики, Фонд №1, опись № 30, ед.хр. № 224, листы –1-51.
210. Сталинские депортации. 1928-1953: / Под общ. ред. акад. А.Н.Яковлева / – Москва: Демократия, –2005. – 904 с.
211. Суровая драма народа: (Ученые и публицисты о природе сталинизма) / Составитель-Сенокосов Ю.П. – Москва: Политиздат, – 1989. – 512 с.
212. Суворов В. Ледокол /В. Суворов. – Москва: АСТ, – 2000. – 432 с.
213. Суворов, В. День / В. Суворов. – Москва: АСТ, – 2000. – 426 с.
214. Султанов, Ч. Выстояли бы СССР и Европа против фашизма в случае потери Бакинской нефти? / Ч.Султанов. – Баку: Нафта-Пресс, – 2005. – 370 с.
215. Топтыгин, А. Неизвестный Берия / А.Топтыгин. – Москва: Олма-пресс, – 2002. – 480 с.
216. Транспорт и связь СССР (Стат. сб.) / – Москва: Госстатиздат, – 1967. – 331 с.
217. Тюленов, И. Битва за Кавказ (В кн.: В боях за Кавказ) / И.Тюленов. – Баку, 1968. – с.9-23
218. Чапай, Султанов. Политические и экономические этюды по Южному Кавказу (Хроника с 1850 по 2010 гг.) / Ч.Султанов. –Баку: Чашыоглы, – 2010. – 660 с.
219. Чапай, Султанов. История не любит сослагательного наклонения, и все же… / Ч.Султанов. – Баку: Чашыоглы, – 2011. – 686 с.

220. Чапай, Султанов. Исторические расследования / Ч.Султанов. – Баку: Мутарджим, – 2016. – 632 с.
221. Численность и состав населения СССР: по данным Всесоюзной переписи населения 1979 года / – Москва: Финансы и статистика, – 1984. – 365 с.
222. Эдлинский, С.Ф. Каспийский транспортный флот в Великой Отечественной войне Советского Союза 1941-1945 гг. / С.Ф.Эдлинский. – Москва: Мортранспорт, – 1963. – 228 с.
223. Юбилейный статистический ежегодник (Народное хозяйство СССР: 1922-1982) / – Баку: Финансы и статистика, – 1982. – 623 с.
224. Шефов, Н.А. Вторая Мировая. 1939-1945. История великой мировой войны / Н.А.Шефов. – Москва: Вече, 2005. – 384 с.

MÜNDƏRİCAT

Redaktordan.....6

I FƏSİL. II Dünya müharibəsinin və Azərbaycan SSR-in müharibədə iştirakı mövzusu tarixi, hərbi, siyasi araşdırmalarda 10

II FƏSİL. XX əsrin 20-ci illərinin axırları – 30-cu illərdə dünyanın siyasi mənzərəsi

- Dünya Versal sülhündən sonra **.....85**
İctimai inkişaf yollarının axtarışı. Faşizmin ikinci dalğası və onun nəticələri 87

III FƏSİL. SSRİ-ni İkinci dünya müharibəsinə aparan yol.....95

- Uzaq Şərqdə müharibə ocağının yaranması 95
- Münhen sövdələşməsi. Çexoslovakiyanın işğalı.....102
- Dünya Münhendən sonra.....106

IV FƏSİL. İkinci dünya müharibəsinin başlanması

- İkinci dünya müharibəsinin başlanması 108
- Hitler Almaniyasının Polşaya hücumu.....115
- SSRİ-Finlandiya müharibəsi 125
- İqtisadiyyatın hərbi qaydada qurulması 128
- Müttəfiqlərin yardımı 130

V FƏSİL. Azərbaycan SSR 1939-1945-ci illərdə

Müharibə ərəfəsində Azərbaycan SSR-də ictimai-siyasi və sosial-iqtisadi həyat 136
- Müharibənin başlanması. Hərbi və mənəvi səfərbərlik.....153
- Qəhrəman qala-Brest uğrunda döyüşlər.....160
- Leninqrad şəhəri müdafiəsinin qəhrəmanları 176
- Moskva şəhərinin müdafiəsində.....179
- Sevastopol altında döyüş.....193
- Əsaslı dönüşə doğru 199
- Kursk qövsünün qəhrəmanları.....214
- Döyüşlər davam edir 220
- Qafqaz uğrunda döyüşlər.....222
- Novorossiyskinin müdafiəçiləri 237
- Krım uğrunda döyüşlər.....244
- 1944-cü ilin hücum əməliyyatları.....246
- Həlledici zərbə.....251
- Berlin əməliyyatında 252
- Partizan dəstələrində.....263

- Müqavimət hərəkatının iştirakçıları 270
- Uzaq Şərq qəhrəmanları 282

VI FƏSİL. Azərbaycanlılardan ibarət diviziyalar

- 77-ci motorlu atıcı diviziya 291
- 223-cü atıcı diviziya 298
- 271-ci atıcı diviziya 322
- 396-cı atıcı diviziya 324
- 402-ci atıcı diviziya 324
- 416-cı atıcı diviziya 336

VII FƏSİL. Azərbaycan SSR-in iqtisadiyyatı cəbhənin xidmətində

Bakı sovet ordusunun cəbhəxanası kimi. Bakı nefti müharibə illərində .. 352
Böyük dövlətlərin Bakı və Bakı nefti ətrafında toqquşan maraqları.
Bakı nefti Qərb dövlətlərinin planlarında 370

VIII FƏSİL. Arxa cəbhədə

- Sənaye və nəqliyyat.....391
- Kənd təsərrüfatı 400

IX FƏSİL. Elm, maarif, ədəbiyyat və incəsənət cəbhənin xidmətində

- Radio 419
- Təhsil 425
- Elm 432
- Səhiyyə 442
- Mədəni-maarif müəssisələri 445
- Azərbaycan ədəbiyyatında hərbi-vətənpərvərlik mövzusu 449
- İncəsənətdə müharibə mövzusu.....456
- Azərbaycan incəsənətində müharibə mövzusu.....461

X FƏSİL. Azərbaycanın Sovet İttifaqı Qəhrəmanları

Biobiblioqrafik məlumat 476

Azərbaycanlı Sovet İttifaqı Qəhrəmanları

Aslanov Həzi Əhəd oğlu.....479
Abdullayev Məmiş Şahbaz oğlu 489
Abdullayev Səməd Həmid oğlu.....490
Allahverdiyev Müseyib Abdulla oğlu 491
Bağırov Müseyib Bağır oğlu 493
Bayramov İsmayıl Xəlil oğlu.....494
Bünyadov Ziya Musa oğlu.....495
Cəbiyev Mirzə Ağamurad oğlu 498
Cəfərov Ağaşirin Ağaməmməd oğlu 498
Dadaşov Məhərrəm Əkbər oğlu.....500

Əhmədov Cəmil Məhəmməd oğlu.....500
Əkbərov Qəzənfər Qulam oğlu.....501
Ələkbərov Mikayıl Məmməd oğlu 502
Əliyev Məstan Astan oğlu 503
Əliyev Şəmsulla Xeyrulla oğlu.....504
Əsədov Gəray Lətif oğlu 505
Həkimov Mikayıl Kəbir oğlu.....506
Hüseynov Həbibulla Eynulla oğlu.....507
Hüsenzadə Mehdi Hənifə oğlu 508
Piriyev Əlif Turxan oğlu.....520
Rəfiyev Nəcəfqulu Rəcəbalı oğlu.....521
Sadıqov Yusif Mədət oğlu.....522
Səfərov Fariz Məcid oğlu 522
Süleymanov İdris Həsən oğlu.....524
Şükürov Şirin Ağabala oğlu 525
Verdiyev Əvəz Haşim oğlu 526
Vəliyev Mirzə Dövlət oğlu 527
Vəzirov Aslan Fərhad oğlu.....528
Kazımov Səlahəddin Həsən oğlu.....531
Quliyev Abbas Şahbaz oğlu.....533
Quliyev Adil Hüseyn oğlu.....536
Quliyev Mehdi Nadir oğlu.....538
Məhərrəmov Məlik Məlik oğlu 538
Məhərrəmov Məmməd Alı oğlu 541
Məmmədov Qafur Nəsir oğlu.....542
Məmmədov Əmi Ağa oğlu 543
Məmmədov Xəlil Məhəmməd oğlu.....545
Məmmədov İsrafil Məhərrəm oğlu.....548
Məmmədov Məmməd Cəbrayıl oğlu.....552
Mirzəyev Bəhyəddin Şahvələd oğlu.....553
Musayev Mərdan Məmməd oğlu.....554
Mustafayev Bəkir Dursun oğlu 555
Mustafayev Xıdır Həsən oğlu.....556

XI FƏSİL. "Şöhrət" ordeninin kavalerləri 559
-"Şöhrət" ordeninin tam üç dərəcəsini alan azərbaycanlı döyüşçülər 564

XII FƏSİL. Müharibə illərində Azərbaycan SSR ərazisində antisovet təzahürləri
- ÜİK(b)P üzv namizədləri və üzvləri və ÜİK(b)P və ÜİLKGİ sıralarından azad olunanlar arasında antisovet təzahürləri 573
- Azərbaycan Neft Sənayesi mühəndis-texniki işçilərinin antisovet düşüncələri 586

- Azərbaycan neft sənayesi fəhlələri arasında antisovet əhvali-ruhiyyəsinin yayılması.....593
- Bakının alman işğalçıları tərəfindən tutulması ətrafında mülahizələr və təxribatlar 600
- Sənayedə və kənd təsərrüfatında məsuliyyətsizlik, dövlət əmlakının oğurlanması və antisovet fikirlərin yayılması.....607
- Təhsil müəssisələrinin işində nöqsanlar və antisovet əhval-ruhiyyənin formalaşması 626

XIII FƏSİL. Milli hərbi hissələrin təşkili və əhalinin müdafiə sənayesinə cəlbi sahəsində nöqsanlar və antisovet mülahizələrin formalaşması

- Müharibə illərində orduya səfərbərlikdən yayınma və hərbi hissələrdən fərariliyin səbəbləri və antisovet əhval-ruhiyyəsinin formalaşması 636
- Əhalinin müdafiə hüdudlarının tikintisinə səfərbərliyi sahəsində düşmən fəaliyyəti 644

XIV FƏSİL. İkinci cəbhənin açılışı ətrafında antisovet mülahizələr..... 649

XV FƏSİL. Sovetlər İttifaqında yaşayan millətlərin və xalqların deportasiyası və antisovet əhval-ruhiyyəsinin güclənməsi.....654

XVI FƏSİL. Azərbaycan SSR-də antisovet təşkilatlar və qruplar-
Antisovet təxribatları 664
- Antisovet təşkilatlar və qruplar 670
- Anti-Azərbaycan mülahizələr.....680
- Azərbaycana qarşı erməni təxribatları və anti-Azərbaycan məzmunlu əsərlərin yayılması 683
- Məktublarda, ərizə və şikayətlərdə antisovet mülahizələr 693

XVII FƏSİL. SSRİ rəhbərliyinin anti-türk və anti-Azərbaycan planlarında erməni amili
- Yaxın keçmişin dərsləri.....704
- Ermənilərin Türkiyə Cümhuriyyətindən və Azərbaycan SSR-dən ərazi iddiaları.....713
- SSRİ-İran münasibətləri və ərazi məsələləri 721
- Sovet-İran mədəni əlaqələrində Azərbaycanın rolu 729
- Cənubi Azərbaycanda baş verən hadisələrə SSRİ rəhbərliyinin ikili münasibəti.....737

XVIII FƏSİL. Liderlərin siyasi portreti.....750

XIX FƏSİL. Müharibənin dərsləri 806

Nəticə.....816
Заключение 837
Əlavələr.....862
Sənədlər 878
Cədvəllər.....883
Arxiv sənədləri 887
Tövsiyə olunan ümumi ədəbiyyat.....949

AZƏRBAYCAN SSR İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ
(1939-1945-ci illər)

Formatı: 70*100 $^{1}/_{16}$. Tirajı: 100.
Buraxılışa məsul: **Aliyə Ələsgərova, Ramilə Şıxəliyeva**
Kompüter dizaynı: **Esmira Kərimova**
Bədii tərtibat: **Rəvanə Mirzalıyeva**

"İdeal-Print" MMC-də çap olunmuşdur.
AZ1130, Azərbaycan, Bakı, Binəqədi rayonu,
Sumqayıt şosesi, 2-ci km.